QISA İSLAM ENSİKLOPEDİYASI

İslama dair 1001 termin və xüsusi ad

I cild

11271

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2012

Sifarişçi: *Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu*

Nəşrə hazırlayan: *Dini Araşdırmalar Mərkəzi*

Layihənin rəhbəri: *Elçin Mirnizami oğlu Əsgərov*

Natiq Əbdülmanaf oğlu Rəhimovun ümumi redaktəsi altında müəlliflər heyəti:
Natiq Rəhimov *(N.R.)*,
Rafiz Manafov *(ilah.e.f.d.) (R.M.)*, Mehman İsmayılov *(ilah.e.f.d.) (M.İ.)*,
Əhməd Niyazov *(ilah.e.f.d.) (Ə.N.)*, Anar Qurbanov *(A.Q.)*,
Kamran Məmmədov *(K.M.)*, Laçın Quliyev *(L.Q.)*, Rüfət Şirinov *(R.Ş.)*

Redaksiya heyəti
layihə ilə bağlı təşəbbüsə verdiyi dəstəyə görə
İKGF Baş Katibi Elşad İsgəndərova
təşəkkürünü bildirir

Kitabın hazırlanmasında dəstək və məsləhətlərinə görə
«Antenn» TRŞ-nin prezidenti Rüstəm Əliyevə
və
Gəncliyə Yardım Fonduna
təşəkkür edirik

İnformasiya dəstəyi: www.islam.az

DQİDK-nin DK-438/R saylı məktubuna əsasən
kitabın nəşrinə icazə verilmişdir

Qısa İslam ensiklopediyası.
(İslama dair 1001 termin və xüsusi ad I cild).
Bakı, «Elm və təhsil», 2012, 320 səh.

ISBN 978-9952-8142-5-5

© «Elm və təhsil», 2011

"Biz fəxr edə bilərik ki, islam dini kimi yüksək mənəvi-əxlaqi dəyərlərə mənsub olan dinimiz var...
Ona görə də bu gün Azərbaycan müsəlmanlarının uzun müddət məhrumiyyətlərdən, çətinliklərdən sonra öz islam dinindən istədiyi kimi istifadə etmək imkanı əldə etməsi tarixi bir hadisədir"

Heydər Əliyev
Bakı, 23.07.1997

Əziz oxucular!

*Sizə təqdim olunan **«Qısa İslam Ensiklopediyası. İslama dair 1001 termin və xüsusi ad»** adlı bu kitab milli mənəvi köklərimizə qayıdış fonunda cəmiyyətdə islami dəyərlər haqqında məlumatlara artmış tələbatın ödənilməsi istiqamətində həyata keçirilən layihələrdən biridir və bu Ensiklopediyanın həmin istiqamətdə atılmış uğurlu addım olacağına inanırıq.*

Kitabın özəlliklərindən ən mühümü, azərbaycan dilində yazılmış ilk müasir İslam Ensiklopediyası olmasıdır. İndiyə kimi İslam terminlərini, islami anlayışları izah edən onlarla irili-xırdalı ensiklopediya yazılmışdır. Azərbaycan oxucuları türk, rus, ingilis və başqa dillərdə olan belə kitablarla, şübhəsiz ki, rastlaşıblar. Bunların bəziləri İslam haqqında ətraflı məlumatlarla zəngin mənbələr kimi tanınmış, bir qismi isə mütəxəssislər üçün deyil, geniş oxucu kütləsi üçün İslam barədə hərtərəfli məlumat mənbəyi kimi nəzərdə tutulmuşdur.

Sizə təqdim etdiyimiz bu kitab azərbaycandilli oxucular üçün İslam dini barədə yarana biləcək bütün suallara, termin və xüsusi adlara aydınlıq gətirə biləcək ensiklopedik məlumat mənbəyi kimi nəzərdə tutulmuş ilk nəşrdir.

«Qısa İslam Ensiklopediyası. İslama dair 1001 termin və xüsusi ad» kitabı islami elmlər üzrə ixtisaslaşmış mütəxəssis və ekspertlər qrupu tərəfindən hazırlanmış, bir ildən artıq sərf olunmuş əməyin nəticəsində ərsəyə gəlmişdir.

Oxuculara kitabın aşağıda qeyd olunan xüsusiyyətləri barədə məlumat vermək istərdik:

1. Kitab ilkin variantda iki cilddən ibarətdir. 1-ci cilddə sırf İslam terminləri, 2-ci cilddə isə xüsusi adlar, İslam dininin yaranması zamanlarında iştirak etmiş şəxsiyyətlər barədə məlumatlar toplanmışdır. Gələcəkdə kitabın digər cildlərinin də nəşri nəzərdə tutulur.

2. Şəxsiyyətlər barədə yazarkən bu barədə məlumatların həddən artıq çox olduğunu nəzərə alaraq, kitaba yalnız İslamın ilk illərində yaşamış məşhur səhabələrin adları salınmış, sonrakı dövrlərdə yaşamış alim, mütəfəkkir və din xadimlərinin adları daxil edilməmişdir. Bu məlumatların Ensiklopediyanın sonrakı cildlərində əks etdiriləcəyi planlaşdırılır.

3. İslamda müxtəlif məzhəb və hüquq məktəblərinin və bu səbəbdən hadisə və şəxslərə fərqli yanaşmaların olmasına baxmayaraq, bu Ensiklopediya hər hansı məzhəb mövqeyindən deyil, sırf ensiklopedik məlumat mənbəyi mövqeyindən hazırlanmışdır və hər bir cərəyanın ardıcıl özünə lazım olan məlumatı burada tapmaq imkanına malikdir.

4. Ensiklopediyanın ekspertlər qrupu tərəfindən hazırlanmasını nəzərə alaraq, kitabdakı hər bir termin və xüsusi adı işləmiş ekspertin adının baş hərfləri məlumatdan sonra, aşağıda göstərilmişdir. Bununla da hər bir məlumatın kim tərəfindən hazırlanması və əməyin dəyərləndirilməsi prinsipi qorunmuşdur. Baş hərflərin məhz hansı müəllifə mənsub olması kitabın əvvəlində müəlliflərin adı olan bölümdə mövcuddur.

5. Ensiklopediyada istifadə olunmuş ədəbiyyat siyahısı ikinci cildin sonunda verilmişdir.

6. Ensiklopediya başqa mənbələrdən götürüb tərcümə etmək prinsipi ilə deyil, məhz araşdırma və yenidən yazılma prinsipi ilə işlənmişdir.

7. Kitab daha çox ilkin və zəruri məlumatlar vermək məqsədilə hazırlandığından, qısa ensiklopedik məlumat formatında işlənmişdir.

Ensiklopediyanın həm geniş oxucu kütləsi, həm də mütəxəssislər üçün maraqlı və informativ olacağına ümid edir, nəşrin bundan sonra da davam edəcəyinə, bu iki cilddə əks olunmamış məlumatların növbəti cildlərdə oxuculara çatdırılacağına inanırıq.

Kitabın hazırlanmasında əməyi olmuş bütün təşkilat, qurum və şəxslərə, o cümlədən, kitabın hazırlanmasına ən çox əmək sərf etmiş redaksiya heyətinin rəhbəri Natiq Rəhimova bir daha öz dərin təşəkkürümü bildirir, hamının əməyinin Uca Allah tərəfindən ən yüksək dərəcədə qiymətləndirilməsini arzu edirəm.

Layihənin ideya müəllifi və rəhbəri,
İslam Konfransı Gənclər Forumu
Avrasiya Beynəlxalq Şurasının sədri

Elçin Əsgərov

A

ALLAH

Kainatı yoxdan yaradan, onu idarə edən, bütün varlıq aləminin ehtiyaclı olduğu qüvvə. Allah ən gözəl adların *(əsmaül-hüsna)* sahibidir, *sübutiyyə* və *səlbiyyə sifətlərinə* malikdir. Qurani-kərimdə Allahın barəsində buyurulur: «De: «O Allah birdir. Allah möhtac deyildir. O, nə doğmuş, nə də doğulmuşdur. Onun heç bir tayı-bərabəri də yoxdur» *(İxlas, 1-4)*. Allah haqında təsəvvürləri xülasə edərək bunu deyə bilərik ki, O, gözlə görünməyən, hisslə duyulmayan, ölçüsü, rəngi, iyi və dadı olmayan, məkan və zaman çərçivəsinə sığmayan, şəriksiz, bənzərsiz, hamıdan qüdrətli, elmli, mərhəmətli və ədalətli varlıqdır. «Allah» sözü Onun bütün başqa adlarını, sifətlərini əhatə edir və ümumiləşdirir.

Allah-təalanın varlığını və sifətlərini iki yolla tanımaq mümkündür:

– fitri duyğularla (instinktlə), yəni qəlb yolu ilə;

– araşdırma və əsaslandırma, yəni ağıl yolu ilə.

Birinci yolda insanın köməyi yalnız onun daxili aləmi və emosiyalarıdır. Bu zaman o, heç bir əqli araşdırma və məntiqi düşüncədən istifadə etmir. Fitri yolla Allahı tanımaq barədə *«fitrət»* məqaləsində məlumat verilir.

İkinci yolda isə insan ağlın gücünə arxalanır, inkaredilməz və tutarlı dəlillər, məntiqi və ardıcıl tədqiqatlar vasitəsilə Allahın varlığını özü üçün isbat edir. Bu, fitri yolla tanımaqdan daha effektlidir. Çünki fitri dərk yalnız insanın özü üçün təsirlidir. Allahı bu yolla başqa bir şəxsə tanıtdırmaq olmaz, çünki fitri duyğular dil və hərəkətlə ötürülə bilməz və bu təbliğatın heç bir faydası yoxdur.

Ağıl vasitəsilə insan özündən başqa çoxlu insanı da Allaha sarı istiqamətləndirə bilər. Çünki bu üsul aydın elmi, fəlsəfi və məntiqi dəlillərə əsaslanır; bunları asanlıqla kənar şəxslərə nümayiş etdirmək və başa salmaq mümkündür.

Allahı tanımanın ən asan və düzgün yolu Onun yaratdıqlarını öyrənməkdir. Çünki bir işin ustası haqqında təsəvvür əldə etmək üçün onun gördüyü işlərə baxmaq daha düzgün olar.

Allahın varlığının ən mühüm dəlillərini aşağıdakı şəkildə qruplaşdırmışlar:

Birinci dəlil. ***Hərəkət.***

Elm artıq çoxdan sübut edib ki, bütün kainat arasıkəsilməz hərəkət halındadır. Bu hərəkət özünü hər şeydə göstərir. Hərəkət müxtəlif cür ola bilər: kəmiyyət, keyfiyyət və məkan dəyişiklikləri hərəkətin növləridir. Ayrı-ayrı cisimlər bir-birinə nisbətən hərəkət etməkdən əlavə, cisimlərin təbiətində də hərəkət vardır. İlk baxışda sabit və dayanıqlı gördüyümüz cisimlər əslində Yer planeti ilə bərabər hərəkətdədərlər. Hətta tam sabit və hərəkətsiz bir cism tapsaq belə, nəzərə almalıyıq ki, onu təşkil etən atom və molekulların daxilində cazibə və dəfetmə qüvvələrinin təsiri altında zərrəciklərin daimi hərəkət prosesi gedir.

Əgər kainatı başdan-başa hərəkət bürüyübsə, bu hərəkətin yaradıcı qüvvəsi də olmalıdır. Həmin hərəkətverici qüvvə Allahdır.

Maraqlıdır ki, hərəkət məsələsinin müəyyən nöqtələrində dindarlarla materialistlərin baxışı üst-üstə düşür. Hər iki tərəf hərəkətin mövcudluğunu qəbul edir. Hətta hərəkət dialektik materializmin əsaslarından biri və materiyanın mövcudluq forması sayılır, materializm təlimində hərəkətsiz materiya və materiyasız hərəkət yoxdur.

Lakin hərəkətin yaranması, yaxud yaradılması məsələsində dindar filosoflarla materialist dialektiklərin yolu ayrılır. Dini nöqteyi-nəzərdən, hərəkət Allah tərəfindən yaradılır. Materialistlərin fikrincə isə, hər şeyin daxilindəki ziddiyyətlərin toqquşmasından hərəkət yaranır. Materialistlər hərəkətin kənar qüvvə tərəfindən ötürüldüyünü danır və onun səbəbini materiyanın öz daxilində görürlər. Halbuki bu fikrin səhv olduğu göz qabağındadır. Əgər hərəkəti yaradan ziddiyyətdirsə, burada iki halın olması mümkündür: ya ziddiyyətin özü hərəkətə malik olmalı, ya da hərəkətdən məhrum olmalıdır.

Birinci halda, əgər ziddiyyət özü də hərəkətlidirsə, demək hərəkətin əsl səbəbi zid-

diyyət deyil və hərəkətverici qüvvə materiyadan kənardadır. İkinci halda, əgər ziddiyyətin özü hərəkətsizdirsə, demək materiya deyil, çünki hərəkətsiz materiya yoxdur. Bu isə materialistlərin «materiyadan kənar həqiqət yoxdur» prinsipinin ziddinədir və onların öz nöqteyi-nəzərini təkzib edir.

İkinci dəlil. ***Hüdus (yaradılma).***

Dünyada hər şey yaranmadır, yəni bir vaxt mövcud olmamış, sonra yaranmışdır (*kəlam* elmində buna hadis, yəni yaranmış, düzəlmiş deyirlər). Günəş, Ay, Yer, hava, torpaq, dağlar, su, yeraltı filizlər, ağaclar, güllər, heyvanlar, insanlar və s. – bunların hamısının sonradan yaranma olduğu, yəni əzəli olmadığı elm tərəfindən sübut edilib. Hər qeyri-əzəli və sonradan yaradılmış əşya isə mütləq yaradana ehtiyaclıdır. Yəni elə bir qüvvə olmalıdır ki, O, hər şeyi yaradıb, amma Onu yaradan yoxdur, O, əzəlidir. O, hər şeyin yaradıcısıdır, hər şeyin əvvəli və köküdür. Bu qüvvə Allahdır.

Üçüncü dəlil. ***İmkan.***

Allahın mövcudluğuna üçüncü dəlil – səbəb-nəticə (imkan) dəlilidir. İlahiyyatçı filosoflar varlıq aləmini iki növə bölürlər: mövcud olan hər şey ya *vacib*, ya da mümkün olmalıdır. Vacib odur ki, heç nədən qaynaqlanmır, heç nəyə möhtac deyil və müstəqil halda mövcuddur. Mümkün isə odur ki, öz mövcudluğunu kənardan alır, başqasına möhtacdır.

Dini dünyagörüşündə yalnız Allah vacib, qalan hər şey mümkündür. Hər şey öz kökünü Allahdan alır, Allah isə heç nəyə ehtiyacı deyil. Dünyada bütün səbəb bağlılıqlarının kökü Allaha gedib çıxır və Allahda sona çatır.

Dördüncü dəlil. ***Nizam.***

Allahın mövcudluğunun ən qüvvətli və qəti dəlili varlıq aləmində müşahidə edilən danılmaz nizam-intizamdır. İnsan böyük planetlərdən tutmuş kiçik atom zərrələrinə, cansız cismlərdən tutmuş öz vücuduna qədər hər yerə və hər şeyə nəzər salsa, Allahın qüdrət, elm və ədalət nişanələrini görər.

Qurani-kərimin onlarla ayəsi kainatın əsrarəngiz gözəlliyini, təkraredilməz quruluşunu, «polad» nizam-intizamını diqqət mərkəzinə çəkərək, bunları ilahi qüdrətin aşkar dəlilləri kimi vurğulayır: «Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində əlamətlər vardır» *(Bəqərə, 164).*

N.R.

ABİD

Ərəb dilindən tərcüməsi «ibadət edən» deməkdir. İslamın ilk dövrlərindən etibarən bəzi müsəlmanlar ibadətə başqalarından daha artıq həvəs göstərirdilər. Peyğəmbər və səhabə dövründən sonra fəth edilən ərazilər genişləndikcə və xilafətin gəlirləri artdıqca müsəlmanlar arasında da təbəqələşmə başladı. Dövlət adamlarının, zəngin insanların əksəriyyəti dünya malına aludə olub ibadətdən soyudular. Amma bəzi möminlər zalım rejimə etiraz əlaməti olaraq zahidanə həyat tərzi sürür, ibadətə qapılırdılar. İstər hakim təbəqənin, istərsə də onları təqlid edən kütlənin davranışı ilə bu şəxslərin yaşayış tərzi arasında kəskin ziddiyyət var idi. Buna görə də həmin adamlar başqalarından seçilir, abid (yəni ibadət əhli) kimi tanınırdılar.

İslamda abidlik nə qədər bəyənilən xüsusiyyət olsa da, cəmiyyətdən kənara çəkilib özünə qapanmaq və yalnız ibadətlə məşğul olmaq məsləhət görülmür. Əsl müsəlman odur ki, həm ibadətlərini yerinə yetirsin, həm də cəmiyyətin həyatında iştirak etsin, başqaları ilə ünsiyyət qursun, öz bildiklərini ətrafındakılara öyrətsin, cəmiyyətin rifahı naminə çalışsın, mənfi hallarla mübarizə aparsın. Bu mənada tərki-dünya həyat sürən, öz elmini artırmayan, ibadətə qapanan insanlar hədislərdə tənqid atəşinə tutulur: «Alimin abiddən üstünlüyü Ayın ulduzlardan üstünlüyü kimidir, ya da mənim ən aşağı səviyyəli səhabəmdən üstünlüyüm kimidir» *(Həzrət Mühəmməd Peyğəmbər (s)).* «Öz elmi ilə fayda verən alim yetmiş min abiddən üstündür» *(İmam Baqir (ə)).*

Hədislərdə imanı və iradəsi zəif olan bir abidin faciəli aqibətindən danışılır. Keçmiş zamanlarda Bərsisa adlı bir abid yaşayırdı.

Bərsisa insanlardan ayrılıb tənha bir məkanda illər uzunu ibadət etmişdi. Elə bir məqama çatmışdı ki, camaat öz xəstələrini onun yanına gətirirdi. Xəstələr Bərsisanın yanında bir müddət qaldıqdan sonra onun duaları nəticəsində şəfa tapırdılar.

Bir dəfə ağlı çaşmış yaraşıqlı bir qızı Bərsisanın yanında qoyub gedirlər. Qız bir neçə gün abidin hücrəsində qalır. Bu müddət ərzində şeytan Bərsisanı yoldan çıxarıb qızın namusuna təcavüz etməyə sövq edir. Hadisədən bir neçə ay sonra Bərsisa qızın hamilə olduğunu görür. Amma işin üstü açılsa, rüsvay olacağını bildiyi üçün qızı öldürüb meyitini gizli bir yerdə basdırır.

Təyin olunmuş vaxt tamam olanda qardaşları qızı aparmağa gəlirlər, amma bacılarını tapmayanda abiddən şübhələnirlər. Şeytan onlara qızın dəfn edildiyi yeri göstərir. Artıq Bərsisanın cinayətkar olmasına heç kimin şübhəsi qalmır. Hakimin hökmü ilə onu dara çəkirlər.

Şeytan burada da abidi rahat buraxmır. Onun gözünə görünüb deyir: «Səni bu vəziyyətə salan mən idim. İndi də səni bu vəziyyətdən xilas etməyə yalnız mən qadirəm. Amma gərək mənə bircə dəfə səcdə edəsən».

Bərsisa deyir: «Əl-qolum bağlı olduğu halda sənə necə səcdə edim?». Şeytan onun işarə ilə səcdə etməsini tələb edir. Bərsisa gözləri ilə şeytana səcdə etdiyini göstərir. Həmin anda şeytan Bərsisanın yanından uzaqlaşıb onu ölümlə baş-başa buraxır. Beləliklə, ömrünü ibadətə həsr etmiş bir abid kafir halda dünyadan gedir.

N.R.

ADƏT

Xalqın həyatında qədimdən bəri qəbul edilmiş və kök salmış ənənə. Ürflə bəzi oxşar və fərqli cəhətləri var. *Ürf* – məcburi olmayıb, zamanın tələbindən doğan adət, qayda, hökm və dəbdir.

İslam hüquq metodologiyasında (fiqh üsulu) adətlər iki qrupa bölünür:

1. Qurana və sünnəyə zidd olmayan səhih adətlər. Səhih adətlər Quranda və sünnədə hər hansı mövzu barədə dəqiq hökm olmadığı zaman fətva verərkən istinad olunan dəlillərdən biridir. Odur ki, fiqhdə adət qüvvətli amil sayılır, adətlə sübutla yetirilmiş bir məsələ nəsslə (Quran və sünnə ilə) sübuta yetirilmiş kimidir.

2. Qurana və sünnəyə zidd olan, qətiyyən məqbul sayılmayan batil adətlər. Məsələn: spirtli içkilərdən istifadə edilməsi cəmiyyətdə adət halını alsa belə, səhih adət hesab oluna bilməz; çünki Quranın və sünnənin bu məsələdə qəti qadağanı vardır.

Səhih adətlər də öz növbəsində iki qisimdir:

1. İnsanların vərdiş etdikləri əməli adətlər;

2. İnsanların xüsusi hallarda istifadə etdikləri sözlər, kəlmələr (qövli adətlər). Məsələn, icarə müqaviləsində faydalanma reallaşmazdan qabaq pulun nəğd alınması əməli adətdir. «Ət» kəlməsinin istifadəsində balıq ətinin nəzərdə tutulmaması da qövli adətə bir nümunədir.

Bundan əlavə, əhatə baxımından adətlər ümumi və xüsusi olmaqla iki növə ayrılır. Hər hansı dövrdə bütün müsəlmanlar müəyyən hərəkəti və ya sözü özünəməxsus mənada işlətməyi vərdiş edərlərsə, bu, ümumi adət, müəyyən bir bölgə və ya ölkədəki insanlar vərdiş edərlərsə, xüsusi adət sayılır.

Müəyyən zaman keçdikdən sonra bir adət dəyişərsə, həmin adətə istinad edən hökmün də dəyişməsi qaçılmazdır.

A.Q.

AXİRƏT

Öldükdən sonra bütün insanların düşəcəyi və əbədi qalacağı ikinci aləm. Dünya həyatında edilmiş əməllərin, söz və davranışların nəticələrinin qiymətləndiriləcəyi zaman. Axirətə inanmaq İslamın iman şərtlərindən biridir. Cənnət və cəhənnəm axirət həyatının məkanıdır.

R.M.

AXUND

Ruhani xadimlərə verilən addır. XV əsrdən – Teymurilər dövründən bəri müsəlman ölkələrində bu addan istifadə edilir. İlk dəfə məşhur özbək şairi Əlişir Nəvai (1441-1501) öz müəllimi Mövlana Fəsihəddin Nizami haqqında bu ləqəbi işlədib. «Axund» sözünün mənşəyi barədə alimlər arasında fikir ayrılığı var. Bəziləri bu sözün pəhləvi (qə-

dim fars), bəziləri türk, bəziləri isə hətta yunan dilindən götürüldüyünü qeyd edirlər. Sözün birinci hecasındakı «a» hərfinin fars dilində «ağa» kəlməsinin yüngülləşdirilmiş və qısaldılmış forması olduğu ehtimal edilir. «Xund» hecası isə ya qədim pəhləvi dilində «ağa, başçı» mənasını verən «xuda» sözündən, ya da farsca «xundə» (oxumuş) kəlməsindən qaynaqlanır. Beləliklə, axund ya ağa, başçı, ya da oxumuş, savadlı adam deməkdir.

Hal-hazırda Azərbaycanda iri məscidlərin dini icmasına rəhbərlik edən və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin olunan ruhani xadimlərə axund deyilir. Axund məscidin dini fəaliyyətinə rəhbərlik edir, məsciddə yerinə yetirilən camaat namazlarına başçılıq edir, xütbə söyləyir, məscid icmasının dini suallarına cavab verir, dini məişət ayinlərini (kəbin, talaq, dəfn və s.) icra edir. Xalq anlamında axund molladan daha yüksək dini rütbə sayılır.

N.R.

AMƏNTÜ

Ərəb dilndən tərcüməsi «iman etdim» deməkdir. Zəruri olan iman əsaslarına və eyni zamanda bunları özündə cəm edən ifadə bütünlüyünə deyilir. Aməntüdə bildirilən iman əsasları Allaha, mələklərə, səmavi kitablara, peyğəmbərlərə, axirət gününə, qəza və qədərə (yəni xeyrin və şərin Allahdan olmasına) inanmaqdan ibarətdir. Qurani-kərimin bəzi ayələrində iman əsaslarının bir neçəsi sadalanır *(Bəqərə, 177; Nisa, 136).*

R.M.

AMİN

Qədim yəhudi dilində «El meleh neeman» (Allah doğruculdur, və ya doğru deyir) ifadəsindəki sözlərin baş hərflərindən təşkil edildiyi ehtimal olunur. Bibliya mətnində (istər *Əhdi-ətiqdə*, istərsə də *Əhdi-cədiddə*) bu söz bir neçə dəfə işlədilmişdir. Ərəb dilinə də bu söz yəhudi dilindən keçmişdir. Adətən, dua zamanı dua edənin özü və onu eşidənlər amin söyləyirlər. Mənası budur ki, qoy bu duada deyilən sözlər həyata keçsin.

Əhli-sünnə məzhəbinə görə, namazda Fatihə surəsinin oxunuşundan sonra amin söyləmək sünnətdir. Hətta mələklər də mömin-lərin namazını dinləyib bu namazın qəbul olması üçün amin deyirlər. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Hər kim namazda amin söyləsə və onun dediyi bu söz mələklərin dedikləri amin sözü ilə üst-üstə düşsə, o adamın bütün keçmiş günahları bağışlanar» *(Səhihü Müslim, Kitabüs-səlat, XVIII bab, 75-ci hədis).*

Hənəfi məzhəbində həm namaza başçılıq edən imamın, həm də ona iqtida edən şəxsin «amin» sözünü astadan *(ixfa)* deməsi tövsiyə edilib. Şafii və hənbəli məzhəblərində isə qiraəti ucadan oxunan rükətlərdə «amin» sözünün uca səslə, qiarəti astadan oxunan rükətlərdə isə astadan deyilməsi sünnətdir. Maliki məzhəbində Fatihənin qiraətindən sonra amin demək məndub (müstəhəb) sayılır; imam ucadan, ona iqtida edənlər isə astadan amin deməlidirlər.

Cəfəri məzhəbində isə namazın qiraətindən sonra amin söyləmək nəinki bəyənilmir, hətta bu əməl namazı batil edir.

N.R.

ARİF

Ərəb dilində «ərəfə» (tanımaq) kökündən olub, «tanıyan, bələd olan» mənasını verir. Allahın hikmətlərini dərk edən, həyatda baş verən bütün hadisələrə hikmət gözü ilə baxaraq həqiqi mənasını anlayan şəxsə arif deyilir. Arifin sahib olduğu biliyə *mərifət* və *irfan* deyirlər.

Dini mətnlərdə arifin dərəcəsi çox uca tutulur. Həzrət Mühəmməd Peyğəmbərdən (s) rəvayət olunan hədislərin brində arifin qəlbi belə qiymətləndirilir: «Hər şeyin mədəni var, təqvanın mədəni də ariflərin qəlbidir». İmam Əli ibn Əbu Talibə (ə) mənsub olan bu kəlamlar da arifin xüsusiyyətlərini bəyan edir: «Arif odur ki, özünü tanısın və buna mane olan hər şeydən uzaqlaşıb təmizlənsin» «Arif dünyadan köçəndən sonra onu nə qiyamətdə, nə behiştdə, nə də cəhənnəmdə taparlar». Soruşdular: «Bəs arif harada olar?». İmam cavab verdi: «Mülk və qüdrət sahibi olan Allahın hüzurunda, sidq məkanında».

İmam Cəfər Sadiqə (ə) mənsub edilən və mərifət nuru ilə dolu olan «Misbahüş-şəriə» (Şəriət çırağı) kitabında isə ariflər haqqında belə buyurulur: «Arif o şəxsdir ki, özü xalq

ilə, qəlbi isə Allah ilədir. Əgər bir göz qırpımı müddətində qəlbi Allahdan ayrılsa, Onun şövqündən ölər. Ariflər Allahın əmanətlərinin əmini, Onun sirlərinin xəzinəsi, nurunun mədəni, xalqa olan mərhəmətinin dəlili, elmlərinin gəmisi, fəzilət və ədalət mizanıdır. Onların xalqa, dünyaya və dünya arzularına ehtiyacı olmaz. Onların Allahdan savayı munisi yoxdur. Onların nitqi də, nəfəsi də Allahladır, Allahdır və Allahdandır. Arif qüdsiyyət bağlarında sakindir, onun üçün Allahın lütfü daim artar. Mərifət kökdür, budaqları isə imandır».

İslamın ilk əsrlərində «sufi» sözü əvəzinə, çox zaman həmin mənanı ifadə edən «arif» və «zahid» kəlmələri işlədilirdi. Hicri III əsrə qədərki dövrə aid olan mənbələrdə «arif» deyilərkən, məhz sonralar sufi adı altında qəbul edilən məna başa düşülürdü. Məsələn, məşhur sufi Bayezid Bistaminin aşağıda xatırlanan sözlərində «arif» kəlməsi işlənsə də, məna baxımından şəksiz məlumdur ki, burada sufi nəzərdə tutulub: «Arifin kamilliyi haqqın məhəbbəti ilə yanmasındadır». «Arifə vacib olan budur ki, ən azı mal və mülkdən uzaq qaçsın. Həqiqət də elə budur. Əgər hər iki dünyanı Allah sevgisi ilə müqayisə etsək, yenə az olar». «Arif mərufu (tanınanı, yəni Allahı) görər, alim isə aləmlə məşğul olar. Alim düşünər ki, nə edim. Arif xəbər verər ki, O (Allah) nə edir». Diqqət yetirilməli məqamlardan biri də budur ki, axırıncı kəlamda ariflə abidin müqayisəsi zamanı arifə daha çox üstünlük verilib.

N.R.

AYAT NAMAZI

Təbii fəlakət zamanı qılınan namaz. «Ayat» – «əyət» sözünün cəmidir, «əlamətlər, nişanələr, hadisələr» deməkdir. Əsasən, cəfəri fiqhində bu ad işlədilir. Əhli-sünnə məzhəblərində buna küsuf və xüsuf namazı deyirlər. *Küsuf* – Günəş tutulması, *xüsuf* isə Ay tutulması deməkdir.

Əhli-sünnə məzhəbləri baxımından, Günəş tutulması zamanı küsuf namazını qılmaq təkid edilən sünnətdir, amma vacib deyil. Ay tutulması zamanı qılınan xüsuf namazı da şafii və hənbəli məzhəblərində təkid edilən sünnət sayılır, hənəfi və maliki məzhəblərində isə buna daha az əhəmiyyət verilir və sadəcə məndub (müstəhəb) bilinir.

Hənəfi məzhəbində küsuf və xüsuf namazları adi gündəlik namaz kimi qılınır (2 və ya 4 rükət halında). Şafii, maliki və hənbəli məzhəblərində iki rükətdən ibarətdir və bu qayda ilə qılınır: Niyyətdən və iftitah təkbirindən sonra birinci rükətdə Fatihə və bir surə oxunur, rükuya gedilir, qalxıb yenə Fatihə və bir surə oxunur, yenə rükuya gedilir, iki səcdə edilir. İkinci rükət də eyni qayda ilə qılınır, axırda təşəhhüd və salam deyilir. Fatihədən sonra oxunan surələrin irihəcmli olması (Bəqərə, Ali-İmran surələri kimi) sünnət sayılır və ən uzun surədən başlayaraq hər dəfə əvvəlkindən bir qədər qısa surə seçilir.

Əhli-sünnə məzhəbində küsuf və xüsuf namazını həm camaatla, həm də tək qılmağa icazə verilir. Təkcə hənəfi məzhəbində Ay tutulması zamanı tək halda qılınır. Küsuf və xüsuf namazını zəlzələ vaxtı qılmaq hənbəli məzhəbində müstəhəb sayılır. Hənəfi və maliki məzhəblərinə görə, zəlzələdən əlavə, ildırım çaxması, vəba xəstəliyi kimi qorxulu hadisələr zamanı da qılmaq müstəhəbdir.

Cəfəri məzhəbində ayat namazını qılmaq hər bir müsəlmanın vacib borcudur, hətta vaxtında qılmasa, sonra qəza etməlidir. Günəş tutulması, Ay tutulması və zəlzələ zamanı ayat namazı mütləq qılınmalıdır (hətta bunlar insanı qorxuya salmayacaq dərəcədə zəif olsa belə). Bunlardan əlavə, şimşək çaxması, qara və qırmızı küləklərin əsməsi zamanı da (əgər insanların əksəriyyəti bundan qorxarsa) ayat namazını qılmaq lazımdır. Ayat namazı iki rükətdən ibarətdir. Niyyət və təkbirdən sonra birinci rükətdə Fatihə və bir surə oxunur, rüku edilir, sonra yenə Fatihə və bir surə oxunur, rüku edilir. Bu, beş dəfə təkrar edilir. Beşinci rükudan sonra iki səcdə yerinə yetirilir. İkinci rükət də eyni qayda ilə qılınır, axırda təşəhhüd və salam deyilir. Ayat namazında Fatihədən sonra oxunan surəni 5 bərabər hissəyə bölüb, Fatihədən sonra bunları ardıcıllıqla oxumaq da olar.

N.R.

AYƏ (AYƏT)

Ərəb dilində «əlamət, işarə, möcüzə, ibrət» mənalarını bildirir. Termin olaraq, Qur-

ani-kərimdəki surələrin təşkil olunduğu cümlələrdən hər birinə ayə deyilir. Bundan əlavə, «ayə» kəlməsi Allah-təalanın varlığını, təkliyini və qüdrətini göstərən əlamət və işarələri də ehtiva edir. Ən qısa ayə bir sözdən ibarət olan və «yamyaşıl iki cənnət bağçası» mənasını verən «müdhammətan» *(Rəhman, 64)* kəlməsidir. Ən uzun ayə isə bir səhifə həcmindədir *(Bəqərə, 282)*. Ayələrin surələrdəki düzülüşü vəhy ilə müəyyənləşdirilmişdir. Ayələrin bir hissəsi Məkkədə, bir hissəsi isə Mədinədə nazil olmuşdur. İlk nazil olan ayələr Ələq surəsinin ilk beş ayəsidir. Son nazil olan ayələr haqqında isə müxtəlif fikirlər vardır. Bəqərə surəsinin 275-281-ci, Nisa surəsinin 176-cı, Tövbə surəsinin 128-129-cu, Nas surəsinin 1-3-cü və Maidə surəsinin 3-cü ayələrinin ən sonda nazil olduğu haqqında nəzəriyyələr vardır.

M.İ.

AYƏTULLAH

Ərəb dilindən tərcüməsi «Allahın nişanəsi, Allahın əlaməti» deməkdir. Ümumiyyətlə, İslamda varlıq aləminin hər bir parçası Allahın qüdrətinin nişanəsi sayıldığı üçün ayətullah adlana bilər.

Dini termin kimi, çox savadlı din alimlərinə ayətullah deyilir. Çünki onlar öz bilikləri ilə Allahın dinini yayır və haqqı sübuta yetirirlər. İslam tarixində ayətullah ləqəbinə ilk dəfə məşhur cəfəri müctəhidi Əllamə Hillinin (vəf. miladi 1325-ci il) adı ilə bağlı rast gəlirik. Uzun əsrlər boyunca bu ləqəbi yalnız Əllamə Hilliyə aid edirdilər. Yalnız XIX əsrin sonlarında Qərb imperialistləri tərəfindən müsəlman ölkələrinin hərbi və iqtisadi istilasına qarşı mübarizə aparan mücahid din alimlərinə ayətullah deməyə başladılar (məşhur müctəhid Mirzayi-Şirazi, məşrutə hərəkatının dini liderləri və b.).

Sonralar bu ləqəb sair müctəhidlərə də şamil olundu. XX əsrin 50-60-cı illərində şiə dünyasının ən məşhur mərceyi-təqlidi Seyid Hüseyn Birucerdini sair müctəhidlərdən fərqləndirmək üçün ona *ayətullahülüzma* (böyük ayətullah) deməyə başladılar. O zamandan bəri müqəllidlərinin (təqlidçilərinin) sayının çoxluğu ilə seçilən, risalə müəllifi olan müctəhidləri (*mərceyi-təqlidləri*) ayətullahül-üzma adlandırırlar. Ayətullah ləqəbi isə bundan bir qədər aşağı dərəcədə olan, amma şəriət elmləri sahəsində kifayət qədər bilik və təcrübə toplamış müctəhidlərə şamil olunur. Bu ləqəblər cəfəri məzhəbli ruhanilərə verilir.

N.R.

AYƏTÜL-KÜRSİ

Qurani-kərimin Bəqərə surəsinin 255-ci ayəsinə verilən addır. Ayədə «Allahın kürsisi» ifadəsi işədildiyi üçün, ona bu ad verilmişdir. Əslində burada oturmaq üçün istifadə edilən kürsidən söhbət getmir; çünki Allah cism deyil və oturmaq üçün vasitəyə ehtiyacı yoxdur. Ayədəki «kürsi» ifadəsi Allahın qüdrət və hökmranlığının, elminin simvolu kimi işlədilib. Ümumiyyətlə, ayətülkürsi Allah-təalanın böyüklüyünü, əzəmətini nümayiş etdirən, Onun bəzi sifətlərini açıqlayan ən bariz ayələrdən biridir.

Bəzən Bəqərə surəsinin 256-cı və 257-ci ayələrini də bura əlavə edir və hər üç ayəni birlikdə ayətül-kürsi adlandırırlar.

İslam ənənəsində ayətül-kürsidən bir çox çətinliyi aradan qaldırmaq məqsədilə istifadə edilir. Bu, ən müxtəlif mənəvi, psixoloji, maddi problemləri həll etmək üçün universal vasitədir. Xəstəliklərdən şəfa tapmaq, insanların və cinlərin şərindən amanda qalmaq, kasıblıqdan qurtarmaq və ruzini artırmaq, çətin işi həll etmək, qorxunu aradan qaldırmaq, günahları bağışlatmaq və sairə məqsədlər üçün ayətül-kürsini oxuyurlar.

Həzrət Mühəmməd Peyğəmbər (s) ayətül-kürsini «Quranın ən əzəmətli ayəsi» adlandırmışdı. O, buyurub ki, ayətül-kürsi oxunan evə 30 gün ərzində İblis girə bilməz, o ev 40 gün sehrdən amanda qalar. Peyğəmbər Əli ibn Əbu Talibə (ə) buyurmuşdu: «Quranın ağası Bəqərə surəsidir, Bəqərə surəsinin ağası isə ayətül-kürsidir. Ya Əli! Bu ayədə 50 söz var, hər sözdə isə 50 bərəkət var» (Bəqərə surəsinin 255-ci ayəsində «və» bağlayıcısını çıxmaq şərti ilə 50 kəlmə mövcuddur).

Namazlardan sonra ayətül-kürsini oxumaq hədislərdə tövsiyə edilib. Rəvayətə görə, Peyğəmbər yatmazdan əvvəl ayətül-kürsi oxuyardı. Səfərə çıxmağa hazırlaşan adamın da ayətül-kürsi oxuması məsləhətdir. İmam Mühəmməd Baqir (ə) buyurub ki, ayətül-kürsini bir dəfə oxuyan adamın bu dünyadakı min dərdi və axirətdəki min çətinliyi aradan qalxar. Bu dünyadakı dərdlərin ən yüngülü – kasıblıq, axirətdəki çətinliklərin ən yüngülü isə qəbir əzabıdır. Əlbəttə, deyilən faydaları əldə etmək üçün ayəni səmimiyyət və ixlasla oxumaq, mənası barədə düşünmək və Allaha təvəkkül etmək əsas şərtdir.

N.R.

AZAN

Namaza dəvət. Fərz namazlarının vaxtının gəlib-çatdığını elan etmək məqsədilə Həzrət Mühəmməd Peyğəmbərin (s) göstərişinə uyğun olaraq, xüsusi bir şəkildə oxunan kəlmələrdən ibarətdir. Azan verən şəxsə *müəzzin* deyirlər.

Namaz Məkkə dövründə fərz buyrulmuş, amma azan oxunuşu hicrətdən sonra tətbiq olunmağa başlamışdır. Mədinədəki *Məscidün-nəbəvinin* inşası qurtardıqdan sonra müntəzəm olaraq camaatla namaz qılınmağa başlananda Peyğəmbər namaz vaxtlarının girdiyini hansı üsulla elan etmək məsələsini səhabələrlə müzakirə etməyə başladı. Elə bu əsnada azanın şəkli Həzrət Peyğəmbərə vəhy edildi, təqribən iyirmiyə yaxın səhabə də yuxuda azanın sözlərini eşitdiklərini bildirdilər. Azan ilk dəfə sübh namazından əvvəl hündür bir evin damından *Bilali-həbəşi* tərəfindən uca səslə oxunmuşdur.

Azan təkid edilən sünnətdir, İslamın şüarıdır. Belə ki, azan vasitəsilə xalqa həm namaz vaxtının girdiyi bildirilir, həm də Allahın ucalığı, Həzrət Peyğəmbərin Onun bəndəsi və elçisi olması, namazın insanları nicata doğru aparması elan edilir.

Aşağıdakı iki fərq istisna olmaqla, azanın sözləri əhli-sünnə və şiə məzhəblərində oxşardır. Birincisi, şiə məzhəbində «Əşhədü ənnə Əliyyən vəliyullah (və ya hüccətullah)» cümləsi Allaha yaxınlıq niyyətilə müstəhəb olaraq söylənilir. İkincisi, şiə azanında «həyyə ələl-fəlah» cümləsindən sonra «həyyə ələ xeyril-əməl» cümləsi deyilir.

A.Q.



BAB

Ərəb dilindən tərcüməsi «qapı» deməkdir. Dini mətnlərdəki eyni mövzulu məlumatlar *kitab* adlı əsas bölmələrdə cəmləşdirilir, kitablar isə *bab* adlı alt başlıqlara (fəsillərə) bölünür. «Bab» kəlməsinin cəmi «əbvab»dır.

M.İ.

BAİN TALAQ

bax: *talaq*.

BATİL

Ərəb dilində «haqsız, haqla əlaqəsi olmayan, əsassız» mənalarını ifadə edir. Qurani-kərimdə «batil» sözünə və eyni kökdən törəmiş kəlmələrə 30 dəfədən artıq rast gəlinir. Quranda «batil» sözü yalan *(Ənkəbut, 48)*, zülm və haqsızlıq *(Bəqərə, 188)*, şirk *(Nəhl, 72)*, büt *(Ənkəbut, 52)* və s. mənalarda işlədilir. Ayələrin birində batil haqqa qarşı qoyulur və haqqla mübarizədə batilin məğlubiyyətə məhkum olduğu bildirilir: «De: «Haqq gəldi və batil yox oldu. Çünki batil yoxluğa məhkumdur» *(«İsra», 81)*. Batili haqqa qarışdırmaq, haqqı batillə örtübgizlətmək böyük günahlardan sayılır: «Siz bilə-bilə haqqı batillə qarışdırmayın, haqqı gizlətməyin!» *(«Bəqərə», 42)*.

İslam düşüncəsində ilahi qanunlara, şəriət hökmlərinə və bəşəri dəyərlərə zidd olan hər şey batil sayılır. Qeyri-düzgün inanc məktəbləri, ixlassız yerinə yetirilən ibadət əməlləri, günah işlər, mənasız əyləncələr batil qisminə aiddir. Şəriətdə ibadətin batil olması bu deməkdir ki, həmin ibadət pozulmuşdur, lazım olan şərtlərə cavab vermədiyi üçün Allah tərəfindən qəbul edilməmişdir və onu yenidən icra etmək lazımdır. Alqı-satqı, icarə və sair müamilə razılaşmalarının batil olması deyilərkən, onların lazım olan şərtlərə cavab vermədiyi və buna görə də öz qüvvəsini itirmiş sayıldığı anlaşılır.

N.R.

BAYRAM NAMAZI

Ramazan (fitr) və Qurban bayramı günü Günəş doğduqdan təxminən 45 dəqiqə sonra qılınan iki rükətlıq namaz. Əhli-sünnə məzhəblərində fərzi-kifayə, vacib və ya müəkkəd sünnə kimi dəyərləndirilir, camaatla qılınır. Bayram namazında qadınların və müsafirlərin də iştirak etməsi məqsədəuyğun sayılır. Bayram namazının şərtləri cümə namazının şərtləri kimidir. Namazdan sonra xütbə oxumaq sünnət sayılır.

Şiə məzhəbinə görə, Peyğəmbərin və imamın zamanında bayram namazını camaatla qılmaq vacibdir. İmamın qeybət dövründə isə (yəni hal-hazırda) müstəhəbdir; həm camaatla, həm də təkbaşına qılına bilər.

R.M.

BEHİŞT

«Cənnət» sözünün fars dilindəki sinonimu. Pəhləvi (qədim fars) dilində «ən yaxşı yer» mənasını verən «vehişt» sözündən qaynaqlandığını yazırlar. Həm klassik Azərbaycan ədəbiyyatında, həm də müasir dilimizdə bu söz çox işlənir.

bax: *cənnət.*

N.R.

BEYƏT

Qəbul etmək, razı olmaq və təsdiq etmək mənalarını bildirir. Beyət mükəlləfin (dini hökmləri yerinə yetirməyə vəzifəli olan şəxsin) seçki bacarığına sahib olan camaat tərəfindən təsbit edilmiş xəlifəyə itaət edəcəyinə və sadiq qalacağına dair söz verməsidir. Bu, hər bir dini məsələdə öz şəxsi rəyini kənara qoyaraq beyət edilən şəxsə itaət etmək barədə içilmiş sədaqət andıdır. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Müsəlmanlar istər xoşlarına gələn, istərsə də xoşlarına gəlməyən hər iş barədə özlərindən olan əmr sahiblərinə gərək itaət etsinlər. Ancaq günah işləmələri əmr edilsə, itaət etmələri vacib deyil» *(Səhihül-Buxari, Kitabül-Ehkam, IV bab, 7144-cü hədis).*

Allah-təalanın endirdiyi hökmlərin layiqincə icra edilməsi və insanlar arasındakı əlaqələrin tənzimlənməsi üçün beyət zəruridir.

R.M.

BEYƏTÜR-RİZVAN

bax: *əshabüş-şəcərə.*

BEYTÜL-MAL

Ərəb dilindən hərfi tərcüməsi «mal-dövlət evi» deməkdir. Dini mənbələrdə bu söz İslam dövlətinin xəzinəsi mənasında işlədilir. Müsəlmanlar tərəfindən dövlətə ödənilən vergilər, *əhli-zimmənin* ödədiyi *cizyə*, fəth edilən ölkələrin verdiyi xərac, cihad zamanı ələ keçirilən əsirlərdən, ərazi və sərvətdən ibarət qənimət beytül-malın mədaxilini təşkil edir.

Dövlət beytül-mala toplanmış əmlakı və pulu ölkənin abadlaşdırılmasına, dövlət məmurlarının və ordunun məvacibinə, şəhid ailələrinə, kasıb müsəlmanların yaşayışının təmin edilməsinə sərf etməlidir. Həmçinin, hədislərə görə, ömürlük həbs cəzasına məhkum olunmuş şəxsin ailəsinin təminatı, qatili məlum olmayan ölünün qanbahası, borcunu ödəməyə imkanı olmayan adamın borcu da beytül-maldan verilməlidir.

İslamın ilk dövrlərində əksər müsəlmanlar yoxsulluq həddində yaşadıqlarına görə beytül-maldan pay alırdılar. Yəni beytül-mal bütün müsəlmanların arasında bərabər surətdə bölünürdü. Bu zaman nə əsil-nəsəb, nə yaş, nə də şan-şöhrət nəzərə alınırdı. Beytül-mal əmanət sayılır, çox ciddi surətdə qorunurdu. Ən xırda məbləğin hesabı belə, tam ciddiyyətlə aparılırdı. Raşidi xəlifələri beytül-mala münasibətdə xüsusi həssaslıq göstərirdilər. İkinci xəlifə Ömər ibn Xəttabın zamanında İran, İraq, Azərbaycan, Misir, Şam əraziləri fəth edildi, üçüncü xəlifə Osman ibn Affanın dövründə isə Afrika istiqamətində böyük fütuhatlar oldu. Buna müvafiq olaraq dövlətin gəlirləri də artdı, beytülmalın fəaliyyətini nizamlayan divan (dövlət qurumu) yaradıldı. Dördüncü xəlifə Əli ibn Əbu Talibin (ə) beytül-maldan öz qardaşı Əqilə artıq pay verməkdən imtina etməsi, beytül-mala aid boyunbağının öz qızı tərəfindən müvəqqəti olaraq əmanət kimi götürülməsinə etirazı haqqında rəvayətlər məşhurdur. O, beytül-malı müsəlmanlar arasında son dirhəminə kimi bölüşdürər, çox zaman özünə düşən payı da başqasına bağışlayardı.

Sonrakı dövrlərdə Əməvi və Abbasi xəlifələri beytül-maldan öz şəxsi mənafeləri naminə istifadə etməyə başladılar. Hətta hökumətlə müxalifətdə olan şəxslərin adı beytülmal dəftərindən silinirdi, yəni onlara beytülmaldan pay verilmirdi. Xilafət ayrı-ayrı dövlətlərə parçalandıqdan sonra beytül-mal da öz mənasını itirdi.

N.R.

BƏDA

Ərəb dilindən tərcüməsi «zahir olma, aşkara çıxma» deməkdir. Allah-təalanın qeyri-mütləq qəzavü-qədərinin müəyyən səbəblər üzündən dəyişməsinə deyilir. Qurani-kərimdə bu barədə buyurulur: «Hər dövrün bir kitabı var. Allah *(həmin kitabdan)* istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. Kitabın əsli Onun yanındadır» *(Rəd, 38-39).* Təfsir alimlərinin bir qismi bu ayənin izahında söyləmişlər ki, Allah-təalanın qəzavü-qədəri iki kitabda yazılır. Bunlardan biri *lövhi-məhfuz* (qorunan, dəyişməz lövhə) adlanır. Bu kitabda yazılanlar pozulmaz və dəyişməz. Yuxarıdakı ayədə «kitabın əsli» ifadəsi lövhi-məhfuza işarədir. Amma başqa bir kitab da var ki, buna lövhi-məhv və isbat (pozulma və qeyd olunma lövhəsi) deyirlər. Burada yazılanlar bəzi səbəblər üzündən Allahın məsləhəti əsasında dəyişilə bilər. Məsələn, Həzrət İbrahim Peyğəmbərə (ə) oğlu İsamaili (ə) qurban kəsmək təkidlə əmr olunduğu halda, son məqamda bu əmr dəyişdirildi və İsmailin (ə) əvəzinə qoç kəsmək tapşırıldı. Bu dəyişikliyə bəda deyilir. Bəda bir çox hallarda bəndələrin dualarına və əməllərinə əsasən baş verir. Məsələn, İslam müqəddəslərinin hədislərində dəfələrlə buyurulub ki, sədəqə vermək, ata-anaya yaxşılıq etmək, qohumlarla rabitə saxlamaq ömrü uzadar. Bunu Allahın iradəsinin pozulması kimi başa düşmək düzgün deyil. Allah-təala hər kəs üçün neytral bir ömür (əcəl) təyin edib. İnsanın öz əməllərindən asılı olaraq, onun əcəli yaxınlaşa və ya uzaqlaşa bilər.

Bunu asan bir misalla anlamaq olar. Həkim xəstəni müayinə edərək, onun bu vəziyyətdə neçə müddət yaşaya biləcəyini təyin edir. Sonra ondan ötrü dərmanlar yazır ki, bunları qəbul etməklə sağlamlığı qüvvətlənsin, ömrü uzansın. Əgər xəstə həmin dərmanları vaxtında qəbul etsə, normal şəkildə qidalansa, uzun ömür yaşayar. Yox, əgər müalicəni kəssə, zərərli yeməklərə və vərdişlərə uysa, şübhəsiz ki, sağlamlığı daha da pozulacaq, ömrü qısalacaq. İnsan da beləcə, öz ruhani aləmi üçün faydalı olan işlərlə məşğul olsa, Allahın mərhəmətini qazanar, bəlalardan uzaq olar. Yox, əgər haram işlərə aludə olsa, əcəl onu tez haqlayar.

Deyirlər ki, bir gün bir yəhudi Həzrət Mühəmməd Peyğəmbərə (s) bu cür salam verir: «Əs-samə əleyk». Ərəb dilində «sam» ölüm deməkdir. İslama qarşı kin bəsləyən yəhudilər bunu açıqda dilə gətirə bilmədikləri üçün öz düşmənçiliklərini bu cür gizli üsullarla həyata keçirir, sözlərin oxşarlığından istifadə edərək Peyğəmbərə ölüm arzulayırdılar. Peyğəmbərimiz də həmin yəhudiyə belə cavab verir: «Və əleykə» (yəni sənə də bunun eyni olsun). Sonra həzrət öz səhabələrinə buyurur; «Bu yəhudini ilan çalacaq». Yəhudi meşəyə gedib odun yığır, sağ-salamat halda evinə qayıdır. Peyğəmbərimiz yolda onu qarşılayır, diri olduğunu görüncə xeyli təəccüblənir, çiynindəki odun şələsini yerə qoymasını xahiş edir. Yəhudi odun şələsini yerə qoyanda görürlər ki, budaqların arasında bir zəhərli ilan gizlənib. Həzrət Mühəmməd Peyğəmbər (s) heyrət içində yəhudidən soruşur: «Bu gün hər hansı savab iş görmüsənmi?». Yəhudi cavab verir: «Meşəyə gedəndə özümlə iki çörək götürmüşdüm; birini yolda kasıba verdim, o birini özüm yedim». Peyğəmbər buyurur: «Səni ölümdən qoruyan həmin sədəqə olub. Sədəqə ölümü uzaqlaşdırar».

Bəda şiə məzhəbinə xas olan bir məfhumdur. Zaman-zaman bədanın mahiyyətini təhrif edərək bunu şiəliyə qarşı bir ittiham kimi irəli sürmüşlər. Lakin göründüyü kimi, bəda İslamın əqidə əsasları ilə qətiyyən ziddiyyət təşkil etmir. Bundan əlavə, bəzi əhli-sünnə mənbələrində də bəda barədə hədislərə rast gəlirik. Məsələn, Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub: «Duadan savayı heç bir əməl qəzavü-qədəri uzaqlaşdıra bilməz. Yaxşılıqdan savayı heç bir əməl ömrü uzada bilməz» *(Sünənüt-Tirmizi, Qədər babları, 2139-cu hədis; Sünənü İbn Macə, Qədər babı, 90-cı hədis; Hakim Nişaburi. Əl-Müstədrəkü ələs-Səhiheyn, 1865-ci hədis; Əhməd ibn Hənbəl. Müsnəd, 22745-ci hədis, Səvbanın hədislərindən və s.).*

N.R.

BƏLƏDÜL-ƏMİN

Güvənli, əmin-amanlığın hökm sürdüyü ölkə. Quranın Tin surəsinin 3-cü ayəsində bu ifadə altında Məkkə və ətrafındakı *hərəm* bölgəsi nəzərdə tutulur. Bəqərə surəsinin 126-cı və İbrahim surəsinin 35-ci ayələrində Məkkə və onun ətrafının əmin ölkə olduğu bildirilir. Bunun səbəbi yer üzünün ilk məbədi olan Kəbənin və ətrafındakı *Məscidülhəramın, Ərəfat* və *Mina* kimi müqəddəs məkanların burada olması, bu yerlərin bəla, müsibət və fitnələrdən qorunmasıdır. Məkkə eyni zamanda, aləmlərə rəhmət olaraq göndərilən son peyğəmbər Həzrət Mühəmmədin (s) doğulduğu və son ilahi kitab olan Quranın nazil edilməyə başladığı yerdir.

M.İ.

BƏRAT GECƏSİ

Müsəlmanların günahlardan xilas olub Allahın əvfinə nail olacaqları barədə Peyğəmbərə müjdə verilmiş gecə, şəban ayının 15-ci gecəsi. Həzrət Mühəmməd Peyğəmbər (s) bərat gecəsində oyaq qalıb ibadətlə məşğul olmağı tövsiyə etmişdir.

Şiə məzhəbində şəban ayının 15-i XII imam Həzrət Mehdinin (ə) doğum günü kimi qeyd edilir.

R.M.

BƏRZƏX

Ərəb dilindən tərcüməsi «iki şeyi birbirindən ayıran maneə» deməkdir. Coğrafiyada iki su hövzəsini ayıran quru parçasına bərzəx deyilir. Dini anlamda bərzəx ölümdən sonrakı həyatın bir mərhələsidir.

İslam əqidəsinə görə, insan öldükdən sonra əvvəlcə qəbirdə sorğu mələkləri tərəfindən sorğu-suala çəkilir. Daha sonra bədən çürüyüb torpağa qarışır, ruh isə dünyadakından fərqli bir qəlibə düşərək (buna *lətif cism* deyirlər) qiyamət intizarını çəkməyə başlayır. Ruhun cismani ölümdən sonra qiyamətə kimi mövcudluq mərhələsinə bərzəx həyatı deyilir. Çünki bu, dünya ilə axirəti ayıran bir aləmdir, ikisinin arasında maneədir. Əgər ölmüş şəxs saleh əməl sahibi və mömin idisə, bərzəx həyatında behişt nemətlərinə bənzər nemətlərlə mükafatlandırılır, cənnətin ətrini hiss edir və Allahın mərhəmətindən həzz alır. Əksinə, əgər cəzaya və cəhənnəm əzabına layiqdirsə, bərzəx həyatında da məyusluq və dəhşət içində qalır, öz acınacaqlı sonluğunun (yəni cəhənnəm əzabının) nə vaxt çatacağını gözləyir. Qurani-kərimdə bu barədə buyurulur: «Onların önündə dirilib *(haqq-hesab üçün Allahın hüzurunda)* duracaqları günə *(qiyamət gününə)* qədər bərzəx vardır» *(Möminun, 100).*

N.R.

BƏSİRƏT

Ərəb dilindən tərcüməsi «görmək»dir. Dini ədəbiyyatda «bəsirət» sözü qəlbin «görməsi», yəni hadisələrin və əşyaların mahiyyətinə nüfuz etmək, əsl mənasını anlamaq mənalarında işlədilir.

Bəsirətli insan hissləri, duyğuları, vicdanı oyaq olan, başqalarının görə bilmədiyi mənaları duyan şəxsdir. Quranda belə insanlara müraciətlə buyurulur: «Ey bəsirət sahibləri! İbrət alın!» *(Həşr, 2).* Qurani-kərimdə Həzrət Mühəmməd Peyğəmbərin (s) və silahdaşlarının insanları kor-koranə deyil, bəsirət əsasında İslama dəvət etdikləri bildirilir: «De: «Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar bəsirətlə insanları Allaha doğru çağırırıq...» *(Yusif, 108).*

Qafil, cahil adam haqqında deyirlər ki, *bəsirət gözü bağlıdır.* Qurani-kərim bələləri haqqında buyurur: «Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir» *(Bəqərə, 7).* Başqa bir ayədə deyilir: «Məgər onlar yer üzündə gəzib-dolaşmırlarmı ki, düşünən qəlbləri, eşidən qulaqları olsun?! Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər kor olar» *(Həcc, 46).*

Həzrət Mühəmməd Peyğəmbər (s) insan üçün bəsirət gözünün əhəmiyyətini belə açıqlayırdı: «Əsl kor o deyil ki, gözü görmür. Əsl kor odur ki, bəsirəti yoxdur». İmam Əli (ə) isə bəsirət gözü bağlı olanların vəziyyətini belə ifadə edirdi: «Gözdən məhrumluq bəsirət məhrumluğundan yüngüldür».

Qurani-kərimdə «bəsirət» sözü bəzən dəlil, sübut mənasını da ifadə edir. Bu dəlil məhz insanın doğru yolu tapması, hidayətə qovuşması üçün Allah tərəfindən ona göstərilir. Qəlbin «görmə» qabiliyyətindən asılı olaraq, insan həmin dəlili duya da bilər, duymaya da bilər: «Rəbbinizdən sizə parlaq dəlillər *(bəsirətlər)* gəlmişdir. Kim onları görsə, öz lehinə, kim görməsə, öz əleyhinədir» *(Ənam, 104).* «Əvvəlki nəsilləri məhv etdikdən sonra Musaya insanlar üçün açıq-aşkar dəlillər *(bəsirətlər)*, doğru yolu göstərən rəhbər və rəhmət olaraq kitab verdik ki, bəlkə öyüd-nəsihət qəbul etsinlər» *(Qəsəs, 43).*

Rəvayət edirlər ki, bir nəfər Həzrət Əlidən (ə) soruşdu: «Görmədiyin tanrıya necə ibadət edirsən?». İmam cavab verdi: «Mən görmədiyim Rəbbə ibadət etmərəm!». Əlbəttə, burada Allahı gözlə görməkdən söhbət getmir. Həzrət Əli (ə) məhz bəsirət gözü ilə öz Rəbbini «görür», yəni onun mövcudluğunu bütün varlığı ilə açıq-aydın duyurdu. İslam Peyğəmbərindən rəvayət edilən *«gözlərim yatır, amma qəlbim yatmır»* hədisi də bəsirət gözünə aiddir.

Həzrət Mühəmməd Peyğəmbərin (s) aşağıdakı hədisi də bəsirət gözü ilə gizli mənaları duymaq barəsindədir: «Elə bir bəndə yoxdur ki, sifətində dünya hadisələrini görən iki gözü və qəlbində axirət hadisələrini görən iki gözü olmasın. Allah öz bəndəsinə yaxşılıq etmək istəsə, onun qəlbindəki gözlərini açar və bəndə qeyb aləmindən vəd olunanları görər, qeyb aləminə iman gətirər».

N.R.

BƏSMƏLƏ

«Bismillahir-Rəhmanir-Rəhim» ayəsinin qısaldılmış formasıdır. Bu ayənin mənası və üstünlükləri barədə məlumatlar çoxdur. Hətta İmam Əli ibn Əbu Talib (ə) bəsmələ ayəsinin əvvəlindəki «be» hərfinin mənasını Abdullah ibn Abbas üçün gecədən sübh açılana kimi təfsir etmişdi *(Reyşəhri. Mövsuətül-İmam Əli ibn Əbi Talib, X, 55).* Həzrət Əli (ə) buyurmuşdur: «Əgər istəsəm, bismillahın əvvəlindəki «be» hərfinin mənalarını 70 dəvə yükü qədər incələyərəm» *(Qunduzi Hənəfi. Yənabiül-məvəddə, I, 205; III, 209).*

Qurani-kərimin bütün surələrinin əvvəlində (yalnız Tövbə surəsindən başqa) «Bismillahir-Rəhmanir-Rəhim» ayəsi vardır. Qurandan əvvəl göndərilmiş bütün səmavi kitablar da bu ayə ilə (yaxud buna uyğun məna daşıyan cümlə ilə) açılırmış.

Quran ayələrində bildirilir ki, keçmiş peyğəmbərlər də hər bir mühüm işə bismillahla başlayırdılar. Məsələn, Həzrət Nuh Peyğəmbər (ə) öz tərəfdarlarına tapşırmışdı ki, tufandan qabaq gəmiyə minərkən Allahın adını çəksinlər *(Hud, 41).* Həzrət Süleyman Peyğəmbər (ə) Səba məlikəsi Bilqeysə məktubunu «Bismillahir-Rəhmanir-Rəhim» cümləsi ilə başlamışdı *(Nəml, 30).*

Hər kim işini bismillahla başlasa, o iş bərəkətli və xeyirli olar *(İmam Həsən Əsgərinin Fatihə surəsinə təfsirindən).* Yemək yeyərkən, səfərə çıxarkən, evlənərkən və övlad sahibi olmağa hazırlaşarkən, məscidə və evə daxil olarkən bəsmələ demək tövsiyə edilib. Bu cümlə Allahla bəndə arasındakı əlaqənin açarıdır. Bəsmələ ayəsi Allahın diqqət və rəğbətini bəndənin oxuduğu duaya və etdiyi əmələ doğru yönəldir. Qurban kəsilən zaman «bismillah» demək isə ətin halal olması üçün vacib şərtdir (bax: *Ənam, 121*).

Həzrət Mühəmməd Peyğəmbər (s) belə buyurmuşdur: «Bəndə «Bismillahir-Rəhmanir-Rəhim» deyəndə Allah-təala buyurar: «Bəndəm öz işini mənim adımla başladı. Demək, mən də onun işini bərəkətlə başa çatdırmalı və mübarək etməliyəm». Başqa bir hədisdə oxuyuruq: «Hər kəs bir işə başlasa, qəm-qüssə və çətinliklə üzləşsə, xalis niyyətlə özünü Allaha təslim edib «Bismillahir-Rəhmanir-Rəhim» desin. Bununla o, iki faydadan birini qazanar: ya bu dünyadakı ehtiyacı ödənmiş olar, ya da axirətdə Allahın hüzurundakı nemətlərə sahib çıxar. Əlbəttə, axirətdə Allahın hüzurunda olan nemətlər mömin üçün daha yaxşı və qalıcıdır». Bismillahsız başlanan hər iş naqis və yarımçıqdır *(Həzrət Mühəmməd Peyğəmbər (s)).*

Bəsmələ o qədər fəzilətli ayədir ki, onu gözəl xətlə yazmağın da savabı var. Həzrət Əli (ə) buyurub: «Hər kim «Bismillahir-Rəhmanir-Rəhim» ayəsini gözəl xətlə yazsa, mütləq cənnətə gedər».

Surələrin əvvəlindəki «Bismillahir-Rəhmanir-Rəhim» ayələrinin Qurana aid olub-olmaması zəminində alimlər arasında fikir ayrılığı vardır. Bəziləri «bəsmələ» ayələrini Quranın tərkib hissəsi hesab etməmiş və yalnız surələri bir-birindən ayırmaq üçün vasitə saymışlar. Lakin əksəriyyət tərəfindən

qəbul edilmiş fikir budur ki, «Bismillahir-Rəhmanir-Rəhim» bütün sulərərin (Tövbə surəsini çıxmaqla) birinci ayəsi və tərkib hissəsidir.

Həzrət Mühəmməd Peyğəmbər (s) namazda Fatihə surəsini oxuyarkən həmişə «Bismillahir-Rəhmanir-Rəhim» ayəsini deyirdi *(Əllamə Süyuti. Əl-İtqan)*. Quran təfsirçilərinin müəllimi Abdullah ibn Abbas demişdir: «Quranın ən böyük ayəsini şeytan insanlardan oğurlayıb. Bu, «Bismillahir-Rəhmanir-Rəhim» ayəsidir».

Əhli-sünnə məzhəblərindən hənəfilikdə təkbaşına qılınan namazlarda Fatihədən əvvəl «Bismillahir-Rəhmanir-Rəhim» ayəsini oxumaq sünnətdir. Camaat namazında müqtədi bəsməələni deməz. Fatihədən sonra oxunan surəni isə bəsmələ ilə başlamaq məsləhət deyil. Malikilər namazda oxunan surələrin əvvəlində bəsmələ söyləməyi məkruh sayırlar. Şafii məzhəbində bəsmələ ayəsi sürənin tərkib hissəsi sayılır və söylənməsi fərzdir. Uca səslə qiraət edilən surələrin bəsmələsi də uca səslə deyilir. Hənbəli məzhəbində isə, bəsmələ ayələri Qurandan sayılmır və namaz zamanı surədən qabaq astadan deyilməsi sünnətdir.

Cəfəri məzhəbinə görə, namazda oxunan surələrin əvvəlində bəsmələ mütləq deyilməlidir. İmam Cəfər Sadiq (ə) buyurub ki, əgər bir şəxs namazda Fatihədən sonra oxunan surəni «Bismillahir-Rəhmanir-Rəhim»siz başlasa, gərək namazı təzədən qılsın *(Şeyx Küleyni. Üsulül-Kafi, Namaz kitabı, Quran qiraəti babı, 1-ci hədis)*.

Rəvayət edirlər ki, bir gün Müaviyə camaat namazına imamlıq edərkən Fatihə surəsini bəsmələsiz oxudu. Camaat narahat olub etiraz etdi: «Bismillahı oğurladın, yoxsa unutdun?».

Məşhur əhli-sünnə təfsirçisi İmam Fəxr Razi öz təfsirində «Bismillahir-Rəhmanir-Rəhim» ayəsinin Fatihəyə aid olduğunu sübuta yetirmək üçün 16 dəlil gətirib. Əllamə Süyuti isə «əl-İtqan» kitabında bəsmələnin Qurana aid olması barədə rəvayətləri sadalayaraq yazırdı: «Bismillahir-Rəhmanir-Rəhim» ayəsinin Qurana aidliyi və surələrin başlanğıcında nazil olması məna baxımından mütəvatirdir».

N.R.

BƏTUL

«Namusunu və iffətini qoruyan, Allahın əmrlərini diqqətlə yerinə yetirən, hər an Allahla birlikdə olduğunu bilən, özünü Allah yoluna həsr edən» deməkdir. Bu söz Qurani-kərimin Müzzəmmil surəsinin 8-ci ayəsində işlədilib. Öz əxlaq və iffətləri ilə nümunə olan Həzrət Məryəm və Həzrət Fatimə «bətul» ləqəbi ilə tanınırlar.

R.M.

BƏZMİ-ƏLƏST

Tərcüməsi «ələst məclisi» deməkdir. Qurani-kərimdə rast gəlinən bir ifadədən götürülmüşdür. İslam inancına görə, insanlar hələ cism halında yaradılmazdan çox-çox əvvəl ruh halında mövcud olmuşlar. Allahtəala onları öz hüzuruna toplamış, kimin Ona iman etdiyini soruşmuş və ruhlar bu suala müvafiq şəkildə cavablandırmışlar. Allahın: «Mən sizin Rəbbiniz deyiləmmi?» sualına mömin ruhlar: «Bəli», kafir ruhlar isə «Yox» - deyə, cavab vermişlər. Bununla da hələ ruhlar aləmində insanların aqibəti müəyyən olunmuş, möminlər kafirlərdən seçilmişlər.

Qurani-kərimdə həmin hadisə belə təsvir edilir: «Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının *(bellərindən)* gələcək nəsillərini çıxarıb, onların özlərinə şahid tutaraq: «Mən sizin Rəbbiniz deyiləmmi?» – soruşmuş, onlar da: «Bəli, Rəbbimizsən» – deyə, cavab vermişdilər. *(Belə bir şahidliyin səbəbi)* qiyamət günü «Biz qafil idik» və ya «Atalarımız daha əvvəl *(Allaha)* şərik qoşmuşdular, biz də onlardan sonra gələn bir nəsil idik *(onların izi ilə getdik)*. Məgər bizi batilə uyanların törətdikləri əməllərə görə məhv edəcəksən?» – deməməniz üçündür» *(Əraf. 172-173)*. İnsanların daxilində yerləşdirilmiş fitri allahpərəstlik və dindarlıq hissinin mənbəyi də həmin hadisədir.

Ayədəki «Mən sizin Rəbbiniz deyiləmmi?» ifadəsi ərəb dilində *«ələstü birəbbikümm»* şəklindədir. İnsanların cavabını bildirən «Dedilər: Bəli» ifadəsi isə ərəb dilində *«qalu bəla»* şəklində səslənir. Buna görə də bəzən bu hadisəni «bəzmi-ələst» və «qalu bəla» şəklində işlədirlər.

İrfan və təsəvvüf mövzusundakı kitablarda, klassik ədəbiyyat nümunələrində «bəzmi-ələst» və «qalu bəla» ifadələrinə tez-tez rast gəlirik; məsələn:

Əzəldən çünki mən meyxareyi-bəzmi-ələst oldum,
İçib vəhdət şərabindən, belə məxmurü məst oldum.
(S.Ə.Şirvani).

Ey vəhdətin meyindən ulaşan xümarinə,
Məsti-ələstə sor ki, nə meyxarə düşmüşəm.
(S.İ.Nəsimi).

Bu Xətai yar ilə qalu bəladən qıldı əhd,
Həq bilir kim, bər səri-an əhdü iqrarəm hənuz.
(Ş.İ.Xətai).

Qalu bəladə yar ilə qövlü çü qıldın, ey könül,
Qövlündə sadiqdir ki, mən inanmışam iqrarinə.
(S.İ.Nəsimi).

N.R.

BİDƏT

Ərəb dilindən tərcüməsi «yenilik» deməkdir. Əksəriyyət tərəfindən mənimsənilmiş əqidələrə, adət və qanunlara zidd olan hadisə. Dini ədəbiyyatda Həzrət Mühəmməd Peyğəmbərin (s) dövründə mövcud olmayıb sonradan ortaya çıxan əqidəvi və əməli keyfiyyətlərə deyilir. Bəzi alimlərə görə bidət iki qismdir: 1. Bidəti-həsənə, yəni dini məqsədlərə uyğun olan bidət. 2. Bidəti-seyyiə, yəni dini məqsədlərə zidd olan bidət.

A.Q.

BİSƏT (BESƏT)

Göndərmə, göndərilmə, dirilmə. Allah tərəfindən peyğəmbərlərin göndərilməsini, xüsusilə, Həzrət Mühəmmədin (s) peyğəmbərlik vəzifəsi ilə göndərilməsini bildirən dini termindir.

Qurani-kərimdə «bisət» və eyni kökdən olan «bəs» sözləri üç mənada işlədilmişdir:

1. Hər hansı insanı göndərmək: *«(İsrail övladının)* peyğəmbəri onlara dedi: «Allah Talutu sizə padşah göndərdi» *(Bəqərə, 247)*.

2. Peyğəmbər göndərmək: «Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə *(Allahın)* ayələrini oxuyan, onları *(pis əməllərdən)* təmizləyən, onlara kitabı *(Quranı)* və hikməti öyrədən bir peyğəmbər göndərdi» *(Ali-İmran, 164)*.

3. Öldükdən sonra (qiyamət günündə) dirilmək: «O saat *(qiyamət günü)* mütləq gələcəkdir, ona heç bir şək-şübhə yoxdur və Allah qəbirlərdə olanları dirildəcəkdir!» *(Həcc, 7)*.

R.M.

BÖYÜK GÜNAHLAR

İslam əxlaqı barədə yazılmış kitablarda çox vaxt günahların ağırlıq dərəcəsi arasında fərq qoyulur, bəzi günahlar kiçik, bəziləri isə böyük adlandırılır. Kiçik günahlara ərəb dilində səğirə, böyük günahlara isə *kəbirə* deyirlər. Bu sözləri bəzən cəm halda «səğair» və «kəbair» şəklində də işlədirlər. Qurani-kərimdə deyilir: «Əgər siz qadağan olunmuş böyük günahlardan çəkinərsinizsə, biz də sizin qəbahətlərinizin *(kiçik günahlarınızın)* üstünü örtər və sizi *(şərəfli bir mənzilə)* çatdırarıq» *(Nisa, 31)*. Başqa bir ayədə buyurulur: «Kiçik nöqsanlar istisna olmaqla, böyük günahlardan və rəzil işlərdən çəkinərlər» *(Nəcm, 32)*.

Hansı günahların böyük sayıldığı barədə məlumatlar ziddiyyətlidir. Qurani-kərimdə Allahı inkar etmək *(Vaqiə, 46)*, Allaha şərik qoşmaq *(Loğman, 13)*, yetim malı yemək *(Nisa, 2)*, yoxsulluq qorxusundan öz övladını öldürmək *(İsra, 31)*, içki və qumar *(Bəqərə, 219)*, haram aylarda müharibə etmək, fitnə yaratmaq, camaatı Kəbə ziyarətindən çəkindirmək *(Bəqərə, 217)* və sairə əməllər böyük günah kimi göstərilir. Hədislərdə 3-dən başlayaraq onlarla əməl növü böyük günah kimi tanıdılır. Alimlərin əksəriyyətinin fikrincə bu dünyada şəriət cəzasına, axirətdə ilahi əzaba layiq olan, Peyğəmbərin lənətləmiş olduğu əməllər böyük günah sayılır. Dəqiq məlum olan budur ki, ağırlıq dərəcəsinə görə ən böyük günah Allaha şərik qoşmaqdır. Bundan sonra haqsız yerə adam öldürmək, ata-ananın üzünə ağ olmaq, zina etmək, yalandan şahidlik etmək, sehrbazlıqla məşğul olmaq, yetim malı yemək, sələm vermək, cihaddan qaçmaq, iffətli qadına zina böhtanı atmaq, oğurluq etmək, şərab içmək, qumar oynamaq və s. əməllər böyük günah sayılır.

Əlbəttə, böyük ya kiçik olmasından asılı olmayaraq hər bir günah səmimi tövbə vasitəsilə bağışlanır. Müsəlman alimlərin əksəriyyəti böyük günah edən şəxsi İslamdan çıxmış saymırlar. Belə insan *fasiqdir* (günahkardır), Allah onu həmişəlik cəhənnəmə atmayacaq. Belə adam ya yaxşı əməllərinin

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

müqabilində birbaşa bağışlanıb cənnətə salınacaq, ya da ən pis halda müvəqqəti olaraq öz günahını yumaq üçün əzab çəkəndən sonra cənnətə düşəcək. Yalnız *xəvaric* əqidəsində olanlar həm kiçik, həm də böyük günah edəni kafir bilirdilər. *Mötəzililərin* fikrincə, böyük günaha bulaşmış şəxs nə mömin, nə də kafirdir; bu iki dəstənin arasında qərar tutub və onun yeri nə cənnət, nə də cəhənnəmdir.

Bəzi müsəlman alimlər günahların kiçik və böyük dərəcələrə ayrılmasını düzgün saymırlar. Onların fikrincə, ən xırda günah belə, ardıcıl təkrar ediləndə böyük günah şəklinə düşür. Buna sübut kimi Həzrət Mühəmməd Peyğəmbərin (s) aşatıdakı hədisini misal gətirirlər: «İstiğfar etməklə böyük günah qalmaz, israr (təkrar) etməklə də kiçik günah qalmaz». Yəni günah nə qədər böyük olsa da, tövbə-istiğfar vasitəsilə silinər. Əksinə, günah nə qədər kiçik olsa da, əgər dönə-dönə edilərsə, böyüyər və ağırlaşar.

Deyirlər ki, bir gün Həzrət Mühəmməd Peyğəmbər (s) səhabələri ilə səfərə çıxmışdı. Onların yolu səhradan keçirdi. Köç salıb düşən zaman Peyğəmbər tapşırıq verdi ki, səhraya səpələnib odun toplasınlar. Səhabələr xeyli gəzib-dolandılar. Səhrada odun tapmaq çətin idi. Bir neçə saatdan sonra hərə əlində azacıq çır-çırpı ilə düşərgəyə qayıtdı. Odunları üst-üstə atdılar. Böyük bir qalaq yarandı. Bu zaman Peyğəmbər üzünü səhabələrə tutub buyurdu: «Kiçik günahlar da belədir, çətinliklə gözə çarpır. İnsan ömrü boyu müəyyən fasilələrlə günah işlədəndə onları kiçik və əhəmiyyətsiz sayır. Amma ömrünün sonunda Allah qarşısında cavab verəndə bu günahlar üst-üstə toplanıb hesablanacaq və məlum olacaq ki, əslində onların sayı çox imiş».

Övliyalardan biri bunu nəzərdə tutaraq demişdir: «Heç vaxt düşünmə ki, kiçik bir günah etmisən. Fikirləş ki, kimin qarşısında günah etmisən!». Bu kəlamda Allahın böyüklük və əzəməti ön plana çəkilir. Həqiqətən, insan müqəddəs və uca Allahın hüzurunda günah etdiyini bütün dərinliyi ilə anlasa, ən kiçik nöqsan belə, gözündə böyük görünər.

N.R.

C

CADU

bax: *sehr və cadu.*

CAHİLİYYƏ

Ərəb diilndən tərcümədə cahillik, nadanlıq mənasını bildirir. Dini ədəbiyyatda Həzrət Mühəmmədin (s) peyğəmbərliyi ərəfəsindəki dünyanın mənzərəsi, xüsusilə, Ərəbistan yarımadasındakı dini-əxlaqi, elmi-mədəni vəziyyət «cahiliyyə dövrü» adlandırılır. Qurani-kərimdə də bu kəlməyə rast gəlirik: «Onlar cahiliyyə dövrünün hökmünümü istəyirlər?» *(Maidə, 50).*

Həzrət Mühəmməd Peyğəmbərin (s) gəlişindən əvvəl dünya küfr və zülm pərdəsinə bürünmüşdü. Peyğəmbərlərin gətirdiyi haqq dinlər ya tamamilə unudulmuş, ya da təhrif edilmişdi.

Miladi VI-VII əsrlərin qovşağında Asiyanın cənub-şərqində – Çin və Yaponiyada buddizm, konfusiçilik, daosizm dinləri geniş yayılmışdı. Bu dinlərin heç biri təkallahlılığa əsaslanmırdı. Hindistanda isə həm hinduizm, həm də buddizm və caynizm hökm sürürdü. Xarakter etibarilə bu dinlər bütpərəstliyə daha yaxın idi.

O dövrün nəhəng güc mərkəzləri sayılan İranda atəşpərəstlik, Bizansda isə xristianlıq hakim idi. Bu dinlərin hər ikisi ciddi təhrifə uğramış və vahid Allaha inam müstəvisindən xeyli uzaqlaşmışdı.

Ərəbistan torpağı erkən orta əsrlərdə dünyanın sivilizasiya xəritəsindən tam təcrid olunmuşdu. Ucsuz-bucaqsız səhranın qoynuna səpələnmiş qəbilələrin elm və mədəniyyətdən xəbəri yox idi.

Ərəblər ilahi peyğəmbərlərin dinini tamamilə unutmuş, azğınlıq içində itib-batmışdılar. Yəməndən Suriya səhralarınadək uzanan nəhəng ərazidə yaşayan bəzi qəbilələr yəhudilik, xristianlıq, *sabiilik* kimi dinlərə inanırdı. Lakin əksər qəbilələr bütpərəst idi.

Hər qəbilənin, hər şəhərin, hətta hər ailənin xüsusi bütləri vardı. Kişi və qadın şəklində, habelə, heyvan, quş və bitki formasında hazırlanan bütlərə pərəstiş olunurdu. Məsələn, ərəblər Ərəbistanın cənubunda yerləşən Lat, Üzza və Mənat bütlərini üç ilahə bacı hesab edirdilər. Məkkənin damında qoyulmuş Hübəl bütü kişi surətində yonulmuşdu. Yəməndəki Nəsr adlı büt isə qartal şəklində idi.

Bütlər ən müxtəlif materiallardan – daş, taxta, qızıl, mərmər, əqiq və sairədən yonulurdu. Kasıb adamlar qiymətli daşlardan büt yona bilmədiklərindən, xəmir yoğurub müəyyən fiqur şəklinə salır, sonra onu qurudur və qarşısında ibadət edirdilər. Bəzən isə adi xurmadan büt düzəldirdilər. Ailəyə acliq üz verəndə həmin bütü yeyib ölümdən xilas olurdular. Ərəblər Allahın haqq yolundan elə azmışdılar ki, müqəddəs Kəbəni bütxanaya döndərmişdilər.

Qəbilələr bir-biri ilə düşmən münasibətdə idi. Qonşu qəbilənin torpağını işğal etmək, var-dövlətini talamaq, qadınlarını ələ keçirmək üstündə qanlı müharibələr aparılırdı. Əgər qəbilənin bir üzvü kənar şəxs tərəfindən təhqir edilsəydi, bütün qəbilə onu müdafiə etmək üçün ayağa qalxırdı. Bəzən bircə nəfərin öldürülməsi yüzlərlə adamın qanının axıdılmasına səbəb olurdu.

İslamdan əvvəlki ərəblər qadına insan səviyyəsindən aşağı məxluq kimi baxırdılar. Onların gözündə qız atanın, arvad ərin şəxsi mülkiyyəti, var-dövlətinin bir hissəsi idi; onu öldürə, başqasına bağışlaya və sata bilərdi. Ailədə qız doğulurdusa, çox zaman onu diri-diri torpağa basdırırdılar. Çünki qız onların soyğunçuluq hücumlarında iştirak edə bilmirdi, buna görə də, artıq adam sayılırdı. Hər kəsin qızı doğulurdusa, ya onu öldürür, ya da gözümçıxdıya salıb qulluqçu kimi böyüdürdü.

İri şəhərlərdə xüsusi əxlaqsızlıq mərkəzləri fəaliyyət göstərirdi. Qadının bir neçə kişi ilə yaşaması adi hal sayılırdı; doğulan uşağın atasını püşkatma vasitəsilə təyin edirdilər.

Bütpərəst ərəblər yazıb-oxumağı bacarmırdılar. Onların arasında yalnız şifahi ədəbiyyat geniş yayılmışdı. Məkkə kimi iri şəhərdə cəmi 17 nəfər, *Yəsribdə* isə 11 nəfər yazıb-oxuya bilirdi.

Ərəblər ən mühüm işləri fal və püşkatma yolu ilə həll etməyi üstün tuturdular. Səhrada yolunu azan bütpərəst ərəb öz libasını soyunub astarını üzünə çevirir və yenidən geyinirdi. Guya bu hərəkət onun yolu tapmasına kömək etməli idi.

Allah öz sonuncu peyğəmbərini ərəblər içindən deyil, daha inkişaf etmiş ölkələrin əhalisi arasından da seçə bilərdi. Lakin Həzrət Mühəmməd (s) məhz cahil və nadan ərəblərin əhatəsində Günəş kimi parladı, zülmətə qərq olmuş Ərəbistan torpağını tərəqqiyə çatdırdı. İnkişafdan geri qalmış ölkənin qısa müddət ərzində İslam nuru vasitəsilə ən qabaqcıl mədəniyyət mərkəzlərindən birinə çevrilməsi də Allahın möcüzəsi idi.

N.R.

CAİZ

Lüğəvi mənası «mümkün olan, icazə verilən»dir. Fiqh terminologiyasında hər hansı söz və ya hərəkətin dini yaxud hüquqi əsaslara uyğunluğunu, icrasının sərbəst və icazəli olduğunu ifadə edir.

«Caiz» kəlməsi Qurani-kərimdə yoxdur, lakin hədislərdə ara-sıra terminoloji mənada işlədilib. Bu ifadə sonrakı dövrlədə İslam alimləri tərəfindən daha geniş miqyasda istifadə edilərək, termin formasına düşmüşdür.

İslam hüquq metodologiyasında «caiz» termini «mübah» məfhumuna oxşar mənanı ifadə edir. Belə ki, bunların hər ikisi felin (hərəkətin) icrasına icazə və sərbəstlik verildiyini göstərir. Ancaq «caiz» məfhumu «mübah»dan daha əhatəli termindi; «haram» və «təhrimən məkruh» (harama yaxın məkruh) istisna olmaqla, digər hökmləri əhatə edir. Yəni «caiz» məfhumu *«fərz», «vacib», «məndüb», «mübah»* və «tənzihən məkruh» (halala yaxın məkruh) hökmlərini özündə birləşdirir.

Fiqh ədəbiyyatında «caiz» terminindən icrası günah olmayan əməlləri ifadə etmək üçün, başqa sözlə desək, əməlin dinə uyğunluğunu bildirmək üçün istifadə olunur. Bu mənada «caiz» ilə *«halal»*, habelə, «məşru» terminləri bir-birinə oxşardır.

Ə.N.

CAMAAT NAMAZI

Toplum halında qılınan namaz. Cümə və bayram namazlarının camaatla qılınması şərtdir (bayram namazının tək halda qılınmasına cəfəri və şafii məzhəblərində icazə verilir). Gündəlik namazlar həm tək, həm də camaat halında qılına bilər, amma camaatla qılınması daha üstündür. Həzrət Mühəmməd Peyğəmbər (s) gündəlik namazları camaatla birlikdə qılmağın üstünlüyü barədə buyurub: «Camaatla qılınan bir namaz təkbaşına qılınan namazdan 27 dəfə üstündür».

Camaat namazına duranların arasında ən savadlı və mömin insan *imam* seçilir. O, cərgə-cərgə düzülmüş insanların önünə keçərək namaza başlayır. İmamın arxasında namaz qılanlar ona iqtida etdiklərini, yəni onun başçılığı altında namaz qıldıqlarını niyyət edirlər. Bunlara *müqtədi*, yəni iqtida edən deyilir. İqtida edənlər hər bir namaz əməlini imamın dərhal ardınca yerinə yetirirlər, imamdan əvvəl hər hansı əməli başlamaq və ya qurtarmaq olmaz. Camaat namazı həm evlərdə (ailə başçısının imamlığı ilə), həm də məscidlərdə qılına bilər. Böyük şəhərlərdə bu məqsədlə *«cami»* adlanan iri məscid kompleksləri tikilir.

Camaat namazının həyata keçməsi üçün imamdan başqa, daha bir nəfərin olması kifayətdir, yəni cəmi iki nəfərlə camaat namazı qılına bilər.

Gündəlik namazları camaatla qılmağın hökmü barədə məzhəblərin görüşləri fərqlidir. Hənbəlilər gündəlik namazları camaatla qılmağı fərzi-eyni (hər kəsin boynunda olan fərz) sayırlar. Maliki məzhəbində üstün görüşə görə, namazları camaatla qılmaq təkid edilən sünnətdir; həmin məzhəbin bəzi alimləri isə bunu fərzi-kifayi bilirlər (yəni əgər bir şəhərdə bir dəstə adam camaat namazı qılsa, qalanlarının öhdəsindən bu vəzifə götürülmüş olar). Şafii məzhəbində də bəziləri bunu fərzi-kifayi, bəziləri isə təkid olunan sünnət hesab edirlər. Hənəfi məzhəbi baxımından bu, təkid olunan sünnətdir; təkid olunan sünnətin hökmü isə vacibə yaxındır.

Cəfəri məzhəbində gündəlik namazları camaatla qılmaq müstəhəb sayılır. Xüsusilə, sübh, məğrib və işa namazlarını məsciddə camaatla qılmağın savabı böyükdür. Cəfəri məzhəbli müctəhidlərin risalələrində qeyd olunmuş bir hədisə əsasən, əgər imama bir nəfər iqtida etsə, qılınmış hər rükətə görə onların hər birinə 150 namazın savabı verilər. İqtida edənlərin sayı iki nəfər olsa, hər rükətin savabı 600-ə çatar. Beləcə, imamın arxasında duranların sayı artdıqca savabları da çoxalar. Əgər iqtida edənlərin sayı 10-u ötüb-keçsə, səmalar kağıza, dəryalar mürəkkəbə, ağaclar qələmə dönsə, insanlar, cinlər və mələklər bir rükət namazın savabını yazıb qurtara bilməzlər.

N.R.

CAME (CAMİ)

Toplayan, bir yerə yığan, cəm edən, əhatə edən. İçərisində cümə namazı qılınan böyük məscid, məbəd. Müsəlmanların ibadət məqsədilə toplandıqları, dini maariflə bağlı bütün məsələlərin müzakirə edildiyi və fikir mübadiləsi aparıldığı yerə də «came» deyilir. Həzrət Mühəmməd Peyğəmbərin (s) müxtəlif məsələlərə aid hədislərinin yazıldığı məcmuələri də «came» adlandırırlar.

Ə.N.

CANAMAZ

Fars dilindən tərcüməsi «namaz yeri, namazgah» deməkdir. Üzərində namaz qılınan kiçik xalçaya deyilir. Ümumiyyətlə, namazı canamazın üzərində qılmaq vacib deyil. Əhli-sünnə məzhəbinə əsasən, istənilən təmiz yerdə namaz qılmaq olar. Cəfəri məzhəbində də namazı istənilən yerdə qılmaq mümkündür; təkcə səcdə zamanı alın torpağın, yaxud yerdən çıxan, yeyilməyən və geyilməyən maddələrin üzərinə qoyulmalıdır. Amma müsəlmanlar namaza xüsusi məsuliyyətlə yanaşdıqları üçün pak, səliqəli və yaraşıqlı canamazın üzərində ibadət etməyə üstünlük verirlər. Həm də canamaz bəzi şəraitlərdə (məsələn, səfərdə) çox lazım olur.

Müsəlman nəqqaşlar və xalça ustaları əsrlər boyunca bütün bacarıqlarını sərf edərək, son dərəcə yaraşıqlı canamaz nümunələri hazırlamışlar. Canamazların üzərində insan və heyvan təsviri olmur, nəbati naxışlara üstünlük verilir. Bəzən səcdə yeri müqəddəs məkanların (Məkkə və ya Mədinə) təsviri ilə bəzədilir. Bəzi canamazların üzərinə qibləni göstərən kompas da bərkidilir.

Canamazın başqa adı «səccadə»dir («səcdə» sözündən).

N.R.

CARİYƏ

Kölə, əsir düşmüş qadın. Kölə və cariyə tarixdə hüquqi, ictimai və iqtisadi baxımdan azad insanlara nisbətən daha aşağı təbəqədə olan zümrə sayılıb. Bu zümrənin qadınlarını «əmə» və «məmlükə» də adlandırmışlar.

Quldarlıq İslamda tövsiyə edilmir. Əksinə, İslam dini yarandığı gündən bəri sosial reallıq olan quldarlığı tədricən ortadan qaldırmağa cəhd etmiş, kölələrin yaşayış şəraitini yaxşılaşdırmaq üçün bir sıra tədbirlər həyata keçirmiş və buna müvafiq zəmin hazırlamışdır.

Quldarlığı zəiflətmək və tədricən aradan qaldırmaq məqsədilə İslamda kölələrin təlim-tərbiyəsi, onların azadlığa qovuşduruları daha faydalı işlərlə məşğul olmalarına zəmin hazırlanması istiqamətində müxtəlif tədbirlər görülmüşdür. Təsadüfi deyil ki, hər hansı günahın əvəzi olaraq nəzərdə tutulan cərimənin *(kəffarə)* növlərindən biri də kölə alıb azad etməkdir.

Ə.N.

CƏBƏRUT ALƏMİ

bax: *mələkut aləmi.*

CƏBİRƏ DƏSTƏMAZI

Sınıq, yara və bəzi xəstəliklər zamanı bədən üzvünün üzərinə bağlanan sarğıya və çəkilən dərmana deyilir. Bu zaman şəriətdə göstərilən qaydalara uyğun şəkildə alınan *dəstəmazı* «cəbirə dəstəmazı» adlandırırlar. Ümumiyyətlə, bədən üzvlərindəki yaranı su ilə yumaq, eləcə də, *məsh etmək* zərərli deyilsə, onda adi qayda ilə dəstəmaz almaq lazımdır. Yəni yuyulmalı olan bədən üzvləri yuyulmalı, məsh edilməli bədən üzvlərinin üzərinə məsh çəkilməlidir.

Əgər yara dəstəmazda yuyulmalı olan bədən üzvünün hamısını deyil, bir hissəsini örtürsə və onu yumaq zərərlidirsə, mümkün halda həmin bədən üzvünün yarasız hissələri adi qaydada yuyulur, yaranın üzərinə isə yaş əllə məsh çəkilir. Əgər yaranın üzərinə məsh çəkmək də mümkün deyilsə (məsələn, məlhəm çəkilibsə), onda təmiz parça salınır və onun üzərinə məsh edilir. Əgər yara dəstəmaz zamanı məsh çəkilməli olan bədən üzvündədirsə və bilavasitə onun üzərinə məsh çəkmək mümkün deyilsə, onda yaranın üstünə təmiz parça salınır və parçaya məsh edilir. Əgər yara sarğı ilə örtülübsə və sarğı pak deyilsə (məsələn, qan və ya nəcəs dərman sarğının üzünə hopubsa), bu halda yenə sarğının üstünə pak parça salıb məsh etmək lazımdır. Əlbəttə, sınıq, çıxıq və sairə hallarda gipsin üzərindən bağlanan tənzif sarğısı pakdırsa, onun üzərinə əlavə parça salmağa ehtiyac yoxdur; həmin tənzif sarğısının üzərinə məsh çəkmək kifayətdir. Cəbirə dəstəmazından sonra təyəmmüm etməyin lazım olub-olmamasında məzhəblərin və alimlərin fikir ayrılıqları vardır. Yaranın vəziyyətindən və bədən üzvünü əhatə etmə dərəcəsindən, cəbirənin pak olub-olmamasından, yara ilə birlikdə sağlam hissələrin də örtülüb-örtülməməsindən asılı olaraq, bəzi hallarda cəbirə dəstəmazı aldıqdan sonra həm də təyəmmüm etmək tələb olunur.

Yara və sınıq sağaldıqdan, sarğı açıldıqdan sonra cəbirə dəstəmazı öz hökmünü itirir; artıq növbəti namazlar üçün adi qaydada dəstəmaz almaq lazımdır.

Cəbirə dəstəmazının xırdalıqları barədə müvafiq məzmunlu fiqh kitablarına müraciət edilməlidir.

N.R.

CƏHƏNNƏM

Atəş, od, dərin xəndək. İslam dininə görə, kafirlərin öldükdən sonra qalacaqları yer. Cənnət mömin insanlara mükafat verildiyi kimi, cəhənnəmin də cəza olaraq verilməsi Allah-təalanın ədalətinin əlamətidir. Qurani-kərimdə cəhənnəm bir çox adlarla xatırlanır; məsələn: səir, səqər, cəhim, hütəmə, ləza, haviyə.

R.M.

CƏHR və İXFA

Cəhr «yüksək səslə, açıq-aydın söyləmək», ixfa isə «gizlətmək» mənasını bildirir. Əhli-sünnə məzhəblərinə görə, camaatla qılınan məğrib və işa namazlarının ilk iki

rükətində, sübh namazında, bayram, təravih və cümə namazlarında imamın Fatihə və daha bir surəni (yaxud bir neçə ayəni) yüksək səslə oxuması sünnətdir (hənəfi məzhəbinə görə, vacibdir). Zöhr və əsr namazlarında isə sünnətə görə, imam qiraəti asta səslə (ixfa) oxumalıdır. Təkbaşına qılınan zöhr və əsr namazlarında, günorta qılınan nafilə namazlarında qiraət asta səslə oxunur. Təkbaşına qılınan sübh namazının hər iki rükətində, məğrib və işa namazlarının birinci və ikinci rükətlərində qiraəti uca səslə (cəhr) yerinə yetirmək sünnətdir. Hənbəli məzhəbində isə cəhr ya ixfa ilə qılmaq seçimi azaddır.

Cəfəri məzhəbinə görə, məğrib və işa namazlarının ilk iki rükətinin və sübh namazının qiraəti astadan oxuna bilməz, cəhrlə (ucadan) oxunmalıdır. Məğrib və işa namazlarının üçüncü və dördüncü rükətlərində, eləcə də, zöhr və əsr namazlarının bütün rükətlərində qiraət asta səslə yerinə yetirilməlidir. Bu qaydanı qəsdən pozmaq hətta namazın batil olmasına gətirib-çıxarır.

Nafilə namazlarına gəlincə, malikilər gündüz qılınan bütün nafilə namazlarında qiraətin ucadan edilməsini, gecə qılınan nafilə namazlarında isə astadan yerinə yetirilməsini sünnət sayırlar. Yalnız bayram namazında qiraəti ucadan oxumaq məndubdur (müstəhəbdir).

Hənbəli məzhəbinə görə, bayram, təravih, vitr namazlarının qiraətini uca səslə yerinə yetirmək sünnətdir. Qalan bütün nafilə namazlarının qiraətini asta səslə icra etmək sünnət sayılır.

Şafiilər bayram, təravih və ramazan ayında qılınan vitr namazlarında qiraəti uca səslə yerinə yetirməyi sünnət sayırlar. Gecə qılınan nafilə namazlarını da uca səslə yaxud orta səslə qılmaq sünnət olur; qalan nafilələrdə səsi endirmək sünnətə uyğundur.

Hənəfi fiqhinə görə, bayram, təravih və ramazan ayında qılınan vitr namazlarında qiraəti uca səslə yerinə yetirmək vacibdir. Gündüz qılınan nafilə namazlarında da qiraətin uca səslə edilməsi vacib sayılır, amma gecə qılınan nafilə namazlarında cəhr və ya ixfa etmək seçimi insanın özünə məxsusdur.

Qiraət zamanı cəhrin ölçüsü budur ki, insanın yanında duran şəxs onun səsini eşitsin. İfxa isə özü öz səsini eşidəcək səviyyəni bildirir. Cəfəri məzhəbində də cəhrlə ixfanın həddi bu cürdür. Yalnız hənəfilər cəhrin mənasını insanın öz səsini başqa cərgələrdə duranlara çatdırması kimi dəyərləndirirlər və bunun yüksək həddi üçün məhdudiyyətin olmadığını bildirirlər. Hənəfi məzhəbindəki ixfa isə o biri məzhəblərdəki cəhrlə uyğundur. Yəni ixfa odur ki, insanın yanında durmuş şəxs onun səsini eşidə bilsin.

N.R.

CƏLLƏ CƏLALÜHÜ

«Allah» sözündən sonra «Onun cəlalı çox ucadır» mənasında işlədilən ifadə. Allahtəalanın adı deyildikdə, yazıldıqda və eşidildikdə söylənilən təzim (hörmət) ifadəsidir. Yazıda bəzən «c.c.» şəklində göstərilir. Allahın adını söyləyəndə, eşidəndə, yazanda «sübhanallah» (Allah hər nöqsandan pak və ucadır), «təbarəkallah» (Allah mübarəkdir), «cəllə-cəlalühü» (Onun cəlalı çox ucadır), «əzzə ismühü» (Onun adı əzizdir, izzətlidir), «cəllə qüdrətühü» (Onun qüdrəti çoxdur) və ya «təala» (uca) kimi təzim ifadələrindən birini söyləmək, yazmaq birinci dəfədə vacib, təkrarlandıqda isə müstəhəbdir.

R.M.

CƏM

Zöhrlə əsr namazlarını, məğriblə işa namazlarını ardıcıl olaraq fasiləsiz qılmaq. Bu məsələdə İslam məzhəbləri arasında fikir ayrılıqları vardır.

Əhli-sünnə mənbələrində Həzrət Məhəmməd Peyğəmbərin (s) həcc zamanı Ərəfatda zöhrlə əsr namazlarını, Müzdəlifədə isə məğriblə işa namazlarını birləşdirib qılması barədə səhih hədislər mövcuddur. Buna görə də, əhli-sünnə məzhəbində həmin yerlərdə namazları göstərilən qaydada qılmağa icazə verilir. Bundan başqa məkan və zaman şəraitində isə namazların birləşdirilməsi barədə əhli-sünnə alimlərinin rəyi iki cürdür:

a) Bəzi məşhur alimlər adi şəraitdə zöhrlə əsr, məğriblə işa namazlarını birləşdirməyi qadağan etmişlər. Məşhur səhabə Abdullah ibn Məsudun, tabiindən Həsən Bəsri, İbn Sirin və başqalarının bu fikirdə olduqları rəvayət edilb. Hənəfi məzhəbinin banisi İmam Əbu Hənifə və onun tərəfdarları da bu mövzuda fətva vermişlər.

b) Bunun əksinə olaraq İmam Əli ibn Əbu Talib, Abdullah ibn Abbas, Səd ibn Əbu Vəqqas, Əbu Musa Əşəri, Üsamə bin Zeyd kimi səhabələrin rəyinə, Mücahid, Rəbiətür-Rəy kimi alimlərin fətvasına əsaslanan İmam Əhməd ibn Hənbəl, İmam Şafii, İmam Malik ibn Ənəs, Süfyani-Sövri, İshaq ibn Rahiveyh və başqaları zöhrlə əsr, məğriblə işa namazlarını bəzi şərtlər daxilində ardıcıl qılmağın mümkünlüyünü söyləmişlər. Şafii, hənbəli və maliki məzhəblərinin bu məsələyə baxışlarını ümumiləşdirərək deyə bilərik ki, səfərdə olan şəxs (*səfər* üçün tələb olunan məsafə şərti ilə), xəstə insan (məsələn, sidiyini saxlaya bilməyən adam), *istihazəli* qadın, eləcə də, yağışlı havada hamı namazları cəm halda qıla bilər.

«Beş məzhəb əsasında fiqh» kitabının müəllifi Əllamə Müğniyə yazır ki, əhlisünnə alimlərindən Şeyx Əhməd Siddiqül-Ğəmari namazları cəm halda qılmağın caizliyi barədə «İzalətül-xətər əmmən cəmə beynəs-səlateyni fil-həzər» (Vətəndə iki namazı birləşdirən şəxsdən təhlükənin uzaqlaşdırılması) adlı müstəqil kitab yazmışdır.

Zöhrlə əsr, məğriblə işa namazlarının cəm halda qılınmasının caizliyi barədə əhlisünnənin ən mötəbər hədis məcmuələrindən sayılan «Səhihü Müslim»də, «Kitabüs-səlatil-müsafirin və qəsriha» (Səfərdə olanların namazı və bu namazın qısa qılınması) kitabının V və VI bablarında 17 hədis verilmişdir.

«Səfər zamanı iki namazın birləşdirilməsi» adlanan V babda Abdullah ibn Ömər və Ənəs ibn Malikdən 7 rəvayət verilir. Rəvayətlərin birində Abdullah ibn Ömər deyir: «Allahın Rəsulu səfərə tələsəndə məğrib və işa namazlarını birləşdirib ardıcıl qılırdı». Bu rəvayətin sənəd zəncirində Yəhya ibn Yəhya, Malik ibn Ənəs və Nafe kimi etibarlı ravilər vardır.

«Vətəndə olarkən namazların birləşdirilməsinin caizliyi» adlanan VI babda isə Abdullah ibn Abbas və Müaz ibn Cəbəl adlı məşhur səhabələrin dilindən Peyğəmbərin Mədinədə zöhrlə əsr və məğriblə işa namazlarını birləşdirib ardıcıl qıldığı barədə 10 rəvayət verilir. Özü də təkid edilir ki, bu zaman nə müharibə təhlükəsi olmuş, nə də yağış yağmışdır. Abdullah ibn Abbas Peyğəmbərin bu hərəkətinin səbəbini belə izah edir: «Bununla Peyğəmbər öz ümmətindən heç kəsin çətinliyə düşməməsini istəyirdi».

VI babdakı hədislərin son ikisi Abdullah ibn Abbasın başına gələn bir hadisəni təsvir edir. Rəvayətə görə, bir gün İbn Abbas camaat üçün xütbə söyləyirmiş. Axşam hava qaralanda adamların arasından biri məğrib namazının vaxtının ötdüyünü bildirmək üçün «Namaz! Namaz!» – deyə qışqırır. İbn Abbas bundan qəzəblənib belə deyir: «Bizə sünnəni sənmi öyrədəcəksən? Anan vayına otursun! Biz Rəsulüllahın zamanında iki namazı *(yəni məğrib və işa namazlarını)* birləşdirib qoşa qılırdıq». Bu hədisin sənəd zəncirində İbn Abbasdan qabaq adı çəkilən ravi (Abdullah ibn Şəqiq) xəbər verir: «İbn Abbasın bu sözündən qəlbimdə şübhə yarandı. Əbu Hüreyrənin yanına gedib bu hədisin doğruluğunu ondan soruşdum, o da təsdiq etdi».

Yuxarıda göstərilənlərdən əlavə, bu mövzuda «Səhihül-Buxari», «Sünənü Əbu Davud» və «Sünənün-Nəsai»də də rəvayətlər vardır.

Zöhrlə əsr, məğriblə işa namazlarını birləşdirib ardıcıl qılmağa bütün cəfəri alimləri icazə vermişlər. Bu zaman həmin alimlər şiə məzhəbində etibarlı sayılan bir neçə hədis və rəvayətə əsaslanmışlar. Məsələn, «Əl-Kafi» məcmuəsinin «Səlat» (namaz) kitabındakı bablardan biri «əl-Cəmü beynəs-səlateyn» (İki namazı birləşdirmək) adlanır. Həmin babda 6 hədis vardır ki, onlardan ikisini nümunə kimi xatırladırıq:

Zürarə adlı səhabə rəvayət edir ki, İmam Cəfər Sadiq (ə) buyurmuşdur: «Günəş zaval edərkən Peyğəmbər heç bir xüsusi səbəb olmadan camaatla zöhr və əsr namazlarını ardıcıl qıldı. Həmçinin, yenə heç bir səbəb olmadan şəfəq (Günəşin qızartısı) itməzdən əvvəl camaatla məğrib və işa namazlarını da birdəfəyə qıldı. Bununla Peyğəmbər camaatın vaxtını genişləndirmək istəyirdi».

Abbasün-Nəqqad adlı şəxs XI İmam Həsən Əsgəriyə (ə) şikayət etdi ki, var-

dövləti və ticarət şərikləri əlindən çıxıb. İmam ona məsləhət gördü: «Zöhr və əsr namazlarını birləşdirib qıl, öz istədiyini görərsən».

Şeyxüt-taifə Tusinin «Təhzibül-əhkam» kitabındakı hədislərin birində deyilir ki, İshaq ibn Əmmar İmam Cəfər Sadiqdən (ə) soruşdu: «Öz vətənimdə heç bir üzrlü səbəb olmadan şəfəq itməzdən əvvəl məğrib və işa namazlarını birləşdirib qıla bilərəmmi?». İmam ona cavab verdi: «Qorxusu *(ziyanı)* yoxdur» *(Təhzibül-əhkam, Səlat (namaz) kitabı, Namazın vaxtları babı, 84-cü hədis).*

Əllamə Mühəmməd Baqir Məclisi «Hilyətül-müttəqin» kitabının «Xatimə» bölümündə İmam Əli ibn Əbu Talibdən (ə) belə bir hədis rəvayət etmişdir: «Bəzi şeylər kasıblığa səbəb olar, bəzi işlər isə sərvət gətirər... Kasıblığa səbəb olan işlər... məğrib və işa namazları arasında yatmaq... və sairədir. Amma var-dövlət və ruzi gətirən işlər isə... zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qılmaqdır».

Cəfəri məzhəbinin fiqhinə görə, zöhr anının girdiyi vaxtdan etibarən dörd rükətlik namazın qılınmasına bəs edəcək qədər keçən vaxt yalnız zöhr namazına məxsus vaxtdır. Bu vaxt ərzində əsr namazını qılmaq olmaz. Həmçinin, məğrib azanından əvvəl dörd rükətlik namazın qılınmasına bəs edəcək qədər qalan vaxt da əsr namazına məxsusdur və həmin vaxtda zöhr namazını qılmağa icazə verilmir. Bu iki vaxt kəsiyi arasında qalan müddət zöhr və əsr namazlarının müştərək qılınma vaxtı adlanır və hər iki namazı bu vaxt qılmaq mümkündür. Hər namazı öz vaxtının əvvəlində qılmaq müstəhəb olduğu üçün, zöhr namazını zöhr anında qılmağa başlamaq daha üstündür. Cəfəri məzhəbli müctəhidlərin geniş həcmli risalələrində zöhr və əsr namazlarının qılınması üçün müstəhəb vaxtlar (fəzilət vaxtları) da göstərilib. Zöhr namazının fəzilət vaxtı zöhr anından əşyanın kölgəsi şərq istiqamətində uzanıb əşyanın özü boyda olana kimidir. Əsr namazının fəzilət vaxtı isə əşyanın kölgəsi şərq istiqamətində özü boyda olan vaxt başlayır və kölgə özünün iki misli boyda olanda bitir.

Cəfəri məzhəbinə görə, məğrib namazının fəzilət vaxtı məğrib azanı verilən andan şəfəqin qərb tərəfdə itməsinə qədərdir. Bundan sonra işa namazının fəzilət vaxtı başlayır və gecənin üçdən-bir hissəsi keçənə kimi davam edir *(Ayətullah Seyid Mühəmməd Kazim Təbatəbai Yəzdi. «Əl-Ürvətül-vüsqa», I, 387).*

N.R.

CƏMRƏ (cəm halı: CƏMƏRAT)

bax: *rəmyi-cəmərat.*

CƏNABƏT

İbadətləri yerinə yetirmək üçün lazım olan paklığın pozulması. Cənabət halı iki şəraitdə yaranır:

1. Cinsi əlaqə zamanı. Bu zaman kişinin cinsiyyət üzvünün sünnət edilmiş yerə qədər daxil olması kifayətdir. Tərəflərdən birinin yatmış olması, cinsi əlaqənin şəriətdə icazə verilən yaxud verilməyən şəkildə həyata keçirilməsi fərq etməz. Həmçinin, *məninin* (spermanın) xaric olub-olmaması da şərt deyil.

2. Cinsi əlaqə baş verməsə belə, bədəndən məni çıxması. Bunun yuxuda yoxsa ayıqlıqda olması, hansı vasitə ilə baş verməsi, məninin az və ya çox miqdarda çıxması da mühüm deyil. *«Məni»* məqaləsində İslam məzhəblərinin məsələyə münasibəti ətraflı izah edilib.

Cənabətli halda namaz qılmaq, oruc tutmaq, Kəbəni təvaf etmək, məscidə girmək, Quran yazısına, Allahın, peyğəmbərlərin və imamların adına toxunmaq günahdır. Bütün bu əməlləri yerinə yetirmək üçün mütləq cənabət qüslü alınmalıdır. Əhli-sünnə məzhəbinə görə, cənabətli şəxsin Quran oxuması bütünlüklə günahdır. Cəfəri məzhəbində vacib səcdə ayəsi olan dörd surəni (Səcdə, Füssilət, Nəcm və Ələq surələri) oxuması günahdır. Eyni zamanda, 7-dən artıq ayə oxumaq məkruh sayılır. Cənabətli şəxsin çörək yeməsi, yatması da məkruhdur (dəstəmaz alarsa, məkruh olmaz).

Cənabətli şəxsə cünüb deyilir.

N.R.

CƏNAZƏ NAMAZI

Vəfat etmiş müsəlmanı dəfn etməzdən

qabaq qılınan namaz. Cənazə namazını qılmaq fərzi-kifayidir (vacibi-kifayidir). Yəni əgər bir müsəlmanın cəsədi namazsız dəfn olunsa, bütün müsəlmanlar bunun məsuliyyətini daşıyırlar. Lakin bir nəfər cənazə namazını qılsa, başqalarının öhdəsindən məsuliyyət götürülər.

Cənazə namazı qılınan şəxsin qadın ya kişi, ağıllı ya psixi nöqsanlı, mömin ya fasiq olması fərq etməz; bunların hamısı üçün cənazə namazı qılınmalıdır. Hətta şəriət qanunlarına əsasən edam olunmuş cinayətkarın da cənazəsinə namaz qılınır. Həzrət Əli ibn Əbu Talib (ə) *Cəməl*, *Siffeyn* və *Nəhrivan savaşlarında* öldürülmüş düşmən əsgərlərinə cənazə namazı qılmışdı. Həzrət Mühəmməd Peyğəmbər (s) isə *müşrik* meyitlərinə cənazə namazı qılmırdı. Quranda *münafiq* meyitlərinə cənazə namazı qılmaq Peyğəmbərə qadağan edilib: «Onlardan *(münafiqlərdən)* ölən heç bir kəsə heç vaxt namaz qılma, qəbrinin başında durma. Çünki onlar Allahı, Onun Peyğəmbərini dandılar və fasiq olaraq öldülər» *(Tövbə, 84).* Münafiqin ürəyindəki əsl niyyət yalnız Allaha bəlli olduğu üçün, vəhy vasitəsilə bəzən Peyğəmbərə xəbər verilirdi. Peyğəmbər vəfat edən şəxsin münafiq oluğunu bilib, onun cənazə namazında iştirak etmirdi. Lakin bir kəsin münafiq olub-olmaması bizə qəti məlum olmadığı üçün o, zahirən müsəlman hökmünü daşıyır və cənazəsinə namaz qılınmalıdır. Özünü müsəlman kimi təqdim edən və *kəlmeyi-şəhadəti* söyləyən hər kəsin cənazəsinə namaz qılmaq lazımdır.

Cəfəri məzhəbinə görə, 6 yaşı tamam olduqdan sonra vəfat etmiş müsəlman uşaqlarına da cənazə namazı qılınır. *Əhli-sünnə* məzhəbinə görə, hətta diri doğulmuş körpəyə də cənazə namazı qılmaq lazımdır, ölü doğulmuş körpəyə isə cənazə namazı qılınmaz. Əhli-sünnə məzhəbinə görə (hənəfilər istisna edilməklə), *şəhidin* cənazəsinə namaz qılmaq haramdır.

Cənazə namazı ayaqüstə, üzü *qibləyə* tərəf qılınır. Bu namaz *təkbir* və dualardan ibarətdir, *rükusu* və *səcdəsi* yoxdur. Hər təkbirdən sonra müvafiq dualar oxunur. *Şafii* və *hənbəli məzhəblərində* birinci təkbirdən sonra Fatihə surəsi oxunmalıdır. Əhli-sünnə məzhəbində cənazə namazı 4 təkbirlə, *cəfəri* məzhəbində isə 5 təkbirlə qılınır. Təkbirlərdən sonra oxunan dualar hər məzhəbin şəriət kitablarında (*risalə* və elmihallarda) göstərilmişdir. Əhli-sünnə məzhəbində cənazə namazının sonunda sağa və sola salam verilir.

Cənazə namazı cənazənin qarşısında qılınır. Belə ki, cənazə sağ tərəfi qibləyə doğru olmaqla arxası üstə yatırılır, namaz qılanlar cənazədən çox uzaq olmamaq şərti ilə üzü qibləyə dururlar. Namaz qılan (camaatla qılınırsa – imam) cənazənin bədəninin ortası müqabilində elə durmalıdır ki, cənazənin başı onun sağ tərəfində, ayaqları sol tərəfində qalsın. Kişi və qadın cənazələrinin bədəninin ortası və ya sinəsi müqabilində durmaq məsələsində məzhəblər arasında fikir ayrılıqları vardır.

Cənazə namazına duran şəxsin dəstəmazlı və ya qüsllü olması, bədəninin pak olması şərt deyil, amma bunlara riayət etməsi müstəhəbdir.

Cəfəri məzhəbinə görə, cənazəyə *qüsl* verildikdən və *kəfənlədikdən* sonra cənazə namazı qılına bilər. Əhli-sünnə məzhəbinə görə, yuyulmuş (qüsl verilmiş) cənazəyə namaz qılmaq olar.

Bir cənazə üçün bir neçə dəfə namaz qılmaq məkruhdur. Lakin alimin cənazəsinə bir neçə dəfə (fərqli şəxslər tərəfindən) namaz qılınmasına cəfəri məzhəbində icazə verilir.

Müsəlman şəxsin cənazə namazını qılmaq və ya camaatla qılınan cənazə namazında iştirak etmək dinimizdə çox bəyənilir. Həzrət Mühəmməd Peyğəmbərdən (s) rəvayət edilən hədislərin birində buyurulur: «Bir cənazə üçün 100 nəfər namaz qılıb hamısı onun barəsində şəfaət duası etsə, qiyamətdə onların həmin mərhum haqqında şəfaət etmələrinə icazə verilər».

N.R.

CƏNNƏT

Bagça, gözəl bağ. İslam dininə görə, möminlərə axirətdə Allah tərəfindən mükafat olaraq bəxş olunacaq gözəl məkan. Qismən günahkar müsəlmanlar da öz günahlarını təmizlədikdən sonra cənnətə buraxılacaqlar. İslam alimləri bildirmişlər ki, Qurani-kəri-

min ayələrində və hədislərdə tez-tez təkrarlanan cənnətin mahiyyətini insan ağlı ilə olduğu kimi dərk etmək mümkün deyil.

R.M.

CƏRH və TƏDİL

«Tədil» sözünün ərəb dilindən tərcüməsi zülmün ziddi, doğru olma qənaəti bəxş edən deməkdir. «Ədl, ədalət» sözü ilə eyni kökdəndir. Hədis termini olaraq, tədil – *ravinin* sözünü mötəbər edən xüsusiyyətdir. Həzrət Mühəmməd Peyğəmbərdən (s) və imamlardan hədis rəvayət edən kəsin *şəhadət* və rəvayətini qəbul etməyə əsas verən xüsusiyyət tədil sayılır.

Cərh – hədis rəvayət edən ravinin iman, dini vəzifələrini yerinə yetirmə və eşitdiyi hədisləri başqalarına olduğu kimi nəql etmə baxımından bəzi xəta və yanlışlıqlara malik olmasıdır. İslam tarixində nəsildən-nəslə ötürülən hədislər çox ciddi araşdırmalardan sonra klassik hədis mənbələrinə daxil edilmişdir. Yuxarıdakı tələblərə cavab verməyən ravilərin hədisləri etibarlı sayılmır.

R.Ş. və Ə.N.

CƏZB (CƏZBƏ)

Özünə çəkmək, cəlb etmək. Allahın bəndəsini öz dərgahına çəkməsinə deyilir. Cəzbə – bəndənin bəşəri xüsusiyyətlərdən uzaqlaşıb, ilahi xüsusiyyətlər qazanaraq vəhdət təcəllasını müşahidə etməsidir. İki növ cəzbə var: Gizli (xəfi) cəzbə bəndənin Allahı sevməsinə deyilir. Açıq (cəli) cəzbə isə Allahın öz bəndəsini sevməsinə deyilir.

R.M.

CİHAD

Haqqı və həqiqəti yaymaq üçün göstərilən hər cür təşəbbüs və təbliğ. Eyni zamanda cihad – insanın mənfi nəfsani istəklərə qarşı müqavimət göstərməsi və əxlaqi məziyyətlərlə özünü bəzəməsidir (bax: *cihadi-əkbər*).

Müsəlmanların öz dinlərini, vətənlərini, can, mal və namuslarını düşmən təhlükəsindən qorumaları da cihad adlanır. İslamı qəddar və zorakı din kimi tanıtdırmağa çalışan qüvvələrin təsəvvürünün əksinə olaraq, dinimizdə cihad müdafiə ğədbiri kimi nəzərdə tutulub. Həzrət Mühəmməd Peyğəmbərin (s) həyata keçirdiyi bütün hərbi əməliyyatlar (qəzvə və səriyyələr) sırf müdafiə xarakteri daşımışdır.

Ə.N.

CİHADİ-ƏKBƏR

Tərcüməsi «böyük cihad» deməkdir. İslam əxlaqı barədə yazılmış kitablarda insanın öz nəfsi ilə mübarizəsi belə adlandırılır. Bunun da kökü Həzrət Mühəmməd Peyğəmbərin (s) məşhur bir hədisinə gedib-çıxır. Bütün İslam məzhəblərinin mötəbər saydığı bu hədisə əsasən, Həzrət Mühəmməd Peyğəmbər (s) hərbi yürüşdən qayıdan müsəlman əsgərlərini qarşılayarkən buyurmuşdu: «Kiçik cihaddan üzüağ qayıdanlara əhsən olsun! Amma onların qarşısında hələ böyük cihad durur». Peyğəmbərdən: «Böyük cihad nədir?» – deyə soruşulduqda cavab verdi: «Nəfslə mübarizə». Peyğəmbərin başqa bir hədisində isə belə deyilir: «Güclü şəxs odur ki, öz nəfsinə qalib gələ bilsin».

N.R.

CİN (əslində CİNN)

Allahın yaratdığı canlı növlərindən biridir. *Mələklər* və insanlar kimi şüura malikdirlər. Lakin mələklərdən fərqli olaraq həm də iradə azadlığına və seçki ixtiyarına sahibdirlər. Belə ki, cinlərin də bir qismi *mömin*, bir qismi *kafirdir* (insanlar kimi).

«Cinn» kəlməsi ərəb dilində «gizlənmək, görünməmək» mənasını bildirən «cənnə» felindən törəyib. Ümumiyyətlə, ərəb dilində bu feldən törəmiş bir neçə söz işlədilir ki, bunların hamısında gizli olmaq, görünməmək xüsusiyyəti var. Məsələn, ərəb dilində bağçaya cənnət deyirlər; çünki ağacların budaqları altında görünməz olur. Zireh, sipər «cünnə» adlanır; çünki onun vasitəsilə bədəni təhlükədən gizlədirlər. Ana bətnindəki rüşeym də gözlərdən gizli olduğu və bir çox xüsusiyyətləri bilinmədiyi üçün, «cənin» adlanır. Ağlını itirmiş insana isə ona görə məcnun deyirlər ki, onun ağıl və şüuru sanki gizlənib yox olmuşdur.

Cinlərin mahiyyəti barədə məlumatlar məhdud və ziddiyyətlidir. Qəti məlum olan budur ki, onlar alovdan yaradılmışlar: «Can

tayfasını daha öncə tüstüsüz oddan xəlq etmişdik» (*Hicr, 27*; burada «can» sözü «cin» kəlməsinin cəmini və ya cinlərin ulu əcdadını bildirir). Cinlər adi gözlə görünməyən bədənə malikdirlər. İstədikləri şəklə düşə bilirlər. Amma mələk və peyğəmbər şəklinə düşə bilməzlər. Əksər hallarda heyvan (xüsusilə, ilan) şəklində insanların gözünə görünürlər. Cinlər də insanlar kimi yeyib-içir, artıb-çoxalırlar. Onların bir qismi Həzrət Mühəmməd Peyğəmbərə (s) iman gətirmiş və müsəlman olmuşdur: «Onu da xatırla ki, bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına göndərmişdik. Onlar onu dinləməyə hazır olduqda *(bir-birinə)*: «Qulaq asın!» – dedilər və *(Quran oxunub)* qurtardıqdan sonra *(həmcinslərini Allahın əzabı ilə)* qorxudanlar sifəti ilə öz qövmlərinin yanına qayıtdılar» *(Əhqaf, 29)*. Şiə məzhəbində məsum sayılan imamların da cinlərlə görüşmələri və onların suallarına cavab vermələri barədə rəvayətlər vardır.

Cinlər də insanlar kimi öz əməllərinə cavabdehdirlər və qiyamətdə buna görə sorğu-sual olunacaq, mükafata və ya əzaba layiq görüləcəklər. Allah-təala Quranda buyurur: «Mən cinləri və insanları yalnız mənə ibadət etmək üçün yaratdım» *(Zariyat, 56)*. «Artıq Rəbbinin *(mələklərə dediyi)*: «Mən cəhənnəmi *(Allahı inkar edən)* bütün cinlər və insanlarla dolduracağam!» – sözü tamamilə yerinə düşdü» *(Hud, 119)*.

Cahiliyyə dövründə ərəblər cinləri tanrının övladları sayır, onları Allaha şərik qoşurdular. Qurani-kərim bu əqidəni qətiyyətlə rədd edir və Allahın övladı olmadığını bildirir *(Saffat, 138; Ənam, 100)*.

Qurani-kərimin bir çox ayəsində insanlarla yanaşı, cinlərə də müraciət edilir *(Ənam, 130; Rəhman, 31, 33)*. Bu, İslam dininin, Quranın və Həzrət Mühəmməd Peyğəmbərin (s) cinlərə də göndərilmiş olduqlarını sübuta yetirir.

Qurani-kərimin son surəsi olan Nas surəsində insanlarla yanaşı, cinlərin də şərindən Allaha sığınmaq tövsiyə ediilr: «O şeytan ki, insanların ürəklərinə vəsvəsə salır; cinlərdən də olur, insanlardan da» *(Nas, 5-6)*.

Kafir cinlərin xüsusiyyətləri isə Quranda belə təsvir edilir: «Biz cinlərdən və insanlardan bir çoxunu cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də daha çox zəlalətdədirlər» *(Əraf, 179)*.

R.N.

CİZYƏ

Ərəb dilində «cəza» (əvəz) sözündən törəmişdir. Canlarının, mallarının, əqidə azadlıqlarının və adət-ənənələrinin qorunması müqabilində *əhli-kitabdan* alınan illik vergiyə deyilir. Cizyə əmri Həzrət Mühəmməd Peyğəmbərə (s) hicri 9-cu ildə vəhy edilmişdir. Cizyə hər kəsdən maddi imkanına uyğun olaraq alınır. Bəzi mənbələrdə Həzrət Mühəmməd Peyğəmbərin (s) adambaşına bir dinar məbləğində cizyə aldığı bildirilir. İkinci xəlifə Ömər ibn Xəttab əhli-kitabın kasıb olanlarından 12 dirhəm (bir dinara bərabərdir), orta səviyyədə yaşayanlardan 24 dirhəm, varlılardan isə 48 dirhəm cizyə alırmış.

Cizyənin məbləği yalnız yetkinlik yaşına çatmış, azad, sağlam kişilər üçün adambaşına hesablanır. Xəstələr, uşaqlar, yaşı ötmüş qocalar, kölələr, qadınlar və əqli cəhətdən qüsuru olanlar cizyədən azaddırlar. Cizyənin şərti, onu verən adamın hərbi xidmətə yararlı olmasıdır; hərbi xidmətə yararsız olan təbəqələrdən cizyə alınmaz. Cizyə verən şəxs hərbi xidmətdən azaddır. Əgər könüllü surətdə hərbi xidmətə gedərsə, onda cizyədən azad olur. İslamı qəbul edən şəxs cizyə verməkdən azad edilir və müsəlmanlara aid olan bütün hüquqlar ona da şamil olur. Dünyəvi həyatdan uzaqlaşıb ibadət ocaqlarına (monastrlara) çəkilən və yalnız ibadətlə məşğul olan rahiblərdən də cizyə alınmaz.

Qurani-kərimdə cizyə barədə buyurulur: «Kitab əhlindən Allaha və qiyamət gününə iman gətirməyən, Allahın və Peyğəmbərinin haram buyurduqlarını haram bilməyən və haqq dini *(İslamı)* qəbul etməyənlərlə zəlil vəziyyətə düşüb öz əlləri ilə cizyə verincəyə qədər vuruşun» *(Tövbə, 29)*.

Cizyənin hansı təbəqədən alınması barədə alimlər arasında fikir ayrılıqları vardır. İmam Əbu Hənifəyə görə, cizyə yalnız *əhli-*

kitabdan və ərəb olmayan *müşriklərdən* alına bilər, ərəb müşriklərdən alınmaz. Əbu Hənifənin şagirdi Əbu Yusufə görə, istər əhli-kitab, istərsə də müşrik olan ərəblərdən cizyə alınmaz, lakin ərəb olmayan əhli-kitabdan və müşriklərdən alınar. İmam Şafii isə ərəb olub-olmamasına baxmayaraq, cizyənin yalnız əhli-kitabdan alınmasını şərt bilir; ərəb və ya qeyri-ərəb müşriklərdən alınmasına icazə vermir. İmam Malik ibn Ənəs bütün qeyri-müsəlman müşriklərdən (millətinə, əhli-kitabdan olub-olmamasına baxmayaraq) cizyə alınmasına fətva vermişdir. Cəfəri məzhəbində cizyə yalnız əhli-kitabdan alınan vergidir, müşriklər (millətindən asılı olmayaraq) bura aid deyillər. *Məcusilər* (atəşpərəstlər) də əhli-kitabdan sayılır və cizyə verən təbəqəyə aid edilirlər.

N.R.

CÜMƏ NAMAZI

Həftənin cümə günləri günorta vaxtı zöhr namazının əvəzinə camaatla qılınan, iki rükətlik namazdan və xütbədən ibarət olan ibadət. Hökmü hicrətdən əvvəl verilsə də, müşriklərin təzyiqinə görə yalnız Məkkədən hicrət etdikdən sonra qılınması mümkün olmuşdur. Peyğəmbərin imamlığı ilə ilk cümə namazı Mədinənin girəcəyində, Bəni-Səlimə məxsus Rənuna vadisində qılınmışdır. Amma bundan əvvəl də Peyğəmbərin Mədinəyə nümayəndə kimi göndərdiyi Müsəb ibn Ümeyr və Mədinə müsəlmanlarının lideri Əsəd ibn Zürarə şəhərdə camaatla cümə namazları qılırdılar.

Cümə namazı əhli-sünnə məzhəbinə görə, fərzdir (qəti vacibdir). Lakin qadınlara, səfərdə olanlara, xəstələrə, cümə namazına getməsinə imkan verməyəcək dərəcədə fiziki qüsurlu şəxslərə, üzrlü şəxslərə fərz deyil. Bunlar zöhr və ya cümə namazı qılmaqda ixtiyar sahibidirlər; birini qılsalar, o birindən azaddırlar.

Cümə namazı barədə Qurani-kərimdə buyurulur: «Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyrlidir!» *(Cümə, 9)*.

Cümə namazı camaat halında qılınmalıdır, tək halda qılınması caiz deyil. Cümə namazında imamdan əlavə, *hənəfi məzhəbinə* görə ən azı daha 3 nəfər, *şafii* və *hənbəli məzhəblərinə* görə 40 nəfər, *maliki məzhəbinə* görə 12 nəfər, *cəfəri məzhəbinə* görə 4 nəfər iştirak etməlidir. Hənəfi məzhəbinə görə, cümə namazı şəhərdə və ya şəhər ərazisi sayılan məkanda, malikilərə görə mütləq cami məscidində qılınmalıdır. Hənəfilər cümə namazında dövlət başçısının (və ya nümayəndəsinin) iştirakını da şərt bilirlər. Cəfəri məzhəbində imam-camaatın ədalətli olması vacib şərtlərdəndir.

Əhli-sünnə məzhəbinə görə, cümə namazının fərz olan qismi 2 rükətdir. Fərzdən əvvəl 4 rükətlik ilk sünnə, fərzdən sonra isə 4 rükətlik son sünnə qılınır.

Cümə namazından əvvəl imam-camaat iki hissədən ibarət xütbə oxumalıdır. Xütbə ayaq üstə, uca səslə oxunur. Xütbənin Allaha həmdü-səna ilə başlaması, Peyğəmbərə salam və salavatla, əxlaqi məzmunlu, yaxşı işlərə çağırıb pis işlərdən çəkindirən Quran ayəsi ilə davam etdirilməsi şərtdir. Hənəfilərə və cəfərilərə görə, xütbənin ərəb dilində oxunması vacib deyil. Hənbəli məzhəbində imam-camaatın ərəb dilini bildiyi halda, başqa dildə xütbə söyləməsi düzgün deyil. Şafii məzhəbində xütbənin ərəb dilində oxunması məsləhətdir, amma camaat bu dili anlamırsa, əksəriyyətin başa düşəcəyi dildə oxuna bilər. Malikilər isə xütbənin ərəb dilində oxunmasını şərt bilirlər; hətta ərəb dilində xütbə oxuya bilməyən bir şəxsin tapılmadığı cəmiyyətdə cümə namazı qılmaq vacib deyil. Bütün məzhəblərə görə, xütbədə Quran ayələri mütləq ərəb dilində oxunmalıdır (ərəbcə oxunuşundan sonra tərcüməsi də deyilə bilər). Xütbəyə qulaq asanlar sakit durmalıdırlar. Xütbə söylənən zaman danışmaq, sağa-sola baxmaq məkruhdur. Hənəfi məzhəbinə görə, xütbədə edilən dualara da astadan «amin» demək məsləhətdir.

Şiə məzhəbinə görə, cümə namazını qılmaq yalnız XII İmam Mehdinin (ə) zühurundan sonra vacib olacaq (şəxsən Onun və ya nümayəndəsinin imamlığı ilə). İmamın qeybət dövründə isə cümə namazını qılmaq vacibi-təxyiridir. Yəni cümə günü cümə və ya zöhr namazını qılmaq insanın öz seçimindən asılıdır. Bununla belə, şiə müctəhidlər lazımi

şərtlərə cavab verən cümə namazı qılındığı zaman həmin namazda iştirak etməyin daha üstün olduğunu vurğulayırlar.

Cümə namazından əvvəl oxunan xütbələrdə müsəlmanların vəziyyətindən danışmaq, dünyada baş verən siyasi hadisələrə, xüsusilə, ölkə daxilində baş verən olaylara münasibət bildirmək, müsəlmanların mənafeyinə zidd olan daxili və xarici qüvvələri açıqlamaq, siyasi proseslərə reaksiya vermək məsləhət görülür. İmam-camat bəzi əxlaqi və elmi keyfiyyətlərə də sahib olmalıdır. Məsələn, ədalətli və siyasi cəhətdən hazırlıqlı olmalı, dünyada və ölkədə baş verən prosesləri analiz etməyi və düzgün qiymətləndirməyi bacarmalıdır. Bu şərtlər imam-camaatın mübariz və fədakar olmasını da tələb edir. Hətta cəfəri məzhəbinə görə, imam-camaatın minbərdə durarkən əlində silah (qılınc, ox-yay və ya odlu silah) tutması müstəhəb sayılır. Bu şərtlər dünyəvi dövlətlərdə cümə namazını qılmaq məsələsini çətinləşdirir. Bir çox şiə dövlətlərində (məsələn, İranda) cümə namazları dövlətin təyin etdiyi imam-camaatların başçılığı altında böyük izdihamla qılınır.

Ə.N.

CÜNÜB

Cənabət halına düşmüş şəxs.

bax: *cənabət.*

CÜZ

Ərəb dilindən tərcüməsi «hissə, parça» deməkdir. Qurani-kərimi rahat oxumaq və əzbərləmək məqsədilə 30 bərabər hissəyə bölmüşlər. Bunlara cüz deyilir. Hazırki Quran nüsxələrində hər cüz təqribən 20 səhifə həcmindədir. Hər cüz iki hizbə bölünür.

Quran oxunuşu ənənələrindən biri də onu cüz-cüz oxumaqdır. Bəzən məscidlərdə Quran vərəqlərini 20 səhifə şəklində cüzlərə bölür, cildləyir və oxuyanların ixtiyarına verirlər. Yas məclislərində də Quranı cüz-cüz oxumaq ənənəsinə rast gəlinir. Müştərək halda Quran oxumaq istəyən adamların hərəsi cüzlərdən birini götürüb oxuyur. Beləliklə, qısa müddət ərzində bütöv Quran oxunub qurtarmış *(xətm edilmiş)* olur.

N.R.



ÇAVUŞ

Karvan bələdçisi, karvana yol göstərən şəxs. Müqəddəs məkanlara ziyarətə gedən adamları yaşadıqları məkandan toplayan və səfər boyunca onlara rəhbərlik edən şəxsə də çavuş deyilirdi (indiki ziyarətçilər qrupunun rəhbəri kimi). Keçmişdə çavuşlar şəhər və kəndləri məhəllə-məhəllə gəzib, gözəl avazla «çavuşi» adlanan xüsusi qəsidələr oxuyurdular. Səsi eşidən ziyarətçilər də evlərindən çıxıb, çavuşa qoşulurdular. Çavuşilərin mətnində ziyarətgahın fəzilətləri sadalanır, zəvvarlara veriləcək savab təsvir olunurdu.

N.R.

ÇƏRƏKƏ

Bəzi Quran surələrinin və çox işlənən duaların toplandığı kitabça. Keçmişdə uşaqlar mollaxanada Quran oxumağa başlamazdan əvvəl çərəkəni oxuyub qurtarardılar. Çərəkə mollaxanaların dərs proqramında ərəb əlifbası dərsliyinin yerini tuturdu. Bəzi məlumatlara görə, bu söz fars mənşəlidir və Quranın dörddə-bir hissəsi deməkdir.

Hal-hazırda çərəkə adətən, hüzr məclislərində, eləcə də, dini məişət ayinlərində oxunan surələrin (Ya-Sin, Rəhman, Quranın axırındakı kiçik surələr) və duaların (gündəlik namazlardan sonra oxunan dualar, ramazan ayının duaları, Quran tapşırma, qurbanlıq, süfrə duaları, dəfn mərasiminin icra qaydası və s.) məcmusundan ibarət olur. Bütöv Quranı və irihəcmli dua kitablarını gəzdirmək çətin olduğu üçün, çərəkədən istifadə etmək din xadimləri arasında geniş yayılıb.

Azərbaycan klassik ədəbiyyatı nümunələrində də çərəkə sözünə rast gəlirik:

Ah, səd ah, gedər ruhi-rəvanım dərəkə,
Mollalar hazır olar dəfnimə əldə çərəkə,
Səni varislərimə eyləyər onlar tərəkə,

Eşidən olsa, görər kim, çıxar ahım fələkə,
Baxaram qəbrdə həsrətlə, xəsarətlə, aman!
Biəbi əntə və ümmi, sənə canım qurban!
(M.Ə.Sabirin «Xəsisin heyfi, varisin keyfi» satirasından).

N.R.

ÇİLLƏ

Məşhur sufi ayinlərindən biridir. Ayinin adı fars dilində 40 ədədini ifadə edən «çehel» sözündən götürülmüşdür. Çilləyə oturmaq 40 gün hamıdan gizli və tənha halda ibadət etmək mənasını verir. Sufilərin öz əqidəsincə, çillə ayini Həzrət Mühəmməd Peyğəmbərin (s) zamanında mövcud olmamış, sonradan meydana çıxmışdır.

Niyə 40 ədədinin norma olaraq seçilməsini sufilər Quran ayəsi və hədislərlə bağlayırlar. Qurani-kərimin Əraf surəsinin 128-ci ayəsində buyurulur ki, Həzrət Musa (ə) Allahdan vəhy almaq üçün 40 gün Tur dağında qalmışdı, özü də bu müddət Onun üçün Allah tərəfindən təyin olunmuşdu.

Hədisi-qüdsidə Allah buyurur: «Qüdrət əllərimlə Adəmin (ə) gilini 40 gün ərzində yoğurdum». Buna görə də klassik ədəbiyyatda Adəmi (ə) çox zaman 40 günün məhsulu kimi təsvir etmişlər.

Həmçinin, Həzrət Mühəmməd Peyğəmbərə (s) aid edilən bu hədis də sufilər tərəfindən çillə üçün əsas götürülmüşdür: «Hər kim 40 gün Allaha ixlaslı olsa, hikmət çeşmələri qəlbindən dilinə süzülər».

Çilləni Həzrət Mühəmməd Peyğəmbərin (s) bisətdən əvvəl hər ilin ramazan ayında Hira mağarasında xəlvətə çəkilməsi ilə də bağlayırlar. Peyğəmbər bu müddət ərzində mağarada ibadətlə məşğul olur, Allah haqqında düşünürdü. Tədqiqatçılar bunu Onun peyğəmbərliyə hazırlaşması kimi də dəyərləndirirlər.

Müxtəlif sufi təriqətlərində çillənin (xəlvətin) müddəti fərqli olmuşdur. Bəzi sufilər fasiləsiz olaraq 40 gün, bəziləri 2 ay, bəziləri də 3 ay və daha artıq çillə dövrü keçirmişlər. Hər il 3-4 dəfə (hər dəfə 40 gün olmaq şərti ilə) çilləyə oturan sufilər haqqında da məlumatlar vardır.

Çillə müddətində sufi müxtəlif zikrləri (məsələn, «la ilahə illəllah» zikrini) təkrar edir. Çillənin şərtlərindən biri budur ki, mütləq şeyxin icazəsi ilə baş verməlidir. Sufinin çillə məkanı insanlardan uzaq və gözlərdən gizli olmalıdır. Sufi bütün çillə müddəti boyunca oruc tutmalı, həmişə dəstəmazlı olmalı, namaz qılmazdan əvvəl təkrar dəstəmaz almalı və iki rükət şükr namazı qılmalıdır. Çillə zamanı az yemək, az danışmaq, az yatmaq, bəyənilməz işlərdən uzaq olmaq, kamil əxlaqa aid olan hərəkətlər etmək şərtdir. Hər həftə, yaxud hər 10 gündən-bir şeyx çilləyə oturanın görüşünə gəlir, ona mənəvi yardım edir, çətinliklər zamanı yol göstərir.

Mövlana Cəlaləddin Rumi tərəfindən əsası qoyulmuş mövləviyyə təriqətində 1001 günlük çillə dəbi mövcuddur (onlar bu ədədi «riza» sözünün *əbcəd* hesabından götürmüşlər). Təriqətə daxil olmaq istəyən şəxs 3 il müddətində hər il 9 dəfə olmaqla çillə keçməlidir (hər biri 40 gün olmaqla). Beləliklə, sufi hər il 40 gün ev heyvanlarına xidmət etməli, 40 gün süpürgəçiliklə məşğul olmalı, 40 gün quyudan su çəkməli, 40 gün xalça çırpmalı və xalça-palaz döşəməli, 40 gün odun doğrayıb daşımalı, 40 gün aşpazlıq etməli, 40 gün dükandan lazım olan şeyləri camaat üçün almalı, 40 gün sufi məclislərində xidmətçilik etməli və 40 gün gözətçi qalmalıdır.

Bununla belə, bəzi arif və sufilər çillə ənənəsini bəyənməmiş, hətta çilləyə oturanların Həzrət Mühəmmədə (s) deyil, Musaya tabe olduqlarını (yəni yəhudi dininə inandıqlarını) söyləmişlər. Şəms Təbrizinin «Məqalat» əsərində deyilir: «Çillə saxlayanlar Musaya (ə) tabedirlər, çünki Mühəmmədə (s) tabeçilikdən ləzzət ala bilməmişlər. Onlar heç Mühəmmədə (s) tabe olmaq fikrində də deyildilər, Musanın (ə) tabeçiliyindən azacıq ləzzət alıb o yolu tutmuşlar».

Sufi xanəgahlarında «çilləxana» adlı xüsusi məkanlar olurdu.

bax: *xəlvət.*

N.R.

D

DABBƏTÜL-ƏRZ

«Canlı, minik heyvanı» mənalarını verən «dabbə» kəlməsi ilə «yer» mənasını bildirən «ərz» kəlməsinin birləşməsindən meydana gələn ifadə. Dini anlamda qiyamət əlamətlərindən biri kimi dünyanın sonunda yerdən çıxacaq canlı şəklində təsəvvür edilir. Quranda bu barədə buyurulmuşdur: «Onlara deyilən söz yerinə yetdiyi *(qiyamət yaxınlaşdığı)* zaman onlar üçün yerdən bir heyvan çıxaracağıq ki, onlarla danışıb *(bizim adımızdan)*: «İnsanlar ayələrimizə inanmırdılar» – deyər» *(Nəml, 82).* Dabbətül-ərzin hansı şəkildə olacağı və nə zaman görünəcəyi dəqiq məlum deyil.

R.M.

DARÜL-HƏRB

Qeyri-islami dövlətin hakimiyyəti altındakı ərazini ifadə edən fiqh termini. İslam hökmlərinin tətbiq edilmədiyi məmləkət. Klassik İslam mənbələrində kafir idarə sisteminin hakim olduğu ölkə, kafir dövlət başçısının idarəçiliyi altında olan dövlət darülhərb sayılır. Bu tərifə görə, ölkənin «darül-İslam» və ya «darül-hərb» sayılmasının meyarı – oradakı idarəçilik forması, hüquq sistemidir. Müsəlman liderin hakimiyyəti altında olan və İslam hüququna görə idarə edilən ölkələr «darül-İslam» adlanır. Müsəlman hüquqşunaslarının bəzilərinin fikrincə, darülhərbdə yaşayan müsəlmanlara, işlədiyi cinayətlərə görə İslam cəza hüququ tətbiq edilmir. Əksər hüquqşünaslar isə bu məsələdə darül-hərb ilə darül-İslam arasında heç bir fərq qoymurlar.

A.Q.

DARÜL-İSLAM

İslam məmləkəti, İslam hökmlərinin tətbiq edildiyi yer. İslam hüququna aid mənbələrdə «darül-İslam» müsəlmanların hakimiyyəti altındakı ölkə, müsəlman imamın (dövlət başçısının) idarə etdiyi dövlət mənasında işlədilir. Həzrət Mühəmməd Peyğəmbərin (s) Məkkədən Mədinəyə hicrətindən sonra orada qurduğu müsəlman icması İslam tarixində ilk darül-İslam sayılır.

R.M.

DƏLİL

Lüğəvi mənası «yol göstərən, rəhbər, əlamət, işarə, iz» deməkdir. Kəlam elminə görə, dəlil – hər hansı mövzuda həqiqətə və ya sübutu tələb edilən məsələyə çatdıran vasitədir. Fiqh üsuluna görə, dəlil – üzərində düşünüldükdə şəri və əməli bir hökmü sübuta yetirən vasitə deməkdir. Müamilat (hüquqi fəaliyyətlər) və mühakimə (məhkəmə) hüququnda isə lüğəvi mənasına uyğun olaraq, bir məsələni bilmək üçün əlverişli əlamət anlamını verir.

Dəlillər biliyin mənbəyi baxımından iki qismə bölünür: əqli dəlillər və nəqli dəlillər. *Kəlam* alimlərinə *(mütəkəllimlərə)* görə, nəqli dəlil – hökmləri bütövlüklə nəqlə (rəvayətə) əsaslanan dəlildir. *Fiqh* alimlərinə görə isə, nəqli dəlil – *müctəhidin* səyi *(ictihadı)* olmadan meydana gələn, şəriət sahibindən (Allahdan və Onun Peyğəmbərindən) nəql olunan Qurani-kərim və sünnədir. Kəlam alimlərinə görə, əqli dəlil – bütün hökmləri ağıla əsaslanan dəlildir. Fiqh alimlərinə görə isə, əqli dəlil – nəqli dəlillərlə əlaqədar olmaqla yanaşı, əqli mühakimənin və əqli izahın təsirinə daha çox məruz qalan, ictihad nəticəsində meydana gələn dəlildir.

Kəlam alimlərinin nəzərində dəlil, verdiyi nəticənin dəyəri baxımından da iki qismə ayrılır: qəti dəlil və zənni dəlil. Qəti dəlil – sübuta yetirilən mövzu ilə bağlı əks ehtimalları tamamilə ortadan qaldıra bilən dəlildir. Zənni dəlil isə elə dəlildir ki, sübuta yetirilən mövzu barədə əks ehtimalları tamamilə aradan qaldırmağa qadir deyil.

Fəqihlər (İslam hüquqşünasları) Quranla *məşhur* və *mütəvatir sünnənin* şəriət baxımından dəlil sayılmasında fikir birliyinə malikdirlər. Alimlərin əksəriyyətinə görə, *icma* və *qiyas* isə şəriət baxımından etibarlı dəlil sayılmır.

A.Q.

DƏRGAH

Fars dilində «dər» (qapı) və «gah» (məkan) sözlərinin birləşməsindən ibarətdir. Saray, hüzur mənasını bildirir. Allahın ərşinə yaxın olan, Onun cəlal və camalının daha yaxşı müşahidə edildiyi məkanı «ilahi dərgah» adlandırırlar. Təsəvvüf aləmində sufilərin məskunlaşdıqları ocaq, təriqət şeyxinin iqamətgahı «dərgah» adlandırılır. «Xanəgah» sözünün sinonimi kimi də işlədilir.

bax: *xanəgah*.

N.R.

DƏRVİŞ

Fars dilindən tərcüməsi «qapı-qapı gəzən dilənçi» deməkdir. Geniş anlamda sufi təriqətinin üzvünə deyilir. Sufilikdə dünya malından əl üzüb, özünü Allaha təslim etmiş şəxsə dərviş deyirlər. Keçmişdə dərvişlərin əksəriyyəti əyninə yun kürk geyinib, əlinə *kəşkül* alır, şəhərləri, kəndləri gəzir, dini-irfani şeirlər oxuyub öz fikirlərini yayır və camaatın verdiyi sədəqə hesabına dolanırdı (bax: *qələndər*). Hətta bəzi dərvişlər İslamın bəyənmədiyi yollara əl atır, tərki-dünyalığa qapılır, ac-yalavac və səfil həyat tərzi sürür, evlənmirdilər. Əslində təsəvvüf qaydaları baxımından bu hərəkətlər düzgün sayılmır. Əsl sufi başqalarına möhtac olmamalı, sədəqə istəməməli, öz şəxsiyyətini və izzətinəfsini qorumalıdır. Ona görə də klassik sufi təriqətlərinin bir çoxunda yuxarıda təsvir edilən dərviş həyatı bəyənilmirdi. Sufi mənbələrində əsl dərviş özünü Allaha həsr edən, təsəvvüf yolunu layiqincə qət edən, mənsub olduğu təriqətin göstərişlərini və şeyxin tapşırıqlarını tam ciddiyyətlə yerinə yetirən, başqalarına möhtac olmayan, dünya əhlindən ehtiyacını kəsən, öz rəftarı, əxlaqı, ibadəti, qiyafəsi, zahiri görünüşü ilə insanlara nümunə olan şəxsdir. Göründüyü kimi, əsl dərviş *övliya* məqamına yüksəlmiş *arifdir*.

N.R.

DƏSTƏMAZ

Bəzi ibadətləri icra etmək üçün yerinə yetirilən təmizlik ayini. Ərəb dilində «vüzu», fars və türk dillərində «abdəst» kəlməsi ilə ifadə olunur. Dəstəmaz müəyyən bədən üzvlərini şəriətdə nəzərdə tutulmuş qaydalar və ardıcıllıq əsasında yumaqdan və *məsh* etməkdən ibarətdir.

Dəstəmaz almaq öz-özlüyündə müstəhəb əməldir, amma bəzi ibadətləri yerinə yetirmək üçün mütləq dəstəmaz almaq lazımdır. Namaz (cənazə namazı istisna olmaqla), Kəbə təvafı kimi bir sıra ibadətlər dəstəmazlı halda icra edilməlidir. (Əhli-sünnə məzhəbinə görə, Quranın vacib tilavət səcdəsini yerinə yetirmək üçün, cəfəri məzhəbinə görə isə Quran yazısına, Peyğəmbərin və imamların adına toxunmaq üçün də dəstəmaz almaq gərəkdir). Bunlardan əlavə, Quran tilavətindən əvvəl (yazıya toxunulmasa belə), yatmazdan qabaq və yuxudan oyanandan sonra, evdən çıxarkən və s. hallarda dəstəmaz almağın böyük savabı vardır. İslam müqəddəsləri, övliyalar oyaq olduqları bütün müddət boyunca həmişə dəstəmazlı olmağa çalışırdılar.

Həzrət Mühəmməd Peyğəmbər (s) dəstəmazın əhəmiyyəti haqqında buyurmuşdur: «Dəstəmaz alan müsəlman əllərini yuyanda əlləri ilə etdiyi günahlarını Allah bağışlayar. Üzünü yuyarkən, gözləri ilə etdiyi günahlar (yəni haram şeylərə baxmağın günahı) silinər. Başına məsh çəkərkən, qulaqları ilə eşitdiyi haram söhbətlərə görə qazandığı günahlar bağışlanar. Ayaqlarına növbə çatanda pis işlər dalınca getməklə qazandığı günahlar silinər».

Dəstəmazın mənəvi faydalarından əlavə, həm də maddi xeyirləri var. Hər namaz üçün dəstəmaz alan şəxsin bədənində kir və tər olmaz. Bəzi bədən üzvlərini su ilə islatmaq bir çox xəstəliklərin qarşısını almaq üçün əvəzsiz profilaktika tədbiridir.

Maidə surəsinin 6-cı ayəsində namazdan qabaq mütləq dəstəmaz almağın lazımlığı göstərilir və dəstəmazın rüknləri sadalanır. Bu rüknlər aşağıdakılardan ibarətdir: üzü yumaq, dirsəklər də daxil olmaqla qolları yumaq, başa məsh çəkmək, ayaqları topuqlara qədər məsh etmək (və ya yumaq). Əhli-sünnə məzhəblərindən bəziləri niyyət etməyi, əməllər arasında ardıcıllıq gözləməyi və

çox fasilə verməməyi, yuyulan bədən üzvlərinə əl sürtməyi də dəstəmazın *rüknlərindən (fərzlərindən)* saymışlar. Yuyulacaq və məsh ediləcək üzvlərin su ilə islanmasına əngəl törədən bütün maneələr dəstəmazdan əvvəl aradan qaldırılmalıdır.

Dəstəmazın sünnətlərinə gəlincə, bunların *ən məşhurları aşağıdakılardır: dəstəmazdan* əvvəl bismillah demək, əlləri biləklərə kimi yumaq, ağzı və burunu üç dəfə su ilə yaxalamaq, qulaqları məsh etmək, dəstəmazdan əvvəl *misvakla* dişləri təmizləmək və s. Şiə məzhəbində dəstəmazdan qabaq ağzı və burunu su ilə yaxalamaq müstəhəbdir. Bədən üzvlərini bir dəfə yumaq vacib, iki dəfə yumaq müstəhəb, üç dəfə və daha artıq yumaq isə haramdır. Dəstəmazın suyu halal, pak və saf olmalıdır. Əgər bədəndə yara varsa, adi dəstəmazın əvəzinə *cəbirə dəstəmazı* alınır. Əgər su tapılmazsa və ya sudan içtifadə bədən üçn zərərdirsə, dəstəmaz əvəzinə *təyəmmüm* edilir. Dəstəmazın alınma qaydası İslam məzhəblərində fərqlidir. Bunları dəqiq şəkildə öyrənmək üçün müvafiq şəriət *risalələrinə* (elmihallara) müraciət etmək lazımdır.

Bəzi əməllər dəstəmazı batil edir. Bunların da hökmü məzhəblərdə fərqlidir. Lakin bütün məzhəblərə görə, bədəndən sidik, nəcasət və yel çıxması, dərin yuxuya getmək dəstəmazı pozar. Dəstəmazı pozan başqa əməllər barədə məlumat almaq üçün hər məzhəbə uyğun *risaləyə* (elmihala) müraciət edilməlidir.

N.R.

DİVAN

Klassik Şərq ədəbiyyatında şairlərin şeir külliyyatına deyilir. Divan bəzən yalnız qəzəllərdən ibarət olurdu. Bəzən isə şairlər qəzəllərlə yanaşı, qəsidə, rübai, təxmis, qitə kimi digər janrlarda yazdıqları şeir nümunələrini də öz divanlarına daxil edirdilər. Bir qayda olaraq, divanda qəzəlləri ilk misranın son hərfinə əsasən ardıcıllıqla düzürlər. Yəni ərəb əlifbasının sırasına uyğun olaraq, əvvəlcə misraları «əlif» hərfi ilə bitən qəzəllər, bunun ardınca misraları «be» hərfi ilə, sonra «te» hərfi ilə qurtaran qəzəllər gəlir və s. Klassik şairlərin heç də hamısının divanı olmamışdır. Çünki şair o zaman divan tərtib edə bilərdi ki, ərəb əlifbasının bütün hərfləri ilə bitən qəzəllər yazmış olsun.

Azərbaycan klassik ədəbiyyatında Nəsimi, Xətai, Füzuli, Seyid Əzim Şirvani və başqalarının divanları məşhurdur. Bir neçə divan tərtib etmiş şairlər də olub. Hətta bəzi şairlərin müxtəlif dillərdə bir neçə divanı olub. Məsələn, Füzulinin həm türkcə (azərbaycan dilində), həm də farsca divanı var.

N.R.

DİVAN QURUMLARI

İslam dövlətinin idarəçiliyini həyata keçirən qurumlar. Divanlar hökumət sisteminin ayrı-ayrı istiqamətlərini əhatə edirdi. Bunları müasir anlamda nazirlik qurumları ilə müqayisə etmək olar. «Divan» sözünün fars mənşəli olduğu ehtimal edilir.

İslam tarixində ilk divan qurumu ikinci xəlifə Ömər ibn Xəttabın zamanında təşkil edilmişdi. Xilafət ərazisi böyüdükcə dövlətin idarəetmə mexanizmi də mürəkkəbləşirdi. Xüsusilə, ayrı-ayrı vilayətlərdən gələn vergilərin qeydiyyatı, beytül-malın müsəlmanlar arasında bölünməsi dəqiq nizam-intizam tələb edirdi. Müsəlmanlar İran və Suriya torpaqlarını fəth edərkən, burada Sasani və Bizans imperiyalarına məxsus dövlətçilik ənənələri ilə tanış oldular. Onların divan sistemi də bu arada müsəlmanlar tərəfindən mənimsənildi. Ömər ibn Xəttabın əmri ilə xilafətin bütün iri şəhərlərində əhalinin siyahıya alınması həyata keçirildi. Bundan sonra bütün maliyyə əməliyyatlarını xüsusi dəftərlərdə yazılı şəkildə aparmağa başladılar.

Əməvi və Abbasi xilafətlərində divan qurumu get-gedə təkmilləşirdi. Əsasən, fars mənşəli əhalinin yardımı ilə hakimiyyətə gələn və onlara arxalanan Abbasilər dövlət idarəçiliyində İran ənənələrini tətbiq etməyə üstünlük verirdilər. Abbasilər dövründə divan qurumları özünün çiçəklənmə mərhələsini yaşamışdır.

Abbasilər dövrünə aid mənbələrdə 10-dan artıq divanın adı və vəzifəsi göstərilmişdir.

Divanların ən məşhurları divanül-xərac, divanüd-diyat, divanüz-zimam, divanül-cünd, divanül-məvali, divanül-bərid, divanür-rəsail və divanül-həvaic idi.

Divanül-xərac bütün bölgələrdən göndərilən xəracı toplayır və hesabını aparırdı. Divanüd-diyat qanbahalarının *(diyə)* ödənişlərinə nəzarət edir və hökumətin öhdəsində olan qanbahalarını sahiblərinə ödəyirdi. Divanüz-zimam əsasən İraq ərazisində vergilərin toplanmasını həyata keçirir, sair bölgələrin vergi ödənişlərinə nəzarət edirdi. Divanül-cünd orduya nəzarət, ordu tərkibinin hesabı, döyüşçülərin məvacibinin ödənişi və s. məsələlərlə məşğul idi. Divanül-məvali qeyri-ərəb mənşəli qulamların xidmətə götürülməsi və hesabının aparılmasını həyata keçirirdi. Divanül-bəridə xilafətin poçt xidməti həvalə edilmişdi. Divanür-rəsail saray dəftərxanası rolunu oynayırdı; xəlifənin əmr və fərmanlarını qələmə alıb möhürlətmək və ünvanına göndərmək onun səlahiyyətlərinə aid idi. Divanül-həvaic ehtiyacı olan şəxslərin məktub və ərizələrinə baxır, onları lazımi ünvanlara çatdırır, ərizələrin cavablandırılmasını təmin edir və xahiş olunan problemin həllinə nəzarəti həyata keçirirdi.

Bunlardan əlavə, xilafət ərazisində su kanallarının, körpü və yolların çəkilişinə, dövlət məmurlarının təyinatına və vəzifədən azad edilmələrinə nəzarəti həyata keçirən, habelə, qeyri-müsəlmanlarla iş məsələlərinə baxan divanlar da fəaliyyət göstərirdi.

Divanların arasında poçt xidməti ilə məşğul olan divanül-bərid xüsusi diqqətə layiq idi. Bu divan dövlət məktublarının daşınmasını həyata keçirirdi. Bütün xilafət ərazisində çaparxanalar quraşdırılmışdı. Xəbərlərin operativ ötürülməsi üçün atlarla yanaşı, poçt göyərçinlərindən də istifadə edilirdi. Poçt xidmətinin birinci dərəcəli vəzifəsi ucqar vilayətlərdən gələn dövlət əhmiyyətli məktub və sənədləri vaxtında paytaxta çatdırmaq və bunların cavablarını həmin bölgələrə aparmaq idi. Bundan əlavə, divan-ül-bərid xilafətlə həmsərhəd olan dövlətlərin ərazisində baş verən mühüm hadisələri izləyir, casusların gətirdiyi xəbərləri analiz edirdi. Bu baxımdan, divanın işi müasir dünya ölkələrindəki Milli Təhlükəsizlik Nazirliklərinin fəaliyyətini xatırladırdı. Zaman keçdikcə, poçt xidməti xəlifənin casusuna çevrildi; xəlifə onun köməyilə uzaq bölgələrdə baş verənlərə nəzarət edir, valilərin hər addımını izləyirdi.

İkinci Abbasi xəlifəsi Mənsur Dəvaniqinin dövründə divanül-bəridin fəaliyyəti elə operativləşmişdi ki, bütün vilayətlərdə baş verən yeni hadisələr gündə iki dəfə xəlifəyə məruzə olunurdu. Mənsur sübh namazını qıldıqdan sonra ötən gecə baş verənləri öyrənir, axşam namazından sonra isə gündüz vaxtının hadisələri ilə tanış olurdu. Poçt xəbərləri vasitəsilə hər vilayətdə valinin iş qabiliyyəti, əhali ilə münasibəti, xəlifəyə itaət səviyyəsi, habelə, bazardakı qiymət məzənnəsi paytaxta xəbər verilirdi. Xəlifə bu xəbərlər əsasında istədiyi an bəyənmədiyi valini və ya qazini işdən azad edir, artan qiymətləri əvvəlki məzənnəsinə salırdı.

Divanlarda qeydiyyat işləri son dərəcə dəqiqliklə aparıldığı üçün, bəzən qiyamətdəki məhşər toplantısını da divanların işinə bənzədir və «Allahın haqq divanı» adlandırırlar.

N.R.

DİYƏ

Qətl nəticəsində ödənilən təzminat (mal və ya pul, qanbahası). Bədən üzvlərinə qarşı edilmiş cinayətlərdə (yaralama) miqdarı şəriətdə müəyyən edilməyən və hakim tərəfindən təyin olunan mal və ya pula isə «ərş» deyilir. Başqa bir tərifə görə, ölümlə nəticələnməyən yaralama hadisəsi, insanın şikəst olmasına və ya əmək qabiliyyətini itirməsinə səbəb olan hərəkətlər zamanı verilən, məbləği şəriətdə müəyyən olunmayan əvəzə «ərş» deyilir.

Qurani-kərimdə səhvən bir möminin öldürülməsinə görə kəffarə olaraq bir köləni azad etmək və öldürülənin ailəsinə diyə (qanbahası) vermək əmr olunur *(Nisa, 92)*. Bununla belə, Quranda diyənin miqdarı və verilmə şəkli ilə bağlı təfərrüatlar yoxdur.

Səhvən edilən qətl zamanı ödənilən diyə

sünnədə konkret müəyyən olunmuş bir təzminatdır. Zərərçəkənin qohum-əqrəbası bağışlamadığı təqdirdə diyə ödənməlidir. Həzrət Mühəmməd Peyğəmbərdən (s) rəvayət olunan müxtəlif hədislərdə diyənin aşağıdakı məbləğləri qeyd olunur: 100 baş dəvə, 100 dinar qızıl, 10000 və ya 12000 dirhəm gümüş, 200 baş inək, 2000 baş qoyun və ya 200 paltar *(Sünənü Əbu Davud, Kitabüd-Diyat, XVIII, XIX və XX bablar; Sünənüt-Tirmizi, Kitabüd-Diyat, I bab; Sünənü Nəsai, Kitabül-Qəsamə, XXX, XXXII və XLIV bablar; əl-Müvətta, Kitabül-Üqul)*. Hədislərdə müxtəlif bədən üzvlərinin diyə məbləğləri də qeyd olunmuşdur.

Bədən üzvlərinə qarşı edilən yaralama cinayətlərinin əvəzində ərş təyin edilərkən cinayətin dərəcəsi, işlənmə tərzi, dəyən zərər, orqanın funksiyalarının pozulma və ya məhdudlaşma dərəcəsi, yaralanmış bədən üzvünün tək və ya çox olması kimi şərtlər nəzərə alınır.

A.Q.

DONUZ ƏTİ

İslamda yeyilməsi qəti surətdə haram olan qida. Donuz əti yeməyin qadağan olması Quranın bu ayəsində açıq-aşkar surətdə bildirilir: «O *(Allah)* sizə ölmüş heyvanı, qanı, donuz ətini, Allahdan başqasının adı ilə kəsilənləri yeməyi qətiyyətlə haram etmişdir...» *(Bəqərə, 173)*. Həmçinin, Nəhl surəsinin 115-ci, Maidə surəsinin 5-ci və Ənam surəsinin 145-ci ayələrində də donuz ətini yeməyin haramlığı vurğulanır.

Bibliyada da donuz əti haram qidalar sırasında xatırlanır: «Donuz qoşadırnaqlı heyvandır, amma gövşəmir. Onlar *(donuzlar)* sizdən ötrü pak heyvanlar deyil, onların ətini yeməyin, leşlərinə də toxunmayın» (Təsniyə, XIV, 8). Yəhudilər də buna əsasən donuz əti yemirlər.

Donuz ətinin haram olmasının səbəblərindən biri donuzun həddən artıq murdar və çirkin heyvan olmasıdır. Ev heyvanları arasında donuz ən murdar həyat tərzinə və qida rasionuna malik heyvan sayıla bilər.

Donuz ətinin tərkibində insan orqanizmi üçün çox təhlükəli olan mikrobların mövcudluğu dünyanın ən aparıcı tibb müəssisələri və mütəxəssisləri tərəfindən təsdiq edilib. Donuz ətindəki qurdlar, xüsusilə trixinella qurdları (Trichinella Spitalis) insan orqanizminə daxil olduqda trixinellez xəstəliyini yaradır. Bu xəstəlik ensefalit (sinir sisteminin zədələnməsi) və miokardit (ürək əzələlərinin funksiyasının pozulması) kimi ağır nəticələrə gətirib-çıxara bilər.

Donuz ətinin tərkibindəki Taenia Solium paraziti (donuz soliteri) – beyin xəstəliklərinin, askarid qurdları – həzm sistemi pozuntularının, Schitosoma Japonicum mikrobu – iflicin, Paragomines Westermani mikrobu – ağciyər qanaxmalarının törədicisi sayılır. Bundan əlavə, donuz ətini qəbul edənlərdə vərəm, vəba, çiçək, kəskin ishal kimi qorxulu xəstəliklər də yarana bilər. Donuz ətindəki parazitlərlə yoluxmuş anadan doğulan uşaqlar ya dərhal ölür, ya da kar və kor olurlar.

Maraqlıdır ki, başqa ətlərdən fərqli olaraq donuz əti hətta qaynadıldıqda belə, yuxarıda sadalanan xəstəlik törədicilərindən təmizlənmir. Deyilənlərə alimlər tərəfindən sübuta yetirilmiş daha bir faktı da əlavə edək: Bütün heyanlardan fərqli olaraq, yalnız donuz orqanizmdə toplanmış sidiyin cəmi 10 faizini təbii yolla bədəndən çıxarır, qalan 90 faiz sidik isə onun bədənində qalaraq, piyə çevrilir.

N.R.

DUA

Çağırma, səslənmə, yalvarıb-yaxarma. İslam dininə görə, dua etmək ibadət sayılır. Dua insanın öz acizliyini dərk edib Allahdan bağışlanma istəməsi və ona şükr etməsidir. Qurani-kərim dua etməyi əsas bəşəri keyfiyyətlərdən biri sayır. Allah-təala da öz bəndələrinin Ona dua etməsini istəyir. Həmçinin, mələklərin də Allaha, peyğəmbərlərə və insanlara dua etdiyi məlumdur.

R.M.

E

ECAZ

Ərəb dilindən tərcüməsi «başqalarını aciz etmək» mənasını verir. Qurani-kərimin bənzərsizliyi və təkrarsızlığı barədə istifadə edilən termindir.

Qurani-kərim bənzərsiz bir kitabdır. Həzrət Mühəmməd Peyğəmbərin (s) sözləri ilə desək, «Quran kəlmələrinin başqa sözlərdən üstünlüyü Allahın başqa varlıqlardan üstünlüyü kimidir». Allahdan savayı heç kim Qurana bənzər kitab yaratmağa qadir deyil. Qurani-kərimin bu bənzərsizlik və təkrarsızlığına «ecaz» deyirlər.

Quranın ecazını əsasən iki istiqamətdə aydın şəkildə görmək mümkündür: ədəbi sahədə və elmi sahədə.

a) Ədəbi ecaz

Qurani-kərimin kəlmələrinin zahiri və batini mənaları, düzülüşü, həmahəngliyi və sairə xüsusiyyətlər birləşərək Quranın daxilində yalnız ona xas olan bir nizam-intizam yaradır; bu, ədəbi ecazdır. Quran ayələri özünəməxsus qafiyə və ahəngə tabedir, eyni zamanda şeirdən fərqlənir. Məsələn, hamımıza tanış olan Fatihə surəsində bütün ayələr «in» və ya «im» sonluğu ilə bitir. Amma bu ahəngdarlığa baxmayaraq, Fatihə surəsi bütövlükdə heç də şeir təsiri bağışlamır.

Qurandakı hər söz bir neçə rəmzi məna ifadə edir. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub ki, Quranın hər bir kəlməsinin yeddi batini (gizli) mənası var. Buna görə də ayələr yalnız ərəb dilində səslənərkən lazımi effekti verir. Quranın hər hansı başqa dilə tərcüməsi nə qədər ustalıqla edilsə də, yenə ecazı əks etdirə bilmir və naqis görünür.

Quran ayələrinin bir xüsusiyyəti də budur ki, onları insanlar tərəfindən qoşulmuş «saxta» ayələrdən asanlıqla ayırmaq mümkündür. Quranın ayələri ərəb dilindəki bütün ədəbi nümunələrdən, şeir, nəsr və hətta hədislərdən seçilir.

Quranın ecazını sübut edən başqa bir cəhət bundan ibarətdir: Qurani-kərim asanlıqla əzbərlənir. 600 səhifəlik heç bir kitab bu qədər rahatlıqla əzbərlənə bilməz. Bu gün dünyada Qurani-kərimi əzbər bilən on minlərlə insan *(hafiz)* yaşayır.

b) Elmi ecaz

Qurani-kərim demək olar ki, bütün elm sahələrində o dövrə qədər məlum olan bilikləri tamamlamış, sonradan edilən kəşfləri isə əsrlərlə qabaqlamışdır. Quranda tarix, sosiologiya, coğrafiya, biologiya, fizika, astronomiya, tibb və s. elm sahələrinə aid ən düzgün məlumatlar toplanmışdır. Bu günə kimi dünya elmi nə qədər nailiyyətlər əldə etmişsə, bunların demək olar ki, hamısını VII əsrdə Allah-təala Quranda bildirmişdir. Dünya şöhrətli bioloq, sonradan İslamı qəbul etmiş professor Moris Bukay Qurana əsaslanan bir elmi kəşfinə görə Nobel mükafatı alarkən belə demişdi: «Əgər mən 20 il bundan əvvəl Quranla tanış olsaydım, Nobel mükafatını o zaman alardım». Nəzərə almalıyıq ki, Quran nazil olduğu dövrdə Ərəbistan dünyanın mədəniyyət və elm baxımından ən geridə qalmış məntəqəsi sayılırdı. Həmçinin, Həzrət Mühəmməd Peyğəmbər (s) də yazıb-oxumaq bacarmırdı ki, başqa xalqların elmi kitablarını oxuyub-öyrənsin, yaxud özündən yeni-yeni kəşflər etsin. Bunlar sübut edir ki, həqiqətən, Quran bəşər imkanlarından qat-qat üstün səviyyəyə malik kitabdır və Allah tərəfindən endirilmişdir.

Quranda qabaqcadan xəbər verilmiş elmi kəşflərdən bəzi nümunələr:

1. Quranda insanın ana bətnindəki inkişafı barədə belə deyilir: «O *(Allah)*, sizi analarınızın bətnində üç zülmət içində yaranışdan-yaranışa salaraq yaradır» *(Zümər, 6)*. Uzun əsrlər boyunca bu ayənin izahı insanlar üçün qeyri-məlum qalmışdı. Nəhayət, yalnız son illərdə mürəkkəb müşahidələr nəticəsində məlum olmuşdur ki, həqiqitən, ana bətnindəki rüşeym üçqat pərdə ilə əhatə olunur. Bu məsələ elmi dairədə elə sensasiya doğurdu ki, K.Mur adlı dünya şöhrətli anatom İslam dinini qəbul edib müsəlman oldu.

2. Məlumdur ki, insanın barmaqlarının ucundakı cizgilər mütləq mənada fərqli və təkraredilməzdir. Heç kəsin barmağının cizgiləri başqasınınkı ilə eyni deyildir. İnsanın bu xüsusiyyəti yalnız XIX əsrdə Qərb alimləri tərəfindən kəşf olunaraq həyatda öz tətbiqini tapmışdır. 100 ildən artıqdır ki, insanın şəxsiyyətini təsdiq etmək üçün ən uğurlu tanıma üsulu kimi nə pasport, nə fotoşəkil, nə səs testi deyil, yalnız barmaq izlərinin analizi tətbiq olunur. Ən mürəkkəb elm sahələrindən sayılan kriminologiya və cinayət-istintaq ekspertizasında cinayətkarların tanınması üçün bu üsuldan müvəffəqiyyətlə istifadə edirlər.

Ən əsası budur ki, elm tərəfindən yalnız XIX əsrdə kəşf edilmiş bu xüsusiyyət vaxtilə Qurani-kərimdə elan olunmuşdu: «Məgər insan elə güman edir ki, *(qiyamət günü)* onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Bəli, biz onu barmaqlarının ucunu da *(yenidən)* düzəltməyə qadirik» *(Qiyamət, 3-4)*. Ayədə barmaqların ucunun yaradılması, yəni barmaq uclarındakı cizgilərin bənzərsizliyinin təmin edlməsi insan yaradılışının ən çətin mərhələsi sayılır. Heç bir alim buna qadir deyildir; bu qüdrət yalnız uca Allaha məxsusdur.

3. XX əsrin 60-cı illərində coğrafiyaşünaslar tərəfindən maraqlı bir kəşf edildi. Məlum oldu ki, Qırmızı dənizlə Əqəbə körfəzinin qovuşduğu yerdə, suyun altında yüzlərlə metr hündürlüyə malik təbii sədd vardır. Bu sədd okeanla körfəzin sularını birbirindən ayırır. Həmin səddin yerləşdiyi xəttin iki tərəfindəki suların kimyəvi tərkibi tamamilə fərqlidir. Bir qədər sonra eyni hadisə məşhur dəniz səyyahı kapitan Kusto tərəfindən Atlantik okeanı ilə Aralıq dənizini ayıran Cəbəlüt-tariq boğazında da kəşf olundu. Lakin Quran bu həqiqiəti də əsrlərlə qabaqcadan xəbər vermişdi: «İki dənizi O *(yəni Allah)* qovuşdurdu. Amma onların arasında manea vardır, bir-birinə qarışmazlar» (Rəhman, 19-20).

Tarixdə bəzi inadkar şəxslər peyğəmbərlik iddiası edərək, özlərindən Quran yaratmağa çalışmış, amma tezliklə bu yolda tam müvəffəqiyyətsizliyə uğramışlar (yalançı «peyğəmbərlər» *Müseylimə, Tüleyhə, Səccah*, məşhur ədiblər Mütənəbbi, İbn Ravəndi, İbn Müqəffe, materialist *(dəhri)* alim İbn Əbül-Övca və b.). Quranla yarışmaya girmiş şəxslərdən kimin azacıq insafı olmuşsa, bu işin qeyri-mümkünlüyünü anlayaraq Quranın üstünlüyünü etiraf etmişdir. Ən inadkarlar isə Qurana tay hesab edərək uydurduqları ayələri cəmiyyətə təqdim edəndə hamının tənqid və gülüş hədəfinə çevrilmişlər. Qurani-kərimdə Allah-təala bu barədə belə buyurur: «De: «Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər» *(İsra, 88)*. Allah-təala Quranın bənzərsizliyini inkar edən insanları nəinki bütöv bir kitab, hətta 10 surə *(Hud, 13)* və ya cəmi bir surə *(Yunus, 38)* yaratmağa çağırır.

N.R.

EHRAM

Həcc və ya ümrə niyyəti edən şəxsin digər vaxtlarda halal olan bir sıra əməlləri sözügedən ibadətlərin rüknləri tamamlanıncaya qədər özünə haram etməsinə deyilir. Ehramın iki rüknü vardır: niyyət və təlbiyə. Niyyət – həcc və ya ümrə etməyi qərara almaqdır. Niyyətin dil ilə edilməsi müstəhəbdir. Təlbiyə haqqında *«təlbiyə»* məqaləsində məlumat verilmişdir.

Ehrama girməzdən əvvəl dırnaqları tutmaq, təmizlik məqsədilə qüsl almaq, ətirlənmək, ehram adlanan iki ədəd tikişsiz parçadan ibarət örtüyə bürünmək, iki rükət namaz qılmaq sünnətdir. Ehramda olduğu müddət ərzində də ucadan təlbiyə söyləmək sünnət sayılır.

Niyyət və təlbiyədən sonra ehramın qadağanları qüvvəyə minir. Ehramlı şəxsin bədənindəki saç və tükləri kəsməsi, yolması və ya qırxması, dırnaq tutması, tikişli paltar geyməsi (kişilər üçün), ətirlənməsi, bəzək məqsədilə bədəninə yağ sürtməsi, başını (kişilər üçün) və üzünü örtməsi, əllərinə əlcək, ayaqlarına topuqları örtən corab və ayaqqabı geyinməsi, cinsi əlaqədə olması,

ov etməsi, hərəm bölgəsindəki bitkiləri kəsməsi qadağandır.

A.Q.

EHSAN (İHSAN)

Ərəb dilindən tərcüməsi «yaxşılıq» deməkdir. Dini anlamda Allahın razılığına səbəb olan bütün əməllər, xüsusilə, insanın başqalarına münasibətdə göstərdiyi xeyirxahlıq ehsan sayılır. Qurani-kərimdə Allah-təala öz bəndələrinə müraciətlə buyurur: «Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara *(haqqını)* verməyi buyurur, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir...» *(Nəhl, 90).* İslamda ehsan – həm Allah-təala tərəfindən öz bəndələrinə ünvanlanmış sonsuz nemətlər mənasında, həm də insanların bir-birinə münasibətdə nümayiş etdirdikləri qarşılıqlı yardım və qayğı anlamında başa düşülür: «...Allah sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et...» *(Qəsəs, 77).*

Dinimiz tövsiyə edir ki, insanlar həmişə bir-birinə qarşı diqqət və sayğı ilə davransınlar, bir kəsin çətinliklərini həll etmək üçün bütün cəmiyyət səfərbər olsun, insanlararası münasibətlərdə xeyirxahlıq, dözümlülük və məhəbbət hökm sürsün. İslam dini yaxşılığa pisliklə cavab verməyi böyük nankorluq sayır: «Yaxşılığın əvəzi ancaq yaxşılıqdır» *(Rəhman, 60).* Hətta pislik müqabilində də yaxşılıq etməyə, səhvləri bağışlamağa çalışmaq müsəlman əxlaqının özəl xüsusiyyətlərindən sayılır. Bir gün Həzrət Mühəmməd Peyğəmbər (s) öz səhabələrinə buyurdu: «Dünyada və axirətdə sizə ən çox xeyir verəcək əməlləri bildirimmi? Bunlar sənə zülm edəni bağışlamaq, səndən əlaqəsini kəsənlərlə rabitə yaratmaq, sənə pislik edənlərə yaxşılıq etmək, səndən əsirgəyənlərə bəxşiş verməkdir». İmam Rza (ə) isə buyurmuşdur: «Ədalət və ehsanla davranmaq nemətin davam etməsini müjdə verər».

Başqalarına yaxşılıq etmək xüsusiyyəti Allahın öz bəndəsində ən çox bəyəndiyi xasiyyətlərdəndir: «Yaxşılıq edin. Allah yaxşılıq edənləri sevər!» *(Bəqərə, 195).*

N.R.

EHTİLAM

Ərəb dilində «yuxu» mənasını bildirən «hülm» sözündən qaynaqlanır. Şəhvət oyadan yuxunun təsiri ilə insandan qeyri-ixtiyari şəkildə *məni* xaric olmasına deyilir. Ehtilam olmuş şəxs də ayıqlıqda olduğu kimi *cünüb* (cənabətli) sayılır. Namaz qılmaq, oruc tutmaq, Quran yazısına toxunmaq kimi paklıq tələb edən əməlləri yerinə yetirmək üçün mütləq qüsl almalıdır. Ehtilam yetkinlik yaşına çatmağın əlamətlərindən biridir. Ramazan gecəsində ehtilam olmuş şəxs sübh azanından əvvəl yuxudan oyansa, qüsl almalıdır. Əgər sübh azanından sonra ayılsa, yaxud gün ərzində yatıb ehtilam olsa, yuxudan ayıldıqdan sonra orucunu davam etdirməlidir və həmin günün orucu düzgün sayılır (əgər məninin gəlməsinin qarşısını almaq mümkün deyilsə).

Ehtilamın əsas şərti məninin şəhvətlə gəlməsidir. İnsan nə qədər şəhvətli yuxu görsə də, əgər məni gəlməyibsə, bu, ehtilam sayılmır və həmin adam cünüb hesab edilmir.

Ehtilam halına düşməmək üçün yatmazdan əvvəl bu duanı oxumaq tövsiyə edilib: «Allahümmə inni əuzü bikə minəl-ihtilami və min suil-əhlami və ən yətəlaəbə biş-şeytani fil-yəqzəti vəl-mənam». Tərcüməsi: «Allahım, ehtilamdan, pis yuxudan, ayıqlıq və yuxu halında şeytanın mənimlə oynamasından Sənə sığınıram». Həmçinin, yatmazdan qabaq Tariq surəsini oxumaq da ehtilamın qarşısını alır.

N.R.

EHTİYAT

Ərəb dilindən tərcümədə «hər hansı məsələnin bütün cəhətlərini araşdırmaq» deməkdir. Ərəbcə «əhatə» kökündəndir. Çünki ehtiyata əməl edən şəxs məsələ haqqındakı bütün ehtimalları diqqətlə araşdırır və bunların hamısını əhatə etməyə çalışır. Sadə dillə desək, ehtiyat budur ki, insan hər hansı məsələdə günaha düşməmək və öz dini vəzifəsini yerinə yetirmək üçün ehtimal olunan variantların hamısını qane edəcək bir yol seçir və buna uyğun əməl edir.

Məsələn, hənəfi məzhəbində İmam Əbu Hənifənin fətvasına görə, zöhr namazının qılınma vaxtı Günəşin zenit nöqtəsindən qərbə tərəf meyllənməyə başladığı anda başlayır və kölgə əşyanın öz boyunun iki misli qədər olduğu anda qurtarır. Amma Əbu Hənifənin başqa bir fətvasına, eləcə də, onun şagirdi Əbu Yusifin, İmam Malikin, Şafiinin və Əhməd ibn Hənbəlin fətvalarına əsasən, zöhr vaxtının sonu əşyanın kölgəsi öz uzunluğu qədər oluncaya kimidir. Buna görə də, hənəfi məzhəbində zöhr namazını əşyanın kölgəsi özü boyda olana kimi qılıb qurtarmaq ehtiyata uyğun sayılır.

Yaxud əgər insan qiblənin istiqamətini heç cür təyin edə bilmirsə, gərək ehtiyata uyğun əməl edib, eyni namazı 4 istiqamətə doğru 4 dəfə qılsın. Əgər qiblənin iki tərəfdən birində olduğunu güman etsə, ehtiyata görə, hər iki istiqamətə namaz qılmalıdır.

Cəfəri məzhəbinə görə, hər bir insan şəriət məsələlərinə münasibətdə 3 mövqedən birinə sahib olmalıdır:

– ya özü müctəhid olmalı, yəni ilkin mənbələrdən (*Quran, sünnə* və *icmadan*) ağıl vasitəsilə şəriət hökmlərini çıxarmağı və əsaslandırmağı bacarmalı, həmin məsələlərdə öz ictihadına əməl etməli;

– ya müqəllid olmalı, yəni *mərceyi-təqlid* müctəhidin fətvalarına uyğun olaraq şəriət əməllərini icra etməli;

– ya da ehtiyata uyğun davranmalıdır. Ehtiyata uyğun davranmağın mənası budur ki, insan İslamın ilk əsrlərindən indiyə kimi yaşamış bütün mərceyi-təqlidlərin fətvalarını öyrənməli və bu fətvalar əsasında ən ciddi mövqeyi izləməlidir. Yəni hər hansı əməl barəsində bütün müctəhidlər «halaldır» desələr, yalnız bir müctəhid «haramdır» desə, həmin əməli haram saymalıdır. Əksinə, hər hansı əməli bütün müctəhidlər müstəhəb, bircə müctəhid vacib saysa, o əməli vacib kimi qəbul etməlidir.

Cəfəri fiqhində vacib ehtiyat və müstəhəb ehtiyat kimi məfhumlar da var. Vacib ehtiyat budur ki, müctəhid bir məsələ barəsində dəqiq fətva vermir, «ehtiyata görə, filan cür etmək lazımdır» deyir. Bu halda insan (müqəllid) öz istəyinə uyğun olaraq, ya bu vacib ehtiyata əməl edir, ya da elm baxımından həmin müctəhiddən bir qədər aşağı, amma başqa müctəhidlərdən yuxarı səviyyədə duran müctəhidin fətvalarına müraciət edir. Əgər həmin müctəhid bu məsələ barədə dəqiq fətva veribsə, ona əməl etmək olar. Müstəhəb ehtiyat isə budur ki, müctəhid bir məsələ barədə dəqiq fətva verir, ardınca yazır: «Amma ehtiyata görə, bu işi filan cür yerinə yetirsin». Bu halda insan (müqəllid) öz istəyinə uyğun olaraq, ya bu fətvaya, ya da ehtiyata əməl edə bilər; başqa müctəhidlərin fətvalarına müraciət edə bilməz.

Bunu da qeyd edək ki, yeri gəlmədən ehtiyata əməl etmək vasvasılığa gətirib-çıxarır; bu isə dinimizdə qətiyyən bəyənilmir. Həzrət Mühəmməd Peyğəmbər (s) yersiz ehtiyat edən şəxslərə müraciətlə buyurub: «Halalı haram sayan kəs haramı halal sayan şəxs kimidir». Yəni qadağanları pozmaq nə qədər günahdırsa, özündən qadağanlar uydurub yersiz ehtiyat etmək də eyni dərəcədə günahdır.

N.R.

ELMÜL-YƏQİN

bax: *yəqin.*

ETİKAF

Ərəb dilindən tərcümədə «məcburiyyət, davamlı olaraq icra etmək, ətrafında dövrə vurmaq, tərk etməmək» kimi mənaları verir. İslam şəriətində etikaf ibadət növüdür. Özözlüyündə müstəhəbdir, amma nəzir demək, and içmək vasitəsilə insana vacib ola bilər. Bir neçə gün müddətində məscidə çəkilib bütün vaxtını namaz, dua, zikr, Quran tilavəti və sairə bu kimi ibadətlərə həsr etməyə deyilir. Etikafda olan şəxs oruc tutmalıdır. Etikafda olan şəxsin zərurət olmadan (ayaqyoluna getmək, dəstəmaz almaq və s. hallar nəzərdə tutulur) məscidi tərk etməsi qadağandır. Etikafa çəkilən adama «akif» və ya mütəkif deyirlər. Həzrət Mühəmməd Pey-

ğəmbər (s) və məsum imamlar 3 gün və daha artıq müddətdə etikafa gedirdilər. Peyğəmbər hər ilin ramazan ayının son 10 günündə etikafa çəkilirdi. Hətta hicrətin 2-ci ilində ramazan ayında baş vermiş Bədr savaşı zamanı etikafa girə bilmədiyi üçün növbəti il bunu qəza etmişdi.

N.R.

EYDÜL-ƏZHA

Zilhiccə ayının 10-cu gününün (Qurban bayramı) adıdır. Qurban kəsilən heyvana da zəhiyyə və ya üzhiyyə deyirlər. Ərəb dilində eyni kökdən olan «züha» sözü Günəşin doğuş anını ifadə edir.

Qurban bayramı ilə Fitr (ramazan) bayramı müsəlmanların iki ən böyük bayramı sayılır. Rəvayətə görə, Həzrət Mühəmməd Peyğəmbər (s) Məkkədən Mədinəyə hicrət etdikdən sonra Mədinə camaatı arasında ildə iki dəfə bayram keçirməyin ənənəvi hal aldığını görür və onlara buyurur: «Bu iki bayramın əvəzində Allah sizə bunlardan daha yaxşı iki başqa bayram lütf etdi: Əzha (qurban) və Fitr (ramazan) bayramlarını».

Qurban bayramı günündə həccdə olanlar şəriətdə nəzərdə tutulmuş qaydada ibadətlərini yerinə yetirirlər. Öz evində olanlar isə həmin gün qüsl alır, ətirlənir, təzə və təmiz libas geyinirlər. Bayram günündə qohum-qonşunu ziyarət etmək, onlara bayram hədiyyəsi aparmaq, küsülüləri barışdırmaq adətdir. Həmin gün qurban kəsənlər öz yaxınlarına və ehtiyaclı kimsələrə ətdən pay göndərirlər. Eydül-Əzha günündə kasıblara əl tutmaq, sədəqə vermək böyük savabdır.

bax: *qurban.*

N.R.

EYNÜL-YƏQİN

bax: *yəqin.*

ƏBA

Müsəlman Şərqində geniş yayılmış üst geyim növü. Uzun ətəkli, qollu, geniş ölçülü və bir qayda olaraq, düyməsiz tikilir. *Əmmamə* və *nəleynlə* birlikdə klassik müsəlman geyiminin əsas elementlərindən sayılır. Hal-hazırda daha çox din xadimləri və mədrəsə tələbələri tərəfindən geyilir. Gündəlik həyatda tünd rəngli (qara və qəhvəyi) əbadan daha çox istifadə edilir. Namaz qılan zaman açıq rəngli əba geyinmək müstəhəb sayılır.

Həzrət Mühəmməd Peyğəmbərin (s) geyimlərindən bəhs edən rəvayətlərdə «əba» sözünə demək olar ki, rast gəlmirik. Amma buna yaxın mənanı ifadə edən «rida» və «bürdə» kəlmələri tez-tez işlədilir. Peyğəmbərin geyiminin «əbaə» adlandırıldığı nadir hədislərdən biri Təbərinin təfsirindədir *(XIX, 103).* Əhzab surəsinin 33-cü ayəsini izah edərkən, Təbəri bir neçə hədis verir ki, bunlardan birində Peyğəmbərin Əlini, Fatiməni, Həsən və Hüseyni (ə) öz əbaəsi altına alıb, onlar haqqında dua etməsindən danışılır. Qeyd edək ki, bu hadisənin təsvir edildiyi hədis İslam aləmində «kisa hədisi» kimi məşhurdur. (Ərəb dilində kisa – köynək deməkdir). Bununla belə, yuxarıda adları çəkilən şəxslər daha çox *ali-əba* (əba əhli) adı ilə tanınırlar.

N.R.

ƏBABİL QUŞLARI

Quranın Fil surəsində təsvir edilən quşlar. «Əbabil» kəlməsinin mənası «dəstələr, toplumlar» deməkdir. Tək forması yoxdur, cəmdə işlədilir. Fil surəsində adı çəkilən bu quşlar Kəbəni dağıtmaq məqsədilə Məkkəyə hücum etmiş Yəmən valisi Əbrəhənin ordusunu məhv etmək üçün Allah tərəfindən göndərilmişlər. Onlar ağızlarında və caynaqlarında tutduqları noxuddan kiçik daşları Əbrəhənin ordusunun üzərinə atmış və qoşunu məhv etmişlər.

K.M.

ƏBCƏD

Ərəb əlifbasındakı 28 hərfin hər birinin ədəd ekvivalentini müəyyən edən və beləliklə də istənilən ədədi hərf və söz vasitəsilə ifadə etməyə imkan verən sistem. «Əbcəd» sözü ərəb əlifbasının ilk 4 hərfindən (əlif, be, cim və dal) yaranıb. Əbcəd hesabına görə, 1-dən 1000-ə kimi bütün ədədlər 28 hərfin kombinasiyaları vasitəsilə göstərilə bilər. Bu 28 hərfi ardıcıl olaraq yadda saxlamaq üçün onları 8 sözdə birləşdirmişlər: əbcəd, həvvəz, hütti, kələmən, səfəs, qərəşət, səxəz və zəzəğ. Bu sözlərin hər hansı məna daşıdığı barədə məlumat yoxdur.

Əlifbanın ilk 9 hərfi 1-dən 9-a kimi tək rəqəmləri, sonrakı 9 hərf 10-dan 20-yə kimi onluq ədədləri, növbəti 9 hərf 100-dən 900-ə kimi yüzlükləri, nəhayət, sonuncu hərf 1000 ədədini ifadə edir.

Əlif–1, be-2, cim-3, dal-4, he-5, vav-6, ze-7, ha-8, ta-9, ye-10, kaf-20, lam-30, mim-40, nun-50, sin-60, ayn-70, fa-80, sad-90, qaf-100, ra-200, şin-300, te-400, se-500, xa-600, zal-700, zad-800, za-900, ğayn-1000.

Hələ İslamdan çox-çox əvvəl ərəblər əbcəd hesabından geniş istifadə edirdilər. Lakin əbcəd hesabı öz inkişafının zirvə nöqtəsini məhz müsəlman mədəniyyətində tapdı.

Klassik Şərq ədəbiyyatına aid nümunələrdə əbcəd hesabına tez-tez rast gəlirik. Hər hansı mühüm olayın (məsələn, hökmdarın hakimiyyətə gəlişinin, böyük hərbi fəthlərin, möhtəşəm tikintilərin) tarixini çox zaman ədədlərlə deyid, sözlərlə ifadə edirdilər. Hətta şairlər də əksər hallarda öz əsərlərinin yazılma tarixini əbcəd hesabı ilə göstərirdilər.

Məsələn, Azərbaycan ədəbiyyatının şah əsərlərindən sayılan «Leyli və Məcnun» poemasının yazılma tarixini Füzuli belə ifadə edib:

Tarixinə düşdülər müvafiq,
Bir olmaq ilə ol iki aşiq.

Burada «aşiq» sözünün əbcəd hesabı 70+1+300+100=471-dir. Yuxarıdakı misrada «iki aşiq» ifadəsinə əsasən, bu ədədi ikiyə vurmalı, daha sonra isə «bir olmaq» ifadəsinə əsasən, üzərinə vahid əlavə etməliyik. Nəticədə 943 ədədi alınır ki, bu da «Leyli və Məcnun» poemasının hicri-qəməri təqvimlə yazılma tarixidir.

Hicri-qəməri 656-cı (miladi 1258-ci) ildə Abbasilər xilafətinin paytaxtı Bağdad şəhəri monqollar tərəfindən ələ keçirilənda fars salnaməçiləri həmin tarixi əbcəd hesabına görə «xun», yəni «qan» kəlməsi ilə ifadə etdilər (xa-600, vav-6, nun-50). Çünki bu faciə zamanı şəhərdə xeyli qan tökülmüş, on minlərlə insan qətlə yetirilmişdi.

Maraqlıdır ki, dini mənbələrdə İslam müqəddəslərinin də əbcəd hesabına müraciət etmələri barədə bəzi məlumatlar mövcuddur. Məsələn, İmam Əli ibn Əbu Talibə (ə) aid edilən bir şeirdə belə deyilir:

Həzrət Musanın Allahla vədəsini iki dəfə götür,
Təbiət ünsürlərini bunların axırına əlavə et.
Sonra şahmat lövhəsinin xəttini bunların arasında yaz.
Bu, o şəxsin adıdır ki, həm mənim, həm də bütün ağıl sahiblərinin qəlbini özünə təslim edib.

Şerin izahı belədir: Qurani-kərimdə buyurulur ki, Həzrət Musa Peyğəmbər (ə) Sina dağına 40 günlük münacata getmək barədə Allahla əhd etmişdi. 40 ədədinin əbcəd hesabında qarşılığı «mim» hərfidir. Təbiət ünsürlərinin sayı 4-dür: torpaq, su, od və hava. 4 isə əbcəd hesabında «dal» hərfi deməkdir. Nəhayət, şahmat taxtası eninə və uzununa 8 xanaya bölünüb. 8 rəqəmi əbcədlə «ha» hərfini göstərir. Beləliklə, iki «mim» hərfinin sonuna «dal» hərfini əlavə etsək, «ha»nı da bunların arasına yazsaq, «Mühəmməd» adını alarıq.

Əbcəd hesabı ilə «Allah», «lalə» və «hilal» sözlərinin hər birinin ekvivalenti 66-ya bərabərdir (əlif-1, lam-30 (iki dəfə hesablanır), he-5). Ona görə də təsəvvüf aləmində aypara (hilal) və lalə Allah-təalanın rəmzi sayılır. «Aman» kəlməsi ilə Həzrət Mühəmməd Peyğəmbərin (s) adının əbcəd ekvivalenti də üst-üstə düşür (92 ədədi). Buna görə də sufi şairləri öz əsərlərində bir qayda olaraq, «aman» sözü ilə İslam Peyğəmbərini haraya çağırırdılar.

Bəzi sözlərin əbcəd hesabı ilə yuvarlaq ədədə uyğun olması həmin sözlər haqqında

mistik təsəvvürlərin yaranmasına səbəb olmuşdur. Məsələn, 1001 ədədinə ekvivalent olan «riza» kəlməsi təsəvvüfdə xüsusi yerə malikdir (ra-200, zad-800, əlif-1). Məşhur Azərbaycan şairi Nizaminin təxəllüsünün əbcəd qarşılığı da 1001-dir (nun-50, za-900, əlif-1, mim-40, ye-10).

N.R.

ƏBD

Ərəb dilindən tərcüməsi «kölə, qul, bəndə» deməkdir. İslam dininin yarandığı dövrdə istər Ərəbistanda, istərsə də qonşu torpaqlarda quldarlıq quruluşu hökm sürdüyündən, İslam şəriətinin bəzi xırdalıqları azad (hürr) insanla kölə arasında fərq qoyr. (Bu fərqlər əsasən, cinayətə görə verilən cəzalara şamildir). Lakin hazırda demək olar ki, heç bir ölkədə quldarlıq quruluşu mövcud olmadığından, bu xırdalıqlar da öz əhəmiyyətini itirib.

İstər Qurani-kərim ayələrində, istərsə də İslam Peyğəmbərinin hədislərində kölələrlə mehriban rəftar etmək, onları incitməmək, döyüb-söyməmək, həddən artıq işlətməmək təkid olunub. İslamda ən çox bəyənilən əməllərdən biri də kölələri azad etməkdir. Elə bu səbəbdən, İslamın ilk dövrlərində bəzi zəngin müsəlmanlar öz kölələrini azad edir, hətta pul verib başqasının köləsini alır və azadlığa qovuşdururdular. Peyğəmbər *Bədr savaşında* əsir düşən və kölə statusunda olan müşrikləri, savadsız müsəlmanlara yazıb-oxumağı öyrətmək müqabilində azad etmişdi. Qulu azad etmək o qədər bəyənilən işdir ki, hətta ramazan ayında orucunu qəsdən pozmuş insanların *kəffarə* (cərimə) olaraq pulla bir qul alıb azad etmələrinə icazə verilib.

Dini anlamda bütün insanlar Allahın bəndəsi sayılırlar. İslam cəmiyyətində bir müsəlman başqasının adını bilmirsə, ona «abdullah» (Allahın bəndəsi) deyə müraciət edir. Hətta peyğəmbərlər belə, Allahın qulu olmaları ilə fəxr etmişlər. Qurani-kərimdə Həzrət İsanın belə buyurduğu xəbər verilir: «Həqiqətən, mən Allahın quluyam» *(Məryəm, 30)*. Quranda merac hadisəsi təsvir edilərkən Həzrət Mühəmməd Peyğəmbərin (s) də Allahın bəndəsi olduğu vurğulanır: «Bəzi ayələrimizi göstərmək üçün öz bəndəsini Məscidül-həramdan ətrafını mübarək etdiyimiz Məscidül-əqsaya aparan Allah pak və müqəddəsdir» *(İsra, 1)*. Başqa bir ayədə İslam Peyğəmbəri yenə Allahın bəndəsi kimi xatırlanır: «Həmd olsun o Allaha ki, kitabı *(Quranı)* heç bir əyriliyə yol vermədən öz bəndəsinə nazil etdi» *(Kəhf, 1)*.

Allaha bəndə olmaq insan üçün ən şərəfli xüsusiyyətdir. Buna görə namazın təşəhhüddündə Həzrət Mühəmmədi (s) əvvəlcə Allahın bəndəsi, sonra isə peyğəmbəri kimi qəbul etdiyimizə şəhadət veririk: «Əşhədü ənnə Mühəmmədən əbdühü və rəsulüh» (Şəhadət verirəm ki, Mühəmməd Onun *(Allahın)* bəndəsi və elçisidir).

Hər bir müsəlmana fərz (vacib) olan dini ayinlər də «ibadət», yəni bəndəlik, kölələk adlandırılır. Çünki bunları yerinə yetirmək Allahın əmridir. İnsan öz ağasına itaət edən kölə kimi bu ayinləri yerinə yetirməli, Allahın bəndəsi olduğunu əməlləri ilə təsdiqləməlidir.

Dini mətnlərdə «əbd» ifadəsi bəzən mənfi mənada da işlədilir (məsələn: dünyanın qulu, nəfsin qulu, var-dövlətin qulu). Həzrət Əli (ə) oğlu İmam Həsənə (ə) vəsiyyətində buyurmuşdur: «Başqasına qul olma ki, Allah səni azad yaradıb» *(Nəhcül-bəlağə, 31-ci məktub)*. Burada vəzifəsinə, puluna görə başqasına boyun əymək, onun razılığını qazanmaq naminə haqsız işlər görmək, onun əmrlərini Allahın əmrlərindən üstün saymaq nəzərdə tutulur.

N.R.

ƏBÜL-VƏQT

Ərəb dilindən hərfi tərcüməsi «zamanın atası» deməkdir. Təsəvvüf aləmində zamanın çərçivəsindən çıxan, bir hala və məqama bağlanmayan, təmkin halında olan sufiyə əbül-vəqt deyilir. Bu məfhumun qarşılığı ibnül-vəqtdir (hərfi tərcüməsi «zamanın oğlu»). İrfan ədəbiyyatında «sufi ibnül-vəqtdir» ifadəsinə tez-tez rast gəlirik. Yəni sufi hər an o ana məxsus bir halda olur. Həqiqət yolunun yolçusu alçaqdan yüksəyə doğru haldan-hala düşür, məqamdan-məqama yetişir. Sufinin könül dünyası üçün hər vaxtın öz hökmü var. Buna görə sufi hər an o anın

övladı, o vaxtın oğlu sayılır. Nəhayət, o, haldan-hala keçib təmkin mərhələsinə yetişir. Ondan ötrü zaman dayanmış olur. Artıq ona «əbül-vəqt» deyillər. O, zamanın fövqündə durub, zamanın zəncirindən qurtulub, zamana qalib gəlib.

Mövlana Cəlaləddin Rumi yazırdı: «Həm keçmiş, həm də gələcək Allahı bizim gözümüzdən gizlədir. Bunların ikisini də atəşin içinə atıb yandırmaq lazımdır. Əsl sufi sanki zamanı ovcunun içində tutur. O, tamamilə Allahın nuruna qərq olub. Artıq o, heç kimin, hətta zamanın da oğlu deyil. Əgər qəlbin diridirsə, belə bir eşq mərtəbəsinə yüksəl. Əks halda zaman zindanında qul olub qalacaqsan».

bax: *məqam və hal*.

N.R.

ƏCƏL

Lüğəvi mənası «əvvəlcədən təyin edilmiş zaman və müddət» deməkdir. Termin kimi insan həyatını, digər canlılar üçün müəyyənləşdirilmiş yaşayış müddətini və bu müddətin sonunu, yəni ölüm anını ifadə edir. Hər fərdin və cəmiyyətin öz əcəli vardır. Əcəl təkdir, Allahın qəza və qədəri ilə gəlir. İnsanları dirildən, ruzi verən və öldürən Allahdır; buna görə əcəli müəyyənləşdirən də Odur: «Sizin aranızda ölümü *(kimin nə vaxt öləcəyini)* əvvəlcədən biz müəyyən etdik...» *(Vaqiə, 60)*.

Quran ayələrindən görünür ki, əcəl nə vaxtından əvvəl gələ bilər, nə də gecikdirilə bilər: «Hər bir ümmətin əcəl vaxtı *(ölüm, tənəzzül və ya əzaba düçar olma çağı)* vardır. Onların əcəli gəlib çatdıqda bircə saat belə, *(ondan)* nə geri qalar, nə də irəli keçə bilərlər» *(Əraf, 34; Yunus, 49)*. «Və *(bilin ki)* Allah əcəli çatan heç kəsə möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır» *(Münafiqun, 11)*.

Öldürülən şəxs də bütün insanlar kimi öz əcəli ilə ölmüşdür. Çünki əcəli müəyyənləşdirən ilahi iradədir. Qatil bir adamı öldürməklə onun əcəlini tezləşdirmiş olmaz. Amma Allahın əmrini pozduğuna görə cəzaya düçar olar: «Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın *(qətlini)* haram buyurduğu cana qıymayın. *(Allah)* bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız!» *(Ənam, 151)*.

K.M.

ƏCƏM

«Ərəb» sözünün qarşılığı olaraq işlədilir. Ərəblər öz millətlərindən olmayan hər kəsə əcəm deyirdilər. Belə ki, erkən dini mənbələrdə fars və türk millətindən olanlar da əcəm adlandırılırdı. Əsl İslam nöqteyi-nəzərindən bu seçim şərti xarakter daşıyır. Çünki ərəblə əcəm bir-biri üzərində heç bir üstünlüyə malik deyil. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub ki, Allah yanında nə ərəbin əcəm üzərində, nə də əcəmin ərəb üzərində üstünlüyü var. Allahın hüzurunda insanlar milli mənsubiyyətlərinə, əsil-nəsəblərinə görə deyil, imanlarına və təqvalarına görə seçilirlər *(Hücürat, 13)*.

Halbuki, İslamdan əvvəl ərəblər özlərini bütün millətlərdən üstün sayır və əcəmlərə yuxarıdan aşağı baxırdılar. Qurani-kərimdə bu vəziyyətə işarə olunub: «Əgər onu *(Quranı)* əcəmlərdən birinə nazil etsəydik və o, Quranı onlara *(müşriklərə)* oxusaydı, ona iman gətirməzdilər» *(Şüəra, 198-199)*. Ayələrin mənası budur ki, əgər Allah qeyri-ərəb bir şəxsi peyğəmbər seçib, ona Quranı nazil etsəydi, ərəblər milli təəssübkeşlik üzündən onun peyğəmbərliyini qəbul etməz və oxuduğu Quranı dinləməzdilər. Amma müşriklərin inadkarlığı o dərəcədədir ki, öz millətlərindən və şərəfli nəsildən olan Mühəmmədi (s) də qəbul etməkdən boyun qaçırırlar.

N.R.

ƏCR

Lüğəvi mənası «əvəz, qarşılıq, mükafat» deməkdir. Dini terminologiyada bu dünyada və axirətdə imana və saleh əməllərə görə Allah tərəfindən verilən mükafatı bildirir *(Ənkəbut, 27; Yusif, 57)*. Nikah müqaviləsinə əsasən, qadına verilən mehriyyə mənasında da işlədilir *(Nisa, 24-25)*. Cəm halı «ücur»-dur. «Əcr» kəlməsi Quranda 100-dən artıq ayədə qeyd olunmuşdur.

İslam hüququnda əcr – icarə müqaviləsində müəyyənləşdirilən məbləğdir. Əcr (əmək haqqı) işçinin əməyinin qarşılığı və haqqıdır.

Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «İşçiyə təri qurumadan əcrini verin!» *(Məcməüz-zəvaid, IV, 97).*

Əcri-misl. Lüğəvi mənası «eyni məbləğdə əcr, oxşar əcr» deməkdir. Ən azı iki mütəxəssis tərəfindən müəyyən edilən əmək haqqıdır. İslamda əmək və halal qazanc mühüm əhəmiyyət kəsb edir. Odur ki, əmək müqaviləsi hər hansı səbəbdən pozulduqda, işçi gördüyü iş müqabilində zəhmət haqqı olaraq əcri-misl tələb etmə hüququna malikdir. Bundan əlavə, zərurət və ehtiyac üzündən başqasının əmlakından istifadə edən şəxs bunun müqabilində əcri-misl (ənənəyə uyğun olaraq təyin edilən məbləğ) ödəməlidir.

Əcri-müsəmma. Lüğəvi mənası «qərarlaşdırılmış, müəyyənləşdirilmiş əcr» deməkdir. Müqavilə bağlanan zaman tərəflərin müəyyənləşdirdiyi məbləğ deməkdir. Bu məbləğ əcri-misl qədər, ondan az və ya çox ola bilər.

Ə.N.

ƏDA

Lüğəvi mənası «bir şeyi öz yerinə qoymaq, borc və ya öhdəliyi yerinə yetirmək, ödəmək» mənalarını verir. Terminoloji mənada dini və ya hüquqi öhdəliyin məqsədəuyğun şəkildə öz vaxtında yerinə yetirilməsinə deyilir. Qurani-kərimdə «əda» və «əda etmək» ifadələri də bu mənada işlədilir *(Bəqərə, 187 və 283; Nisa, 58).*

İbadətlər iki qisimdir: konkret əda vaxtı təyin edilməmiş mütləq ibadətlər və konkret vaxt ərzində yerinə yetirilməli olan müqəyyəd ibadətlər. Müqəyyəd ibadətlər də öz növbəsində geniş zamanlı və dar zamanlı olmaqla iki hissəyə ayrılır. Bir ibadətin ədası (yerinə yetirilməsi) üçün müəyyən olunmuş vaxt ərzində həm bu ibadəti, həm də eyni növdən olan başqa ibadəti etməyə icazə verilirsə (namaz kimi), buna geniş zamanlı ibadət deyirlər. Amma bu vaxt ərzində eyni növdən olan başqa ibadətin yerinə yetirilməsinə icazə yoxdursa (ramazan orucu kimi), buna dar zamanlı ibadət deyilir. Həm geniş, həm də dar zamanlı ibadətlərin onlar üçün təyin olunmuş vaxtlarda yerinə yetirilməsi vacibdir. Odur ki, üzrsüz halda ibadətin öz vaxtından sonraya saxlanılması caiz deyil. Fərz ibadətlər vaxtında edilmədiyi təqdirdə, sonra onun əvəzini yerinə yetirmək lazımdır. Buna *«qəza»* deyilir.

A.Q.

ƏDALƏT

Hər hansı şəxsin dini qaydalara müvafiq surətdə yaşaması, xalqın nəzərində şəxsiyyətini zədələyəcək söz və əməllərdən uzaq olması deməkdir. Həzrət Mühəmməd Peyğəmbərdən (s) hədis rəvayət edən ravilərin rəvayətlərinin qəbul edilməsi üçün lazım olan xüsusiyyətlərdən biri də ədalətdir. Ədalət xüsusiyyətinə sahib olan raviyə «adil» deyilir.

R.Ş.

ƏDƏB

Ərəbcə «yaxşı əxlaq, gözəl tərbiyə, utanmaq» və s. mənalarda işlədilir. Lüğət alimi Cürcaniyə görə, xətanın hər növündən uzaq durmaq deməkdir. Sufilərə görə, ədəb iki cürdür. Birincisi zahiri ədəbdir ki, öz əməlini riya və nifaqdan qorumaqdan ibarətdir. İkincisi isə batini ədəbdir ki, öz qəlbini şəhvət, ehtiras, iradə zəifliyi və sairə mənfi xüsusiyyətlərdən təmizləmək deməkdir.

R.M.

ƏDL

Şiə (cəfəri) məzhəbində üsulüd-din maddələrindən biridir. Allah-təalanın mütləq mənada ədalətli olduğuna, baş verən bütün hadisələrin ilahi hikmətə əsaslandığına, Allah tərəfindən zülm törədilmədiyinə inamı ifadə edir. Bəzi şiə alimləri ədl və imaməti dinin deyil, məzhəbin əsas prinsiplərindən sayırlar.

Ədl – Allahın gözəl adlarından *(əsmaülhüsna)* biridir, «ədalətli» deməkdir. Ədl Allahın ən mühüm sifətlərindəndir. Allahı bütün başqa sifətlər kimi, ədalətsiz də təsəvvür etmək olmaz.

Ədalət hər şeydə ən əlverişli orta həddi gözləməkdir. Müəyyən bir məsələdə ifrata varmaq (yəni həddi aşmaq) və təfritə yol vermək (yəni lazım olan həddə çatmamış durmaq) ədaləti pozmaq deməkdir. Həm ifrat, həm də təfrit bəyənilməzdir. Allah-təala hər cür ifrat və təfritdən uzaqdır. Çünki bu

xüsusiyyətlər Onun kamillik və nöqsansızlıq sifətlərinin ziddinədir.

Allah-təalanın bütün sifətlərində və yaratdığı şeylərdə ədalət vardır. Allah rəhmli və bağışlayandır. Onun mərhəməti çox genişdir, amma ifratdan uzaqdır. Allah qəsdən, yaxud bilməyərəkdən bəzi günahlar törətmiş və tövbə etmiş şəxsləri bağışlayar, lakin inadcıl kafirlər və tövbə etməyən cinayətkarlar Onun mərhəmətindən uzaqdırlar.

Allah-təala qüdrətlidir və bütün aləm Onun qüdrət nişanələri ilə doludur. Lakin Allah öz qüdrətini nümayiş etdirməkdə ifrata yol verməmişdir. Məsələn, Allah dağları daş süxurlarından yaratmış, qızıl və gümüş kimi qiymətli metalları isə yerin təkində gizlətmişdir. Allah böyük dağları saf qızıldan yaratmağa da qadir idi. Amma o, belə etməmişdir. Çünki qızıl dağları insanlara xeyirdən çox ziyan gətirərdi. Həmin qızıl dağlarını ələ keçirmək naminə hansı fəlakətlər baş verər, nə qədər qanlar tökülərdi!

Ədalət xətkeşin mərkəzindəki müvazinət nöqtəsi kimidir. Xətkeş bu nöqtə üzərində dayansa, onun hər iki tərəfi eyni səviyyədə qərar tutar. Əgər müvazinət nöqtəsindən hər hansı tərəfə azacıq meyl edilsə, tərəflərin bərabərliyi pozulacaq. Ədalət nöqtəsində ifrat və təfrit bir-birini tarazlaşdırıb zərərsizləşdirir. Bunların hər hansı birinə meyl etmək sərhəddi pozmaq, zülm və təcavüz etmək deməkdir.

Zülm ədalətin ziddidir. Hər kəsə layiq olduğu münasibəti göstərməmək ona zülm etmək deməkdir. Burada həm ifrata varıb həmin insanı layiq olduğundan artıq ucaltmaq, haqqı çatmayan imtiyazları ona vermək, daha yüksəkdə duranları ona tabe etmək, həm də təfritə varıb o insanı əksiltmək, durmalı olduğu məqamdan aşağıya endirmək, haqqına təcavüz etmək nəzərdə tutulur.

Hər bir zülmün törədilməsinin üç səbəbi ola bilər:

a) Zülmkar qüvvə öz etdiyi işin zülm olduğunu bilmir. Məsələn, bir nəfər gizlincə başqasının pulunu götürüb mənimsəyir, amma bu hərəkətin oğurluq olduğunu bilmir. Əgər bilsəydi, həmin pulu götürməzdi.

b) Zülmkar qüvvə zülm törətməyi pis əməl saymır. Məsələn, insan başqasının pulunu götürərkən oğurluq etdiyini anlayır, amma özünü haqlı sayır. O, belə hesab edir ki, həmin şəraitdə oğurluq etmək günah deyildir.

c) Zülmkar qüvvə məcburiyyət qarşısında qalıb zülm törədir. Məsələn, insan aclıq üzündən oğurluq edir, yaxud başqa bir şəxs onu zorla oğurluğa məcbur edir.

Birinci və ikinci hallarda zülmkar qüvvə elmsiz və cahil, üçüncü halda isə qüdrətsiz və ehtiyaclı olmalıdır. Halbuki, Allah-təala bu sifətlərin hamısından uzaqdır. Demək, Allahın zülm törətməsi üçün səbəb və şərait yoxdur.

Qurani-kərimdə qəti şəkildə deyilir: «Həqiqətən, Allah *(heç kəsə)* zərrə qədər zülm etməz» *(Nisa, 40).* «Rəbbin heç kəsə haqsızlıq etməz!» *(Kəhf, 49).*

Bəzi şəxslər nizam-intizamlı dünyanın hər nöqtəsində – istər cansız, istərsə də canlı aləmdə səhvlər və qeyri-normal hallar tapmağa çalışmış, bununla da Allahın ədalətsizliyini sübut etmək istəmişlər. Onların bu cəhdi kainatın sirlərini tam anlamadıqlarından qaynaqlanır. Əslində, kainatda səhv və nöqsan yoxdur, nöqsan bu fikri irəli sürənlərin gözündə və beynindədir. Qurani-kərim dünyanın ilahi ədalət qanunlarına tabe olduğunu bəyan edir: «Göyü O ucaltdı, tərəzini *(ədalət tərəzisini)* O qoydu» *(Rəhman, 7).*

Kainatda baş verən hər hadisənin yaxşı ya pis olduğu barədə hökm vermək üçün onu digər hadisələrlə birgə ümumi sistem daxilində təhlil etmək lazımdır. Bir nəfər üçün xeyirli olan iş cəmiyyət üçün ziyan törədə bilər. Hadisələri düzgün qiymətləndirmək üçün insan onların əsil mahiyyətini anlamalıdır. Halbuki, insan beyni çox şeyləri dərk etməkdən acizdir. Elm günbəgün inkişaf etməkdədir, dünən mübhəm görünən suallar bu gün öz cavabını tapır. Demək, insanın elmi mütləq elmlə (yəni Allahın elmi ilə) müqayisədə nisbi xarakter daşıyır. Hər şeyin əsl mahiyyəti onu yaradan Allaha məlumdur. İnsana bu elmin çox cüzi hissəsi verilib.

Məsələn, ayağında qanqren (çürümə) gedən xəstənin ayağını kəsəndə tibb aləmindən xəbərsiz olan adam bu işə görə həkimi

təqsirləndirib, bunu xəstəyə qarşı zülm sayır. Əslində isə əgər çürüyən orqan kəsilməsə, qanqren bütün bədənə sirayət edəcək. Bu vəziyyətdə xəstənin ayağını kəsmək onun həyatını xilas etmək deməkdir. Daha böyük ziyanın qarşısını almaq naminə ona nisbətən kiçik ziyan vurulur.

Təbiətdə bunun kimi çox-çox misallar vardır. Maral sürüsünə hücum edən aslan adətən özünü yırtıcılardan müdafiə edə bilməyən, asta qaçan, zəif və xəstə heyvanları parçalayıb yeyir. Kimsə bu hərəkəti vəhşilik adlandıra bilər. Lakin dərindən fikirləşsək görərik ki, əslində aslan maral sürüsü üçün sanitar rolunu oynayır. O, həm öz qidalanma ehtiyacını ödəyərək yaşayışını təmin edir, həm də təbiəti xəstə və qeyri-normal heyvanlardan təmizləyir.

Yaxud məsələn, bir məntəqədə güclü ildırım çaxaraq üç-dörd ağaca dəyib onları yandırır. Əlbəttə, bu, təbiətə ziyandır. Lakin ildırımdan sonra yağan yağış təbiətə qat-qat çox xeyir verir. Həmin yağış meşələrin canlanmasına, əkinlərin cücərib boy atmasına, yerdəki toz və kirin yuyulmasına, havanın təmizlənməsinə səbəb olur. Burada da mənfəət zərəri üstələyir.

İmam Cəfər Sadiq (ə) «Tövhidi-Müfəzzəl» əsərində ədaləti dananlar haqqında belə bir misal çəkir: Təsəvvür edin ki, bir nəfər öz evinin içində tam səliqə-sahman yaratmış, ev əşyalarının hər birini özünəməxsus şəkildə lazımi yerdə yerləşdirmişdir. Bir kor adam onun evinə qonaq gəlir və evə girən kimi ayağı kandara ilişib yıxılır. O, korluğu üzündən kandarı görməyib yıxıldığını etiraf etmək əvəzinə ev sahibini danlayır ki, niyə evin qapısında kandar düzəldib? Sonra qonaq otağın içində gəzməyə başlayır və hər addımda ayağı ev əşyalarına dəyib əzilir. Lakin yenə də səhvin özündə olduğunu boynuna almaq əvəzinə evin düzgün tikilmədiyini, ev əşyalarının orda-burda nizam-intizamsız halda qoyulduğunu iddia edir. Halbuki, onun dedikləri həqiqətə uyğun deyil. Otaqda hər şey öz yerindədir. Kor qonağın ayağının ora-bura dəyib əzilməsinin günahkarı da ev sahibi deyil, yalnız özüdür. Göstərilən misalda evi – dünyaya, ev sahibini – Allaha, kor qonağı isə ədaləti danan insanlara bənzətmək olar.

İnsanı ən kamil bir biçimdə *(əhsənüt-təqvim)* yaratmış, sonsuz nemətlərlə dolu təbiəti onun ixtiyarına vermiş, heç kəsi ruzisiz qoymamış Allahın zalım olduğunu düşünmək özü zülmdür.

Allahın insana qarşı ədalətini anlamaq üçün bircə bunu xatırlamaq kifayət edər: Bu dünyada insan üçün yalnız bacardığı işlər vəzifə sayılır. Allah-təala heç kəsdən qüvvəsi xaricində olan əməli tələb etməz. Əks halda bu, insana qarşı zülm olardı. Qurani-kərim bu həqiqəti ümumi şəkildə belə vurğulayır: «Biz heç kəsi gücü çatmayan işi görməyə vadar etmərik. Bizdə haqqı söyləyən bir Kitab *(Quran)* vardır. Onlara *(haqsız yerə əsla)* zülm olunmaz» *(Möminun, 62)*.

Allah-təala bu dünyada insana ədalətlə yanaşdığı kimi, qiyamətdə də onun xeyir və şər əməllərini hesablayarkən zülm etməyəcək: «Biz qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, onu *(hər hansı əməli tərəziyə)* gətirərik. Haqq-hesab çəkməyə biz kifayətik» *(Ənbiya, 47)*.

N.R.

ƏHKAM

bax: *hökm*.

ƏHSƏNÜT-TƏQVİM

Allah tərəfindən insana verilən ən gözəl surət, xilqətdəki fiziki və mənəvi gözəllik. İnsanın öz məsuliyyətlərini yerinə yetirə biləcək səviyyədə güclü və istedadlı yaradılması əhsənüt-təqvim səviyyəsidir. Qurani-kərimdə bu barədə buyrulur: «Biz insanı ən gözəl biçimdə yaratdıq» *(Tin, 4)*.

R.M.

ƏXBAR

«Xəbər» sözünün cəmidir. Həzrət Məhəmməd Peyğəmbərdən (s) rəvayət edilən kəlama *«hədis»*, səhabələrdən rəvayət olunan kəlama isə xəbər deyirlər. Yəni xəbərin sənədi Peyğəmbərə kimi gedib-çatmır, səhabədə qurtarır. Dini ədəbiyyatda «əxbar» sözü bəzən xəbərlərə, bəzən isə ümumi şəkildə həm hədislərə, həm də xəbərlərə şamil edilir.

XVII–XVIII əsrlərdə şiə fəqihləri hədislərə münasibət baxımından iki dəstəyə bölünmüşdülər. Bunların birinə şərti olaraq *«əxbarilər»*, o birinə isə «üsulilər» deyirdilər. Əxbarilər şəriət hökmlərini yalnız Quran ayələri və əxbarla əsaslandırmağı vacib sayır, *icmanı* və *ictihadı* rədd edirdilər. Üsulilər isə Quran və əxbarla yanaşı, icma və ictihadı da əsas dayaqlardan biri kimi qəbul edirdilər. Əxbarilərin əqidəsinə görə, ictihad və təqlid batildir, hədisləri səhih və zəif qismlərə ayırmaq günahdır, yeni meydana çıxan və haqqında hədislərdə heç nə bildirilməyən məsələlərdə *ehtiyat* uyğun davranmaq lazımdır. Əxbarilərlə üsulilərin qarşıdurması bəzi dövrlərdə çox kəskin şəkil almış, hətta bunların münasibəti bir-birini qarşılıqlı surətdə lənətləmə həddinə gəlib-çatmışdı. XVIII əsrin sonu-XIX əsrin əvvəllərindən etibarən üsulilər üstünlük qazanmağa və əxbariləri sıxışdırmağa başladılar. Bu gün də şiə fiqhində üsuli əqidəsi hakimdir.

N.R.

ƏXLAQ

«Xarakter, təbiət, fitrət» mənalarını verən «xülq» və ya «külüq» kəlməsinin cəm halıdır. Terminoloji mənada insanın mənfi və ya müsbət qiymətləndirilməsinə səbəb olan mənəvi xüsusiyyətlərinin, xarakterinin və bunların təsiri altında öz iradəsi ilə həyata keçirdiyi davranışların məcmusuna əxlaq deyilir. Bu mövzuları incələyən elmə əxlaq elmi deyirlər. İslam əxlaqının qaynağı Quran və sünnədir. Ümmül-möminin Aişə Həzrət Mühəmməd Peyğəmbərin (s) əxlaqının Qurana əsaslandığını bildirmişdir *(Səhihü Müslim, Müsafirun kitabı, XVIII bab, 139 (1739)-cu hədis)*.

K.M.

ƏQAİD

«Əqidə» kəlməsinin cəmidir. «Əqidə» sözü «düyünləmək, düyün vurmaq, qəti surətdə inanılan şey» mənalarını verir. Dini anlamda əqaid – İslam dinində inanılması zəruri olan qəti prinsipləri ifadə edir; bunlara «iman əsasları» da deyilir. Buna görə də iman əsaslarını ehtiva edən elm «əqaid elmi» adlanır. Əqaid elmi əsasən, Allahın varlığından, sifətlərindən bəhs edir. Nübüvvət və axirət mövzuları da son mənada Allahın sifətləri ilə bağlı olduğu üçün tövhid məsələsinə qayıdır. Əqaid elminin qayəsi insanı təqlidçilikdən xilas etmək, tam sərbəstliklə iman gətirməsinə şərait yaratmaqdır.

R.M.

ƏQD

Ərəb dilindən tərcüməsi «bir şeyin ətraflarını, uclarını birləşdirmək» deməkdir. Ərəblər ipə düyün vurmağı da eyni sözlə ifadə edirlər. İslam hüququnda təklif edən və qəbul edən tərəflər arasında bağlanan, tərəflərin üzərinə müəyyən öhdəliklər yükləyən şifahi və ya yazılı sövdələşmə «əqd» adlandırılır. Əqd gündəlik həyatın ən müxtəlif sahələrinə aid ola bilər: nikah əqdi, ticarət əqdi, vəkalət əqdi və s. Əqd bağlanarkən tərəflər həm şəxsən, həm də vəkillər vasitəsilə təmsil oluna bilərlər. Dinimiz əqdi yazı ilə sənədləşdirməyi, şahidlərin hüzurunda həyata keçirməyi və bağlanmış əqdə sadiq olmağı tövsiyə edir: «Ey iman gətirənlər! Bağladığınız əqdlərə vəfalı olun!» *(Maidə, 1)*.

Dilçi alimlər qeyd etmişlər ki, «əqd» sözü «əhd» kəlməsi ilə oxşar mənanı ifadə etsə də, daha ciddi və qəti qərarlaşmalarla bağlı işlədilir. Yəni əqd – konkret və qaçılmaz şərtlər daxilində bağlanmış, şəriət və ağılla icrası lazım bilinən müqavilədir.

Dini ədəbiyyatda daha dar mənada «əqd» deyərkən, nikah əqdi, yəni *kəbin* nəzərdə tutulur.

N.R.

ƏQİQƏ

Ailədə uşaq doğularkən onun adına qurbanlıq heyvan kəsilməsi. Müstəhəb əməldir (sünnətdir). Əqiqə qurbanını doğumun ilk həftəsində, uşağa ad qoyduqdan sonra kəsmək müstəhəbdir. Həzrət Mühəmməd Peyğəmbər (s) öz nəvələri İmam Həsənlə İmam Hüseynin (ə) doğumunun yeddinci günündə onlardan ötrü əqiqə qurbanı kəsmişdi. Əqiqə heyvanının erkək olması məsləhətdir. Bəzi rəvayətlərə görə, oğlan uşağı üçün erkək heyvan, qız uşağı üçün dişi heyvan kəsərlər. Şafii məzhəbinə əsasən, oğlan uşağından

ötrü iki, qız uşağından ötrü bir heyvan kəsilməsi daha yaxşıdır. Amma digər əhli-sünnə məzhəblərində, eləcə də cəfəri şəriətində say fərqi qoyulmayıb. Əqiqə qurbanının ətinin istifadəsi məsələsi də məzhəblər arasında fərqli yönlərə malikdir. Belə ki, cəfəri məzhəbinə əsasən, əqiqə heyvanının əti qohum-qonşuya, ehtiyaclılara paylanır, uşağın valideynləri bu ətdən pay götürə bilməzlər. Ətin bir hissəsi uşağın doğuluşunda iştirak etmiş həkimə (mamaçaya) verilir. Əhli-sünnənin əqidəsincə, ətdən uşağın valideynləri də pay götürə bilərlər. Həmçinin, əhli-sünnə məzhəbində heyvanı kəsdikdən sonra sümüklərini sındırmaq məsləhət görülmür, sadəcə sümükləri bir-birindən ayırmaq yolu ilə əti hissələrə bölürlər. Həmçinin, ətdən ayrılmış sümükləri toplayıb torpağa basdırmaq da əhli-sünnə məzhəbində məsləhət bilinir.

Əqiqə qurbanı ilə yanaşı, uşağın doğumunun yeddinci günündə saçını qırxmaq və tüklərin ağırlığında qızıl (yaxud gümüş) sədəqə vermək savabdır.

N.R.

ƏLEYHİS-SƏLAM

«Allah-təalanın salamı onun üzərinə olsun» mənasını verən, əsasən, peyğəmbərlər və dörd böyük mələk haqqında işlədilən təzim (hörmət) ifadəsi. İki adam üçün «əleyhimas-səlam», daha çox adam üçün «əleyhimüs-səlam» deyilir.

K.M.

ƏLƏM

Ərəb dilindən tərcümədə bir neçə mənaya malikdir: nişan, məşhur, nəslin, qəbilənin böyüyü, ağsaqqalı, parçanın naxışı, bayraq və s. Dini və tarixi kitablarda daha çox sonuncu mənada işlədilir. Ümumiyyətlə, ərəb dilində bayraq mənasını verən çoxlu söz vardır (məsələn: rəyə, liva, ələm və s.). Müsəlman Şərqində hökmdarların, eləcə də, böyük nəsillərin, tayfaların öz bayraqları var idi. Döyüş zamanı onlar öz bayraqları altında savaşardılar. Bayrağı daşımaq orduda ən igid və cəsarətli döyüşçüyə həvalə edilirdi.

Həzrət Mühəmməd Peyğəmbər (s) istər özünün, istərsə də hər hansı səhabənin başçılığı altında yürüşə çıxan hərbi dəstələr üçün bayraq hazırlatdırırdı. Bunların rənginin ağ, qara, sarı olduğunu yazırlar.

Tarixi rəvayətlərə əsasən, İslam Peyğəmbərinin üqab (tərcüməsi qartal deməkdir) adlı kvadrat şəkilli qara bayrağı vardı. Bəzi rəvayətlərdə isə, üzərində «La ilahə illəllah, Mühəmmədün Rəsulüllah» yazılmış ağ bayraqdan danışılır. Bədr savaşında və Məkkənin fəthində müsəlmanların ağ bayraq altında hərəkət etdiklərini yazırlar.

Ələm həm də Kərbəla faciəsinə həsr edilən şəbih mərasimlərinin və təziyə məclislərinin atributlarından biridir. Tarixi məlumatlara görə, aşura günündə İmam Hüseyn (ə) öz dəstəsinin bayrağını qardaşı Abbasa həvalə etmişdi. Buna görə ələm «Həzrət Abbas şəbih»ində mühüm yer tutur. Klassik ədəbiyyatda da ələm Kərbəla faciəsinin cansız şahidi kimi təsvir edilir. Çox zaman ələmin çubuğunun yuxarı ucuna «pənc» deyilən əl fiquru bərkidirlər. Bu, Ali-əbanın 5 üzvünü (Həzrət Mühəmməd Peyğəmbər (s), Fatimə, Əli, Həsən və Hüseyn (ə)) simvolizə edir.

Təəssüf ki, bəzən xurafatçı din xadimləri ələmdən nəzir yığmaq üçün vasitə kimi istifadə edirlər.

N.R.

ƏLLİ DÖRD FƏRZ

Etiqad, əməl və əxlaq məsələlərində İslamın əsas prinsiplərini müsəlmanlara öyrətməyi asanlaşdırmaq məqsədilə İslam alimlərinin Qurani-kərimdən və sünnədən çıxardıqları bəzi əmr və qadağanlardır. Bunları aşağıdakı 54 maddə halında toplamışlar:

1. Allahın varlığına və birliyinə inanmaq; 2. Halal yeyib-içmək; 3. Qüsl almaq; 4. Dəstəmaz almaq; 5. Beş vaxt namaz qılmaq; 6. Ruzini verənin Allah-təala olduğuna inanmaq; 7. Halal və təmiz paltarlar geyinmək; 8. Allaha təvəkkül etmək; 9. Qənaətkar olmaq; 10. Verdiyi nemətlərə görə Allaha şükr etmək; 11. Allahın verdiyi hökmə (qəza-qədərə) razı olmaq; 12. Allahdan gələn bəlalara səbr etmək; 13. Günahlardan ötrü tövbə etmək; 14. Allah rizası üçün ibadət etmək; 15. Şeytanı düşmən bilmək; 16. Quranın hökmünə razı olmaq; 17. Ölümün haqq olduğuna inanmaq; 18. Allahın dostları ilə dost, düşmənləri ilə düşmən olmaq; 19. Ana-ata ilə yaxşı davranmaq; 20. Yaxşı əməllərə dəvət edib, pis işlərdən çəkindirmək; 21. Qohum-əqrabanı ziyarət etmək; 22. Əmanətə xəyanət etməmək; 23. Allahın qəzəbindən qorxaraq həddi aşmağı və pozğunluğu tərk etmək; 24. Allaha və Rəsuluna itaət etmək; 25. Günahlardan çəkinib ibadətlərlə məşğul olmaq; 26. İdarəçilərə itaət etmək; 27. Aləmə ibrət gözü ilə baxmaq; 28. Allah-təalanın varlığı barədə düşünmək; 29. Dilini hər cür pis sözdən qorumaq; 30. Qəlbi təmiz saxlamaq; 31. Heç kimi məsxərəyə qoymamaq; 32. Harama baxmamaq; 33. Verdiyi sözə sadiq qalmaq; 34. Qulağını pis sözləri eşitməkdən qorumaq; 35. Elm öyrənmək; 36. Çəkidə və ölçüdə aldatmamaq; 37. Allahın əzabından daim qorxmaq; 38. Zəkat vermək və yardım göstərmək; 39. Allahın rəhmətindən ümid kəsməmək; 40. Nəfsin istəklərinə tabe olmamaq; 41. Allah rizası üçün kasıblara yemək vermək; 42. Kifayət edəcək qədər ruzi qazanmaq üçün çalışmaq; 43. Malın və hər cür qazancın zəkatını vermək; 44. Aybaşı və nifas halında olan xanımı ilə cinsi münasibətdə olmamaq; 45. Qəlbi günahlardan təmizləmək; 46. Təkəbbürdən uzaq olmaq; 47. Yetkinlik yaşına çatmamış yetimin malını qorumaq; 48. Ləvatdan və hər cür cinsi pozğunluqdan çəkinmək; 49. Beş vaxt namazı vaxtında qılıb qəzaya qoymamaq; 50. Nahaq yerə heç kəsin malını yeməmək; 51. Allah-təalaya şərik qoşmamaq; 52. Zinadan çəkinmək; 53. Şərab kimi məstedici içkiləri içməmək; 54. Lüzumsuz və yalan yerə and içməmək.

R.M.

ƏMANƏT

Ərəb dilindən tərcümədə «doğruluq, güvənlik, arxayınlıq» mənalarını verir. Mömin insanın ən mühüm keyfiyyətlərindən biri sayılır. Həzrət Mühəmməd (s) hələ peyğəmbərliyə seçilməzdən əvvəl ərəblər arasında öz əmin-amanlığı və düzgünlüyü ilə seçilirdi; ona görə də mübahisəli əmlakı, girovu Onun yanında əmanət qoyurdular. O, Məkkədə «əmin» ləqəbi ilə tanınırdı.

Əmanət – müvəqqəti olaraq saxlamaq üçün başqasına verilən əmlaka və ya pula da deyilir. Qurani-kərimdə əmanəti qorumaq və vaxtı çatanda sahibinə qaytarmaq təkid edilir: «Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir» *(Nisa, 58)*. Əmanətə sədaqət dinimizdə ən çox bəyənilən və israr edilən müsbət xüsusiyyətlərdən biridir. Həzrət Mühəmməd Peyğəmbər (s) Əbuzərə buyurmuşdu: «Qiyamət günündə *sirat* körpüsünün iki yanında *sileyi-rəhim* və əmanətə sədaqət yerləşdiriləcək. Hər kim bu iki məsələyə riayət edibsə, körpüdən keçəcək; əks halda alovun içinə yıxılacaq». Peyğəmbərdən rəvayət edilən başqa bir hədisdə buyurulur: «Hər kim bu dünyada əmanətə xəyanət etsə və sahibinə qaytarmasa, bu vəziyyətdə ölüm onu haqlasa, mənim ümmətimdən sayılmaz və Allahla görüşəndə Allah ona qəzəblənər».

Məsum imamlar əmanəti qorumağın vacibliyini göstərmək üçün ən təsirli ifadələrdən istifadə etmişlər. Məsələn, Əbu Həmzə Sümali rəvayət edir ki, İmam Zeynül-abidin (ə) buyurub: «Mühəmmədi (s) peyğəmbərliyə təyin edən Allaha and olsun ki, əgər atam Hüseyn ibn Əlinin (ə) qatili onu öldürdüyü qılıncı mənim yanımda əmanət qoysaydı, qoruyub yenə özünə qaytarardım». Həzrət Əli (ə) isə buyurub: «Peyğəmbərlərin balalarını öldürənlərin belə, əmanətini özlərinə qaytarın».

Hədislərdə buyurulur ki, başqaları ilə münasibətdə üç məsələyə riayət etməyi Allah-təala müsəlmanlara əmr edib. Özü də bu əmr qarşı tərəfin yaxşı (mömin) və ya pis (fasiq) olmasına baxmayaraq, eyni dərəcədə öz qüvvəsini qoruyub-saxlayır: əmanəti sahibinə qaytarmaq, əhdə vəfa etmək və valideynlə yaxşı münasibətdə olmaq.

İmam Cəfər Sadiq (ə) əmanətə sədaqətli olmağı vacib ibadətləri icra etməkdən də yüksək dəyərləndirirdi: «Bir kəsin rükusunun və səcdəsinin uzunluğuna baxmayın. Bəzən insan ibadətə adət edir, əgər ibadəti tərk etsə, qorxuya düşür. Adamın dilinin doğruluğuna və əmanətə sədaqətinə baxın». İmam Sadiq (ə) öz tərəfdarlarına bunu tövsiyə edirdi: «Hər kim yanında qoyulmuş əmanəti sahibinə qaytarsa, cəhənnəm alovunun yüz halqasını öz boğazından açmış olar.

Əmanəti tez sahibinə qaytarın. Hər kimin yanında əmanət qoyulsa, İblis yüz şeytan göndərər ki, o adama vəsvəsə edib onu yoldan çıxarsınlar. Amma Allah-təalanın qoruduğu kəslər yoldan çıxmazlar».

Həzrət Mühəmməd Peyğəmbərin (s) həyatı əmanətə sədaqət, əhdə vəfa, verilmiş sözə bağlılıq nümunələri ilə zəngindir. Rəvayət edirlər ki, hicri 8-ci (miladi 630-cu) ildə müsəlmanlar Məkkəni fəth edəndə Kəbənin açarı Qüreyş qəbiləsinin Bəni-Əbdüddar qolundan olan Osman ibn Əbu Təlhədə idi. Cahiliyyə dövründə Kəbənin açarını bu soyun nümayəndələri qoruyar və nəsildənnəslə ötürərdilər. Məkkədə Kəbənin açarlarını saxlamaq çox hörmətli vəzifə sayılırdı. Peyğəmbər Məkkəni fəth edəndən sonra Kəbənin içində namaz qılmaq və oranı bütlərdən təmizləmək istədi. Lakin Osman ibn Təlhə Kəbənin qapısını açarla bağlayıb, açarı özündə saxlamışdı. O, Kəbənin damına çıxmışdı ki, həm özü amanda qalsın, həm də açarı ondan ala bilməsinlər. Peyğəmbər Əli ibn Əbu Talibə (ə) tapşırdı ki, açarı Osmandan alıb gətirsin. Əli (ə) Kəbənin damına qalxıb açarı Osmandan tələb etdi. Lakin Osman açarı təhvil verməkdən boyun qaçıraraq dedi ki, əgər Mühəmmədin (s) peyğəmbər olduğuna inansaydım, özüm açarı ona verərdim. Əli (ə) nə qədər təkid etdisə, nəticəsi olmadı. Axırda məcbur olub açarı zorla Osmandan aldı, gətirib Peyğəmbərə təhvil verdi.

İslam Peyğəmbəri Kəbənin qapısını öz əli ilə açıb içəri girdi, orada iki rükət namaz qıldı, Kəbənin içindəki şəkilləri çıxarmağı əmr etdi. Sonra açarı Əliyə (ə) verib tapşırdı ki, Osmana qaytarsın. Əli ibn Əbu Talib (ə) açarları qaytaranda Osman təəccüblə soruşdu: «Bayaq açarı məndən zor gücünə almışdın. İndi niyə mənə qaytarırsan?». Əli (ə) cavab verdi: «Ona görə ki, Quranda buyurulub: «Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı əmr edir» *(Nisa, 58).*

Osman bu hərəkəti görəndə riqqətə gəlib Peyğəmbərin hüzuruna yetişdi və müsəlman olduğunu söylədi. Peyğəmbər Kəbənin açarlarını qorumaq hüququnu yenə ona həvalə etdi.

N.R.

ƏMƏL DƏFTƏRİ

İnsanların dünyada öz əqidələrinə uyğun olaraq etdikləri əməllərin yazıldığı və axirətdə təkrar özlərinə təqdim olunacağı bildirilən dəftər (və ya kitab). Quranda «əməl dəftəri» ifadəsi işlənməsə də, eyni mənanı ifadə edən «kitab» və «sühuf» (səhifələr) kəlmələrinə rast gəlinir. Quranda bildirilir ki, hər kəsin dünyada etdiyi əməllər qiyamət günü yazılı şəkidə ona göstəriləcək və hər kəsdən öz kitabını oxuması tələb olunacaq: «Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü *(bütün əməllərini)* açıq kitab kimi qarşısına qoyarıq. *(Ona belə deyərik)*: «Oxu kitabını! Bu gün sən haqq-hesab çəkməyə özün-özünə *(özün öz əməllərinə şahid olmağa)* kifayətsən» *(İsra, 13-14). «Kiramən katibin»*, «həfəzə», «rüsül», «rəqib» və «ətid» adlandırılan mələklərin yazacağı *(Ənbiya, 94; Qaf, 18; Zühruf, 80)* bu kitab insanın həm müsbət, həm də mənfi yönlu bütün etiqad, düşüncə, söz və davranışlarını əhatə edəcək *(Kəhf, 49).* Cənnət əhlinin əməl dəftəri sağdan, cəhənnəm əhlininki isə soldan və ya arxadan veriləcək. Dəftərləri sağdan verilənlər Quranda «əshabül-yəmin», soldan və ya arxadan verilənlər isə «əshabüş-şimal» adlandırılırlar *(Haqqə, 19 və 25; İnşiqaq, 7-15).* Dəftərin sağdan verilməsi müjdə, soldan və ya arxadan verilməsi isə qorxu və azaba işarədir. Quranda buyurulur ki, yalnız fərdlərin deyil, millət və toplumların da öz əməl dəftərləri vardır və hesab günündə hər millət öz əməl dəftərini oxumağa çağrılacaq *(Casiyə, 28-29).*

R.M.

ƏMİRÜL-MÖMİNİN

Ərəb dilindən tərcüməsi «möminlərin əmiri (başçısı)» deməkdir. Bu ləqəb ilk dəfə ikinci xəlifə *Ömər ibn Xəttaba* verilmişdir. Birinci xəlifə *Əbu Bəkrə* «Ey Allah Rəsulunun xəlifəsi» deyə müraciət edirdilər. Ömər də əvvəllər bu ləqəbi daşıyırdı. Rəvayətə görə, o, İraq valisi *Müğeyrə ibn Şöbəyə* məktub yazıb tələb etmişdi ki, iki nəfər iti zehinli adamı Mədinəyə göndərsin. Ömər onlardan İraqdakı vəziyyət barədə ətraflı məlumat almaq istəyirdi. Ədi ibn Hatəmlə (bu, səxavəti ilə məşhur olan Hatəm Tainin oğlu idi) Ləbid ibn Rəbiəni xəlifənin hüzuruna göndərdilər. Onlar Mədinəyə daxil olub Peyğəmbər Məscidinə gəldilər, qapıda *Əmr ibn Asla* görüşüb xahiş etdilər: «Bizi əmirülmöminin yanına apar». Bu ləqəbi çox bəyənən Əmr ibn As gələnlər haqqında xəbər vermək üçün Ömərin yanına gedir və ona: «Salam olsun sənə, ya əmirəl-möminin!» – deyə müraciət edir. O zamandan Ömər bu ləqəblə çağırmağa başlayırlar. Sonrakı *raşidi, Əməvi* və *Abbasi* xəlifələri də «əmirülmöminin» ləqəbini daşımışlar. Mərkəzi hakimiyyətin tabeçiliyindən çıxıb müstəqillik elan etmiş dövlətlərin başçıları da özlərinə bu ləqəbi götürürdülər. Miladi 1517-ci ildən etibarən xilafətin ləğvinə kimi «əmirül-möminin» ləqəbi Osmanlı sultanlarına məxsus olmuşdur.

Şiə məzhəbində «əmirül-möminin» ləqəbinin yalnız İmam Əli ibn Əbu Talibə (ə) aid olduğu təkid edilir. Şiə rəvayətlərinə görə, Həzrət Mühəmməd Peyğəmbər (s) Əli ibn Əbu Talibin (ə) haqqında dəfələrlə «əmirül-möminin» kəlməsini işlətmiş və Onu bu adla müsəlmanlara təqdim etmişdi *(Əllamə Əmini. Əl-Ğədir, VIII, 87).* Qədir-Xümm hadisəsində də səhabələr Peyğəmbərin tarşırığı ilə Əli ibn Əbu Talibə (ə): «Əssəlamü əleykə ya əmirəl-möminin» – deyə, beyət etmişdilər.

N.R.

ƏMMAMƏ

Baş geyimi. Uzun parça zolağını halqa şəklində üst-üstə dolamaqla hazırlanır. Keçmişdə müxtəlif təbəqələrin nümayəndələri (hökmdarlar, saray əyanları, dövlət adamları, şair və ədiblər, xüsusilə, ruhanilər) başlarına əmmamə qoyardılar. Əyanların əmmaməsi bahalı, əlvan parçadan olur, daş-qaşla bəzədilirdi. İran, İraq, Suriya, Livan kimi ölkələrdə bu gün də ruhanilər əmmamə ilə gəzirlər. Ruhanilərin əmmaməsi sadə birrəngli (saya) materialdan olur. Seyidlər başlarında qara rəngli, seyid olmayanlar isə ağ rəngli parçadan əmmamə gəzdirirlər. Bəzən əmmamənin bir ucunu çənənin altından keçirib çiyinə atırlar. Buna təhtül-həndk (çənəaltı) deyilir.

N.R.

ƏMR BİL-MƏRUF və NƏHY ƏNİL-MÜNKƏR

Ərəb dilindən tərcüməsi «yaxşı (bəyənilən) işlərə çağırmaq və pis işlərdən çəkindirmək» mənasını verir. Bu xüsusiyyətlər müsəlman əxlaqının ən mühüm tərkib hissələrindən sayılır.

Hər hansı cəmiyyətdə qrup yaxud fərd tərəfindən günah iş görülürsə, cəmiyyətin bütün üzvləri onu pis yoldan döndərməli və lazım gələrsə, hətta zərərsizləşdirməlidirlər. Pis əməllə qarşılaşan, amma onu islah etmək imkanı olduğu halda laqeydliklə seyr edən şəxs həmin pisliyi törədənlərlə şərik kimidir. İslam dini insandan imkanları çərçivəsində haqq uğrunda daim mübarizə və təbliğat aparmağı tələb edir. Cəmiyyətin saflığı bu təbliğat və səylərdən asılıdır. Qurani-kərimdə bu barədə buyurulur: «İçərinizdə *(insanları)* yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir cəmiyyət olun! Bunlar *(bu camaat)*, həqiqətən, nicat tapmış şəxslərdir» *(Ali-İmran, 104).* İmam Əli ibn Əbu Talib (ə) isə ömrünün son saatlarında söylədiyi vəsiyyətdə əmr bil-məruf və nəhy ənil-münkəri müsəlmanlara təkidlə tövsiyə edirdi: «İnsanları yaxşı əməllərə doğru çağırıb, pis işlərdən çəkindirməyi tərk etməyin! Əks halda pis adamlar sizə hakim olarlar. O zaman xilas olmaq üçün dua edərsiniz, amma Allah dualarınızı müstəcab etməz!».

Həzrət İsa Məsih (ə) isə pis əməl sahibinin qarşısını vaxtında almağın zərurətini bildirmək üçün bu cür təsvir üsullarından istifadə edirdi: «Əgər bir evə od düşsə, oradan başqa evlərə də keçər və bütün evləri bürüyər. Yalnız od düşən birinci evi dağıtsalar, alov kəsiləcək. Həmçinin, zülm edən ilk zalımın da qarşısını alsalar, ardınca başqası cəsarət edib zülm etməz». «Hər kəs qardaşını ilan sancacağını görsə və xəbərdarlıq etməsə, ilan sancandan sonra o adamın qətlində şərik olar. Eləcə də, hər kim qardaşının günah etdiyini görüb onu çəkindirməsə, həmin günahda şərikdir. Hər kim zalımın zülmünə mane ola bildiyi halda, bunu etməsə, zülmdə şərikdir» *(İbn Şöbə Hərrani. Tühəfül-üqul, səh. 539).*

N.R.

ƏNƏL-HƏQQ

Tərcüməsi «Mən haqqam!» deməkdir. Bu ifadə ilk dəfə məşhur sufi Mənsur Həllac tərəfindən deyilmiş, əsrlər boyunca müzakirə və mübahisələrə səbəb olmuşdur. Bəzi müəlliflər Həllacın bu ifadəni Allaha istinadən (Allahın sözü kimi) rəvayət etdiyini yazmışlar. Başqa bir nəzəriyyəyə görə, Həllac bu ifadəni öz əqidəsinin batil olmadığını bildirmək üçün demiş, ya da *fəna* (özünü itirib Allahda yox olmaq) halında söyləmişdir.

R.M.

ƏNSAB

«Əsil-nəcabət, soykökü» mənasını bildirən «nəsəb» sözünün cəmidir. Tarix və hədisşünaslıq elmlərinin bir şaxəsidir. Məlum olduğu kimi, hədislərin səhihliyini yoxlamaq üçün onların mətni ilə yanaşı, sənədindəki rəvayətçilərin tərcümeyi-halını da araşdırırlar. Bu rəvayətçilərin soykökləri, hansı qəbilənin hansı qoluna mənsub olmaları ənsab elminin vasitəsilə müəyyən olunur. Bəzi rəvayətçilərin adı, künyəsi və nəsəbi bir-birinə oxşar və hətta eyni olduğundan, onları məhz ənsab elminin köməyi ilə fərqləndirirlər. Ənsab elmi vasitəsilə əldə olunan məlumatlar əsasında istənilən şəxsin nəsil şəcərəsini tərtib etmək mümkündür.

Ümummiyyətlə, ərəb millətinin mentalitetində qəbiləçilik motivləri çox güclüdür. Ərəblər əsil-nəcabətə böyük əhəmiyyət verir, «təmiz» nəsil zəncirinə mənsub olmağı özlərinə ən böyük fəxr sayırlar. İslamdan əvvəl də ərəblər arasında ənsab elmi geniş rəvac tapmışdı. Onların arasında bu elmi mükəmməl bilən elə heyrətamiz hafizə sahibləri vardı ki, istənilən şəxsin soykökünün hansı qəbiləyə gedib-çıxdığını və iyirminci nəsildən ulu əcdadının kim olduğunu əzbər söyləyə bilirdilər. Müsəlman alimləri tərəfindən ənsab mövzusunda yüzlərlə cild kitablar yazılıb. Bunlardan ən məşhurları Bəlazurinin «Ənsabül-əşraf», Səmaninin «əl-Ənsab» əsərləridir. Bu gün də alimlər ənsab elmini hədisşünaslığın və tarixin bir şaxəsi kimi öyrənir və bu istiqamətdə tədqiqatlar aparırlar.

N.R.

ƏNSAR

«Nəsr» sözünün cəmidir, «yardımçılar» mənasını bildirir. Dini anlamda Məkkədən hicrət etmiş Həzrət Mühəmməd Peyğəmbəri (s) və mühacir səhabələri Mədinədə qəbul edən, onlara hər cür köməklik göstərən mədinəli müsəlmanlara «ənsar» deyilir. Quranda Allahın mühacirlərlə yanaşı, ənsardan da razı olduğu, onlar üçün cənnət bağçaları hazırladığı *(Tövbə, 100)*, onları bağışladığı *(Tövbə, 117)*, ənsardan olanların mühacirləri sevdikləri, onları özlərindən üstün tutduqları *(Həşr, 9)*, öz malları və canları ilə Allah yolunda cihad etdikləri *(Ənfal, 72)* bildirilir. Həzrət Mühəmməd Peyğəmbər (s) hər mühacirlə ənsardan olan bir nəfəri qardaş elan etmişdi. Ənsardan olanlar mühacirlərə səmimiyyətlə qucaq açmış və hər şeylərini onlarla bölüşmüşlər.

R.M.

ƏRAF

Ərəb dilindən tərcümədə «yüksəklik, təpə, bel» mənalarını verən «ürf» sözünün cəmidir. Ərəblər atın yalına və xoruzun pipiyinə də (bədənin yuxarı hissəsində yerləşdiyinə görə) ürf deyirlər.

Əraf cənnətlə cəhənnəm arasında uca divar şəklində maneə kimi təsəvvür edilir. Cənnət və cəhənnəm əhli bu divarın arxasından bir-birini görməyəcək, amma bir-birinin səsini eşidə biləcək (həyət qonşuları kimi). Bəzi rəvayətlərə görə, qiyamət günündə peyğəmbərlər və imamlar, xalis möminlər və şəhidlər həmin divarın üzərində durub ümmətin əhvalına baxacaq, bəzi insanlara şəfaət edəcəklər. Qurani-kərimdə buyurulur: «Onların ikisinin *(cənnət əhli ilə cəhənnəm əhlinin)* arasında pərdə və əraf üzərində isə insanlar vardır ki, onlar hamını üzündən tanıyıb cənnət əhlinə: «Sizə salam olsun!» – deyə, müraciət edərlər. Bunlar çox istədiklərinə baxmayaraq, hələ ora *(cənnətə)* daxil olmamış kimsələrdir. Onların nəzərləri cəhənnəm əhlinə çevrildiyi zaman: «Ey Rəbbimiz! Bizi zalımlarla bir etmə!» – deyərlər. Əraf əhli üzdən tanıdıqları adamlara müraciət edib: «Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi» – deyəcək» *(Əraf, 46-48)*.

Bəzi rəvayətlərə görə isə, əraf xüsusi bir yerdir ki, nə cənnətə, nə də cəhənnəmə layiq olmayan adamlar ora aparılacaqlar. Məsələn, yetkinlik yaşına çatmayan, günahı və savabı hesaba alınmayan uşaqlar, əqli cəhətdən nöqsanlı insanlar, savabı ilə günahı tam bərabər gələn adamlar və s. Əraf də nə cəhənnəm əzabı, nə də cənnət ləzzəti var. Əraf bunların arasında fərqli bir şəraitə malik məkandır. Yuxarıda adları çəkilən təbəqələr ərafda adi qaydada ömürlərini sürəcəklər.

Alimlərin bəziləri bu iki nəzəriyyəni birləşdirməyə çalışmış və belə bir fikir irəli sürmüşlər ki, qiyamət günündə yüksək dərəcəli möminlər çox sürətlə cənnətə daxil olacaqlar. Bunlardan daha aşağı səviyyədə olan şəxslərin isə cənnətə buraxılmaları yubadılacaq. Onlar öz əməllərinə müvafiq olaraq bir müddət ərafda qalmalı olacaqlar. Yəni günahları nisbətən çox olan möminlər ərafda müvəqqəti saxlanılacaqlar. Sonra onlara yenə öz dərəcələrinə uyğun olaraq cənnətə daxil olmaq icazəsi veriləcək. Ümmətin başçıları və seçilmiş üzvləri də bu cür insanları tək buraxmamaq üçün ərafda onlarla bir cərgədə duracaqlar. Adi həyatda da çox zaman qoşunun körpüdən və sair maneələrdən keçidi zamanı sərkərdənin ən son cərgədə durduğunu və körpünü ən axırda keçdiyini görürük. Müqəddəs şəxslər də öz günahkar dindaşlarını tək buraxmamaq üçün ərafda onların yanında olacaqlar *(Təfsirinümunə, VI, 189-190)*.

N.R.

ƏRBƏİN

Ərəb dilindən tərcüməsi «qırx» deməkdir. İmam Hüseynin faciəli şəhadətindən sonrakı 40-cı günü ifadə edir. Ərbəin mərasimləri səfər ayının 20-də (*aşuradan* 40 gün sonra) təşkil edilir.

Tarixdə ərbəin gününü qeyd etmiş ilk şəxsin məşhur səhabə *Cabir ibn Abdullah Ənsari* olduğu bildirilir. O, aşura faciəsi baş verən il, hadisədən 40 gün sonra Ətiyyə ibn Səd ibn Cünadə Ovfi adlı səhabə ilə birlikdə *Kərbəlaya* gəlmiş, müqəddəs məzarı ziyarət etmişdir. Həmin ərbəin ziyarətində Şamdan Mədinəyə qayıdan Əhli-beyt əsirlərinin də iştirak etdikləri barədə rəvayətlər vardır. Tarixdən məlumdur ki, aşura faciəsindən sonra Şama – *Yezidin* hüzuruna aparılan əsirlər orada bir müddət saxlanmış, daha sonra xalqın qəzəbindən qorxan Yezidin əmri ilə Mədinəyə qaytarılmışdılar. Mədinəyə qayıdarkən karvanın Kərbəla səhrasından keçdiyi və karvanda olan Əhli-beyt üzvlərinin buranı ziyarət etdikləri də məlumdur. Bəzi tarixçilər bu ziyarətin məhz birinci ərbəin günündə baş verdiyini yazmışlar. Lakin tədqiqatçıların əksəriyyəti Əhli-beyt karvanının ilk ərbəində Kərbəlada olmasını qeyri-mümkün sayırlar. Çünki mötəbər rəvayətlər əsirlərin bir neçə gün Kufədə, ən azı bir ay da Şamda saxlandıqlarını xəbər verir. Kərbəladan Kufəyə, oradan Şama qədər yol 40 mənzildən ibarətdir. Karvan bu yolu ən sürətli hərəkətlə 20 günə qət edə bilərdi. Bu müddətin üzərinə Şamdan Kərbəlaya qayıtmaq üçün sərf edilən vaxtı da əlavə etsək, 40 gündən sonra Əhli-beyt üzvlərinin Kərbəlada olması inandırıcı görünmür *(bax: Şeyx Abbas Qummi. Müntəhal-amal, I, 524-525)*. Əhli-beyt üzvlərinin növbəti ilin ərbəin günündə Kərbəlaya gəldiyini söyləməyə əsas verən qəti sübut da mənbələrdə yoxdur. Bəzi alimlər Cabir ibn Abdullahın ziyarətinin ilk ərbəində baş verdiyini, Əhli-beyt üzvlərinin isə ərbəindən başqa bir gündə, Şamdan qayıdarkən yolüstü Kərbəlanı ziyarət etdiklərini yazırlar.

Ərbəin günündə Kərbəlada İmam Hüseynin (ə) və şəhid səhabələrin məzarlarını ziyarət etməyin böyük savabı var. Şiə mənbələrində məhz ərbəin gününə aid ziyarətnamə qeyd edilib. Həmin gün Kərbəlada olmayanların öz evində bu ziyarətnaməni oxumaları da savab sayılır.

N.R.

ƏRBƏUN (və ya ƏRBƏİN)

Ərəb dilindən tərcüməsi «qırx» deməkdir. İslam dünyasında Həzrət Mühəmməd Peyğəmbərdən (şiə məzhəbində həm də 12 imamdan) rəayət edilən 40 hədisin toplandığı məcmuələrə deyilir. Bunun əsas qaynağı Peyğəmbərin aşağıdakı hədisləridir: «Ümmətimdən hər kim dini məsələlərdə ehtiyac duyulan 40 hədisi hifz etsə, qiyamət gü-

ründə Allah onu fəqih kimi *(və ya fəqihlərlə bir sırada)* məhşərə gətirər». «Ümmətimdən hər kim sünnədən 40 hədisi hifz etsə, qiyamət günündə onun şəfaətçisi olaram». İmam Cəfər Sadiq (ə) buyurmuşdur: «Şiələrimizdən hər kim 40 hədis hifz etsə, qiyamət günü Allah onu alim və fəqih kimi məhşərə gətirər və ona əzab verməz». Hədislərdəki «hifz etmək» kəlməsini alimlər müxtəlif mənalarda izah etmişlər. Bəzilərinin fikrincə, burada sadəcə olaraq 40 hədisi əzbərləmək, bəzilərinin fikrincə, onu şərh etmək nəzərdə tutulub. Bəziləri isə 40 hədisin hökmünə əməl etməyin nəzərdə tutulduğunu söyləmişlər. Buna görə də alimlərin bir qismi ərbəunlarda 40 hədisi rəvayət etməklə kifayətlənmiş, bəziləri isə onlara geniş şərhlər yazmışlar. Bir çox alimlər (məsələn, Əllamə Məclisi, Şeyx Abbas Qummi və b.) bu fikirdədirlər ki, yuxarıda söylənilən növlərdən asılı olaraq, Allahın axirətdə verəcəyi mükafat da fərqli olacaq.

Ərbəuna daxil edilən hədislər, adətən, müsəlmanların gündəlik həyatda ehtiyac duyduqları əqidə və fiqh məsələlərinə aid olur. Alimlər bəzən eyni mövzulu 40 hədisi toplamış, bəzən də müxtəlif mövzularda hədislərə müraciət etmişlər. Hətta şiə məzhəbli alimlər imamət və vəlayət məsələsini çox mühüm saydıqları üçün, sırf bu mövzuda ərbəunlar tərtib etmişlər. Məsələn, Şeyx Abdullah Şüştəri, Feyz Kaşani, Əllamə Məclisi, Şeyx Əbu Səid Mühəmməd ibn Əhməd Xüzai Nişaburi (təfsirçi Əbül-fütuh Razinin babası) kimi alimlər imamət və Əli ibn Əbu Talibin (ə) fəzilətləri barədə, İbn Şəhraşub Həzrət Faimənin (ə) üstünlükləri barədə, Ağa Mir Mühəmməd Sadiq Xatunabadi isə İmam Mehdinin (ə) zühuru mövzusunda ərbəun yazmışlar. Cəfəri alimlərindən İbn Zöhrə Hələbinin ərbəunu mütə (müvəqqəti nikah) haqqında, Şeyx Abbas Qumminin ərbəunu əxlaq barəsindədir. Ağa Büzürg Tehrani «əz-Zəriə» əsərində şiə müəllifləri tərəfindən qələmə alınmış 83 ərbəunun adını çəkir (bu siyahıya yalnız «Ərbəun» adı ilə adlandırılmış qırx hədis məcmuələri daxil edilib; başqa cür adlandırılan ərbəunlar bura aid deyil). Şiə aləmində Şeyx Bəhainin və İmam Xomeyninin, əhli-sünnə dünyasında isə İmam Nəvəvinin qırx hədis məcmuələri məşhurdur.

İmam Nəvəvi «Şərhül-ərbəinün-nəbəviyyə» kitabında yazır ki, tarixdə ilk ərbəunun müəllifi Abdullah ibn Mübarək (736-797) olmuşdur. Ondan sonra Mühəmməd ibn Əsləm Tusi, Darqütni, Hakim Nişaburi, Əbu Nüeym İsfahani, Beyhəqi kimi məşhur alimlər də ərbəun tərtib etmişlər.

N.R.

ƏRƏFƏ

Zilhiccə ayının 9-cu gününə deyilir. Hacılar həmin gün Məkkə kənarındakı *Ərəfat* çölündə olduqları üçün, ona bu ad verilib. Ərəfə günü İslamda mübarək günlərdən sayılır. Həmin günün gecəsini namaz və dua ilə keçirmək, gündüz isə oruc tutmaq savabdır. İslam müqəddəsləri ərəfə günü oruc tutan şəxsin iki illik günahlarının bağışlanacağını buyurmuşlar. Ərəfə günü İmam Hüseynin (ə) dilindən rəvayət edilən «Ərəfə duası»nı oxumağın da böyük savabı var. Həmin duanı vaxtilə İmam Hüseyn (ə) həcc ziyarəti zamanı, ərəfə günündə Ərəfat çölündə oxumuşdu.

N.R.

ƏRŞ

Lüğətdə «yüksəklik, tavan, çadır, çardaq, taxt» mənalarını verir. Dini anlamda həqiqi mahiyyəti, ölçü və hüdudu insan ağlı vasitəsilə qavranıla bilməyən, yalnız Uca Allaha məlum olan, bütün aləmi – yeri, göyləri, cənnəti, cəhənnəmi, sidrətül-müntəhanı, kürsini əhatə edən ilahi taxt və hökmranlıq deməkdir.

R.M.

ƏSBABÜN-NÜZUL

Ərəb dilindən tərcüməsi «nazil olma səbəbləri» deməkdir. Quranın ayə və surələrinin nazil olmasına səbəb olan hadisə və şərait haqqında məlumatları əhatə edir. Ayələrin nazil olma səbəbləri Quranın hikmətini daha yaxşı anlamağa, ayələrdə nəzərdə tutulan mənaları daha rahat başa düşməyə yardım göstərir.

M.I.

ƏSHAB

Müsahib, dost, yoldaş. «Sahib» kəlməsinin cəmidir. «Əshabi-Bədr» (*Bədr döyüşünün* iştirakçıları), «əshabi-rəy» (rəy və ictihad əhli) və sairə sözlərin tərkib hissəsi kimi işlədilir. Hədisçilik elmində «səhabə» sözünün sinonimi kimi istifadə edilir.

R.M.

ƏSMAÜL-HÜSNA

Ərəb dilindən tərcüməsi «gözəl adlar» deməkdir. Ümumilikdə, Allah bütün təsəvvürə gələn yaxşı və bəyənilmiş sifətlərə malikdir, bütün pis və nöqsanlı sifətlərdən uzaqdır. Allah mütləq kamillik sahibidir. Onun sifətlərinin sayı qeyri-məhduddur. Bu sifətləri ifadə edən adlar da hər hansı ədədlə məhdudlaşa bilməz. Qurani-kərimdə buyurulur: «Ən gözəl adlar Allahındır. Onu bu adlarla çağırıb dua edin. Onun adları barəsində küfr edənləri tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar!» *(Əraf, 180).*

Allahın adlarının içindən ən seçilmişlərini «əsmaül-hüsna» adlandırırlar. Bunların sayı 99-dur. Peyğəmbərimiz buyurub: «Allahın yüzdən bir ədəd əskik, yəni 99 adı var. Kim bu adları saysa, cənnətə girər».

Dini mənbələrdə əsmaül-hüsnaya aid olan adların bir neçə variantı mövcuddur. Bu variantların arasında yalnız bir neçə adla bağlı cüzi fərqlər görünür. Aşağıda əsmaül-hüsnanın siyahısı verilir:

İlah (pərəstiş edilən məbud), vahid (yeganə), əhəd (bənzərsiz), saməd (ehtiyacsız), əvvəl (hər şeydən əvvəl mövcud olmuş), axir (hər şeydən sonra mövcud olacaq), səmi (hər şeyi eşidən), bəsir (hər şeyi görən), qədir (çox qüdrətli), qahir (düşmənləri qəhr edən), əli (uca), əla (ən uca), baqi (qalan, daimi), bədi (ixtira edən), bari (yaradıcı), əkrəm (ən kəramətli), zahir (aşkarda olan, yaxud aşkardakıları bilən), batin (batində olan, yaxud batindəkiləri bilən), həyy (diri), həkim (çox hikmətli), əlim (hər şeyi bilən), həlim (mülayim), həfiz (ən yaxşı qoruyucu), həqq (haqq), həsib (hər şeyi hesaba alan), həmid (həmd edilən, yaxud həmdə layiq olan), həfi (öz yaratdıqlarını çox sevən), rəbb (bəsləyən), rəhman (çox mərhəmətli), rəhim (həmişə mərhəmətli), zare (bəndələrin aqibətini müəyyən edən), raziq (ruzi verən), rəqib (nəzarətçi, keşikçi), rəuf (mehriban, şəfqətli), rai (hər şeyi görən), səlam (əmin-amanlıq və salamatlıq verən), mömin (iman bəxş edən, yaxud iman bəslənilən), müheymin (himayə edən), əziz (çox izzətli), cəbbar (zalımlara əziyyət verən), mütəkəbbir (məqamı uca tutulan, böyüdülən), seyid (ağa, başçı), sübbuh (hər nöqsandan uzaq), şəhid (hər şeyə şahid və nəzarətçi olan), sadiq (doğrucul, sədaqətli), sane (yaradıcı), tahir (pak), ədl (ədalətli), əfüvv (əfv edən), ğəfur (günahları bağışlayan), ğəni (ehtiyacsız, varlı), ğiyas (dada yetişən), fatir (vücuda gətirən), fərd (tək, yeganə), fəttah (çətinlikləri həll edən), faliq (dan yerini yaran), qədim (əzəli), məlik (mülk sahibi), qüddus (müqəddəs), qəvi (çox qüvvətli), qərib (çox yaxın), qəyyum (dayanıqlı, sarsılmaz), qabiz (sıxan, yaxud canları alan), basit (açıb-sərən), qaziyül-hacat (hökm verən, ehtiyacları həll edən), məcid (şan-şöhrətli), mövla (ağa, başçı), mənnan (bəndələrinə çox ehsan edən), mühit (hər şeyi əhatə edən), mübin (bəyan edən), müqit (ruzi verən), müsəvvir (hər şeyi formaya salan), kərim (çox kəramətli), kəbir (çox böyük), kafi (hər şeyə bəs edən), kaşifüz-zürr (pisliklərin üstünü açıb ifşa edən), vitr (təktənha), nur (nur), vəhhab (nemət bağışlayan), nasir (yardımçı), vase (əhatəli), vədud (bəndələrini çox sevən), hadi (hidayət edən, yol göstərən), vəfi (vəfalı), vəkil (himayədar), varis (hər şey məhv olduqdan sonra tənha qalacaq vücud), birr (yaxşı sifətlərin sahibi), bais (qiyamətdə ölüləri dirildən), təvvab (tövbələri qəbul edən), cəlil (cəlallı), cəvad (səxavətli), xəbir (hər şeydən xəbərdar), xaliq (yaradan), xeyrün-nasirin (ən yaxşı yardımçı), dəyyan (hesab gününün sahibi), şəkur (şükr edilən, yaxud şükrə layiq), əzim (çox əzəmətli), lətif (lütf edən, yaxud zərif, cism xüsusiyyətlərindən uzaq), şafi (şəfa verən) *(Əllamə Məclisi. Biharül-ənvar, IV, 186).*

N.R.

ƏSR NAMAZI (İKİNDİ NAMAZI)

«Əsr» sözünün ərəb dilindən tərcüməsi «zəmanə, ruzgar, yüz il, axşamüstü» deməkdir. Günorta ilə axşam arasındakı vaxtı (axşamüstü) bildirmək üçün işlədilir. Gündəlik qılınması fərz olan beş namazdan biri də «əsr namazı» adlanır. Əsr namazı 4 rükətdən ibarətdir. Bütün rükətlərində qiraət (Fatihə surəsi, ondan sonra oxunan surə və ya bir neçə ayə) asta səslə *(ixfa)* yerinə yetirilir.

Əsr namazının vaxtı əhli-sünnə məzhəblərinə görə, *zöhr* vaxtının bitdiyi an, yəni şərq istiqamətində kölgə əşyanın özü boyda olduğu an başlayır və Günəş batana kimi davam edir. Hənəfi məzhəbinin banisi İmam Əbü Hənifənin fətvasına əsasən, əsr namazının vaxtı şərq istiqamətində kölgə əşyanın uzunluğunun iki misli olduğu an başlayır. Əbu Hənifənin şagirdləri Əbu Yusif və Məhəmməd Şeybani bu məsələdə onunla razılaşmamış və çoxluğun fikrini müdafiə etmişlər.

Cəfəri məzhəbinin fiqhinə görə, əsr namazı zöhr namazından dərhal sonra qılına bilər (bax: *cəm*). Zöhr anından zöhr namazını qılmağa bəs edəcək qədər keçən vaxt yalnız zöhr namazına məxsus olan vaxtdır və bu vaxt ərzində əsr namazını qılmaq olmaz. Məğrib azanından əvvəl dörd rükətlik namazın qılınmasına bəs edəcək qədər vaxt isə yalnız əsr namazına məxsusdur və həmin vaxtda zöhr namazını qılmağa icazə verilmir. Bu iki vaxt kəsiyi arasında qalan müddət zöhr və əsr namazlarının müştərək qılınma vaxtı sayılır və hər iki namazı bu vaxt qılmaq mümkündür. Cəfəri məzhəbli müctəhidlərin geniş həcmli risalələrində əsr namazının qılınması üçün müstəhəb vaxt (fəzilət vaxtı) göstərilib. Əsr namazının fəzilət vaxtı əşyanın kölgəsi şərq istiqamətində özü boyda olan an başlayır və kölgə özünün iki misli boyda olanda bitir.

Əhli-sünnə məzhəbinə görə, əsr namazından əvvəl 4 rükət *nafilə* namazı qılmaq sünnətdir. Cəfəri məzhəbində isə, əsr namazının nafiləsi 8 rükətdən ibarətdir.

N.R.

ƏSRİ-SƏADƏT

Həzrət Məhəmməd Peyğəmbərin (s) yaşadığı dövr. Peyğəmbər buyurmuşdur: «Əsrlərin ən yaxşısı mənim əsrimdir». Peyğəmbərin səhabələri belə buyurmuşlar: «Sizin gözünüzdə tük qədər əhəmiyyət vermədiyiniz elə əməlləriniz var ki, əsri-səadətdə biz bunları böyük günahlardan sayırdıq».

R.M.

ƏTBAÜT-TABİİN

Tabiinə tabe olanlar. Bəzən «təbii-tabein» şəklində də işlədilir. Mömin olaraq tabiin təbəqəsindən olanlarla görüşüb, onlardan hədis rəvayət edən və müsəlman kimi ölənlərə bu ad verilib. Həzrət Məhəmməd Peyğəmbərin (s) hədislərini nəql edən ravilərin üçüncü nəslidir. Ətbaüt-tabiin nəslinin çoxu səhabələrin nəvələridir; onların bir hissəsi səhabələri görmüşdür.

R.Ş.

ƏZADARLIQ

bax: *təziyə*.

ƏZLAM

İslamdan qabaqkı cahiliyyə dövründə Ərəbistanda mövcud olmuş falçılıq ənənəsi. Püşkatma yolu ilə aparılırdı. Üç oxdan birinin üzərinə «bəli», o birinin üzərinə «xeyr» yazır, üçüncünü boş qoyurdular. Hər hansı işi görüb-görməmək barədə fal açmaq istəyən şəxs (çox zaman bu işi kahinlər icra edirdilər) oxları qarışdırıb, birini götürürdü. «Bəli» yazılmış ox çıxırdısa, o işi yerinə yetirir, «yox» yazılmış ox çıxırdısa o işdən vaz keçirdilər. Əgər yazısız ox çıxsaydı, falı təkrar edirdilər.

Qurani-kərimdə əzlamdan istifadə etmək qəti surətdə qadağan olunur və bu əməl bütlərə inanmaq, şərab içmək kimi günahlara bərabər tutulur: «Ey iman gətirənlər! Şərab da, qumar da, bütlər də, əzlam da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız» *(Maidə, 90)*.

N.R.



FAİLİ-MUXTAR

Tərcüməsi «seçim hüququ əsasında hərəkət edən» deməkdir. İnsan haqqında işlədilən ifadədir. İnsan iradə azadlığına malik olduğu, öz əməllərini özü seçdiyi və buna görə cavabdehlik daşıdığı üçün «faili-muxtar» adlandırılır. Qurani-kərimdə də bu barədə bəzi məlumatlara rast gəlirik: «Biz ona *(insana)* iki yol göstərmədikmi?» *(Bələd, 10)*. Burada iki yol – yaxşı və pis, halal və haram, haqq və batil yollarıdır. Allah-təala həm bizim fitrətimizdə yaxşını pisdən ayırmaq üçün vicdan adlı meyar yerləşdirib, həm də peyğəmbərləri, səmavi kitabları, din alimlərini bizə yolgöstərici olaraq göndərib. Onlar yaxşı əməlin savabını, pis işin günahını ətraflı şəkildə insanlara izah ediblər. Bu iki yoldan hansı birini seçmək ixtiyarı bizim öhdəmizə buraxılıb. Hərə öz seçkisinə görə özü cavab verəcək.

Quranın aşağıdakı ayəsi də bu fikri təsdiq edir: «Biz ona *(insana)* haqq yolu göstərdik; istər *(nemətlərimizə)* minnətdar olsun, istərsə nankorluq etsin» *(İnsan, 3)*.

Elə bu seçki imkanına görə insan mələklərdən və heyvanat aləmindən fərqlənir. Həzrət Əli (ə) buyurub: «Allah mələklərə ağıl verib, amma şəhvət verməyib. Heyvanlara şəhvət verib, amma ağıl verməyib. Adəm övladına isə bunların hər ikisini bəxş edib. Hər kimin ağlı şəhvətinə qalib gəlsə, mələkdən də üstün olar. Hər kimin şəhvəti ağlına güc gəlsə, heyvandan da alçaq dərəcəyə enər».

N.R.

FAL

Müxtəlif vasitələrlə gələcəkdə baş verəcək hadisələri, qeyb aləminə aid məlumatları xəbər vermək. Qədim dövrlərdən bu günə kimi ox, kart, qoyunun kürək sümüyü kimi vasitələrlə, eləcə də, üzük falı, noxud falı, kasa falı, qəhvə falı, ulduz falı, Hafizin divanı ilə fal açma və sair üsullarla həyata keçirilmişdir. Məsələn, cahiliyyə dövründə ərəblər quşların səsini, quşun sağdan sola uçuşunu pis əlamət kimi yozurdular. Buna tiyərə deyilirdi. İslamda tiyərə batil sayılır; Həzrət Məhəmməd Peyğəmbər (s) bunun həqiqətə uyğun olmadığını buyurub *(Səhih-ül-Buxari, Tibb kitabı, 5753-cü hədis)*.

Bəzi hədislərdə «fəl» sözünə rast gəlirik. Amma bu, haqqında danışdığımız faldan fərqli bir məfhumdur. Peyğəmbərdən: «Fəl nədir?» – deyə soruşulduqda, «Hər hansı birinizin eşitdiyi gözəl sözdür» cavabını vermişdi *(Səhihül-Buxari, Tibb kitabı, 5754-cü hədis)*. Məsələn, çətinliyə düşmüş bir adam təsadüfən başqa birisinin dilindən yaxşı bir söz eşitsə, bunu xeyirə yozmasında günah yoxdur. Belə demək mümkünsə, fəl – qulaq falıdır. Novruz ənənələri arasında bu günə kimi yaşayan qulaq falına çıxmaq adəti də bunun bir formasıdır. İmam Əli (ə) buyurub: «Göz dəyməsi, ovsun, sehr və fəl vardır *(mövcuddur)*, tiyərə, ədva *(bədbəxtliyin birindən başqasına keçməsi)* isə yalandır» *(Nəhcül-bəlağə, 408-ci hikmətli kəlam)*.

Falçılıq İslamda çox böyük günahlardan sayılır. Çünki falçı qeybdən xəbər verdiyini iddia edir. Halbuki, qeyb aləminin sirləri yalnız Allaha məlumdur; Allah onlardan lazım bildiyi qədərini peyğəmbərlərə və övliyalara açar. Onlar da Allahın izni olmadan heç bir qeyb xəbərini insanlara çatdırmazlar. Halbuki, falçılar qətiyyən şəriətə uyğun olmayan vasitələrlə gələcəkdən xəbər verdiklərini söyləyir, üstəlik, bunun üçün muzd tələb edirlər. Bu, onların sözünün həqiqətə uyğun olmadığını açıq-aşkar göstərir.

Müasir falçılar keçmişdə kahinlərin icra etdikləri işləri yerinə yetirirlər. Keçmiş zamanlarda adamlar kahinin yanına gedir, gələcəkdə nə baş verəcəyini ondan soruşurdular. Kahin də müəyyən muzd müqabilində onlara lazım olan informasiyanı verirdi. Ona görə də hədislərdə gələcəkdən xəbər verən kahinlər haqqında deyilənləri tam mənasında falçılara da aid etmək olar.

Həzrət Məhəmməd Peyğəmbərin (s) falçılara münasibəti çox sərt idi; hətta bir falçını edam etdirmişdi. Peyğəmbərimiz nəinki kahin və falçıları, hətta onlara müraciət edən və sözlərinə inanan adamları da çox ağır

ifadələrlə günahkarlıqda ittiham edirdi: «Hər kim kahinə müraciət etsə və onun sözlərinə inansa, Mühəmmədə nazil olan vəhyi inkar etmiş olar» *(Sünənü Əbu Davud, Tibb kitabı, 3904-cü hədis).* «Kim kahinin yanına gedib ondan nə isə soruşsa, 40 gecəlik namazları qəbul olmaz» *(Səhihü-Müslim, Salam kitabı, 5821-ci hədis).*

Bir dəfə İmam Cəfər Sadiqə (ə) belə bir sual verdilər: «Filan yerdə bir nəfər yaşayır. Adamlar oğurlanmış malı tapmaq və başqa işlər üçün onun yanına gedirlər. Bizə də onun yanına getməyə icazə verirsənmi?». İmam Cəfər Sadiq (ə) onlara belə cavab verdi: «Allahın Rəsulu buyurub ki, hər kim sehrbazın, kahinin, gələcəkdən xəbər verdiyini iddia edən yalançının yanına getsə və onun dediklərinə inansa, Allahın nazil etdiyi bütün səmavi kitabları rədd etmiş kimidir» *(Əllamə Məclisi. Biharül-ənvar, LXXII, 212-213).*

Diqqət yetirilməli bir məsələ də bundan ibarətdir: falla istixarəni qarışdırmaq olmaz. *İstixarə* (buna xalq arasında Quran açmaq da deyirlər) hədis və rəvayətlərə əsaslanan bir əməldir. İstixarə bir çoxlarının başa düşdüyü kimi, gələcəkdə nə baş verəcəyini detalları ilə öyrənmək deyil. İstixarə – iki yoldan birini seçməli olan, amma hansı yolun xeyirli olduğunu bilməyən adamın Quran vasitəsilə Allahdan kömək istəməsi deməkdir. Allah-təala istixarədə çıxan Quran ayəsi vasitəsilə həmin adama çıxış yolunu göstərir, iki yoldan hansı birinin onun üçün faydalı olduğunu xəbər verir. İstixarə Peyğəmbərdən və imamlardan rəvayət edilən duaları oxuduqdan sonra həmin müqəddəslərin buyurduğu qaydalar əsasında yerinə yetirilir. Ona görə də, bunu falçılıqla qətiyyən eyni tutmaq olmaz.

N.R.

FASİQ

Allahın yolundan azan və Onun hökmlərinə əməl etməyən insan. Qurani-kərimdə fasiqin verdiyi xəbəri mütləq araşdırmağın lazım olduğu vurğulanır: «Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, dərhal *(onun doğruluğunu)* yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız» *(Hücürat, 6).* Hədisçilik elmində küfr etməmək şərti ilə söz və hərəkətlərində dinin əmrlərinə zidd davranan raviyə fasiq deyilir.

bax: *fisq.*

A.Q.

FƏCR NAMAZI

bax: *sübh namazı.*

FƏQİH

Fiqh elmində ixtisaslaşmış müctəhid alim.

bax: *fiqh.*

FƏQİR

Ərəb dilindən tərcüməsi «yoxsul, kasıb, möhtac» deməkdir. Ümumiyyətlə, «fəqr» (fəqirlik) anlayışı dini ədəbiyyatda bir neçə mənada işlədilir.

Mənaların birinə görə, bütün insanlar fəqirdirlər, çünki Allah-təalanın mərhəmətinə möhtacdırlar. Yalnız Allah qənidir (zəngindir, ehtiyacsızdır): «Allah zəngindir, siz isə yoxsulsunuz» *(Mühəmməd, 38).*

Digər mənaya görə, fəqirlik – maddi yoxsulluq, kasıblıq deməkdir. Bəzi ayə və hədislərdə bu cür fəqirlik insanın imanına zərər yetirə biləcək pis bir hal kimi göstərilir: «Şeytan sizi yoxsulluqla qorxudaraq, alçaq işlərə sövq edər...» *(Bəqərə, 268).* «Fəqrdənsə qəbir yaxşıdır» *(İmam Əli (ə)).* Fəqirliyin bu cür dəyərləndirilməsinin səbəbi budur ki, kasıb insan özünün və ailəsinin dolanışığını təmin etmək üçün başqalarına, hətta dinsiz və mənəviyyatsız şəxslərə də möhtac olar, bununla öz şəxsiyyətini, müstəqilliyini itirər, alçalar.

Bir qrup rəvayətlərdə isə fəqirlik bəyənilən bir hal kimi göstərilir. Hətta Həzrət Mühəmməd Peyğəmbərin (s): «Fəqr mənim fəxrimdir», «Bu ümmətin ən yaxşıları fəqirlərdir» – buyurduğu rəvayət olunur. İmam Əli (ə) isə: «Axirətdə insanların ən zəngini bu dünyada ən kasıb olanıdır» – deyib. İmam Mühəmməd Baqir (ə) buyurub: «Kasıb möminlər cənnət bağlarına varlı möminlərdən 40 il əvvəl buraxılacaqlar». Sonra imam öz fikrini belə açıqlayıb: «Təsəvvür et ki, gömrük məmuru iki gəmini yoxlayır. Gəmilərdən birinin boş olduğunu görəndə deyir ki, buraxın üzüb getsin. Amma o biri gəminin dolu olduğunu görəndə əmr verir ki, saxlasınlar *(ta ki, içindəkiləri yoxlasın)*». Bu qismdən olan rəvayətlərdəki fəqirlik – Allahın verdiyinə razı olmaq, qənaətlə yaşamaq, dünyanın haram nemətlərindən qaçmaq mənalarını ifadə edir.

Fəqirlik yalnız maddi deyil, mənəvi yoxsulluğa da şamil olunur. Məsələn: «Nə çoxdur elə fəqir ki, bütün zənginlərdən daha zəngindir» *(İmam Əli (ə)).* Təsəvvüf aləmində də fəqirlik anlayışı məhz bu mənada qəbul edilir. «Deyirlər ki, iki cür fəqr var. Bunların birindən Peyğəmbər bizarlıq edib Allaha buyurub: «Fəqrdən sənə pənah aparıram». Fəqrin o biri növü haqqında isə buyurub: «Fəxr fəxrimdir». Birincisi küfrə, ikincisi haqqa yaxındır. Küfrə yaxın olan – qəlbin fəqirliyidir ki, elm, hikmət, əxlaq, səbir, təslim və təvəkkül qəlbdən gedər. Amma Peyğəmbərin fəxri olan fəqirlik budur ki, insan dünyanı atsın və bununla Allaha yaxın olsun» *(Xacə Abdullah Ənsari. Kəşfül-əsrar).*

İslam şəriətində fəqir elə şəxsə deyilir ki, özünün və ailəsinin bir illik dolanışıq xərcinə sahib deyil və bu məbləği qazanmaq imkanından da məhrumdur. Belə insana maddi yardım göstərmək qalan müsəlmanların vəzifəsidir. Şəriətdə vacib buyurulan ehsanat (zəkat, fitrə zəkatı, fidyə, kəffarə), həmçinin, sədəqə bu cür şəxslərə ünvanlanmalıdır.

Fəqirə yardım göstərmək İslamda savab sayılır. Əksinə, fəqirə təhqir gözü ilə baxmaq, kasıblığına görə onu alçaltmaq, könlünü qırmaq çox böyük günahlardandır.

Dinimizdə fəqirin də özünü aparma qaydaları barədə bəzi göstərişlər vardır. Fəqir şəxs özünü zəlil şəklə salmamalı, şəxsiyyətini alçaltmamalı, yeri gəldi-gəlmədi ətrafdakılardan yardım ummamalıdır. Həmişə ruzi axtarışında olmalıdır, işləyə bilirsə, qazancını halal zəhmətlə əldə etməyə çalışmalıdır, verilənə qane olmalıdır. Qurani-kərimdə belə şəxslərin rəftarı təqdirəlayiq sayılıb: «Sədəqə Allah yolunda canından keçərək, yer üzündə hərəkət edə bilməyən fəqirlər üçündür. Belə şəxslər həyalı olub dilənçilikdən çəkindiklərinə görə, nadanlar onları dövlətli hesab edirlər. *(Ya Rəsulum!)* Sən isə onları üzlərindən tanıyırsan. Onlar heç kəsdən israrla bir şey istəməzlər. Sizin mallarınızdan bunlara nə verdiyinizi, şübhəsiz ki, Allah bilir» *(Bəqərə, 273).*

N.R.

FƏNA

Ərəb dilində «fani olmaq, yox olmaq» mənasını verir. Sufinin gözündə maddi dünyanın yox olmasına, itməsinə deyilir. Fəna halı bəndənin mənəm-mənəmliyinin yox olması ilə tövhidin gerçəkləşməsi deməkdir. Bu hal tövhidin ən yüksək dərəcəsidir. Bəndə Allah barədə təfəkkürə o qədər qərq olur ki, mənlik şüurunu itirmək dərəcəsinə çatır. Buna fəna fit-tövhid (tövhiddə fani olmaq) deyilir. Fəna halında bəndənin niyyət və davranışları gözəl əxlaqi biçimdə olur. Təfəkkürdə başlanan bu hal hərəkətlərə də təsir edir. Fəna fillah (Allahda fani olmaq) isə bəndənin zat və sifətinin ilahi zatda və sifətlərdə fani olmasıdır. Bəndə bu vəziyyətdə bütün dünyəvi əlaqələrdən uzaqlaşır və diqqətini Allahın dərgahına yönəldir.

R.M.

FƏRAİZ

«Fərizə» sözünün cəmidir. Şəriətdə bütün mükəlləf şəxslər tərəfindən yerinə yetirilməsi qəti surətdə əmr edilmiş əməlləri ümumiləşdirilmiş şəkildə «fəraiz» adlandırırlar.

İslam miras hüququna da fəraiz deyilir. Quran və sünnədə varislər üçün təyin edilən miras paylarından bəhs edir. Quranın Nisa surəsinin 11-ci ayəsində mirasların düzgün hesablanması insanlara «Allahdan fərizə» elan edilmişdir. Səhabələr içində fəraiz elmini ən yaxşı bilən Zeyd ibn Sabit olmuşdur. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub: «Fəraiz elmini öyrənin və öyrədin. Bu elm dinin yarısıdır. Ümmətimin hər şeydən əvvəl unudacağı və tərk edəcəyi bu elm olacaq» *(Sünənü İbn Macə, Fəraiz babları, 1 bab, 2719-cu hədis).*

Ə.N.

FƏRSƏX

Uzunluq vahidi. Fars mənşəli «fərsəng» sözünün ərəbləşdirilmiş variantıdır. At belində orta sürətlə bir saat ərzində qət edilən məsafəni bildirir. Fərsəxin müasir ölçülərlə

miqdarını dəqiq təyin etmək çətindir. Keçmişdə bir fərsəxi 3 milə bərabər götürürdülər. Bəzi mənbələrdə bir fərsəxin 6232,2 metr, bir ərəb fərsəxinin isə 5762,7 metr olduğu bildirilir.

Fərsəx bəzi şəriət hökmlərində (məsələn, səfərə çıxan şəxsin namazları ixtisarla qılması və oruc tutmaması üçün kifayət edəcək məsafə qədər uzaqlaşdığını təyin etməkdən ötrü) məsafə vahidi kimi istifadə edilir. Cəfəri fiqhində bu məsafə (buna rüxsət həddi deyilir) 8 fərsəxə, hənbəli, şafii və maliki məzhəblərində isə 16 fərsəxə bərabərdir. Müasir şiə müctəhidlərinin risalələrində bir fərsəxin təqribən 5,5 km.-ə yaxın olduğu bildirilir və rüxsət həddinin 43 yaxud 44 km.-ə uyğun gəldiyi göstərilir. Əhli-sünnə məzhəblərində bir fərsəx təqribən 5,04 km., 16 fərsəx isə 80,64 km.-ə bərabərdir. Bu, dəvənin bir gecə-gündüz ərzində qət edə biləcəyi məsafədir. Hənəfi fiqhində rüxsət həddi hər gün 6 saat olmaqla 3 günlük (18 saatlıq) yol sayılır. Keçmiş hənəfi mənbələrində bu məsafə 120,96 km. götürülürdü. Müasir hesabatlara görə, hənəfi alimləri rüxsət həddini təqribən 90 km. qəbul edirlər.

N.R.

FƏRZ

Quranda və sünnədə icrası qəti surətdə tələb edilən əməl. Fərzlər iki növdür:

1. Fərzi-eyn. Namaz, oruc və s. bu kimi yerinə yetirilməsi hər mükəlləfə fərz olan əməllər.

2. Fərzi-kifayə. Bəzi mükəlləflər yerinə yetirdiyi təqdirdə başqalarının bu məsuliyyətdən azad olduğu əməllər. Fərzi-kifayəni heç kim icra etməsə, bütün mükəlləflər məsul və günahkar olur (meyitə cənazə namazı qılmaq kimi).

Fərz ibadətlərin hökmü budur ki, onu icra edən savab əldə edir, üzrsüz tərk edən günah qazanır və axirətdə cəzalandırılır. Fərz əməli inkar edən isə dindən çıxmış sayılır.

«Fərz» anlamı hənəfi məzhəbində *vacibdən* fərqli dəyərləndirilir, qalan əhli-sünnə məzhəblərində və cəfəri məzhəbində isə eynilə «vacib» anlayışına uyğun gəlir.

Fərz əməllərə fərizə də deyilir.

A.Q.

FƏSAD

Qarışıqlıq, fitnə, nifaq, anarxiya. Fəsad törətmək qeyri-əxlaqi davranış şəkli sayılaraq İslamda qadağan olunub. Bu barədə Quranda deyilir: «Yer üzü *(Peyğəmbərin gəlməsi sayəsində iman və ədalətlə)* düzəldikdən sonra orada fəsad törətməyin!» *(Əraf, 56).* Fəsad törədənlərin cənnətdə yeri yoxdur: «Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fəsad törətməyənlərə qismət edərik. *(Ən gözəl)* aqibət ancaq təqvalılarındır» *(Qəsəs, 83).*

Bir şeyin daxilində olmayıb, xarici ünsürlərdən qaynaqlanan nöqsana da fəsad deyirlər.

A.Q.

FƏTVA

Hər hansı məsələnin şəriət baxımından həlli və ya aydınlanması üçün verilən sualın cavabı. Fiqhi məsələnin hökmünü açıqlamaq üçün səlahiyyətli şəxs tərəfindən verilən cavab. Fətva verən şəxsə *müfti* deyilir. Fətva ümumi anlayışdır. Ona görə də hər fətva ictihad deyil, ancaq hər ictihad fətvadır.

Ə.N.

FƏZİLƏT

İnsana şərəf gətirən əxlaqi xüsusiyyətlərə deyilir. Məlumdur ki, insan ruhunu üç əsas qüvvə idarə edir. ağıl, qəzəb və şəhvət qüvvələri. İnsanın bütün əməlləri bu qüvvələrin təsiri ilə baş verir. Onlardan hansı biri üstünlük əldə edərsə, bütövlükdə insanın xarakteri həmin istiqamətdə dəyişir.

Bü üç qüvvənin orta və tarazlaşmış səviyyəsinə fəzilət deyirlər. Bunlar insana ucalıq bəxş edən xüsusiyyətlərdir. Ağıl qüvvəsinin fəziləti hikmətdir. Qəzəb qüvvəsinin fəziləti şücaət, şəhvət qüvvəsininki isə iffətdir. Bu qüvvələr fəzilət nöqtəsindən aza və ya çoxa doğru uzaqlaşdıqca müxtəlif nöqsanlar (rəzalətlər) meydana gəlir. Məsələn, ağıl qüvvəsinin həddən çoxluğu vəsvəsəyə və hiyləgərliyə, azlığı səfehliyə gətirib-çıxarar. Qəzəb qüvvəsinin ifrat həddi zalımlığa və kobudluğa, təfrit nöqtəsi qorxaqlığa səbəb olar. Şəhvət qüvvəsinə gəlincə, onun həddən çox olması insani xüsusiyyətləri itirib heyvan səviyyəsinə düşməklə, həddən az olması isə yemək, ailə qurmaq kimi təbii ehtiyacların ödənməməsi ilə nəticələnər.

İnsan xarakterini müəyyən edən bəzi müsbət xüsusiyyətlər də (bunlara ayrı-ayrılıqda xülq deyirlər) fəzilət sayılır. Məsələn: dögüruculluq, sədaqət, təvazökarlıq, səxavət, bağışlamaq bacarığı, rəhmdillik, qənaətcillik, səbir, həya, əhdə vəfa etmək, əmanəti qorumaq və s. Bəzi ibadətlərin də fəzilət vaxtı və şəraiti var ki, həmin vaxtda və şəraitdə icra ediləndə insana daha artıq savab qazandırır.

N.R.

FİDYƏ

«Əvəz» mənasını bildirir. Əsirliklən xilas olmaq üçün verilən canbahası mənasında işlədilir: «Müharibə bitdikdə onları ya məccani *(havayı)*, ya da fidyə müqabilində azad edin» *(Mühəmməd, 4).* Quranda cəhənnəm əzabından qurtulmaq üçün münafiqlərin və kafirlərin təklif edəcəkləri əvəz də bu adla xatırlanır: «Bu gün artıq nə sizdən, nə də kafirlərdən *(günahlarınızın bağışlanması üçün)* heç bir fidyə qəbul olunmaz» *(Hədid, 15).*

İslam şəriətində hər hansı üzrlü səbəbə görə (qocalıq, uzun sürən xəstəlik, hamiləlik və uşaq əmizdirmək) oruc tuta bilməyən şəxsin verdiyi ərzağa da fidyə deyilir. Qurani-kərimdə bu barədə buyurulur: «Oruc tutmağa taqəti olmayanlar isə *(hər günün əvəzində)* bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər» *(Bəqərə, 184).*

Fidyənin vacib olma şərtləri məzhəblərdə fərqlidir. Məsələn, əhli-sünnə məzhəblərinə görə, hamilə və uşaq əmizdirən qadının oruc tutması özünə və ya uşağına ziyan verərsə, orucunu poza bilər. Amma sonra həmin orucu qəza etməli və üstəlik, hər gün üçün fidyə verməlidir. Maliki məzhəbində yalnız süd əmizdirən qadının fidyə verməsi tələb edilir, hamilə qadının öhdəsində yalnız orucun qəzası vardır. Hənəfilər hər iki halda fidyə verməyi vacib bilmirlər.

Qocalıb əldən düşmüş insanlar oruc tutmadıqları hər günün əvəzində bir fəqiri doyurmalıdırlar (maliki məzhəbində bu, müstəhəbdir). Həmçinin, növbəti ramazan ayına kimi sağalmaq ümidi olmayan xəstələr də fidyə verməyə vəzifəlidirlər.

Əhli-sünnə məzhəbinə görə, fidyənin miqdarı bir fəqiri bir gün ərzində doyuracaq qədər ərzaqdır.

Cəfəri məzhəbinə görə, qocalıb əldən-düşmüş, növbəti ramazan ayına kimi sağalmasına ümid olmayan xəstəliyə tutulmuş, aclıqdan və ya susuzluqdan ölmək halına gəlib çatmış insanlar, hamilə və körpə əmizdirən qadınlar (oruc tutmaq qadının özünə və ya uşağına zərərdirsə) oruc tutmaqdan azaddırlar. Lakin hər günün əvəzində bir nəfər fəqirə bir *müdd* (təqribən 750 qram) miqdarında buğda və ya başqa ərzaq verməlidirlər. Üstəlik, tutmadıqları orucu qəza etmək imkanı qazandıqları halda qəza etməlidirlər.

N.R.

FİQH

Ərəb dilindən tərcüməsi «bir məsələni bütün dərinliyi ilə araşdırmaq, öyrənib-bilmək» mənasını verir. Qurani-kərimdə buyurulur: «Möminlərin hamısı birdən cihada getməsin. Hər tayfadan bir dəstə dini araşdırmaqla *(fiqhlə)* məşğul olmaq üçün qalsın ki, camaat *(döyüşdən)* qayıtdığı zaman onları *(Allahın əzabı ilə)* qorxutsun. Bəlkə, onlar çəkinərlər!» *(Tövbə, 122).* Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub: «Allah öz bəndəsinə yaxşılıq etmək istəyəndə, onu dini məsələlərdə araşdırıcı *(fəqih)*, dünya işlərində zahid, eyiblərinə qarşı bəsirətli edir».

Dini termin olaraq, fiqh – məsuliyyətli (mükəlləf) insanın öhdəsinə düşən əmr və qadağanlara münasibətdə daşıdığı vəzifələri öyrənən elmdir. Fiqh insanın özünə, Allaha və başqa insanlara münasibətdə riayət etməli olduğu göstərişləri əhatə edir. Bura həm ibadətlər, həm də ticarət, şoriklik, icarə, irs, məhkəmə hüququ, ailə hüququ kimi sahələr aiddir. Ümumilikdə fiqh insan həyatının bütün sahələrinə sirayət edir. Hətta insanın fiqh hökmlərinə riayət edib-etməməsi onun axirətdəki taleyini də müəyyən edir. Bu dünyada fiqhin halal və haramlarına riayət edən adam axirət aləmində də xoşbəxtlik qazanacaq; əks halda isə əbədi cəzaya məhkum ediləcək.

Fiqhin araşdırma obyekti praktik məsələlərdir. Etiqadi prinsiplər fiqh elmində araşdırılmır, bunlarla kəlam elmi məşğul olur.

Fiqhin əsas iki mənbəyi Qurani-kərim və Peyğəmbər sünnəsidir. Bütün hökmlər, əmr və qadağanlar əsaslandırılan zaman əvvəlcə bu iki mənbəyə müraciət edilir. Bunların ziddinə hökm vermək heç kəsin səlahiyyətinə aid deyil. Quranın və sünnənin möhkəm əmrlərinə *(nəss)* zidd hökmlər vermək dinə qarşı çıxmaq deməkdir. Bu məsələdə müsəlman məzhəbləri arasında heç bir fikir ayrılığı yoxdur.

Əgər hər hansı məsələ barədə Quranda və sünnədə dəqiq göstəriş yoxdursa, *icmaya,* əhli-sünnə məzhəbində *qiyasa,* şiə məzhəbində *ictihada* müraciət edilir. Bunlardan əlavə, məzhəblərin dəyişik fikirlərinə əsasən, *ürf, istihsan, səhabə sözünə* müraciət kimi metodlardan da içtifadə edilə bilər. Bunların yeri, xüsusiyyətləri, etibar dərəcəsi üsuli-fiqh (fiqhin prinsipləri) adlı başqa bir elmdə araşdırılır.

Fiqh elmi Həzrət Mühəmməd Peyğəmbərin (s) zamanından bu günə kimi enişli-yoxuşlu yol keçmiş, müəyyən dövrlərdə böyük müctəhid alimlərin fəaliyyəti sayəsində çiçəklənib inkişaf etmiş, bəzən tənəzzülə uğramışdır.

Fiqh alimləri arasında yaranmış fikir ayrılıqları məzhəblərin meydana çıxmasına səbəb olmuşdur. Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatından bir müddət sonra tabiindən olan br neçə məşhur alim fiqh sahəsinin metodologiyasında öz nəzəriyyələrini yaratdılar. Bunlara *məzhəb* (yol, cığır) deyilir. Zaman keçdikcə, bu məzhəblərin bəzisi unuduldu. Amma 5 əsas fiqh məzhəbi zamanın sınaqlarına dözərək, günümüzə kimi gəlib-çatdı. Hal-hazırda dünya müsəlmanlarının demək olar ki, hamısı bu 5 məzhəbdən hər hansı birinə mənsubdur. Həmin 5 fiqh məzhəbi aşağıdakılardır: *hənəfi, maliki, şafii, hənbəli* və *cəfəri* məzhəbləri. Bu məzhəblərin hər birində fiqh hökmləri ilk növbədə Qurandan və sünnədən çıxarılır. Sadəcə olaraq, Quran ayələrinin təfsiri və hədislərin mötəbərliyi hər məzhəbdə özünəməxsus meyarlar üzərində qurulub. Həmçinin, sonrakı fiqhi metodların (ictihad, qiyas və s.) əhəmiyyəti və mötəbərliyi barəsində də məzhəblər arasında fərqliliklər mövcuddur. *(Kitabın növbəti cildində hər məzhəb barəsində daha ətraflı məlumat veriləcək).*

Fiqhi metodlara əsaslanaraq Quran, sünnə və icmadan hökm çıxara bilmək üçün yüksək səviyyəli mütəxəssis olmaq lazımdır. Fiqh elmində ixtisaslaşmış müctəhid alimlərə *fəqih* deyilir. Fəqihlik məqamı uzun illər ərzində zəhmətə qatlaşıb ərəb dili, məntiq, təfsir, hədis, kəlam, üsuli-fiqh kimi sırf dini elmləri, bunlarla əlaqəsi olan bəzi dünyəvi elmləri mükəmməl öyrənmək sayəsində qazanılır. İslam Peyğəmbəri savadlı, imanlı, dünya ləzzətlərinə uymayan, öz fikir azadlığını qoruyub-saxlayan fəqihlər haqqında buyurub: «Fəqihlər peyğəmbərlərin əmanətini qoruyanlardır».

N.R.

FİSQ

Ərəb dilindən tərcüməsi «çıxmaq, sıçramaq» deməkdir. Məsələn, yetişmiş xurmanın qabığından ayırılıb çıxmasını bu kəlmə ilə ifadə edirlər. Dini termin olaraq, fisq – böyük günah sayılan əməlləri yerinə yetirmək və ya kiçik günahları ardıcıl təkrar etmək mənasını verir. Çünki bu halda insan Allaha itaətdən çıxmış olur.

Qurani-kərimdə «fisq» sözü və eyni kökdən qaynaqlanan kəlmələr 54 dəfə işlədilib. Məsələn, Quranda İblis barədə buyurulur: «Xatırla ki, bir zaman mələklərə: «Adəmin qarşısında səcdə edin!» – demişdik. İblisdən başqa hamısı səcdə etdi. O, cinlərdən idi. O, öz Rəbbinin əmrindən çıxdı...» *(Kəhf, 50).* Ayədə İblisin ilahi əmrdən çıxması məhz «fəsəqə» (fisq etdi) ifadəsi ilə təsvir edilib.

Dini mənbələrdən məlum olur ki, fisq anlayışı çox genişdir, günahın bütün növlərini və dərəcələrini, hətta küfrü də əhatə edir. Məşhur Quran təfsirçisi Qazi Beyzavi qeyd edir ki, fisqin üç mərhələsi var. Birinci mərhələdə insan günahın pis olduğunu anladığı halda onu edir. İkinci mərhələdə insan yenə günahın pis olduğunu anlayaraq onu ardıcıl təkrarlayır. Üçüncü mərhələdə isə, insan artıq günahın pisliyini inkar edir, onu yaxşı bir əməl sayır və heç bir peşmançılıq çəkmədən günah işləri davam etdirir. Üçüncü mərhələdə insan imandan çıxır və küfr mərhələsinə qədəm qoyur. Lakin ilk iki mərhələdə olan şəxs İslam alimlərinin əksəriyyətinin fikrincə kafir sayıla bilməz.

Quranda bəzi əməllər fisq olaraq xarakterizə edilib. Məsələn, Allahı unutmaq *(Həşr, 19),* Allahın ayətlərini inkar etmək *(Bəqərə, 99),* Allahın adı ilə kəsilməmiş (haram) əti yetmək *(Ənam, 121),* ticarət əməliyyatlarını qeydə alan katiblərə və şahidlərə zərər yetirmək *(Bəqərə, 282),* zülm etmək və Allahın buyurduqlarını dəyişdirmək *(Bəqərə, 59),* yalan danışmaq *(Hücərat, 6),* ismətli qadınları yalandan zinakarlıqda ittiham etmək *(Nur, 4).*

Qurani-kərimdə Həzrət Nuh və Lut Peyğəmbərlərin (ə) qövmləri, Fironun tərəfdarları da fasiq (fisq edən) adlandırılırlar. Quranda insanların çoxunun fasiq olduğu da vurğulanır: «Həqiqətən, insanların çoxu fasiqdir» *(Maidə, 49).*

N.R.

FİTRƏ ZƏKATI

Ramazan ayının başa çatması münasibətilə ödənilən zəkatdır. Şafii, hənbəli və maliki məzhəblərinə görə, fitrə zəkatını vermək fərzdir, hənəfi məzhəbində isə *vacib* sayılır (*fərz* deyil). Cəfəri məzhəbinə görə, imkanı çatan hər bir müsəlmanın özü və öhdəsində olan kəslər üçün fitrə zəkatı verməsi vacibdir (cəfəri məzhəbindəki vacib əhli-sünnə məzhəbindəki fərzin hökmünü daşıyır). Fitrə zəkatının vacibliyini Həzrət Mühəmməd Peyğəmbər (s) hicri 2-ci ildə, ramazan ayının sonunda söylədiyi xütbə vasitəsilə müsəlmanlara elan etmişdir.

İslam müqəddəslərindən rəvayət olunmuş hədislərdə fitrə zəkatının verilməsinə çox təkid edilmişdir. Məsələn, İmam Cəfər Sadiq (ə) buyurub: «Orucluq qurtaranda fitrə zəkatı vermək lazımdır; necə ki, namazı qurtaranda Peyğəmbərə salavat demək lazımdır. Hər kim ramazan orucunu qurtarandan sonra qəsdən fitrə zəkatı verməsə, orucu qəbul olmaz. Necə ki, namazın axırında peyğəmbərə salavat göndərməyən adamın namazı qəbul olmaz». Həmçinin, İmam Sadiqlən (ə) rəvayət edilmiş başqa bir hədisdə deyilir: «Hər kim orucunu yaxşı söz və yaxşı əməllə başa vursa, Allah onun orucunu qəbul edər». Soruşdular: «Yaxşı söz və yaxşı əməl hansıdır?». İmam cavab verdi: «Yaxşı söz – kəlmeyi-şəhadət, yaxşı əməl – fitrə verməkdir».

Cəfəri məzhəbi baxımından, fitrə zəkatının əsas hökmləri bundan ibarətdir:

Fitrə zəkatını ramazanın son günündə, məğrib azanından sonra ayırmaq və Fitr bayramı günü bayram namazı qılmazdan əvvəl öz ünvanına çatdırmaq müstəhəbdir. Əgər bu mümkün olmazsa, bayram namazı qılınandan sonra mümkün olan ən qısa vaxt ərzində ödənməlidir. Ev sahibi özü üçün və dolanışığı onun öhdəsində olan şəxslər üçün (yaşından asılı olmayaraq) fitrə zəkatı ayırıb ödəməlidir. Fitrə zəkatının miqdarı həmin bölgədə daha çox istifadə edilən aşağıdakı ərzaq növlərinin birindən adambaşına bir sa, yəni 3 kq. olmaqla hesablanır: buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı. Bu ərzağın qiymətinə uyğun olan məbləğdə pul da verilə bilər. Fitrə zəkatı maddi vəziyyəti çətin olan adamlara *(fəqirlərə)* verilməlidir. Hər kəs öz kasıb qohumuna ya qonşusuna fitrə zəkatı versə, daha yaxşıdır. Cəfəri məzhəbinə görə, ramazanın sonuncu günündə, *iftar* vaxtı gəlmiş qonağın fitrə zəkatı da ev sahibinin boynundadır. Maddi durumu həddən artıq pis olan ailələr fitrə zəkatını ödəməkdən azaddırlar.

Əhli-sünnə məzhəblərinə görə, fitrə zəkatı fərz yox, vacibdir. Hənəfi məzhəbinə görə, bir şəxsin özünün və ailəsinin ehtiyacından artıq qalan əmlakı nisab həddinə çatsa, öhdəsinə fitrə zəkatı düşür. Amma adi zəkatdan fərqli olaraq, malının nisab həddində bir il qalması şərt deyil, Fitr bayramı ərəfəsində malı nisab həddinə çatsa, fitrə zəkatını ödəməlidir. Fitrə zəkatı buğda, arpa, xurma və quru üzümdən (kişmişdən) verilir. Fitrə zəkatı istənilən vaxt verilə bilər. Amma Fitr günü bayram namazına getməzdən əvvəl verilməsi daha yaxşıdır. Bundan sonraya da qalsa, qəza olmaz, əda niyyətilə verilər. Fit-

rə zəkatı ərzağın qiymətinə uyğun olan pul şəklində də verilə bilər. Kişi yetkinlik yaşına çatmamış uşaqları üçün fitrə zəkatı verməlidir, həyat yoldaşı üçün verməsi vacib deyil. Fitrə zəkatı ilk növbədə qohum və qonşudakı fəqirə verilir, yaxında fəqir olduğu halda, fitrə zəkatını uzağa göndərmək məkruhdur. Özü də, fitrə zəkatı yalnız bütöv şəkildə bir fəqirə verilə bilər, onu fəqirlər arasında bölməyə icazə yoxdur.

Hənbəli məzhəbinə görə, bir şəxsin özünün və ailəsinin ehtiyac duyduğu zəruri əmlakdan savayı, bayramı qeyd edəcək qədər pulu və ya malı varsa, fitrə zəkatını ödəməlidir. Fitrə zəkatı bayramdan iki gün əvvəl və ya bir gün əvvəl də verilə bilər, bundan əvvəl verilməsi düzgün deyil. Ən yaxşısı budur ki, bayram axşamı ayırıb, bayram günü namazdan qabaq öz ünvanına çatdırsın. Namazdan sonraya saxlasa – məkruh, ertəsi günə saxlasa – haram olur, amma qəza niyyətilə etməlidir. Fitrə zəkatı hənəfi məzhəbindəki ərzaq növlərindən verilir, undan da verilməsi mümkündür. «Keş» adlı yağsız kəsmiyə oxşar ərzaq da fitrə zəkatının verildiyi maddələrə aiddir.

Şafii məzhəbinə görə, ramazan ayının ilk günündən etibarən fitrə zəkatını vermək caizdir. Fitr bayramı günü sübh namazı ilə bayram namazı arasındakı vaxt ərzində verilməsi sünnətdir, üzrsüz olaraq bayram namazından sonraya saxlanması məkruh, üzrsüz olaraq bayram günü məğribdən sonraya saxlanması haramdır. Kişi öz xanımının, ata, ana, baba və nənə kimi əcdadının əvəzinə fitrə verməlidir, övladının yerinə verməsi lazım deyil. Öhdəsinə fitrə zəkatı gəlməsi üçün özünün və ailəsinin ehtiyac duyduğu zəruri əmlakdan savayı, bayramı qeyd edəcək qədər pula və ya mala sahib olması kifayətdir. Fitrə zəkatı həmin bölgədə dəbdə olan və yeyilən aşağıdakı ərzaq növlərinin birindən verilir: buğda, arpa, darı, düyü, noxud, mərcimək, lobya, xurma, quru üzüm (kişmiş), keş, süd və pendir. Ərzağın özü verilməlidir, qiymətinə uyğun pul vermək olmaz.

Maliki məzhəbinə görə, bayram günü dolanışığına bəs edəcək qədərdən artıq imkana sahib olan kəs fitrə zəkatı verməlidir. Kişi öz həyat yoldaşı, ata-anası (fəqirdirlərsə), pul qazanmayan oğlu və ərə getməmiş subay qızı üçün də fitrə zəkatını ödəməlidir. Fitrə zəkatı o bölgədə çox istifadə edilən aşağıdakı ərzaq növlərinin birindən verilir: buğda, arpa, darı, düyü, xurma, kişmiş və keş. Fitrə zəkatının verilmə vaxtının hökmü şafii məzhəbindəki kimidir.

Əhli-sünnə məzhəblərinin hamısında fitrə zəkatı adi zəkatda müəyyən edilmiş 8 təbəqəyə verilə bilər. Malikilər fitrə verilən şəxsin seyid olmamasını lazım bilirlər. Qeyd edək ki, cəfəri məzhəbində də seyid olmayan şəxs fitrə zəkatının seyidə verə bilməz.

Fitr zəkatının miqdarına gəlincə, əhli-sünnə məzhəblərində bütün ərzaq növləri üçün adambaşına bir sa, yəni 3 kq. ölçü qoyulub. Yalnız hənəfi məzhəbində fitrə zəkatının miqdarı buğda üçün adambaşına yarım sa (təqribən 1,5 kq.) müəyyən edilib; qalan ərzaq növləri üçün ölçü 3 kq.-dır.

N.R.

FİTRƏT

Ərəb dilindən tərcümədə «yaradılış», «xarakter», «təbiət» mənalarını verir. Dini anlamda Allah tərəfindən bütün insanların daxilində yerləşdirilmiş instinktiv duyğular, bəşəri özəlliklər «fitrət» adlandırılır. Fitri duyğuların başında araşdırmaya meyllilik, qohumlara bağlılıq kimi hisslər durur.

İnsan ruhuna hakim olan fitri duyğulardan biri də dindarlıq və allahpərəstlik hissidir. Qurani-kərimdə insan fitrətindəki dindarlıq barədə belə buyurulur: «Üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə tərəf tut! Allahın dinini heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti bunu bilməz» *(Rum, 30).*

Fitrətimizdə Allaha doğru meylin mövcudluğunun ən parlaq sübutu bundan ibarətdir ki, bir çox hallarda tamamilə qeyri-ixtiyari olaraq Yaradanın varlığını etiraf edib ona pənah aparırıq. Qəribə görünsə də, ən qatı dinsiz şəxslər belə, danışıqlarında «maşallah», «inşallah», «xudahafiz», «Allah rəhmət eləsin!», «Allah lənət eləsin!», «Allah saxlasın!» ifadələrini

işlədirlər. Bəzən ən inadkar ateistlər də hamının köməyindən ümidi kəsiləndə qeyri-iradi olaraq, «İlahi, kömək et!», «Allah, dadıma çat!» – deyə yalvarır, çətinlikdən qurtarmaq üçün nəzir deyirlər.

Məşhur bir hədisdə Həzrət Mühəmməd Peyğəmbərin (s) belə buyurduğu rəvayət edilib: «Hər doğulan şəxs fitrətə bağlı olaraq (yəni tək tanrıya inanaraq) dünyaya gəlir. Sonra valideynləri onu yəhudi, xristian ya da məcusi edirlər».

Bir gün bir nəfər İmam Cəfər Sadiqin (ə) yanına gəlib xahiş edir ki, Allahı ona tanıtdırsın. İmam o şəxsdən soruşur: «İndiyədək gəmiyə minmisənmi?». Həmin şəxs cavab verir: «Bəli». İmam soruşur: «Elə olubmu ki, dənizin ortasında çətin vəziyyətə düşəsən? Nə gəmin ola ki, səni xilas edə, nə də üzmək bacarasan?». O adam təsdiq edir: «Bəli». İmam soruşur: «O zaman ürəyində elə bir qüvvəyə qarşı inam hiss etmisənmi ki, səni həmin fəlakətdən xilas etməyə qadir olsun?» Əks tərəf cavab verir: «Bəli». Onda İmam Sadiq (ə) buyurur: «O qüvvə Allahdır; xilaskar olmayan yerdə sənə nicat verməyə, dadına yetən tapılmadığı vaxtda kömək etməyə qadirdir» *(Əllamə Həvizi. Nurüs-səqəleyn təfsiri, I, 12-13).*

Fitrətdəki allahpərəstlik hissi Allahın insana bir mərhəməti və lütfüdür. Allah insanların Onu tanımasını və Onun yoluna bağlanmasını istədiyi üçün, onları fitrətən buna sövq edir. Əgər insan öz fitrətinə tabe olsa, yəni öz batinindəki müsbət hiss və təmayülləri boğmasa, əksinə, inkişaf etdirsə, Allahın buyurduğu yoldan azmaz, həm bu dünyada, həm də axirətdə xoşbəxtliyə nail olar.

N.R.

FÜRQAN

Ərəb dilindən tərcüməsi «fərqləndirən, ayıran» deməkdir. Termin olaraq, Qurani-kərimin adlarından biri kimi işlədilir. Quran ayələrində haqla batilin, yaxşı ilə pisin, halalla haramın fərqləri izah edildiyi üçün, ona bu ad verilmişdir. Qurani-kərimin 25-ci surəsi də Fürqan adlanır. Həmin surənin 1-ci ayəsində buyurulur: «Aləmləri *(Allahın əzabı ilə)* qorxutmaq üçün Fürqanı öz bəndəsinə *(Mühəmmədə)* nazil edən Allah nə qədər uludur» *(Fürqan, 1).*

N.R.

FÜRUÜD-DİN

Ərəb dilindən tərcümədə füru («fər» sözünün cəmi) «ikinci dərəcəli hissələr, xırdalıqlar» deməkdir. Dilimizdəki «təfərrüat» sözü bunu daha aydın ifadə edir. «Füruüd-din» sözü «dinin təfərrüatı, xırdalıqları» mənasını verir.

Füru – üsulun (köklərin, əsasların) qarşılığıdır. İslam dininin əqidə prinsiplərinə *üsulüd-din*, əməli hökmlərinə isə füruüd-din deyirlər. Əgər İslam dinini ağaca bənzətsək, üsulüd-din onun kökləri və gövdəsi, füruüddin isə budaqları və yarpaqları kimidir. Məlumdur ki, budaqlar gövdə üzərində dayanır, inkişaf üçün lazım olan maddələri də kök vasitəsilə əldə edir. Eləcə də, müsəlmanın əməli onun əqidəsindən qaynaqlanır. Şəriətin halal-haramına düzgün riayət etmək üçün əvvəlcə əqidə əsaslarına inanmaq lazımdır. Həmçinin, şəriət hökmlərini anlamaq və əsaslandırmaq üçün yenə dinin əsas prinsiplərinə dayaqlanmaq zəruri şərtdir.

Əhli-sünnə məzhəbində fiqhin hər bir bölümü fər sayılır; cəm halda bunlara füru deyirlər. Yəni füru konkret olaraq, hər hansı fiqh bölümündən ibarət deyil. Şiə məzhəbində isə bundan əlavə, füruüd-din həm də dini termin sayılır və konkret olaraq 10 maddədən ibarətdir: 1. *Namaz*; 2. *Oruc*; 3. *Xüms*; 4. *Zəkat*; 5. *Həcc*; 6. Cihad; 7. *Əmr bilməruf* (insanları yaxşı əməllərə təşviq etmək); 8. *Nəhy ənil-münkər* (insanları pis işlərdən çəkindirmək); 9. *Təvəlla* (Allahın dostlarını sevmək); 10. *Təbərra* (Allahın düşmənlərinə qarşı düşmənçilik etmək). Şiə məzhəbinə görə, hər bir müsəlman bu 10 məsələdə İslamın göstərişlərinə əməl etməli, onları pozmamalıdır. Bu 10 xüsusiyyət müsəlmanın simasını təşkil edir, onun özü, Allah və sair insanlar qarşısındakı vəzifələrini müəyyən edir.

Yuxarıda göstərilən füruüd-din maddələrinin hər biri haqqında bu kitabın səhifələrində ətraflı məlumat verilir.

N.R.

GECƏ NAMAZI

İslamda çox bəyənilən və savabı olan namazdır. İşa namazından sonra sübh azanına kimi müddət ərzində qılına bilər. Gecənin ikinci yarısında, xüsusilə, son üçdən-bir hissəsində qılınması daha yaxşıdır. Gecə namazı vacib deyil, müstəhəb namazdır. Gecə namazı yalnız Həzrət Mühəmməd Peyğəmbərə (s) vacib buyurulmuş, ona görə də heç zaman Onun tərəfindən tərk edilməmişdir. Allah-təala Quranda öz Peyğəmbərinə belə müraciət edir: *«(Ya Rəsulum!)* Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə *(təhəccüd)* namazı qıl» *(İsra, 79).* Gecə namazı qılanların savabı barədə Quranikərimdə buyurulur: «Onlar ibadət üçün yataqlarından qalxar, qorxu və ümid içində öz Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən *(ehtiyacı olanlara)* sərf edərlər. Etdikləri əməllərin mükafatı olaraq onlar üçün göz oxşayan nə cür nemətlər qorunub-saxlandığını heç kəs bilməz» *(Səcdə, 16-17).*

Əvvəla, onu deyək ki, gecə qılınan namazlar təhəccüd (tərcüməsi «gecə yatmayıb ibadət etmək» deməkdir), *vitr* (tərcüməsi «tək» deməkdir) və *şəf* (tərcüməsi «cüt» deməkdir) olmaq üzrə üç növə bölünür (əhli-sünnə məzhəbində gecə yalnız təhəccüd və vitr namazları qılınır). Təhəccüd namazının rükətlərinin sayı insanın həvəsindən və vaxtından asılı olaraq 2 ilə 12 arasında dəyişə bilər; amma rükət saylarının cüt olması lazımdır. Təhəccüd namazı dalbadal sübh namazları kimi qılınır, hər iki rükətdən-bir salam verilir.

Vitr namazı hənəfi məzhəbində vacib sayılır. Yəni onu qılmayan cəhənnəm əzabına layiq görülməz, amma Peyğəmbərin şəfaətindən məhrum qalar. Vitr namazı 3 rükətdir. Birinci rükətdə Fatihədən sonra Əla surəsini, ikinci rükətdə Kafirun surəsini, üçüncü rükətdə isə İxlas surəsini oxumaq müstəhəbdir. Üçüncü rükətin qiraətindən sonra *təkbir* deyilir və *qünut* tutulur.

Hənbəli məzhəbində vitr namazı təkid olunan sünnətdir, 1 rükətdən 11 rükətə kimi (tək sayda) qılına bilər. Vitr namazını ən müxtəlif variantlarda qılmaq olar. Məsələn, iki rükətdən-bir təşəhhüd və salam vermək, sonuncu rükəti tək qılmaq; iki rükətdən-bir yalnız təşəhhüd oxuyub, salamı sonuncu rükətdə vermək; bütün rükətləri təşəhhüdsüz qılıb, son cüt rükətin axırında təşəhhüd oxuyub, axırıncı rükəti təşəhhüd və salamla bitirmək; bütün rükətləri təşəhhüdsüz qılıb, yalnız axırıncı rükətdə təşəhhüd və salam demək. Sonuncu variant ən fəzilətli sayılır. 3 rükət şəklində qılınanda hənəfi məzhəbindəki qayda ilə yerinə yetirilir. Amma həm ikinci, həm də üçüncü rükətlərdə təşəhhüd və salam verilir. Hənbəli məzhəbində də vitr namazını qünutla qılmaq savabdır, amma qünut rükudan sonra icra edilir.

Şafii məzhəbində də vitr namazı təkid olunan sünnət sayılır, 1-dən 11-ə kimi rükət halında (tək sayda) qılınır. Hənbəli məzhəbindəki kimi, müxtəlif variantlarda qılınması mümkündür. Amma rükətləri cüt-cüt ayırmaq, yəni hər ikinci rükətin axırında təşəhhüd və salam vermək sonuncu rükəti də tək qılmaq daha yaxşıdır. Ramazan ayının ikinci yarısında qılınan vitr namazlarının axırıncı rükətində qünut tutmaq da sünnətdir.

Maliki məzhəbinə görə, vitr namazı təkid olunan sünnətdir, bir rükət şəklində qünutsuz qılınır. Fatihədən sonra uca səslə İxlas, Fələq və Nas surələrinin oxunması müstəhəbdir.

Cəfəri məzhəbində gecə namazının ən üstün qılınma qaydası bu cürdür: Gecə namazı ümumilikdə 11 rükətdir. Onun 8 rükəti gecənin nafiləsi niyyəti ilə 4 ədəd iki rükətlik namaz şəklində qılınır. Bunların qılınma qaydası sübh namazına oxşayır. Birinci rükətdə Fatihə və İxlas, ikinci rükətdə Fatihə və Kafirun surələrini oxumaq müstəhəbdir. Qünutda insana zülm verən zalımın cəzalandırılması barədə Allaha dua etmək olar. Hər iki rükətdən-bir təşəhhüd və salam deyilir. Cüt rükətlərin arasında Həzrət Fatimənin (ə) zikrini söyləməyin savabı var.

8 rükəti bitirdikdən sonra 2 rükət *şəf* namazı qılınır. Onun birinci rükətində Fatihədən sonra Nas, ikinci rükətində isə Fatihədən sonra Fələq surələri oxunur, amma qünut tutulmur.

Axırda bir rükət *vitr* namazı qılınır. Fatihədən sonra 3 dəfə İxlas, bir dəfə Fələq və bir dəfə Nas surələri oxunur. Sonra *qünut* tutulur. Qünutda 40 nəfər möminin bağışlanması üçün dua edilir, 70 dəfə *istiğfar* olunur («Əstəğfirullahə rəbbi və ətubü ileyh»), 7 dəfə «haza məqamül-aizü bikə minən-nar» deyilir, 300 dəfə «əl-əfv» söylənilir. Qünutdan sonra rüku, səcdələr, təşəhhüd və salam yerinə yetirilir.

Vitr namazını bitirəndən sonra oxunması müstəhəb olan dualar var ki, müvafiq kitablardan onları öyrənmək olar.

N.R.

GÖZDƏYMƏ

bax: *nəzər ayəsi.*

GÜNAH

Xəta, haram, səhv, cinayət, qeyri-qanuni. Dinin əmr və qadağanlarına zidd olan söz, əməl və davranışlar günah sayılır. Günahlar mahiyyət etibarilə kimə qarşı yerinə yetirilməsindən və necə işlənməsindən asılı olaraq böyük və kiçik qisimlərinə bölünürlər.

bax: *böyük günahlar.*

R.M.

GÜNBƏZ

Memarlıq elementi. Müxtəlif təyinatlı binaların damında quraşdırılan, yarımkürə, konus və ya yumurta formalı örtük. Günbəz oturacaqdan yuxarıya doğru hörgü sıralarının getdikcə daraldılması vasitəsilə yaradılır. Çox qədim dövrlərdən bəri memarlıq abidələrində günbəzdən istifadə edilməsi faktları məlumdur (məsələn, Mikenadakı (Yunanıstan) Atrey məqbərəsinin yeraltı günbəzi (e.ə. XIII əsr)). Sonralar Qədim Roma memarlığında günbəz konstruksiyası daha da təkmilləşdirildi. Romadakı Panteonun (b.e. 128-ci ili) 43 metr diametrli günbəzi öz möhtəşəmliyi ilə seçilir. Bizans memarlıq ənənələrində də günbəz özünəməxsus yerə malik idi. Məhz Bizans memarları sonralar müsəlmanlar tərəfindən daha da təkmilləşdirilmiş yelkənli günbəz konstruksiyasını icad etmişlər (Ayasofiya məbədi günbəzin – diametri 31,5 m.). Orta əsrlərdə Avropa ölkələrində tikilən bütün kilsələr günbəzlə örtülürdü. Brunelleski, Bramante, Mikelancelo kimi məşhur Qərb memarları orijinal günbəz layihələri hazırlamış, bunun vasitəsilə öz tikdikləri binalara daha da əzəmətli və yaraşıqlı görünüş verməyə nail olmuşlar.

Müsəlman memarlıq ənənələrində də günbəz mühüm yer tutur. Demək olar ki, bütün iri məscid, mədrəsə, saray, məqbərə komplekslərində, karvansara və hamamlarda günbəz əsas memarlıq elementi kimi çıxış edir. Sultaniyyədəki Ölcaytu Xudabəndə türbəsinin (XIV əsrin əvvəlləri), Səmərqənddəki Gur-Əmir türbəsinin (XV əsrin əvvəlləri), İstanbuldakı Sultan Əhməd camisinin (XVII əsrin əvvəlləri), Aqradakı Tac-Mahal məqbərəsinin (XVII əsrin ortaları) günbəzləri xüsusilə məşhurdur.

İslam memarlıq məktəblərinin ənənələrindən asılı olaraq, günbəzlərin quruluşu da fərqli olur. Ayrı-ayrı müsəlman ölkələrində fərqli dövrlərdə şiş uclu konus, yumurtavari, yarımkürə formalı günbəzlər dəbdə olmuşdur. Günbəzlər adətən çöl tərəfdən mavi və yaşıl (firuzə) rənglə boyadılır. Bu rəng həm günbəzə səmavi əhval-ruhiyyə verir, həm də onu seyr edənlərə psixoloji aramlıq və sakitlik bəxş edir. Bəzi müqəddəs məkanların günbəzləri qızıl lövhələrlə örtülür. Tikilinin növündən asılı olaraq, günbəzlər daxildən Quran ayələri, xəttatlıq nümunələri və nəbati naxışlarla bəzədilir. Çox vaxt binanın təbii Günəş işığı ilə işıqlandırılmasını təmin etmək məqsədilə günbəzin dairəvi oturacağı

boyunca pəncərələr yerləşdirilr.

Müsəlman memarları orta əsrlərdə bütün bacarıqlarını sərf edərək, günbəz konstruksiyasında cəsarətli yeniliklər tətbiq edirdilər. Məsələn, Osmanlı sultanı Süleyman Qanuninin əmri ilə Memar Sinan tərəfindən layihələndirilmiş Süleymaniyyə camisinin daxilində məhz günbəzin sayəsində heyrətamiz akustika effekti mövcuddur. Deyilənlərə görə, sultana xəbər verirlər ki, caminin tikintisinin daş işləri başa çatıb, amma Memar Sinan günbəzin və məscidin içərisinin tikintisini yubadır, özü məscidin müxtəlif guşələrində oturub saatlarla sulu qəlyan çəkir. Sultan qəzəbli halda tikinti yerinə gəlir və həqiqətən, Sinanın qəlyan çəkdiyini görür. Səbəbini soruşanda memar izah edir ki, o, bu yolla məscidin akustikasını yoxlayırmış. Məscidin hər guşəsində qəlyanın qurultu səsinin əks-sədasını dinləyən memar akustikanı gücləndirmək üçün hansı vasitələrdən istifadə etmək üzərində düşünürmüş. Bu təcrübələrin nəticəsi olaraq, Memar Sinan günbəzin oturacağındakı daşların arasına 65 ədəd nəhəng saxsı küp yerləşdirir. Məhz bu küplərin daxili fəzasının yaratdığı akustikanın hesabına mehrab qarşısında Quran oxuyan şəxsin səsini caminn hər bir güşəsində rahatca eşitmək olur.

Bəzi məlumatlara görə, hal-hazırda bütün dünyadakı məscid günbəzləri arasında öz ölçülərinə görə birinci yeri Əbu-Dəbidəki Şeyx Zaid məscidinin günbəzi tutur. 2007-ci ildə açılmış və tavanı 80-dən artıq irilixırdalı günbəzlə örtülmüş bu məscidin əsas günbəzinin çəkisi 1000 tondan artıqdır, daxili diametri isə 32,8 metrdir. Yeri gəlmişkən, Şeyx Zaid məscidi daha bir neçə göstəriciyə əsasən dünyada birinci yerdə durur. Məscidin döşəməsini örtən xalçanın sahəsi 5627 kv.m., çəkisi isə 47 tondur. İran ustaları tərəfindən toxunmuş bu xalça bütün dünyada ən böyük xalça sayılır. Məscidin günbəzi altında yerləşdirilmiş ən iri çilçırağın diametri 10 metr, hündürlüyü isə 15 metrdir.

N.R.

H

HACƏT NAMAZI

Hər hansı istəyin həyata keçməsi niyyəti ilə qılınan namaz. Qurani-kərimdə buyurulur: «Səbir etmək və namaz qılmaqla *(Allahdan)* kömək diləyin!» *(Bəqərə, 45).*

Hədislərdə hacət namazının qılınma qaydası fərqli şəkillərdə göstərilib. Hacət namazını adətən iki və ya dörd rükət şəklində qılırlar. Gecə qılınması məsləhətdir. Hacət namazından əvvəl qüsl almaq, səliqəli paltar geyinmək, ətir vurmaq müstəhəbdir. Bəzi rəvayətlərdə bu namazı açıq havada (çöldə və ya evin damında) qılmaq tövsiyə edilib.

Həzrət Mühəmməd Peyğəmbərin (s) belə buyurduğu rəvayət edilib: «Allahdan və ya hər hansı şəxsdən arzu-istəyi olan adam kamil şəkildə dəstəmaz alıb, iki rükət namaz qılsın, Allaha həmdü-səna etsin, Peyğəmbərə salavat söyləsin. Bunun ardınca belə dua etsin *(duanın tərcüməsi verilir)*: «Allahdan başqa məbud yoxdur. O, helm və kərəm sahibidir. Uca ərşin sahibi olan Allah bütün nöqsanlardan uzaqdır. Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Ya Rəbbim! Səndən mərhəmətinin səbəblərini, əfvinin vəsilələrini, hər cür yaxşılıqdan mənə pay verməyini, hər cür günahdan məni qorumağını istəyirəm. Öhdəmdə elə bir günah saxlama ki, onu bağışlamayasan. Məni elə bir sıxıntıya salma ki, onu yüngülləşdirməyəsən. Mənə elə bir ehtiyac vermə ki, Sənin razılığına uyğun olmasın və onu yerinə yetirməyəsən. Ey mərhəmətlilərin ən mərhəmətlisi!» *(Sünənüt-Tirmizi, Vitr babları, 479-cu hədis; Sünənü İbn Macə, İqamətüs-səlavat babları, 1384-cü hədis).*

Aşağıda hacət namazının qılınma formalarından bəzilərini təqdim edirik:

Hər iki rükətdə Fatihə surəsindən sonra, eləcə də, rüku halında, rükudan qalxandan sonra, iki səcdədə, səcdələr arası oturuşda, səcdələrdən sonra 15 dəfə İxlas surəsi oxunur. Namazı bitirdikdən sonra yenə 15 dəfə İxlas surəsini oxumaq lazımdır. Sonra səcdə edilir. Səcdə halında müvafiq hacət duasını oxumaq, ya da istənilən dildə Allahdan öz ehtiyacını diləmək lazımdır.

İmam Zeynül-abidindən (ə) rəvayət edilən bir hədisdə hacət namazını 4 rükət (iki dəfə iki rükət) şəklində qılmaq tövsiyə edilir. Birinci rükətdə Fatihə və Zilzal, ikinci rükətdə Fatihə və Nəsr, üçüncü rükətdə Fatihə və Kafirun, dördüncü rükətdə isə Fatihə və İxlas surələri oxunur. Axırda əlləri səmaya qaldırıb bu duanı oxumaq lazımdır *(duanın tərcüməsi verilir)*: «İlahi, Səni and verirəm o adlarına ki, onları çağırmaqla səmanın bağlı qapıları açılar. İlahi, Səni and verirəm o adlarına ki, onları çağırmaqla yerin darlıqları genişlənər. İlahi, Səni and verirəm o adlarına ki, onları çağırmaqla çətinlik qapıları asanlıqla açılar. İlahi, Səni and verirəm o adlarına ki, onları çağırmaqla qəbirlər yarılar. Mühəmmədə və nəslinə Sənin salavatın olsun! İstəyimi qəbul et!».

Başqa bir rəvayətə görə, istəyinin həyata keçməsini arzulayan adam ardıcı olaraq üç həftənin cümə gecəsində, sübh azanına təqribən bir saat qalmış iki rükət namaz qılsın (sübh namazı şəklində), sonra 100 dəfə salavat söyləsin, 1001 dəfə belə desin: «Bismillahir-Rəhmanir-Rəhimi bihəqqi Bismillahir-Rəhmanir-Rəhim». Daha sonra yenə 100 dəfə salavat söyləyib istəyini Allaha çatdırsın.

Həmçinin, ehtiyacı olan adamın gecəyarısı (cümə gecəsi daha yaxşıdır) iki rükət namaz qılıb, sonra 70 dəfə bu duanı oxuması məsləhətdir: «Ya əbsərən-nazirin, ya əsrəəl-hasibin, ya əsməəs-samiin, ya əkrəməl-əkrəmin, ya ərhəmər-rahimin, ya əhkəməl-hakimin». («Ey bütün nəzarətçilərdən daha yaxşı görən, ey hamıdan daha tez hesab çəkən, ey bütün eşidənlərdən daha yaxşı eşidən, ey kəramətlilərin ən kəramətlisi, ey mərhəmətlilərin ən mərhəmətlisi, ey hökm edənlər içində ən adalətli hakim!»).

Bəzi rəvayətlərdə hacət namazının birinci rükətində Fatihədən sonra üç dəfə ayətülkürsi, o biri rükətlərdə isə Fatihədən sonra İxlas, Fələq və Nas surələri oxumaq məsləhət görülür. Namazdan sonra Allaha həmdüsəna etmək, Peyğəmbərə və nəslinə salavat söyləmək, bundan sonra öz istəyini dilə gətirmək tövsiyə edilir.

N.R.

HAFİZ

Qoruyan, saxlayan, mühafizə edən. Allahın gözəl adlarından *(əsmaül-hüsna)* biri. Quran-kərimdə buyurulur: «Allah özü ən yaxşı qoruyandır və rəhmlilərin ən rəhmlisidir» *(Yusif, 64).* «Həqiqətən, Rəbbim hər şeyi hifz edəndir» *(Hud, 57).*

Qurani-kərimi bütöv şəkildə əzbərləyən şəxsə də «hafiz» deyilir.

L.Q.

HAL

bax: *məqam və hal.*

HALAL

Mübah, şəriətin icazə verdiyi əməl. Edildiyi halda insana məsuliyyət gətirməyən əməl. İşlənməsi ilə işlənməməsi arasında dini məsuliyyət baxımından fərq olmayan şeylər halal sayılır.

A.Q.

HARAM

Dinin qadağan etdiyi əməl və davranış tərzi. İslam dinində yerinə yetirilməsi qəti surətdə qadağan olan əmələ haram deyilir. Haram nəsslə (Quran ayəsi, *mütəvatir* və ya məşhur hədislə) sübuta yetməlidir. Hənəfi məzhəbli alimlərdən başqa əksər İslam hüquqşünaslarının fikrincə, haram zənni dəlil sayılan vahid xəbərlə də sübuta yetirilə bilər. Hənəfilər vahid xəbər vasitəsilə qəti şəkildə qadağan edilmiş əmələ «təhrimən məkruh» (harama yaxın məkruh), vahid xəbərlə qəti qadağan edilməmiş əmələ isə «tənzihən məkruh» (halala yaxın məkruh) deyirlər.

Allahın və Peyğəmbərin bir şeyi qadağan elan etməsi aşağıdakı formalarda ola bilər:

1. Haram olduğunu qəti ifadə etməklə *(Nisa, 23; Maidə, 3).*

2. Halal olmadığını bildirməklə *(Əhzab, 52).*

3. Qadağan ifadə edən başqa kəlmə vasitəsilə *(İsra, 32).*

4. Çəkindirmə ifadə edən kəlmə vasitəsilə *(Maidə, 90).*

Bir şeyin haram buyurulmasının səbəbi həmin şeyin zərərli olmasıdır. Haram hökmündəki zərər ya qadağan edilən şeyin özündən

irəli gəlir, ya da dolayı yolla başqa bir səbəbə əsaslanır. Belə olan təqdirdə haramlar bilavasitə və dolayı olmaqla iki qismə bölünür:

Bilavasitə haram (haram li-zatih) Allah və Rəsulu tərəfindən müvəqqəti bir səbəb üzündən deyil, əvvəldən və kökündən haram edilmiş əməllərdir. Bunlara zina, oğurluq, ölü heyvan ətini satmaq, evlənməsi qadağan olan məhrəmlərlə evlənmək və s. aiddir. Bunlardakı zərər öz içlərindəki pisliyə əsaslanır. Bilavasitə haramlar mal, can, ağıl, din və nəsildən ibarət olan beş ünsürü qorumaq məqsədi ilə təyin edilmişdir. Bilavasitə haram kökündən qadağandır. Bunu edən şəxs heç bir hüquqa sahib olmaz, əksinə, cəzaya layiq olar. Məsələn, bir qadınla zina edən şəxs onun vərəsəsi ola bilməz. Oğurluq edən də oğurladığı əmlakın sahibi sayılmaz.

Dolayı yolla haram hökmü (haram li-ğeyrih) bilavasitə harama yol açan və şərait yaradan əməllərə şamil olunur. Məsələn, nəməhrəm qadının övrət yerinə baxmaq haramdır, çünki zinaya gətirib-çıxarmaq ehtimalı vardır. Zina isə bilavasitə haramdır. Dolayı yolla haram ehtiyac halında mübah olur. Məsələn, yuxarıdakı misalda nəməhrəm qadının övrət yerinə baxmaq haramdır, ancaq müalicəyə ciddi ehtiyac duyulursa, mütəxəssis qadın həkim tapmaq imkanı yoxdursa, kişi həkimin qadını müalicə etməsi mübah olar.

Günah termini də haramla eyni mənanı ifadə edir.

Ə.N.

HELM

Yumşaq xasiyyətlilik, həlimlik, emosiyaları cilovlaya bilmək, qəzəbi udmaq bacarığı. İslam əxlaqında ən çox bəyənilən xüsusiyyətlərdəndir. Allah-təalanın gözəl adlarından biri «Həlim»dir. Yəni Allah, nəhayətsiz qüdrətə sahib ola-ola öz günahkar bəndələri ilə mehriban davranır, onların cəzasını mümkün qədər gecikdirir, tövbə edənləri bağışlayır.

Müsəlmanları helmli olmağa təşviq edən hədis və rəvayətlərin sayı çoxdur. Məsələn, Həzrət Əli (ə) buyurub: «Ən güclü adam öz helminin vasitəsilə qəzəbinə qalib gələn insandır». Elmlə helmin vəhdətinə hədislərdə xüsusi diqqət yetirilir. Çünki elm öyrənmək səbir və təmkin tələb edən əziyyətli işdir. Gecələr yatmayıb oxumaq, hər xırdalığa baş vurmaq, diqqətli və inadcıl olmaq, öyrənilmiş mövzuları yadda saxlamaq, üstəlik, maddi məhrumiyyətlərə dözmək insandan böyük fədakarlıq tələb edir. Həm də alim insan cahillə rastlaşanda, istər-istəməz onun cəhalətindən narahat olur və əsəbiləşir. Ona görə də Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub: «Dünyada elmlə helm qədər bir-birinə yaraşan iki şey yoxdur».

N.R.

HEYZ

Yetikinlik yaşına çatmış qızlarda və qadınlarda vaxtaşırı olaraq (hər ay) uşaqlıqdan gələn qan ifrazı, menstruasiya. Dini ədəbiyyatda «adət» adı ilə də xatırlanır.

Qadının cinsiyyət orqanından gələn qan üç qismə bölünür: a) heyz qanı; b) doğuşdan sonra ifraz olunan *nifas* qanı; c) hər hansı xəstəlik və s. səbəb üzündən ifraz olan *istihazə* qanı. Bunların hər biri barədə kitabda ayrıca məlumat verilmişdir.

Qadından ilk dəfə heyz qanı gəlməklə o, həddi-büluğa çatmış sayılır, hüquqi hökmlər barədə cavabdeh (mükəlləf) olur. Heyz halının minimal müddəti hənəfi və cəfəri məzhəblərində 3 gün, maksimal müddəti isə 10 gündür. Odur ki, 3 gündən az və 10 gündən çox davam edərsə, bu, heyz deyil, istihazə sayılır. Şafiilər və hənbəlilər maksimal müddəti 6-7 gün, malikilər isə 30 günə qədər hesab edirlər.

Müəyyən yaş dövründən sonra qadınlar heyz halına düşmürlər. Buna şəriətdə yaisə (klimaks) deyilir. Yaisə yaşı hənəfilərdə 55, hənbəlilərdə 50, malikilərdə 70, şafiilərdə isə 62 yaş qəbul edilir. Cəfəri məzhəbli müctəhidlərin əksəriyyətinə görə, yaisəlik halı Qüreyş soyundan olan qadınlarda 60, qalan qadınlarda isə 50 yaşında başlayır.

Qadınların heyz və nifas halında cinsi münasibətdə olmaları qadağan edilmişdir *(Bəqərə, 222)*. Onlar bu müddət ərzində namaz qıla, oruc tuta bilməzlər *(Səhihül-Buxari, Heyz kitabı, VI bab, 304-cü hədis; Səhihü Müslim, Heyz kitabı, XIV bab, 753-cü hədis)*.

Heyz və nifas halında qılınmayan namazlar sonra qəza edilmir, oruclar isə qəza niyyətilə tutulur. İslam alimlərinin əksəriyyətinin fikrincə, heyz halında olan qadınlar Kəbəni təvaf edə bilməzlər.

Hənəfi və şafii məzhəblərinə görə, heyzli qadın Qurandan yalnız dua etmək niyyətilə dua məzmunlu ayələri oxuya bilər. Amma İmam Malik və Əhməd ibn Hənbəl Qurana toxunmadan oxumağa və ya əzbərdən söyləməyə icazə vermişlər. İbn Həzm isə heyz və nifas halında olan qadının, eləcə də cünüb şəxsin həm Qurani-kərimi əldə tutmasının, həm də oxumasının icazəli olduğunu bildirmişdir. Cəfəri məzhəbinə görə, heyz və nifas halında olan qadına Qurani-kərimin vacib səcdə ayəsi olan 4 surəsini (Səcdə, Füssilət, Nəcm və Ələk) oxumaq, Quranın yazısına, Allahın, peyğəmbərlərin və imamların adına toxunmaq qadağandır. Qurandan 7-dən artıq ayə oxumaq, Qurana toxunmaq və onu özü ilə gəzdirmək isə məkruhdur. Namaz vaxtları daxil olanda heyzli qadının dəstəmaz alıb dua etməsi müstəhəb sayılır.

A.Q.

HƏBƏŞİSTANA HİCRƏT

İslam tarixində ilk hicrət hadisəsi. İki mərhələdə baş vermişdir. Peyğəmbər bu hicrətdə şəxsən iştirak etməmişdir.

Həzrət Mühəmmədə (s) peyğəmbərlik verildikdən beş il sonra Məkkədə müsəlmanların vəziyyəti ən dözülməz həddə çatdı. Peyğəmbər müsəlmanların bir qismini Məkkədən çıxıb təhlükəsiz yerə getməyi məsləhət gördü. Məşvərətdən sonra Həbəşistana (Efiopiyaya) köçmək qərara alındı. Çünki o zaman efiopiyalılar xristian dininə inanırdılar (müsəlmanlar xristianları özlərinə bütpərəstlərdən daha yaxın bilirdilər), onların hökmdarı *nəcaşi* isə ədaləti ilə şöhrət qazanmışdı.

Miladi 614-cü ildə 15 nəfərlik bir dəstə (4 nəfəri qadın olmaqla) Həbəşistana köçdü. Onların sırasında *Osman ibn Məzun* (dəstənin başçısı), *Osman ibn Affan*, onun həyat yoldaşı – Peyğəmbərin qızı Ruqəyyə, *Əbdürrəhman ibn Ovf, Zübeyr ibn Əvvam*, sonralar Peyğəmbərimizə ərə gedəcək *Ümmi-Sələmə* də var idi.

Müsəlmanlar Həbəşistanda səmimi qarşılandılar, onlar üçün sərbəst həyat şəraiti təmin edildi. Bir ildən sonra Peyğəmbər müsəlmanlardan ibarət yeni bir dəstəni Həbəşistana yolladı. Bu dəfə onlara *Cəfər ibn Əbu Talib* başçılıq edirdi. Köçənlərin sayı qadınlar və uşaqlar da daxil olmaqla 100 nəfəri ötürdü. Mühəmməd Peyğəmbərin (s) özü, həmçinin, əmisi *Həmzə*, əmisi oğlu *Əli (ə)*, oğulluğu *Zeyd ibn Harisə*, *Əbu Bəkr* və başqaları Məkkədə qaldılar.

Bütpərəstlər bundan xəbər tutan kimi qərara gəldilər ki, köçənləri qaytarıb cəzalandırsınlar. Həbəşistana bahalı hədiyyələrlə elçi göndərdilər ki, nəcaşi ilə görüşüb qaçqınları geri qaytarmağa nail olsunlar. Lakin nəcaşi müsəlmanlarla İslam dini barədə söhbət etdikdən, Qurani-kərimin bakirə Məryəm haqqında ayələrini eşitdikdən sonra qəti şəkildə bildirdi ki, qaçqınları məkkəlilərə təslim etməyəcək.

Məkkə müşrikləri Həbəşistanda olan müsəlmanları geri qaytarmaq üçün daha bir cəhd göstərdilər. Onlar belə bir şayiə yaydılar ki, guya Ərəbistanda İslam dininə qarşı təqiblərə son qoyulub və müsəlmanlar üçün təhlükəsiz şərait yaranıb. Mühacirətdə olan müsəlmanlar bu xəbəri eşidib tələsik vətənlərinə qayıtdılar. Amma deyilənlərin yalan olduğunu biləndən sonra onların bir qismi Həbəşistana qayıtmayıb Məkkədə qaldı (Osman ibn Affan və başqaları). Bir dəstə isə yenə Həbəşistan diyarına döndü.

Müsəlman icması Həbəşistanda təqribən 13 il əmin-amanlıq içində yaşadı. Hicrətin 7-ci ilində (miladi 628-ci il) onlar Ərəbistana qayıtdılar.

N.R.

HƏCC

Hicri-qəməri təqvimlə zilhiccə ayının müəyyən günlərində müqəddəs Məkkə şəhərini xüsusi qaydalar çərçivəsində ziyarət etməyə deyilir. Yetkinlik yaşına çatmış, maddi imkanı olan hər kəsin ömründə heç olmazsa, bircə dəfə həccə getməsi vacibdir. Həcc əhli-sünnə məzhəbində *İslamın şərtlərindən*, cəfəri məzhəbində isə *füruüd-dindən* sayılır. Qurani-kərimdə həccin vacibliyi barədə buyurulur: «Onun yoluna *(ərzaq, minik və sağlamlıq baxımından)* güçü çatan hər bir

kəsin həccə gedib o evi *(Kəbəni)* ziyarət etməsi insanların Allah qarşısında borcudur» *(Ali-İmran, 97).*

Həcc dinin dirilik rəmzidir. Məkkə müsəlmanların könül paytaxtı, Kəbə ürəklərin qərargah yeridir. İmam Əli ibn Əbu Talib (ə) öz vəsiyyətində həccin əhəmiyyəti barədə buyurmuşdur: «Allahın evinə *(Kəbəyə)* qarşı diqqətli olun! Nə qədər ki qüdrətiniz var, onu boş qoymayın! Əgər Məkkəni gözdən salsanız, özünüz də gözdən düşüb etibarınızı itirərsiniz!».

Həcc məzmun etibarilə bütün başqa ibadət növləri ilə müştərək cəhətlərə malikdir. Həcc maddi cəhətinə görə (maddi imkanı olan insanlara vacib edilməsi baxımından) zəkata oxşayır. Orucda olduğu kimi həccdə də müəyyən əməllərdən çəkinmək, nəfsi boğmaq lazımdır (ehram halında söyüş söymək, dalaşmaq, ov etmək, bitki və gül dərmək, cinsi əlaqədə olmaq, kölgədə yol getmək və s. qadağandır). Namaz kimi həccdə də bəzi bədən hərəkətləri yerinə yetirilməlidir (məsələn, Kəbə ətrafında dolanmaq, Şeytanın simvolu olan sütunlara daş atmaq, qurban kəsmək). Nəhayət, həcc də cihad kimi bəzi çətinlik və məhrumiyyətlərlə başa gəlir (məsələn, yolun uzaqlığı, havanın istiliyi, iqlimin dəyişməsi).

Həcc ziyarəti çətin sınaqdır. Hacı öz ailəsini, evini, sərvətini buraxıb min kilometrlərlə uzaqdakı Məkkəyə gedir. Ora çatanda əynindəki libası da soyunub *ehram* adlı iki ədəd tikişsiz parçanı bədəninə bağlayır, ziyarətə gələn milyonlarla müsəlmanın birinə çevrilir. Həccdə hamı eyni geyimdədir, eyni ibadət qaydalarını eyni ardıcıllıqla yerinə yetirməlidir. Orada bütün milli, irqi, sinfi ayrı-seçkiliklər aradan götürülür. Yalnız Allaha iman və xalis niyyət insanlara hakim kəsilir.

Hacı Məkkə və onun ətrafındakı müqəddəs yerləri gəzib ziyarət etdikcə, İslamın ilk dövrlərində baş vermiş hadisələri qiyabi olaraq yaşayır, İslam şəxsiyyətlərinin keçdiyi mübarizə yolunu xatırlayıb qiymətləndirir, bu mübarizə tarixindən ibrətlər alır.

Həcc mövsümündə dünyanın hər nöqtəsindən Məkkəyə toplaşan müsəlmanlar bir neçə gün ərzində bir-biri ilə görüşüb fikir mübadiləsi aparmaq imkanı əldə edirlər. Onlar öz ölkələrinə məxsus problemləri birbirinə xəbər verir, çətinliklərdən çıxış yolunu birlikdə müzakirə edirlər. Bu mənada həcc həm də müsəlmanların ən böyük dərdləşmə və görüş məclisidir. İmam Cəfər Sadiq (ə) məhz bunu nəzərə alaraq buyururdu: «Nə qədər ki Kəbə durur və camaat onu ziyarət edir, din məhv olmayacaq».

Həcc əməllərini şəriətdə göstərilən qaydada yerinə yetirmiş şəxsə hacı deyirlər. Həcc səfərini yerinə yetirmək nə qədər çətindirsə, «hacı» adının dəyərini qorumaq da bir o qədər çətin və şərəflidir. Əsl hacı Məkkə ziyarətindən gəldikdən sonra günah işlərdən tövbə etməli, müsəlmana yaraşan həyat tərzi sürməlidir. Rəvayət edirlər ki, müsəlmanlardan biri həcc ziyarəti zamanı Kəbənin ətrafında dua və namazla məşğul olan minlərlə adamı İmam Zeynül-abidinə (ə) göstərib, builki hacıların çoxluğundan sevindiyini bildirir. İmam isə ona belə cavab verir: «Onların içində qışqıran (ucadan dua edib, Allahı çağıran) çoxdur, əsil hacı isə azdır!». Həccin qəbul olması ondan bilinər ki, bu ziyarət insanı günah iş görməkdən çəkindirsin; əks halda, demək, həcc qəbul olmamışdır. Həzrət Mühəmməd Peyğəmbər (s) qəbul edilmiş həccin mükafatının cənnətdən ibarət olduğunu bildirmişdir. Hədislərdə buyurulur ki, hacı günah etməyincə, onun üzündə həccin nuru qalar.

Həccin əsas şərtləri bunlardır: insanın sağlamlığı onun həccə getməsinə imkan verməlidir; həcc üçün tələb edilən maddi vəsaitə malik olmalıdır; həccdən qayıdıncaya kimi ailəsinin dolanışığına bəs edəcək vəsaiti evdə qoymalıdır, ziyarət edəcəyi yol təhlükəsiz olmalıdır.

Həcc əməllərinə aid olan *miqat, ehram, təlbiyə, Ərəfat, Müzdəlifə, Mina, təvaf, Kəbə, səy, Səfa və Mərvə, rəmyi-cəmərat, cəmərə, təqsir, qurban, təşriq günləri, ümrə* kimi kəlmələrin hər biri haqqında kitabda ayrı-ayrı məqalələr şəklində məlumat verilmişdir.

N.R.

HƏDD CƏZALARI

«Həddə» sözünün lüğəvi mənası «sərhəd qoymaq, iki şeyi bir-birindən ayırmaq» deməkdir. Cəm halı «hüdud»dur. Fiqh terminologiyasında miqdarı və keyfiyyəti ayə və hədislərlə müəyyən edilmiş cəzalara deyilir. İslam cinayət hüququnda hər bir cinayətin qarşılığında konkret həddlər tətbiq olunur.

Qurani-kərimdə «həddə» və «hüdud» kəlmələri 13 dəfə, daha çox ümumi mənada işlədilmişdir. Bu ayələrdə Allahın qoyduğu ölçülər, əmr və qadağanlar nəzərdə tutulur *Bəqərə, 229; Nissa, 14; Tövbə, 112; Talaq, 1).* Hədislərdə də «həddə» kəlməsi əksər hallarda leksik mənada işlədilmişdir və Qurani-kərimdəki məzmunu ifadə edir.

Ə.N.

HƏDDİ-BÜLUĞ

Yetkinlik yaşı. Həddi-büluğa çatmış şəxs dini *fərizələri* yerinə yetirməyə, *halalla harama* riyayət etməyə vəzifəli olur. Bu andan etibarən o, mükəlləf (öhdəlikli) hesab edilir.

Bütün məzhəblərə görə, oğlanlarda *ehtilam* (sperma gəlməsi), qızlarda isə *heyz* (aybaşı) halı yarandığı zaman onlar yetkin sayılırlar. Həmçinin, şafii, maliki, hənbəli və cəfəri məzhəbləri qarnın aşağı hissəsində cod tüklərin bitməsini də həddi-büluğun əlaməti sayırlar (hənəfi məzhəbində bu şərt qəbul edilmir).

Əgər göstərilən fiziki əlamətlər görünmürsə, onda yetkinliyi yaşla hesablayırlar. Şafii və hənbəli məzhəblərinə görə, həm qız, həm də oğlan uşaqları 15 yaşından gec olmayaraq yetkinləşirlər. Maliki məzhəbində yetkinliyin son həddi 17 yaşdır. İmam Əbu Hənifə həddi-büluğun son həddini qızlar üçün 17, oğlanlar üçün 18 yaş qəbul etmişdir.

Şiə məzhəbinə görə isə yetkinliyin fiziki əlamətləri müşahidə edilmədiyi təqdirdə qız qəməri təqvimlə 9 yaşına, oğlan isə 15 yaşına çatanda yetkin sayılır. Qəməri təqvimə görə ilin uzunluğu hal-hazırda işlətdiyimiz miladi təqvimdəki ildən 10-12 gün qısadır. Ona görə də, qızlar təqribən 8 il 9 ayda, oğlanlar isə təqribən 14 il 7 ayda həddi-büluğa çatırlar.

Bu yaşdan etibarən gündəlik *fərz* (qəti vacib) namazlar və ramazan orucu, eləcə də sair şəriət hökmləri onların öhdəsinə düşür. Göstərilən yaş həddindən başlayaraq fərizələri yerinə yetirməyən şəxs ən azı sonralar bunları qəza niyyəti ilə mütləq icra etməlidir.

N.R.

HƏDİS

Ərəb dilindən tərcüməsi «yaranmış, icad edilmiş» deməkdir. «Hadisə» sözü də eyni kökdəndir, hər hansı qüvvə tərəfindən yaradıldığı üçün belə adlandırılıb. Qurani-kərimdə də «hədis» ifadəsi söz *(Kəhf, 6)* və xəbər *(Ta-Ha, 9)* mənalarında işlədilib.

Dini anlamda hədis – Həzrət Mühəmməd Peyğəmbərin (s) söylədiyi sözlərə deyilir. *Sünnənin* tərkib hissəsidir. İslam düşüncəsində hədis Qurani-kərimdən sonra ikinci mötəbər mənbədir. Çünki Qurani-kərimin: «O (Peyğəmbər), kefi istəyəni danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir» *(Nəcm, 3-4)* ayəsinə əsasən, Həzrət Mühəmməd Peyğəmbərin (s) bütün sözləri doğrudur, düzgündür, insanları hidayət etmək gücünə malikdir. Hədis bütün İslam məzhəblərində dini hökmlərin əsaslandırılması (istinbat) zamanı Qurani-kərimdən sonra ilk yerdə durur. *İcma, qiyas,* ağıl kimi üsullar Quran və sünnədən (hədisdən) sonra gəlir və bu ikisində qəti hökm *(nəss)* olmadığı zaman tətbiq edilir.

Hədis «sənəd» və «mətn» adlı iki hissədən ibarət olur.

Sənəd – hədisi rəvayət edən şəxslərin (bunlara *ravi* deyilir) hədisi bir-birindən nəql etmə ardıcıllığını əks etdirir və ravilərin adlarının sıralanmasından ibarət olur. Adların arasında adətən, hədisin əxz olunma növü göstərilir. Hədis bir ravidən o birinə eşitmə, imla (diqtə), yazdırma, kitabından oxumaq yolu ilə ötürülür. Bəzən də bir ravi hədisi, ona yetişən sənəd zənciri ilə sonrakılara rəvayət etməsi üçün növbəti raviyə yazılı və ya şifahi icazə verir. Sənədin başlanğıcında bir qayda olaraq, hədisin yazıya alınmasından qabaqkı son ravinin adı gəlir. Hədis yazıya alındıqdan sonra onu, sənədinə əlavə etmədən, həmin kitaba istinadən rəvayət edirlər.

Mətn isə hədisin məzmunu və möhtəviyyatı deməkdir.

Hədisin mötəbər sayılması üçün həm

sənədin, həm də mətnin səhih (düzgün) olması əsas şərtdir. Qeyd etmək lazımdır ki, hədis nə qədər etibarlı olsa da, əgər Quranikərimin ayələri ilə ziddiyyət təşkil edərsə, üstünlük Qurana verilməlidir. Çünki əvvəla, Quran Allah kəlamı, hədis isə bəşər (Peyğəmbər) kəlamıdır. İkincisi, Quran hər cür təhrifdən uzaqdır və onun heç bir hökmündə qiyamətə kimi dəyişiklik ola bilməz. Hədisin isə zamanımıza kimi toxunulmaz və təhrifsiz gəlib-çatdığına zəmanət vermək çətindir.

Hədislər Qurani-kərimin təfsiri üçün əvəzsiz mənbə hesab edilir. Çünki Quranda məsələlər bir qayda olaraq çox qısa və ümumiləşdirilmiş şəkildə bəyan edilir. Üstəlik, bəzi ayələr mütəşabeh qisminə aiddir ki, bu da onlara düzgün şəkildə izahat verilməsini tələb edir. İslam şəriətinə aid olan heç bir hökm tam xırdalıqlarına qədər Quranda göstərilməyib. Bunların şərhini yalnız hədislərdə tapmaq mümkündür. Məsələn, Quranda namaz qılmaq, oruc tutmaq, həccə getmək əmr olunur. Amma bu əməllərin necə yerinə yetirilməsi ayələrdə icmal şəklində təqdim edilir. Hədislərdə isə bu ibadət əməllərinin bütün təfərrüatı ən xırda cəhətlərə qədər açıqlanır.

Hədisləri öyrənən elmə elmül-hədis deyirlər. O da öz növbəsində bir neçə elm şöbəsinə bölünür. Məsələn, dirayətül-hədis hədisçilik terminlərinin izahı, əsas prinsiplərin əsaslandırılması ilə məşğul olur. *Rical* elmi hədis ravilərinin tərcümeyi-halını öyrənir. *Cərhü tədil* elmi hədis ravilərinin mötəbərlik dərəcəsini araşdırır, ravinin şəxsi keyfiyyətlərinə, iman səviyyəsinə, əxlaqına, hafizəsinə, siyasi mənsubiyyətinə əsasən onun rəvayətlərinə inanmaq lazım gəlib-gəlmədiyini ayırd edir. Bundan başqa, hədislərdə çətin anlaşılan sözləri, hədislər arasındakı uyğunsuzluq və ziddiyyətləri, bir-birini *nəsx* edən (ləğv edən) hədisləri öyrənən elm şöbələri də vardır.

Hədisçilik elmində hədislər növlərə bölünürlər. Bu təsnifat əsasən, hədislərin sənədinə, bəzən isə mətninə görə aparılır. Dini mətnlərdə üç hədis növünün adı tez-tez çəkilir: 1. Səhih hədis; 2. Həsən hədis; 3. Zəif hədis.

1. ***Səhih*** hədis həm sənəd, həm də mətn baxımından tam sağlam, düzgün və etibarlı hədisdir. Bu hədisin sənədində adı keçən ravilərin hamısı ədalətli, mömin, doğrucul, hafizəli olmalıdır. Sənəd zəncirinin ilk halqasından son halqasına kimi qırılma olmamalıdır, yəni hər bir ravinin bu hədisi özündən əvvəlki ravidən nəql etməsi sübuta yetməlidir. Hədisin mətni də İslam dininin əsaslarına, Quran hökmlərinə, digər səhih hədislərin məzmununa zidd olmamalıdır.

2. Səhih hədisdən bir qədər aşağı dərəcədə duran hədisə ***həsən*** (yaxşı) hədis deyilir. Həsən hədisin də ravisi ədalətli, mömin və sadiq (doğrucul) olmalıdır. Lakin həsən hədisin sənədindəki ravi hədisçilik sahəsində bəzi nöqsanlara sahib ola bilər (məsələn, hafizəsi güclü deyil, hədisi düzgün rəvayət edib-etmədiyi barədə özünün şübhəsi var və s.). «Həsən hədis» terminini ilk dəfə «Sünən» müəllifi Tirmizi tətbiq etmişdir. Ona qədər hədisləri səhih və zəif olmaqla iki qismə bölür, zəif hədisləri də tərk edilən (rədd olunan) və tərk edilməyən olmaqla iki növə ayırırdılar. Tirmizi tərk olunmayan zəif hədisləri həsən adlandırdı. Həsən hədisin mətni mütləq başqa ravilərin rəvayət etdikləri hədislərlə uyğun olmalıdır. Yəni başqa hədislər həsən hədisi qüvvətləndirməlidir. Yalnız bu halda ona həsən hədis demək olar.

3. Yuxarıdakı maddələrə daxil edilməyən, həm sənədində, həm də mətnində ciddi nöqsanlar olan hədisi ***zəif*** hədis adlandırırlar. Hədisin zəif sayılmasına səbəb olan bəzi əlamətlər bunlardır: hədisin ravisi yalançıdır, imanının şübhəli olduğu barədə dəlillər vardır, hədisin mətni səhih hədislərə və ya Quran ayələrinə tam ziddir və s.

İslam alimlərinin əksəriyyəti zəif hədisin hökmünə əməl etməyi bütünlükdə rədd etmişlər. Lakin bəzi alimlər (məsələn, Əhməd ibn Hənbəl, Əbu Davud və b.) hər hansı məsələdə səhih və həsən hədis məlum olmadığı təqdirdə, zəif hədisi qiyasdan daha güclü bilmiş və hökmünə əməl etməyi caiz saymışlar. Bəzi alimlər isə yalnız əməllərin fəzilətləri və savabları barədə rəvayət edilən zəif hədislərə inanmağa icazə vermişlər (çünki bu hədislər mütəşabeh qismindəndir).

Hədisin başqa növləri də vardır ki, aşağıda onlardan bəziləri haqqında məlumat verilir:

– Əgər eyni məzmunlu hədis müxtəlif əsrlərdə çoxlu sayda ravilər tərəfindən rəvayət edilmişsə, buna ***mütəvatir*** hədis deyilir. Mütəvatir hədis çox etibarlı sayılır. Çünki hər dövrdə yaşamış çoxlu sayda ravilərin hamısının səhv etməsi və ya yalançı olması qeyri-mümkündür. Hədislər həm ləfzi (söz baxımından), həm də mənəvi (məna sarıdan) mütəvatir ola bilər. Birinci halda hədisin mətni eyni formada təkrar edilir. İkinci halda isə məzmununa xələl gətirilmədən fərqli şəkillərdə rəvayət olunur.

– Eyni məzmunlu hədis əksəriyyət tərəfindən eyni qaydada rəvayət edilirsə, amma bir ravi onu fərqli şəkildə rəvayət etmişsə, həmin fərqli hədisə ***qərib*** hədis deyirlər.

– Zəif ravi tərəfindən rəvayət edilən və etibarlı ravilərin rəvayətinə zidd olan hədis ***münkər*** (inkar edilən) hədis adlanır.

– Etibarlı ravi (buna siqə deyilir) tərəfindən rəvayət edilən, amma başqa siqələrin hədislərinə zidd olan hədisi isə ***şazz*** (bənzərsiz, tək) adlandırırlar. Şazz hədislə münkər hədisin hər ikisi eyni məzmunlu digər hədislərlə ziddiyyət təşkil edir. Fərq bundadır ki, münkər hədisin ravisi etibarsız, şazz hədisin ravisi isə etibarlıdır.

– İlk baxışdan səhih görünən, amma dəqiq araşdırma nəticəsində səhihliyini şübhə altına salan nöqsana malik hədisi ***müəlləl*** (xəstə) hədis sayırlar.

– Yalançı kimi tanınan ravinin rəvayət etdiyi hədisi ***mətruk*** (tərk edilən, rədd edilən) adlandırırlar.

– Həzrət Mühəmməd Peyğəmbərə (s) yalandan aid edilən, amma Onun söyləmədiyi sözlərə ***mövzu*** (uydurulmuş) hədis adını vermişlər.

– Hədisin sənəd zəncirindəki ravinin özündən əvvəlki ravidən hədisi necə əxz etdiyi göstərilmirsə və yalnız «ən» kəlməsi işlədilirsə, buna ***müənən*** hədis deyirlər. «Ən» kəlməsi dilimizdəki «dan, dən» şəkilçisinə oxşardır. Müənən hədisin sənədində «filankəs filankəsdən, o da filankəsdən» deyilir.

– Əgər hədisin sənədindəki bütün ravilərin adı və ya nəsəbi eynidirsə, yaxud onlar eyni peşənin sahibləridirsə, ya da hədisin əxz olunma şəraiti bütün sənəd boyunca eynidirsə, bu halda hədisə ***müsəlsəl*** (zəncirvari) deyirlər.

– Ravinin hafizəsinin zəifliyi və ya başqa səbəb üzündən bir neçə fərqli variantlarda rəvayət edilmiş hədisləri ***müztərib*** hədis adlandırırlar.

– Ravisi tərəfindən sənədinə və ya mətninə əlavə sözlər daxil edilmiş və sonrakı ravilərin həmin sözlərlə birlikdə rəvayət etdikdəri hədisə ***müdrəc*** (əlavə edilmiş) hədis adını vermişlər. Zəif hədisin bir növüdür.

– Əgər hədisin sənədindəki zəif ravilərdən birinin adı qəsdən ixtisar edilərsə (hədisin zəifliyini gizlətmək üçün), belə hədisi ***müdəlləs*** (gizlədilmiş) hədis adlandırırlar. Zəif hədisin bir növüdür.

– Hədisin sənədinin başında bir və ya ardıcıl olaraq bir neçə ravinin adı yoxdursa, yəni sənəd zəncirinin əvvəlindən bir və ya bir neçə halqa düşmüşsə, bu hədisə ***müəlləq*** (asılmış) hədis deyilir. Əgər ixtisar edilmiş ravilər sənəd zəncirinin ortasına aiddirsə, bu hədis ***müzəl*** (çətin və ya pis) hədis adlandırılır.

– Hədisin sənəd zəncirində səhabədən əvvəlki halqalardan biri və ya ardıcıl olmamaq şərti ilə bir neçəsi yoxdursa, buna ***münqəti*** (qırılmış) hədis deyirlər. Burada «qırılmış» adların ardıcıl olmaması şərtdir; çünki ardıcıl olsa, müəlləq və ya müzəl hədisə çevrilər.

– Sənəd zənciri Həzrət Mühəmməd Peyğəmbərlə (s) bitən hədislərə ***mərfu*** (qaldırılmış) hədis deyilir. Mərfu hədisin səhih olması vacib deyil. Məsələn, sənəd zənciri Peyğəmbərlə bitsə də, ortada bir və ya bir neçə ravinin adı düşə bilər. Bu halda mərfu hədis həm də münqəti, müzəl və ya mürsəl sayılır.

– Hədisin sənəd zəncirində səhabənin adı düşmüş və tabiin hədisi birbaşa Peyğəmbərdən rəvayət etmişsə, buna ***mürsəl*** hədis deyilir. Zəif hədisin bir növüdür.

– Hədisin sənəd zəncirinin sonu Peyğəmbərə çatmadan səhabədə qurtarırsa, buna ***mövquf*** (durdurulmuş) hədis deyirlər.

– Hədisin sənədindəki ravilərdən birinin adı və ya mətnindəki sözlərdən biri hərf nöqtələrinin səhv qoyulması nəticəsində dəyişmişsə, buna ***müsəhhəf*** (başqa şəklə düşmüş) hədis deyirlər. Əgər dəyişiklik başqa səbəbdəndirsə, hədis ***müharrəf*** (təhrif olunmuş) adlanır.

– Hədisin sənədində adların və ya mətnindəki sözlərin yeri dəyişmişsə (məsələn, ravilərin ardıcıllığı pozulmuşsa, sonrakı ravinin adı əvvələ, əvvəlkinin adı sonraya keçmişsə), buna ***məqlub*** (yeri dəyişdirilmiş) hədis deyilir.

– Hədisin sənəd zəncirində qırıq yoxdursa və hər bir ravinin özündən əvvəlki ravidən hansı yolla əxz etməsi məlumdursa, belə hədisə ***müttəsil*** (ardıcıl) deyirlər.

– Böyük hədis alimlərindən yalnız birinin (məsələn, yalnız İmam Buxarinin) rəvayət etdiyi hədisi ***münfərid*** (tək), bir neçə hədis aliminin rəvayət etdiyi hədisi isə ***müttəfiq*** hədis adlandırırlar.

Şiə məzhəbində «dirayətül-hədis» elmində bu terminlərin bəziləri bir qədər fərqli mənalarda işlədilir. Məsələn, səhih hədisin raviləri üçün nəzərdə tutulan şərtlərdən biri də onların 12 imam şiəsi olmalarıdır. Həsən hədis o hədisdir ki, sənəd zəncirindəki bütün ravilər 12 imam tərəfdarıdır, amma onların ədalətli olmaları haqqında qəti bilik yoxdur. Şiə mənbələrində ***müvəssəq*** (etibarlı) və ya ***qəvi*** (güclü) adlandırılan hədis növünə də rast gəlirik; onun bütün ravilərinin şiə məzhəbli rical alimləri tərəfindən etibarlı sayılması şərtdir. Hər təbəqədə yalnız iki ravinin rəvayət etdiyi hədisi ***əziz***, bir ravinin rəvayət etdiyi hədisi ***müfrədi-mütləq***, bir şəhərin əhalisi tərəfindən rəvayət edilmiş hədisi ***müfrədi-nisbi***, çox tanınmış hədisi (hər təbəqədə bircə ravi tərəfindən rəvayət edilsə və hətta sənədi olmasa belə) ***məşhur***, hər təbəqədə 2-dən çox ravi tərəfindən rəvayət edilən, amma mütəvatir həddinə çatmayan hədisi ***müstəfiz*** adlandırırlar.

Cəfəri məzhəbində 12 imamın sözləri də hədis sayılır və Həzrət Mühəmməd Peyğəmbərin (s) sözləri qədər müqəddəs hesab edilir. Səbəbi budur ki, şiə inancına görə, imamlar bütün sözlərində Peyğəmbərə əsaslanmışlar. Peyğəmbərin hədisləri Həzrət Əli ibn Əbu Talib (ə) vasitəsilə İmam Həsənə (ə) və İmam Hüseynə (ə), onların vasitəsilə də digər imamlara ötürülmüşdür. İmam Cəfər Sadiq (ə) bu barədə buyurmuşdur: «Mənim hədisim atamın hədisidir. Atamın hədisi babamın hədisidir. Babamın hədisi Hüseynin hədisidir. Hüseynin hədisi Həsənin hədisidir. Həsənin hədisi Əmirül-möminininin (yəni Əli ibn Əbu Talibin) hədisidir. Əmirül-möminin hədisi Allahın Rəsulunun hədisidir. Allahın Rəsulunun hədisi isə izzət və cəlal sahibi olan Allahın sözüdür» *(Küleyni. Üsulül-Kafi, Elmin fəziləti kitabı. XVII bab, hədis 14).*

Hədislərin toplanması və yazıya alınması prosesi Həzrət Mühəmməd Peyğəmbərin (s) sağlığında başlamışdır. Bəzi səhabələr Peyğəmbərin icazəsi ilə hədisləri köçürürdülər. Məsələn, Abdullah ibn Əmr ibn As 1000-ə yaxın hədisi kitab şəklində toplamış və buna «əs-Səhifətüs-sadiqə» (Doğru səhifə) adını vermişdi. Peyğəmbərin vəfatından sonra da hədislərin toplanması prosesi davam edirdi. Lakin əvvəlcə ikinci xəlifə Ömər ibn Xəttab, daha sonra isə Əməvi xəlifələri hədislərin yazılması və köçürülməsi üzərində qadağan qoydular. Bunun nəticəsində hədisçilik elmi xeyli zəiflədi. Daha sonralar Əməvi xəlifəsi Ömər ibn Əbdüləziz hədislərin yazıya alınması üzərindəki qadağanı götürdü.

İlk mühəddislərin (hədis mütəxəssislərinin) fəaliyyəti yalnız bir sahə ilə məhdudlaşmırdı. Bunlar hərtərəfli biliyə malik, hədis, rical, təfsir, ərəb qrammatikası və s. elmləri mükəmməl mənimsəmiş, zöhd və təqvada məşhur olan insanlar idilər. Səhabə və tabiin təbəqəsindən sonra yaşamış alimlər hədisləri daha çox şifahi formada gələcək nəslə ötürürdülər.

Abbasilərin hakimiyyətə gəlişindən az sonra hədislərin sistemli şəkildə toplanması və hədis məcmuələrinin tərtibi istiqamətində iş başladı. Yaranan ilk hədis məcmuələri həcmcə kiçik, formaca nisbətən dağınıq və qeyri-münəzzəm idi. Lakin zaman keçdikcə əldə olunmuş təcrübələr öyrənildi və bu sahədə böyük nailiyyətlər əldə edildi.

Əhli-sünnə məzhəbinə aid ilk hədis məcmuələri sırasında maliki məzhəbinin banisi İmam Malik ibn Ənəsin «Müvətta», Abdullah ibn Mübarəkin «Sünən», Süfyan ibn Üyeynənin «Came», Təyalisi, Hümeydi, İshaq ibn Rahiveyh, Əsfərayini, Əbu Yəla, İbn Həbban və Əhməd ibn Hənbəlin «Müsnəd», İbn Sədin «Təbəqatül-kübra», Dariminin «Sünən», İbn Xüzeymənin «Səhih», Təhavinin «Müşkilül-asar» və «Məaniyyül-asar», Təbəraninin «Möcəmül-kəbir», «Möcəmül-əvsət» və «Möcəmüs-səğir» kitabları məşhurdur.

Şiə hədis alimlərinin bu dövrdəki ilk təbəqəsini imamların səhabələri təşkil edirdilər. Bunlar bilavasitə məsum imamlarla görüşərək, onların dilindən hədis eşidir və sonrakı nəsillər üçün rəvayət edirdilər. Səhabələrin bir çoxu eşitdiyi hədisləri kağıza da köçürürdü. Belə yazılı hədis mənbələrinə «əsl» deyirdilər. Əsllərin həcmi adətən kiçik (onlarla hədisdən ibarət) olurdu. Hər əsldə yalnız bir ravinin rəvayət etdiyi hədislər toplandığından, kitabın quruluşu çox zaman pərakəndə halda olurdu. Nadir hallarda hədislər mövzular üzrə qruplaşdırılırdı. Əsllərin sayı 400-ə yaxın idi; buna görə də onları «400 əsl» adlandırırlar. Əsllərin heç də hamısı bu günümüzə gəlib-çatmamışdır; məlum olan əsllərin sayı bir neçə onluğu ötmür.

Bu dövrdə əsllərdən əlavə, müstəqil kitablar da qələmə alınırdı. Kitab müəllifləri sırasında Zürarə ibn Əyən, Əbu Bəsir, Əbu Həmzə Sümali, Mühəmməd ibn Nöman Möminüt-taq və başqaları mühüm yer tuturlar.

Əhməd ibn Mühəmməd Bəzəntinin «Came», «Nəvadir» və «Məsail», Səffar Qumminin «Əşrəbə» (içkilər), «Əyman vənnüzur» (andlar və nəzirlər), «Cənaiz» (meyitin hökmləri), «Hüdud» (şəriət cəzaları), «Səlat» (namaz) və «Vüzu» (dəstəmaz), Səd ibn Abdullah Əşəri Qumminin «Ehticacüş-şiə» (Şiələrin mübahisələri), «İmamə», «Bəsairüd-dərəcat», Himyəri Qumminin «Qürbül-isnad», Bərqinin «Məhasin» əsərləri, Fəzl ibn Şazanın və İbn Babiveyh Qumminin hədis kitabları, Keşşi, Nəcaşi, İbn Davud, Şeyx Tusi kimi müəlliflərin rical mövzusunda çalışmaları hədisçilik sahəsində qələmə alınmış ilk şiə mənbələrindən sayılır.

Miladi IX - X əsrlərdə həm əhli-sünnə, həm də şiə məzhəblərinin ən mötəbər və samballı hədis məcmuələri yarandı. *«Kütüb-üs-sittə»*nin və *«Kütübül-ərbəə»*nin tərtib edilmə dövrü hədisçilik elminin zirvəsi sayılır.

N.R.

HƏDİSİ-QÜDSİ

Ərəb dilindən tərcümədə «müqəddəs hədis» deməkdir. Mənası Allah-təalaya, amma forması (söz quruluşu) Həzrət Mühəmməd Peyğəmbərə (s) aid olan kəlamlara deyilir. Başqa sözlə, hədisi-qüdsi elə kəlamdır ki, bunu Allah Peyğəmbərə məna şəklində vəhy edib, amma Peyğəmbər onu söz qəlibinə salaraq insanlara çatdırıb.

Quran ayələri ilə hədisi-qüdsi arasında 6 əsas fərqin olduğunu qeyd edirlər: 1. Quran ləfzi *ecaza* malikdir (leksik baxımdan bənzərsiz və təkrarsızdır), hədisi-qüdsidə bu xüsusiyyət yoxdur. 2. Namazda yalnız Quranın ayələri oxunmalıdır, hədisi-qüdsini namazda qiraət əvəzinə oxumaq olmaz. 3. Quranı inkar edən kafirdir, hədisi-qüdsini inkar edən isə kafir sayılmaz. 4. Quran vəhy mələyi Cəbrailin vasitəsilə nazil olub, hədisi-qüdsidə bu xüsusiyyətin olması zəruri deyil. O, yuxuda və başqa şəraitlərdə də Peyğəmbərə ötürülə bilər. 5. Quran məhz bu şəkildə lövhi-məhfuzdan Peyğəmbərə endirilib, hədisi-qüdsinin sözləri isə adətən, Peyğəmbərə məxsus olur. 6. Quranın yazısına dəstəmazsız və ya qüslsüz toxunmaq olmaz, hədisi-qüdsiyə isə olar.

Hədisi-qüdsilərin sayı barədə məlumatlar dəqiq deyil. İbn Həcər Heysəmi Əllamə Nəvəvinin «Qırx hədis»inə yazdığı şərhdə göstərir ki, hədisi-qüdsilərin sayı 100-ə yaxındır və bunları müstəqil kitab şəklində də toplayanlar olub. Hicri 1389-cu (miladi 1969-cu) ildə Misirdə «Kütübüs-sittə»də və «Müvətta»da mövcud olan 400 hədisi-qüdsini iki cildlik kitab halında nəşr etmişlər *(K.M.Şanəçi. Dirayətül-hədis, səh. 14).*

XVII əsrdə yaşamış məşhur cəfəri alimi Hürr Amulinin «əl-Cəvahirüs-səniyyə fil-əhadisil-qüdsiyyə» kitabında 656 hədisi-qüdsi toplanmışdır.

N.R.

HƏQİQƏT

Seyrü-sülukda (haqqa doğru mənəvi kamilləşmə yolunda) haqq yolçusunun çatdığı mərhələnin adıdır. Həqiqətə çatmaq üçün sufilər daha iki mərhələdən – *şəriət* və *tərigətdən* keçməyi şərt bilirlər. Yalnız bu iki mərhələni layiqincə keçdikdən sonra həqiqətə yetişmək olar.

Sufi mənbələrində bu üç anlayışın Həzrət Mühəmməd Peyğəmbərə (s) aid bir hədisdən götürüldüyü iddia olunur: «Şəriət mənim sözlərim, təriqət mənim əməllərim, həqiqət isə mənim hal və vəziyyətlərimdir». Məşhur sufi müəllifi Əzizəddin Nəsəfi «əl-İnsanül-kamil» kitabında yazırdı: «Bil ki, şəriət – peyğəmbərlərin sözü, təriqət – peyğəmbərlərin əməli, həqiqət isə peyğəmbərlərin gördükləridir. Salik (haqq yolçusu) gərək şəriət elmindən lazım olduğu qədər öyrənsin və yadda saxlasın, sonra təriqət əməllərindən lazım gəldiyi qədər yerinə yetirsin. Bundan sonra səy və çalışqanlığına uyğun olaraq, həqiqət nurları onun üzünə işıq saçar». Xacə Abdullah Ənsarinin sözləri ilə desək, «şəriət – hər şeyi rədd edib, bütünlükdə formaya və qəlibə dayaqlanmaq, təriqət – tamamilə məhv və fani olmaq, həqiqət isə başdan-başa heyrətdir».

Mövlana Cəlaləddin Rumi «Məsnəviyi-mənəvi»nin V dəftərinin dibaçəsində (girişində) yazır: «...İnsan öləndə şəriətlə təriqətin hər ikisi onun üçün aradan götürülər, həqiqət isə qalar. Əgər (mərhum) həqiqətə malikdirsə, haray salar: «Kaş, qövmüm biləydi ki, Rəbbim məni niyə bağışladı və nəyə görə hörmət sahiblərindən etdi» *(Ya-Sin, 26-27)*. Yox, əgər həqiqət sahibi deyilsə, çığırar: «Kaş əməl dəftərim mənə verilməyəydi! Hesabımın nə olduğunu da bilməyəydim! Kaş ölüm əbədi olaydı! Mal-dövlətim mənə heç bir fayda vermədi. Mülkümsəltənətim də məhv olub getdi!» *(Haqqə, 25-29)*.

Şəriət elmdir, təriqət əməldir, həqiqət Allaha qovuşmaqdır: «Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı əməllər etsin və Rəbbi üçün etdiyi ibadətə heç kəsi şərik qoşmasın!» *(Kəhf, 110)*».

Həqiqətə yetmək üç mərhələ üzrə inkişaf edir: təxəlli, təhəlli və təcəlli. Təxəlli – pis sifətlərdən təmizlənmək və insanı Allahdan uzaqlaşdıran əməlləri tərk etməkdir. Təhəlli – gözəl və bəyənilən sifətləri özündə tərbiyə etmək və öz əxlaqını bunlarla bəzəməkdir. Təcəlli (təcəlla) isə haqqın cilvələnməsi, salikin qəlbində haqq nurunun parlamasıdır. Təcəllanın da üç növü vardır: zati, sifati və əfali. Yəni təcəlla – mərhələlər üzrə arifin qəlbində əvvəlcə Allahın fel və əməllərinin, sonra ad və sifətlərinin, ən sonda isə zatının zahir olmasıdır (bax: *təcəlli*).

Ariflərin fikrincə, həqiqət mərhələsi qeyri-məhdud və sonsuzdur. Allahın bütün sifətləri sonsuz və zatı qeyri-məhdud olduğu üçün, onu dərk etməyin də həddi-hüdudu yoxdur.

Sufi şairlərə məxsus bəzi şeir nümunələrində (məsələn, Nəsimi yaradıcılığında) şəriət, təriqət və həqiqət anlayışlarına daha biri, yəni *mərifət* əlavə olunur və bu zəncirin halqalarının sayı dördə çatdırılır. Lakin klassik sufi müəlliflərinin elmi-nəzəri əsərlərinin və sufi ədəbiyyatı nümunələrinin əksəriyyətində yalnız ilk üç məfhum ardıcıllıqla göstərilmişdir.

bax: *şəriət, təriqət.*

N.R.

HƏQQÜL-YƏQİN

bax: *yəqin.*

HƏMD

Ərəb dilindən «tərifləmək, öymək» kimi tərcümə edilir. Allahın adlarından biri olan Həmid (tərifə layiq), İslam Peyğəmbərinin adı Mühəmməd (s), ləqəbləri Mahmud (tərifllənmiş, öyülmüş) və Əhməd (ən çox tərifə layiq olan) sözləri də bu kökdəndir. Dilçi alimlər qeyd ediblər ki, həmd şükrdən fərqli olan bir tərif növüdür. Şükr – hər hansı yaxşılıq müqabilində edilən minnətdarlıqdır, razılıq cavabıdır. Məsələn, Allahın verdiyi nemətlərə görə insanlar Ona şükr edirlər. Həmd isə təmənnasız tərifdir. Həmd edən şəxs həmd etdiyindən heç nə ummur, ondan nemət alsa da-almasa da, onu öz-özlüyündə tərifə layiq bildiyi üçün həmd edir. Həmd vicdanın təhriki ilə, tam agahlıqla, təmənnasız olaraq deyilən tərifdir.

Qurani-kərimin birinci surəsində (onu Həmd surəsi də adlandırırlar) mütləq həmdin Allaha aid və layiq olduğu vurğulanır: «Aləmlərin Rəbbi olan Allaha həmd olsun» *(Fatihə, 2)*.

N.R.

HƏNİF

Doğruluğa və həqiqətə bağlı olan, həqiqəti tapan. İslamdan əvvəl tək Allaha inanan insanlar barəsində işlədilən ifadədir. Bunlar Həzrət İbrahim Peyğəmbərin (ə) təbliğ etdiyi tövhid etiqadını yaşadan insanlar olmuşlar.

R.M.

HƏNUT (HÜNUT)

Şəriətə əsasən, ölmüş şəxsə cənazə qüslü verildikdən sonra kəfənə bükməzdən əvvəl səcdə üzvlərinin üzərinə kafurla (kamfora ilə) isladılmış pambıq qoyulur. Kafur təzə və ətirli olmalıdır. Meyitin alnına, burnuna, ovuclarına, dizlərinə və ayaqlarının baş barmaqlarına hənut qoyulur. Hənut cəfəri məzhəbində vacib sayılır. Əhli-sünnə məzhəblərinə görə, kəfənləmə zamanı kafurdan və sair ətirli maddələrdən istifadə etmək müstəhəbdir.

N.R.

HƏRƏKƏ

Ərəb yazısında samitlərin üzərində qoyulan işarələrə deyilir. Ərəb dilində sözün ortasında gələn saitlər bir qayda olaraq yazılmadığı üçün, hər bir saiti, ondan əvvəl gələn samitin hərəkəsi ilə təyin edirlər. Məsələn, samitin üzərindəki kiçik üfüqi cızıq fəthə adlanır və həmin samitdən sonra «ə» saitinin deyilişini göstərir. Samitin altındakı kiçik üfüqi cızıq kəsrə adlanır və samitdən sonra «i» saitinin deyilməsini tələb edir. Samitin üzərindəki vergülə oxşar işarəyə isə zəmmə deyirlər və bu zaman həmin samitdən sonra «ü» saiti tələffüz edilir. Samitin üzərindəki şaquli kiçik cızıq mədd işarəsidir ki, bu da həmin saitdən sonra uzun «a» hərfinin tələffüz edilməli olduğunu göstərir. Samitdən sonra hər hansı saitin tələffüzü gərəkmirsə, bu zaman xırda dairə şəkilli sükun işarəsini qoyurlar. Sözlərin sonunda «ən», «in» və «ün» sonluqlarını bildirən tənvin işarələri də müvafiq olaraq fəthə, kəsrə və zəmmənin iki dəfə təkrarı kimi göstərilir. Bu işarələr sanki samit hərflərə hərəkət verdiyi üçün, onları hərəkə adlandırmışlar.

Ərəblər İslam dinindən qabaq yazıda hərəkədən istifadə etmirdilər. Hətta oxşar formalı hərflərin üzərində nöqtə də qoymazdılar. Ərəbistanda şifahi ədəbiyyat, bəlağət sənəti (gözəl və ifadəli nitq bacarığı) və bununla əlaqədar yaddaş mədəniyyəti yüksək inkişaf etdiyi üçün, sözləri hərəkəsiz və nöqtəsiz oxumaq heç bir çətinlik törətmirdi. Lakin İslam dini qeyri-müsəlman xalqların arasında yayıldıqca, Quran yazısı üzərində izahedici işarələrin qoyulmaına ehtiyac yaranmağa başladı. Bəzi kəlmələrin hərəkəsində yanlışlığa yol verildiyi zaman kobud səhvlər yaranırdı. Məsələn, Quranın Tövbə surəsinin 3-cü ayəsində buyurulur: «Allah və Onun Peyğəmbəri müşriklərdən bizardır *(uzaqdır, narazıdır)*». Bu ayənin düzgün qiraətində «Onun Peyğəmbəri» ifadəsi «rəsulühü» şəklində tələffüz edilməlidir («lam» və «he» hərfi zəmmə ilə deyilir). Əgər bu söz «rəsulihi» (kəsrə ilə) tələffüz edilsə, ayənin mənası belə olar: «Allah müşriklərdən və peyğəmbərindən bizardır».

Deyilənlərə görə, Quran hərfləri üzərində hərəkələr ilk dəfə *Müaviyənin* zamanında, Kufə valisi Ziyad ibn Əbihinin tapşırığı ilə məşhur ərəb qrammatiki Əbul-Əsvəd Duəli tərəfindən qoyulmuşdur. Əbül-Əsvəd *Əhli-beyt* tərəfdarı olduğu üçün (ərəb dilinin qrammatik əsaslarını da İmam Əlinin (ə) tövsiyəsi və rəhbərliyi ilə o hazırlamışdı), əvvəlcə Ziyadın tapşırığını yerinə yetirməkdən imtina edir. Lakin yuxarıda göstərilən ayənin bir nəfər tərəfindən səhv şəkildə oxunduğunu eşitdikdən sonra razılaşır və əvvəldən-axıra bütün Quran nüsxəsinə hərəkələr qoyur. İlk quran nüsxələrində hərəkələri rənginə görə yazıdan fərqlənən mürəkkəblə qoyurdular. Hərəkələr Quran qiraətini asanlaşdırır, ayələrin mənasını daha tez və düzgün anlamağa yardım göstərir. Ona görə də, Quran yazısına hərəkə qoymağı «bidətihəsənə» (yaxşı bidət) sayırlar.

N.R.

HƏRƏM

Ərəb dilindən tərcüməsi «qadağan olunmuş yer» deməkdir. Çox zaman müqəddəs ziyarətgah məkanlarına hərəm deyirlər. Çünki birincisi, kiminsə bu məkanları öz mülkiyyətinə çevirməsi haramdır. İkincisi, bu yerlərdə müəyyən davranış və ədəb-ərkan qaydalarına riayət etmək, məkanın ehtiramını qorumaq lazımdır; ədəbsizlik, sayğısızlıq etmək bu yerlərdə haramdır. Dini kitablarda Həzrət Mühəmməd Peyğəmbərin (s) dəfn olunduğu Mədinə məscidini «Mədinə hərəmi», Həzrət Əlinin (ə) Nəcəfdəki məqbərəsini «Əli hərəmi», İmam Hüseynin (ə) Kərbəladakı məzarını «Kərbəla hərəmi» adlandırırlar.

«Hərəm» sözünün mənalarından biri də «arvad, zövcə» deməkdir. Qadını ona görə «hərəm» adlandırırdılar ki, o, nəməhrəm (yad) kişilərin gözündən gizli qalmalı idi. Keçmişdə saraylarda «hərəmxana» adlı bir neçə otaqdan ibarət hissə olardı. Burada hökmdarın xanımları yaşayırdı. Hər xanımın ayrıca otağı, xüsusi xidmətçiləri vardı. Hərəmxananın işlərini hərəmağası adlı şəxs idarə edirdi. Hərəmağası uşaq yaşlarından axtalanmış saray xidmətçilərinin arasından seçilirdi. Yüksək rütbəli saray əyanlarının, dövlət adamlarının, imkanlı şəxslərin də öz hərəmxanası var idi.

Dini termin olaraq, hərəm – Məkkə ətrafındakı müəyyən əraziyə deyilir. Həmin əraziyə yalnız ehram geyinmiş halda daxil olmağa icazə verilir. Hərəm ərazisinə daxil olduqdan sonra bəzi əməllər insana haram olur. Məsələn, hərəmin hüdudları daxilində ov etmək, ağacları sındırmaq, bitkiləri qoparmaq qadağandır. Hərəmin hüdudları barədə şiə və sünni məzhəblərinin görüşləri bir qədər fərqlidir.

Mədinə şəhərini əhatə edən müəyyən ərazini də «Mədinə hərəmi» adlandırırlar. Onun hüdudları və hökmləri barədə müsəlman alimlərinin fikirləri müxtəlifdir.

N.R.

HƏRVƏLƏ

bax: *səy*.

HƏSƏNƏ

Ərəb dilindən tərcüməsi «yaxşılıq» deməkdir. Dini ədəbiyyatda həm xeyir əməl, həm də bunun müqabilində Allahın verdiyi mükafat, savab mənasında işlədilir.

Rəvayət edirlər ki, Həzrət Mühəmməd Peyğəmbərə (s) «Hər kəs *(Rəbbinin hüzuruna)* yaxşı əməllə gəlsə, ona bundan daha yaxşı bir mükafat verilər» *(Nəml, 89)* ayəsi nazil olanda O, Allah-təaladan xahiş etdi ki, ümmətinə yaxşı əməllər üçün daha artıq savab vəd etsin. Bu zaman aşağıdakı ayə nazil oldu: «Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi verilər. Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər» *(Ənam, 160)*. Peyğəmbərimiz yenə rica etdi ki, savabın miqdarı artırılsın. Onda Allah bu ayəni nazil etdi: «Allah yolunda yaxşı borc verən kimdir ki, *(Allah da)* onun mükafatını qat-qat artırsın?» *(Bəqərə, 245)*. Bu ayədən sonra Həzrət Peyğəmbər başa düşdü ki, yaxşı əməl müqabilində Allahın verəcəyi mükafat heç bir ölçüyə sığmayacaq qədər böyükdür.

Yuxarıdakı ayələrdə «həsənə» kəlməsi yaxşı əməl mənasında işlədilib. Allah-təala öz bəndəsinin xeyir əməlini dərhal nəzərə alıb, onun üçün bir neçə qat artıq mükafat hazırlayar. Hətta bəndənin xeyir əməl etməyə imkanı olmasa da, əgər ürəyində buna niyyət edibsə, həmin əməl onun üçün yerinə yetirilmiş kimi hesablanar. Amma bəndə günah edərsə, tövbə edib səhvini düzəltməsindən ötrü ona möhlət verilər. Yalnız bu müddət bitdikdən sonra tövbə etməsə, Allah bunun bir qat əvəzini onun əməl dəftərində qeyd edər.

Qurani-kərimin aşağıdakı ayəsində isə «həsənə» kəlməsi Allahın verdiyi savab, mükafat mənasında işlənib: «Bəziləri isə: «Ey Rəbbimiz! Bizə dünyada da, axirətdə də həsənə ver, bizi cəhənnəm əzabından qoru!» – deyirlər» *(Bəqərə, 201)*. Peyğəmbər bu ayəni namazın qünutunda oxuyardı.

Həsənə adətən Allahın bir neməti kimi dəyərləndirilir. Amma bəzən bu, Allahın imtahanı və sınağı da ola bilər: «Onları yaxşılıqlar *(həsənat)* və pisliklərlə *(səyyiat)* sınadıq ki, bəlkə *(doğru yola)* dönsünlər» *(Əraf, 168)*.

N.R.

HƏŞR

bax: *məhşər*.

HİCAB

Ərəbcə «pərdə, maneə» deməkdir. Təsəvvüf düşüncəsində istənilənlə istəyənin (Allahla bəndənin) arasına girən maneəyə hicab deyilir. İnsanın Allaha yaxınlığına hicab mane olur. Bu, ya nurani, ya da zülmani (qaranlıq) hicabdır. Nurani hicab ruhun nuru, zülmani hicab cismin qaranlığıdır. Müdriklərin hər birinin özünə uyğun nəfs, ağıl, sirr, ruh və xafi kimi hicabı vardır. Nəfsin pərdələri şəhvət və ləzzətlər, Allahdan qeyrisini düşünməkdir. Ağlın hicabı müəyyən zahiri mənaların dərkində ilişib qalmaqdır. Qəlbə çökən və orada həqiqətlərin təcəllasına mane olan maddi izlərə də hicab deyilir.

Müsəlman qadının şəriətə uyğun şəkildə bədənini örtən geyimini də «hicab» adlandırırlar.

R.M.

HİCRƏT

Ərəb diilndən tərcüməsi «köçmək» deməkdir. Həzrət Mühəmmədin (s) peyğəmbərliyinin 13-cü ilində Məkkədə müşriklərin zülm və əziyyətinin dözülməz həddə çatdığı bir şəraitdə müsəlmanların, onların da ardınca Peyğəmbərin *Yəsrib* (Mədinə) şəhərinə köçməsinə deyilir. Bundan əvvəl Yəsribdən gəlmiş nümayəndə heyəti Peyğəmbərə iki dəfə beyət edərək (bax: *Əqəbə beyətləri*), Ona sığınacaq verməyi və İslamı qorumağı vəd etmişdi. Peyğəmbərin tapşırığı ilə əvvəlcə bütün müsəlmanlar Məkkəni tərk edib Yəsribə köçdülər. Şəhərdə Peyğəmbərin özündən, Əbu Bəkrdən, Əli ibn Əbu Talibdən (ə) və Bəni-Haşim soyuna mənsub bir neçə qadından savayı müsəlman qalmamışdı.

Məkkə müşrikləri müsəlmanların şəhəri tərk etmələrindən xəbər tutan kimi qərara gəldilər ki, Həzrət Mühəmmədin (s) əldən çıxmasına heç cür icazə verməsinlər. Bunun üçün ən yaxşı yol Onu öldürmək idi. Bəni-Haşimin qisas tələbini əngəlləmək üçün qərara aldılar ki, Məkkənin adlı-sanlı ailələrinin hər birindən nümayəndələr seçilsin, sonra onlar silahlanıb gecə Peyğəmbərin evinə hücum etsinlər və Onu öldürsünlər. Bu halda Mühəmmədin (s) qatili məlum olmayacaq, qohumları da Onun intiqamını kimdən alacaqlarını bilməyəcəklər.

Müşriklər bu planı çox gizli saxlasalar da, Allah vəhy vasitəsilə öz Peyğəmbərini məsələdən agah etdi. Həzrət Mühəmməd (s) şəhəri təcili surətdə tərk etməyə hazırlaşdı.

Təyin olunmuş gündə 40 nəfərlik suiqəsd qrupu Peyğəmbərin evinin qarşısında pusqu qurub gecənin düşməsini gözləməyə başladı. Həzrət Mühəmməd (s) onların zənnini azdırmaq üçün öz əbasını əmisi oğlu Əli ibn Əbu Talibin (ə) əyninə geyindirdi və Onu öz əvəzində evdə saxladı. Əli (ə) bu təhlükəli anda Peyğəmbəri qorumaq təklifini canla-başla qəbul etdi. Bu münasibətlə Qurani-kərimin aşağıdakı ayəsi nazil oldu: «İnsanların elə də vardır ki, Allahın razılığını qazanmaq yolunda öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır» *(Bəqərə, 207)*.

Hava qaralanda Həzrət Mühəmməd Peyğəmbər (s) gizlicə evdən çıxdı. Sui-qəsdçilər Onun getməsini duymadılar, pəncərədən görünən şəxsin (Əlinin) Mühəmməd (s) olduğunu zənn edib arxayınlıqla pusqunu davam etdirdilər.

Gecəyarı sui-qəsdçilər qapını sındırıb içəri soxuldular, lakin Peyğəmbərin yatağında Əli ibn Əbu Talibin (ə) yatdığını gördülər. Peyğəmbər isə əvvəlcədən qərarlaşdıqları yerdə Əbu Bəkrlə görüşüb, onunla birlikdə Məkkəni tərk etdi. Onlar məkkəlilərin zənnini azdırmaq üçün Yəsribə sarı deyil, əks tərəfə üz tutdular və Məkkənin cənubundakı *Səvr* dağının mağarasında gizləndilər. Allahın möcüzəsi ilə Peyğəmbər və Əbu Bəkr mağaraya daxil olandan sonra mağaranın girişini bir hörümçək torla örtdü, bir göyərçin də orada yuva qurub yumurtladı. İzi tutub mağaraya kimi gələn təqibçilər hörümçək torunu və göyərçini görəndə bu mağaraya çoxdan bəri insan girmədiyini zənn edib qayıtdılar.

Həzrət Mühəmmədlə (s) Əbu Bəkr mağarada 3 gün qaldılar. Onların vəziyyəti aşağıdakı ayədə təsvir edilmişdir: «*(Ey möminlər!)* Əgər siz ona *(Peyğəmbərə)* kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu *(Məkkədən)* iki nəfərdən biri olaraq çıxardıqları, hər ikisi mağa-

rada olduğu və öz dostuna *(Əbu Bəkrə)*: «Qəm yemə, Allah bizimlədir!» dediyi zaman göstərmişdi» *(Tövbə, 40)*. Bu müddətdə onlar Əbu Bəkrin sürüsünü dağın ətəyində otaran Amir adlı çobanın verdiyi südlə, Əli ibn Əbu Talibin (ə) və Abdullah ibn Əbu Bəkrin hər gün gətirdiyi yemək payı ilə dolanırdılar. Mağaradan şəhərə dönərkən Əli (ə) və Abdullah irəlidə gedir, onların ardınca Amir qoyun sürüsünü gətirirdi. Buna görə yerdə insan ləpiri qalmır və yalnız qoyun sürüsünün keçməsi təsəvvürü yaranırdı. Bu səbəbdən ən bacarıqlı ləpirçilər belə, Peyğəmbərin gizləndiyi yeri tapa bilmirdilər.

Üç gün tamam olduqdan sonra İslam Peyğəmbəri və Əbu Bəkr bələdçinin müşayiəti ilə Yəsribə tərəf yollandılar. Bunun üçün Əbu Bəkr Məkkədəki sürüsündən iki dəvə gətizdirdi. Peyğəmbər halallıq naminə həmin dəvələrin qiyməti barədə onunla sövdələşdi və pul tapan kimi ödəyəcəyini bildirdi.

Yolda Məkkə təqibçilərindən Süraqə adlı birisi təsadüfən onların izinə düşdü. O, atını düz Həzrət Mühəmməd Peyğəmbərin (s) üstünə səyirtdi. Bu zaman Allahın yardımı ilə möcüzə baş verdi: Süraqənin atı şahə qalxıb onu yerə çırpdı. Əzilmiş və silahı əlindən düşmüş Süraqə aman istəməyə məcbur oldu. Peyğəmbər Süraqəyə bu şərtlə aman verdi ki, onları gördüyünü heç kəsə deməsin. Süraqə verdiyi sözə əməl etdi; bunun sayəsində Peyğəmbər və səfər yoldaşları təhlükəsiz halda öz yollarına davam etdilər.

Mədinəyə bir az qalmış quraqlıq nəticəsində heyvanlarının südü qurumuş bir qadına rast gəldilər. Peyğəmbərin duası ilə heyvanların südü qayıtdı. Bu iki hadisə: Süraqənin zərərsizləşdirilməsi və qoyunların bol süd verməsi Həzrət Mühəmməd Peyğəmbərin (s) hicrət yolunda göstərdiyi möcüzələrdən sayılır.

Peyğəmbər Yəsribə birbaşa daxil olmayıb, şəhər kənarındakı Qüba kəndində dayandı. O, hicri təqvimlə rəbiül-əvvəl ayının 1-də Məkkədən çıxıb, ayın 12-də Qübaya çatmışdır. Peyğəmbərin hicrət səfəri 12 gün davam etmişdir.

Həzrət Mühəmməd (s) Məkkədə «əmin» (etibarlı, əmanətdar) ləqəbi ilə tanınırdı. Camaat öz qiymətli əşyalarını, mübahisəli əmlakını saxlamaq üçün Ona verirdi. Peyğəmbər hicrət edəndə evində xeyli əmanət pul və mal qalmışdı. Əli ibn Əbu Talib (ə) əmanətləri öz sahiblərinə təhvil verdi, sonra Məkkədə qalmış anası Fatimə bint Əsədi və Peyğəmbərin kiçik qızı Fatimeyi-Zəhranı (ə) da özü ilə götürüb şəhərdən çıxdı. Məkkə müşrikləri Ona mane olmaq istəsələr də, Əlinin (ə) şücaəti qarşısında tab gətirməyib geri dönməyə məcbur oldular.

Əli (ə) himayəsində olanlarla birlikdə rəbiül-əvvəl ayının 15-də Qüba kəndinə çatıb Peyğəmbərə qoşuldu. Bu müddət ərzində artıq Qübada Peyğəmbərin başçılığı altında ilk məscidin bünövrəsi qoyulmuşdu. Həmin gün Həzrət Mühəmməd Peyğəmbər (s) Yəsribə daxil oldu.

Yəsriblilər Peyğəmbəri çox səmimi qarşıladılar. O, şəhərə yaxınlaşanda əllərində xurma budağı tutmuş yəsriblilər pişvaza çıxıb, bu münasibətlə qoşduqları nəğməni oxumağa başladılar: «Yəsrib kənarındakı təpələrdən on dörd gecəlik Ay üzümüzə doğdu *(yəni Peyğəmbər şəhərimizə gəldi)*. Yer üzündə bircə nəfər dua edən qalana kimi bu səadəti nəsib etdiyinə görə Allaha şükr etməliyik. Ey Allah tərəfindən bizə göndərilmiş Peyğəmbər, sənin əmrlərinə itaət etmək borcumuzdur».

Hər bir yəsribli müsəlman istəyirdi ki, Peyğəmbər onun evində qonaq qalsın. Amma Allahın Peyğəmbəri mübahisələrə son qoymaq məqsədilə elan etdi ki, Onun dəvəsinnin ovsarını sərbəst buraxsınlar; dəvə harada çöksə, Peyğəmbərin evi orada tikiləcək. Dəvə Yəsribin küçələrini gəzib, iki yetim uşağa aid sahədə yerə yatdı. Peyğəmbər həmin sahənin pulunu uşaqların himayədarına ödədi. Burada ilk məscidi və Peyğəmbərin evini tikmək qərara alındı. Məscid və ev hazır olana kimi Həzrət Mühəmməd (s) yaxınlıqdakı Əbu Əyyub Ənsarinin evində yaşadı.

Peyğəmbər Yəsribə köçdükdən sonra bu şəhəri «Mədinətün-nəbi» (Peyğəmbərin şəhəri) adlandırmağa başladılar. Sonralar şəhərə qısaca olaraq *«Mədinə»* (şəhər) dedilər.

Həzrət Mühəmməd Peyğəmbərin (s) Məkkədən Mədinəyə hicrəti müsəlman təqviminin *(hicri-qəməri təqvimin)* başlanğıcı

sayılır. Hicrət İslam taixində mühüm yerə malik olan hadisədir. Bu, əslində İslamın məhv olmaqdan, Peyğəmbərin də ölümdən xilas olma tarixidir. Hicrət ilk müsəlman icmasının yaranmasının başlanğıcıdır.

İslam tarixində iki böyük hicrət olmuşdur. Bunlardan birincisi və ən mühümü – yuxarıda haqqında danışılan Mədinə hicrəti, o biri isə Həbəşistana hicrətdir (bax: *Həbəşistana hicrət*).

N.R.

HİCRİ TƏQVİM

Həzrət Mühəmməd Peyğəmbərin (s) Məkkədən Yəsribə (Mədinəyə) hicrətindən (miladi tarixlə 622-ci ilin iyul ayı) hesablanan təqvim. Hicri təqvimdə günlər Ayın səhfələrinə (sferalarına) əsasən təyin edilir. Belə ki, hicri ayın əvvəllərində Ay hilal (aypara) şəklində olur, getdikcə bədirlənir, ayın sonuna doğru yenə hilal şəklinə düşür. Hicri təqvim adı altında əsasən, hicri-qəməri təqvim nəzərdə tutulur. Bu təqvimin adındakı birinci söz (hicri) onun hicrət hadisəsindən hesablandığını, ikinci söz (qəmər) isə Ay sistemi üzərində qurulduğunu göstərir.

Hicri təqvim 12 aydan ibarətdir: mühərrəm, səfər, rəbiül-əvvəl, rəbiül-axir (və ya rəbiüs-sani), cəmadiyül-əvvəl, cəmadiyül-axir (və ya cəmadiyüs-sani), rəcəb, şəban, ramazan, şəvval, zilqədə və zilhiccə. Aydakı günlərin sayı 29 və ya 30 olur. Ayın ilk gününü qabaqcadan konkret təyin etmək bəzən çətinlik törədir. Çünki hicri-qəməri ayın başlanğıcı səmada Ayın görünməsi ilə təyin edilir; bu isə Ayın səmadakı mövqeyindən, yerləşmə bucağından və hava şəraitindən asılıdır.

Tarixi məlumatlara görə, ərəblər İslamdan əvvəl də qəməri (Ay əsaslı) təqvim işlədirdilər. Lakin günlərin hesablanması zamanı bəzi müstəsna üsullara da müraciət edirdilər (bax: *nəsi*). İslam bu təqvimin quruluşunu, aylarının adını, *haram aylar* qanununu təsdiq etdi, lakin *nəsi* kimi adətlərə qadağan qoydu.

İslamdan əvvəl ərəblər ən əlamətdar hadisələri tarixin başlanğıcı sayır, sonrakı illəri ona nisbətən hesablayırdılar. Məsələn, Həzrət Mühəmməd Peyğəmbərin (s) beşinci nəsildən ulu babası Qüseyy ibn Kilabın vəfat ili, daha sonra isə *fil ili* ərəblərin başlanğıc tarixi hesab edilirdi. Sonrakı illəri «fil ilindən bir il sonra», «fil ilindən iki il sonra» və sairə ardıcıllıqla müəyyən edirdilər. İslamın gəlişindən sonra da müsəlmanlar ficar savaşının, *vida həccinin* və sairə bu kimi mühüm hadisələrin baş verdiyi illəri təqvimin əvvəli kimi dəyərləndirirdilər.

İkinci xəlifə Ömər ibn Xəttabın hakimiyyəti dövründə (təqr. 637-638-ci illərdə) əyalətlərdən Mədinəyə ili göstərilməmiş, yalnız ayın adı ilə tarixlənmiş bir neçə məktub gəldi. Məktubların hansı ilə aid olduğunu təyin etmək çətinlik törədirdi. Müsəlmanlar belə qərara gəldilər ki, təqvimin başlanğıcı üçün konkret bir hadisə seçsinlər və bundan sonra təqvimi dəqiq şəkildə nizamlasınlar. Hərə bir təklif irəli sürdü. Bəziləri dedilər ki, tariximizi Peyğəmbərin doğuluş ilindən hesablayaq. Amma bu təklifi qəbul etmədilər; dedilər ki, Peyğəmbər doğulan il cahiliyyə dövrü idi və o zaman İslam dinindən əsər-əlamət belə, görünmürdü. Başqa bir dəstə dedi ki, Həzrət Mühəmmədin (s) peyğəmbərliyə təyin edildiyi ili tarix üçün başlanğıc seçək. Bu fikirlə də razılaşmadılar; çünki peyğəmbərlik başlayan gün Həzrət Mühəmməddən (s) başqa müsəlman yox idi və İslam dini hələ qüdrət qazanmamışdı. Daha bir qrup səhabə təklif etdi ki, qoy Peyğəmbərimizin vəfat ili tarixin əvvəli olsun. Amma çoxları bu sözü narazılıqla qarşılayıb söylədilər ki, tariximizi kədərli hadisə ilə başlamaq yaxşı əlamət deyil.

Bu zaman İmam Əli ibn Əbu Talib (ə) təklif etdi ki, müsəlman tarixinin başlanğıcı hicrətdən hesablansın. O, öz fikrini belə əsaslandırdı: Hicrət İslam tarixinin ən əlamətdar və həlledici nöqtəsidir. Çünki o dövrdə Məkkədə çox təhlükəli vəziyyət yaranmışdı. Əgər müsəlmanlar Peyğəmbərlə birgə Mədinəyə köçməyib Məkkədə qalsaydılar, yəqin ki, məhv olardılar, İslam dini də indiyədək yaşamazdı. Hicrət hadisəsi İslama həyat bəxş etdi. İslam Peyğəmbəri və müsəlmanlar Mədinəyə köçməklə həm ölüm təhlükəsindən xilas oldular, həm də dini yaşatdılar. Hicrətdən sonra Mədinədə ilk əsl müsəlman icması yaradıldı, İslam dini insanların həyatına hakim oldu. Beləliklə, hicrət

gününü İslamın ikinci ad günü də adlandırmaq olar.

Hamı İmam Əlinin (ə) təklifi ilə razılaşdı. O gündən etibarən müsəlman təqvimi hicrətdən hesablanmağa başladı.

Bəzi tarixi sənədlər bunu sübut edir ki, Həzrət Mühəmməd Peyğəmbər (s) hələ öz sağlığında hicri təqvimi tətbiq edibmiş. Peyğəmbərimizin dövründə yazılmış bəzi sənəd və məktubların sonunda «hicri filanıncı ayda və ya ildə yazılıb» ifadəsinə rast gəlmək mümkündür. Lakin sonralar bir neçə il boyu bu qaydaya əməl edilmədi. Nəhayət, Ömər ibn Xəttabın xilafəti zamanı bu məsələyə yenidən baxıldı və hicri təqvim qüvvəyə mindi.

Hal-hazırda hicri-qəməri təqvim bir çox müsəlman ölkələrində rəsmi dövlət təqvimi kimi istifadə edilir. Orucluq, həcc kimi ibadətlər hicri təqvim əsasında yerinə yetirilir. İran İslam Respublikasında isə hicri-şəmsi təqvim qüvvədədir. Hicri-şəmsi təqvimin də başlanğıcı miladi 622-ci ildən hesablanır; lakin bu, Günəş təqvimidir. İlin başlanğıcı Novruz bayramı günü sayılır.

Miladi ili hicri-şəmsi ilə çevirmək üçün sadəcə olaraq, ondan 622 ədədini çıxmaq lazımdır. Hicri-qəməri təqvimi isə miladi təqvimə dəqiq çevirmək asan deyil. Bu təqvimlərin arasında hər il 10-12 günlük fərq yarandığı üçün, ayların və günlərin dəqiq qarşılığını tapmaqdan ötrü sinxron cədvəllərlə hesabat aparmaq lazımdır. Kobud hesabatla hicri-qəməri və miladi təqvimlərin birindən-o birinə bu şəkildə keçmək olar: Hicri ili əvvəlcə 32-yə vurur, sonra 33-ə bölür, daha sonra üzərinə 622 əlavə edirlər. Miladi təqvimdən hicri təqvimə keçmək üçün isə miladi təqvimdən 622 çıxılır, qalıq 33-ə vurulur, sonra isə 32-ə bölünür.

N.R.

HİDAYƏT

Ərəb dilindən tərcümədə «bələdçilik etmək, yol göstərmək» mənalarını verir. Dini ədəbiyyatda Allah-təalanın verdiyi işarələrlə insanın haqq yolu tapmasını hidayət adlandırırlar. Hidayət etmək Allah-təalaya məxsus olan bir xüsusiyyətdir. Qurani-kərimdə Allah hidayət etmək vəzifəsinin hətta Peyğəmbərə də aid olmadığını bildirir: «İnsanları hidayət etmək sənin borcun deyil. Allah kimi istərsə, onu hidayət edər» *(Bəqərə, 272)*. Quranda dönə-dönə vurğulanır ki, Allah-təala istədiyi bəndəsini hidayət edər, istədiyini də zəlalətə salıb azdırar: «Allah istədiyi kimsəni zəlalətə salar, istədiyini də hidayət edər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir» *(İbrahim, 4)*.

İslam alimləri hidayəti iki qrupa ayırmışlar: təkvini hidayət və təşrii hidayət.

Təkçini hidayət Allah-təala tərəfindən bütün canlılara fitrətən bəxş edilib. Quranda buyurulur: «Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da onu hidayət edəndir» *(Ta-Ha, 49-50)*. Məhz təkvini hidayətin sayəsində bütün canlılar (hətta heyvanlar və quşlar da) özlərinə lazım olan əlverişli həyat şəraitini tapır, təhlükədən xilas olurlar. İnsanın daxilində yerləşdirilmiş fitri allahpərəstlik hissi də təkvini hidayətin bir növüdür (bax: *fitrət*).

Təşrii hidayət yalnız insanlara xasdır. Əvvəla, Allah insana şüur verib ki, onun vasitəsilə haqqı batildən, pisi yaxşıdan ayırsın. İkincisi, insanlara peyğəmbərlər göndərmiş, müqəddəs kitablar nazil etmişdir. Bu dəvətlərə cavab verib-verməmək ixtiyarı insanın özünə məxsusdur. Bəziləri iman gətirib mömin olur, bəziləri isə hidayətə tabe olmayıb zəlaləti seçirlər. Quranda bu barədə buyurulur: «Biz onu *(insanı)* haqq yola hidayət etdik; istər minnətdar olsun, istər nankor» *(İnsan, 3)*.

Bəzi tədqiqatçılar (məsələn, mərhum Ayətullahül-üzma Xoyi) isə hidayətin ayrı-ayrı şəxslərə münasibətdə də fərqli olduğunu söyləmişlər. Bu nəzəriyyəyə görə, Allahın hidayəti iki cürdür: ümumi və xüsusi hidayət. Təkvini və təşrii növlərə bölünən də ümumi hidayətdir. Lakin Allah öz bəndələri içindən bəzilərini xüsusi növ hidayətə layiq bilir. Bəzi mömin şəxsləri azğınlıqdan qorumaq üçün Allah onları daha qüvvətli dəlillərlə haqq yola yönəldir. Bir çox ayələrdə başqa insanlardan seçilərək hidayət olunduqları bildirilən şəxslər də məhz bunlardır: «*(Allah)* insanların bir qismini doğru yola yönəltdi, onların bir qismi isə azmağa layiq görüldü» *(Əraf, 30)*. «Bizim uğrumuzda cihad edənləri öz yollarımıza qovuşduracağıq» *(Ənkəbut, 69)*.

Hidayətə nail olmaq müəyyən dərəcədə insanın özündən də asılıdır. Əgər bir şəxs (və ya qövm) öz arzusu ilə günah girdabında qərq olmuşsa, Allah onu hidayət etməkdən vaz keçər. Quranda zalım, fasiq (günahkar) və kafir cəmiyyətlərin Allah tərəfindən hidayətə layiq görülmədiyi vurğulanır *(Maidə, 51, 67; Tövbə, 80)*. Əksinə, mənəvi tərəqqi naminə çalışan, Allahın razılığını qazanmaq üçün zəhmət çəkən şəxsləri Allah-təala hidayət edər və onların hidayətini daha da gücləndirər: «Kim Allaha iman gətirsə, *(Allah)* onun qəlbini hidayət edər» *(Təğabün, 11)*. «Hidayət olanlara gəldikdə isə, Allah onların hidayətini daha da artırar və onlara təqvalarının mükafatını verər» *(Mühəmməd, 17)*. Bəziləri bu növ hidayəti tövfiqi (qazanılan) hidayət adlandırmışlar.

Qurani-kərimin ilk sürəsində müsəlmanlar Allahdan istəyirlər ki, onları doğru yola hidayət etsin: «Bizi doğru yola yönəlt! Nemət verdiyin kəslərin yoluna. Qəzəbə düçar olmuşların və *(haqdan)* azmışların yoluna yox!» *(Fatihə, 6)*.

N.R.

HİKMƏT

Ərəb dilində «fəlsəfə, ədalət, elm, peyğəmbərlik, Quran və gözəl söz» mənalarında işlədilən bir kəlmədir. Əməl və bilgi bütövlüyündən meydana gələn elmdir. İnsanın öz əqli imkanları çərçivəsində xarici aləmdəki əşya və hadisələrin mahiyyətini həqiqi şəkildə bilib, buna uyğun hərəkət etməsindən bəhs edən elmə hikmət deyilir. Bu elm təbii, riyazi və ilahi olmaq üzrə üç növə ayrılır.

R.M.

HİLAL (AYPARA)

İslam dininin simvolu sayılır. İslamdan əvvəlki sivilizasiyaların bir çoxunda da Ay obrazı mühüm yer tuturdu. Məsələn, qədim misirlilər Ay tanrısını Xonsu adlandırırdılar. Xonsu papaq əvəzinə, başında Ay gəzdirirdi. Şumer-Akkad mifologiyasında Ay tanrısı Sin öz parlaq atının belində gecələr səmada gəzən mavi saqqallı müdrik qoca şəklində təsəvvür edilirdi. Qədim hind əsatirinə görə, təbiət qüvvələrinə hökm edən Ay tanrısı Çandra tanrıların başçısının qəzəbinə tuş gələrək xəstəliyə düçar olmuşdu. Amma vəzifələrini icra edə bilsin deyə, Çandraya imkan verilmişdi ki, hər 15 gündən-bir müqəddəs çayda çimib müvəqqəti olaraq sağalsın. Elə bu əsatirə əsasən, hindlilər ayparadan bədirlənmiş Aya kimi keçən günləri Çandıanın sağlamlıq dövrü ilə, bundan sonrakı yarım ayı isə Çandranın xəstəliyi ilə əlaqələndirirdilər. Qədim türk mədəniyyətində də aypara fiquru özünəməxsus yerə malik idi. Türk xalqlarının həm dini inancında, həm də məişətində at mühüm yer tuturdu. Aypara fiquru atın nalını xatırladır. Ona görə də, qədim türklər ayparaya uğurlu fiqur kimi baxırdılar. At nalının bədnəzəri qaytarması barədə inancın qaynağı da budur.

İslamdan əvvəlki Ərəbistanda isə pərəstiş edilən bütlərin ən böyüyü məhz Ay tanrısı *Hübələ* məxsus idi. İri yaqutdan yonulmuş, qızıldan əli olan insan formalı bu bütü Kəbənin damına qoymuşdular.

Maraqlıdır ki, aypara fiquru həm də xristianlıqda Müqəddəs Məryəmin simvolu kimi qəbul ediilr. Rusiya ərazisindəki bir çox qədim kilsələrin günbəzi üzərində quraşdırılmış xaç simvolunun aşağı hissəsində aypara fiquru da mövcuddur. Bəzilərinin fikrincə bu, 1480-ci ildə rus çarı III İvanın 250 illik monqol-tatar işğalına son qoymasına işarədir. Deyilənlərə görə, kilsə günbəzlərini tamamlayan xaçın altındakı aypara fiquru xristian rusların müsəlman monqol-tatarlar üzərində qələbəsini ifadə edirdi.

Bütün bunlarla yanaşı, aypara fiquru daha çox İslam dininin rəmzi sayılır. İstər məscid minarələrinin zirvəsi, istər islami memarlıq abidələrinin divarları, istərsə də müsəlman ustaların hazırladığı sənət əsərləri bu simvolla bəzədilir.

Əksər tarixi mənbələrdə ayparanın İslam rəmzi kimi tanınmasının tarixini Osmanlılarla bağlayırlar. Rəvayətə görə, Osmanlı sülaləsinin banisi Osman Qazi (1299-1326) bir gecə səhərə kimi Quran oxuyur, səhər açılana yaxın onu yuxu tutur. Yuxuda görür ki, ustadı və məsləhətçisi Şeyx Ədəbalının köksündən yeni doğmuş Ay çıxaraq səmaya qalxır, böyüyüb bədirlənmiş Aya çevrilir. Sonra

həmin bədirlənmiş Ay Osman Qazinin köksünə girir. Bu dəfə onun köksündən bir çinar ağacı cücərməyə başlayır. Ağac durmadan böyüyür, axırda onun budaqları bütün yer üzünü örtür. Adamlar hər yerdən çinarın kölgəsinə axışırlar. Hər tərəfdə azan verilir, Quran oxunur. Birdən-birə möhkəm külək əsir və ağacın yarpaqlarını qoparıb İstanbul şəhərinə tərəf aparır. (O zamanlar İstanbul hələ Bizans imperiyasının paytaxtı idi). İstanbul iri üzük qaşına çevrilir və Osman Qazi həmin üzüyü barmağına taxır...

Osman Qazi bu yuxunu gələcək qələbələrin rəmzi kimi qəbul edərək, hərbi fəthlərə başlayır. Yürüş bayrağının üzərinə isə aypara şəklini həkk etdirir. O zamandan bəri aypara Osmanlı dövlətinin rəmzidir sayılır.

Bəzi tədqiqatçılar isə aypara fiqurunun Osmanlı bayrağında yer tutmasının tarixini İstanbulun (keçmiş Konstantinopolun) fəthi ilə əlaqələndirirlər. Çünki aypara Konstantinopol şəhərinin simvolu idi. Sultan Mehmet Fateh şəhəri fəth etdikdən sonra bu qələbənin şərəfinə aypara fiqurunu öz bayrağına əlavə etdirir.

Bunu da qeyd etmək yerinə düşər ki, aypara (hilal) İslam mədəniyyətində də mühüm yer tutur. Çünki «hilal» və «Allah» sözləri eyni hərflərlə yazılır. Bu kəlmələrin hər ikisinin əbcəd hesabı ilə ekvivalenti 66-dır («lalə» kəlməsi də bunlara bənzəyir). Ona görə də müsəlman nəqqaş və xəttatların əsərlərində aypara Allahın simvolu kimi iştirak edir.

Hal-hazırda aypara fiquru dünyanın onlarla dövlətinin bayrağını bəzəyir. Bunların əksəriyyətini müsəlman ölkələri təşkil edir. Azərbaycan Respublikasının dövlət bayrağında da aypara şəkli vardır. Bayraqdakı yaşıl zolaqla yanaşı, aypara da islamçılığı təmsil edir.

N.R.

HİLFÜL-FÜZUL

İslamdan qabaq Həzrət Mühəmmədin (s) də qoşulduğu könüllü xeyriyyə cəmiyyəti. Cəmiyyətin məqsədi haqsızlığa tuş gəlmiş insanların hüququnu qorumaq, məzlumları müdafiə etmək, zülmün qarşısını almaq idi. Bu cəmiyyət Peyğəmbərin gənclik dövründə mövcud olmuşdur. İslam bərqərar olduqdan sonra da Həzrət Mühəmməd Peyğəmbər (s) hilfül-füzulu xeyirxahlıqla xatırlayır və deyirdi: «Belə bir cəmiyyətə qoşulmağımı yenə təklif etsələr, orada iştirak edərəm».

R.M.

HİLYƏ (HİLYEYİ-ŞƏRİFƏ)

bax: *şəmail.*

HİZB

Ərəb dilindən tərcüməsi «dəstə, qrup» deməkdir. Müəyyən xüsusiyyətlərə görə qruplaşdırılan, yaxud müəyyən amal uğrunda birləşən adamların toplumuna deyilir. Müasir anlamda partiya mənasını da verir. Qurani-kərimdə hizb ümmətin parçalandığı hissələr kimi təqdim edilir *(Möminun, 53).* Həmçinin, Müqəddəs Kitabda Allahın hizbinə aid olan şəxslərin xüsusiyyətləri belə bəyan edilir: «Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlarla – öz ataları, oğulları, qardaşları yaxud qohumları olsalar belə – dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və öz dərgahından onlara ruh *(güc)* vermişdir. *(Allah)* onları altından çaylar axan cənnətlərə daxil edəcək. Onlar orada əbədi qalacaqlar. Allah onlardan, onlar da Allahdan razıdırlar. Onlar Allahın hizbidirlər. Bilin ki, Allahın hizbi – məhz onlar nicat tapıb səadətə qovuşanlardır» *(Mücadələ, 22).*

Qurani-kərimin bölündüyü hissələrə də hizb deyilir. Ümumiyyətlə, Qurani-kərimin oxunuşunu və əzbərlənməsini asanlaşdırmaq məqsədilə onu *cüz* adlı 30 bərabər hissəyə bölmüşlər. Hər cüz də iki hizbə bölünür. Beləliklə, bütövlükdə Quran 60 hizbdən ibarətdir. Quranın müasir nəşrlərində mətnin kənarında hər hizbin əvvəlini, dörddən-birini, yarısını və dörddən-üç hissəsini göstərən işarələr qoyulur.

N.R.

HÖKM

Hər hansı dini təlimin, yaxud nəzəriyyənin rəddolunmaz və mütləq yerinə yetirilməli olan əsas və dəyişməz müddəaları, qanunları. Cəm halı «əhkam»dır.

Ə.N.

HURİ

Axirətdə Allahın rizasını qazanmış möminlərə mükafat kimi veriləcək cənnət qızları. Qurani-kərimdə bu barədə buyurulur: «Hələ onları *(möminləri)* cənnətdə iri gözlü hurilərlə evləndirəcəyik» *(Düxan, 54).*

R.M.

HU

Ərəb dilindəki «hüvə» kəlməsinin tələffüz şəklidir. «Hüvə» kəlməsi «o» şəxs əvəzliyini ifadə edir. Təsəvvüf aləmində «hu» sözü Allahın adlarından biri kimi qəbul edilir. Çünki Qurani-kərimin yüzlərlə ayəsində Allahın barəsində «hüvə» ifadəsi işlədilmişdir. «Allah» sözü elə nadir kəlmələrdəndir ki, onun hər bir hərfini ixtisar etdikdə yerdə qalan söz yenə Allah-təalanı ifadə edir. Məsələn, birinci əlifi götürdükdə «lillah» (Allaha), lam hərfini ixtisar etdikdə «ləh» (Ona), növbəti lam hərfini götürdükdə isə «hu» ifadələri qalır. Təsəvvüf aləmində «hu» kəlməsi Allahın həmişə davam edən gizli zikri kimi dəyərləndirilir. Çünki nəfəsi ciyərlərdən buraxdıqda qeyri-ixtiyari olaraq «hu» səsi yaranır. Bu, insan bədənində Allahın yerləşdirdiyi işarələrdən biridir.

«Hu» təsəvvüfdə ən məşhur *zikrlərdən* biri sayılır. Bəzən bunu başqa sözlərlə birləşdirib zikr kimi söyləyirlər. Məsələn, *nəqşbəndiyyə* təriqətində «Allah hu, Allah haqq» zikri deyilir. *Yəsəviyyə* təriqətində isə «hu» zikrininin xüsusi bir forması vardır ki, bunu «zikri-ərrə» (mişar zikri) adlandırırlar. Çünki zikr deyənin sinəsindən qopan səs taxtaya sürtünən mişarın xırıltısını xatırladır.

Təsəvvüf yönlü incəsənət nümunələrində «hu» kəlməsi Allahın adının rəmzi kimi gözəl xətlə yazılır. İlahilərdən (təsəvvüf nəğmələrindən) birində «hu» zikri haqqında deyilir:

Salik məratib qət edər
Təkrari-«hu ya hu» ilə.
Aşiq hicabın rəf edər
Əzkari-«hu ya hu» ilə.

Kəşfü-kəramata erər,
Cümlə məqamatı keçər,
Vəhdət gülün daim dərər
Cülzari-«hu ya hu» ilə.

Kəsrətdə buldu vəhdəti,
Möhnətdə buldu rahəti,
Firqətdə buldu vüsləti
Hər bari-«hu ya hu» ilə.

Gəl, ey Sənai, daima
«Hu» zikrin et sübhü məsa.
Ta kəşf ola sana liqa
Əsrari-«hu ya hu» ilə.

Təsəvvüfdə geniş yayılmış ifadələrdən biri də «ədəb ya hu» ifadəsidir. Sufi bu sözləri tez-tez özü üçün təkrar etməli və heç vaxt unutmamalıdır. Buna görə də çox zaman sufi dərgahlarının, xanəgahların qapısına «ədəb ya hu» cümləsini yazardılar. Təsəvvüfdə ədəb-ərkan ən vacib əxlaqi keyfiyyətlərdən sayılır. Əsl sufi bir an da olsa ədəbi tərk etməz, bütün insanlarla, hətta heyvanlarla, cansız əşyalarla belə, ədəb qaydaları əsasında rəftar edər, başqasının könlünü sındırmaz, haqqına təcavüz etməz, incitməz, hər an uca Allahın nəzarəti altında olduğunu bilər. «Ədəb ya hu» ifadəsi yazılmış lövhələri keçmişdə mədrəsələrin, kütləvi yerlərin, hətta evlərin qapısından asardılar.

N.R.

HÜCCƏT

Sübut, dəlil mənasını ifadə edir. Azərbaycan dilində «höcətləşmə» sözü də özünün doğru olduğunu göstərən dəlillər gətirməklə mübahisə etməyi bildirir.

Qurani-kərimdə buyurulur: «De: «Tutarlı dəlil *(hüccətül-baliğə)* yalnız Allaha məxsusdur» *(Ənam, 149).* «Bu, bizim İbrahimə öz tayfasına qarşı verdiyimiz hüccətdir» *(Ənam, 83).*

Dini ədəbiyyatda tez-tez rast gəlinən «hüccəti tamam etmək» ifadəsi haqqı qəbul edənlərin bütün bəhanələrini kəsmək üçün onlara bir daha nəsihət etmək və düz yolu göstərmək mənasını daşıyır.

İslam şəriətində hər hansı hökmü sübuta yetirmək üçün təqdim olunan tutarlı və qəti dəlil hüccət adlandırılır. İstər Quran ayəsi və səhih hədis, istərsə də, səlahiyyətli dairələrin və şəxslərin imzaladığı sənəd hüccət sayılır.

Hədis elmində savadı, hafizəsi və ədaləti baxımından üstün mövqedə duran hədis alimi-

nə və ya raviyə hüccət deyilir. Bəzi alimlər 300 min hədisi, bəziləri isə hətta 800 min hədisi (ravilərinin mötəbərlik dərəcəsi ilə birlikdə) əzbər bilən adamı hüccət saymışlar (bax: *hüccətül-İslam*).

İslam dinində sağlam məntiq, ağıl və vicdan da hüccət sayılır. Çünki insan bunların vasitəsilə düzgün yolu tapır, haqqı batildən, doğrunu yalandan seçir. İmam Musa Kazim (ə) bu barədə buyurub: «Allahın öz bəndələrinə iki cür hüccəti var. Bunların biri zahiri hüccətdir; bu, peyğəmbərlərdən və din başçılarından ibarətdir. O biri isə batini hüccətdir; bu, insanlara verilmiş ağıldır».

Şiə məzhəbində peyğəmbərlər və 12 imam da hüccət sayılırlar. Çünki onlar yer üzündə Allahın nümayəndəsi, haqqın Allah tərəfindən təyin olunmuş təmsilçisi və dinin zaminidirlər. Şiə mənbələrində «yer üzü hüccətsiz qalmaz» hədisi çox mötəbər hədis kimi xatırlanır. Hədisin izahı budur ki, Adəm Peyğəmbərin (ə) yaradılışından dünyanın sonuna kimi yer üzü heç zaman peyğəmbərsiz və ya imamsız qalmayıb və qalmayacaq. Hüccətlərin arasında fasilə olmamış, onlardan biri vəfat etməzdən qabaq Allahın əmri ilə bu vəzifəni özündən sonrakına ötürmüşdür. Sonuncu hüccət – halhazırda gözlərdən gizli qalan 12-ci imam Mehdidir (ə).

N.R.

HÜCCƏTÜL-İSLAM

Ərəb dilindən tərcüməsi «İslamın sübutu» deməkdir. Din alimlərinin ləqəbi kimi işlədilir. Çünki onlar öz bilikləri ilə İslamın hökmlərini sübuta yetirəcək bir səviyyəyə gəlib-çatmışlar. İslam tarixində hüccətül-İslam ləqəbi ilə tanınan ən məşhur şəxsiyyət Əbu Hamid Qəzzali (1058-1111) olmuşdur.

XIX əsrin sonu-XX əsrin əvvəllərində məşhur müctəhidlərə «hüccətül-İslam vəl-müslimin» (İslamın və müsəlmanların sübutu) deyə müraciət etmək ənənə halını almışdı. Sonralar bu ləqəbin təyinatı bir qədər dəyişildi və hüccətül-İslam rütbəsi ayətullahdan aşağı dərəcəyə keçdi. Hal-hazırda əsasən cəfəri məzhəbi tədris edilən ali dini mədrəsələrdə bir neçə il təhsil alan, amma hələ təhsilini başa vurmamış tələbələrə hüccətül-İslam deyirlər. Yaşı nisbətən sox olan, fəqət ictihad dərəcəsinə çatmamış, fiqh sahəsində özünə müstəsna yer qazanmamış elm adamlarına isə «hüccətül-İslam vəl-müslimin» deyə müraciət edilir.

N.R.

HÜCRƏ

Karvansaralarda müsafirlərin, mədrəsələrdə tələbələrin qalması üçün nəzərdə tutulan otaqlara deyilirdi. Ərəb dilindən tərcüməsi «örtük» və ya «qadağan» mənasını bildirir. Səbəbi budur ki, hücrədəki insan kənardakıların gözündən örtülü və gizli qalır. Həm də hücrə insanın həyatına və yaşayışına başqasının icazəsiz girməsinə mane olur.

Mədinədəki Peyğəmbər Məscidinin ətrafında Həzrət Mühəmməd Peyğəmbərin (s) həyat yoldaşlarının hücrələri yerləşirdi. Peyğəmbər növbə ilə onların hücrələrində qalırdı. Qurani-kərimin 49-cu surəsi «Hücürat» (hücrələr) adlanır. Bu surənin 4-cü ayəsində bəzi nadan ərəblərin Peyğəmbərin qaldığı hücrəyə yaxınlaşıb, «Mühəmməd! Yanımıza gəl!» – deyə, ədəbsizliklə onu çağırmaları tənqid edilir: «Şübhəsiz ki, səni hücrələrin arxasından çağıranların çoxusunun ağlı kəsmir!» *(Hücürat, 4).*

Hicrətdən sonra Mədinədə evi olmayan mühacir müsəlmanların bir qismi də Peyğəmbər məscidinin ətrafındakı hücrələrdə məskunlaşmışdılar. Sonralar onlar özləri üçün ev tikdilər və hücrələrdən köçdülər.

Müsəlman ölkələrində hücrələrin quruluşu sakinlərin peşəsinə və maddi vəziyyətinə uyğun olurdu. Karvansarada tacirlər, zəngin adamlar geniş və rahat hücrələrdə qalırdılar. Mədrəsələrdə isə hücrələri adətən, dar, yarımqaranlıq tikirdilər ki, tələbələr zahidanə həyat tərzinə uyğunlaşsınlar.

N.R.

HÜLUL

Birləşmə, həllolma. Dini anlamda Allahın və ya Onun sifətlərinin varlıqlardan birinə və ya hamısına keçib onlarla birləşməsi mənasını verir.

İslam daxilində hülul anlayışı yalnız bəzi ifrat təriqətlər tərəfindən qəbul edilir. Sox vaxt hülulu tənasüxlə eyniləşdirirlər; amma hülul – varlıqların və xüsusilə, insanın bədəninə Allahın daxil olması, tənasüx isə insan ruhunun bir bədəndən başqa bir bədənə (hətta heyvan bədəni də ola bilər) keçməsidir.

R.M.

HÜSNİ-ZƏNN

Ərəb dilindən tərcüməsi «başqalarının barəsində yaxşı zənnə qapılmaq» mənasını verir. Mömin şəxs tanımadığı adamın haqqında həmişə yaxşı fikirlərə düşməli, şayiələrə inanmamalı, başqasında gözəl sifətlər axtarmağa çalışmalıdır. Hüsni-zənn ətrafdakılara xeyirxahlıqla yanaşmaq, şübhəli məsələlərdə yaxşılıq tərəfinə meyl etmək, eyiblərin üstünü açmaqdan, nöqsanları ifşa etməkdən uzaq olmaq deməkdir. Qurani-kərimdə insanı pis fikirlərə aparan şübhələr və zənlər barədə buyurulub: «Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin! Şübhəsiz ki, zənnin bəzisi günahdır» *(Hücurat, 12).*

Həzrət Mühəmməd Peyğəmbərin (s) hədislərinin birində belə deyilir: «Bu üç xüsusiyyətə sahib olan müsəlmanın ürəyində kin və xəyanət olmaz: Hər əməli Allah naminə ixlasla etmək, bütün müsəlmanlara hüsni-zənlə yanaşıb nəsihət etmək, həm düşüncə, həm də əməl sarıdan müsəlmanlarla həmrəy olmaq».

İslam müqəddəslərindən biri buyurub ki, Allahın bəndələri ilə rastlaşanda, səndən böyük ya kiçik olmalarından asılı olmayaraq, hamı ilə təvazökar ol, hamıya ehtiram göstər. Yaşca səndən kiçik olanları görəndə elə təsəvvür et ki, onlar səndən daha az ömür sürdüklərindən, sənə nisbətən daha az günah ediblər. Böyüklərlə qarşılaşanda onları da özündən artıq bil. Təsəvvür et ki, onlar səndən çox yaşadıqları üçün səndən çox savab qazanıblar.

Əlbəttə, hüsni-zəndə ifrata varmaq olmaz. Öz əməlləri ilə kimliyini sübut etmiş imansız, əxlaqsız bir insan haqqında yaxşı fikirlərə düşmək, onu başqalarının gözündə yaxşı göstərmək qətiyyən düzgün deyil. Çünki bu hərəkət ədalətin və düzgünlüyün ziddinədir. Cəmiyyətdəki mənfi qüvvələrlə imkan çərçivəsində mübarizə aparmaq hər bir müsəlmanın borcudur.

N.R.



XANƏGAH

Sufilərin toplaşma və yaşayış yeri. Bu adın hansı kökdən yarandığı barədə dəqiq bilgi yoxdur. Bəziləri «xanəgah» sözünün «süfrə, yemək olan yer», bəziləri isə «ev, xanə» mənası verdiyini yazmışlar. İlk dövrlərdə xanəgahların kasıb və miskin dərvişlərdən ötrü tikildiyi ehtimal edilir.

Əbdürrəhman Cami «Nəfəhatül-ünss» kitabında ilk xanəgahın tikilməsi tarixini belə təsvir etmişdir: Bir xristian hökmdarı Şam vilayətinin Rəmlə məntəqəsində gəzərkən görür ki, iki sufi çöldə rastlaşıb mehriban şəkildə qucaqlaşır. Sufilər çantalarında olan yeməkləri ortaya qoyub birlikdə yeyirlər. Durub getmək istəyəndə xristian hökmdar onların birindən soruşur: «Çörək yediyin adam kim idi?». Sufi cavab verir: «Mən onu tanımıram». Hökmdar soruşur: «Bəs aranızdakı ülfətin səbəbi nə idi?». Cavab verir: «Bu, bizim təriqətdə qaydadır». Hökmdar yenə xəbər alır: «Sizin toplanmağa yeriniz varmı?». Sufi: «Yox» – deyə cavab verir. Onda xristian hökmdarı həmin yerdə bu cür insanların toplaşmasından ötrü bir bina tikdirir. İlk sufi xanəgahı belə yaranır. (Alimlərin bir qismi bu rəvayətin doğruluğunu şübhə altına almışlar).

Sufi müəlliflərin bir hissəsi xanəgahı Peyğəmbər zamanındakı *əhli-süffənin* məskunlaşma yerinin prototipi hesab etmişlər. O zamanlar Mədinə məscidinin qarşısındakı geniş səkidə fəqir, ev-eşiksiz müsəlmanlar qardaşcasına icma halında yaşayır, ayrı-seçkilik qoymadan birlikdə yeyib-içir, bir-birinin ehtiyaclarını ödəyir, bir-birinə yardım göstərirdilər. Mədinəyə daxil olan nabələd adamlar da karvansara əvəzinə süffəyə gəlir və oranın sakinlərinə qoşulurdular.

Sufi ədəbiyyatında «xanəgah» məfhumunun sinonimi olaraq «dərgah», «ribat», «zaviyə», «təkkə», «sövmiə» və «duveyrə» sözləri də işlənmişdir. Bunların ölçüləri arasında bəzi fərqlər vardır. Xanəgah qalan sufi

məskənlərindən daha böyük olurdu. *Dərgahın* xanəgahdan da böyük olduğu bildirilir.

Xanəgahlar adətən hömdarlar, vəzirlər və sərvətli şəxslər tərəfindən tikilir və maliyyələşdirilirdi. Məsələn, Elxani hömdarlarının vəziri olmuş, həm də görkəmli tarixçi, filosof, şeir və sənət hamisi kimi tanınmış Rəşidəddin Fəzlullah (1247-1318) bir neçə xanəgahın, o cümlədən, Şeyx Səfiəddin Ərdəbili xanəgahının bütün xərclərini ödəyirdi.

Xanəgahlar gah yerləşdiyi məntəqənin, gah da məxsus olduğu təriqət şeyxinin adı ilə adlandırılırdı. Məxsusi adlara malik xanəgahlar da mövcud olmuşdur. Məsələn, Bağdadda Dəclə çayının sahilində yerləşən və məşhur sufi Rüknəddin Səcasinin ixtiyarında olan xanəgaha «Dərəcə» deyirdilər.

Xanəgahlarda həm daimi sakinlər yaşayır, həm də müsafirlər müvəqqəti qalırdılar. Müsafirlər adətən günortaya kimi qəbul edilirdilər. Onlar xanəgaha daxil olandan sonra iki rükət namaz qılır, yemək zamanı bütün azuqələrini süfrəyə qoyub, xanəgah sakinləri ilə bölüşürdülər.

Xanəgahda *mürşid* və *qütb* (təriqət şeyxi) üçün ayrıca otaq, ibadət yeri olardı. Xanəgah əhlinin toplaşması və mürşidin moizəsinə qulaq asması üçün nəzərdə tutulan zala isə camaatxana deyilirdi.

Xanəgaha məxsus adətlər və qaydalar mövcud idi ki, onlara ciddi əməl olunurdu. Xanəgaha daxil olan müsafir orada olanlara ədəblə salam verməli, ayaqqabısını çıxarandan sonra ayaqlarını yumalı, iki rükət təhiyyə namazı qılmalı idi. Sonra təbərrük məqsədilə xanəgahdakı dərvişlərə xidmət etməklə məşğul olardı. Xanəgahda sufilər növbə ilə işləyir, hər işi ədalət əsasında icra edirdilər. Yemək bişirmək, süfrə salmaq, qabları yumaq, xanəgahı süpürmək, xalça-palazı çırpmaq, xanəgah əhlinin paltarlarını yumaq, namaz üçün azan vermək, qapıda ayaqqabıları cütləmək və s. işlər fəxr sayılırdı. Xanəgahda hər şey öz yerində olmalı, ədəb qaydalarına ciddi riayət edilməli idi.

N.R.

XATƏMÜL-ƏNBİYA

Ərəb dilindən tərcüməsi «peyğəmbərlərin möhrü» (yəni sonuncusu) deməkdir. Həzrət Mühəmməd Peyğəmbərin (s) ən məşhur ləqəblərindən biridir. Həzrət Mühəmmədin (s) adı peyğəmbərlərin siyahısını tamamladığı və sanki möhürlədiyi üçün Ona bu ləqəb verilmişdir. Qurani-kərimdə buyurulur: «O, Allahın elçisi və peyğəmbərlərin möhrüdür» *(Əhzab, 40).*

Xatəmiyyət, yəni Həzrət Mühəmmədin (s) son peyğəmbər olmasına inam İslam dininin əsas əqidə prinsiplərindən biridir. Həzrət Mühəmməddən (s) sonra qiyamət gününədək peyğəmbər gəlməyib və gəlməyəcək. Allah-təala Qurani-kərimdən sonra heç bir ilahi kitab göndərməyib və göndərməyəcək. İslam sonuncu dindir, onun hökmləri qiyamətə kimi dəyişməzdir və o, heç bir din vasitəsilə ləğv olunmayacaq.

Heç kəs bu müddəaları qəbul etməyincə müsəlman sayılmaz. Həzrət Mühəmmədin (s) sonuncu peyğəmbər, Quranın axırıncı səmavi kitab, İslamın sonuncu və ən kamil din olduğuna inanmayan şəxs müsəlman deyil.

Həzrət Mühəmməd Peyğəmbərin (s) özü xütbələrinin birində müsəlmanlara müraciət edərək deyirdi: «Məndən sonra peyğəmbər, sizdən sonra ümmət olmayacaq».

İslam Peyğəmbəri Təbuk səfərinə yola düşərkən Əli ibn Əbu Talibi (ə) Mədinədə öz yerinə canişin qoymuş və buyurmuşdu: «Ey Əli! Mənim üçün sən, Musa üçün Harun kimisən. Bircə fərq var ki, məndən sonra peyğəmbər gəlməyəcək». Bildiyimiz kimi, Harun (ə) Musa Peyğəmbərin (ə) köməkçisi və canişini idi, həm də peyğəmbərlik məqamına nail olmuşdu. Həzrət Mühəmməd Peyğəmbər (s) özünü Musaya (ə), Əlini (ə) Haruna (ə) bənzətməklə bunu bildirmək istəyirdi ki, Əli (ə) onun canişini olsa da, peyğəmbər deyil. Çünki Həzrət Mühəmməddən (s) sonra heç kəs peyğəmbərlik məqamına layiq ola bilməz.

Həzrət Mühəmmədin (s) sonuncu peyğəmbər olmasının əqli dəlillərini bu cür xülasə etmək olar:

1. Həzrət Mühəmməddən (s) əvvəlki dörd ülul-əzm peyğəmbərin hər birinin şəriəti öz zəmanəsinə uyğun idi. Bu şəriətlər insanların şüur və düşüncə səviyyəsini, o dövrün siyasi mühitini, ictimai mənzərəsini, mədəni ab-havasını əks etdirirdi. Bəşəriyyətin ictimai-siyasi, mədəni-əxlaqi həyatında sıçrayışlar əmələ gəldikdə Allah-təala mövcud şəriəti yenisi ilə əvəz edir, yeni səmavi kitab göndərirdi. Miladi VII əsrdə insanların şüuru fərqli bir səviyyəyə yetişmiş, ictimai əlaqələr yeni mahiyyət kəsb etmiş, dünyanın siyasi xəritəsində mühüm dəyişikliklər yaranmışdı. Buna görə də Allah sonuncu dinin (İslamın) qanunlarını əhatə edən sonuncu ilahi kitabı (Quranı) sonuncu peyğəmbərə (Həzrət Mühəmmədə (s)) göndərdi.

İslam qanunları hərtərəfli və uzunömürlüdür. Bu qanunlar hər bir zaman və məkan şəraiti üçün etibarlıdır. Artıq 14 əsrdir ki, müsəlmanlar İslamın göstərişlərinə əməl edirlər, amma hələ də İslam qanunlarında zərrəcə nöqsan və əskiklik aşkar olunmayıb.

2. Həzrət Mühəmməddən (s) əvvəlki bütün peyğəmbərlərin təbliğ etdikləri dinlər təhrif edilmiş, onlara vəhy olunmuş müqəddəs kitablar da dəyişdirilmişdi. Lakin Quran yeganə kitabdır ki, hər cür təhrifdən uzaq qalıb. Onun bircə kəlməsi belə, dəyişilməyib. Əgər Qurani-kərim təhrif olunmayıbsa və gələcəkdə də təhrif olunmayacağına Allah tərəfindən zəmanət verilibsə *(Hicr, 9)*, ondan sonra başqa səmavi kitabın göndərilməsinə ehtiyac yoxdur. Səmavi kitab peyğəmbər vasitəsilə göndərilir. Deməli, Həzrət Mühəmməddən (s) sonra yeni peyğəmbərin gəlməsi də tələb edilmir.

3. Peyğəmbərlərin cəmi beş nəfəri (ülul-əzm peyğəmbərlər) yeni şəriət gətirmiş, qalanlarının vəzifəsi isə insanları həmin şəriətlərə doğru yönəltmək olmuşdur. Həzrət Mühəmməddən (s) sonra yeni şəriət gətirən peyğəmbərə ehtiyac olmadığı kimi, şəriətsiz peyğəmbərin gəlişinə də ehtiyac yoxdur. Çünki həmin «kiçik» peyğəmbərlərin vəzifəsini Həzrət Mühəmmədin (s) canişinləri və İslam alimləri yerinə yetirirlər. Həzrət Mühəmmədin (s) vəfatından sonrakı 250 il ərzində Onun nəslindən olan *Əhli-beyt* imamları müsəlmanların ideoloji rəhbərliyini öhdəyə almış, ümməti tərbiyə etmiş, sonra isə bu məsuliyyəti *müctəhid* alimlərə təhvil vermişlər. Müctəhidlər bu yolu layiqincə davam etdirərək, dinimizi ciddi təhlükələrdən qoruyurlar. Elə buna görə Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Alimlər peyğəmbərlərin varisləridir».

N.R.

XƏLİFƏ

bax: *xilafət.*

XƏLVƏT

Yalnız qalmaq, tənhalığa çəkilmək. Təsəvvüf aləmində zehni müvazinəti sabit saxlamaq, xüsusi zikrlərlə *riyazəti* gerçəkləşdirmək üçün şeyxin öz müridini müəyyən müddətə xarici dünyadan təcrid olunmuş uzaq bir yerə göndərməsinə deyilir. Allahla gizlicə danışmaq, qəlbi batil inanc və duyğulardan təmizləmək də xəlvət sayılır. Məşhur təsəvvüf xadimi Kaşaniyə görə, xəlvət – bəndənin özünü bütün varlığı ilə Allaha təslim edərək, Ondan savayı hər şeydən uzaqlaşmasıdır. Həzrət Mühəmmədin (s) peyğəmbərlikdən qabaq *Hira* mağarasında tənhalığa çəkilməsi, Həzrət Musa Peyğəmbərin (s) Tur dağında 40 gün qalması da xəlvət kimi dəyərləndirilir. Xəlvətin əsası düşüncəni Allahdan savayı hər şeydən təmizləməkdir. İnsan ömrü boyu tənha qalsa, amma bununla belə, dünyəvi düşüncələrlə məşğul olsa, bu, xəlvət sayılmaz. Demək olar ki, bütün sufi təriqətlərində xəlvət ayini vardır. Xəlvət sufi dərgahlarındakı xüsusi otaqlarda həyata keçirilərdi. Şeyx dərvişi bu otağa aparar, onu orada tərk edərək ayrılar və haqqında dua edərdi; bununla da xəlvət ayini başlanmış hesab olunardı. Dərviş üçün hər gün yemək və su aparılar, amma tədricən bunların miqdarı azaldılardı. Bəzi təriqətlərdə xəlvətdəki müridə zeytun yağı və mərcimək, bəzilərində isə duzlu yeməklər verilər, amma su verilməzdi (bununla müridin iradəsini və dözümünü sınağa çəkirdilər). Qırx gün bu qayda ilə davam edərdi. Mürid ayaqyolu, dəstəmaz, cümə və bayram namazlarından başqa bütün vaxtını bu dar və qaranlıq otaqda az yatmaq, çox zikr etmək və düşünməklə keçirərdi. Şeyx ara-sıra müridin yanına gələr, ona yeni zikrlər tapşırar, vəziyyəti ilə maraqlanardı. Bu müddətdə mürid dırnaqlarını kəsməz, saç-saqqalını qırxmazdı.

Qırxıncı gün şeyx otağa gələr, müridin duyduğu hissləri, gördüyü yuxuları dinləyər, sonra şükür qurbanı kəsərdi; bununla da mürid xəlvətdən çıxmış hesab olunardı. Bundan sonra mürid ilk növbədə yuyunar, dırnaqlarını kəsib saç-saqqalını təraş edər, paltarını təmizləyərdi. Həmin axşam şükr niyyəti ilə fəqirlərin qarnını doyurardılar.

bax: *çillə.*

R.M.

XƏMR

İnsanı məst edən hər növ alkoqollu içki. Dilçi alimlər bu sözün ərəb dilində «gizlətmək» mənasını verən «xəmərə» kökündən qaynaqlandığını bildirirlər. Çünki alkoqollu içkilər insanın şüurunu dumanlandırır, ayıqlığını əldən alır, çox zaman sərxoş insan kənardan ağlını itirmiş kimi görünür. Necə deyərlər, içki içənin ağlı sanki ətrafdakılardan gizli qalır.

Qeyd etmək yerinə düşər ki, ərəb dilində qadınların baş örtüyü eyni kökdən olan «xümür» kəlməsi ilə ifadə olunur; çünki örtük qadının saçını gizlədir (bax: *Nur, 31*).

İslamın gəlişindən sonra məstedici içkilər birbaşa deyil, tədricən qadağan olundu. Peyğəmbərin özü və bəzi səhabələr həyatları boyu şərab içməmiş, sərxoşluğa nifrət etmişlər. Lakin o zamankı cahiliyyə cəmiyyətində şəraba olan alışqanlığın səviyyəsi, onu birbaşa qadağan etməyə imkan vermirdi. Buna görə də Allah-təala müsəlmanları içkidən mərhələ-mərhələ uzaqlaşdırdı.

Bu mövzuda nazil olmuş birinci ayədə sərxoşluq gətirən içki ilə halal içəcəklər arasında fərq qoyuldu: «Siz xurma ağacının meyvəsindən və üzümlərdən məstedici içki və gözəl ruzi düzəldirsiniz. Şübhəsiz, bunda da ağılla düşünənlər üçün bir ibrət vardır» *(Nəhl, 67).* Ayədəki gözəl ruzi – xurma və üzümdən hazırlanan pak təamlar (bəhməz, sirkə, kişmiş, quru xurma və s.) deməkdir. Göründüyü kimi, Allah-təala meyvələrdən hazırlanan təamları iki növə bölür: məstedicilər və gözəl ruzilər. Məsteidicilər gözəl ruzilərdən fərqləndirilir və ayrıca qeyd edilir; demək, onlar gözəl ruzi sayılmır.

Bundan bir qədər sonra Allah-təala məst edici içkilər barədə başqa bir ayə nazil etdi: «*(Ya Rəsulum!)* Səndən içki və qumar haqqında soruşanlara söylə: «Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür» *(Bəqərə, 219).* Bu ayədə mənfəət deyərkən, içki alveri nəticəsində əldə edilən qazanc nəzərdə tutulur. Çünki cahiliyyə dövründə içki alveri ən gəlirli ticarət sahələrindən sayılırdı. Amma əlbəttə ki, bu cür ticarət günahdır və bu yolla əldə edilən qazanc da haramdır.

İçki haqqında nazil olmuş növbəti ayə məsələyə daha da aydınlıq və qətilik gətirdi: «Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər... namaza yaxınlaşmayın» *(Nisa, 43).* Müsəlman namaz zamanı da, namazdan başqa vaxtlarda da eyni əxlaqa və davranışa malik olmalıdır. Əgər namaz qılan zaman sərxoş olmaq haramdırsa, deməli, başqa vaxtlarda da məstedici içki içmək haramdır.

Lakin bu ayələr nazil olduqdan sonra belə, bəzi müsəlmanlar içki içməkdə davam edirdilər. Allah-təala bu mənfi adəti birdəfəlik aradan qaldırmaq üçün sonuncu ayə vasitəsilə məstedici içkinin bütünlükdə haram olduğunu müsəlmanlara elan etdi: «Ey iman gətirənlər! Şərab da, qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız» *(Maidə, 90).*

Göründüyü kimi, məstedici içkilər Qurani-kərimdə mərhələlər üzrə qadağan edilib. Bəzi alimlər yuxarıda göstərilən ayələri Qurandakı *nasix* və *mənsux* ayələr qisminə aid edirlər və bildirirlər ki, bu ayələrin hər biri özündən əvvəlkini nəsx edib, yalnız sonuncu ayənin hökmü qüvvədə qalıb. Lakin Quran tədqiqatçılarının bir qismi içki barəsində nazil olmuş bu 4 ayəni nasix-mənsux məsələsinə aid bilmir. Onların fikrincə, bu ayələrin heç biri özündən əvvəlki ayənin hökmünü rədd etmir. Yalnız o ayələr nasix adlana bilər ki, həmin mövzuda bundan əvvəl gəlmiş ayəni bütünlükdə rədd etsin və onun əksinə olan hökmü qüvvəyə mindirsin. Halbuki, məstedici içki barədəki ayələrin hər biri yalnız məsələyə müxtəlif müstəvilərdən baxışı ortaya qoyur, onlar bir-birinə zidd deyillər. Sadəcə olaraq, ayələrin hər biri içki içməyin bəyənilməz iş olduğunu fərqli üsullarla çatdırır, son nöqtəni isə Maidə surəsinin 90-cı ayəsi qoyur.

Bunu daha asan bir misalla göstərək. Fərz edək ki, bir insana deyirlər: «Qonşuda yaşayan filankəsgilə getmə!». Sonra ona tapşırırlar: «Günorta vaxtı evdən kənara çıxma!». Axırda isə deyirlər: «Ümumiyyətlə, evdən kənara çıxma!». Məgər bu tapşırıqların birbirini rədd etdiyini söyləyə bilərikmi? Məgər «qonşuya getmə» əmri ilə bu nəzərdə tutulub ki, qonşudan başqa hər hansı yerə getmək olar? Məgər «günorta evdən çıxma» əmri ilə günün başqa vaxtlarında evdən çıxmağa icazə verildiyini iddia edə bilərikmi? Əvvəlki iki qadağan sonuncu qadağanın yarımçıq və qismən ifadə olunmuş variantıdır.

Məsteidici içki İslamda murdar sayılır. Onu istər çox, istərsə də sərxoşluq gətirməyəcək dərəcədə az miqdarda içmək günahdır. Çünki İslam qanunlarına görə, haram elan olunmuş şeyin bir zərrəsi də haramdır. Məstedici içkidən hətta müalicə məqsədilə olsa belə, istifadə etmək olmaz. Müalicə məqsədilə az miqdarda məstedici içki içmək barədə soruşan şəxsə İmam Cəfər Sadiq (ə) belə cavab vermişdi: «İzzətli və cəlallı Allah haram buyurduğu şeyi heç vaxt dərman və şəfa vasitəsi etməz».

N.R.

XƏNNAS

İnsanın duyğu və düşüncələrini pozmağa çalışan, onu Allahdan uzaqlaşdıran, pis fikirləri insana təlqin edən vəsvəsəçi şeytan.

M.İ.

XƏTM

Sona çatma, bitirmə. Fatihə surəsindən başlayaraq Nas surəsinə kimi bütöv Quranı üzündən və ya əzbər oxumağa deyilir.

M.İ.

XİLAFƏT

Ərəb dilindən tərcüməsi «əvəz etmək, yerini tutmaq, canişin olmaq» deməkdir. Dini termin olaraq, bir hakim (xəlifə) tərəfindən idarə olunan mərkəzləşdirilmiş İslam dövləti mənasını verir. Xilafətin başçısına (hakiminə) xəlifə deyirlər. Xəlifə – Həzrət Mühəmməd Peyğəmbərdən (s) sonra müsəlmanlara başçılıq edən, yəni Peyğəmbərin yerini tutan, Ona canişinlik edən şəxsdir. «Xilafət» sözünün lüğəti tərcüməsi də buna əsaslanır.

Həzrət Mühəmməd Peyğəmbər (s) müsəlmanların həm dini, həm də siyasi lideri idi. Onun vəfatından sonrakı xəlifələr isə yalnız siyasi rəhbərliyi həyata keçirirdilər. Xəlifəyə *«əmirül-möminin»* (möminlərin başçısı, hakimi) ləqəbi ilə müraciət edilirdi. Aydındır ki, buradakı əmirlik – dünyəvi və siyasi məsələlərdə müsəlmanlara hökm vermək mənasını ifadə edir.

İslam Peyğəmbərinin vəfatından sonrakı 30 il ərzində müsəlmanlara rəhbərlik etmiş dörd *raşidi xəlifəsinin* zamanında xilafət ərazisi xeyli genişləndi. İran, İraq, Azərbaycan, Şam (Suriya), Misir, Şimali Afrika torpaqları müsəlmanlar tərəfindən fəth edildi. Lakin üçüncü xəlifə *Osman ibn Affanın* hakimiyyətinin son dövründə və dördüncü xəlifə *Əli ibn Əbu Talibin* (ə) hakimiyyət illərində xilafəti qarşıdurma və vətəndaş müharibəsi bürüdü. Bundan sonra hakimiyyətə gəlmiş *Əməvi* və *Abbasi* sülalələri xilafətin simasını dəyişdirib, onu səltənətə (imeriyaya) çevirdilər. Xəlifəlik irsən ötürülməyə başladı, əvvəllər məsləhət üzərində qurulan hökumət sistemi mütləq monarxiya ilə əvəz olundu.

Siyasi güc baxımından xilafətin ən parlaq dövrü Əməvilər zamanına və Abbasilərin hakimiyyətinin əvvəllərinə təsaduf edir. Xilafət hələ xırda dövlətlərə parçalanmamışdı, bütün torpaqlar vahid mərkəzdən idarə edilirdi, qonşu dövlətlərə (xüsusilə, Bizansa) qarşı aparılan hərbi əməliyyatlar böyük uğur gətirirdi.

945-ci ildə Büveyhilərin Bağdadı ələ keçirməsi nəticəsində Abbasi xəlifələri öz müstəqilliklərini itirdilər. Bundan sonrakı 200 il ərzində onlar formal olaraq dünya müsəlmanlarının rəhbəri sayılsalar da, əslində Büveyhilərin, sonra isə Səlcuq sultanlarının vassalı kimi yaşayırdılar. 1258-ci ildə Hülaku xanın başçılıq etdiyi monqol ordusu

Bağdadı ələ keçirdi, sonuncu xəlifə Müstəsim öldürüldü.

Bundan sonra Misirdə hakimiyyət sürən məmlüklər Abbasilər nəslinin sağ qalmış nümayəndəsi Müstənsirə sığınacaq verdilər. Xilafət artıq mövcud olmasa da, məmlüklərin himayəsi altında yaşayan Müstənsir və onun xələfləri özlərini yenə xəlifə sayırdılar. Nəhayət, 1517-ci ildə məmlükləri məğlub edən, Ərəbistana yiyələnən, Məkkə və Mədinə şəhərlərini ələ keçirən Osmanlı sultanı Səlim sonuncu Misir xəlifəsini İstanbula gətizdirdi. Deyilənlərə görə, bundan sonra xəlifə öz vəzifəsindən istefa verərək, sultan Səlimi xəlifə olaraq tanımışdı. Hər halda, həmin vaxtdan etibarən 1924-cü ildə Türkiyədə xilafət rəsmi olaraq Atatürk hökuməti tərəfindən ləğv edilənə kimi Osmanlı sultanları özlərini xəlifə, başçılıq etdikləri dövləti də xilafət adlandırırdılar.

İlk üç raşidi xəlifəsinin dövründə xilafətin mərkəzi *Mədinə* şəhəri idi. Sonralar Həzrət Əli (ə) paytaxtı *Kufə* şəhərinə köçürdü. (Əli (ə) indiki İraq ərazisində apardığı döyüşlərə nəzarət edə bilmək üçün paytaxtı müharibə səhnəsinə yaxın bir yerə köçürməyə məcbur olmuşdu). Əməvilər zamanında *Dimaşq*, Abbasilər dövründə isə *Bağdad* şəhəri (*Samirə* şəhərinin paytaxt olduğu müddəti çıxmaq şərti ilə) xilafətin mərkəzi olmuşdur.

Tarixi mənbələrdə xilafətin tarixini Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatı (632-ci il) ilə başlayır, 1258-ci ildə monqolların Bağdadı ələ keçirməsi ilə yekunlaşdırırlar. Raşidi xəlifələrinin, Əməvi və Abbasi sülalələrinin zamanındakı müsəlman dövləti bütün tarixçilər tərəfindən xilafət kimi qəbul edilir. Bundan əlavə, Abbasilər zamanında paralel şəkildə Əndəlusda (Pireney yarımadası) mövcud olmuş dövləti də Əndəlus (Kordova) xilafəti (929-1031) adlandırırlar. 756-cı ildə Əməvilər soyuna mənsub olan Əbdürrəhman adlı şəxs Abbasi təqibindən qaçaraq, Əndəlusda müsəlmanların fəth etdikləri ərazini öz hakimiyyəti altında birləşdirməyə nail oldu. Kordova əmirliyi ilk dövrlərdə nominal şəkildə Abbasi xilafətinin bir hissəsi sayılırdı. 929-cu ildə Kordova əmiri III Əbdürrəhman Abbasi xilafətinin zəifləməsindən istifadə edərək, Bağdada tabe olmaqdan boyun qaçırdı və özünü xəlifə elan etdi. Təqribən 100 il yaşamış Kordova xilafəti axırda xırda əmirliklərə parçalandı. Bəzi mənbələrdə Fatimilər dövləti (909-1171) də xilafət adlandırılır.

Xilafətə kimin rəhbərlik etməsi məsələsində sünni və şiə məzhəblərinin görüşləri fərqlidir. Əhli-sünnə məzhəbi baxımından, Həzrət Mühəmməd Peyğəmbər (s) sağlığında öz xəlifəsini (canişinini) təyin etməmiş, bunu ümmətin öhdəsinə buraxmışdı. Onun vəfatından sonra müsəlmanlar *Əbu Bəkrə* beyət edərək, onu xəlifə kimi tanıdılar. Əbu Bəkr vəfat edərkən özündən sonra *Ömər ibn Xəttabın* xəlifə olmasını vəsiyyət etdi. Ömər isə özündən sonrakı xəlifəni seçmək səlahiyyətini 6 məşhur səhabədən ibarət şuraya həvalə etdi; şura *Osmanı* xəlifə olaraq tanıdı. Osmanın qətlindən sonra müsəlmanlar könüllü surətdə *Əli ibn əbu Talibi* (ə) hakimiyyətə gətirdilər. Əli (ə) qətlə yetirildikdən sonra isə oğlu *İmam Həsənin* (ə) qısamüddətli hakimiyyətindən sonra *Müaviyyə* hiylə və zor gücünə xilafəti ələ keçirdi; bununla da Əməvilər xilafətə gəlmiş oldular. Monarxiya sistemi əsasında xilafəti irsən bir-birinə ötürən Əməviləri yenə həmin yolu izləyən Abbasilər əvəz etdilər.

Şiə məzhəbinin əqidə əsaslarına görə isə, Həzrət Mühəmməd Peyğəmbər (s) Əli ibn Əbutalibi (ə) öz canişini və xəlifəsi olaraq dəfələrlə ümmətə tanıtdırmış, xüsusilə, vəfatından iki ay əvvəl sonuncu həcc səfərindən qayıdarkən *Qədir-Xümm* çölündə bu məsələni israrla müsəlmanların diqqətinə çatdırmışdı. Ona görə də şiə məzhəbində ilk üç raşidi xəlifəsinin hakimiyyəti qanuni sayılmır. Əməvi və Abbasi xəlifələri də xilafəti Əhli-beyt imamlarının əlindən aldıqları üçün, qəsbkar sayılırlar.

N.R.

XİRQƏ

Sufilərin geyindiyi, xırda parça tikələrindən və zolaqlarından tikilən, astarı adətən qoyun dərisindən, bəzən də xəzdən olan geyimdir. Sufi təsəvvüf aləminə daxil olmaq üçün bəzi imtahanlardan uğurla çıxdıqdan

sonra təriqət başçısı tərəfindən ona xirqə bağışlanırdı.

Sufilər xirqə geyindirmək ənənəsinin Həzrət Mühəmməd Peyğəmbər (s) dövründən qaldığını iddia edirlər. Bəzi məlumatlara görə, Peyğəmbər bir neçə köynəyin parçalarından qara rəngli geyim hazırlamış və Ümmi-Xalid adlı qadına geyindirmişdi; bununla da xirqə geyindirmək dəbinin əsasını qoymuşdu (bax: *İbn Əsir. Üsüdül-ğabə, V, 579*).

Sufi mənbələrində üç cür xirqədən söhbət açılır: iradət xirqəsi, təbərrük xirqəsi və vəlayət xirqəsi.

İradət xirqəsini müəyyən səviyyəyə çatmış müridin əyninə *mürşid* geyindirir. *Mürid* təsəvvüf yolunda əldə etdiyi nailiyyətlərə uyğun olaraq iradət xirqəsini özü qazanır.

Təbərrük xirqəsini mürid öz mürşidindən xahiş edir. Yəni şeyxə qarşı duyduğu məhəbbət üzündən, ondan bir xatirə və yadigar olaraq xirqəsini istəyir. Əgər mürid bu cür hədiyyəyə layiqdirsə, mürşid təbərrük xirqəsini ona bağışlayır.

Vəlayət xirqəsini isə mürşid özündən sonra canişin kimi görmək istədiyi və müridlər arasında ən üstün bildiyi şəxsə rəhbərlik rəmzi kimi verir.

İlk dövrlərdə sufilər yalnız ağ rəngdə xirqə geyinirdilər. Sonralar başqa rəngli (xüsusilə, mavi və göy) xirqə geyinməyə başladılar.

Təsəvvüf aləmində həm xirqə geyinənin, həm də xirqə geyindirənin bəzi xüsusiyyətlərə sahib olması şərt sayılır. Məşhur sufi Nəcməddin Kübra bu barədə yazır: «Hər kim bu yolu getmək fikrinə düşsə və xirqə geyinmək istəsə, gərək *şəriət*, *təriqət* və *həqiqət* elmlərini yaxşı bilən, şəriət əsaslarına alim, təriqət dəblərinə arif və həqiqət sirlərinə vaqif olan pirin əli ilə xirqə geyinsin. Mürid isə xirqəni geyinərkən dərk etməlidir ki, onu qoruyacaq, təriqətin məşəqqət və çətinliklərinə, həqiqət əhlinin mücahidələrinə dözəcək və xirqə daşımaq şərəfinin öhdəsindən gələ biləcək».

Sufilik aləmində xirqə – təriqətin qədimliyini və mötəbərliyini göstərən simvol sayılır. Məsələn, məşhur sufi Məruf Kərxinin öz xirqəsini İmam Rzadan (ə), Bayezid Bistaminin isə İmam Sadiqdən (ə) aldığını söyləyirlər.

N.R.

XOVF və RƏCA

Ərəb dilindən tərcümədə xovf – qorxu, rəca – ümid deməkdir. İslam əxlaqına görə, müsəlman bütün məsələlərdə ifrata və təfritdən uzaq olmalı, orta yolu tutmalıdır. Allaha münasibətdə də müsəlmanın vəzifəsi budur ki, həm Allahın əzabından qorxsun, həm də Onun mərhəmətinə umid etsin. Birinciyə xovf (qorxu), ikinciyə isə rəca (ümid) halı deyirlər. İnsan həmişə öz xeyir əməllərini az, günahlarını isə çox bilməlidir. Allahın qəzəbinə tuş gəlməmək üçün davranışında diqqətli olmalıdır. Amma ilahi mərhəmətdən naumid olmaq da düzgün deyil. Çünki Allah Rəhman və Rəhimdir, günahları bağışlayan, eyibləri gizlədən, tövbələri qəbul edəndir.

Xovf və rəca halında olan insan bütün əməllərində gözəl bir tarazlıq qurmuş olur. Çünki əgər insan Allahdan qorxmasa, yalnız Onun mərhəmətinə inansa, qudurğanlıq edər, heç bir günahdan çəkinməz. Düşünər ki, hər nə etsə də, Allah onu bağışlayacaq. Əksinə, əgər Allahın mükafatından ümidini üzsə, yalnız qorxu içində yaşasa, bədbinliyə düçar olar, gələcəyə inamı, yaşamağa həvəsi qalmaz. Belə adam heç kəsə yaxşılıq etməz. Fikirləşər ki, onsuz da cəhənnəmə düşəcəyəm, xeyirxah işlər görməyimin mənə heç bir faydası dəyməyəcək.

Buna görə də, İmam Cəfər Sadiq (s) buyurub: «Elə bir mömin yoxdur ki, ürəyində xovf və rəca adlı iki nur olmasın. Bunların hansı birini ölçsən, o birindən ağır gəlməz *(yəni ikisi də bərabər olar)*».

Deyirlər ki, hikmət və elm mənbəyi olan Loğman öz oğluna belə vəsiyyət etmişdi: «Allahdan elə qorx ki, sanki üst-üstə bütün insanların və cinlərin savabları qədər savabla Onun hüzuruna gəlsən, yenə sənə əzab verəcək. Həmçinin, Allahın mərhəmətinə elə ümidvar ol ki, sanki üst-üstə bütün insanların və cinlərin günahı qədər günahla Onun dərgahına gəlsən, yenə səni bağışlayacaq».

Qəzzali «Ehyaü ülumid-din» kitabında ikinci xəlifə Ömər ibn Xəttabın belə söylədiyini xəbər verir: «Əgər mənə desələr ki, bütün insanlar cəhənnəmə, bircə nəfər isə cənnətə düşəcək, o bir nəfərin mən olacağına ümid edərəm. Əgər xəbər versələr ki, bütün insanlar cənnətə, bircə nəfər isə cəhənnəmə aparılacaq, o bir nəfərin də mən olacağından qorxaram».

Təsəvvüf ədəbiyyatının ən məşhur nümunələrindən sayılan «Misbahul-hidayə» kitabında yazılıb: «Xovf və rəca haqq yolçusu üçün iki ayaq kimidir, onların vasitəsilə mənzil və mərhələləri keçir. Haqq yolçusu gah xovf qədəmi ilə fitri ətalət təhlükələrini ötüb-keçir, gah da rəca qədəmi ilə məyusluq və kədər girdablarını arxada buraxır».

N.R.

XÜL TALAĞI

bax: *talaq.*

XÜMS

Ərəb dilindən tərcüməsi «beşdən-bir hissə» deməkdir. İnsanın müəyyən şərtlər daxilində yiyələndiyi əmlak və ya puldan dini vergi kimi ödəməli olduğu beşdən-bir hissəyə deyilir.

Qurani-kərimdə xüms barədə buyurulur: «Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin bir-biri ilə qarşılaşdığı gün *(Bədr günü)* bəndəmizə *(Mühəmmədə)* nazil etdiyimizə *(ayələrə)* iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdən-biri Allahın, Peyğəmbərin, Onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirlərindir *(pulu qurtarıb yolda qalan yolçularındır).* Allah hər şeyə qadirdir» *(Ənfal, 41).*

Şiə və sünni məzhəbləri arasında xümsün hansı əmlaka şamil olduğu və hara xərclənməsi barədə mövzusunda fikir ayrılıqları vardır.

Cəfəri məzhəbinə görə, xüms aşağıdakı hallarda vacib olur:

İnsanın işləyib-qazandığı maldan və puldan bir il ərzində özünün və ailəsinin ehtiyaclarından artıq qalan hissənin xümsü verilməlidir. Əhli-sünnə məzhəblərinə görə, buna xüms şamil edilmir.

Cəfəri məzhəbinə görə, yeraltı mədənlərdən əldə edilən süxurların və qiymətli daşların miqdarı *nisab* həddinə çatarsa, xümsü verilməlidir. Əhli-sünnə məzhəblərindən hənəfiliyə görə, mədəndən əldə edilənlərin nisab həddinə çatması şərt deyil, hər bir halda xümsü ödənməlidir. Şafii, maliki və hənbəli məzhəbləri baxımından isə nisab həddinə çatmış mədən məhsulunun xümsü 40-dan-bir hissədir.

Cəfəri məzhəbinə görə, yerin altından tapılan xəzinə və dəfinələrin də nisab həddinə çatdığı təqdirdə xümsünü vermək lazımdır. Əhli-sünnə məzhəblərinə görə, dəfinə və xəzinənin nisab həddinə çatması şərt deyil, hər bir halda xümsü ödənilir. Yerdə qalan beşdən-dörd hissə dəfinənin tapıldığı torpağın sahibinə verilir. Əgər torpaq sahibsizdirsə, dəfinəni tapan adam beşdən-dörd hissəyə malik olur.

Cəfəri məzhəbinə görə, harama qarışmış və ayrılması mümkün olmayan halal malın xümsü ödəndikdən sonra bütün mal halal olur. Həmçinin, əhli-kitabdan olan şəxs bir müsəlmandan torpaq sahəsi alsa, onun xümsünü müsəlman dövlətinin qaydalrına uyğun olaraq ödəməlidir. Bu iki maddə əhli-sünnə məzhəbində yoxdur.

Suyun dibindən tapılan mərcan, mirvari kimi qiymətli daşların da qiyməti nisab həddinə çatsa, cəfəri fiqhinə görə, ona xüms düşər. Lakin əhli-sünnə məzhəbinə görə, xüms buna şamil edilmir.

Xümsün sərf edilmə qaydalarına gəldikdə isə cəfəri məzhəbi yuxarıdakı ayəni əsas tutaraq, xümsü iki hissəyə ayırır. Bunun bir hissəsi Allaha, Peyğəmbərə və onun qohumlarına aiddir. Bu məbləği hər kəs təqlid etdiyi müctəhidə (və ya onun nümayəndəsinə) verməlidir. Əgər müctəhid bu pulun hansı istiqamətlərdə xərclənməsini məsləhət görürsə, insan müctəhidin icazəsi ilə həmin məbləği o istiqamətlərdə xərcləyə bilər. Xümsün ikinci yarısı isə *seyidlərə* aiddir. Bunu da ya müctəhidə təqdim etmək, ya da onun icazəsi ilə seyidliyi məlum olan fəqirə və ya yetimə, yaxud yolda qalıb evə qayıtmağa pulu olmayan müsafirə vermək lazımdır (hər üç halda onun seyid olması şərtdir).

Əhli-sünnə məzhəblərinin məsələyə yanaşma tərzi fərqlidir. Hənəfi məzhəbinə görə, Peyğəmbər vəfat etdiyindən, onun payı öz qüvvəsini itirib. Bun görə də xüms bütünlükdə fəqir, yetim və yolda qalan müsafirlərə verilməlidir. Peyğəmbərin qohumlarına – seyidlərə gəlincə, onlar da xüms hüququnda seyid olmayan insanlarla bərabər tutulurlar; ehtiyacları varsa (fəqirdirlərsə), onlara da xüms payı verilə bilər. Malikilər xümsün dövlət başçısına (imama) təhvil verilməsini lazım bilirlər. Hənbəli və şafii məzhəblərinə görə, xüms 5 hissəyə bölünür. Peyğəmbərə aid olan hissə müsəlman icmasının ehtiyaclarına xərclənir. Peyğəmbərin qohumlarına aid olan hissə Bəni-Haşim soyunun nümayəndələrinə (varlı ya kasıb olmalarına baxmayaraq) verilir. Yerdə qalan üç hissə fəqirlər, yetimlər və yolda qalan müsafirlər arasında (seyid olub-olmamasına baxmayaraq) bərabər bölünür.

N.R.

XÜSUF NAMAZI

bax: *ayat namazı.*

XÜTBƏ

Ərəb dilindən tərcüməsi «xitab, müraciət» deməkdir. Dini anlamda cümə və bayram günlərində, eləcə də sair günlərdə, əlamətdar hadisələrdə *axundun* (imam-cümənin) və ya dini rəhbərin camaat qarşısında etdiyi çıxış «xütbə» adlanır. Xütbə söyləyən şəxsə *xətib* deyilir. Həmçinin, bəlağətli danışığı olan, gözəl xütbə söyləyən adama da xətib deyirlər.

Həzrət Mühəmməd Peyğəmbər (s) istər məsciddə, istərsə də sair yerlərdə (məsələn, həcc ziyarətində, hərbi səfərlərdə və s.) müsəlmanlar qarşısında xütbə söyləmişdir. Bu zaman O, bəzən uca bir təpənin üstünə qalxır, bəzən ağac kötüyünə dirsəklənir, bəzən də dəvə kəcavələrindən düzəldilmiş yüksəkliyin üstündə dururdu. Sonralar Mədinə məscidində Peyğəmbər üçün minbər hazırladılar və O, məsciddə olanda xütbələri minbərdən söyləməyə başladı. Peyğəmbərimiz xütbəni uca və aydın səslə, sözləri dəqiq tələffüz etməklə söyləyirdi. Camaatın yorulmaması üçün xütbəni çox uzatmazdı. Bəzən ehtiyac yarandıqda xütbəni kəsib minbərdən enər və sonra yenidən minbərə qalxıb xütbəni davam etdirərdi. Məsələn, minbər üstündə xütbə oxuyarkən aşağı enib, nəvələri Həsənlə Hüseyni (ə) özü ilə minbərə qaldırmış, sonra xütbəsinin ardını söyləmişdi. Peyğəmbərin xütbələri İslam dininin əqidə əsaslarına, müsəlman əxlaqına, şəriət hökmlərinə, eləcə də, günün aktual dini-siyasi hadisələrinə həsr edilirdi.

Bu ənənə sonrakı dövrlərdə xəlifələr tərəfindən də davam etdirilmişdir. Xilafət ərazisindəki məscidlərdə xütbələri xəlifənin təyin etdiyi imam-cümələr və valilər söyləyirdilər. Bir qayda olaraq, bu xütbələrdə xəlifənin adı çəkilir və onun hökumətinin davamlı olması üçün dualar edilirdi. Xəlifənin adına xütbə oxumaq – onun hakimiyyətini qəbul etmək, xəlifənin adını xütbədən çıxarmaq isə ona tabesizlik elan etmək mənasını verirdi.

Cümə namazından əvvəl xütbə söyləmək bütün məzhəblərdə fərzdir. Ramazan və Qurban bayramlarının namazından sonra isə eyni qayda ilə iki xütbə söyləmək müstəhəbdir.

Cümə namazından qabaq imam-cümə ayaq üstə durmuş halda bir-birinin ardınca iki xütbə oxumalıdır. Xütbələr Allaha həmdü-səna, kəlmeyi-şəhadət cümlələri, Peyğəmbərə və nəslinə salavatla başlamalıdır. Hər iki xütbədə imam-cümə müsəlmanları təqvalı olmağa (Allahdan qorxmağa) çağırmalı, Qurani-kərimdən kiçik bir surə oxumalıdır. Yaxşı olar ki, xütbənin məzmunu həmin ölkə müsəlmanları üçün mühüm olan məsələlərə, əxlaq, iman və şəriət qaydalarına yaxud da təqvim üzrə həmin günə uyğun olan mövzuya həsr olunsun. Məsciddəkilər xütbəyə diqqətlə qulaq asmalıdırlar. Xütbələrdən dərhal sonra *cümə namazı* qılınır.

İmam Rza (ə) cümə xütbəsinin əhəmiyyəti barədə buyurub: «Cümə günü xütbə oxumağın vacib olmasının səbəbi budur ki, həmin gün camaat (namaza) toplaşır. Allah istəyir ki, müsəlmanların rəhbəri bu imkandan faydalansın, adamlara nəsihət versin, onları Allaha itaət etməyə həvəsləndirib günahdan çəkindirsin. Dini və dünyəvi həyatları üçün Allahın məsləhət bildiklərini insanlara başa salsın, dünyanın hər güşəsində baş verən yaxşı və pis hadisələrdən onları xəbərdar etsin».

N.R.

XÜTNƏ

Kişilərin cinsiyyə üzvünün ucundakı dərinin kəsilib götürülməsi. Camaat arasında buna sünnət də deyirlər.

Xütnə adəti İslamdan çox-çox əvvəllər də var idi. Onun tarixini Həzrət İbrahim Peyğəmbərlə (ə) bağlayırlar. O, Allahdan aldığı vəhyə əsasən, öz ümmətinə xütnəni vacib etdi. Yəhudi dinində sünnət vacib dini ayindir. Cahiliyyə ərəbləri arasında da xütnə dəb halını almışdı. Eramızdan əvvəl 2500-cü illərə aid olan qədim Misir divar rəsmlərində xütnə mərasimi təsvir edilib. Yunan tarixçisi Herodotun (b.e.ə. V əsr) «Tarix» əsərində qədim Misir, Finikiya və Efiopiyadakı xütnə ənənəsindən danışılır.

Həzrət Mühəmməd Peyğəmbər (s) yaşından asılı olmayaraq İslamı qəbul edən bütün kişilərə, hələ xütnə olunmamışlarsa, dərhal bunu etdirməyi tapşırırdı. Beləliklə, İslam tarixinin lap əvvəllərindən etibarən xütnə müsəlmanlığın rəmzi sayılır.

Oğlan uşağını yetkinlik yaşına çatıncaya kimi xütnə etdirmək atanın borcudur. Bu ayini uşağın körpəlik çağında yerinə yetirmək daha münasib sayılır. İslam Peyğəmbəri nəvələri Həsənlə Hüseyni (ə) doğuluşlarının yeddinci günündə xütnə etdirmişdi.

Xütnə həm şəxsi gigiyena, həm də sağlamlıq baxımından çox faydalıdır. Çünki kəsilməyən ətin büküşləri arasına sidik damcıları, kir və mikroblar yığılır; bunlar həm natəmizliyə, həm də müxtəlif uroloji xəstəliklərin əmələ gəlməsinə şərait yaradır.

Dinimizə görə, yalnız bir neçə münasibətlə ziyafət təşkil etmək məsləhət sayılır (ehsan məclislərindən savayı). Belə münasibətlərdən biri də övladın xütnə mərasimidir. Adət-ənənəyə əsasən, xütnə olunan uşağa əlvan paltar geyindirilir, yaxın qohumlardan və ya ailəvi dostlardan biri uşağın əllərini tutur ki, həkimə mane olmasın. Mərasimdən sonra həmin adama, eləcə də, xütnəni icra etmiş həkimə xələt verirlər. Məclisə gələnlər xütnə olunmuş uşağı təbrik edir, ona hədiyyə bağışlayırlar.

N.R.

İBADƏT

İslam tarixi boyunca ibadətə müxtəlif təriflər verilmişdir. Həm lüğət alimləri, həm mütəkəllimlər (kəlamçılar), həm fəqihlər (fiqh mütəxəssisləri), həm də irfan sahibləri ibadətin mənasını açmağa çalışmışlar. Məşhur filosof İbn Sina ibadətə belə tərif vermişdir: «İbadət – xüzunun *(həddsiz təvazö və qarşı tərəfə həddsiz ehtiramın)* və özünü əskik saymağın ən son həddidir» (bax: *Türeyhi. Məcməül-bəhreyn, III, 92*). Xacə Nəsirəddin Tusi «Əxlaqi-Nasiri» əsərində hikmət sahiblərinin ibadəti üç qismə ayırdıqlarını qeyd edir: a) Birinci növ ibadət – bədənlə yerinə yetirilməsi vacib olan namaz, oruc, həcc kimi əməllərdir. b) İkinci növ ibadətlərin icrası ruh üçün vacibdir. Allahın varlığına və vahidliyinə düzgün etiqad bəsləmək, Ona layiqli şəkildə həmdü-səna etmək, öz şüur imkanları çərçivəsində Allahın barəsində düşünmək və bu bilikləri genişləndirmək bura aiddir. c) Üçüncü ibadət isə insanlar arasında ictimai əlaqələr zamanı icra edilməlidir. Məsələn, müamilat, nikah, cihad, əmr bil-məruf və nəhy ənil-münkər.

XX əsrdə yaşamış böyük müsəlman mütəfəkkiri Seyid Əbül-əla Movdudi «Quranın 4 əsas termini» adlı kitabında «ilah», «rəbb», «din» və «ibadət» anlayışları barəsində geniş söhbət açmış, ibadətin lüğəvi mənaları və Qurani-kərimdə ibadət məfhumunun əhatə etdiyi mənaları açıqlamışdır. Movdudi yazır: «Ərəb dilində «übudət», «übudiyyət» və «əbdiyyət» kəlmələrinin əsl mənası – boyun əymək və əskilməkdir. Yəni bir kəsin qarşısında heç bir müqavimət göstərmədən, üsyana qalxmadan və üz çevirmədən, onun istədiyi xidməti icra etməkdir... «Əbidə» sözünün əsl mənası – bir kəsin üstünlüyünü qəbul edərək, onun müqabilində öz müstəqillik və azadlığından imtina etmək, üsyan və müqaviməti buraxaraq itaətə hazır olmaqdır. Həqi qulluq və kölələk də yalnız budur. Buna görə də, hər bir ərəb «əbd» sözünü eşidərkən, beynində kölələk

təsəvvürü yaranır. Kölənin əsas vəzifəsi öz ağasına itaət etmək və əmrlərini yerinə yetirmək olduğu üçün kölələk mənası ilə yanaşı, itaət mənası da istər-istəməz ağla gəlir. Eyni zamanda, kölə öz ağasına qulluq və itaət etməklə kifayətlənmir, onun üstünlüyünə inanır, böyükluyünü etiraf edir, etdiyi yaxşılıq və ehsanat müqabilində minnətdarlıq hissi duyur. Beləliklə də, öz ağasına ehtiram və təzimdə ifrata vararaq, ona hər növ qulluqlar edir. Bu davranışa pərəstiş *(tapınma)* deyilir. Kölə yalnız başı ilə deyil, qəlbi ilə də ağasının qarşısında boyun əyərsə, həqiqi mənada ona qulluq etmiş olur» (Movdudi. Quranın 4 əsas termini, səh. 103-105).

Rağib İsfahani ibadəti özünü əskik saymağın və itaətin son həddi kimi dəyərləndirərək yazır: «Buna görə də kamillik və fəzilətin ən üstün həddində olan zatdan savayı heç kim pərəstişə layiq deyil. Bu zat isə yalnız Allah-təaladır. Quranda buyurulur: «O, sizə yalnız Ona ibadət etmənizi buyurmuşdur» *(Yusif, 40)*» *(Rağib İsfahani. Əl-Müfrədat, II, 540-541)*.

Mərhum Əllamə Təbatəbai «əl-Mizan» təfsirində ibadətin mənasını xüzu ilə məhdudlaşdırmağın əleyhinə çıxaraq qeyd edir ki, xüzu ibadət üçün tələb edilən şərtlərdən yalnız biridir: «Hər halda, ibadətin həqiqəti budur ki, bəndə özünü Allahın mülkü saysın» *(Əllamə Təbatəbai. Əl-Mizan fi təfsiril-Quran, I, 28)*.

Əllamə Təbrisi də «Məcməül-bəyan» təfsirində ibadəti xüzu ilə məhdudlaşdırmağı düzgün saymır və qeyd edir ki, ibadət – təzimlə yanaşı olan xüzudur. Buna görə də, möminin mömin qarşısında, övladın valideyn qarşısında özünü əskik tutması *(xüzu halında olması)* ibadət sayılmaz. Çünki bu, təzim və pərəstiş etməkdən doğan əskiklik deyil, sevgi və mərhəmətdən yaranan əskiklikdir.

Böyük alim Ayətullah Cəfər Sübhani ibadətə verilmiş təriflərı incələyərək bu qərara gəlir ki, ibadəti təzimlə və ya xüzu ilə məhdudlaşdırmaq düzgün deyil. Əgər ibadət xüzudan ibarət olsaydı, Allah-təala övladları valideynlə münasibətdə təvazö və xüzunun son həddində durmağa təşviq etməzdi *(İsra, 24)*. Belə bir xüzu ibadət sayılsaydı, övladlar öz valideynlərinə ibadət etmiş olardılar.

Həmçinin, əgər ibadət yalnız təzimdən ibarət olsaydı, Allah Adəmin qarşısında mələklərin səcdə etməsini buyurmaz *(Bəqərə, 34)*, Həzrət Yəqub Peyğəmbər (s) öz oğlu Yusifin (ə) qarşısında səcdə etməzdi *(Yusif, 100)*. Çünki bu halda Allah özü mələkləri Ona şərik qoşmağa çağırmış olar, Həzrət Yəqub (ə) da Allaha şirk etmiş sayılardı.

Deməli, ibadətdə xüzunun mövcudluğu inkaredilməz olsa da, xüzu etməyin səbəbi (niyyəti) konkret bəlli olmalıdır. Ayətullah Sübhani bunu nəzərə alaraq, ibadətə belə tərif verir: «İbadət elə bir varlıq qarşısında xüzudur ki, həmin varlığı tanrı, ya da tanrıya məxsus işlərin mənbəyi hesab edirik» *(Cəfər Sübhani. Vəhabilik ayini, səh. 207)*. Aşağıdakı ayələrdə də Allaha ibadətin zəruriliyinin səbəbi Onun tanrı (ilah) olması ilə əlaqələndirilir: «Biz Nuhu öz tayfasına *(peyğəmbər)* göndərdik. O dedi: «Ey camaat! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur» *(Əraf, 59)*. Həzrət Hud və Şüeyb Peyğəmbərlər də öz qövmlərinə oxşar sözlərlə müraciət etmişdilər *(Əraf, 73 və 85; Hud, 61 və 84)*. Allah-təala Həzrət Musaya ilk vəhyi göndərərkən belə buyurmuşdu: «Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və məni anmaq üçün namaz qıl» *(Ta-Ha, 14)*. Başqa bir ayədə isə Allah-təala belə buyurur: «Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: «Allahdan başqa heç bir tanrı yoxdur; buna görə də yalnız mənə ibadət edin» – deyə, vəhy etməyək» *(Ənbiya, 25)*.

Ariflər yanında ibadətin üç mərtəbəsi var. Möminlərin aşağı təbəqəsi axirət savabına ümid və əzabdan qorxu niyyəti ilə ibadət edir. Bəziləri ona görə Allaha ibadət edirlər ki, bəndəlik şərəfi qazansınlar və Allah onları öz bəndəsi adlandırsın. Bəziləri isə Allahın heybət və cəlalına görə, Onu sevdikləri üzündən Ona ibadət edirlər. Bəndəliyin ən uca mərtəbəsi də sonuncudur *(Seyid Cəfər Səccadi. İrfani söz, termin və ifadələr lüğəti, səh. 567)*. Bu, Həzrət Əli ibn Əbu Talibin (ə) aşağıdakı hədisi ilə səsləşir: «Bir dəstə Allaha tamah *(rəğbə)* üzündən ibadət edir; bu, tacirlərin ibadətidir. Bir dəstə Allaha qorxu *(rəhbə)* üzündən ibadət edir; bu, kölə-

lərin ibadətidir. Bir dəstə də Allahı ibadətə layiq bilib ibadət edir; bu, azad *(hürr)* adamların ibadətidir» *(Nəhcül-bəlağə, 234-cü hikmətli kəlam).*

İbadət hər kəsin Allah qarşısında bəndəlik borcudur. Allah-təala bütün kainatı insandan ötrü yaradıb, insanın ixtiyarına verib. Torpağın üstündə və altında, havada, quruda və suda insanın rifahı və rahatlığı üçün saysız nemətlər yaradıb. Bəşəriyyəti nəzarətsiz qoymayıb, peyğəmbərlər göndərib, kitablar nazil edib. Həyatı yalnız bu dünya ilə məhdudlaşdırmayıb, axirətdə əbədi və xoşbəxt həyat qazanmaq üçün insana imkanlar verib. Bütün bunların müqabilində Allaha şükr və minnətdarlıq hissi ilə ibadət etməsək, nankorluq etmiş olarıq. Allah-təala Quranda ibadətin vacibliyini bu şəkildə vurğulayır: «Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, təqvalı olasınız!» *(Bəqərə, 21).* «Mən cinləri və insanları yalnız mənə ibadət etmək üçün yaratdım» *(Zariyat, 56).*

Allah bizim ibadətlərimizə ehtiyaclı deyil. İnsanlar Ona ibadət etsələr də-etməsələr də, Allahın böyüklüyündən heç nə əksilməz. İbadətin faydası yalnız ibadət edənin özünə aiddir. Bəndə Allaha ibadət etməklə həm mənən ucalır, həm də savab qazanır. Allah elə mərhəmətlidir ki, bizim ibadətlərimiz üçün də bizə savab yazır.

İbadətlər *fərz* (qəti vacib) və *müstəhəb* (sünnət, məndub) olmaq etibarilə əsasən, iki qrupa bölünür. Yetkinlik yaşına çatmış, əqli cəhətdən normal olan hər kəs fərz ibadətləri yerinə yetirməlidir Fərz ibadətlər şəriətdə təyin olunmuş şəkildə və sayda icra edilir.

Müstəhəb ibadətlərdə isə say şərt deyil, mühüm olan keyfiyyətdir. Yəni insan müstəhəb ibadətləri az sayda, amma ruh yüksəkliyi və səmimiyyətlə yerinə yetirsə, həvəssiz və süst halda icra edilən çoxlu ibadətdən daha artıq savab qazanar. Ümumiyyətlə, ibadət insana yorğunluq gətirəcək və onu bezdirəcək həddə olmamalıdır; belə ibadəti Allah bəyənməz və qəbul etməz. Əksinə, ibadətin əsas məqsədlərindən biri insana mənəvi rahatlıq və sakitlik gətirməkdir. İslam bütün həyatda olduğu kimi, ibadətdə də insana orta yolu izləməyi, ifrat və təfritlərdən çəkinməyi tövsiyə edir.

İslamda ibadət məfhumu çox genişdir. O, insan həyatının bütün sahələrini əhatə edir. Allahın qanunlarına uyğun olan, Allahın əmrlərini yerinə yetirmək və onun razılığını qazanmaq məqsədilə icra edilən hər bir səmimi niyyətli əməl ibadət sayıla bilər. Öz dilini pis sözlərdən, söyüş və qeybətdən saxlamaq, ticarət məsələlərində düzgünlüyə riayət etmək, qohumlarla mehriban və ədalətli münasibət qurmaq, ehtiyacı olanlara yardım göstərmək, dərdli insanlara şirin sözlə də olsa təsəlli vermək, özünün və ailə üzvlərinin dolanışığını halal zəhmətlə təmin etmək və s. – bütün bunlar özü-özlüyündə ibadətdir. Allaha dua və zikr etmək, halal ruzi qazanmaq, elm öyrənmək və onu başqalarına öyrətmək, hətta ədəblə salam verib salam almaq da dini mənbələrdə ibadət kimi xatırlanır. Bu baxımdan, ibadət İslam hüququ, əxlaq kimi sahələrlə sıx əlaqəlidir. Əgər bütün həyatımızı bu prinsip əsasında qursaq, yəni hər bir hərəkətimizə Allaha ibadət kimi baxsaq, məsuliyyətimiz daha da artar; bu da son növbədə bizim öz xeyrimizədir. Quran bizim diqqətimizi məhz bu məsələyə yönəltməyə çalışır ki, əsl mömin hər bir hərəkətini Allaha xatir yerinə yetirilmiş ibadət kimi dəyərləndirməlidir: «De: «Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!» *(Ənam, 162).*

Həzrət Əli ibn Əbu Talibin (ə) hədislərində ibadətin bir neçə şərti göstərilib: «İxlas ibadətin meyarıdır». «Davamlı olan az ibadət ardı kəsilən çox ibadətdən daha yaxşıdır». «Elmsis ibadət edən şəxs dəyirman daşına bağlanmış uzunqulaq kimidir; hərlənər, amma durduğu yerdən uzağa gedə bilməz». «İbadətin ən üstünü mədənin *(qarnın)* və cinsiyyət üzvünün haramdan uzaq olmasıdır». «Qəlblərin iqbalı *(yüksəliş dövrü)* və idbarı *(süstlük dövrü)* var. İqbal dövründə onu nafilə ibadətlərlə yükləyin. İdbar vaxtında isə yalnız fərz ibadətlərlə kifayətlənin» *(Nəhcül-bəlağə, 318-ci hikmətli kəlam).* Burada insanın bioritmləri nəzərdə tutulur. Tibb elmi də sübut edir ki, gün ərzində insanın əhval-ruhiyyəsi və daxili orqanlarının fəaliyyəti bəzən yüksək həddə çatır, bəzən isə çox passiv olur.

Hədislərdə gizli edilən ibadətin ən çox savaba layiq olduğu vurğulanır. Çünki bu ibadətə riyanın qarışması ehtimalı azdır.

N.R.

İCAZƏ (İCAZƏT)

İslam tədris tarixində özünə geniş yer qazanmış bir ənənədir. Dini elmləri mükəmməl mənimsəmiş və ali ruhani dərəcəsinə çatmış şəxs təhsilin sonunda öz ustadından icazə alır ki, ondan öyrəndiklərini başqalarına öyrətsin. İcazə adətən yazılı, bəzən isə şifahi formada verilir. İcazətnamə adlı sənəddə ustad öz tələbəsinə bundan sonra müstəqil şəkildə tədrislə məşğul olmağa rüxsət verdiyini bildirir, ona xeyir-dua verir, sənədi öz möhrü ilə təsdiq edir. İcazənin ən geniş yayılmış formaları fiqh icazəsi və hədis rəvayəti icazəsidir. Fiqh icazəsi, onun verildiyi şəxsin ictihad dərəcəsinə çatdığını təsdiq edən sənəd sayılır. Bu icazəyə layiq görülən tələbə artıq özü müstəqil olaraq ictihad edə bilər. Əgər tələbə öz ustadından fiqh elmini tam şəkildə mənimsəmişsə, ona tam (külli) ictihad icazəsi verilir. Amma əgər ustad öz tələbəsinə fiqh elminin yalnız bəzi qisimlərini tədris etmişsə, yalnız həmin qisimlərdə ictihad etmək icazəsini verir.

Hədis rəvayəti üçün verilən icazətnamələrdə bir qayda olaraq, ustad öz tələbəsinə tədris etdiyi hədis kitablarının adlarını sadalayır və həmin kitablardakı hədisləri sənəd zənciri ilə rəvayət etmək səlahiyyətini tələbəyə həvalə edir. Bəzən tələbə bir deyil, bir neçə ustaddan icazətnamə alır. Bəzi müsəlman alimlərin onlarla, hətta yüzlərlə sayda ustaddan fiqh və hədis rəvayəti üzrə icazə alması faktları məlumdur. Məsələn, XX əsrin böyük ruhani simalarından olan Ayətullahül-üzma Seyid Şihabəddin Nəcəfi Mərəşi həm şiə, həm də sünni məzhəbinə mənsub 200 nəfərdən artıq alimdən hədis rəvayəti icazəsi almışdı.

İslam tarixi boyunca həm xırda, həm də iri həcmli minlərlə icazətnamə mətni yazılıb. Bəzi müəlliflər öz əsərlərində bir neçə icazətnaməni toplayaraq, buna «əl-İcazat» adı vermişlər. Məsələn, «Biharül-ənvar» adlı fundamental hədis məcmuəsinin bir neçə yüz səhifədən ibarət olan son cildində müxtəlif alimlər tərəfindən öz tələbələrinə verilmiş xeyli icazətnamə toplanıb.

N.R.

İCMA

Ərəb dilindən tərcümədə «birləşmək» mənasını verir. Fiqh üsulu (İslam hüquq metodologiyası) terminologiyasında Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatından sonra eyni dövrdə yaşamış müctəhid alimlərin müəyyən bir şəriət məsələsinin hökmü haqqında həmfikir olmalarıdır. Bunun əsas dəlillərindən biri Peyğəmbərin aşağıdakı hədisidir: «Ümmətim xəta və ya zəlalət üzərində birləşməz» (yəni müsəlman ümməti yekdilliklə xətaya və ya zəlalətə düşməz; mütləq bu kimi hallara etiraz edən olar).

İcma aşağıdakı şərtlər daxilində etibarlı sayılır: 1. Həmrəy olan şəxslər müctəhid olmalıdırlar; 2. Eyni əsrdə yaşayan bütün müctəhidlər həmfikir olmalıdır; 3. Müctəhidlər müsəlman olmalıdırlar. Qeyri-müsəlman şərqşünasların irəli sürdükləri fikirlərin icmaya aidiyyatı yoxdur; 4. İcma Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatından sonrakı dövrdə olmalıdır; 5. Bütün müctəhidlərin həmfikir olduqları məsələ fiqh və şəriət mövzusunda olmalıdır.

İcmanın aşağıdakı növləri vardır:

Sərih (açıq-aşkar) **icma.** Eyni əsrdə yaşamış bütün müctəhidlərin bir məsələnin hökmünə dair öz fikirlərini tək-tək izah etmələri ilə yaranan fikir birliyinə deyilir.

Sükuti icma. Hər hansı məsələ haqqında bir və ya bir neçə müctəhid öz fikrini səsləndirdikdən sonra bundan xəbərdar olan digər müctəhidlərin, düşünmək üçün kifayət qədər vaxt keçməsinə baxmayaraq, etiraz etmədən sakit durmalarına deyilir.

Müsəlman alimlərin böyük əksəriyyətinə görə, sərih icma qəti dəlil ifadə edir və ona tabe olmaq vacibdir. Sükuti icmanın qəti dəlil olub-olmaması barədə alimlər arasında fikir ayrılığı vardır. Maliki və şafii məzhəblərinə görə, alimlərin sükut etməsi ilə icma əmələ gəlməz; ona görə də, sükuti icma qəti yox, zənni dəlildir. Hənəfi məzhəbli alimlərin əksəriyyəti və İmam Əhməd ibn Hənbəl isə sükuti icmanı da sərih icma kimi qəti

dəlil saymışlar.

Şiə məzhəbində icma şəriət hökmlərinin əsaslandırıldığı mənbələrdən biridir. Lakin icma öz-özlüyündə *höccət* (dəlil) deyil. Onun etibarlılığı *sünnətə* yol göstərməsindədir. Yəni icmaya etibarlılıq bəxş edən cəhət – eyni məsələ haqqında icma edən alimlərin sırasında o zamanın imamının da olması reallığıdır. Şiə əqidəsinə görə, imam ümmətin içində hər hansı çaşqınlığın yarandığını gördükdə, mütləq müdaxilə edib doğru yolu göstərməlidir. Əgər müctəhidlər bir məsələ barədə öz fikirlərini bildirirlərsə və bu fikrə etiraz edən yoxdursa, deməli, imam da həmin alimlərin cərgəsində sayılır. İmam Peyğəmbərin sünnəsini davam etdirdiyi üçün, Onun fikri də sünnətin bir parçasıdır. Deməli, şiə məzhəbində icma – sünnəni işıqlandıran bir vasitədir. Şiə məzhəbinə məxsus fiqh üsulunda sükuti icma etibarlı sayılmır.

A.Q.

İCTİHAD

Lüğəvi mənası çətin və məşəqqətli bir işi icra etmək üçün ciddi-cəhd göstərmək deməkdir. Hədislərdə «ictihad» kəlməsi qazi və idarəçinin düzgün qərara gəlmək və hökm çıxarmaq üçün bütün gücünü sərf etməsi mənasında işlədilmişdir *(Səhihül-Buxari Kitabül-Etisam; XXI bab; Səhihü Müslim, Kitabül-Əqziyə, XV bab; Sünənü Əbu Davud, Kitabül-Qəza, II bab; Sünənüt-Tirmizi, Kitabül-Ehkam, II və III bablar; Sünənü İbn Macə, Kitabül-Ehkam, III bab).* «İctihad» kəlməsinə hədislərdə verilmiş bu məna daha sonrakı dövrlərdə sözün termin kimi formalaşmasına zəmin yaratmışdır. Fiqh üsulu (İslam hüquq metodologiyası) terminologiyasında ictihad – fəqihin zənnə əsaslanan dini praktik hökmləri cüzi dəlillər vasitəsilə əldə edə bilmək üçün ciddi-cəhd göstərməsidir. Dini dəlillərdən bu hökmləri əldə etmək qabiliyyətinə malik olan (yəni ictihad edə bilən) şəxsə «müctəhid» deyilir. «Müctəhid» sözü ilə *«fəqih»* və *«müfti»* sözləri eyni mənanı daşıyır.

İslam dinində hökmlərin əsl mənbəyi Quran və sünnədir. Amma bu iki mənbəyin məhdudluğu, bunun müqabilində qarşıya çıxan məsələ və hadisələrin isə sonsuz sayda olması ictihad etmək zərurətini yaradır. İctihad ənənəsi zamandan və mühitdən asılı olaraq, qarşıya çıxan yeni hadisələrə *nəsslərin* (Quran və sünnənin) tətbiqində, nəsslərin təfsir olunmasında mühüm rol oynayır. Nəsslərin qanunvericilik xüsusiyyətlərini araşdırmaq, adət və şəraiti müəyyən etmək, yeni hadisələr üçün nəsslərin ruhuna uyğun hökmlər vermək ictihad dairəsinə daxil olan məsələlərdir.

İctihadla əldə edilən hökm alimin öz çalışmaları sayəsində gəldiyi rəyə əsaslandığı üçün qətilik ifadə etmir. Məhz buna görə, həmin hökm hər zaman mübahisə mövzusuna çevrilib yoxlanıla və səhv cəhətləri aşkar edilə bilər. Hər bir ictihad öz dövrünə görə müəyyən şərtlər çərçivəsində doğru və etibarlı sayılır.

Fiqh sahəsində bacarıq sahibi olan, islami elmlərə mükəmməl yiyələnən səmimi və təəssübsüz şəxslərlə iqtisadiyyat, hüquq, sosiologiya, psixologiya, antropologiya, tibb kimi elm sahələrinin mütəxəssislərindən ibarət bir ictihad şurası təşkil olunması da mümkündür. Bu şura müasir problemlərə münasibət bildirərək həll yollarını axtarıb tapa və bəzi hökmlər verə bilər.

İctihadın şərtləri, yəni müctəhid olmaq üçün tələb olunan əsas şərtlər aşağıdakılardan ibarətdir:

1. Ərəb dilini mükəmməl bilmək. Çünki Quranın və sünnənin mətni ərəb dilindədir.

2. Qurani-kərimi bilmək. Müctəhid Qurani-kərimi həm lüğət və şəriət baxımından bilməli, həm də ayələrin növlərini (ümumi ya xüsusi, möhkəm ya *mütəşabeh*, *nasix* ya mənsux olduğunu) ayırd etməyi bacarmalıdır.

3. Sünnəni bilmək. Müctəhid sünnənin həm mətnini, həm də sənədini bilməlidir. Xüsusilə, ehkam hədislərinin növlərini (mütəvatir, məşhur, səhih, həsən və zəif kimi dərəcələrini), nasix ya mənsux olduğunu ayırd etməlidir.

4. İcmanı bilmək. Müctəhid qarşılaşdığı və ictihad etdiyi məsələlərdə *icmaya* zidd hökm verməmək üçün mövcud olan icmalardan və fikir ayrılıqlarından xəbərdar olmalıdır.

5. Qiyası bilmək. Müctəhid düzgün hökm verə bilmək üçün *qiyasın* bütün növlərini, ünsürlərini (rüknlərini), şərtlərini, məqbul və qeyri-məqbul növlərini, qiyas tətbiq etmə səbəblərini anlamalıdır.

6. Fiqh üsulu elmini (İslam hüquq metodologiyasını) bilmək. Müctəhid şəriət dəlillərini, bunlardan hökm çıxarma yollarını, sözlərlə əlaqədar qrammatik qaydaları, dəlillər arasındakı üstünlüyü seçə bilmə yollarını mükəmməl mənimsəməlidir ki, düzgün hökm verə bilsin.

7. Müctəhid dini hökmlərin məqsədini bilməli, İslam şəriətinin əsas qayəsini qavramalıdır.

8. Xoş niyyətli, sağlam əqidəli olmalıdır.

A.Q.

İDDƏ

Ərəb dilindən tərcümədə «saymaq, miqdar, adət» mənalarını verir. Fiqh termini kimi, hər hansı səbəb üzündən nikahın pozulması nəticəsində qadının yenidən ərə getməzdən əvvəl gözləməli olduğu müddətə iddə deyilir.

İddə qadının hamilə olub-olmadığını aşkara çıxarmaq, nəslin qarışmasına mane olmaq, boşanan tərəflərə düşünmə və təkrarən birləşmə fürsəti vermək, qadını yeni həyata psixoloji cəhətdən hazırlamaq və nikahın pozulmasının qarşısını almaq kimi faydalara malikdir.

Nikahın pozulma forması və qadının hamilə olub-olmaması baxımından iddə müddəti Quran-kərimdə fərqli şəkildə müəyyən edilmişdir. Belə ki, əgər nikah talaq və ya nikahın ləğv edilməsi (fəsx) yolu ilə pozulmuşsa, qadın hamilə deyilsə, üç heyz müddəti qədər gözləməlidir *(Bəqərə, 228).* Heyz görməyən xəstə qadınların iddəsi isə tam üç aydır *(Talaq, 4).* Əri öldükdən sonra dul qalan və hamilə olmayan qadın 4 ay 10 gün müddətində gözləməlidir *(Bəqərə, 234).* Nikahın hansı səbəbdən pozulmasından asılı olmayaraq, hamilə qadının iddəsi uşağı dünyaya gətirənə qədərdir; yəni uşaq doğulduqdan sonra iddə müddəti bitir *(Talaq, 4).*

İddə müddəti ərzində qadının nəfəqəsi (aliment) müəyyən şərtlər daxilində onu boşamış kişinin öhdəsindədir. Hənəfilərə görə, talaq verildikdən sonra iddə müddəti ərzində qadının yemək, geyim və yaşayış yeri ilə bağlı ehtiyaclarını talaq verən kişi təmin etməlidir. Qurani-kərimdə kişilərə tövsiyə olunur ki, onlar öldükdən sonra həyat yoldaşlarının bir il müddətində evdən çıxarılmamasını vəsiyyət etsinlər: «Sizlərdən vəfat edib özlərindən sonra arvadlarını qoyub gedən şəxslər həmin qadınlara öz evindən çıxarılmamaq şərtilə bir il müddətində baxılmasını *(vərəsələrinə)* vəsiyyət etməlidirlər. Əgər onlar *(öz arzuları ilə)* çıxıb gedərlərsə, o zaman onların qəbul olunmuş qayda üzrə *(şəriətə müvafiq)* öz barələrində görəcəkləri işlər üçün siz günahkar deyilsiniz. Allah yenilməz qüvvət, hikmət sahibidir!» *(Bəqərə, 240).*

A.Q.

İFTAR

Oruc tutulan günün sonunda məğrib azanı verildikdən sonra orucu pozmaq. Bu zaman yeyilən yeməyə iftar yeməyi deyilir. İftar yeməyinin birinci tikəsini ağıza qoyanda belə dua etmək savab sayılır: «Allahümmə ləkə sümtü. Və əla rizqikə əftərtü. Və əleykə təvəkkəltü. Bismillahir-Rəhmanir-Rəhim. Ya vasiəl-məğfirət iğfirli». Duanın tərcüməsi belədir: «Allahım! Səndən ötrü oruc tutdum, verdiyin ruzi ilə iftar açdım, Sənə təvəkkül etdim. Bağışlayan və mehriban Allahın adı ilə. Ey geniş mərhəmət sahibi, məni bağışla!». İftarı xurma, yaxud süd, ya da ilıq su ilə açmaq daha yaxşıdır.

Oruc tutan şəxsin iftar zamanı öz yaxınları, ailə üzvləri, dostları ilə birlikdə süfrəyə əyləşməsinin böyük savabı var. Eləcə də, ramazan ayında oruc tutan şəxslər üçün iftar süfrələri təşkil etmək Allah yanında ən bəyənilən əməllərdəndir. Həzrət Mühəmməd Peyğəmbər (s) səhabələrinə dönə-dönə təkid edirdi ki, iftar zamanı öz müsəlman qardaşlarını yeməyə dəvət etsinlər. Bir gün Peyğəmbərimiz yanındakılara buyurdu: «Hər kim ramazan ayında oruc tutan şəxsə iftar versə, günahları bağışlanar. Allah onu cəhənnəm alovundan xilas edər və bu adam da oruc tutan şəxs qədər savab qazanar». Səhabələr dedilər: «Ey Allahın elçisi, axı biz hər axşam oruc tutanları doyuracaq qədər sərvətli deyilik». Peyğəmbər onlara belə cavab

verdi: «Oruc tutan adama bircə xurma, bir qurtum su, yaxud bir kasa süd verən də bu savabı qazanar. Hər kim bu ayda iftar vaxtı bir möminə içmək üçün su versə, məhşər günündə özü susuz qalmaz». Peyğəmbərimizin başqa bir hədisində oruc tutub, günün sonunda iftar edən adamın vəziyyəti belə təsvir olunur: «Oruc tutan adam iki dəfə sevinər: iftar edəndə və tutduğu oruca görə qiyamətdə Allahın mərhəməti ilə rastlaşanda».

İslam müqəddəsləri Peyğəmbərin bu tövsiyələrini rəhbər tutaraq, ramazan ayının axşamlarında kasıblara və ehtiyaclılara yemək paylayardılar. Dördüncü İmam Zeynül-abidin (ə) böyük iftar məclisləri təşkil edir, iri qazanlarda ət xörəyi bişirtdirirdi, hətta özü xörəyin dadına baxıb yaxşı bişməsini yoxlayırdı. Ehtiyacı olan insanlara iftar vermək o qədər savab əməldir ki, bunun barəsində Quran ayələrində də buyurulub: «Onlar öz iştahaları çəkdiyi halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. *(Və deyərlər)*: Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən nə bir mükafat, nə də bir təşəkkür istəyirik» *(İnsan, 8-9)*. Bu ayənin nazil olma səbəbi təfsir kitablarında belə izah olunub:

İmam Həsən və İmam Hüseyn (ə) kiçik yaşlarında möhkəm xəstələnmişdilər. Həzrət Mühəmməd Peyğəmbər (s) səhabələri ilə birlikdə İmam Əlinin (ə) evinə gəlib öz nəvələrinin sağlamlığı ilə maraqlandı. Sonra Əliyə (ə) məsləhət gördü ki, uşaqlar sağalsalar, üç gün oruc tutacağını nəzir etsin. Əli (ə), Fatimə (ə) və xidmətçiləri Fizzə bu sözə əməl edib nəzir dedilər. Allahın məsləhəti ilə Həsən və Hüseyn (ə) tezliklə sağaldılar, ailə üzvləri də öz nəzirlərinə əməl edib oruc tutmağa başladılar. Həzrət Fatimə (ə) evdə olan az miqdarda buğdanı üyüdüb üç bərabər hissəyə böldü ki, hər gün bir hissəni bişirib iftar hazırlasın.

Orucun birinci axşamı iftar vaxtı ailə üzvləri süfrə arxasına oturdular. Yeməyə başlamaq istəyəndə bir kasıb müsəlmanın qapı arxasından səsini eşitdilər: «Ey Peyğəmbərin Əhli-beyti! Mənə yardım edin; əvəzində Allah sizə behişt meyvələrindən pay verər». Həmin axşam bütün ailə üzvləri öz yeməklərini dilənçiyə verib, özləri təkcə su ilə iftar etdilər.

İkinci gün yemək vaxtı çatanda atası cihadda həlak olmuş bir yetim uşaq qapıya gəlib pay istədi. Yenə Əhli-beyt üzvləri yeməklərini ona verib, su ilə kifayətləndilər.

Üçüncü gün müsəlmanlara əsir düşmüş bir əsir iftar vaxtı qapıya gəlib diləndi. Bu dəfə də ev adamları öz yemək paylarını əsirə verdilər. Allah-təala onların bu fədakarlığının əvəzi olaraq, yuxarıdakı ayələri Peyğəmbərimizə vəhy etdi.

N.R.

İXFA

bax: *cəhr və ixfa.*

İXLAS

Səmimiyyət, təmənnasız sevgi, təmizlik, saflıq kimi mənaları ifadə edir. Davranışda yalnız uca Allahın razı olduğu şəkildə hərəkət etmək, riyakarlıqdan uzaq durmaq, hər bir əməldə, sözdə, ibadətdə yalnız Allahın rizasını istəməkdir. Quranda buyurulur: «İblis dedi: «Ey Rəbbim! Məni azdırmağına *(rəhmətindən kənar etməyinə)* əvəz olaraq and içirəm ki, mən də onlara *(pis əməllərini, günahlarını)* yer üzündə yaxşı göstərib, onların hamısın yoldan çıxaracağam! Yalnız Sənin ixlaslı bəndələrindən başqa» *(Hicr, 39-40)*.

R.M.

İQAMƏ

Ərəb dilindən tərcüməsi «ayağa qalxmaq, ayaq üstə dik durmaq» mənasını verir. Namazdan əvvəl, azandan sonra oxunan və azanın cümlələrinə bənzəyən cümlələrə deyilir. Bütün İslam məzhəblərinin görüşünə uyğun olaraq, iqaməni azandan fərqləndirən əsas cəhət – «həyyə ələl-fəlah» (nicat tapmağa tələsin) cümləsindən sonra «qəd qamətis-səlah» (namaz başladı) cümləsinin deyilməsidir. Hənbəli, maliki və şafii məzhəblərinə görə, iqamənin bütün cümlələri bir dəfə deyilməlidir. Malikilər yalnız əvvəldəki və axırdakı təkbiri («Allahü əkbər» cümləsini) iki dəfə deməyi lazım bilirlər. Hənəfi məzhəbinə görə, iqamənin bütün cümlələri 2 dəfə deyilir, yalnız əvvəlindəki təkbiri 4 dəfə demək lazımdır. Cəfəri məzhəbində iqamənin bütün cümlələri 2 dəfə deyilir, yalnız axırdakı «la ilahə illəllah» cümləsini bir dəfə söyləmək lazımdır. Cəfərilər sünnilərdən fərqli olaraq, «həyyə ələ xeyril-əməl» cümləsini də 2 dəfə deməyi vacib bilir, «Əşhədü ənnə Əliyyən vəliyyullah» cümləsini savab qazanmaq niyyəti ilə (iqamənin vacib hissəsi kimi yox) söyləyirlər.

Hənbəli məzhəbində namazdan əvvəl iqamə oxumaq fərzi-kifayi sayılır. Yəni bir şəhərdə heç kim namazdan əvvəl iqamə oxumasa, hamı günahkardır, amma bir nəfər oxusa, günah hamının öhdəsindən götürülər. Hənəfi məzhəbində iqamə təkid edilən sünnətdir. Maliki və şafii məzhəblərində təkbaşına namaz qılan şəxsin iqamə deməsi sünnətdir. Camaat namazında isə sünnəti-kifayidir, yəni bir nəfər iqaməni desə, qalanları deməyə də bilərlər. Cəfəri məzhəbində təkbaşına namaz qılan şəxsin iqamə oxuması müstəhəb sayılır. Camaat namazında imam və ya başqa bir adam tərəfindən iqamə deyilibsə, iqtida edənin iqamə söyləməsi məsləhət deyil. Qadın, səsinin naməhrəm tərəfindən eşidiləcəyindən ehtiyat edirsə, iqaməni deməməlidir.

Azandan fərqli olaraq, iqamə daha astadan və sürətlə deyilir.

N.R.

İQTİDA

Ərəb dilindən tərcüməsi «arxasınca getmək, tabe olmaq» deməkdir. Dini termin olaraq, camaat namazında iştirak edən şəxslərin imamın arxasında duraraq namaz qılmalarına iqtida deyilir. İqtidanın səhih olması üçün mütləq niyyət lazımdır. Yəni iqtida edən (buna müqtədi deyilir) niyyət etməlidir ki, konkret şəxsin imamlığı ilə namaz qılır.

N.R.

İLA

bax: *iyla.*

İLHAD

Lüğəvi mənaları «meyl edib yönəlmək, həqiqətdən uzaqlaşmaq, əmr ediləni yerinə yetirməmək, şübhə emək, münaqişə etmək»-dir. Kəlam elmində Allahın varlığını, birliyini, dinin təməl hökmlərini inkar etmək, bunlar haqqında şübhəyə düşmək və dini əsaslara sayğısız yanaşmaq ilhad sayılır. Bu fikirlərə sahib olan şəxsə «mülhid» deyirlər. İlhad «ateizm» anlayışına yaxındır.

Qurani-kərimə görə, ilhad aşağıdakı mənaları ifadə edir: Allahın isimlərini təhrif edərək Onu inkar etməyə doğru yönəlmək *(Əraf, 180)*, Quranın Allah tərəfindən göndərildiyinə inanmamaq *(Füssilət, 40)*, insanları Allahın yolundan və Kəbədən döndərmək *(Həcc, 25)*.

R.M.

İLHAM

Övliyalara, şair və ədiblərə, mütəfəkkirlərə Allah tərəfindən verilən bacarıq və məlumatlar. İlhamı çox zaman vəhyin kiçik qardaşı adlandırırlar. Çünki ilham da vəhy kimi oxuyub-öyrənməklə deyil, Allahın lütfü nəticəsində əldə olunur. Allah o kəslərə ilham edir ki, onlar ibadətdə, əxlaqda və istedadda başqalarından xeyli üstündürlər.

Vəhylə ilhamın fərqləri bundadır:

a) Vəhy yalnız peyğəmbərlərə verilir. İlham isə peyğəmbər olmayanlara da verilə bilər.

b) Vəhy adətən mələk vasitəsilə çatdırılır. İlham isə heç bir vasitəsiz birbaşa insanın qəlbinə ötürülür.

c) Peyğəmbər vəhyi gizlədə bilməz. İlham alan şəxs isə bunu gizlədə bilər.

ç) Peyğəmbər vəhyi Allahdan aldığını qəti surətdə bilir. Amma insan, ona ilhamın haradan gəldiyini çox zaman bilmir; bəzən isə ümumiyyətlə bunun Allahdan, yoxsa şeytandan olduğunu ayırd etməyə çətinlik çəkir; bu zaman ilhamın doğruluğunu sabit dini meyarlarla (Quran və sünnə ilə) ölçür.

d) Peyğəmbər və onun ümməti vəhyə tabe olmalıdırlar. Amma bir şəxsə ilham olunan mətləblər nə onun özü, nə də başqaları üçün *hüccət* (sübut) sayıla bilməz, din və şəriət hökmlərini üstələməz. (Məşhur kəlam alimi Təftazani bu fikirdə idi ki, ilham alan şəxsin özü üçün ilham dəlil sayıla bilər). İlham alan şəxsin zehin və təfəkkürü, mənəvi hazırlığı onun ilhamı nə dərəcədə düzgün qavramasını və səmərəli istiqamətə yönəldə bilməsini müəyyən edir.

Quranda buyurulur: «And olsun nəfsə və onu yaradana. Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini ilham edənə» *(Şəms, 8)*. Ayənin mənası budur ki, Allah-təala insanların fitrətində yaxşı ilə pisi ayıra bilmək bacarığını qoymuşdur. İnsan öz vicdanı vasitəsilə halalı və haramı ayırd edə bilər. Bu bilik ilhamın bir növüdür. Amma bəzən insan bu biliyi düzgün qavraya bilmir, yaxşı ilə pis arasındakı meyarı itirir, bəzən isə nəfs onu günaha doğru çəkir. Bu zaman Allahın kənardan göndərdiyi bələdçilər (peyğəmbərlər, imamlar, övliyalar, dini kitablar və s.) onun köməyinə çatır.

Peyğəmbərlərə vəhydən əlavə verilən ilahi xəbərlər də ilham sayılır. (Məsələn, Həzrət İbrahim Peyğəmbərin (ə) yuxuda oğlunu qurban kəsdiyini görməsi, İslam Peyğəmbərinə Allahdan ötürülmüş hədisi-qüdsilər və s.).

N.R.

İMAM

Dini termin kimi «dövlət başçısı, dini-siyasi cərəyanın banisi, camaat namazına başçılıq edən şəxs» mənalarını verir.

Həzrət Mühəmməd Peyğəmbərin (s) sağlığında Məscidün-nəbəvidə Onun özü, vəfatından sonra isə raşidi xəlifələr camaat namazlarına imamlıq etmişlər. Müsəlmanların sayı çoxaldıqca məscidlərin sayı artdı, bu məscidlərdə qılınan camaat namazlarına başçılıq etmək üçün xalq içindən ən elmli və əməlisaleh şəxslər imam seçilməyə başladı. Camaat namazına imamlıq etmək üçün bəzi şərtlər tələb olunur: kişi cinsindən olmaq, müsəlman olmaq, yetkin olmaq *(həddi-büluğ)*, namazla əlaqədar dini ehkamları dərindən bilmək, Quranı düzgün qiraətlə oxumaq, əqli və fiziki cəhətdən sağlam olmaq, əxlaq və mənəviyyat baxımından yüksək səviyyədə olmaq və s. İmamın xalqla qaynayıb-qarışmalı, sözü ilə əməli üst-üstə düşməlidir (ədalətli olmalıdır).

Şiə əqidəsinə görə, Həzrət Mühəmməd Peyğəmbərin (s) nəslindən olan 12 məsum şəxs müsəlman ümmətinin imamıdır (rəhbəridir).

bax: *on iki imam, imamət.*

Ə.N.

İMAMƏT

Ərəb dilindən tərcüməsi «öndə durmaq, başçılıq etmək» deməkdir. Dini termin olaraq, ümumi anlamda camaat (cümə) namazı qılan insanlara öz aralarından daha savadlı və ədalətli bir adamın başçılıq etməsinə imamət deyilir. Bir millətin, təriqətin, dini-siyasi hərəkatın rəhbəri də «imam» adlandırıldığı üçün, onun liderlik vəzifəsi imamət sayılır (məsələn, İmam Şamil, İmam Xomeyni, İmam Əbu Hənifə).

Xüsusi anlamda götürüldükdə isə imamət şiə məzhəbinin əqidə əsaslarından biridir. Şiə inancına görə, imamət – Allah tərəfindən məsləhət bildiyi insanlara verilən və nübüvvətdən fərqli olan bir məqamdır. Necə ki, Həzrət İbrahim (ə) peyğəmbərliyə təyin olunduqdan çox sonra imamət məqamına yüksəlmişdi: «Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə imtahana çəkdiyi zaman o, *(Allahın əmrlərini)* tamamilə yerinə yetirdi. *(Allah ona)*: «Səni insanlara imam təyin edəcəyəm», – dedi. *(İbrahim isə)*: «Nəslimdən necə?» – deyə soruşdu. *(Allah onun cavabında)*: «Zalımlar mənim əhdimə layiq olmazlar» – buyurdu» *(Bəqərə, 124)*.

Şiə əqidəsinə görə, Allah yer üzünü heç zaman hüccətsiz qoymaz. *Hüccət* ya peyğəmbər, ya da imamdır. Dünya peyğəmbərsiz qala bilər; sonuncu peyğəmbər Həzrət Mühəmmədin (s) vəfatından sonra vəhy əbədi olaraq kəsilib. Amma yer üzünün imamsız qalması mümkün deyil. Bəzən imam peyğəmbərdən başqa bir adam, bəzən isə peyğəmbərin özü olur (Həzrət İbrahim (ə) kimi). Şiə əqidəsinə görə, XII imam Həzrət Mehdi (ə) diridir, Allahın məsləhət bildiyi vaxt zühur edəcək və onun hakimiyyəti qiyamət gününə kimi davam edəcək.

Peyğəmbər vəfat etdikdən sonra dini hökmləri insanlara çatdırmaq, Quranın və sünnənin qaranlıq tərəflərinə aydınlıq gətirmək, bidət və təhriflərə etiraz etmək, müctəhid alimlərin belə, cavab verməyə çətinlik çəkdikləri sualları cavablandırmaq üçün imamın mövcudluğu zəruridir. Allah-təala insanlara qarşı mehriban olduğu üçün onları başsız və rəhbərsiz qoymaz. Həmçinin, insanlar günahdan və səhvdən uzaq olmadıqları üçün gərək mütləq bir nəfər onlara rəhbərlik

etsin, yolunu azanları doğru yola qaytarsın, doğru yola qayıtmaq istəməyənləri cəzalandırsın. Bu məsuliyyəti daşımağa səlahiyyəti çatan imam əvvəla, peyğəmbərin tərəfindən bu məqama təyin edilməlidir ki, ona etiraz edən olmasın. İkincisi, imam adamların gözündə eyib və nöqsan sayılan bütün sifətlərdən uzaq olmalıdır (yəni *məsum* olmalıdır). Üçüncüsü, imam hər kəsdən daha bilikli olmalı, dini və *şəriəti* hamıdan yaxşı bilməli, bütün sualları düzgün cavablandırmağı bacarmalıdır. Dördüncüsü, imam öz imamətini sübuta yetirmək üçün Allahın yardımı ilə *möcüzə* göstərməyə qadir olmalı, onunla imamət davası edən şəxsləri aciz qoymalıdır.

İmamət şiə məzhəbinin 5 əsas əqidə prinsipindən biridir *(tövhid, nübüvvət, məad* və *ədllə* yanaşı). Şiə inancına görə, imaməti qəbul etməyən adam müsəlman sayılır; yetər ki, tövhidə, nübüvvətə və məada inansın. Ona görə də, bir çox şiə mənbələrində əqidə əsaslarından üçü – tövhid, nübüvvət və məad dinin əsasları *(üsulüd-din)* sayılır. Qalan iki prinsip – imamət və ədl isə məzhəbin əsasları (üsulül-məzhəb) kimi qəbul edilir.

N.R.

İMAN

Ərəb dilindən tərcümədə «güvənmək, arxayın olmaq, əmin olmaq, sidq ürəkdən inanmaq» mənalarını verir. Dini anlamda Allaha, Onun peyğəmbərlərinə, axirət aləminə və qəbul edilməsi gərəkən digər prinsiplərə tərəddüdsüz olaraq inanmağa deyilir. İmanlı şəxsi *«mömin»* adlandırırlar.

Əhli-sünnə məzhəbinə görə, iman əsasları 6-dır: Allaha iman, peyğəmbərlərə iman, mələklərə iman, səmavi kitablara iman, axirətə iman və qəza-qədərə iman. Buna təfsili iman deyilir; çünki burada iman əsasları fəsillərə (maddələrə, bölümlərə) bölünüb. İmanın ikinci dərəcəsi isə icmali iman adlanır. Bu, səmimi qəlbdən və xalis niyyətlə *kəlmeyi-şəhadəti* söyləməklə sübuta yetir. Kəlmeyi-şəhadəti söyləyən şəxs Allahın qoyduğu və Peyğəmbərin çatdırdığı bütün hökmləri qəbul etdiyini və bununla da təfsili imanın bütün maddələrinə inandığını bildirmiş olur. İmanı İslamdan ayıran əsas cəhət də kəlmeyi-şəhadətin hansı mənəvi şəraitdə deyilməsidir. *Müsəlman* sayılmaq üçün kəlmeyi-şəhadəti dilə gətirmək və başqalarına eşitdirmək kifayət edər. Lakin bu sözlərin səmimiyyətlə yoxsa riyakarlıqla deyilməsini yalnız Allah bilər. Çünki iman bəndə ilə Allah arasında qalan və əsl həqiqəti heç kimə bəlli olmayan bir anlayışdır. Zahirdə müsəlman olan şəxsin ürəkdə iman gətirməyib *münafiq* kimi ömür sürməsi mümkündür. Əsl mömin kəlmeyi-şəhadəti tam səmimiyyətlə söyləyən, varlığı ilə buna inanan və əməlləri ilə bunu sübut edən şəxsdir.

Şiə məzhəbində isə iman əsasları üsuluddinlə eyni qəbul edilir (bax: *üsulüd-din*).

İslam tarixçiləri yazırlar ki, Həzrət Mühəmməd Peyğəmbərin (s) zamanında bir il Ərəbistanı aclıq bürüdü. Bəni-Əsəd qəbiləsinin nümayəndələri Mədinəyə gəlib Peyğəmbərin hüzurunda kəlmeyi-şəhadəti söyləyərək iman gətirdiklərini bildirdilər. Onlar başqa qəbilələr kimi müsəlmanların əleyhinə vuruşmadıqlarını xatırlatmaqla Peyğəmbərin boynuna minnət qoydular. Bu insanların əsas məqsədi imana gəldiklərini elan etmək deyil, müsəlmanlardan ərzaq yardımı almaq idi. Həmin münasibətlə Allah-təala Peyğəmbərə bu ayələri vəhy etdi: «Bədəvi ərəblər: «Biz iman gətirdik!» – dedilər. De: «Siz *(qəlbən)* iman gətirmədiniz! Ancaq: «Biz İslamı qəbul etdik!» – deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır. Əgər Allaha və Peyğəmbərinə itaət etsəniz, O sizin əməllərinizdən heç bir şey əksiltməz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir. Möminlər yalnız Allaha və Peyğəmbərinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə vuruşanlardır. Məhz bələləri *(imanlarında)* sadiq olanlardır» *(Hücürat, 14-15)*.

Bu ayələrdən məlum olur ki, Allah-təala kəlmeyi-şəhadəti söyləyən, amma bunu təmənna üzündən edən şəxsləri mömin deyil, müsəlman saymağa icazə verir. İslam imanın yalnız zahiri tərəfidir. İnsan kəlmeyi-şəhadəti söyləmək və nümayişkaranə şəkildə ibadətləri yerinə yetirməklə müsəlman sayılar, bununla da özünü təhlükə və məhrumiyyətlərdən qoruyar. Amma bu, onun əqidəsinin saf olub-olmamasını aşkara çıxarmaz. Hədislərdə deyilir: «İslam odur ki, onun

vasitəsilə canlar qorunar, əmanətlər sahibinə qaytarılar, izdivaclar halallaşar. Amma savab imana görə verilər». Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «İslam aşkardır, iman isə qəlbdə gizlidir».

Bütün möminlər müsəlmandırlar, lakin bəzi müsəlmanların mömin olmamaları mümkündür. Hədislərdə İslamı Məkkədəki Məscidül-hərama, imanı isə həmin məscid daxilində yerləşən Kəbə evinə bənzətmişlər. Kəbəyə girən hər kəs Məscidül-həramın daxilində hesab olunur. Amma Məscidül-həramın daxilində olan hər kəs Kəbənin içində sayılmaz. Beləcə, möminlik məqamına yüksələn hər kəs müsəlmandır, amma hər müsəlman mömin deyil.

Müsəlman üçün dillə təsdiq və bəzi ibadətlər kifayət etdiyi halda, mömin şəxs mütləq bütün əməllərini Allahın əmr və qadağanları əsasında qurmalı, gözəl əxlaqa sahib olmalıdır. İslam Peyğəmbəri buyurmuşdur: «Möminlərin iman cəhətdən ən kamili əxlaqca gözəl və ailəsinə qarşı mehriban olandır». İmam Əli ibn Əbu Talib (ə) bu barədə demişdir: «İman ürəklə dərk etmək, dillə təsdiqləmək və bütün bədən üzvləri ilə əməldə həyata keçirməkdən ibarətdir». Bu üç xüsusiyyət birləşərək imanı əmələ gətirir. Bunların olmaması isə insanı üç rəzil dəstənin cərgələrinə aparıb-çıxarır. Ürəkdə səmimi etiqadı olmayan *münafiqdir*. İmanını dillə təsdiqləməyən (yəni inkar edən) *kafirdir*. Əməldə sübuta yetirməyən isə *fasiqdir* (günahkardır). İmam Cəfər Sadiqin (ə) aşağıdakı hədisi də imanın həqiqətini gözəl bəyan edir: «Allah imanı yeddi hissəyə bölüb: yaxşılıq, doğruçulluq, yəqin, razılıq, əhdə vəfa, elm və səbir».

Qurani-kərimdə möminlərin haqqında buyurulur: «Möminlər yalnız o kəslərdir ki, Allahın adı çəkiləndə *(Onun heybət və əzəmətindən)* ürəkləri qorxudan titrəyər. Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edərlər. Namaz qılar və verdiyimiz ruzidən *(Allah yolunda)* sərf edərlər. Onlar həqiqi möminlərdir. Onların öz Rəbbi yanında dərəcələri vardır. Onları *(qiyamət günü)* bağışlanma və *(cənnətdə)* tükənməz ruzi gözləyir» *(Ənfal, 2-4)*. Başqa bir ayədə möminlərin vəhdətinə işarə edilir: «Həqiqətən, möminlər qardaşdırlar. Buna görə də *(aralarında bir mübahisə düşsə)* iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə rəhm olunasınız» *(Hücürat, 10)*.

Möminin imanı həyatın bütün sahələrində özünü göstərir. Onun bütün əməlləri, əxlaqı, danışığı, ətrafdakılarla rəftarı imanla yoğrulmuşdur. Məhz buna görə Peyğəmbər buyurdu ki, imanın yetmişdən artıq qolu var. Bunların ən üstünü «la ilahə illəllah» demək, ən aşağı dərəcəsi isə camaatı əziyyətə salan əşyaları yolun üstündən götürüb kənara qoymaqdır; həya da imanın bir qoludur. İslam müqəddəsləri mömin şəxsdə hərislik, kobudluq, xəsislik, yalançılıq, xəyanət, ruzidən ümidsiz olmaq kimi mənfi xüsusiyyətlərin mövcudluğunu qeyri-mümkün sayırdılar.

Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur ki, Allahın dərgahında mömin şəxs ən yaxın mələklərdən də hörmətlidir. İmam Cəfər Sadiq (ə) isə möminin hörmətinin Kəbədən daha artıq olduğunu bildirmişdir.

İslam Peyğəmbərinin hədislərində möminlərin bəzi xüsusiyyətləri sadalanır. Məsələn: «Mömin nifrət bəslədiyi kəsə zülm etməz və sevdiyi şəxsə görə günaha batmaz. Onun xərci az olar, başqalarına çox yardım edər. Hər bir işi çox yaxşı yerinə yetirər, sanki onu özü üçün görür. Onun bağışlayan əli var, bir şey istəyəni boş geri qaytarmaz. Sözünü ölçüb-biçər. Batili, hətta dostundan da olsa, qəbul etməz və haqqı, hətta düşmənindən olsa belə, inkar etməz». «Mömin o kəsdir ki, camaat öz malını və canını ona etibar edər». «Mömin salamı əvvəl verər, münafiq isə «gərək mənə salam versinlər» – deyər».

Həzrət Əli ibn Əbu Talibin (ə) nəzərində mömin aşağıdakı sifətlərə malik olan şəxsdir: «Mömin şadlıq zamanı şükr edən, bəla vaxtı səbirli, naz-nemət içində olan zaman Allahdan qorxan kəsdir». «Möminlərdən o şəxsin imanı daha üstündür ki, verdiyi və aldığı, qəzəbi və sevinci Allaha görədir».

İmam Zeynül-abidin (ə) mömində beş xüsusiyyətin olmasını şərt bilirdi: «Xəlvətdə olanda pəhrizkarlıq etmək, yoxsulluq zamanı sədəqə vermək, bəlalar qarşısında səbirli, qəzəblənəndə həlim, qorxu anında belə, doğruçul olmaq». İmam Mühəmməd Baqir (ə) isə möminin sarsılmaz iradəsini belə təsvir edirdi: «Mömin dağdan da möhkəmdir. Dağ parçalanar, amma möminin dinindən heç nə azalmaz».

R.N.

İMSAK

Lüğətdə «özünə hakim olmaq, maneə olmaq, çəkinmək, geri durmaq» mənalarını verir. Dini termin kimi *səhurun* (obaşdanın) başa çatdığı andan *iftar* vaxtına qədər yeyib-içməkdən, cinsi əlaqədən və *orucu* pozan digər hallardan çəkinmək deməkdir. Orucun *rüknü* imsakdır. İmsakın başlanğıcı dan yerinin ağardığı andır. Bu anda sübh namazının vaxtı girir, səhurun (obaşdanın) vaxtı qurtarır. İftar vaxtı isə günəşin qürub etdiyi andır; bu anda oruc qadağanları sona çatır. Gündüz və gecənin konkret seçilmədiyi bölgələrdə (qütb gecələri bölgəsi) imsak və iftar vaxtları həmin yerlərə ən yaxın bölgələrin vaxtları əsasında müəyyən edilir.

A.Q.

İNFAQ

Ərəb dilndən tərcüməsi «yoxsullaşmaq, kasıblaşmaq» mənasını verir. Dini anlamda infaq ehtiyacı olanlara təmənnasız yardım göstərməkdir. Sədəqə də infaqa aiddir. İnfaq edilən əmlaka və ya pula *nəfəqə* deyilir. Şəriətdə ailə başçısının öz ailə üzvləri üçün xərclədiyi pula, eləcə də, yardıma ehtiyacı olan şəxslər üçün bunu verməyə borclu olan adamlardan alınan məbləğə (alimentə) *nəfəqə* deyirlər. Öz həyat yoldaşının nəfəqəsini təmin etmək kişinin borcudur. Yetikinlik yaşına çatmamış övladların da nəfəqəsini ata verməlidir. Həzrət Mühəmməd Peyğəmbər (s) insanın öz yaxınlarına (ailə üzvlərinə, valideynə, yaxın qohumlara, qonşulara) etdiyi nəfəqənin ən üstün nəfəqə olduğunu bildirmişdir.

Qurani-kərimdə Allahın verdiyi ruzidən infaq etmək təqvalılara xas olan sifət kimi göstərilir *(Bəqərə, 3)*. Bəndəni Allaha yaxınlaşdıran şərtlərdən biri də öz sevdiyi və xoşladığı nemətlərdən infaq etməsidir: «Sevdiyiniz şeylərdən infaq etməyincə savaba çatmazsınız. Şübhəsiz ki, Allah infaq etdiyiniz hər şeyi biləndir» *(Ali-İmran, 92)*. Rəvayət edirlər ki, İmam Zeynül-abidin (ə) qəndlə badamı çox xoşlayırmış; buna görə də həmin nemətlərdən daha çox infaq edərmiş.

İnfaq halal və pak nemətlərdən edilər: «Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin yaxşılarından infaq edin! Ancaq göz yumaraq aldığınız pis, yaramaz şeylərdən vermək fikrində olmayın!» *(Bəqərə, 267)*. Həmçinin, Quran ayələrində bu fikir vurğulanır ki, infaq etməklə mal-dövlət artar və bərəkətlənər: «Mallarını Allah yolunda infaq edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allah *(lütfü ilə)* genişdir» *(Bəqərə, 261)*. Öz malından davamlı olaraq hər bir şəraitdə infaq edən şəxsləri Allahtəala razılıqla yad edir: «Mallarını gecə və gündüz, gizli və aşkar infaq edənlərin Rəbbi yanında böyük mükafatları vardır. Onların *(axirətdə)* heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər» *(Bəqərə, 274)*.

Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Üç xasiyyət var ki, bunlar hər kimdə olsa, başqa gözəl xüsusiyyətlər də onun şəxsiyyətində cəmləşər: kasıb olmağına baxmayaraq infaq etmək, başqaları ilə insaflı davranmaq, hamıya salam vermək».

N.R.

İNSANİ-KAMİL

Mükəmməl, ideal və nümunəvi şəxsiyyət. Bu ad Həzrət Mühəmməd Peyğəmbərə (s) və Onun əxlaqi xüsusiyyətlərinə sahib olan şəxslərə şamil edilir. Qurani-kərimdəki əxlaqi normalara riayət edən, İslamı Həzrət Mühəmməd Peyğəmbər (s) kimi yaşamağa cəhd göstərən, öyrəndiklərini və qəlbinə gələn ilhamları insanlarla paylaşmağa çalışan, insanlara Allahı sevdirəcək tərzdə gözəl xüsusiyyətlərə malik olan şəxs kamil insan sayılır.

R.M.

İRADƏ

Ərəb dilindən tərcüməsi «istəmək, niyyət etmək» deməkdir. Dini anlamda Allahın həm *sübutiyyə sifətlərindən* biri kimi, həm də insana məxsus olan seçim azadlığı mənasında qəbul edilir.

Allah-təala mütləq iradə sahibidir (müridir). O, öz iradəsi ilə qüdrətinin bəzi çalarlarını aləmdə nümayiş etdirmiş, bəzilərini gizli saxlamışdır. Nəyi necə və nə zaman yaratmaq Allahın iradəsindən asılıdır. İnsandan fərqli olaraq, Allah müəyyən bir işi görməzdən əvvəl düşünüb-daşınmır, ölçüb-biçmir, hazırlaşmır. Allah bir şeyi yaratmaq istəyirsə, bunu iradə edir və həmin şey yaranır. Özü də Allahın bütün yaratdıqları qüdrət və elm baxımından nöqsansız olur.

Allah-təala hər hansı işi görərkən əmək alətlərindən istifadə etmir və zəhmət çəkmir. Allahın yaratma prosesi bizim adət etdiyimiz şəkildə deyil. Yəni «Allah-təala Adəmi palçıqdan yaratdı» deyərkən elə təsəvvür etməməliyik ki, guya Allah özü palçıq hazırlamış, sonra ondan Adəmin bədənini yapmışdır. Allah bu işlərdən uzaqdır və bunlar Allah üçün nöqsan sayılar. Əgər deyilənlərə inansaq, Allahın cism olduğunu qəbul etməliyik, halbuki Allah cism deyildir. Allah hər şeyi, o cümlədən Adəmi də yaratmaq üçün sadəcə bunu iradə etmiş, o şey Allahın istədiyi kimi yaranıb hazır olmuşdur.

Qurani-kərimin bir neçə ayəsində Allahın iradəsi təsvir olunur: «Həqiqətən, Rəbbin istədiyini *(iradə etdiyini)* edəndir» *(Hud, 107)*. «Bir şeyi *(yaratmaq)* istədiyi zaman *(Allahın)* buyurduğu ona ancaq «Ol!» – deməkdir. O da dərhal olar» *(Ya-Sin, 82)*.

İslam müqəddəslərinin hədisləri də dediklərimizi sübut edir. İmam Musa Kazimin (ə) tərəfdarlarından biri Ondan Allahla bəndənin iradələri arasındakı fərqi izah etməsini istədi. İmam ona belə cavab verdi: «Bəndənin iradəsi bir işi görməzdən əvvəl onu niyyət etməkdən və daha sonra bu istiqamətdə hərəkət etməkdən ibarətdir. Allahın iradəsi isə yaratmağa bərabərdir və bundan başqa bir şey deyildir. Çünki Allah bir işə hazırlaşmaz, bu barədə tələş keçirməz və işi necə görməyi düşünməz. Bunlar Allaha yaraşmayan sifətlərdir. Bunlar bəşərə xas olan xüsusiyyətlərdir. Allahın iradəsi həmin əməlin özüdür, başqa bir şey deyil. O deyər: «Ol!» və həmin şey olar. Bu yaradılış sözsüz, dillə danışıqsız, tələssiz və təfəkkürsüz həyata keçər. Bunu təsvir etmək mümkün deyil; necə ki, Allahın özü də təsvirə sığan deyil» *(Küleyni. Üsulül-Kafi, Tövhid kitabı, XIV bab, 3-cü hədis)*.

İnsana xas olan iradə haqqında *«faili-muxtar»*, *«cəbriyyə və qədəriyyə»* məqalələrində ətraflı məlumat verilmişdir.

N.R.

İRFAN (və ya ÜRFAN)

Ərəb dilindən tərcümədə «böyük və əhatəli bilik» mənasını verir. Belə ki, ərəb dilində ismin «fələn», «filan» və «fülan» babları müəyyən bir xüsusiyyətin ən yüksək və kamil həddə olduğunu ifadə edir. Məsələn, «Rəhman» sözü hədsiz dərəcədə rəhmli olan Allahı, «hicran» kəlməsi bitib-tükənməz və dözülməz ayrılığı, «qurban» ifadəsi çox yaxınlığı bildirir. «İrfan» kəlməsi də biliyin çox olduğunu ifadə edir.

Ümumi mənada irfan – həyatın və insanlığın mahiyyəti, dünyada baş verən hadisələrin hikməti, Allah-təalanın varlığının və sifətlərinin təhlili haqqında bilik və düşüncələrin məcmusu kimi qəbul edilir. İrfan quru elm deyil, dünyagörüşüdür. Çox zaman «irfan» sözü «təsəvvüf» kəlməsi ilə eyni mənada işlədilir. İrfan haqqa doğru yönələn yol barəsində nəzəri bilikləri əhatə etdiyi halda, təsəvvüf bu yolun təcrübi olaraq keçilməsidir. İrfani biliklərlə möhkəmlənməmiş bir təsəvvüf həyatı düzgün sayılmaz. Eləcə də, həyatda yaşanmayan irfan bilgiləri də qətiyyən əhəmiyyət kəsb etməz. İrfansız təsəvvüf, təsəvvüfsüz irfan yoxdur.

Təsəvvüf termin kimi hicrətin II əsrindən sonra meydana çıxdığı üçün, bundan əvvəlki dövrə aid olan İslam mənbələrində eyni mənanı bildirmək məqsədilə «zöhd», «irfan» və s. kəlmələr işlədilirdi. İstər İslam müqəddəslərinin hədislərində, istərsə də ilk sufilərin söz və yazılarında rast gəldiyimiz *«arif»* kəlməsinin məna yükü sonralar «sufi» sözünə şamil edilmişdir.

Şəhid Mürtəza Mütəhhəri «İslam elmləri ilə tanışlıq» kitabında yazırdı: «İrfan barədə iki istiqamətdə danışmaq və tədqiqat aparmaq olar: ictimai baxımdan və mədəni baxımdan. İrfan əhlini mədəni baxımdan yanaşdıqda «ariflər», ictimai baxımdan yanaşdıqda isə çox vaxt «təsəvvüfçülər» (sufilər) adlandırırlar».

İrfan bir elmi və mədəni kompleks kimi iki hissədən ibarətdir: ***əməli*** (praktiki) ***irfan*** və ***nəzəri irfan***. Əməli irfan insanın öz iç

dünyası ilə, onu əhatə edən xarici aləmlə və Allahla əlaqələrini, bunların qarşısında daşıdığı vəzifələri öyrənir. Bu cəhətdən irfan əxlaq elminə bənzəyir; yəni onun kimi təcrübi elmdir. Əməli irfanı həm də *«seyrü süluk»* adlandırırlar. Burada insaniyyətin ən yüksək nöqtəsinə, yəni tövhid mərhələsinə çatmaq üçün haqq yolçusunun mənəviyyat səfərinə haradan başlayacağı, hansı məqamları ardıcıllıqla keçəcəyi, bu yol boyunca nə kimi hallarla üzləşəcəyi və hansı vəziyyətlərə düşəcəyi izah edilir. Bütün bu məqamlar həmin yolu əvvəlcədən keçmiş, onun qayda-qanunlarından xəbərdar olan kamil və yetkin bir şəxsin *(mürşidin, şeyxin)* nəzarəti və rəhbərliyi altında keçilməlidir. Bir mənzili keçmədən növbəti mənzilə çatmaq mümkün deyil. İrfanı əxlaq elmindən fərqləndirən əsas cəhət də budur. İrfanda bəşər ruhu bir bitki, yaxud körpə uşaq kimidir; onun kamilliyi xüsusi qanun üzrə inkişaf etməsindədir. Bu baxımdan irfan təkamülpərvər, mütəhərrik bir təlimdir. Əxlaq elmində isə sadəcə olaraq ruhun gözəl xüsusiyyətləri – fəzilətlər sadalanır və bunların təsviri verilir. Əxlaq nöqteyi-nəzərindən, insan ruhu naxışlarla bəzədilməsi lazım olan evə bənzəyir, amma işin hansı ardıcıllıqla görülməsi, haradan başlayıb harada qurtarmaq lazım gəldiyi göstərilmir.

Nəzəri irfan varlığın təfsiri, yəni Allah, aləm və insanın izahı ilə məşğuldur. Nəzəri irfan fəlsəfə və *kəlam* elmlərinə yaxındır, amma bunların da arasında bəzi fərqlər vardır. Məsələn, fəlsəfə və kəlam yalnız əqli prinsiplərə və metodlara əsaslanır. İrfanda isə *kəşfə* (hissiyyatla dərketməyə) dayaqlanan prinsip və metodlar əsas sayılır. Kəlam aliminin nəzərində həm Allah, həm də Allahdan qeyri şeylərin hamısı həqiqidir. Fərq bundadır ki, Allah *«vacibül-vücud»*, Ondan savayı hər şey «mümkünül-vücud»-dur. Arif isə bu fikirdədir ki, Allahdan savayı heç nə Allah qarşısında qərar tuta biləcək vücuda malik deyil. Allahın vücudu hər şeyi əhatə etmiş və özündə toplamışdır. Hər şey yalnız Allahın ad, sifət, iradə və təcəllasıdır, ondan başqa bir şey deyildir. Həqiqi mövcud olan yalnız Allahdır, Allahdan savayı hər şey görünüşdür, təzahürdür, varlıq deyil. Arifin tövhidi «Allahdan savayı heç nə yoxdur» deməkdir.

Filosofun və kəlam aliminin mənbələri ağıl və məntiq, metodu isə istidlaldır (əsaslandırma); Arifin mənbəyi – qəlb, metodları – daxili mübarizə, hərəkət və paklaşmadır.

N.R.

İRHAS

Allahın peyğəmbər olaraq seçdiyi şəxslərdə peyğəmbərlikdən əvvəl müşahidə olunan xariqül-adə hallar. Məsələn, Həzrət İsanın (ə) beşikdə danışması, Həzrət Mühəmməd Peyğəmbərə (s) cansız varlıqların salam verməsi və s. Bunlar hələ peyğəmbərliyin sübutu deyil. Lakin peyğəmbərliyə seçildikdən sonra onların göstərdikləri möcüzələr peyğəmbərliyin isbatı kimi dəyərləndirilir.

A.Q.

İRŞAD

Doğru yol göstərmək, hidayət etmək mənalarını bildirir. «Rüşd» kəlməsindən törəmişdir. Rüşd doğru yola girmək deməkdir. Bu yol həm maddi, həm də mənəvi ola bilər. Qurani-kərimdə buyurulur: «Allahın doğru yola saldığı kəs doğru yoldadır. Allahın yoldan çıxartdığı kimsəyə isə əsla doğru yol göstərən bir dost *(rəhbər)* tapa bilməzsən» *(Kəhf, 17)*.

R.M.

İRTİDAD

Lüğətdə «geri dönmək, üz çevirmək» mənalarını verir. Müsəlmanın İslam dinini tərk etməsinə irtidad deyilir. Buna riddə də deyirlər. İrtidad edən insan «mürtəd» adlanır.

İslam qaynaqlarında irtidad və mürtəd mövzusu etiqadi və hüquqi cəhətdən mübahisəlidir. Həzrət Mühəmməd Peyğəmbərin (s) həyatının son illərində, Həzrət Əbu Bəkrin və Həzrət Ömərin xilafəti dövründə 11 ərəb qəbiləsinin irtidad etdiyi bildirilir. İslamın ilk illərində dindən dönənlər, əsasən, zəkat verməkdən boyun qaçıranlar idi. İrtidad təkcə bu dövrlə məhdudlaşmamış, bundan sonra da İslamdan dönənlər olmuşdur.

İrtidad həm də Allaha verilmiş əhddən dönmək deməkdir. Bu da böyük günahdır.

Ə.N.

İSLAM

Dünyada geniş yayılmış, 1,3 milyard nəfərə yaxın ardıcılı olan dinin adıdır. Ərəb dilindən tərcümədə «təslim olmaq» mənasını bildirir. İslam dini insandan Allahın iradəsinə və müqəddəs qanunlarına qeydsiz-şərtsiz təslim olmağı tələb etdiyi üçün ona bu ad verilmişdir.

İslam insanın fitrətinə, təbiətinə və tutumuna uyğun şəkildə Allah tərəfindən onun üçün göndərilmiş etiqadi görüşlər, əxlaqi normalar və praktiki göstərişlər məcmusudur. Qurani-kərimdə İslam dini barəsində belə buyurulur: «Allah yanında *(haqq olan)* din, əlbəttə, İslamdır» *(Ali-İmran, 19)*.

Geniş yayılmış təsəvvürün əksinə olaraq, İslam miladi VII əsrdə Həzrət Mühəmməd Peyğəmbər (s) tərəfindən təbliğ edilmiş tamamilə yeni təlim deyil. Bəşəriyyətin yarandığı gündən mövcud olmuş, Həzrət Adəm, Nuh, İbrahim, Musa və İsa (ə) kimi peyğəmbərlər tərəfindən təbliğ edilmiş təlimlər də əqidə baxımından Mühəmməd Peyğəmbərin (s) dini ilə eyni idi. Bütün peyğəmbərlər vahid Allaha iman gətirməyi, özündən əvvəlki və sonrakı peyğəmbərlərə ehtiram göstərməyi, axirət həyatına etiqad bəsləməyi insanlara təbliğ edirdilər. Lakin onların ölümündən sonra gətirdikləri dinlərin ilahi mahiyyəti, hətta bəzən adı da dəyişdi: Musanın (ə) dini iudaizm formasına, İsanın (ə) dini isə xristianlıq şəklinə düşdü. Bütün peyğəmbərlərin insanlara elan etdikləri və təslim olmağa çağırdıqları din eyni idi. Fərq, şəriət adlanan ibadət əməllərinin yerinə yetirilməsində idi. Yuxarıda xatırlanan ayə də bunu təsdiq edir.

İslam dini bəşəriyyət üçün xoşbəxtlik və qurtuluş manifestidir. O, istənilən cəmiyyətdə istənilən insan fərdi üçün ən yüksək həyat şəraitini təmin edə biləcək ümumbəşəri əbədi dindir. İslam dini həm böyük, həm də kiçik miqyaslı cəmiyyətlərdə, qadın və kişi, ağ və qara, qərbli və şərqli üçün eyni qüvvəlidir. Hər kəs bu dinə daxil olmaqla öz mənəvi və maddi ehtiyaclarını ödəyə bilər. İslam humanist dindir və insanlığın bütün problemlərinin həllinə çalışır. İslam dininə görə, bütün insanlar böyük bir ailənin bərabər üzvü kimidirlər və eyni hüquqlara malikdirlər.

Uzun müddət İslamı öyrənmiş və onu yeganə kamil din hesab etmiş məşhur alman şairi İ.V.Höte (1749-1832) «Qərb-Şərq divanı»nda yazırdı: «Əgər İslam Allaha təslim olmaqdırsa, bizim hamımız İslam əqidəsində yaşayırıq və bu əqidədə öləcəyik».

Bernard Şou (1856-1950) «Mühəmməd (s) – Allahın elçisi» əsərində yazırdı: «Mən həmişə Mühəmmədin (s) dininə, malik olduğu möcüzəvi həyat gücünə və enerjiyə görə dərin ehtiram bəsləmişəm. Mənim fikrimcə, İslam taleyin cürbəcür fitnələrini və sivilizasiya fərqlərini dəf etmək yolunda uğur qazana bilən yeganə dindir. Mən qabaqcadan görürəm ki, (bu, artıq bu gün də aydındır) avropalılar bir-birinin ardınca İslam dinini qəbul edəcəklər».

İslam digər dinlərdən öz kamilliyi ilə fərqlənir. Buna görə də İslam cəmiyyətə hər hansı başqa dindən daha çox faydalıdır. İslam ümumbəşəri dindir və bütün bəşəriyyətə ünvanlanmışdır. Qurani-kərimdə Allahtəala Həzrət Mühəmməd Peyğəmbərə (s) müraciətlə buyurur: «Səni də aləmlərə ancaq bir rəhmət *(mərhəmət)* olaraq göndərdik» *(Ənbiya, 107)*. Qurani-kərimin yüzlərlə ayəsi «ya eyyühən-nas» (ey insanlar) və «ya eyyühəl-ləzinə amənu» (ey iman gətirənlər) xitabı ilə başlayır.

İslam dini Yaradan barəsində öz dəqiq və ciddi təsəvvürləri ilə hinduizm, buddizm, iudaizm, xristianlıq və atəşpərəstlik kimi dinlərdən tamamilə ayrılır. Budda və Krişnanın yarılahi-yarıbəşəri təbiəti barədə təlimlər, atəşpərəstlikdəki Xeyir və Şər dualizmi, xristianlıqdakı *təslis* (üçtanrıçılıq) inancı İslamın təqdim etdiyi Allah anlayışının tam ziddinədir. Hinduizmin əsasını təşkil edən *təna sü x* (ruhun bir bədəndən digərinə keçərək bir neçə ömür yaşaması) nəzəriyyəsi İslamda batil və əsassız sayılır.

Hinduizmdəki sinifli cəmiyyət və ciddi kasta sisteminin əksinə olaraq, İslam dinində hamı Allah qarşısında bərabər və eynihüquqlu elan edilir. İslama görə, zənci və ağdərili, ərəb və *əcəm*, varlı və kasıb, kəndli və şəhərli bərabər hüquqlara malikdir və qanun qarşısında eyni məsuliyyət daşıyır. Üstünlük vəzifədə, sərvətdə, əsil-nəsəbdə deyil, yalnız imanda və əməlisalehlikdədir: «Allah yanında ən hörmətli olanınız ən təqvalı olanınızdır» *(Hücürat, 13)*.

Məşhur fransız şərqşünası Qustav le Bon «İslam və ərəb mədəniyyəti» adlı kitabında İslamın sair dinlərdən üstünlüyünü ümumiləşdirilmiş şəkildə belə ifadə edir: «Başqa dinlərdə rast gəlinən dolaşıqlıq və ziddiyyətlərin heç biri İslamda görünmür. Nə qədər fikirləşsəniz də, İslamın bu əsas prinsipindən sadə bir şey tapa bilməzsiniz: Allah təkdir, bütün insanlar Allah qarşısında bərabərdirlər. Elə bu səbəbdəndir ki, xeyli xristian İslamı daha üstün sayıb onu qəbul edir». Dünya şöhrətli filosof Bertran Rassel (1872-1970) isə bu barədə fikirlərini belə ifadə edirdi: «Mühəmmədin (s) dini sadə bir təkallahlılıq idi. O, Allah haqqında anlayışların batini mahiyyətini əyib-burmamış, axırda dolaşıq və anlaşılmaz şəklə düşməmişdir».

Elm və sənətə münasibət məsələsində də İslam həmişə xristianlıqdan fərqlənmişdir. Orta əsrlərdə Avropada alimlər və ixtiraçılar inkvizisiya məhkəməsinə çəkildikləri halda, müsəlman ölkələrindəki kitabxana və mədrəsələrdə oxuculara və tələbələrə təqaüd ödənilir, iş vəsaiti verilirdi. Qərb alimləri etiraf edirlər ki, xristian dünyası bugünkü nailiyyətlərin çoxunu müsəlmanlardan mənimsəmişdir. Məşhur tarixçi Viktor Robinson orta əsrlərin müsəlman və xristian mədəniyyətlərini müqayisə edərək yazırdı: «Avropanın yüksək məqamlı şəxsiyyətləri sənədə qol çəkməyi belə bacarmadıqları halda, müsəlman İspaniyasında mədrəsələrdə azyaşlı uşaqlar müxtəlif elmlərin sirrinə yiyələnirdilər. Avropanın xristian kilsə rahiblərinin başı dini mətnləri oxumağa qarışdığı halda, Kordovada (İspaniya) əzəmətli İsgəndəriyyə kitabxanası ilə müqayisə edilə biləcək nəhəng kitabxana yaradılmışdı».

İslam dininin üstünlüyünü və yeganə düzgün təlim olduğunu dananlara Quranda açıq-aşkar cavab verilir: «Kim İslamdan başqa bir din ardınca gedərsə, *(o din)* heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar» *(Ali-İmran, 85)*.

İslamın *üsulüd-din* (dinin əsasları) adlanan başlıca etiqadi prinsiplərini qısaca bu şəkildə ümumiləşdirmək olar: Vahid və ədalətli Allahı bütün sifət və xüsusiyyətləri ilə qəbul edib ona iman gətirmək; ölümdən sonrakı həyatın, qiyamətin və axirətin mövcudluğunu qəbul etmək; Allahın göndərdiyi bütün peyğəmbərlərə, o cümlədən, sonuncu peyğəmbər Həzrət Mühəmmədə (s) iman bəsləyib onları möhtərəm bilmək. Üsulüd-dini qəbul edən şəxs *müsəlman* sayılır.

Hal-hazırda bəşəriyyətin təqribən 20 faizi, yəni hər 5 insandan biri müsəlmandır. İslam dini son 100 il ərzində görünməmiş sürətlə inkişaf edərək, öz ardıcıllarının sayını artırmaqdadır. Əgər 1900-cü ildə dünyada cəmi 200 milyon nəfər müsəlman yaşayırdısa, 1980-ci ildə onların sayı artıq 723 milyonu ötmüşdü. 2007-ci ildə isə müsəlmanların sayı 1 milyard 300 min nəfərdən çox olmuşdur. Onların əksər hissəsi Asiya qitəsində və Afrikanın şimalında məskunlaşmışdır. Belə ki, dünya müsəlmanlarının 70 faizi Asiyada, 26,7 faizi Afrikada yaşayır. Qərbi Avropa dövlətlərində yaşayan əhalinin təqribən 4,3 faizi, Şərqi Avropa əhalisinin isə 10,6 faizi müsəlmandır. Bu o deməkdir ki, ümumilikdə Avropa ölkələrində 50 milyon nəfərdən artıq müsəlman yaşayır. Fransada əhalinin 9,72 faizi, Rusiyada 14,75 faizi, Almaniyada 4 faizi, Yunanıstanda 6,9 faizi, Belçika və Hollandiyada 6 faizdən çoxu, Böyük Britaniyada 3 faizə qədəri müsəlmanlardan ibarətdir. Müsəlmanların əksəriyyətini sünnilər təşkil edir, qalan 10 faiz əsasən, İran, İraq, Azərbaycan, Livan və Bəhreyndə məskunlaşmış şiələrdən ibarətdir.

Sahəsinə görə ən böyük müsəlman ölkəsi Sudandır. Bundan sonra Əlcəzair və Səudiyyə Ərəbistanı gəlir. Hindistan və Qazaxıstan kimi iri ölkələrdə xeyli müsəlman yaşasa da, onlar ölkə əhalisinin yarısından da azını təşkil edirlər.

Əhalisinin sayına görə birinci yerdə duran müsəlman ölkəsi isə İndoneziya sayılır. Burada 200 milyon nəfərdən artıq müsəlman yaşayır. İkinci yerdə duran Pakistanda müsəlmanların sayı 168 milyona yaxındır. Hindistan 160 milyon, Banqladeş isə 135 milyon müsəlmanın vətənidir.

N.R.

İSLAM FƏTHLƏRİ

Həzrət Mühəmməd Peyğəmbərin (s) sağlığında İslam dini bütün Ərəbistan yarımadası ərazisinə yayılaraq, bütpərəstliyi tamamilə sıxışdırıb çıxardı. Peyğəmbərin vəfatın-

dan dərhal sonra müsəlmanlar Ərəbistanın sərhədlərini aşıb, ətraf məntəqələrin üzərinə yürüşə çıxdılar. Çox qısa müddət ərzində müsəlman qoşunu görünməmiş uğurlar əldə etdi. Böyük şəhərlər bir-birinin ardınca təslim olur, qüdrətli imperiyalar çökürdü. Müsəlmanların həm quruda, həm də dənizdə apardıqları möhtəşəm hərbi əməliyyatlar nəticəsində Sasani imperiyası dağıldı, Bizans isə xilafətə xərac verməyə məcbur oldu. Fəthlərin başlanmasından 150 ildən də az vaxt keçdikdən sonra müsəlmanların səsi Şimali Afrika sahillərini aşaraq artıq Avropadan gəlir, Çin və Hindistandan eşidilirdi.

Ən böyük müsəlman fəthlərinin xronologiyasını izləyərkən aydın olur ki, bunların əksəriyyəti əsasən İslamın ilk 250 illik dövrünün payına düşür. İslam tarixində bununla müqayisə oluna biləcək növbəti fəth dalğası isə təqribən altı əsrdən sonra – Osmanlı imperiyası zamanında müşahidə olundu. Buna görə də aşağıdakı xronoloji cədvəldə həmin iki zaman bölümü işıqlandırılır.

IX əsrin sonlarından etibarən xilafət torpaqları xırda dövlətlərə bölündü, onların arasında daxili mübarizələr qızışdı və müsəlmanların hərbi əməliyyatları əsasən özlərinə qarşı yönəldi. Xırda dövlətlərin güclü ordu təşkil edə biləcək maddi və canlı potensialı olmadığına görə, X əsrdən etibarən xarici ölkələrə qarşı yürüşlər də zəiflədi; hətta belə demək mümkünsə, onların sayı sıfra endi. Burada azsaylı bir neçə zəfəri istisna etmək lazımdır. Məsələn, 1071-ci ildə səlcuq sultanı Alp Arslan Mələzgürd döyüşündə Bizans ordusunu darmadağın edib, imperator Diogeni əsir tutdu. Bunun nəticəsində Bizans Kiçik Asiyadakı ərazilərini itirdi.

XII-XV əsrlərdə müsəlmanların adı bir çox dəhşətli müharibə səhnələrində görünsə də, bunlar fəth deyil, müdafiə xarakteri daşıyırdı. Məsələn, 1187-ci ildə Sultan Səlahəddin Əyyubi səlibçiləri məğlub etdi, onlar tərəfindən işğal olunmuş müsəlman torpaqlarını geri aldı. 1260-cı ildə Eynül-Calut savaşında məmlüklər monqolları məğlubiyyətə uğradıb onların Misrə yolunu bağladılar. Bundan sonra monqollar bir daha Misrə üz tutmadılar. XI-XII əsrlərdə Şimali Afrikada hakimiyyət sürən əl-Müvəhhidun və əl-Mürabitun sülalələri vaxtilə müsəlmanların fəth etmiş olduqları torpaqları geri almağa çalışan Avropa qoşunları üzərində bir neçə dəfə qələbə qazansalar da, bu qələbələr müvəqqəti xarakter daşıdı, müsəlmanların Avropadan qovulması prosesini yalnız bir müddət ləngidə bildi. Göründüyü kimi, bu dövrə aid müharibələr müsəlmanların fəthi hesab oluna bilməz. Bunlar müsəlman sərhədlərini aşan yadelli işğalçılara (səlibçilərə, monqollara) qarşı müdafiə tədbirindən başqa bir şey deyildi.

Təəssüf ki, əsrlər boyunca bəzi qərəzli tədqiqatçılar İslamın qılınc və zor gücünə yayılmış olduğunu sübut etməyə çalışmış, müsəlmanları qəddarlıqda və vəhşilikdə təqsirləndirmişlər. Eyni fikri bu gün də müdafiə edənlər var. Hətta müsəlmanların özləri belə, bunun təsiri altına düşərək, özlərini «qılınc müsəlmanı» adlandırırlar. Halbuki, həmin dövrün tarixi hadisələri barədə qələmə alınmış həm müsəlman, həm də qeyri-müsəlman mənbələrini araşdıranda tamamilə başqa bir mənzərə ilə qarşılaşırıq. İslam əksər hallarda qeyri-müsəlman millətlər tərəfindən zor gücünə yox, könüllülük əsasında qəbul edilirdi. Müsəlmanlar fəth etdikləri ərazilərə ədalət, bərabərlik, əmin-amanlıq gətirirdilər. Onlar Qurani-kərimin bu ayəsinə əsaslanırdılar: «Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddi aşmayın! Allah həddi aşanları sevməz!» *(Bəqərə, 190)*. Müsəlmanlar öz fütuhatlarına qeyri-müsəlman millətləri Allaha doğru yönəltmək, küfr zülmətindən xilas etmək kimi baxırdılar. Onlar bu torpaqlara qənimət dalınca gəlmirdilər. Aparılan döyüşləri, tökülən qanları müsəlmanlar öz dini vəzifələrinin icrası kimi görürdülər. Öz ağaları tərəfindən olmazın zülmlərə məruz qoyulmuş yerli əhali müsəlmanları xilaskar kimi qəbul edirdi. İslamın ilahi ədalət üzərində köklənmiş qanunları ilə tanış olanda camaatın çoxu öz razılığı ilə müsəlman olurdu. İslamı təzə qəbul edənlərlə «köhnə» müsəlmanlar arasında qətiyyən fərq qoyulmurdu; bütün maddi və mənəvi hüquqlar onlara da şamil edilirdi. Öz dinində qalanların milli adət-ənənələri, dini ayinləri, geyim tərzi, dili, ibadət ocaqları toxunulmazlıq altında idi. Camaata icazə verilirdi ki, mübahisəli məsələlərdə əz hakimlərinə müraciət edib, öz məhkəmələrinin

hökmünə əməl etsinlər. Bütün bunların müqabilində qeyri-müsəlman əhali o zaman üçün çox cüzi sayılan miqdarda *cizyə* (vergi) verməli idi. Verginin məbləği əyanlar və dövlətlilər üçün bir dinar, kasıblar üçün yarım dinar həddində müəyyən edilmişdi. Göründüyü kimi, qeyri-müsəlmanlardan alınan cizyənin məbləği müsəlmanların verməli olduğu vergilərdən heç də çox deyildi.

İslam fəthlərinin humanist xarakterini bir çox Qərb tədqiqatçıları da etiraf etmişlər. Məsələn, Ziqrid Xonke adlı alman alimi «Allah belə deyil» kitabında yazır: «Müsəlmanların dini dözümlülüyü İslamın yayılmasında həlledici rol oynamışdır. İslamın guya od və qılınc gücünə yayıldığı barədə yalan iddialar bu həqiqətin ziddinədir. Bu iftira İslam düşmənlərinin əlində ən əsas bəhanələrdən biri olub».

Əlbəttə, müsəlmanların yürüşləri savaşsız ötüşmürdü. Lakin bir qayda olaraq onlar əvvəlcə sülh təklifi edir, qarşı tərəf bunu qəbul etməyəndə silaha əl atırdılar. İslam fəthlərinin tarixi sübut edir ki, müsəlmanların bu qədər geniş ərazilərə sahib çıxmaları cüzi sayda itki hesabına başa gəlmişdir. Məsələn, sonrakı dövrlərdə başqa dinlər və millətlər tərəfindən aparılmış anoloji müharibələrdə qurbanların sayı bundan qat-qat çox olmuşdur.

Müsəlmanlar döyüşdə qalib gəldikdən sonra da alicənablıqla davranır, onlara qarşı vuruşanları əfv edir, məğlub tərəflə tam ədalətli şərtlər daxilində müqavilə bağlayırdılar. Məsələn, ikinci xəlifə Ömər ibn Xəttabın hakimiyyəti dövründə Ütbə ibn Fərqəd adlı sərkərdənin başçılığı altında Azərbaycanı fəth etmiş müsəlmanlar o zamanlar Sasani imperiyasına tabe olan Azərbaycan valisi İsfəndiyaz ibn Fərruxzadın qoşununu məğlub etdikdən sonra yerli əhali ilə belə bir müqavilə bağlamışdılar:

«Bismillahir-Rəhmanir-Rəhim. Bu, xəlifə Ömər ibn Xəttabın nümayəndəsi Ütbə ibn Fərqədin Azərbaycan əhalisinə verdiyi amannamədir. Səhrada, dağda ya dərədə yaşamasından, dini mənsubiyyətindən asılı olmayaraq hamının canı, əmlakı, dini və əqidəsi amandadır; bir şərtlə ki, imkanları çatdığı qədər cizyə versinlər. Uşaqlar, qadınlar, kasıb xəstə insanlar, tənhalığa çəkilib ibadətlə məşğul olan və dünya malından heç nəyi olmayan abidlər vergi ödəməkdən azaddırlar. Bu amannamə həm onların özləri, həm də öhdələrində olanlar üçün qüvvədədir. Gərək əhalidən hər kəs bir müsəlman əsgərini bir gecə-gündüz öz evində qonaq saxlayıb yedirsin, ona bələdçilik etsin. Hər kəs müsəlman ordusunda bir il xidmət etsə, həmin ilin vergisindən azaddır. Yerdə qalanlar əsgərliyə getməyən hökmündədirlər və vergi verməlidirlər. Hər kəs yaşayış yerini dəyişib başqa yerə köçsə, həmin yerə çatana kimi amandadır» *(Təbəri tarixi)*.

Bunu da qeyd edək ki, bir çox ərazilərə İslam dini ümumiyyətlə döyüşsüz və ordusuz ayaq açıb. Məsələn, İndoneziyaya, Qərbi Afrika torpaqlarına İslamı müsəlman tacirlər gətirmişdilər. Onların gözəl əxlaqını görən yerli əhalidə İslama qarşı rəğbət yaranmış və bu din həmin ərazilərdə yayılıb möhkəmlənmişdi.

Nə qədər ki müsəlman fatehlər İslam qanunlarına riayət edir, camaatla ədalətli davranır, sərvətə, var-dövlətə uymurdular, fəthlər uğurla davam edirdi. Lakin bir müddət sonra xilafətdə ikitirəlik, zülm, yalan, rüşvət baş alıb getdi, xəlifələrin eyş-işrətə uyması adi hala çevrildi. Həmin dövrdən etibarən müsəlmanların ehtişamı zəiflədi. Nəinki yeni xalqlar, millətlər İslam dinini qəbul etmədilər, hətta xilafət ərazisini başdan-başa üsyanlar və azadlıq hərəkatları bürüdü, bütöv ərazilər xilafətdən qopub öz müstəqilliyini elan etdi. Onların etirazı İslam dininə, şəriətə qarşı deyil, zalım hökmdarlara, rüşvətxor qazılara, acgöz valilərə qarşı yönəlmişdi. Elə həmin dövrdən müsəlmanların elmi-mədəni tərəqqisi də tənəzzül etməyə başladı. Əcnəbilər müsəlmanların zəifliyindən istifadə edərək, həm siyasi, həm mədəni, həm də hərbi sahədə onları sıxışdırdılar.

Miladi IX-X əsrlərdə yaşamış müsəlman salnaməçiləri tərəfindən qələmə alınan bir çox tarix kitablarında İslam fəthlərinin ətraflı təsviri verilib. Bu kitablar sırasında ilk növbədə Təbəri, Məsudi, Yəqubi, İbn Əsəm Kufi, Dinəvəri kimi müəlliflərin fundamental salnamələrini qeyd etməliyik. Ümumi tarix kitablarından əlavə, bəzi müəlliflər sırf fütuhat mövzusunda əsərlər qələmə alırdılar. Hətta ayrı-ayrı ölkələrin fəthindən bəhs

edən kitablar da mövcuddur. Bunlardan ən məşhurları aşağıdakılardır: Bəlazurinin (vəf. 892) «Fütuhül-buldan» (Ölkələrin fəthi) kitabı, İbn Əsəm Kufinin (vəf. 926-927) «əl-Fütuh» (Fəthlər) əsəri, Vaqidinin (vəf. 823) «Məğazi» (Həzrət Mühəmməd Peyğəmbərin (s) savaşları) kitabı, eyni müəllifin Şam, Misir, Şimali Afrika, İran, İraq bölgələrinin fəthinə həsr edilmiş ayrı-ayrı əsərləri, Mədaininin (vəf. 830 və ya 840) «Fütuhatül-İslam» (İslam fəthləri) kitabı və s.

ƏSAS İSLAM FƏTHLƏRİNİN XRONOLOJİ CƏDVƏLİ

İlk 250 il ərzində

624 Bədr döyüşü.
625 Ühüd döyüşü.
628 Xəndək döyüşü və Hüdeybiyyə sülhü. Xeybər savaşı.
629 Bizansla ilk döyüş – Mütə savaşı.
630 Məkkənin fəthi. Hüneyn və Təbuk döyüşləri.
631 Bütün Ərəbistan yarımadasının fəthinin başa çatdırılması.
633 İraqın cənubunun fəthi. Əcnadeyn qələbəsi.
635 Şamın (Suriyanın) fəthi.
636 Yərmuk savaşı. Qadisiyyə savaşı.
637 Cəlulada Sasanilərin məğlubiyyəti. Qüds şəhərinin müsəlmanlara təslim olması.
638 Antakiya və Hələbin fəthi.
639 Rey və Qəzvinin ələ keçirilməsi, Azərbaycanın cənubunun fəthi. Ərdəbil yaxınlığında Azərbaycan valisi İsfəndiyazla sülh müqaviləsinin bağlanması.
639-642 Misrin fəthi.
641 Urfa, Hərran və Mosulun fəthi.
642 Nəhavənd savaşı. Sasanilər dövlətinin süqutu. Əmr ibn As tərəfindən Misirdə Fustat şəhərinin salınması.
642-642 Dərbənd, Muğan və Gilanın fəthi, bu yerlərin əhalisi ilə sülh müqaviləsi bağlanması.
643 Qərbi Tripolinin fəthi.
646 Türküstanın fəthi. Anadolunun fəthi. Təbriz, Talış, Muğan, Bərdə və Beyləqan əhaliləri ilə sülh müqavilələrinin imzalanması.
647 Şimali Afrika istiqamətində fütuhatın başlanması.
648 Kipr adasının fəthi.
651-652 Herat və Bəlx şəhərlərinin fəthi.
654 Rodos adasının fəthi.
655 Likiya sahillərində Bizans donanması üzərində qələbə.
661-667 Hindistan istiqamətində yürüşlərin başlanması.
668 Konstantinopolun mühasirəsi. Bu şəhər bir neçə dəfə (668, 673-678, 716-717, 722) müsəlmanlar tərəfindən mühasirəyə alınsa da, təlim olmadı. Nəhayət, 1453-cü ildə Sultan Mehmet Fateh Konstantonopolu həmişəlik olaraq fəth etdi.
696-698 Şimali Afrikanın fəthinin başa çatması.
702 Qərbi Türküstanın fəthi.
706 Türküstanı xilas etməyə gəlmiş Çin ordusunun məğlub edilməsi.
708-715 Sind və Pəncab düzənliklərinin fəthi.
709 Atlantik okeanı sahillərinə kimi Şimali Afrikanın ələ keçirilməsi. Buxaranın fəthi.
710-711 Kilikiyanın fəthi.
711 Tariq ibn Ziyadın sərkərdəliyi altında müsəlmanların Afrikadan İspaniyaya keçmələri. Əndəlus düzənliyinin fəthi.
712 Səmərqəndin fəthi. İspaniyada Sideniya, Kormona, Seviliya və Merid şəhərlərinin fəthi.
713 Musa ibn Nəsirin sərkərdəliyi altında müsəlmanların Pireney dağlarını aşıb Fransa sərhəddinə çatmaları. Müsəlmanların Kaşğara yaxınlaşıb Çin sərhəddinə çatmaları.
715 Qərbi Anadoluda irəliləyişlər.
716-717 Balear adasının fəthi.
720 Cənubi Qalliya üzərinə yürüş.
721 Tuluz şəhərinin fəthi.
723 Konya şəhərinin fəthi.
723-724 Xəzər qoşunu üzərində qələbə. Gürcüstanın fəthi.
726 Kordova şəhərinin fəthi.
732 Fransanın Tur şəhərinin fəthi. Puatye savaşında müsəlmanların frank ordusuna məğlub olub geri çəkilmələri.
740 Zəngibarın (Tanzaniya) qonşuluğundakı Kilvanın fəthi.
750 Talas yaxınlığında Çin ordusunun müsəlmanlara məğlub olması.
756 Kordova əmirliyinin təsis edilməsi.
758 Müsəlman donanmasının Çin sahillərində yerləşən Kanton şəhərini fəth etməsi.
765 İlk frank səfirinin Bağdada gəlişi.
778-780 Saraqossa adasının Kordova əmirliyinə birləşdirilməsi.
782 Dəniz yolu ilə Qalatiyanın (Kiçik Asiyanın şimalı) fəthi. Müsəlmanların Üsküdara kimi irəliləyişi. Bizans imperatorunun xərac verməyə məcbur olması.
795 Ərəb dili İspaniyanın rəsmi dilinə çevrilir.
801 Harun ər-Rəşidlə frank kralı Şarlman arasında diplomatik səfirliklərin mübadiləsi.
805 Korsika adası üzərinə yürüş.
807 Rodos adasının fəthi.
809-810 Korsika və Sardiniya adaları uğrunda mübarizə.
815 Kordova əmirliyi ilə Frank dövləti arasında saziş bağlanması.
822 Barselonanın fəthi.
823 Krit adalarının fəthi.
825 Korsika adasının fəthi.
830 Ankaranın və ətraf bölgələrin fəthi.
831 Palermonun fəthi.
842 İtaliyanın Mesina və Toranto şəhərlərinin fəthi.
846 Müsəlmanların Roma qapılarına kimi irəliləmələri.
849-850 Cənubi Fransadakı Pervans üzərinə yürüş.
853 Malta adalarının fəthi.
878 Siciliyanın fəthi.

Osmanlıların Avropa fəthləri

1453 Fateh Sultan Mehmet tərəfindən Konstantonopolun fəthi.
1453-59 Serbiyanın fəthi.
1456-70 Egey adalarının fəthi.
1460 Yunanıstanın fəthi.
1463 Bosniya-Hersoqovina və Şimali Rumıniyanın fəthi.
1463-79 Albaniyanın fəthi.
1484 Boqdanın (Cənubi Rumıniya) fəthi.
1521 Belqradın fəthi.
1522 Rodos adasının fəthi.
1529 Vyana şəhərinin birinci mühasirəsi.
1533 Avstriya Osmanlılara xərac verməyə başlayır.
1540 Şimali Macarıstanın fəthi.
1541 Transilvaniyanın fəthi.
1558 Balear adalarının fəthi.
1566 Ziqetvarın (Macarıstan) fəthi.
1570 Kiprin fəthi.
1585 Kanar adalarının fəthi.
1625-33 Osmanlıların Şimali Avropa dəniz limanlarında üstünlüyü ələ almaları.
1672 Polşa xərac verməyə məcbur edilir.
1683 Vyananın ikinci mühasirəsi.

N.R.

İSMƏT

bax: *məsum.*

İSMİ-ƏZƏM

Allah-təalanın Quranda və hədislərdə qeyd edilən adlarının ən böyüyünə «ismi-əzəm» deyilir.

İsmi-əzəmi Allah-təala öz adları içərisində gizlətmişdir. Bunun hikməti insanların *əsmaül-hüsnaya* rəğbətini artırmaq və bu adların hamısı ilə Allaha dua etmələrinə təşviq göstərməkdir. Əgər ismi-əzəm konkret məlum olsaydı, insanlar yalnız o adla Allaha dua edib digər adları unudardılar. İsmi-əzəmin Allah dərgahında dəyəri böyükdür. Bu adla edilən duaların Allah tərəfindən mütləq qəbul edildiyi rəvayətlərdə bildirilir.

Əsmaül-hüsnadakı hansı adın ismi-əzəm olduğu haqqında İslam alimləri fərqli nəzəriyyələr irəli sürmüşlər. Böyük əksəriyyətin qənaəti budur ki, ismi-əzəm Allah adının özüdür. Həzrət Əli ibn Əbu Talibə (ə) görə, ismi-əzəm təkcə bir ad deyil, əl-Vahid, əl-Həyy, əl-Qəyyum, əl-Hakim, əl-Ədl və əl-Qüddusdan ibarət 6 addır. Əbu Hənifəyə görə, ismi-əzəm əl-Hakim və əl-Ədl olmaq üzrə iki addır. İmam Rəbbaniyə görə əl-Qəyyum, başqa bir nəzəriyyəyə görə əl-Həyy adı ismi-əzəmdir.

Bəzi alimlərin fikrincə, əsmaül-hüsnaya daxil olan hər adın ayrı-ayrılıqda ən üstün mərtəbəsi vardır və hər bir adın bu mərtə-

bədəki təcəllası ismi-əzəm sayılır.

K.M.

İSRA

Ərəb dilindən tərcümədə «gecə səfəri» deməkdir. Həzrət Mühəmməd Peyğəmbərin (s) *merac* gecəsində vəhy mələyi Cəbrailin müşayiəti ilə, *Büraq* adlı miniyin tərkində Məkkədən Qüdsə *(Məscidül-haramdan Məscidül-əqsaya)* səfər etməsinə deyilir. İsra hadisəsi meracın müqəddiməsi sayılır.

bax: *merac.*

N.R.

İSRAİLİYYAT

İudaizm, xristianlıq və digər dinlərdəki məlumatlara əsaslanan rəvayətlər. Bunlar keçmiş ümmətlərin həyatı ilə bağlı Quran ayələrinin təfsirinə aiddir. Bu rəvayətlərdə yəhudi ünsürü xristianlıq və sairə ünsürlərdən daha güclüdür; çünki müsəlmanlar yəhudilərlə daha çox ünsiyyətdə olmuş, Mədinədə onlarla bir icma daxilində yaşamışlar («israiliiyyat» sözü də yəhudiləri ifadə edən *«Bəni-İsrail»* sözündəndir).

Quranda işıqlandırılan bəzi mövzular *Tövratda* və *İncildə* də mövcuddur (məsələn, Həzrət Adəmin (ə) cənnətdə qadağan olunmuş meyvədən yeyərək oradan qovulması, Həzrət Musanın (ə) fironla mübarizəsi, Bəni-İsrailin başına gələn əhvalatlar, Həzrət İsa (ə) və Həzrət Məryəmlə bağlı hadisələr və s).

Tədqiqatçılar israiliyyat rəvayətlərini üç qismə ayırırlar: məqbul, məskut ənhu və mərfuz rəvayətlər. Elə rəvayətlər məqbul sayılır ki, onların səhihliyi Həzrət Mühəmməd Peyğəmbərdən (s) nəql olunan səhih hədislər əsasında sübuta yetirilir. Səhih olub-olmaması dəqiq məlum olmayan rəvayətlərə məskut ənhu (üstündən sükutla keçilən) deyilir. İslam şəriətinə, yaxud əqli hökmlərə uyğun gəlməyən rəvayətlər isə mərfuz (rədd edilən) sayılır.

M.İ.

İSTİAZƏ

Lüğətdə «sığınmaq və qorunmaq» mənalarını bildirir. Dini terminologiyada qovulmuş şeytanın şərindən uca Allaha sığınmaq deməkdir. Qurani-kərim oxumağa, ibadətlərə və hər hansı işə başlarkən lənətlənmiş şeytanın şərindən Allah-təalaya sığınmaq məqsədilə edilən duadır. Allah-təala buyurur: «Quran oxumaq istədiyin zaman məlun şeytandan Allaha sığın!» *(Nəhl, 98).*

M.İ.

İSTİBRA

Ərəb dilindən tərcüməsi «azad olmaq, xilas olmaq, təmizlənmək, uzaqlaşmaq» deməkdir. Şəriət baxımından ayaqyoluda yerinə yetirilən təharət əməllərindən birini ifadə edir. Belə ki, kişilər sidik ifrazından sonra cinsiyyət üzvündə sidik damcılarının qalmadığına əmin olmalıdırlar; çünki bu damcılar sonradan süzülüb gələrsə, təharət pozulmuş olur və dəstəmaz almaq lazım gəlir. Bunun qarşısını almaq məqsədi ilə istibra edilir. İstibra öz-özlüyündə *sünnətdir* (müstəhəbdir) və ibadətlərin pak halda yerinə yetirilməsini təmin etmək üçün edilir. Əhli-sünnə məzhəbində istibra – sidik kəsildikdən sonra bədəni tərpətmək, öskürmək və ya bir neçə addım yeriməklə həyata keçirilir. Lakin cəfəri məzhəbinə görə, istibra bu yollarla edilə bilməz. Cəfəri fiqhinə aid kitablarda istibranın qaydası konkret göstərilmişdir. İstibra kişilərə məxsus əməldir, qadınlara vacib deyil. İstibra etmədən dəstəmaz alan şəxsdən maye gəlsə, dəstəmazı pozulmuş sayılır.

Bundan başqa, «istibra» termini nikah məsələlərində də istifadə edilir. Qız qaçırma, zorlama kimi hadisələrdən sonra qadın başqa birisinə ərə getməzdən əvvəl bir *heyz* müddəti qədər gözləməlidir ki, hamilə olub-olmadığı məlum olsun. Bu gözləməyi «istibra» adlandırırlar.

Cəfəri məzhəbinə görə, nəcasət yemiş ev heyvanlarından və ev quşlarından ifraz olan sidik və peyin nəcəs sayılır, onlara bulaşan hər şey paklanmalıdır. Lakin həmin heyvanları şəriətdə nəzərdə tutulmuş müddət boyunca pak qida ilə yedizdirəndə, sidikləri və peyinləri nəcəs sayılmır. Buna da istibra deyirlər.

N.R.

İSTİHAZƏ

Qadının cinsiyyət üzvündən gələn qan. *Heyz* (aybaşı) və doğuş əsnasında gələn *nifas* qanından fərqlidir. İstihazə qanı qadının hər hansı daxili xəstəlik və narahatlığından qaynaqlanır. Onun müddəti müxtəlif ola bilər və hər yaşda olan qadından istihazə qanının gəlməsi mümkündür. İstihazə qanı adətən, sarıya çalan rəngdə, soyuq olur, ağrısız və sıxıntısız çıxır; amma bəzən bunun əksi də ola bilər. Ümumi halda, heyz, nifas və yara qanından başqa qadının cinsiyyət üzvündən gələn bütün qanlar istihazə qanı sayılır.

Heyz və nifasdan fərqli olaraq, istihazəli qadın gündəlik namazlarını qılmalı, vacib oruclarını tutmalıdır. İstihazə qanının miqdarından asılı olaraq (şəriətdə bunun az, orta və çox həddi müəyyən olunub) qadın pak olmaq üçün ya dəstəmaz, ya da qüsl almalıdır. İslam məzhəbləri arasında istihazə hökmlərində bəzi fərqlər vardır. Daha dəqiq məlumat üçün hər məzhəbin fiqh mənbələrinə müraciət etmək lazımdır.

N.R.

İSTİHSAN

İstihsan odur ki, *müctəhid* hər hansı məsələ barədə hökm verərkən, *Quran*, *sünnə*, *icma*, zərurət, gizli *qiyas*, *ürf* və ya *məsalihi-mürsələ* kimi dəlil və metodlardan birinə əsaslanaraq, buna oxşar məsələdə verdiyi hökmdən imtina edir və başqa bir hökm verir. Belə ki, bəzən bir məsələ yuxarıda sadalanan dəlil və metodlardan birinin (istər bütün məzhəblərdə, istərsə də bəzi məzhəblərdə etibarlı sayılsın) əhatəsinə daxil olur. Ancaq bu məsələdə həmin dəlil və metodların əksinə hökm verməyi lazım bilən başqa bir xüsusi dəlil və ya metod da mövcud olur. Müctəhid bu xüsusi dəlilin üstün tutulması qənaətinə gələrsə, o məsələnin oxşarlarına tətbiq olunan hökmü tərk edərək, xüsusi dəlilə əsasən hökm verir. Məhz oxşar hallarda tətbiq olunan hökmdən imtina etməyə istihsan deyirlər. Bu yolla sübuta yetmiş hökmə qiyasa zidd olaraq sübuta yetmiş müstəhsən hökm deyilir.

Bəzən bir məsələ Quranda və sünnədə işıqlandırılmır; buna görə də qiyasa müraciət olunur. Ancaq bu zaman iki fərqli qiyas imkanı ortaya çıxır. Yəni bu məsələ ilə hər biri haqqında şəriətdə hökm verilmiş iki fərqli məsələ arasında oxşarlıq görünür. Bu qiyaslardan biri açıqdır (zahir, cəli); yəni iki məsələ arasındakı oxşarlıq asanlıqla görülür. İkinci qiyas isə qapalıdır (xəfi); yəni aradakı oxşarlıq gizlidir və dərhal görünmür. Amma müctəhid məhz ikinci qiyası üstün sayır və qapalı (xəfi) qiyasa əsasən hökm verir. Buna «açıq (cəli) qiyasa zidd olan istehsan» deyilir. Şəriət kitablarında bunlar ətraflı izah edilmişdir.

İstinad edildiyi yerə görə, istihsan bir neçə qismə bölünür: *nəssə* (Quran və sünnəyə) əsaslanan istihsan, icmaya əsaslanan istihsan, zərurət və ehtiyaca əsaslanan istihsan, qapalı qiyasa əsaslanan istihsan, ürfə əsaslanan istihsan, məsalihi-mürsələyə əsaslanan istihsan.

İstihsan metodu şafii və cəfəri məzhəblərində qəbul edilmir.

A.Q.

İSTİXARƏ

Ərəb dilindən tərcümədə «xeyir istəmək» mənasını verir. Dini anlamda istixarə – hər hansı şübhəli məsələ barədə qəti qərara gələ bilməyən şəxsin şəriətdə icazə verilmiş üsullarla həmin məsələnini cavabını öyrənmək cəhdidir. İstixarə əsasən, Qurani-kərim, *təsbeh* və rüqə (püşk) vasitəsilə həyata keçirilir.

İstixarənin bəzi mühüm şərtləri vardır. Əvvəla, haqqında şəriətin dəqiq göstərişi olan məsələ haqqında istixarə edilməz. Yəni bir məsələ barədə Quranda, sünnədə dəqiq hökm varsa və ya müctəhidlər qəti fətva veriblərsə, həmin hökmə və fətvaya əməl etmək lazımdır; burada istixarə yersizdir. İkincisi, haram əməli edib-etməmək barədə istixarə olunmaz. İstixarə iki halal (mübah) yoldan birini seçmək üçün edilir. Üçüncüsü, hər kəsin hər şəraitdə istixarə etməyə haqqı yoxdur. Çünki istixarə edən sanki öz sualının cavabını Allahdan soruşmuş olur. Buna görə də, istixarəni göstərilən şərtlərlə (qaydalar və dualarla) yerinə yetirmək lazımdır. İstixarə edən şəxs mənəvi baxımdan da Allahdan cavab almaq ləyaqətinə sahib olmalıdır. Dördüncüsü, Quranla istixarə edən şəxs müəyyən dərəcədə dini savada malik olmalıdır ki, istixarədə çıxan ayənin mənasını düzgün anlaya bilsin, onun müsbət yoxsa mənfi cavab bildirdiyini ayırd etsin və nəti-

cəni doğru qiymətləndirsin. Nəhayət, daha bir şərt budur ki, eyni məsələ haqqında bir neçə dəfə istixarə etmək düzgün deyil. İstixarədə alınan cavaba qane olmaq və onunla razılaşmaq lazımdır.

İstixarənin caizliyi barədə istər şiə, istərsə də sünni mənbələrində xeyli hədis və rəvayət mövcuddur. İmam Zeynül-abidin, İmam Mühəmməd Baqir, İmam Cəfər Sadiq (ə) kimi din böyüklərinin istixarə etdikləri məlumdur. Hətta İmam Zeynül-abidinin (ə) dualarından ibarət *«Səhifətüs-Səccadiyyə»nin* 33-cü duası «İstixarə duası» adlanır. Şiə imamlarının istixarə haqqında buyruqları Seyid ibn Tavusun «Fəthül-əbvab», Əllamə Məclisinin «Biharül-ənvar», Şeyx Abbas Qumminin «Məfatihül-cinan» kitablarında verilib. Əhli-sünnə mənbələrində bildirilir ki, Həzrət Mühəmməd Peyğəmbər (s) öz səhabələrinə Quran surələrini necə öyrədirdisə, istixarəni də o cür öyrədirdi *(Səhihül-Buxari, Təhəccüd kitabı, XXV bab, 1162-ci hədis; Tövhid kitabı, X bab, 7390-cı hədis; Sünənüt-Tirmizi, Əbvabül-vitr, XVIII bab, 480-ci hədis; Sünənü İbn Macə, Əbvabü iqamətis-səlavat, 188-ci bab, 1383-cü hədis; Sünənü İbn Macə, Kitabün-nikah, XXVII bab, 3255-ci hədis; Sünənü Əbu Davud, Kitabül-vitr, XXXI bab, 1538-ci hədis və s.).*

İstixarənin qaydalarına gəlincə, bu barədə məlumatlar zəngin və rəngarəngdir. Quranla istixarənin bir neçə növü kitablarda təsvir edilib. Ən sadə üsul belədir: Üç dəfə İxlas surəsi oxuyub, üç dəfə Peyğəmbərə və nəslinə salavat söylədikdən sonra deyilir: «Əstəxirüllahə birəhmətihi xiyərətən fi afiyəh» (Salamatçılıq içində Allahın mərhəməti ilə Ondan xeyir istəyirəm). Daha sonra Quranikərimi açıb, sağ tərəfdəki səhifənin ilk ayəsini oxumaq və hansı məna daşıdığını müəyyən etmək lazımdır. Əgər insan ayənin müsbət yoxsa mənfi məna ifadə etdiyini anlamağa çətinlik çəkirsə, bunun üçün nəzərdə tutulmuş xüsusi istixarə kitablarına myraciət etməlidir. Həmin kitablarda Quranın hansı səhifəsini açarkən hansı nəticə çıxdığı barədə məlumat verilir. Hətta bəzi Quran nüsxələrinin sağ tərəfdəki (tək saylı) səhifələrinin hər birində istixarənin nəticəsi qeyd edilir.

Təsbehlə istixarənin qaydaları da müxtəlifdir. Qaydalardan biri budur ki, Fatihə və Qədr surələrinin hər birini 10 dəfə oxuduqdan sonra dua kitablarında qeyd edilən və «Allahümmə inni əstəxirükə li-ilmikə...» sözləri ilə başlayan duanı oxuyurlar. Daha sonra təsbeh dənələrindən bir ovuc ayırıb cüt-cüt sayırlar. Axırda tək dənə qalsa, nəticə müsbətdir. Cüt dənə qalsa, mənfidir.

Püşklə istixarə etmək istəyən şəxs 6 ədəd kağız parçası götürüb, bunların üçünə yazır: «Bismillahir-Rəhmanir-Rəhim. Xiyərətən minəllahil-əzizil-həkim li-fülan ibn fülan, ifəl». (Rəhman və Rəhim Allahın adı ilə. Filankəsin oğlu filankəs üçün xeyir izzət və hikmət sahibi olan Allahdandır. Bunu et). «Fülan ibn fülan» ifadəsinin yerinə istixarə edən şəxs öz adını yazır. Qalan üç kağıza da eyni duanı yazıb, axırdakı «ifəl» sözünü «la təfəl» (bunu etmə) ifadəsi ilə əvəz edir. Sonra həmin kağızları səccadənin altına qoyub iki rükət istixarə və ya hacət namazı qılır. Namazdan sonra səcdəyə gedib 100 dəfə deyir: «Əstəxirüllahə birəhmətihi xiyərətən fi afiyəh». Sonra diz üstə oturub bu duanı oxuyur: «Allahümmə xir li fi cəmii ümuri fi yüsrin minkə və afiyəh» (Allahım, bütün işlərimdə mənə öz tərəfindən asanlıq və salamatçılıqla xeyir ver). Püşk kağızlarını qarışdırıb bir-biri götürmək lazımdır. Əgər «bunu et» yazılmış 3 kağız dalbadal çıxsa, deməli, həmin işi etmək məsləhətdir. Əgər 3 dəfə ardıcıl olaraq «bunu etmə» sözü çıxsa, o işdən çəkinmək lazımdır. Əgər kağızlar qarışıq çıxsa, 5 kağızı çəkdikdən sonra nəticəsinə baxırlar; hansı tərəf çoxdursa, ona əməl edirlər.

Dini mənbələrdə «istixarə namazı» adlı namaz növü də qeyd edilib. Hər hansı məsələ barədə qəti qərara gələ bilməyən adam istixarə niyyətilə 2 rükət namaz qılır. Bu namazın qılınma qaydası sübh namazı kimidir. Namazı qılıb qurtardıqdan sonra Həzrət Fatimənin (ə) təsbihatını oxuyub səcdəyə getmək və səcdədə 100 dəfə demək lazımdır: «Əstəxirüllahə birəhmətihi xiyərətən fi afiyəh». Bundan sonra Allah insanın qəlbinə həmin çətin vəziyyətdən çıxış yolunu ilham edir. İnsan öz ürəyinin səsinə qulaq asıb, həmin yolu seçməlidir.

N.R.

İSTİĞFAR

Ərəb dilindən tərcümədə «bağışlanmaq diləmək» mənasını verir. İnsanın günahlarını bağışlatdırmaq üçün Allaha yalvarmasına və Ondan mərhəmət diləməsinə istiğfar deyirlər. Quran ayələrinin bir çoxunda istiğfardan danışılır. Məsələn, ayələrin birində istiğfar edənlər barəsində buyurulur: «O təqvalılar ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb günahlarının bağışlanmasını istəyərlər *(istiğfar edərlər).* Axı, günahları Allahdan başqa kim bağışlaya bilər?» *(Ali-İmran, 135).* Aşağıdakı ayədə istiğfar edən şəxsin günahlarının bağışlanacağı vəd edilir: «Hər kəs pis iş gördükdən və ya özünə zülm etdikdən sonra Allahdan bağışlanmağını dilərsə, Allahın bağışlayan, mərhəmətli olduğunu görər» *(Nisa, 110).* Başqa bir ayədə isə istiğar tövbə ilə yanaşı xatırlanır: «Məgər onlar Allaha tövbə edib, Ondan bağışlanmalarını istəməyəcəklər? Axı, Allah bağışlayandır, rəhm edəndir» *(Maidə, 73).* Tövbə ilə istiğfarın əsas fərqi budur ki, tövbəni insan yalnız özündən ötrü edə bilər. Amma istiğfar başqalarının haqqında da mümkündür. Yəni yaxşılıq gördüyün adamın günahlarının bağışlanması üçün də Allaha dua etmək olar.

Həzrət Mühəmməd Peyğəmbər (s) hər məclisi istiğfarla bitirərdi. Hədislərdə deyilir ki, istiğfar etmək ruzini artırar. Namazda istiğfar etmək günahları silər; ona görə də, iki səcdənin arasında istiğfar duası etmək müstəhəb bilinib. İstiğfar duasının ən geniş yayılmış şəkli belədir: «Əstəğfirüllahə rəbbi və ətubü ileyh». Yəni «Rəbbimdən günahlarımın bağışlanmasını diləyir və Onun hüzurunda tövbə edirəm».

Həzrət Əli ibn Əbu Talibdən (ə) rəvayət edilib ki, Yer üzündə Allahın əzabından amanda qalmaq üçün iki vasitə var idi. Bunlardan biri insanların əlindən alındı, o biri isə hələ də qalmaqdadır. İnsanlardan alınmış aman vasitəsi – İslam Peyğəmbərinin vücudu idi. İkinci vasitə isə istiğfardır.

Bir nəfər İmam Əlinin (ə) yanında öz günahlarının bağışlanması üçün «əstəğfirüllah» dedi, amma bu sözü saymazyana və ağızucu söylədi. İmam buyurdu: «İstiğfarın nə olduğunu bilirsənmi? İstiğfar yüksək məqamlı insanlara məxsus olan bir əməldir. Onun 6 mərtəbəsi var. İstiğfarın birinci mərtəbəsi keçmiş günahdan peşman olmaqdır. İkincisi, həmin günaha bir daha qayıtmamaq qərarına gəlməkdir. Üçüncüsü, öhdəndə günah olmadığı vəziyyətdə Allaha qovuşa bilmək üçün camaatın haqqını özünə qaytarmaqdır. Dördüncüsü, sənə vacib olan, amma yerinə yetirmədiyin hər bir əməli *(ibadəti)* icra etməkdir. Beşincisi, bədənində haramdan yaranmış əti hüzn və kədərlə əritməkdir; ta ki, dəri sümüyə yapışsın və onun yerinə təzə ət gəlsin. Altıncısı, günahın şirinliyini daddığın kimi, ibadətin əziyyətini də dadmağındır. Yalnız belə olan halda «əstəğfirüllah» deyə bilərsən» *(Nəhcül-bəlağə, 409-cu hikmətli kəlam).*

N.R.

İSTİMNA

Ərəb dilindən tərcüməsi «bədəndən *məni* (sperma) çıxarmaq» deməkdir. Elmi ədəbiyyatda bu, onanizm adlandırılır. İnsanın öz şəhvətini təmin etmək məqsədilə əl və sair vasitələrlə bədənindən sperma çıxarmasına deyilir. İstimna – şəriətdə icazə verilməyən yolla şəhvətin təmin edilməsi sayılır və İslamda haram əməl kimi qəbul edilir. Bəzi İslam rəvayətlərində istimna edən şəxs özözü ilə cinsi əlaqədə olan adam kimi dəyərləndirilir. Hətta İmam Cəfər Sadiqin (ə): «Əgər belə bir adam tanısam, onunla bir süfrə arxasında oturub yemək yeməərəm» – söylədiyi bildirilir. Maliki məzhəbinin banisi Malik ibn Ənəs isə istimnanı aşağıdakı Quran ayəsinin hökmü ilə günah sayırdı: «O kəslər ki, ayıb yerlərini *(zinadan)* qoruyub-saxlayarlar; ancaq zövcələri və cariyələri istisna olmaqla. Onlar qınanmazlar. Bundan artığını istəyənlər həddi aşanlardır» *(Mömi-nun, 5-7).*

Lakin bəzi alimlər son dərəcə məcburiyyət halında istimna etməyə icazə vermişlər. Məsələn, hənbəli məzhəbinin banisi Əhməd ibn Hənbəl spermanı insan bədənində toplanmış artıq maddələrdən biri hesab edir və qan aldırmaq kimi, istimnanı da icazəli sayırdı. Lakin bu zaman o, iki əsas şərtə

əsaslanırdı: Əvvəla, insan istimna etməzsə, zina edəcəyi qorxusu yaransın; ikincisi, insanın evlənməyə imkanı olmasın *(Yusif Qarzavi. İslamda halal və haram, Beyrut, 1980, səh. 166).* Hənbəli məzhəbindəki bu icazə onunla izah olunur ki, şiə məzhəbindən fərqli olaraq, əhli-sünnə məzhəbində müvəqqəti nikaha *(siğəyə)* icazə verilmir və əhli-sünnə mənsublarının öz şəhvətlərini halal yolla təmin etmə üsulu yalnız daimi evlilikdir (keçmişdə kənizlərlə əlaqə də bura aid idi; amma hal-hazırda bu məsələ artıq öz əhəmiyyətini itirib). Ona görə də əhli-sünnə məzhəbinə mənsub şəxsin daimi evlənmək imkanı yoxdursa, yaxud həyat yoldaşı ilə şəhvətini təmin etməsi hər hansı səbəb üzündən mümkün deyilsə, günaha düşmə ehtimalı çoxalır. Həmin alimlər də məhz bu zərurəti nəzərə alaraq, ən son vasitə kimi istimnaya icazə vermişlər.

Həzrət Mühəmməd Peyğəmbər (s) evlənmək imkanı olmayan cavanlara nəsihət edərək onları səbirli olmağa çağırır, günaha düşməmək və şəhvəti zəiflətmək məqsədilə oruc tutmağı tövsiyə edirdi.

N.R.

İSTİSHAB

Keçmişdə hökmü bəlli olan bir şeyin hökmünün dəyişdiyinə dair dəlil ortaya çıxana qədər əvvəlki hökmdə qaldığını qəbul etməkdir. İstishabın aşağıdakı növləri vardır:

1. ***İbaheyi-əsliyyə istishabı.*** Əksini isbat edən bir dəlil ortaya çıxana qədər bir əşyadan istifadə etməyin və ya bir hərəkəti yerinə yetirməyin mübah (halal) olduğuna hökm verməyə deyilir.

2. ***Bəraəti-əsliyyə istishabı.*** İsbat edən bir dəlil ortaya çıxana qədər heç kəsin öhdəsində məsuliyyətin olmamasını qəbul etməkdir. Məsələn, bir şəxs başqasının ona borclu olduğu barədə iddia qaldırarsa, bunu sübuta yetirməlidir. Çünki bəraəti-əsliyyə istishabına görə hər kəs, əleyhinə dəlil ortaya qoyulmadıqca borcsuz sayılır.

3. ***Vəsf istishabı.*** Şəriətdə etibarlılığı hər hansı səbəbə dayanan bir hökmün, həmin səbəb ortadan qalxana kimi qüvvədə qalmasıdır. Məsələn, nikah (kəbin) bağlandıqdan sonra üstündən nə qədər vaxt keçsə də, onun pozulmasına səbəb olan bir dəlil ortaya qoyulmadıqca, nikah öz qüvvəsini qoruyub-saxlayır.

A.Q.

İSTİSQA

Su və yağış istəmə. Quraqlıq zamanı yağış yağması üçün xüsusi şəkildə camaat halında Allah-təalaya edilən dua və qılınan namaz. Allahın razılığını qazanmaqdan və duanın qəbul olmasından üçün istisqaya çıxmazdan qabaq bol-bol sədəqə verilir, küsülülər barışdırılır, yetimlərə və yoxsullara qayğı göstərilir. İstisqaya çıxarkən yamaqlı və köhnə, amma təmiz paltarlar geymək, boynu bükülü vəziyyətdə, acizlik və təvazökarlıq içində hərəkət etmək tövsiyə olunur. Təmizliyin və saflığın simvolu olduqlarına görə, uşaqları da istisqaya aparırlar.

Ə.N.

İSTİVA

Allahın hər şeyə hökmran olmasını, yaratdıqlarını istədiyi kimi idarə etməsini bildirən ifadə, Allahın sifətlərindən biri. Quran-kərimdə buyurulur: «Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya istiva edəərk onu yeddi qat göy halında düzəldib nizama salan Odur. O, hər şeyi biləndir» *(Bəqərə, 29).*

R.M.

İŞA NAMAZI

Gündəlik beş *fərz* (qəti vacib) namazdan biri. Gecənin ilk üçdən-bir hissəsinə işa deyilir. Gecə qaranlığı düşəndən sonra işa vaxtı başlayır.

Əhli-sünnə məzhəbinə görə, *məğrib namazının* vaxtı bitdikdən (yəni Günəşin şəfəqi qərb üfüqündə batdıqdan) sonra işa namazının vaxtı başlayır və *sübh namazına* kimi davam edir. Hənəfi məzhəbinə görə, işa namazını gecənin üçdən-birinə kimi gecikdirmək müstəhəbdir. Hənbəli və maliki məzhəblərində işa namazını gecənin ilk üçdən-bir hissəsində qılmaq məsləhət görülür. Amma üzrlü səbəbdən bu vaxt ərzində qıla bilməyənlər sübh namazına kimi qıla bilərlər.

Cəfəri məzhəbində isə işa namazını məğrib anından məğrib namazını qılmağa bəs edəcək qədər vaxt keçdikdən sonra qılmağa başlamaq olar. İşa namazının vaxtının sonu isə gecə yarısına kimidir. Hər hansı səbəbdən işa namazını gecə yarısına kimi qıla bilməyənlər sübh namazına kimi qıla bilərlər.

İşa namazı 4 rükətdən ibarətdir. Birinci və ikinci rükətlərdə qiraəti uca səslə *(cəhr)* icra etmək sünnətdir (hənbəli məzhəbində həm ucadan, həm də astadan oxuna bilər; cəfəri məzhəbində isə həm camaatla, həm də təkbaşına cəhr hökmünə riayət etmək lazımdır). Əhli-sünnə məzhəbində işa namazının fərzdən əvvəl qılınan 4 rükət və fərzdən sonra qılınan 2 rükət *nafiləsi* vardır. Cəfəri məzhəbinə görə, 2 rükətlik nafilə işa namazından sonra qılınır; oturmuş halda qılınırsa, bir rükət kimi sayılır.

N.R.

İTRƏT

Nəsil, zürriyyət. Bu sözə verilən mənaların birinə görə, itrət insanın bütün qohumlarıdır (istər övlad sarıdan, istərsə də başqa bağlılıqlar vasitəsilə). Bəziləri eyni əcdaddan törəmiş qohumları itrət saymış, bunun üçün birinci xəlifə Əbu Bəkrin: «Biz Allah Rəsulunun itrətiyik; O, həmin itrətdən çıxıb» – sözünü əsas götürmüşlər (Allah Rəsulu ilə Əbu Bəkrin Qüreyş nəslindən olduqlarını nəzərə alaraq). Bəzi alimlər ağacın gövdəsinə «itrət» deyildiyini söyləmiş, Həzrət Mühəmməd Peyğəmbərin (s) itrətinin babası Əbdülmüttəlibdən və övladlarından ibarət olduğunu bildirmişlər. Lakin lüğət alimlərinin əksəriyyətinin fikrincə, itrət – insanın belindən gələn övladları və nəvə-nəticələridir. Məşhur alim İbn Əsirin sözləri ilə desək, camaat arasında geniş yayılmış fikir budur ki, adamın bilavasitə öz oğul və qızlarına itrət deyilir. Amma Allah Rəsulunun itrəti – qızı Fatimənin (ə) balalarıdır (məşhur lüğət alimi İbn Mənzurun «Lisanülərəb» kitabından).

«İtrət» kəlməsinə Həzrət Mühəmməd Peyğəmbərin (s) *«səqəleyn»* adı ilə məşhur olan hədisində rast gəlirik: «Sizin aranızda iki qiymətli əşya *(əmanət)* qoyuram: Allahın kitabı və itrətim. Bunlar *(qiyamət günündə)* cənnət hovzunun kənarında mənim hüzuruma çatana kimi bir-birindən ayrılmazlar». Hədisin bir sıra variantlarında «itrətim» sözü ilə yanaşı *«Əhli-beytim»* ifadəsi də vardır; bu da həmin kəlmələrin eyni mənaya malik oldüğünü göstərir.

İslam alimlərinin yekdil fikrinə əsasən, bu hədisdə Peyğəmbərin buyurduğu itrət – qızı Fatimə (ə) ilə Əli ibn Əbu Talibin (ə) övladlarıdır. Bunlar o kəslərdir ki, *zəkat* onlara haramdır (yəni onlar zəkat ala bilməzlər), *xümsün* isə bir hissəsi onlara verilməlidir.

N.R.

İYLA (İLA)

Kişinin öz kəbinli arvadına yaxınlaşmamağa (cinsi əlaqədə olmamağa) and içməsi. And Allahın adına içildiyi halda etibarlıdır.

İla edən kişiyə dörd ay vaxt verilir. Bu müddət ərzində o, andını pozub normal evlilik həyatına qayıdarsa, andı pozmaq *kəffarəsini* ödəməlidir. Belə ki, kəffarə olaraq ya 10 *fəqirə* doyacaq miqdarda yemək verməli, ya 10 fəqiri geyimlə təmin etməli, ya da bir kölə azad etməlidir. Bunların heç birinə gücü çatmazsa, 3 gün oruc tutmalıdır *(Bəqərə, 226-227; Maidə, 89).*

Əgər 4 ay bitdikdən sonra ər öz arvadının yanına qayıtmasa, hənəfi məzhəbinə görə, qadın bir *bain talaqla* boşanmış sayılır. Digər əhli-sünnə məzhəblərinə görə, bu halda qadın şəriət məhkəməsində boşanma iddiası qaldırmaq hüququna malik olur. Bu zaman hakim kişiyə ya normal evlilik həyatına qayıtmağı, ya da arvadını boşamağı təklif edir. Əgər bu şərtlərin heç biri qəbul olunmasa, hakim özü nikaha xitam verib *talaq* oxuyur və bu talaq *rici talaq* sayılır. Şiə müctəhidləri arasında hakimin oxuduğu talağın rici yoxsa bain talaq sayılması mövzusunda fikir ayrılığı vardır.

Ə.N.

K

KAFİR

Allahsız, ateist, həqiqəti gizlədən, küfr edən. «Küfr» sözünün lüğəvi mənası «örtmək, gizlətmək»dir. Tarlaya toxum səpib üstünü örtən əkinçiyə *(Hədid, 20)*, qılıncı örtən qına, gecəni örtən qaranlığa da «kafir» deyirlər. «Kəffarə» sözü də eyni kökdən törəmişdir (günahları örtdüyünə görə).

Dini termin kimi, Allahı inkar etmək, Onun göndərdiyi haqq dinə (İslama) inanmamaq küfr sayılır. Allaha və Onun göndərdiyi dinə inanmayan adam Allaha qarşı ən böyük nankorluq etmiş və Allahın nemətini danmış (gizlətmiş) olur. Allahın verdiyi nemətləri əhəmiyyətsiz hesab etmək, bu nemətlərə qarşı şükr etməmək, Allahdan başqa digər varlıqları tanrı saymaq və onlara pərəstiş etmək küfrdür. Küfrün cəzası əbədi cəhənnəm əzabıdır: «Əgər *(mənə)* şükür etsəniz, sizə olan nemətimi artıracağam. Yox, əgər nankorluq etsəniz, *(unutmayın ki)* mənim əzabım həqiqətən şiddətlidir!» *(İbrahim, 7)*.

Günahlarda israr (təkrar) edən adam ilk vaxtlar müəyyən narahatçılıq keçirsə də, zaman keçdikcə narahatçılıq hissi onu tərk edir. O, günah hərəkəti rahatlıqla davam etdirməyə öyrəşir. Daha sonra isə, ümumiyyətlə, bu hərəkətin günah olduğunu inkar edir. Həqiqi küfr də budur.

A.Q.

KAFUR

Ətirli maddə. Kamfora kimi tanınır. Təbiətdə kamfora ağacından (Yaponiya, İndoneziya və Çində bitir) alınır, eləcə də, süni yollarla kimyəvi maddələrdən emal edilir. Tibbdə müalicə vasitəsi kimi müxtəlif sinir xəstəlikləri, narkotik zəhərlənmələr və müxtəlif iltihab prosesləri zamanı, tənəffüs və qan dövranının gücləndirilməsi, ürək əzələsində maddələr mübadiləsinin qüvvətləndirilməsi məqsədilə kamfora yağından və kamfora spirtindən istifadə olunur.

Şəriətdə cənazənin yuyulması zamanı kafur qarışdırılmış sudan istifadə edilir. Belə ki, cəfəri məzhəbinə görə, cənaznəi mütləq əvvəlcə sidr qarışdırılmış su ilə, sonra kafur qarışdırılmış su ilə, axırda isə təmiz su ilə yumaq lazımdır. Əhli-sünnə məzhəblərində sidr və kafurla yumaq fərz (vacib) sayılmır. Zəruri olan şərt ölünü üç dəfə su ilə təmiz yumaqdır. Birinci və ikinci yuyulmalar zamanı sabundan və sair təmizləyici maddələrdən istifadə etmək məsləhətdir. Üçüncü dəfədə suya kafur qarışdırmaq müstəhəbdir. Əhli-sünnə məzhəbində cənazəni kəfənləyən zaman başına və saçlarına kafur sürtmək də müstəhəb sayılır (hənutla qarışdırmamalı).

N.R.

KATİB MƏLƏKLƏR

Hər bir insana həyatı boyu Allah tərəfindən iki mələk təhkim olunur. Bu mələklərin biri insanın sağ tərəfində duraraq, onun bütün yaxşı işlərini yazıb qeyd edir. Sol tərəfdəki mələk isə adamın etdiyi pis əməlləri yazıya alır. Bu mələklər insanın heç bir əməlini gözdən qoymurlar. Lakin Allahın mərhəməti o qədər genişdir ki, hər bir yaxşı əmələ görə, əməlin dərəcəsindən asılı olaraq, bir neçə qat artıq savab yazılmasını əmr edib. Pis əmələ görə isə yalnız bir günah yazılar; özü də günahları qeyd edən mələk bir müddət gözləyər ki, bəlkə insan öz pis əməlindən peşman olub tövbə edər. Tövbə etsə, bu günah ona yazılmaz. Sağ tərəfdəki mələk nəinki yaxşı işlərə görə, hətta yaxşı niyyətlərə görə də əməl dəftərinə savab yazar. Həyata keçirilməmiş pis niyyətlər isə günah sayılmaz.

Qurani-kərimdə katib mələklər haqqında buyurulub: «Sizin üstünüzdə gözətçi mələklər, *(əməllərinizi)* yazan və *(Allah dərgahında)* çox hörmətli olan mələklər vardır. Onlar sizin nə etdiyinizi bilirlər» *(İnfitar, 10-12)*. «Xatırla ki, *(insanın)* sağında və solunda *(onun bütün əməllərini)* təsbit edən *(qeydə alan)* iki mələk oturmuşdur. Dediyi hər sözü *(yazmaq üçün)* onun yanında hazır durub gözləyən *(iki mələk)* vardır» *(Qaf, 17-18)*.

Qiyamət günündə insan *məhşərə* gətirilib sorğu-sual qarşısında dururkən bu mələklərin yazdığı dəftər (buna insanın *əməl dəftəri* deyilir) açılacaq və orada qeydə alınmış əməllər qiymətləndiriləcək. Kimin əməl dəftərində yaxşı işlər çox olarsa, Allahın mükafatına nail olacaq. Hər kimin pis işləri üstünlük təşkil edərsə, ilahi cəzaya layiq görüləcək.

Katib mələkləri bəzən «həfəzə mələkləri» (qoruyucu mələklər), bəzən də «kiramən katibin» (ən üstün yazarlar) adlandırırlar. Namazı qılıb qurtardıqdan sonra başı sağa və sola tərəf çevirib salam vermək də bu mələklərə hörmət əlaməti kimi qəbul edilir.

N.R.

KƏBAİR və KƏBİRƏ

bax: *böyük günahlar*.

KƏFƏN

Cənazənin yuyulmasından (cənazə qüslündən) sonra örtüldüyü bez parçalarına deyilir. Cənazənin kəfənlənməsi fərzi-kifayədir. Yəni müsəlman cənazəsi mütləq kəfənlənib dəfn olunmalıdır. Əgər heç kim bunu etməzsə, o bölgədə yaşayan müsəlmanların hamısı buna görə məsuliyyət daşıyar; kimsə cənazəni kəfənə büksə, başqalarının öhdəsindən məsuliyyət götürülər.

Kəfənin ağ rəngli parçadan olması məsləhətdir *(Küleyni. Füruül-Kafi, III, 148)*. Cənazənin kəfəni adətən sağlığında geyindiyi və yaşına, cinsinə uyğun olan materialdan hazırlansa daha yaxşıdır. Məsum imamlar, böyük övliyalar cümə namazı zamanı geyindikləri köynəyin onlara kəfən edilməsini vəsiyyət etmişlər. Kəfən ən azı üç ədəd parçadan ibarət olur. Bunların biri «qəmis» adlanır və əhli-sünnə məzhəbinə görə, cənazənin boyun nahiyəsindən ayaqlarına qədər örtür. İkincisi parça «izar» adlanır və cənazənin başından ayaqlarına qədər uzunluqda olur. Üçüncü parça isə «lifaf» adlanır və uzunluğu cənazənin boyundan bir qədər artıq olur ki, artıq qalan hissələri düyünləyir, cəsədi qəbrə qoyduqdan sonra düyünləri açırlar. Cəfəri məzhəbində qəmis çiyindən baldırlara qədər cənazənin bədənini örtməlidir. İzar göbəkdən dizə qədər uzunluqda olsa kifayətdir; sinədən ayaqların ucuna qədər uzunluqda olsa, daha yaxşıdır.

Çox vaxt qadının kəfəninə saçı yığmaq üçün baş yaylığı və sinə örtüyü də əlavə edilir. Qadın cənazəsinin birdən daha çox (iki və hətta dörd) lifafəyə bükülməsini sünnət sayırlar. Hənbəli məzhəbində kişi cənazəsi üçün qəmis və izardan istifadə edilmir, cənazə üst-üstə 3 ədəd lifafəyə bükülür; amma qadın və yetkinlik yaşına çatmamış uşaq cənazəsini qəmis və izara da bükürlər.

Kəfən üçün işlədilən parça lazımi ölçüdən kiçik olsa, onu ilk öncə cənazənin övrət yerinin üstünə sərir, sonra bədənin qalan hissələrini ot, gil və sairə ilə örtürlər. Məsələn, Ühüd savaşında həlak olmuş Müsəb ibn Ümeyri kəfənləmək üçün adam boyundan qısa bir parça tapıldı. Peyğəmbər tapşırdı ki, parçanı cənazənin başına tərəf çəksinlər, açıqda qalan ayaqlarını isə otlarla örtsünlər.

Kəfənləmə zamanı ətirli maddələrdən, hənutdan istifadə etmək əhli-sünnə məzhəbində sünnə sayılır. Cəfəri məzhəbinə görə, cənazəni hənutlamaq vacibdir.

Kəfən mərhumun sosial vəziyyətinə uyğun olan materialdan hazırlansa daha yaxşıdır. Bu zaman israf etmək və çox bahalı parçalar işlətmək məkruhdur.

N.R.

KƏFFARƏ

Lüğəvi mənası «qüsuru və ya günahı örtmək»dir. Qurani-kərimdə bu söz günahları örtmək mənasında işlədilib *(Ali-İmran, 193; Maidə, 45 və 65; Mühəmməd, 2)*. Allah insanların etdikləri xəta və günahları müxtəlif şəkillərdə əfv edir. İstiğfar və kəffarə də bu üsullardandır. Quranda buyurulur: «Həqiqətən, yaxşı əməllər pis işləri yuyub aparar» *(Hud, 114)*. Həzrət Mühəmməd Peyğəmbərin (s) hədislərindən məlum olur ki, böyük günahlardan çəkinmək şərti ilə qılınan namaz, özü ilə əvvəlki namaz arasında işlənmiş günahların kəffarəsi olur, cümə namazı isə özü ilə bundan əvvəlki cümə namazı arasında edilmiş günahlara kəffarədir (*Səhihü*

Müslim, Təharət kitabı, V bab, 550-552-ci hədislər).

Fiqh termini kimi kəffarə – orucun və andın pozulmasında, *ziharda,* həcc günahlarında və səhvən törədilmiş qətl hadisələrində *(Nisa, 92)* günahın əfv olunması üçün yerinə yetirilməli olan ibadət əməlidir. Bu mənada Qurani-kərimdə iki yerdə qeyd olunur *(Maidə, 89 və 95).*

Günahın növündən və şəraitindən, eləcə də, İslam məzhəblərinin fərqli yanaşma metodlarından asılı olaraq, kəffarələrin növü və miqdarı müxtəlifdir.

A.Q.

KƏLAM

İslami zəmində meydana gəlmiş elmlərdən biridir. Mahiyyət baxımından, kəlam tamamilə dini dünyagörüşünə tabe olan fəlsəfə sayıla bilər. Fərq bundadır ki, kəlam elminin mövzuları iman və əqidə əsaslarını əhatə edən sırf islami mövzulardır: Allahın varlığının sübutu, Onun sifətlərinin təhlili, peyğəmbərliyin lüzumu, peyğəmbərin sifətləri, xatəmiyyət məsələsinin isbatı, axirət həyatının izahı və s. Fəlsəfə isə daha mücərrəd bəhsləri əhatə edir: aləmin nədən yaranması, baş verən hadisələri ağılla tam dərk etməyin mümkünlüyü, kainatı təşkil edən zərrəciklərin bölünüb-bölünməməsi və s. məsələlər.

İlk dəfə müsəlmanlar arasında Quranın əzəli yoxsa sonradan yaranmış ilahi kəlam olması barədə mübahisə yarandığı üçün, kəlam elminin ilk tədqiqat mövzusu da məhz *Qurani-kərimin qədim yoxsa hadis sayılması məsələsi* olmuşdur (kəlam adının adı da buradandır).

Kəlamın fəlsəfədən əsas fərqi budur ki, fəlsəfədə Allahın varlığı əsas kimi götürülmür. Əksinə, bəzi fəlsəfi cərəyanlar Allahın varlığını tamamilə inkar edir. Lakin kəlam elminin əsas prinsipi – Allahın varlığı nöqtəsindən çıxış edərək, başqa məsələləri sübuta yetirməkdir. Kəlam elminin məqsədi Qurandakı və sünnədəki göstərişləri ağıl və məntiq baxımından əsaslandırmaq, din əleyhinə irəli sürülən şübhələrə cavab verməkdir. Kəlam elminin mütəxəssisinə *mütəkəllim* deyirlər.

Kəlam elminin yaranma tarixi İslamın qeyri-ərəb xalqlar arasında yayılmasından sonrakı dövrə təsadüf edir. İlk dövrlərdə müsəlman icması yekcins və yekrəng olduğu üçün, dini hökmlərin mahiyyətini izah etməyə və onların lüzumunu sübuta yetirməyə ehtiyac duyulmurdu. İslamın Ərəbistan sərhədlərini aşaraq digər torpaqlara nüfuz etməsi nəticəsində əcnəbi millətlərin elmi-mədəni irsi ilə yanaşı, fəlsəfi düşüncə təlimləri də müsəlmanlar arasında yayılmağa başladı. Qədim tarixə malik İran, Hindistan və Misir fəlsəfi məktəblərinin zəngin irsi müsəlman alimlərini özünə cəlb etməyə bilməzdi. Üstəlik, hicri II əsrin ortalarından etibarən, qədim Yunanıstan və Roma filosoflarının əsərlərinin ərəbcəyə tərcümə edilməsi bu mənəvi inteqrasiyanı daha da sürətləndirdi.

İslam tarixi boyunca bu və ya digər mövzulara müxtəlif baxış tərzləri əsasında fərqli kəlam məktəbləri meydana çıxmışdır. Bunların ən məşhurları – *mötəzili, əşəri, matüridi* və *şiə* kəlam məktəbləridir.

N.R.

KƏLMEYİ-ŞƏHADƏT

Ərəb dilindən tərcüməsi «şahidlik ifadəsi, şahidlik sözü» deməkdir. İslam dininin mahiyyətini ifadə edən iki qısa cümləyə deyilir. Kəlmeyi-şəhadətin forması belədir: ***«Əşhədü ən la ilahə illəllah. Əşhədü ənnə Muhəmmədən rəsulüllah».*** Tərcüməsi: «Təsdiq edirəm ki, Allahdan başqa tanrı yoxdur. Təsdiq edirəm ki, Mühəmməd (s) Allahın peyğəmbəridir». Bəzən kəlmeyi-şəhadətin birinci cümləsi bu şəkildə deyilir: ***«Əşhədü ən la ilahə illəllahü vəhdəhü la şərikə ləh».*** Tərcüməsi: «Təsdiq edirəm ki, Allahdan başqa tanrı yoxdur; O, vahiddir və şəriksizdir». Kəlmeyi-şəhadətin ikinci cümləsi isə bəzən belə tələffüz edilir: ***«Əşhədü ənnə Muhəmmədən əbdühü və rəsulüh».*** Tərcüməsi: «Təsdiq edirəm ki, Mühəmməd (s) Onun (Allahın) elçisi və peyğəmbəridir».

Həzrət Mühəmməd Peyğəmbər (s) öz səhabəsi Müaz ibn Cəbələ buyurmuşdu: «Allahdan başqa tanrı olmadığına və mənim Onun peyğəmbəri olduğuma şahidlik edən elə bir kəs yoxdur ki, Allah ona cəhənnəm

atəşini haram etməsin». Həzrət Əli ibn Əbu Talib (ə) isə kəlmeyi-şəhadət cümlələrinin haqqında buyurmuşdur: «Bu iki şəhadət cümləsi bəndənin gözəl sözlərini *(dualarını)* yüksəyə *(Allahın dərgahına)* qaldırar, onun yaxşı əməllərini ağırlaşdırar. Bu iki şəhadət cümləsi olmasa, əməl tərəzisi yüngül olar, bunlarla əməl tərəzisi ağır gələr. Bunlar cənnətə çatmağın, cəhənnəmdən xilas olmağın, sirat körpüsü üzərindən keçməyin vasitəsidir».

Kəlmeyi-şəhadət İslamın şüarı, müsəlmanın kimlik vəsiqəsi sayılır. Bunu söyləyən şəxs *müsəlman* hesab edilir. *Kafir* şəxs kəlmeyi-şəhadəti şahidlərin yanında söyləyəndən sonra müsəlmanların cərgəsinə qoşulur. Həmin andan o, İslam cəmiyyətinin bərabərhüquqlu üzvüdür, bütün imtiyazları və məsuliyyətləri daşıyır.

Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Mənə Allah tərəfindən əmr olunub ki, camaatla Allahın vahidliyini təsdiq edincəyə kimi vuruşum». Peyğəmbər din uğrunda aparılan cihadlarda müsəlman əsgərlərə əmr etmişdi ki, düşmən tərəfdən hər kim silahını yerə qoyub müsəlman olduğunu dillə təsdiq etsə, onu öldürməsinlər, işgəncəyə məruz qoymasınlar, əsir almasınlar. Peyğəmbərə məxsus olan hədislərin birində buyurulur: «Hər kim: «Allahdan başqa tanrı yoxdur; O, təkdir və şəriksizdir; Mühəmməd Allahın bəndəsi və elçisidir» – desə, heç kimin ona toxunmağa haqqı yoxdur. Yalnız həddi pozarsa *(yəni günah edərsə),* haqqında cəza tətbiq olunar» *(Sünənü İbn Macə, Əbvabül-hüdud, 2539-cu hədis).*

Əhli-sünnə məzhəbinə görə, kəlmeyi-şəhadət İslamın 5 əsasından biridir.

Kəlmeyi-şəhadəti tez-tez təkrar etmək savabdır. İnsan ölərkən son nəfəsində kəlmeyi-şəhadəti söyləməyə çalışmalıdır. İslam tarixi boyunca böyük şəxsiyyətlər düşmənin əli ilə qətlə yetirilməzdən əvvəl namaz qılmış və kəlmeyi-şəhadəti demişlər. Yatmazdan əvvəl kəlmeyi-şəhadəti söyləmək barədə tövsiyələr də müəyyən mənada bununla bağlıdır. Çünki yuxunu «kiçik ölüm» adlandırırlar. Bəzən ölüm məhz yuxu halında gəlir. Buna görə də, yatmazdan əvvəl ölümə hazır olmaq mənasında kəlmeyi-şəhadəti söyləmək müstəhəbdir.

Şiə məzhəbli müsəlmanlar bəzən kəlmeyi-şəhadətə bu cümləni də əlavə edirlər: ***«Əşhədü ənnə Əliyyən vəliyyüllah».*** Tərcüməsi: «Təsdiq edirəm ki, Əli Allahın dostudur». Bu cümləni söyləmək keçmişdə şiələr üçün prinsipial əhəmiyyət daşıyırdı. Belə ki, onlar öz məzhəblərini bu cümlə ilə bildirir, öz kimliklərini bununla ifadə edirdilər. «Əşhədü ənnə Əliyyən vəliyyüllah» cümləsi şiələrin, onlara qarşı düşmənçilik mövqeyi tutan qüvvələrə qarşı dirəniş və müqavimət şüarı idi. Buna görə də, qədimdən bəri şiə ölkələrində azana da bu cümləni əlavə edirlər. Lakin bu cümlə kəlmeyi-şəhadətin və azanın vacib hissəsi sayılmır və şiələr hər iki halda bunu savab niyyəti ilə söyləyirlər. Müasir şiə müctəhidlərin risalələrində də bu fikir vurğulanır («azan» bəhsində).

N.R.

KƏLMEYİ-TEYYİBƏ

Ərəb dilindən tərcüməsi «pak, təmiz söz» deməkdir. Qurani-kərimin bu ayəsindən iqtibas olunub: «Pak söz kökü yerdə möhkəm olub budaqları göyə ucalan pak ağac kimidir» *(İbrahim, 24).* Bəzi təfsirlərdə bildirilir ki, ayədəki pak söz kəlmeyi-şəhadətdir, yəni insanın imanını sübuta yetirən sözlərdir. Pak ağacı imanla yoğrulmuş mömin insan obrazı kimi də izah edirlər. Pak kəlməni və pak ağacı başqa cür şərh edənlər də var: pak ağacın kökü – iman, gövdəsi – namaz, budaqları isə zəkatdır. Şiə məzhəbinə aid olan təvillərdə (rəmzi şərhlərdə) bildirilir ki, pak ağacın kökü – Həzrət Mühəmməd Peyğəmbəri (s), gövdəsi – İmam Əlini (ə), budaqları – Onun nəslindən olan imamları, meyvələri – imamların elmini, yarpaqları isə imamların tərəfdarlarını simvolizə edir.

Ümumi anlamda kəlmeyi-teyyibə hər bir gözəl, pak, səmimi fikri, düşüncəni, əqidəni ifadə edir. Daha dar mənada isə kəlmeyi-şəhadətin qısaldılmış forması kimi qəbul edilir. Yəni kəlmeyi-şəhadət cümlələrinin «əşhədü ən» sözləri olmadan tələffüzünü kəlmeyi-teyyibə adlandırırlar.

N.R.

KƏRAMƏT

Mömin və saleh insanlarda, *övliyalarda* meydana çıxan xariqül-adə hal. Bəzən saleh olmayan şəxslərdə də fövqəl-təbii hal yarana bilər; buna «istidrac» və ya *«sehir»* deyilir. Peyğəmbərlərdə görünən fövqəl-təbii hallara isə *«möcüzə»* deyirlər. İslam alimlərinin qənaətinə görə, kəramət caizdir (icazə verilən haldır). Lakin kəraməti hamıdan gizli saxlamaq övliyaya vacibdir; o, özündə meydana gələn halların kəramət olduğunu söyləməz. Kəramətlə möcüzə arasında bəzi əhəmiyyətli fərqlər mövcuddur. Möcüzə – peyğəmbərliyin isbatı üçün edilməsi lazım olan hərəkətdir. Kəramətin əsas xüsusiyyəti isə gizli tutulmaq və aşkar edilməməkdir. Peyğəmbər öz möcüzəsini möcüzə olaraq təqdim edər və buna tam inanmaq lazımdır. Övliya isə göstərdiyi xariqül-adə hadisənin kəramət olduğunu iddia edə bilməz, başqası da qəti olaraq buna «kəramət» deyə bilməz.

R.M.

KƏŞF

Pərdəni və örtüyü qaldırmaq, bir şeyi ortaya çıxarmaq. Qəlb gözü ilə görməyə və dərk etməyə «kəşf» deyilir. Təsəvvüfdə elm və duyğu ilə dərk edilməsi mümkün olmayan məsələlərdə *ilham* yolu ilə bilik alma metodunu «kəşf» adlandırırlar.

R.M.

KƏŞKÜL

Sufi atributlarından biridir. Adətən, sərt qabıqlı meyvələrin (məsələn, hindqozu) qabığından yumurtavari formada hazırlanmış içiboş qabdan ibarət olurdu. Keçmişdə sufi təriqətlərinin dərvişləri özləri ilə mütləq kəşkül gəzdirərdilər. Kəşkül bəzən taxtadan, bəzən isə dəmirdən hazırlanırdı. Kəşkül dərviş üçün hər şey demək idi; onun içində yemək yeyir, su içirdi, camaatdan aldığı ianələri də kəşkülün içində gəzdirirdi. Sufi ədəbiyyatında kəşkül kasıblığın və qənaətin rəmzi sayılırdı; çünki sufinin kəşküldən savayı heç bir əmlakı yox idi.

Kəşkül həm də müxtəlif elmi məlumatların, şeir nümunələrinin toplandığı məcmuə mənasını bildirir. Bir çox şair və ədiblər «Kəşkül» adlı kitablar tərtib etmişlər. Bunların ən məşhuru Şeyx Bəhainin (1547-1621) eyniadlı əsəridir. Bu kitabda ən müxtəlif mövzulara aid dini və dünyəvi məlumatlar, faktlar, şeir nümunələri toplanıb.

N.R.

KİRAMƏN KATİBİN

bax: *katib mələklər.*

KÜFR

Lüğəvi mənası «örtmək, gizlətmək» deməkdir. Terminoloji mənada Allah-təalanın varlığını, birliyini, ilahi şəriətlərdən və peyğəmbərlərdən birini inkar etməkdir. Küfr ən böyük günahdır. Küfr edənə *kafir* deyirlər. İmanın əsaslarını, hətta bu əsaslardan birini inkar edən şəxs kafirdir. Həmçinin, kim Quran ayələrində buyurulan hökmlərin, halal və haramların, əmr və qadağanların birini inkar etsə, yalan saysa, bəyənməsə, istehza ilə qarşılasa, küfrə yuvarlanmış olar.

R.M.

KÜNYƏ

Ərəb xalqlarında insanın öz böyük oğlunun adı ilə adlandırılma ənənəsi. Ad kimi künyə də hər kəsin vacib şəxsi atributu sayılır. Kişilərin künyəsi böyük oğlun adının əvvəlinə əlavə edilən «Əbu» kəlməsindən, qadınların künyəsi isə böyük oğlun (bəzi hallarda qızın) adının əvvəlinə əlavə edilən «Ümm» kəlməsindən ibarət olur. Məsələn, Əbu Abdullah – Abdullahın atası, Ümmi-Sələmə – Sələmənin anası. Ərəblər bəzən hələ oğulları doğulmazdan qabaq özlərinə künyə qəbul edirlər, bununla da gələcək oğul övladının adını qabaqcadan elan etmiş olurlar. Ərəb ənənəsinə görə, insanı adı ilə deyil, künyəsi ilə çağırmaq hörmət əlaməti sayılır. Tarixdən məlumdur ki, Həzrət Mühəmməd Peyğəmbər (s) öz səhabələrini adətən künyələri ilə çağırır, künyəsi olmayanlar üçün künyə seçirdi. Peyğəmbərimizin özünün məşhur künyəsi Əbül-Qasimdir. Onun ilk oğul övladının adı Qasim olmuş, lakin Qasim körpə ikən vəfat etmişdi. Oğlu olan kişini qızının adı ilə bağlı künyə ilə çağırmaq ərəblərdə təhqir sayılır.

Bəzən künyə oğul adı ilə deyil, hər hansı hadisə və ya peşə ilə bağlı da verilir. Məsələn, məşhur səhabə *Əbu Hüreyrənin* əsl adı İslamdan əvvəl Əbdüşşəms olmuş, İslamı qəbul etdikdən sonra Həzrət Mühəmməd Peyğəmbər (s) ona Əbdürrəhman və ya Abdullah adını vermişdi. O, pişikləri çox sevdiyinə və həmişə qucağında pişik gəzdirdiyinə görə, Peyğəmbərimiz onu «Əbu Hüreyrə» (pişik balasını çox sevən; lüğəvi mənası – pişik balasının atası) künyəsi ilə çağırırdı. Yaxud hərbi səfərlərin birində Həzrət Əli (ə) yerdə yatdığı üçün üst-başı torpağa bulaşmışdı. Peyğəmbərimiz onu bu vəziyyətdə görüb *«Əbu Türab»* (torpağa bulaşmış; hərfi mənası – torpağın atası) künyəsi ilə çağırdı. İslama qarşı var gücü ilə mübarizə aparmış Əmr ibn Hişama müsəlmanlar *«Əbu Cəhl»* (cahil; lüğəti mənası – cəhalətin atası) ləqəbini vermişdilər. Qurani-kərimdə cəhənnəm alovunda yanması təsvir edilən Əbdül-Üzza ibn Əbdül-Müttəlib (Peyğəmbərimizin əmisi) isə *«Əbu Ləhəb»* (alovun içində yanan; hərfi tərcüməsi – alovun atası) künyəsi ilə tanınır. Birinci xəlifə *Əbu Bəkrin* künyəsinin hərfi mənası «cavan erkək dəvənin atası» deməkdir. Yuxarıda adları çəkilən şəxslərdən əlavə, bəzi məşhur müsəlman şəxsiyyətlər də tarixdə adla deyil, künyə ilə tanınırlar. Məsələn: səhabələr *Əbu Əyyub Ənsari, Əbuzər, Əbu Səid Xüdri,* hənəfi məzhəbinin banisi Əbu Hənifə, məşhur ərəb şairi Əbu Nüvas, Abbasilər sülaləsini hakimiyyətə gətirmiş Əbu Müslim Xorasani, Kərbəla qəhrəmanı Əli Əkbərin anası Ümmi-Leyla, Peyğəmbərin həyat yoldaşı *Ümmi-Sələmə* və b.

N.R.

KÜSUF NAMAZI

bax: *ayat namazı.*

QABÜ QOVSEYN

Hərfi tərcüməsi «iki yay (ox atılan kaman) uzunluğunda» deməkdir. Ərəblər ən kiçik məsafəni bildirmək üçün ölçü kimi kamanın uzunluğunu göstərirdilər. Qurani-kərimdə Həzrət Mühəmməd Peyğəmbərin (s) merac zamanı vəhy mələyi Cəbrailə ən yaxın məqamda durduğunu vurğulamaq məqsədilə deyilir: *«(Onların arasındakı məsafə)* iki yay uzunluğunda, bəlkə ondan da yaxın oldu» *(Nəcm, 9).* Bu ifadə Peyğəmbərimizin merac gecəsində necə uca bir məqama nail olduğunu, Allahın ən sevimli mələyinə ən yaxın məsafədə durduğunu göstərir. Merac haqqında yazılan şeirlərdə «qabü qovseyn» ifadəsi tez-tez işlədilir:

Qaşındır qab ilə qovseyn ki, əsrarına əql irməz,
Vəli bu sirri ol bildi ki, qurban oldu ol yayə.
(İ.Nəsimi).

Ruzi-meraci-nəbi vəslin günüdür, ey mələk,
Qabü qovseyn ol du əbruyi-hilalındır sənin.
(Ş.İ.Xətai).

Qabü qovseyn qaşın, leylətül-isra zülfün,
Tapmısan mərtəbeyi-hüsndə sən meracı.
(M.Ə.Sabir).

N.R.

QALU BƏLA

bax: *bəzmi-ələst.*

QARE

Ərəb dilindən tərcüməsi «qiraət edən, oxuyan» deməkdir. Dini ənənədə Quranı gözəl avazla oxuyan şəxslərə deyilir. Qare ərəb dilini, Quranın qiraət qaydalarını *(təcvid)* gözəl bilməli, məlahətli səsə malik olmalıdır.

Qurani-kərim Peyğəmbərimizdən sonra bir müddət yazılı deyil, şifahi formada nəsildən-nəslə ötürülmüşdü. Həmçinin, Quranın qədim nüsxələrində *hərəkələr* (samitlər üzərində qoyulan və saitləri bildirən işarələr) və nöqtələr qoyulmurdu. Bütün bunların nəticəsində bəzi ayələrin qiraətində fərqlər yaranırdı. İslam tarixinin ilk iki əsrində yaşa-

yan, ərəb dilinin leksika və qrammatikasını mükəmməl bilən bir neçə alim qiraət elmində öz görüşlərini sistemləşdirməyə nail oldu. Xilafətin mərkəzi şəhərlərində yaşayan alimlərin bu görüşləri qısa müddət ərzində qiraət məktəbi kimi formalaşdı. Zaman keçdikcə, qarelər arasından 7 nəfər seçilərək, ardıcıllarının sayı baxımından üstünlük qazandı. Bu 7 qarenin hər birinin qiraət qaydaları iki şagirdi (bunlara «ravi», yəni rəvayətçi deyilir) tərəfindən sonrakı nəsillərə ötürüldü.

Yeddi məşhur qare və onların ravilərinin əksəriyyəti *Abbasilər* dönəmində yaşamışlar. Onların adı belədir:

1. Abdullah ibn Amir Dimeşqi. Raviləri – Hişam, İbn Zəkvan.
2. Abdullah ibn Kəsir Məkki. Raviləri – Bizzi, Qünbül.
3. Asim ibn Əbun-nücud Kufi. Raviləri – Həfs, Əbu Bəkr Şöbə ibn Əyyaş.
4. Əbu Əmr ibn Əla Bəsri. Raviləri – Duri, Susi.
5. Həmzə ibn Həbib Zəyyat Kufi. Raviləri – Xələf, Xəllad.
6. Nafe ibn Əbu Nüeym Mədəni. Raviləri – Qalun, Vərş.
7. Əli ibn Həmzə Kisai Kufi. Raviləri – Leys, Duri.

Sonralar 7 qarenin sırasına daha 3 nəfəri (Xələf, Yəqub ibn İshaq və Yezid ibn Qəqa) əlavə edərək saylarını 10-a çatdırdılar. Daha sonra Həsən Bəsri, İbn Müheysən, Yəhya ibn Mübarək Yəzidi və Şənbuzini də bura artıraraq, 14 nəfər etdilər.

Adları çəkilən qarelər bu və ya digər ayənin qiraətində onlara yetişən rəvayətləri əsas götürərək, bəzən eyni ayəni fərqli şəkildə oxuyurdular. Bu fərqlərin heç biri Quranın mətninə hər hansı kəlmənin və ya hərfin əlavə edilməsinə, yaxud əksinə, Quran mətnindən hər hansı kəlmənin və ya hərfin çıxarılmasına əsaslanmır. Qiraətlər arasındakı fərqlər əsasən, oxunuş zamanı ayələrin hansı yerində durmaq (sükun), hansı yerində kəlmələri birləşdirmək (vəsl) məsələsində, hərəkələrdə (samitlər üzərində qoyulan və saitləri bildirən işarələrdə) və bəzi hərflərin tələffüzündədir.

N.R.

QAZİ (əslində ĞAZİ)

Düşmənlə döyüşən kəs. *«Qəzvə»* sözü ilə eyni kökdəndir. Dini ədəbiyyatda düşmənlə müharibədə ölənlərə «şəhid», qalanlara isə «qazi» deyilir. Osmanlı imperiyasında bu ad müharibələrdə böyük qəhrəmanlıq göstərən sərdarlara verilirdi.

R.M.

QAZİ

bax: *qəzavət.*

QEYB (əslində ĞEYB)

Gözlə görülən, hissiyyat orqanları ilə duyulan hadisə və görüntülərin əksinə olaraq, bu yollarla dərk edilməsi mümkün olmayan məfhumlara deyilir. Qeyb – hazırın ziddidir. Dini anlamda keçmişdə və gələcəkdə, həmçinin, insanın olduğu məkandan çox-çox uzaqlarda baş verən hadisələrlə, bu dünyadan kənardakı aləmlərin vəziyyəti ilə, axirət, qiyamət kimi mövzularla bağlı biliklər qeybə aiddir. Bu bilik və məlumatlar qeyb aləmi adlanan aləmdə toplanıb. Qurani-kərimin onlarla ayəsində qeybdən danışılır və qeybin yalnız Allaha məlum olduğu vurğulanır: «De: «Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz!» *(Nəml, 65).* «Qeybin açarları *(Allahın)* yanındadır. Onları ancaq O bilir. *(Allah)* suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki onu bilməsin» *(Ənam, 59).* «Qeyb ancaq Allaha məxsusdur» *(Yunus, 20).* Hətta Həzrət Mühəmməd Peyğəmbərin (s) də qeyb aləmindəki bəzi məlumatlardan xəbərsiz olduğu Quranda təkid edilir: «De: «Mən sizə demirəm ki, mənim yanımda Allahın xəzinələri var. Mən qeybi bilmirəm və sizə də demirəm ki, mən mələyəm. Mən yalnız özümə gələn vəhyə tabe oluram» *(Ənam, 50).*

Qurani-kərimdə qeybi biliklərin bir neçəsi xatırlanır: «Həqiqətən, o saatı *(qiyamətin qopacağı vaxtı)* ancaq Allah bilir. Yağışı *(istədiyi vaxt)* göydən O yağdırır, bətnlərdə olanı O bilir. Heç kəs səhər nə kəsb edəcəyini, heç kəs harada öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, *(hər şeyi)* biləndir, *(hər şeydən)* xəbərdardır» *(Loğman, 34).*

Alimlər qeybi bilikləri iki hissəyə bölürlər. ***Mütləq qeyb*** qisminə aid biliklər yalnız

və yalnız Allaha məlumdur. Məsələn, Allahın zatının mahiyyəti, qiyamətin vaxtı və s.

İzafi qeyb adlandırılan ikinci növ qeybi xəbərləri isə Allah istədiyi sevimli bəndələrinə verə bilər. Quranda belə məlumatların bir qisminin peyğəmbərlərə ötürüldüyü bildirilir: «Qeybi bilən ancaq Odur *(Allahdır)* və öz qeybini heç kəsə əyan etməz; bəyənib-seçdiyi peyğəmbərdən başqa» *(Cin, 26-27).* Qeyb aləmindən bəzi xəbərlər vermək peyğəmbərlərin möcüzəsi sayılır. Allah bu bilikləri ona görə peyğəmbərə verir ki, insanlar Onun həqiqi peyğəmbər olduğuna inanıb Allaha iman gətirsinlər və düzgün yola istiqamətlənsinlər.

Bəzi mömin şəxslər (övliyalar) da qeyb aləmindən müəyyən biliklər əldə edə bilərlər. Buna *kəramət* deyilir.

N.R.

QEYBƏT

Bir kəsin mənfi xüsusiyyətlərini və ya açılmasını istəmədiyi eyiblərini onun olmadığı bir yerdə müzakirə etmək. Diqqət yetirilməli məsələ budur ki, qeybətin mövzusu həqiqət olsa da, yəni qeybət olunan şəxsdə həmin mənfi sifətlər olsa da, onları faş etmək günahdır. Əgər deyilən sifətlər həmin adamda olmasa, artıq bu, iftira sayılır və daha ağır günaha çevrilir. Bir kəsin həm zahiri görünüşü, həm xasiyyəti, həm əməlləri, həm ailə üzvləri, həm də yaşayış səviyyəsi, evi, peşəsi qeybətin mövzusu ola bilər.

Qeybət etmək İslam dinində çox məzəmmət olunur. Quranda bu barədə buyurulur: «Bir-birinizin qeybətini etməyin! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?!» *(Hücurat, 12).* Ayənin mənası budur ki, müsəlmanın ölmüş adam əti yeməsi nə qədər dəhşətlidirsə, qeybət etməsi də bir o qədər ağır günahdır.

Hədislərdə buyurulub ki, hər kim başqasının eyiblərini açıb ifşa etsə, Allah da onun öz eyiblərini açar və onu rüsvay edər. Qeybət söhbətində hətta susmaq şərti ilə olsa belə, iştirak etmək günahdır. Hər kim bir müsəlmanın qeybətinin edildiyini görüb-eşitsə, onu müdafiə etməli və qeybətçilərə etirazını bildirməlidir. Qeybət etməyin günahını həmin adamdan halallıq almaqla yumaq olar.

Bəzi istisna hallarda qeybət etməyə icazə verilir. Məsələn, adam bir kəsin əmanətə xəyanət etdiyini bilirsə, həmin adama əmanət vermək niyyətində olan insana bu barədə xəbərdarlıq edə bilər. Həmçinin, öz eyibləri və günahları ilə öyünən, bunların ifşa olunmasından utanmayan adamın qeybətini etmək günah sayılmaz.

Qeybət şiə məzhəbində daha bir fərqli mənaya malikdir. Belə ki, XII imam Həzrət Mehdinin (ə) qeybə çəkildiyi, yəni insanlardan gizli qaldığı müddətə də qeybət dövrü deyilir. Qeybət dövrü iki hissəyə bölünür. ***Kiçik qeybət dövrü*** hicri-qəməri 260-cı (miladi 874-cü il) ildən hicri-qəməri 329-cu (miladi 941-ci) ilə kimi davam etmişdir. Bu müddətdə Həzrət Mehdi (ç) şiə məzhəbindən olan müsəlmanlarla 4 nəfər *naib* vasitəsilə əlaqə saxlayırdı. Bir-birini əvəz edən bu naiblər İmamla şəxsən görüşür, müsəlmanların sual və istəklərini Ona təqdim edir, Onun yazılı və şifahi cavablarını müsəlmanlara çatdırırdılar. Hicri 329-cu ildə dördüncü naibin vəfat etməsi ilə kiçik qeybət dövrü başa çatdı və böyük qeybət mərhələsi başlandı. ***Böyük qeybət dövründə*** İmam Mehdinin (ə) xüsusi təyin edilmiş naibləri yoxdur. Hər kəs naiblik iddiası ilə çıxış etsə, ona inanmağa vəzifəli deyilik. Bəzi inanılmış şəxslər Onunla görüşsələr də, bu görüşlər çox zaman gizli çaxlanılır, İmamı görənlər özlərini camaata aşkar şəkildə təqdim etmirlər. Böyük qeybət dövrü indi də davam edir və dünyanın sonuna az qalmış İmam Mehdinin (ə) zühuru ilə başa çatacaq. Böyük qeybət dövründə şiə müctəhidlər İmamın vəzifəsini qismən əvəz edirlər; yəni şəriət hökmlərini mövcud mənbələr və sübutlar əsasında açıqlayırlar. Sıravi müsəlmanlar da şəriət hökmlərini onların vasitəsilə əldə edib öyrənirlər. İmam Mehdinin (ə) özü böyük qeybət dövründə şiələrə bunu tövsiyə etmişdir: «Qarşıya çıxan hadisələrlə bağlı bizim hədislərimizi rəvayət edənlərə müraciət edin. Onlar mənim sizə hüccətimdir, mən isə Allahın onlara hüccətiyəm».

N.R.

QƏBİR ƏZABI

Ölümdən sonra günahkar insana veriləcək əzabın ilk mərhələsi. Vəfat etmiş şəxs dəfn

olunduqdan sonra birinci gecədə *Nəkir və Münkər* adlı sorğu-sual mələkləri qəbrə daxil olarlar. Onlar qəbirdəki şəxsin əqidəsi və imanı barədə bir neçə sual verərlər: Rəbbin kimdir, müqəddəs kitabın nədir, qiblən nədir, peyğəmbərin kimdir və s. Kim bu dünyada düzgün əqidə və saleh əməllə yaşayıbsa, suallara doğru cavab verəcək. Hər kimin etiqadı və əməlləri dürüst olmayıbsa, cavab verməyə çətinlik çəkəcək. Qəbirdəki şəxsin ruhu suallara gözəl şəkildə cavab versə, həmin qəbrə cənnətdən bir pəncərə açılar və mərhumun ruhu qiyamət gününə kimi cənnətin ətrini, sərinliyini hiss edər. Əgər suallar cavabsız qalsa, mələklər ölünün ruhuna əzab verməyə başlayarlar. Sonra həmin qəbrə cəhənnəmdən bir pəncərə açılar və ölünün ruhu qiyamətə kimi cəhənnəmin üfunətini, hərarətini duyar. Beləcə, möminin ruhu həzz içində səbirsizliklə axirəti gözləyər; çünki alacağı mükafatın əlamətlərini hiss edər. Əksinə, kafir və münafiq isə axirət gününün qorxusu ilə əzab çəkər; çünki cəhənnəm əzabının nişanələrini görər.

Həzrət Mühəmməd Peyğəmbər (s) bütün bunları nəzərdə tutaraq buyurmuşdur: «Qəbir ya cənnət bağçalarından bir bağçadır, ya da cəhənnəm çuxurlarından bir çuxurdur». Həzrət Əli (ə) isə qəbir əzabını belə təsvir edirdi: «Ey Allahın bəndələri! Bağışlanmamış şəxs öləndən sonra başına gələnlər ölümdən daha betərdir. Qəbrin darlığından, çətinliyindən, tənhalığından qorxun! Qəbir *(kafir və münafiqin qəbri)* hər gün fəryad edər: «Mənəm qürbət məkanı! Mənəm vəhşət diyarı! Mənəm həşəratların məskəni!».

Mərhumun yaxınları (məsələn, övladları) onu qəbir əzabından xilas etmək, yaxud qəbir əzabını yüngülləşdirmək istəsələr, ruhuna dua oxuya bilərlər. Adətən, dəfn gecəsində mərhumun ən yaxın adamları vəhşət namazı qılırlar. Rəvayətlərdə mərhumu dəfndən sonrakı qorxudan xilas etmək, onu tənha buraxmamaq, onun ruhuna dayaq olmaq məqsədilə vəhşət namazı qılmaq tövsiyə edilir. Həmçinin, dəfn zamanı (və ya dəfndən dərhal sonra) *təlqin* oxunmasının məqsədi də sorğu-sual mələklərinin verəcəkləri suallara ölünü hazırlamaqdan ibarətdir.

N.R.

QƏDƏR

Ərəb dilində «ölçü, miqdar» mənasını verir. Rağib İsfahaniyə görə, «qədər və təqdir» ifadələri bir şeyin miqdarını və sərhəddini bildirir. Yəni qədər – mahiyyəti göstərən və məhdudlaşdıran ölçüdür. Dünyada hər şey ilahi ölçü əsasında əzəldən təqdir və təyin edilmişdir. Məsələn, buğda toxumu və ya xurma çəyirdəyi elə özünəməxsus ölçü və xüsusiyyətlərlə təqdir və təyin edilmişdir ki, birincisindən yalnız buğda, o birisindən yalnız xurma ağacı bitər, başqa ağac bitməz. Hər bitkinin, hər ağacın, hər canlının toxumu da elədir. Deməli, qədər – bu aləmin və ondakı bütün varlıqların ilahi hikmətə əsasən yaradılışında və varlığının davam etməsində əsas olan ilahi ölçü, ilahi qanundur.

«Qədər» və «təqdir» sözlər Qurani-kərimdə bir neçə dəfə işlədilmişdir: «Şübhəsiz biz, hər şeyi müəyyən bir ölçüdə *(lazım olduğu qədər)* yaratdıq» *(Qəmər, 49)*. «O *(Allah)* hər şeyi yaratmış və onu təqdir etmişdir» *(Fürqan, 2)*. Burada təqdir – yaradılacaq şeylərin bütün xüsusiyyətlərini, yerini və zamanını, haqq ya batil, xeyir ya şər, savab ya günah olacağını əzəldən təyin və təsbit etməkdir.

Matüridi kəlam məktəbinə görə, qədər – əzəldən əbədiyyətə (sonsuzluğa) qədər olmuş və olacaq şeylərin zamanını, məkanını, sifətlərini və hər cür xüsusiyyətlərini Allahın bilməsi, onları həmin mahiyyət və forma əsasında təqdir və təyin etməsidir. Bu tərifə görə, qədər Allahın elm və iradə sifətlərinə bağlıdır; bu ilahi sifətlərə inanmaq qədərə inanmağı da tələb edir.

Əşəri kəlam məktəbinə görə, qədər – Allah-təalanın hər şeyi öz vaxtında, öz əzəli elminə uyğun olaraq öz istədiyi forma və xüsusiyyətlər əsasında yaratmasıdır.

R.M.

QƏLB

Könül, insanın hissiyyat mərkəzi. Ərəb dilində «qəlibə» feli nəyi isə dəyişdirmək, tərs şəklə salmaq mənasını verir. Hətta şeirdə «qəlb» adlı bir ədəbi üsul vardır ki, bu üsulla bir sözün hərflərinin yerini dəyişdirərək, ondan təzə söz yaradırlar (məsələn, mərg – gərm, əsb – səba, səlah – hasil).

Həmçinin, bir şeyin mərkəzinə, məğzinə, əslinə də qəlb deyilir. Məsələn, qəlbül-ceyş (qoşunun mərkəzi hissəsi).

Könülə «qəlb» deyilməsinin səbəbi budur ki, o, haldan-hala düşür, dəyişir. Novruz bayramı il təhvil olanda oxunan duada deyilir: «Ya müqəlibəl-qülubi vəl-əbsar» (Ey könülləri və gözləri haldan-hala salan).

Qurani-kərimdə «qəlb» kəlməsi və ondan törəyən sözlər təqribən 20 dəfə, «qülub» (cəm halda «qəlblər») kəlməsi və ondan törəyən sözlər 112 dəfə işlənib.

Quranda «qəlb» sözünün bir neçə mənası verilib. Məsələn, ağıl və ürək *(Qaf, 37)*, ruh və can *(Əhzab, 10)*, hissiyyatların mərkəzi olan üzv – ürək *(Ənfal, 12; Ali-İmran, 159)*.

Qürani-kərimdə möminlərin qəlbinin bir sıra xüsusiyyətlərə malik olduğu bildirilir. Məsələn: Onlar Allahın və Peyğəmbərin düşmənləri ilə dostluq etməzlər (qohumları olsa belə; *Mücadələ, 22*). Allaha iman gətirənlərin qəlbi Allah tərəfindən hidayət olar *(Təğabün, 11)*. Möminlərin imanını artırmaq üçün Allah onların qəlbinə arxayınlıq verər *(Fəth, 4)*. Allahı xatırlamaqla möminlərin qəlbi aram olar *(Rəd, 28)*.

Möminin qəlbi irfan aləmində ən geniş və hüdudsuz məfhum sayılır. Heç bir məkan və heç bir əşya Allah-təalanı əhatə edə bilmədiyi halda, yalnız qəlb buna qadirdir. Allah mömin şəxsin qəlbinə yerləşər. Həzrət Peyğəmbərdən (s) soruşdular: «Allah haradadır: yerdə ya göydə?» Cavab verdi: «Allah mömin bəndələrinin qəlbindədir». Hədisiqüdsiyə görə Allah buyurur: «Mən nə yerə, nə də səmaya yerləşərəm. Yalnız mömin bəndəmin yumşaq və aram qəlbinə yerləşərəm» *(Reyşəhri. Mizanül-hikmə, III, 2601)*.

Quranda möminlərin qəlbi haqqında «qəlbi-səlim» (sağlam qəlb) ifadəsi işlədilib *(Şüəra, 88-89)*. Qəlbi-səlimin xüsusiyyətləri barədə İslam müqəddəsləri buyurmuşlar: «Qəlbi-səlim Allahla görüşən qəlbdir. Onda Allahdan savayı heç nə olmaz. İçində şirk və şəkk olan hər bir qəlb naqisdir». «Qəlbi-səlim dünya məhəbbətindən salamat qalan qəlbdir». «Özün üçün istədiyini möminlər üçün istəməyincə, qəlbin sağlam olmaz». «Qəlblərin ən sağlamı – şübhələrdən təmiz olan qəlbdir».

İmam Əli ibn Əbu Talib (ə) qəlbin xüsusiyyətlərini bəyan edərək buyurmuşdur: «Qəlb pisliklərı yadında saxlayıb kin tutar, amma ağıl bunları onun yadından çıxarar». «Axmaq adamın qəlbi dilinə tabe olar; ağıllı adamın isə dili qəlbinə». «Hər qəlbi olan ağıllı deyil, hər qulağı olan eşidən deyil, hər gözü olan görən deyil». İmam Sadiq (ə) isə qəlbi riqqətə gətirməyin çətinliyini belə təsvir etmişdir: «Dağları yerindən oynatmaq qəlbi hərəkətə gətirməkdən daha çətindir».

Qəlbin də özünəməxsus xəstəlikləri olur; özü də bu xəstəliklər artıb-azala bilir: «Onların ürəyində mərəz var. Allah onların mərəzini daha da artırar» *(Bəqərə, 10)*.

Qurani-kərimdə qəlbin mərəzlərindən bir neçəsi sadalanıb: şübhə, şəkk, inkar, qəflət, möhürlənmə, paslanma, bərkimə və s. Qəlbi bu kimi mərəzlərdən sağaltmağın yolları Quran oxumaq, ölümü yada salmaq, ehtiyacı olanlara yardım göstərmək, elmli və əxlaqlı adamlarla durub-oturmaqdır.

N.R.

QƏLƏNDƏR

Tərki-dünya həyat tərzi sürən, özünü hər iki dünya məhəbbətindən azad edən dərviş, qələndəriyyə təriqətinin üzvü. Tarixdə ilk qələndərlərin hicri VI (miladi XIII) əsrdə meydana çıxdığını yazırlar. Əvvəllər «qələndər» sözü sufilərin toplandığı məkan mənasında işlədilirdi, sonralar bu ad dərvişlərə aid edildi. İlk qələndərlər qaba yundan paltar geyinirdilər. Məşhur müsəlman səyyahı İbn Bəttutə XIV əsrdə yazırdı ki, qələndərlər yundan yaşıl kürk geyinir, saçlarını, bığ-saqqallarını, hətta qaşlarını da qırxırlar. Orta əsərlərdə qələndəriyyə təriqəti Xorasan, Şam və Hindistan torpaqlarında daha geniş yayılmışdı.

Bəzi tədqiqatçılar qələndəriyyə təriqətinin XIV əsrdə meydana çıxdığını yazırlar. Həmin fərziyyəyə görə, əvvəllər *bəktaşiyyə* təriqətinə mənsub olmuş Yusif adlı bir nəfər bəktaşilikdən uzaqlaşır. Onu və ardıcıllarını «qələndər» adlandırmağa başlayırlar.

Qələndərlər köçəri həyat sürür, ayaqyalın gəzir, yalnız dilənməklə dolanırdılar. Sonralar qələndəriyyə təriqətinin ilkin əsasları təhrifə uğradı. Qələndər dərvişlər arasında

belə bir fikir yayıldı ki, günahlar yalnız insanın cisminə aiddir, ruhda heç bir təsir buraxmır. Bu səbəbdən qələndərlər arasında dinə və əxlaqa zidd olan bəzi əməllər rəvac tapmağa başladı. Tədricən qələndərlər xalqın gözündə nifrət və istehza hədəfinə çevrildilər. Sufi mənbələrində də qələndərlər dini qanunları, adət-ənənələri inkar etməkdə, şəriət hökmlərinə məsuliyyətsiz yanaşmaqda ittiham olunurlar.

Hafiz, Sədi, Sənai, Əmir Xosrov Dəhləvi, Salman Savici, Əttar Nişaburi kimi məşhur Şərq şairlərinin yaradıcılığında «qələndər» sözünə tez-tez rast gəlmək mümkündür. Azərbaycan ədəbiyyatında da bu söz tərkidünya dərviş mənasında işlədilib:

Qələndər Kişvəridir bir süxəndan,
Süxənguyadır üştə kuyi-meydan.
(Kişvəri).

Həm mən qələndər surətəm, fərdəm, mücərrəd təcridəm,
Oldum fəqirü həm gəda, həm mülkə sultan gəlmişəm.
(İ.Nəsimi).

N.R.

QƏRİBÜL-QURAN

Qurani-kərimdə rast gəlinən, lakin ərəblər arasında çox istifadə edilməyən kəlmələrə «qərib» (əslində «ğərib») deyilir. Bu kəlmələri açıqlayan Quran elmini «qəraibül-Qura» adlandırırlar.

Quranın mətnində qədim dövrlərdə işlədilən, sonra isə unudulan və az istifadə olunan xeyli söz vardır. Bundan əlavə, digər ərəb ləhcələrindən və başqa dillərdən götürülüb ərəbləşdirilmiş kəlmələr də az deyil. Məsələn, «tur» *(Möminun, 20)* sözü süryani dilində «dağ», «əl-mühl» *(Kəhf, 29)* kəlməsi bərbər dilində «qaynar yağ», «əl-yəmm» *(Ta-Ha, 39)* ifadəsi isə qibti dilində «dəniz» mənasını bildirir.

M.İ.

QƏSB

Zorla almaq, işğal etmək. Başqasına məxsus olan malı sahibinin və ya səlahiyyətli şəxsin izni olmadan zorla mənimsəmək mənasını verir. Qurani-kərimdə «qəsb» sözü cəmi bir dəfə, özü də yuxarıda qeyd edilmiş mənada işlənmişdir *(Kəhf, 79)*.

Bütün dinlərin və hüquq sistemlərinin qoruduğu beş əsas dəyərdən biri olan mülkiyyət hüququ İslam dinində toxunulmaz sayılır, oğurluq, qəsb kimi davranışlar qətiyyətlə qadağan edilir. Qurani-kərimdə buyurulur: «Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə *(haqsız yerə)* yeməyin!..» *(Nisa, 29)*. Həzrət Mühəmməd Peyğəmbər (s) də: «Müsəlman özü razılıq verməyincə, malı başqasına halal olmaz» – buyurmuşdur.

İslam hüququnda qəsbin həm bu dünyaya, həm də axirətə aid hökmləri vardır. Qəsbkar bilərəkdən günah işlətdiyi üçün axirətdə cəzaya düçar olacaq. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Kim bir qarış torpağı qəsb etsə, Allah qiyamət günündə yeddi qat yeri onun boynuna keçirəcək» *(Səhihül-Buxari, Bədül-xəlq kitabı, II bab, 3198-ci hədis; Səhihü Müslim, Müsaqat kitabı, XXX bab, 4132-38-ci hədislər)*. Qəsbin dünyəvi hökmü isə, qəsbkara müvafiq cəza vermək və qəsb etdiyi əmlakı sahibinə ödəməsini təmin etməkdir. Qəsb edilmiş malda hər hansı dəyişiklik (zərər, ziyan) olmamışsa, olduğu kimi sahibinə qaytarılır. Əgər olduğu kimi qaytarılacaq vəziyyətdə və imkanda deyilsə, əvəzi verilməlidir. Əvəzin ödənişi zəmanənin şərtlərinə müvafiq olaraq qanun tərəfindən tənzimlənir.

Ə.N.

QƏSİDƏ

Klassik Şərq ədəbiyyatında şeir forması. «Qəsidə» sözü «qəsd» kökündəndir. Çünki qəsidə yazan şair qarşısına konkret məqsəd qoyur (kimi isə tərifləmək və ya hər hansı hadisəni təsvir etmək) və poetik ifadə vasitələrinin köməyilə bu məqsədə çatmağa çalışır.

Qəsidə İslamdan əvvəl Ərəbistanda yaranmışdır. Cahiliyyə dövründə ərəb şairlərinin yazdıqları qəsidələr Məkkə kənarında təşkil edilən Ükaz yarmarkasında müsabiqəyə çıxarılır, qalib gələn qəsidələr Kəbənin divarından asılırdı. İslamın gəlişi ərəfəsində Kəbə divarından asılan qəsidələrin sayı 7 idi və bunlara «müəlləqatüs-səbə» (yeddi asılı)

deyirdilər. Sonralar qəsidə həm də fars və türkdilli xalqların ədəbiyyatında, o cümlədən, Azərbaycan şairlərinin yaradıcılığında geniş yayıldı. Qəsidə əsasən, mədhiyyə, bəzən isə şikayət və tənqid xarakterli olur. Məzmununa görə aşağıdakı növlərə bölünür: minacat (Allah-təalaya ünvanlanmış həmdsəna), nət (Həzrət Mühəmməd Peyğəmbərin (s) vəsfi), mədhiyyə (hər hansı hökmdarı, dövlət xadimini və ya sənət adamını tərifləyən şeir), fəxriyyə (şairin özünü tərif etməsi), mərsiyə (matəm münasibətilə yazılmış şeir) və s. Qəsidə quruluş baxımından qəzələ bənzəyir, beytlərdən ibarət olur. Beytlər aa, ba, ca sistemi əsasında qafiyələnir. Amma məzmununa görə qəsidə qəzəldən fərqlənir (qəzəl yalnız lirik məzmunlu olur). Həmçinin, qəsidə həcmcə qəzəldən daha böyük olur (20 beytdən 200 beytə kimi).

İslam tarixində Əbu Talibin və Kəb ibn Züheyrin Həzrət Mühəmməd Peyğəmbərə (s), Kümeyt Əsədi və Seyid Himyərinin Əhli-beytə, Fərəzdəqin İmam Zenyülabidinə (ə), Dibəl Xüzainin İmam Rzaya (ə) həsr etdikləri qəsidələr xüsusi şöhrətə malikdir. Ərəb şairlərindən Cərir, Əxtəl, Mütənəbbi, Əbül-Ətahiyə və Əbu Təmmamın, fars şairlərindən Sənai, Sədi və Caminin, Azərbaycan şairlərindən isə Qətran Təbrizi, Xaqani və Füzulinin yaradıcılığında qəsidə mühüm yer tutur.

N.R.

QƏSR

bax: *təqsir.*

QƏZA

Ərəb dilində «hökm etmək, əmr etmək, yerinə yetirmək, ödəmək, ehtiyacını qarşılamaq, mühakimə etmək» kimi mənaları ifadə edir. Dini ədəbiyyatda «qəza» sözü aşağıdakı mənalarda işlədilir: 1. Mühakimə və qazılıq vəzifəsi; 2. Vaxtında yerinə yetirilməyən dini və hüquqi öhdəliyin vaxtı keçdikdən sonra yerinə yetirilməsi; 3. Allahın öz əzəli elmi ilə qərarlaşdırdığı hadisənin vaxtı çatdıqda baş verməsi.

Yerinə yetirilməsi üçün konkret vaxt (istər geniş, istərsə də dar olsun) təyin edilmiş ibadətlər həmin vaxt ərzində yerinə yetirilməlidir. Zərurət olmadığı halda, vaxtından sonraya təxirə salınmasına icazə verilmir. Vaxtında icra edilməyən ibadətlər insanın öhdəsində borc kimi qalır. Bu borcun sonradan yerinə yetirilməsinə «qəza» deyilir. Qurani-kərimdə xəstəlik və səfər üzündən orucu tuta bilməyənlərin daha sonra günəgün qaydası ilə qəza etmələri əmr olunur *(Bəqərə, 184)*. Orucunu qəsdən pozan şəxs də həmin günün orücünü sonra qəza etməlidir (bəzi hallarda üstəlik *kəffarə* də verməlidir). Həcc üçün *ehram* bağlayan şəxs həcc əməllərini tamamlamasa və ya həcci pozulsa, daha sonra bunu qəza etməlidir.

A.Q.

QƏZAVƏT

Şəriət qanunları əsasında hökm vermək. Müsəlman cəmiyyətində fərdlərin arasında baş verən mübahisəli məsələləri həll etmək, haqqı aşkara çıxarmaq üçün şəriət məhkəmələri təşkil edilir. Bu məhkəmələrdə hakimlik edən şəxslərə *qazi* deyilir. Qazi adətən, dövlət başçısı (xəlifə və ya hökmdar) tərəfindən təyin edilir, dövlətdən *(beytülmaldan)* məvacib alır.

Qəzavət zamanı çıxarılan hökmlər *Qurani-kərimə, sünnəyə, icmaya, qiyasa* (əhli-sünnə məzhəbində), *ictihada* və s. Mənbələrə əsaslanır. Həzrət Mühəmməd Peyğəmbər (s) *Müaz ibn Cəbəl* adlı səhabəni Yəmənə qazi təyin edəndə ondan soruşdu: «Orada necə qəzavət edəcəksən?». Müaz cavab verdi: «Allahın Kitabına (Qurana) əsasən qəzavət edəcəyəm». Peyğəmbər soruşdu: «Əgər Allahın Kitabında lazım olan hökmü tapmasan?». Müaz dedi: «Onda Allahın Rəsulunun sünnəsinə əsasən qəzavət edəcəyəm». Peyğəmbər yenə soruşdu: «Bəs sünnədə də lazım olanı tapmasan?». Müaz dedi: «Onda öz rəyimə əsasən ictihad edəcəyəm». Peyğəmbər bu cavablardan razı halda buyurdu: «Həmd olsun Allaha ki, Allah Rəsulunun elçisini *(Müazı)* lazım olan şəkildə davranmağa müvəffəq etdi» *(Sünənüt-Tirmizi, Ehkam bablari, III bab, 1327-ci hədis)*.

Qəzavət zamanı şahidlər xüsusi qaydalar əsasında dindirilir. Lazım gəldikdə, müəyyən məhkəmə tədirləri də (müttəhimə and

içdirmə, məhkəmə ekspertizası və s.) həyata keçirilir.

Qəzavət etmək İslamda ən məsuliyyətli və çətin işlərdən sayılır. İslam məzhəbləri qəzavəti o zaman düzgün sayırlar ki, müəyyən şərtlərə cavab verən qazi tərəfindən həyata keçirilmiş olsun. Qazi kişi cinsindən, ədalətli və savadlı olmalıdır. Hətta bəzi məzhəblərə görə, qazi ictihad qabiliyyətinə sahib olmalıdır ki, lazım gəldiyi an mübahisəli məsələlərdə özü müstəqil rəy söyləyə bilsin. Qəzavət prosesi şəffaf olmalı, tərəflər üçün bərabər şərait yaradılmalı, tərəflərə eyni hüquqlar verilməlidir. Həzrət Mühəmməd Peyğəmbər (s) İmam Əliyə (ə) tapşırmışdı: «İki nəfər öz aralarındakı mübahisəli məsələdə səni qazi kimi qəbul etsə, onların yalnız birini dinləməklə hökm çıxarma. O biri tərəfi də dinlə; bu halda necə qəzavət etməli olduğunu daha yaxşı başa düşərsən». Tarixdə elə qazilər olub ki, hökmdarla rəiyyətin arasında baş vermiş mübahisəli məsələni həll edəndə onları bir-birindən fərqləndirməmiş, hətta tərəflərə müraciət edərkən belə, bərabərliyi qorumuşlar.

Tarixdə bir çox məşhur şəxsiyyətlər qəzavət məsuliyyətini öhdəyə götürməkdən boyun qaçırmış və qazilik vəzifəsindən imtina etmişlər. Məsələn, üçüncü xəlifə Osman ikinci xəlifə Ömərin oğlu Abdullaha camaat üçün qəzavət etməyi tapşıranda Abdullah bu işin məsuliyyətini xatırladaraq imtina etmişdi. Yaxud hənəfi məzhəbinin banisi İmam Əbu Hənifə Abbasi xəlifəsi Mənsurun zamanında Bağdad qaziliyinə təyin edilmək tələbi qarşısında var gücü ilə müqavimət göstərmiş, bunun üstündə fiziki işgəncələrə məruz qalmış, həbsə atılmışdı. Əbu Hənifə başa düşürdü ki, zalım hökmdarın rəhbərliyi altında müstəqil və ədalətli qəzavət edə bilməyəcək, əksinə, hökumət tərəfindən yeridilən siyasəti dəstəkləməyə məcbur olacaq. Peyğəmbərin aşağıdakı hədisi də qaziliyin nə qədər çətin və məsuliyyətli peşə olduğunu göstərir: «Qazilər üç cürdür, bunların ikisi cəhənnəmə, biri isə cənnətə düşər. Qəsdən haqsız hökm çıxaran qazi cəhənnəmlikdir. Bilməyərəkdən camaatın haqqına təcavüz edən qazi də cəhənnəmə layiqdir. Haqq-ədalətlə qəzavət edən qazi isə cənnətə gedər».

Həzrət Əli (ə) xilafət illərində hər bir vilayətə vali təyin edərkən, ona qəzavət işlərində xüsusilə diqqətli olmağı tapşırırdı. Misrə vali təyin etdiyi Malik Əştərə məktubunda İmam Əli (ə) yazırdı: «Xalq arasında qəzavət və hakimlik üçün rəiyyətin ən yaxşısını seç. Eləsini ki, işlər ona çətin gəlməsin, çəkişməyə düşmüş kəslər dava və qalmaqal barəsində öz nəzərlərini ona qəbul etdirə bilməsinlər, mütəmadi olaraq səhvə yol verməsin, haqqı dərk edəndə ona qayıtmaqda aciz qalmasın, nəfsi tamah və hərisliyə meylli olmasın, lazımınca düşünmədən az anlayışla kifayətlənməsin, şübhəli məqamlarda dayanaraq hamıdan çox götür-qoy etsin, dəlil və sübutları hamıdan çox öyrənib mənimsəsin, şikayətçilərin müraciətlərindən hamıdan az bezsin, işlərin aydınlaşdırılmasında hamıdan çox təmkinli və dözümlü olsun, hökm aydınlaşanda hamıdan qətiyyətli olsun, çox tərifləmək onu xudbinliyə düçar etməsin, məcburiyyət və kələk onu *(tərəflərdən birinə)* meylli etməsin. Bu sifətlərlə zinətlənmiş hakimlər az ələ düşərlər. Bundan sonra onun çıxardığı hökmlərdən ətraflı xəbər tut, yoxla. Ona o qədər bəxşiş et və yaşayışını elə gen-bol təmin et ki, *(rüşvət almaq üçün)* üzr və bəhanə gətirməsinə yer qalmasın...» *(Nəhcül-bəlağə, 53-cü məktub).*

N.R.

QƏZF

Ərəb dilndən tərcümədə «atmaq, tullamaq» mənasını verir. Dini anlamda ismətli müsəlman qadını və ya namuslu müsəlman kişini əxlaqsızlıqda təqsirləndirmək və üzərinə zina iftirası atmaq «qəzf» adlanır. Çox zaman bu sözü aşağıdakı ayənin ifadəsinə uyğun olaraq, «qəzfi-mühsənə» (ismətli qadına böhtan atmaq) şəklində işlədirlər. Qurani-kərimdə buyurulur: «Zinadan xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham edənlər dünyada və axirətdə lənətə düçar olarlar. Onları *(qiyamət günündə)* çox böyük bir əzab gözləyər. Qiyamət günü dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcək» *(Nur, 23-24).* Ayədə qəzf edənlərin lənətə layiq görülməsi bunu göstərir ki, bu hərəkət böyük günahlardan *(kəbirə)* biridir. Həzrət Mühəmməd Peyğəmbər (s) qəzf günahını insanı həlaka aparan yeddi əməldən biri sayırdı.

Şəriət qaydalarına görə, başqasına münasibətdə qəzf etmiş insan (kişi ya qadın olmasına baxmayaraq) əgər öz sözünü isbat etmək üçün tutarlı dəlil gətirə bilməzsə (məsələn, dörd nəfər şahid ifadəsi təqdim etməzsə, yaxud şahidlərin ifadələri bir-birinə uyğun gəlməzsə), bu halda ona qəzf həddi deyilən cəza tətbiq edilir. Şahidlərin yalan danışdıqları sübuta yetərsə, onlara qarşı da qəzf həddi icra edilir. Qəzf həddi 80 dəfə şallaqlanmadan ibarətdir. Bu hökmün dəlili aşağıdakı Quran ayəsidir: «İsmətli qadına zina böhtanı atıb, sonra dörd şahid gətirə bilməyən şəxslərə səksən çubuq vurun və onların şəhadətini heç vaxt qəbul etməyin. Onlar sözsüz ki, əsl fasiqlərdir» *(Nur, 4).*

Qəzf həddi çox da şiddətli olmayan zərbələr şəklində (zina həddindən fərqli olaraq) günahkarın bədəninin arxa hissəsinə (eyni nöqtəyə deyil), özü də paltarın üzərindən vurulur.

N.R.

QƏZVƏ (əslində ĞƏZVƏ)

Ərəb dilindən tərcüməsi «döyüş niyyətində olmaq və ya döyüşmək» mənasını verir. Dini ədəbiyyatda Həzrət Mühəmməd Peyğəmbərin (s) şəxsən başçılıq etdiyi hərbi əməliyyatlara deyilir. Qəzvələrin əksəriyyəti yürüş xarakterli olub, Mədinədən kənarda baş vermişdir. *Xəndək qəzvəsi* isə Mədinə hüdudları daxilində olmuşdur.

Qəzvələrin bəzi əsas xüsusiyyətləri bundan ibarətdir: Bütün qəzvələr *hicrətdən* sonra, yəni müsəlmanlara *cihad* icazəsi verildikdən sonra baş vermişdir. İslam tarixində çox mühüm rol oynamış ən mühüm hərbi səfərlərdə Həzrət Mühəmməd Peyğəmbər (s) şəxsən iştirak etmişdir. Bütün qəzvələr ya qəti müdafiə xarakteri daşımış, ya da düşmən tərəfindən gözlənilən təcavüzü qabaqlamaq məqsədilə həyata keçirilmişdir.

Qəzvələrin sayına gəlincə, tarix kitablarında 26, 27 və ya 29 qəzvə haqqında məlumat verilib. Bunların 9-da (ən qanlı döyüşlərdə) İslam Peyğəmbəri şəxsən döyüş meydanında olmuşdur. Peyğəmbərin döyüşə qatıldığı qəzvələr bunlardır: Bədr, Ühüd, Bəni-Müstəliq, Xəndək, Bəni-Qüreyzə, Xeybər, Məkkənin fəthi, Hüneyn və Taif.

Qəzvələrdən 7-si *əhli-kitaba* (yəhudi və xristianlara), 13-ü Məkkə müşriklərinə, qalanları isə digər müşrik ərəb qəbilələrinə qarşı həyata keçirilmişdir. 16 qəzvə silahlı toqquşmasız başa çatmışdır. Məsələn, düşmən müsəlmanların hücumunu eşidincə öz mövqeyini tərk edib qaçmış yaxud qarşıdurma sülhlə nəticələnmiş, ya da tərəflər birbiri ilə rastlaşmadan geri qayıtmışdır. *Ühüd savaşını* çıxmaq şərti ilə, heç bir qəzvədə müsəlmanlar məğlub olmamışlar 29 qəzvədə üst-üstə 132 və ya 137 nəfər müsəlman şəhid olmuşdur. Qarşı tərəfdən (*Bəni-Qüreyzə savaşından* sonra edam edilmiş əsirləri çıxmaqla) 334 və ya 339 nəfər müşrik öldürülmüşdür (*E.Mahmudov. Səbəbləri və sonuçları açısından Hz. Peyğəmbərin savaşları*).

«Qəzvə» terminin müqabilində Həzrət Mühəmməd Peyğəmbərin (s) şəxsən iştirak etmədiyi, Onun əmri ilə bəzi səhabələrin başçılığı altında həyata keçirilmiş hərbi əməliyyatları əhatə edən *«səriyyə»* anlayışı durur.

bax: *səriyyə.*

N.R.

QILMAN (əslində ĞILMAN)

Cənnətdəkilərə xidmət üçün Allah-təalanın nurdan yaratdığı xidmətçilər. Gülərüzlü və şirindil olan qilmanlar cənnət əhlinə ən xırda qüsura yol vermədən xidmət edəcəklər.

R.M.

QIRX HƏDİS

bax: *ərbəun.*

QİBLƏ

Müsəlmanların müqəddəs şəhəri olan Məkkədəki *Kəbə* evinin istiqaməti. Dünyanın hansı nöqtəsində yaşamalarından asılı olmayaraq, bütün müsəlmanlar *namaz* vaxtı üzlərini yalnız və yalnız qibləyə çevirməlidirlər. Qiblədən dönmək namazı batil edər.

Hicrətdən əvvəl Həzrət Mühəmməd Peyğəmbər (s) və sair müsəlmanlar namaz zamanı üzlərini *Qüds* (Yerusəlim) şəhərindəki

Beytül-Müqəddəs məscidinə sarı çevirirdilər. Mədinəyə hicrətdən sonra bu şəhərdə yaşayan yəhudilər müsəlmanlara tənə vurmağa başladılar: «Mühəmməd qibləni yəhudilikdən mənimsəyib. Sizin öz qibləniz belə, yoxdur. Bizim müqəddəs şəhərimizi özünüzə qiblə etmisiniz». Peyğəmbərimiz bu sözlərdən çox narahat oldu və ibadət zamanı Allahdan çıxış yolu istəməyə başladı. Quranda Peyğəmbərin bu narahatçılığı belə təsvir edilir: «Biz sənin üzünün səmaya tərəf çevrildiyini görürük. Ona görə də, səni razı olduğun qibləyə tərəf döndərəcəyik» *(Bəqərə, 144)*.

Hicrətdən 18 ay keçdikdən sonra Həzrət Mühəmməd Peyğəmbər (s) Mədinə məscidlərinin birində müsəlmanlarla birlikdə namaz qılarkən Allah-təalanın əmri ilə qiblə dəyişdirildi və namaz qılanlar o andan etibarən üzlərini Məkkəyə sarı çevirməyə başladılar. Qiblənin dəyişdirilməsi barədə Peyğəmbərimizə nazil olmuş əmr yuxarıdakı ayənin davamından ibarət idi: «İndi üzünü Məscidül-hərama tərəf çevir. *(Ey müsəlmanlar!)* Harada olsanız, üzünüzü *(namaz vaxtı)* oraya döndərin» *(Bəqərə, 144)*. Qiblənin Qüdsdən Məkkəyə dəyişdirilməsinini səbəbini isə Allah-təala Quranda belə izah edir: «*(Ya Rəsulum!)* İndi yönəldiyin qibləni *(Kəbəni)* yalnız Peyğəmbərə tabe olanlarla ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün təyin etdik» *(Bəqərə, 143)*.

Azərbaycan ərazisində qiblə təqribən 15 dərəcədən 27 dərəcəyə kimi dəyişir. Yəni Azərbaycanın şərq qurtaracağında yerləşən Bakıda qiblə 27 dərəcə cənub-qərb istiqamətindədir. Ən uzaq qərb bölgəsi olan Naxçıvanda isə qiblənin istiqaməti təqribən 15 dərəcə cənub-qərbə tərəfdir.

N.R.

QİRAƏT

Oxuma, tələffüz etmə, qiraət. Həzrət Mühəmməd Peyğəmbərin (s) oxuma tərzini nümunə götürərək, hərfləri düzgün tələffüz etmək və digər qaydalara riayət etmək şərti ilə Qurani-kərimi oxumağa deyilir. Digər bir mənası isə namaz qılarkən ayaq üstə Qurandan kifayət edəcək qədər surə və ya ayələr oxumaqdır.

M.İ.

QİSAS

Lüğəvi mənası «əvəzetmə, cəza»dır. Fiqh termini kimi yaralama, şikəst etmə, qətl cinayətlərində tətbiq edilən və ümumiyyətlə, qisas alma prinsipinə əsaslanan cəza mənasını verir. Qurani-kərimdə buyurulur: «Ey iman gətirənlər! *(Qəsdən)* öldürülən şəxsdən sizin üçün qisas almaq hökmü qərara alındı *(vacib oldu)*. Azad şəxsi azad şəxsin, qulu qulun, qadını qadının əvəzində *(öldürə bilərsiniz)*. *(Öldürülən şəxsin)* qardaşı *(varisi)* tərəfindən *(müəyyən bir şey, qanbahası müqabilində)* bağışlanmış *(qatil)* ilə adətə görə *(yaxşı)* rəftar edilməlidir. Bağışlanmış *(qatil də)* yaxşılıqla *(qan sahiblərinə)* diyə verməlidir. Bu, *(qisası qanbahası ilə əvəz etmək hökmü)* Rəbbiniz tərəfindən sizin üçün bir yüngüllük və mərhəmətdir. Bundan *(diyə müqabilində bağışlamaqdan)* sonra təcavüzkarlıq edən kimsəni *(qiyamətdə)* şiddətli əzab gözləyir! Ey ağıl sahibləri, bu qisas sizin üçün həyat deməkdir. Ola bilsin ki, pis əməldən *(qətldən)* çəkinəsiniz» *(Bəqərə, 178-179)*. «Biz *(Tövratda İsrail oğullarına)* yazıb hökm etdik ki, canın qisası can, gözün qisası göz, burununku burun, qulağınkı qulaq, dişinki diş və yaralarınkı yaralardır. Lakin hər kəs *(qisası)* bağışlasa, bu onun üçün bir kəffarədir. Allahın nazil etdiyi *(kitab və şəriət)* ilə hökm etməyənlər, əlbəttə, zalımdırlar!» *(Maidə, 45)*.

Qisasda insan haqqı mühüm olduğu üçün, zərərçəkmişin və ya onun qohumlarının bağışlaması nəticəsində cəza ya tamamilə ləğv edilir, ya da onun əvəzində diyə ödənilir.

Ə.N.

QİYAM

Lüğəvi mənada «dik durmaq, ayaq üstə durmaq» mənalarını verir. Fiqh terminologiyasında qiyam – gücü çatan şəxsin fərz və ya vacib namazlarda başlanğıc təkbirini *(təkbirətül-ehram)* söyləmək və hər *rükətdə* Qurandan oxunması lazım olan ən az miqdarı oxumaq qədər ayaqüstə durması deməkdir və namazın rüknlərindəndir Ayaqüstə durmağa gücü çatan adamın otturaraq fərz və ya vacib namaz qılması düzgün sayılmır. Rüknləri yerinə yetirmək fərz olduğu üçün, üzrsüz olaraq qiyamı tərk edənin namazı düzgün deyil. Quranda buyurulur: «Allaha itaət üçün ayağa qalxın *(namaza durun)*» *(Bəqərə, 238)*. Ayaqüstə namaz qılmaqda çətinlik çəkən İmran ibn Husaynın sualına cavab olaraq, Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdu: «Namazı ayaqüstə qıl, əgər buna gücün çatmasa otturaraq, yenə gücün çatmasa söykənərək qıl». Nəsainin rəvayətində hədisə bu ifadə də əlavə edilib: «Əgər buna da gücün çatmasa, arxası üstə qıl. Allah heç kimə gücündən artıq yük yükləməz» *(Səhihül-Buxari, Kitabüt-Təqsir, XIX bab, 1117-ci hədis; Sünənü Əbu Davud, Kitabüs-Səlat, 952-ci hədis; Sünənüt-Tirmizi, Kitabüs-Səlat, 372-ci hədis; Sünənü İbn Macə, Kitabül-İqamə, 1223-cü hədis)*.

Əgər xəstənin ayaqüstə namaz qılmağa gücü çatmasa və ya ayağa qalxacağı təqdirdə xəstəliyinin artmasından, xəstəlik müddətinin uzanmasından, şiddətli ağrı hiss etməsindən qorxsa, namazı otturaq halda qıla bilər, gücü çatarsa rükunu və səcdələri yerinə yetirər. Xəstə şəxsin bir yerə söykənərək ayaqüstə fərz namazı qılmağa gücü çatarsa, otturaq halda qıla bilməz.

Ə.N.

QİYAM bi-NƏFSİHİ

bax: *səlbiyyə sifətləri*.

QİYAMƏT

Lüğəvi mənası «qalxmaq, ayaq üstə durmaq, doğrulmaq, dirilmək»dir. Dini anlamda qiyamət – dünyanın sona çatması və ölülərin qəbirdən qalxaraq məhşərə doğru yönəlməsidir.

Qurani-kərimdə «qiyamət» kəlməsinin sinonimi kimi «əs-saət» (saat) sözu də işlədilir. Qiyamət *İsrafil* adlı mələyin *sura* üfürməsindən sonra həyata keçəcək.

R.M.

QİYAMƏT ƏLAMƏTLƏRİ (AXİR-ƏZ-ZAMAN ƏLAMƏTLƏRİ)

Qiyamət gününün tezləşdiyini və dünyanın sonunun gəldiyini bildirən əlamətlər. Bu əlamətlərin bəzisi tədricən baş verəcək. Yəni dünyada bəzi mənfi hallar get-gedə artıb, qiyamət ərəfəsində özünün böhran həddinə çatacaq. Bəzi əlamətlər isə birdəfəyə qəfildən baş verəcək. Bunlara əsasən, konkret şəxslərin meydana çıxması və bəzi coğrafi məkanlarla bağlı fəlakətlər aiddir.

Hədis və rəvayətlərdə qiyamət əlamətləri barədə müxtəlif məlumatlara rast gəlirik. Onları bu cür ümumiləşdirə bilərik ki, bütün dünyada zülm artanda, məzlumların ümidi və əlacı kəsiləndə, günahlar açıq-aşkar ediləndə, əxlaqi dəyərlər tənəzzülə uğrayanda, cinayətlər artanda, təbii fəlakətlər çoxalanda, qəfil ölüm və xəstəlik halları tezləşəndə, cahillik, nadanlıq, riyakarlıq, fırıldaqçılıq tüğyan edəndə qiyamət qopacaq. Göründüyü kimi, cəmiyyətdə bu kimi halları az və ya çox dərəcədə artıq müşahidə edirik. Lakin qiyamət gününün tezləşməsi üçün bu hallar daha da şiddətli səviyyəyə gəlib-çatmalıdır. Böhran nöqtəsinin nə zaman yetişəcəyini isə yalnız Allah-təala bilir: «Camaat səndən o saat *(qiyamətin nə vaxt qopacağı)* haqqında soruşar. De: «Onu ancaq Allah bilər». Nə bilirsən, bəlkə də o saat yaxındır!» *(Əhzab, 63)*. «Səndən saat *(qiyamət günü)* haqqında soruşarlar ki, nə vaxt qopacaq? De: «O, ancaq Rəbbimə məlumdur. Qiyamətin qopacağı vaxtı Allahdan başqa heç kəs bilməz. Göylərdə və Yerdə *(Allahdan qeyri)* bir kimsənin onu bilməsi çətindir. O, sizlərə ancaq qəflətən gələr». Sən onun haqqında bir şey bilirsənmiş kimi, onlar israrla soruşarlar. De: «O, ancaq Allah dərgahında məlumdur, lakin insanların əksəriyyəti bunu bilməz!» *(Əraf, 187)*.

Konkret hadisələrə gəlincə, Günəşin qərb tərəfdən doğması, *dabbətül-ərz* adlı qorxunc bir canlının peyda olması, *Yəcuc-Məcuc* tayfasının Yer üzünə dağılması, *Dəccalın* ortaya çıxıb bir müddətdən sonra *İmam Mehdi* (və ya İsa Peyğəmbər) tərəfindən öldürülməsi, Fürat çayının quruması və dibindən qızıl çıxması, yer üzünü 40 gün müddətində qatı duman bürüməsi, Hicazda (Ərəbistan) çox uzaq məsafələrdən görünə bilən yanğının alovlanması qiyamətin mühüm əlamətlərindən sayılır.

Həm şiə, həm də sünni mənbələrində göstərilir ki, qiyamətdən bir neçə il əvvəl *İmam Mehdi (ə)* zühur edəcək. Mehdinin zühuru qiyaməti tezləşdirən ən mühüm amillərdən biridir. Buna görə də, zühur qabağı baş verəcək bəzi hadisələr həm də qiyamə-

tin əlamətlərindən sayılır. Əksəriyyəti şiə mənbələrinə aid olan hədislərə görə, İmam Mehdi (ə) ağır döyüşlərdən sonra mənfi qüvvələri darmadağın edəcək, ədalətli bir dövlət quracaq. «Qurdun quzu ilə yanaşı otlayacağı» bu dövləti İmam Mehdi (ə), onunla eyni vaxtda səmadan enəcək Həzrət İsa Peyğəmbərlə (ə) və *ricət* zamanı həyata qayıdacaq müqəddəs şəxsiyyətlərlə birlikdə idarə edəcək. Nəhayət, bir neçə (bəzi rəvayətlərdə 40) ildən sonra Allahın əmri ilə qiyamət qopacaq. *İsrafil* adlı mələk əvvəlcə *sur* adlı şeypur formalı alətə bir dəfə üfləyərək, qiyamətin başlandığını xəbər verəcək. Bu zaman yer üzündəki bütün canlılar öz ruhlarını Allaha təslim edib öləcəklər. Surun ikinci səsası ilə bütün ölülər dirilib məhşərə (hesab çəkilən yerə) gətiriləcəklər və qiyamət günü başlayacaq.

N.R.

QİYAS

Lüğəvi mənası «bir şeyi başqası ilə ölçmək, müqayisə etmək» mənasını verir. Terminoloji mənada Quran, sünnə və icmada açıqlanmayan məsələyə, aralarında səbəb eyniliyi olan və yuxarıdakı mənbələrin birində açıqlanan başqa bir məsələnin hökmünü şamil etməkdir.

Əhli-sünnə məzhəbləri baxımından, qiyas əməli hökmlərin tanınması üçün dəlil sayılır və İslam hüququnun əsas mənbələrindən biri hesab olunur. Əhli-sünnə alimləri qiyasın doğruluğunu bəzi Quran ayələri *(Nisa, 59)* və hədislərlə *(Sünənüt-Tirmizi, Ehkam babları, III bab, 1327-ci hədis)* sübuta yetirirlər.

Əhli-sünnə alimlərinin baxımından, Quran və sünnədəki hüquqi göstərişlər məhduddur, vəhy sona çatmışdır, bundan sonra yeni *nəss* (Quran ayəsi və hədis) gəlməyəcək. Lakin insanların qarşılaşdıqları və qarşılaşacaqları hadisələr məhdud deyildir, hər an yeni məsələlər ortaya çıxır. Məhz bu yeni məsələlərin hökmünü bilmək üçün Quranda və sünnədə göstərilmiş hökmlərin hansı səbəblərə əsaslandığı öyrənilir və bunlar oxşar hadisələrə tətbiq edilir. «Qiyas» adlanan bu metodun vasitəsilə hökmlərin çərçivəsi genişləndirilmiş olur.

Qiyasın əsil, fər, hökm və illət olmaqla dörd rüknü (ünsürü) vardır. Əsil – hökmü *nəss* (Quran və sünnə) ilə müəyyən edilən və başqa bir məsələyə tətbiq olunan məsələdir. Fər – haqqında nəss olmayan və əslin hökmü tətbiq edilən məsələdir. Hökm – əsil haqqında Quran və sünnədə mövcud olan, qiyas yolu ilə fərə tətbiq edilən hökmdür. İllət isə həm əsildə, həm də fərdə mövcud olan ortaq xüsusiyyətdir.

Əhli-sünnə məzhəbləri arasında hənəfilik qiyasa daha çox müraciət etməsi, hənbəlilik isə qiyasdan nadir hallarda yararlanması ilə seçilir. Şiə (cəfəri) məzhəbində qiyas haram sayılır və şəriət hökmlərinin əsaslandırılmasında bu metoddan istifadə edilmir.

A.Q.

QÖVS (əslində ĞÖVS) və QÜTB

«Ğövs» ərəbcə «yardım etmək, imdada yetişmək» mənasını bildirir. Bununla yanaşı «qütb» kəlməsi də işlədilir. Qütb dünyanın oxu, dünyanın məhvəri deməkdir. Seyrüsüluk yolunda ən uca dərəcəyə çatmış sufi şeyxlərinə bu adlar verilir. Sufilərə görə, qütb ilahi adları özündə cəmləşdirən və Həzrət Mühəmməd Peyğəmbərin (s) həqiqətinə yetişən şəxsdir. Bəzi alimlər övliyaların dərəcələrə görə sıralanmasında qövs dərəcəsini qütbdən sonra yerləşirirlər.

R.M.

QURAN

Allah-təalanın öz sonuncu peyğəmbəri Həzrət Mühəmmədə (s) vəhy etdiyi və Onun tərəfindən insanlara çatdırılmış sonuncu səmavi kitab. Quran müsəlmanların müqəddəs kitabıdır. Ərəb dilindən tərcümədə «qiraət edilən, oxunan» mənasını verir.

Quran İslam dininə aid biliklərin ən əsas mənbəyi və ən etibarlı sənəddir. Quranın özündə bu barədə buyurulur: «Həqiqətən, bu Quran *(bütün bəşəriyyəti)* ən doğru yola *(İslama)* yönəldir» *(İsra, 9)*. Həzrət Mühəmməd Peyğəmbər (s) vəfat etməzdən əvvəl müsəlmanlara Quranı vəsiyyət etmiş, orada yazılan hökmlərə qeyd-şərtsiz əməl etməyi tapşırmışdı (bax: *saqəleyn*). Hədislərin birində deyilir: «Fitnə-fəsadlar qaranlıq gecə kimi sizin ətrafınızı bürüyəndə Qurana arxalanın!». Həzrət Əli ibn Əbu Talib (ə) isə Qurana üstünlüklərini belə bəyan edirdi: «Qəlblərin baharı və bilik çeşmələri Qurandadır; ürəkləri yalnız Quranla cilalamaq olar».

Quran təqribən 23 il ərzində Həzrət Mühəmməd Peyğəmbərə (s) hissə-hissə endirilmişdir. Bundan əlavə, bir dəfə *lövhi-məhfuzdan* yer səmasına və ya Peyğəmbərin qəlbinə birdəfəlik endirildiyi də rəvayət edilir. Quran Allah kəlamıdır. Allah-təala onu *Cəbrail* adlı mələk vasitəsilə peyğəmbərimizə göndərmişdir. İlk dəfə Quranın Ələq surəsinin (96-cı surə) əvvəlindəki 5 ayə nazil oldu. Sonra qalan ayələr müxtəlif ardıcıllıqla endirildi; bəzən Peyğəmbərə bircə ayə, bəzən isə bir neçə ayə vəhy olunurdu. Quranın Allah tərəfindən Həzrət Mühəmməd Peyğəmbərə (s) endirilməsi prosesinə nüzul, yaxud nazil olma, Həzrət Mühəmməd Peyğəmbərin (s) ayələri qəbul etməsinə isə *vəhy* deyilir.

Quruluş etibarilə Quran surə adlanan fəsillərdən ibarətdir. Surələrin ümumi sayı 114-dür. Birinci surə Fatihə, axırıncı surə isə Nas adlanır. Hər surədə müəyyən bir mövzu ətrafında birləşmiş cümlələr toplanıb. Bu cümlələrə ayə deyilir. Quran ayələrinin ümumi sayı 6236-dır. Surələr həcmcə birbirindən fərqlənir. Məsələn, surələrin biri (Kövsər) cəmi 3 ayədən ibarətdirsə, başqa surədə (Bəqərə) 286 ayə var. Ayələrin həcmi də eyni deyildir. Bəzi ayələr cəmi bircə kəlmədən, bəzi ayələr isə onlarla sözdən ibarətdir. Yalnız 9-cu surəni (Tövbə) çıxmaq şərti ilə bütün surələr «Bismillahir-Rəhmanir-Rəhim» ayəsi ilə başlayır.

Quran ayələrini məzmun baxımından bu qaydada qruplaşdırırlar:

a) İslamın əsas iman prinsiplərini izah edən ayələr. Bunlarda Allah-təalanın varlığı və sifətləri, peyğəmbərlik, axirət həyatı və s. haqqında məlumat verilir.

b) İbadət qaydaları haqqında ayələr. Bu ayələrdə bəzi ibadətlərin (məsələn, namaz, oruc, həcc, zəkat, cihad və s.) vacibliyindən və yerinə yetirilmə qaydalarından danışılır.

c) Əxlaq qaydaları barəsində ayələr. Bu qrupa aid olan ayələrdə yaxşı və pis əxlaqi keyfiyyətlər haqqında məlumat verilir, yaxşı xüsusiyyətlərin inkişafı, pis sifətlərin aradan qaldırılması üçün yollar göstərilir.

ç) Varlıq aləmindən və onun yaradılışından bəhs edən ayələr. Belə ayələrdə göy cismlərinin, Günəş, Ay, Yer və ulduzların, müxtəlif heyvan növlərinin və insanın quruluşundakı əsrarəngiz cəhətlər təsvir edilir və sonda bütün bunların vahid olan Allah tərəfindən yaradıldığı vurğulanır.

d) Keçmiş millətlərin tarixindən danışan ayələr. Bu kimi ayələrdə peyğəmbərlərin başına gələn hadisələr, azğın xalqlara Allahın göndərdiyi bəlalar xatırlanır və bunlardan ibrət götürmək tövsiyə edilir.

Həzrət Mühəmməd Peyğəmbər (s) Allahdan aldığı ayələri ən sadiq silahdişlarına diqtə edir, onlar da Peyğəmbərin diqtəsi ilə ayələri dərinin, sümüyün, gil lövhələrin üzərinə yazırdılar. Ayələri köçürən səhabələrə *vəhy katibləri* deyilir. Ən məşhur vəhy katibləri *Həzrət Əli (ə), Abdullah ibn Məsud, Zeyd ibn Sabit* və *Übeyy ibn Kəb* idi.

Hər bir ayə nazil olduqca Həzrət Peyğəmbər onun Qurandakı yerini də müəyyən edir, yəni hansı ayəni hansından sonra yerləşdirmək lazım olduğunu bildirirdi. Peyğəmbər vəfat edərkən Quran hələ bütöv kitab şəklində mövcud deyildi. Peyğəmbərin vəfatından sonra cəmi 3 gün ərzində Həzrət Əli ibn Əbu Talib (ə) Quran ayələrini vahid nüsxə halında toplayıb kitab şəklinə saldı. Bundan sonra birinci xəlifə *Əbu Bəkr* Zeyd ibn Sabitn rəhbərlik etdiyi səhabə heyətinə Quranı toplamağı tapşırdı. Heyət üzvləri ayələri köçürərək vahid *müshəf* (səhifələnmiş yazı) halına gətirdilər. Bu müshəf Əbu Bəkrin vəfatından sonra *Ömər ibn Xəttabın*, ondan sonra isə *ümmül-möminin Həfsənin* ixtiyarına keçdi. Üçüncü xəlifə *Osman ibn Affanın* zamanında Qurani-kərim toplanarkən, həmin müshəf əsas mənbələrdən biri kimi götürülmüşdür.

Lakin illər keçdikdən sonra səhabələrin arasında Quran ayələrinin oxunuş qaydaları zəminində mübahisələr yarandı. Hətta bəzi səhabələrin köçürdüyü Quran nüsxələri arasında fərqlər meydana çıxdı. Bu fərqlilikləri aradan qaldırmaq üçün üçüncü xəlifə Osman vahid Quran nüsxəsi hazırlamaq istiqamətində işə başlamağa göstəriş verdi. Səhabələrin şifahi oxunuşu və əldə olan pərakəndə yazılar əsasında Quranın bütöv mətni qələmə

alındı. Tərtib edilmiş nüsxədən bir neçə surət çıxarılıb iri şəhərlərə göndərildi. Bu gün əlimizdə olan Quran nəşrləri həmin nüsxələrə əsasən hazırlanmışdır.

Quranın başqa *səmavi kitablardan* (məsələn, Tövrat və İncildən) əsas fərqi bundan ibarətdir ki, digər müqəddəs kitablar zaman keçdikcə dəyişikliklərə və təhriflərə uğrayıb, dildən-dilə tərcümə edilərək əslini itirib. Lakin Quranın bircə kəlməsi də təhrif olunmayıb və Həzrət Peyğəmbərə nazil olmuş ilkin formada qalıb. Quranın özündə bu barədə buyurulur: «Şübhəsiz ki, Quranı biz nazil etdik və sözsüz ki, biz də onu qoruyub-saxlayacağıq» *(Hicr, 9)* (bax: *Quranın təhrifi məsələsi*).

Quran oxumaq ən üstün əməllərdən biri sayılır. Müqəddəs kitabı əzbərləmək, üzündən oxumaq, başqasına öyrətmək, hətta başqası tərəfindən oxunarkən qulaq asmaq savabdır. Lakin Quran necə gəldi oxunmaz. Quran oxunuşu ilə bağlı hər kəsin bilməli olduğu əsas qaydalar bunlardır:

a) Qurana təhqiramiz münasibət bəsləmək, onu yerə atmaq, əzmək, Quran ayəsini istehza ilə, ağız əyərək oxumaq, Quran oxuyan şəxsi ələ salmaq, təhqir etmək çox böyük günahdır.

b) *Dəstəmaz* almadan Quranın yazısına toxunmaq olmaz (həmçinin, *heyz* halında olan qadınlar da Quranın yazısına toxuna bilməzlər).

c) Quran oxunarkən onu diqqət və ehtiramla dinləmək lazımdır.

Quranın başqa dillərə tərcüməsi Quranın əsli sayılmasa da, yaxşı olar ki, insan ona qarşı ehtiram göstərsin və yuxarıdakı qaydaları gözləsin.

Quranı çox zaman *rəhil* adlı oturacağın üzərinə qoyub oxuyurlar. Quranı əzbər bilən şəxslərə *hafiz* deyilir. Quranı gözəl səslə oxumağın böyük savabı var.

İslam Şərqində Quranla bağlı müstəqil elm sahələri yaranmışdır. Məsələn: Quran ayələrini şərh edən *təfsir* elmi, Quran qiraətinin qaydalarını əhatə edən *təcvid* elmi, Quran ayələrinin nazil olma səbəblərini araşdıran şəni-nüzul (əsbabün-nüzul) elmi, ayələrdəki şəriət hökmlərinin izahını bəyan edən fiqhül-Quran elmi, Quran kəlmələrinin mənasından və düzgün tələffüzündən bəhs edən erabül-Quran və müşkilül-Quran elmləri, *nasix* və *mənsux*, *möhkəm* və *mütəşabeh*, *məkki* və *mədəni* ayələri araşdıran bölmələr və s.

Çox zaman Quranın adından sonra «kərim», «şərif», «əzim» kimi epitetlər işlədirlər ki, bunların da mənası hörmətli, şərəfli və əzəmətli deməkdir.

N.R.

QURANIN QƏDİM YA HADİS OLMASI MƏSƏLƏSİ

İslam tarixində *kəlam* elmi zəminində meydana gəlmiş ən ilk mübahisəli məsələlərlən biridir. Problemin kökündə Quranikərimin Allahın zatı qədər qədim olması, yoxsa Allah tərəfindən yaradılması barədə mübahisə durur.

Miladi VIII-IX əsrlərdə geniş vüsət tapmış *mötəzili* məktəbinin əqidə əsaslarından birini Quranın hadis olmasına, yəni Allah tərəfindən yaradıldığına inam təşkil edirdi. Lakin IX əsrin ortalarına kimi bu mövzu barədə hər hansı ciddi münaqişə müşahidə edilməmişdi. (*Əməvilər* xilafətinin hakimiyyəti zamanı ayrı-ayrı şəxslər tərəfindən edilmiş bəzi çıxışları istsina etməklə). Əməvilər zamanında Qurani-kərimin qədim olduğu əqidəsi dövlət səviyyəsində müdafiə edilirdi. Abbasilər zamanında bu məsələnin bütün ciddiyi ilə meydana çıxması, sırf dini zəmində Əməvilərə alternativ ideologiyanın yaradılması cəhdi kimi də qiymətləndirilə bilər. Abbasilər siyasi hakimiyyət məsələsində artıq öz ideologiyalarını işləyib-hazırlamışdılar. Bu ideologiyaya görə, xəlifəliyə ən çox haqqı çatan Bəni-Abbas sülaləsi idi. Lakin Abbasilər sırf dini-əqidəvi məzmunlu islahat üçün mövzu axtarıb tapa bilməmişdilər. Belə bir islahat Əməvilərin nəinki siyasi, həm də dini baxımdan haqsız və səhv mövqedə olduqlarını iddia etməyə əsas verəcəkdi. Məhz bu islahatın mövzusu kimi, Quranın qədimliyi və ya hadisliyi məsələsi seçildi.

Abbasi xəlifəsi Məmun ölümündən cəmi bir neçə ay qabaq bu mübahisəni tam qətiyyətlə gündəmə gətirdi. Xəlifə özü Quranın hadis (yaranma) olması mövqeyini müdafiə

edirdi. Mötəzililərin əqidəsi ilə üst-üstə düşən bu mövqeyə görə, Qurani-kərim səs və söz formasında Allahın özü qədər qədim ola bilməz. Çünki bu halda Allahın zatının mürəkkəb (yəni tərkib hissələrindən ibarət) olması gərəkir; bu isə, inam əsaslarının ziddinədir və küfrdür. Demək, Qurani-kərim Allahın zatından ayrıdır. Allahın zatından ayrı olan hər bir şey isə Onun məxluqudur. Deməli, Quran Allah tərəfindən xəlq olunub.

Bu fikri əsaslandırmaq üçün bir neçə sübut gətirilirdi. Məsələn;

1. Qurani-kərimin əmr və qadağanları insanlara ünvanlanıb. Xitab tərəfi olmadan, xitabın edilməsi məntiqsizlikdir. Demək, insan yaranmazdan əvvəl, yalnız Allah var olan zaman Quranın mövcudluğunu təsəvvür etmək məntiqə ziddir.

2. Qurani-kərimdə Allahın öz peyğəmbərlərinə xitabları, əmrləri bir-birindən fərqlənir. Hər peyğəmbərin gətirdiyi şəriət o birindən seçilirdi. Bundan əlavə, Quranda nasix və mənsux ayələr var. Yəni vəhy nazil olduğu müddət boyunca, Allah-təala şəriət əmrlərində bəzi dəyişikliklər edir, bir ayə başqa bir ayənin hökmünü ləğv edərək onun yerini tuturdu. Allahın zatında heç bir inkişaf və dəyişiklik ola bilməz.

3. Qurani-kərimin bəzi ayələri onun Allah tərəfindən yaradıldığına dəlalət edir. Məsələn; «Rəbbindən onlara elə bir yeni zikr gəlməz ki, onu məsxərəyə qoyub dinləməsinlər» *(Ənbiya, 2)*. Burada zikr – Quran ayələrinə işarədir. «Yeni» (ərəbcə mühdəs) kəlməsi isə bu ayələrin əzəli deyil, yaranma olduğunu sübuta yetirir.

Buna əks mövqedə duran, yəni Quranı əzəli sayan alimlərin əsas dəlili isə bu idi: Necə ola bilər ki, Allah müəyyən bir zamanda danışmaq sifətinə malik olmasın və bu sifət sonralar yaransın? Sonralar bu mövqeni müdafiə edənlər öz fikirlərini əsaslandırmaq üçün daha bir dəlildən istifadə etməyə başladılar. Onların fikrinə görə, əslində kəlam iki cürdür: ləfzi kəlam və nəfsi kəlam. Ləfzi kəlam konkret olaraq sözlərdən ibarətdir, səs və yazı vasitəsilə ifadə olunur. Nəfsi kəlam isə forma qəlibinə salınmamış və məna aləmində olan müstəqil bir kəlamdır. Quranın əzəliliyinə inananların fikrincə, Allah-təala Quranı ləfzi kəlam şəklinə salmazdan (hərf və kəlmələrini quraşdırmazdan) əvvəl Quran nəfsi kəlam şəklində mövcud imiş.

Hal-hazırda əhli-sünnə məzhəblərində Quranın qədim (əzəli) olmasına inam hökm sürür. Lakin şiə məzhəbi baxımından, Quran qədim deyil, Allah tərəfindən yaradılıb. Şiə alimləri «nəfsi kəlam» anlayışını da qəbul etmir və kəlamın yalnız ləfzi olduğuna inanırlar.

Şiə məzhəbinin hədis məcmuələrində bu mövzu ilə bağlı çoxlu rəvayət vardır. Məsələn, hədislərin birində deyilir ki, İmam Rza (ə) buyurub: «Allah-təala nazil etdiyi bütün kitabları yaradıb. Bütün müsəlmanlar bu məsələdə eyni fikirdədirlər ki, Allahdan savayı hər şey fanidir *(gedəridir)* və Allahdan savayı hər şey Allahın felidir *(məhsuludur)*. Tövrat, İncil, Zəbur və Fürqan *(Quran)* Allah-təalanın felidir» *(Biharül-ənvar, X, 344)*.

Miladi 833-cü ilin aprelində xəlifə Məmun Riqqə məntəqəsində olarkən, Bağdad valisinə iki məktub yolladı. Məktublarda əmr olunurdu ki, vali xilafətin iri şəhərlərindəki qaziləri yanına çağırıb imtahana çəksin və Quranın yaranması barədə onların rəyini soruşsun. Qazilərdən hansı biri Quranın hadis (yaranma) olduğuna etiqad bəsləyirsə, onu öz vəzifəsində saxlasın. Hansı qazi bu əqidəni qəbul etməkdən boyun qaçırsa, vəzifəsindən azad edilsin və məhkəmələrdə onun şəhadəti qəbul edilməsin.

Məmun bununla kifayətlənməyib məsələyə şəxsən nəzarət etməyi qərara alır. Bu məqsədlə tələb edir ki, zəmanənin yeddi nəfər ən məşhur qazisini onun hüzuruna yollasınlar. Aralarında «ət-Təbəqatül-kübra» əsərinin müəllifi Mühəmməd ibn Səd də yer tutduğu yeddi qazi xəlifənin hüzuruna göndərilir. Onlar Quranın yaradılması barədə xəlifənin fikrini dəstəklədiklərini bildirəndən sonra sərbəst buraxılırlar.

Bağdad valisi də öz növbəsində xəlifənin tapşırığına əməl edərək fəqihləri saraya çağırtdırır. Adlı-sanlı qazilər və fəqihlər bir-bir dindirilir, onların məsələyə münasibəti ayrı-ayrılıqda soruşulur. Dindirilən din xadimlərinin əksəriyyəti, onlara təlqin olunan əqidəni ikrahla qəbul etdiklərini bildirməkdən çəkin-

mirlər. Onların bir neçəsi suallara dolaşıq cavablar verməklə canını xəlifənin qəzəbindən qurtarmaq istəyir.

Lakin Məmun alimlər üzərində yenidən məhkəmə qurulmasını əmr edir. Əvvəllər etiraz edən fəqihlərin demək olar ki, hamısı bu dəfə xəlifənin tələb etdiyi əqidə ilə razılıqlarını bildirirlər. Yalnız üç nəfər, o cümlədən, *hənbəli* məzhəbinin banisi Əhməd ibn Hənbəl öz rəyində möhkəm qalır. Onların qoluna zəncir vurub Tarsusa yollayırlar ki, Məmun Bizans səfərindən qayıdandan sonra işlərinə baxsın. Bunun ardınca daha bir neçə fəqih imtahan üçün xəlifənin yanına göndərilir. Lakin onlar göndərilən məntəqəyə çatmazdan əvvəl Məmun vəfat edir. Əhməd ibn Hənbəl də daxil olmaqla, bütün alimləri Bağdada qaytarıb sərbəst buraxırlar.

Bu mübahisə sonralar etiqadi zəmində bir neçə qarşıdurma üçün hazırlıq rolunu oynadı. Müsəlman ümmətinin vəhdəti bu məsələdə ilk sarsıntıya uğradı.

N.R.

QURANIN TƏHRİFİ MƏSƏLƏSİ

Qurani-kərimin təhrif olunması barədə zəif hədislərə əsaslanan azsaylı alimlərin keçmişdə müdafiə etdikləri nəzəriyyə. Qurani-kərimin özündə müqəddəs kitabın hər cür təhrifdən uzaq olması və qiyamətə kimi Allahın nəzarəti altında toxunulmaz qalacağı vurğulanır: «Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq» *(Hicr , 9).*

İslam tarixi boyunca müsəlmanların böyük əksəriyyətinin əqidəsi də buna uyğun olmuşdur. Çünki Qurani-kərimin təhrif olunduğuna inanmaq bütünlükdə İslam dininin doğruluğunu şübhə altında qoymaq deməkdir. Çünki dinimizin əqidə, əxlaq və şəriət mövzularındakı göstərişləri ilk növbədə Qurani-kərimə əsaslanır.

Həm şiə, həm də sünni məzhəbinə mənsub böyük alimlər Qurani-kərimin təhrif edilmədiyini qətiyyətlə bildirmiş və bu əqidəni öz mənsub olduqları məzhəbin görüşü kimi dəyərləndirmişlər. Lakin hədis məcmuələrində rast gəldiyimiz bəzi rəvayətlər Qurandan müəyyən ayə və surələrin çıxarıldığını, hazırki Quranın Peyğəmbər zamanındakı Qurandan fərqləndiyini iddia etməkdədir. Bu rəvayətlərin məzmunu Qurani-kərimin yuxarıda göstərilmiş ayəsinin möhkəm hökmünə zidd olduğu üçün, doğru sayıla bilməz. Çünki hər hansı hədis Quranla ziddiyyət təşkil edərsə, müsəlmanların vəzifəsi Quranı əsas tutmaq və həmin hədisi etibarsız saymaqdır.

Quranın təhrif edilməsi inancı uzun əsrlər boyunca şiə məzhəbinə aid edilmiş və bu məzhəbin əleyhinə yazılan radikal məzmunlu kitablarda şiəliyin haqsızlığına sübut kimi gətirilmişdir. Əslində isə şiə məzhəbində belə bir inanc yoxdur. Doğrudur, şiəliyin *əxbarilik* cərəyanının nümayəndələri arasında Quranın təhrif olunduğuna inananlar var idi. Məlum olduğu kimi, əxbarilər ictihadı qəbul etmir, dini hökmləri yalnız Qurandan və sünnədən əldə etməyi düzgün sayır, bütün hədisləri mötəbər bilir, bu gün zəif bilinən rəvayətlərin belə, səhihliyinə inanırdılar. Ona görə də, onların Quran təhrifi barədə zəif rəvayətlərə inanmaları təbiidir.

Lakin şiəliyin əsl ruhunu təmsil edən üsuli məktəbində Quranın hər cür təhrifdən uzaq olduğu əqidəsi mütləq mənada hakimdir. Ona görə də, şiə məzhəbinin ən özəl xüsusiyyəti olan ictihad ənənəsini danan əxbarilərin sözünü bütünlükdə bu məzhəbin adına yazmaq ən azı ədalətsizlikdir.

Şiəliyin ən böyük ideoloqlarından sayılan Şeyx Səduq, Şeyx Müfid, Seyid Mürtəza, Şeyx Tusi, Əllamə Təbrisi, Şeyx Bəhai, Feyz Kaşani, Şeyx Cəfər Kaşifül-qita və başqaları Qurani-kərimin təhrifdən uzaq olduğunu öz əsərlərində qətiyyətlə bəyan etmişlər. Məsələn, Şeyx Səduq şiə məzhəbinin əqidə əsaslarına həsr etdiyi «əl-Etiqadat» kitabında yazır: «Əsl Quran indi camaatın əlində olanla eynidir... Hər kim desə ki, biz *(şiələr)* əsl Quranın həcmcə bundan çox olduğunu söyləyirik, o adam yalan demiş olar». Şiə məzhəbinin ən mötəbər təfsir mənbələrindən sayılan «Məcməül-bəyan» kitabının müəllifi Şeyx Fəzl ibn Həsən Təbrisi isə adı çəkilən əsərin müqəddiməsində bu məsələyə ayrıca fəsil ayırıb. O, təhrif barədə hədislərin mövcudluğunu etiraf etsə də, «alimlərimizin məzhəbi *(yolu)* bu fikrin əksinin doğru olduğunu göstərir» – deyə,

təhrif inancına qarşı çıxır, özündən əvvəl yaşamış Seyid Mürtəzanın bu mövzudakı sübutlarını ortaya qoyur.

Quranın təhrifi barədə şiə mənbələrindəki hədisləri incələyərkən, onların əksəriyyətinin sənədində də nöqsanlar olduğunu görürük. Məsələn, bu hədislərin raviləri sırasında yer tutan Əhməd ibn Mühəmməd Səyyari, Hüseyn ibn Zibyan, Əli ibn Əhməd Kufi kimi şəxslər rical alimləri tərəfindən etimadsız sayılırlar. Həmçinin, təhrif hədislərinin nəql olunduğu ilkin mənbələrin də bir çoxu şiə məzhəbində çox da mötəbər sayılmayan kitablardır (məsələn, Süleym ibn Qeys Hilalinin kitabı).

Şiə alimləri Quranın təhrif olunmadığını əsaslandırmaq üçün Həzrət Mühəmməd Peyğəmbərin (s) *«səqəleyn»* adı ilə məşhur olan hədisini də sübut gətirirlər. Hədisdə buyurulur: «Sizin aranızda iki qiymətli əşya *(əmanət)* qoyuram: Allahın kitabı və Əhli-beytim. Bunlara bağlansanız, zəlalətə düşməzsiniz. Bunlar *(qiyamət günündə)* cənnət hövzunun kənarında mənim hüzuruma çatana kimi birbirindən ayrılmazlar». Əgər Qurani-kərim təhrif olunsaydı, Peyğəmbər Allahın yardımı ilə bunu qabaqcadan bilər və bizləri Qurana bağlanmağa təşviq etməzdi. Həmçinin, əgər Quran İslam Peyğəmbərinin vəfatından sonrakı dövrdə təhrif edilsəydi, şiə imamları buna etiraz edərdilər və bu zaman onlardan rəvayət edilən hədislər indiki kimi tək-tük yox, çox olardı, mütəvatir həddinə yetişərdi.

Qurani-kərimin sair səmavi kitablardan fərqi və üstünlüyü də təhrifə məruz qalmamasıdır. İslamdan qabaqkı bütün dinlər, bütün səmavi kitablar insanlar tərəfindən qərəzli surətdə dəyişdirilib. Yalnız Qurani-kərim bütün təcavüzlərdən amanda qalıb. Əgər Quranın mətni dəyişdirilsəydi, onun bədii və elmi ecazı öz qüvvəsini itirərdi. Halbuki, Quranda hətta hərflərin işlənmə sayı və ardıcıllığı belə, dəqiq riyazi qanunauyğunluqlara tabedir.

Şiələrin guya Quranın təhrif edildiyinə əqidə bəsləməsi haqqında irəli sürülən iddianın səbəblərindən biri də hədislərdə rast gəldiyimiz *«Əlinin müshəfi»* məfhumudur. Bir çoxları bunu səhv anlayırlar, İmam Əliyə (ə) məxsus Quranın indiki Qurandan fərqli olduğunu və şiələrin də yalnız həmin Quranı düzgün saydıqlarını düşünürlər. Halbuki, şiə əqidəsincə, Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatından dərhal sonra Onun vəsiyyətinə əsasən, Əli ibn Əbu Talib (ə) o zamana kimi pərakəndə halda mövcud olan Quran ayələrini toplayıb səhifələrə köçürdü və kitab *(müshəf)* halına gətirdi. «Əlinin Quranı» və ya «Əlinin müshəfi» kimi tanınan həmin kitabın mətni həcmcə hazırki Quranla eyni idi; bunların arasında bircə hərf fərqi belə yoxdur. Yeganə fərq ayələrin düzülüş ardıcıllığındadır. Həzrət Əli (ə) bütün ayələri nazil olduğu ardıcıllıqla düzmüşdü. Amma Osman ibn Affanın zamanında indiki Quran tərtib olunanda böyük surələri əvvələ keçirib, qısa surələri axıra saxladılar. İmam Əli (ə) öz Quranının haşiyəsində (mətnin dövrəsində) ayələrin təfsirini də yazmışdı. Həmin Quran nüsxəsi Əhli-beytə məxsusdur, imamdan-imama ötürülür və hal-hazırda İmam Mehdinin (ə) hüzurundadır.

Burada bir məsələni də qeyd etmək lazımdır: Quranın təhrif olunduğu barədə hədislər yalnız şiə mənbələrində deyil, sünni mənbələrində də mövcuddur. İkinci xəlifə Ömər ibn Xəttabdan rəvayət edilən və Qurani-kərimin 1 milyon 127 min hərfdən ibarət olduğunu bildirən xəbər (halbuki, hazırki Qurani-kərimin hərflərinin sayı heç 350 minə çatmır ki, bu da yuxarıda göstərilən ədədin üçdən-bir hissəsindən də azdır), Qurani-kərimdə *rəcm* (daşqalaq etmə) cəzası və süd vermə hökmü barədə ayələrin vaxtilə mövcud olub, sonra Qurandan çıxarılması, Qurani-kərimdə əvvəllər Həfd və Xəl adlı iki əlavə surənin olması, Peyğəmbərin sağlığında Əhzab surəsinin 200 ayədən ibarət olub, Osman zamanında Quranın toplandığı vaxt ixtisar edilməsi haqqında rəvayətlər və s. *(Sünənü İbn Macə, Hüdud kitabı, 2553-cü hədis; Səhihü Müslim, Hüdud kitabı, 4418-ci hədis və Riza kitabı, 3597-3598-ci hədislər; Səhihül-Buxari, Etisam kitabı, 7323-cü hədis; Əhməd ibn Hənbəl. Müsnəd, I, 47 və II, 40; Qürtübi təfsiri, Əhzab surəsi təfsirinin girişi, XVII, 48 və s.).* Bu qəbildən olan rəvayətlərin bir çoxunu şafii məzhəbli alim Əllamə Süyuti «əl-İtqan» kitabında toplamışdır.

N.R.

QURBAN

Ərəb dilindən tərcüməsi «yaxınlıq» mənasını verir. Allaha yaxınlıq niyyəti ilə dörd növ heyvandan birini (qoyun, keçi, inək və ya dəvə) şəriətdə göstərilən qaydaya uyğun olaraq kəsməkdən ibarət olan ibadət əməlidir. Qurban *həcc* ziyarətinin vacib hissəsidir. Həcc ziyarətini yerinə yetirənlər zilhiccə ayının 10-da *Mina* vadisində qurban kəsməlidirlər. Zilhiccənin 10-cu gününü öz vətənində qeyd edən şəxsin qurban kəsməsi vacib deyil, müstəhəbdir.

Qurbanın tarixi *Həzrət İbrahim Peyğəmbərin (ə)* gördüyü yuxu nəticəsində öz oğlu İsmaili (ə) Mina vadisinə gətirib, Allah yolunda fəda etmək cəhdi ilə bağlıdır.

Qurban kəsmə mərasiminin icra edildiyi gün İslam dünyasında böyük bayram kimi qeyd edilir. Hədislərdən məlum olur ki, müsəlmanların ən böyük iki bayramı vardır: Qurban və *Ramazan* bayramları. Qurban bayramı dini mətnlərdə «eydəl-əzha» kimi də xatırlanır.

Qurban bayramı hər şeydən əvvəl, insanın öz nəfsi üzərində qələbəsi günüdür. Ata (yəni İbrahim Peyğəmbər(ə)) öz doğma oğlunu (İsmaili (ə)) nə qədər sevsə də, Allahdan əmr aldığı üçün, onu qurban kəsməyə razı oldu. Ana *(Hacər)* Allahın tapşırığına tabe olub, oğlunun ölümü ilə razılaşdı. Övlad (İsmail (ə)) tam razılıq və təslimçiliklə ölümün qoynuna atılmağa hazırlaşdı. Bu bayram insan iradəsinin nümayiş günü, imanın nəfs üzərində qələbəsi günüdür.

Qurban bayramının ictimai və iqtisadi faydalarına gəlincə, bütün müsəlman bayramları kimi, bu bayramda da insanlar birbirinin evinə qonaq gedir, mehribançılıq yaradırlar. Həmin gün küsülülər barışır, birbirindən uzaq düşənlər yaxınlaşır. Bayram günü qurbanlıq heyvan kəsməyə imkanı olan şəxslər ehtiyacı olanlara ətdən pay verirlər. Neçə-neçə kasıb ailə bu bayramda qarın dolusu yemək yeyir. Bununla da varlılar kasıbların heç olmazsa, bir günlük ehtiyacını ödəmiş olurlar. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Allah qurbanlıq gününü bayram kimi qərarlaşdırdı ki, kasıblar da həmin gün ət xörəyi yeyə bilsinlər. Ona görə siz də kasıblara qurban payı verin». Başqa bir hədisdə buyurulur ki, qurban bayramı günü ən yaxşı əməl Allah yolunda heyvan kəsmək, ata-anaya mehribanlıq göstərmək, uzaq düşmüş qohumların görüşünə getmək, xudpəsəndliyi atıb başqaları ilə birinci görüşmək, qurbanlıq ətindən kasıblara, ehtiyaclılara pay verməkdir. İmam Əli ibn Əbu Talib (ə) Allah yolunda qurban kəsməyin savabını bu şəkildə bəyan etmişdir: «Əgər insanlar bilsəydilər ki, qurbanlıq günü heyvan kəsməyin nə qədər savabı var, borcla da olsa qurban kəsərdilər». «Qurbanlıq heyvanın qanının ilk damcısı yerə düşəndə, onu kəsən adamın günahlarını Allah bağışlayar».

Dörd növ heyvandan qurban kəsmək olar: qoyun, keçi, inək və dəvə (bu əhli-sünnə məzhəbinin görüşüdür; şiə məzhəbində keçi bura aid deyil). Kəsilən heyvan sağlam olmalı, bədənində şikəstlik olmamalıdır. Heyvanın yaşı barədə də dini kitablarda müəyyən tövsiyələr verilir. Adı çəkilən heyvanlardan qurban kəsməyə imkan yoxdursa, toyuq, qaz və sairə bu kimi xırda heyvanları kəsməyə ehtiyac yoxdur. Əhli-sünnə məzhəbində inək və dəvəni 7 nəfərə qədər insan şərikli olaraq kəsdirə bilər. Cəfəri məzhəbində heç bir heyvan növünü şərikli kəsdirmək məsləhət bilinmir. Yalnız son dərəcə zərurət (imkansızlıq) halında şərikli qurban kəsməyə icazə verilir. Amma müctəhidlər həccdə şərikli qurban kəsənlərin ehtiyata görə 10 gün oruc tutmalarını buyurmuşlar (3 gün həccdə, 7 gün də vətənə qayıtdıqdan sonra).

Qurbanlıq əti üç hissəyə bölünür. Ətin bir hissəsini qurban kəsdirən şəxs özünə götürə bilər. İkinci hissəni qohumlarına, qonşularına və dostlarına hədiyyə edə bilər. Ətin üçüncü hissəsi mütlən ehtiyacı olan insanlara paylanmalıdır. Əlbəttə, qurbanlıq sahibi ətin hamısını ehtiyaclılara verə bilər; bunun savabı daha çoxdur.

N.R.

QÜDDİSƏ SİRRÜHÜ

Allah-təalanın sevimli bəndələri olan övliyalardan hər hansı birinin adı çəkildikdə, söylənilən (və ya yazılan) ehtiram ifadəsi. Mənası belədir: «Onun sirri (yəni daxili dünyası) təmiz və mübarək olsun». İki şəxs haqqında «qüddisə sirruhüma», daha çox şəxs üçün isə «qüddisə sirruhüm» ifadəsi işlədilir.

R.M.

QÜNUT

Ərəb dilindən tərcüməsi «tabeçilik, mütilik» deməkdir. Namaz zamanı ayaq üstə (*qiyam* halında) əlləri qaldırıb sifətin müqabilində qoşalaşdıraraq dua oxunmasına qünut deyilir.

Cəfəri məzhəbinə əsasən, bütün gündəlik namazların ikinci rükətində, Fatihə və başqa bir surə oxunduqdan sonra qünut tutulması müstəhəbdir. Əhli-sünnə məzhəbləri içində şafiilər sübh namazının ikinci rükətində *rükudan* qalxdıqdan sonra qünut duası oxumağı sünnət sayırlar. Maliki məzhəbində ikinci rükətin rükusundan əvvəl qünut tutmaq *məndubdur* (bəyəniləndir). Hənəfi və hənbəli məzhəblərinə görə, yalnız hər hansı müsibət, təbii fəlakət, bəla üz verdiyi zaman sübh namazında qünut tutmaq müstəhəb sayılır.

Həmçinin, *vitr namazının* üçüncü rükətində, rükudan əvvəl qünut duası oxumaq hənəfi məzhəbində sünnətdir. Şafii və hənbəli məzhəblərində qünutu üçüncü rükətin rükusundan sonra yerinə yetirmək sünnət sayılır. (Şafii məzhəbində bu yalnız Ramazan ayının ikinci yarısında qılınan vitr namazlarına aiddir). Maliki məzhəbində isə vitr namazı qünutsuz qılınır. Cəfəri məzhəbində vitr namazının rükusundan əvvəl qünut tutulur.

Cəfəri məzhəbinə görə, namazda oxunan bütün başqa sözlərdən fərqli olaraq, qünut duasını istənilən dildə söyləmək olar. Bu, İslam müqəddəslərindən rəvayət olunan məşhur dualar da ola bilər, namaz qılanın öz şəxsi arzu-istəkləri də ola bilər.

N.R.

QÜRBƏTƏN İLƏLLAH

Ərəb dilindən tərcüməsi «Allaha yaxın olaraq» deməkdir. Adətən, niyyət mənasında işlədilir. Qurani-kərimdə Həzrət İbrahim Peyğəmbərin (s) bu sözləri bizə nümunə göstərilir: «Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür» *(Ənam, 162).* Müsəlman bütün əməllərini Allaha yaxın olmaq niyyəti ilə yerinə yetirməlidir. Burada Allaha yaxın olmaq – Ona məsafə baxımından yaxınlaşmaq mənasında deyil. Allah sabit bir məkanda durmayıb ki, kimsə Ona yaxınlaşa bilsin. Allahla bəndə arasında yalnız mənəvi yaxınlıq yarana bilər. Allaha yaxın olmaq – Onun razılığını qazanmaq, Ona əziz olmaq, Onun nəzərində uca məqama çatmaqdır. Bu yaxınlığı isə Allahın bəyəndiyi əməlləri yerinə yetirməklə, Allahın qadağan etdiyi işlərdən uzaq durmaqla əldə etmək mümkündür. Qurani-kərimdə bildirilir ki, öz malını və pulunu Allah yolunda xərcləmək də bəndəni Allaha yaxınlaşdırar: «Bədəvilər içərisində elələri də var ki, Allaha, axirət gününə inanır, xərclədiklərini Allaha yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vəsilə sayırlar. Bilin ki, bu, onlar üçün *(Allaha)* yaxınlaşmağa bir səbəbdir. Allah onları Öz mərhəmətinə nail edəcək. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir» *(Tövbə, 99).*

Allah-təala öz mələklərindən bəzilərini *müqərrəb*, yəni yaxın adlandırır. Bunlar daha uca məqama sahib olan, daha şərəfli vəzifələrin icrasına məmur olunmuş mələklərdir. Bəşəri məntiqdə də «yaxın» sözü bəzən dəyərli, əziz mənasında işlədilir.

N.R.

QÜSL (əslində ĞÜSL)

Ərəb dilindən tərcümədə «yuyunmaq» deməkdir. İslam əhkamına görə, paklanmanın bir növüdür. Qüsl aşağıdakı hallarda yerinə yetirilməlidir: 1. *Cənabət* halında; 2. Qadınlarda *heyz* (aybaşı), *nifas* (zahılıq) və *istihazə* vaxtı sona çatdıqda; 3. Cəfəri məzhəbinə görə, cənazə qüslü verilməmiş və diri insan bədəninə nisbətən soyumuş meyitə toxunduqdan sonra. Qüsl öz-özlüyündə *fərz* (qəti vacib) deyil, amma bəzi fərz ibadətləri yerinə yetirmək üçün (namaz qılmaq, oruc tutmaq, həccə getmək, eləcə də, Quran oxumaq, Quran yazısına toxunmaq və s.) lazımdır.

Hənəfi məzhəbində qüslün fərzləri 3-dür: ağzın içini yaxalamaq, burnun içini yaxalamaq və bədənin hər üzvünü zərrə qədər quru yer qoymamaq şərti ilə yumaq (qüsldən əvvəl bütün maneələr: üzük, qolbaq, dırnaq

boyası, rəng və s. aradan qaldırılmalıdır). Bu zaman hər hansı ardıcıllığa riayət etmək şərt qoyulmur. Hənbəlilər də qüsl barədə eyni hökmə əməl edirlər. Şafii məzhəbində qüsldən əvvəl niyyət etmək (cənabət, yoxsa heyz yaxud nifas qüslü aldığını aydınlaşdırmaq) və bədənin hər yerini yumaq fərzdir (ağzın və burnun içini yumaq şərt deyil). Malikilərdə isə qüslün fərzləri bunlardır: niyyət, qüslü fasiləsiz yerinə yetirmək, bütün bədəni yumaq (ağzın və burnun içini yumaq vacib deyil), hər bir bədən üzvünü yuyarkən ya əllə, ya da başqa bədən üzvü ilə ovxalamaq (su ilə tam islandığına əmin olmaq üçün), saçları bir-birinə bağlayan vasitələri (sancaq və s.) çıxarıb telləri maneəsiz açıb-buraxmaq.

Cəfəri məzhəbinə görə, qüslün vacib şərtləri bunlardır: niyyət (qüslün növünü və məqsədini təyin etmək), başı və boynu yumaq, boyundan aşağı bədənin sağ tərəfini tamamilə yumaq, boyundan aşağı bədənin sol tərəfini tamamilə yumaq. Göstərilən ardıcıllığa əməl etmək vacib şərtdir. Ağzın və burnun içini yumaq vacib deyil.

Cəfəri məzhəbinə görə, cənabət qüslündən sonra namaz qılmaq üçün dəstəmaz alınmaz, namaz həmin qüsllə qılınar (digər qüsl növləri bura aid deyil).

Dənizdə ya hovuzda qüsl alan şəxsin niyyətdən sonra bütün bədəni ilə suya dalması kifayət edər. Bu zaman su eyni bir anda onun bütün bədənini (hətta ayaq pəncələrini də) bürüməlidir. Yəni insan bir an suyun içində heç yerə dayaqlanmadan sərbəst qalmalıdır (buna irtimasi qüsl deyirlər).

Nəzir demək və and içmək vasitəsilə də insana qüsl vacib ola bilər.

Dünyasını dəyişmiş şəxsi *kəfənə* bükməzdən əvvəl bədəninə qüsl verirlər.

N.R.

QÜTB

bax: *qovs*.

L

LAHUT ALƏMİ

bax: *mələkut aləmi*.

LAMƏKAN

Ərəb dilindən tərcüməsi məkansız deməkdir. Allah-təalanın sifətlərindən sayılır. Allah cism deyil, onun ölçüləri yoxdur, deməli; məkansızdır. Allah məkanı və zamanı özü yaradıb, bütün maddi varlıqları məkan və zaman məhdudiyyətinə tabe edib. Onun özü isə zamanın və məkanın fövqündə durur. Allah konkret olaraq heç yerdə deyil, bununla belə, hər yerdədir. O, bütün varlıq aləmini əhatə edib: «Şərq də, Qərb də Allahındır. Hansı tərəfə yönəlsəniz (üz tutsanız), Allah oradadır» *(Bəqərə, 115)*.

Burada belə bir sual yaranır: əgər Allah məkansızdırsa, niyə insanlar çox vaxt Allahı səmada təsəvvür edirlər, dua edəndə əllərini yuxarı qaldırırlar? Cavab budur ki, bu hərəkətlər insandakı qeyri-iradi instinktiv düşüncədən irəli gəlir. Bəşər təfəkküründə yuxarı həmişə hakimiyyət, güc və əzəmət məkanı kimi qəbul edilir. Əksinə, aşağı – rəzalətin, zəifliyin, tabeçiliyin məkanı kimi qavranılır. Ona görə də, insan Allahı özündən yüksəkdə (həm mənəvi, həm də maddi mənada) «görür».

Klassik ədəbiyyatda «laməkan» sözü çox zaman Allahı, bəzən isə insan ruhunu ifadə edir:

İzzəti-eşq olan könül mültəfiti-cahan deyil,
Eşqə müqəyyəd olmayan talibi-laməkan deyil.
Gərçi simürği-laməkan səndədir, ey bəşər, bu gün,
Nəfsinə arif olmasa, qabili-aşiyan deyil.
(Cahan Şah Həqiqi).
Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü məkanə sığmazam.
(İ.Nəsimi).

N.R.

LƏBBEYK

bax: *təlbiyə*.

LƏDÜN ELMİ

«Lədün» ərəbcə zaman və məkan zərfi olub, «yanında», «da», «də» mənalarını ifadə edir. Qeyb aləminin sirlərinə malik olmaq mənasında işlədilir. Quranda Həzrət Xızr (ə) haqqında işlədilən «öz dərgahımızdan mərhəmət əta etdiyimiz və öz tərəfimizdən elm öyrətdiyimiz bəndələrimizdən biri» *(Kəhf, 65)* ifadəsində bu elmə işarə edilib.

Oxuyub-öyrənmədən, Allah tərəfindən vasitəsiz olaraq insana öyrədilən elmə, ilahi biliyə «lədün elmi» deyilir. Lədün elmi həm də təfəkkürlə əldə olunmayan, Allah tərəfindən hədiyyə olaraq verilən müqəddəs gücün təcəllasıdır, xalis kəşfdir.

R.M.

LƏNƏT

Allahın mərhəmətindən məhrum olmaq, Allahın qəzəbinə gəlmək. Allahın lənəti bu dünyada xeyir və səadətdən məhrum qalmaq, axirətdə isə cəhənnəm əzabına atılmaqdır. Qurani-kərim ayələrində ilk növbədə kafirlər Allahın lənətinə hədəf olmuşlar: «Allah kafirlərə lənət etsin!» *(Bəqərə, 89)*. «Şübhəsiz ki, Allah kafirlərə lənət etmiş və onlar üçün yanar od hazırlamışdır» *(Əhzab, 64)*. Quranda İblisə *(Sad, 77)*, münafiqlərə *(Əhzab, 60-61)*, Allaha və Peyğəmbərinə əziyyət vermək istəyənlərə *(Əhzab, 57)*, yer üzündə fəsad yayanlara və qohumlarla rabitəni (sileyi-rəhmi) kəsənlərə *(Mühəmməd, 22-23)*, Allahın ayətlərini və hidayət yollarını insanlardan gizli saxlayanlara *(Bəqərə, 159)*, zalımlara *(Hud, 18)*, iffətli qadınlara zina böhtanı atanlara *(Nur, 23)* lənət deyilir.

Bir çoxlarının təsəvvür etdiyinin əksinə olaraq, lənət etmək hüququ yalnız Allaha aid deyil. İnsanlar da din düşmənlərinə Allahdan lənət diləyə bilərlər: «Onların cəzası, həqiqətən, Allahın, mələklərin və bütün insanların lənətinə düçar olmaqdır» *(Ali-İmran, 87)*.

N.R.

LƏVAT

İslamda ən böyük günah əməllərdən biri. Kişinin kişi ilə cinsi əlaqədə olması (homoseksuallıq). Həzrət Lut Peyğəmbərin (ə) xalqının arasında bu günah geniş yayılmışdı. Ona görə də, «ləvat» sözünü «Lut xalqına məxsus olan əməl» kimi mənalandırırlar. Bəzi İslam məzhəblərinə görə, ləvat edən şəxs edam cəzasına məhkum olunmalıdır (cəfəri, maliki və hənbəli fiqhinə əsasən). Şafii məzhəbində ləvat zinaya bərabər tutulur və zina cəzasının şərtləri ona da şamil edilir. Hənəfi məzhəbində ləvat üçün konkret cəza təyin edilməyib, qazi lazım bildiyi tənbeh cəzasını bu şəxsə şamil edə bilər.

N.R.

LİAN

Lüğəvi mənası lənətləşmə, bir-birinə lənət etmə deməkdir. İslam hüququna görə, arvadının zina etdiyini və ya uşağının ondan olmadığını iddia edən və bunu lazımi qaydada (şahidlərlə) sübuta yetirə bilməyən ər ilə bu iddianı danan arvad şəriət məhkəməsində 4 dəfə öz sözünün doğruluğuna and içir və beşinci dəfədə yalan danışana lənət oxuyur; bundan sonra hakim nikaha xitam verir. Bu mərasimə lian deyilir.

Qurani-kərimdə lianın mahiyyəti belə izah olunur: «Arvadlarına zina isnad edib özlərindən başqa şahidləri olmayanların hər biri özünün doğru danışanlardan olduğuna dair dörd dəfə Allahın adı ilə şəhadət verməlidir. Beşinci dəfə: «Əgər yalan danışanlardandırsa, Allah ona lənət etsin!» *(deməlidir)*. Qadının da ərinin yalan danışanlardan olması barədə dörd dəfə Allahı şahid tutması əzabı ondan dəf edər. Beşinci dəfə: «Əgər *(əri)* doğru danışanlardandırsa, Allah ona *(qadının özünə)* lənət eləsin!» (deməlidir)» *(Nisa, 6-9)*.

Lian mərasiminin sonunda şəriət hakimi nikahı pozulmuş elan edir. İmam Əbu Hənifə və İmam Mühəmmədə görə, bu boşanma bir *bain talaq* hökmündədir. Digər üç əhlisünnə məzhəbinə, cəfəri məzhəbinə və hənəfi alimi Əbu Yusifin fətvasına görə, tərəflər əbədi olaraq bir-birinə haram olurlar və heç bir şərtlə bir daha evlənə bilməzlər. Lian kişini *qəzf* (böhtan), qadını da zina cəzasından xilas edir.

A.Q.

LÖVHİ-MƏHFUZ

Ərəb dilindən tərcüməsi «qorunan lövhə» deməkdir. Bütün varlıqlarla və hadisələrlə əlaqədar Allah-təalanın qədərinin və bilgisinin yazıldığı, insan idrakının qavraya bilməyəcəyi kitab. Qurani-kərim yer üzünə nazil olmazdan qabaq lövhi-məhfuzda yazılmışdı: «O, şanlı-şərəfli Qurandır. O, lövhi-məhfuzdadır» *(Büruc, 21-11)*.

M.İ.

M

MASİVA

Allahdan başqa hər şey, bütün varlıqlar. Dini terminologiyada insanı Allahdan uzaqlaşdıran, Allahı unutduran dünyəvi hadisələrə və istəklərə deyilir.

R.M.

MAŞALLAH (MAŞA-ALLAH)

Ərəb dilindən tərcüməsi Allahın istədiyi şey deməkdir. Əsasən, bu ifadəni razılıq və təsdiq mənasında işlədirlər. Yəni hər hansı əşyanın və ya hərəkətin gözəl olduğunu bildirmək üçün Allahın istədiyi biçimdə olduğunu söyləyir və bununla da o əşyanın və ya hərəkətin bərəkətli, davamlı olması, bəlalardan amanda qalması üçün dua etmiş olurlar. «MaşaAllah» kəlməsini bəzən gözdəymənin qarşısını almaq üçün yazıb öz üstündə gəzdirir, evin qapısından asırlar. Qurani-kərimdə «maşaAllah» ifadəsi 4 dəfə işlədilib *(Ənam, 128; Əraf, 88; Kəhf, 39; Əla, 6-7)*. Bunların hər birində vurğulanır ki, Allah öz istədiyi hadisələr və ya adamlar barəsində müstəsna hökmlər verir.

N.R.

MEHR (MEHRİYYƏ)

Evlənərkən ər tərəfindən arvada verilən və ya vəd edilən pul yaxud əmlak. Qurani-kərimdə evlənən kişinin qadına mehr vermək məcburiyyətində olduğu və bunu zorla geri almasının caiz olmadığı bildirilir *(Nisa, 4, 20, 24, 25)*.

Mehr, nikah zamanı müəyyən edilib-edilməməsi baxımından iki qismə bölünür. Mehrin növü və məbləği nikah zamanı müəyyənləşdirilirsə, buna ***mehri-müsəmma***, əks təqdirdə ***mehri-misl*** deyilir. Nikah əsnasında mehr müəyyən olunmayıbsa, yaxud müəyyən olunan mehr hər hansı səbəbdən etibarsız sayılırsa, ərə gedən qadın mehri-misl tələb etmək hüququna malikdir. Mehri-misl – qadının qohum-əqrəbası içində hər cəhətdən onunla eyni səviyyədə olan qadınlara verilən, yəni adət şəklini alan mehr miqdarıdır.

Mehr, verilmə vaxtı baxımından ***mehri-müəccəl*** və ***mehri-müəccəl*** olmaqla iki qismə ayrılır. Mehri-müəccəl dərhal verilən (nəğd) mehrdir. Qadın mehri-müəccəli almayınca cinsi yaxınlıqdan imtina etmək hüququna malikdir. Mehri-müəccəl isə nisyə, yəni təxirə salınan mehrdir. Bu mehrin verilməsi üçün müəyyən vaxt təyin olunmuşsa, həmin vaxt gəldikdə qadın mehri tələb etmə hüququna malik olur. Əks təqdirdə, nikah pozularkən (*talaq* zamanı) mehr ona ödənməlidir. Ər vəfat edərsə, mehr onun qoyduğu mirasdan verilir.

A.Q.

MEHRAB

Ərəb dilindən tərcüməsi otağın yuxarı başı, ən hörmətli guşəsi deməkdir. Məscidlərin *qiblə* tərəfdəki divarının içində oyuq şəkilli yerə deyilir. Mehrab qiblənin istiqamətini göstərmək üçündür. Çatma tağlarla tikilən və bəzən rəngli kaşı ilə bəzədilən mehrab, bir qayda olaraq, məscidin ən yaraşıqlı guşəsi sayılır. Mehrabı adətən Quran ayələri və dualarla bəzəyirlər.

Çox zaman mehrabın tağının altındakı sahəni camaat namazına başçılıq edən imam-camaat üçün ayırırlar. Bəzən «mehrab» sözünün «hərb» (döyüş) kəlməsi ilə eyni kökə malik olduğunu və «döyüş məkanı» mənasını bildirdiyini yazırlar. Bunun səbəbi budur ki, mehrabda namaz qılan şəxs (imam-camaat) son dərəcə ixlaslı və diqqətli olmalı, şeytanın vəsvəsələrinə uymamalıdır. Buna görə onu sanki şeytanla döyüşür kimi təsəvvür edirlər.

Bəzi məscidlərin mehrabı xüsusi özəlliyə malikdir. Məsələn, İstambuldakı Sultan Əhməd camesinin mehrabına bütün müsəlmanların müqəddəs saydığı «qara daş»ın *(həcərül-əsvədin)* bir parçası bərkidilib.

N.R.

MERAC

Həzrət Mühəmməd Peyğəmbərin (s) həyatında baş vermiş ən mühüm hadisələrdən biri. Hansı tarixdə baş verməsi barədə alimlər arasında fikir ayrılığı vardır. Geniş yayılmış məlumata görə, Məkkə dönəmində, peyğəmbərliyin 10-cu ilindən sonra (daha

dəqiq desək, Əbu Talibin vəfatından sonra) baş vermişdir. Merac gününün də dəqiq tarixi məlum deyil. Müxtəlif mənbələrdə 17 ramazan, 2 rəbiül-əvvəl, 17 rəbiül-əvvəl və ya 27 rəcəb gecəsində, yaxud rəcəb ayının ilk cüməsinin gecəsində baş verdiyi yazılıb. Merac Həzrət Mühəmməd Peyğəmbərin (s) ən böyük möcüzələrindən biri sayılır. «Merac» sözünün ərəb dilindən tərcüməsi «yüksəliş, yuxarıya qalxma» mənasını verir.

Əbu Talibin və *Xədicənin* vəfatından sonra Həzrət Mühəmməd (s) tez-tez öz qohumlarının evini ziyarət edir, onlara qonaq olur, bəzən gecəni də orada qalırdı. Bir gün o, Əbu Talibin qızı, Həzrət Əlinin (ə) bacısı Ümmi-Haninin evində qonaq idi. Gecəyarı Allahın vəhy mələyi *Cəbrail* İslam Peyğəmbərinin görüşünə endi və onu çox şərəfli bir səfərə dəvət etdi. Bu səfərdə Həzrət Mühəmmədə (s) bələdçilik etməyi Allah-təala Ona tapşırmışdı.

Peyğəmbərimiz Cəbrailin gətirdiyi *Büraq* adlı xüsusi miniyə minib gecəyarı Məkkəni tərk etdi. Onun səfərinin birinci mərhələsi müsəlmanların ilk qibləsi, böyük peyğəmbərlərin vətəni *Qüds* (Yerusəlim) şəhərindəki *Beytül-Müqəddəs* məscidinə oldu. Merac gecəsində Peyğəmbərin Məkkədən Qüdsə səfərini *«isra»* adlandırırlar.

Beytül-Müqəddəs məscidini, habelə Qüds şəhərinin başqa dini ziyarətgahlarını gəzib orada namaz qıldıqdan sonra Peyğəmbərin ilahi səyahətinin ikinci mərhələsi başlandı. Həzrət Mühəmməd (s) Cəbrailin müşayiəti ilə səmaya qalxdı. Büraq Onu səmanın təbəqələrindən asanlıqla keçirərək bu səfərin asanlığını təmin edirdi.

Həzrət Mühəmməd (s) meracda keçmiş peyğəmbərlərin ruhları ilə görüşdü, cənnətdə möminlərə nə kimi mükafatlar veriləcəyindən, günahkarların necə cəzalandırılacaqlarından xəbərdar oldu. Hədislərdə deyildiyi kimi, merac zamanı Peyğəmbərimiz Allahın qüdrət və əzəmətinin zahir olduğu yerlərə elə yaxınlaşdı ki, heç bir mələk, o cümlədən cənab Cəbrail Onu müşayiət edə bilməyib geri qaldı.

Meracın əsas əhəmiyyəti bundadır ki, həmin hadisə zamanı Allah-təala müsəlmanlara gündəlik *namazları* qılmağı vacib elan etdi. Merac hadisəsinə kimi namaz qılmaq hamıya vacib deyildi. Yalnız Peyğəmbərin özü namaz qılmağa vəzifəli idi.

Həzrət Mühəmməd (s) çox qısa müddət ərzində, cəmi bir neçə dəqiqə içində böyük səfərini başa vurdu, getdiyi yolla da geri qayıtdı. O, səmada hərəkət edib Məkkəyə dönərkən yolda şəhərə yaxınlaşan ticarət karvanını gördü və karvanın nişanələrini yadda saxladı.

Səhər Həzrət Mühəmməd (s) şəhərə çıxıb öz ilahi səfərini məkkəlilərə xəbər verdi. Onun bir neçə dəqiqə ərzində Məkkədən Qüdsə, oradan da səmaya qalxdığını, göy təbəqələrini dolaşdıqdan sonra geri döndüyünü eşidən bütpərəstlər yenə istehza etməyə başladılar. Bu zaman Həzrət Peyğəmbər yolda gördüyü karvanı təsvir etdi, dəvələrin sayını, rəngini, yükünü yerli-yerində söylədi. Məkkəlilər Peyğəmbərdən tələb etdilər ki, əgər doğrudan da Qüdsə getmişdirsə, oranın mənzərəsini təsvir etsin. Həzrət Mühəmməd (s) Beytül-Müqəddəs məscidinin içini və çölünü, habelə başqa müqəddəs yerləri ətraflı şəkildə təsvir etdi. Tez-tez Qüdsə səfər edən tacirlər onun dediklərinin həqiqətə tam uyğun olduğunu təsdiqlədilər. Bu vaxt Peyğəmbərin yolda gördüyü ticarət karvanı Məkkəyə daxil oldu. Karvanın bütün əlamətləri Həzrət Mühəmmədin (s) söylədikləri ilə eyni idi.

Keçmiş dövrdə yaşamış tədqiqatçıların bir hissəsi meracın cismani deyil, ruhi olduğunu söyləmişlər. Onların fikrincə, Peyğəmbərin yalnız ruhu meraca getmiş, yəni o, xəyalən gəzib-dolanmış, bədəni isə Məkkədə qalmışdır. Alimlərin bu fikrə düşməsinin səbəbi orta əsrlərdə astronomik düşüncədə Ptolomeyin geosentrik (Yer mərkəzli) sisteminin hakim olması idi. Bu düşüncəyə görə, Yer kürəsini ardıcıl olaraq 4 həyat ünsürü – su, torpaq, hava və od əhatə edir. Bundan sonra «fələklər» adlanan doqquz qat gəlir. Hər hansı cismin bu fələkləri yarıb keçməsi mütləq kainatın məhvi ilə nəticələnər. Buna görə də, insanın cismani olaraq fələkləri yarıb meraca qalxması qeyri-mümkün sayılırdı. Lakin elm inkişaf etdikcə, həm Ptolemeyin geosentrik sisteminin, həm də «doqquz fələk» anlayışının yanlış olduğu aşkara çıxdı.

Şiəliyin *şeyxiyyə* qolunun banisi Şeyx Əhsai kimi alimlər isə meracın ayıqlıqda deyil, yuxuda baş verdiyinə inanırdılar.

Lakin İslam alimlərinin böyük əksəriyyətinin fikrincə, Həzrət Mühəmməd Peyğəmbər (s) cismani (fiziki) halda meraca getmişdir. Bu hadisənin bəzi cəhətləri müasir elm səviyyəsi üçün əlçatmaz və qeyri-mümkün görünə bilər. Lakin unutmaq olmaz ki, elm dini məsələlərin yalnız bir qismini izah etməyə qadirdir. Öz peyğəmbərini çox yüksək sürətlə hərəkət etdirib Yerin cazibə qüvvəsindən çıxarmaq, atmosferin yuxarı qatlarında onun həyat funksiyalarını təmin etmək Allahın sonsuz qüdrəti üçün tam mümkün işlərdir.

Qurani-kərimin bir neçə ayəsində Həzrət Mühəmməd Peyğəmbərin (s) merac və israsına həm açıq, həm də üstüörtülü işarələr mövcuddur. Belə ayələrin birində buyurulur: «Bəzi ayətlərimizi göstərmək üçün öz bəndəsini bir gecə Məscidül-həramdan ətrafını mübarək etdiyimiz Məscidül-əqsaya aparan Allah pak və müqəddəsdir. Ö,doğrudan da (hər şeyi) eşidəndir, görəndir» *(İsra, 1)*.

N.R.

MEYİT NAMAZI

bax: *cənazə namazı.*

MEYSİR

Qumar oyunu. Ərəb dilindən tərcüməsi asan deməkdir; çünki qumar oyunu zamanı udan tərəf asan yolla qazanc əldə etmiş olur.

İslamdan qabaq cahiliyyə dövrü ərəblərinin oynadıqları qumar növlərindən biri belə idi: 10 ədəd çubuq götürüb sıra ilə nömrələyirdilər (daha doğrusu, çubuqların üstünə sayı əvəz edən adlar yazırdılar). Sonra bir dəvə kəsib ətini 28 bərabər hissəyə bölürdülər. Qumar 10 nəfərin arasında oynanılırdı. Hər kəs çubuqlardan birini götürürdü. İlk 7 çubuğu seçmiş adamlar müvafiq olaraq dəvənin ətindən 1, 2, 3, 4, 5, 6 və 7 pay götürürdülər. Qalan 3 nəfərə isə nəinki ət çatmırdı, hətta dəvənin pulunu da onlar ödəyirdilər.

Quranda meysir (qumar) şeytan əməli adlandırılaraq qadağan olunur: «Ey iman gətirənlər! Şərab da, meysir də, bütlər də, falçılıq da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız» *(Maidə, 90)*.

N.R.

MƏAD

Hər bir müsəlmanın inanmalı olduğu əqidə prinsiplərindən biri (əhli-sünnə məzhəbində *iman əsaslarından*, şiə məzhəbində dinin əsaslarından biri). Məada inanmayan kəs İslam dinindən kənar hesab olunur. Ərəb dilindən tərcümədə qayıdış, geri dönmə deməkdir.

Məad əqidəsi ümumilikdə bundan ibarətdir: Yalnız Allah-təalaya məlum olan bir gündə dünyanın sonu *(qiyamət)* gələcək, yer üzündə həyat tamamilə məhv olacaq, bəşəriyyət bütövlükdə öləcək. Sonra Allahın əmri ilə Həzrət Adəmdən (ə) başlamış dünyanın sonunda yaşayanlaradək bütün insanlar yenidən dirildilib ilahi məhkəməyə – *məhşərə* gətiriləcəklər. Məhşərdə hər kəsin həyatı boyu etdiyi əməllər hesablanıb qiymətləndiriləcək, onun yaxşı, yaxud pis insan olması barədə ədalətli hökm veriləcək. Yaxşı insanlar öz əməllərinin mükafatını almaq üçün *cənnətə*, pis adamlar isə cəzalandırılmaq üçün *cəhənnəmə* göndəriləcəklər.

Dini kitablarda məadın mütləq baş verəcəyi barədə çoxlu dəlillər gətirilmişdir. Məsələn:

Birinci dəlil: ***İlahi ədalət***

Məadın vacibliyinin ən möhkəm dəlili ilahi ədalətdir. Bu dünyada insanların heç də hamısı layiq olduğu aqibətlə qarşılaşmır. Bəzən mömin şəxslər zülm və əziyyətlərə tuş gəlir, qatı cinayətkarlar, kafirlər isə vəzifə, sərvət və şöhrət əldə edib rifah içində yaşayırlar. Əgər insanın həyatı yalnız dünya həyatı ilə məhdudlaşsaydı, Allahın ədaləti şübhə altına düşərdi. Lakin məad vasitəsilə bu şübhə tamamilə aradan qalxır. İnsan layiq olduğu mükafat və cəzanı bu dünyada almasa da, axirət aləmində mütləq alacaqdır.

Allah bəzi insanların mükafatının, yaxud cəzasının bir hissəsini onlara bu dünyada verir. Lakin əsas hissə qiyamətə qalır. Bunun bir neçə səbəbi vardır:

– Əgər Allah hər bir əməlin əvəzini təxirsiz olaraq versəydi, insanların əməllərindəki səmimiyyət itər, ya qorxu, ya da həris-

lik onlara hakim olardı. Pis adam yalnız və yalnız cəza qorxusundan pislik etməkdən əl çəkərdi, yaxşı adam isə bacardıqca daha çox mükafat qazanmaq üçün yaxşılıq edərdi. İnsan hər yaxşılıq və pisliyi öz istəyi və iradəsi ilə deyil, məcburiyyət və ehtiyac üzündən həyata keçirərdi. Halbuki, əsl mükafatın və cəzanın qiyamətə kimi təxirə salınması nəticəsində insan tam hərəkət azadlığı əldə edir. Ona vəd verilib ki, nə zamansa əməllərinin qarşılığını alacaq. Onun bu sözə inanmağa da imkanı var, inanmamağa da. Əsl iman bundadır ki, insan Allahın verdiyi vədləri gözüylə görməsə də, onlara inansın.

– Mükafat və cəzanı qiyamətə saxlamaqla Allah insanlara möhlət verir. Bəzi cinayətkarlar uzun illər boyu bəd əməllər törətdikdən sonra səmimi qəlbdən tövbə edib düz yola gəlirlər. Əksinə, ömrünün yarısını xeyirxahlıqla keçirən bəzi insanlar isə birdənbirə zərərli təsir altına düşüb cinayətkara çevrilirlər. Allah hər bir insana imkan verir ki, öz simasını tamamilə açıqlasın, nəyə qadir olduğunu nümayiş etdirsin. Yalnız bundan sonra onun bütöv həyatı əsasında ədalətli hökm çıxarılacaq.

– Bəzən insanın savabı, yaxud günahı elə böyük olur ki, onun əvəzini bu dünyada vermək qeyri-mümkün hala çevrilir. Məsələn, İslamın ilk dövrlərində Həzrət Mühəmməd Peyğəmbərə (s) kömək edib bu yolda olmazın məhrumiyyətlərə dözmüş səhabələrin mükafatını heç bir dünya neməti ilə ödəmək mümkün deyil. Əksinə, *Kərbəla* faciəsini törətmiş adamları isə bu dünyada heç bir üsulla layiqincə cəzalandırmaq olmaz. Elə buna görə də Allah insanın əməllərinin layiqli cavabını qiyamətə saxlayıb.

İkinci dəlil: ***Həqiqətlərin açılması***

Bəzən haqla nahaqqı bu dünyada ayırmaq çətin olur. Yaxşı işlər pisləniliр, haqlı adamlara böhtan atılır. Əvəzində isə çox pisliklər yaxşılıq adı ilə tanıtdırılır, çox zülmkarlara adil deyilir. Lakin Allah həqiqətin əbədi olaraq gizli qalmasına razı deyil. İnsanlar bu dünyada haqqı gizlətsələr də, qiyamətdə buna nail ola bilməyəcəklər. Məhşər hər şeyin əsl həqiqətinin göstəriləcəyi, bütün şəkk-şübhələrin dağıdılacağı ümumbəşəri toplantıdır. Həmin gün heç kəs başqasını aldada, həqiqəti gizlədə bilməyəcək. Qiyamətdə bütün sirlər açılacaq *(Tariq, 9)*.

Üçüncü dəlil: ***Allahın vədi***

Məadın güclü dəlillərindən biri də budur ki, Allah onun mütləq olacağını öz bəndələrinə vəd edib. Allahın vədi mütləq həyata keçməlidir, çünki Allah öz sözlərində doğruculdur.

Bütün ilahi dinlərdə məad barəsində xəbər verilmişdir. Bütün peyğəmbərlər öz ümmətlərini haqq yola dəvət edərkən qiyamət gününün mütləq olacağını, hamının dirildilərək sorğu-sual meydanına çəkiləcəyini söyləmişlər.

Məsələn, böyük peyğəmbərlərdən biri olmuş Həzrət Daniilin (ə) dilindən *Bibliyada* belə deyilir: «Torpaq altında yatanlar oyanacaqlar. Onların bir hissəsi əbədi həyata, bir hissəsi isə əbədi cəza və rüsvayçılığa layiq görüləcək». Peyğəmbər İsayya (ə) isə məadı belə təsvir edir: «Sənin Rəbbin ölü bəndələri dirildəcək və ölü bədənlər canlanıb qalxacaq».

Xristianların müqəddəs kitabı olan *İncilin* sonunda yerləşdirilmiş «İohannın açıqlaması»nda (Apokalipsis) qiyamət gününün hadisələri barədə öngörmələr verilir: «Böyüklükiçikli bütün ölülər Allahın qarşısında durar və onların əməlləri yazılmış kitablar açılar. Hər kəs öz əməl kitabında yazılanlar əsasında mühakimə edilər».

Qurani-kərimin də onlarla ayəsində məaddan söz açılır. Quran nöqteyi-nəzərindən məad hər şeydən əvvəl insanın Allaha doğru qayıdışıdır. İnsan Allah tərəfindən yaradılıb, dünya həyatının sonunda da onun hüzuruna dönəcək. Elə buna görə də Həzrət Mühəmməd Peyğəmbər (s) bir şəxsin ölüm xəbərini eşidəndə aşağıdakı ayəni oxuyurdu: «Biz Allahınıq və Ona doğru qayıdacağıq» *(Bəqərə, 156)*.

N.R.

MƏCUSİ

Atəşpərəst, alova pərəstiş edən, zərdüştilik dinində olan şəxs.

Qurani-kərimdə məcusilərin adı yəhudilər, xristianlar və *sabiilərlə* (ulduzpərəstlərlə) bir sırada çəkilir və *müşriklərdən* (Allaha

şərik qoşanlardan) fərqləndirilir: «Həqiqətən, Allah iman gətirənlər, yəhudilər, sabiilər, xaçpərəstlər, məcusilər və müşriklər arasında qiyamət günü öz hökmünü verəcək» *(Həcc, 17)*.

Buna görə də əksər müsəlman alimləri məcusiləri *əhli-zimmədən* (müsəlmanların himayəsində olan ümmətlərdən) sayırlar. İslam müqəddəslərindən bizə gəlib-çatmış bir sıra rəvayətlərdə buyurulur ki, məcusilərin də peyğəmbəri var idi, həmin peyğəmbərə səmavi kitab nazil olmuşdu. Lakin onlar öz peyğəmbərlərini öldürdülər və müqəddəs kitabı təhrif etdilər. Yer üzündə mövcud olan millətlərin və dinlərin xüsusiyyətlərindən bəhs edən, məşhur müsəlman alimi Şəhristani tərəfindən yazılmış «əl-Miləl vənnihəl» kitabında bildirilir ki, *əhli-kitab* iki dəstəyə bölünür. Birinci dəstəyə aid olan xristianların və yəhudilərin müqəddəs kitabları (Tövrat və İncil) təhrif olunsa da, halhazırda mövcuddur. Amma məcusilər ikinci dəstəyə aiddirlər. Çünki onların müqəddəs kitabı bütünlükdə məhv olmuş və tamam fərqli bir kitabla əvəz edilmişdir.

İstər Həzrət Mühəmməd Peyğəmbərin (s) sağlığında, istərsə də *raşidi xəlifələrin* dövründə məcusilərlə əhli-zimmə kimi davranılırdı. Peyğəmbərimiz Hicr (Oman) məcusilərindən *cizyə* almışdı. Bunun səbəbini soruşanlara isə belə buyurmuşdu: «Məcusilərin də peyğəmbəri vardı. Amma onu öldürdülər və müqəddəs kitabı yandırdılar». İkinci xəlifə Ömər ibn Xəttab Bəhreyn məcusilərinin milli adət-ənənələrini ləğv etməyi qərara alanda, ona Peyğəmbərimizin məcusilərlə rəftarını xatırlatdılar və bundan sonra Ömər məcusilərə icazə verdi ki, cizyə verəcəkləri halda, öz milli və dini ənənələrinə riayət etsinlər.

N.R.

MƏDDAH

Ərəbcədən tərcüməsi mədh edən, tərifləyən deməkdir. İslam müqəddəsləri barədə şeir yazan şairləri, daha çox isə belə şeir nümunələrini avazla oxuyan dindar müğənniləri «məddah» adlandırırlar. Xalq arasında məddahlara dərviş də deyirlər (bax: *dərviş*). Keçmişdə dərvişlər tərki-dünya olub şəhər-şəhər, qapı-qapı gəzir, camaat qarşısında çıxış edir, pul yığırdılar. Hal-hazırda «dərviş» adlandırılan şəxslərin onlarla heç bir əlaqəsi yoxdur. Çünki indiki dərviş-məddahlar dünyəvi həyat tərzi sürür, müasir dəbdə geyinir, hətta toy şənliklərində çıxış edirlər.

Bu gün «məddah toyu» və ya «dərviş toyu» ifadəsi ilə də tez-tez rastlaşırıq. Belə toylarda bir qayda olaraq, yalnız kişilər iştirak edirlər. Qadınlar da iştirak etmiş olsalar, onlar ya başqa salonda əyləşirlər, ya da qadınlarla kişilərin oturduqları yer arasında pərdə çəkilir. Məddah toylarında süfrəyə alkoqollu içki qoyulmur. Toy mərasimində rəqs olmur, yalnız dini mövzulu nəğmələr (sürudlar) səsləndirilir. Adətən, belə toylarda məddah heç bir musiqi aləti olmadan oxuyur, bəzən isə nəğmə musiqi alətlərində müşayiət edilir. Məddah toyları bir qayda olaraq, dindar ailələr tərəfindən keçirilir.

N.R.

MƏDRƏSƏ

Ərəb dilindən tərcüməsi dərs oxunan yer deməkdir. Müsəlman dünyasında təhsil ocaqlarına verilən ümumi addır.

İslam dininin elm və biliyə verdiyi müstəsna qiymət sayəsində ilk dövrlərdən etibarən müsəlman torpaqlarında təhsil müəssisələri fəaliyyət göstərmişdir. Hələ Həzrət Mühəmməd Peyğəmbərin (s) sağlığında Mədinədəki Peyğəmbər Məscidi dini biliklərin öyrədilmə mərkəzi kimi fəaliyyət göstərirdi. Burada savadlı səhabələr Qurani-kərim və şəriət hökmləri barədə Peyğəmbərdən əxz etdikləri biliyi başqalarına öyrədirdilər. Xüsusilə, Mədinə məscidindəki *«süffə»* adlı məkan yüzlərlə şəxsin əxlaq, mənəviyyat və mərifət məktəbi idi.

Sonrakı dövrlərdə xilafətin hər bölgəsində irili-xırdalı mədrəsələr açılmağa başladı. Bu mədrəsələrdə bir qayda olaraq, dini elmlər daha geniş tədris edilirdi. Mədrəsələrin çoxu müstəqil şəkildə deyil, kitabxanaların, tərcümə mərkəzlərinin, məscidlərin nəzdində fəaliyyət göstərirdi. IX əsrin əvvəllərində Abbasi xəlifəsi Məmunun əmri ilə Bağdadda təşkil edilmiş Beytül-hikmə mərkəzində (buranı sözün həqiqi mənasında akademiya adlandırmaq olardı) ayrı-ayrı alimlər dərs keçirdilər. IX əsrdə Xorasan və Orta Asiya ərazisində onlarla mədrəsə mövcud idi. Buxara, Nişabur, Qəznə və başqa şəhərlərdə 30-dan artıq iri mədrəsə fəaliyyət göstərirdi. Əksər mədrəsələrin fəaliyyəti vəqf sistemi üzərində qurulmuşdu.

1998-ci ildə çap olunmuş Ginnesin Rekordlar Kitabında yazılanlara əsasən, dünyada davamlı fəaliyyət göstərən ilk ali təhsil ocağı 859-cu ildə Mərakeşin Fəs şəhərində təsis edilmiş Qərəviyyin mədrəsəsi sayılır. Burada ilahiyyat elmləri ilə yanaşı, ərəb dili qrammatikası, məntiq, tibb, riyaziyyat, astronomiya, tarix, kimya, coğrafiya və musiqi də tədris edilirdi. Müqayisə üçün deyək ki, avropalılar müsəlmanlardan 240 il sonra – 1088-ci ildə özlərinin ilk dünyəvi təhsil ocağını – Bolonya Universitetini təsis etdilər. Qərb dünyasının fəxr etdiyi Oksford, Kembric və Sarbonna universitetlərinin yaranma tarixi isə bundan da sonralara – XII-XIII əsrlərə gedib-çıxır.

Orta əsrlərdə müsəlman Şərqinin ən mütəşəkkil və universal təhsil ocağı 1064-1066-cı illərdə Səlcuq sultanlarının vəziri, böyük alim Xacə Nizamül-mülkün təşəbbüsü ilə Bağdadda təşkil edilmiş Nizamiyyə mədrəsəsi sayılır. O dövrün imkanları baxımından ən yüksək səviyyəli təhsil şəraiti, ən savadlı müəllim kadrları və ən mütərəqqi təhsil proqramı ilə təchiz edilmiş Nizamiyyə mədrəsəsinə müxtəlif zamanlarda İmam Qəzzali, Əbu İshaq Şirazi kimi ünlü alimlər rəhbərlik etmişlər. Nizamiyyə mədrəsəsinin Bəlx, Nişabur, Herat, İsfahan, Bəsrə, Mərv, Mosul kimi iri şəhərlərdə filialları fəaliyyət göstərirdi.

Sonrakı dövrlərdə Bağdadda xəlifə Müstənsirin təşkil etdiyi Müstənsiriyyə mədrəsəsi, Qahirədə Sultan Səlahəddinin vəziri tərəfindən himayə edilən Faziliyyə mədrəsəsi, Nəcəf şəhərində fəaliyyət göstərən və şiə dünyasında ən yüksək nüfuza malik olan dini elmlər mərkəzi, eləcə də, Qahirədəki möhtəşəm *əl-Əzhər universiteti* Şərqin klassik təhsil ənənələrini uğurla davam etdirirdi.

XVI-XVII əsrlərdə İstanbul, İsfahan və Nəcəf şəhərlərində klassik dini təhsil istiqamətində fəaliyyət göstərən yüzlərlə mədrəsə mövcud idi. Bu mədrəsələrdə səviyyədən asılı olaraq ibtidai dini təhsillə yanaşı, ən yüksək dərəcəli dərslər də tədris edilirdi. Mədrəsələrin bir çoxu dövlət tərəfindən himayə olunurdu, bir hissəsi də vəqf və dini vergilər (*xüms* və *zəkat*) hesabına öz fəaliyyətini davam etdirirdi.

XVIII əsrdən etibarən ümumdünya siyasət səhnəsində İslam öz üstün mövqeyini itirməyə başladı. Bu, mədrəsələrin fəaliyyətinə də öz mənfi təsirini göstərdi. Şərqdə elmi araşdırmaların zəifləməsi, Qərbin inkişaf etmiş texnologiyaları qarşısında məğlubiyyət təhsil sistemində durğunluq yaratdı. Xüsusilə, XIX əsrdə bir çox müsəlman dövlətlərində Qərb təhsil sisteminə keçidlə əlaqədar mədrəsələr əvvəlki əhəmiyyəti əldən verməyə başladı. Artıq mədrəsələr azyaşlı uşaqlara Quran oxumağı öyrətməklə öz vəzifələrini bitmiş hesab edirdi.

Hal-hazırda müsəlman ölkələrində çoxlu mədrəsə fəaliyyət göstərməkdədir. Dövlət nəzarəti altında işləyən bu mədrəsələrin əksəriyyətində tələbələrə ibtidai dini savad verilir. Buranı bitirənlər gələcəkdə daha yüksək səviyyəli dini tədris ocaqlarında öz təhsillərini davam etdirirlər.

N.R.

MƏĞFİRƏT

Örtmə, gizləmə, bağışlama, əvf etmə. Səmimi şəkildə dua edən, günahlarının bağışlanmasını istəyən bəndələrin Allah tərəfindən bağışlanması. Allahın məğfirəti və tövbə qapısı hər kəsin üzünə açıqdır. Allah vəd vermişdir ki, şirk istisna olmaqla bəndənin bütün günahlarını (tövbə edərsə) bağışlayacaq.

K.M.

MƏĞRİB NAMAZI

Ərəb dilindən tərcümədə məğrib – Günəşin batma zamanı və ya Günəşin batma yeri deməkdir. «Məşriq» (Günəşin doğuş yeri və zamanı) sözünün qarşılığıdır. Müsəlman coğrafiyasında Şimal-Qərbi Afrika torpaqları «məğrib» adlandırılır.

Dini termin olaraq, məğrib – hava qaralanda qılınan namazın adı və həm də həmin namazın qılınma vaxtıdır. Məğrib namazı 3 rükətdən ibarətdir. Onun qılınma vaxtı, yəni

məğrib anı İslam məzhəblərində müxtəlif cür dəyərləndirilir. Əhli-sünnə məzhəblərinə görə, Günəşin üfüq arxasında tamamilə görünməz olduğu an məğrib vaxtının başlanğıcıdır. Bu andan etibarən məğrib namazı qılına bilər. Günəş batandan sonra onun qırmızılığı şərq tərəfdə zolaq şəklində görünür. Günəş üfüq arxasında daha dərinliklərə endikcə, bu qırmızı zolaq yuxarıya doğru yüksəlir və səmanın yarısından keçib qərbə tərəf adlayır, nəhayət, qərbdə üfüqün arxasında itir. Həmin vaxta kimi məğrib namazını qılmaq olar.

Cəfəri məzhəbinə görə isə, məğrib namazının vaxtı qırmızı zolağın şərqdən qalxıb, səmanın yarısını keçdiyi və qərbə tərəf meylləndiyi an başlayır. Həmin andan başlayaraq, gecənin yarısına *işa namazının* qılınması qədər vaxt qalıncaya kimi məğrib namazını qılmaq olar.

Cəfəri fiqhinə görə, məğrib namazının birinci və ikinci rükətlərində *qiraət* (Quran surələrinin oxunuşu) *cəhrlə* (ycadan) yerinə yetirilir. Əhli-sünnə məzhəbində bu sünnətdir (hənbəlilər ucadan ya astadan qiraət etməyi eyni hökmdə sayırlar).

N.R.

MƏHRƏM

Ərəb dilindən tərcüməsi haram (qadağan) olan deməkdir. İslam şəriətinə görə, kişiyə o qadınlar məhrəm sayılırlar ki, onlarla evlənməsi mütləq mənada haramdır. Eləcə də, qadına o kişilər məhrəmdir ki, onlara ərə getməsinə mütləq mənada icazə verilmir.

Məhrəmlik münasibəti üç yolla yaranır:

*1. **Əsil-nəsəb yolu ilə, yəni təbii qohumluqla.*** Kişinin anası, bacısı, qızı, xalası və bibisi ona məhrəmdir. Qadının da atası, qardaşı, oğlu, əmisi və dayısı ona məhrəm sayılır. Bu məhrəmlik yuxarı və aşağı xətlə də davam edir. Yəni kişiyə öz qızı məhrəm olduğu kimi, qızının qızı (nəvəsi) da məhrəmdir. Yaxud qadına atası məhrəm olduğu kimi, atasının atası (babası) da məhrəm sayılır. Kişiyə öz bacısı məhrəm olduğu kimi, bacının qızı da ona məhrəmdir. Qadına öz qardaşı məhrəm olduğu kimi, qardaşın oğlu da məhrəm sayılır. Atanın və ananın xalası, bibisi, əmisi və dayısı da adama məhrəmdirlər. Amma əminin, dayının, xalanın və bibinin övladları məhrəm deyillər. Bütün bunlar ögeylik halında da qüvvədədir.

*2. **Evlənmə yolu ilə.*** Kişiyə qaynanası, qadına da qaynatası məhrəm sayılır. Eləcə də, ogey qardaş, ögey bacı, ögey övlad (oğulluq, qızlıq) məhrəm qismində aiddir. Həmçinin, kişiyə gəlini, qadına da kürəkəni məhrəmdir. Amma qayın, yeznə, baldız məhrəm sayılmırlar.

*3. **Süd vermə yolu ilə.*** Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub ki, əsil-nəsəb yolu ilə məhrəm olanlar süd əmmə yolu ilə də məhrəmdirlər. Şəriətdə nəzərdə tutulmuş qayda ilə eyni anadan süd əmmiş oğlan və qız bacı-qardaş sayılırlar və evlənmələri haramdır. Kişiyə süd bacısı, süd anası, süd anasının anası və bacısı, süd atasının anası və bacısı, süd bacısının (qardaşının) qızı və nəvəsi məhrəmdir. Qadına da süd qardaşı, süd atası, süd atasının atası və qardaşı, süd anasının atası və qardaşı, süd qardaşının (qızının) oğlu və nəvəsi məhrəm sayılır. Başqa sözlə desək, bir qadından süd əmən uşağa eynilə ailənin doğma övladı kimi məhrəmlik şərtləri şamil olur.

Hansı şərtlər daxilində süd vermədən sonra məhrəmliyin yaranması barədə məzhəblərin görüşləri fərqlidir. Cəfəri məzhəbinə görə, uşaq südü mütləq qadının döşündən əmməlidir, əgər döşdən qabın içinə sağılmış südü içsə, məhrəmlik yaranmaz. Əhli-sünnə məzhəbində bu şərt yoxdur. Həmçinin, cəfəri məzhəbində uşaq ən azı 15 dəfə və ya bir gecə-gündüz müddətində qadından doyunca süd əmməlidir. Belə ki, süd onun sümüyünə, qanına hopmalıdır. Həm də bu müddət boyunca uşaq başqa qadından süd əmməməlidir, süddən savayı qida qəbul etməməlidir. Şafii və hənbəli məzhəblərində süd verənin aşağı həddi 5 dəfədir. Hənəfi və maliki məzhəblərinə görə isə, uşaq qadının bircə damcı südünü içsə belə, məhrəmlik yaranar. Bunu da qeyd edək ki, süd əmən uşağın qardaş və bacıları süd verən qadına və onun ailəsinə məhrəm sayılmazlar. Yəni bir kəs qardaşının süd bacısı ilə (yəni qardaşının süd əmdiyi qadının qızı ilə) evlənə bilər.

Qurani-kərimdə kişiyə məhrəm olan qadınlar barədə buyurulur: «Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qızları, süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları və yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan qızları (ögey qızlarınız) ilə evlənmək haram edildi» *(Nisa, 23).*

Məhrəmliyin xüsusiyyətlərindən biri də budur ki, qadının öz saçını, adət-ənənədə açıq qalması eyib sayılmayan bədən üzvlərini məhrəm kişilərdən gizlətməsinə ehtiyac yoxdur. Hər bir halda, məhrəm şəxslər ünsiyyət zamanı əxlaqi normalara ciddi riayət etməlidirlər. Məsələn, şəriətə və adət-ənənəyə görə, göstərilməsi qadağan olan bədən üzvlərini məhrəmdən də gizlətmək lazımdır.

N.R.

MƏHŞƏR

Ərəb dilindən tərcüməsi toplantı yeri deməkdir. İslam inancına görə, *qiyamət* günündə bütün insanlar dirildikdən sonra dəstələr halında «məhşər» adlı geniş bir məkana gətiriləcəklər. Orada hər kəs növbə ilə mühakimə olunub ya mükafata, ya da cəzaya layiq görüləcək.

Kafirlər qorxudan gözləri bərəlmiş və sifətləri qaralmış halda, ümidsizlik içində məhşərə sürüklənərlər. Onlar yenidən ölüb qəbirlərə qayıtmağı arulayarlar; amma bu istəkləri fayda verməz. Möminlər isə məhşərə daxil olarkən özlərini itirməz, əksinə sevinərlər, onların üzü gülər. Çünki onlar dünyada etdikləri yaxşı əməllərin mükafatını almağa tələsərlər.

Məhşər məhkəməsindən heç kim kənarda qalmayacaq. Həm möminlər, həm də kafirlər sorğu-sual qarşısında duracaqlar. Bu prosesin gedişi və nəticəsi hər insan üçün fərqli olacaq, lakin ümumilikdə heç kəs ədalət sorğu-sualından azad edilməyəcək. Qurani-kərimdə buyurulur: «Peyğəmbər göndərilən ümmətləri sorğu-suala çəkəcək, göndərilən peyğəmbərləri də sorğu-sual edəcəyik» *(Əraf, 6).*

Məhşərdə peyğəmbərlərin savabını Allah-təala özü hesablayacaq. Sonra Allah peyğəmbərlərə tapşıracaq ki, öz canişinlərinin və sadiq tərəfdarlarının əməlini yoxlayıb, savabını təyin etsinlər. Onlar da öz növbəsində, qalan insanları mühakimə edəcəklər. Əlbəttə, bunların hamısı Allah-təalanın bilavasitə nəzarəti altında baş verəcək.

Məhşərdə insanın hər bir əməli nəzərə alınıb hesablanacaq. Heç bir pis, yaxud yaxşı əməl kənarda qalmayacaq: «Kim *(dünyada)* zərrə qədər yaxşı iş görmüşdürsə, onu *(onun xeyrini)* görəcək *(mükafatını alacaq).* Kim də zərrə qədər pis iş görmüşdürsə, onu *(onun zərərini)* görəcək *(cəzasını çəkəcək)*» *(Zilzal, 7-8).*

Qədim dünyanın ən hikmətli alimlərindən sayılan Loğmanın oğluna vəsiyyətində deyilirdi: «Oğlum, *(dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş)* bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu *(qiyamət günü)* ortaya gətirər. Həqiqətən, Allah lütf sahibidir, *(hər şeydən)* xəbərdardır» *(Loğman, 16).*

Məhşərdə yalan danışmaq, bəhanə gətirmək, cəzadan qaçmaq mümkün olmayacaq. Çünki hamıdan elmli olan Allahı aldatmaq, hamıdan qüdrətli olan Allahın hökmündən qaçmaq olmaz: «Məhz o gün insan: «Qaçıb can qurtarmağa yer haradadır?» – deyəcək. Xeyr, *(o gün)* heç bir sığınacaq olmayacaq! O gün duracaq *(pənah aparılacaq)* yer ancaq Rəbbinin hüzurudur» *(Qiyamət, 10-12).*

Məhşərdə hər şey göz qabağında olacaq. Hər kəsin günahları və savabları başqalarının gözü qabağında açıq-aşkar üzünə söylənəcək, müttəhimə müdafiə olunmaq və öz əməllərinin səbəbini izah etmək imkanı veriləcək. Məhşər məhkəməsində şahidlər kənardan gətirilməyəcək. İnsanın öz beyni – çəkdiyi planları, əli – etdiyi xəyanətləri, dili – danışdığı yalanları, gözü – görüb susduğu cinayətləri etiraf edəcək: «Qiyamət günü dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcək» *(Nur, 24).*

İlahi məhkəmənin ədalət və düzgünlüyü aşağıdakı rəvayətdə aydın görünür: Bir gün Həzrət Mühəmməd Peyğəmbər (s) səhradan keçərkən çox ağır yüklənmiş bir dəvə gördü. Dəvənin yükü elə ağır idi ki, güclə hərəkət edirdi. Peyğəmbər dəvəni səhabələrə göstərib buyurdu: «Bu heyvanın sahibi onu incitdiyinə görə məhşərdə cavab verməli olacaq».

Qurani-kərimdə buyurulur ki, məhşərdə günahkar insan cəzadan can qurtarmaq nami-

nə öz oğlunu, arvadını, qardaşını, qəbiləsini və hətta bütün bəşəriyyəti qurban verməyə razı olar *(Məaric, 11-14)*. Lakin bu, mümkün deyil; çünki Allahın ədalət məhkəməsində heç kəs başqasının cəzasına görə cavab verməz və öz günahını da başqasının boynuna yıxa bilməz. Hər kəsin barəsində doğru-düzgün hökm çıxarılar. İslam Peyğəmbəri buyurub: «Qiyamət günü kafir şəxs Allahın hüzuruna gətirilərkən ondan soruşular: «Əgər indi bir dünya dolusu qızılın olsaydı, özünü xilas etmək üçün verərdinmi?» O, təsdiq edib: «Bəli, verərdim» – deyər. Bu zaman həmin kafir şəxsə belə deyilər: «Biz bundan da asan bir işi – İslam dinini qəbul etməyi səndən istəmişdik».

N.R.

MƏKRUH

Yerinə yetirilməsi arzu olunmayan əməllərə şamil edilən dini termindir. *Haramdan* fərqli olaraq, məkruh əməli edənə nə bu dünyada, nə də axirətdə heç bir cəza verilməz. Amma məkruhu tərk edən insana savab yazılar.

Hənəfi məzhəbinə görə, məkruh əməllər iki qismə bölünür:

Təhriman (harama yaxın) məkruh edilməsi qəti və inkaredilməz tərzdə qadağan olunan, amma bu qadağanın *vahid xəbər* kimi zənni bir dəlilə əsaslandığı əməllərə şamil olur. (Haramın hökmu isə Quranda və məşhur, yaxud mütəvatir sünnədə qəti şəkildə bildirilmiş olur). Məsələn, Həzrət Məhəmməd Peyğəmbər (s) buyurub: «Heç kim qardaşı icazə vermədikcə onun alış-veriş etdiyi ticarət sahəsinə girişməsin və qardaşının elçi düşdüyü qıza elçi düşməsin» *(Səhihül-Buxari, Nikah kitabı, 5142-ci hədis; Səhihü Müslim, Nikah kitabı, 3442, 3454, 3459, 3461 və 3464-cü hədislər)*. Bu hədisdə hər iki əməl qəti şəkildə qadağan edilib. Ancaq bu hədis vahid xəbər olduğu üçün, onun hökmü təhriman məkruh sayılır. Təhriman məkruh əməli yerinə yetirən şəxs Allah tərəfindən cəzaya layiq görülür, amma bunu inkar edən dindən çıxmaz.

Tənzihən (halala yaxın) məkruh elə əməllərə şamildir ki, onların icrası üzərinə qoyulmuş qadağa qəti və inkaredilməz deyil. Məsələn, Peyğəmbərin hədislərinin birində buyurulur: «Soğan və sarımsaq yeyən adam məscidimizə gəlməsin, evində otursun» *(bax: Səhihül-Buxari, Azan kitabı, 160-cı bab, 853-856-cı hədislər; Sünənü Əbu Davud, Ətimə kitabı, 40-cı bab, 3822-27-ci hədislər)*. Bu hədisdə ətrafdakıları narahat etməmək çağırışı ön plana çəkilib. Tənzihən məkruh əməli yerinə yetirmək cəzaya və ya məzəmmətə səbəb olmaz, amma bu, üstün əxlaqın ziddi sayılır.

Hənəfilikdə təhrimən məkruh sayılan əməllər digər əhli-sünnə məzhəbləri və şiə məzhəbi tərəfindən haram kateqoriyasına aid edilir. Bu məzhəblər haram olması sübuta yetməyən əməlləri növlərə ayırmadan məkruh sayırlar.

A.Q.

MƏQAM və HAL

Təsəvvüf terminləri sırasında mühüm yer tutan iki anlayış. Məqamlar və hallar haqq yolçusunun mənəvi kamillik yolunda marşrutu və mənzilləri sayılır.

«İrfani söz, termin və ifadələr lüğəti»ndə məqam haqqında yazılıb: «Ariflərin yanında hər kəsin məqamı müəyyən ədəb və ayinləri icra etdikdən, xüsusi hazırlığı keçdikdən və lazımi çətinliklərə dözdükdən sonra tutduğu yerdən ibarətdir. Bir məqamda durub onun əməllərini yerinə yetirən adam həmin məqamın əməllərini lazımınca başa vurub haqqını icra etməyincə, digər məqama keçə bilməz» (səh. 735).

Həmin kitabda hal barədə bu məlumat verilib: «Haqq yolçularının dilində hal – qəlbə ixtiyarsız, qəsdsiz və qazanılmadan daxil olan mənalardır» (səh. 307).

Məqamdan fərqli olaraq, hal tez ötüb-keçəndir və qəlbdə qərar tutub qalmaz. Halı söz vasitəsilə təsvir və əhatə etmək mümkün deyil. Fərəh, hüzn, şövq, heybət və s. bu kimi emosiyaları hallara aid etmişlər.

İzzəddin Mahmud Kaşani «Misbahül-hidayə» əsərində məqamla halın fərqini belə izah edir: «Hallar *(Allahdan)* hədiyyədir, məqamlar isə qazanılandır *(kəsb ediləndir)*. Hal və məqamlar barədə şeyxlərin fikir ayrılığının səbəbi bundadır ki, bəziləri bir şeyi hal, digərləri isə məqam saymışlar. Elə bütün

məqamlar əvvəldə hal, axırda məqam olur».

İrfan ədəbiyyatından bəlli olur ki, hal daimilik qazanarsa, sufinin xasiyyətinə çevrilər və ona məqam deyərlər. Məqam sahibi öz səy və çalışmalarına bağlı olar. Hal sahibi isə özündən fani olub, Allahın onda yaratdığı hala bağlanar və ondan asılı vəziyyətə düşər.

Sədi Şirazi «Gülüstan» əsərində maraqlı bir əhvalatın təsvirini verir. Kəramət sahibi kimi tanınan bir şeyx məscidə gəlir. Hovuz kənarında dəstəmaz alarkən ayağı sürüşüb hovuza yıxılır, çox böyük çətinliklə sudan kənara çıxır. Ardıcıllarından biri hadisəni görüb təəccüblənir və ondan soruşur: «Sən həmin adamsan ki, vaxtilə dənizin səthində gəzdiyini müşahidə etmişik. O vaxt heç ayaqların da islanmamışdı. Bəs indi nə oldu ki, az qalmışdı hovuzda boğulub həlak olasan?!» Şeyx uzun düşüncələrdən sonra ona belə cavab verir: «Məgər eşitməmisənmi, Həzrət Rəsulüllah buyurub: «Allahla mənim aramda elə anlar olur ki, nə bir mələk, nə də peyğəmbər bu məqama çata bilməz». Amma peyğəmbər buyurmayıb ki, belə hallar ona həmişə müyəssər olur və həmişə davam edir. Peyğəmbər bəzən mələklərlə ünsiyyətdə olur, bəzən isə həyat yoldaşları ilə vaxt keçirirdi».

Yenə Sədinin «Gülüstan»ında Həzrət Yəqub Peyğəmbərin (ə) hallarının təfavütü incə bir lətifə şəklində göstərilir. Həzrət Yəqubdan (ə) soruşurlar ki, Yusif (ə) öz köynəyini Misirdən sənə göndərəndə uzaqdan onun ətrini hiss etdin, köynək yolda ikən onun gətirilməsindən xəbərdar oldun. Bəs niyə Yusif (ə) qat-qat yaxında – quyuda olarkən ətrini duymadın və yerini bilmədin? Həzrət Yəqub (ə) suala belə cavab verir: «Bizim halımız şimşək kimi ani olaraq dəyişər, bir an görünüb tez itər. Mən bəzən ən yüksək nöqtəyə qalxıb ətrafı görürəm, bəzən isə heç ayağımın altını seçə bilmirəm».

Məqamlar

Sufi ədəbiyyatında yeddi məqamdan bəhs edilir:

1. ***Tövbə.*** Mənəvi yüksəliş yolundakı birinci məqamdır. Haqq yolçusu bu məqamda şəriətə zidd olan hər işdən tövbə etməli və bundan sonra bütün əməllərini bu əsasda quracağına söz verməlidir.

2. ***Vərə.*** Həzrət Məhəmməd Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edirlər: «Bir şəxsin yaxşı müsəlman olmağının meyarı, ona lazım olmayan hər şeydən əl üzməsidir». Buna vərə deyirlər. Məşhur sufi Şibli bu barədə belə deyib: «Vərə odur ki, Allahdan savayı hər şeydən çəkinəsən, uzaq olasan».

3. ***Zöhd.*** «Misbahül-hidayə» kitabında zöhd məqamı barədə belə yazılıb: «Zöhdün mənası dünya malından rəğbəti və istəyi kəsmək, dünya ləzzətlərindən qəlbi uzaqlaşdırmaqdır».

4. ***Fəqr.*** Sufilərin fikrincə, haqq yolçusu zöhd məqamından keçəndən sonra fəqr məqamına çata bilər. Çünki o, zöhd məqamında dünyadan rəğbətini kəsməlidir ki, fəqr məqamında dünya nemətlərini atıb kasıblıq içində ömür sürə bilsin.

5. ***Səbir.*** Haqq yolçusuna istər nemət verilsin, istərsə bəla – başa düşər ki, bunlar ilahi qəzavü qədərin nəticəsi, haqqın iradəsidir. Əgər sınaq üçün verilibsə – səbir edər, əgər məhəbbət və lütf məqsədilə verilibsə – şükr söyləyər. Ariflərin fikrincə, səbrin ən yüksək dərəcəsi odur ki, bəladan xilas olmağın intizarını da çəkməyəsən.

6. ***Təvəkkül.*** Hər şeyi Allah-təalanın öhdəsinə buraxmaq. Bu məqamda arif hər şeyi Allahın ixtiyarına buraxar və Allahın qəzavü qədərinə razı olar. Məşhur sufi Səhl Tüstəri təvəkkül barədə bu fikirdə idi: «Təvəkkülün əlaməti üçdür: heç nə istəməyəsən, baş verən işi geri qaytarmayasan, əlinə düşəni yığıb-saxlamayasan».

7. ***Riza.*** Allahın iradəsinə tabe olmaq və üz verən hər hadisədən razı qalmaq. Rizanın məqam yoxsa hal olduğu barədə sufilər fikir ayrılığına malikdirlər.

Hallar

Sufi ədəbiyyatında halların sayı, adı və təsnifatı müxtəlifdir. Ən məşhur halların sayı 10-dur ki, Əbu Nəsr Sirac Tusi onları «əl-Lümə» əsərində ardıcıllıqla təsvir edir.

1. ***Müraqəbə.*** Allahın hər an ondan və onun əməllərindən xəbərdar olması barədə bəndənin biliyi. Qurani-kərimdə buyurulur: «Allah hər şeyə nəzarət edəndir» *(Əhzab,*

52). «Xatırla ki, insanın sağında və solunda onun bütün əməllərini yazan iki mələk oturmuşdur. Dediyi hər sözü yazmaq üçün onun yanında hazır durub gözləyən iki mələk vardır» *(Qaf, 17-18).* Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Allaha, sanki Onu görürmüşsən kimi ibadət et. Əgər sən Onu görmürsənsə, O səni görür».

2. ***Qürb.*** Haqq yolçusunun özünü unudub Allaha yaxınlaşması, fəna dərəcəsinə çatıb hər şeyi unutmasıdır. Bu halda arif sanki özünü itirir, yalnız Allahı görür. Sufilər qürb halından danışarkən Qurani-kərimin bu ayəsinə tez-tez istinad edirlər: «Biz ona *(insana)* şah damarından da yaxınıq» *(Qaf, 16).*

3. ***Məhəbbət.*** Sufilərin fikrincə, bütün məqamların bünövrəsi və əsası tövbə olduğu kimi, bütün halların da bünövrəsi məhəbbətdir. Deyirlər ki, Allahın bəndəyə məhəbbəti rəhmətdən də üstündür və yalnız seçilmişlərin seçilmişlərinə şamil olar. Məhəbbət eşqin əvvəli və müqəddiməsidir. Məhəbbət kamilləşərək sonda eşqə çevrilir və eşq bəndənin Allaha münasibətinin ən kamil formasıdır.

4-5. ***Xovf və rəca.*** Bunlar barədə ayrıca məqalə şəklində məlumat verilmişdir.

6. ***Şövq.*** Sufilər şövqə belə tərif veriblər: «Şövq – sevgilinin *(Allahın)* görüşü üçün qəlbin yerindən oynamasıdır və məhəbbətin miqdarında olur».

7. ***Üns.*** Allahın cəmalının kamilliyini duymaqdan həqq yolçusunun aldığı batini ləzzətə deyilir. Bəzən üns halını heybətlə yanaşı təsvir edirlər. Heybət – Allahın sifətlərini müşahidə etməkdən və bunların əzəmətini anlamaqdan ibarətdir.

8. ***Arxayınlıq (itmiynan).*** Qurani-kərimdə buyurulur: «Qəlblər yalnız Allahı zikr etməklə aram tapar» *(Rəd, 28).*

9. ***Müşahidə.*** Qəlb gözü ilə haqqı görmək. Məqamları keçəndən və halları dərk edəndən sonra arif müşahidə dərəcəsinə yetişər. Müşahidə halında arifin vəziyyətini sufi ədəbiyyatında işraq, *cəzbə*, özündən getmək və *fəna* adlandırırlar. Sufi mənbələrində müşahidədən söz açılanda İmam Əlinin (ə) bir məşhur kəlamına tez-tez istinad edilir. Ondan: «Rəbbini gördünmü?» – deyə soruşduqda belə cavab vermişdi: «Görmədiyim Rəbbə ibadət etmərəm!».

10. ***Yəqin.*** Halların sonuncusu və ən üstünüdür. *Yəqin* – haqq tərəfindən qəlbə ötürülən elmdir. Yəqinin üç mərtəbəsi vardır: elmül-yəqin, eynül-yəqin və həqqül-yəqin. Elmül-yəqin bu dünyaya aid olan hökm və əmrlərlə bağlı elmlərdir, alimlərə məxsus, səy və çalışma ilə qazanılar. Eynül-yəqin bu dünyanın mahiyyətidir, ariflərə xasdır, ünsiyyətlə əldə edilər. Həqqül-yəqin isə behiştdəki kəşf və görüntüləri əhatə edir, Allah dostlarının fəna mənzilidir və müşahidə ilə əldə olunar.

N.R.

MƏQAMİ-MAHMUD

Ərəb dilindən tərcüməsi «bəyənilən, tərifl ənən məqam» deməkdir. *Məhşər* (qiyamət) günündə çətinlik içində olan insanlara *şəfaət* etmək üçün Allah-təala tərəfindən icazəyə layiq görüləcək Həzrət Mühəmməd Peyğəmbərin (s) uca məqamını bildirən ifadə. Buna «şəfaəti-kübra» da deyilir. Allah-təala bu barədə buyurur: «Ola bilsin ki, Rəbbin səni bəyənilib tərifl ənən bir məqama göndərsin» *(İsra, 79).* Həzrət Mühəmməd Peyğəmbər (s) məqami-mahmudun nə olduğu barədə suala belə cavab vermişdi: «Bu *(məqami-mahmud)* elə bir yerdir ki, mən orada ümmətimə şəfaət edəcəyəm».

R.M.

MƏKKİ və MƏDƏNİ AYƏLƏR

Həzrət Mühəmməd Peyğəmbər (s) 13 il Məkkədə, 10 il Mədinədə yaşamış, Qurani-kərim də bu 23 il ərzində mərhələlərlə nazil olmuşdur. Qurani-kərim Məkkə, Mədinə və sair şəhərlərdə (Peyğəmbər səfərlərdə olarkən) Peyğəmbərə vəhy edilmişdir. Alimlər Quranın ayə və surələrini, nazil olduqları məkan baxımından məkki və mədəni olmaqla iki qismə ayırırlar. Hicrətə kimi Məkkədə enmiş ayələr «məkki», hicrətdən sonra Mədinədə nazil olmuş ayələr isə «mədəni» adlandırılır. Peyğəmbər Məkkədə müşrik ərəblərin əhatəsində yaşadığı və İslamı onlara təbliğ etdiyi üçün, məkki ayələrin əsas mövzusu da etiqadi məsələlərdən ibarətdir (*tövhid, vəhy, nübüvvət, məad*, eləcə də, ən mühüm əxlaqi keyfiyyətlər). Peyğəmbər



«Allah» sözü yazılmış xəttatlıq nümunəsi
(*Allah* məqaləsinə)

«Bismillahir-Rəhmanir-Rəhim» ayəsi yazılmış xəttatlıq nümunəsi
(*bəsmələ* məqaləsinə)






Orta Asiyalı dərvişlər
(*dərviş* məqaləsinə)




Köşkül



Ehram geyinmiş hacılar
(*ehram* məqaləsinə)



Əsmaül-hüsna



Peyğəmbərin meracı. Miniatür
(*merac* məqaləsinə)



Misvak çubuğu



Mədrəsə



Minbər




Dünyada ən hündür minarəsi olan məscid –
Kral Həsən məscidi. Mərakeş
(*minarə* məqaləsinə)



Münəccimlər. Miniatür



Möhürlər



Rəhil



Qurani-kərim




Səccadə

Sima mərasimi



Şəbih mərasiminin iştirakçıları (qədim foto)






Təvaf




Təsbeh



Dünyada ən böyük günbəzi olan Şeyx Zaid məscidi. Əbu-Dəbi
(*günbəz* məqaləsinə)

Təzəpir məscidi. Bakı
(*pir* məqaləsinə)



Həzrət Abbasın zərihi. Kərbəla
(*zərih* məqaləsinə)



Mədinəyə hicrət etdikdən sonra şəhərdəki yəhudi və xristian icmaları ilə ünsiyyətdə olmuş, onların bir sıra suallarına cavab vermiş, İslam ümmətinin içinə soxulmuş münafiqlərlə mübarizə aparmışdır. Buna görə də, mədəni ayələrdə *əhli-kitabın* iddialarına verilən cavablar, *münafiqlərin* tənqidi, bir sıra şəriət hökmlərinin elanı və şərhi üstünlük təşkil edir.

M.İ.

MƏLAMİ

Allah-təalanın rizasını qazanmaq üçün çalışan, fərzləri yerinə yetirib haramlardan qaçan, şöhrətdən uzaq durmaq naminə *nafilə* və sünnə ibadətlərini gizli şəkildə icra edən insanlara məlami deyirlər. Öz nəfslərini qınadıqları üçün onlara bu ad verilib.

R.M.

MƏLƏK

Allahın yaratdığı şüurlu varlıq növlərindən birinin adıdır. Ərəb dilində «xəbər aparan» feilindən qaynaqlandığı bildirilir.

Allah-təala yaratdığı canlıların üç növünə şüur vermişdir: mələk, insan və *cin*. Bu üç canlı növü bir-birindən xəbərsiz halda və bir-birinə maneə törətmədən yaşayır. Allah-təala onların hər biri üçün fərqli bədən quruluşu, həyat şəraiti müəyyən etmişdir. Allah mələkləri nurdan, cinləri alovdan, insanları isə torpaqdan yaradıb. Bəzən onların biri digərinin gözünə görünür. Məsələn, insan bəzi istisna hallarda cini görə bilər. Həmçinin, insanlar içindən Allahın seçdiyi bəzi şəxslər – peyğəmbərlər mələyi görürlər. Amma belə hallar azlıq təşkil edir.

Həm mələklər, həm insanlar, həm də cinlər düşünə bilirlər. Amma mələklər insanlardan və cinlərdən fərqli olaraq, iradə azadlığına və seçki ixtiyarına malik deyillər. Onlar nurdan yarandıqları üçün, bütün fikirləri və əməlləri də xeyirdən ibarətdir. Mələklərin hamısı *məsumdur*. Mələklər günah işlədə bilməzlər. Çünki onlarda şəhvət, tamah, yalançılıq kimi pis duyğular yoxdur. Mələkləri yalnız ağıl və iman hissi idarə edir. İmam Əli ibn Əbu Talib (ə) mələkləri belə təsvir etmişdir: «Onlar imanın əsiridirlər *(yəni yalnız iman əsasında hərəkət edirlər)*, heç nə onları imandan döndərib başqa yola apara bilməz».

Həzrət Əlidən (ə) soruşdular ki, insan üstündür, yoxsa mələk? İmam buyurdu: «Allah mələklərə yalnız ağıl verib, şəhvət hissi verməyib. Heyvanlarda isə şəhvət var, ağıl yoxdur. Amma insana həm ağıl, həm də şəhvət verilib. İnsan öz şəhvətini ağlına tabe etsə, mələklərdən yüksəyə qalxar. Yox, əgər ağlını şəhvani istəklərə tabe etsə, heyvanlardan da alçaq səviyyəyə enər».

Mələkdə cismani ehtiyaclar olmadığı üçün o, günah etmir. Onun daxilində xeyir-şər mübarizəsi getmir. Lakin insan hər an nəfsani istəklərin çağırışı ilə qarşılaşır, yaxşı yoxsa pis yolu seçmək sualı qarşısında durur. Onun məsuliyyəti mələyə nisbətən daha ağır, imtahanı daha çətindir.

Quranda mələklərə iman bəsləmək müsəlmanlara ciddi sürətdə tapşırılır: «Allaha, Onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və axirət gününə inanmayan şəxs, şübhəsiz ki, *(doğru yoldan)* çox azmışdır» *(Nisa, 136)*. Mələklərin varlığını, əsas sifətlərini inkar etmək, onların barəsində təhqirli sözlər söyləmək böyük günahdır. Mələklərin adını deyəndən sonra onlara salam göndərmək (yəni «*əleyhissalam*» demək) savabdır.

Quran ayələrindən məlum olur ki, Allah-təala mələkləri insandan əvvəl yaratmışdır. Çünki Allah Həzrət Adəmi (ə) yaratmazdan qabaq bu barədə mələklərə məlumat vermişdi *(Bəqərə, 30)*.

Mələklərin hər biri Allahın müəyyən bir əmrini yerinə yetirmək vəzifəsini daşıyır. Onlar bu vəzifələrdən boyun qaçıra bilməzlər; çünki onlarda asilik və küfr hissi yoxdur. Mələklərin bir hissəsi səmada baş verən hadisələri nizamlamağa, bir hissəsi çətinliyə düşmüş insanlara kömək etməyə, bir hissəsi azğınları cəzalandırmağa və sairə işlərə vəzifəlidirlər. Bir qrup mələklər isə yalnız Allah-təalaya həmd və şükr etmək üçün yaradılmışlar və bu işi icra edirlər.

Mələklər nurdan yarandıqları üçün bədənləri zərifdir və bir formadan başqa formaya düşə bilirlər. Onlar Allahın izni ilə müxtəlif əşyaların, hətta insanın cildinə girə bilərlər. Amma it və donuz kimi murdar heyvanların şəklinə düşmək onlara qadağandır.

Mələklərin sayını yalnız Allah bilir. İmam Cəfər Sadiqdən (ə) soruşdular ki, mələklərin sayı çoxdur, yoxsa insanların? İmam belə cavab verdi: «Vallah, səmadakı mələklərin sayı yerdəki qum dənələrinin sayından daha çoxdur. Səmada elə bir yer yoxdur ki, orada mələk olmasın və Allaha dua etməsin. Yerdə də elə bir quru yer və su yoxdur ki, oranı idarə etmək bir mələyə tapşırılmasın. Allah hər gün bütün mələklərin işini yoxlayır və onların nə etdiklərini bilir».

Əlbəttə, mələklərin müəyyən işlərdə Allaha kömək etmələrini onların Allaha şərikliyi kimi qəbul etməməliyik. Allah-təala mütləq hakimdir, amma bəzi hadisələrin həyata keçməsini öz yaratdıqlarının öhdəsinə buraxır. Məsələn, Allah ruzi verəndir. Amma bəzən bir adamın ruzisi başqa bir adamın əli ilə verilir. Bu proseslərin hamısı Allahın icazəsi ilə və Onun nəzarəti altında baş verir. Mələklər də bu mənada yalnız Allahın əmrlərini Allahın verdiyi qüdrət sayəsində Allahın izni ilə yerinə yetirən vasitələrdir.

İmam Sadiqdən (ə) soruşdular ki, mələklər yeyib-içir və evlənirlərmi? İmam cavab verdi: «Xeyr, onların qidası ərşin *(səmanın)* küləkləridir». Soruşdular: «Bəs, mələklərin yatmasının səbəbi nədir?». İmam buyurdu: «Yatmamaq yalnız Allaha xas olan sifətdir. Quranda deyilir ki, Allah nə mürgüləyər, nə də yatar *(Bəqərə, 256)*. Yatmaq xüsusiyyəti Allahla mələklər arasındakı fərqlərdən biridir».

Mələklər də öz üstünlük dərəcələrinə və yerinə yetirdikləri vəzifələrin əhəmiyyətinə görə növlərə bölünürlər. Quranda mələklərin bir qrupu *«müqərrəbun»* (yəni Allaha yaxın olanlar) adlandırılır. Mələklərin dörd böyük mələk, katib (yazan) mələklər, sorğu mələkləri *(Münkər və Nəkir)* kimi dərəcələri də vardır.

N.R.

MƏLƏKƏ

İslam əxlaqına aid kitablarda nəfsə (yəni ruha) aid olan xüsusiyyətlərə deyilir. Ətrafda baş verən hadisələrin nəticəsində nəfsdə daim yeni vəziyyətlər və xüsusiyyətlər yaranır. Bunların bəziləri ötəridir, onları törədən səbəblər aradan qalxan kimi bu xüsusiyyətlər də yox olur və ya dəyişir. Məsələn, insan utananda üzü qızarır, məzəli hadisəni seyr edəndə gülür və s. Göründüyü kimi, bu xüsusiyyətlər yalnız müəyyən hallarda aşkara çıxır və cəmi bir neçə dəqiqədən sonra tamamilə yox olur. Belə xüsusiyyətlərə əxlaq elmində *hal* deyirlər. Əgər xüsusiyyətlər vaxtın ötməsi nəticəsində dəyişikliyə uğramırsa və nəfsə hopursa, bunları *adət*, xülq (xasiyyət) və ya mələkə adlandırırlar. Məsələn, igidlik, səxavət və s. Bir mələkə lazım olan və bəyənilən həddədirsə, ona *fəzilət* (üstünlük) deyirlər. Əgər həddindən az və ya həddindən çoxdursa, bunu *rəzalət* (eyib, əskikilik) kimi dəyərləndirirlər.

N.R.

MƏLƏKUT ALƏMİ

Hökmranlıq, qüdrət, əzəmət mənasında işlədilir, «mülk» kökündəndir. Sözün sonundakı «ut» şəkilçisi mübaliğə (böyütmə) əlamətidir, mülkiyyətin hüdudsuzluğunu və bütövlüyünü göstərir. Qurani-kərimdə «mələkut» kəlməsinə 4 dəfə rast gəlinir *(Ənam, 75; Əraf, 185; Möminun, 88; Ya-Sin, 83)*. Həmin ayələrdə «mələkut» sözü Allahın bütün varlıq aləmi üzərində qeydsiz-şərtsiz mülkiyyətini və hökmranlığını ifadə edir. «De: «Əgər bilirsinizsə *(deyin görək)*, hər şeyin hökmü *(mələkutu)* əlində olan, himayə edən, amma özünün himayəyə ehtiyacı olmayan kimdir?» *(Möminun, 88)*. «Hər şeyin hökmü *(mələkutu)* əlində olan *(Allah)* pakdır, müqəddəsdir» *(Ya-Sin, 83)*.

İslam fəlsəfəsində bütün varlıq aləmi iki qismə ayrılır: şühud aləmi və qeyb aləmi.

Şühud aləmi (əyani aləm) aşağı dərəcədə durur. İnsanlar da daxil olmaqla bütün maddi varlıqlar bu aləmdə mövcuddur. Bu aləm hissiyyat üzvləri vasitəsilə dərk olunur, zamana və məkana tabedir, fəsada (köhnəlib xarab olmağa) və sonda məhv olmağa məhkumdur. Şühud aləminin başqa adları *nasut* aləmi, mülk aləmi, hiss aləmidir.

Bunun tam əksi olan qeyb aləminin iki dərəcəsi var. Ən yüksək aləm olan *cəbərut* aləmi yalnız Allah-təalaya aiddir. Bu aləm hissiyyatla bilinməz, zamanın və məkanın fövqündədir, dəyişiklik və fanilik bu aləmə yol tapmaz. Cəbərut aləminə bəzən *lahut* aləmi də deyirlər. Bəzi alimlər isə lahut aləmini cəbərut aləmindən də yüksək bilmişlər. Lahut aləmində yalnız Allahın zatı var, isimləri, sifətləri belə, yoxdur. Amma cəbərut aləmində Allahın isimləri və sifətləri təzahür edir. Ağlın nüfuz dairəsi bu mərtəbədən başlayır, ondan yuxarını (lahut aləmini) ağıl dərk edə bilməz.

Cəbərut aləmindən aşağı, amma şühud aləmindən yuxarı dərəcədə duran, bu ikisinin arasında keçid və körpü rolunu oynayan aləmi «mələkut aləmi» adlandırırlar. Mələkut aləmi mələklərin və ruhların məkanıdır. Mələkut aləmi də maddiyyatla yox, mənəviyyatla bağlı olduğu üçün, cəbərut aləmi ilə oxşar xüsusiyyətlərə malikdir. Bu aləm və onun içində olanlar hissiyyatla duyulmur, məkana və zamana tabe deyil, burada heç nə məhv olmur, itmir. Allahın cismlərlə əlaqəli sifətləri (feli sifətlər) bu aləmdə zühur edir. Mələkut aləminə misal (obraz) aləmi də deyirlər.

Məşhur müsəlman filosofu Farabi bu üç aləmi əhədiyyət, əmr və xəlq aləmləri adlandırırdı. Əmr aləmində yer tutan mələklər əhədiyyət aləmindən (Allahdan) aldıqları vəhyi xəlq aləminə (peyğəmbərlərə) ötürürlər.

Aləmlərin təsnifatı barədə Mühyiddin İbn Ərəbi, Molla Sədra və başqaları mühüm nəzəriyyələr irəli sürmüşlər. Lakin bunlar çox mürəkkəb və ətraflı şərhə ehtiyacı olan məsələlərdir.

N.R.

MƏLƏKÜL-MÖVT

Ərəb dilindən tərcüməsi «ölüm mələyi» deməkdir. Allahın əmri ilə əcəli çatmış insanların canını alan mələyin ləqəbidir. Qurani-kərimdə buyurulur: «De: «Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaqdır» *(Səcdə, 11)*. İudaizmdə ölüm mələyinin adı Əzraildir. Bu sözün ibrani dilində Aşriel (Allahın yardım etdiyi) adından götürüldüyü ehtimal edilir. Qurani-kərimdə insanların canını alan mələyin adı çəkilmir, yalnız «ölüm mələyi» ifadəsi işlədilir. Səhih hədislərdə də Əzrail adına rast gəlinmir.

Bəzi ayələrdən məlum olur ki, insanların canını almaqda ölüm mələyinə kömək edən başqa mələklər də vardır: «Nəhayət, birinizin əcəli gəlib çatdıqda onun canını elçilərimiz alar» *(Ənam, 61)*. «Nəhayət, elçilərimiz canlarını almaq üçün yanlarına gəldikdə: «Allahdan başqa ibadət etdiyiniz bütləriniz haradadır?» – deyincə, «Onlar bizi qoyub qaçdılar» – deyə, cavab verəcək və öz əleyhlərinə, kafir olduqlarına şahidlik edəcəklər» *(Əraf, 37)*. Bu ayələrdə cəm halda «rüsülüna» (elçilərimiz) sözü işlədilib ki, bu da ölüm mələklərinin sayının çox olduğuna işarədir.

Quran ayələrindən və hədislərdən məlum olur ki, ölüm mələyi mömin şəxslə kafirin canını fərqli şəkillərdə alır. Kafirlər ölüm mələyini dəhşətli qiyafədə görür və qorxu içində, əziyyətlə canlarını təslim edirlər: «Kaş sən kafirləri mələklər onların üzünə və yanlarına vura-vura: «Dadın atəşin əzabını!» – deyib, canlarını alanda görəydin!» *(Ənfal, 50)*. Möminlərin gözünə isə ölüm mələyi xoş və yaraşıqlı simada görünür və onların canını rahatlıqla alır: «O kəslər ki, mələklər onların canlarını pak olduqları halda alıb: «Sizə salam olsun! Etdiyiniz *(gözəl)* əməllərə görə cənnətə daxil olun!» – deyərlər» *(Nəhl, 32)*.

N.R.

MƏNDUB

Ərəb dilindən tərcümədə «bəyənilən, istənilən» mənalarını verir. Əhli-sünnə məzhəbinə görə, zərurət ardıcıllığı baxımından fərzdən və vacibdən daha aşağıda duran, sünnətə bərabər tutulan yaxud ondan da aşağı zərurət dərəcəsinə malik olan əməllərdir. Elə əməllərə məndub deyilir ki, onların yerinə yetirilməsi İslamda bəyənilir, Allah tərəfindən mükafatlandırılır, amma kim bu əməlləri etməsə, ona nə şəriətdə cəza düşür, nə də Allahın hüzurunda günah qazanır. Göründüyü kimi, bu, cəfəri məzhəbindəki *müstəhəb* anlayışına uyğundur.

Şafii məzhəbində məndub – sünnətə və müstəhəbə bərabərdir. Bunları eyni və kifayi olmaq üzrə iki qismə ayırırlar (bax: *sünnət*).

Hənbəlilər də sünnət, müstəhəb və məndubun hökmünü eyni bilirlər. Amma sünnəti müəkkəd (təkid edilən) və qeyri-müəkkəd (təkid edilməyən) olmaq üzrə iki növə ayırırlar.

Maliki məzhəbində məndub – sünnətə nisbətən daha aşağı zərurət dərəcəsində durur. Yəni sünnətin icra edilməsi daha çox təkid olunur (amma vacib bilinmir). Məndub isə daha az təkid edilmiş bəyənilən əməldir.

Hənəfi fiqhində məndub – qeyri-müəkkəd (təkid edilməmiş) sünnətlə eynidir və müəkkəd (təkid edilmiş) snnətdən daha aşağıda durur. Əgər müəkkəd sünnəti yerinə yetirməyən şəxsin qiyamətdə şəfaətdən məhrum qala biləcəyini ehtimal edirlərsə, məndubu tərk edən şəxsə bunu aid bilmirlər. Beləliklə, bütün əhli-sünnə məzhəblərində bu fikir vurgulanır ki, insan məndub əməli tərk edərsə, günah qazanmaz, amma məndubu yerinə yetirsə, savab əldə edər.

N.R.

MƏNİ

Yetkinlik yaşına çatdıqdan sonra daxili cinsiyyət üzvlərində yaranan, cinsi əlaqə zamanı və şəhvəti oyadan başqa hallarda cinsiyyət üzvündən çıxan maye, sperma.

Əhli-sünnə məzhəbinə görə, məni şəhvət və ehtirasla çıxarsa, insan *cünüb* olur. Soyuqdəymə, daxili orqanların funksiyalarının pozulması, hündürlükdən yıxılma, zərbə kimi səbəblər üzündən məni bədəndən çıxarsa, hənəfi məzhəbinə görə, insan cünub sayılmaz. Amma şafiilər bu halda da *cənabət* qüslü almağı lazım bilirlər. Hənbəli məzhəbinə görə, yuxarıdakı üzürlü səbəblər üzündən bədəndən məninin çıxması insanı cünüb etməz. Amma əgər insan şəhvət halında öz daxilində məninin hərəkətə gəldiyini hiss etsə, məni cinsiyyət üzvündən kənara tökülməsə belə, insan cünüb sayılar. Hənəfilər isə bu fikri müdafiə edirlər ki, əgər məni şəhvət halında insanın daxilində hərəkətə gəlsə, amma kənara çıxmasa, bu halda qüsl gərəkməz. Amma əgər məni daxildə hərəkətə gəlsə, şəhvət hissi keçdikdən sonra ləzzət duyulmadan belə kənara tökülsə, bu halda insan cünüb sayılar və qüsl alması lazım gələr. Maliki məzhəbində isə məni cinsi əlaqə zamanı tökülməzsə, amma cinsi əlaqə qurtardıqdan, şəhvət hissi ötüb-keçdikdən və cinsi əlaqəyə görə qüsl alındıqdan sonra kənara tökülərsə, bu halda yenidən qüsl almağa ehtiyac yoxdur. Amma cinsi əlaqə olmadan, şəhvət duyğusu ilə hərəkətə gəlsə, şəhvət anında cinsiyyət üzvündən kənara tökülməsə, şəhvət hissi ötüb-keçdikdən sonra tökülsə, bu halda qüsl almaq lazımdır.

Cəfəri məzhəbinə görə, cinsiyyət üzvündən gələn maye 3 şərt daxilində məni sayılır: şəhvətlə gəlməlidir, ardıcıl yox, atıcılıqla (hissə-hissə, döyüntü ilə) çıxmalıdır, çıxdıqdan sonra bədən süstləşməlidir. Bu şərtlərin hər hansı biri həyata keçməzsə, o maye məni sayılmaz. Amma xəstə insanın mənisinin şəhvətlə çıxması cənabətə səbəb olar (atıcılıqla gəlməsi və sonra bədənin süstləşməsi şərt deyil). Şəhvət halında qadından da məni gəlir, lakin qadının mənisi bədəndən kənara çıxmır, hissiyyatla duyulur. Cəfəri fiqhinə görə, qadından gələn mayenin məni sayılması üçün nəzərdə tutulan şərt xəstə adamın vəziyyəti ilə eynidir.

Məni bütün İslam məzhəblərinin şəriətində nəcis (murdar) sayılır.

N.R.

MƏNQƏBƏ

Mənəvi və əxlaqi cəhətdən kamil səviyyədə olan insanların davranışı və həyat tərzi haqqında hekayələr. Mənqəbələr peyğəmbərlərin, səhabələrin, övliyaların və alimlərin həyatından bəhs edən yazılı və şifahi xəbərlərdir.

R.M.

MƏNN və SƏLVA

Qurani-kərimdə Həzrət Musa Peyğəmbərlə (ə) bağlı bir hadisədə adı çəkilən yemək növüdür. «Bəqərə» surəsinin 57-ci, «Əraf» surəsinin 160-cı və «Ta-Ha» surəsinin 80-ci ayələrində adı çəkilir. Rəvayətə görə, Həzrət Musa (ə) Bəni-İsraili Misirdən çıxarıb, ata-baba torpaqlarına (Fələstinə) gətirəndə, yolda onları aclıq bürüdü. Bu zaman Allah-təalanın əmri ilə axşam çağı səhrada bildirçinə bənzər saysız-hesabsız xırda quş göründü. Quranda «səlva» adlandırılan bu quşlar Afrikadan uçub-gəlirdilər. Səlva quşları yer səthinin üzəri ilə yavaş uçurdular, ona görə də onları tutmaq asan idi. Bəni-İsrail camaatı səlva quşlarını tutub bişirdilər və yedilər. Bundan sonrakı bir neçə gün ərzində isə hər səhər səhraya şeh düşməyə başladı; şeh çəkiləndən sonra yerdə narın una bənzər şirin maddə qalırdı. «Mənn» adlanan bu qida ballı çörək dadını verirdi. Bəzi tədqiqatçılar bunun hal-hazırda «manna» (uşaqlar üçün bişirilən sıyıq) dənələri kimi tanınan qidadan, bəziləri isə ovulmuş koriandr ağacı kökündən ibarət olduğunu söyləyirlər. Musa Peyğəmbər (ə) Bəni-İsrailə tapşırmışdı ki, hər gün yalnız o gün üçün lazım olan qədər mənn toplasınlar, artıq qida yığmasınlar. Amma Bəni-İsrail camaatının çoxu acgözlük üzündən bir neçə günlük mənn ehtiyatı topladı. Ertəsi gün məlum oldu ki, artıq yığılan mənni qurd basıb. Bundan sonra hər kəs yalnız bir günlük qida yığmağa başladı.

Həzrət Musa (ə) yenə camaata elan etdi ki, yalnız cümə günləri iki günlük mənn ehtiyatı yığsınlar. Çünki şənbə günü yəhudilərdə müqəddəs sayılır və həmin gün heç bir iş görmək, hətta yemək dalınca getmək də olmaz. Bəni-İsrail camaatı bu dəfə də tapşırığa məhəl qoymadı. Cümə günü adamların əksəriyyəti yenə bir günlük mənn yığdı. Amma şənbə günü səhrada mənn tapmaq mümkün olmadı; Allah həmin gün möcüzəli yeməyi onlara göndərmədi.

N.R.

MƏNASİK

İbadətgah, ibadət yolu, üsulu, qurban kəsilən yer, bir şəxsin öyrəşdiyi yer mənalarını bildirən «mənsək» kəlməsinin cəmidir. Dini termin kimi geniş mənada ibadəti, Allaha yaxınlaşmaq üçün edilən hər cür itaəti, daha dar mənada isə həcc ibadəti əsnasında yerinə yetirilməli olan əməlləri ifadə edir. Eyni kökdən törəyən «nüsük» kəlməsi də bunun sinonimidir. Həcc mənasikinə «məşair» də deyirlər. Qurani-kərimin aşağıdakı ayəsində «nüsük» sözü ibadət mənasında işlədilib: «De: «Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür» *(Ənam, 162)*. Aşağıdakı ayədə isə «mənasik» kəlməsi Həzrət İbrahim və İsmail Peyğəmbərlərin (ə) dilindən həcc əməllərini bildirir: «Ey Rəbbimiz! Bizim hər ikimizi Sənə itaətkar, nəslimizdən yetişənləri Sənə təslim olan ümmət et, bizə *(həcc)* əməllərimizi göstər, tövbəmizi qəbul et!» *(Bəqərə, 128)*. Həzrət Mühəmməd Peyğəmbər (s): «Həccin mənasikini məndən öyrənin, mənim etdiklərimi edin!» – buyurmuşdur *(Səhihü Müslim, Həcc kitabı, 310 (3137)-ci hədis)*. Təvaf, səy, Ərəfat və Müzdəlifənin vəqfəsi, rəmyi-cəmərat və qurban kəsmək həccin mənasikidir. Quranda «nüsük» sözü qurbanlıq *(Bəqərə, 196)*, «mənsək» sözü qurbangah *(Həcc, 34)* mənasında işlədilib.

A.Q.

MƏRCEYİ-TƏQLİD

Tərcüməsi «təqlid üçün müraciət edilən şəxs» deməkdir. Cəfəri məzhəbinə görə, özü ictihad səviyyəsinə çatmamış şəxs ən savadlı və ən ədalətli bir müctəhidə təqlid etməlidir; yəni şəriət hökmlərini onun fətvaları əsasında yerinə yetirməlidir. XII imam Həzrət Mehdinin (ə) belə buyurduğu rəvayət edilir: «Fəqihlərdən *(fiqh alimlərindən)* hər hansı biri özünə qarşı diqqətli davransa, dinini qorusa, nəfsani istəklərini boğsa, ağasının *(yəni zəmanənin imamının)* əmrinə tabe olsa, sıravi insanlar gərək ona təqlid etsinlər».

Eyni bir zəmanədə on minlərlə *müctəhid* yaşaya bilər, amma onlardan yalnız bir neçəsinə *təqld* olunur. Çünki mərceyi-təqlid öz müasiri olan müctəhidlərlə müqayisədə daha dərin elmi və əxlaqi səviyyəyə malik olmalıdır. Mərceyi-təqlidliyə namizədlik adətən, yüksək səviyyəli müctəhidlərin yazılı və ya şifahi razılığı əsasında irəli sürülür. Onlar öz zəmanələrində yaşayan ən elmli və ən təqvalı müctəhidin mərceyi-təqlidliyə layiq olması barədə fətva verir və müsəlmanları ona təqlid etməyə dəvət edirlər. Bəzən də müəyyən bölgədə bir müctəhid şöhrət qazanır və o bölgənin camaatı müəyyən səbəblər üzündən (müctəhidin həmin bölgəyə mənsub olması, yaxud siyasi bir səbəb də burada rol oynaya bilər) ona təqlid etməyə başlayırlar. Tədricən başqa bölgələrin əhalisi arasında da həmin müctəhidin təqlidi yayılır və beləliklə, o, mərceyi-təqlidə çevrilir. Mərceyi-təqlidin, ona təqlid edən bölgələrdə nümayəndəlikləri olur ki, bunlar camaatın dini suallarına cavab verir, məişət zəminində yaranmış problemləri mərceyi-təqlidin fətvası əsasında həll edir, *xüms* və *zəkat* pullarını toplayırlar.

N.R.

MƏRİFƏT

Ərəb dilində bilik, tanışlıq mənasını verir. Bəzi sufilər *seyrü-süluk* yolunda *şəriət*, *təriqət* və *həqiqətdən* sonra «mərifət» adlı dördüncü mərhələnin olduğunu söyləmişlər. Bunlar ardıcıl olaraq bir-birinə keçid xarakteri daşıyır. Sufi bu mərhələləri bir-bir keçməli, hər mərhələni kamil şəkildə yaşamalıdır. Şəriət – gündəlik həyatda tətbiq edilən İslamdır. Təriqət – *təqva* üzərində yaşanan həyat tərzidir. Həqiqət – təqvadan və *vərədən* hasil olan nəticədir. Mərifət isə bu qaydalar əsasında yaşanan həyatın insan ruhunda yaratdığı bilik məzmunlu nəticədir. Şəriət – bədən üçün, təriqət – qəlb üçün, həqiqət – ruh üçün, mərifət isə Allah üçündür. Mərifətin sirr olduğunu iddia edənlər də var. Elm və mərifət ilk baxışdan eyni görünsələr də, aralarında incə fərq var. Elmin ziddi cəhalət, mərifətin ziddi isə inkardır. Elm kəsbi (qazanılan), mərifət isə vəhbidir (ilahidən veriləndir).

R.M.

MƏRSİYƏ

Vəfat etmiş şəxsin matəmində deyilən şeir. Mərsiyədə adətən, mərhumun gözəl xasiyyətləri və üstünlükləri sadalanır, onu itirməyin ağrı-acısı təsvir edilir. İslamdan çox-çox əvvəlki sivilizasiyalarda (Hindistan, Misir, Yunanıstan) hökmdarların, dövlət xadimlərinin, şair və ədiblərin, eləcə də, döyüşdə həlak olanların xatirəsinə şeir demək ənənəsi geniş yayılmışdı. Mərsiyə şifahi xalq ədəbiyyatının da bir qolunu təşkil edir.

Müsəlman Şərqinin ən böyük şairləri gözəl mərsiyə nümunələri yaratmışlar. Rudəki, Firdovsi, Xaqani, Nizami, Qətran Təbrizi, Sədi, Hafiz kimi məşhur söz ustaları müasiri olduqları hökmdarların, sənət adamlarının, ailə üzvlərinin vəfatı münasibətilə çox təsirli mərsiyələr yazmışlar.

Mərsiyə nümunələrinin böyük hissəsi *Kərbəla* faciəsinin təsvirinə həsr edilib. Hələ İslamın ilk əsrlərində Kümeyt Əsədi, Dibəl Xüzai, Seyid İsmail Himyəri kimi adlı-sanlı ərəb şairləri İmam Hüseynin (ə) və tərəfdarlarının şəhadətini ən parlaq boyalarla nəzmə çəkmiş, buna görə şiə imamları tərəfindən təqdir olunmuşdular. Sonrakı əsrlərdə İran, İraq, Azərbaycan şairləri bu ənənəni davam etdirib, irili-xırdalı mərsiyə nümunələri yaratdılar. Azərbaycandilli ədəbiyyatda Molla Hüseyn Dəxilin mərsiyələri xüsusilə məşhurdur.

Mərsiyə, adətən, qəsidə və ya məsnəvi formasında yazılır, beytlərdən ibarət olur. *Təziyə* məclislərində, *şəbih* tamaşalarında avazla oxunan mərsiyələrdən geniş istifadə edilir.

N.R.

MƏSALİHİ-MÜRSƏLƏ

Məsalihi-mürsələ elə tədbirlərdir ki, onların əsasında hökm vermək insanlara fayda yetirir və ya onlardan zərəri dəf edir; lakin bunların mötəbər olub-olmamasına dair hər hansı dəlil yoxdur. Məsalihi-mürsələ yalnız o zaman əhəmiyyət kəsb edir ki, hər hansı məsələdə Allah-təala hökmü açıqlamayıb, *qiyas* yaxud *icma* ilə də hökmü sübut etmək mümkün deyil. Məsalihi-mürsələdə elə bir münasib xüsusiyyət olmalıdır ki, hər hansı şəriət hökmünün səbəbi kimi çıxış etsin və hökm ona tətbiq edilə bilsin.

Məsalihi-mürsələni dəlil kimi qəbul edənlər aşağıdakı şərtləri irəli sürmüşlər: 1. Məsləhət şəriətə görə etibarsız hesab olunmamalıdır. Əks təqdirdə məsləhət qüvvəsini itirər. Məsələn, hücum edən düşmənə qarşı müharibə etməyib ona təslim olmaq faydalı görünsə belə, bu məsləhətə etibar olunmaz. Çünki təslim olmaqla insan ölümdən qurtulsa da, mal-mülkünün tələf olmasının qarşısı alınsa da, bu kimi faydalar şəriətdə məqbul hesab edilmir. 2. Məsləhətin fayda verəcəyinə əmin olmaq şərtdir. Odur ki, hər bir hadisə haqqında məsləhətə əsasən hökm verərkən, bu hökmün real bir fayda gətirəcəyinə və ya bir zərəri ortadan qaldıracağına əmin olmaq lazımdır. 3. Məsləhət ümumi olmalıdır. Əgər məsləhət xüsusi olarsa, ona əsasən hökm verilə bilməz. Odur ki, müəyyən insana və ya təbəqəyə yönəlmiş məsləhət düzgün sayılmır. Məsləhət insanların əksəriyyətini əhatə etməlidir. 4. Məsləhət mahiyyət baxımından məqbul olmalıdır. Yəni sağlam məntiqə malik olan insanlar tərəfindən qəbul edilməlidir.

A.Q.

MƏSCİD

Ərəb dilində «səcdə olunan yer» mənasını verir. Müsəlmanların ibadət etdikləri yerə deyilir. Məkkədə müsəlmanların gizli şəkildə ibadət etdikləri bəzi səhabə evləri İslam tarixində ilk məscidlər sayılır. Öz evini ilk dəfə məscid edən şəxs *Əmmar ibn Yasirdir*. Həmçinin, *Əbu Bəkrin* də evində məscid olduğu məlumdur. Həzrət Mühəmməd Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra əvvəlcə Mədinə yaxınlığındakı *Qüba* kəndində məscid inşa etdirmiş və orada *cümə namazı* qıldırmışdır. Mədinəyə daxil olduqdan sonra Onun başçılığı ilə *Məscidün-Nəbi* (Peyğəmbər məscidi) tikildi.

A.Q.

MƏSİH

Ərəb dilindən tərcümədə «silmək, su və ya yağ sürtmək, yeri ölçmək, səyahət etmək, vurmaq» kimi mənaları verir. Fiqh termini kimi *dəstəmazda* bəzi bədən üzvlərinin, *məstin* və ya sarğının *(cəbirə)* üzərinə yaş əlin çəkilməsi, eləcə də, *təyəmmümdə* ovucları torpağa vurandan sonra qollara və sifətə sürtülməsi məsh adlanır.

Əhli-sünnə məzhəbinə görə, dəstəmaz alarkən başı məsh etmək *fərz*, qulaqları məsh etmək *sünnətdir*. Məstin üzərinə məsh etmək ayaqları yumağı əvəz edir. Sarğının üzərinə məsh etmək, yara yaxud xəstəlik üzündən yuyulması mümkün olmayan bədən üzvünün üzərinə məsh çəkmək həmin bədən üzvünü yumağı əvəz edir.

A.Q.

MƏSİHİ

«Məsihə inanan, Məsihin ardıcılı» deməkdir. İslam mənbələrində xristianlara verilən addır. Xristianlar Həzrət İsa Peyğəmbərin (ə) ümməti sayıldıqları üçün, müsəlmanlar onlara «məsihi» adını vermişdilər.

bax: *məsih.*

N.R.

MƏSİYƏT

Asi olmaq, üsyan etmək, dinin əmrlərinə qarşı çıxmaq. Allahın və Peyğəmbərin qoyduğu əmr və qadağanlara riayət etməmək onlara asi olmaq kimi qiymətləndirilir. «Günah» sözünün sinonimi kimi işlədilir.

R.M.

MƏST

Ayaqları topuqlarla birlikdə örtən dəri və ya keçə ayaqqabı. Əhli-sünnə məzhəbinə görə, dəstəmaz alarkən ayaqları yumaq əvəzinə məstlərin üzərinə *məsh* etmək bəzi şərtlər daxilində caizdir:

1. Məst ayaqları yumaqla dəstəmaz aldıqdan sonra geyilmiş olmalıdır.
2. Dəstəmaz *cənabət*, *heyz* və ya *nifasdan* fərqli bir səbəb üzündən pozulmuş olmalıdır.
3. Məst topuqları örtməlidir.
4. Məstin üzərinə məsh edilməlidir, altına məsh etmək olmaz.
5. Məstin üzərinə ən azı 3 əl barmağı miqdarında məsh edilməlidir.
6. Məst ən azı bir *fərsəx*, yəni 12 min addım məsafə gedəcək qədər dözümlü olmalıdır.
7. Məst bağla (iplə) bağlanmamaq şərti ilə ayağa geyilməli və qalın olmalıdır.
8. Məstin bir tayında ayaq barmaqlarının ən kiçiklərindən üçünün girəcəyi qədər deşik olmamalıdır.
9. Məst suyu ayağa keçirməməlidir.
10. Məst ayağın dərisini göstərəcək dərəcədə şəffaf olmamalıdır.

Dəstəmazlı olaraq ayağına məst geyən şəxs məst geydikdən sonra ilk dəfə dəstəmazının pozulmasından etibarən vətəndə bir gün, səfərdə isə üç gün ərzində məstin üzərinə məsh edə bilər. Məstlərin hər iki tayı və ya bir tayı ayağından çıxarsa, əgər dəstəmazlıdırsa, ayaqlarını yuyaraq təkrarən məstləri geyməlidir. Dəstəmazsız çıxardıqda isə ayaqlarını yumaq şərti ilə dəstəmaz aldıqdan sonra geyinməlidir. Üzr müddəti tamam olduqdan sonra əgər dəstəmazı pozulmamışsa, məstləri çıxarıb ayaqlarını yuması kifayətdir. Dəstəmazı pozulmuşsa, ayaqlarını yumaq şərti ilə dəstəmaz almalıdır.

A.Q.

MƏSUM

Ərəb dilində *«ismət»* sözündən qaynaqlanır, tərcüməsi «uzaqlaşdırılmış, qorunmuş, çəkindirilmiş» deməkdir. Adətən, günahsız, saf insanları, o cümlədən, uşaqları məsum adlan-

dırırlar. Dini anlamda isə yalnız peyğəmbərlər (şiə məzhəbində həm də imamlar) məsum sayılırlar.

Allah-təala Qurani-kərimdə Həzrət Mühəmməd Peyğəmbərə (s) xitab edərək buyurur: «Şübhəsiz ki, sən böyük *(gözəl)* bir əxlaq sahibisən» *(Qələm, 4)*. Məsumluq peyğəmbərdə olması gərəkən zəruri keyfiyyətlərdəndir. Peyğəmbər hər cür böyük və kiçik günahdan uzaq olmalı, istər ibadət əməllərində, istər fərdi əxlaqda, istərsə də ictimai həyatda səhlənkarlıq, ziyanvericilik, riyakarlıq etməməli, yalan söz danışmamalıdır.

Nəsirəddin Tusi (1201-1274) «Təcridül-etiqad» kitabında yazır: «Peyğəmbərdə ismət xüsusiyyətinin olması vacibdir ki, bunun vasitəsilə camaat içində etibar qazansın. Əgər peyğəmbərin hərəkətlərində qərəzli məqsəd duyulsa, həm *(peyğəmbər olduğu üçün)* ona tabe olmaq, həm də *(pis xüsusiyyətlərinə görə)* onun əleyhinə çıxmaq vacib olar; bu isə son mənada onun peyğəmbərliyini inkar etmək deməkdir».

Əgər Allah günahkar bir insanı peyğəmbərliyə seçsəydi, insanlar onun dediklərini qəbul etməzdilər. Allah insanların içindən ən kamil əxlaqa malik olan və nümunəvi davranışı ilə seçilən şəxsləri öz vəhyinə layiq görüb. Hər bir peyğəmbərin tarixinə nəzər yetirsək, görərik ki, o, hələ peyğəmbərliyə təyin olunmazdan əvvəl öz qəbiləsi içində hörmət-izzətli olmuşdur. Məsələn, Həzrət Mühəmməd Peyğəmbər (s) gənclik illərindən Məkkənin ən doğrucul və etibarlı sakini sayılırdı. Hər kəsin saxlamağa əmanəti olurdusa, ona tapşırırdı. Mühəmmədi (s) peyğəmbərlikdən çox-çox əvvəl «Əmin» (yəni əmanətdar, inanılmış) ləqəbi ilə çağırırdılar.

Müsəlmanların əqidəsincə, peyğəmbərlərin heç biri ömrü boyu bircə gün də olsa bütpərəstlik etməyib. Peyğəmbərlərin günahsızlığı yalnız dini təbliğat sahəsi ilə məhdudlaşmır. Allahın elçiləri peyğəmbərlik işində, ailə həyatında, siyasi fəaliyyətdə, hakimlik və qanunvericilikdə, ətrafdakılarla münasibətdə və s. sahələrdə eyni dərəcədə məsum olublar. Onlar bir kəsə zülm etməyib, bir kəsin haqqında səhv hökm verməyib, şəriətin heç bir qanununu unutmayıblar.

Buna da diqqət yetirmək lazımdır ki, peyğəmbərləri günahsız olmağa Allah məcbur etməyib. Əgər belə olsaydı, bu xüsusiyyət onlar üçün üstünlük sayılmazdı. Peyğəmbərlər öz istəkləri əsasında məsumdurlar. Normal insan zəhər içməkdən, yoluxucu xəstənin qabağından qalan qidanı yeməkdən çəkindiyi kimi, peyğəmbərlər də günah etməkdən çəkinirlər. Çünki onların gözündə günah iş görmək, zülm törətmək zəhər içməkdən də pisdir.

Məsumluğa münasibət sünni və şiə məzhəblərində bir qədər fərqlidir. Belə ki, əhli-sünnə məzhəbinə görə, peyğəmbərlərin peyğəmbər seçilməzdən əvvəl məsum olmaları vacib şərt deyil. Sünni məzhəbli müsəlmanların böyük əksəriyyətinin mənsub olduğu *matüridiyyə* əqidə məktəbinə görə, peyğəmbərlikdən əvvəl nadir hallarda günahın baş verməsi mümkün sayılır *(Sabuni. Matüridiyyə əqaidi, səh. 54)*. Həmçinin, peyğəmbərlik dövründə də unutqanlıq və bilməməzlik üzündən «zəllə» adlanan kiçik xəta etmələri mümkündür. Allah-təala onların bu xətalarını dərhal düzəldib.

Şiə əqidəsinə görə isə, peyğəmbərlər mütləq mənada məsumdurlar. Onlar nə qəsdən, nə də bilməyərəkdən nə böyük, nə də kiçik günah etməzlər, haram və məkrüh iş tutmazlar, yalnız vacib və müstəhəb əməllər edərlər.

Sünni məzhəbi baxımından peyğəmbərin dünya həyatına aid məsələlərdə səhvə və unutqanlığa yol verməsi mümkündür. Hətta əvvəllər doğru-dürüst qaydasını öyrətmiş olduğu bəzi dini məsələlərdə də (məsələn, namaz əməllərində) səhv və unutqanlıq edə bilər. Amma şiə əqidəsində bunlar qeyri-mümkün sayılır. Çünki bu xüsusiyyətlər insan üçün eyib və nöqsan hesab edilir. Əgər peyğəmbər səhv etsə və səhvinin üstü sadə adamlar tərəfindən açılsa, onlar özlərinin Allahdan daha elmli olduqlarını düşünərlər. Çünki peyğəmbər həmişə yalnız Allahdan aldığı vəhy əsasında hərəkət etdiyini söyləyir. Buna görə də Allah öz peyğəmbərini səhv etməyə qoymur. Bu, məcburən baş vermir; Allah peyğəmbərə elə parlaq zəka bəxş edir ki, o, hər bir hərəkətinin aqibətini irəlicədən görür və uzaqgörənliklə tərpənib

səhvdən qaça bilir.

Şiə əqidəsi baxımından, 12 imam və Həzrət Fatimə (ə) də qeydsiz-şərtsiz olaraq məsumdurlar. Onların məsumluğu da eynilə peyğəmbərlərin məsumluğu kimidir. Şiələr aşağıdakı ayəni buna sübut gətirirlər: «Ey Əhli-beyt! Allah sizdən çirkinliyi *(günahı)* yox etmək və sizi tərtəmiz *(pak)* etmək istər» *(Əhzab, 33)*.

bax: *tərki-övla, Əhli-beyt.*

N.R.

MƏZHƏB

Ərəb dilindən tərcüməsi «gedilən yol» deməkdir. Bu söz Qurani-kərimin mətnində yoxdur. Dini terminologiyada məzhəbin görüş, fikir, qənaət, etiqad, doktrina kimi mənaları vardır.

İslami ədəbiyyatda məzhəblər iki qrupa bölünür: etiqadi məzhəblər və fiqhi (əməli) məzhəblər.

Etiqadi məzhəblərə *matüridilik, əşərilik, mötəzilə, şiəlik, sələfilik* və s. daxildir. Əsas fiqhi məzhəblər isə bunlardır: cəfərilik, *hənəfilik, şafiilik, malikilik və hənbəlilik.*

A.Q.

MƏZİ

Şəhvət doğuran təmas, baxış və fikir (xəyal) nəticəsində kişilərin cinsiyyət orqanından gələn mayeyə deyilir. *Məniyə* (spermaya) nisbətən duru, şəffaf mayeyə deyilir. Bu maye təzyiqsiz çıxır, bundan sonra bədəndə süstlük yaranmır.

Əhli-sünnə məzhəbinə görə, məzinin çıxması insanı *cünüb* etmir, yalnız dəstəmazı pozur. Bədənindən məzi çıxmış şəxsin namaz üçün qüsl almasına ehtiyac yoxdur, yalnız dəstəmaz alması kifayətdir. Şiə məzhəbində məzi pak hökmündədir, qüsl və ya dəstəmaz almağa ehtiyac yaratmır.

A.Q.

MİQAT

Lüğətdə «bir işi yerinə yetirmək üçün verilən müddət, bir işin məkanı» mənalarını bildirir. Dini anlamda miqat – həcc və ümrə niyyətilə *hərəm* bölgəsinə gələnlərin *ehram* bağladıqları yerlərdir. Ehramsız halda bu hüdudları keçmək qadağandır. Lakin miqat yerinə çatmadan da ehrama girmək olar. Əhli-sünnə məzhəbinə görə, miqatlar aşağıdakılardır: 1. Məkkəyə Mədinə istiqamətindən gələnlər üçün ***Zül-hüleyfə*** (buranı «Şəcərə məscidi», «Abari-Əli», yəni «Əli quyuları» da adlandırırlar; Məkkədən ən uzaq məsafədə yerləşən miqatdır); 2. Şam, Misir və Şimali Afrika istiqamətlərindən gələnlər üçün ***Cühfə***; 3. İraq istiqamətindən gələnlər üçün ***Zati-İrq***; 4. Nəcd və Hicaz tərəfdən gələnlər üçün ***Qərni-mənazil***; 5. Yəmən tərəfdən gələnlər üçün ***Yələmləm***.

Şiə məzhəbinə görə, Zül-hüleyfə, Cühfə və Yələmləm miqatları ilə bağlı hökm eynidir. Lakin Qərni-mənazil Nəcd və Hicazdan gələnlərin deyil, Taif istiqamətindən gələnlərin miqatıdır. Nəcd və Hicazdan gələnlər isə İraq istiqamətindən gələnlərlə birlikdə ***Vadiyi-Əqiqdə*** ehrama girməlidirlər. Vadiyi-Əqiqin Məkkədən ən uzaq nöqtəsi Müsəlləx, ən yaxın nöqtəsi isə Zati-İrqdir. Şiə məzhəbinə görə, Zati-İrqə çatmadan (Müsəlləxdə) ehram bağlamaq daha üstündür.

A.Q və N.R..

MİNARƏ

Adətən, məscidlərin küncündə (künclərində) inşa edilən uzun qülləvari tikili. *Azan* səsinin uzağa yayılması, bəzi hallarda isə işıqlandırma vasitəsi kimi istifadə edilir. Ərəb dilindən «mayak» kimi tərcümə edilir. Səbəbi budur ki, keçmişdə dəniz (okean) sahilində yerləşən şəhərlərin minarələrinin zirvəsində işıq yandırılırdı ki, gəmilər uzaqdan şəhərin istiqamətini təyin edə bilsinlər.

İslamın ilk onilliklərində minarə yox idi. Azan verən şəxs ya məscidin, ya da məscid yaxınlığında yerləşən hər hansı uca binanın damına qalxırdı. Bəzi məlumatlara görə, ilk dəfə Müaviyənin zamanında Misir valisi Məsləmə ibn Müxəllәd (vəf. 682) Fustatdakı (köhnə Qahirə) Əmr ibn As camisinin hər küncündə bir minarə tikdirmişdi.

Minarələrin içində dolama pilləkən yerləşdirilir. Azançı həmin pilləkən vasitəsilə minarənin yuxarı qatındakı eyvana (şərəfə) qalxır. Minarələr hündürlükdən asılı olaraq bir, iki və ya üç şərəfəli olur.

Müxtəlif müsəlman ölkələrindəki məscidlərin minarələri quruluş etibarilə fərqlənir. Bu fərq memarlıq üslublarından irəli gəlir.

Məsələn, İran və İraq məscidlərinin minarələri adətən bir şərəfəlidir, dairəvi en kəsiyinə malikdir və dəbilqə formalı günbəzlə yekunlaşır. Türkiyə minarələri bir qayda olaraq nazik dairəvi və ya gülvari en kəsiyinə, konusvari ucluğa, çoxşərəfəli quruluşa malik olur. Məğrib, yəni Şimali Afrika ölkələrindəki minarələr isə adətən kvadrat en kəsiklidir. Son zamanlar Qərb ölkələrində tikilən məscid minarələrində modern üsluba üstünlük verilir.

Dünyanın ən hündür minarəsi Mərakeşin Kasablanka şəhərində yerləşir. Atlantik okeanının sahilində tikilmiş və Mərakeş kralı II Həsənin adı ilə adlandırılmış məscidin dördbucaqlı en kesiyinə malik minarəsinin hündürlüyü 200 metrdir. Minarənin zirvəsində quraşdırılan və işığı 30 kilometr məsafəyə kimi uzanan lazer şüası qiblənin istiqamətini göstərir.

İslam tarixində minarələrlə bağlı bəzi maraqlı faktlar mövcuddur. Məsələn, Osmanlı sultanı II Səlimin (1566-1574) tapşırığı ilə məşhur türk memarı Sinanın (1489-1588) layihəsi əsasında Ədirnə şəhərində tikilmiş Səlimiyyə camisinin 80 metrlik üçşərəfəli minarələrinin daxilində ayrı-ayrılıqda 3 pilləkən qurulub. Pilləkənlərin hər biri şərəfələrin birinə gedib-çıxır. Bu pilləkənlərlə eyni vaxtda qalxan adamlar bir-birini görmür, yalnız bir-birinin səsini eşidirlər.

Sultan I Əhmədin (1603-1617) zamanında İstanbulda tikilmiş Əhmədiyyə camisinin minarələrinin də maraqlı tarixçəsi var. Minarələrin sayı 6-dır. O vaxtlar yalnız Məkkədəki *Beytullah* məscidinin 6 minarəsi vardı, bütün qalan məscidlərin minarələrinin sayı bundan az idi. Əhmədiyyə camisi tikilib qurtarandan sonra sultana irad edirlər ki, niyə Məkkə ilə rəqabət aparan məscid tikdirib. Yaranmış söz-söhbətə son qoymaq üçün sultan caminin minarələrindən birini sökmək fikrinə düşür. Amma ona məsləhət görürlər ki, bunu etməkdənsə, Məkkədəki məscidə daha bir minarə əlavə etdirsin. Sultan Əhməd Beytullah məscidi üçün yeddinci minarəni tikdirir. Beləliklə, birincilik yenə Məkkədə qalır.

Sultan Süleyman Qanuninin (1520-1566) zamanında Memar Sinanın İstanbulda tikdiyi Süleymaniyyə camisinin isə 4 minarəsi var. Minarələrdən ikisi 3 şərəfəli, qalan ikisi 2 şərəfəlidir. Bunların cəmi 10 edir. Sültan Süleyman Qanuni də sayca 10-cu Osmanlı sultanıdır. Deyilənlərə görə, Süleymaniyyə camisinin tikintisinin yubandığını eşidən Səfəvi şahı I Təhmasib (o zamanlar İranla Türkiyənin münasibətləri çox gərgin idi) Sultan Süleymanı təhqir etmək məqsədilə ona bir mücrü dolusu daş-qaş göndərir ki, caminin tikintisini davam etdirsin. Sultan Süleyman bu hərəkətdən qəzəblənir, mücrünü Memar Sinana verib tapşırır ki, həmin ləl-cəvahiratı tikintidə daş yerinə işlətsin. Qiymətli daşları suvağın içinə töküb minarələrdən birinin səthinə çəkirlər. Deyirlər ki, həmin minarənin səthi bir neçə il gün işığında parlayırmış.

N.R.

MİNBƏR

Müsəlman məscidlərinə xas olan memarlıq elementlərindən biridir. Məscidin ibadət zalında, *qiblə* istiqamətində, *mehrabın* yanında quraşdırılır, bir neçə pillədən ibarət olur, üst hissəsi ayaq üstə durmaq və ya oturmaq üçün kiçik meydança ilə bitir. Bahalı taxtadan, daşdan, mərmərdən və başqa materiallardan hazırlanır. Məscidin *axundu* və ya imam-xətib *xütbə* söyləyərkən minbərin pillələrində və ya üst hissəsindəki meydançada oturur (və ya durur). Minbərin pillələrinin sayı və hündürlüyü adətən məscidin ölçülərindən asılı olur. Daha geniş ibadət zalı olan iri məscidlərdə hamı xütbə söyləyəni görə bilsin deyə, uca minbərlər qurulur. «Minbər» sözü ərəb dilində «yüksək yer» və «səsin ucaldıldığı məkan» mənalarını bildirir.

Həzrət Mühəmməd Peyğəmbər (s) ilk zamanlar Mədinə məscidində bir xurma ağacının kötüyünə dayaqlanaraq xütbə söyləyirdi. Hicrətdən təqribən 7 il sonra Peyğəmbərin məsləhəti ilə bir səhabə qadın öz dülgər oğluna taxtadan minbər düzəltdirdi. Bu minbər üç pillədən ibarət idi, üçüncü pilləsi oturmaq üçün nəzərdə tutulmuşdu. Həzrət Mühəmməd Peyğəmbər (s) vəfat edənə kimi bu minbərin üçüncü pilləsi üzərindən xütbə söyləmişdir.

Əbu Bəkr öz xilafəti dövründə təvazökarlıq əlaməti olaraq Peyğəmbərdən bir pillə aşağı – yəni ikinci pillədə durardı. Ömər ibn Xəttab daha bir pillə aşağıya endi. Osman ibn Affan isə yenidən üçüncü pilləyə – Peyğəmbərin oturmuş olduğu yerə qalxdı.

Peyğəmbərin minbəri Onun vəfatından sonra 38 il öz yerində qaldı. Müaviyə ibn Əbu Süfyan öz hakimiyyətinə qanuni don geyindirmək üçün minbəri Mədinədən Şama gətizdirmək qərarına gəldi. O, Peyğəmbərin minbəri üzərində xütbə söyləməklə müsəlmanların gözündə daha çox hörmət qazanacağını düşünürdü. Müaviyənin əmri ilə Mədinə valisi Mərvan ibn Həkəm Peyğəmbərin minbərini məsciddən çıxarmaq istəyəndə, Günəş tutulması baş verdi. Bunu pis əlamət kimi yozub, minbəri öz yerinə qaytardılar. Ona daha 6 pillə əlavə etdilər; beləliklə, pillələrin sayı doqquza çatdı. Hicri 654-cü (miladi 1256-cı) il yanğınında Peyğəmbərin minbəri də yanıb məhv oldu.

Mədinə məscidindən sonra ilk dəfə Ömər ibn Xəttabın hakimiyyəti dövründə Əmr ibn As Misrin paytaxtı Fustatın came məscidində minbər qoydurdu. Lakin xəlifənin əmri ilə bu minbəri ləğv etdilər. Çünki Ömər Mədinədən başqa bir şəhərdə minbər qoyulmasını mərkəzi hakimiyyətlə rəqabət kimi qəbul edir və valilərin təkəbbürə düçar olacaqlarından qorxurdu.

Lakin Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatından təqribən 120 il keçdikdən sonra artıq başqa şəhərlərdə də minbərlər yaranmağa başladı.

Minbər gözəl həndəsi və nəbati naxışlarla bəzədilir; yuxarı hissədə – xətibin başı üzərində Quran ayələri həkk olunur.

Minbər İslam tarixi boyunca müqəddəs sayılmışdır. Hansı şəhərdə olmasına baxmayaraq, minbərləri «Peyğəmbər minbəri» adlandırırlar. Çünki minbərə qalxıb xütbə söyləyən şəxs Peyğəmbərin sünnəsini yerinə yetirmiş olur. Buna görə də minbərə qalxan şəxs bu işin məsuliyyətini layiqincə dərk etməlidir. İnsanları yaxşılığa doğru çağırıb, pis işlərdən çəkindirmək, Allahın əmr və qadağanlarını xatırlatmaq üçün minbər gözəl bir tribunadır.

Bəzi ölkələrin dini ənənəsinə görə, axund (imam-xətib) minbərə qalxarkən məscidəkilər «payi-minbər» adlı duanı xorla oxuyurlar. Azərbaycanın bəzi bölgələrində bu ənənəyə riayət edilir.

N.R.

MİRAS

Vəfat edən şəxsin qoyduğu əmlakda müəyyən hüquqları olan insanların hər birinin ayrı-ayrılıqdakı payını və bu paylarla bağlı hesabatı təfərrüatı ilə göstərən hökmlərə və qaydalara deyilir. İslam hüququnda bunlar *fəraiz* başlığı altında şərh olunur. Mərhumun varisləri arasında bölünən maddi dəyərə «tərikə», mirasdakı pay sahibinə «varis», vəfat edib miras qoyana «muris» deyilir. «Miras» yuxarıda göstərilən mənada «tərikə» sözünün sinonimi kimi də işlədilir.

Ə.N.

MİSQAL

Xırda çəki vahidi. Ərəb dilindən tərcümədə «yük, ağırlıq» mənasını bildirir. Dini mənbələrdə misqalın ölçüsü barədə məlumatlar fərqlidir. Dini məsələlərdə (*zəkatın nisabı*, *kəffarə* və s.) istifadə edilən şəri misqal (şəriət misqalı) məişətdə işlədilən ürfi (adi) misqaldan fərqlidir. Belə ki, risalələrdə yazıldığına görə, 20 şəri misqal 15 ürfi misqala bərabərdir.

Azərbaycan Sovet Ensiklopediyasında misqalın çəkisi 4,266 qram yazılıb. Tarixi məlumatlardan aydın olur ki, VII əsrdə Şam (Suriya) vilayətində unsiyanın altıda-bir hissəsi olan 4,72 qramlıq və Roma solidinə yaxın olan 4,54 qramlıq ölçü vahidi misqal sayılırdı. Tunisdə 3,932 qramlıq «yüngül» misqal işlədilir. İran misqalı isə 4,3 qramdır. Bəzi məlumatlara görə, ürfi misqal 4,8105 qram, şəri misqal isə 4,009 qramdır.

Qurani-kərimdə «misqal» sözü ən kiçik, cüzi çəki vahidi mənasında işlədilib *(Zilzal, 7-8)*.

N.R.

MİSVAK

İsti iqlimli Şərq ölkələrində (o cümlədən, Ərəbistan, Misir, Hindistan, İran, Pakistan, Afrika ölkələri) bitən, çubuqlarından diş təmizləmək üçün istifadə edilən ərak (Salvadora Persica) adlı həmişəyaşıl kol bitkisi. Meyvəsi yeyilir, yarpaqları iltihab əleyhinə,

yağı revmatizmə qarşı dərman kimi işlədilir. Nazik və sıx budaqları var. Qabığı çox da qalın deyil. Budaqlarının içərisi nazik liflərdən ibarətdir.. Təqribən karandaş yoğunluğunda olan budaqlarını doğrayır, ucunun qabığını soyur, lifləri su ilə isladıb bir-birindən ayırırlar. Yumşaq fırça təsiri bağışlayan lifləri diş üçün çox faydalı olan minerallarla zəngindir. Müasir tibb alimləri dişləri misvakla yumağı diş məcunu ilə təmizləməkdən heç də az faydalı saymırlar. Misvakın lifləri antibakterial maddələrlə, C vitamini, flüor, efir yağları, sellüloz və s. ilə zəngindir. Misvak diş çürüməsinin, diş qanaxmalarının qarşısını alır, diş səthində yaranmış daşları ləğv edir, damağı bərkidir, ağızdan gələn pis qoxunu aradan qaldırır, ağız boşluğundakı bakteriyaların kökünü kəsir, mina təbəqəsini möhkəmlədir, dişləri ağardır. Bundan əlavə, misvakdan istifadə etmək sayəsində görmə qabiliyyəti yaxşılaşır, əsəb pozuntuları aradan qalxır, həzm sistemi normallaşır.

Dişləri məhz misvak çubuğu ilə təmizləmək İslamda böyük savab sayılır. Həzrət Mühəmməd Peyğəmbər (s) misvakdan tez-tez istifadə edir və müsəlmanlara da bunu tövsiyə edirdi: «Cənab Cəbrail dişləri misvakla təmizləmək barədə o qədər təkid etdi ki, Allah bu işi dinin vacibatı kimi tapşıracaq deyə, güman etdim». «Əgər ümmətim üçün çətin olmasaydı, hər namazdan əvvəl misvakla dişləri təmizləməyi əmr edərdim».

N.R.

MİZAN

Ərəb dilindən tərcüməsi «tərəzi» deməkdir. *Qiyamət* günündə məhşərdə bütün bəndələrin yaxşı və pis əməllərinin mizanda çəkilib dəyərləndiriləcəyi bildirilir. Mizanın quruluşu, görünüşü və iş prinsipi barədə dəqiq təsəvvür əldə etmək çətindir. Əksər hallarda təsəvvür edildiyinin əksinə olaraq, mizan bu dünyada gördüyümüz tərəzilər formasında olmayacaq. Bu, əməllərin qiymətləndirildiyi, hesablandığı bir tərəzidir. Onun çəkdiyi yük mənəvi yükdür. Mizan elə bir tərəzidir ki, orada hər bir savabın niyyətindən, yerinə yetirilmə şəraitindən, səmimiyyət dərəcəsindən asılı olaraq öz çəkisi var. Hər bir günah da ağırlıq dərəcəsinə, zərərinə görə fərqlənir. Bu tərəzidə savabların bəzi günahları silməsi də nəzərə alınır.

Qəti surətdə məlum olan budur ki, mizan son dərəcə dəqiq, ədalətli meyardır, onda xırdaca bir nöqsan da yoxdur. Heç bir yaxşı və pis əməl mizandan kənarda qalmayacaq. Mizan hər kəsin əməllərini tam dəqiqliklə ölçüb dəyərləndirəcək: «Biz qiyamət günü üçün ədalət tərəzisi quranıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, *(hər hansı əməli tərəziyə)* gətirərik. Haqq-hesab çəkməyə biz kifayətik» *(Ənbiya, 47)*.

N.R.

MOİZƏ

Məsciddə camaata söylənilən dini məsələlərə aid nəsihət və təbliğat məzmunlu çıxış. «Vəz» sözü də eyni mənanı ifadə edir. Moizə edən şəxsə «vaiz» deyirlər.

R.M.

MOLLA

Dini məişət ayinlərini (dəfn mərasimi, kəbin, yas məclisləri və s.) icra edən din xadimlərinə deyilir. Keçmişdə mollalar mədrəsədə şagirdlərə dini dərs keçdiklərinə görə, mədrəsələri də «mollaxana» adlandırırdılar.

Həmçinin, keçmişdə savadlı şəxslərin, şair və ədiblərin, nüfuzlu ruhanilərin də adının əvvəlinə «molla» ləqəbini qoşurdular. Məsələn: Molla Mühəmməd Füzuli, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Molla Sədra, Molla Ağa Dərbəndi, Molla Cuma, Molla Nəsrəddin və s. «Molla» sözü ərəb dilindəki «mövla» kəlməsindən götürülüb; mənası «ağa, başçı» deməkdir.

N.R.

MÖCÜZƏ

Peyğəmbərlərin öz haqlılıqlarını sübut etmək üçün Allahın izni və yardımı ilə yerinə yetirdikləri fəvqəl-təbii və qeyri-adi əməllər. Ərəb dilindən tərcümədə «başqalarının yerinə yetirməyə aciz olduğu iş» deməkdir.

Qəbul edilmiş qaydadır ki, hər bir iddiaçı öz iddiasını sübut etmək üçün dəlil gətirməlidir. Məsələn, insan ali təhsil aldığını sübut etmək istəyirsə diplomunu göstərməli, mağazadan nə isə almaq isətyirsə kassa çekini

təqdim etməlidir. Allahdan vəhy aldığını söyləyən peyğəmbər də yalan danışmadığını möcüzələrlə sübuta yetirməlidir. Əgər bunu edə bilməsə, heç kəs ona inanmaz və arxasınca getməz. Möcüzə peyğəmbərliyin ən əsas sübutudur.

Peyğəmbərlər adətən iki cür möcüzə göstərmişlər:

1. Birinci növ möcüzələrə qeyb aləmindən verilən xəbərlər aiddir. Bu zaman peyğəmbər Allahdan aldığı qeyb xəbərlərini insanlara çatdırır. Məsələn, Həzrət Nuh Peyğəmbər (ə) camaata xəbər verirdi ki, tezliklə iman gətirməsələr, dəhşətli tufan nəticəsində məhv olacaqlar.

Peyğəmbərlərin qeybdən xəbər vermələri müxtəlif cür olmuşdur: onlar gah keçmişdə olanları, gah da gələcəkdə baş verəcək hadisələri söyləmiş, uzaq vilayətlərdəki vəziyyəti açıqlamış, insanın ürəyindən keçənləri ona xəbər vermişlər.

Peyğəmbərlərin qeyb aləmindən xəbər vermələri onların elmdə Allahla şərik olmaları demək deyil. Peyğəmbərlər qeyb elmlərini yalnız Allahdan öyrənirlər. Əgər Allahın iradəsi olmasa, peyğəmbərlər qeyb aləmindən heç cür agah ola bilməzlər: «Qeybi bilən ancaq Odur və öz qeybini heç kəsə əyan etməz. Bəyənib seçdiyi peyğəmbərdən başqa!» *(Cin, 26-27)*.

2. İkinci növ möcüzələr bilavasitə peyğəmbərin əməli iştirakı ilə həyata keçir. Belə ki, ya peyğəmbərin duası ilə möcüzə baş verir, ya da peyğəmbər öz əlləri ilə möcüzəni yaradır.

Peyğəmbər möcüzə göstərərkən bu məqsədi güdmür ki, insanlar ondan qorxsunlar, yaxud ona ehtiram bəsləyib əzizləsinlər. Peyğəmbər *məsum* olduğu üçün sərvət, şöhrət, vəzifə həvəsində deyil. Möcüzə insanları haqq yola çağırmaq üçün peyğəmbərin əlində bir vasitədir.

Möcüzənin bəzi şərtləri var. Məşhur kəlam alimi Nəsirəddin Tusi bu barədə yazır: «Peyğəmbərin doğruculluğunu onun bilavasitə öz əliylə göstərdiyi möcüzədən anlamaq olar. Möcüzənin mahiyyəti budur ki, qeyri-adi bir iş baş versin, ya da səbəb-nəticə qanunu ilə adi halda baş verməli olan bir hadisə həyata keçməsin. Möcüzə qeyri-adi olmalı və onu göstərənin iddiası ilə uyğun gəlməlidir».

Peyğəmbərin möcüzəsi qeyri-adi olsa da, qeyri-mümkün olmamalıdır. Yəni möcüzənin həyata keçməsi maddi dünya ilə bağlı olduğundan, möcüzə maddi dünyanın imkanları çərçivəsində baş verməlidir. Başqa sözlə desək, möcüzə, baş verməsi mümkün olan, amma adi səbəb-nəticə qanunu ilə yox, qeyri-adi yolla mümkün olan hadisələri əhatə edir. Məsələn, peyğəmbərdən tələb etmək olmaz ki, onun duası ilə bir adam eyni vaxtda həm ölü, həm də diri vəziyyətdə olsun. Çünki insan eyni zamanda həm ölü, həm də diri ola bilməz; bu, qeyri-mümkün işdir. Əgər insan ölüdürsə, demək dirilik halından çıxıb. Əksinə, əgər diridirsə, ona ölü demək olmaz. Ölümlə həyat bir-birinin əksidir, onların bir araya gəlməsi qeyri-mümkündür. Lakin peyğəmbər ölünü dirildə bilər. Göründüyü kimi, bu iş qeyri-mümkün deyil, qeyri-adidir.

Əksinə, adətən baş verməli olan bir hadisə də peyğəmbərin duası ilə ləğv ola bilər. Məsələn, Qurani-kərimdə buyurulur ki, Nəmrudun əmri ilə Həzrət İbrahimi (ə) tonqalın içinə atanda alov Onu yandırmadı. Yaxud Həzrət Mühəmməd Peyğəmbərin (s) möcüzələrindən biri bu idi ki, Onun duası nəticəsində xeyli adam az miqdarda xörəkdən yeyib doyurdu, xörək isə azalmırdı.

Möcüzənin şərtlərindən biri də budur ki, iddiaya tam uyğun olsun. Yəni peyğəmbər nə edəcəyinə söz verirsə, onu da etsin. Peyğəmbər bir işi görəcəyini iddia edib, sonra ondan tamamilə fərqli olan möcüzəni göstərsə, düzgün olmaz. Özünü peyğəmbər elan etmiş bəzi adamların yalanı elə bu yolla açılmışdır. Məsələn, yalançı «peyğəmbər» Müseylimə Həzrət Mühəmməd Peyğəmbərin (s) hər hansı möcüzəsi barədə eşidəndə bunu təkrar edəcəyini söyləyir, amma hər dəfə cəhdləri tamam fərqli və mənfi nəticə ilə bitirdi (bax: *Müseylimə*).

Peyğəmbərin ümməti içində heç kəs onun möcüzələrini təkrar etməyə qadir olmamalıdır. Əgər Müseylimə Həzrət Mühəmmədin (s) möcüzəsini təkrar edə bilsəydi, camaat yalanla doğrunu, fırıldaqçı ilə əsl peyğəmbəri ayıra bilməzdi. Hər peyğəmbərin zəma-

nəsində müəyyən adamlar onun möcüzəsini təkrar etmək istəsələr də, heç vaxt buna müvəffəq olmamışlar. Məsələn, Həzrət Musa Peyğəmbərin (ə) ilana dönən çəliklə göstərdiyi möcüzəni fironun saray sehrbazları təkrar etmək istəsələr də, uğursuzluğa düçar oldular.

Möcüzəni kəramətlə qarışdırmaq olmaz (bax: *kəramət*). Bəzi qeyri-mömin (hətta qeyri-müsəlman) şəxslərin (məsələn, cadugər, falçı və ekstrasenslərin, buddist yoqların) müxtəlif vasitələrlə həyata keçirdikləri əməllər də möcüzə deyil. Bu əməllər düz ya səhv, faydalı yaxud ziyanlı, dinə uyğun ya da zidd ola bilər. Halbuki, peyğəmbərin göstərdiyi möcüzə yalnız və yalnız müsbət əməl olur, insanların xeyrinə yönəlir və Allahın istəyi ilə üst-üstə düşür.

Möcüzə çox zaman müəyyən zamana və şəraitə uyğun olur. Məsələn, Həzrət Musanın (ə) zamanında sehrbazlıq geniş yayıldığı üçün, Allah sehrbazları ifşa edən möcüzəni (ilana dönən çəliyi) Ona bəxş etdi. İsa Peyğəmbərin (ə) dövründə tibb elmi inkişaf mərhələsini yaşayırdı. Ona görə də, Həzrət İsa (ə) bütün təbibləri heyrətə salan və aciz edən möcüzələr göstərirdi (sağalmaz xəstəliklərə şəfa verir, ölüləri dirildirdi).

Həzrət Mühəmməd Peyğəmbərin (s) möcüzələri çox olsa da, ən məşhuru təkrarolunmaz və əsrarəngiz Qurani-kərimdir. 14 əsrdir ki, bu kitab dil səlisliyi, məntiqə uyğunluğu, bütün elmi kəşfləri qabaqlaması ilə dünyanı heyrətə gətirir. Böyük ədəbiyyatçılar, şair və alimlər Quran qarşısında öz heyranlıqlarını gizlətmirlər. Qurani-kərimin nazil olduğu əsrdə ərəblər arasında şeir, bəlağətli söz söyləmək bacarığı yüksək qiymətləndirilirdi. Quran öz ecazı ilə cahiliyyə dövrünün qüdrətli şairlərinə meydan oxudu. Allah-təala Həzrət Mühəmməd Peyğəmbəri (s) məhz Quran kimi ecazkar bir kitabla göndərdi ki, ərəblər bu kitabın bəşər kəlamından üstünlüyünü və həqiqətən, ilahi vəhy olduğunu anlayıb qəbul etsinlər (bax: *ecaz*).

N.R.

MÖHKƏM və MÜTƏŞABEH AYƏLƏR

Quran ayələrinin bölündüyü iki qrupa deyilir. Quran ayələrini, mənasının qətilik və aşkarlıq dərəcəsinə görə möhkəm və mütəşabeh qisimlərinə bölürlər. Heç bir dolayı izaha, simvolik şərhə ehtiyac duyulmayacaq dərəcədə qəti hökm daşıyan ayələri «möhkəm» adlandırırlar. Bu ayələrin zahiri mənasına iman gətirmək, onların hökmünə olduğu şəkildə əməl etmək hər bir müsəlmanın borcudur. Amma mütəşabeh ayələri birmənalı qəbul etmək mümkün deyil, bu ayələr mütləq şərh olunmalı, yozulmalıdır. Qurani-kərimdə möhkəm və mütəşabeh ayələrin barəsində belə buyurulur: «Onun *(Quranın)* bir hissəsi möhkəm, digər qismi isə mütəşabeh ayələrdir. Ürəklərində əyrilik *(şəkk-şübhə)* olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabeh ayələrə uyarlar. Halbuki, onların yozumunu Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: «Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır», – deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər» *(Ali-İmran, 7)*.

Möhkəm ayələr əsasən, şəriət hökmlərini, əqidə prinsiplərini, əxlaq normalarını əhatə edir. Bunlar zamanın, məkanın və şəraitin dəyişməsi nəticəsində dəyişikliyə uğramayan dəyərlərdir.

Mütəşabeh ayələrin böyük bir hissəsi Allah-təalanın sifətlərinə aiddir. Məsələn, Quranda Allahın əlinin, gözünün olduğu barədə ayələr var. Amma bu ayələr zahiri yox, batini mənada təfsir edilir. Allahın əli – Onun qüdrətini, gözü – Onun nəzarətini ifadə edir. Bununla belə, bəzi alimlər söyləmişlər ki, həqiqətən, Allahın əli və gözü var, amma bunların necəliyi məlum deyil. Hətta maliki məzhəbinin banisi İmam Malik ibn Ənəs Allahın bu kimi xüsusiyyətlərinə inanmağı vacib, onların necəliy barədə soruşmağı isə bidət adlandırırdı. Göründüyü kimi, bu sifətlərin mahiyyəti barədə düşüncələr çox fərqlidir.

Bir qisim mütəşabeh ayələrdə qiyamət gününün, cənnət nemətlərinin və cəhənnəm əzablarının təsviri verilir. Bəzi mütəşabeh ayələrdə isə ayrı-ayrı kəlmələrin bir neçə fərqli mənaya malik olması onların birmənalı qəbul edilməsini əngəlləyir.

Mütəşabeh ayələri düzgün təfsir etmək üçün mütləq möhkəm ayələrə, yaxud səhih hədislərə, ağıl və məntiqə əsaslanmaq lazımdır. Bu ayələri yozmaq səlahiyyəti *müctəhid* (ictihad bacarığına sahib olan) şəxslərə məxsusdur.

N.R.

MÖMİN

bax: *iman*.

MÖHÜR

Cəfəri məzhəbli müsəlmanların namaz səcdəsi zamanı alınlarını qoyduqları əşya. Cəfəri məzhəbinə görə, səcdə zamanı alın torpağın üzərinə qoyulmalıdır. Torpaqda bitən, yeyilməyən və geyilməyən materialların üzərinə də səcdə etmək olar. İslamın ilk dövrlərində evlərin və məscidlərin döşəməsi bir qayda olaraq ya heç nə ilə örtülmür, ya da həsirlə döşədilirdi. (Həsir yerdə bitən qamışdan toxunduğu üçün, cəfəri məzhəbinə görə, onun üzərinə səcdə etmək olar). Buna görə də o zamanlar möhürdən istifadə etməyə ehtiyac yox idi. Lakin sonralar döşəmələri müxtəlif örtük materialları ilə, xalça-palazla örtdülər. Bu zaman torpaqdan istifadə etmək çətinlik törətdiyi üçün, möhür hazırlamağa başladılar. Möhür belə hazırlanır: Narın torpaqla suyu qarışdırıb, alınan palçığa oxşar maddəni müəyyən formaya saldıqdan sonra qurudurlar. İstənilən yerin pak və halal torpağından möhür düzəltmək olar. İslam müqəddəslərinin məzarı yerləşən şəhərlərin torpağından (xüsusilə, Kərbəla və Məşhəd *türbətindən*) hazırlanan möhür daha üstün sayılır. Möhürlər müxtəlif ölçü və formalarda olur. Bəzən möhürün bir üzünü dini yazı və naxışlarla bəzəyirlər. (Möhür hansı şəhərin torpağından yoğrulubsa, həmin şəhərin və orada dəfn olunmuş müqəddəs şəxsin adını möhürün üstündə qeyd edirlər).

N.R.

MÖVLA

Ərəb dilində fərqli mənaları ifadə edən kəlmədir. Lüğət kitablarında «mövla» sözünün aşağıdakı mənalarını qeyd ediblər: Rəbb, əmi, əmioğlu, oğul, bacıoğlu, kölə, kölənin ağası, tabe olan, nemət verilən, şərik, başqası ilə əhd bağlamış şəxs, qonşu, qonaq, kürəkən, dost, rəhbər, ağa, sevgili və s. Əllamə Əmini «əl-Ğədir» kitabında «mövla» sözünün 27 mənasını qeyd etmişdir *(Əbdülhüseyn Əmini. Əl-Ğədir, I, 362-363)*.

«Mövla» kəlməsi Həzrət Mühəmməd Peyğəmbərin (s) *Qədir-Xümm* günündə Həzrət Əli (ə) haqqında buyurduğu: «Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır» hədisinin əsas məfhumudur. Buna görə də, hədisdə bu kəlmənin hansı mənanı ifadə etdiyi barədə məzhəblər arasında qədimdən bəri fikir ayrılıqları olmuşdur. Əhli-sünnə məzhəbinə mənsub alimlər Qədir-Xümm hədisindəki «mövla» sözünü adətən «dost» mənasında qəbul edirlər («vəli» sözünün mənalarından biri kimi). Şiə məzhəbli alimlər isə «mövla» sözünün «övla» (daha üstün) kəlməsi ilə yaxın məna ifadə etdiyini söyləyir və bu yolla Əli ibn Əbu Talibin (ə) Peyğəmbərdən sonra bütün ümmətdən üstün olduğunu və xilafətə hamıdan daha artıq haqqı çatdığını əsaslandırırlar.

Qeyd edək ki, «mövla» kəlməsi Qurani-kərimdə əksər hallarda Allaha aid edilmiş və «başçı, rəhbər» mənasında işlədilmişdir: «Xeyr, Allah sizin mövlanızdır. O, yardım edənlərin ən yaxşısıdır» *(Ali-İmran, 150)*. «Bilin ki, Allah sizin mövlanızdır. O, ən yaxşı mövla və ən yaxhı imdada çatandır» *(Ənfal, 40; Həcc, 78; bax:«Təhrim, 2 və 4; Ənam, 62; Yunus, 30 və s.)*. Möminlər də Allahı «mövlana» (ağamız) deyə çağırarlar *(Bəqərə, 286; Tövbə, 51)*.

Quran ayələrinin birində «mövla» kəlməsi insana aid olunaraq, «ağa, qul sahibi» mənasında istifadə edilib *(Nəhl, 76)*. Daha bir ayədə isə «mövla» sözünün «cəhənnəm» anlamını ifadə etdiyinin şahidi oluruq ki, bu da kafirlərin son məskəninin və sığınacağının cəhənnəm olacağına işarədir *(Hədid, 15)*. Quranın bu ayəsində isə «mövla» «dost» anlamında işlədilir: «O gün *(qiyamətdə)* dostun dosta heç bir faydası olmaz, onlara kömək də edilməz» *(Düxan, 41)*.

N.R.

MÖVLİD (MÖVLUD)

Ərəb dilindən tərcüməsi «doğuluş» deməkdir. Dini termin olaraq, İslam müqəddəslərinin (xüsusilə, Həzrət Mühəmməd Peyğəmbərin (s)) doğum gününün ildönümü mü-

nasibətilə təşkil edilən təntənəli mərasimlərə deyilir. Əslində «mövlid» deyilməlidir, amma bu sözün təhrif olunmuş «mövlud» variantı daha çox işlədilir. Fərq bundadır ki, «mövlid» – doğum deməkdir, «mövlud» sözü isə «doğulmuş» mənasını verir.

İslamın ilk əsrlərində mövlid bayramları keçirmək ənənəsi yox idi. Nə Peyğəmbərin öz sağlığında, nə də raşidi xəlifələrin zamanında Onun doğum günü qeyd edilmirdi. Tarixi məlumatlara görə, ilk mövlid məclisini Misirdə hakimiyyət sürmüş Fatimilər sülaləsinin (909-1171) nümayəndələri təşkil etmişlər. Mərasim yalnız sarayda, əyanların iştirakı ilə keçirilirdi. Fatimilər Həzrət Əlinin (ə) və Fatimeyi-Zəhranın (ə) da mövlid mərasimlərini qeyd edirdilər.

Sonralar məşhur fateh Səlahəddin Əyyubinin yeznəsi, İrbil atabəyi Məlik Müzəffəruddin Gökböri (1190-1232) bu ənənəni davam etdirərək, mövlid mərasimlərinin keçirilməsinə əmr verdi (1207-ci il). Bayram tədbirlərində hökmdar və saray əyanları ilə yanaşı, rəiyyət də iştirak edirdi. Hər bölgədən din alimləri, xətiblər İrbildə keçirilən mərasimə dəvət olunurdular.

Bunun ardınca Məkkə, Mədinə kimi iri şəhərlərdə də Peyğəmbərin doğum gününü qeyd etmək ənənəsi yarandı. Tədbirlərin əhatə dairəsi genişlənərək başqa ərazilərə də yayıldı.

Osmanlı sultanları arasında mövlidi ilk dəfə bayram səviyyəsində keçirən Sultan III Murad (1574-1595) olmuşdur. 1588-ci ildən başlayaraq, mərasimlər əvvəllər Ayasofiya camisində, daha sonralar isə Sultan Əhməd camisində təşkil edilirdi. Sadə xalq da tədbirlərə qatılırdı.

Mövlid mərasiminin başlanğıcında Qurani-kərimdən ayələr oxunurdu. Sonra gözəl səsi olan xətiblər növbə ilə minbərə qalxır və Peyğəmbərin doğuluşunu təsvir edən şeir nümunələri *(mövlidnamələr)* oxuyurdular. Sultan əyanlara xələt bağışlayırdı, Mədinədən gətirilən xurma camaata paylanırdı.

Mövlid ənənəsi günümüzə kimi davam edir. Peyğəmbərin doğum gününün ildönümündə dünyanın müxtəlif ölkələrində (o cümlədən, Azərbaycanda) mövlid mərasimləri keçirilir. Şiə (cəfəri) məzhəbinə mənsub müsəlmanlar Həzrət Əlinin, Həzrət Fatimeyi-Zəhranın, İmam Hüseynin və İmam Mehdinin (ə) mövlidini də təntənə ilə qeyd edirlər.

Bəzi İslam cərəyanları mövlid mərasiminin keçirilməsini günah və *bidət* sayırlar. Lakin alimlərin böyük əksəriyyətinin fikrincə, əgər mövlid mərasimlərinin keçirilmə qaydasında, burada oxunan şeir və nəğmələrdə dini inanclara, əxlaq normalarına zidd bir şey yoxdursa, haram deyildir. Əksinə, mövlid mərasimlərində Həzrət Mühəmməd Peyğəmbərin (s) fəzilətləri sadalandığı, İslamın mahiyyəti açıqlandığı üçün, bunları təşkil etmək və bu tədbirlərə qatılmaq savab sayılır.

Əhli-sünnə dünyasında Həzrət Mühəmməd Peyğəmbərin (s) doğum günü rəbiüləvvəl ayının 12-də qeyd edilir. (Türkiyədə bu tarixi miladi təqvimə çevirib, nisan (aprel) ayının 20-də mövlid mərasimləri təşkil edirlər). Şiələr fərqli rəvayətlərə əsaslanaraq, mövlidi rəbiül-əvvəl ayının 17-də keçirirlər. Artıq bir neçə ildir ki, İslam Məzhəbləri Arasında Yaxınlaşma Assosiasiyası adlı beynəlxalq təşkilat şiə və sünni məzhəbləri arasında yaxınlıq yaratmaq məqsədilə bu iki tarixin arasındakı müddəti Vəhdət həftəsi elan edib. Bu həftə ərzində həmin təşkilat tərəfindən beynəlxalq səviyyəli tədbirlər keçirilir. Tədbirlərdə həm İslam Peyğəmbərinin doğum günü qeyd edilir, həm də məzhəblərarası yaxınlaşmanın perspektivləri araşdırılır.

N.R.

MÖVLİDNAMƏ (MÖVLUDNAMƏ)

Həzrət Mühəmməd Peyğəmbərin (s) doğum günü münasibətilə yazılan şeir. Tarix boyunca müxtəlif şairlər mövlidnamə qələmə almışlar. Təkcə türk dilində 60-dan artıq mövlidnamə mövcud olduğunu yazırlar. Bunların ən məşhuru Şeyx Ədəbalının nəslindən olan Süleyman Çələbi (vəf. 1422) adlı şair tərəfindən XV əsrin əvvəllərində türk dilində yazılmış «Vəsilətün-nicat» (Qurtuluş vəsiləsi) mövlidnaməsidir.

Əsasən, Türkiyədə keçirilən mövlid mərasimlərində Süleyman Çələbinin Mövlidnaməsinin böyük bir hissəsi avazla oxunur. Oxunan mətn 6 bölümdən ibarətdir. Hər bölüm fərqli bəhrlər (avazlar) üzərində ifa edilir. Tövhid, Nur, Vəladət, Mərhəba, Merac, Minacat adlanan bəhrlərin oxunuşu zamanı Səba, Hicaz, Rast, Üşşaq, Hüzzam və s. muğam avazlarından istifadə edilir. Yalnız Peyğəmbərin vəfatı bölümünü avazla oxumurlar. Mövlidnamənin başlanğıcında və bölümlərin arasında Qurandan ayələr tilavət edilir. Həcminin böyüklüyünə görə, Mövlidnaməni adətən bir neçə şəxs (mövlidxan) növbə ilə ifa edir.

Mövlidnamənin Minacat bölümü belə başlayır:

Allah adın zikr edəlim əvvəla,
Vacib oldu cümlə iştə hər qula.
Allah adın hər kim ol əvvəl ana,
Hər işi asan edər Allah ona.
Allah adı olsa hər işin önü,
Hərgiz əbtər olmayar anın sonu.
Hər nəfəsdə Allah adın de müdam,
Allah adıyla olur hər iş tamam.
Bir kəz Allah desə şövq ilə lisan,
Tökülər cümlə günah misli-xəzan...

Mövlidnamənin avazını XVII əsrdə Bursalı Səkban adlı bəstəkar bəstələmişdir. Bu gün də Türkiyədə təşkil edilən mövlid mərasimlərində Süleyman Çələbinin Mövlidnaməsi sevə-sevə ifa edilir.

N.R.

MÜBAH

bax: *halal.*

MÜBAHİLƏ

Ərəb dilindən tərcüməsi «lənətləşmə» deməkdir. Mübahilə hər hansı məsələ üstündə mübahisə edən tərəflər arasında aparılır. Tərəflər təyin edilən vaxtda qarşılaşır və Allah dərgahına xüsusi dua ilə yalvarırlar. Bu zaman onlardan hər biri Allahdan istəyir ki, hansı tərəf nahaqdırsa, ona dərhal bəla göndərsin. Bu, bir-birinə təslim olmaq istəməyən və öz fikrini inadkarlıqla müdafiə edən iki tərəfin həqiqəti üzə çıxarmaq üçün əl atdığı sonuncu üsuldur.

Hicrətin 9-cu ilinin sonlarında (miladi 631-ci il) Yəmənin *Nəcran* bölgəsində yaşayan xristianların nümayəndə heyəti Mədinəyə gəldi ki, Həzrət Mühəmməd Peyğəmbərlə (s) görüşüb, onun həqiqətən peyğəmbər olub-olmadığını yoxlasınlar. Allah Rəsulu qeyri-müsəlmanlarla bütün görüşlərində olduğu kimi, bu dəfə də Nəcran xristianlarını İslama dəvət etdi, Həzrət İsa Peyğəmbərin (ə) Allahın oğlu deyil, bir insan və peyğəmbər olduğunu bildirdi. Amma nümayəndə heyətində olanlar Onunla razılaşmadılar və öz əqidələrinin doğru olduğunu isbat etmək üçün çalışmaqda davam etdilər. Bu zaman Allahın Rəsulu onlara təklif etdi ki, hansı tərəfin haqq olduğunu aydınlaşdımaq üçün mübahilə etsinlər. Nəcran xristianları bu təkliflə razılaşdılar. Mübahilə ertəsi günə – zilhiccə ayının 24-ə təyin olundu. Bundan sonra xristianlar öz aralarında məsləhətləşib belə qərara gəldilər ki, sabah Peyğəmbərin mübahiləyə kimlərlə gələcəyini gözləsinlər. Əgər Peyğəmbər öz səhabələri və tərəfdarları ilə gələrsə, qorxmadan Onunla mübahilə etsinlər. Yox, əgər O, yalnız ailə üzvləri və ən yaxın qohumları ilə gələrsə, onda mübahilədən imtina etsinlər. Çünki bu halda Onun həqiqi peyğəmbər olduğu bilinəcək. Peyğəmbər bu cür təhlükəli hallarda ən yaxınlarını özü ilə gətirər, yad insanları təhlükə altına salmaz.

Ertəsi gün Həzrət Mühəmməd Peyğəmbər (s) İmam Hüseyni (ə) qucağına almış və İmam Həsənin (ə) əlindən tutmuş halda mübahilə yerinə gəldi. Onun ardınca qızı Fatimeyi-Zəhra (ə), əmisi oğlu, həm də kürəkəni Əli ibn Əbu Talib (ə) addımlayırdılar. Peyğəmbər təyin olunmuş yerə çatandan sonra *Əhli-beytinə* dedi: «Mən dua edəndə siz amin deyərsiniz». Nəcranlılar bu mənzərəni görəndə dəhşət içində mübahilədən imtina etdilər, Peyğəmbərdən üzr istəyib, Onunla *cizyə* (vergi) müqaviləsi bağladılar və öz vilayətlərinə qayıtdılar.

Bu münasibətlə Allah-təala aşağıdakı ayəni nazil etdi: «Sənə verilən elmdən sonra Sənin lə mübahisə edənlərə de: «Gəlin, biz də oğullarımızı, siz də oğullarınızı, biz də qadınlarımızı, siz də qadınlarınızı, biz də nəfslərimizi, siz də nəfslərinizi çağıraq. Sonra dua edib, yalançılara Allahın lənət etməsini diləyək!» *(Ali-İmran, 61).*

Mübahilə olayı Əhli-beytin fəzilətlərinin ən parlaq sübutlarından biri sayılır. Çünki

Peyğəmbər bu ağır və təhlükəli məsələdə məhz onların köməyinə arxalanmış, öz duasına onların amin deməsini istəmişdi. Ayədəki «oğullarımız» kəlməsi İmam Həsənlə İmam Hüseynə (ə), «qadınlarımız» kəlməsi Həzrət Fatiməyə (ə), «nəfslərimiz» sözü isə İmam Əli ibn Əbu Talibə (ə) işarədir. Sonuncu kəlmə ərəb dilində həm «bir şeyin özü», həm də «can» mənasını verir. Hər iki mənada qəbul edildikdə, bu kəlmənin Əli (ə) üçün böyük bir fəzilət olduğunu görürük. Yəni bu ayədə Əli ibn Əbu Talib (ə) Həzrət Mühəmməd Peyğəmbərin (s) ya özünə bərabər tutulub, ya da Onun canına bənzədilib.

İslamın ilk dövrlərində yaşamış bir çox məşhur şəxsiyyətlər mübahilə ayəsinə Əhlibeytin üstünlüyünün sübutlarından biri kimi baxırdılar. Hətta bəzi səhabələr, Müaviyə onları Əhli-beyti təhqir etməyə məcbur edərkən, həmin ayəyə əsaslanaraq bu çirkin günaha bulaşmaqdan imtina edirdilər *(Səhihü Müslim, Səhabələrin fəzilətləri kitabı, Əli ibn Əbu Talibin fəzilətləri babı (50-ci töhfə), 6220-ci hədis; burada Səd ibn Əbu Vəqqas Əli ibn Əbu Talibi (ə) söymək barədə Müaviyənin təklifini rədd edərkən, mübahilə ayəsini misal çəkir).*

Əhli-sünnə alimlərindən bir çoxu öz əsərlərində mübahilə ayəsinin nazil olma vaqeəsini təsvir etmişlər. Bu məsələni bircə hədislə də olsa, qeyd etmiş məşhur əhli-sünnə alimlərinin sayının 60-ı ötdüyünü yazırlar *(bax: Hakim Nişaburi. Əl-Müstədrəkü ələs-Səhiheyn, III, 176 (4782-ci hədis); Əhməd ibn Hənbəl. Müsnəd, I, 185; İbn əl-Əsir. Üsüdül-ğabə fi mərifətis-səhabə, IV, 25-26; Hakim Həskani. Şəvahidüt-tənzil, I, 155-166 (168-cidən 176-cıya kimi hədislər); İbn Səbbağ Maliki. Əl-Füsulül-mühimmə fi mərifəti əhvalil-əimmə, s. 23-24 və s. mənbələr).*

Bunlardan əlavə, məşhur müfəssirlər Təbəri, Qürtübi, Fəxrəddin Razi, Carullah Zəməxşəri, Qazi Beyzavi, Cəlaləddin Süyuti, Alusi və başqaları öz təfsirlərində mübahilə hadisəsinin təsvirini vermiş və bu ayənin məhz Həzrət Mühəmməd Peyğəmbər (s), Əli, Fatimə, Həsən və Hüseyn (ə) barəsində nazil olduğunu etiraf etmişlər.

İslam tarixində bəzi şəxslər bundan sonrada mübahilə üsulundan istifadə etmiş və özlərinin haqlı olduqlarını bu yolla sübuta yetirmişlər. Məsələn, *aşura* günündə İmam Hüseynin (ə) qoşunundan olan Büreyr ibn Xüzeyr Həmdani ilə qarşı tərəfdən Yəzid ibn Məqil, Harun ər-Rəşidin hüzurunda İmam Həsənin (ə) nəticəsi Yəhya ilə ona iftira atmış Mədinə valisi Bəkkar Zübeyri mübahilə etmişlər. Hər iki halda haqlı tərəf qalib çıxmış, o biri tərəf isə qısa müddət ərzində həlak olmuşdur.

N.R.

MÜBARAT TALAĞI

bax: *talaq.*

MÜCAHİD

Ərəb dilindən tərcüməsi «cihad edən» deməkdir. Dini mənbələrdə bu ad əsasən, İslam yolunda aparılan cihadların iştirakçılarına aid edilir.

Qurani-kərimdə mücahidlərin sair insanlardan üstünlüyü bu şəkildə bəyan edilib: «*(Üzrsüz səbəbə görə)* zərər çəkmədən *(evlərində)* əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən kimsələr bir olmazlar. Allah malları və canları ilə vuruşanları *(evlərində)* əyləşənlərdən dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına *(savab)* vəd etmişdir. Allah mücahidlərə *(evlərində)* oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir» *(Nisa, 95).* Həzrət Mühəmməd Peyğəmbər (s) mücahidlərə veriləcək savabı dəryaya bənzədərək buyurmuşdu ki, bir göyərçin öz qanadını dəryaya batıranda qanadına nə qədər su yapışırsa, sair insanların qazana biləcəkləri savabın miqdarı da bu qədərdir.

Hədislərdə buyurulur: «Allah yolunda cihad edən mücahid *(savab baxımından)* oruc tutan və gecələr yatmayıb ibadət edən adam kimidir. Allah, Onun yolunda savaşan mücahidi öz himayəsi altına alar. Ölərsə, onu cənnətə aparar. Ya da savabla və qənimətlə birlikdə sağ-salamat evinə qaytarar». «Cənnətdə yüz dərəcə vardır ki, Allah onları Allahın yolunda cihad edənlərdən ötrü ayırmışdır». «Cənnətdə bir qapı var ki, ona mücahidlər qapısı deyirlər. Qılınc qurşanmış mücahidlər həmin qapıdan cənnətə girərlər; bir halda ki, bütün başqa insanlar hələ cənnətdən kənarda saxlanılmış olarlar». Həmçinin, Həzrət Mühəmməd Peyğəmbər (s) Allah yolunda savaşan mücahidləri «cənnət əhlinin sərkərdələri» adlandırırdı.

İnsanın öz nəfsi ilə mübarizəsi böyük cihad sayıldığı üçün, öz daxilindəki nəfsani istəklərlə mübarizə aparan, mənəvi təkamülə can atan, zahidanə həyat tərzi sürən şəxslərə də bəzən «mücahid» ləqəbi şamil edilir.

N.R.

MÜCTƏHİD

bax: *ictihad, mərceyi-təqlid.*

MÜDD

Çəki vahidi. Qoşa ovuc dolusu qədər çəkini ifadə edir. Şəriət kitablarında müddü 10 sirə bərabər götürürlər. Bir sir isə təqribən 75 qramdır. Beləliklə, müdd kiloqramın dörddən-üç hissəsi kimi (750 qr.) dəyərləndirilir. Müdd bir çox şəriət hökmlərində ölçü vahidi kimi istifadə edilir. Məsələn, bütün məzhəblərin hökmünə əsasən, qocalıb əldən-düşmüş şəxs ramazan ayının vacib orucunu tuta bilmirsə, hər günün əvəzinə ehtiyacı olanlara bir müdd yemək verməlidir (yalnız maliki məzhəbində bu, müstəhəbdir).

N.R.

MÜƏLLƏFƏTÜL-QÜLUB

Ərəb dilindən tərcüməsi «könülləri alınan insanlar» deməkdir. Müsəlman olmadıqları halda, İslama girmə ehtimalı olan və buna görə də zəkatdan pay alan insanlar. Zəkat payı verilən 8 təbəqədən biridir *(bax: Tövbə, 60).* İslama görə müəlləfətül-qulub üç növdür: 1. İslam dinini qəbul etmələrinə və imanlarının gücləndirilməsinə ehtiyac olan insanlar; 2. Müsəlmanları onların şərindən qorumaq məqsədilə zəkat payı verilən insanlar; 3. Zəkat payı almaqla İslamı qəbul etməyə təşviq olunan hökmdar və onun rəiyyəti.

R.M.

MÜƏZZİN

Ərəb dilindən hərfi tərcüməsi «carçı» deməkdir. Qurani-kərimin bəzi ayələrində də bu söz məhz «carçı» mənasında işlənib *(Yusif, 70; Əraf, 44).*

Müsəlman cəmiyyətində azan verməklə məşğul olan şəxslərə müəzzin deyilir. Bəzi hallarda gözəl səsi olan şəxslər başqa peşə sahibi olmalarına baxmayaraq, Allah rizası xatirinə müəzzinlik də edirlər.

Həzrət Mühəmməd Peyğəmbərin (s) zamanında bir neçə səhabə müəzzin kimi tanınırdı. Bunlardan birincisi və ən məşhuru *Bilali-həbəşidir.* İslam tarixində ilk azanı da o səsləndirmişdir. Başqa bir müəzzin isə *Abdullah ibn Ümmi-Məktum* adlı səhabədir. Gözləri görməsə də, gur səsi olan Abdullah ramazan ayında sübh azanını oxuyurdu. Buna görə də Peyğəmbər səhabələrinə tapşırmışdı ki, Abdullahın azan səsini eşidincəyə kimi yeyib-içə bilərlər.

Müəzzinlik İslamda ən şərəfli peşələrdən sayılır. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub ki, müəzzin Allah yolunda qılıncını sıyırıb döyüşən mücahid qədər savaba malikdir. Həmçinin, O, buyurub ki, müəzzinin günahları səsinin çatdığı yerləri dolduracaq qədər çox olsa da, bağışlanar. Qiyamət günündə müəzzinin səsini eşitmiş bütün canlılar onun xeyrinə şahidlik edərlər. İmam Mühəmməd Baqir (ə) buyurub: «Namaza çağırdığı hər kəsin savabından müəzzinə də pay düşər». Həmçinin, hədislərdən oxuyuruq ki, müəzzinin cəsədi qəbirdə çürüməz.

Maraqlıdır ki, İmam Zeynül-abidin (ə) «Hüquq risaləsi»ndə müsəlmanın üzərində haqqı olan şəxsləri sadalayarkən müəzzinə də yer ayırmışdır: «Müəzzinin haqqı budur ki, biləsən: O izzət və cəlal sahibi olan Rəbbini sənə xatırladır, axirət mükafatını almağa doğru çağırır, Allah qarşısında borcunu yerinə yetirmək üçün sənə yardım edir. Bunun üçün ona təşəkkür et; necə ki, sənə yaxşılıq etmiş insana təşəkkür edirsən».

Müəzzin məlahətli və gur səsdən əlavə, gözəl əxlaqa sahib olmalı, namazın vaxtlarını dəqiq bilməli, dəstəmazlı olmalı, azan verərkən bəzi qaydalara riayət etməlidir. *Minarənin* şərəfəsindən (eyvanından) *azan* verən şəxsin üzü qibləyə duraraq azana başlaması, azan verərkən sağa doğru yerini dəyişməsi, *qibləyə* arxa çevirməməsi müstəhəbdir.

N.R.

MÜFƏSSİR

bax: *təfsir.*

MÜFTİ

Ərəb dilindən tərcüməsi «fətva verən» deməkdir. Hər hansı məsələ barədə İslamın ana mənbələrinə istinad edərək və əqli metodlara əsaslanaraq, yəni *ictihad* edərək *fətva* vermə səlahiyyətinə malik olan ruhani alim. Əslində müfti və *müctəhid* anlayışları eyni mənaya malikdir. Amma hal-hazırda eyni səlahiyyətə və məqama sahib olan alimləri sünni məzhəbində «müfti», şiə məzhəbində isə «müctəhid» adlandırırlar.

Müfti dini elmləri mükəmməl mənimsəməklə yanaşı, həm də gözəl əxlaqlı, təqvalı və ədalətli olmalı, zamanın tələblərini bilməlidir.

İslamın lap əvvəllərindən etibarən müftilik ənənəsi mövcud olmuşdur. Vaxtilə Həzrət Mühəmməd Peyğəmbər (s) *Müaz ibn Cəbəl* adlı səhabəni İslamı yaymaq məqsədilə Yəmənə göndərəndə ona icazə vermişdi ki, camaatın soruşacağı məsələlər barədə Qurana və sünnəyə əsasən hökm versin, bu iki mənbədən dəlil tapmayanda öz ictihadına əməl etsin. Peyğəmbərin Müaza tapşırığında «fətva vermək» sözü işlənməsə də, aydındır ki, Qurana və sünnəyə əsasən hökm etmək və lazımi hallarda ictihaddan yararlanmaq elə fətva vermək deməkdir.

Həzrət Əli (ə) öz əmisi oğlu, Məkkə valisi Qüsəm ibn Abbasa ünvanladığı məktubda yazırdı: «Camaatın həcc ziyarətini təşkil et, Allahın günlərini *(həcc günlərini, yaxud halal və haram günləri)* camaatın yadına sal, gecə-gündüz onlarla birlikdə oturub-dur, fətva istəyənlərə fətva ver, nadanları öyrət, bilənlərin yadına sal» *(Nəhcül-bəlağə, 67-ci məktub)*. İmam Mühəmməd Baqir (ə) öz səhabəsi Əban ibn Təğlibə tapşırmışdı ki, Mədinə məscidində otursun və camaat üçün fətva versin.

N.R.

MÜHACİR

Lüğəvi mənası «hicrət edən» deməkdir. Terminoloji mənada Həzrət Mühəmməd Peyğəmbərin (s) zamanında Məkkədən Həbəşistana və ya Mədinəyə hicrət etmiş səhabələrə deyilir. Adətən, Mədinəyə hicrət etmiş şəxslərə aid edilir. Qurani-kərimdə mühacirlər haqqında buyrulur: «İman gətirib hicrət edənləri, Allah yolunda malları və canları ilə vuruşanları Allah yanında ən yüksək dərəcələr gözləyir. Onlar nicat tapanlardır» *(Tövbə, 20)*.

M.İ.

MÜHƏDDİS

Hədis sahəsində mütəxəssis. *Sənədləri*, sənəddə adı qeyd edilən *raviləri*, hədisi etibardan salan cəhətləri bilən, çoxlu sayda hədisi sənəd və mətnləri ilə əzbərləyən, ravilərin *cərh və tədil* baxımından vəziyyətlərini bilən, bu elm sahəsində ixtisaslaşan alimlərə deyilir.

R.Ş.

MÜHƏZRƏMUN

İslamın ilk dövrlərində yaşamış bir qrup insana verilən addır. «Mühəzrəm» sözünün lüğəti mənası və hansı təbəqəyə aid edilməsi barədə İslam alimləri arasında fikir ayrılığı vardır. Bəziləri Həzrət Mühəmməd Peyğəmbərin (s) zamanında yaşamış, amma Onu görməyə nail olmamış müsəlmanları «mühəzrəm» adlandırırlar. Bu insanların başında *Üveys Qərəni*, qazi Şüreyh, Əhnəf ibn Qeys kimi məşhur şəxslər durur. Bəzilərinin fikrincə, Peyğəmbərin müasiri olmuş, amma Onun sağlığında deyil, vəfatından sonra İslamı qəbul etmiş şəxslərə mühəzrəm deyilir. Daha geniş yayılmış fikrə əsasən, mühəzrəmun – ömrünün bir hissəsini cahiliyyə dövründə, qalan hissəsini də İslam zamanında keçirmiş ərəb şairləridir. Bunlara misal olaraq, *Həssan ibn Sabit, Kəb ibn Züheyr*, Ləbid Amiri, Nabiğə Cədi kimi görkəmli ərəb şairlərini göstərmək olar.

Sözün lüğəvi mənalarına gəlincə, bir nəzəriyyəyə görə, mühəzrəm – «bir-birinə qarışmış» deməkdir. Bu şəxslərin yaşı çox olduğuna görə, onların əshabdan, yoxsa *tabiindən* olduqlarını ayırd etmək çətinlik törədirdi; buna görə də onlara bu ad verilmişdi. Başqa bir mənaya görə, ərəblər öz dəvəsinin qulağını azacıq kəsən adama «mühəzrim» deyirlər. Belə söyləyirlər ki, müşrik qəbilədə yaşayan, amma müsəlmanlığı gizlicə qəbul edən şəxslər İslam fəthləri zamanı müşriklərdən seçilsinlər deyə, öz dəvələrinin qulağını kəsirmişlər *(bax: Zeynüddin Əhməd Zəbidi. Səhihi-Buxari müxtəsəri, Təcridi-sərih tərcüməsi və şərhi (türk. tərc.), I, 32-35)*.

N.R.

MÜXALƏFƏTÜN LİL-HƏVADİS

bax: *səlbiyyə sifətləri.*

MÜKSİRUN və MÜQİLLUN

«Müksirun» sözünün ərəb dilindən tərcüməsi «çoxaldan» deməkdir. Dini termin olaraq, Həzrət Mühəmməd Peyğəmbərdən (s) başqa ravilərə nisbətən daha çox hədis rəvayət etmiş bir neçə səhabəyə bu ad verilib. Müksirun təbəqəsinə şərti olaraq, 1000-dən artıq hədis rəvayət etmiş səhabələri aid edirlər. Bunların sayı 7 nəfərdir:

1. *Əbu Hüreyrə* – 5374 hədis rəvayət etmişdir. Bunların 93-nü yalnız Buxari, 189-nu yalnız Müslim, 335-ni isə hər ikisi öz «Səhih»lərində qeyd etmişlər. Qalan 4757 hədis başqa mənbələrdə mövcuddur.

2. *Abdullah ibn Ömər* – 2630 hədis rəvayət etmişdir. Bunların 81-ni yalnız Buxari, 31-ni yalnız Müslim, 170-ni isə hər ikisi öz «Səhih»lərində qeyd etmişlər. Qalan 2348 hədis başqa mənbələrdə mövcuddur.

3. *Ənəs ibn Malik* – 2286 hədis rəvayət etmişdir. Bunların 83-nü yalnız Buxari, 71-ni yalnız Müslim, 168-ni isə hər ikisi öz «Səhih»lərində qeyd etmişlər. Qalan 1964 hədis başqa mənbələrdə mövcuddur.

4. *Ümmül-möminin Aişə* – 2210 hədis rəvayət etmişdir. Bunların 54-nü yalnız Buxari, 68-ni yalnız Müslim, 174-nü isə hər ikisi öz «Səhih»lərində qeyd etmişlər. Qalan 1914 hədis başqa mənbələrdə mövcuddur.

5. *Abdullah ibn Abbas* – 1660 hədis rəvayət etmişdir. Bunların 28-ni yalnız Buxari, 49-nu yalnız Müslim, 75-ni isə hər ikisi öz «Səhih»lərində qeyd etmişlər. Qalan 1508 hədis başqa mənbələrdə mövcuddur.

6. *Cabir ibn Abdullah Ənsari* – 1540 hədis rəvayət etmişdir. Bunların 26-nı yalnız Buxari, 126-nı yalnız Müslim, 58-i isə hər ikisi öz «Səhih»lərində qeyd etmişlər. Qalan 1330 hədis başqa mənbələrdə mövcuddur.

7. *Əbu Səid Xüdri* – 1170 hədis rəvayət etmişdir. Bunların 26-nı yalnız Buxari, 52-ni yalnız Müslim, 43-nü isə hər ikisi öz «Səhih»lərində qeyd etmişlər. Qalan 1049 hədis başqa mənbələrdə mövcuddur *(Zəbidi. Səhihi-Buxari müxtəsəri, Təcridi-sərih tərcüməsi və şərhi (türk. tərc.), I, 25-26)*.

1000-dən az hədis rəvayət edən bütün səhabələri isə müqillun təbəqəsinə aid edirlər. Ərəb dilindən tərcüməsi «azaldan» deməkdir. Cənnətlə müjdələnmiş 10 nəfər (o cümlədən, *raşidi xəlifələri*), ümmül-möminin Aişəni çıxmaqla Peyğəmbərin bütün xanımları da müqillun təbəqəsinə aiddirlər. Aşağıda 100-dən 1000-ə kimi hədis rəvayət etmiş məşhur səhabələrin adı azalma ardıcıllığı ilə verilir:

Abdullah ibn Məsud – 848 hədis.
Abdullah ibn Əmr ibn As – 700 hədis.
Əli ibn Əbu Talib – 586 hədis.
Ömər ibn Xəttab – 537 hədis.
Ümmül-möminin Ümmi-Sələmə – 378 hədis.
Əbu Musa Əşəri – 360 hədis.
Əbuzər Ğifari – 281 hədis.
Səd ibn Əbu Vəqqas – 271 hədis.
Hüzeyfə ibn Yəman – 250 hədis.
Əbu Dərda – 179 hədis.
Übeyy ibn Kəb – 164 hədis.
Müaviyə ibn Əbu Süfyan – 163 hədis.
Müaz ibn Cəbəl – 157 hədis.
Əbu Əyyub Ənsari – 155 hədis.
Osman ibn Affan – 146 hədis.
Əbu Bəkr – 142 hədis.
Müğeyrə ibn Şöbə – 136 hədis.
Nöman ibn Bəşir – 102 hədis.
Cərir ibn Abdullah – 100 hədis.

Bunlardan əlavə, məşhur səhabələrdən *Əbdürrəhman ibn Ovf* 65, *Əmmar ibn Yasir* 62, *Salmani-farsi* 60, *Bilal* 44, *Miqdad* 42, *Əmr ibn As* 39, *Xüzeymə ibn Sabit züş-şəhadətеyn*, *Zübeyr ibn Əvvam* və *Təlhə ibn Übeydullah* hər biri 38, Peyğəmbərin əmisi *Abbas* 35, *Abdullah ibn Zübeyr* 33, *Süheyb Rumi* 31, Səd ibn Übadə 21, *Xalid ibn Vəlid* 18, *Əbu Übeydə ibn Cərrah* 14 hədis rəvayət etmişlər (ədədlər əhli-sünnə mənbələrinə əsasən verilir).

Müksirun səhabələrdən niyə bu qədər çox, müqillin səhabələrdən isə az hədis rəvayət edilməsinin səbəbləri barədə izahatlar genişdir. Qısaca olaraq bunu deyə bilərik ki, müqillun səhabələrin az hədis rəvayət etmələrinin səbəbi onların hədis sahəsində çox məsuliyyətli və diqqətcil davranmaları ilə izah edilə bilər. Həmçinin, bunların bir ço-

xunun başı dövlət işlərinə, siyasi hadisələrə qarışdığı üçün hədisçiliklə məşğul olmağa imkan tapa bilməmişlər. Bəzi səhabələrin isə hədisləri siyasi səbəblər üzündən unutdurulmuş, onlardan hədis rəvayət etmək qadağan olunmuşdu (İmam Əli ibn Əbu Talib (ə) və tərəfdarları bura aiddirlər). Müksirun səhabələrin hamısının Peyğəmbərdən sonra uzun müddət (47 ildən 82 ilə kimi) yaşamaları da çoxlu hədis söyləmələrinə şərait yaratmışdır.

N.R.

MÜQƏLLİD

Təqlid edən. Şəriət məsələlərində üstün dərəcəyə malik *müctəhidin (mərceyi-təqlidin)* fətvalarına əməl edən şəxs.

bax: *təqlid.*

N.R.

MÜQƏRRƏBUN

Ərəb dilindən tərcüməsi «yaxınlaşdırılmış» deməkdir. Qurani-kərimdə qiyamət günündə möminlərin Allah dərgahına ən yaxın məqamda olacaqları bildirilir. Allaha yaxın olan möminlər axirətdə ön cərgədə duracaq *(Vaqiə, 11),* behişt çeşməsindən su içmək şərəfinə nail olacaqlar *(Mütəffifin, 28).* Quranda Həzrət İsa Peyğəmbər (ə) də Allaha yaxın olanlardan (müqərrəbin) sayılıb *(Ali-İmran, 45).*

«Müqərrəbun» həm də üstün dərəcəli bəzi mələklərə verilən addır. Quranın əksər ayələrində mələklərdən ümumi şəkildə, heç bir fərq qoyulmadan söhbət açılsa da, bəzi ayələrdə «müqərrəbun mələklər» deyə seçki edilir *(Nisa, 172*; Mütəffifin surəsinin 21-ci ayəsindəki «müqərrəbun» sözünü də mələklərə aid edirlər). Müqərrəbun mələklərin hansılar olduğu Quranda konkret göstərilmir. İmam Fəxr Razi Nisa surəsinin 172-ci ayəsinin təfsirində müqərrəbun təbəqəsinin dörd böyük mələkdən – *Cəbrail, Mikail, İsrafil* və *Əzraildən (ə),* həmçinin, ərşi daşıyan mələklərdən ibarət olduğunu bildirir. Dörd mələyin hər birinin özünəməxsus vəzifəsi vardır. Məsələn, Cəbrail peyğəmbərlərə Allahın *vəhyini* çatdırır (Həzrət Mühəmməd Peyğəmbərə (s) də Quran ayələrini o gətirirdi). Mikail Allahın əmri ilə kainatda baş verən bəzi prosesləri həyata keçirir. Məsələn, bəzi insanların ruzisini çatdırır, möminlərə döyüşdə kömək edir, təbiət hadisələrini (yağış, zəlzələ və s.) həyata keçirir. İsrafilin vəzifəsi dünyanın sonunda Allahın əmri ilə əlindəki *sura* (şeypura) üfürüb, *qiyamətin* başlandığını xəbər verməkdir. Əzrail isə Allahın təyin etdiyi vaxt *əcəli* çatmış insanların canını almaq vəzifəsini daşıyır.

N.R.

MÜQƏTTƏƏ HƏRFLƏR

Ərəb dilindən tərcüməsi «kəsik, tək-tək hərflər» deməkdir. Bəzən «təhəcci» (heca) hərfləri də adlandırılır. Qurani-kərimin 29 surəsinin əvvəlində işlədilən, hər hansı mənanı ifadə etməyən ayrı-ayrı hərflərə deyilir.

Müqəttəə hərflər ərəb əlifbasının 14 hərfini əhatə edir: əlif, he, ha, ta, ye, kaf, lam, mim, nun, sin, ayn, qaf, sad və ra. Bu hərflər bəzən tək, bəzən cüt halda, bəzən də üç, dörd və beş hərfin kombinasiyası şəklində işlədilib. Məsələn: qaf, ya-sin, əlif-lam-mim, əlif-lam-mim-sad, ha-mim-ayn-sin-qaf.

Müqəttə hərflərin hansı mənanı ifadə etdiyi barədə irəli sürülmüş nəzəriyyələr həddən artıq rəngarəngdir. Məsələn, nəzəriyyələrin birinə görə, Allah surələrin əvvəlinə adi ərəb hərflərini əlavə etməklə insanlara başa salmaq istəyir ki, Quran onların danışdıqları adi hərflərdən təşkil olunub. Amma onlar bu hərflərin vasitəsilə Quranın mislini yaratmağa qadir deyillər. Bəziləri müqəttəə hərfləri gizli və dərkolunmaz sirr saymış, bunun üçün İmam Əli ibn Əbu Talibin (ə) aşağıdakı hədisini əsas gətirmişlər: «Hər kitabın seçilmiş hissələri var. Bu kitabın *(Quranın)* da seçilmiş hissəsi təhəcci hərfləridir». Abdullah ibn Məsud isə belə demişdir: «Bu hərflər gizli elm və pərdəli sirdir, Allah bu hərfləri bəyənib». Keçmişdə bəzi tədqiqatçılar müqəttəə hərfləri *əbcəd* qaydası ilə hesablayıb, bu yolla aldıqları ədədlərin mənasını yozmağa çalışırdılar. Məsələn, yəhudilər «əlif-lam-mim» sözlərini əbcədlə hesablayıb bu qərara gəlmişdilər ki, İslam dininin ömrü cəmi 71 il olacaq. Bu fikir onları çox sevindirmişdi. Amma digər müqəttəə hərflərlə tanış olduqdan sonra onlar səhv etdiklərini anladılar. Bəzi təfsirçilər müqəttəə hərfləri surələrin adı kimi, bəziləri isə surələri bir-birindən ayıran əlamət kimi dəyərləndiriblər. Bu hərfləri *ismi-əzəmin* rəmzi sayanlar, Allahın adlarının əlamətləri kimi qəbul edənlər də olub. Son zamanlar Qurani-kərimin riyazi möcüzələrinin açılması istiqamətində aparılmış tədqiqatlar nəticəsində belə bir fərziyyə də irəli sürüldü: Müqəttəə hərflər onu göstərir ki, həmin surədə ən çox işlənən hərflər məhz bunlardır. Məsələn, Bəqərə surəsində (əlif-lam-mimlə başlayır) ən çox əlif hərfi, ondan sonra lam, daha sonra isə mim hərfi işlənib. Müqəttəə hərfləri Allahın adlarından ibarət cümlələrin baş hərfi kimi mənalandırmaq cəhdləri də olub. Məsələn, «əlif-lam-mim» hərflərini «Əna Allahü ələm» (Mən ən elmli Allaham) ifadəsinin rəmzi kimi izah edirlər. Bu zaman «əna» sözünün ilk hərfi, «Allah» sözünün orta hərfi, «ələm» sözünün isə son hərfi götürülür.

Tədqiqatçıların bir hissəsi isə bu fikirdədir ki, Allah-təala insanların diqqətini özünə sarı cəlb etmək üçün surələrin əvvəlində müqəttəə hərfləri işlədib. İnsanın adətidir ki, diqqəti özünə çəkmək üçün söhbətinin əvvəlində bəzi kəlmələrdən istifadə edir (məsələn, «bax», «hə» və s.). Ərəblər söhbətdən əvvəl «ha», «əla» və «ima» kəlmələrini işlədirlər. Müqəttəə hərflər də Quranı dinləyən şəxslərin diqqətini cəmləşdirməyə xidmət edir.

N.R.

MÜQİLLUN

bax: *müksirun.*

MÜLHİD

bax: *ilhad.*

MÜMKÜNÜL-VÜCUD

bax: *vacibül-vücud.*

MÜNAFİQ

Nifaq əhli, nifaqı özünə xasiyyət etmiş şəxs. İslam mənbələrində ən qorxulu və təhlükəli düşmən kimi təsvir edilir. Çünki *kafiri* sözündən və əməlindən tanımaq olur; buna görə də ondan qorunmaq asandır. Münafiq isə ciddi-cəhdlə pərdələndiyi üçün onu ifşa etmək, tanımaq və şərindən xilas olmaq çətindir. Münafiq öz fəaliyyətini gizli həyata keçirir, möminlərin zəif cəhətlərini öyrənir və həmin nöqtələrdən onlara zərbə vurur. Münafiq dildə iman etdiyini söyləyir. İmanını elan etmiş şəxs isə hüquqi cəhətdən müsəlman sayılır; buna görə onunla müsəlman kimi davranırlar. Amma münafiqin qiyamətdəki aqibəti özünü təqdim etdiyi təsvirə əsasən yox, əsl mahiyyətinə görə olacaq.

Münafiqlər özlərini mömin kimi göstərməklə Allahı aldatdıqlarını düşünürlər; halbuki, aldanan Allah deyil, onların özləridir: «Onlar elə güman edirlər ki, *(qəlblərində olan küfrü gizlətməklə)* Allahı və möminləri aldadırlar. Bilmirlər ki, əslində ancaq özlərini aldadırlar» *(Bəqərə, 9).* Münafiqlərin Allahı aldatmaq cəhdini alimlər buna bənzətmişlər: Təsəvvür edin ki, həkim xəstəni müayinə edib ona dərman qəbul etməyi məsləhət görür. Xəstə isə həkimi aldadıb dərmanı qəbul etmir. Amma həkim soruşanda, «dərmanı qəbul etmişəm» – deyir. Bu halda o, həkimi aldatdığın düşünür. Halbuki, əsl aldanan və uduzan o özüdür. Münafiq də insanı dünya və axirət xoşbəxtliyinə çatdırmaq üçün Allah tərəfindən dərman kimi təklif edilən imanı və ibadəti tərk edir, amma özünü bunlara yiyələnmiş kimi göstərir. Nəticədə, hər iki dünyada ziyana uğrayan o özü olur *(Möhsin Qiraəti. Təfsiri-nur, I, 57-58).*

Qurani-kərimin surələrindən biri (63-cü surə) «Münafiqun» adlanır. Müqəddəs Kitabda münafiqlərin bəzi sifətləri açıqlanır: «Münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki, əslində *(Allah)* onları aldadır. Onlar namaza durduqları zaman *(yerlərindən)* tənbəllikllə *(könülsüz)* qalxar, özlərini *(yalandan)* xalqa göstərər və Allahı olduqca az yad edərlər. *(İmanla küfr arasında)* tərəddüd edib nə bunlara *(möminlərə),* nə də onlara *(kafirlərə)* tərəf dönərlər. Allahın azdırdığı şəxs üçün heç bir yol *(nicat yolu)* tapa bilməzsən» *(Nisa, 142-143).* «Münafiq kişilərlə münafiq qadınlar *(ikiüzlülükdə)* bir-birinin eynidirlər. Onlar pis işləri görməyi əmr edər, yaxşı işləri qadağan edərlər. Hələ əlləri də bərkdir *(xəsisdirlər).* Onlar Allahı unutdular, Allah da onları unutdu. Həqiqətən,

münafiqlər fasiqlərdir!» *(Tövbə, 67).*

Quranda münafiqlərin dəhşətli aqibəti də nəzərdən qaçırılmayıb: «Əlbəttə, münafiqlərin yeri cəhənnəmin ən aşağı təbəqəsindədir. Sən heç vaxt onlara yardım edən tapmazsan!» *(Nisa, 145). «(Ya Peyğəmbər)* Sən onların bağışlanmasını diləsən də, diləməsən də, onlar üçün fərqi yoxdur. Onsuz da Allah onları bağışlamayacaqdır. Şübhəsiz ki, Allah fasiq qövmü doğru yola yönəltməz!» *(Münafiqun, 6).*

Həzrət Əli ibn Əbu Talibin (ə) «Nəhcülbəlağə»dəki xütbələrinin birində münafiqlərin xüsusiyyətləri ən təsirli üsullarla təsvir edilib: «Ey Allahın bəndələri! Sizə vəsiyyət edirəm ki, Allaha münasibətdə təqvalı olasınız və nifaq əhlindən çəkinəsiniz. Həqiqətən, onlar azğın və azdırandırlar. Həm çaşan *(səhv edən)*, həm də çaşdırandırlar. Rəngdən-rəngə girər, cürbəcür fitnələr törədərlər. Sizə qarşı hər bir dayaqdan *(istinadgahdan)* istifadə edərlər. Sizin yolunuzdakı hər pusquda oturub fürsət gözləyərlər. Onların qəlbləri xəstə, zahiri görünüşləri bəzəklidir. Gizli hərəkət edib, sizə ziyan vurarlar. Zahiri görünüşləri dərdlərə dəva, danışdıqları sözlər şəfadır. Amma əməlləri sağalmaz dərddir. Asayişə həsəd aparar, bəla və çətinliyi möhkəmlədər, ümidləri öldürüb məhv edərlər. Onlar bütün yolların üstündə tələ qurmuşlar. Bütün qəlbləri sarsıtmağa imkanları var. Hər dərd üçün nümayişkaranə şəkildə göz yaşı axıtmağı bacarırlar. Tərif söyləməyi ticarətə çeviriblər. Həmişə söylədikləri tərifə görə mükafat gözləyirlər. Bir şeyi istəsələr, israr edərlər, almayınca əl çəkməzlər. Bir kəsə etiraz etsələr, onu rüsvay edib biabırçılıq törədərlər. Hökm versələr, israf edərlər. Hər bir haqqın qarşısında batil yaradar, hər bir möhkəm şeyə əyrilik verməyə çalışarlar. Hər bir canlı üçün qatil axtararlar. Hər qapıya açar, hər gecəyə çıraq hazırlayarlar. Öz tamahlarına arxalanarlar. Hərdən istədikləri şeyə qarşı laqeyd olduqlarını göstərərlər ki, bazarları rövnəq tapsın və öz məqsədlərinə yetişə bilsinlər. Söz danışanda insanları şübhəyə salarlar. Tərifləyəndə lazım olduğundan çox bəzək-düzək vurarlar. Düz yolu əyri, dar keçidi hamar kimi təqdim edərlər. Onlar şeytanın yardımçısıdırlar. Onlar cəhənnəm atəşinin istisidirlər *(yəni atəş üçün odundurlar)*. Onlar şeytanın firqəsidirlər. Bilin ki, şeytanın firqəsi – məhz onlar ziyana uğrayanlardır!» *(Nəhcül-bəlağə, 185-ci xütbə).*

İmam Cəfər Sadiq (ə) Həzrət Mühəmməd Peyğəmbərə (s) istinadən münafiqin xüsusiyyətlərini belə təsvir edir: «Hər kimdə bu üç xüsusiyyət varsa, – hətta namaz qılıb, oruc tutub, özünü müsəlman kimi göstərsə də – münafiqdir: Ona etibar etsən, xəyanət edər; hədis *(rəvayət)* danışsa, yalan söyləyər; vəd versə, vədinə xilaf çıxar».

bax: *nifaq.*

N.R.

MÜNƏCCİM

Nücum elminin mütəxəssisi, astronom, astroloq. Şərq ədəbiyyatında, eləcə də, dini mətnlərdə «münəccim» sözü məhz astroloq, yəni göy cismlərinin yerdəki hadisələrə o cümlədən, insan taleyinə təsirini öyrənən, bü təsiri zərərsizləşdirmək üçün bəzi vasitələrə bələd olan şəxs mənasında işlədilir. Bu baxımdan, dini mətnlərdə (hədislərdə və fiqh kitablarında) münəccim mənfi bir obraz kimi çıxış edir. Məsələn, İmam Qəzzali «Ehyaü ülumid-din» kitabında Həzrət Mühəmməd Peyğəmbərin (s) belə buyurduğunu yazır: «Məndən sonra ümmətim üçün hakimlərin zülmündən, ulduzlara inanmaqdan və qəza-qədəri inkar etməkdən qorxuram». Həzrət Əli (ə) isə nücum elmi vasitəsilə uğurlu və nəhs saatları təyin etməyi günah sayır, bunu edən münəccimləri son mənada kafirə bənzədirdi: «Münəccim – kahin kimi, kahin – sehrbaz kimi, sehrbaz – kafir kimidir. Kafirin yeri isə alovdur *(cəhənnəmdir)*». Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub: «Kim nücumu öyrənsə, sehrlə məşğul olmuş kimidir. Nücuma aid biliyi artdıqca sehrbazlığı da artar» *(Sünənü Əbu Davud, Tibb kitabı, 3905-ci hədis).*

Bununla belə qeyd etmək lazımdır ki, orta əsrlərdə demək olar ki, bütün müsəlman dövlətlərində saray əyanları sırasında münəccimlər də var idi. Hökmdarlar münəccimin xidmətindən istifadə edir, hər hansı mühüm qərar qəbul etmək istəyəndə onunla məsləhətləşirdilər. Bəzən münəccimlər öz mənafeləri naminə saray intriqalarına qoşulur, hər hansı dövlət adamını gözdən salmaq üçün deyirdilər ki, guya hökmdarın taleyinə həmin adamın zərər yetirəcəyini ulduzlar xəbər verir. Bu kimi işlərin sayəsində münəccimlər sarayda çox böyük nüfuz qazanırdılar.

N.R.

MÜRDƏŞİR (MÜRDƏŞUR)

Fars dilindən tərcüməsi «ölüyuyan» deməkdir. Vəfat etmiş insanlara cənazə qüslü verən şəxsə deyilir.

İslam qanunlarına görə, ölünün yuyulması, kəfənlənməsi və basdırılması sair müsəlmanlar tərəfindən təmənnasız icra olunmalıdır. Həm də bu işlərin müqabilində zəhmət haqqı almağa şəriətdə icazə yoxdur. Əlbəttə, istifadə olunan materialın (*kəfən, sidr-kafur* və s.) pulunu ya ölünün mirasından, ya da varislərin əmlakından vermək olar. Amma sırf zəhmət haqqı olaraq pul almaq şəriətdə qadağandır. Buna görə də, əslində dinimizdə ölüyuyan peşəsi yoxdur. İslam ənənəsinə görə, rəhmətə getmiş müsəlmanı öz yaxınları yuyub kəfənləyir və dəfn edirlər. Hər kim bu işdə mərhumun qohumlarına yardım etsə, böyük savab qazanmış olur. Təəssüf ki, halhazırda İslamın bu ənənəsi əksər hallarda unudulur.

«Mürdəşir» sözü xalq deyimlərində adətən, mənfi mənada işlədilir. Bir kəsin ölməsi üçün qarğış edəndə «üzünü mürdəşir yusun» deyirlər.

N.R.

MÜRİD

Ərəbcə «istəyən» deməkdir. Allahın əxlaqı ilə əxlaqlanmaq istəyən, şeyxə *(mürşidə)* bağlanaraq ondan kamillik öyrənən şəxsə deyilir. Təsəvvüf anlamında kamilliyin dörd mərhələsi var: talib, mürid, mütəsəvvif və sufi. Mürid üç qismə ayrılır: 1. ***Mütləq mürid*** – şeyxinə «nə üçün?» sualı verməyən, dili və qəlbi ilə etiraz etməyən, onun sözlərinə dəlil istəməyən müriddir. 2. ***Mücaz mürid*** – hər bir məsələdə öz batinini və zahirini şeyxin iradəsinə tabe edən müriddir. 3. ***Mürtəd mürid*** – şeyxin əmr və qadağan etdiyi mövzulara qarşı çıxan müriddir.

R.M.

MÜRŞİD

Ərəb dilində «doğru yol göstərən, xəbərdar edən, irşad edən» mənalarını bildirir. Həqiqi mürşid Həzrət Mühəmməd Peyğəmbərdir (s). Digər mürşidlər onun mənəvi mirasını əldə etməyə çalışan şəxslərdir. Dilçi alim Cürcaniyə görə, mürşid – doğru yol göstərən, zəlalətə düşmədən haqqa doğru yönəldən şəxsdir. Təsəvvüf aləmində təriqət başçısına mürşid deyilir. «Şeyx» sözü də oxşar mənanı bildirir. Mürşid Allahın əxlaqı ilə əxlaqlanmış, yəni *fəna* məqamına çatmış olmalıdır.

R.M.

MÜRTƏD

İslam dinindən çıxmış şəxs. Hər kim iman əsaslarından birini və ya bir neçəsini inkar edərsə, dini hökmləri, halal və haramları, əmr və qadağanları, nəsihət və tövsiyələri bəyənməzsə, bunları rədd edərsə, irtidad etmiş, dindən çıxmış olar.

A.Q.

MÜSƏLMAN

İslam dininə etiqad bəsləyən şəxs. Dini mənbələrdə göstərilir ki, bir şəxsin müsəlman kimi qəbul edilməsi üçün *kəlmeyi-şəhadəti* söyləməsi kifayətdir. Həmin gündən o, müsəlman cəmiyyətinin bərabərhüquqlu üzvü sayılır, müsəlmanlara aid olan bütün hüquq və vəzifələr ona da şamil olur. Bu, İslamın zəruri olan zahiri tərəfidir. Lakin əsl müsəlman o şəxsdir ki, İslam dininin əsas əqidə prinsiplərini – Allahın varlığını və vahidliyini, peyğəmbərlərin Allah tərəfindən vəhylə gəldiklərini, Həzrət Mühəmmədin (s) sonuncu peyğəmbər olduğunu, ölümdən sonrakı həyatın, məhşərin, cənnət və cəhənnəmin haqq olduğunu qəbul etsin. Eləcə də, Allaha, peyğəmbərlərə, məsum imamlara, mələklərə, Qurana hörmətsizlik göstərməsin, dinin bütün zəruri halal və haramlarını qəbul etsin, onları inadkarlıqla inkar etməsin (hətta vacib ibadətləri yerinə yetirməsə və günah törətsə də). Halal və haramı yalnız qəbul etməklə kifayətlənməyib, həm də onlara riayət edən şəxs bundan da yüksək məqama – iman mərtəbəsinə ucalar və *mömin* sayılar.

Həzrət Mühəmməd Peyğəmbərin (s) və

məsum imamların hədislərində müsəlmana gərəkən əxlaqi xüsusiyyətlər ətraflı izah edilmişdir. Doğrudur, bu xüsusiyyətlərə malik olmayan şəxsləri İslamdan kənar saymağa, onlara *kafir* və ya *mürtəd* kimi baxmağa haqqımız yoxdur. Çünki İslam şəriəti insanlarla zahirlərinə (söz və əməllərinə) əsasən hökm etməyi əmr edir, daxildə (ürəkdə) olanı yalnız Allah düzgün bilir. Amma bir şəxsin yalnız zahirən deyil, həm də daxilən kamil bir müsəlman kimi yetişməsi üçün bu sifətlərə yiyələnməsi mütləq vacibdir.

Müsəlmanlığın vacib şərtlərindən biri cəmiyyətə faydalı olmaq, başqalarının vəziyyəti ilə maraqlanmaq, öz din qardaşlarına əlindən gələn köməyi etməkdir: «Müsəlmanların vəziyyəti ilə maraqlanmamaq niyyəti ilə öz gününü başlayan şəxs müsəlman deyil». «Hər kim «Ey müsəlmanlar!» – deyə, fəryad edən bir şəxsin səsini eşitdiyi halda, ona cavab verməsə *(yardım etməsə),* müsəlman sayılmaz» (Həzrət Mühəmməd Peyğəmbər (s)).

Müsəlmanın müsəlman üzərindəki hüquqları barədə İmam Cəfər Sadiq (ə) buyurmuşdur: «Müsəlman müsəlmanın qardaşıdır. Onu incitməz, aldatmaz, atıb-getməz, onun qeybətini danışmaz, ona xəyanət etməz və heç nəyi ondan əsirgəməz». Hədislərdə müsəlmanlar bir-birinin gözü və güzgüsü kimi təsvir edilirlər. İnsan yaxşı və pis olan hər şeyi gözlə görür, göz insanı aldatmaz. Güzgü də hər şeyi olduğu kimi əks etdirir. Müsəlman da öz din qardaşına bütün həqiqətləri olduğu kimi göstərməli, ondan heç nəyi gizlətməməli, təhlükə barədə onu vaxtında xəbərdar etməlidir. Müsəlman öz xəstələnmiş din qardaşını yoluxmalı, vəfat etmiş din qardaşının dəfn mərasiminə qatılmalıdır. Hədislərdə hətta müsəlmanların bir-birinə salam vermələri, asqırarkən bir-biri üçün xeyir-dua etmələri də hüquq və vəzifələr sırasında qeyd edilib.

Öz din qardaşları ilə mehriban davranan müsəlman Allah tərəfindən sevilər və mükafatlandırılar: «Hər kim öz müsəlman qardaşının könlünü xoş sözlə alsa, onun qəm-qüssəsini dağıtsa, bu xasiyyəti tərk etməyincə, Allahın mərhəməti altında olar». «Hər kim, ona qonaq gəlmiş müsəlman qardaşına ehtiram göstərsə, Allaha ehtiram göstərmiş kimidir» (Həzrət Mühəmməd Peyğəmbər (s)).

İmam Cəfər Sadiq (ə) buyurmuşdur: «Müsəlmanın müsəlman üzərindəki haqqı budur ki, din qardaşı ac olduğu halda özü tox olmasın, din qardaşı susuz olduğu halda özü sirab olmasın, din qardaşı çılpaq olduğu halda özü geyimli olmasın. Görün ki, müsəlmanın öz müsəlman qardaşı üzərindəki haqqı nə qədər böyükdür!». Həmçinin, O, buyurmuşdur: «Özün üçün istədiyini müsəlman qardaşın üçün də istə!» (Yəni özünə rəva bildiyini ona da rəva bil, özünə rəva bilmədiyini ona da rəva bilmə).

Müsəlman cəmiyyətin həyatına qaynayıb-qarışmalı, təhlükə anında hər kəsə öz köməyini təklif etməli, ictimai bəlalara, təbii fəlakətlərə qarşı mübarizədə sair müsəlmanlarla əl-ələ verməliidr. Hədislərdə müsəlman icmasını sudan (seldən) və oddan (yanğından) qoruyan şəxsin mütləq cənnətə düşəcəyi bildirilir.

Həzrət Mühəmməd Peyğəmbər (s) müsəlmanı təhqir etməyi, ona yuxarıdan-aşağı baxmağı qadağan etmişdir: «Müsəlmanlardan heç birini təhqir etməyin; onların ən kiçiyi Allahın yanında ən böyükdür».

N.R.

MÜSHƏF

Tərcüməsi «səhifələnmiş, səhifə halında olan» deməkdir. Qurani-kərimin adlarından biri kimi işlədilir. Həzrət Mühəmməd Peyğəmbərin (s) sağlığında *vəhy* ardıcıl olaraq davam etdiyi üçün Quran hələ bütövlükdə köçürülməmişdi və yazı halında mövcud deyildi. Buna görə də o zamanlar Qurana «müshəf» deyilmirdi. Peyğəmbərin vəfatından sonra Quran ayələri bütövlükdə yazıya alınıb toplu halına gətirildi və o vaxtdan etibarən Müqəddəs Kitaba həm də «müshəf» deməyə başladılar.

Dini kitablarda bəzən *«Əlinin müshəfi»* ifadəsinə rast gəlinir. Bu, Peyğəmbərin vəfatından sonra Onun vəsiyyətinə əsasən, Həzrət Əli ibn Əbi Talib (ə) tərəfindən toplanıb yığılmış Quran nüsxəsidir. Bəziləri bunun hal-hazırki Qurandan fərqli bir kitab olduğunu düşünürlər. Lakin Əlinin (ə) müshəfi ilə müasir Quran arasında bircə dənə də olsa, kəlmə və ya hərf fərqi yoxdur, nə bir kəlmə azaldılıb, nə də bir hərf çoxaldılıb. Yeganə fərq – ayələrin sıra ilə düzülüşündədir. Əli (ə) bütün ayələri Peyğəmbərə nazil olduqları ardıcıllıqla düzmüşdü. Hazırki Quranda isə surələr azalan ardıcıllıqla düzülüb, həcmcə iri surələr əvvəldə gəlir, get-gedə surələrin həcmi kiçilir.

N.R.

MÜSNƏD

Hədis məcmuəsi növlərindən biridir. Ərəb dilindən tərcüməsi «əsaslanmış, isnad edilmiş», yaxud «sənədinə əsasən toplanmış» mənalarını verir. Eyni bir *ravi* tərəfindən rəvayət edilmiş hədislərin toplumuna müsnəd deyilir. Bəzi kiçik həcmli müsnədlərdə yalnız bir və ya bir neçə səhabənin rəvayət etdiyi hədislər cəmlənmişdir. Lakin elə irihəcmli müsnədlər də var ki, orada yüzlərlə səhabənin rəvayəti müəyyən ardıcıllıqla sıralanır. Müsnədlərdə hədislərin sıralanma prinsipi sənədə əsaslanır. Yəni sənəd zəncirində Peyğəmbərdən əvvəl duran son ravinin rəvayət etdiyi hədislər bitdikdən sonra başqa ravinin hədislərinə keçirlər. Çox zaman eyni ravinin hədisləri arasında hər hansı mövzu ardıcıllığı gözlənilmir. Ravilərin adı ya əlifba sırasına, ya da fəzilət dərəcəsinə əsasən düzülür.

İlk müsnəd müəllifi Əbu Davud Süleyman ibn Davud Təyalisi (vəf. miladi 819-cu il) sayılır. Təyalisinin «Müsnəd»i 2890 hədisi əhatə edir.

İslam tarixi boyunca «Müsnəd» adı altında çoxlu kitab tərtib edilmişdir. Bunlardan ən məşhuru hənbəli məzhəbinin banisi İmam Əhməd ibn Hənbəl tərəfindən qələmə alınmış «Müsnəd»dir. 30 mindən artıq hədisin toplandığı bu kitabda əvvəlcə *raşidi xəlifələrin*, sonra isə ən məşhur səhabələrin rəvayətləri verilib. Bundan sonra ravilər məkkəli, mədinəli, şamlı, kufəli, bəsrəli olmaq üzrə qruplar şəklində təqdim ediliblər. Müsnədin son bölümlərində məchul ravilərin və qadınların rəvayətləri yerləşdirilib. Əhməd ibn Hənbəlin «Müsnəd»i əhli-sünnə məzhəbində ən mötəbər hədis məcmuələrindən sayılır.

Əhli-sünnə müəlliflərindən Hümeydi, Abdullah ibn Mübarək, Əbu Yəla Mosuli, İshaq ibn Rahiveyh, Əbu Şeybə, Bəzzar, Təbərani, İbn Səlamə, İmam Şafii və başqaları da irili-xırdalı müsnədlər tərtib etmişlər.

N.R.

MÜSTƏCAB

Tərcüməsi «cavab verilmiş» deməkdir. Adətən, bəndənin Allah-təala tərəfindən yerinə yetirilmiş istək və duaları haqqında bu ifadə işlədilir. Qurani-kərimdə Allah-təala buyurur: «Rəbbiniz buyurdu: «Mənə dua edin, mən də sizin dualarınızı qəbul edim» *(Mömin, 60).*

Duanın müstəcab olmasının bəzi şərtləri dini kitablarda qeyd edilib. Allah dərgahında duasının qəbul olmasını istəyən şəxs səmimi qəlbdən, ixlasla dua etməli, Allaha təvəkkül bəsləməli, yəni duasının cavabsız qalmayacağına inanmalı, duaya «Bismillahir-Rəhmanir-Rəhim»lə, Allaha həmdü-səna, Peyğəmbərə və Əhli-beytinə salavatla başlamalı, haramlardan, günah fikirlərdən uzaq olmalıdır. Duadan qabaq *hacət namazı* qılmaq, ya da namazın *qünutunda* dua etmək xüsusi təsirə malikdir. İnsan Allahın əmr və qadağanlarına riayət etməli, Onun razılığını qazanmağa çalışmalıdır ki, duaları qəbul olsun. Əgər bir şəxs Allahın çağırışlarını qulaqardına vurursa, Allahın istəklərini cavabsız qoyursa, öz çağırış və istəklərinin Allah tərəfindən yerinə yetiriləcəyini necə gözləyə bilər? «Dua edib məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da mənim çağırışımı qəbul edib mənə iman gətirsinlər» *(Bəqərə, 186).*

İslam müqəddəslərinin hədislərində bildirilir ki, dualar sübh azanı ilə Günəşin doğuşu arasındakı müddətdə, günorta vaxtı (*zöhr* azanı deyilən vaxt), yağış yağan vaxt, gecə vaxtı.daha çox müstəcab olur. Yenə hədislərdə buyurulur ki, zülmə məruz qalan və Allahdan imdad istəyən şəxsin duasını Allah-təala mütləq müstəcab edər.

N.R.

MÜSTƏDRƏK

Məşhur kitablara yazılan əlavəyə deyilir. Adətən, hədis kitablarına müstədrək yazılır. Həm şiə, həm də əhli-sünnə məzhəblərinin məşhur hədis mənbələrinin hərəsi bir müəllif tərəfindən yaradılmışdır. Bir nəfərin bü-

tün hədisləri bilməsi və toplaması qeyri-mümkündür. Buna görə də, kitabın tərtib edilməsindən bir müddət sonra müəllifin diqqətindən xeyli hədisin yayındığı aşkara çıxır. Bu zaman gözəl hədis tədqiqatçısı olan alimlər həmin kitaba müstədrək yazırlar. Müstədrək müəllifi hansı kitaba əlavələr edirsə, o kitabın müəllifinin hədisləri toplama və dəyərləndirmə qaydalarına riayət etməlidir. Yəni müstədrəkə yalnız o hədisləri aid etməlidir ki, ilk mənbə müəllifi əgər bu hədislərlə tanış olsaydı, onları öz kitabına daxil edərdi.

Bir çox kitablara yazılmış müstədrəklər məşhurdur. Məsələn, İmam Buxari ilə Müslimin «Səhih»lərinə daxil edilməmiş hədisləri onlardan təqribən 150 il sonra yaşamış Hakim Nişaburi «əl-Müstədrəkü ələs-Səhiheyn» kitabında toplamışdır. Şiə məzhəbinin irihəcmli hədis məcmuələrindən sayılan «Vəsailüş-şiə» kitabına yazılmış müstədrəkin müəllifi isə XIX əsrin ikinci yarvsında yaşamış Mirzə Hüseyn Nuridir. Həzrət Əli ibn Əbu Talibin (ə) xütbə, məktub və hikmətli sözlərindən ibarət olan «Nəhcül-bəlağə» kitabına Şeyx Mühəmməd Baqir Mahmudinin qələmə aldığı «Nəhcüs-səadə» adlı müstədrək də çox dəyərlidir.

N.R.

MÜSTƏHƏB (MÜSTƏHƏBBİ)

Tərcüməsi «sevilən, bəyənilən» deməkdir. İslam dininə görə, yerinə yetirilməsi *fərz* və *vacib* olmayan əməllərə deyilir. Müstəhəb əməl edən şəxs bunun üçün Allahdan mütləq mükafat alacaq. Müstəhəb əməllərə adət etmək insanın əxlaqını gözəlləşdirir, onu günahlardan daha artıq çəkindirir. Müstəhəb əməllər və ibadətlər bir qayda olaraq, Həzrət Mühəmməd Peyğəmbərin (s) sünnəsindən götürülür. Çünki O, bütün ömrü boyunca *haram* və *məkruh* iş görməmiş, yalnız *fərz (vacib)* və *müstəhəb* əməllər etmişdir.

N.R.

MÜŞRİK

bax: *şirk.*

MÜTƏ NİKAHI

bax: *siğə.*

MÜTƏKƏLLİM

Ərəb dilindən tərcüməsi «danışan» deməkdir («kəlam» sözündən). Allah-təalanın adlarından biridir. Danışmaq (kəlam) Allahın *sübutiyyə sifəti* kimi tanınır. Allah-təala bizim kimi nitq orqanları vasitəsilə danışmır. Çünki O, cism deyil, ağız, dil, dodaq, səs telləri kimi nitq üzvlərinə Onun ehtiyacı yoxdur. O, öz *iradəsi* ilə sözləri yaradır və istədiyi vasitələrlə istədiyi şəxsə ötürür. Necə ki, Həzrət Musa Peyğəmbər (ə) yanan ağacdan Allahın kəlamını eşitmişdi.

Kəlam elminin mütəxəssisinə də «mütəkəllim» deyirlər. Mütəkəllim elə bir alimdir ki, İslam əqidəsini Qurana və sünnəyə istinadən əsaslandırmağı bacarır, bununla bərabər əqli metodlara da müraciət edir. Hicrətin ilk əsrlərində yaşamış mütəkəllimlər sırf islami mövzuları müzakirə edirdilər. Həmin dövrün kəlam mübahisələrinin əsas mövzuları Allahın sifətləri, qəzavü-qədər, Quranın əzəli yoxsa yaranma olması, böyük günahları edən insanın aqibəti, imamət və sairə məsələlər idi. Kəlam elminin təməl prinsipləri həmin dövrdə işlənib-hazırlandı və İslamın əqidə əsasları sistemləşdirildi. Əbül-Həsən Əşəri, Matüridi, Baqillani, Cüveyni, Hişam ibn Həkəm, Şeyx Müfid, Seyid Mürtəza kimi alimlər, eləcə də *mötəzili* mütəkəllimlər bu dövrün ən parlaq simaları sayılırlar.

XI əsrin sonları – XII əsrin əvvəllərində yaşamış Əbu Hamid Qəzzali kəlam elmində yeni mərhələnin əsasını qoydu. Bu mərhələyə mənsub olan mütəkəllimlərin dünyagörüşündə fəlsəfənin (xüsusilə, qeyri-müsəlman xalqların fəlsəfəsinin) güclü təsiri görünür. Şəhristani, İmam Fəxr Razi, Nəsirəddin Tusi kimi alimlər bu təbəqənin yetirmələridir.

Sonralar kəlam elminin inkişaf tempi zəiflədi. Artıq mütəkəllimlər yeni nəzəriyyələr irəli sürməyə cəsarət etmir, özlərindən əvvəlki alimlərin irsini araşdırmaqla, onların əsərlərinə şərh və haşiyələr yazmaqla məşğul olurdular.

bax: *kəlam.*

N.R.

MÜTƏŞABEH

bax: *möhkəm və mütəşabeh ayələr.*

N

NAFİLƏ

Yerinə yetirilməsi fərz (qəti vacib) və vacib olmayan ibadət növləri. Əhli-sünnə məzhəbində sünnət, cəfəri məzhəbində isə müstəhəb kateqoriyasına aiddir. Nafilələri yerinə yetirməyən şəxs günahkar hesab edilmir və axirətdə cəzaya layiq görülmür; amma yerinə yetirən şəxsə axirətdə mükafat veriləcək. Namaz, oruc kimi ibadətlərin nafiləsinin icra qaydası şəriət kitablarında (*risalə* və ilmihallarda) ətraflı izah edilib.

Nafilə namazları hənəfi məzhəbində *vacib* (*fərzdən* bir qədər aşağı vaciblik dərəcəsinə malik), şafii, hənbəli və maliki məzhəblərində *sünnət*, cəfəri məzhəbində *müstəhəb* sayılır. Əhli-sünnə məzhəbinə görə, sübh namazının nafiləsi 2 rükət, zöhr namazının nafiləsi fərzdən əvvəl 4 rükət və fərzdən sonra 2 rükət, əsr namazının nafiləsi 4 rükət, məğrib namazının nafiləsi 2 rükət, işa namazının nafiləsi fərzdən əvvəl 4 rükət və fərzdən sonra 2 rükətdir. Beləliklə, gündəlik namazların nafiləsi cəmi 20 rükətdir.

Cəfəri məzhəbində nafilə namazlarının rükətlərinin sayı 34-dür: sübh namazının nafiləsi – fərzdən əvvəl 2 rükət, zöhr və əsr namazlarının hər birinin nafiləsi – fərzdən əvvəl 8 rükət, məğrib namazının nafiləsi – fərzdən sonra 4 rükət, işa namazının nafiləsi – fərzdən sonra 2 rükət (oturmuş halda qılınması müstəhəb olduğu üçün bir rükət sayılır), gecə namazının nafiləsi – 11 rükətdir (bunun 8 rükəti nafilə niyyəti ilə qılınır, 2 rükət *şəf* namazı, 1 rükət *vitr* namazıdır). Cümə günləri nafilə namazlarına daha 4 rükət də əlavə edilir.

Nafilə orucları barədə bax: *oruc.*

Hədisi-qüdsiyə görə, Allah-təala nafilə ibadətlərinin savabı barədə buyurub: «Bəndəm fərz ibadətlərini yerinə yetirməklə mənə yaxınlaşdığı qədər heç bir başqa vasitə ilə yaxınlaşa bilməz. Bəndəm nafilə ibadətlərini icra edəndə mən onu çox sevərəm. Onun eşidən qulağına, görən gözünə, tutan əlinə, yeriyən ayağına çevrilərəm. Məndən hər nə istəsə, ona verərəm. Mənə sığınsa, onu qoruyaram».

N.R.

NAİB

Hər hansı işi yerinə yetirməyə imkanı olmayan şəxsin əvəzinə həmin işi görən adam, canişin.

Əsasən həcc ziyarətindən bəhs edən kitablarda naiblik haqqında ətraflı məlumat verilir. Hənəfi, şafii, hənbəli və cəfəri məzhəblərinə görə, əgər bir şəxsin həcc ziyarətinə kifayət edəcək qədər pulu varsa, amma sağlamlığı buna imkan vermirsə, öz əvəzinə başqa bir adamı həccə göndərməlidir (yol xərcini ödəmək və muzdunu vermək şərti ilə). Yalnız maliki məzhəbində səhhətinə görə həccə gedə bilməyən adamın öz yerinə başqasını naib təyin etməsi düzgün sayılmır.

Həcc naibliyinin xırdalıqlarında məzhəblər arasında bəzi fərqlər var. Məsələn, hənəfi məzhəbinə görə, sifarişçi ilə naib arasında muzd barədə sövdələşmə aparıla bilməz. Naibə yalnız həcc ziyarətinin xərci verilməlidir. Amma bundan artıq məbləğ də bağışlana bilər. Həmçinin, əgər şəxs sağalmaz xəstəliyə düçar olubsa, naib onun əvəzinə həcci yerinə yetirdikdən sonra özü qəfildən sağalsa, həcci yerinə yetirilmiş sayılır və boynunda borc qalmır. Amma əgər xəstəliyi qısamüddətlidirsə, yerinə naib göndərsə belə, sağalandan sonra özü də həccə getməlidir. Şafii məzhəbində hər bir halda xəstə sağaldıqdan sonra maddi imkanı varsa, özü həccə getməlidir. Hətta bu zaman naibə verilmiş muzd geri alınır. Hənbəli məzhəbində isə xəstə şəxs öz yerinə həccə naib göndərmişsə, sağaldıqdan sonra özünün həccə getməsinə ehtiyac yoxdur. Amma naib ehram bağlamazdan əvvəl sifarişçi sağalsa, gərək öz həccini özü yerinə yetirsin. Cəfəri məzhəbində isə, əksinə, naib ehram bağlayandan sonra sifarişçi sağalsa, mütləq özü həcc etməlidir.

Şafii, hənbəli və cəfəri məzhəbləri baxımından, imkanı olduğu halda həcc getməmiş adam ömrü boyu bunu etməsə, vəfatından sonra varisləri onun mirası hesabına bir nəfəri naib olaraq həccə göndərməlidirlər. Hə-

nəfi və maliki məzhəblərində buna gərək yoxdur. Amma şəxs bunu vəsiyyət edibsə, mirası hesabına vəsiyyəti yerinə yetirilməlidir (maliki məzhəbində bu cür vəsiyyət etmək məkruhdur).

Naiblik məsələsinin ortaya çıxdığı mövzulardan biri də vəfat etmiş şəxsin sağlığında yerinə yetirmədiyi namaz və orucların başqası tərəfindən muzdla icra edilməsidir. Ümumiyyətlə, İslam şəriətinə görə, insan sağ olduğu müddət boyunca heç kim onun əvəzinə ibadətləri yerinə yetirə bilməz. Hətta xəstə olan adam da öz namaz və oruclarına görə özü cavabdehdir və şəriətdə nəzərdə tutulmuş formada bunların öhdəsindən gəlməlidir. Amma vəfat etmiş şəxsin öhdəsində olan vacib ibadətləri başqasının yerinə yetirə bilib-bilməməsi məzhəblər arasında fərqli formada yozulur. Əhli-sünnə məzhəblərinin dördü də bunu qeyri-mümkün sayır və istər sağlığında, istərsə də vəfatından sonra bir şəxsin ibadətinin başqasına həvalə olunmasını qəbul etmir. Amma cəfəri məzhəbinə görə, atanın vəfatından sonra böyük oğul onun qılmadığı vacib namaz və orucları mərhumun adından qəza etməlidir. Əgər böyük oğulun buna imkanı və həvəsi yoxdursa, başqa bir adamı muzdla naib tuta bilər (buna əcir də deyilir). Bu zaman həmin ibadətləri yerinə yetirən şəxs bunların savabını mərhuma bağışladığını niyyət edir. Əlbəttə, burada diqqət yetirilməli məsələ budur ki, ata sağlığında namaz və oruc əhli olmalı, bunları qəsdən qəzaya verməməlidir. Əks halda, onun əvəzinə namaz qılıb oruc tutmağın heç bir faydası olmaz.

N.R.

NAMAZ

Bütün müsəlmanlara fərz (qəti vacib) olan ibadət. Ərəb dilindəki «səlat» sözünün dilimizdə işlənən variantıdır. «Səlat» sözünün lüğəvi mənası «dua» deməkdir. Dini anlamda namaz – şəriətdə göstərilən müəyyən əməllər şəklində *təkbirlə* başlayıb salamla sona çatan Allaha ibadət formasıdır. Yetkinlik yaşına çatmış hər bir müsəlman öz öhdəsinə düşən namazları qılmalıdır. Qurani-kərimdə namazın vacibliyi barədə buyurulur: «Namaz möminlərə bəlli vaxtlarda fərz (vacib) edilmişdir» *(Nisa, 103)*. Öhdəsində olan namazları vaxtında qıla bilməyən şəxs sonradan da olsa, onları mütləq qılmalıdır (*qəza* etməlidir).

Namazları vaxtlı-vaxtında qılan şəxs Allahın ən mühüm əmrini yerinə yetirmiş olur. Bu adamın həm dünyada, həm də axirətdə Allahdan mükafat gözləməyə haqqı var. Əksinə, namaz qılmayan, yaxud buna etinasız yanaşan şəxslər böyük bir əmri pozduqları üçün, qiyamətdə Allahın qəzəb və narazılığı ilə qarşılaşacaqlar. Quran ayələrindən məlum olur ki, vacib namazları yerinə yetirməyən, yaxud namaza saymazyana yanaşan adamlar qiyamətdə əzaba düçar olacaqlar *(Müddəssir, 43; Məryəm, 59; Maun, 4-5)*. İslam müqəddəsləri bildirmişlər ki, namaza etinasız yanaşan şəxslərə Onların şəfaəti şamil olmayacaq.

Müsəlmanlara namazın fərz (qəti vacib) buyurulması hicrətdən əvvəl – *merac* hadisəsi zamanı baş vermişdir. Həzrət Mühəmməd Peyğəmbər (s) namazın əhəmiyyəti barəsində danışarkən, İslam dinini bir çadıra, namazı isə həmin çadırı dik və möhkəm saxlayan dirəyə bənzətmişdir. Hədislərin birində buüurulur: «Qiyamət günündə bəndənin əməlləri içində ən əvvəl yoxlanılacaq əməl namazdır». Peyğəmbər namazı «gözümün nuru» və «möminin meracı» (yəni Allahı tanımağa doğru yüksəlişi) adlandırırdı. İmam Əli ibn Əbu Talib (ə) möminləri namaza həvəsləndirərək deyirdi: «Əgər bəndə namaz qılmaq sayəsində qiyamətdə ona nə qədər mükafat veriləcəyini bilsə, başını səcdədən qaldırmaz».

Namaz qılmaq həm sağlam, həm də qeyri-sağlam insanlara, həm qocalara, həm də cavanlara, həm qonağa, həm də ev yiyəsinə, həm əmniyyətdə, həm də müharibə şəraitində eyni dərəcədə vacibdir. Çətin şəraitdə namazın qılınma tərzində müsəlmanlara müəyyən güzəştlər verilsə də, onlar namaz vəzifəsindən bütövlükdə azad edilməmişlər. Məsələn, xəstə şəxs ayaq üstə edilməsi lazım gələn namaz əməllərini icra edə bilmirsə, onları oturaq halda, əgər bu da mümkün deyilsə, uzanmış vəziyyətdə yerinə yetirməlidir.

Namaz bəzi xüsusiyyətlərinə görə başqa ibadət növlərindən fərqlənir. Məsələn, namaz qılmaqla məşğul olan şəxs bu halda başqa işləri yerinə yetirə bilməz. Onun namaza aid olmayan hərəkətlər etməsi qadağandır. Amma məsələn, insan oruc tutduğu halda, həm də ticarət edə bilər Deməli, namaz elə ibadətdir ki, insanın tamamilə ona tabe olmasını tələb edir.

Namaz qılan şəxs zahirdə namaza diqqətli olmaqla yanaşı, daxilən də bütün fikirlərini namazda toplamalıdır. Buna xüşu, yəni Allahın hüzurunda təvazökarlıq və ehtiram halı deyilir. Namaz bəzilərinin düşündüyü kimi, sadəcə idman növü də deyil. Namazda yalnız bədən deyil, qəlb də iştirak edir. İnsan Allaha şükr etmək və Onun razılığını qazanmaq naminə namaz qıldığını qəlbində niyyət edir, söylədiyi sözlərin (yəni namazda oxunan surə, dua və zikrlərin) haqq olduğunu öz ağlı ilə təsdiqləyir, dili ilə bunları söyləyib dil ibadətini yerinə yetirir və hərəkətləri ilə deyilənləri tamamlayır. Beləliklə, namazda, insanın həm bədəni, həm də ruhu iştirak edir.

Qurani-kərimdə Allah-təala namazın əxlaqi faydalarına işarə edərək Peyğəmbərimizə müraciət edir: «Quranda sənə vəhy olunanı oxu və namaz qıl. Həqiqətən, namaz *(insanı)* çirkin və pis əməllərdən çəkindirər» *(Ənkəbut, 45)*. Namaz qılan şəxs mütləq öz davranışına nəzarət edir, hər bir hərəkətin namaz ruhu ilə səsləşib-səsləşmədiyinə diqqət yetirir. Belə insan namaz qılmazdan əvvəl günah iş görməz, həmçinin, namaz üstündən durub günah işlərin ardınca getməz. Nəzərə alaq ki, gündəlik namazların vaxtı müsəlmanın gününü bütövlükdə (sübh tezdən axşama kimi) əhatə edir. Deməli, namaz qılan adam bütün gün ərzində özünü pis işlərdən çəkindirməli olur.

Gündəlik vaxtın nizamlanmasında və insanın dəqiq, punktual ruhda tərbiyələnməsində də namazın rolu inkaredilməzdir. Müsəlman şəxs namazların qılınma vaxtına riayət etməklə (çünki hər namazı ona məxsus vaxtın başlanğıcında qılmaq böyük savabdır) dəqiqliyə öyrəşir. Həmçinin, o, gündəlik işlərini namazların vaxtına uyğun olaraq nizamlayır, işin müəyyən hissəsini növbəti namaza kimi yerinə yetirməyə çalışır; bununla da iş günü səmərəli və bərəkətli olur.

Namaz insanda təmizliyə və paklığa riayəti gücləndirir. Namaz qılan şəxsin bədəni, geyimi, namaz qıldığı yer pak olmalıdır. Məsələn, dırnaqlar vaxtında kəsilməli, qolda kir və ləkə olmamalı, ayaqlar tərləməsin və kirlənməsin deyə tez-tez yuyulmalıdır.

Fərz (qəti vacib) olan namazlar gün ərzində 5 dəfə qılınır və 17 *rükət* həcmindədir: *sübh namazı* – 2 rükət, *zöhr namazı* – 4 rükət, *əsr namazı* – 4 rükət, *məğrib namazı* – 3 rükət və *işa namazı* – 4 rükət. Cümə günü *cümə namazının* qılınması da əhli-sünnə məzhəbində fərzdir. Bunlardan əlavə, həm əhli-sünnə, həm də cəfəri məzhəbində *nafilə* namazlarının qılınması böyük savaba malikdir.

Gündəlik namazlardan əlavə, *bayram namazı, ayat (xüsuf* və *küsuf)* namazı, ramazan ayında qılınan *təravih namazı*, cənazə üçün qılınan *cənazə namazı*, həccdə qılınan *təvaf* namazı, *hacət namazı* kimi namaz növləri də vardır. Bunların bəzilərinin hökmü şiə və sünni məzhəblərində fərqlənir. Məsələn, *ayat namazı* şiə məzhəbində vacib olduğu halda, əhli-sünnə məzhəblərində təkid edilən sünnət və hətta *məndub* (müstəhəb) sayılır. Şiə məzhəbinə görə, vəfat etmiş atanın (bəzi müctəhidlərə görə ananın da) qəzaya getmiş namazlarını qılmaq (və ya muzdla qıldırmaq) böyük oğula vacibdir. Müstəhəb olan xeyli başqa namaz növləri də vardır ki, bunların qılınma qaydası müvafiq kitablarda izah edilir.

N.R.

NAMƏHRƏM

Məhrəm olmayan adam. *«Məhrəm»* maddəsində sadalanmış qisimlərə mənsub olmayan hər kəs naməhrəm sayılır. Çünki bunların evlənməsinə şəriət baxımından qadağan qoyulmayıb. Əgər qadağan varsa da, bu, müvəqqəti hökmdür və şəraitin dəyişməsi ilə qadağan aradan qalxa bilər. Məsələn, bir kişi eyni zamanda iki bacı ilə evlənə bilməz. Amma bu o demək deyil ki, arvadın bacısı (baldız) ər üçün naməhrəm sayılır. Onların evlənməsinə qoyulan qadağan şərtlərə tabedir. Yəni əgər kişi öz arvadına talaq versə, bundan sonra onun bacısı ilə evlənə bilər. Yaxud ərdə olan qadın yad bir kişi ilə nikah

bağlaya bilməz. Amma bu o demək deyil ki, onlar bir-birinə naməhrəmdirlər. Qadın ərindən boşandıqdan sonra həmin yad kişiyə ərə gedə bilər.

Məhrəmlik münasibəti isə heç bir şəraitdə aradan qalxmır. Məsələn, kişiyə öz gəlini məhrəmdir. Bu o deməkdir ki, kişinin oğlu arvadını boşasa belə, kişi ömrü boyu o qadınla evlənə bilməz. Yaxud fərz edək ki, əri rəhmətə getmiş dul qadın ikinci dəfə ərə gedib. Şəriətə görə, qadının rəhmətə getmiş ərindən olan qızı ikinci ərinə məhrəmdir (onun ögey qızıdır). İkinci ər bu qadını boşasa belə, həmin qızla (yəni keçmiş ögey qızı ilə) evlənə bilməz.

Naməhrəmlər arasında nəzəri mənada da olsa, nikah mümkündür; buna görə də onlar ünsiyyət zamanı şəhvət yarada biləcək ən xırda amildən belə, çəkinməlidirlər. Naməhrəm kişi və qadınların ünsiyyəti dini və əxlaqi normalara uyğun olmalıdır. Məsələn, naməhrəm insanın şəriətdə icazə verilməndən savayı bədən üzvlərinə baxmaq, bədəninə toxunmaq, əlindən tutmaq olmaz.

N.R.

NASUT ALƏMİ

Ərəb dilindən tərcüməsi «insanlara aid olan» aləm deməkdir. Varlıq aləminin ən aşağı mərtəbəsi, maddiyyat dünyası, zamana, məkana, məhdudiyyətlərə tabe olan aləm. Bu aləmin ən bariz nümayəndəsi insandır. Təsəvvüfdə nasut aləmi insanın ruhunu boğan qəfəs kimi təsəvvür edilir. Çünki ruhun əsl vətəni *mələkut aləmidir*. Nasut aləmindən xilas olub mələkut aləminə girən ruh səadətə çatmış sayılır (bu, yalnız ölməklə əldə edilir). Klassik ədəbiyyat nümunələrində nasut aləmi əskik, nöqsanlı bir aləm kimi canlandırılır və lahut aləminə qarşı qoyulur:

Qəbul etdi Hüseyn bari-əmanət ruzi-əzəldə,
Bu nasut aləmində etməyə əhdə vəfa gəldi.
(S.Ə.Şirvani).

Görmədim bir zərri-xalis buteyi-nasutdə,
Mənəvi min ləkkə gördüm ləldə, yaqutdə,
Biqərəz insan olur görmək fəqət tabutdə,
Bilməzəm varmı sədaqət aləmi-lahutdə?!
Azma, fikrim, cümlə ecazü kəramət rəngdir!
(S.Mənsur).

N.R.

NƏBİ

Ərəb dilindən tərcüməsi «xəbər sahibi, xəbər verən» deməkdir. Dini ədəbiyyatda peyğəmbər mənasında işlədilir. Ümumiyyətlə, peyğəmbərlər məqam və dərəcələrinə görə nəbi və *rəsul* olmaqla iki qismə ayrılırlar.

Peyğəmbərlərin böyük əksəriyyəti nəbi qismində aiddir. Nəbi o peyğəmbərə deyilir ki, ya qeybdən gələn səslər vasitəsilə, ya da yuxuda Allahdan *vəhy* alır, yaxud vəhy onun qəlbinə endirilir; lakin o, gözləri ilə vəhy mələyini görmür. Peyğəmbərlərin rəsul adlı az bir qismi isə deyilənlərdən əlavə, həm də ayıqlıqda mələklə görüşüb onun dilindən vəhyi eşidir. Rəsulların sayı 313 və ya 315 olmuşdur.

Nəbi ilə rəsulun fərqi barədə başqa nəzəriyyələr də irəli sürülmüşdür.

bax: *rəsul.*

N.R.

NƏCƏS

Ərəb dilindən tərcüməsi «murdarlıq» deməkdir. İslam şəriətinə əsasən, bəzi maddələr zatən (varlıq etibarilə) murdar sayılırlar. Onlar rütubətli halda toxunduqları hər şeyi də murdar edirlər. Nəcəsin özünü yumaqla və sairə üsullarla pak etmək olmaz. Amma onun buladığı əşyanı (yeri) şəriətdə deyilən qaydalarla pak etmək mümkündür.

İslam məzhəblərinin yekdil fikrinə görə, aşağıdakılar nəcəs sayılır:

a. ***İt və donuz*** (həm diri, həm də ölü halda), onların südü, təri və tüpürcəyi. Malikilər iti zatən nəcəs saymasalar da, tüpürcəyi dəymiş əşyaların pak edilməsini lazım bilirlər.

b. ***İnsanın sidiyi və peyini.***

c. ***Alkoqollu içki.***

ç. ***Sperma.***

d. ***Qanı fışqıraraq*** *(təzyiqlə)* ***çıxan heyvanların leşi*** (əti yeyilən heyvanlar şəriət qaydası ilə kəsilərsə, istisnadır). Amma hətta əti yeyilən heyvan şəriət qaydası ilə kəsilmədən ölsə, murdar olar.

Bunlardan başqa, bəzi nəcəslərin hökmü məzhəblərdə fərqlidir. Məsələn:

e. Əhli-sünnə məzhəblərinə görə, xəstəlik nəticəsində bədəndən çıxan ***irin*** nəcəsdir.

ə. Əhli-sünnə məzhəblərinə görə, ***qusuntu*** nəcəsdir.

f. Əhli-sünnə məzhəblərinə görə, şəhidin qanından savayı, bütün canlıların bədənindən çıxan ***qan*** nəcəsdir. Cəfəri məzhəbinə görə, qanı fışqırtı ilə çıxan bütün canlıların (istər insan, istərsə də heyvan olsun) qanı nəcəsdir. Qanı fışqırtı ilə çıxmayan heyvanların qanı isə təmizdir.

g. Cəfəri məzhəbində bütün quşların, qanı fışqırtı ilə çıxmayan heyvanların peyini təmiz sayılır. Qanı fışqırtı ilə çıxan heyvanlara gəlincə, bunlardan əti yeyilənlərin peyini təmizdir, ***əti yeyilməsi haram olanların peyini*** isə nəcəsdir. Malikilər əti yeyilən heyvanların sidik və peyininin təmiz olduğuna inanırlar. Hənbəli məzhəbinə görə də, əti yeyilən heyvanların peyini təmizdir. Əti yeyilməyənlərdən isə qanı fışqırtı ilə çıxanların peyini təmiz, qalanlarınkı nəcəsdir. Şafii məzhəbində bütün heyvanların peyini nəcəsdir. Hənəfi məzhəbinə görə, əti yeyilən quşlardan savayı bütün canlıların peyini nəcəsdir. Əti yeyilən quşlardan isə, adətən yerdə gəzən quşların (toyuq, ördək, qaz) peyini nəcəs sayılır. Adətən səmada uçan və əti yeyilən quşların (göyərçin, sərçə) peyini isə təmizdir.

Nəcəsə bulaşmış əşyaların və yerlərin təmizlənməsinə gəlincə, nəcəsin növündən, miqdarından və haramı bulamasından asılı olaraq, təmizlənmə üsulları da müxtəlifdir. Su ilə təmizlənmə zamanı axar suyun, borudan gələn suyun və ya çarhovuzdakı suyun hökmləri fərqlidir. Bəzən su ilə təmizlənmə mümkün olmayanda, Günəş şüaları ilə təmizlənmə kafi sayılır. İt və donuzun yaladığı qabları isə su ilə pak etmək kifayət etməz; bunları torpaqla bir neçə dəfə sürtmək lazımdır. Pak etmənin hökmləri barədə məzhəblərin görüş fərqləri vardır. Daha ətraflı məlumat üçün *risalələrə* (ilmihallara) müraciət etmək lazımdır.

N.R.

NƏFƏQƏ

bax: *infaq.*

NƏFS

Ərəbcə ruh, cəsəd, insanın bədəni, qan, əzəmət, bir şeyin cövhəri və s. mənaları ifadə edir. Təsəvvüf anlamında nəfs – daxilində iradi hərəkət, hiss və həyat qüvvəsi olan lətif (zərif) substansiyadır. Quranda «nəfs» sözü müxtəlif mənalarda işlədilir. Nəfsinə hakim olmaq – arzu və istəklərə, qəzəbə qalib gəlmək, səbr etmək deməkdir.

Təsəvvüfdə nəfsin 7 mərtəbəsi var. Haqq yolçusunun nəfsi kamilləşdikcə bu mərtəbələri bir-bir keçir və son mərtəbəyə yetişir.

1. ***Nəfsi-əmmarə.*** Ərəb dilindən tərcümədə «əmr edən nəfs» mənasını verir. Kaşaniyə görə, bu nəfs bədəni maddi dünyaya meyl etdirir, ondakı ləzzət və şəhvət istəklərini alovlandırır, qəlbi ülvi olmayan daha aşağı məqamlara doğru cəlb edir. «Yusif» surəsinin 53-cü ayəsində nəfsin bu mərtəbəsinə işarə edilir: «Mən özümü təmizə çıxarmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs *(insana)* pis işlər görməyi əmr edər». Nəfsi-əmmarə şər yuvası, pis əxlaqın və davranışın mənbəyidir.

2. ***Nəfsi-ləvvamə.*** Ərəb dilindən tərcümədə «qınayan nəfs» mənasını verir. Təsəvvüf aləmində qəlbin bir küncündəki nurla işıqlanan, həmin nur sayəsində oyaqlığını qoruyan nəfsə deyilir. Bu mərtəbədə olan nəfs etdiyi pis işləri anlayır. Buna görə özünü qınayır, bu əməlləri təkrar etmək istəmir. Ancaq kifayət qədər kamilləşmədiyinə görə, yenə həmin günahları işlətməkdə davam edər. Bununla yanaşı, nəfsi-ləvvamədə bəzi müsbət irəliləyişlər də görünür.

3. ***Nəfsi-mülhəmə.*** Ərəb dilindən tərcümədə «ilhama və kəşfə nail olan nəfs» mənasını ifadə edir. Yaxşını pisdən ayıra bilən iradəyə «nəfsi-mülhəmə» deyirlər. Bu, nəfsin kamilliyə doğru üçüncü dərəcəsidir. Artıq bu nəfs Allahın köməyi ilə öz savab və günahını anlayır; məhz bu səbəbdən Allahdan savayı hər şeydən uzaqlaşır. Ruhlar aləminə yönələn bu nəfs eşq halı içərisində olur, elmi sevir, comərddir, qənaətkar və təvazökardır, zəhmətə və əziyyətə qatlaşır, kainatın sirrinə heyran qalır, camaatı tərk edib Allaha yaxınlaşır, sözü gözəl və hikmətli olur.

4. ***Nəfsi-mütməinnə.*** Ərəb dilində «rahatlığa, aramlığa qovuşmuş nəfs» mənasını bildirir. Nəfsin dördüncü mərtəbəsidir. Bu nəfs pis sifətlərdən uzaqlaşıb gözəl əxlaq ilə əxlaqlanmışdır. Kaşaniyə görə, mütməinnə –

qəlbin nuru ilə aydınlaşıb pis xasiyyətləri tərk edən nəfsdir. Bu nəfs ibadətləri davam etdirməklə qüdsiyyət aləminə yönəlir. Fəcr surəsinin son ayələrindəki «cənnətə gir» xitabı məhz bu nəfsə ünvanlanıb. Bu mərtəbədə nəfsin üzüntüləri «Ey nəfsi-mütməinnə!» xitabı ilə sona çatmış, qəlb hər şeydən əmin olmuşdur. Allaha doğru gedən bu nəfs sahibinin qəlbi tam və həqiqi bir inanca malikdir. O, şəriətin bəzi sirlərini anlamış, comərdlik, doğruculluq, gülərüzlülük, şirindillilik kimi gözəl sifətlər qazanmışdır, daim təvəkkül, təslim, səbir və rıza halındadır. Onun qəlbi hər an rahatlıq içində şükr və səna edir, qüsurları örtərək xətaları bağışlayır. O, Həzrət Mühəmməd Peyğəmbərin (s) əxlaqını gözəl şəkildə yaşayır və bundan zövq alir, Allahın icazəsi ilə bəzi *kəşf* və *ilhamlara* nail olur.

5. ***Nəfsi-raziyyə.*** Ərəbcə «razı olan nəfs» mənasını bildirir. Bu, nəfsin kamillik yolundakı beşinci mərtəbəsidir, riza məqamına çatan nəfsdir. Bu mərtəbədəki nəfs öz iradəsindən dönüb Allahın iradəsinə tabe olur. O, heç nədən şikayət etməz. Artıq bəşəri özəlliklərdən qurtularaq, *fəna* məqamına qovuşmuşdur. Əmr və qadağanlara bütünlüklə tabedir, gözəl əxlaqa malikdir. Ara-sıra Allahın adlarının təcəllasına nail olur. Nəfsi-raziyyə həqqül-*yəqin* mərtəbəsinə çatmışdır.

6. ***Nəfsi-mərziyyə.*** Ərəbcə «başqasının ondan razı qaldığı nəfs» deməkdir. Bu, nəfsin altıncı məqamıdır. Allah bu nəfsdən razıdır. Bu mərtəbəyə çatan nəfs bəşəri istəkləri tərk edərək ilahi xüsusiyyətlər qazanır. Qüsurları bağışlayan, gözəl düşünən, şəfqətli, əliaçıq, insanları yalnız Allah xatirinə sevən, incə düşüncəli, heç kəsdə olmayan gözəl xüsusiyətlərə sahibdir. Bu nəfs Allahın icazə verdiyi miqdarda bəzi qeybi sirlərdən xəbərdar olur. Bunlar Allahın ona ehsanıdır. «Mən onun eşidən qulağı, görən gözü, tutan əli, danışan dili olaram» hədisi-qüdsisində bu nəfs nəzərdə tutulur. Nəfsi-mərziyyə Allahın izni ilə başqa şəxslərə də təsir edə bilər.

7. ***Nəfsi-kamilə.*** Ərəbcə «kamilləşmiş nəfs» deməkdir. Təsəvvüf anlamında bütün kamil xüsusiyyətləri özündə cəmləşdirən, kamillik zirvəsinə, irşad səviyyəsinə çatan nəfsə nəfsi-kamilə deyilir. Onu nəfsi-qüdsiyyə, nəfsi-safiyyə, nəfsi-zəkiyyə də adlandırırlar. Bu, nəfsin təkamülünün sonuncu – yeddinci mərtəbəsidir.

R.M.

NƏHY ƏNİL-MÜNKƏR

bax: *əmr bil-məruf və nəhy ənil-münkər.*

NƏLEYN

Ərəb dilində çarığa deyirlər. Daban hissəsinin altına nal vurulduğu üçün ona bu ad verilib (qoşa nal). Keçmişdə Ərəbistan kimi isti ölkələrdə barmaqları keçirmək üçün üzərinə çarpaz bəndlər bərkidilən gön altlıqdan ibarət olurdu. Nəleyn ayaqları sərin saxlayırdı, onu geyinib-soyunmaq da rahat idi. Sonralar ucu geri qatlanan çarıq tipli ayaqqabıları da nəleyn adlandırmağa başladılar. Nəleyn Şərq ölkələrində geniş yayılmışdı. Xüsusilə, din xadimləri və ruhani tələbələr uzun əsrlər boyunca nəleyn geymişlər. Bu gün də bəzi yüksək rütbəli din xadimləri klassik ruhani geyminin bir elementi kimi nəleyndən istifadə edirlər.

Həzrət Mühəmməd Peyğəmbərə (s) aid olunan bir neçə cüt nəleyn İstanbulun Topqapı sarayında, *Müqəddəs Əmanətlər ekspozisiyasında* mühafizə edilir.

N.R.

NƏSƏB

Əsil-nəsəb, soykökü bağlılığı. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub: «Qiyamət günündə bütün səbəb və nəsəb bağlılıqları qırılacaq *(fayda verməyəcək)*; yalnız mənə bağlanan səbəb və nəsəbdən savayı». Bu hədisi şərh edən alimlər yazırlar ki, ərəblər doğum vasitəsilə yaranan qohumluğu nəsəb adlandırırlar. Məsələn, valideyn-övlad münasibətləri bu qəbildəndir. Amma evliliklə yaranan qohumluğa ərəblər səbəb deyərlər. Misal üçün, qayınata-gəlin qohumluğu bura aiddir. Peyğəmbərin yuxarıdakı hədisinin mənası budur ki, Onunla qohumluq iki yolla əldə edilir: ya Peyğəmbərin nəslindən olmaq, ya da Peyğəmbərin nəslindən olanlarla ailə qurmaq yolu ilə. Qiyamət günündə heç kəs öz əsil-nəcabəti və qohumları ilə öyünə bilməyəcək, yalnız Peyğəmbərlə qohumluq şərəf və üstünlük sayılacaq. Peyğəmbərlə qohumluq sayəsində insanın bəzi günahları bağışlana və cəzası yüngülləşə bilər. Əlbəttə, əgər insan öz əməllərinə görə tamamilə cəhənnəmə layiqdirsə, bu qohumluq ona heç bir fayda verməyəcək.

İslam dini övladın nəsəbinin konkret müəyyən olunması və hamı tərəfindən qəbul edilməsi üzərində qəti şəkildə durur. Atanın öz övladından imtina etməsi, onu oğulluqdan çıxarması mümkün deyil. Həmçinin, övlad da atasından imtina edib özünü başqasının övladı adlandıra bilməz. Həzrət Mühəmməd Peyğəmbərin (s) oğulluğu *Zeyd ibn Harisə* Onu elə çox sevirdi ki, doğma atası onu Peyğəmbərdən ayırıb öz evinə aparmaq istəyəndə Zeyd Peyğəmbərlə qalmağı seçmişdi. Bu bağlılığa görə, bəziləri Zeydi «Mühəmmədin oğlu» deyə çağırırdılar. Amma aşağıdakı ayə nazil olduqdan sonra Zeydi doğma atası Harisəyə mənsub etməyə başladılar: «Onları öz atalarının adı ilə çağırın. Bu, Allah yanında daha düzgündür...» *(Əhzab, 5).*

Məhz buna görə, İslam dini övladlığa götürmə hallarında əsl valideynlərin gizli saxlanmamasını tələb edir. Övladın həqiqi nəsəbi mütləq açıqlanmalıdır. Övladlığa götürülmə sayəsində məhrəmlik yaranmaz. Yəni bir kişi və qadın yad bir uşağı övladlığa götürərlərsə, bu uşaq onlara *məhrəm* olmaz, onlar uşağın yalnız mənəvi ata-anası sayılarlar. Uşaq onların mirasçısı da ola bilməz. Çünki uşağın əsl nəsəbi başqadır.

İslamda nəsəblərin araşdırılması ilə məşğul olan *ənsab* adlı xüsusi elm sahəsi mövcuddur. Bu elmin mütəxəssisinə «nəssabə» deyirlər. Ənsab elmi daha çox hədis ravilərinin nəsil şəcərəsini öyrənir.

N.R.

NƏSX, NASİX və MƏNSUX

Ərəb dilindən tərcümədə nəsx «dəyişmək, çevrilmək, bir şəkildən başqa şəklə düşmək» mənasını verir. «Nüsxə» sözü də eyni kökdəndir; çünki yazı bir kitabın üzündən köçürülüb başqa bir kitab şəklinə düşür. Termin olaraq, vaxtı keçmiş bir dini hökmün başqa hökmlə əvəz edilməsinə deyilir. Əksər tədqiqatçıların fikrincə, Həzrət Mühəmməd Peyğəmbər həyatda ikən, İslamın bəzi hökmləri ləğv edilmiş və onların yerini başqa hökmlər tutmuşdur. Hökmlərin bu cür dəyişməsinə nəsx deyilir. Bu zaman dəyişən hökm «mənsux», dəyişdirən isə «nasix» adlanıdırılır.

İslam hökmlərinin ana mənbəyi Quran və sünnə olduğu üçün, nəsx mövzusu da bu iki mənbəyə aiddir. Nəsxin aşağıdakı növləri müəyyən edilib:

a. Sünnədə olan bir əmr sünnəyə aid olan baqa bir əmrlə nəsx olur.

b. Sünnədə olan bir əmr Quran ayəsi ilə nəsx olur.

Bu iki növ nəsxin mümkünlüyünü bütün müsəlman alimləri qəbul edirlər. Bunun ən bariz nümunələrindən biri *qiblənin* dəyişilməsi hadisəsidir. Həzrət Mühəmməd Peyğəmbər (s) İslamın ilk dövrlərində üzü *Beytül-müqəddəsə* tərəf namaz qıldığı halda, hicrətdən 18 ay sonra Bəqərə surəsinin 143–cü ayəsinin hökmü ilə qiblə dəyişdirildi və Məkkədəki Kəbə evi müsəlmanların qibləsi oldu. Göründüyü kimi, burada sünnənin ayə ilə nəsx olması faktı mövcuddur.

c. Quran ayəsindəki hökm sünnə vasitəsilə nəsx olur.

Əksər alimlər Quran ayəsinin yalnız başqa bir Quran ayəsi ilə nəsx ola biləcəyini söyləyir, bir qisim alimlər isə Quran ayəsinin hədis vasitəsilə də nəsx olmasını mümkün sayırlar.

ç. Qurani-kərimin bir ayəsində təsbit olunmuş hökm başqa ayə vasitəsilə ləğv olur.

Az sayda tədqiqatçıları çıxmaq şərti ilə, demək olar ki, bütün müsəlman alimləri bu cür nəsxin mümkünlüyünü təsdiq edirlər. Qurani-kərimdə Allah-təala buyurur: «Biz hər hansı bir ayəni nəsx edir və ya onun unutdurduruqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk» *(Bəqərə, 106).* Qeyd edək ki, bu ayədə yəhudi qövmündən danışılır. Buna görə də nəsxi inkar edənlər bu ayəni nəsx hökmünün İslama şamil olunmasına sübut kimi qəbul etməyi düzgün saymırlar. Onların fikrincə, ayə keçmiş şəriətlərdə nəsxin olduğunu sübuta yetirir, bunun İslama heç bir aidiyyatı yoxdur.

Əksər alimlər Quranda nəsxin mümkünlüyünü qəbul etsələr də, konkret olaraq Qurani-kərim mətnində nasix və mənsux ayələrin mövcud olub-olmadığı, habelə, onların

sayı barədə yekdil fikrə gəlməmişlər. Məsələn, XX əsrdə yaşamış məşhur cəfəri alimi Seyid Əbül-Qasim Xoyi «əl-Bəyan fi təfsiril-Quran» kitabında Qurani-kəimdə nəsxin olmasını mümkün sayır və bunu məntiqdən kənar hesab etmir. Lakin o, sair müəlliflər tərəfindən nəsx ayəsi kimi təqdim edilən 36 məşhur ayəyə aydınlıq gətirərək bildirir ki, onların heç birinin nəsxlə əlaqəsi yoxdur, nasix və mənsux hesab edilən ayələr əslində eyni bir hökmün müxtəlif formalarda təqdimatından ibarətdir.

Qurani-kərimdə nəsx ayələrinin sayına gəlincə, bu barədə dini kitablarda çeşidli nəzəriyyələrlə rastlaşırıq. Müxtəlif müəlliflər Quranda 4-dən 500-ə kimi nəsxin olduğunu yazırlar. Məsələn, İbn əl-Cövziyə görə Quranda 274, İbn Həzmə görə 214, Nəhhasa görə 138, Süyutiyə görə 22, Zərqaniyə görə cəmi 7 nəsx ayəsi var.

N.R.

NƏSİ

Cahiliyyə zamanında (İslamın gəlişindən əvvəl) ərəblər arasında dəbdə olan təqvim islahatına deyilir. Məlum olduğu kimi, İslamdan əvvəl də ərəblər qəməri təqvimdən (Ay təqvimindən) istifadə edirdilər. Bu təqvimdə dörd ay (zilqədə, zilhiccə, mühərrəm və rəcəb) *haram aylar* sayılırdı. Yəni həmin aylarda müharibə etmək, qan tökmək qadağan idi. Amma o zaman ərəb qəbilələrinin əsas qazancı hərbi yürüşlərdən əldə etdikləri qənimət olduğu üçün, ardıcıl olaraq üç ay (zilqədə, zilhiccə və mühərrəm) müharibəsiz qala bilmirdilər. Bu problemi həll etmək məqsədilə onlar mühərrəm ayı ilə ondan sonra gələn səfər ayının yerini dəyişdirirdilər. Yəni zilqədə və zilhiccə aylarının qadağanına birtəhər dözür, sonrakı ayda müharibə edir, bundan sonra yenə bir ay savaşsız yaşayırdılar. Buna nəsi deyirdilər; tərcüməsi «təxirə salmaq, yerini dəyişdirmək» deməkdir. İslam dini bu adətin üzərinə qadağan qoydu. Həzrət Mühəmməd Peyğəmbər (s) *vida həcci* zamanı söylədiyi xütbədə nəsini haram elan etmişdir. Qurani-kərimin aşağıdakı ayəsi də nəsinin İslam dinində qadağan olduğunu açıq-aşkar sübuta yetirir: «Həqiqətən, nəsi ancaq küfrü artırmaq deməkdir ki, kafir olanlar bununla azdırılarlar. Onlar Allahın haram etdiyi ayların sayını düzəltmək, Allahın haram buyurduğunu halal etmək məqsədilə onu *(gecikdirilən ayı)* bir il halal, bir il haram sayarlar. Pis əməlləri onlara gözəl görünmüşdür. Allah kafir qövmü doğru yola yönəltməz!» *(Tövbə, 37).*

N.R.

NƏSS

Ərəb dilindən tərcümədə fərqli mənaları bildirir: məhdudlaşdırmaq, yuxarı qaldırmaq, aşkar etmək və s.

Dini termin olaraq, Qurani-kərimdə və sünnədə açıq-aşkar bəyan edilmiş qəti hökmlərə nəss deyilir. Nəssin yalnız bir mənası var, onu başqa mənalara şamil etmək, fərqli baxış bucaqlarından dəyərləndirmək mümkün deyil. Nəssin doğruluğu heç kimdə şübhə doğura bilməz və heç kim tərəfindən inkar edilməz. Qurani-kərimin möhkəm ayələri və Peyğəmbərimizin mütəvatir sünnəsi nəss hökmünü daşıyır. Bunların mənası hamı tərəfindən eyni cür qəbul edilir, şəraitə görə onların hökmü dəyişmir.

Nəss toxunulmazdır. Nəss ola-ola *ictihad* etmək haramdır.

N.R.

NƏT

Ərəb dilindən tərcümədə «bir kəsin gözəl xüsusiyyətlərini saymaq» mənasını verir. Dini termin olaraq, İslam müqəddəslərini mədh edən şeir nümunələrinə nət deyilir. Əsasən, Həzrət Mühəmməd Peyğəmbəri (s) vəsf edən şeirləri nət adlandırırlar. Bununla yanaşı, bəzən İslam tarixinin ayrı-ayrı şəxsiyyətlərinə, təriqət şeyxlərinə, xüsusilə, dörd raşidi xəlifəsinə həsr edilmiş şeirlərə də nət adı verilir (bunların daha geniş yayılmış adı *mənqəbədir*). Nət bir qayda olaraq, *qəsidə* formasında yazılır (ilk beytin misraları qafiyələnir, sonrakı hər beytin ikinci misrası bunlarla həmqafiyə olur).

İslam tarixinin lap əvvəllərindən etibarən şairlər nət yazmağa başlamışlar. Hətta deyilənlərə görə, Həzrət Mühəmməd (s) həyatda ikən onu şeirlə tərifləmiş ilk şəxs anası Həzrət *Aminə* olub. Aminə öz övladını dünyaya gətirdikdən sonra söylədiyi şeirdə körpəni gələcək peyğəmbər kimi tərifləyir və belə bir müqəddəs insanın anası olması ilə fəxr edirdi.

Peyğəmbərin əmisi *Əbu Talibin*, *Həzrət Əlinin (ə)*, *Abdullah ibn Rəvahənin* nətləri tarixi mənbələrdə mövcuddur. Həmçinin, Peyğəmbərin müasiri olmuş *Həssan ibn Sabit*, *Kəb ibn Züheyr* kimi məşhur ərəb şairləri də Ona nət yazmışlar. Kəb ibn Züheyrin yazdığı nət Peyğəmbərin elə xoşuna gəlmişdi ki, öz *xirqəsini* (kürkünü) ona bağışlamışdı.

Nət bir qayda olaraq, Həzrət Mühəmmədin (s) gözəl əxlaqının, üstün keyfiyyətlərinin vəsfi ilə başlayır, sonra Onun möcüzələri təsvir edilir. Nət dörd xəlifənin və ya *Əhli-beytin* tərifi ilə davam etdirilir. Nətin sonuna yaxın şair Peyğəmbərdən *şəfaət* umduğunu bildirərək, əsəri *salavatla* bitirir.

Ərəb, fars və türk ədəbiyyatları gözəl nət nümunələri ilə zəngindir. Böyük Azərbaycan şairi Füzulinin nətləri (xüsusilə, «su» və «səba» rədifli qəsidələri) Həzrət Mühəmməd Peyğəmbərə (s) həsr olunmuş ən uğurlu əsərlərdən sayılır.

N.R.

NƏZƏR AYƏSİ

Qurani-kərimin «Qələm» surəsinin son iki ayəsi: «*(Ya Peyğəmbər!)* Həqiqətən, kafirlər Quranı eşitdikləri zaman az qala səni gözləri ilə yeyələr. Onlar *(sənin barəndə)*: «O divanədir!» – deyirlər. Halbuki bu *(Quran)* aləmlərə ancaq bir öyüd-nəsihətdir!» *(Qələm, 51-52).*

Bəzi hədis və rəvayətlərdə buyurulub ki, bu ayələr göz dəyməsinin qabağını alır. Ümumiyyətlə, gözdəymə məsələsinə İslam alimlərinin münasibəti birmənalı deyil. Bəzi müsəlman alimləri gözdəymənin sadəcə olaraq özünütəlqin olduğunu bildirir və ona inanmamağı məsləhət görürlər. Bəzi alimlər isə bunun həqiqət olduğunu, mənfi enerji şəklində bir insandan başqa insana ötürülə bildiyini iddia edirlər. Onlar Qurani-kərimdə Həzrət Yəqub Peyğəmbərlə (ə) bağlı bir hadisəni də öz iddialarına sübut kimi gətirirlər. Həzrət Yəqub Peyğəmbər (ə) öz oğullarını Misrə göndərəndə onlara tapşırırmışdı: «Oğullarım! *(Şəhərə)* eyni bir qapıdan girməyin, ayrı-ayrı qapılardan daxil olun» *(Yusif, 67).* Təfsirçilərin bir qismi yazır ki, Yəqub Peyğəmbər (ə) oğullarının sayının çoxluğuna görə onlara göz dəyməsin deyə, şəhərə ayrı-ayrılıqda girmələrini məsləhət görmüşdü.

Göz dəyməsinin həqiqət olduğu barədə hədis və rəvayətlər çoxdur. Məsələn, Həzrət Mühəmməd Peyğəmbər (s) öz nəvələri Həsənlə Hüseyni (ə) qorumaq üçün dua oxumuş və buyurmuşdu ki, bu duanı vaxtilə Həzrət İbrahim Peyğəmbər (ə) öz oğulları İsmaillə İshaq (ə) üçün oxuyubmuş. Həmçinin, Peyğəmbərimiz əmisi oğlu *Cəfər ibn Əbu Talibin* uşaqlarının bəd nəzərdən qorunması üçün üstlərində dua gəzdirmələrinə icazə vermişdi. İmam Əlinin (ə) isə belə buyurduğu rəvayət edilir: «Göz dəyməsi həqiqətdir, ondan qorunmaq üçün duadan istifadə etmək də həqiqətdir».

Bununla belə, gözdəymənin qabağını almaq üçün batil üsullardan istifadə etmək günahdır. Gözmuncuğu, qaratikan, nal və sairə bu kimi əşyaların gözdəyməyə heç bir aidiyyatı yoxdur, onlardan istifadə etmək də İslamda məsləhət görülmür. Rəvayət edilir ki, Peyğəmbərimiz balaca olanda süd anası *Həlimə* xanım onun boynundan gözmüncüğü asmaq istəyəndə Həzrət Mühəmməd (s) buna qətiyyətlə etiraz etmiş və icazə verməmişdi.

Gözdəymənin doğruluğunu qəbul edənlər nəzər ayəsini oxumaqla, yaxud kağıza yazıb öz üstündə gəzdirməklə, ya da evin divarından asmaqla bəd nəzərdən amanda qalmağın mümkünlüyünə inanırlar. Nəzər ayəsi gözəl xətlə yazılaraq, müxtəlif suvenir və bəzəklərin üzərinə həkk edilir.

N.R.

NƏZİR

Yerinə yetirilməsi üçün Allah qarşısında əhd edilib söz verilmiş əməl. Nəzir hər hansı işin həyata keçməsi (və ya keçməməsi) şərti ilə deyilə bilər. Məsələn, insan nəzir deyir ki, filan arzusu həyata keçsə, müstəhəb namaz qılacaq, müstəhəb oruc tutacaq və ya müəyyən miqdarda sədəqə verəcək. Eləcə də, heç bir şərtə bağlı olmayan nəzir də deyilə bilər. Məsələn, Qurani-kərimdə Həzrət Məryəmə hamilə olan anasının öz övladını məbədə xidmətkarlığa verəcəyi ba-

rədə nəzir dediyi bildirilir *(Ali-İmran, 35)*.

Nəzir sanki Allahla bəndə arasında bağlanmış müqavilədir. Nəzirə mütləq əməl etmək lazımdır. Hətta nəziri yerinə yetirməyən şəxsin öhdəsinə *kəffarə* düşür. Nəzirin bəzi vacib şərtləri vardır:

Nəzir deyərkən insan mütləq öz imkanlarını qiymətləndirməlidir. İnsanın imkanı çatmayan mal və əməl barədə nəzir etməsi düzgün deyil. Məsələn, qeyri-mümkün işləri edəcəyini, maddi imkanından qat-qat artıq olan məbləği verəcəyini nəzir deyən adam günah etmiş olur.

Haram işlər barədə nəzir demək olmaz. Məsələn, «filan işim həyata keçsə, filankəsi öldürəcəyəm» və ya «filan arzum yerinə yetsə, qurban bayramı günü oruc tutacağam» kimi nəzirlər batildir.

Nəzir edilən əmlak insanın özünün olmalıdır. Başqasının əmlakından nəzir demək batildir. Eləcə də, başqasını maddi və ya mənəvi çətinliyə salmaqla öz nəzirinə əməl etmək də düzgün deyil. Məsələn, bir çoxları hər hansı arzusunun həyata keçəcəyi təqdirdə qapı-qapı gəzib dilənməyi nəzir edirlər. Bu, günah nəzirdir. Əvvəla, İslamda dilənçilik etmək ən bəyənilməz işlərdəndir; bunu ehtiyacı olmadığı halda etmək isə günahdır. İkincisi, başqasından pul almaqla öz nəzirini yerinə yetirmək də dinimizə ziddir.

İnsanın öhdəsində *fərz* (qəti vacib) vəzifə olan əməlləri etmək barədə nəzir demək olmaz. Məsələn, bəziləri niyyət edirlər ki, çətin işləri həll olsa, ramazan ayında 3 gün oruc tutacaqlar. Halbukt, ramazan ayının orucu hamıya fərzdir (qəti vacibdir). İnsanın arzusu həyata keçsə də, keçməsə də, ramazan orucunu tutmalıdır. Bu orucu nəzir məqsədi ilə tutmaq düzgün deyil. Nəzir orucunu mütləq ramazandan başqa bir vaxtda tutmaq lazımdır ki, fərz olan orucla qarışmasın.

N.R.

NİFAQ

İkiüzlülük, zahirdə özünü müsbət şəkildə sərgiləmək, gizlində isə bunun əksini həyata keçirmək. Dini anlamda özünü mömin kimi göstərib müsəlmanların sıralarına soxulmaq, amma onların əleyhinə fəaliyyət göstərmək mənasında işlədilir. Nifaq törədən şəxsə *münafiq* deyirlər. Maraqlıdır ki, ərəb dilində lağım (yeraltı tunel) mənasını ifadə edən «nəfəq» sözü də «nifaq»la eyni kökdəndir: «*(Ya Peyğəmbər!)* Onların üz döndərməsi sənə ağır gəlirsə, yerdə bir lağım və ya göyə çıxacaq bir nərdivan tapıb, onlara bir möcüzə gətirə bilərsənsə, durma gətir!» *(Ənam, 35)*. Səhrada yaşayan çöldovşanının yuvasına da ərəblər «nafiqa» deyirlər. Çöldovşanı adətən, özü üçün iki yuva qurur. Bunların biri aşkar olunanda tez o biri yuvaya köçür. Münafiq də beləcə cəbhədən-cəbhəyə keçir, müsəlmanların yanında özünü müsəlman kimi göstərir, həmfikirlərinin yanında isə öz əsl simasını açıb-göstərir.

Qurani-kərimdə nifaq və münafiqlər haqqında buyurulur: «Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi içərisində nifaqı özlərinə adət etmiş münafiqlər var. Sən onları tanımazsan, biz isə onları tanıyırıq. Onlara iki dəfə *(dünyada və qəbirdə)* əzab verəcəyik. Sonra *(axirətdə)* isə ən böyük əzaba uğrayacaqlar!» *(Tövbə, 101)*. İmam Əli (ə) nifaqı «şirkin qardaşı» və «küfrün ekiz tayı» adlandırırdı.

Nifaq çox ağır günahdır və münafiq əslində *kafirdən* daha təhlükəlidir. Çünki kafiri əqidəsindən, əməlindən və sözündən tanımaq olur, amma münafiq həm əqidəsini gizlədir, həm əməlini pərdələyir, həm də sözünü dəyişdirir. Ona görə də İslam cəmiyyəti üçün münafiqlərin daşıdığı təhlükə daha qorxuludur.

Əxlaq alimləri nifaqın iki növünü fərqləndirirlər: əqidədə nifaq və əməldə nifaq. Əqidədə nifaq edən adam müsəlman sayılmaz. Çünki o, əslində İslamın və müsəlmanların düşmənidir; ya qorxu üzündən özünü müsəlman kimi göstərir, ya da daha maskalanaraq kəskin zərbə vurmaq xatirinə müsəlmanların cərgəsinə soxulub.

Əməldə nifaq edən adamın günahkarlıq dərəcəsi bundan bir qədər yüngüldür. O, ürəyində iman gətirsə də, nəfsi onu günahlara doğru çəkir, qazanc, şan-şöhrət xatirinə dondan-dona, cilddən-cildə girir. Bu adamın məqsədi dinə qarşı mübarizə aparmaq deyil, öz nəfsini təmin etməkdir. Həzrət Mühəmməd Peyğəmbər (s) məhz əməldə nifaqı nəzərdə tutaraq buyurub: «Hər kimdə bu dörd

xasiyyət olsa, münafiqdir. Hətta bunlardan biri qəlbinə yol tapsa, onu özündən uzaqlaşdırmayınca, nifaqın bir parçasına bulaşmış olar. Bu xasiyyətlər aşağıdakılardır: danışanda yalan söyləmək, vədə verəndə əməl etməmək, əhd bağlayanda cığallıq edib əhdi pozmaq, bir kəslə mübahisəsi düşəndə şəriətə tabe olmamaq».

Həzrət Əli (ə) nifaqın xarakterini ustalıqla açaraq buyurub ki, nifaq 4 dayaq üzərində durur: qudurğanlıq, səhlənkarlıq, kinlilik və tamahkarlıq. Qudurğanlığın da 4 qanadı var: zülm, ədavət, şəhvətpərəstlik, asilik (tabesizlik). Səhlənkarlığın 4 qanadı bunlardır: yalançılıq, boş xəyallara uymaq, özündən razılıq və tənbəllik. Kinliliyin 4 qanadı bunlardan ibarətdir: təkəbbür, fəxr, tərəfkeşlik və təəssübkeşlik. Nəhayət, tamahın 4 qanadını bunlar təşkil edir: yersiz sevinmək, xoş yaşayışa aludəlik, söz güləşdirmək və israfçılıq *(Küleyni. Əl-Kafi, İman və küfr kitabı, Nifaq və münafiqin sifəti babı, 1-ci hədis)*.

N.R.

NİFAS

Qadının doğuşdakı və doğuşdan sonrakı vəziyyəti (zahılıq dövrü). Bəzilərinin fikrincə, doğum zamanı yeni bir can (nəfs) dünyaya gəldiyi üçün, buna nifas deyilir. Bəziləri isə doğuşu qadın bətninin sanki tənəffüs üsün açılmasına bənzədərək, «nifas» sözünün «tənəffüs»lə eyni kökdən olduğunu söyləmişlər.

Doğuş əsnasında qadından gələn qana nifas qanı deyirlər. Nifas qanının müddəti hər qadının orqanizmindən və şəraitdən asılı olaraq fərqlidir. Qanın gəlmə müddətinin aşağı həddi bir andır. Yuxarı həddi cəfəri şəriətində 10 gün, əhli-sünnə şəriətində isə 15 gün götürülür. Hənəfi və hənbəli məzhəblərində nifasın 40 günə qədər davam etməsi mümkün sayılır.

Dini vəzifə baxımından, nifas halında olan qadın *heyz* (aybaşı) halında olan qadınla eynidir. Yəni qan kəsilincəyə kimi namaz qılmaq, oruc tutmaq, Quran yazısına toxunmaq, məscidə girmək, həyat yoldaşı ilə cinsi əlaqədə olmaq ona haramdır. Yalnız qan kəsildikdən və nifas qüslü aldıqdan sonra bu işlər ona halal olur. Nifas qüslü *cənabət* qüslü kimi alınır, amma qadın nifas qüslü aldığını niyyət edir.

Nifas halında qılınmamış namazlar qəza olunmur, amma tutlmamış vacib oruclar günəgün hesabı ilə qəza edilməlidir.

N.R.

NİKAH

Evlənmələrinə maneçilik törədəcək hər hansı səbəb olmayan, müəyyən vəzifələri yerinə yetirməyi öhdəyə alan kişi ilə qadın arasında bağlanan evlilik müqaviləsi, kəbin. Nikah tərəflərin azad seçkisi əsasında olmalıdır.

Nikah Həzrət Mühəmməd Peyğəmbərin (s) sünnəsidir, onu tərk etmək caiz deyil. Peyğəmbərin hədislərinin birində belə buyurulur: «Nikah mənim sünnəmdir; sünnəmdən üz çevirən bizdən deyil».

A.Q.

NİSA TƏVAFI

bax: *təvaf*.

NİSAB

Lüğəvi mənası «ölçü, sərhəd, işarə» deməkdir. Terminoloji mənada *zəkatın* vacib olması üçün təyin olunan müəyyən miqdara deyilir. Yəni sərvət nisab həddinə çatarsa, zəkat vacib olur. Nisabın miqdarı zəkatın verildiyi hər növ mal üçün Həzrət Mühəmməd Peyğəmbər (s) tərəfindən müəyyən edilmişdir. Bu, o dövrdəki İslam cəmiyyətinin orta yaşayış səviyyəsinin və zənginlik dərəcəsinin göstəricisi sayılırdı.

Hədislərdə hər mal üçün fərqli nisab miqdarları müəyyən edilmişdir. Nisab miqdarı qədər malı olan şəxs imkanlı sayılır və zəkatı ödəməlidir. Şah Vəliyyullah Dehləvi (vəf. miladi 1762-ci il) bildirirdi ki, Peyğəmbərin zamanında nisab həddi ər-arvad, bir uşaq və qulluqçudan ibarət ailənin bir illik xərcinə uyğun idi.

Nisab həddi hesablanarkən, aşağıdakı əmlak nəzərə alınmır: zəkat verən şəxsin yaşadığı ev, lazımi ev əşyaları, qış və yay paltarları, lazımi silah və alətlər, kitablar, minik vasitələri (heyvan və ya maşın), qulluqçunun məvacibi, ailənin bir illik dolanışığı üçün tələb edilən maddələr və xərclər. Bütün

bunlar zəruri tələbat olan əmlak sayılır və nisab hesablanarkən nəzərə alınmır. İnsan zəkat verilməli olan əmlakı başqasından borc almışsa, şafii və cəfəri məzhəblərinə görə, bunun zəkatını borc alan şəxs ödəməlidir. Qalan məzhəblərdə şəraitdən asılı olaraq, bəzən borc alan zəkatı ödəyir, bəzən isə bundan azad edilir.

bax: *zəkat.*

A.Q.

NİYYƏT

Hədəf almaq, meyl etmək, yönəlmək. İnsanın bu və ya digər ibadəti hansı məqsədlə icra etdiyini və həmin ibadətin növünü qəlbi ilə qərar verməsi, Allahın razılığını umaraq Ona yönəlməsidir. İslamdakı bütün ibadətlərin dəyəri niyyətə bağlıdır. Niyyət ürəkdə edilir, ancaq dildə də söylənilir. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Əməllər niyyətlərə görədir. Hər kəsin niyyəti nədirsə, əldə edəcəyi də odur» *(Səhihül-Buxari, Bədül-vəhy kitabı, 1 bab, 1-ci hədis; Səhihü Müslim, İmarə kitabı, 155 (4927)-ci hədis; Sünənü Əbu Davud, Talaq kitabı, XI bab, 2201-ci hədis).*

Ə.N.

NÖVHƏ

Ərəblər göyərçinin səsini bu sözlə ifadə edirlər. Termin olaraq, növhə – mərhum şəxsin matəmində avazla oxunan şeir deməkdir. İslamdan əvvəl də bütün millətlərin yas mərasimlərində növhədən istifadə edilirdi. Lakin İslam dini ölülər üçün ağlayıb-sızlamağı, şivən qoparmağı, başqalarının ağlamasına səbəb olan avazlar oxumağı qadağan etdi. Həzrət Mühəmməd Peyğəmbərin (s) belə buyurduğu rəvayət edilir: «Növhə oxumaq cahiliyyə zamanının dəbidir». Həzrət İmam Əli (ə) bölgələrə göndərmiş olduğu valilərin birinə yazmışdı: «Hakim olduğun yerlərdə ölü üçün növhə deyilməsinə icazə vermə». İkinci xəlifə *Ömər ibn Xəttab* ölülərə növhə deyənlərə qarşı elə barışmaz mövqe tutmuşdu ki, hətta birinci raşidi xəlifəsi *Əbu Bəkrin* hüzn məclisində ağlayıb növhə deyən qadınları, o cümlədən, Əbu Bəkrin bacısı Ümmi-Fərvəni qırmancla vurub qovlamışdı.

Bununla belə, şiə məzhəbində İslam müqəddəsləri, xüsusilə, Kərbəla şəhidləri üçün növhə söyləmək nəinki qadağan deyil, hətta bəyənilən əməllərdəndir. İmam Hüseyndən (ə) sonra yaşamış imamlar *aşura* günlərində yas məclisləri təşkil edər, həmin məclislərdə *Kərbəla faciəsi* yanıqlı dillə təsvir olunar, camaat ağlayardı. Şiə məzhəbindəki növhə ənənəsi hər şeydən əvvəl siyasi amilə dayaqlanırdı. Növhələr Kərbəla faciəsinin xatırlanma vasitəsi və zəmanənin zalım hökumətinə qarşı etiraz aksiyası kimi təqdim edilirdi.

Bir məsələni də unutmaq olmaz ki, növhə ənənəsi şiəlikdə nə qədər rəvac tapmış olsa da, növhələrə olan tələblər də bir o qədər ciddi olmuşdur. Növhələrin məzmunu həqiqətə uyğun olmalıdır, yalan və şişirdilmiş mətləblər bu şeir nümunələrinə yol tapmamalıdır. Mövhumat və xurafatla zəngin olan bəzi növhə kitabları zaman-zaman böyük cəfəri alimləri tərəfindən amansız tənqidlə qarşılanmışdır.

Azərbaycan ədəbiyyatında növhə – dini şeir növlərindən biri sayılır. Növhə məzmun etibarilə *mərsiyəyə* oxşar olsa da, quruluş baxımından ondan fərqlənir. Belə ki, mərsiyə adətən, *qəsidə* və məsnəvi formasında yazılır. Növhə isə adətən, bir nəfərin oxuduğu əsas bəndlərdən və məclis iştirakçılarının xorla təkrar etdikləri nəqəratdan (vagirə) ibarət olur. Bəzi növhələr iştirakçıların sinə və zəncir vurmalarını nəzərə alaraq yazılır (bunlara sinəzən və zəncirzən deyilir). Bəzən isə növhələri dinamik quruluşlarına əsasən sədayi (ahəstə) və cuşi (ritmik) olmaqla təsnifata ayırırlar. İstər keçmişdə, istərsə də hal-hazırda təşkil edilən *təziyə* məclislərində Raci, Qumri, Sərraf, Pürqəm, Dilsuz, Fəna və başqa şairlər tərəfindən yazılmış növhələr daha çox oxunur. Bunlardan əlavə, Seyid Əzim Şirvani, Natəvan, Asi, Qüdsi, Sabir kimi hərtərəfli yaradıcılığa malik şairlərimiz də öz qələmlərini növhə sahəsində uğurla sınamışlar.

Azərbaycan növhə ədəbiyyatı barədə məşhur tənqidçi Firidun bəy Köçərlinin qeydləri xüsusi maraq kəsb edir. O, «Azərbaycan ədəbiyyatı» adlı kitabında Azərbaycan şairlərinin dünyəvi məzmunlu əsərlərindən nümunələr gətirməklə yanaşı, dini mövzuda yazılmış növhə və mərsiyələrə də geniş yer ayırır. XX əsrin əvvəllərində Azərbaycanda növhə ədəbiyyatının vəziyyəti barədə müəllif yazır: «Məlumdur ki, beş-on sənə bundan əqdəm artıq hörmət və şöhrətdə olan ancaq İmam Hüseyn müsibətinə dair növhə və mərsiyə yazan şairlər idi ki, onların kəlamı məscidlərdə, təkyələrdə oxunurdu və onlar öz kəlamlarını eşidib, xalqın tərifü tövsifi ilə sərəfraz olurdular və növhə yazmağa dəxi də artıq şövqmənd olub, bütün vaxtlarını və qüvveyi-şeriyyələrini bu yolda sərf edirdilər. On beş-iyirmi sənə bundan əqdəm Şuşa qələdə əli qələm tutan kəmsavad uşaqlar dəxi növhə yazmağa məşğul olub, hər birisi öz düzdüyü şerə oxşayan kəlamları ilə iftixar edirdilər...» (II, 326).

N.R.

NÜBÜVVƏT

Ərəb dilində «nəbəə» felindən qaynaqlanır, lüğəvi mənası «xəbər gətirmək» deməkdir. Ərəb dilində «nəbi» (xəbər gətirən) sözü həm də «peyğəmbər» mənasını bildirdiyi üçün, dini termin olaraq nübüvvət peyğəmbərlik anlamını ifadə edir. Həm Allah elçilərinin peyğəmbərlik missiyasını, həm də peyğəmbərlərə iman bəsləməyi nübüvvət adlandırırlar. Əhli-sünnə əqidəsinə görə, nübüvvət (peyğəmbərlərə iman) *iman əsaslarının*, şiə məzhəbinə görə isə dinin əsaslarının ikincisidir (*tövhiddən* sonra).

Hər bir müsəlman Allah-təalanın göndərdiyi bütün peyğəmbərlərə inanmalı, onları öz xüsusiyyətləri və möcüzələri ilə qəbul etməli, ən əsası isə Həzrət Mühəmmədin (s) sayca sonuncu, şərəfətcə birinci peyğəmbər olduğuna iman bəsləməlidir. Müsəlmanların əqidəsincə, Həzrət Mühəmməd (s) peyğəmbərlərin möhrüdür, yəni sonuncu peyğəmbərdir. Allah-təala Həzrət Mühəmməddən (s) sonra yer üzünə peyğəmbər göndərməyəcək.

Peyğəmbərlərə inam Allaha inamla (tövhidlə) ekizdir. Allaha inanıb peyğəmbərləri danan kəs müsəlman sayılmaz. Peyğəmbərlərin hər hansı birinin ruhunu təhqir etmək, Həzrət Mühəmmədin (s) sonuncu peyğəmbər olduğuna inanmamaq, ondan sonra peyğəmbərlik iddiası edən hər hansı şəxsə iman gətirmək İslam dinindən çıxmaq deməkdir.

N.R.

NÜCUM

Ərəb dilindən tərcüməsi «ulduzlar» deməkdir. Ümumi mənada, göy cismlərinin vəziyyətini və hərəkətini, habelə, yerdə baş verən hadisələrə onların təsirini öyrənən elmə deyilir. Şərq dünyasında nücum elmi paralel olaraq iki istiqamətdə fəaliyyət göstərib: həm sırf astronomiya, həm də astrologiya mənasında.

Nücum elminin tarixi çox qədimdir. Bütün qədim sivilizasiyalarda (Misir, Şumer, Babilistan, Çin, Yunanıstan, Roma və s.) nücum ən çox öyrənilən və ən çox dəbdə olan elmlərdən sayılıb. İslamaqədərki Ərəbistanda da bu elm geniş yayılmışdı.

İslamın ilk dövrlərində müsəlmanların fəth olunmuş xalqlarla (xüsusilə, indiki İran və İraq ərazisində yaşayan əhali ilə) mədəni əlaqələri gedişində nücum elmi böyük vüsət qazanaraq inkişaf etməyə başladı. İstər Qurani-kərim mətnində Günəş, Yer, Ay, ulduzlar, kometlər və sairə səma cismləri ilə bağlı ayələrin təfsiri, istərsə də namaz vaxtlarının və qiblə istiqamətinin təyini kimi şəriət məsələləri nücum elminin aktuallığını daha da artırırdı.

İslam dini baxımından, göy cismlərinin vəziyyətini və hərəkətini öyrənmək çərçivəsində nücum elmi birmənalı olaraq müsbət qarşılanır. Həzrət Mühəmməd Peyğəmbər (s) və imamlar öz kəlamlarında nücum elminin məsələlərinə toxunmuş, müsəlmanları da bu elmi öyrənməyə təşviq etmişlər.

Lakin göy cismlərinin Yerdə baş verən hadisələrə, hətta insanların taleyinə təsirinə gəlincə, əksəriyyətin fikrincə bu kimi inanclar səhv və batildir. Bəzi dini mətnlərdə arasıra astrologiyaya aid məlumatlara rast gəlsək də, alimlər bu hədislərin çoxunu zəif sayır və xüsusi şərhə ehtiyaclı bilirlər.

Həzrət Əlinin (ə) zamanında baş vermiş bir hadisə nücum elmini hansı məhdudiyyətlər daxilində öyrənməyə icazə verildiyini bizə bəyan edir. Həzrət Əli (ə) öz ordusu ilə *Nəhrivan savaşına* yola düşərkən, bir münəccim ona deyir: «Bu vaxt yola düşsən, qorxuram ki, zəfər çalmayasan və öz məqsə-

dinə çatmayasan. Bu xəbəri nücum elmindən əldə etmişəm».

Əli ibn Əbu Talib (ə) ona belə cavab verir: «Kim sənin bu sözlərinə inansa, Quranı yalan saymış olar. İstədiyini əldə etmək və istəmədiklərindən uzaqlaşmaq üçün Allahdan kömək istəməyə ehtiyacı qalmaz. Sözlərindən belə çıxır ki, sənin göstərişinə uyğun rəftar edən kəs Allahına deyil, sənə həmd və şükr etməlidir. Çünki güman edirsən ki, onu xeyir götürdüyü, ziyandan amanda qaldığı saata yönəldən sənsən».

Sonra O, üzünü camaata tutaraq deyir: «Ey camaat! Biyabanda və dənizdə yolu tapmaq üçün lazım olan həddi çıxmaqla, nücum elmini öyrənməkdən çəkinin. Çünki nücumu öyrənmək kahinliklə nəticələnər. Münəccim – kahin kimi, kahin – sehrbaz kimi, sehrbaz – kafir kimidir. Kafirin yeri isə alovdur *(cəhənnəmdir)*» *(Nəhcül-bəlağə, 78-ci xütbə)*.

Bu sözlərdən sonra Həzrət Əli (ə) öz qoşununu savaşa apardı. Məlum olduğu kimi, Nəhrivan savaşı Həzrət Əli (ə) tərəfdarlarının parlaq qələbəsi ilə qurtardı. Bununla da, həmin münəccimin sözlərinin yalan və batil olduğu sübuta yetdi.

Nücum elminin həddi-hüdudu barədə Həzrət Əlinin (ə) yuxarıdakı sözləri Qurani-kərimin bu ayəsinə dayaqlanır: «Suyun və qurunun zülmətində *(yolunuzu)* düz getməkdən ötrü ulduzları sizin üçün yaradan Odur» *(Ənam, 97)*. İmam Əlinin (ə) başqa bir kəlamı da nücum elminin halal hüdudlarını açıqlayır: «Elmin dörd növü var: dini öyrənmək üçün *fiqh* elmi, bədənlərin sağlamlığı üçün tibb elmi, nitqin islah olunması üçün nəhv (qrammatika) elmi və vaxtı bilmək üçün nücum elmi».

Əlbəttə, göy cismlərinin insan həyatına böyük təsiri vardır. Məsələn, yolda azıb-qalmış bir insan gündüz Günəşin, gecə isə ulduzların vəziyyətinə əsasən öz yolunu təyin edir. Yaxud yaxın gələcəkdə havanın necə olacağını metereoloji üsullarla təyin etmək insanın gündəlik həyatında, əkin-biçin işlərində həlledici yerə malikdir. Bu işin daha bir faydalı tərəfi bundan ibarətdir ki, Günəş və Ay tutulması kimi insanları qorxuya salan hadisələri nücum elminin köməyi ilə qabaqcadan bilmək mümkündür. Bu bilgi cəmiyyətdə sabitlik və sakitlik yaratmağa yardımçı olur.

Dini və dünyəvi elmlərin mahir bilicisi, ensiklopedik alim Nəsirəddin Tusinin (1201-1274) zamanında belə bir hadisə baş vermişdi. Tusi rəsədxana kompleksi tikdirmək xahişi ilə Elxani hökmdarı Hülakuya müraciət edir, amma Hülakunun başı hərbi əməliyyatlara qarışdığı üçün, elmi məqsədlər naminə maliyyə ayırmağa razı olmur. Alim hökmdarı razı salmaq üçün maraqlı bir üsuldan istifadə edir. Hülaku ilə danışdıqdan sonra nökərə tapşırır ki, ordu düşərgəsinin yaxınlığındakı təpəyə qalxıb, hamıdan xəbərsiz halda bir mis teşti təpədən aşağı atsın. Mis teşt daşlara dəyib dəhşətli cingilti qoparır. Əsgərlər nə isə fəlakət baş verdiyini düşünüb qorxu içində ora-bura vurnuxmağa başlayırlar. Yalnız Hülaku xan və Tusi qabaqcadan xəbərdar olduqları üçün sakitcə hadisəni izləyirlər. Bu zaman Tusi hökmdara deyir: «Görürsənmi, bizdən başqa hamı qorxu içindədir. Çünki hadisənin səbəbini bilmirlər və qabaqcadan xəbərdar olunmayıblar. Əgər yerdə sakit yaşamaq istəyirsənsə, göydəki hadisələri öyrənməlisən. Biz səmanı müşahidə etsək, Günəş, Ay tutulması, tufan kimi hadisələri qabaqlaya bilərik. Onda qoşun indiki kimi dəhşətə gəlməz və heç bir təbii fəlakətdən qorxmaz».

Lakin göy cismlərinin yer proseslərinə təsirini başqa istiqamətə yozmaq, bürclərin insan taleyinə təsir etməsinə, hər kəsin bəxtinin səmadakı «öz» ulduzundan asılı olmasına, uğurlu və nəhs saatların mövcudluğuna inanmaq dinimizə görə batildir. Bu kimi məsələlərə inanmaq həm insanın əqidəsini korlayır (son mənada onu *şirkə* kimi aparıb-çıxara bilər), həm də onun diqqətini daha mühüm məsələlərdən yayındırır, vaxtını alır.

Bir nəfər İmam Cəfər Sadiqin (ə) yanına gəlib dedi: «Mən uğurlu və nəhs vaxtları hesablamağa aludə olmuşam. Bir iş görmək istəyəndə nücum kitabına baxıb hesabat aparıram; nəticəsi yaxşı olsa, o işin ardınca gedirəm, nəticəsi pis olsa, evdə oturub qalıram». İmam həmin adama tapşırır ki, evindəki bütün nücum kitablarını yandırsın *(Şeyx Səduq. Mən la yəhzürühül-fəqih, II, 267)*.

N.R.

O

ORUC

Müsəlman şəxsin Allaha ibadət niyyəti ilə sübh azanından axşam azanına kimi yeyib-içmək, cinsi əlaqə kimi bəzi əməllərdən özünü saxlaması deməkdir. Yetkinlik yaşına çatmış və sağlamlığı imkan verən hər bir müsəlmanaa ramazan ayında oruc tutmaq fərzdir (qəti vacibdir). Ramazan orucu Bəqərə surəsinin 183-184-cü ayələrinin hökmünə görə, hicri 2-ci ildə (miladi 624-cü il) Bədr savaşından az sonra fərz edilmişdir.

Həzrət Mühəmməd Peyğəmbər (s) ramazan orucunu «Allahın qonaqlığı», «ibadətin qapısı» və «cəhənnəm atəşindən qorunmaq üçün sipər» adlandırırdı. Hədislərdən məlum olur ki, ramazan ayında oruclu şəxsin yerinə yetirdiyi ibadətlərə başqa aylardakına nisbətən bir neçə qat artıq savab verilir. Bu ayda edilən dualar daha tez müstəcab olar, tövbələr qəbul edilər. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Əsl yazıq şəxs odur ki, ramazan ayında günahlardan təmizlənmə fürsətini əldən vermiş olsun». Hədisi-qüdsidə deyilir ki, Allah-təala buyurub: «Oruc mənə görə tutulur, onun mükafatını da mən özüm verəcəyəm».

Həzrət Mühəmməd Peyğəmbər (s) orucluq ayının başlanması ərəfəsində müsəlmanlar qarşısında xütbə söyləyərək buyurmuşdu: «Ramazanda ac və susuz qalmaqla qiyamət gününün aclığını və susuzluğunu yada salın. Kasıbların əlindən tutun, qocalara ehtiram göstərin, uşaqları əzizləyin, qohumlarınızla mehriban olun. Dilinizi nalayiq söhbətlərdən, gözünüzü harama baxmaqdan, qulağınızı sizə yaraşmayan sözləri dinləməkdən çəkindirin! Başqalarının yetimləri ilə mehriban rəftar edin ki, sizin yetimlərinizə qarşı da mehriban olsunlar...

...Ey camaat! Bu ay ərzində hər kim öz əxlaqını yaxşılaşdırsa, qiyamət günündə *sirat* körpüsündən asanlıqla keçər. Hər kim camaata pislik etməsə, Allah öz qəzəbini ondan uzaqlaşdırar. Hər kim öz qohumları ilə sıx rabitə saxlayıb, onlara yaxşılıq etsə, Allahın mərhəmətini qazanar. Kim qohumlarla əlaqəni kəssə, Allah da ondan öz mərhəmətini kəsər...

...Ey camaat! Bu ayda cənnətin qapıları açılar; dua edin ki, o qapılar bağlanmasın. Cəhənnəmin qapıları isə bu ayda bağlanar; dua edin ki, onlar açılmasın. Bu ayda şeytanlar zəncirlənər (fəaliyyətsiz qalar); dua edin ki, onlar sizə qalib gələ bilməsin!..».

Oruc tutmağın həm tibbi, həm ictimai, həm də mənəvi baxımdan çoxlu faydaları vardır.

Orucun tibbi faydaları bundan ibarətdir: Bir il ərzində ardıcıl fəaliiyət göstərən həzm sistemi oruc tutmaq sayəsində dincəlir, yeni qüvvə toplayır. Bədəndə yığılan, müxtəlif xəstəlik mikrobları üçün əlverişli inkişaf məkanına çevrilən zərərli piylər orucluq zamanı əriyib azalır. Həzrət Mühəmməd Peyğəmbər (s) bunu nəzərdə tutaraq buyurmuşdur: «Oruc tutun ki, sağlam olasınız». Əlbəttə, oruc tuta bilməyən xəstə şəxslər bu vəzifədən azaddırlar, amma sağalandan sonra itirdikləri günlərin orucunu tutmalıdırlar.

Oruc insanları bir-birinə yaxınlaşdırır, doğmalaşdırır, siniflər və təbəqələr arasındakı ayrı-seçkiliyi aradan qaldırır. Varlılar bir ay ac qalmaqla kasıbların halını yaxından duyur, onların aclıq və məhrumiyyət içində keçən günlərini müvəqqəti də olsa yaşayırlar. Buna görə də onlar kasıblara qarşı daha şəfqətli, mehriban davranır, xeyriyyəçilik tədbirlərini artırırlar.

Oruc insanın iradəsini möhkəmləndirir, onda mənəvi qüvvə yaradır. Bu mənada oruc sanki iradə möhkəmliyi üçün bir aylıq məşqdir. Bu bir ay ərzində insan dözümlülüyə, nizam-intizama öyrəşir və bu keyfiyyət tədricən onun üçün vərdişə çevrilir. Dünyada heç bir əxlaq məktəbi və psixoloji proqram insan ruhunu oruc qədər təsir altına ala bilməz.

Oruc insanda müsbət əxlaqi keyfiyyətlərin möhkəmlənib inkişaf etməsinə şərait yaradır. Sübh tezdən axşama kimi Allaha ibadət etmək naminə oruc tutan şəxs bu müddət ərzində orucun zahiri qadağanlarına (yeməmək, içməmək, cinsi əlaqədə olmamaq) riayət etməklə yanaşı, Allahın bəyənmədiyi bütün pis işlərdən uzaqlaşmağa çalışır və

gününü Allahın istədiyi tərzdə keçirməyə can atır. Hədislərin birində deyilir: «Oruc tutarkən qulağını və gözünü haramdan uzaq saxla! Başqaları ilə əbəs yerə mübahisə etmə! Çalış ki, oruc tutanlara xas olan vüqarı itirməyəsən və oruc tutduğun gün, yaşadığın başqa günlərə bənzəməsin *(yəni onlardan daha üstün olsun)*». «Oruc tutan şəxs yuxuda olsa belə, Allaha ibadət etmiş sayılar; bu şərtlə ki, müsəlman qardaşının arxasınca qeybət etməsin».

Həzrət Mühəmməd Peyğəmbər (s) *Cabir ibn Abdullaha* buyurmuşdu: «Ey Cabir! Hər kim ramazan ayında gündüzlər oruc tutsa, gecələrin bir hissəsini oyaq qalıb ibadət etsə, cinsiyyət üzvünü və dilini günahdan, gözünü harama baxmaqdan çəkindirsə, camaata pislik etməsə, yeni doğulmuş körpə kimi günahlardan təmizlənər». Cabir dedi: «Sənə fəda olum, bu nə yaxşı hədisdir!». Peyğəmbər ona belə cavab verdi: «Amma bu savaba yetməyin şərtləri də necə çətindir!».

Bir gün Peyğəmbər gördü ki, həyat yoldaşlarından biri oruc tutduğu halda öz xidmətçisini söydü. Peyğəmbər qadına tapşırdı ki, yemək yesin. Qadın təəccüblə soruşdu: «Orucluq zamanı nə yemək?». Peyğəmbər buyurdu: «Bəs sən necə oruc tutmusan ki, xidmətçini söyürsən? Oruc təkcə yeyib-içməkdən çəkinmək deyil».

Rəvayət edirlər ki, bir gün Peyğəmbər ramazan ayının üstünlüyündən danışarkən Həzrət Əli qalxıb Ondan soruşdu: «Bəs, bu ayda yerinə yetirilməsi ən çox savablı olan əməl hansıdır?». Peyğəmbər cavab verdi: «Allahın qadağan etdiyi işlərdən çəkinmək».

Orucunu qəsdən pozn şəxslərin öhdəsinə *kəffarə* (cərimə) düşür. Belə şəxs hər itirdiyi günün əvəzində ya ardıcıl olaraq 60 gün oruc tutmalı, ya da 60 fəqiri doyurmalıdır. Qeyri-iradi olaraq orucunu pozmuş adamın öhdəsində kəffarə yoxdur.

Xəstəlik, qocalıq, hamilələlik, uşaq əmizdirmək kimi səbəblər üzündən oruc tuta bilməyən şəxs *fidyə* ödəməlidir. Heyz və nifas halında olan qadın oruc tuta bilməz, amma ramazan ayı bitdikdən sonra qəza orucu tutmalıdır. Səfərdə olan şəxsin (səfər şərtləri çərçivəsində) oruc tutması şiə məzhəbinə görə haramdır. Əhli-sünnə məzhəbində isə oruc tutub-tutmaması öz seçiminə buraxılır; əgər tutmazsa, vətənə qayıtdıqdan sonra qəza etməlidir. Peşəsi səfər etmək olan, həmçinin, səfər etdiyi yerdə bəlli müddətdən çox qalan şəxs orucunu tutmalıdır (bax: *səfər*).

Ramazan və qurban bayramları günlərində oruc tutmaq haramdır. Amma bəzi başqa günlərdə *nafilə (müstəhəb)* oruc tutulması çox bəyənilir. Əhli-sünnə məzhəbinə görə, rəcəb və şaban aylarında, hər ayın 13-cü, 14-cü və 15-ci günlərində, zilhiccə ayının ilk 9 günündə (xüsusilə, *ərəfə* günündə), həftənin bazar ertəsi və cümə axşamı günlərində, şəvval ayının 6 günündə (Fitr bayramı gününü çıxmaqla) nafilə orucu tutmaq məsləhətdir.

Cəfəri məzhəbində oruc tutulması haram və məkruh olan günlərdən başqa hər gün oruc tutmaq müstəhəbdir. Rəcəb və şəban aylarının bütün günlərində, hər ayın 13-cü, 14-cü və 15-ci günlərində, hər ayın ilk və son cümə axşamı günlərində, hər ayın 10-dan sonrakı ilk çərşənbə günündə, zilhiccə ayının 1-dən 9-a kimi günlərdə, Novruz (20-21 mart), *Qədir-Xümm* (18 zilhiccə), məbəs (27 rəcəb), *mövlud* (17 rəbiül-əvvəl) bayramlarında, mühərrəm ayının 1-də və 3-də, zilqədə ayının 25-də və 29-da nafilə niyyətilə oruc tutmaq savabdır.

Aşura gününün nafilə orucu barədə şiə və sünni məzhəblərinin fikir ayrılığı vardır. Əhli-sünnə məzhəbində aşura gününün orucu *sünnət* sayılır; lakin şiə məzhəbinə görə, *məkruhdur.*

Orucun bəzi hökmləri (orucu batil edən əməllər, kəffarə, fidyə və s.) barədə İslam məzhəblərinin görüşləri arasında müəyyən fərqlər vardır. Bunları dəqiq öyrənmək üçün *risalələrə* (ilmihallara) müraciət etmək lazımdır. Bu kitabda orucla bağlı olan *səhur, imsak, iftar, kəffarə, fidyə, fitrə zəkatı, səfər, bayram namazı* kimi başlıqlar arltında məlumat verilmişdir.

N.R.

Ö

ÖVLİYA

«Vəli» sözünün cəmidir. Ərəb dilindən tərcüməsi «dostlar» və ya «himayədarlar» deməkdir. Yetkinlik yaşına çatmamış uşağın himayədarları, yetimin qəyyumları, hər hansı dəstənin, qruplaşmanın başçıları «övliya» adlandırılır. Quranın bəzi ayələrində bütpərəstlərin tanrı olaraq ibadət etdikləri bütlər də «övliya» adı ilə təqdim edilir. Çünki müşriklər bunları himayədar kimi qəbul edirdilər.

Amma bu ad daha çox «övliyaullah» (Allahın dostları) ifadəsinin qısaldılmış forması kimi mömin adamlara, böyük arif və sufilərə, gözəl əxlaq və nümunəvi əməl sahibi olan insanlara şamil edilir. Quranda bunlar haqqında buyurulur: «Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəmqüssə görməzlər» *(Yunus, 62).* Bəzi təfsirçilər bu ayədəki qorxunu cəhənnəm qorxusu, qəm-qüssəni isə cənnətdən ümidsizlik kimi izah etmişlər. Bir qisim təfsirçilər də haqqında danışılan qorxunu və qəm-qüssəni dünya həyatına aid etmişlər. Yəni Allah dostları dünya qayğılarından azaddırlar, maddi məhrumiyyətlərdən narahat olmazlar. Həzrət Mühəmməd Peyğəmbər (s) övliyanı belə təsvir edir: «Onları görəndə Allah yada düşər. Onların çöhrələri nurludur. Onlarla birlikdə olanlara bədbəxtlik yaxın düşməz». Təsəvvüf aləmində övliya hədsiz ehtirama layiq görülür və peyğəmbərlərdən sonra ən üstün təbəqə sayılır.

Allah dostlarını üç əlamətdən tanımaq olar: onların dərəcələri yüksəldikcə təvazökarlıqları artar; imkanları olduğu halda dünyaya meyl göstərməzlər; intiqam almağa gücləri çatdığı halda bağışlayar və mərhəmət edərlər. İrfan sahibləri övliyada bu üç xislətin olduğunu da söyləyiblər: hər bir halda yalnız Allaha arxalanmaq, hər şeydən ehtiyacsız olub yalnız Allaha möhtac olmaq və hər şeydən üz çevirib Allaha sarı dönmək. Həmçinin, övliyada bu xüsusiyyətlərin olması da şərt sayılıb: bihudə danışmamaq, haram yeməmək, Allahdan başqasına tabe olmamaq. Övliyanın bir çoxu kəramət sahibi olub.

N.R.

P

PEYĞƏMBƏR

Allah-təaladan müxtəlif üsullarla vəhy alan, bu vəhyi insanlara ötürməyə vəzifələndirilən, azğın cəmiyyətləri haqqa doğru çağırıb islah edən və öz əməlləri ilə nümunə olan şəxslərə peyğəmbər deyilir. Peyğəmbər adi insanların arasından yalnız Allahın istəyinə əsasən seçilir. İslami mətnlərdə (o cümlədən Qurani-kərimdə) Allahın elçiləri *nəbi* (ərəbcədən tərcüməsi «xəbər verən» deməkdir) və *rəsul* (ərəbcədən tərcüməsi «göndərilmiş» deməkdir) adlandırılmışlar.

Allah-təala heç kimə və heç nəyə möhtac olmadığı üçün Onun borcu və vəzifəsi də yoxdur. Lakin Allah son dərəcə mərhəmətli və hikmətli olduğundan, bəzi işləri və sifətləri özü üçün vəzifə kimi qəbul etmişdir (buna lütf deyilir). Məsələn, Allah-təala insanları yaratdıqdan sonra onları ruzisiz qoya bilərdi. Lakin bu, Allahın sonsuz mərhəməti ilə uyğun gəlmədiyi üçün O, bütün bəndələrinin ruzisini yetirməyi özünə haqq bilmişdir.

Allahın peyğəmbərlər göndərməsi də belə lütflərdəndir. Allah öz bəndələrini yalnız öz vicdanlarının mühakiməsinə, içlərindəki iman-küfr mübarizəsinin, azğınlıq və hiyləgərliklərin ixtiyarına buraxa bilərdi. Lakin O, insanlara qarşı xeyirxah və mərhəmətli olduğu üçün, onlara düz yolu göstərmək və xəbərdarlıq etmək məqsədilə peyğəmbərlər göndərmişdir. Qurani-kərimdə bu barədə buyurulur: «Şübhəsiz, doğru yola yönəltmək bizim öhdəmizdədir» *(Leyl, 12).*

Məşhur fransız alimi Emil Dermengem «Mühəmməd Peyğəmbərin həyatı» kitabında peyğəmbərlərin əhəmiyyətini çox gözəl bənzətmə ilə ifadə etmişdir: «Quru torpağı cana gətirib münbitləşdirən Günəş, yağış, qar və s. təbiət hadisələri necə xeyirlidirsə, peyğəmbərlər də dünya üçün elə əhəmiyyətlidirlər».

Qurani-kərimin ayələrində, eləcə də hədislərdə peyğəmbərlərin vəzifələri bu şəkildə göstərilir:

a) Peyğəmbərlər insanlara Allahın hökmlərini yetirib, ortada vasitəçi rolunu oynayırlar. Peyğəmbərlər olmasaydılar, insanların din və şəriətdən xəbərdar olmaları mümkün olmazdı.

b) Peyğəmbərlər Allahın əmri ilə insanlara elm və bilik öyrədir, bilmədikləri çətin məsələləri asan dillə şərh edirlər: «Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə *(Allahın)* ayələrini oxuyan, onları (pis əməllərdən) təmizləyən, onlara Kitabı *(Quranı)* və hikməti öyrədən bir peyğəmbər göndərdi. Halbuki, bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər» *(Ali-İmran, 164).*

c) Peyğəmbərlər insanların arasında ədalətlə hökm edərək düzgün qanunlar qoymuş, məzlum insanların haqqını özlərinə qaytarmışlar: «İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi» *(Bəqərə, 213).*

q) Peyğəmbərlərin daha bir vəzifəsi insanların əxlaqını kamilləşdirmək, onları çirkinliyin və günahların caynağından xilas etməkdir. Həzrət Mühəmməd Peyğəmbər (s) bu barədə buyurmuşdur: «Mən gözəl əxlaqı kamilləşdirmək üçün göndərilmişəm».

Qurani-kərimdə dəfələrlə təkrar edilir ki, insanlara onların öz cərgələrindən peyğəmbər seçilib-göndərilmişdir. Allah insanlara mələk, cin, yaxud daha başqa məxluq cinsindən peyğəmbər yollaya bilərdi. Lakin bu zaman insanlar həmin məxluqu özlərindən alçaq hesab edərək ona tabe olmaq istəməzdilər, yaxud onu yad bilib sevməzdilər. Buna görə Allah insanlar üçün göndərdiyi peyğəmbərləri insanların öz içindən seçdi. Hətta bəzən müəyyən millət və tayfaların təəssübkeşlik etməmələri naminə, onların öz içindən tanınmış və möhtərəm şəxsləri peyğəmbərliyə təyin etdi: «De: «Əgər yer üzündə *(siz insanlar kimi)* arxayın gəzib-dolaşanlar mələklər olsaydı, sözsüz ki, onlara bir mələk peyğəmbər göndərərdik» *(İsra, 95).*

Dini mənbələrdə peyğəmbərlərin sayı barədə müxtəlif ədədlər göstərilmişdir. Geniş yayılmış məlumata görə, peyğəmbərlərin sayı 124 min olmuşdur.

Allah-təala heç bir milləti və tayfanı peyğəmbərsiz qoymayıb. Çünki Allahın mərhəməti və diqqəti istisnasız olaraq bütün insanlara şamildir. Qurani-kərimdə buyurulur: «Hər ümmətin bir peyğəmbəri vardır» *(Yunus, 47).* «Elə bir ümmət yoxdur ki, onun içindən *(kafirləri Allahın əzabı ilə)* qorxudan *(xəbərdar edən)* bir peyğəmbər gəlib-getməsin» *(Fatir, 24).*

Allahdan üz çevirib fəlakətə düşən tayfaların hamısına vaxtilə peyğəmbər göndərilmişdir: «Biz peyğəmbər göndərməmiş *(heç bir ümmətə)* əzab vermərik» *(İsra, 15).*

Yer üzündə hər millət bir dildə danışdığı üçün, bütün millətlərə öz dilində danışan peyğəmbər göndərilmişdir: «Biz hər bir peyğəmbəri öz millətinin dilində *(danışan)* göndərdik ki, *(Allahın əmrlərini)* ona izah edə bilsin» *(İbrahim, 4).*

Peyğəmbərlərin sayı çox olsa da, onların az hissəsinin adı və əhvalatları tarixlərdə qalmışdır. Yəhudi, xristian və müsəlman dini kitablarında üst-üstə cəmi 100 nəfərə yaxın peyğəmbərin barəsində məlumat vardır. Qurani-kərimdə isə yalnız 25 nəfər səma elçisinin adı çəkilir. Bunların adlarını təqdim edirik: Həzrət *Adəm, İdris, Nuh, Hud, Saleh, İbrahim, Lut, İsmail, İshaq, Yəqub, Yusif, Şüeyb, Musa, Harun, Davud, Süleyman, Zülkifl, İlyas, Əlyəsə, Yunus, Əyyub, Zəkəriyya, Yəhya, İsa* və *Mühəmməd* (s). Quranda adı çəkilən daha bir neçə nəfərin peyğəmbər olub-olmaması mübahisəlidir: *Loğman, Zülqərneyn, Üzeyir, Talut* və b.

Qurani-kərimdə peyğəmbərlərin heç də hamısının adının çəkilməməsi bir neçə ayədə xatırlanır. Məsələn, ayələrin birində buyurulur: «Biz səndən əvvəl də peyğəmbərlər göndərmişdik. Onlardan kimisi haqqında sənə xəbər vermiş, kimisi haqqında xəbər verməmişik» *(Mömin, 78).*

Quranda adı çəkilən peyğəmbərlərin əksəriyyəti Fələstin, Babilistan və Ərəbistan ərazilərində yaşamışdır. Yer üzündə yaşamış hər millət və tayfanın öz dilində danışan peyğəmbəri olmuşdur. Lakin Həzrət Mühəmməd Peyğəmbər (s) ərəb millətindən olduğu və öz dinini ilk öncə vətənində yaydığı üçün, Quranda məhz Şərq peyğəmbərlərinin əhvalatını müsəlmanlara xəbər verməyi

Allah məsləhət bilmişdir. Həzrət Mühəmmədin (s) zamanında ərəblər Fələstin, Babilistan və Ərəbistan ərazisində yaşamış qədim peyğəmbərlər barəsində söylənilən dastanlardan agah idilər. Bu peyğəmbərlərin əhvalatı Tövrat və İncildə də xatırlanmışdır. Lakin həmin kitablarda peyğəmbərlərin ünvanına xeyli iftiralar deyilmiş, onların həyatı nəzərəçarpacaq dərəcədə təhrif edilmişdir. Quran peyğəmbərlərin həyatını hər cür yalan və böhtandan təmizləyərək olduğu kimi təqdim edir.

Qurani-kərimdə 25 peyğəmbərin hamısı barədə eyni həcmdə və eyni dəqiqliklə bilgi verilməyib. Allah-təala bəzi peyğəmbərlərin tarixini onlarla ayədə işıqlandırmış, bəzilərinin isə yalnız adını çəkməklə kifayətlənmişdir. Bu fərq hər şeydən əvvəl həmin peyğəmbərlərin sərgüzəştlərinin tərbiyəvi gücü və ibrətamiz xüsusiyyətləri ilə əlaqədir. Allah-təala Quranda o peyğəmbərlərin tarixini geniş təsvir edib ki, onların həyatı müsəlmanlar üçün nümunə ola biləcək hadisələrlə zəngindir.

Qurani-kərimdə peyğəmbərlərin növləri haqqında buyurulur: «Peyğəmbərlərin bəzisini digərindən üstün etdik. Allah bunlardan bəzisi ilə danışmış, bəzisinin isə dərəcələrini yüksəltmişdir» *(Bəqərə, 253).* Peyğəmbərlər *nəbi, rəsul və ülul-əzm* dərəcələrinə bölünürlər.

Peyğəmbərdə bəzi şərtlərin olması zəruridir. Bu şərtlərə cavab verməyən şəxs peyğəmbər ola bilməz. Həmin şərtlər aşağıdakılardan ibarətdir:

a) Peyğəmbər günahsız olmalıdır (ismət).

Din aləmində o şəxs *məsum* adlanır ki, hər cür böyük və kiçik günahdan uzaq olsun, həm ibadət əməllərində, həm əxlaqda, həm də ictimai həyatda səhlənkarlıq, ziyanvericilik, riyakarlıq etməsin, yalan söz danışmasın, niyyəti həmişə xeyirxahlıq olsun. Allah-təala Qurani-kərimdə Həzrət Mühəmmədə (s) müraciət edərək buyurur: «Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən» *(Qələm, 4).* İsmət sifəti barədə *«məsum»* məqaləsində ətraflı məlumat verilmişdir.

b) Peyğəmbər yüksək ağıl və zəkaya sahib olmalı, hiylələrə aldanmamalı, səhv etməməlidir (fətanət).

Aydındır ki, cəmiyyətə dini rəhbərlik edən şəxs cəmiyyətin hər bir fərdindən daha üstün ağla və zəkaya malik olmalıdır. Əgər camaat peyğəmbəri aldada bilsə, peyğəmbər mübahisəli məsələlərdə yalançı şahidlərin xeyrinə hökm verib şəriəti pozar. Bu zaman insanlar ona ya nifrət bəsləyər, ya da «sadəlövh» deyib istehza edərlər və peyğəmbər öz hörmətini itirər. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Allah-təala, göndərdiyi hər bir nəbinin və rəsulun ağlını kamilləşdirdi, onu ağılca bütün ümmətdən üstün etdi».

c) Peyğəmbər vəhyi olduğu kimi, artırıb-əskiltmədən çatdırmalı, Allahın əmanətinə məsuliyyətlə yanaşmalıdır (əmanət).

ç) Peyğəmbər yalan danışmamalıdır (sidq).

Bəzi alimlər aşağıdakı şərtləri də peyğəmbərlər üçün vacib bilmişlər:

d) Peyğəmbər şərəfli əsil-nəsəbdən olmalıdır.

İnsanlar bəzən başqasının şəxsiyyətinə deyil, əsil-nəsəbinə diqqət yetirirlər. Pis ad çıxarmış nəslin nümayəndəsi istər-istəməz adamda mənfi təəssürat yaradır. Əksinə, əsilnəcabətli şəxs ətrafdakıların məhəbbət və ehtiramını qazanır. Əgər peyğəmbərin əsil-nəsəbi pis olsa, düşmənləri ona tənə edib həqarətlə baxarlar. Buna görə də bütün peyğəmbərlərin validеyni və ulu əcdadı təmiz əxlaqlı, pak əqidəli, eyibsiz insanlar olmuşlar.

e) Peyğəmbər camaatda nifrət hissi yaradan xəstəliklərə (məsələn, vəba, taun, cüzam, yara-xora, dəri-zöhrəvi xəstəliklər və s.) tutulmamalıdır.

Əgər peyğəmbər yuxarıda sadalanmış xəstəliklərin biri ilə yoluxsa:

– Yoluxucu xəstəliyə düçar olmuş peyğəmbər insanlardan xəcalət çəkər, onların nöqsan cəhətlərini söyləyə bilməz. Əgər belə etsə də, camaat tərəfindən rişxənd və təhqirlə qarşılanar. İnsanlar ona nifrət edib həqarətlə baxar, özlərindən əskik sayarlar.

– İnsanlar xəstəliyə yoluxmamaq üçün peyğəmbərdən qaçarlar, yaxud peyğəmbər özü insanları yoluxdurmamaq üçün onlardan ayrılar. Hər iki halda bu, peyğəmbərin təbliğat işinə manе olar.

– Peyğəmbər özü xəstə olsa, şəriətin bir sıra göstərişlərinə (dəstəmaz, qüsl, oruc və s.) əməl edə bilməz, imanın yarısı adlandırılan təmizlik və gigiyena qaydalarını gözləməz. Bu isə mümkün deyildir; çünki peyğəmbər şəriətə riayət etməkdə hamıdan birinci olmalıdır.

Bu mövqedən çıxış edən alimlər bildirmişlər ki, Həzrət *Əyyub Peyğəmbər* (ə) heç də ikrah hissi yaradan iyrənc xəstəliyə düçar olmamışdı. Geniş yayılmış təsəvvürün əksinə olaraq, onun bədənini qurd basmamış, yara örtməmişdi. İmam Mühəmməd Baqir (ə) bu ittihamları qətiyyətlə rədd edərək söyləmişdir: «Həzrət Əyyub (ə) ağır bəlalara düçar olsa da, bədənindən pis qoxu gəlmirdi, sifəti eybəcərləşməmişdi, dərisində irin və qan buraxan iyrənc yaralar yox idi. Onu görən adam iyrənmir və qorxmurdu. Əyyubun (ə) bədənini qurd basmamışdı. Allah öz peyğəmbərlərinə və sevimli bəndələrinə nifrət doğuran xəstəlik göndərməz, onlara Əyyubunku (ə) kimi xəstəlik verər» *(Əllamə Məclisi. Həyatül-qülub).*

N.R.

PİR

Müqəddəs məkan, ziyarətgah. Fars dilində pir «qoca, yaşlı» mənasını verir. Bundan əlavə, təsəvvüf aləmində haqq yolunu izləməyə başlayanları hidayət edən, öz arxasınca aparan *mürşidə,* təriqət başçısına da pir deyilir. Ola bilər ki, ilk dövrlərdə təriqət pirlərinin məzarı üzərində tikilən ziyarətgahları pir adlandırırmışlar. Hal-hazırda hər hansı müqəddəs şəxsin, *övliyanın,* mömin şəxsin məzarı üzərində, yaxud onun doğulduğu və yaşadığı yerdə, bəzi hallarda isə hər hansı fövqəladə hadisənin, möcüzənin göründüyü məkanda tikilən ziyarətgah komplekslərini pir adlandırırlar. Xalq dilində pirin başqa adı «ocaq»dır.

Azərbaycan ərazisində mövcud olan pirlərə ən bariz nümunə Bakıdakı Təzəpir kompleksidir. Bu ziyarətgahın tarixi XIV–XV əsrlərə gedib-çıxır. Pir öz zəmanəsində görkəmli alim və övliya kimi tanınmış Əbu Səid Abdullahın məzarı üzərində tikilibmiş. Sonralar məzar torpaq qatı altında qalmışdı. Keçmişdə Təzəpirin ərazisi xalq arasında «Xəlfə damı» adı ilə tanınırdı. «Xəlfə», yəni «xəlifə» təsəvvüf terminidir; təriqət şeyxi vəfat etdikdən sonra öz vəsiyyətinə əsasən onun yerini tutan ən layiqli tələbəsinə *xəlifə* deyilirdi. «Xəlfə damı» ifadəsi də xəlifənin məzarı üzərində tikilmiş dam (bina) mənasını verir. 1817-ci ildə axırıncı Bakı xanı Hüseynqulu xanın kürəkəni Qasım bəy piri əsaslı şəkildə təmir etdirsə də, sonralar tikili yenə dağıntılara məruz qaldı. XX əsrin axırlarında xeyriyyəçi Nabat xanım Xocabəy qızı Aşurbəyli dağılmaqda olan tikilini öz vəsaiti hesabına yenidən qurdurdu. Görkəmli memar Zivərbəy Əhmədbəyovun layihəsi əsasında ərazidə iri məscid binası ucaldıldı, köhnə pirə aid olan məzar isə məscidin altındakı zirzəmidə qaldı. Tikintisi 1914-cü ildə tamamlanmış yeni məscid xalq arasında Təzəpir kimi tanınmağa başladı. Təzəpir məscidi Azərbaycanın ən məşhur və mərkəzi məscidi sayılır. Qafqaz Müsəlmanları İdarəsi də Təzəpir məscidinin həyətində yerləşir.

Təzəpir məscid kompleksi 2005-2009-cu illər arasında Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin göstərişi ilə Prezident Fondunun vəsaiti hesabına mükəmməl şəkildə təmir edilmişdir. Təmir işləri zamanı məscid öz ilkin görkəminə qaytarılmış, eləcə də özəl memarlıq üslubuna xələl gətirməyən əlavələrlə bəzədilmişdir.

N.R.

PİŞNAMAZ

Fars dilindən tərcüməsi «namaz zamanı öndə duran» deməkdir. *Camaat (cümə) namazlarına* rəhbərlik edən və camaatın *iqtida* etdiyi şəxsə deyilir. «İmam-camaat» sözünün sinonimi kimi işlədilir.

Şəriətdə pişnamazın bəzi şərtlərə cavab verməsi vacib sayılır. Məsələn, pişnamaz namazın sözlərini düzgün tələffüz etməlidir. Qiraəti nöqsanlı olan şəxs pişnamaz ola bilməz. Pişnamaz camaat arasında yaxşı bir müsəlman kimi tanınmalı, gözəl əxlaqlı və ədalətli olmalıdır. O, namazın düzgünlüyünə xələl gətirəcək üzrlülüyə malik olmamalıdır. Məsələn, sidiyini saxlaya bilməyən, bədənində qanlı yarası olan adam pişnamazlıq edə bilməz.

Yalnız kişilərdən, eləcə də kişi və qadınlardan ibarət olan camaatın pişnamazı mütləq kişi olmalıdır. Amma yalnız qadınlardan ibarət olan camaata qadının pişnamazlıq etməsi mümkündür. Təkcə maliki məzhəbinə görə, qadınların da namazına kişinin başçılıq etməsi vacibdir. Pişnamazla ona iqtida edənin namazları eyni olmalıdır. Yəni məsələn, pişnamaz bayram namazı qılırsa, ona iqtida edən şəxsin gündəlik namazlardan birinə niyyət edib qılması düzgün deyil. Amma eyni növdən olan namazların hökmü fərqlidir. Məsələn, pişnamaz zöhr namazını, ona iqtida edən isə əsr namazını qılırsa, hənəfi, hənbəli və maliki məzhəblərinə görə, iqtida edənin namazı batil olar. Həmçinin, qəza namazı qılanın əda namazı qılan pişnamaza iqtida etməsi də hənəfi və maliki məzhəbləri baxımından düzgün deyil. Amma cəfəri və şafii məzhəblərində bunlara icazə verilir.

Eyni səviyyəli şəxslər arasından kimin pişnamazlığa daha layiq olması barədə də İslam məzhəblərində fərqli baxışlar var. Məsələn, şafiilər və malikilər dövlət tərəfindən təyin edilmiş şəxsin, məscid imamının namaza rəhbərlik etməsini məsləhət bilirlər. Bunlar olmayan yerdə namazın hökmlərini daha mükəmməl bilən, *zöhdü* və *təqvası* daha çox olan, qiraəti daha düzgün olan, yaşca böyük, əsil-nəsəbcə şərəfli, ən təmiz paltarlı şəxs pişnamaz olmalıdır. Qalan məzhəblərdə də dini savada, düzgün tələffüzə, əxlaq və iman üstünlüyünə, yaşa, əsil-nəcabətə üstünlük verilir.

İslam məzhəblərində pişnamazla bağlı bəzi başqa şərtlər də nəzərdə tutulub; bunlar barəsində şəriət kitablarından ətraflı məlumat əldə etmək olar.

N.R.

R

RAMAZAN BAYRAMI

İslamda ən böyük iki bayramdan biri. Ramazan ayının sona çatması münasibətilə şəvval ayının 1-də qeyd edilir. Dini mətnlərdə «Fitr bayramı» kimi də xatırlanır.

Ramazan bayramına keçən gecə ayrılmış fitrə pulunu bayram günü səhər öz təyinatı üzrə çatdırmaq məsləhətdir. Ramazan bayramı günü oruc tutmaq haramdır. Həmin gün səhər vaxtı qüsl almaq, ətir səpmək, təmiz və səliqəli libas geyinmək, qohum-qonşuları təbrik etmək, əzizlərin görüşünə getmək savabdır. Bütün bayramlarda olduğu kimi, ramazan bayramı günündə də küsülülərin barışması təkid edilir. Bayram günündə ölülərin məzarını ziyarət edib, ruhlarına rəhmət diləmək də ənənə şəklini alıb.

Ramazan bayramı günü qılınan bayram namazı eynilə Qurban bayramının namazı kimidir. Bayram namazını qılmaq şafii və maliki məzhəblərində təkid edilən *sünnət* sayılır. Hənəfi məzhəbinə görə, bayram namazını qılmaq vacibdir (*fərzdən* daha aşağı səviyyədə). Hənbəli məzhəbinə görə isə, vacibi-kifayidir. Yəni heç kim bu namazı qılmasa, bütün müsəlmanlar günahkar sayılarlar; amma bir nəfər qılsa, başqalarının öhdəsindən bu vəzifə götürülmüş olar. Cəfəri məzhəbi baxımından, peyğəmbərin və imamın zamanında bayram namazını camaatla qılmaq vacibdir. İmamın qeyb dövründə isə qılınması müstəhəbdir; həm camaatla, həm də təklikdə qılına bilər.

Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Şəvval ayının ayparası görünəndə (yəni Fitr bayramı gecəsi) mələklər möminlərə elan edərlər: «Sabah öz mükafatlarınızı almağa tələsin; sabah mükafat günüdür». İmam Əli ibn Əbu Talib (ə) xəlifə olduğu dövrdə ramazan bayramı günü müsəlmanların qarşısında xütbə söyləyərək buyurmuşdu: «Ey camaat, bu gün yaxşı əməl sahiblərinə savab verilər, pis əməl sahibləri ziyana uğrayarlar. Bu gün qiyamətə çox bənzəyir. Evinizdən çıxıb məscidə toplaşmağınız qiyamətdə qə-

birdən çıxıb Rəbbinizin hüzurunda toplaşmağınıza oxşayır. Məsciddə namaza durarkən qiyamətdə Rəbbinizin hüzurunda duracağınızı təsəvvür edin. Məsciddən evinizə dönməniz isə qiyamətin sonunda cənnətə və ya cəhənnəmə getmənizi xatırlatsın sizə.

Ey Allahın bəndələri! Bilin, oruc tutan kişi və qadınlara veriləcək ən kiçik savab budur ki, Ramazanın sonuncu günündə Allahın əmri ilə mələklərdən biri car çəkib elan edər: «Müjdə olsun sizə, ey Allahın bəndələri! Sizin ötən günahlarınız bağışlandı. Görək gələcəkdə özünüzü necə aparacaqsınız».

Ramazan bayramına keçən gecəni ibadət və dua ilə keçirmək müstəhəbdir. Həmin gecə də ehya saxlamağın və çoxlu namaz qılmağın savabı var.

Fitr bayramına keçən gecənin axşam namazlarından və bayram gününün namazlarından sonra bu duanı oxumaq böyük savaba malikdir: «Allahü əkbər. Allahü əkbər. La ilahə illəllah. Vallahü əkbər. Vallahü əkbər. Və lillahil-həmd. Əl-həmdü lillahi əla ma hədana. Və ləhüş-şükri əla ma əvlana». Tərcüməsi: «Allah böyükdür. Allah böyükdür. Allahdan başqa məbud yoxdur. Allah böyükdür. Allah böyükdür. Həmd Allaha məxsusdur. Bizi hidayət etdiyinə görə Allaha həmd olsun. Bizi özünə dost etdiyinə görə Ona şükr olsun».

Rəvayətlərdə deyilir ki, İmam Zeynülabidin (ə) ramazan bayramının gecəsi sübhə kimi oyaq qalıb namaz qılar və deyərdi: «Bu gecə heç də *Qədr gecəsindən* əskik deyil». İmam Əli ibn Əbu Talib (ə) isə həmin gecənin üstünlüyünü belə təsvir edirdi: «Yeri var ki, insan hər il dörd gecə yalnız ibadətlə məşğul olsun: fitr bayramı gecəsi, qurban bayramı gecəsi, şəbanın orta gecəsi və rəcəb ayının birinci gecəsi».

Bəzi ölkələrdə ramazan bayramı böyük təntənə ilə bir neçə gün (ən azı 3 gün) qeyd edilir.

N.R.

RAVİ

Ərəb dilindən tərcüməsi «rəvayətçi» deməkdir. İslam müqəddəslərinin buyurduqları sözləri (hədisləri) ya bilavasitə məsumların (Peyğəmbərin, imamın) dilindən eşidən, ya da özündən əvvəlki ravidən müəyyən üsullarla əxz edən (dilindən eşidən, diqtəsindən mənimsəyən, kitabından oxuyan və s.) və özündən sonrakı etibarlı, doğrucul adamlar üçün söyləyən şəxsə ravi deyilir. Hər bir hədisin etibarlılıq dərəcəsi onun ravilərinin mömin, ədalətli, doğrucul, hafizəli olmalarından asılıdır. Ravilərin şəxsiyyətini, həyat tarixçəsini öyrənən elmə *rical* elmi deyirlər. Ravinin etibarlı olduğuna dəlalət edən xüsusiyyətlər *tədil*, etibarsız olmasına dəlalət edən cəhətlər isə *cərh* adlanır.

N.R.

RƏBB

Ərəb dilindən tərcüməsi «bəsləyən, tərbiyə edən» deməkdir. Dilimizdə işlədilən «tərbiyə» və «mürəbbi» sözləri də eyni kökdəndir. Rəbb Allahın *əsmaül-hüsnasından* biridir. Məşhur lüğət alimi Rağib İsfahani «əl-Müfrədat» əsərində yazır: «Rəbb – kök etibarilə tərbiyə və inkişaf etdirmək, yəni bir əşyanı malik olduğu vəziyyətdən daha kamil və son həddə çatdırmaq mənasından qaynaqlanır».

Qurani-kərimdə «Rəbb» və onunla eyni kökdən olan 980 söz işlədilib. «Rəbb» kəlməsi Allahla bəndə arasında ən səmimi əlaqə yaradan müraciət forması olduğu üçün, əksər duaların əvvəlində «Rəbbi» (ey Rəbbim) və «Rəbbəna» (ey Rəbbimiz) ifadələri durur. İzafət bağlılığı olmadan, təklikdə işlənən «Rəbb» sözü yalnız Allaha aid edilir. Əgər bu söz izafət birləşməsi kimi işlənərsə, Allahdan başqasına da aid edilə bilər (məsələn: rəbbüd-dar – ev sahibi, rəbbüs-səfinə – kapitan).

Allah-təala bütün varlıq aləmini nizam-intizamla, öz ölçüsündə yaratmışdır. Lakin Onun kainatla əlaqəsi bununla qurtarmır. Allah hər şeyi yaratdığı kimi, həm də onu yaşadır, bəsləyir, tərbiyə edir. Dünyada olan hər şey öz varlığına görə Allaha borcludur. Əşyanın mövcudluğunun hər anı Allahla qırılmaz rabitənin sayəsində mümkündür (bax: *vacibül-vücud*).

Aləmin mövcudluğu Allahın rübubiyyət (rəbblik) sifətinin *təcəllasıdır*. Əgər Allah hər hansı cismdən (canlı və ya cansız) öz rübubiyyətini kəssə, həmin cism o an məhv

yox olar. Qurani-kərimin Fatihə surəsində Allah «aləmlərin Rəbbi» kimi təqdim edilir.

N.R.

RƏCA

bax: *xovf və rəca.*

RƏCƏZ

Orta əsrlərdə Şərqin müharibə ənənəsinə əsasən, döyüşən tərəflər toqquşmazdan əvvəl pəhləvanlar irəli çıxıb təkbətək çarpışardılar. Bu zaman pəhləvanlar öz yazdıqları, yaxud keçmiş şairlərdən iqtibas etdikləri şeir parçalarını oxuyur və düşmənə hərbə-zorba gəlirdilər. Bu şeir parçalarına rəcəz deyilirdi. Rəcəzlərdə döyüşçü öz güc-qüvvəsini tərifləyir, düşmənə qalib gəlmək əzmini ifadə edir və özünə rəqib istəyirdi. İslam tarixində Əli ibn Əbu Talibin (ə) rəcəzləri xüsusilə məşhurdur. Məsələn, *Xeybər savaşında* İmam Əli belə rəcəz demişdi:

Mən o şəxsəm ki, anam mənə Heydər (aslan) adı verib.
Mən aslan kimi cəsuram.
Qüvvətli qollarım, güclü boynum var.
Şir kimi vahiməli görünüşə malikəm.

N.R.

RƏCİM

Ərəb dilindən tərcüməsi «daşla vurulmuş» deməkdir. Dini ədəbiyyatda *şeytanın (İblisin)* ləqəbi kimi işlədilir. Quran tilavətindən və duadan əvvəl deyilən «Əuzü billahi minəş-şeytanir-rəcim» ifadəsinin tərcüməsi belədir: «Daşla vurulmuş şeytandan Allaha sığınıram».

Şeytanın «rəcim» adlandırılmasının səbəbi Həzrət İbrahimlə (ə) bağlı bir hadisədən qaynaqlanır. İbrahim Peyğəmbər (ə) öz oğlu İsmaili (ə) qurban kəsmək barədə Allahdan əmr alanda İblis onun yanına gələrək, bu fikirdən onu döndərməyə çalışdı. Amma Həzrət İbrahim (ə) İblisin hiyləsinə uymadı, onu daşla vurub qovladı. Sonra İblis İbrahim Peyğəmbərin (ə) həyat yoldaşı, İsmailin (ə) anası Hacərin yanına gəldi, ərinin niyyətini ona xəbər verdi, Hacəri bir ana kimi oğlunu qorumağa təhrik etmək istədi. Amma imanlı ana onu daşlayıb özündən uzaqlaşdırdı. Axırda İblis İsmaillə (ə) görüşüb, atası tərəfindən qurban kəsiləcəyini ona söylədi. İsmaili (ə) atasına tabe olmamağa, öz həyatını xilas etməyə çağırdı. Amma İsmail (ə) də İblisin mənfur niyyətini anlayıb onu qovdu. Bu hadisənin rəmzi kimi bu gün də hacılar *Mina* vadisindəki üç sütuna daş atırlar.

N.R.

RƏCM

Ərəb dilindən tərcüməsi «daş-qalaq etmək» mənasını verir. İslam şəriətində *zina* etmiş evli adama verilən cəza növünün adıdır. Ailəli adamın (istər kişi olsun, içtərsə qadın) zina etməsi şəriət məhkəməsində sübuta yetirilərsə, daşqalaq edilir. Subay insanlara daha yüngül cəza (100 şallaq zərbəsi) tətbiq olunur. Zinanın məcburən deyil, könüllülük əsasında edilməsi şərtdir. Hamilə qadının rəcm olunması övladının doğuluşuna kimi təxirə salınmalıdır. Rəcm cəzası yalnız şəriət məhkəməsinin qərarı ilə icra edilə bilər.

Keçmiş dinlərdə (məsələn, iudaizmdə) də bu cəza növü var idi. Mənbələrdə bildirilir ki, iudaizmdə 18 cinayət növünə görə daşqadaq edilmək cəzası nəzərdə tutulmuşdu. Bibliyada Həzrət İsa Peyğəmbərin (ə) bəzi ardıcıllarının yəhudilər tərəfindən daşqalaq edilərək öldürülməsi təsvir olunub *(Həvarilərin əməlləri, VII, 54-60).* Həzrət İsanın (ə) özünü də yəhudi dininə qarşı çıxdığı üçün, daşqalaq etmək istəyirdilər *(İohann İncili, X, 31; XI, 8).* Bibliyada zina etmiş subay qızın və ərli qadının rəcm olunması barədə hökm vardır *(Təsniyə, XXII, 20-24).* Sonralar rəcm cəzasına məhkum edilənləri hündür bir təpənin zirvəsindən yerə atır, üstünə ağır qaya parçaları tullayırdılar.

İslamda rəcm hökmü Quranda yoxdur. Bu hökm sünnəyə əsaslanır. Bəzi qeyri-mötəbər rəvayətlərdə bildirilir ki, əvvəllər Quranda rəcm ayəsi olmuş, sonra bu ayə nəsx edilmişdir (özü də, Quranın mətnindən çıxarılmaq yolu ilə; bax: *Sünənü İbn Macə, Hüdud kitabı, 2553-cü hədis; Səhihü Müslim, Hüdud kitabı, 4418-ci hədis; Səhihül-Buxari, Etisam kitabı, 7323-cü hədis və s.).* Lakin bu rəvayətlər Quranın təhrifdən uzaq olması prinsipinə uyğun gəlmədiyi üçün düzgün sayılmır.

N.R.

RƏĞAİB GECƏSİ

Müsəlmanlar tərəfindən müqəddəs sayılan, mömin bəndələrə Allahdan sonsuz nemətlər verilən, tövbələr qəbul edilən gecə, rəcəb ayının ilk cümə gecəsi. Rəğaib gecəsində dua etmək, günahların bağışlanmasını istəmək, Qurani-kərim oxumaq, Həzrət Mühəmməd Peyğəmbərə (s) salavat söyləmək və ibadət etmək tövsiyə olunmuşdur. Bununla belə, əhli-sünnə mənbələrində bu gecənin mahiyyəti barədə dəqiq və mötəbər məlumata rast gəlinmədiyi, rəğaib gecələrinin daha çox ənənəyə bağlı bir mərasim olduğu bildirilir.

Şiə məzhəbində də rəcəb ayının ilk cümə axşamı günündə oruc tutmaq, cümәyə keçən gecə yatmayab ibadət etmək, *məğrib* və *işa namazları* arasında 12 rükət namaz qılmaq (qoşa rükətlər şəklində) müstəhəbdir. Bu namazların qılınma şəkli müvafiq məzmunlu kitablarda izah edilib.

R.M. və N.R.

RƏHİL

Quranı qoymaq üçün istifadə edilən altlıq. Adətən, Quranı rəhilin üzərinə qoyub oxuyurlar. Rəhil çox vaxt möhkəm taxta materialdın hazırlanır. Bağlı halda yastı taxta parçası kimi görünür, açılanda isə «X» formasını alır. Maraqlı cəhət budur ki, onu hazırlayan zaman mismardan və yapışqandan qətiyyən istifadə edilmir. Rəhil bütöv taxta parçasını xüsusi qaydada kəsib yonmaqla düzəldilir. Bəzi mürəkkəb quruluşlu rəhillərin hündürlüyünü nizamlamaq da olur. Yəni onu bir neçə variantda açmaqla Quranın lazım olan hündürlükdə durmasını təmin etmək olur. Müsəlman ustalar orta əsrlərdə rəhilləri gözəl ornamentlərlə, yazılarla bəzəyib, əsl sənət əsərləri yaradırdılar.

N.R.

RƏHMƏTƏN LİL-ALƏMİN

Həzrət Mühəmməd Peyğəmbərin (s) məşhur ləqəblərindən biridir. Mənası «aləmlərə rəhmət (mərhəmət)» deməkdir. Bu ifadə Qurani-kərimdən götürülmüşdür. Allah-təala öz Peyğəmbərinə muraciət edərək buyurur: «Səni aləmlərə ancaq bir rəhmət olaraq göndərdik» *(Ənbiya, 107)*.

Bu ifadədəki «aləmlər» kəlməsini əksər tədqiqatçılar insan və *cin* aləmi kimi izah etmişlər. Yəni Həzrət Mühəmməd (s) həm insanlara, həm də cinlərə peyğəmbər göndərilmişdi.

Peyğəmbərin aləmlərə rəhmət olmasının mənası budur ki, Onun təbliğ edib çatdırdığı Quran ayələrinin, eləcə də buyurduğu hədislərin sayəsində insanlar haqq yolu tapır, hidayət olur və Allahın əzabından qurtulub xoşbəxtliyə çatırlar. Üstəlik, Peyğəmbər qiyamət günündə mömin müsəlmanlar üçün şəfaət edəcək və onların günahlarının bağışlanmasına yardım göstərəcək.

«Rəhmətən lil-aləmin» ifadəsindən Şərqin klassik şairləri öz əsərlərində çox istifadə etmişlər. Həzrət Mühəmməd Peyğəmbərə (s) həsr olunmuş *nət* və *mərsiyələrdə* buna tez-tez rast gəlirik. Məsələn:

Ey üzün «Qədr»ü cəmalın «rəhmətən lil-aləmin»,
Məscidə varman bu gün, arzulaman meyxanəni.
(İ.Nəsimi).

Ağlayın, ey ümmətani-xasi-xətmül-mürsəlin!
Eyləyib rehlət bu gündə rəhmətən lil-aləmin.
(H.R.Sərraf).

N.R.

RƏML və CİFR (və ya CƏFR)

Fövqəltəbii (qəraib) elmlər sırasına aid olan elmlər. Bunların tarixi İslamdan çox-çox əvvəllərə gedib-çıxır.

Rəml – nöqtələrdən və xətlərdən ibarət cizgilər vasitəsilə bəzi hesabatlar apararaq, məchul əşyaların vəziyyətini və naməlum hadisələri öyrənmək haqqında elmdir. Rəml vasitəsilə əsasən itmiş və ya yeri bilinməyən əşyaları tapırlar. Keçmişdə bu cizgiləri qumun üstündə çəkirdilər («rəml» sözünün ərəb dilindən tərcüməsi də «qum» deməkdir). Rəml elmində hesabatlar 4 ünsürə (hava, od, su, torpaq) və 12 bürcə əsasən həyata keçirilir. Sayı 16 olan rəml xanalarının hər birinin öz adı, simvolu və mənası var. Bəzi dini mətnlərdə rəml elminin Həzrət Adəm (ə), Həzrət İdris (ə) və ya Həzrət Daniyal (ə) peyğəmbərlər tərəfindən icad edildiyi bildirilir.

İslamın ilk dövrlərində rəml elmindən istifadə edilməsi haqqında məlumat yoxdur. Lakin sonrakı əsrlərdə rəml elmi müsəlman ölkələrində geniş yayılmış, bu mövzuda irili-xırdalı risalələr yazılmışdır. Xüsusilə, hökmdar saraylarında rəmmallar (rəml alimləri) böyük nüfuza malik idilər. Müsəlman alimlərin bir qismi rəml elminin həqiqətinə inanır, bir qismi bu elmin yalnız peyğəmbərlərə və Allahın seçilmiş bəndələrinə məlum olduğunu söyləyirlər. Bəziləri isə rəml elmini mövhumat və xurafat sayırlar.

«Cifr» sözü ərəb dilindən tərcümədə «süddən kəsilmiş oğlaq və ya quzunun dərisi» mənasını verir (taxtadan düzəldilib üzərinə dəri çəkilən kiçik sandıq (mücrü) mənasında da qəbul edilir). Deyilənlərə görə, bu elmin kitabı Həzrət Əli (ə) tərəfindən körpə heyvan dərisi üzərinə yazıldığı üçün, ona bu ad verilib. Cifr – ərəb hərflərinin batini dünyasına, rəqəm qarşılığına uyğun olaraq aparılan hesabatlar nəticəsində gələcəkdə baş verəcək bəzi hadisələrdən xəbər verən elmdir. Cifr elmi ilə *əbcəd* arasında müəyyən oxşarlıqlar var. Cifr elminin Həzrət Mühəmməd Peyğəmbər (s) tərəfindən İmam Əli ibn Əbu Talibə (ə) öyrədildiyi söylənilir. Bəzi mənbələrdə isə cifr elminin İmam Cəfər Sadiq (ə) tərəfindən yaradıldığı xəbər verilir. Hədislərdə Həzrət Əlinin (ə) cifr və camiə elmlərindən xəbərdar olduğu və bu elmlərin imamdan-imama keçdiyi haqqında məlumatlar var. Bu elmi imamdan başqa heç kəs bilməz.

Hədislərdə İmam Cəfər Sadiqin (ə) ağ və qırmızı cifr elmlərini bilməsindən danışılır. Ağ cifr – ən kiçik xırdalıqlarına kimi bütün dini qanunların və şəriət hökmlərinin toplandığı elmdir. Həm İslam dininin, həm də başqa dinlərin qanun-qaydaları bura aiddir. Qeyd etdik ki, bu elmi İmam Əli Həzrət Mühəmməd Peyğəmbərdən (s) öyrənmişdi. O həzrət buyurdu ki, Allahın Rəsulu 1000 elmin qapısını mənim üzümə açdı; bu 1000 qapının hər birindən də 1000 başqa elmə qapı açıldı. Həmçinin, Həzrət Əli (ə) başqa dinlərin də ehkamına mükəmməl surətdə bələd olduğunu bildirərək buyururdu: «Tövrat əhli *(yəhudilər)* ilə Tövrata, İncil əhli *(xristianlar)* ilə İncilə, Quran əhli *(müsəlmanlar)* ilə Qurana əsasən qəzavət edərəm. Bu kitabların hər biri dil açıb şahidlik edər ki, mən Allahın qanunları əsasında hökm vermişəm» *(Şeyx Müfid. İrşad, I, 29-30; Şeyx Səduq. Əmali, səh. 341)*.

Yuxarıda adı çəkilən qırmızı cifr elminə isə gələcəkdə baş verəcək hadisələr, qan-qadalar, müsibətlər haqqında məlumatlar aiddir. İmam Mehdi (ə) zühur etdikdən sonra öz düşmənləri ilə qırmızı cifr kitabında yazılanlara əsasən hökm edəcək.

Cifr elminin varlığını bəzi alimlər şübhə altına qoymuşlar. Xüsusilə, keçmişdə əhli-sünnə alimləri bunu şiə məzhəbinin xurafatlarından hesab edir və tənqid atəşinə tuturdular. Lakin İbn Xəldun kimi rasional düşüncəyə sahib məşhur sosioloq ədədlərin gizli xüsusiyyətləri ilə bağlı olan elmlərin həqiqətinə inandığını etiraf edir, amma bunu elmdən daha çox, şəxsi keyfiyyətlərə bağlı olan bir istedad kimi dəyərləndirirdi. O, göstərirdi ki, xüsusi bacarığı olan şəxslərin Allahdan aldıqları ilham və kəşf yolu ilə ədədlər üzərində əməliyyatlar aparmaqla bəzi nailiyyətlər əldə etmələri həqiqətdir (bax: *İbn Xəldun. Müqəddimə, səh. 666*).

N.R.

RƏMYİ-CƏMƏRAT

Həcc mərasiminin bir hissəsi. *Mina* vadisində *İblisi* simvolizə edən 3 sütuna daş atmaq. Atılan daşlar *cəmrə* adlandığı üçün, bu mərasimə də «rəmyi-cəmərat», yəni «cəmrələri atmaq» deyirlər.

Hacılar zilhiccə ayının 9-undan 10-a keçən gecə *Müzdəlifə* vadisində 70 ədəd xırda daş (cəmrə) toplayırlar. Qurban bayramı günü səhər Müzdəlifədən Minaya gəlir və üç sütundan birini – ən sonda yerləşən Əqəbə sütununu daşlayırlar. Sütuna 7 ədəd daş atmaq lazımdır. Daşların hamısı hədəfə dəyməlidir. Daşları bir-bir atmaq lazımdır.

Əqəbə sütununu daşladıqdan sonra hacılar həcc əməllərini davam etdirirlər. Zilhiccə ayının 11-də, 12-də və 13-də Minada qalmaq vacibdir. Həmin günlərdə də hacılar sütunlara daş atmalıdırlar. Amma bu dəfə sütunların hər üçünə daş atırlar. Hər gün 3 sütunun hərəsinə 7 daş atılır. Əqəbə sütunu ən sonda daşlanır. Beləliklə, həcc mərasimi ərzində İblisi simvolizə edən sütunlara cəmi 70 ədəd daş atılır.

Rəmyi-cəmərat mərasiminin tarixi Həzrət İbrahim Peyğəmbərin (ə) həyatı ilə bağlıdır.

Yuxuda öz sevimli oğlu İsmaili (ə) Allah yolunda qurban kəsmək əmri alan İbrahimi (ə) İblis yolundan döndərməyə çalışır, qəlbinə vəsvəsə salır. Həzrət İbrahim (ə) İblisi daşla vurub qovur. Bundan sonra İblis növbə ilə əvvəlcə Həzrət İbrahimin (ə), sonra onun həyat yoldaşı Hacərin, daha sonra oğlu İsmailin (ə) gözünə görünüb, onları bu işdən vaz keçməyə çağırır. Amma onların hər üçü İblisi daşla vurub özlərindən uzaqlaşdırırlar. Rəmyi-cəmərat mərasimi həmin hadisənin simvolik təkrarı kimi yerinə yetirilir.

Daş atılan hədəflər əvvəllər ensiz daş sütun şəklində idi. Son illərdə hacıların işini yüngülləşdirmək üçün sütunların enini artırıb divar şəklinə salıblar.

N.R.

RƏSUL

Peyğəmbərlərin təsnifatında *nəbidən* daha üstün olan bir dərəcədir. Ərəb dilindən tərcüməsi «göndərilmiş, elçi» deməkdir. Allah tərəfindən *vəhylə* göndərildiyinə görə, onlara bu ad verilmişdir.

Bəzi alimlər nəbi ilə rəsul arasında heç bir fərqin olmadığını bildirmişlər. Lakin Qurani-kərimdə bu iki ad yanaşı işlədilir: «Biz səndən əvvəl də elə bir rəsul, elə bir nəbi göndərmədik ki, o, *(hər hansı bir şeyi)* arzu etdikdə şeytan onun arzusuna *(vəsvəsə yolu ilə)* bir xələl qatmasın» *(Həcc, 52)*. Ayədə hər iki sözün yanaşı işlədilməsi nəbi ilə rəsulun fərqli dərəcələrə mənsub olduqlarına işarədir.

Nəbi ilə rəsulun fərqi barədə dini mənbələrdə qəti məlumat olmadığına görə, alimlər bu mövzuda müxtəlif nəzəriyyələr irəli sürmüşlər. Məsələn, nəbinin Allahdan aldığı vəhyi başqalarına təbliğ etmək vəzifəsi daşımadığını, yalnız özünün bu vəhyə əməl etməli olduğunu yazmışlar. Rəsul isə, öz *risalətini* (peyğəmbərliyini) mütləq təbliğ etməlidir. Yəni rəsulun öz *ümməti* olmalıdır. Bu nəzəriyyə məhdud sayda alimlər tərəfindən müdafiə edilir. Çünki nəbi başqalarını hidayət etmək vəzifəsini daşımasa, onun aldığı vəhyin *ilhamdan* fərqi olmaz. Belə şəxsin peyğəmbərliyə təyin edilməsinin mənası da qalmaz. Çünki peyğəmbərlərin göndərilməsindən əsas məqsəd insanları *hidayət* və irşad etməkdir.

Bəzi alimlərin fikrincə, nəbidən fərqli olaraq, rəsul ayıqlıqda mələklə görüşür və ondan vəhy alır.

Başqa bir nəzəriyyəyə görə, rəsul ya yeni bir şəriətlə göndərilir (bu, *ülul-əzm* peyğəmbərlərin üstünlüyüdür), ya özündən əvvəlki rəsulun şəriətində islahatlar aparır (zəmanəyə uyğun olaraq yeni məsələləri bura əlavə edir), ya da unudulmuş keçmiş şəriətlərdən birini təbliğ edir. Nəbi isə yalnız özündən əvvəlki son ülul-əzm peyğəmbərin şəriətini olduğu kimi təbliğ etməklə məşğul olur.

Daha bir nəzəriyyəyə görə, rəsul, ona qarşı müxalifət cəbhəsinə keçmiş insanlarla döyüşmək və öz risalətini yaymaq yolunda silahdan istifadə etmək səlahiyyətinə malikdir. Lakin nəbinin belə bir səlahiyyəti yoxdur.

Dini mətnlərdə rəsulların sayının 313 və ya 315 olduğu göstərilir. Qurani-kərimdə adları çəkilən peyğəmbərlərin böyük əksəriyyəti rəsul olmuşdur. Rəsulların içindən 5 nəfərini *ülul-əzm* adlandırırlar.

bax: *nəbi, ülul-əzm.*

N.R.

RƏSULÜLLAH

Ərəb dilindən tərcüməsi «Allahın elçisi» deməkdir. Allahın göndərdiyi peyğəmbərlər içərisindən rəsul mərtəbəsinə yüksəlmiş şəxslərin hamısını rəsulüllah adlandırmaq olar. Amma dini ənənədə bu ləqəbi adətən, təkcə Həzrət Mühəmməd Peyğəmbərə (s) aid edirlər. Yəni Həzrət Nuhun (ə) ləqəbi nəciyullah (Allahın xilas etdiyi), Həzrət İbrahimin (ə) ləqəbi xəlilullah (Allahın dostu), Həzrət İsmailin (ə) ləqəbi zəbihullah (Allah yolunda qurban deyilmiş), Həzrət Musanın (ə) ləqəbi kəlimullah (Allahın həmsöhbəti), Həzrət İsanın (ə) ləqəbi ruhullah (Allahın ruhu) olduğu kimi, İslam Peyğəmbərinin də məşhur ləqəbi rəsulüllahdır (Allahın elçisi).

Qurani-kərimin mətnində də Həzrət Mühəmməd Peyğəmbər (s) dəfələrlə rəsulüllah adlandırılıb: «Mühəmməd yalnız Allahın rəsuludur. Ondan əvvəl də rəsullar gəlib-getmişlər» *(Ali-İmran, 144)*. «Mühəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur» *(Əhzab, 40)*. «Mühəmməd Allahın rəsuludur» *(Fəth, 29)*.

N.R.

RƏY

Lüğəvi mənası «görmək, fikir irəli sürmək»dir. Terminoloji mənada Quran və hədisdə açıq-aydın bildirilməyən bir məsələ haqqında *müctəhidin* dini dəlillərə əsaslanaraq hökm çıxarmasını ifadə edir. Həzrət Mühəmməd Peyğəmbər (s) *Müaz ibn Cəbəli* Yəmənə qazi (hakim) kimi göndərərkən, qarşıya çıxacaq məsələ haqqında Quranda və sünnədə bir hökm tapmasa, necə hərəkət edəcəyi haqqında ondan soruşmuş, Müaz: «Öz rəyimlə ictihad edərəm» – deyə, cavab vermişdi. Peyğəmbər bu cavabdan çox məmnun qalaraq razılığını bildirmişdi *(Sünənüt-Tirmizi, Ehkam babları, III bab, 1327-ci hədis)*. Burada «rəy» ifadəsi *ictihad* və *qiyas* mənasında işlədilmişdir.

Ə.N.

RƏZİALLAHÜ ƏNH

Adətən, *raşidi xəlifələrin* və *səhabələrin* adlarından sonra qeyd edilən ifadə. Ərəb dilindən tərcüməsi «Allah ondan razı olsun» deməkdir. Qadın üçün «rəziallahü ənha», birdən çox şəxs üçün «rəziallahü ənhüm» deyilir.

R.M.

RƏZİLƏT

Ərəb dilindən tərcüməsi «əskiklik, alçaqlıq» deməkdir. İslam əxlaqında insanın mənfi xüsusiyyəti kimi *fəzilətin* (üstünlüyün) ziddi rəzilət adlandırılır. İnsan ruhunu idarə edən qüvvələr tarazlıq halında olarsa – fəzilət, ifrat (həddən artıq) yaxud təfrit (həddən az) həddində olarsa – rəzilət sayılır.

Əxlaq alimləri qeyd edirlər ki, insan ruhu üç əsas qüvvədən ibarətdir. Başqa sözlə desək, ruhun üç əsas xarakteri var: ağıl, qəzəb və şəhvət qüvvələri. (Burada şəhvət qüvvəsi deyərkən, yalnız cinsi istəklər deyil, hər şeyə qarşı həvəs və tələbatlar nəzərdə tutulur. Məsələn, yeyib-içmək, var-dövlət toplamaq, vəzifə qazanmaq həvəsi də şəhvət qüvvəsinə aiddir). İnsanın bütün varlığı bu qüvvələr vasitəsilə idarə edilir. Onlardan hansı biri üstünlük əldə edərsə, bütövlükdə insanın xarakterini öz təsiri altına alır.

Ağıl qüvvəsi hər şeyin həqiqətini öyrənməyə çalışır, xeyirlə şərin fərqini anlayır, tədqiqat və araşdırma aparır. Qəzəb qüvvəsi hər bir məsələyə qeyzlə, əsəbiliklə yanaşır, başqalarını özündən uzaqlaşdırmağa, zərəri dəf etməyə çalışır. Şəhvət qüvvəsi isə insanı yeməyə, içməyə, cinsi ləzzətə, maddi rahatlığa doğru çəkir.

Göstərilən qüvvələrin hər birinin həm faydalı, həm də zərərli cəhətləri var. Onların faydası, ya zərəri isə hansı səviyyədə olmalarından, güclü ya zəif şəkildə təsir göstərmələrindən asılıdır.

Məsələn, insan öz ağlının köməyilə dünyanı dərk edir, yaxşını pisdən, savabı günahdan ayırır. Ağıl vasitəsilə Allahı tanımaq, Ona ibadət etmək mümkün olur. Lakin ağıl qüvvəsinin ifratı və təfriti qorxuludur. Ağıldan az istifadə ediləndə, savadsızlıq, səfehlik, avamlıq kimi mənfi hallar yaranır. Hər şeyi ağılla ölçməyə cəhd ifrat hal alanda, insanı mənasız düşüncələrə, yorucu tədqiqatlara sövq edir. İnsan hər şeyə – ən adi həqiqətlərə belə şübhə ilə yanaşır, *vəsvəsəyə* düçar olar. Bu, həm də insanı hiyləgərliyə, fırıldaqçılığa sürükləyər.

Həmçinin, qəzəb hissi insanda lazımi səviyyədə olarsa, onu şücaətli, qorxmaz və vüqarlı edir. İnsan qəzəbin təsiri ilə düşmənə qarşı müharibəyə qalxır, cihada qoşulur, Vətən torpağının müdafiəsinə durur. Lakin qəzəb qüvvəsi həddən az olanda qorxaqlıq, qeyrətsizlik kimi rəzilətlərə gətirib-çıxarır. Əgər normanı aşarsa, insanı zalımlığa və kobudluğa təhrik edir.

Şəhvət qüvvəsinin də normal səviyyədə inkişafı insanın xeyrinədir. Yemək, yatmaq, ailə qurmaq kimi əməllər şəhvət qüvvəsinin təhriki ilə baş verir. Lakin bu hisslərin ifrat dərəcəyə çatması rəzilətdir. İnsan tamamilə şəhvət qüvvəsinə tabe olub onu nizamlamaq qüdrətini itirərsə, tamamilə alçalıb heyvanat səviyyəsinə enər. Yeməyə həddən artıq aludə olmaq qarınqululuğa, yatmağı xoşlamaq isə tənbəlliyə şərait yaradar. Öz ruhunu cinsi ehtiraslara əsir etmiş şəxs əxlaqsızlıq uçurumuna yuvarlanar.

N.R.

RİBA

Lüğəvi mənası «artma, çoxalma, böyümə» deməkdir. Dilimizdə işlənən «sələmçilik» və «faizlə pul vermək» anlayışlarının sinonimidir. Fiqh terminologiyasında riba – pul və ekvivalent malların bir-biri ilə dəyişdirilməsi zamanı tərəflərdən biri üçün şərt qoyulan əvəzsiz əlavəni ifadə edir. Cahiliyyə dövründə borc verilən pula rəsül-mal (əsas pul), verilən əlavəyə isə riba (sələm, faiz) deyirdilər.

İslamda və əvvəlki ilahi dinlərdə sələmçilik istehsalat çərçivəsinə daxil olmayan, əmək və ya ticarət riskindən uzaq əsassız varlanma üsulu sayılaraq qadağan edilmişdir. Hədislərdə riba ən çirkin qazanc kimi göstərilir. Hələ peyğəmbərliyin Məkkə dövründə, Həzrət Mühəmmədin (s) meracla bağlı hədislərində faiz yeyənlərə cəhənnəmdə dəhşətli əzablar veriləcəyi bildirilirdi *(Sünənü İbn Macə, Ticarat kitabı, LVIII bab, 2273-cü hədis; Əhməd ibn Hənbəl. Müsnəd, II, 353 və 363).* Həmçinin, Məkkədə nazil olmuş ayələrin birində sələmçilik insana savab qazandırmayan bir əməl kimi xarakterizə edilir *(Rum, 39).* Daha sonrakı ayələrdə sələmçilik açıq-aşkar günah kimi təqdim edilir: «Ey möminlər! Əgər doğrudan da iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən *(faizdən)* vaz keçin! Əgər belə etməsəniz, o zaman Allaha və Onun Peyğəmbərinə qarşı müharibəyə girişdiyinizi bilin! Yox, əgər tövbə etsəniz, sərmayəniz *(mayanız)* sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar» *(Bəqərə, 278-279).*

Həzrət Mühəmməd Peyğəmbərin (s) aşağıdakı hədisində bütün ekvivalent malların mübadiləsi sələmçiliyin əhatə dairəsinə daxil edilmişdir: «Qızıl qızılla, gümüş gümüşlə, buğda buğda ilə, arpa arpa ilə, xurma xurma ilə və duz duzla misli mislinə, bərabər və nəğd olaraq dəyişdirilə bilər. Fərqli növlər *(cinslər)* bir-biri ilə mübadilə edilərsə, nəğd olmaq şərtilə istədiyiniz kimi satın» *(Səhihü Müslim, Müsaqat kitabı, 81 (4063)-cü hədis; Sünənü Əbu Davud, Büyu kitabı, XII bab, 3349-cu hədis; Əhməd ibn Hənbəl. Müsnəd, V, 314 və 320).* Bu hədisin «Sünənüt-Tirmizi»dəki rəvayətində belə bir əlavə vardır: «Hər kim bu kimi mübadilələrdə çox verər və ya alarsa, şübhəsiz, riba *(sələmçilik)* etmiş olar» *(Sünənüt-Tirmizi, Büyu babları, XXIII bab, 1240-cı hədis).*

Müasir dövrdə qızıl və ya valyuta satışlarında məzənnə qiymətləri gün ərzində bir neçə dəfə dəyişir, bu cür nisyə alver əksər hallarda tərəflərdən birinə haqsız qazanc gətirir. Məhz buna görə qızıl, gümüş və ya valyuta satışları nağd edilməlidir.

Eyni cinsdən olan mallar arasındakı mübadilə mövzusunda *Bilali-həbəşi* belə bir hadisə rəvayət edir: Həzrət Mühəmməd Peyğəmbər (s) eşidir ki, Bilal Ona hədiyyə etmək üçün iki çəki vahidi qədər ortabab xurmanı bir çəki vahidi qədər keyfiyyətli xurma ilə dəyişdirib. Peyğəmbər Bilala buyurur: «Vay-vay! Riba elə budur! Bir daha belə iş tutma! Xurma almaq istəsən, öz xurmanı sat və onun puluna istədiyin xurmanı al!» *(Səhihül-Buxari, Vəkalət kitabı, XI bab, 2312-ci hədis).*

Qurani-kərimdə qeyd edilən sələm haqqında məşhur alim İbn Rüşd (vəf. miladi 1126-cı il) belə yazır: «Cahiliyyə ribası hamı tərəfindən riba kimi qəbul edilmiş və qadağan olunmuşdur. Cahiliyyə ərəbləri faiz almaq şərti ilə borc verər və borcu qaytarmaq üçün möhlət təyin edərdilər. Borclu borc aldığı şəxsə: «Mənə vaxt ver, mən də sənə olan borcumu artırım» – deyərdi. Peyğəmbərin *vida xütbəsində* qadağan etdiyi sələmçilik növü də məhz budur».

İmam Cəfər Sadiq (ə) sələmçiliyin haram olmasının səbəbini belə izah etmişdir: «Əgər sələm halal olsaydı, insanlar ticarəti və dolanışıq üçün qazanc dalınca getməyi tərk edərdilər. Allah-təala sələmi haram etdi ki, insanlar haram yeməkdən əl çəkib ticarətə, alış-verişə üz tutsunlar və mallarının artığını bir-birinə borc versinlər, bir-birinə yaxşılığı əsirgəməsinlər». Hədislərdə buyurulur: «Allah-taala sələm alana, sələm verənə, onu qeyd edənə və onun şahidlərinə lənət edib» *(Həzrət Mühəmməd Peyğəmbər (s)).* «Dinin hökmlərini bilmədən ticarət və qazancla məşğul olan şəxs özünü sələmin uçurumuna atmış olar» *(Əli ibn Əbu Talib (ə)).*

Ə.N. və N.R.

RİBAT

İslamın ilk dövrlərində bu söz müsəlman məmləkətlərinin sərhədlərində tikilən müdafiə tikililərinə (istehkamlara) aid edilirdi. Cihad üçün hazırlanmış atların saxlandığı yeri də ribat adlandırırlar *(Ənfal, 60).* «Mürabitə» sözü sərhəddi qorumaq, növbə çəkmək mənalarında işlədilir.

Ümumiyyətlə, İslam torpaqlarının toxunulmazlığını qorumaq üçün növbə çəkmək ən böyük savablardan sayılır. Quranda buyurulur: «Ey iman gətirənlər! Səbir edin, dözün, *(sərhəd boyu növbədə durub cihada)* hazır olun və Allahdan qorxun ki, bəlkə nicat tapasınız» *(Ali-İmran, 200).* Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub: «Allah yolunda sərhəddə bir gün növbə çəkmək bütün dünyadan və onun içindəkilərdən daha üstündür». «Qiyamət günündə iki göz ağlamaz: Allahın qorxusundan ağlayan göz və Allah yolunda yatmayıb növbə çəkən göz».

XI-XII əsrlərdən etibarən, ribatlar öz əvvəlki funksiyalarını itirməyə və adi karvansaralara çevrilməyə başladı. Hal-hazırda ərəb dilində «ribat» sözü karvansara mənasında işlədilir. Sufilərin toplandığı məkanlara da ribat deyirlər (bax: *xanəgah, təkyə*).

1056-1147-ci illərdə Şimali Afrikada və Əndəlusda Mürabitilər sülaləsi hakimiyyət sürürdü. Bu adın mənşəyi barədə yazırlar ki, Şimali Afrikanın yerli sakinləri olan bərbərlər tayfasına mənsub bir qrup müsəlman Mavritaniya ərazisində ribat quraraq, buradan ətraf məntəqələrə İslamı yaymağa başladı. Yarı-sufi, yarı-hərbçi həyat tərzi sürən bu insanlar qeyri-müsəlman tayfalar arasında İslamı təbliğ edir, Allahın yolundan çıxmış hakimləri cəzalandırırdılar. Kifayət qədər güc topladıqdan və Şimal-Qərbi Afrikaya nəzarəti ələ keçirdikdən sonra Mürabitilər İspaniyaya adlayaraq, zəifləmiş Əndəlus əmirliyinə yiyələndilər. Sülalənin adının mənası həm də onların Avropa xristianları ilə daimi müharibə şəraitində olmaları və xilafət sərhədlərini qorumaları ilə əlaqəli idi.

N.R.

RİCAL

Ərəb dilində «rəcül» (kişi) sözünün cəmidir. Dini anlamda hədisşünaslıq elmlərindən biri rical adlanır. Bu elm hədis və rəvayətlərin sənəd zəncirində adı keçən ravilərin həyatını öyrənir. Adları bir-birinə çox oxşayan, mənbələrdə ziddiyyətli məlumatlarla xatırlanan ravilərin şəxsiyyətinə aydınlıq gətirmək, onların dini, siyasi, elmi fəaliyyətlərini araşdırmaq, iman və əxlaq səviyyələri, din rəhbərlərinə münasibətləri barədə məlumatları incələmək, rəvayətlərinin nə dərəcədə mötəbər olduğunu aydınlaşdırmaq rical elminin əsas vəzifələrindən sayılır. Rical islami elmlər sırasında müstəsna əhəmiyyət daşıyır. Çünki məlum olduğu kimi, İslamda həm etiqad, həm əxlaq, həm də şəriət mövzusundakı hökmlər iki ana mənbəyə – Qurani-kərimə və sünnəyə əsaslanır. Qurani-kərimin mətni təhrifdən uzaq olduğu üçün, onun sənədinin öyrənilməsinə ehtiyac yaranmır. Amma hədislərin mətni ilə yanaşı, onları rəvayət edən ravilərin şəxsiyyəti də ciddi surətdə araşdırılmalıdır. Çünki bir hədisin səhih sayılması üçün, sənədinin (rəvayət zəncirinin) sağlam olması mütləq şərtdir. Ravilərin adının, şəxsiyyətinin, etibarlılıq dərəcəsinin öyrənilməsində səhlənkarlıq edilsə, yalan hədisin doğru və əksinə, doğru hədisin yalan kimi qəbul edilməsi təhlükəsi yaranar. Bu isə çox mühüm dini hökmlərin tamamilə səhv yozulmasına və təhrfi olunmasına gətirib-çıxarar.

Rical ən mürəkkəb İslami elmlərdən sayılır. Cünki rical alimi çox diqqətli və səbirli, eyni zamanda güclü hafizəyə malik olmalıdır.

Əhli-sünnə məzhəbində ən mötəbər rical kitabları aşağıdakılardır:

«Tarixül-kəbir» və «Tarixüs-səğir» (hər iki kitab İmam Buxarinindir), «əl-Cərh vət-tədil» (İbn Əbi Hatəm Razi), «Təhzibül-kəmal» (Mizzi), «Təzkirətül-hüffaz» və «Mizanül-etidal» (hər ikisi Şəmsüddin Zəhəbinindir), «Üsüdül-ğabə» (İbn Əsir), «əl-İstiab» (İbn əl-Birr), «əl-İsabə», «Təhzibüt-təhzib», «Təqribüt-təhzib», «Lisanül-Mizan» (bu dörd kitabın müəllifi İbn Həcər Əsqəlanidir), «Kitabüs-siqat» (İbn Hibban), «Tarixü Dimeşq» (İbn Əsakir), «Vəfəyatül-əyan» (İbn Xəllikan) və s.

Şiə məzhəbində isə Keşşinin, Nəcaşinin, İbn Davud Hillinin «Rical» kitabları, Şeyx Tusinin «Rical», «Fehrist» və «İxtiyarü mərifətir-rical» kitabları, Mirzə Mühəmməd Əstərabadinin «Ricalül-kəbir», İbn Şəhraşu-

bun «Məalimül-üləma», Hürr Amulinin «Əməlül-Amul», Şeyx Abdullah Maməqaninin «Tənqihül-məqal», Şeyx Mühəmməd Təqi Şüştərinin «Qamusür-rical» əsərləri daha məşhurdur. Tanınmış mərceyi-təqlidlər Seyid Hüseyn Birucerdinin «Təbəqatür-rical» və Seyid Əbül-Qasim Xoyinin 27 cildlik «Möcəmü ricalil-hədis» kitabları son dövrlərdə bu elm sahəsində həyata keçirilmiş ən dərin araşdırmalardan hesab edilir.

N.R.

RİCƏT

Ərəb dilindən tərcüməsi «qayıdış» deməkdir. Əsasən, *cəfəri məzhəbinə* aid kitablarda bu mövzu daha geniş işıqlandırılır. Bir çox hədislərə görə, dünyanın sonuna yaxın, qiyamətin qopmasından bir qədər əvvəl Allahın əmri ilə bəzi İslam müqəddəsləri və onların düşmənləri dirilib bu həyata qayıdacaqlar. Müqəddəslər vaxtilə öz düşmənlərindən çəkdikləri zülm və əziyyətlərin intiqamını onlardan alacaqlar. Məsələn, İmam Hüseynlə (ə) Yezid və onun əlaltıları ricət hadisəsinin əsas fiqurlarından sayılır. Həzrət Hüseyn (ə) öz qatillərini məhv edəcək. Buna görə də ricət – qiyamətdən əvvəl ilahi ədalətin kiçik miqyasda təntənəsi kimi qəbul edilir. Ricət hadisəsinin İmam Mehdinin (ə) zühurundan sonra baş verəcəyini yazırlar.

Cəfəri məzhəbinə aid kitablarda bəzi Quran ayələri də ricətin doğruluğuna sübut kimi gətirilir. Məsələn, belə ayələrin birində buyurulur: «O gün hər ümmətdən ayələrimizi danan bir dəstəni toplayarıq» *(Nəml, 83)*. Ayədəki «bir dəstə» sözü bunu göstərir ki, burada qiyamətdən yox, başqa bir toplanışdan söhbət gedir. Çünki qiyamət haqqındakı ayədə buyurulur: «Onları bir araya toplayarıq, onlardan bircə nəfəri də kənarda qoymarıq» *(Kəhf, 47)*. Ricətin doğruluğuna sübut kimi gətirilən başqa ayələrdə bir qayda olaraq, onların simvolik izahı *(təvil)* əsas götürülür.

Dolayı yolla ricətin mümkünlüyünü təsdiq edən sübutlardan biri də budur ki, Quranikərimdə keçmiş ümmətlərin tarixindən danışılarkən, bəzi hallarda məhdud bir dəstənin öləndən sonra yenidən dirildiyinə işarə edilib. Məsələn, Hezqil Peyğəmbərin (ə) zamanında bütöv bir şəhərin həlak olub yenidən dirilməsi *(Bəqərə, 243)*, Yzeyir Peyğəmbərin (ə) 100 il ölü halda qaldıqdan sonra cana gəlməsi *(Bəqərə, 259)*, Musa Peyğəmbərin (ə) ümmətindən bir dəstənin Allahı gözlə görmək tələbindən sonra öldürülüb, yenidən həyata qayıtması *(Bəqərə, 55-56)* və s. Bu kimi hallar keçmişdə baş veribsə, gələcəkdə də buna oxşar hadisələrin olması mümkündür.

Ricət barədə hədislər cəfəri məzhəbində o qədər çoxdur ki, hətta bəzi alimlər bu məsələdə bütün şiə üləmasının icma etdiyini əldə əsas tutaraq, ricəti şiə məzhəbinin əqidə əsaslarından biri kimi təqdim etmişlər.

N.R.

RİCİ TALAQ

bax: *talaq*.

RİSALƏ

Ərəb dilindən tərcüməsi «göndəriş» deməkdir. Məktub, ismarış mənalarında işlədilir. Dini termin olaraq, müsəlman alimləri tərəfindən hər hansı suala cavab olaraq, ya da hər hansı konkret dini məsələ barədə qələmə alınmış kiçik həcmli kitablara deyilir. Bu kitablara risalə deyilməsinin səbəbi budur ki, onlar müəllifin sual verən şəxsə yazılı cavabı və ya müsəlman ümmətinə ismarışı kimi qəbul edilir. İslam tarixində İbn Sinanın, Şeyx Müfidin, İxvanüs-Səfa üzvlərinin və başqalarının risalələri məşhurdur.

Cəfəri məzhəbində *mərceyi-təqlidlərin fətvalarının* toplandığı kitaba da risalə (və ya əməliyyə risaləsi) deyirlər. Keçmişdə hər *müctəhid* öz risaləsini istədiyi tərtiblə hazırlayırdı. Risalələrdəki məsələlərin yeri və ardıcıllığı bəzən xeyli fərqlənirdi. Həmçinin, risalələrin adları da fərqli olurdu. Məsələn: «Cameyi-Abbasi» (Şeyx Bəhai), «Minhəcürrəşad» (Şeyx Cəfər Şüştəri), «əl-Ürvətülvüsqa» (Seyid Mühəmməd Kazim Təbatəbai Yəzdi), «Zəxirətül-ibad» (Mühəmməd Təqi Şirazi), «Vəsilətün-nicat» (Seyid Əbül-Həsən İsfahani) və s. Bəzi mərceyi-təqlidlər ümumiyyətlə öz risalələrinə ad vermirdilər və onların risaləsi «Sual-cavab toplusu», «Əməliyyə risaləsi», «Fətvalar məcmuəsi» kimi ümumi adlarla çap edilirdi. Bir çox məşhur müctəhidlər isə ya təvazökarlıq üzündən, ya da lazım bilmədiklərindən özləri risalə yazmır, əvvəlki müctəhidlərdən birinin risaləsinə haşiyə yazmaqla kifayətlənirdilər.

XX əsrin 60-cı illərində İran alimlərindən biri şəriət hökmlərinin mövzusunu ardıcıllıqla düzərək, hər mövzu barədə o dövrün ən nüfuzlu şiə müctəhidi Ayətullahül-üzma Seyid Hüseyn Birucerdinin fətvalarını topladı və bunları «Tövzihül-məsail» (Məsələlərin izahı) adlı kitab şəklində nəşr etdirdi. Bundan sonra yaşamış mərceyi-təqlidlərin demək olar ki, hamısı həmin kitabın mətnini əldə əsas tutmaqla öz ictihadlarına uyğun olaraq, lazım bildikləri məsələlərə dəyişikliklər edirlər. Buna görə də, müasir risalələrin hamısı ardıcıllıq və üslub baxımından bir-birinə oxşayır. Yalnız müctəhidlərin fikir ayrılığı olan məsələlər arasında fərq görünür. «Tövzihülməsail» risalələri başqa dillərə də tərcümə edilir. Bəzi mərceyi-təqlidlər «Tövzihül-məsail»dən əlavə, başqa cür adlanan (adətən, ərəb dilində) risalələr də yazırlar.

N.R.

RİSALƏT

Lüğəvi mənası «peyğəmbərlik, xəbər çatdırmaq» deməkdir. Müasir anlamda «missiya» sözünə uyğundur. Allah tərəfindən seçilmiş peyğəmbərlərin *vəhy* yolu ilə aldıqları məlumatı cəmiyyətə təbliğ etmə vəzifəsini ifadə edir. «Allah peyğəmbərliyi hara *(kimə)* göndərəcəyini özü daha yaxşı bilir» *(Bəqərə, 124)* ayəsinə istinadən, kim bu vəzifəyə uyğun görülürsə, Allah tərəfindən seçilir. Yer üzündə ilk insan sayılan Həzrət Adəm (ə) eyni zamanda ilk peyğəmbər olmuş, sonralar da hər qövmə peyğəmbərlər göndərilmişdir: «Hər ümmətin bir peyğəmbəri vardır» *(Yunus, 47)*. Həzrət Mühəmməd (s) son peyğəmbərdir. Çünki onun risaləti bütün insanlığa şamildir.

R.M.

RİYA

Ərəbcə «ikiüzlülük etmək» deməkdir. Bir işi görərkən Allahdan başqasını düşünərək *ixlası* tərk etməyə riya deyilir. Quranda «Malını insanlara riyakarlıqla infaq edən» *(Bəqərə, 264)* ayəsi buna işarədir. Başqa bir ayədə buyurulur: «İnsanlara ikiüzlülük edərlər və Allahı az zikr edərlər» *(Nisa, 142)*.

R.M.

RİYAZƏT

Ərəbcə «tərbiyə və islah etmək» mənalarını verir. *Nəfsi* tərbiyə etmək üçün ac-susuz qalmaq və sevdiyi şeyləri tərk etməyə riyazət deyilir. Nəfsi ibadətə alışdırmaq məqsədilə tərbiyə etmək də riyazətdir. Möminin nəfslə cihadı bütün ömrü boyu davam edir. Məhz buna görə, sufilər təsəvvüfü sülhsüz müharibə adlandırmışlar. Üç növ riyazət var: 1. Avam təbəqənin riyazəti – elmlə əxlaqı, ixlasla əməli bəzəmək, Allahla və xalqla davranışda hüquqlara riayət etmək. 2. Seçilmişlərin riyazəti – daxili şübhələrə yol vermədən, Allaha hüzurlu qəlblə ibadət etmək. 3. Seçilmişlərin seçilmişlərinin riyazəti – ikiliyi buraxaraq vəhdət mərtəbəsinə çatmaq və Allahda fani olmaq. Namaz və oruca davam edərək günahlardan çəkinmək, yuxu qapısını bağlamaq da riyazət sayılır.

R.M.

RİZA

Ərəb dilindən tərcümədə «razılıq» mənasını verir. İslam əxlaqında Allahın iradəsinə tabe olmaq və üz verən hər hadisədən razı qalmaq kimi dəyərləndirilir. Qurani-kərimdə riza əhli barəsində buyurulur: «Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar» *(Maidə, 119)*.

Riza *təsəvvüf* aləmində də mühüm anlayışlardan biri sayılır. Hətta rizanın *məqam*, yoxsa *hal* olduğu barədə sufilər fikir ayrılığına malikdirlər. Xorasan vilayətinin arifləri və sufiləri rizanı təvəkküldən sonra sonuncu (yeddinci) məqam saymış və *arifin* öz istəyi ilə bu məqama çatmasını mümkün bilmişlər. Beləiklə, riza – tövbədən başlayan yeddi məqamlı *seyrü-süluk* yolunun son məqamıdır. İraq təsəvvüf məktəbində isə riza hal hesab edilir və arifin iradəsi olmadan qəlbinə haqdan verildiyi iddia olunur. «Risaleyi-Quşeyriyyə»də hər iki nəzəriyyə birləşdirilir: «Hər iki fikri birləşdirmək mümkündür. Rizanın başlanğıcı məqamdır və bəndə onu qazana bilər. Sonu isə haldır və qazanılmaz».

Deyirlər ki, rizanın üç əlaməti var: bəladan və qəzavü-qədərdən əvvəl qüvvəti və ixtiyarı əldən vermək, bəladan sonra acılıq hiss etməmək və bəla anında məhəbbət hiss etmək.

Məşhur sufi Bişr Hafidən soruşdular ki, riza üstündür, yoxsa *zöhd*? Cavab verdi: «Riza üstündür. Çünki zahid hələ yoldadır, razi (riza sahibi) isə artıq məqsədə qovuşmuşdur».

Ariflərin fikrincə, «Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar» *(Maidə, 119)* ayəsindən bu məna çıxır ki, Allah öz bəndəsindən razı olmayınca bəndə ondan razı ola bilməz.

«Riza» kəlməsinin *əbcəd* hesabı ilə qarşılığının 1001-ə bərabər olması bu sözə mistik bir ab-hava gətirmişdir. Məsələn, bəzi sufi təriqətlərində *çillə* müddəti «riza» sözünə görə 1001 gün qəbul edilib.

N.R.

RİZVAN BEYƏTİ

bax: *əshabüş-şəcərə.*

RÖVZƏXAN

İslam müqəddəslərinin vəfatından bəhs edən, nəsrlə nəzmin qarışığından ibarət olan rövzə adlı dini mətnləri avazla oxuyan şəxsə deyilir. Rövzələrin böyük əksəriyyəti *Kərbəla* faciəsinə həsr olunur və mühərrəmlik mövsümündə ifa edilir. Rövzəxanlar adətən məscidin *minbərindən* oxunur.

Rövzəxanlıq ənənəsi təqribən 500 il bundan əvvəl yaranmışdır. Rövzə ədəbiyyatının ilk məşhur nümunəsi XV əsrdə yaşamış Vaiz Hüseyn Kaşifinin qələmə aldığı «Rövzətüş-şühəda» (Şəhidlər bağçası) kitabı sayılır. Həmin kitabdan hissələri avazla camaat üçün oxuyan şəxslərə rövzəxan (rövzə oxuyan) deməyə başladılar. Getdikcə rövzə ədəbiyyatı genişləndi və yüzlərlə rövzə kitabı yazıldı. Hal-hazırda fars, azərbaycan, ərəb, urdu dillərində çoxlu rövzə kitabları mövcuddur. Rövzəxanların şəxsi improvizasiyası sayəsində yeni-yeni rövzələr yaranmaqda davam edir.

Mühərrəmlik tədbirlərindən başqa, yas məclislərində də rövzə demək ənənəyə çevrilib.

Bəzi rövzələrdə (o cümlədən, «Rövzətüş-şühəda» kitabında da) Kərbəla faciəsi barədə həqiqətdən uzaq xeyli məlumatlara rast gəlmək olur. Şairlər çox zaman camaatı ağlatmaq məqsədilə hər hansı hadisəyə daha təsirli görünüş vermək üçün təhriflərə əl atır, əlavə hadisələr və detallar uydururlar. Məsələn, «Qasimin toyu» əhvalatı məhz rövzəxanlar tərəfindən uydurulmuşdur. Şiə əqidəsinə görə, Kərbəla faciəsinə ağlamaq nə qədər böyük savaba malik olsa da, yalançı rövzələr uydurmaq və bu yolla camaatı aldatmaq bir o qədər böyük günah sayılır.

N.R.

RÖYƏTULLAH

Ərəb dilindən tərcümədə «Allahı görmək» mənasını verir. Allah-təalanın istər bu dünyada, istərsə də axirətdə görünüb-görünməməsi məsələsinə İslam məzhəblərinin münasibəti fərqlidir. Ümumiləşdirilmiş şəkildə bunu deyə bilərik ki, əhli-sünnə məzhəbinə görə, Allahın bu dünyada görünməsi mümkün, qiyamətdə görünəcəyi isə vacibdir. Şiə məzhəbi baxımından Allah nə bu dünyada, nə də axirətdə görünməz.

Hər iki tərəf öz fikrini əsaslandırmaq üçün müxtəlif sübutlardan, əqli (fəlsəfə, kəlam və məntiqə əsaslanan) və nəqli (Qurana və sünnəyə əsaslanan) dəlillərdən istifadə edir.

Əhli-sünnə alimlərinin fikrincə, insanların bu dünyada Allahı görə bilmələri nəzəri cəhətdən mümkündür. Hərçənd ki, belə bir hadisənin baş verdiyini iddia etmək olmaz. Amma axirətdə möminlər öz Rəbblərini mütləq görəcəklər.

Allahın gözlə görüldüyünü iddia edənlər bəzi Quran ayələrini öz əqidələrinə uyğun olaraq təfsir edirlər. Məsələn, Quranda buyurulur ki, Musa Peyğəmbərin (ə) zamanında *Bəni-İsrail* qövmü Ondan tələb etdi ki, öz Allahını onlara göstərsin; əgər onlar da Allahı gözlə görsələr, iman gətirərlər. Həzrət Musa (ə) da əlacsız qalıb, həmin adamları özü ilə götürdü və Allahdan vəhy aldığı Sina dağına gəldi.

Hadisənin ardı Quranda belə təsvir edilir: «Musa təyin etdiyimiz vaxtda *(Sina dağına)* gəldikdə Rəbbi onunla danışdı. *(Musa:)* «Ey Rəbbim! Özünü mənə göstər, sənə baxım!» – dedi. Allah: «Sən məni əsla görə bilməzsən. Lakin bu dağa bax. Əgər o, yerində dura bilsə, sən də məni görə bilərsən», – buyurdu. Rəbbi dağa təcəlli etdikdə *(Allahın nuru dağa saçıldıqda)* onu parça-parça etdi. Musa da

bayılıb düşdü. Ayılandan sonra isə: «Sən paksan, müqəddəssən! Sənə tövbə etdim. Mən *(İsrail oğullarından səni görməyin mümkün olmadığına)* iman gətirənlərin birincisiyəm!» – dedi» *(Əraf, 143).*

Bu ayə Allahı bu dünyada görə bilməyin mümkünlüyünü iddia edənlər tərəfindən sübut kimi irəli sürülür. Onlar iddia edirlər ki, əgər Həzrət Musa (ə) kimi əzəmətli bir peyğəmbər Allahın Ona görünməsini istəyirsə, deməli, bu, mümkün olan işdir. Əgər Allahı görmək arzusunda olmaq günah iş sayılsaydı, peyğəmbər bu arzuya düşməzdi. Çünki bu hərəkət peyğəmbərlərin günahsızlıq sifəti ilə ziddiyyət təşkil edir.

Şiə alimləri bu iddiaya qarşı belə bir cavab irəli sürmüşlər: Quran ayələrindən məlumdur ki, bəzi peyğəmbərlər öz qövmlərinin batil inanclarını ifşa etmək üçün ilk baxışda şirk və günah kimi görünən sözlər söyləyiblər. Əslində isə, bu, qarşı tərəfin inancının puç olduğunu göstərmək üçün bir üsul idi. Peyğəmbərlər əvvəlcə özlərini elə göstərirdilər ki, guya əks tərəfin iddiası ilə razılaşırlar. Amma sonra həlledici bir zərbə ilə həmin iddianı darmadağın edib, haqqı üzə çıxarırdılar. Məsələn, göy cismlərinə pərəstiş edən bir qövmün içində yaşamış «Allahın dostu» ləqəbli İbrahim Peyğəmbər (ə) insanları Allaha doğru hidayət etmək üçün əvvəlcə özünün də Günəşə, Aya və ulduzlara pərəstiş etdiyini bildirmişdi: «Gecə qaranlığı *(İbrahimi)* bürüdükdə o, bir ulduz görüb: «Bu, mənim Rəbbimdir!» – dedi. *(Ulduz)* batdıqda isə: «Mən batanları sevmirəm», – söylədi. Doğan Ayı görüb: «Bu, mənim Rəbbimdir» – dedi. *(Ay)* batdıqda isə: «Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən zəlalətə düşənlərdən olardım», – söylədi. Doğan Günəşi görüb: «Bu, mənim Rəbbimdir, bu, daha böyükdür!» – dedi. *(Günəş)* batdıqda isə dedi: «Ey camaatım, həqiqətən, mən sizin Allaha şərik qoşduqlarınızdan uzağam! Həqiqətən, mən batildən haqqa tapınaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən *(Allaha)* şərik qoşanlardan deyiləm!» *(Ənam, 76-79).*

Həzrət Musa Peyğəmbərlə (ə) bağlı əhvalatda dağın parçalanmasının səbəbi isə Allahın özünü dağa göstərməsi deyil. Çünki əvvəla, dağın gözü yoxdur ki, Allahı görsün. İkincisi, əgər Allah özünü dağa göstərmiş olsaydı, dağın ətəyində durmuş Musa Peyğəmbər (ə) və qövmü də Onu görərdiər. Deməli, dağın parçalanmasının səbəbi Allahın öz nurunu ona yönəltməsidir. Həzrət Musa (ə) da dağın yarılmasından dəhşətə gəlib huşunu itirmişdi.

Allahın Musa Peyğəmbərə (ə) xitabən: «Bu dağa bax. Əgər o, yerində dura bilsə, sən də məni görə bilərsən» – buyurması əslində bu işin qeyri-mümkünlüyünə əvvəlcədən verilmiş işarə kimi qəbul edilməlidir. Xalq dilində «qulağının ardını görəndə (və ya dəvənin quyruğu yerə dəyəndə), filan hadisəni də görərsən» ifadəsi hansı mənanı bildirirsə, Allahın bu kəlamı da oxşar mənanı bəyan edir.

Allahı görmə probleminin ikinci hissəsi axirət aləmi ilə bağlıdır. Belə ki, əhli-sünnə mənbələrində Allahın qiyamət günündə möminlərə görünəcəyi qəti şəkildə bildirilir. Bu fikrin əsas dəlili isə Qurani-kərimin aşağıdakı ayəsidir: «O gün neçə-neçə üzlər sevinib güləcək, öz Rəbbinə baxacaq» *(Qiyamət, 22-23).*

Lakin şiə məzhəbində bu iddiaya aşağıdakı cavablar verilir: Əvvəla, ayədəki «nazirə» kəlməsi ərəb dilində yalnız «baxmaq» deyil, həm də «gözləmək, intizarında olmaq, nəsə ummaq» mənalarını ifadə edir. Bu mənada möminlərin qiyamət günündə Allahdan mükafat gözləmələri, cənnət nemətlərinin intizarında olmaları tamamilə təbii haldır.

İkincisi, hətta «nəzər» kəlməsini «baxmaq» kimi qəbul etsək belə, bu, heç də hər baxanın görməsi mənasını bildirmir. Bəzən insan nəyə isə baxır, amma onu görə bilmir. Məsələn, buludlu havada Ayın görünməli olduğu istiqamətə nə qədər baxsaq da, onu görmürük. Deməli, qiyamətdə möminlərin Allaha sarı, daha doğrusu, Onun qüdrət və əzəmətinin zahir olduğu məqama sarı baxmaları, heç də Allahı görmələri anlamına gəlmir.

Bəziləri Allahı axirətdə görməyin mümkünlüyünü «Yaxşı işlər görənləri cənnət və daha artıq mükafat gözləyir» *(Yunus, 26)* ayəsindəki «daha artıq» kəlməsi ilə əlaqələndirir, bəzi hədislərə istinad edərək, həmin kəlmənin Allahı görmək neməti olduğunu söyləyirlər. Aydındır ki, bu cür təfsir Quran ayə-

sinin zahiri mənasına dayaqlanmadığı üçün öz-özlüyündə tutarlı sübut sayıla bilməz.

Qiyamətdə möminlərin Allahı görəcəyini iddia edənlər Həzrət Mühəmməd Peyğəmbərin (s) bəzi hədislərini də sübut gətirirlər. Məsələn, «Səhihül-Buxari» *(529-cu, 547-ci və 4570-ci hədislər)*, «Səhihü Müslim» *(211 (633)-cü hədis)*, «Sünənü Əbu Davud» *(4729-cu hədis)* və «Sünənüt-Tirmizi»də *(2551-ci və 2554-cü hədislər)* Peyğəmbərin on dörd gecəlik Aya baxaraq belə buyurduğu rəvayət edilir: «Siz bu Ayı gördüyünüz kimi, Rəbbinizi də əyani şəkildə görəcəksiniz və Onu görməkdə çətinlik çəkməyəcəksiniz».

Adı çəkilən bütün mənbələrdə bu hədis Cərir ibn Abdullah Bəcəli adlı səhabənin dilindən rəvayət edilib. Amma o, şiə məzhəbli hədisşünaslar tərəfindən qeyri-mötəbər ravi kimi xarakterizə edilib. Cərir Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatından az əvvəl İslama gəlmiş, sonralar *Kufə* şəhərində məskunlaşmışdı. Həzrət Əli ibn Əbu Talib (ə) onu elçi kimi Müaviyənin yanına yollayır. Cərir isə öz öhdəsinə düşən vəzifəyə səhlənkarlıqla yanaşır və Müaviyənin hiylələrinə aldanır. Bu hərəkət İmama elə pis təsir edir ki, hətta Cəririn Kufədəki evini sökdürür *(Seyid Əbül-Qasim Xoyi. Möcəmü ricalil-hədis, IV, 362, 2096-cı sıra sayı)*. Deyirlər ki, İmam Mühəmməd Baqir (ə) Kufədə yerləşən bir neçə məscidi «lənətlənmiş» adlandırırdı ki, bunlardan biri də Cəririn tikdirdiyi məscid idi *(Şeyx Küleyni. Üsulül-Kafi, III, 489-490)*.

Şiə məzhəbinə əsasən, Allah-təala nə bu dünyada, nə də axirətdə görünməz. Çünki O, cism deyil. Yalnız maddi olan, fiziki ölçüyə və rəngə malik cismlər görünə bilər. İnsanın gözü ruh, cazibə qüvvəsi, sevgi, nifrət kimi anlayışları görə bilmir. Bunların hamısı mücərrəd və qeyri-maddi məfhumlardır. Ona görə Allahın da gözə görünməməsini təbii qəbul etməliyik.

Qurani-kərimdə bu barədə belə buyurulur: «Gözlər onu dərk etməz *(görməz)*. O, gözləri dərk edər. O, lətifdir *(cism xüsusiyyətlərindən uzaqdır)*, *(hər şeydən)* xəbərdardır» *(Ənam, 103)*.

Şiə məzhəbinin ən mötəbər hədis mənbələrindən sayılan «Üsulül-Kafi» kitabında Allahı gözlə görməyin batil olduğuna dair ayrıca bab ayrılmış və burada 12 hədis verilmişdir.

N.R.

RUH

İnsanın vücudu iki tərkib hissəsindən – ruhdan və cismdən ibarətdir. Cansız cismə (bədənə) həyat verən, onun bütün hərəkətlərini istiqamətləndirən və nizamlayan ruhdur. Ruh – insanın mahiyyəti, şəxsiyyəti deməkdir. Ruh barədə dəqiq məlumatı bəşəriyyət hələ əldə etməyib. Çünki Allah-təala özü ruh haqqında ətraflı məlumat verməyi məsləhət görməyib.

Bir dəfə yəhudilər Həzrət Mühəmməd Peyğəmbəri (s) sınağa çəkmək məqsədilə ona bir neçə çətin sual verdilər. Sualların biri də ruhun mahiyyəti haqqında idi. Allah-təala vəhy vasitəsilə o biri sualların cavabını Peyğəmbərimizə ətraflı şəkildə izah etdi, ruh məsələsinə gəlincə isə aşağıdakı ayəni göndərdi: «Səndən ruh haqqında soruşarlar. De: «Ruh Rəbbimin əmrindədir. Sizə *(bu barədə)* yalnız cüzi bilik verilmişdir» *(İsra, 85)*.

Allah-təala Quranda ruh barədə ətraflı məlumat verməyi ona görə məsləhət görməyib ki, insan öz ruhunu dərk edib anlaya bilməz. Axı ruh insanın mənəvi aləmi, ağlı, şüuru, vicdanı deməkdir.

Ruh haqqında qısaca olaraq bunu deyə bilərik ki, o, maddi deyil, cism deyil, onun ölçüləri (eni, uzunluğu, hündürlüyü), forması, rəngi, iyi və başqa zahiri əlamətləri yoxdur. Xarici duyğu üzvləri (məsələn, göz, qulaq və s.) vasitəsilə ruhu hiss etmək mümkün deyil.

Ruh ölməzdir, cismin məhv olmasından sonra yenə yaşayır və qiyamətə kimi öz aqibətini gözləyir. İmam Əli ibn Əbu Talib (ə) ruha belə tərif vermişdir: «Cismdə ruhun yeri sözdə mənanın mövqeyi kimidir».

Bədənin özünəməxsus halları və xüsusiyyətləri olduğu kimi, ruhda da bunlar vardır. Həzrət Əli (ə) ruhla bədəni müqayisə edərək buyurmuşdur: «Cismin *(bədənin)* altı halı olur: sağlamlıq və xəstəlik, dirilik və ölüm, yuxu və oyaqlıq. Ruhun da beləcə altı vəziyyəti vardır. Ruhun sağlamlığı – yəqinlik, xəstəliyi – şəkk-şübhədir. Diriliyi – elm,

ölümü – cəhalətdir. Ruhun yuxusu – qəflət, oyaqlığı – zikrdir».

Əxlaq alimləri insanda iki cür ruhun olduğunu söyləmişlər. Bunların biri – heyvani ruh yalnız insanın həyatını təmin edir. Heyvani ruh (buna can, yaxud *nəfs* də deyirlər) yalnız insanda deyil, heyvanlarda da var. Canlılar bu ruhun sayəsində diridirlər. Heyvani ruh bədəni tərk edəndə ölüm baş verir.

Ruhun daha üstün forması – sultani ruh isə yalnız insana aiddir. Bu, insanda şüur, nitq, vicdan kimi cəhətləri və sair əxlaqi keyfiyyətləri nizamlayan ruhdur.

İnsan ruhu üç əsas qüvvədən ibarətdir. Başqa sözlə desək, ruhun üç əsas xarakteri vardır: ağıl, qəzəb və şəhvət qüvvələri. İnsanın bütün əməlləri bu qüvvələr vasitəsilə idarə edilir. Onlardan hansı biri üstünlük əldə edərsə, bütövlükdə insanın xarakterini öz təsiri altına alar.

Ağıl qüvvəsi hər şeyin həqiqətini öyrənməyə çalışır, xeyirlə şərin fərqini anlayır, tədqiqat və araşdırma aparır. Bu qüvvə insanı elmə, biliyə, agahlığa səslədiyi üçün müsbət qüvvə hesab edilir və mələk xasiyyətli qüvvə adlandırılır. Qəzəb qüvvəsi başqalarını özündən uzaqlaşdırmağa, zərəri dəf etməyə çalışır. Ona yırtıcı xasiyyətli qüvvə demişlər. Şəhvət qüvvəsi insanı yeməyə, içməyə, cinsi ləzzətlərə, eyş-işrətə doğru çəkir. Bu qüvvənin məqsədi bədənin ehtiyaclarını ödəmək, maddi ləzzət və rahatlıq yaratmaqdır. Onu heyvan xasiyyətli qüvvə adlandırmışlar.

Bü üç qüvvə orta və tarazlaşmış səviyyədə olarsa, *fəzilət* (üstünlük) adını qazanar və insana ucalıq bəxş edər. Ağıl qüvvəsinin fəziləti hikmətdir. Qəzəb qüvvəsinin fəziləti şücaət, şəhvət qüvvəsininki isə iffətdir. Bu qüvvələr fəzilət nöqtəsindən aza və ya çoxa doğru uzaqlaşdıqca müxtəlif nöqsanlar *(rəzilətlər)* meydana gəlir. Məsələn, ağıl qüvvəsinin həddən çoxluğu – vəsvəsəyə və hiyləgərliyə, azlığı – səfehliyə gətirib-çıxarar. Qəzəb qüvvəsinin ifrat həddi – zalımlığa və kobudluğa, təfrit nöqtəsi – qorxaqlığa səbəb olar. Şəhvət qüvvəsinə gəlincə, onun həddən çox olması – insani xüsusiyyətləri itirib heyvan səviyyəsinə düşməklə, həddən az olması isə yemək, ailə qurmaq kimi təbii ehtiyacların ödənməməsi ilə nəticələnər.

Əxlaq kitablarında insan ruhunun qüvvələrini alleqorik obrazlara bənzədiblər. Bu alleqoriyada insan ruhu atın belinə minib ov tulası ilə səfərə çıxmış ovçu şəklində təsvir edilir. Ovçu – ağıl qüvvəsinin, it – qəzəb qüvvəsinin, at isə şəhvət qüvvəsinin rəmzidir.

Əgər bunların hər biri ovda öz vəzifəsini layiqincə yerinə yetirsə, şübhəsiz, ov uğurla nəticələnər. Amma onların hər hansı biri həddi aşsa, nəticəsi mənfi olar.

Təsəvvür edək ki, ov əsnasında at süvarinin tapşırıqlarına tabe olmur, öz istədiyi səmtə doğru yüyürür. Bu halda süvari atı ram etmək üçün əziyyət çəkib yorulacaq və heç bir nəticə əldə etməyəcək. Beləcə, şəhvət qüvvəsi insanın ruhuna qalib gəlsə, onu öz məqsədindən uzaqlaşdırar.

Əgər ov iti özbaşınalıq etsə, ovu tutmaq əvəzinə mənasız yerə ora-bura qaçsa, özündən güclü olan hədəflərə sarı cumsa, nəinki yalnız özünü, həm də ovçunu təhlükəyə salar. İnsanın qəzəb qüvvəsi də nəzarətdən çıxsa, fəlakət törəyər.

Nəhayət, əgər ovçu öz işində səhvə yol versə, atı və iti idarə edib istiqamətləndirə bilməsə, ovu uğursuzluqla başa vurmalı olacaq. Ağıl qüvvəsi də qəzəblə şəhvəti cilovlamağı bacarmasa, rəzalət girdabına yuvarlanar.

N.R.

RUHUL-QÜDS

Qurani-kərimdə vəhy mələyi *Cərailin* ləqəblərindən biri kimi işlənmişdir. Quranda eyni mənanı ifadə edən «rühul-əmin» ifadəsinə də rast gəlirik *(Bəqərə, 87, 53; Şura, 193, 195)*. Qədr gecəsində mələklər və ruh yer üzünə enərlər *(Qədr, 4)*. Təfsirçilərin bir qisminə görə, burada «ruh» sözündən məqsəd Cəbraildir.

R.M.

RUZİ

Ərəb dilindən tərcümədə azuqə, yeyəcək, içəcək və istifadə edilən şey mənasını verir. Dini anlamda Allahın canlılara yeyib-içmək və faydalanmaq üçün verdiyi hər şeyə deyi-

lir. Bu tərifə görə, ruzi halal nemətləri ehtiva etdiyi kimi, haram olanları da əhatə edir. Ruzi haqqında aşağıdakı prinsiplər qeyd edilib: 1. Yeganə ruzi verən (rəzzaqi-aləm) Allah-təaladır. Quranda buyurulur: «Yer üzündə yaşayan elə bir canlı yoxdur ki, Allah onun ruzisini verməsin» *(Hud, 116).* Başqa bir ayədə Allahın istədiyinə bol ruzi verib, istədiyinin ruzisini isə azaltdığı ifadə edilir *(Şura, 12).* 2. Bəndə Allahın təbiətdə qoyduğu qanunlar daxilində çalışır, səy göstərir, vasitələrə əl atır və ruzi qazanmak üçün əldə olan imkanlarını sərf edir. Allah da onun bu cəhdinə və səyinə görə ruzisini yaradır. Allah yeganə ruzi verən olsa da, insan tənbəllik etməməli, çalışmalı və təvəkkül anlayışında xətaya yol verməməlidir. Qazanc üçün halal yolla lazımi tədbirlər görmək – bəndənin, onun ruzisini yaratmaq isə Allahın işidir. 3. Haram nemət də onu qazanan bəndə üçün ruzi sayılır. Amma Allah öz bəndəsinin haram ruzi əldə etməsinə razı deyil. «Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin» *(Nəhl, 114)* ayəsində halal ruzinin yeyilməsi əmr edilmiş, haram isə qadağan edilmişdir. 4. Hər kəs ruzisini özü yeyər. Heç kim başqasının ruzisini yeyə bilməz.

R.M.

RÜKƏT

Şərti olaraq namazın böləndüyü hissələrə deyilir. Hər rükətdə mütləq *qiraət* (Quran surələrinin oxunuşu), *rüku* və iki *səcdə* olur. Bəzi rükətlərdə *təşəhhüd*, salam, *qünut* kimi əlavə əməllər də vardır. Gündəlik qılınan *fərz* (qəti vacib) namazların cəmi 17 rükətdir. *Sübh namazı* 2 rükətdən, *zöhr* və *əsr namazları* 4 rükətdən, *məğrib namazı* 3 rükətdən və *işa namazı* 4 rükətdən ibarətdir. *Səfərdə* 4 rükətli namazlar ixtisarla 2 rükət şəklində qılına bilər (cəfəri məzhəbində vacibdir).

N.R.

RÜKN

Ərəb dilindən tərcümədə «bir şeyin qüvvətli, möhkəm olan tərəfi, böyük iş, dirək, ünsür» kimi mənaları ifadə edir. Dini məfhum kimi ibadətlərin və əqdlərin (anlaşmaların) əsas ünsürlərinə deyilir.

Rüknlərin sayı məzhəblərdə fərqlidir. Məsələn, hənəfi məzhəbində rüknlərin sayı 12, şafii məzhəbində 13, hənbəli məzhəbində 14, maliki məzhəbində 15-dir Bunlar namazın fərzləri ilə eyni məna ifadə edir. Cəfəri məzhəbinə görə, namazın 5 rüknü var: *niyyət, təkbirətül-ehram, qiyam* (təkbirətülehram deyilərkən və surələr qiraət edilərkən rükudan əvvəl ayaq üstə durmaq), *rüku* və iki *səcdə*. Rüknlərin sayını qəsdən ya bilməyərəkdən azaltmaq ya çoxaltmaq, yerinə yetirməmək namazı batil edər. Həccdə Ərəfatdakı *vəqfə* və ziyarət təvafı, orucda *imsak* bu ibadətlərin rüknləridir. Əqdlərin əsas rüknü də icab (təklif) və qəbuldan ibarətdir. İbadətdə və hüquqi münasibətlərdə rüknün olmaması həmin ibadətin və ya müqavilənin batil olması ilə nəticələnir.

A.Q.

RÜKU

Ərəb dilindən tərcüməsi «boyun əymək, əyilmək» deməkdir. Ərəblər qocalıqdan beli bükülmüş insanı da «rüku etmiş» adlandırırlar. İslam şəriətində rüku namazın *rüknlərindən* (vacib tərkib hissələrindən biridir). Rükunun əhəmiyyəti o qədər böyükdür ki, qiraət, rüku və səcdələrdən ibarət hər namaz bölümünü *rükət* adlandırırlar («rüku» sözü ilə eyni kökdəndir). Rüku – əlləri diz qapaqlarına qoyaraq əyilməyə deyilir. Bu zaman dizlər qatlanmamalı, kürək üfüqi vəziyyətə gəlməli, boyun şax saxlanmalıdır. Rüku halında olana rake deyirlər. Quranın bəzi ayələrində «rüku etmək» ifadəsi namaz qılmağa, «rake» sözü isə namaz qılanlara işarə olaraq göstərilib: «Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!» *(Bəqərə, 43).* «Onlar tövbə, ibadət və şükürsəna edənlər, oruc tutanlar, rüku və səcdə edənlər, yaxşı işlər görməyi əmr edib pis işləri yasaq edənlər və Allahın hədlərini *(halal-haramı)* qoruyanlardır. Belə möminləri *(cənnətlə)* müjdələ!» *(Tövbə, 112).* «Ey iman gətirənlər! Rüku edin, səcdəyə qapanın, Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, nicat tapasınız!» *(Həcc, 77).* Bəzi ayələrdə isə rüku etmək səcdəyə qapanmaq mənasını ifadə edir: «O *(Davud)* dərhal Rəbbindən öz bağışlanmasını dilədi və dizi üstə

düşüb səcdəyə qapanaraq tövbə etdi» *(Sad, 24).* Qurani-kərimin Maidə surəsinin 55-ci ayəsində haqqında danışılan, rüku halında zəkat verən şəxs – rüku halında barmağındakı üzüyü dilənçiyə bağışlamış Əli ibn Əbu Talibdir (ə).

Rüku halında bədən tamamilə aram (tərpənməz) olanda rükunun *zikrini* söyləyirlər. Hənəfi məzhəbinə görə, rükuda bir dəfə «sübhan Allah» deyiləcək qədər qalmaq vacibdir; 3 dəfə «subhan Allahil-əzim» demək sünnətdir. Hənbəlilər bir dəfə «sübhanə Rəbbiyəl-əzim» deyəcək qədər rükuda qalmağı vacib bilir, bu zikri bir dəfədən çox təkrar etməyi sünnət sayırlar. Şafii məzhəbində «sübhanə Rəbbiyəl-əzim» zikrini bir dəfə söyləmək təkid edilən sünnətdir, bu zikr 11 dəfəyə kimi təkrar edilə bilər. Malikilər rükunun zikri üçün hər hansı konkret ifadəni şərt qoymurlar, lakin «sübhanə Rəbbiyəl-əzim» zikrini söyləmək məsləhətdir.

Cəfəri məzhəbində rükunun vacib miqdarı 3 dəfə «sübhan Allah» zikrini və ya bir dəfə «sübhanə Rəbbiyəl-əzimi və bihəmdih» zikrini söyləyəcək qədərdir. Bu zikri 3, 5 və 7 dəfə söyləmək müstəhəbdir. Zikrdən sonra *salavat* söyləməyin də böyük savabı var.

Rükudan qalxandan sonra «Rəbbəna və ləkəl-həmd» və «Səmiəllahü limən həmidəh» zikrlərini söyləmək sünni məzhəblərində sünnət sayılır (ikinci zikr cəfəri məzhəbində müstəhəbdir). Əhli-sünnə məzhəblərinə görə, rükuya əyilərkən və rükudan qalxarkən hərəkət halında *təkbir* («Allahü əkbər») demək sünnətdir. Cəfəri məzhəbində bu müstəhəbdir; amma rükuya əyilməzdən əvvəl və rükudan qalxdıqdan sonra bədənin aram hala gəlməsini gözləyib bu zikrləri söyləmək lazımdır.

İmam Əli ibn Əbu Talibdən (ə) rüku zamanı boynu şax tutub qabağa uzatmağın mənasını soruşanda belə cavab vermişdi: «Bu zaman sanki insan Allaha belə deyir: «Əgər boynumu vursalar da, Sənin vahidliyinə iman gətirmişəm».

N.R.

S

SALAVAT

Ərəb dilində «səlat» sözünün cəmidir. Bu söz həm namaz, həm də mərhəmət, bərəkət mənalarında işlədilir.

Dini termin olaraq, Allahın öz mərhəmətini və nemətlərini Həzrət Mühəmməd Peyğəmbərə (s) yönəltməsi üçün müsəlmanların etdiyi duaya salavat deyilir.

İslam ənənəsinə görə, Həzrət Mühəmməd Peyğəmbərin (s) adı çəkilərkən həm adını çəkən şəxs, həm də eşidənlər mütləq salavat söyləməlidirlər. Yalnız Peyğəmbərin adını söyləyəndə və eşidəndə deyil, sair şəraitlərdə də salavat demək böyük savabdır. Qurani-kərimdə salavatın vacibliyi və əhəmiyyəti barədə belə buyurulur: «Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər! Siz də Ona salavat göndərib, layiqincə salamlayın!» *(Əhzab, 56).*

Salavatın qaydası barədə Əli ibn Əbu Talib (ə), Təlhə ibn Übeydullah, Əbu Səid Xüdri, Əbu Hüreyrə, Büreydə, Abdullah ibn Məsud kimi məşhur İslam şəxsiyyətlərindən və sair səhabələrdən çoxlu hədis rəvayət olunub. Həmin hədislərdən məlum olur ki, yuxarıdakı ayə nazil olandan sonra səhabələr Peyğəmbərə müraciət edərək, Ona necə salavat göndərmək barədə soruşmuş, Peyğəmbər də bunun qaydasını onlara belə öyrətmişdi: «Allahım! İbrahimə və nəslinə salavat *(xeyir-bərəkət)* göndərdiyin kimi, Mühəmmədə və Mühəmmədin nəslinə də salavat göndər! Həqiqətən, Sən öyülməyə layiq və şərəflisən. Allahım! İbrahimi və nəslini mübarək *(bərəkətli)* etdiyin kimi, Mühəmmədi və Mühəmmədin nəslini də mübarək et! Həqiqətən, Sən öyülməyə layiq və şərəflisən».

Peyğəmbər buyurmuşdur ki, hər kim Ona və nəslinə bu şəkildə salavat göndərsə, qiyamət günündə həmin adamın imanı haqqında şəhadət verəcək və ondan ötrü şəfaət edəcək *(Buxari. Əl-Ədəbül-müfrəd, I, 333-334 (641-ci hədis).*

Adətən, salavatı qısa formada belə söyləyirlər: «Allahummə səlli əla Mühəmmədin və ali-Mühəmməd» (Allahım, Sənin salavatın olsun Mühəmmədə və nəslinə). Peyğəmbərin adı çəkiləndə isə «səlləllahü əleyhi və alihi vəsəlləm» deyirlər (Ona və nəslinə Allahın salavatı olsun). Yazıda bu ifadəni bəzən «s» və ya «səav» formasında mötərizə içində verirlər.

Əhli-sünnə məzhəbində Peyğəmbərdən sonra nəslinə, həyat yoldaşlarına və səhabələrinə də salavat söyləmək ənənədir.

Peyğəmbərin adı çəkiləndə salavat söyləmək o qədər əhəmiyyətlidir ki, hətta namazda da bu vacib buyurulub. *Təşəhhüd* kəlmələrində Həzrət Mühəmmədin (s) adı çəkiləndən dərhal sonra salavat deyilməlidir. Hətta şafii məzhəbinin banisi İmam Şafii salavatsız namazın batil olduğuna fətva vermişdir. İmam Şafii şeirlərinin birində yazırdı:

Ey Allah Rəsulunun Əhli-beyti! Sizin məhəbbətiniz
Allah tərəfindən nazil olmuş Quranda bizlərə fərz (vacib) bilinib.
Sizin qədr-qiymətinizin ucalığı üçün bu kifayət edər ki,
Hər kim Sizə salavat göndərməsə, onun namazı sayılmaz.

İslam Peyğəmbərinin özünün bu barədə belə buyurduğu rəvayət edilib: «Hər kim namaz qılsa, amma mənə və *Əhli-beytimə* salavat söyləməsə, namazı qəbul olunmaz» *(Sünənü Darqutni, II, 171; 1343-cü hədis).*

Peyğəmbər buyurub: «Mənə naqis salavat göndərməyin». «Naqis salavat nədir?» – deyə soruşduqda həzrət belə cavab verdi: «Allahım! Mühəmmədə Sənin salavatın olsun» – deyib, susmaqdır. Gərək belə deyəsiniz: «Allahım! Sənin salavatın olsun Mühəmmədə və Mühəmmədin nəslinə!» *(İbn Həcər Heysəmi. Əs-Səvaiqül-mühriqə, səh. 128-129).*

Hədislərdən bu da məlum olur ki, hər hansı duanın və istəyin qəbul olması üçün əvvəlcə Həzrət Mühəmməd Peyğəmbərə (s) və Onun nəslinə salavat söyləmək lazımdır. Həzrət Əli (ə) buyurub: «Mühəmmədə və Ali-Mühəmmədə salavat göndərməyincə bütün dualar bağlı qalar *(yəni müstəcab olmaz)*» *(Təbərani. Əl-Möcəmül-əvsət, I, 220 (721-ci sıra sayı)).*

N.R.

SAVAB

Allahın razılığına və axirət mükafatına layiq olan hər hansı əmələ görə Allah tərəfindən veriləcək mükafat. Savabın ziddi *günah* və əzab anlayışlarıdır. Dünyada edilən yaxşı və ya pis, az və ya çox bütün əməllərə görə axirətdə mütləq əvəz veriləcəyi Qurani-kərimdə vurğulanır. Savab və günah anlayışları bütün dinlərdə, o cümlədən, iudaizm və xristianlıqda da mövcuddur. Bəzi xırda fərqlərə bayxmayaraq, həmin dinlərdə də Allahın razılığını qazanmaq və insanlara fayda vermək üçün edilən hər bir iş savab sayılır.

R.M.

SEHR və CADU

Dinə əks, şəriətə zidd olan üsullarla, həm təbii, həm də qeybdən olan qüvvələrin (*cinlərin* və s.-nin) yardımı ilə adətən müəyyən insanlara zərər yetirmək, bəzi işləri pozmaq, nadir hallarda isə xeyir vermək məqsədilə söz, yazı və əməl şəklində həyata keçirilən fəaliyyət. Sehrin həqiqət olub-olmaması problemi din alimləri arasında mübahisə obyektidir. Bəziləri sehrin əslində reallığa sahib olmadığını, yalnız gözbağlıcalıq, hipnoz və təlqindən ibarət olduğunu söyləmişlər. Bəziləri isə, sehrin varlığını etiraf etmiş və bununla mübarizənin üsullarını Allaha səmimi iman bəsləməkdə, Ona sığınmaqda, Ona təvəkkül etməkdə görmüşlər. Hər bir halda sehrlə məşğul olmaq, sehrbazlara (cadugərlərə) müraciət etmək qəti surətdə haramdır.

Sehr və cadu qədim xalqların həyatında mühüm rola malik idi. Qədim Babil, Misir, Çin, İran, Yunanıstan, Roma sivilizasiyalarında, eləcə də, yəhudi dinində sehr geniş yayılmışdı, sehrbazlıq ən hörmətli peşələrdən sayılırdı. Sehrbazlar hətta hökmdarların sarayında da fəaliyyət göstərirdilər. Həzrət Musa Peyğəmbərin (ə) Misir sehrbazları ilə fironun hüzurunda mübahisəsi buna ən gözəl nümunədir. Həmin mübahisədə Allah tərəfindən peyğəmbərə verilmiş möcüzənin hər cür sehrdən üstün olması tam mənada sübuta yetdi.

Qurani-kərimdə buyurulur ki, keçmiş peyğəmbərlərin möcüzələri inadkar insanlar tərəfindən sehr kimi qarşılanır və onlara sehrbaz, cadugər deyilirdi *(Zariyat, 52).* Məsələn, Həzrət Musa (ə) *(Zuxruf, 49 və Zariyat, 39),* Həzrət İsa (ə) *(Səff, 6 və Maidə, 110)* və Həzrət Mühəmməd peyğəmbərlər (ə) *(Ənbiya, 3 və Səbə, 43)* kafir insanlar tərəfindən sehrbazlıqda ittiham edilmişdilər. Xüsusilə, Qurani-kərimin *ecazı* qarşısında aciz qalanlar bu müqəddəs kitabı sehr adlandırmaqdan başqa çıxış yolu tapmırdılar.

İslamdan əvvəlki Ərəbistan mühitində cadugərliklə əsasən qadınlar məşğul olurdular. Onların cadu üsullarından biri də bundan ibarət idi: bir ip götürüb, müəyyən adamın adına əfsun *(tilism)* oxumaqla ipə düyünlər vururdular. Bununla da həmin adamın işlərinin «düyünə düşəcəyinə», xoşbəxtliyinin bağlanacağına, uğur və səadətin ondan üz çevirəcəyinə, başına ən müxtəlif bəlalar gələcəyinə inanırdılar. Hətta rəvayətə görə, cadugər qadınlar Həzrət Mühəmməd Peyğəmbərə (s) də bu yolla cadu etmişdilər. Amma onların cadusunun Peyğəmbərə təsir edib-etməməsi barədə fikir qəti deyil. Bəzi rəvayətlərdə deyilir ki, bu cadunun təsiri ilə Peyğəmbərdə bəzi xəstəlik əlamətləri görünmüş, cadunun aradan qaldırılması ilə xəstəlik sağalmışdı. Bir qrup rəvayətlərdə isə bildirilir ki, Allah öz peyğəmbərini hər cür sehrdən və cadudan qoruyur, ona görə də heç bir cadugərin əməli Ona təsir göstərə bilməz.

Qurani-kərimin Fələq surəsində buyurulur: «De: «Pənah aparıram... *(əfsun oxuyub)* düyünlərə üfürən qadınların şərindən» *(Fələq, 4).*

Sehrin və cadunun günah əməl olması barədə Həzrət Mühəmməd Peyğəmbər (s) bunları buyurmuşdur: «Hər kim ipə düyün vurub əfsun oxusa, sehr etmiş sayılır. Sehrlə məşğul olan isə *şirk* etmiş olur. Kim *(özünü qorumaq üçün)* öz üzərinə nə isə taxsa, taxdığı əşyanın öhdəsinə buraxılır *(Allahın himayəsindən çıxmış olur)» (Sünənün-Nəsai, Müharibə kitabı, 4084-cü hədis).* İslam Peyğəmbəri müsəlmanlara yeddi günahdan uzaq olmağı tapşırırdı ki, bunların sırasında ikinci yeri sehr tutur. İmam Əli (ə) sehr və cadunu öyrənmək istəyənlərə bu cür xəbərdar edirdi: «Kim az və ya çox miqdarda sehr öyrənsə, küfr etmiş olar və Allahla bağladığı əhdi qırar. Tövbə etməyincə onun cəzası edamdır». İmam Cəfər Sadiq (ə) isə tam qəti şəkildə bildirirdi: «Allahın Rəsulu buyurub ki, hər kim sehrbazın, kahinin, gələcəkdən xəbər verdiyini iddia edən yalançının yanına getsə və onun dediklərinə inansa, Allahın nazil etdiyi bütün səmavi kitabları rədd etmiş kimidir» *(Biharül-ənvar, LXXII, 212-213).*

Bəzi hədislərdə istisna hal olaraq, sehri batil etmək, cadunu qüvvədən salmaq məqsədilə sehr və cadu etməyə icazə verildiyi bildirilir. Yəni əgər bir kəsin barəsində cadu edilibsə, həmin cadunu başqa bir cadu ilə batil etmək olar. Rəvayət edirlər ki, cadugərliklə məşğul olan və bununla dolanan bir nəfər həcc zamanı İmam Cəfər Sadiqin (ə) yanına gəlir və özü haqqında məlumat verəndən sonra deyir: «İndi artıq sehrlə məşğul olmaqdan tövbə etmişəm. Bu işin halal növü varmı?». İmam Cəfər Sadiq (ə) buyurur: «Bəli, var. Sehri aç, bağlama» *(Vəsailüş-şiə, XVII, 146, 22207-ci hədis).* Hədisin mənası budur ki, cadunu açmaq olar, amma bağlmaq *(yəni bir kəsin işlərini düyünə salmaq niyyətilə cadu etmək)* olmaz. Bir daha təkrar edirik ki, hətta bu şərt daxilində olsa belə, sehr etməyin icazəli olması tam sübuta yetməmiş bir məsələdir. Hədislərin bir qismi hətta bunu da günah sayır.

Bir gün Həzrət Mühəmməd Peyğəmbərin (s) yanına bir qadın gəlib bildirdi: «Axır vaxtlar ərim məndən soyumuşdu. Onu özümə mehriban etmək məqsədilə cadu etdim». Peyğəmbər qadının sözündən çox narahat oldu, «Dinini zay etdin, göylərin və yerin mələkləri sənə lənət etsin!» – deyə ona acıqlandı.

Sehr, cadu, göz dəyməsi kimi hallardan ən yaxşı müdafiə Qurani-kərimin bəzi ayə və surələrini (Fələq və Nas surələri, Qələm surəsinin son iki ayəsi və s.) oxumaq, namaz qılmaq, Allaha dua etmək, Onun himayəsinə arxalanmaq, şeytandan və onun vəsvəsəsindən Allaha sığınmaqdır.

N.R.

SEYRÜ-SÜLUK

Ərəb dilindən tərcüməsi «seyr etmək, gəzib-dolaşmaq» mənalarını verir. *Təsəvvüf* ələ-

mində insanın Allaha doğru mənəvi təkamül yolunu belə adlandırırlar. Təsəvvüf mövzusunda yazılmış klassik əsərlərin birində deyilir ki, seyrü-süluk pis sözlərdən yaxşı sözlərə, bəd əməllərdən xeyir əməllərə, mənfi əxlaqdan müsbət əxlaqa, öz varlığından Allahın varlığına doğru yönəlməkdir. Bu yolun yolçusuna salik deyirlər.

Seyrü-sülukun başlanğıcında insanın mütləq *mürşidi* (ustadı, rəhbəri) olmalıdır, yəni insan hər hansı sufi təriqətinə bağlanmalıdır. Ariflər seyrü-süluk yoluna mürşidsiz çıxmağı mənasız və nəticəsiz sayırlar.

Seyrü-sülukun 4 mərhələsi var. Birinci mərhələ ***seyri-iləllah*** (Allaha doğru yol) adlanır. Bu mərhələdə salik bütün varlıq aləmini tanımaqdan xilas olub, yalnız Allahı tanıyır, Allahdan başqa hər şeyin bilgisini, nişanəsini qəlbindən çıxarır. Seyri-iləllah mərhələsinin sonunda salik Allahda «əriyir», fani olur (fəna fillah). İkinci mərhələ ***seyri-fillah*** (Allahda yol) adlanır. Bu mərhələdə salik Allahın sifətlərini özündə tərbiyə etməyə çalışır, Allaha yaraşmayan bütün mənfi sifətləri özündən uzaqlaşdırır. Gizli elmlərin xəzinəsi onun üzünə açılır. Sonda salik Allahla qalır (bəqa billah). Üçüncü mərhələ ***seyri-məəllah*** (Allahla birlikdə yol) adlanır. Əgər əvvəlki mərhələlərdə salik kəsrət (çoxluq) aləmindən xilas olmuşdusa, bu mərhələdə ikilik aləmindən də azad olur, əhədiyyət məqamına yetişir. Bu mərhələnin sonunda salikin məqamını «qabə qovseyni ov ədna» ayəsi ilə ifadə edirlər. Yəni Allahla onun arasında iki yay ucu qədər, hətta bundan da az məsafə qalır. Nəhayət, seyri-sülukun dördüncü mərhələsi ***seyri-ənillah*** (Allahdan gələn yol) adlanır. Bu mərhələdə salik ilahi aləmdən bəşəri aləmə enir, başqalarını hidayət etmək üçün çalışır. Başqa bir deyimlə, onun vəziyyəti «fənadan sonrakı bəqa» ifadəsi ilə xarakterizə olunur.

Birinci və ikinci mərhələlər salikin *vəlayət* məqamına yetməsinə, yəni Allahın dostu olmasına şərait yaradır. Salik üçüncü və dördüncü mərhələləri keçməklə *mürşid* (təriqət rəhbəri) məqamına yüksəlmək imkanını qazanır.

Seyrü-süluk boyunca salikin *nəfsi* (ruhu) mərhələdən-mərhələyə keçir, əmmarə (pisliyə çağıran), ləvvamə (peşman olmuş), mülhimə (yaxşılığı ilham edən), mütməinnə (aramlıq qazanmış), raziyə (Allahdan razı olan), mərziyyə (Allahın razılığına çatmış) və kamilə (mükəmməl) pillələrini adlayır, bütün eyib və rəzilətlərdən təmizlənir, paklıq əldə edir.

Sufi təriqətlərinin əksəriyyətində seyrü-süluk yolunun uğurla keçilməsi üçün *çillələrin* (bədəni və ruhu əziyyətə salan təmrinlərin) vacib olduğu vurğulanır. Bu yolun hansı mənzilində qərar tutmasından asılı olaraq, salik bir neçə *hala* düşür, *məqamlara* nail olur. Seyrü-süluk yolu yalnız elm və biliyin gücünə keçilməz. Bu yolu yaşayaraq, duyaraq, təcrübə edərək keçmək lazımdır. Buna görə də, ayrı-ayrı sufi təriqətlərinin və məşhur təsəvvüf xadimlərinin seyrü-süluk yolu və bu yol barədə təsəvvürləri bəzən fərqli olur. Bu fərqliliklər onların mənəvi hazırlıq dərəcəsindən, xasiyyətindən, qavrama bacarığından və emosional durumundan qaynaqlanır.

N.R.

SEYİD

Ərəb dilindən tərcüməçi «ağa» deməkdir. Ümumiyyətlə, ərəb dilində bu söz ehtiram əlaməti olaraq işlədilir. Məsələn, fars dilində «ağa», türk dilində «əfəndi» kəlməsi hansı mənaya malikdirsə, ərəb dilində də «seyid» kəlməsi həmin mənanı verir.

Dini termin kimi Həzrət Mühəmməd Peyğəmbərin (s) ulu babası *Haşimin* nəslindən olanları seyid adlandırırlar. Bu mənada Peyğəmbərimizin özü də seyid olub. Daha dar mənada isə, Həzrət Mühəmməd Peyğəmbərin (s) nəslindən olanlar seyid sayılırlar. O həzrətin nəsli yalnız qızı Fatimənin (ə) İmam Əli (ə) ilə izdivacından doğulmuş Həsən (ə), Hüseyn (ə) və Zeynəb vasitəsilə davam etmişdir. Bu gün dünyanın müxtəlif ölkələrində on milyonlarla seyid yaşayır. Təbatəbai, Musəvi kimi böyük nəsillər də bura aiddir. Keçmişdə Ərəbistandan gələnlərin bir hissəsi Azərbaycanda da məskunlaşmışdı. Azərbaycan ərazisində yerləşən bəzi yaşayış məntəqələrinin adındakı «seyid» kəlməsi də buradan yaranıb. Məsələn: Seyidli kəndi (Ağdam rayonu), Seyidlər kəndi (Samux, Laçın, Zəngilan və Kəlbəcər rayonları), Seyidlikəndyeri kəndi (Xaçmaz rayonu), Seyidbazar kəndi (Cəlilabad rayonu), Seyidyurd dağı (Şəki rayonu) və s.

İslam dinində seyidlərə ehtiram göstərmək çox təkid olunur. Seyidlərlə ailə qurmağın fəziləti haqqında Peyğəmbərdən hədislər mövcuddur («Qiyamət günündə bütün bağlılıqlar ləğv olunacaq, yalnız mənimlə əsil-nəsəb bağlılığından savayı»). Məclislərdə seyidi yuxarı başda əyləşdirmək, onun qulluğunda durmaq ənənəyə çevrilib. Cəfəri məzhəbinə görə, *xümsün* yarısı da ehtiyaclı seyidlərə verilməlidir.

N.R.

SƏBİL

Ərəb dilindən tərcümədə «yol» deməkdir: «İman gətirənlər Allah yolunda, kafir olanlar isə *tağut* yolunda vuruşurlar» *(Nisa, 76).*

Tədqiqatçıların fikrincə, Qurani-kərimin hansı ayəsində «səbil» sözü ümumi halda (kimin yolu olduğu göstərilmədən) və ya «sübül» kəlməsi (cəm halda) işlənirsə, Allaha itaət yolu nəzərdə tutulur. Məsələn: «*(Şeytanlar)* onları yoldan çıxardarlar» *(Zuxruf, 37).*

Bəzi alimlərin fikrincə, Qurani-kərimdə «səbil» sözü Allaha itaətin müxtəlif bölümlərini ifadə edir. Allaha iman, Peyğəmbərə itaət, namaz qılmaq, oruc tutmaq və s. – bunların hər biri ayrı-ayrı səbillərdir. Bunların vəhdəti olan «sübül» (səbillər) kəlməsi Allahın vahid yolunu bildirir.

Quranda «səbil» sözünə həm də yol adamı, müsafir mənasını bildirən «ibn əs-səbil» ifadəsinin tərkibində rast gəlirik: «Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba və peyğəmbərlərə inanan, *(Allaha)* məhəbbəti yolunda malını qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yolda qalana, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də, əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə və cihad zamanı səbir edənlərdir, doğru olanlardır. Təqvalı olanlar da onlardır» *(Bəqərə, 177).*

İslam şəriətinə görə, zəkat pulunu 8 təbəqədən olan insanlara vermək olar. Bu təbəqələrdən biri də məhz ibn əs-səbildir. Bu, elə adama deyilir ki, uzaq səfərə çıxıb və öz evinə qayıtmaq üçün kifayət edəcək qədər pulu olmadığından yolda qalıb. Belə adama yardım göstərib yol xərcini vermək və vətəninə yola salmaq ən böyük savablardan sayılır: «*(Zəkat)* Allah tərəfindən müəyyən edilmiş bir fərz olaraq ancaq yoxsullara, miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri *(müsəlmanlığa)* isnişib bağlanmaqda olanlara, azad ediləcək kölələrə, həmçinin, borclulara, Allah yolunda cihad edənlərə və yolda qalan adamlara verilməlidir. Allah biləndir, hikmət sahibidir» *(Tövbə, 60).*

N.R.

SƏBÜL-MƏSANİ

Ərəb dilindən tərcüməsi «qoşa yeddilik» deməkdir. Qurani-kərimin birinci surəsi olan Fatihənin adlarından biridir. Ümumiyyətlə, dini kitablarda bu surə bir neçə adla xatırlanır. Məsələn: Fatihə (açan, başlayan; Quranın ilk surəsi olduğuna görə ona bu ad verilib), Həmd (surənin ilk sözü «əl-həmd» olduğu üçün ona bu ad verilib), Şafiyə (şəfa verən), Kafiyə (kifayət edən), *Ümmül-kitab* (Quranın «anası», yəni məğzi) və s.

Surəyə «səbül-məsani» adının verilməsinin səbəbini təfsir alimləri müxtəlif cür izah etmişlər. Bəzilərinin fikrincə, yeddi ayədən ibarət olan surə iki dəfə (bir dəfə Məkkədə, bir dəfə də Mədinədə) nazil olduğu üçün, bu adı daşıyır. Bəziləri bu surənin hər namazda mütləq iki dəfə (birinci və ikinci rükətlərdə) oxunduğunu əldə əsas tutaraq, «qoşa yeddilik» adının mənasını bununla bağlamışlar. Bəzilərinin fikrincə isə, surədə yeddi sözün hərəsi iki dəfə təkrar olunub: Allah, Rəhman, Rəhim, iyyakə, və, sirat və əleyhim. Bu nəzəriyyəyə görə, təkrar olunan həmin yeddi sözün şərəfinə surəyə səbül-məsani deyirlər.

N.R.

SƏCAVƏND

Qurani-kərimin düzgün oxunuşunu təmin etmək üçün ayələrin üzərində qeyd edilən işarə şəkilli xırda hərflərə deyilir. Bu işarələr vəqf (dayanmaq) və vəsl (birləşdirmək, davam etmək) yerlərini, *səcdə* ayələrini göstərir. İlk dəfə Mühəmməd ibn Teyfur Səca-

vəndi (vəf. miladi 1165-ci il) adlı alim tərəfindən tətbiq edildiyi üçün, onun adı ilə adlandırılmışdır. İşarələrin əksəriyyəti Quran tilavəti zamanı nəfəs daralması kimi səbəblər üzündən ayələrin ortasında mənanın pozulmaması şərti ilə dayanıb nəfəsi dərmək üçün istifadə edilir. Bəzi işarələr isə, əksinə, dayanıldığı təqdirdə mənanın pozulduğunu göstərir və həmin yerdə dayanmadan oxuyub keçməyi bildirir. Müasir Quran nəşrlərində istifadə edilən səcavənd hərfləri bunlardır: cim, mim, lam-əlif, sad-lam-ye, qaf-lam-ye, vəqfi-müanəqə işarəsi (üç nöqtə ilə işarə edilir). Bu işarələrin hökmü qiraət *(təcvid)* kitablarında və Qurani-kərim nüsxələrinin axırındakı cədvəldə izah edilir.

L.Q.

SƏCCADƏ

bax: *canamaz.*

SƏCDƏ

Lüğəvi mənası «itaət edərək, təvazökarlıqla boyun əymək» mənasını verir. Dini termin kimi Allahın əmrlərinə boyun əymək və Allaha qulluq etmək məqsədilə ayaq barmaqlarının ucu, dizlər və ovuclarla birlikdə alnın yerə qoyulmasına deyilir.

Qurani-kərimdə «səcdə» kəlməsi həm terminoloji, həm də lüğəvi mənalarda işlədilir. Quranda buyurulur: «Məgər göylərdə və yerdə olanların *(bütün canlıların)*, Günəşin, Ayın və ulduzların, dağların, ağacların və heyvanların, insanların bir çoxunun *(mömin-lərin)* Allaha səcdə etdiyini görmürsənmi?» *(Həcc, 18).* «Göylərdə və yerdə kim varsa, *(özləri də)*, kölgələri də səhər-axşam, istər-istəməz Allaha səcdə edər» *(Rəd, 15).*

Allaha ibadət etmək məqsədilə alnı yerə qoymaq (səcdə etmək) namazda və namazdan ayrı olmaqla iki qisimdir. Namazda səcdə etmək namazın *rüknlərindəndir* və *fərzdir* (qəti vacibdir), tilavət səcdəsi və *səhv səcdəsi* isə vacibdir (hənəfi məzhəbinə görə; başqa məzhəblərdə həm namaz səcdəsi, həm də tilavət və səhv səcdəsi vacib sayılır). Bundan əlavə, hər hansı nemətə nail olmaq və ya fəlakətdən qurtulmaq münasibətilə *şükr* niyyəti ilə səcdə etmək müstəhəbdir.

Ə.N.

SƏDƏQƏ

Allahın razılığını qazanmaq niyyəti ilə təmənnasız olaraq *fəqirlərə* və möhtaclara köməklik göstərmək, yaxşılıq etmək. Fərz, vacib və müstəhəb olmaqla üç qismdir. Fərz olan sədəqə – *nisab* həddinə çatmış maldan *zəkat* verməkdir. Vacib olan sədəqə – *fitrə zəkatıdır.* Digər sədəqələr isə müstəhəbdir. Bu bölgü hənəfi məzhəbinə görədir. Başqa məzhəblərdə (cəfəri məzhəbi də daxil olmaqla), həm nisab həddinə çatmış maldan zəkat vermək, həm də fitrə sədəqəsini (cəfəri məzhəbində buna fitrə zəkatı deyirlər) ödəmək eyni dərəcədə vacib hökmündədir.

Həzrət Mühəmməd Peyğəmbər (s) sədəqə haqqında buyurmuşdur: «Günəşin doğduğu hər yeni gündə insan sədəqə verməlidir. İki şəxs arasında ədalətli davranmaq sədəqədir. Heyvana yük yükləyən şəxsə kömək etmək sədəqədir. Yaxşı söz sədəqədir, namaza gedərkən atdığın hər bir addım sədəqədir» *(Səhihül-Buxari, Cihad kitabı, LXXII bab, 2891-ci hədis; Səhihü Müslim, Səlatül-müsafirin kitabı, XIII bab, 84-cü hədis).* Digər hədislərdə buyurulur: «Qardaşına qarşı etdiyin təbəssüm sədəqədir. Yaxşılığı tövsiyə edib pislikdən çəkindirmək sədəqədir. Yolunu azana yol göstərmək sədəqədir; kora yardım etmək sədəqədir; yoldan daş, taxta parçası, sümük kimi zibilləri götürüb kənara qoymaq sədəqədir; öz qabından din qardaşının qabına su boşaltmaq sədəqədir» *(Sünənüt-Tirmizi, Kitabül-birr, XXXVI bab, 1956-cı hədis).*

R.M.

SƏFƏR

Dini anlamda vətəni tərk edib, müəyyən məsafə qət etməyə deyilir. Səfər məsafəsi hənəfi məzhəbindəki üstün görüşə görə, üç gün ərzində, hər gün 6 saat olmaq şərti ilə üst-üstə 18 saat müddətində qət edilən yol kimi qəbul edilir. Bu məsafə təqribən 90 km.-dir. Hənəfi məzhəbinə aid keçmiş fiqh kitablarında səfər məsafəsi 120,96 km. (24 *fərsəx*) qeyd edilirdi. Maliki, şafii və hənbəli məzhəblərində səfər məsafəsi 16 fərsəx (80,64 km.) götürülür. Ən azı bu məsafə qədər yol gedən şəxs səfərdə sayılır və *müsafir* hökmünü daşıyır. Hənəfi və hənbəli

məzhəblərində bu məsafənin 1,67–3,33 km., maliki məzhəbində isə hətta 13,3 km. qısa olmasına da icazə verilir.

Səfərdə olan şəxs 4 rükətlik gündəlik namazları 2 rükət şəklində qılır. Buna *qəsr* və ya *təqsir* deyirlər. Hənəfi məzhəbinə görə, səfərdə olan şəxsin namazları qəsdən bütöv qılması məkruhdur. Malikilər səfərdə olan şəxsin namazı qısa qılmasını təkid olunan sünnət sayırlar. Şafii məzhəbinə görə, şəriət baxımından səfərdə sayılan şəxsin namazları bütöv ya qısa qılması öz istəyindən asılıdır. Hənbəli məzhəbinin də hökmü belədir, amma bu məzhəbə görə, namazı qısa qılmaq daha üstündür. Hənəfiliyi çıxmaq şərti ilə digər əhli-sünnə məzhəblərinə görə, səfərdə olan şəxsin zöhrlə əsr, məğriblə işa namazlarını ardıcıl (*cəm* halda) qılmasına icazə verilir. Həmçinin, əhli-sünnə məzhəblərinə görə, səfərdə olan şəxs üç gecə-gündüz müddəti boyunca dəstəmaz alarkən *məstin* üzərinə *məsh* çəkməklə kifayətlənə bilər.

Cəfəri məzhəbində səfər məsafəsi getmək və gəlmək də daxil olmaqla üst-üstə 8 fərsəx qəbul edilib ki, bu da təqribən 43-44 km.-ə bərabərdir. Səfərdə olan şəxs mütləq namazları qısa qılmalı, oruc tutmamalıdır. Qəsdən bu hökmləri pozsa, günah etmişdir, qıldığı namazları və tutduğu orucu qəza etməlidir.

Hənəfiliyə görə, getdiyi yerdə 15 gündən çox qalmağa niyyət edən kəs həmin yerdə vətəndəki kimi sayılır (yəni ibadətlərini bütöv yerinə yetirir). Maliki məzhəbində bu müddət 4 tam günə, hənbəli məzhəbində 20 namaz vaxtına (gündə 5 namaz olmaqla 4 gün), şafii məzhəbində isə giriş və çıxış günlərini çıxmaqla 4 günə bərabərdir. Cəfəri məzhəbində insan getdiyi yerdə 10 gündən artıq qalmağa niyyət etsə, həmin yerdə müsafir hökmünü itirir və ibadətlərini vətəndəki kimi yerinə yetirir.

Cəfəri, şafii və hənbəli məzhəblərinə görə, insanın səfəri günah məqsədi daşıyırsa, bu səfər boyunca namazlarını bütöv qılmalı, orucunu tutmalıdır. Maliki və hənəfi məzhəblərində bu şərt qoyulmur

Həmçinin, cəfəri məzhəbinə görə, peşəsi səfərə çıxmaq olan şəxslər (məsələn, sürücülər, bələdçilər) səfər zamanı namazları bütöv qılmalı, orucu tutmalıdırlar. İnsan şəhərin uzaq qəsəbəsində yaşayırsa, amma iş yeri şəhərin mərkəzindədirsə, bu halda da onun işə getməsi peşə sayılır və həmin şəxs müsafir hökmünü daşımır.

N.R.

SƏHABƏ

Müsəlman olduğu halda Həzrət Mühəmməd Peyğəmbəri (s) görən və bu imanla yaşayıb vəfat edən şəxslərə deyilir. Sağını solundan ayıra bilən və ya sözü başa düşüb cavab verə bilən uşaqlar, həmçinin korlar da Peyğəmbərlə görüşmək şərti ilə səhabə sayılırlar.

Üstünlük dərəcələrinə görə, bütün səhabələr eyni səviyyədə deyillər. Hakim Nişaburi (vəf. miladi 1014-cü il) üstünlük dərəcələrinə görə səhabələri 12 təbəqəyə ayırmışdır:

1. Məkkədə İslamı ilk qəbul etmiş səhabələr. Bunlara Həzrət Əbu Bəkr, Həzrət Ömər, Həzrət Osman, Həzrət Əli, *əşərəyi-mübəşşərədən* olan digər səhabələr, qadınlardan Həzrət Xədicə, kölələrdən Bilal, azad edilmiş kölələrdən Zeyd ibn Harisə və başqaları aiddir.

2. *Darül-Ərqəmdə* müsəlman olanlar. Həzrət Ömər İslama gəlişini açıqladıqdan sonra Ərqəm adlı səhabənin evində müsəlman olub, Həzrət Mühəmməd Peyğəmbərə (s) beyət edənlərdir.

3. Həbəşistana ilk hicrət edənlər. Bunlar 11-i kişi və 4-ü qadın olmaqla cəmi 15 nəfərdən ibarət qrupdur.

4. Birinci *Əqəbə beyətində* Peyğəmbərə beyət edənlər. Bunların sayı 12-dir.

5. İkinci *Əqəbə beyətində* Peyğəmbərə beyət edənlər. Bunların əksəriyyəti mədinəlilərdən ibarətdir, sayları 70-dən artıqdır.

6. Yəsribə hicrət edən və *Qübada* (Mədinənin girəcəyindki kənddə) Peyğəmbərə qoşulan mühacirlər.

7. *Bədr savaşında* iştirak edən səhabələr. Bunların üstünlüyünü Peyğəmbər belə ifadə etmişdir: «Allah Bədr savaşında iştirak edənlərə işarə edərək: «İstədiyinizi edin; mən sizi bağışladım» - buyurur».

8. Bədr savaşı ilə *Hüdeybiyyə sülhü* arasında Mədinəyə hicrət edənlər.

9. *Hüdeybiyyədə*, ağacın altında Həzrət

Peyğəmbərə beyət edənlər *(əshabüş-şəcərə)*. Fəth surəsinin 18-ci ayəsində onların haqqında buyurulur: «And olsun ki, ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı oldu. Allah onların ürəklərində olanı bildi, onlara *(öz dərgahından)* arxayınlıq göndərdi və onları yaxın vaxtlarda qazanılacaq bir qələbə ilə mükafatlandırdı».

10. Hüdeybiyyə sülh müqaviləsi ilə Məkkənin fəthi arasında Mədinəyə hicrət edənlər.

11. Məkkənin fəth edildiyi gün müsəlman olanlar. Bunların sayı 1000-ə yaxındır.

12. Məkkənin fəth edildiyi gün və ya *vida həccində* Peyğəmbəri görən və beləcə, səhabələrin sırasına qəbul edilən uşaqlar. Məsələn, Əbu Tüfeyl və Əbu Cüheyfə Həzrət Mühəmməd Peyğəmbəri (s) təvaf edərkən *Zəmzəm quyusunun* yanında görmüşlər.

R.M.

SƏHİH HƏDİS

bax: *hədis.*

SƏHUR

Oruc tutanların *imsak* vaxtından əvvəl yedikləri yeməyə deyilir. Səhur oruca dözmək baxımından insana güc verdiyi üçün müstəhəb sayılır. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Səhur yeyin! Çünki səhurda bərəkət vardır» *(Səhihül-Buxari, Kitabüs-sövm, XX bab, 1923-cü hədis; Səhihü Müslim, Kitabüs-siyam, IX bab, 45 (2549)-cu hədis).* İftar və ya səhur etmədən ardıcıl olaraq oruc tutmaq məkruhdur. Səhur vaxtı həm də duaların qəbul olunduğu vaxtlardan biridir.

A.Q.

SƏHV SƏCDƏSİ

Namaz zamanı unutqanlıq və ya çaşqınlıq üzündən səhv edildiyi təqdirdə namazdan dərhal sonra yerinə yetirilən bir cüt səcdəyə deyilir. Hənəfi məzhəbinə görə, camaat namazının sonunda yalnız sağ tərəfə salam verdikdən sonra, təkbaşına qılınan namazda isə hər iki tərəfə salam verdikdən sonra bir cüt səhv səcdəsi edilir, ardınca təşəhhüd və salam deyilir. Qalan üç əhli-sünnə məzhəbində namazın salamlarını verməzdən əvvəl səhv səcdələrini etmək buyurulur. Cəfəri məzhəbində isə namazı tamam qılıb qurtardıqdan sonra *qiblədən* dönmədən və artıq bir hərəkət etmədən səhv səcdələri yerinə yetirilir, bir daha təşəhhüd və salam deyilir.

Səhv səcdəsinin hansı hallarda yerinə yetirilməsi barədə həm əhli-sünnə məzhəblərinin öz aralarında, həm də cəfəri məzhəbi arasında fikir ayrılıqları vardır. Məsələn, bu və ya digər məzhəbin şəriətinə görə, namazın hər hansı əməlini unudub yerinə yetirməyəndə, namaz əməllərinin ardıcıllığını pozanda, namaz *rükətlərinin* sayında şəkk edəndə, sünnətlərdən hər hansı birini yerinə yetirməyəndə, namaza aid olmayan bir əməli edəndə və s. hallarda səhv səcdəsi edilir.

Səhv səcdəsinin hökmü də məzhəblər baxımından fərqli izah edilir. Cəfəri məzhəbində səhv səcdəsini yerinə yetirmək vacib olduğu halda, əhli-sünnə məzhəblərində bu, bəzi hallarda vacib, bəzən isə sünnət sayılır.

N.R.

SƏQƏLEYN

Tərcüməsi «iki qiymətli əşya» deməkdir. Qurani-kərimdə insanlar və cinlər mənasında işlədilib (eyni mənanı ifadə edən «səqəlan» formasında; *Rəhman, 31*). Çünki bunlar Allahın yaratdığı canlılar arasında yeganə iki məxluqat növüdür ki, iradə azadlığına malikdirlər və öz əməllərinə görə Allahın qarşısında cavabdehlik daşıyırlar. Həzrət Mühəmməd Peyğəmbəri (s) də bəzən seyyidüs-səqəleyn, yəni insanlarla cinlərin ağası adlandırırlar.

«Səqəleyn» ifadəsinin ikinci məşhur mənası İslam Peyğəmbərinin bir hədisindən qaynaqlanır. Elə həmin hədisi də «səqəleyn hədisi» adlandırırlar. Həm şiə, həm də sünni mənbələrində onlarla səhabədən yüzlərlə sənəd zənciri ilə rəvayət olunmuş bu hədisdə Peyğəmbərimiz buyurmuşdur: «Sizin aranızda iki qiymətli əşya *(əmanət)* qoyuram: Allahın kitabı və *Əhli-beytim*. Bunlara bağlansanız, zəlalətə düşməzsiniz. Bunlar *(qiyamət günündə)* cənnət hövzunun kənarında mənim hüzuruma çatana kimi bir-birindən ayrılmazlar». Bu hədisin cüzi söz fərqi ilə çoxlu variantlarına müxtəlif kitablarda rast gəlmək olar. Səqəleyn hədisi Əhli-beytin fəzilətini sübut edən əsas dəlillərdən sayılır.

N.R.

SƏLAT

Ərəb dilində həm mərhəmət, bərəkət mənasını bildirir, həm də namaz anlamında işlədilir. Cəm halı «salavat»dır.

bax: *salavat* və *namaz.*

N.R.

SƏLBİYYƏ SİFƏTLƏRİ

Allahın sifətlərindən (xüsusiyyətlərindən) bir qrupu. *Sübutiyyə sifətlərinin* ziddi kimi təsnif edilir. Bunlar Allahın elə sifətləridir ki, onların Allahda olması mümkün deyil. Allah səlbiyyə sifətlərinə malik ola bilməz, çünki bu xüsusiyyətlər Onun zatına əskiklik gətirər.

Səlbiyyə sifətlərinin sayı və adı barədə istər şiə və sünni məzhəbləri arasında, istərsə də, eyni məzhəbin daxilində bəzi fərqlər mövcuddur. Geniş qəbul edilmiş təsnifata əsasən, Allahın əsas səlbiyyə sifətləri bunlardan ibarətdir:

*1. **Allah şəriksizdir (vəhdaniyyət).***

Dinimizin qanunlarına görə, Allah-təala qeydsiz-şərtsiz olaraq vahiddir, yeganədir, Onun tayı-bənzəri və şəriki yoxdur. Allah-təala sonsuz sayda gözəl sifətlərin sahibi olsa da, bu, Onun zatının çoxsaylı olması demək deyil. Qüdrətli, elmli, eşidib-görən, diri, şəriksiz, cismsiz və s. olan Allah yeganədir, təkdir.

Quranda Allahın vahidliyini sübut edən yüzlərlə ayə var. Bunların ən məşhuru İxlas adlanan 112-ci surənin ayələridir: «De: «O Allah birdir. Allah möhtac deyildir! O, nə doğmuş, nə də doğulmuşdur. Onun heç bir tayı-bərabəri də yoxdur».

*2. **Allahın əvvəli və axırı yoxdur (qidəm və bəqa).***

Allahın əvvəli yoxdur. O, hər şeyin əvvəlidir; O, əzəlidir (İslam əqidəsində buna qidəm (yəni qədimlik) deyilir). Allahın sonu da yoxdur. O, əbədidir (buna bəqa deyilir). Allahın gözəl alarından biri «əvvəl», o biri «axır»dır: «Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir» *(Hədid, 3).* «Yer üzündəki hər kəs fanidir. Yalnız əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir» *(Rəhman, 26-27).*

Rəvayət edirlər ki, bir nəfər yəhudi Həzrət Əlidən (ə) soruşur: «Allah nə zamandan mövcuddur?». İmam onun sualına sualla cavab verir: «Sən soruş ki, Allah nə zaman mövcud olmayıb? Mənim Allahım hər şeydən öncə var idi; Ondan da əvvəli təsəvvür etmək olmaz. O, hər şeydən sonra da olacaq, Ondan sonranı təsəvvürə gətirmək qeyri-mümkündür... O özü hər sonluğun sonudur».

*3. **Allah ehtiyacsızdır (qiyam bi-nəfsihi).***

Allah-təalanın vücuduna yaraşmayan və ondan uzaq olan səlbiyyə sifətlərindən biri ehtiyacdır. Allah mütləq mənada heç kimə və heç nəyə möhtac deyil. O, hamıdan üstün və kamildir: «Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə möhtac deyil. O, hər cür şükrə layiqdir" *(Fatir, 15).*

*4. **Allah cism deyil və heç bir yaradılmışa bənzəməz (muxaləfətün lil-həvadis).***

Cism maddidir, məhduddur (onun ölçüləri var), tərkib hissələrindən ibarətdir. Cism bütün kainatla birgə daimi hərəkətdədir və kəmiyyət-keyfiyyət dəyişikliklərinə məruz qalır. Nəhayət, zaman keçdikcə, cism köhnəlib məhv olur.

Allah-təala deyilən xüsusiyyətlərin hamısından uzaqdır. O, məhv olmazdır (əbədi və əzəli), dəyişməzdir. Əgər Allah cism olsaydı, ölçüyə malik olardı; yəni onun eni, uzunluğu və qalınlığı bilinərdi. Ölçü isə məhdudiyyət deməkdir. Allah-təala məhdudiyyətlərə sığışmaz, O, hər şeyi əhatə edir.

Allah-təala cism olmadığı üçün cismə xas olan sifətlərdən də uzaqdır. Məsələn, insanda olan oturmaq, durmaq, yorulmaq, yatmaq, qocalmaq, sevinmək, qüssələnmək və s. kimi xüsusiyyətlər Allaha aid edilə bilməz. *Ayətül-kürsi* adlanan mübarək Quran ayəsinin əvvəlində buna qısaca işarə olunub: «Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O, nə mürgü, nə də yuxu görər» *(Bəqərə, 255).*

N.R.

SƏNƏD

Hədisi bir-birinə rəvayət edərək sonrakı-

lara çatdıran şəxslərin *(ravilərin)* adlarının tarixi ardıcıllıqla qeyd olunması, rəvayət zənciri. Sənədə «təriq» (yol) və «vəch» (yön, tərz) də deyilir.

R.Ş.

SƏRİYYƏ

Ərəb dilindən tərcüməsi «gecə səfəri» deməkdir. Hicrətdən sonra Həzrət Mühəmməd Peyğəmbərin (s) şəxsən qatılmadığı, səhabələrin sərkərdəliyi altında həyata keçirdiyi hərbi yürüşlərə deyilir (*«qəzvə»* kəlməsi isə Peyğəmbərin şəxsən rəhbərlik etmiş olduğu hərbi yürüşləri ifadə edir). Səriyyələrin sayı barədə məlumatlar müxtəlifdir. Bunun əsas səbəbləri bəzi mənbələrdə səriyyə kimi xatırlanan yürüşlərin başqa mənbələrdə səriyyə sayılmaması, eyni bir səriyyənin fərqli mənbələrdə iki ayrı-ayrı yürüş hesab edilməsi və ya əksinə, iki səriyyənin birləşdirilib tək sayılmasıdır. Son araşdırmalar səriyyələrin ümumi sayının 91 olduğunu göstərir. Bunlardan 13-ü Məkkənin Qüreyş müşriklərinə, 63-ü digər ərəb qəbilələrinə, 10-u yəhudilərə və 4-ü xristianlara qarşı həyata keçirilmişdir. İslam tarixində ilk səriyyə hicrətin birinci ilinin ramazan ayında (miladi 623-cü il) Peyğəmbərin əmisi Həmzənin başçılığı altında baş vermiş və döyüşsüz ötüşmüşdür *(bax: E.Mahmudov. Səbəbləri və sonuçları açısından Hz. Peyğəmbərin savaşları, səh. 460).*

Səriyyələrə *Əli ibn Əbu Talib (ə), Həmzə ibn Əbdülmüttəlib, Zeyd ibn Harisə, Əbu Bəkr, Ömər ibn Xəttab,* Übeydə ibn Haris, *Cəfər ibn Əbu Talib,* Abdullah ibn Cəhş, *Əbu Übeydə ibn Cərrah, Zübeyr ibn Əvvam, Səd ibn Əbu Vəqqas, Abdullah ibn Rəvahə, Xalid ibn Vəlid, Əmr ibn As* kimi məşhur səhabələr başçılıq etmişlər. Qəzvələrdə olduğu kimi, bəzi səriyyələr də döyüşsüz keçmişdir. Döyüş baş verən səriyyələr böyük əksəriyyətlə müsəlmanların qələbəsi ilə başa çatmışdır.

Həzrət Mühəmməd Peyğəmbər (s) bütün səriyyələrdən əvvəl əsgərləri toplayıb onlara aşağıdakı döyüş təlimatlarını verirdi: qocalara, qadınlara və uşaqlara toxunmamaq, ehtiyac olmadan ağacları kəsməmək, aman istəyənlərə aman vermək, əsir düşənlərlə yaxşı davranmaq və İslamı qəbul etmələri üçün onlara möhlət vermək, qənimətə xəyanət etməmək, hiylə işlətməmək, cəsədləri təhqir etməmək.

N.R.

SƏTRİ-ÖVRƏT

Lüğəvi mənada «əskik, açıq, açılıb görülən şey» kimi mənaları verən «övrət» kəlməsi dini terminologiyada insan vücudunda örtülməsi vacib olan, görülməsi və göstərilməsi qadağan olan, başqaları tərəfindən də baxılması haram olan üzvlərə deyilir.

Övrət yerlərini örtmək namazın şərtlərindən biridir və buna sətri-övrət deyilir. Kişinin övrət yerləri dizi ilə göbəyinin arasıdır. Hənəfilərə görə, diz qapağı da övrətə daxildir. Qadınların övrət yerləri isə, əl ilə üzdən başqa bütün bədən üzvləridir. Hənəfi məzhəbindəki bir rəyə görə, ayaqların topuqdan aşağı hissəsi övrət sayılmır.

Cəfəri məzhəbinə görə, kişinin namazda örtməsi vacib olan üzvləri ön və arxa tərəfdəki ayıb yerləridir (əgər heç kəsin onu görmədiyini yəqin bilirsə). Amma ən azı göbəyindən dizinə kimi bədənini örtməsi məsləhətdir. Qadın isə namazda başqası tərəfindən görülüb-görülməməsindən asılı olmayaraq, sifətini (dəstəmazda yuyulan miqdarda), biləkdən aşağı əllərini və topuqdan aşağı ayaqlarını istisna etməklə, bütün bədənini örtməlidir. Bəzi cəfəri məzhəbli müctəhidlər topuqdan aşağı ayaqları örtməyi də məsləhət bilirlər.

Namaz üçün örtülməli olan yerlər namazdan kənarda da örtülməlidir. Lakin qadın, ona məhrəm olan kişinin yanında saçını, qolunu, boyun-boğazını da açıq qoya bilər *(Nur, 31).*

Qadının qadından gizlətməsi vacib olan övrət yerləri dizlə göbək arasıdır. Lakin ehtiyac olmasa, bundan başqa bədən üzvlərini də açması düzgün deyil. Ər-arvad arasında isə övrət mövzusunda hər hansı məhdudiyyət yoxdur. Övrət yerlərinin örtülmə əmri ümumi prinsipdir; tibbi müayinə, müalicə, doğuş və sairə zərurət hallarında bu prinsipin pozulması caizdir.

Ə.N.

SƏY

Həcc və *ümrə* əməllərindən biridir. Kəbənin *təvafından* və təvaf namazından sonra *ehramlı* halda yerinə yetirilir. Səy – Kəbənin yaxınlığında yerləşən *Səfa və Mərvə* təpələri arasında 7 dəfə o baş-bu başa yürüməkdən ibarətdir. Hərəkətə Səfa təpəsindən başlayır, axırda Mərvə təpəsində qurtarırlar.

Səyin tarixçəsini Həzrət İsmail (ə) və anası Hacərlə bağlayırlar. İbrahim Peyğəmbər (ə) onları indiki Məkkə ərazisində buraxıb getdikdən sonra ana ilə balanın su ehtiyatı qurtardı. Körpə İsmailin (ə) susuzluqdan əziyyət çəkdiyini görən Hacər yaxınlıqdakı iki təpənin arasında o baş-bu başa yürüyüb su axtarmağa başladı. Yeddi dəfə yürüdükdən sonra su tapmaqdan ümidini üzdü. Bu zaman möcüzə baş verdi: İsmailin (ə) ayaqları altından *Zəmzəm* bulağı çağladı.

Əvvəllər səyin məkanı açıq hava altında idi. Son zamanlar hacıların işini yüngülləşdirmək və basırıq yaratmamq xatirinə, Səfa və Mərvə təpələrinin arasında bir neçə hərəkət istiqamətinə malik geniş tunellər tikilib.

Hənəfi, maliki və cəfəri məzhəblərinə əsasən, səy zamanı yolun bir hissəsini *hərvələ* adlı yerişlə yürümək kişilərə müstəhəbdir. Ərəblər dəvənin hərəkətə başlayarkən sürət yığmasına hərvələ deyirlər. Bu, adi yerişlə qaçış arasında olan hərəkət növü sayılır. Hərvələnin başlanğıcını və sonunu tunelin divarında quraşdırılmış yaşıl rəngli direklər göstərir. Şafii məzhəbində isə Səfa ilə Mərvə arasındakı yolun yarısında hərvələ etmək müstəhəb sayılır.

N.R.

SİDR

Əsasən, sidr ağacının qozalarından alınan maddə. Tərkibində orqanizm üçün çoxlu faydalı maddələr var. Tibbdə ağrıkəsici vasitə kimi, eləcə də iltihab, soyuqdəymə, böyrək daşları, ateroskleroz, ürəyin işemik xəstəlikləri, nevroz, revmatizm, oynaq ağrıları, allergiya, immunodefisit və s. hallarda istifadə edilir.

Cəfəri məzhəbinin şəriətinə görə, meyitə qüsl verərkən birinci dəfə sidr qarışdırılmış su ilə yuyurlar. Əhli-sünnə məzhəblərində belə bir göstəriş yoxdur.

bax: *kafur.*

N.R.

SİDRƏTÜL-MÜNTƏHA

Lüğəvi mənada «son ağac» deməkdir. Sidrə – xurma ağacına bənzəyən ağac növüdür; Ərəbistan gilasına da bu ad verilib. Sidrətül-müntəha varlıq aləminin son nöqtəsidir. Bundan sonra Allahın qeyb aləmi başlayır.

R.M.

SİĞƏ (MÜTƏ)

Ərəb dilindən tərcümədə «siğə» – «əsl, bünövrə, forma, quruluş» kimi mənaları verir. Ərəb dilində kəlmələrin hallanmasına (morfoloji mənada) da siğə deyirlər. «Mütə» sözü isə «faydalanmaq» kökündəndir.

Dini anlamda mütə – qeyri-daimi, yəni müvəqqəti nikah növüdür. Daimi nikahdan fərqli olaraq, burada nikahın müddəti təyin edilir, müddət bitdikdən sonra nikah öz qüvvəsini itirir və tərəflər bir-birinə *naməhrəm* olurlar. Mütə müddəti bitməzdən əvvəl də kişi qalan müddəti qadına bağışlaya bilər; bu halda da nikah pozulmuş sayılır. Əslində müvəqqəti nikahın şəriətdə nəzərdə tutulmuş adı mütədir; amma xalq arasında buna siğə deyirlər (oğlan uşaqlarının cinsiyyət üzvü üzərində aparılan cərrahiyyə əməliyyatı əslində *xütnə*, camaat arasında isə sünnət adlandırıldığı kimi).

Mütə ilə daimi nikahın bəzi oxşar və fərqli cəhətləri vardır. Oxşar cəhətlərdən biri – bunların hər ikisində *mehr (mehriyyə)* təyin edilməsidir. Nikah əqdi (kəbin) oxunarkən, kişinin qadına verməli olduğu pulun və ya malın miqdarı dəqiqləşdirilir. Daimi nikahda mehr konkret təyin edilməsə də, nikah etibarlıdır; bu halda qadının mehriyyəsi onunla eyni səviyyədə olan başqa qadınların mehriyyəsinə, ya da ənənəyə uyğun götürülür. Mütə nikahında isə mehrin miqdarı konkretləşdirilməsə, nikah öz qüvvəsini itirir.

Mütə nikahında da *iddə* müddəti gözlənilməlidir. Daimi nikahda talaq iddəsinin müd-

dəti üç *heyz* (menstruasiya) dövrüdürsə, mütədə bu müddət iki heyz dövrüdür.

Daimi nikahda olduğu kimi, mütə nikahından doğulan uşaq da atasının övladı sayılır və onun varisi olmaq hüququnu qazanır.

Hər iki nikahda *məhrəmlik* yaranır. Yəni kişinin atası (babası), oğlu (nəvəsi) qadına, qadının da anası (nənəsi) və qızı (nəvəsi) kişiyə məhrəm olur. Həmçinin, mütə müddətində qadının bacısı ilə evlənmək, yəni iki bacı ilə eyni vaxtda ailə qurmaq olmaz.

Mütə ilə daimi nikahın əsas fərqləri isə bunlardır:

Yuxarıda deyildiyi kimi, mütə nikahında daimi nikahdan fərqli olaraq, müddət təyin edilir.

Mütə nikahında ərlə arvad bir-birinin varisi olmurlar.

Daimi nikahda kişi qadının yaşayış xərclərini ödəməli olduğu halda, müvəqqəti nikahda kişinin belə bir öhdəliyi yoxdur.

Mütə nikahı cəmiyyətdəki bəzi sosial-əxlaqi problemləri aradan qaldırmağa kömək edir. Belə ki, müəyyən səbəblər (istər maddi, istər sosial, istərsə də psixoloji səbəblər nəzərdə tutulur) üzündən daimi ailə qura bilməyən, buna hazırlığı və imkanı olmayan şəxslərin harama düşməməsi üçün mütədən istifadə etməsinə şəriət icazə verir. Məsələn, ailəsindən uzaqda uzunmüddətli səfərdə olan kişi öz cinsi ehtiyacını ödəmək, eləcə də məişət ehtiyaclarını qarşılamaq üçün həmin yerdə mütə nikahı bağlayır. Həzrət Məhəmməd Peyğəmbərin (s) zamanında hərbi yürüşlər zamanı bu təcrübədən çox istifadə edilirdi. Müasir cəmiyyətdə təhsil, maddi təminat, yaşayış məskəni kimi problemlər üzündən insanlar erkən yaş həddində evlənə bilmir və nəticədə yaşlarını ötürürlər. Bu zaman mütə onlar üçün müvəqqəti olaraq daimi evlilik həyatını əvəz edə bilər.

Mütə nikahının şəriətdə hökmü hər şeydən əvvəl Qurani-kərimin aşağıdakı ayəsinə əsaslanır: «Sahib olduğunuz *(cariyələr)* müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı *(hökmü)* ilə sizə *(haram edildi)*. Bunlardan başqaları isə namusla, zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi. İstifadə etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin! Mehr müəyyən edilidkdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah *(hər şeyi)* biləndir, hikmət sahibidr» *(Nisa, 24)*. Ayədəki «istifadə etdiyiniz» ifadəsi ərəbcə «fəməstəmtətüm» şəklində səslənir ki, bu da «mütə» sözü ilə eyni kökdəndir. *Abdullah ibn Abbas, Übeyy ibn Kəb, Cabir ibn Abdullah Ənsari*, İmran ibn Hüsayn, *Əbu Səid Xüdri, Abdullah ibn Məsud* kimi məşhur səhabələr, tabiindən olan Qətadə, Mücahid, Səid ibn Cübeyr və başqaları yuxarıdakı ayəni məhz mütə (müvəqqəti nikah) kimi təfsir etmişlər. Hətta araşdırma tələb edilən məsələlərdə öz diqqətcilliyi ilə seçilən İmam Fəxr Razi ətraflı tədqiqatdan sonra ayənin həqiqətən, mütə haqqında nazil olduğunu etiraf etmiş, buna qarşı heç bir etirazının olmadığını, sadəcə olaraq bu ayənin hökmünün aradan qalıdırıldığını (*nəsx* olduğunu) bildirmişdir.

Bu ayənin hökmünün hansı yolla və nə zaman aradan qaldırıldığı barədə məlumatlar fərqlidir. Bəzi alimlər mütə hökmünün aşağıdakı Quran ayəsində nəsx olunduğunu iddia etmişlər: «O kəslər ki, ayıb yerlərini *(zinadan)* qoruyub saxlayarlar. Ancaq zövcələri və cariyələri istisna olmaqla» *(Möminun, 5-6; Məaric, 30)*. Bu nəsxin doğruluğu ciddi şübhə altındadır. Çünki mütə ayəsi *(Nisa, 24)* Mədinədə, yuxarıdakı ayələr isə Məkkədə nazil olmuşdur. Əvvəl nazil olan ayə sonra nazil olan ayəni nəsx edə bilməz. Mütə ayəsinin başqa bir neçə ayə ilə nəsx edildiyi barədə də rəvayətlər var; amma bu nəsxlərin də mövcudluğu və düzgünlüyü şübhə altındadır.

Əhli-sünnə alimlərinin böyük əksəriyyəti mütənin Peyğəmbər zamanında *caiz* olduğunu, amma sonra sünnə vasitəsilə *nəsx* (ləğv) edildiyini bildirirlər. Rəvayətlərin bir qismində Peyğəmbərin öz zamanında mütəni ləğv etdiyi göstərilir, bir qisim rəvayətlərdə isə bu qadağanan ikinci xəlifə Ömər ibn Xəttab tərəfindən qoyulduğu bəyan edilir. Əllamə Əmini «əl-Ğədir» kitabında əhli-sünnə mənbələrinə əsaslanaraq, mütə hökmünün sünnə ilə nəsx edildiyi barədə 15 fərqli variant sadalamışdır *(Əbdülhüseyn Əmini. Əl-Ğədir, VI, 225)*.

Bəzi rəvayətlərə görə, mütə hökmü *Xeybərin* fəthində Peyğəmbərin əmri ilə haram edilmişdir *(Səhihül-Buxari, Nikah kitabı, XXXII bab, 5115-ci hədis; Səhihü Müslim, Nikah kitabı, III bab, 3431-ci və 3433-35-ci hədislər; Sünənü İbn Macə, Nikah kitabı, XLIV bab, 1961-ci hədis; Sünənüd-Darimi, 2252-ci hədis və s. mənbələr)*.

Bəzi rəvayətlərə görə, *Hüneyn* qəzvəsi zamanı Ovtas döyüşündən sonra qadağan olunmuşdur *(Səhihü Müslim, Nikah kitabı, III bab, 3418-ci hədis və s. mənbələr)*.

Başqa bir nəzəriyyəyə görə, mütə nikahı Məkkənin fəthində Peyğəmbər tərəfindən nəsx edilmişdir *(Səhihü Müslim, Nikah kitabı, III bab, 3424-cü, 3427-ci və 3428-ci hədislər; Sünənüd-Darimi, 2251-ci hədis və s. mənbələr)*.

Daha bir fikrə görə *vida həccində* qadağan olunmuşdur *(Sünənü İbn Macə, Nikah kitabı, XLIV bab, 1962-ci hədis; Sünənü Əbu Davud, Nikah kitabı, XIII bab, 2072-ci hədis; Sünənüd-Darimi, 2250-ci hədis və s. mənbələr)*.

Bir qisim rəvayətlərə görə isə, mütə nikahı hər dəfədən sonra icazə verilmək şərti ilə 3 və ya 7 dəfə nəsx olmuşdur *(Səhihü Müslim, Nikah kitabı, III bab, 3418-ci hədis; Sünənü İbn Macə, Nikah kitabı, XLIV bab, 1963-cü hədis)*.

Əhli-sünnə məzhəbində geniş yayılmış görüşə görə, mütə nikahı iki dəfə Peyğəmbər tərəfindən qadağan edilmişdir. Bu cür evlilik Xeybər savaşına kimi caiz idi, Xeybər savaşında Peyğəmbər bunu qadağan etdi. Sonra Məkkənin fəthi zamanı müəqqəti olaraq mütəyə icazə verdi, Ovtas (Hüneyn) savaşından 3 gün sonra isə əbədi olaraq haram qıldı.

Göründüyü kimi, Peyğəmbərin sağlığında mütənin qadağan edilməsi barədə məlumatlar çox ziddiyyətli və dolaşıqdır. Rəvayətlər arasındakı ciddi uyğunsuzluq onları səhih qəbul etməyə mane olur. Həmçinin, mütə ayəsini nəsx edən başqa bir ayə yoxdursa, onun sünnə ilə nəsx edilə bilməsi də alimlər tərəfindən birmənalı qarşılanmır. Quran ayəsində qəti bildirilmiş hökmün sünnə vasitəsilə dəyişdirilməsi (nəsx edilməsi) bir çox alimlər tərəfindən mümkün bilinmir; onların fikrincə, ayənin hökmünü yalnız başqa bir ayə aradan qaldıra bilər.

Şiə və sünni mənbələrində çox geniş şəkildə öz əksini tapmış məlumata görə, mütə nikahı Peyğəmbərin və Əbu Bəkrin zamanlarında qüvvədə olmuş, istifadə edilmişdir. Lakin Ömər ibn Xəttab camaatın zinaya düşəcəyindən qorxub mütəni qadağan etmiş və bu qadağana məhəl qoymayanları ağır cəzalandıracağını bildirmişdir. Cabir ibn Abdullah Ənsaridən rəvayət olunmuş çoxsaylı hədislərdə mütəni qadağan edən şəxsin məhz Ömər olduğu bəyan edilir *(Səhihü Müslim, Nikah kitabı, III bab, 3415-ci, 3416-cı və 3417-ci hədislər və s.)*. İmam Əli ibn Əbu Talib (ə) də Ömərin bu qadağanını mənfi qiymətləndirirdi: «Əgər Ömər mütəni qadağan etməsəydi, ən pis insanları çıxmaq şərti ilə heç kim zina etməzdi» *(Təfsirüt-Təbəri, VI, 588, Nisa surəsinin 24-cü ayəsinin təfsiri; Əbdürrəzzaq Sənani. Əl-Müsənnəf, 14029-cu hədis; Müttəqi Hindi. Müntəxəbü Kənzil-ümmal (Müsnədü Əhməd ibn Hənbəlin haşiyəsində nəşr olunub, VI, 405) və s. mənbələr)*.

Beləliklə, mütə haqqında məlumatları ümumiləşdirərək bunları deyə bilərik: bütün İslam məzhəbləri mütənin Peyğəmbər zamanında caiz olduğu barədə fikir birliyinə sahibdirlər. Əhli-sünnə məzhəbləri bundan sonra Peyğəmbərin sağlığında ayə və hədis vasitəsilə mütənin nəsx olduğunu, ya da Ömər ibn Xəttabın ictihadına əsasən haram edildiyini bildirirlər. Şiə məzhəbi baxımından, mütə hökmü heç bir vasitə ilə nəsx olmamışdır və qüvvədədir.

Şiə məzhəbinə görə, mütə mütləq öz şərtləri daxilində yerinə yetirilməlidir ki, etibarlı sayılsın və *zinaya* çevrilməsin. Məsələn, əxlaqsızlıqla davamlı olaraq məşğul olan qadınla, *talaq iddəsi* bitməmiş qadınla mütə nikahı bağlamaq batildir. Unutmaq olmaz ki, mütə hər şeydən əvvəl bir rüxsətdir, yəni çətinliyi aradan qaldırmaq üçün icazə verilən güzəştdir (dörd qadınla evlənmək kimi). Əgər mütə nikahı kişinin daimi nikahdakı xoşbəxtliyini, ailəsinin möhkəmliyini təhlükə altına salarsa, daimi nikahdakı həyat yoldaşı ilə münasibətlərinin gərginləşməsinə səbəb olarsa, bu halda mütə etmək məsləhət görülmür.

N.R.

SİQQƏTÜL-İSLAM

Ərəb dilindən tərcüməsi «İslamın etibarlı şəxsiyyəti» deməkdir. Hal-hazırda bu ləqəb şiə məzhəbli ölkələrin ali dini mədrəsələrində oxuyan və təhsilin ilkin mərhələsində olan tələbələrə verilir və *hüccətül-İslam* rütbəsindən aşağı sayılır. Bütün başqa ruhani rütbələri kimi bu da qeyri-rəsmi bir rütbədir.

Keçmişdə «siqqətül-İslam» ləqəbi əsasən, çox məşhur hədis alimlərinə verilirdi. Məsələn «Əl-Kafi» hədis məcmuəsinin tərtibçisi Şeyx Əbu Cəfər Mühəmməd Küleyni tarixi mənbələrdə siqqətül-İslam kimi xatırlanır. Hədis elmi ilə məşğul olanlarda güclü yaddaş, ədalət, araşdırma bacarığı, doğruculluq vacib xüsusiyyətlərdən sayıldığı üçün, bu sahənin mütəxəssislərinə etibar və güvənc mənasında siqqətül-İslam deyilirdi.

N.R.

SİLEYİ-RƏHİM

Ərəb dilindən tərcümədə «silə» sözü bağlılıq, «rəhim» isə ana bətni mənalarını verir. Yəni sileyi-rəhim qohumların bir-birinə bağlılığı və yaxınlığı kimi mənalandırılır. Dini termin olaraq, qohumlarla rabitə saxlamaq, qohumluq əlaqələrini diri tutmaq, yaxınlarla mütəmadi olaraq hal-əhval tutub görüşmək və onlardan uzaq durmamaq deməkdir. Ziddi «qəti-rəhim» (qohumlarla əlaqəni kəsmək) sözü ilə ifadə edilir.

Həm Quran ayələrində, həm də hədislərdə sileyi-rəhim hər bir müsəlmanın öhdəsində olan əsas vəzifələrdən biri kimi göstərilib. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur ki, sileyi-rəhim dinin bir hissəsidir. İnsan öz qohumunu ziyarət edərkən ibadət etmiş kimi savab qazanır. Qohumlarla rabitəni kəsən, onlardan uzaq qaçan şəxs həm bu dünyada, həm də axirətdə Allahın qəzəbinə düçar olar. Quranın Mühəmməd surəsinin 22-ci ayəsində qohumlarla rabitəni kəsən şəxsin ilahi lənətə düçar olacağı bildirilir. Peyğəmbərimiz buyurmuşdur: «Qiyamət günündə cəhənnəmin üzərindən hamının keçəcəyi *sirat* körpüsü qurulacaq. Körpünün başında duran mələklər insanlardan iki məsələ barədə soruşacaqlar: namaz və sileyi-rəhim. Namaz qılan, qohumlarla rabitəni unutmayan şəxs körpüdən salamat keçər, cəhənnəmə düşməz». Rəvayət edirlər ki, Həzrət Mühəmməd Peyğəmbərdən (s) soruşdular: «Allahı ən çox qəzəbləndirən günah hansıdır?». Peyğəmbər buyurdu: «Allaha şərik qoşmaq». Soruşdular: «Bəs ondan sonra?». Peyğəmbər cavab verdi: «Qohumlarla əlaqəni kəsmək».

Qohumlarla görüşməyə gedərkən onlara bəyəndiklər hədiyyəni aparmağın böyük savabı var. İslam Peyğəmbəri buyurub: «Bir-birinizə hədiyyə verin ki, aranızda sevgi yaransın». Əlbəttə, qonaq gedərkən bahalı hədiyyə almaq vacib deyil. Hər kəs öz maddi imkanını nəzərə alaraq hədiyyə seçməlidir. Hədiyyə almağa imkan yoxdursa, gülər üz, xoş təbəssümlə də qonaq getmək olar. Çünki qohumları ziyarət etməkdən məqsəd onlar üçün hədiyyə aparmaqdan ibarət deyil. Əsas məqsəd könül almaq, qohumluq rabitəsini saxlamaq, bir-birinin sevincinə və kədərinə şərik olmaq, çətin vəziyyətlərdən çıxış yolunu birlikdə axtarmaqdır. Hədislərin birində buyurulur ki, quruca salamla olsa belə, qohumların ziyarətinə gedin. Sileyi-rəhmin faydaları barədə İmam Mühəmməd Baqir (ə) buyurub: «Sileyi-rəhim insanın əməllərini paklaşdırar, mal-dövləti artırar, bəlaları uzaqlaşdırar, qiyamət hesabını asanlaşdırar və əcəli yubadar».

Nəzərə almaq lazımdır ki, çətin vəziyyətə düşmüş, müsibətlə üzləşmiş, xəstələnmiş qohumların təsəlliyə daha çox ehtiyacı olduğu üçün, onların ziyarətinə daha tez-tez getmək lazımdır.

Bir-birinin görüşünə getməyi yalnız qohumlarla məhdudlaşdırmaq olmaz. Qonşulardan, yaxın dostlardan, iş və dərs yoldaşlarından da tez-tez xəbər tutmaq, onlarla mehriban və səmimi əlaqəni qorumaq lazımdır.

N.R.

SİMA (SİMA')

Ərəb dilindən tərcümədə eşitmək deməkdir. Dini termin olaraq, müəyyən avaz və musiqi sədaları altında sufilərin vəcdə gələrək, rəqsəbənzər hərəkətlər etməsinə sima deyilir. Sima bir çox sufi təriqətlərinin xarakterik xüsusiyyətlərindən sayılır və bir təriqət ayini kimi icra olunur. Sima ayini ya ağızda oxunan avaz, ya da ney və sairə musiqi alətlərində ifa olunan melodiyanın sədaları altında yerinə yetirilir.

Sufilərin fikrincə, haqq yolçusunun haqqa doğru *cəzb* olunması, onun malik olduğu *halın* dəyişməsi, *qəlbin* ətalətdən çıxaraq hərəkətə gəlməsi üçün sima əvəzzis rola malikdir. Təsəvvüf aləmində vəcd və şövqün hansı səsdən alınmasına baxmayaraq, bu, sima adlanır. Haqq yolçusu istər azan səsindən, istər Quran tilavətindən, istər külək əsintisindən, istərsə də ney sədasından vəcdə gələrək, simaya hazır ola bilər.

Sufilər deyirlər ki, gözəl avaz körpə uşağı sakitləşdirib yatırdığı kimi, xəstə ürəkləri və incimiş könülləri də aramlaşdırır, onlara şəfa verir. Sima zamanı insanın batinində toplanıb qalmış emosiyalar və hallar (*xovf və rəca*, şadlıq və hüzn, şövq və məhəbbət) gah sevinc, gah da ağlamaq şəklində zahirə çıxır. Simadan insan bədəninin hər bir üzvü özünəməxsus həzz alır və sima hər kəsə bir cür təsir edir: kimini fəryada gətirir, kimini ağladır, kimini oynadır, kimini əl çalmağa məcbur edir, kiminin də huşunu başdan aparır.

Təsəvvüf aləmində hər kəs simaya layiq deyil və əyləncə, kef, ləzzət dalınca qaçanlara sima nəinki fayda verməz, hətta onlara qadağandır. Sədi Şirazi «Bustan»da yazır:

Eşidənin kim olduğunu bilməyincə,
Simanın nə olduğunu deyə bilmərəm.
Əgər eşidənin can quşu məna bürcündən qanadlanarsa,
Mələk belə, onun seyrinə çata bilməz.
Əgər ləhvü-ləb, əyləncə əhlidirsə,
Kefdən daxilindəki div daha da qüvvətlənər.
Gül səhər yelindən solar,
Odunu isə yalnız balta sındırar.
Aləm sima, məstlik və şüurla doludur,
Lakin kor şəxs güzgüdə nə görər?

Təsəvvüflə ilahiyyatı birləşdirməyə çalışan və sufilərlə ruhanilər arasında ziddiyyətləri aradan götürməyə cəhd edən məşhur müsəlman mütəfəkkir İmam Mühəmməd Qəzzali «Kimyayi-səadət» əsərində simaya dini-irfani don geyindirərək yazırdı: «Bil ki, insanın daxilində Allah-təalanın sirri vardır. Atəş dəmirin içində gizli olduğu kimi, bu sirr də qəlbdə gizlidir. Dəmirə daş sürtündükdə atəşin sirri aşkara çıxar və ətrafı yandırar. Eləcə də, simanın xoş avazı insanlıq gövhərini hərəkətə gətirər və insanın özündən ixtiyarsız olaraq daxilindəkiləri üzə çıxarar».

İmam Qəzzali simanı mütləq mənada haram bilənləri zahir əhli və qafil adlandıraraq bu fikri irəli sürür ki, sima üç növdür və uyğun olaraq, hər növün öz hökmü vardır: 1) Qəlbində bəyənilən sifətlər və şəriətə uyğun xüsusiyyətlər olan şəxsə sima müsbət təsir göstərir, həmin xüsusiyyətləri daha da gücləndirir. Bu cür simanın savabı vardır. 2) Hər kimin qəlbində batil vardırsa, sima ilə daha da güclənər və kök salar. Belə sima haramdır. 3) Hər kimin qəlbində bu iki cəhət bərabərdirsə, özü də simaya qulaq asıb öz təbiətinə uyğun şəkildə ləzzət alırsa, onun üçün sima *mübahdır* (icazə veriləndir).

Həmçinin, İmam Qəzzali 5 halda simanı haram hesab edir: 1) Qadının dilindən eşidilərsə, yəni sima avazını qadın oxuyarsa; 2) Musiqi alətlərində (rübab, çəng, bərbət və s.) ifa edilərsə; 3) Simanın sözlərində söyüş, həcv və din əhlinə təhqir olarsa; 4) Simanı eşidən cavandırsa və şəhvət ona qalib gəlib, Allahın yolundan döndərərsə; 5) Avam camaat simanı özünə peşə edib, əyləncə və eyş-işrət vasitəsinə çevirərsə.

Sima zamanı sufilər üç cür hala düşərlər. Bunlara təvacüd, vəcd və vücud deyilir. Təvacüd – bədənin, vəcd – ruhun, vücud – qəlbin simasıdır. Təvacud – ümuma, vəcd – seçilmişlərə, vücud isə seçilmişlərin seçilmişlərinə məxsusdur.

Əksər şəriət alimlərinin simaya münasibəti mənfi olmuşdur. Əksər şəriət alimləri simada istifadə olunan avazları ğina (haram musiqi) hesab etmiş, simanın rəqsəbənzər hərəkətlərini də bidət və haram saymışlar: «Sufilərin siması bütün şiə və sünni fəqihləri tərəfindən haram və şəriətə zidd sayılmışdır. Çünki bu fəqihlərin əksəriyyəti ğinanın zatən haram olduğuna etiqad bəslədiklərindən, şəksiz olaraq, simanı da ğinaya aid hesab etmişlər. Şiə alimlərindən Molla Hadi Səbzəvari və Feyz Kaşani, sünni alimlərindən isə İmam Şafii kimi bəzi məşhur şəxsiyyətlər ğinanın zatən haram olmadığı əqidəsini müdafiə etmiş, ğinanı yalnız günah və fisq məqsədilə istifadə zamanı haram saymışlar *(məsələn, əyləncə alətlərində ifa etmək,*

yalan və batil sözlər oxumaq, qadının kişilər qarşısında uca səslə oxuması və örtüyə riayət etməməsi)» (Davud İlhami. İrfan və təsəvvüf, səh. 290-291).

Hal-hazırda sima bəzi sufi təriqətlərinin atributları sırasında mühüm yer tutur. Məsələn, Türkiyənin Konya şəhərində, Mövlana Cəlaləddin Ruminin məqbərəsi yerləşən kompleksdə *mövləviyyə* təriqətinə mənsub sufilərin sima mərasimləri mütəmadi olaraq təşkil edilir. Bu mərasimlərdə ağ rəngdə xüsusi *xirqə* geyinmiş, ağ, uzun papaq qoymuş sufilər ilahi nəğmələr və ney sədaları altında sima edirlər.

N.R.

SİRAT

Ərəb dilindən tərcüməsi «yol» deməkdir. Lüğət alimləri bu sözün mənşəyini latın dili ilə əlaqələndirirlər. Əllamə Süyuti «əl-İtqan» kitabında yazır ki, «sirat» sözü rum (latın) dilindən götürülüb və mənası yol deməkdir. Abbas Mehrin Şüştəri də «Quran sözlərinin lüğəti» kitabında bu sözün latın dilindəki «strata» (yol) kəlməsindən qaynaqlandığını və ərəb dilinin qaydalarına görə, xarici kəlmə kimi «sad» deyil, «sin» hərfi ilə yazılmalı olduğunu bildirir.

Qurani-kərimdə yol mənasında həm «sirat», həm də *«səbil»* kəlmələri işlədilir. Mərhum Ayətullahül-üzma Seyid Əbül-Qasim Xoyi «əl-Bəyan fi ülumil-Quran» kitabında bu iki sözün fərqini izah edərək yazır ki, «sirat» ərəb diilndə «təriq» sözü kimi ümumi anlamda yol mənasını bildirir. Yəni sirat – insanı öz məqsədinə doğru aparan yoldur. Bu yol həm maddi, həm də mənəvi ola bilər. Məsələn, «Allaha itaət behiştin yoludur», «Ehtiyat nicatın yoludur» və sairə ifadələrdə yol (sirat) mənəvi vasitə mənasında qəbul edilir.

Səbil isə Allahın əmr etdiyi ayrı-ayrı yollardır ki, onların vasitəsilə insan dünya və axirət səadətinə çatır (bax: *səbil*).

Qurani-kərim mətnində «sirat» kəlməsi çox vaxt istiqamətlənmiş yol mənasını verən «siratül-müstəqim» formasında işlədilir. Siratül-müstəqimin bəzi xüsusiyyətləri vardır. Məsələn: bu yolun sonu mütləq mənada xeyirdir; siratül-müstəqimlə irəliləyən adam rahatlıq və arxayınlıq hiss edir; siratül-müstəqim sabitdir, dəyişməzdir, əbədi dəyərlərə bağlıdır.

Qurani-kərimdə «siratül-müstəqim» kəlməsi bir neçə mənada işlədilib. Məsələn: Allahın yolu *(Hud, 56)*; peyğəmbərlərin yolu *(Ya-Sin, 3-4)*; Allaha ibadət *(Ali-İmran, 51)*; İbrahim Peyğəmbərin (ə) hənif (təkallahlılıq) dini *(Ənam, 161)*; Allaha sığınmaq və Ona təvəkkül etmək *(Ali-İmran, 101)*; Həzrət Mühəmməd Peyğəmbərin (s) insanları dəvət etdiyi yol *(Möminun, 73)*; qiyamətə inanmaq *(Zuxruf, 61)* və s. Fatihə surəsinə yazılmış şiə təfsirlərində bildirilir ki, bu surədəki «siratül-müstəqim» ifadəsi Əli ibn Əbu Talibin (ə) imamətini qəbul etməkdir.

İmam Cəfər Sadiq (ə) buyurmuşdur: «Siratül-müstəqim elə bir yoldur ki, insanı Allahı sevməyə və dinə doğru yönəldir, nəfsani istəklərdən, tamahdan uzaqlaşdırır».

Sirat eyni zamanda qiyamət günündə cənnətə gedən yolun üzərində qurulacaq körpünün adıdır. Sirat körpüsünün altında cəhənnəm yerləşir. Beləliklə, cənnətə gedən hər kəsin yolu cəhənnəm üzərindəki körpüdən düşəcək. Hədislərdən məlum olur ki, sirat yolu tükdən nazik, qılıncdan itidir. İnsanlar onun üstündən fərqli sürətlə keçəcəklər. Bəziləri sirat körpüsündən işıq sürəti ilə, bəziləri at sürəti ilə, bəziləri isə adi yerişlə keçərlər. Bəziləri də siratdan sürüşüb bir müddət asılı qalacaqlar və cəhənnəm alovu onları yandıracaq. Kafirlər isə sirat körpüsünün üstündən birbaşa cəhənnəm alovunun içinə yuvarlanacaqlar.

N.R.

SİYƏR

bax: *siyrə.*

SİYRƏ

Ərəb dilindən tərcüməsi «yol, gedişat» deməkdir. Dini termin olaraq, Həzrət Mühəmməd Peyğəmbərin (s) həyat yolundan bəhs edən bioqrafik məzmunlu əsərlərə siyrə deyilir (cəmi «siyər»dir).

Müsəlmanların tarix mövzusunda qələmə aldıqları ilk kitablar məhz siyrə janrında olmuşdur. Siyrələrdə Peyğəmbərin doğumundan başlayaraq vəfatına kimi həyatı araşdırılır, apardığı müharibələr təsvir edilir, o

həzrətlə bağlı (həyat yoldaşları, övladları, yaxın qohumları və səhabələri, hətta atları, silahları və s. barədə) bütün lazımi informasiyalar verilirdi.

İlk mükəmməl siyrənin müəllifi Əbu Abdullah Mühəmməd ibn İshaq Mütəllibi Mədəni sayılır. O, hicri 85-ci (miladi 704-cü) ildə Mədinədə doğulmuş, 30 yaşında Misrə gedib İsgəndəriyyə alimləri ilə görüşmüş, geri qayıdarkən Kufə, əl-Cəzirə, Rey, Yəmən və s. məntəqələrin elm adamlarını ziyarət etmişdi. Bağdaddan keçərkən İbn İshaqı Abbasi xəlifəsi Mənsurla görüşdürürlər. Mənsur öz oğlu və vəliəhdi Mehdidən ötrü Həzrət Adəmdən (ə) öz dövrünə kimi baş vermiş hadisələri əhatə edən bir tarix kitabı yazmağı ona sifariş edir. İbn İshaq xəlifənin sifarişini yerinə yetirir. Lakin kitabın həcminin böyüklüyü Mənsuru narazı salır və o, müəllifə əsəri ixtisar etməyi tapşırır. İbn İshaq kitabı ixtisar edir. Mənsur əsərin ilkin variantını kitabxanaya qoyur, ixtisar olunmuş variantı isə Mehdiyə bağışlayır. Bəziləri İbn İshaqın öz əsərini bundan əvvəl – Misirdə olarkən yazdığını iddia edirlər. İbn İshaq hicri 150-153 (miladi 767-770-ci) illər arasında Bağdadda vəfat etmişdir. Onu İmam Baqirlə (ə) İmam Sadiqin (ə) səhabələrindən hesab edirlər.

İbn İshaqın kitabını təqribən 50 ildən sonra Əbu Mühəmməd Əbdülməlik ibn Hişam Himyəri (vəf. miladi 828-ci və ya 833-cü il) adlı bir tarix alimi yenidən işləmişdir. Bəsrədə doğulub, sonralar Misrə köçən İbn Hişam ərəb qrammatikasını və *ənsab* elmini (qəbilələrin əsil-nəsəbi və qolları barədə elm) mükəmməl mənimsəmişdi. O, İbn İshaqın kitabından Peyğəmbərin həyatına aid olan bölümü götürərək, bəzi mövcud qeyri-dəqiqlikləri islah etdi, artıq bildiyi hissələri əsərdən çıxarıb, lazım olan yerlərə öz əlavələrini artırdı. Beləliklə, İbn İshaqın kitabından xeyli fərqlənən yeni bir əsər meydana gəldi. Bu kitab tarixə İbn Hişamın «əs-Siyrətünnəbəviyyə» (Peyğəmbərin həyatı) əsəri kimi daxil oldu.

Sonrakı dövrlərdə də müsəlman alimləri tərəfindən siyrələr yazılmışdır (məsələn: İbn Hibbanın «əs-Siyrətün nəbəviyyə və əxbarül-xüləfa» kitabı və s.).

N.R.

SUFİ

Təsəvvüf xadimi, özünü *irfana*, ibadətə həsr etmiş, zahidanə həyat tərzi sürən insan. «Sufi» sözünün mənası və kökü barədə müxtəlif nəzəriyyələr mövcuddur.

Bəziləri «sufi» sözünün «səfa» kökündən qaynaqlandığını bildirmişlər. Bu fikrə görə, sufinin qəlbi batini səfaya (təmizlik və gözəlliyə) malik olduğundan, ona bu ad verilib.

Bəziləri «sufi» sözünün kökündə «səff» (cərgə, səf) kəlməsinin durduğunu söyləmişlər. Guya sufi Allaha hamıdan artıq yaxındır və onun hüzurunda, bəndələrin lap ilk cərgəsində qərar tutub.

«Sufi» sözünü sufan (yaxud sufanə) adlı əncirə bənzər meyvəsi olan səhra bitkisi ilə də əlaqələndirənlər var. Onların əqidəsincə, sufilər bu bitkinin meyvəsi ilə kifayətləndikləri üçün, belə adlandırılmışlar.

Bir nəzəriyyəyə görə, cahiliyyə dövründə Kəbənin xidmətçilərinə bəni-sufə deyilirdi. Qövs ibn Mürrə Təmiminin nəslindən olan bu dəstə Kəbədə yerinə yetirilən ibadətlərə başçılıq edirdi. Həcc mövsümü zamanı Kəbəni ziyarətə gələn şəxslərin *Ərəfat* istiqamətindən *Minaya*, oradan da Məkkəyə daxil ola bilməsi üçün bəni-sufə başçısının icazəsi tələb olunurdu. Ərəb dilindən tərcümədə suf – heyvanın bədənindəki yuna deyilir. Heyvanın yunu dərisinə yapışdığı kimi, Kəbə xidmətçiləri də Kəbənin divarlarından və örtüyündən tutaraq ibadət etdikləri üçün, onlara suf» deyilirdi *(Rağib İsfahani. Əl-Müfrədat, «suf» kökü)*. Bu nəzəriyyəyə görə, sufilər də Allaha ibadət və pərəstişdə özlərini həmin Kəbə xidmətçilərinə bənzədirdilər, buna görə özlərinə sufi ləqəbini götürmüşdülər.

«Sufi» sözünün kökü barədə nəzəriyyələrdən biri də budur ki, bu söz *süffə əhli* anlayışından törəmişdir. Deyilənlərə görə, sufilər də süffə əhli kimi dünya işlərinə etina göstərməyib, axirət işləri ilə məşğul olduqlarına, ev və sərvətdən özlərini ehtiyacsız bildiklərinə, birlikdə mehriban yaşadıqlarına, əldə etdikləri hər şeyi öz aralarında tən böldüklərinə görə, onlara «əhlüs-süffə» sözü ilə səsləşən ad verilmişdir.

Lakin müasir tədqiqatçıların əksəriyyətinin fikrincə, nəzəriyyələrin heç biri tam qüvvətli deyildir; bunların çoxusu sırf lüğəvi

nöqteyi-nəzərdən düzgün sayılmır. «Sufi» sözünün «səff», «səfa», «süffə» köklərindən yarandığını iddia etmək ərəb dili qaydalarına ziddir. Çünki bu sözlərə mənsubiyyət bildirən «i» hərfi artırılarsa, «səffi», «səfai» və «süffi» şəklinə düşər.

«Sufi» sözünün etimologiyası barədə Əbu Reyhan Biruninin fikri xüsusilə maraqlıdır. O, «sufi» sözünün ərəb mənşəli olmadığını və yunan dilindən mənimsənildiyini iddia edirdi. Biruninin fikrincə, sözün kökündə yunan dilindən tərcümədə elm və hikmət mənasını verən «sofiya» ifadəsi durur. (Qeyd edək ki, «filosof» sözü də yunan mənşəlidir və elmsevər mənasını verir).

Bəziləri «sufi» sözünün nə ərəb, nə də əcnəbi mənşəli olduğunu söyləmişlər. Məsələn, irfan və təsəvvüf mövzusunda ən məşhur mənbələrdən sayılan «Risaleyi-Quşeyriyyə»nin müəllifi Əbül-Qasim Quşeyri bu kəlmənin heç bir dildə kökünü müəyyən elə bilməmişdir. Əbül-Həsən Qəznəvi isə «Kəşfül-məhcub» əsərində yazır ki, «sufi» sözü heç bir kökün əhatə edə bilməyəcəyi qədər böyük mənaya malikdir.

Sufilik mövzusuna toxunmuş müəlliflərin əksəriyyətinin fikrincə, «sufi» – ərəb dilindən tərcümədə yun mənasını bildirən «suf» sözündən yaranmışdır və yun geyim geyinən deməkdir. Qurani-kərimin Nəhl surəsinin 80-ci ayəsində bu söz cəm şəklində («əsvafiha») işlənmişdir.

Sufilərə ona görə bu ad verilib ki, onlar bəzəkli və rahat geyimlərdən imtina edir, heyvan yunundan toxunmuş kobud, qaba paltar geyinirdilər. Bu, onların dünyaya və dünya nemətlərinə arxa çevirmələrinin rəmzi idi. Həm də yun paltar sufilərin Allahı dərk etmək və ona yetmək üçün zəruri vasitə hesab etdikləri *riyazətin* (bədəni ləzzətlərdən məhrum edən və ona əziyyətlər verən təmrinlər sistemi) tərkib hissəsi idi.

Əbu Nəsr Sirac Tusi «Əl-Lümə fit-təsəvvüf» əsərində yazır: «Kim isə soruşa bilər ki, hər təbəqəni öz vəziyyətinə, ya da ona məxsus olan elmi adına uyğun olaraq adlandırdığın halda (məsələn, hədis əhlini «mühəddis», fiqh alimini «fəqih», zöhd əhlini «zahid» adlandırırlar), niyə sufiləri müəyyən bir hal və elmə nisbət vermirsən və sadəcə olaraq «sufi» adlandırırsan? Bu suala cavab olaraq deyirəm ki, sufilər yalnız bir elmin sahibi, yalnız bir hal və məqamın maliki deyillər. Əksinə, onlar bütün mənəvi elmlərin qaynağı, halların məcmusu, keçmişdəkilərin gözəl əxlaqının məzhəridirlər. Onlar ilahi mahiyyət sayəsində bir haldan digərinə keçməkdə və daim daha gözəl məqama doğru tələsməkdədirlər. Halları beləcə dəyişkən olan və daim tərəqqi edən şəxslərin, bu halların yalnız biri ilə adlandırılması düzgün olmaz. Mən də onları sadəcə bir hal və məqamla məhdudlaşdırmamaq üçün bu halların biri ilə adlandırmaqdan çəkindim. Çünki əgər onları malik olduqları hal, məqam, elm və əxlaqa uyğun olaraq adlandırsaydım, hər vaxt fərqli adlarla adlandırmalı idim. Buna görə də onların zahirini adlarının meyarı kimi qəbul edib, «sufi» adlandırdım. Ona görə ki, onlar yun paltar geyinirlər; yun geyinmək isə Peyğəmbərin, *siddiqlərin* (doğrucuların), *həvarilərin* və *zahidlərin* dəbidir».

Sufilər yun paltar geyinmək dəbini peyğəmbərlərdən, imamlardan və övliyalardan mənimsədiklərini iddia edirdilər. Rəvayətlərə görə Həzrət Musa (ə) və Həzrət İsa (ə) yun geyinirmişlər. Yenə «Əl-Lümə fit-təsəvvüf» kitabında deyilir ki, İsa Peyğəmbərin (ə) köməkçilərinə, geyindikləri ağ rəngli geyimin adı ilə «həvarilər» deyirmişlər. Həmçinin, bir çox sufi mənbələrində (məsələn, Sührəvərdinin «Əvarifül-məarif» kitabında) məşhur səhabə Ənəs ibn Malikdən rəvayət edilmişdir ki, Allahın Rəsulu bəndələrin dəvətini qəbul edər, uzunqulağın tərkində gəzər və yun geyinərdi. Həzrət Mühəmməd Peyğəmbərdən (s) nəql olunan aşağıdakı hədislər də sufilərin yun geyinmə dəbini əsaslandırmalarına imkan verirdi: «Yun paltar geyinin və doyunca yeməyin; bu yolla asimanın ən uca nöqtəsinə *(mələkuta)* yol taparsınız». «Yun paltar geyinin ki, imanın şirinliyini dada biləsiniz. Az yeyin ki, axirətdə *(fəzilətinizlə)* tanınasınız. Yuna baxmaq insanda təfəkkür yaradar, təfəkkürdən hikmət doğar, nəticədə hikmət qan kimi damarlarınızda axar *(yəni, hikmət bütün vücudunuza sirayət edər)*».

Yenə Peyğəmbərdən rəvayət etmişlər ki, buyurub: «Ölənə kimi beş xasiyyətdən əl

çəkmərəm: kölələrin əhatəsində çörək yemək, uzunqulağa süvar olmaq, öz əllərimlə keçinin südünü sağmaq, yun paltar geyinmək və uşaqlara salam vermək. İstəyirəm ki, bunlar məndən sonra sünnə *(dəb)* olsun».

Hədislərdə deyilir ki, İmam Cəfər Sadiq (ə) kobud parçadan tikilmiş köynəyin üstündən yun cübbə (üst geyimi) geyinərdi və deyərdi: «Atam da belə geyinirdi. Biz namaz qılanda ən kobud parçadan köynək geyirik» *(Hədislər Əllamə Təbrisinin «Məkarimül-əxlaq» kitabındandır).*

Lüğəti mənalarından əlavə, «sufi» sözünü rəmzlər vasitəsilə izah etmək cəhdləri də olmuşdur. Ehtimala görə, Cüneyd Bağdadiyə aid edilən bir xəbərdə deyilir ki, «sufi» sözü «suf» kökündəndir. «Suf» isə üç hərfdən ibarətdir. «Sad» hərfi səbir, sidq və səfanın, «vav» hərfi vədd (dostluq, məhəbbət), *vird* (zikr) və vəfanın, «fa» hərfi isə fərd (tənhalıq), *fəqr* və *fənanın* rəmzidir. Göründüyü kimi, bu sifətlərin hər biri Allaha doğru uzanan yolun yolçusuna gərəkən xüsusiyyətdir və əslində sufiliyin məğzini göstərir.

Sufiliyin bəzi tədqiqatçıları isə «sufi» sözünün mənşəyini «suf» (yun) kəlməsi ilə əlaqələndirsələr də, onun qeyri-ərəb millətlər tərəfindən yaradıldığını bildirirlər. Onların fikrincə, yun paltar geyinmiş şəxsə sufi deyilməsi ərəb dili qaydaları baxımından düzgün deyildir. «Ya» hərfi bir kəsin əsil-nəsəbini, hansı məkana mənsub olduğunu və peşəsini göstərir, geyim adına «ya» hərfini artırmaq isə doğru olmaz. Fəsahətli və bəlağətli ərəb dilində «sufi» adı ya yun ticarəti ilə məşğul olan tacirə, ya da «suf» (yaxud «sufə») adlı məntəqəyə mənsub olan şəxsə deyilə bilər, yun geyinmiş adama yox. Başqa dillərdə isə belə incəliklər yoxdur və ərəb dilini mənimsəmiş əcnəbi millət nümayəndələri bunlara əhəmiyyət vermirlər. Ona görə də ehtimal olunur ki, İslam dini *əcəm* torpaqlarına yayıldıqdan sonra, əslən fars millətindən olanlar «sufi» sözünü meydana gətirmişlər. Bu nəzəriyyəyə görə, «sufi» sözü ərəb dilinə farslar tərəfindən gətirilmişdir *(Seyid Cəfər Səccadi. İrfani söz, termin və ifadələr lüğəti, səh. 543-544).*

«Sufi» sözünün nə zamandan bəri işlədildiyi barədə də fikir ayrılıqları vardır. Bəziləri «sufi» ifadəsinin tarixini hicri I əsrin sonu – hicri II əsrin əvvələrinə (miladi VIII əsrin birinci yarısı) aid edirlər. Çünki məşhur filosof Həsən Bəsrinin dilindən nəql olunan bəzi xəbərlərdə «sufi» sözünə rast gəlinir. Lakin mütəxəssislərin əksəriyyəti bu xəbərləri mötəbər saymır.

Daha geniş nəzəriyyəyə görə, ilk dəfə «sufi» ləqəbi ilə tanınmış şəxslər hicri II (miladi VIII) əsrdə yaşamış Əbu Haşim Kufi və məşhur kimyaçı Cabir ibn Həyyan olmuşlar. Məşhur müsəlman tarixçi və sosioloqu İbn Xəldun da sufi anlayışının həmin dövrdən etibarən məlum olduğunu qeyd etmişdir.

Yazılı şəkildə «sufi» kəlməsinə ilk dəfə görkəmli ərəb ədibi Cahizin «Əl-Bəyan vət-təbyin» əsərində rast gəlinir ki, bu ləqəbi Əbu Haşim Kufiyə aid etmişdir. Bəzilərinin fikrincə, ilk dəfə «sufi» adı ilə tanınmış şəxs hicri 210-cu ildə (miladi 825-826-cı illər) Bağdadda vəfat etmiş Əbdək əs-Sufi olmuşdur. Hər halda, bəzi nadir xəbərləri istisna etmək şərti ilə, əksər alimlər «sufi» terminin hicri II əsrdən əvvəl məlum olmadığını qətiyyətlə bildirmişlər.

Sufilik mövzusunda qədim mənbələrdən sayılan «Təlbisi-İblis» kitabında İbn Cövzi yazır: ««Sufi» sözü hicri 200-cü ildən azacıq əvvəl yaranıb. Həzrət Peyğəmbərin dövründə insanlara ləqəb qoşarkən, ilk növbədə İslama və imana aid edir, «müslim» və «mömin» deyirdilər. Sonra «zahid» və «abid» adları meydana çıxdı. Daha sonra bir dəstə yarandı ki, zahidliyə və Kəbəyə bağlılıqlarının çoxluğundan dünyadan uzaqlaşdılar, özlərini tamamilə ibadətə həsr etdilər və xüsusi bir təriqət (yol) yaratdılar».

Burada bir məsələyə diqqət yetirmək yerinə düşər. «Sufi» sözünün tarixdə gec göründüyünü əldə əsas tutanlar bu cərəyanı sonradan yaradılıb İslama əlavə olunmuş hesab edirlər. Lakin əksər təsəvvüf tədqiqatçılarının fikrincə, sufilik – bəşər tarixi boyunca peyğəmbərlərin, Allah dostlarının yaşadığı bir həyat tərzidir. Sufilik kənardan götürülmüş bir şey deyildir. Əsl İslam qanunlarına uyğun olan və Allahın insandan tələb etdiyi həyat tərzi elə təsəvvüf həyatı deməkdir. Təsəvvüf keçmiş peyğəmbərlərin

zamanında olduğu kimi, Həzrət Mühəmməd Peyğəmbərin (s) dövründə də mövcud olmuşdur. Peyğəmbərimizin özü, yaxın səhabələri klassik təsəvvüf normalarına uyğun bir həyat yaşamışlar. Çünki Allahın şəriətindən kənarda təsəvvüf yoxdur.

Sadəcə olaraq, «təsəvvüf» və «sufi» kəlmələrinin özu sonradan meydana çıxmışdır. Ümumiyyətlə, heç bir elm yarandığı anda ada malik olmur, üstündən uzun müddət keçdikdən sonra, tarixin süzgəcindən süzülərək, həmin elmə ad verilir. İslam təsəvvüfü də beləcə, hicri II əsrin sonlarına qədər adsız «fəaliyyət göstərmiş», sonradan ona bu ad verilmişdir.

Sufi obrazının mahiyyətini məşhur sufilərin öz baxışında izləmək də maraqlı olar. Aşağıda əsl sufinin xüsusiyyətləri barədə böyük təsəvvüf xadimlərinin fikirlərindən nümunələr verilir: «Doğrucul sufinin əlaməti budur ki, dövlət qazandıqdan sonra dərviş *(miskin, kasıb)* olsun, əzizlikdən sonra xar, məşhurluqdan sonra gizli olsun» *(Əbu Həmzə Bağdadi)*. «Sufi odur ki, öz canını qisasdan *(qanbahasından)* azad saysın, öz əmlakını camaata halal bilsin» *(Səhl ibn Abdullah Şüştəri)*. «Onlar Allahı hər şeydən üstün bilərlər, Allah da onları hamıdan üstün bilər» *(Zünnun Misri)*.

Sufiliyin özü kimi, «sufi» sözü də tarix boyunca enişli-yoxuşlu yol keçmişdir. Bəzən bu söz müsəlmanların ən yüksək mənəviyyatlı təbəqəsinə aid edilmiş, bəzən isə mənfi məna ifadə etmişdir. «Sufi» sözünün mənfi çalar qazanmasının səbəbi, sufilik daxilində bu aləmdən çox-çox uzaq olan mənfi ünsürlərin ortaya çıxmasıdır. Zaman keçdikcə bu cür şəxslər sufilik pərdəsinə bürünərək, fırıldaqçılıqla, tüfeyli həyat tərzi sürməklə məşğul olmağa, insanları tərəqqidən, elmdən uzaq salmağa başladılar. Hətta yun paltar geyinmək adəti bəzi sufilərin əlində özünü göstərmək və zahidliyi nümayiş etdirmək vasitəsinə çevrildi. Tədricən mütərəqqi fikirli sufilərin özləri belə, yun paltar geyinmək adətindən əl çəkməyə başladılar. Nəhayət, hicri VI-VII (miladi XII-XIII) əsrlərdən başlayaraq, sufi ədəbiyyatında yun paltar geyinən, gününü moizə və nəsihətlə keçirən, əslində isə dünyapərəst olan sufi obrazı mənfi surətə çevrildi. Bu obraz xudpəsəndlik edir, öz geymini, yeməyini və yaşayış tərzini camaatın gözünə soxurdu, onun əsl ariflərə məxsus *bəsirətdən*, ilahi maarifdən, şövq və vəcddən xəbəri yox idi.

Hafiz Şirazi belə zahirpərəst sufini ov tutmaq üçün tələ qurmuş hiyləgər və hoqqabaz ovçuya bənzədir. Lakin ovçu özü də bilmir ki, fələk onun bütün hiylələrini puç edib, camaat qarşısında rüsvay vəziyyətə salacaq. Hafiz qəzəllərinin birində belə deyir:

Ayağa dur, sufilərin xirqəsini *(geyimini)* xərabata *(əsl ariflərin məskəninə)* aparaq.

Şəthiyyat və tamatı *(sufilərin vəcd halında dedikləri anlaşılmaz söz və ibarələri)* xurafat bazarına aparaq.

Mövlana Cəlaləddin Rumi «Məsnəvi»nin ikinci dəftərində, «Sufilərin simadan ötrü qonağın uzunqulağını oğurlayıb satmaqları» əhvalatında xanəgahda məskunlaşmış sufilərin hiyləgərliyini və onlara kor-koranə inanmış qərib sufinin avamlığını təsvir edir.

Məşhur Azərbaycan şairi Seyid İmadəddin Nəsimi də öz qəzəllərində haqqı dərk etməyən və zahirə qapılan sufiləri tənqid atəşinə tuturdu:

Cami-müsəffadən mənə saqi içirdi bir qədəh,
Sufi nə bilsin mən necə ol camdən buldum səfa!

Yaxud:

Eyləmişsən surəti-sufiliyi dükkani-kəsb,
Bundan özgə var isə göstər, kəramatın nədir?

Bəzi mütərəqqi sufilər və ariflər belə mənfi təzahürlərə etiraz əlaməti olaraq, yun paltardan, xirqədən imtina edirdilər. Rəvayətlərə görə, Cüneyd Bağdadi ruhani libası geyinir, zahirpərəst sufilər kimi geyinməməsinin səbəbi soruşulanda deyirdi: «Əgər bilsəm ki, sadə paltar geyinməklə iş düzələr, dəmirdən və oddan özümə paltar tikib geyinərdim. Amma həmişə öz içimdən bu nidanı eşidirəm ki, Allah yanında etibar qazanmağın yolu xirqə geyinmək yox, onun məhəbbətində yanmaqdır» *(Fəridəddin Əttarın «Təzkirətül-övliya» əsərindən)*.

Sufilik pərdəsinə bürünmüş bəzi cahillərin nöqsan və inhiraflarını tənqid edən İbn Cövzi «Təlbisi-İblis» əsərində Ənəs ibn Malikə istinadən Peyğəmbərin bu hədisini qeyd edir: «Camaatın onu tanıması xatirinə yun

paltar geyinən adama Allah-təala qoturluq paltarı geyindirər, bədənindən ətini tökər». Abdullah ibn Abbas isə Peyğəmbərdən bu hədisi rəvayət edib: «Riya məqsədilə yun paltar geyinən adamın əlindən yer Allahın dərgahına şikayət edər».

N.R.

SUR

Qiyamət günündə dörd böyük mələkdən biri olan *İsrafilin* üfürəcəyi şeypura bənzər alət. Qurani-kərimdə surun mahiyyəti haqqında heç bir məlumat verilmir. Yalnız bu bildirilir ki, sur çalınacağı gün Allahın istədiklərindən (*müqərrəb mələklərdən*, yaxud Allahın yanında həmişə diri olan şəhidlərdən) başqa, göylərdə və yerdə olanlar (bütün canlılar) dəhşətə gələr və onların hamısı Allahın hüzuruna müti vəziyyətdə toplaşarlar. Sura üfürülmə 3 dəfə olacaq. Birinci üfürmədə qorxu və dəhşətdən bütün məxluqat sarsılacaq. İkinci üfürmədə bütün kainat alt-üst olacaq, bütün canlılar öləcək. Üçüncü üfürmədən sonra isə bütün ölülərin ruhları bədənlərinə girəcək və onların hamısı diriləcək. Bundan sonra isə *məhşər* hadisələri (hesab, *mizan*, *sirat*, cənnət və cəhənnəm) baş verəcək.

R.M.

SURƏ

Ərəb dilindən tərcümədə «yüksək məqam, üstün dərəcə, şan-şərəf, binanın mərtəbələri» kimi mənaları ifadə edir. Dini termin kimi ayrı-ayrı ayələrdən ibarət olan, əvvələ və sona malik müstəqil Quran bölməsi surə adlanır. Quranda 114 surə var. Bunların ən qısası 3 ayədən ibarət olan Kövsər surəsi, ən uzunu isə 286 ayədən ibarət olan Bəqərə surəsidir.

Surələrin adı onların içində xatırlanan şəxslərin və haqqında danışılan cəmiyyətlərin adından və ya əhatə etdikləri mövzulardan, yaxud bəzi surələrin əvvəlindəki *müqəttə hərflərindən* götürülüb. Surələrə Allah tərəfindənmi, yoxsa müsəlmanlar tərəfindənmi ad verilməsi barədə fikir ayrılığı vardır. Lakin bu adların insanlar (Peyğəmbər və ilk müsəlmanlar) tərəfindən verildiyini qəbul etmək daha düzgündür. Çünki bəzi surələrin birdən çox adı var, Fatihə surəsinin iyirmiyə qədər adı məlumdur.

M.İ.

SÜBH NAMAZI

Sübh erkən dan yerinin ağarmasından Günəşin doğmasına qədər davam edən müddətdə qılınan iki rükət *fərz* namaz. Sübh namazında qiraət (surələrin oxunuşu) *cəhrlə* (uca səslə) yerinə yetirilir (cəfəri məzhəbində bu vacib, əhli-sünnə məzhəbində sünnətdir). Əhli-sünnə məzhəbinə görə, sübh namazından əvvəl iki rükətlik sünnə namazı da qılınır. Ən fəzilətli sünnə namazı, sübh namazının iki rükətlik sünnəsidir. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Sübh namazının iki rükət sünnəsi dünyadan və onun içindəki hər şeydən daha xeyirlidir». Cəfəri məzhəbində də sübh namazından əvvəl iki rükət *nafilə* namazı qılınması müstəhəbdir.

A.Q.

SÜBUTİYYƏ SİFƏTLƏRİ

Allahın sifətlərindən (xüsusiyyətlərindən) bir qrupu. *Səlbiyyə sifətlərinin* ziddi kimi təsnif edilir. Bunlar Allahın elə sifətləridir ki, onların Allahda olması vacibdir. Allah sübutiyyə sifətlərsiz mövcud ola bilməz.

Sübutiyyə sifətlərinin sayı və adı barədə istər şiə və sünni məzhəbləri arasında, istərsə də, eyni məzhəbin daxilində bəzi fərqlər mövcuddur. Geniş qəbul edilmiş təsnifata əsasən, Allahın əsas sübutiyyə sifətləri bunlardan ibarətdir:

*1. **Allah diridir (həyat).***

Qurani-kərimdə buyurulur: «Ölməz, həmişə diri olana *(Allaha)* bel bağla və Onu həmd-səna ilə təqdis et!» *(Fürqan, 58)*. Allah nəinki yalnız diridir; o, həm də bütün varlığı və diriliyi yaradandır.

*2. **Allah yaradıcıdır və qadirdir (təkvin və qüdrət).***

Allah-təala lazım bildiyi hər şeyi yaradıb. Özü də, kainatda hər şey gözəl bir qanun əsasında, kamil şəkildə, öz miqdarında, nizam-intizamla yaradılıb. Quranda bu barədə buyurur: «Şübhəsiz, biz hər şeyi müəyyən ölçüdə *(lazım olduğu qədər)* yaratdıq» *(Qəmər, 49)*.

Allah-təala insanın ağlına gələn və gəlməyən, insanın bacardığı və bacarmadığı, asan və çətin, böyük və kiçik işlərin hamısına qadirdir: «Göylərdə və yerdə Allahı aciz edə biləcək heç bir şey yoxdur. Həqiqətən, O, *(hər şeyi)* biləndir, *(hər şeyə)* qadirdir» *(Fatir, 44)*. Quranda 40 dəfədən artıq bu ifadə işlədilib: «Allah hər şeyə qadirdir».

3. ***Allah hər şeyi bilir (elm).***

Allah hər şeyi bilir və hər şeydən xəbərdardır. Axı, yaradıcı öz yaratdığını mükəmməl şəkildə bilməli və tanımalıdır. Quranikərimdə buyurulur: «Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz» *(Yunus, 61)*. Allah öz elmini heç yerdən və heç kimdən öyrənməyib.

4. ***Allah iradə sahibidir (mürid).***

Allah-təala *iradə* sahibidir. Nəyi necə və nə zaman yaratmaq, etmək Allahın özündən asılıdır. İnsandan fərqli olaraq, Allah müəyyən bir işi görərkən əvvəlcə düşünüb-daşınmır, ölçüb-biçmir, hazırlaşmır. Allah hər hansı bir şeyi yaratmaq istəyirsə, bunu iradə edir və həmin şey yaranır: «Bir şey *(yaratmaq)* istədiyi zaman *(Allahın)* buyurduğu ona ancaq: «Ol!» – deməkdir; o da dərhal olar» *(Ya-Sin, 82)*.

5. ***Allah danışandır (kəlam).***

Allah bəzi peyğəmbərlərlə danışıb. Peyğəmbərlər Allahın sözlərini bəzən mələkdən (Həzrət Mühəmməd Peyğəmbər (s) kimi *Cəbraildən*), bəzən isə cansız əşyalardan (Həzrət Musa Peyğəmbər (ə) kimi yanan ağacdan) eşidiblər. Amma insandan fərqli olaraq, Allah sözləri ağız, dil, dodaq vasitəsilə tələffüz etmir, çünki Allah cism deyil və bədənə ehtiyacı yoxdur. O, sözlərin yaranmasını iradə edir və sözlər yaranaraq səs şəklinə düşür.

6. ***Allah doğruculdur (sadiq).***

Allah heç zaman yalan söyləməyib, çünki yalançılıq Onun kamilliyinə ziddir. İki məqsəd naminə yalan danışırlar: ya mənfəət qazanmaq, ya da təhlükəni qovmaq üçün. Halbuki Allahın mənfəət qazanmağa ehtiyacı, təhlükədən qorxusu yoxdur. Demək, Onun yalana əl atması üçün heç bir səbəb yoxdur. Allahın öz peyğəmbərlərinə göndərdiyi *vəhy*, endirdiyi *səmavi kitablar*, söylədiyi kəlamlar sırf həqiqətdir, hər cür yalandan, böhtan və iftiradan uzaqdır. Qurani-kərimdə buyurulur: «Allahdan daha doğru danışan kim ola bilər?» *(Nisa, 87)*.

7. ***Allah hər şeyi eşidən və görəndir (səmi və bəsir).***

Allah gözsüz görən, qulaqsız eşidəndir. Qurani-kərimdə Allah səmi (hər şeyi eşidən) və bəsir (hər şeyi görən) sifətləri ilə adlandırılıb.

8. ***Allah ədalətlidir (ədalət).***

Ədalət Allah-təalanın ayrılmaz sifətidir. Allahın ədalətsiz olduğunu təsəvvür etmək mümkün deyil. Onun bütün sifətlərində və yaratdığı şeylərdə ədalət var. Quranda buyurulur: «Həqiqətən Allah *(heç kəsə)* zərrə qədər zülm etməz» *(Nisa, 40)*.

N.R.

SÜNNƏ

Ərəb dilindən tərcüməsi «yol, adət, ənənə» deməkdir. Həzrət Mühəmməd Peyğəmbərin (s) həyat yolunun, hərəkətlərinin və davranış tərzinin məcmusuna deyilir. Hədisşünaslara görə, Peyğəmbərin hər bir sözü, əməli, davranışı, sükutla ifadə etdiyi razılığı (təqrir) sünnədən sayılır. Hətta Həzrət Mühəmmədə (s) peyğəmbərlik verilməzdən öncəki söz və hərəkətləri də sünnəyə daxildir.

Şəriət hökmlərinin əsaslandırıldığı ikinci ana mənbə olmaq etibarilə, Peyğəmbərin sünnəsi Quranın hökmlərini açıqladığı üçün böyük əhəmiyyət kəsb edir. Sünnə Quran ayələrinin daha asan anlaşılmasına yardım edir. Məsələn, Quranın bir neçə ayəsində bildirilən «namaz qılın» əmrini Həzrət Mühəmməd Peyğəmbər (s) bu şəkildə izah etmişdir: «Mənim qıldığım kimi namaz qılın!» *(Səhihül-Buxari, Kitabül-azan, XVIII bab, 631-ci hədis)*.

Bununla yanaşı, sünnə həm Quranda olmayan mövzulara toxunmuş, həm də Quranda qısa şəkildə bildirilən məsələlərə əlavələr gətirmişdir. Məsələn, kişinin eyni zamanda iki bacı ilə evlənməsini haram bilən ayənin *(Nisa, 23)* hökmunü sünnə daha da genişləndirir. Belə ki, Həzrət Mühəmməd Peyğəmbər (s) kişinin öz həyat yoldaşı ilə eyni vaxtda onun xalası və ya bibisi ilə də nikahda olmasını haram etmişdir. (Bu, əhlisünnə məzhəbinin yanaşma tərzidir. Cəfəri məzhəbinə görə, kişi öz həyat yoldaşı ilə

eyni vaxtda onun bibisi və xalası ilə də evlənə bilər. Lakin bunun əksi olan halda haram hökmü qadının icazəsinə bağlıdır. Yəni əgər kişi öz həyat yoldaşı ilə eyni vaxtda onun bacısı qızı və ya qardaşı qızı ilə evlənmək istəsə, qadından icazə almalıdır; qadın icazə verdiyi təqdirdə bu izdivac səhih sayılır).

Cəfəri məzhəbində sünnə daha geniş məfhumu ifadə edir. On iki imamın sözləri də Həzrət Mühəmməd Peyğəmbərin (s) sözləri ilə eyni qüvvəyə malikdir (bax: *hədis*). Çünki imamların hər bir sözü Peyğəmbərin mirası olan sünnəyə əsaslanır. Şiəliyin *əxbari* qoluna görə, *ictihad* səlahiyyəti yalnız imama məxsusdur, XII İmamın zühuruna qədər ümmət ancaq Quran ayələrinin və imamlardan rəvayət edilən hədislərin hökmünə (yəni sünnəyə) əməl etməlidir. Şiəliyin üsuli qolunun görüşünə görə, imamların bəzi hədisləri də *təvilə* (yozuma) ehtiyaclıdır; buna görə də ictihad dərəcəsinə çatmış hər kəs Qurani və sünnəni açıqlamaq üçün ictihad edə bilər.

Ə.N.

SÜNNƏTULLAH

Ərəb dilindən tərcümədə Allahın yolu, yəni kainatı idarə etmək üçün Allahın qoyduğu qanun mənasını verir. Kainatda meydana gələn bütün hadisələr Allahın qoyduğu bu qanuna uyğun olaraq baş verir. Bu qanun kainatın yaradıldığı vaxtdan qiyamətə qədər qüvvədə olacaq. Bütün canlıların doğulub böyüməsi və ölməsi, alovun yandırması, suyun söndürücü olması və s. xüsusiyyətlər sünnətullahdan adi hal olaraq görünən bütün hadisələr əslində Allahın qoyduğu qanunların nəticəsidir. Bu qanunda heç bir dəyişiklik olmaz. Lakin Allah istədiyi vaxt bəzi fövqəladə hadisələri meydana gətirməyə qadirdir.

R.M.

S

ŞAHİD

bax: *şəhadət*.

ŞEYX

Ərəb dilində öndər, qəbilə başçısı, yaşlı adam anlamını verir. Ümumi mənada təsəvvüf liderlərinə şeyx deyilir. Şeyxlər bəndəni Allaha, Allahı da bəndəyə sevdirməyə çalışan şəxslərdir. Şeyx şəriət bilgisinə sahib, *fəna* məqamını aşmış, gözəl əxlaqla əxlaqlanmış olmalıdır. Özü kamil olduğuna görə, insanları da kamilləşdirə bilir.

Hədis elmində *ravinin* hədis mənimsədiyi (öyrəndiyi) və ya dinlədiyi ustada, hədis rəvayət edən müəllimə də şeyx deyilir.

R.Ş.

ŞEYXÜL-İSLAM

Ərəb dilindən tərcüməsi «İslamın başçısı» və ya «İslamın ağsaqqalı» mənalarını verir. Keçmişdə bəzi məşhur ruhani alimlərə bu ləqəbi verirdilər. Məsələn, təfsirçi İmam Fəxr Razi, şair Əbdürrəhman Cami, cəfəri alimi Hürr Amuli, öz qeyri-adi fətvaları ilə məşhur olan İbn Teyyimiyyə, görkəmli əhlisünnə alimləri Əbu İshaq Şirazi, İbn Həcər Əsqəlani və başqaları mənbələrdə şeyxülİslam ləqəbi ilə xatırlanırlar.

Şeyxül-İslam vəzifəsi Osmanlı imperiyasında ali ruhani məqam sayılırdı. İlk dəfə 1424-25-ci illərdə Əllamə Şəmsəddin Mühəmməd ibn Həmzə Fənarinin bu vəzifəyə təyin edildiyi ehtimal olunur. 498 il ərzində Osmanlı dövlətinin şeyxül-İslamı vəzifəsinə 129 (və ya 131) nəfər təyinat almışdır ki, bunlardan 54 nəfəri həmin vəzifəyə fasilələrlə bir neçə dəfə seçilmişdir. Osmanlı şeyxül-İslamları arasında Əbus-süud Əfəndi, İbn Kəmal kimi nüfuzlu dövlət xadimləri olmuşdur. Onlar siyasi hadisələrə fəal təsir edir, dövlətin daxili və xarici siyasətində həlledici rol oynayırdılar. Məsələn, Osmanlıların Misrə hücumunu, Venesiyaya muharibə elan etməsini dəstəkləyən fətvaları o zamanın şeyxülİslamları vermişdilər.

498 il davam etmiş şeyxül-İslamlıq təsisatının son nümayəndəsi Mədəni Nuri Əfəndi 1922-ci il sentyabrın 26-da öz vəzifəsindən istefa vermişdir. O zamandan bəri bu səlahiyyəti Diyanət İşləri Vəqfi icra edir.

Şeyxül-İslamlıq həm də Qafqaz üçün regional xarakter daşıyan bir təsisatdır. Belə ki, XIX əsrin əvvəllərində çar Rusiyası Qafqaz bölgəsindəki müsəlmanlar üzərində nəzarəti həyata keçirmək, Azərbaycan müsəlmanlarını İrandakı müctəhidlərin təsirindən qoparmaq, eləcə də, Şimali Qafqazda çar üsul-idarəsinə qarşı başlamış hərəkatlardan Azərbaycan müsəlmanlarını təcrid etmək məqsədilə dini qurum təşkil etmək qərara aldı. Bu məqsədlə 1823-cü ildə Tiflisdə şiə məzhəbli müsəlmanların lideri kimi şeyxül-İslam vəzifəsi təsis edildi. 1832-ci ildə isə Tiflisdə Qafqazın sünni məzhəbli müsəlmanlarına liderlik edən *müfti* vəzifəsi yaradıldı. Şeyxül-İslam və müfti ayrı-ayrılıqda müstəqil şəkildə fəaliyyət göstərirdilər. Qafqazın ilk şeyxül-İslamı Axund Mühəmməd Əli Hüseynzadə (1823-46-cı illər) məşhur siyasi xadim, publisist Əli bəy Hüseynzadənin ulu babası idi. Ondan sonra həmin vəzifəni dünya şöhrətli cəfəri müctəhidi, mərceyi-təqlid Fazil İrəvani (1847-72-ci illər) yerinə yetirmişdir. İlk müfti Kazan tatarlarından olan Tazutdin Əfəndi Mustafin (1832-40-cı illər) olmuşdur. Ondan sonra Osman Əfəndi Vəlizadə (1841-56-cı illər; şair Molla Vəli Vidadinin oğlu), daha sonra isə Osman Əfəndinin oğlu Mühəmməd Əfəndi Müftizadə-Vidadov (1857-72-ci illər) bu vəzifəyə təyinat almışlar.

1872-ci ildə çarın xüsusi fərmanı ilə Qafqaz canişinliyinin nəzdində Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi təsis edildi. İdarənin rəhbəri şeyxül-İslam idi, onun müavini isə müfti titulunu daşıyırdı.

1917-ci ilin fevralında baş vermiş Rusiya burjua inqilabı Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin də fəaliyyətini dondurdu. Bu dövrə kimi Axund Əhməd Hüseynzadə (1873-84-cü illər; ilk şeyxül-İslam Mühəmməd Əli Hüseynzadənin oğlu), Axund Həsən Tahirzadə (1885-93-cü illər), Axund Əbdüssalam Axundzadə (1894-1907-ci illər), Axund Mühəmməd Həsən Mövlazadə Şəkəvi (1907-09-cu illər; azərbaycan dilində «Kitabülbəyan» təfsirinin müəllifi), Axund Mühəmməd Pişnamazzadə (1909-18-ci illər) şeyxül-İslam vəzifəsini icra etmişlər. Müftilik vəzifəsini isə Hacı Həmid Əfəndi (1873-83-cü illər) və Hüseyn Əfəndi Qayıbov (1884-1917-ci illər) yerinə yetirmişlər.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra şeyxül-İslam və müfti «məşixə» adlı vahid qurumda birləşdilər. Məşixəyə onlardan başqa daha 31 nəfər ruhani (16 nəfər şiə və 15 nəfər sünni bölgə qazisi) daxil idi.

1918-ci ilin dekabrında şeyxül-İslam Pişnamazzadə vəzifəsindən istefa verdi və onun yerini Axund Mollaağa Əlizadə tutdu (1918-20-ci illər). Bu dövrdə müftilik səlahiyyətlərini Hacı İbrahim Əfəndi Əfəndizadə icra edirdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin fəaliyyətinə son qoyuldu. Böyük Vətən müharibəsinin sonuna yaxın dini ayinlərin icrası üzərindəki qadağanın nisbətən yumşaldılması fonunda İdarənin fəaliyyəti bərpa olundu (1944-cü ilin may ayı). Bu zaman Axund Mollaağa Əlizadə yenidən şeyxül-İslam vəzifəsinə (1944-54-cü illər), Hacı İbrahim Əfəndi Əfəndizadə isə müfti vəzifəsinə (1944-56-cı illər) təsdiq edildilər.

Sonrakı illərdə Axund Möhsün Həkimzadə (1955-66-cı illər), Axund Əliağa Süleymanzadə (1968-76-cı illər), Axund Mir Qəzənfər İbrahimov (1977-79-cu illər) şeyxül-İslam seçilmişlər. Müfti vəzifəsini Əsədulla Əfəndi Dibirov (1957-59-cu illər), Şərif Əfəndi Vəlizadə (1959-66-cı illər), Əhməd Əfəndi Bozgöziyev (1968-69-cu illər) və Hacı İsmayıl Əfəndi Əhmədov (1969-86-cı illər) icra etmişlər.

1980-ci ildə şeyxül-İslam vəzifəsinə Hacı Addahşükür Paşazadə seçilmişdir və hal-hazırda həmin vəzifəni icra edir. H.A.Paşazadə ilk şeyxül-İslamdır ki, yalnız Zaqafqaziya müsəlmanları deyil, bütünlükdə Qafqaz müsəlmanları onu öz dini liderləri kimi qəbul edirlər. 1989-cu ildən bəri müfti vəzifəsini Hacı Salman Əfəndi Musayev daşıyır.

Şeyxül-İslam Qafqaz müsəlmanlarının qurultayında seçilir və Qafqazın müsəlman

əhalisinin dini lideri sayılır. Onun rəhbərlik etdiyi Qafqaz Müsəlmanları İdarəsinin nəzdində fəaliyyət göstərən Qazilər Şurası dini-ictimai məsələlər barəsində fətva vermək səlahiyyətinə malikdir.

N.R.

ŞEYTAN

Pis ruhun, pisliyin təmsilcisinin, pisliklərə təşviq edən, Allahla və Onu sevən, Ona qulluq edən hər kəslə düşmənçilik edən qüvvənin konkretləşmiş formasıdır, pisliyin simvolu olan varlıqdır. «Şeytan» ərəbcə «rəhmətdən uzaqlaşdı, haqdan uzaq oldu» mənasını verən «ş-t-n» kökündən və ya «həlak olacaq hala gəldi» mənasın bildirən «şata» kökündən yaranıb. İnsan, cin və heyvan növünə aid üsyan edən və zərər verən hər şeyin adıdır. Eyni zamanda, həsəd, əsəb kimi insana məxsus pis xarakter və davranışlar da şeytan adlandırılır. Dini anlamda Adəmə (ə) səcdə etmək barədə Allahın əmrinə qarşı çıxıb üsyan etdiyi üçün ilahi rəhmətdən məhrum olan və insanların amansız düşməninə çevrilən cin növünə mənsub gizli bir varlıq sayılır.

bax: *İblis.*

R.M.

ŞƏBİH

Tərcüməsi «oxşar, bənzər» deməkdir. İslam müqəddəslərinin həyat tarixçəsini, xüsusilə, *Kərbəla faciəsini* simvolik formada əks etdirən meydan tamaşalarına deyilir. Adətən, xalq içindən çıxmış qeyri-professional aktyorların iştirakı ilə açıq havada keçirilən bu tamaşaların ssenarisində *növhə* və *mərsiyələr* əsas yer tuturdu. Şəbih tamaşaları çox zaman ayrı-ayrı epizodlar üzrə bir neçə gün ardıcıl keçirilirdi («Əli Əkbərin şəhadəti», «Əli Əsğərin qətli», «Qasim otağı», «Əbülfəzl Abbasın şəhadəti», «İmam Hüseynin (ə) şəhadəti», «Müslimin balalarının müsibəti» və s.). Məhəllə miqyasında keçirilən şəbihlərdə rekvizit kimi asan tapılan əşyalardan istifadə olunurdu. Məsələn, bir teşt su Fürat çayını simvolizə edirdi. Ümumiyyətlə, şəbihlərdə zahiri effektlər, simvolizm, melodramatizm özünü qabarıq şəkildə göstərirdi. Qadın rollarını bir qayda olaraq kişilər ifa edirdilər. Sovet inqilabından əvvəl Azərbaycanda da şəbih tamaşaları geniş yayılmışdı. Hal-hazırda bir çox müsəlman ölkələrində (məsələn, İranda) professional teatr qruplarının ifasında şəbihlər hazırlanıb nümayiş etdirilir. Şəbih iştirakçılarına şəbihgərdan deyilir.

N.R.

ŞƏCƏRƏ

Ərəb dilindən tərcüməsi «ağac» deməkdir. Nəsil (geneologiya) ağacı mənasında işlədilir. Bir şəxsin ulu əcdadlarından başlayaraq nəsil üzvlərinin adlarının ardıcıl qeyd edilməsinə deyilir. *Cahiliyyə* dövründə şəcərələr şifahi şəkildə nəsildən-nəslə ötürülürdü. Sonralar bunları yazıya almağa başladılar. Şəcərənin qeyd olunduğu yazı şəcərənamə adlanır. Keçmişdə şəcərənamələr ağac şəklində çəkilirdi. Uzaq əcdaddan bir neçə nəsil sonrakı övladlara kimi uzanan şəcərə ağacı xatırladırdı; nəsil böyüdükcə ağacın şaxələri və budaqları da artır, şəcərənamə daha mürəkkəb şəkil alırdı.

Şəcərənamə müxtəsər və geniş ola bilər. Müxtəsər şəcərənamədə yalnız bir xətt üzrə (ata xətti) kişi əcdadlar qeyd edilir (ata, atanın atası, babanın atası, babanın babası və s.). Geniş şəcərənamədə isə şəxslərin həm həyat yoldaşları, həm də bütün övladları (qızlar da daxil olmaqla) əks etdirilir.

Xalq arasında daha çox *seyidlərin* nəsilbənəsil əcdadlarını göstərən şəcərənamələr məşhurdur. Ona görə də, şəcərənaməni əsasən seyid nəsillərinə aid edirlər. Əsil-nəcabətli seyid ailələrində bir neçə yüz illik tarixə malik şəcərənamələr görmək olar. Hər kəs bu cədvələ özünün və övladlarının adını əlavə edir, sonrakı nəsillər eyni qayda ilə şəcərənaməni davam etdirirlər.

Rical və *ənsab* elmlərində hədis rəvayətçilərinin, tarixi şəxsiyyətlərin şəcərəsi diqqətlə araşdırılır. Keçmişdə olduğu kimi, bu gün də müsəlman alimləri tərəfindən irihəcmli şəcərə məcmuələri tərtib edilir.

N.R.

ŞƏF NAMAZI

bax: *gecə namazı.*

ŞƏFAƏT

Qiyamət günündə ilahi məhkəmədə bəzi günahkarların bağışlanması barədə müqəd-

dəs şəxslərin, eləcə də möminlərin vasitəsilik etməsinə deyilir. Ərəb dilində «şəf» sözü «cüt» anlamını verir və bir şeyi başqasına qoşmaq mənasında işlədilir. *Şəf namazı* da iki rükət olduğu üçün ona bu ad verilib. Şəfaətə bu ad verilməsinin səbəbi də budur ki, şəfaət istəyən adam özünü daha layiqli bir adama qoşur və onun sayəsində əzabdan xilas olmaq istəyir.

Bu dünyada bəzən elə insanlara rast gəlirik ki, onların ürəyində iman vardır, saleh əməllər edir, savab işlər görürlər. Bununla belə, bəzən öz nəfslərinə aldanır və günaha bulaşırlar. Bu cür şəxslər *məhşər* məhkəməsində təqsirli bilinib müvəqqəti cəzaya məhkum olunsalar da, peyğəmbərlər, imamlar, övliyalar, böyük alimlər, şəhidlər onların bağışlanması barədə Allahdan xahiş edəcəklər. Allah bu müqəddəs şəxslərin istəyini yerinə yetirib həmin günahkar bəndələri bağışlayacaq və cənnətə daxil edəcək. Bağışlanma haqqında bu xahişə şəfaət deyilir.

Qurani-kərimdə «şəfaət» və ondan qaynaqlanan kəlmələr 31 dəfə işlənib. Bu ayələrin bir qismində şəfaətin mahiyyəti açıqlanır, kimlərə şəfaət etmək ixtiyarı veriləcəyi bildirilir və kimlərin şəfaət qazanmaq haqqından məhrum ediləcəkləri xəbər verilir. Ayələrdən məlum olur ki, qiyamət günündə şəfaət yalnız və yalnız Allahın izni ilə baş verəcək və Allahın razılığı olmadan heç kəs şəfaət etmək ixtiyarına malik olmayacaq: «Allahın izni olmadan Onun hüzurunda kim şəfaət edə bilər?» *(Bəqərə, 255).* «Onun hüzurunda, izn verdiyi kimsələr istisna olmaqla, heç kəsin şəfaəti fayda verməz» *(Səba, 23).* «Onlar yalnız Allahın razı olduğu kəslərdən ötrü şəfaət edərlər» *(Ənbiya, 28).*

Şəfaət haqqında istər şiə, istərsə də əhlisünnə mənbələrində yüzlərlə hədis vardır. Həzrət Mühəmməd Peyğəmbər (s) qiyamət günündə şəfaət etmək səlahiyyətinə malik olacaq şəxsləri belə tanıtdırır: «Şəfaət ixtiyarı peyğəmbərlərə, vəsilərə, möminlərə və mələklərə məxsusdur». «Şəfaətimə inanmayanları Allah mənim şəfaətimə nail etməz». Peyğəmbər Həzrət Fatiməyə (ə) buyurmuşdur: «Qiyamət günü gəlib-çatanda sən qadınlar üçün şəfaət edərsən, mən də kişilər üçün şəfaət edərəm». İmam Cəfər Sadiq (ə) isə İslam Peyğəmbərinin şəfaətinin əhatəliliyi barəsində buyurub: «Nə keçmişdəkilərdən, nə də gələcəkdəkilərdən elə bir adam yoxdur ki, qiyamət günündə Həzrət Mühəmmədin (s) şəfaətinə möhtac olmasın». Bir çox tədqiqatçılar Həzrət Mühəmməd Peyğəmbərin (s) qiyamət günündə sahib olacağı *məqami-mahmud* mərtəbəsini də məhz çoxlu şəfaət edə bilmək səlahiyyəti ilə izah etmişlər.

Həzrət Mühəmməd Peyğəmbər (s) müsəlmanlara öz şəfaəti ilə müjdə verirdi: «Qiyamət günündə mənim şəfaətimlə xoşbəxt olanların ən səadətisi xalis niyyətlə ürəkdən «la ilahə illəllah» deyən kəsdir». «Behiştdə şəfaət edənlərin əvvəlincisi və ardıcıllarının çoxluğuna görə peyğəmbərlərin birincisi mən olacağam». «Hər peyğəmbərin duası olmuşdur; öz ümməti üçün həmin duanı etmiş və müstəcab olmuşdur. İstəyirəm ki, öz ümmətim üçün duamı şəfaət şəklində qiyamət gününə kimi təxirə salım». «Qiyamət günündə əvvəlcə peyğəmbərlər, sonra alimlər, sonra da şəhidlər şəfaət edəcəklər». «Şəfaətim ümmətimdən böyük günah edənlər üçündür». «Şəfaətçilər beşdir: Quran, qohumluq *(sileyi-rəhim)*, əmanət, peyğəmbəriniz və peyğəmbərinizin Əhli-beyti».

Mərhum Ayətullahül-üzma Seyid Əbül-Qasim Xoyi yazır ki, əhli-sünnənin ən geniş hədis məcmuəsi olan «Kənzül-ümmal»da şəfaət barədə 80-dan artıq hədis vardır və bu mövzu mütəvatirdir.

Əlbəttə, qiyamətdə heç də bütün günahkarlara şəfaət edilməyəcək. Allaha və peyğəmbərə iman bəsləməyən, məadı danan, xalqa zərər vuran, zülm törədən şəxslər şəfaətdən məhrumdurlar. Qurani-kərimdə onların şəfaətdən kənarda qalmalarının səbəbi öz dillərindən bu cür izah edilir: «Onlar deyərlər: «Biz namaz qılanlardan deyildik, yoxsulu da yedizdirməzdik. Boş-boş danışanlara qoşulub, ölüm bizi haqlayanadək hesab gününü yalan sayardıq». Şəfaət edənlərin şəfaəti onlara fayda verməz» *(Müddəssir, 43-48).* Zülm törətmək də insanın şəfaətdən faydalanmasına maneçilik yaradacaq: «Zalımların nə bir dostu, nə də sözü keçən şəfaətçisi olar» *(Mömin, 18).*

Həzrət Mühəmməd Peyğəmbər (s) qiyamətdə şəfaətdən məhrum qalacaq insanları bu cür tanıtdırırdı: «Şəkk və *şirk* əhli üçün

şəfaət olmaz. *Küfr* və inad əhlinə də şəfaət yoxdur. Şəfaət *tövhid* əhlindən olan möminlər üçündür». «Şəfaətim böyük günah əhli üçündür; amma gərək şirkə və zülmə bulaşmış olmasınlar». «Vallahi, namazı əskik sayanlara mənim şəfaətim yetişməyəcək. Onlar cənnət hovzunun kənarında mənim hüzuruma varid olmayacaqlar. Vallahi, məstedici içki içənlərə mənim şəfaətim yetişməyəcək. Onlar cənnət hovzunun kənarında mənim hüzuruma varid olmayacaqlar». İmam Cəfər Sadiq (ə) də son nəfəsində belə vəsiyyət etmişdi: «Namaza yüngül münasibət bəsləyənlər bizim *(yəni imamların)* şəfaətinə nail olmayacaqlar».

Şəfaətə ümid bəsləmək insanda arxayınlıq yaratmamalıdır. Əgər insan şəfaətin ona şamil olacağına yəqin bəsləsə, əməllərinə cavabdeh olmaz, onda məsuliyyətsizlik və qudurğanlıq yaranar. İmam Cəfər Sadiq (ə) bu təhlükəni nəzərdə tutaraq öz tərəfdarlarından birinə məktubunda yazmışdı: «Hər kim şəfaətçilərin şəfaətinə nail olmaq istəyirsə, gərək elə etsin ki, Allah ondan razı olsun».

Bəzilərinin düşündüyünün əksinə olaraq, şəfaət etmək Allahın qüdrətinə şərik olmaq deyil. Günahları bağışlayan Allahdır. Peyğəmbərlər, imamlar, alim və şəhidlər isə bunun üçün yalnız vasitəçi rolunu oynayacaqlar. Çünki onlar Allahın sevimli bəndələridir; onların dua və xahişləri Allah dərgahında məqbuldur.

N.R.

ŞƏHADƏT

Ərəb dilindən tərcümədə «hazır olmaq» mənasını verir və *qeyb* məfhumunun əksini ifadə edir. Dini anlamda şəhadət – insanın qəti surətdə bildiyi bir məsələ haqqında ifadə verməsidir. Məsələn, bir insanın Allaha, peyğəmbərlərə, müqəddəs dəyərlərə iman gətirdiyini etiraf etməsi və car çəkməsi də şəhadət sayılır. Bunun dillə ifadəsinə *kəlmeyi-şəhadət* deyirlər. Kəlmeyi-şəhadət cümlələrini söyləyən adam *müsəlman* sayılır. Həmin andan etibarən o, müsəlman cəmiyyətinin tamhüquqlu üzvüdür, canı, malı, namusu toxunulmazdır.

Allahın gözəl adlarından biri də Şəhiddir. Yəni Allah öz bəndələrinin bütün əməllərini müşahidə edir; O, hər şeydən xəbərdardır: «And olsun ki, insanı biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də biz bilirik. Biz ona şah damarından da yaxınıq!» *(Qaf, 16).*

İnsanlar da öz növbələrində Allahın varlığına şahiddirlər. Quranda buyurulur ki, hələ cismlər yaradılmazdan əvvəl ruhlar aləmində Allah bütün insanlardan onların Rəbbi olması barədə əhd-peyman almış və onları buna şahid tutmuşdu: «Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən *(gələcək)* nəsillərini çıxarıb onların özlərinə şahid tutaraq: «Mən sizin Rəbbiniz deyiləmmi?» – soruşmuş, onlar da: «Bəli, Rəbbimizsən!» – deyə cavab vermişdilər» *(Əraf, 172).*

Qiyamət günündə insanlar bir-birinin lehinə və əleyhinə şəhadət verəcəklər. Hətta həmin gün insanın öz bədən üzvləri onun etdiyi günahlara şahid duracaq, bununla da günahkarların bəhanəsi kəsiləcək: «Bu gün onların ağızlarını möhürləyərik. Etdikləri əməllər barəsində onların əlləri bizimlə danışar, ayaqları isə şəhadət verər» *(Ya-Sin, 65).*

İslam hüququnda şəhadət – baş verən hadisələr zamanı bunu gözləri ilə görən şəxslərin təsdiq etməsi və ifadə verməsi mənasında qəbul edilir. İslam dini mühüm məişət hadisələrini şahidlərin iştirakı ilə icra etməyi məsləhət görür. Xüsusilə, kəbin, talaq, iş müqaviləsi, əhd, pul alış-verişi, borc vermə kimi tədbirlər şahidlərin gözü qarşısında baş versə, daha yaxşı olar. Allah-təala Qurani-kərimlə təkidlə buyurur: «Ey iman gətirənlər! Müəyyən müddətə bir-birinə borc verib-aldıqda, bunu yazın!.. Öz adamlarınızdan iki kişini də şahid tutun!.. Alış-veriş etdiyiniz vaxt şahid tutun!» *(Bəqərə, 282).*

İslam şəriətinə əsasən, şahid yetkinlik yaşına çatmış, əqli cəhətdən sağlam, müsəlman, ədalətli, insaflı bir adam olmalıdır, hadisəni öz gözləri ilə görməlidir. Şahidlikdən imtina etmək, yalan ifadə verməklə şahidlik etmək İslamda ən böyük günahlardan sayılır: «Şahidliyi gizlətməyin! Onu gizlədən şəxsin qəlbi günahkardır! Allah etdiyiniz əməlləri biləndir!» *(Bəqərə, 283).* Şahidlik məsuliyyətli bir iş olduğu üçün, buna ciddiyyətlə yanaşmaq lazımdır. Çünki şahidin yalan və ya səhv ifadəsi nəticəsində günahsız bir insan fiziki və maddi sıxıntılara məruz qoyula, həbsə atıla, hətta edam edilə bilər.

Şəriət hökmlərinə uyğun olaraq, hər hansı günahın və ya cinayətin törədilməsini sübuta yetirmək üçün iki, bəzi hallarda isə dörd nəfərin şahidlik etməsi tələb olunur. Bu zaman bir kişinin şahidliyi iki qadının şahidliyinə bərabər tutulur. Yəni şəriət məhkəməsində iki şahid qadının ifadəsi ilə bir şahid kişinin ifadəsi eyni dəyərə malikdir. Bunun səbəbi qadının kişiyə nisbətən daha emosional olması və hissiyyata qapılmasıdır. Qadın şahidi olduğu hadisəni düzgün dəyərləndirməyə bilər; kişi ilə müqayisədə zəif və müdafiəsiz olduğuna görə, onu yalan ifadə verməyə məcbur etmək də asandır. Ona görə də, şahidlərin cinsi barədə şəriətdə nəzərdə tutulmuş bu fərqi heç də qadına qarşı haqsızlıq kimi qəbul etməməliyik.

Şahidlərin ifadəsi br-biri ilə ziddiyyət təşkil edərsə, günah sübuta yetməmiş sayılır. Hətta bəzi hallarda (məsələn, qadına qarşı *zina* ittihamı irəli sürülərsə) ittihamçı lazımi sayda şahid gətirməsə və ya şahidlərin ifadələri üst-üstə düşməsə, onun özünə qarşı iftira cəzası tətbiq olunur (bax: *qəzf*).

Şəhadət həm də Allah, din, peyğəmbər, imam yolunda, müqəddəs dəyərlərin qorunması uğrunda savaşıb həlak olmaq mənasında da qəbul edilir. Belə adama şəhid deyirlər. Ona bu adın verilməsinin səbəbi müxtəlif cür izah edilir. Bəzi alimlər deyiblər ki, şəhid həlak olan anda mələklər onun başı üstündə hazır durub bu hadisəyə şahid olarlar. Bəzi alimlər isə Qurani-kərim ayəsinə istinad edərək, şəhidin Allah dərgahında diri olduğunu və dünyada baş verənləri şahid kimi izlədiyini söyləyiblər. Haqqında danışılan ayədə buyurulur: «Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbblərinin yanında ruzi əta olunur. Onlar Allahın öz mərhəmətindən onlara bəxş etdiyi nemətə sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış kəslərin *(axirətdə)* heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər. Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına görə sevinçək olurlar» *(Ali-İmran, 169-171).*

Şəhidlər İslamda çox uca məqama malikdirlər. Həzrət Mühəmməd Peyğəmbər (s) şəhidin savabı barədə buyurub: «Bəndənin nail ola biləcəyi ən böyük yaxşılıq budur ki, Allah yolunda savaşıb şəhid olsun. Bundan üstün bir hal ola bilməz». «Şəhidin borcdan başqa bütün günahları Allah tərəfindən bağışlanar». «Cənnətə daxil olan heç kəs, hətta bütün dünyanın nemətləri ona verilsə belə, cənnətdən çıxıb bir daha bu dünyaya qayıtmaq istəməz. Yalnız şəhid Allahdan o qədər mükafat görər ki, bunları daha da artırmaq üçün 10 dəfə dünyaya qayıdıb öldürülməyi arzu edər».

Bütün təbəqələr kimi, şəhidlik təbəqəsi də dərəcələrə bölünür. Din uğrunda aparılan cihadlarda öldürülən, peyğəmbəri və imamı qorumaq yolunda canını verən şəxs ən yüksək şəhidlik dərəcəsinə mənsubdur. Öz vətənini, ailəsini, namusunu, müsəlman qardaşını, hətta əmlakını qorumaq uğrunda qətlə yetirilən şəxsə də şəhidin savabı qədər savab verilər. Hədislərdə hətta elm öyrəndiyi halda vəfat edən, suda batan insan, doğuş üstə rəhmətə gedən qadın da şəhidlərin sırasına aid edilib. Əlbəttə, bunlar Allah yolunda qanına qəltan olan adamla eyni səviyyədə tutula bilməz. Amma hədislərdə onlara çox böyük savab veriləcəyini bildirmək üçün, adları ən böyük savab sahibi olan şəhidlərlə yanaşı çəkilib.

N.R.

ŞƏHİD

bax: *şəhadət.*

ŞƏQQÜL-QƏMƏR

Ərəb dilindən tərcümədə «Ayın bölünməsi» deməkdir. Həzrət Mühəmməd Peyğəmbərin (s) göstərmiş olduğu bir möcüzənin adıdır. «Əl-Mizan» təfsirində yazılıb ki, hadisə hicrətdən 5 il əvvəl zilhiccə ayının 14-də Məkkədə baş vermişdir (hadisənin baş verdiyi tarix barədə başqa məlumatlar da mövcuddur). Rəvayətə görə, bir gün müşriklər Həzrət Mühəmməddən (s) tələb etdilər ki, sözlərinin doğruluğunu sübuta yetirmək üçün onlara *möcüzə* göstərsin. Peyğəmbər hansı möcüzəni görmək istədiklərini soruşanda dedilər ki, bizim üçün səmadakı Ayı iki yerə böl. Allahın Rəsulu dua etdikdən sonra barmağı ilə Aya işarə etdi. Allahın əmri ilə Ay iki yerə parçalandı, yarısı şərqə, yarısı da qərbə çəkildi. Bir az sonra bunlar

yaxınlaşıb bitişdilər, Ay yenə əvvəlki kimi bütöv oldu.

Şəqqül-qəmər hadisəsi Həzrət Mühəmməd Peyğəmbərin (s) ən məşhur möcüzələrindən sayılır. *Abdullah ibn Abbas, Ənəs ibn Malik, Abdullah ibn Məsud, Hüzeyfə ibn Yəman, Abdullah ibn Ömər* və başqa səhabələrə istinadən rəvayət edilən hədislərdə əhvalat ətraflı şəkildə təsvir olunub.

Şəqqül-qəmər hadisəsinin Quranda sübutunu axtaranlar Qəmər surəsinin ilk ayələrini misal gətirirlər: «Saat yaxınlaşdı və Ay parçalandı. Əgər müşriklər bir möcüzə görsələr, üz döndərib: «Bu, davam edən bir sehrdir!» – deyərlər». Bununla belə, ayənin qiyamət gününə, yoxsa şəqqül-qəmər hadisəsinə aid olması təfsirçilər arasında mübahisə obyektinə çevrilib. «Saat yaxınlaşdı» ifadəsində qiyamətə işarə olunduğunu söyləmək məntiqə daha uyğun görünür. Amma müşriklərin möcüzə müqabilində söylədiklərindən söhbət açan ayə şəqqül-qəmər hadisəsini daha çox xatırladır.

Müsəlman alimlərin əksəriyyəti şəqqül-qəmər möcüzəsinin həqiqətini təsdiq etmişlər. Hətta İbn Kəsir, İmam Fəxr Razi, Əllamə Təbrisi, Əllamə Təbatəbai, Səid Buti və başqaları şəqqül-qəmər hadisəsinin *icma* halında qəbul edildiyini və bu mövzuda hədislərin təvatür həddində olduğunu yazmışlar. Lakin bunu optik illüziya sayanlar da olub (Həsən Bəsri, Şah Vəliyullah Dehləvi, bəzi müasir alimlər). Şəqqül-qəmər hadisəsini inkar edənlərin irəli sürdükləri ən güclü irad bundan ibarətdir ki, niyə bu hadisəni Qərb dünyasında alimlər müşahidə etməyiblər, salnaməçilər qeydə almayıblar? Bu irada cavab olaraq «Təfsiri-nümunə»də yazılıb ki, hadisə Şərq yarımkürəsində Günəş batandan sonra baş vermişdi. Qərb yarımkürəsində bu an gündüz vaxtı idi və Ayı görmək sadəcə olaraq mümkün deyildi. Hadisənin davam etmə müddəti qısa olduğu üçün, Şərq dünyasında yaşayan insanların da buna diqqət yetirməməsi təbiidir. Həm də insanlar adətən, hər hansı dəhşətli səma hadisəsi baş verən zaman (məsələn, şimşək çaxması, Ay tutulub qaranlıq düşməsi və s.) göyə baxırlar; adi vaxtlarda bu, nadir hallarda baş verir.

Şəqqül-qəmər hadisəsinə bədii işarələri klassik ədəbiyyat nümunələrində də görmək olar:

Çün vücudundur, nigara, şəhriyar,
Surətü mənidə sənsən şəhriyar.
Məniyi-şəqqül-qəmər çün səndədir,
İstiva eylə cəmalın, şəhri yar.

(İ.Nəsimi).

N.R.

ŞƏMAİL

Ərəb dilindən tərcümədə «gözəl xasiyyətlər, yaxşı özəlliklər» mənasını verir. Həzrət Mühəmməd Peyğəmbərin (s) zahiri görünüşü, bədən quruluşu, xasiyyəti, əxlaqı, vərdişləri barədə məlumatlara şəmail deyilir. Bəzən o həzrətin peyğəmbərliyini sübut edən dəlilləri də şəmailə aid edirlər. Bəzi müəlliflər Peyğəmbərin şəmaili haqqında rəvayətləri müstəqil kitab şəklində toplamışlar. Bunların ən məşhurları Əbu İsa Tirmizinin və İbn Kəsirin «Şəmail» əsərləridir.

Şəmail qismindən olan yazıları müsəlman xəttatlar gözəl xətlə bəzəkli lövhələrin üzərinə yazırlar; buna hilyə və ya hilyeyi-səadət, hilyeyi-şərifə deyilir. Hilyələrin özünəməxsus quruluşu olur. Başda «Bismillahir-Rəhmanir-Rəhim» ayəsi, künclərdə 4 *raşidi xəlifənin* adları yazılır. Ortadakı dairənin içində Peyğəmbərin əxlaqını və görünüşünü bəyan edən əsas mətn yerləşdirilir. Bu mətn səhabələrin rəvayəti, yaxud Peyğəmbərin şəmailini təsvir edən gözəl bir şeir parçası ola bilər. Hilyələrdə Quranın bu ayəsi də öz əksini tapır: «Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik» *(Ənbiya, 107).* Hilyələrin hazırkı qəlib forması XVII əsrdə yaşamış türk xəttatı Hafiz Osman tərəfindən işlənib-hazırlanmışdır. Çox zaman hilyələrin əsas mətnini Həzrət Əlidən (ə) rəvayət edilən şəmail hədisi təşkil edir.

İmam Mühəmməd Baqirdən (ə) rəvayət edilən bir şəmail hədisində Həzrət Mühəmməd Peyğəmbərin (s) zahiri görünüşü belə təsvir edilir: «Allahın Rəsulunun dərisi qırmızıya çalan ağ rəngdə idi. Qara və nüfuzedici gözləri, su içən zaman suya toxunacaq qədər mütənasib burnu, çatma qaşları, enli əlləri var idi. Ovcu və barmaqları möhkəm olub parıldayırdı. Enlikürək idi, boynu çiyin-

lərinə qədər mütənasib və parlaq görünürdü. O həzrət bir şəxsə tərəf çevriləndə bütün bədəni ilə dönər, yeriyəndə üzüaşağı yol gedənlər kimi addımlarını yerə möhkəm basardı. Allahın Rəsulundan nə əvvəl, nə də sonra Onun mislində bir insan görünməyib» *(Üsulül-Kafi).*

N.R.

ŞƏRİƏT

Ərəb dilindən tərcüməsi «yol, ənənə, qayda» deməkdir. Ərəblər hamının su içə bildiyi su bulağına da şəriə deyirlər. İri yolu (prospekti) ərəb diilndə şare adlandırırlar. Dini teriminologiyada Allah-təalanın öz peyğəmbərləri vasitəsilə insanlara göndərdiyi qayda-qanunlara şəriət deyilir. Daha geniş anlama malik olan «din» məfhumundan fərqli olaraq, şəriət əsasən ibadət əməlləri ilə, haram və halalla əlaqəli məsələləri özündə birləşdirir və dinin təfərrüatı (fər) sayılır. Bütün peyğəmbərlərin təbliğ etdikləri din etiqadi cəhətdən eyni idi (buna *İslam* deyilir), fərq yalnız şəriət hökmlərini əhatə edirdi. Şəriət sahibi olan peyğəmbərlərə *ülul-əzm* peyğəmbərlər deyilir. Həzrət Nuhun (ə) şəriəti unudulub təhrif edilidkdə, Allah Həzrət İbrahimi (ə) yeni şəriətlə göndərdi. Onun ardınca Həzrət Musa (ə), Həzrət İsa (ə) və nəhayət, Həzrət Mühəmməd (s) fərqli şəriətlər gətirdilər. İslam şəriəti qiyamət gününə kimi qüvvədə olacaq. Allah-təala onu əvəz etmək üçün başqa bir şəriət göndərməyəcək. Şəriətin hökmləri Allah tərəfindən müəyyən olunduğu üçün, dini ədəbiyyatda Allahı bəzən «şare» və ya «şəriət sahibi» adlandırırlar.

İmam Əli ibn Əbu Talib (ə) buyurmuşdur: «Dünya bir bağçaya bənzəyir ki, şəriət bu bağçanı suvarır. Şəriət elə bir hakimdir ki, ona itaət etmək vacibdir. İtaət elə bir siyasətdir ki, hökumətlər onun üzərində qurulur».

Şəriət həm də təsəvvüfdə *seyri-sülük* yolunun ilk mərhələsi, *təriqət* və *həqiqət* mərtəbəsinin müqəddiməsi sayılır. Təriqətə qədəm qoymaq üçün mütləq şəriət mərhələsini kamil sürətdə keçmək, onu layiqincə mənimsəmək lazımdır. Şəriətə əməl etməyən sufinin üzünə təriqət və həqiqət qapıları bağlı olar. Sufi ədəbiyyatında obrazlı ifadə ilə bildirilir ki, şəriət zahiri hökmlərdən ibarətdir və qabıq kimidir, təriqət onun içi, ləpəsidir. Mövlana Cəlaləddin Rumi «Məsnəvi»də yazır: «Şəriət yolu işıqlandıran şama bənzəyir. Əlinə şam götürməsən, yol gedə bilməzsən və bunsuz bir iş görmək mümkün olmaz. Yola düşəndən sonra sənin gedişin təriqətdir. Çatdığın məqsəd və hədəf isə həqiqətdir».

Bəziləri sufiliyə qarşı bu iddianı irəli sürmüşlər ki, guya təsəvvüf aləmində həqiqət mərhələsinə qədəm qoyan şəxsin boynundan bütün şəriət vəzifələri (buna təklif deyilir) götürülür. Bu nəzəriyyəyə görə, şəriətə əməl etməyin vacibliyi müvəqqətidir. Nə qədər ki, sufi hələ kamala yetməyib, seyrü-süluk yolunun əvvəlində şəriətə bağlanmağa borcludur. Lakin təkamül yolu ilə irəliləyib «haqqın içində fani» və «haqq ilə baqi» olduqda bütün məhdudiyyətlər, bağlılıqlar, tabeçiliklər qırılır.

Bu fikrin səhv olduğunu görmək üçün klassik sufi mənbələrini və təsəvvüf şeyxlərinin həyat tərzini izləmək kifayətdir. Əgər bəzi kitablarda bu cür fikirlərə rast gəlinirsə də, nəzərə almaq lazımdır ki, bu qəbildən olan sözləri mütləq rəmzi mənada yozmaq lazımdır. Belə ki, ariflərin və sufilərin dilində həqiqətə çatmaq yalnız ölümdən sonra mümkündür. Çünki dünya əlaqələri insanı sözün əsl mənasında tamamilə Allaha bağlanmaqdan uzaq qoyur. Ölümdən sonra insan Allahın bilavasitə hüzurunda qərar tutur. Axirət aləmində isə təklif yoxdur, orada yalnız dünya əməllərinə görə cavabdehlik mövcuddur. Deməli, öldükdən sonra şəriət öz mahiyyətini itirir.

Sufi böyüklərinin şəriətə bağlılıqlarını təsəvvür etmək üçün Cüneyd Bağdadinin bu kəlamını yada salmaq yerinə düşər: «Təsəvvüf bir evə bənzəyir ki, şəriət onun qapısıdır». Bayezid Bistami belə demişdir: «Bir kəs Allahın əmr və qadağanlarına, Peyğəmbərin sünnəsinə tabe deyilsə, havada bardaş qurub oturduğunu görsəniz belə, sözünə etibar etməyin». Səhl ibn Abdullah Tüstəri isə belə söyləmişdir: «Bizim yolumuzun təməli bu yeddi xüsusiyyətdir: Allahın Kitabına bağlanmaq. Peyğəmbərin sünnəsinə tabe olmaq, halal yemək, başqalarına əziyyət və yük olmamaq, günahdan çəkinmək, tövbə etmək və hər şeyin haqqını gözləmək».

N.R.

ŞİRK

Ərəb dilindən tərcüməsi «şərik tutmaq», «şərik saymaq» deməkdir. Dini termin olaraq, Allaha şərik qoşmaq mənasında işlədilir. İslamda ən böyük günah sayılır. Həm dünyanın yaradıcısı və idarəedicisi kimi Allahdan başqa bir qüvvəyə iman bəsləmək, həm də Allaha aid olan sifətlərdən hər hansı birini başqasına aid etmək şirk kimi dəyərləndirilir. Yalnız Allahın qadir olduğu məsələlərdə Ondan başqa bir qüvvəyə sığınmaq və yardım istəmək də şirkin bir növüdür. Şirk edən şəxsə müşrik deyirlər.

Qurani-kərimdə şirk ən böyük günah kimi xatırlanır: «Şübhə yoxdur ki, Allah özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan şəxs, əlbəttə, böyük günah etmiş olur» *(Nisa, 48).*

Qurani-kərim şirk etmiş şəxslərin aqibətini xəbər verməklə onları bu yoldan döndərməyə çalışır: «Allahla yanaşı başqa tanrı qəbul etmə, yoxsa qınanmış və *(Allahın mərhəmətindən)* kənar edilmiş bir halda cəhənnəmə ağılarsan!» *(İsra, 39).*

Allah-təala Ona şərik qoşanların (müşriklərin) üzünə əsl həqiqəti söyləyir: «Məgər heç bir şey yaratmağa qadir olmayıb özləri yaradılanımı *(bütlərimi Allaha)* şərik qoşarlar? Halbuki, bu bütlər nə onlara, nə də özlərinə bir kömək edə bilər! Siz onları doğru yola dəvət etsəniz, sizə tabe olmazlar. İstər onları dəvət edin, istər susun – birdir. Allahdan başqa ibadət etdiyiniz bütlər də sizin kimi bəndələrdir. Əgər doğrusunuzsa, haydı, çağırın onları, sizə cavab versinlər» *(Əraf, 191-194).*

Qurani-kərimdə Allaha şərik qoşan şəxsin vəziyyəti «göydən düşən, quşların onu sürətlə alıb apardığı, yaxud küləyin sovurub uzaqlara atdığı bir şeyə» bənzədilir *(Həcc, 31).* Çünki Allaha şərik qoşan adam Allahla rabitəni kəsmiş olur. Pərəstiş etdiyi tanrılar onu müdafiə və himayə etməkdən acizdirlər. Həmin insan Allahın yaratdığı dünyada öz yerini əldən verib. Rahatlıq, arxayınlıq, mənəvi aramlıq onu tərk edib. Quranda belə şəxs xalq dili ilə «göydən düşmüş» adlandırılır. Bu Quran ayəsində ruhi əzablar, mənəvi narahatlıqlar insan bədənini didib-parçalayan vəhşi quşlara bənzədilir. İmanla yaşanan ömür yüksəliş kimidir. Allahın vahidliyini danan kəsin həyatı isə bunun əksinə olaraq tənəzzül və enişdir (göydən yerə atılmaq kimi). İnsan çox uca hündürlükdən yıxılıb yerə düşdüyü müddətdə öz ölümünə yaxınlaşır, çünki bu enişin sonu yerə dəyib param-parça olmaqdır. Vahid Allahı danan kəs də bütün həyatı boyu durmadan dəhşətli sonluğa doğru irəliləyir. Bu yolun axırı *kafir* kimi ölmək və axirət əzabına düçar olmaqdır.

Əlbəttə, insan istəsə, bu müdhiş aqibətdən xilas ola bilər. Nicat yolu səmimi qəlbdən Allahın vahidliyinə inanmaq, *tövhid* əqidəsinə bağlanmaqdır. Təsadüfi deyil ki, Həzrət Mühəmməd Peyğəmbər (s) camaatı İslam dininə dəvət edərkən hər şeydən əvvəl bunu demişdi: «La ilahə illəllah» (Allahdan başqa məbud yoxdur) söyləyin və səadətə çatın!». O həzrətdən rəvayət edilən digər bir hədisdə belə buyurulur: «Hər kəs ixlasla «La ilahə illəllah» desə, cənnətə girər. İxlasın mənası isə budur ki, «La ilahə illəllah» söyləmək adamı izzətli və cəlallı Allahın haram buyurduqlarından çəkindirsin».

N.R.

ŞÖVT

Həcc ziyarətinin vacib əməllərindən olan *təvafın* və *səyin* tərkib hissələrinə deyilir.

Təvafda şövt – Kəbənin ətrafında bir dəfə tam dövrə vurmaqdır. Şövt Kəbənin «qara daş» yerləşən küncünün bərabərindən başlayır və orada da qurtarır. Təvaf 7 şövtdən ibarətdir. Fırlanmanın istiqaməti saat əqrəbi hərəkətinin əksinədir.

Səydə şövt isə Kəbənin yaxınlığında yerləşən *Səfa və Mərvə* təpələri arasında o başbu başa yürümək hərəkətlərinə deyilir. Səy də 7 şövtdən ibarətdir. Birinci şövt Səfa təpəsindən başlayır, axırıncı şövt Mərvə təpəsində qurtarır.

N.R.

ŞURA

Müəyyən məsələ barədə qərar vermək üçün bir neçə mütəxəssisdən ibarət qrup.

Ümumiyyətlə, İslam dinində məsləhət və məşvərətə böyük önəm verilir. Quranda möminlərin xüsusiyyətləri sadalanarkən, iman gətirmək, namaz qılmaq, Allah yolunda sərvətindən pay verməklə yanaşı, «işlərini öz aralarında məşvərətlə görmək» keyfiyyəti də vurğulanır *(Şura, 38)*. Qurani-kərimin surələrindən birinin «Şura» adlanması da, dinimizin bu mövzuya nə qədər dərin əhəmiyyət verdiyini göstərir. Ayələrin birində Allah-təala Həzrət Mühəmməd Peyğəmbərə (s) müsəlmanlarla məsləhətləşməyi tövsiyə edərək buyurur: «Bir iş görərkən onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah, Ona təvəkkül edənləri sevər!» *(Ali-İmran, 159)*.

Dilşünaslar qeyd edirlər ki, ərəb dilindəki «müşavirə» sözünün kökündə arı pətəyindən bal götürmək mənası durur. Bu sözün lüğəti və terminoloji mənaları arasında müəyyən yaxınlıq var. Arı müxtəlif çiçəklərin şirəsini topladıqdan sonra onları öz mədəsində həll edib bal yaratdığı kimi, insan da başqaları ilə məsləhət edərkən onların fikirlərini öyrənir, sonra bunları təhlil edərək müəyyən qərara gəlir.

Həzrət Mühəmməd Peyğəmbər (s) qarşıya çıxan irili-xırdalı hər bir məsələdə sıravi müsəlmanların rəyini öyrənir, onların məsləhətlərinə hörmətlə yanaşırdı. O həzrət buyurardu: «Ağıllı insanlarla məşvərət edin, onların məsləhətinə zidd çıxmayın, yoxsa peşman olarsınız». Peyğəmbərdən soruşdular: «Hikmət nədir?». Cavab verdi: «Hikmət odur ki, rəy sahibləri ilə məşvərət aparasan və onların sözünə əməl edəsən».

Başqa bir hədisdə buyurulur ki, bir gün İmam Əli (ə) Həzrət Mühəmməd Peyğəmbərdən (s) soruşdu: «Qarşımıza elə bir məsələ çıxsa ki, onun barəsində nə Qurandan, nə də sünnədən dəqiq bir hökm məlum deyil, bu halda nə edək?» Peyğəmbər cavab verdi: «Fəqihlərdən və ibadətkar möminlərdən ibarət şura çağırın, təkbaşına hökm verməyin!».

Müşavirə məsələsində Peyğəmbərin prinsipial mövqeyi bundan ibarət idi: İlahi *vəhylə* konkret təsbit olunmuş məsələlər bir qayda olaraq, müzakirə obyektinə çevrilmirdi. Çünki İslam məntiqinə görə, Allahın hökmü hər şeydən üstündür və ilahi qanunlar insanların müzakirəsinə verilə bilməz. Lakin vəhy nazil olmayan xüsuslarda hər kəsə öz fikrini söyləmək və hətta Peyğəmbərin şəxsi rəyinin əleyhinə çıxmaq ixtiyarı verilirdi.

Həzrət Mühəmməd Peyğəmbər (s) ən müxtəlif məsələlərdə – istər sosial-iqtisadi, istərsə də hərbi mövzularda öz səhabələri ilə məsləhətləşirdi. Bu zaman o, müsəlman icmasının bütün üzvlərinin rəyini eşitməyə çalışır, söylənilən fikirləri müzakirəyə çıxarır, hər bir görüşün müsbət və mənfi cəhətlərini araşdırırdı. O həzrət heç vaxt öz üstünlüyünə arxalanaraq, başqalarını öz fikrinə təslim etməyə çalışmırdı. Hətta səs çoxluğu ilə üstünlük qazanmış fikir onun şəxsi qənaətinə uyğun gəlməsə belə, çoxluğa tabe olurdu. Məsələn, *Ühüd savaşından* əvvəl, döyüş taktikasını müəyyən etmək məqsədilə müsəlmanların fikrini öyrənərkən, yaşlılar şəhərə çəkilib müdafiə olunmağı bəyəndikləri halda, dəliqanlı cavanlar düşməni şəhərdən kənarda qarşılamağı təklif etdilər. Cavanlar sayca çox olduqlarına görə, onların fikri üstünlük qazandı. Peyğəmbərimiz şəxsən birinci tərəfin mövqeyini bəyənsə də, yenə çoxluğun sözü ilə hərəkət etdi. Həmçinin, *Xəndək savaşından* əvvəl aparılmış məşvərətdə *Salmani-farsi* Mədinə şəhərinin ətrafında xəndək qazımağı təklif edərkən, Peyğəmbərimiz bununla razılaşdı.

Bu gün İslamın rəmzinə çevrilmiş bir çox dini atributlar da müşavirə və məsləhət nəticəsində qəbul edilmişdir (azan, minbər və s.).

Mühüm məsələləri şuranın köməyi ilə həll etmək ənənəsi Peyğəmbərdən sonra da davam etdirildi. Xüsusilə, ilk xəlifələr buna daha ciddi diqqət yetirirdilər. Məsələn, Ömər ibn Xəttabın xilafəti dövründə (hicri 17-ci il) hicri-qəməri təqvimin başlanğıcı qəbul edilərkən, Ömərin vəfatından sonra növbəti xəlifə seçilərkən, Osmanın zamanında Quran toplanarkən şura təşkil edilmişdi.

Məsləhət və məşvərətin əhəmiyyəti barədə İmam Əli (ə) buyurmuşdur: «Məşvərət hidayət deməkdir. Kim yalnız öz fikrinə arxalansa, təhlükəyə düşər». «Ağıllı düşmənlə

məsləhətləş, amma cahil dostdan uzaq qaç». Həzrət Mühəmməd Peyğəmbərin (s) bu sözləri isə yalnız öz müasirlərinə deyil, bütünlükdə tarixə ünvanlanıb: «Məsləhət və məşvərətə riayət edən hər bir ümmət doğru yolu tapar». «Əgər başçılarınız ən xeyirli, varlılarınız da ən səxavətli olsalar və işlərinizi məsləhətlə həll etsəniz, sizin üçün həyat ölümdən daha yaxşı olar».

Şura ilə bağlı bir məsələdə şiə və sünni məzhəbləri arasında fikir ayrılığı vardır. Bu, Peyğəmbərdən sonra ümmətə kimin rəhbərlik etməsi məsələsidir. Əhli-sünnə əqidəsinə görə, Peyğəmbərimiz sağlığında öz canişinini müəyyən etməmiş və bunu ümmətin öhdəsinə buraxmışdı. O həzrətin vəfatından sonra müsəlmanlar məşvərət edərək, şura qaydası əsasında Əbu Bəkri xəlifə seçmişlər. Lakin şiə məzhəbinin məsələyə baxış tərzi fərqlidir. Əvvəla, şiələrin fikrincə, Peyğəmbər sağlığında konkret olaraq Əli ibn Əbu Talibi (ə) öz canişini olaraq ümmətə tanıtmışdı. Çünki Peyğəmbər bu cür ciddi məsələni həll edilməmiş qoya bilməzdi. Peyğəmbərə kimin canişinlik etməsi məsələsi o həzrətin özü tərəfindən qəti surətdə bildirildiyi üçün, bü məsələdə şura təşkil etmək düzgün deyil. İkincisi, şiə imamları Əbu Bəkrin seçkisini də qanuni saymamış, yəni bu seçki zamanı şura prinsipinə əməl edilmədiyini, məşhur səhabələrin heç də hamısının bu seçkiyə qatılmadığını və onun nəticəsini dəstəkləmədiyini buyurmuşlar.

N.R.

ŞÜKR

Yaxşılıq müqabilində edilən razılıq, minnətdarlıq. Dini termin olaraq, Allahın verdiyi nemətlər qarşısında Ona minnətdar olmaq, həmd-səna etmək mənasını bildirir.

Dilçi alimlər qeyd etmişlər ki, şükr həmddən fərqlidir. *Həmd* heç bir yaxşılıq görmədən, təmənnasız şəkildə edilən tərif və ucaltmadır. Şükr isə, hər hansı nemət və ehsan müqabilində edilir. Həmd yalnız dillə edildiyi halda, şükr həm dillə, həm də əməllə yerinə yetirilə bilər.

Qurani-kərimdə də «şükr» kəlməsi Allahın öz bəndələrinə bəxş etdiyi nemətlərlə yanaşı çəkilir: «Allah sizi analarınızın bətnindən heç bir şey bilmədiyiniz *(dərk etmədiyiniz)* halda çıxartdı. Sonra sizə qulaq, göz və qəlb verdi ki, şükr edəsiniz» *(Nəhl, 78)*. Ayələrin birində Allah-təala insanların qidaya olan ehtiyacını aradan qaldırmaq üçün əti yeyilən heyvanlar yaratdığına işarə edərək buyurur: «Onları sizə belə ram etdik ki, bəlkə şükr edəsiniz» *(Həcc, 36)*.

Şükr etmək müsəlman əxlaqının ən üstün cəhətlərindən və Allahın bəyəndiyi ən gözəl əməllərdəndir. Hər kim Allahdan aldığı nemətə görə şükr etsə, Allah ona qat-qat artıq nemət bağışlayar: «Yadınıza salın ki, o zaman Rəbbiniz belə bildirmişdi: «Əgər şükr etsəniz, sizə *(olan nemətimi)* artıracağam. Yox, əgər nankorluq etsəniz, *(unutmayın ki)* mənim əzabım həqiqətən, şiddətlidir» *(İbrahim, 7)*. «Həqiqətən, Loğmana: «Allaha şükr et!» – deyə hikmət verdik. Kim şükr etsə, özü üçün şükr edər. Kim nankor olsa, bilsin ki, Allah onun şükrünə möhtac deyil, *(özlüyündə)* şükrə layiqdir!» *(Loğman, 12)*. «Əgər siz şükr etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin?! Allah şükrə qiymət verəndir, *(hər şeyi)* biləndir» *(Nisa, 147)*. «Allah şükr edənlərə mükafat verər» *(Ali-İmran, 144)*.

Təəssüf ki, bir çox insanlar Allahın saysız-hesabsız nemətlərindən faydalansalar da, şükr etmirlər, bununla da Onun qəzəbini qazanırlar: «Həqiqətən, Allah insanlara lütf edəndir, lakin insanların bir çoxu şükr etməzlər!» *(Bəqərə, 243)*. Qurani-kərimdə rifah içində yaşayan, amma bunun müqabilində Allaha şükr etməyən, nankor olan və təbii fəlakət (sel) nəticəsində yer üzündən silinən Səba xalqı haqqında danışılır *(Səba, 15-17)*.

Həzrət Mühəmməd Peyğəmbərin (s) hədislərində də şükr etmək ən gözəl sifətlərdən biri kimi xatırlanır: «Mömin əgər sevindirici bir işlə qarşılaşsa, şükr edər və həmin iş onun üçün xeyirli olar. Əgər kədərli bir işlə qarşılaşsa, səbir edər və bu iş də onun üçün xeyirli olar».

İslam Peyğəmbəri şükr və bəndəliyin canlı nümunəsi idi. Gecələr yoruluncaya kimi ibadət edər, «Axı, Allah sənin keçmiş və gələcək günahlarını bağışlayıb. Niyə özünə əziyyət verib ibadət edirsən?» deyə soruşanlara belə cavab verərdi: «Deyirsiniz ki, Alla-

ha şükr edən bəndə olmayım?».

Peyğəmbərin aşağıdakı mübarək kəlamı şükr edən şəxsin nə qədər böyük savab qazandığını göstərir: «Hər kim yemək yeyib buna görə Allaha şükr etsə, Allah rizası xatirinə oruc tutan qədər savab qazanar. Hər kim salamatlıq içində yaşayıb Allaha şükr etsə, bəlaya düşən və səbir edən adam qədər savaba sahib olar. Şükr edən varlının savabı kasıblığına qane olan adamın savabı qədərdir».

N.R.

ŞÜKR SƏCDƏSİ

Şükr niyyətilə yerinə yetirilən səcdə. Allahın hər hansı nemətini xatırlayan şəxs məkandan və şəraitdən asılı olmayaraq hər an şükr səcdəsi edə bilər. Bunun üçün qibləyə yönəlmək və ya dəstəmaz almaq tələb olunmur. İmam Cəfər Sadiq (ə) məsləhət görürdü ki, kim Allahın nemətlərindən birini xatırlasa, alnını yerə qoyub şükr səcdəsi etsin. Əgər minikdə (atın belində) olsa, yerə enib səcdə etsin. Əgər bu mümkün olmasa, alnını yəhərin qaşına, ya da ovcunun üzərinə qoysun.

Şükr səcdəsi zamanı istənilən dildə istənilən zikri söyləmək olar.

Şafii və hənbəli məzhəblərinə görə, şükr səcdəsi etmək müstəhəb əməldir. Malikilər bunu məkruh sayırlar. Bu məzhəbdə hər hansı nemətin əldə edilməsi və ya hər hansı bəlanın aradan qalxması münasibətilə iki rükət namaz qılmaq müstəhəb sayılır. Hənəfi məzhəbində şükr səcdəsi etmək müstəhəb olsa da, bunu namazdan dərhal sonra yerinə yetirmək məkruhdur. Çünki bu halda camaat şükr səcdəsini namazın vacib və ya sünnət əməli kimi qəbul edə bilərlər.

Cəfəri məzhəbində şükr səcdəsi çox bəyənilən əməllərdən sayılır və namazdan sonra yerinə yetirilməsinin heç bir maneçiliyi yoxdur. Əksinə, İmam Rzanın (ə) buyurduğu kimi, namazdan sonra şükr səcdəsi edilməsinin mənası budur ki, Allah-təala həmin namazı qılmağı insana nəsib etdiyi üçün Ona şükr edilir.

N.R.



TABİİN

Müsəlman halında *səhabələri* görmüş və onlardan elm öyrənmiş şəxslərə verilən ad. Hədis rəvayətində ikinci *təbəqə* sayılır. Qurani-kərimin aşağıdakı ayəsində Allah «yaxşı işlər görməkdə onların ardınca gedən kimsələr» ifadəsi ilə tabiin nəslindən bəhs etmiş və onlardan razı olduğunu bildirmişdir: «*(İslamı)* ilk əvvəl qəbul edib *(bu işdə başqalarından)* irəli düşən mühacirlərə və ənsara, həmçinin, yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar» *(Tövbə, 100)*.

R.M.

TAĞUT

Həddi aşan, şeytan. Özlərini tanrı elan edərək, xalqa əziyyət verən hökmdarlar, *fironlar*, *nəmrudlar* da tağut sayılır. Qurani-kərimdə buyrulur: «İman gətirənlər Allah yolunda, kafir olanlar isə tağut yolunda vuruşurlar. O halda şeytanın dostlarıyla *(kafirlərlə)* vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir!» *(Nisa, 76)*.

R.M.

TALAQ

Nikahın pozulması, boşanma. Talaq həm tərəflərdən birinin təşəbbüsü ilə, həm hər iki tərəfin istəyi ilə, həm də şəriət məhkəməsinin *(müctəhidin)* hökmü ilə həyata keçirilə bilər.

İslam dinində yalnız ər-arvad arasındakı münasibətlərin dözülməz həddə çatdığı zaman talağa icazə verilir. Tarixdən məlumdur ki, Həzrət Mühəmməd Peyğəmbər (s) boşanmaq arzusunda olan səhabələrini daha dərindən düşünməyə, həyat yoldaşına güzəştə getməyə və ailə ocağını qorumağa çağırırdı (oğulluğu *Zeyd ibn Harisə* ilə *Zeynəb bint Cəhşin* əhvalatında olduğu kimi). İmam Cəfər Sadiq (ə) buyurmuşdur: «Allahın ən çox qəzəbləndiyi halal əməl talaqdır. Talaq Allahın ərşini titrədir». Qurani-kərimdə talaqdan

əvvəl ailənin qorunması üçün bir daha düşünmək, güzəştə getmək, anlaşılmazlığı danışıq yolu ilə aradan qaldırmaq tövsiyə edilmişdir *(Nisa, 128)*. Həmçinin, Quranda məsləhət görülür ki, ər-arvadın münasibətləri gərginlik həddinə çatıbsa, onların ağsaqqal qohumları bu vəziyyəti aradan qaldırmağa və tərəfləri barışdırmağa çalışsınlar *(Nisa, 35)*.

Talaq verən kişi yetkinlik yaşına çatmış, əqli cəhətdən sağlam olmalı, öz istəyi ilə talaq verməlidir. Şiə məzhəbində talaq verən kişinin ayıq olması (sərxoş olmaması) şərtdir. Əhli-sünnə məzhəblərində isə sərxoş şəxsin də talağı səhihdir. Yenə şiə (cəfəri) məzhəbinə görə, talaq düzgün ərəb dilində, şəriətdə nəzərdə tutulmuş konkret ifadələrdən biri ilə deyilməlidir. Əhli-sünnə məzhəbində isə hər hansı dildə, hər hansı formada və hətta bəzi şərtlər və üstüörtülü rəmzlər halında da deyilməsinə icazə verilir.

Şəriətə görə, ər öz arvadına bir dəfə talaq verdikdən sonra yenə onun yanına qayıda bilər və bu zaman təzədən kəbin kəsdirmək lazım deyil. İkinci dəfə də bu vəziyyətin təkrar edilməsinə icazə verilir. Bu talaqlar ***rici*** (qayıdış) ***talaqları*** adlanır. Üçüncü talaq isə ***bain talaq*** adlanır. Üçüncü talaqdan sonra kişinin öz arvadına qayıtmasına icazə yoxdur. Bu halda yalnız qadın başqa bir kişiyə ərə gedib (aralarında cinsi əlaqə olmaq şərti ilə) ondan boşansa və ya ikinci əri vəfat etsə, yenidən birinci əri onu kəbinlə özünə arvad edə bilər *(Bəqərə, 230)*. Birinci və ya ikinci rici talaqdan sonra kişi *iddə* müddətində arvadını yanına qayıtmasa, bu, bain talaq sayılır və onlar bir-birindən üç talaqla boşanmış hesab edilirlər. Məhkəmənin (müctəhidin) hökmü ilə verilmiş talaq da bain hökmündədir.

Cəfəri məzhəbinə görə, üç talaq birdəfəyə, eyni məclisdə (şəraitdə) verilə bilməz; eyni məclisdə verilən üç talaq bir talaq hökmündədir. Bu, qəzəb halında talaq verməyin qarşısını almaq üçündür. Əhli-sünnə məzhəbində isə, kişi eyni məclisdə üç dəfə talaq verdiyini elan etsə, günah qazanır, amma arvadından bain talaqla boşanmış sayılır.

Bain talağın daha iki növü də şəriətdə müəyyən edilib. Qadın ərindən boşanmaq istəyirsə, öz mehriyyəsini və ya başqa bir əmlakı ərinə bağışlamaq şərti ilə ondan talaq ala bilər. Buna ***xül talağı*** deyilir *(Bəqərə, 229)*. Qadınla kişi hər ikisi ailə həyatına son qoymaq istəsələr, qadın öz əmlakından müəyyən məbləğdə pulu və ya malı ərinə hədiyyə verərək, ona talaq verməsini tələb edə bilər. Buna ***mübarat talağı*** deyirlər.

Cəfəri məzhəbində talağın səhih olması üçün kişinin öz iradə və istəyinə əsasən talaq verməsi, bu zaman zarafat niyyəti etməməsi, talaq verilən zaman qadının *heyz* və *nifas* halında olmaması tələb edilir. Əgər qadın heyzdən paklandıqdan sonra kişi onunla yaxınlıq etmişsə, növbəti heyz dövrünə kimi ona talaq verə bilməz; qadının növbəti heyz halını başa vurub paklanmasını gözləməlidir ki, ona talaq versin. Əhli-sünnə məzhəblərinə görə, bu şərtlərin pozulduğu talaq ***bidət talağı*** adlanır; bu halda kişi günah qazanmış olur, amma talaq qüvvədə qalır.

Boşanan qadın başqa kişiyə ərə getməzdən əvvəl bir müddət gözləməlidir; buna *iddə* deyilir *(Bəqərə, 228)*. Talaqdan sonra kişi öz keçmiş arvadının *mehrini* verməli, həm də müəyyən müddət ərzində onun dolanışıq xərcini ödəməlidir (buna *nəfəqə* deyilir və müasir anlamda alimentə uyğundur).

Qurani-kərimdə talaq zamanı iki şahidin olması əmr edilir *(Talaq, 2)*. Bunun əsas səbəbi emosional gərginlik, qəzəb və sairə bu kimi hallarda verilən talağın qarşısını almaq, tərəflərə düşünmək üçün imkan verməkdir. Cəfəri məzhəbində iki şahidin olması vacib şərt sayılır və şahidsiz talaq etibarsız qəbul edilir. Lakin əhli-sünnə məzhəblərində iki nəfərin talağa şahid durması vacib deyil.

N.R.

TƏBEİ-TABİİN

bax: *ətbaüt-tabiin*.

TƏBƏQƏ

Hədis *ravilərinin* qrupları. Həzrət Mühəmməd Peyğəmbərin (s) hədislərini rəvayət edən raviləri səhabədən başlayaraq daha sonrakı dövrlərdə yaşayanlara doğru bir-biri ilə müasir olmaq baxımından qruplaşdırırlar. Bu qruplara təbəqə deyilir. İlk üç təbəqə *səhabə*, *tabiin* və *ətbaüt-tabiin* təbəqələridir.

R.M.

TƏBƏRRA

bax: *təvəlla və təbərra.*

TƏBƏRRÜK

Ərəb dilindən tərcüməsi «bərəkətli etmək» mənasını verir. Hər hansı müqəddəs şəxsiyyətin xatirə məqsədilə qorunub-saxlanılan şəxsi əşyasına yaxud müqəddəs məkana məxsus yadigara təbərrük deyilir. Həzrət Mühəmməd Peyğəmbərin (s) saç-saqqal telinin, sınmış dişinin müsəlmanlar tərəfindən təbərrük kimi götürüldüyü barədə rəvayətlər var. Peyğəmbərin həyat yoldaşı *Ümmi-Sələmə* Onun saçının telini və tər damlalarını yığıb ətirlə qarışdırmış və saxlamışdı. Peyğəmbərin vəfatından sonra müsəlmanlardan kimə göz dəyirdisə və ya başqa bir xəstəliyə tutulurdusa, Ümmi-Sələmə Həzrət Peyğəmbərin tellərini bir qabın içinə salıb-çıxarır, sonra həmin suyu xəstə üçün göndərirdi. Xəstələr də bu suyu içib şəfa tapırdılar *(Səhihül-Buxari, Libas kitabı, 5896-cı hədis).* Hətta məşhur səhabə *Ənəs ibn Malik* vəsiyyət etmişdi ki, vəfat edəndən sonra onun *hənutuna* Peyğəmbərin saç tükünün və tərinin qarışdırıldığı ətirdən qatsınlar *(Səhihül-Buxari, İstizan kitabı, 6281-ci hədis).* Ənəsin anası Ümmi-Süleym də Peyğəmbərin tərini toplayıb ətir kimi qoxulayırdı *(Səhihü Müslim, Fəzail kitabı, 6055-6057-ci hədislər).*

İslam Peyğəmbəri həcc ziyarəti zamanı saçını qırxdırdıqdan sonra tükləri müsəlmanların arasında paylamağı tapşırmışdı *(Səhihü Müslim, Həcc kitabı, 3152-3155-ci hədislər; Sünənüt-Tirmizi, Həcc kitabı, 912-ci hədis; Sünənü Əbu Davud, Həcc kitabı, 1981-ci hədis).*

Məşhur səhabə *Xalid ibn Vəlid* Həzrət Mühəmməd Peyğəmbərin (s) saçının telini öz dəbilqəsinin içində gəzdirir və inanırdı ki, bu dəbilqə ona qələbə gətirir *(Hakim Nişaburi. Əl-Müstədrəkü ələs-Səhiheyn, III, 366-367; 5366-cı hədis).*

Bəzən Həzrət Peyğəmbər və imamlar hər hansı şəxsə öz geyimlərindən birini bağışlayırdılar. Bu geyim həmin şəxs tərəfindən əziz bir xatirə kimi qorunur, vəfatından sonra onun varislərinə təhvil verilirdi (məsələn: Həzrət Mühəmməd Peyğəmbərin (s) şair *Kəb ibn Züheyrə* hədiyyə etdiyi *xirqə*). Bəzən isə hətta həmin geyimi tikə-tikə doğrayıb, təbərrük kimi camaata paylayırdılar. Bu gün də müqəddəs *Kəbə* evinin örtüyünü *(kisvət)* hər həcc mövsümünün sonunda kiçik hissələrə bölür və hacılara paylayırlar. Həzrət Mühəmməd Peyğəmbərin (s) sağlığında onun dəstəmaz suyunu müsəlmanlar təbərrük kimi yığır, sonra üzlərinə və bədənlərinə sürtür, hətta şəfa məqsədilə içirdilər *(Səhihül-Buxari, Vüzu kitabı, 187-189-cu hədislər; Səlat kitabı, 376-cı və 501-ci hədislər, Mənaqib kitabı, 3553-cü və 3566-cı hədislər; Libas kitabı, 5859-cu hədis).*

Təbərrük hər şeydən əvvəl bir xatirə və yadigardır. Bu məsələdə ifrata varmaq mövhumata və xurafata gətirib-çıxara bilər. Təbərrükün öz-özlüyündə insana hər hansı fayda verə biləcəyinə inanmaq mənasızdır. Yalnız Allahın izni ilə təbərrük insana fayda yetirə bilər. Hər hansı müqəddəs şəxsiyyətin və ya yerin təbərrükünü özü ilə gəzdirən şəxs buna inanmalıdır ki, onu qoruyan Allahdır; sadəcə olaraq o, həmin təbərrükün mənsub olduğu müqəddəs şəxsin və ya yerin xatirinə Allahın amanında qalır.

N.R.

TƏCƏLLİ (TƏCƏLLA)

Ərəb dilindən tərcüməsi «ortaya çıxma, görünmə» deməkdir. Qurani-kərimdə öz qövmünün təhriki ilə Həzrət Musa Peyğəmbərin (ə) Allahı görmək istəyi müqabilində Allahtəalanın öz nurunu dağa yönəltməsi təcəlli kimi ifadə edilir: «Rəbbi dağa təcəlli etdikdə onu parça-parça etdi» *(Əraf, 143).* İrfan sahiblərinin nəzərində bütün varlıq aləmi Allahın təcəlli məkanıdır və bütün əşyalar Allahın təcəllisinin zühurudur. Həqiqətdə var olan yalnız Allahdır, qalan hər şey Onun təcəllisidir.

Təcəlli əsasən, *təsəvvüf* (sufilik) termini kimi tanınır. Sufilər arif insanın qəlbində Allahın isim və sifətlərinin inikas etməsini təcəlli adlandırırlar. Təcəlli və onun dərəcələri barədə sufi ədəbiyyatında fərqli fikirlərə rast gəlmək mümkündür. Ariflərin hər biri təcəlli barədə öz müşahidələrinə uyğun olaraq fikir söyləyib.

Təsəvvüf aləmində *seyrü-çülukun* son mərhələsinə – *həqiqətə* yetmək üç mərhələ üzrə inkişaf edir: təxəlli, təhəlli və təcəlli. Bu adlar bircə hərflə fərqlənir. Fərqləndikləri «x», «h» və «c» hərflərinin ərəb əlifbası ilə yazılış şəkli də demək olar ki, eynidir və yalnız nöqtə təfavütünə malikdir.

Təxəlli – pis sifətlərdən təmizlənmək və insanı Allahdan uzaqlaşdıran əməlləri tərk etməkdir. Təhəlli – gözəl və bəyənilən sifətləri özündə tərbiyə etmək və öz əxlaqını bunlarla bəzəməkdir. Təcəlli isə haqqın cilvələnməsi, haqq yolçusunun qəlbində haqq nurunun parlamasıdır.

Sufilərin fikrincə, təcəllinin üç növü var: əfali, sifati və zati. Yəni təcəlli – mərhələlər üzrə arifin qəlbində əvvəlcə Allahın fel və əməllərinin, sonra ad və sifətlərinin, ən sonda isə zatının zahir olmasıdır.

Həzrət Əli (ə) təqvalıların xüsusiyyətlərini təsvir edərkən, buyurmuşdu: «Allah onlarda təcəlli edəndə Allahdan savayı hər şey onların gözündə xırdalaşar. Cənnətə elə münasibət bəsləyərlər ki, sanki onu görür və içindəki nemətləri dadırlar. Cəhənnəmə münasibətləri də elədir ki, elə bil alovu görür və içində əzab çəkirlər...» *(Nəhcül-bəlağə, 184-cü xütbə).*

N.R.

TƏCVİD

Quran oxumaq qaydalarından bəhs edən elm. Təcvid elminin kökündə Həzrət Mühəmməd Peyğəmbərin (s) Quran oxuyarkən riayət etdiyi *qiraət* qaydaları durur. Bu qaydalar Quran ayələrinin dinləyiciyə daha aydın çatdırılmasına, ayədəki mənanın dolğun və anlaşıqlı şəkildə əks etdirilməsinə xidmət edir. Elə «təcvid» sözünün mənası da «yaxşılaşdırmaq, gözəlləşdirmək» deməkdir. İslam aləmində təcvid qaydalarını gözəl bilən və Quranı füsunkar ahənglə, ürəyəyatan avazla oxuyan şəxslər çox olmuşdur (bunlara qare deyilir; bax: *qare*).

Təcvid sırf İslami elmdir. Onun əsas şərti – hər bir hərfin məxrəcinə (ağızdakı tələffüz yerinə) diqqət yetirməklə kəlmələri düzgün qaydada tələffüz etməkdir. Təcvid elmində hər bir hərfin öz xüsusiyyətləri var ki, bunları tələffüzdə olduğu kimi əks etdirmək qaredən böyük bacarıq tələb edir. Ayələri oxuyan zaman mədd və qəsr (hərfləri uzatmaq və qısaltmaq), ğünnə (səsi burunda tələffüz etmək), idğam (bəzi hərflərin tələffüz zamanı bir-biri ilə əvəz edilməsi), vəqf və ibtida (dayanmaq və qiraətə davam etmək) kimi qaydalara riayət etmək lazımdır.

Bununla yanaşı, təcviddə qiraətin sürəti (ritmi) də müəyyən rol oynayır. İslami ədəbiyyatda göstərilir ki, təcvid dörd əsas qiraət üsulundan ibarətdir: təhqiq, tərtil, tədvir və təhdir. Bunlardan ən üstünü tərtildir. Tərtil – ayələri aramla, mənalarına diqqət yetirərək, düşüncə ilə oxumaq deməkdir (bax: *tərtil*). Təhqiq – Quranın çox asta sürətlə, hərflərin məxrəcinə tam diqqət yetirməklə, uzun tələffüz edilməli olan hərfləri çox uzatmaqla oxunuşudur. Yeddi məşhur qaredən Asim ibn Əbun-nücud, Həmzə ibn Həbib Zəyyat və Vərş (Nafe Mədəninin ravisi) qiraəti təhqiqə uyğundur. Bu qiraət qaydası Quran oxumağı öyrənənlər üçün faydalıdır. Təhdir – Quranın sürətlə, amma hərflərin məxrəcini gözləməklə oxunuşuna deyilir. Bu, Abdullah ibn Kəsirlə Qalunun (Nafenin digər ravisinin) qiraət üsuludur (Əbu Əmr Bəsrini də bura aid edənlər var). Təhqiqlə təhdir arasında orta sürətlə oxumağa tədvir deyirlər ki, yeddi qaredən qalanlarını bu qiraət üsuluna aid edirlər.

N.R.

TƏDİL

bax: *cərh və tədil.*

TƏFSİR

Ərəb dilindən tərcümədə «izah etmək, açıqlamaq» mənasını verir. Terminoloji mənada Qurani-kərimə yazılmış şərhlərə təfsir deyilir. Təfsirlərdə Quran kəlmələrinin lüğəvi mənası, çətin anlaşılan sözlərin izahı, Quranın ədəbi gözəlliyi, qiraət fərqləri, ayələrin nazil olma səbəbləri və ardıcıllığı, ayələrin insan tərbiyəsinə və bəşəri təkamülə təsiri, əhkam ayələrinin hökmü, *möhkəm* və *mütəşabeh*, *nasix* və *mənsux* ayələrin şərhi və s. məsələlər araşdırılır. Müsəlman alimlər tərəfindən indiyə kimi müxtəlif həcmli (bir cilddən başlayaraq 60 cildə kimi və daha artıq həcmdə) minlərlə adda təfsir qələmə alınmışdır.

Təfsir sahəsində ilk çalışmaların tarixi

Həzrət Mühəmməd Peyğəmbərin (s) səhabələrinin zamanına gedib-çıxır. Əsasən, Peyğəmbərdən eşitdikləri hədislər əsasında Quranı təfsir edən səhabələrin ön cərgəsində dörd *raşidi xəlifəsi, Abdullah ibn Məsud, Abdullah ibn Abbas, Übeyy ibn Kəb, Zeyd ibn Sabit, Əbu Musa Əşəri* və *Abdullah ibn Zübeyr* dururdular *(Süyuti. Əl-İtqan).* Səhabələr təfsir zamanı hədislərə istinad etməklə yanaşı, ərəb ədəbiyyatına aid şeir nümunələrindən, əhli-kitabın rəvayətlərindən və ictihad nəticəsində əldə etdikləri qənaətlərdən də istifadə edirdilər.

Səhabələrdən sonra *tabiin* təbəqəsindən olanlar təfsir istiqamətində çalışmaları davam etdirmişlər. Bunların sırasında Mücahid, Səid ibn Cübeyr, İkrəmə ibn Əbu Cəhl, Həsən Bəsri, Qətadə xüsusi fərqlənmişlər. *Ətbayi-tabiin* dövründən etibarən təfsir sahəsində müstəqil əsərlər yazılmağa başladı. Bundan əvvəl təfsirlə adətən, mühəddislər (hədis alimləri) məşğul olurdular. İlk təfsir kitablarının müəlliflərindən bəziləri bunlardır: Zeyd ibn Harun Səlmi, Şöbə ibn Həccac, Vəki ibn Cərrah, Süfyan ibn Üyeynə, Kəlbi, Əbu Həmzə Sümali, Əban ibn Təğlib, Əbdürrəhman ibn Zeyd ibn Əsləm, Yəhya ibn Ziyad Fərra və b.

Fərranın təfsir sahəsində fəaliyyətə başlamasının maraqlı tarixçəsi vardır. Abbasi xəlifəsinin sarayında xidmət edən yaxın dostlarından biri ona belə bir məktub yazmışdı: «Xəlifənin vəziri mənə Quran barədə bəzi suallar verib, cavabında aciz qalmışam. Əgər mümkün olsa, mənim üçün Quran təfsirinin əsaslarını yaz, ya da bu mövzuda bir kitab tərtib et ki, ondan istifadə edib suallara cavab verim». Fərra məktubu alınca, tələbələrini və katibləri başına toplayıb məscidə gedir. Məsciddə Quran oxumaqla məşğul olan bir *hafizi* yanına çağırıb, Quranı əvvəldənaxıra ayə-ayə oxumasını xahş edir. Hafiz «bismillah» ayəsindən başlayır. Fərra onun oxuduğu hər ayə barədə bildiklərini ətrafındakılara söyləyir. Katiblər onun dediklərinin hamısını qələmə alırlar. Rəvayətə görə, bu təfsir elə nadir və qiymətli əsərə çevrilmişdi ki, onu qələmə alan katiblər hər səhifəsini bir dirhəmə satırdılar. Təfsiri pulsuz əldə etməyə çalışan elm həvəskarları müəllifə şikayət edirlər. Fərra katiblərin acığına daha geniş və əhatəli bir təfsir mühazirəsinə başlayır. Beləliklə, dörd cildlik həcmə malik olan bütöv Quran təfsiri yaranır. Fərranın təfsiri əsas etibarilə Quranın ədəbi incəliklərinin şərhini əhatə edirdi və ərəb dili qrammatikasının qaydaları baxımından yazılmışdı. Bu dövrdə şiə alimlərindən Fürat Kufi, Əli ibn İbrahim Qummi, Nömani də təfsir kitabları yazmışlar. XI İmam Həsən Əsgəriyə aid edilən məşhur təfsir də bu dövrün məhsuludur. *Kütübüs-sittəyə* daxil olan kitablardan birinin müəlifi İbn Macənin də təfsir kitabı vardı.

Hicri IV (miladi X) əsrin əvvəllərindən etibarən, təfsir elmi böyük sıçrayışla inkişaf etməyə başladı. Bu dövrün təfsirləri arasında Təbərinin qələmə aldığı fundamental həcmli «Cameül-bəyan fi təfsiril-Quran» əsəri, Sələbinin «əl-Kəşfü vəl-bəyan ən təfsiril-Quran» kitabı, şiə məzhəbli Mühəmməd ibn Məsud Əyyaşinin, zeydi məzhəbli İbn Üqdə Əhməd ibn Mühəmməd Kufinin təfsirləri böyük əhəmiyyətə malikdir.

Sonrakı əsrlərdə Bəğəvi («Məalimüt-təfsir»), İbn Kəsir («Təfsirül-Quranül-əzim»), Süyuti («əd-Dürrül-mənsur» və «Cəlaleyn»), Şövkani («Fəthül-qədir»), Qazi Beyzavi («Ənvarüt-tənzil və əsrarüt-təvil»), İmam Fəxr Razi («Məfatihül-ğeyb»), Zəməxşəri («əl-Kəşşaf»), Əbu Həyyan («əl-Bəhrül-mühit»), Qürtübi («əl-Came li-əhkamil-Quran»), Alusi («Ruhül-məani»), İsmail Həqqi Əfəndi («Ruhül-bəyan»), Nəsəfi («Mədariküt-tənzil və məaniyüt-tənzil»), Nişaburi («Qəraibül-Quran və rəğaibül-fürqan»), Təntavi («əl-Cəvahir»), Seyid Rəşid Riza («əl-Mənar»), Seyid Qütb («Fi zilalil-Quran»), Şeyxüt-taifə Tusi («ət-Tibyan»), Əllamə Təbrisi («Məcməülbəyan»), Əbul-Fütuh Razi («Rəvzül-cinan və rəvhül-cənan»), Feyz Kaşani («Safi», «Əsfa» və «Müsəffa»), Həvizi («Nurüs-səqəleyn»), Seyid Abdullah Şübbər («Təfsirü Şübbər»), Əllamə Təbatəbai («əl-Mizan»), Cəvadi Amuli («Təsnim»), Nasir Məkarim Şirazi («Təfsirinümunə»), Şeyx Fəzlüllah («Min vəhyil-Quran») və başqa müəlliflərin qələmə aldıqları təfsirlər İslam dünyasında məşhurdur.

Metodoloji baxımdan bir neçə təfsir üsulu vardır. Məsələn:

Əqli təfsir. Belə təfsirlərdə adətən, ayələrin fəlsəfə, *kəlam* və sairə bu kimi əqli elmlər vasitəsilə izahına üstünlük verilir. Bunlara bəzən rəy təfsiri də deyirlər. Amma «rəy təfsiri» ifadəsi bəzi hallarda mənfi mənada – Quranı özbaşına, heç bir sübuta əsaslanmadan yozmaq cəhdi kimi də işlədilir.

Nəqli təfsir. Belə təfsirlərdə Quran ayələri adətən, hədislərə əsasən, keçmişdəki alimlərin fikirləri əsas götürülməklə izah edilir. Bu zaman əqli metodlar tətbiq edilmir, yalnız müvafiq məzmunlu hədis və xəbərlər sadalanır, hətta çox zaman hədislərin arasında hər hansı seçki və incələmə də aparılmır.

İmam Fəzr Razinin «Təfsirül-kəbir»i (əsl adı «Məfatihül-ğeyb»dir) əqli təfsirlərə, Bəhraninin «əl-Bürhan fi təfsiril-Quran» əsəri isə nəqli təfsirlərə bariz nümunədir.

Bəzi müəlliflər Qurani-kərimi rəmzi mənalar və təvillər baxımından (İbn Ərəbi kimi), bəziləri də irfan və təsəvvüf yönündən (Xacə Abdullah Ənsari kimi) şərh etmişlər. Quranın ədəbi və ləfzi (söz) gözəlliklərinin izahını ön plana çəkən (Zəməxşərinin «əl-Kəşşaf» təfsiri kimi), ayələri müasir elmi kəşflərlə əlaqələndirməyə çalışan (Rəşid Rizanın «əl-Mənar» təfsiri kimi) təfsir müəllifləri də olmuşdur. Əllamə Təbatəbai isə «əl-Mizan» təfsirində Quranın bir ayəsini başqa ayələrin köməyi ilə açıqlamaq (Quranı Quranla təfsir etmək) metodunu izləmişdir.

Təfsir elminin mütəxəssisinə müfəssir deyilir. Müfəssir ərəb dilinin qrammatikasını (sərf və nəhv), hədis elmini, *kəlamı,* lüğət və ədəbiyyatı, *fiqh* və *üsüli-fiqhi,* tarixi mükəmməl bilməli, ayələri aid olduqları elm sahələri ilə əlaqələndirməyi bacarmaq üçün bəzi dünyəvi elmləri də mənimsəməli, geniş dünyagörüşünə, iti zehnə, hərtərəfli baxış tərzinə və araşdırıcılıq qabiliyyətinə sahib olmalıdır.

N.R.

TƏHARƏT

Təmizlik, təmiz olma. Dini baxımdan pis (murdar) qəbul olunan şeyləri bədəndən uzaqlaşdırmaq məqsədilə yuyunma və ya təmizlənmə. *Dəsiəmaz* almaq da təharət sayılır. Digər bir mənası isə *cənabət, heyz* və *nifas* hallarından çıxmaq üçün *qüsl* almaqdır.

A.Q.

TƏHƏCCÜD NAMAZI

bax: *gecə namazı.*

TƏHİYYAT

Ərəb dilindən tərcüməsi «salamlamalar» deməkdir. Tək halı «təhiyyə»dir. Qurani-kərimdə də «təhiyyə» kəlməsi məhz salamlama mənasında işlədilib: «Sizə salam verildiyi *(təhiyyə edildiyi)* zaman onu daha gözəl şəkildə alın və ya *(eynilə sahibinə)* qaytarın» *(Nisa, 86).* «Evlərə daxil olduğunuz zaman özünüzü Allah dərgahından bərəkət və xoşluq diləyən bir təhiyyə ilə salamlayın» *(Nur, 61).*

Dini termin olaraq, ət-təhiyyat – əhli-sünnə məzhəblərinə görə, namazın ikinci və axırıncı *rükətlərində* səcdədən qalxdıqdan sonra diz üstə oturaraq deyilən bir neçə cümlədən ibarətdir. Cəfəri məzhəbində buna *təşəhhüd* deyirlər. Bəzi əhli-sünnə kitablarında da «təşəhhüd» ifadəsi «ət-təhiyyat»a sinonim kimi işlədilir.

bax: *təşəhhüd.*

N.R.

TƏKBİR

Ərəb dilindən tərcüməsi «böyütmək»dir. Dini termin olaraq, «Allahü əkbər» (Allah təsəvvür olunan hər şeydən daha əzəmətlidir) kəlməsini söyləmək mənasını verir. Təkbir hələ Peyğəmbərin sağlığından bəri İslamın şüarı sayılır. *Azan* «Allahü əkbər» cümləsi ilə başlayır. Müsəlmanlar döyüşə təkbir sədası ilə girir, qələbəni də təkbirlə qeyd edirdilər. Hər hansı çətinlik həll olanda, gözlənilməz hadisə baş verəndə də təkbir söyləmək adətə çevrilib. İslamda ən əsas ibadət növü sayılan namaz da təkbirlə başlayır. Namazın əməlləri arasında təkbir söyləmək sünnətdir. «Həzrət Fatimənin təsbihatı» adı ilə tanınan zikr 34 dəfə «Allahü əkbər», 33 dəfə «Əlhəmdü lillah» və 33 dəfə «Sübhan Allah» kəlmələrinin təkrarından ibarətdir.

Təkbir söyləmək İslam dinində ən üstün dua və zikrlərdən sayılır. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub: «Kim səhər 100 dəfə, axşam da 100 dəfə təkbir desə,

həmin gün heç kəs ondan və daha artığını söyləmiş şəxsdən çox savab qazanmış olmaz».

Təkbirin güclü psixoloji faydası da var. Təkbir deyən şəxs Allahın qüdrətini və əzəmətini düşünür, Ona sığınmaqla özünü arxayın və qorunmuş hiss edir. Təkbirin sosial faydası isə müsəlmanlar arasında birlik və həmrəylik yaratmasıdır. *Həcc, bayram namazı* və sairə iri mərasimlərdə iştirak edən, müxtəlif irqlərə və millətlərə mənsub olan müsəlmanlar eyni vaxtda bir ağızdan təkbir deyəndə, öz qüvvələrinə bir daha inam hiss edirlər.

N.R.

TƏKBİRƏTÜL-EHRAM

Ərəb dilindən tərcüməsi «qadağan təkbiri» deməkdir. Namazın ilk əməli təkbirətül-ehramdır. Belə adlanmasının səbəbi budur ki, bu təkbiri dedikdən sonra insan namaza başlamış sayılır və namaz qılana haram (qadağan) olan bütün əməllər onun üçün həmin anda qüvvəyə minir. Buna bəzən iftitah təkbiri də deyirlər. Tərcüməsi «açılış təkbiri» deməkdir. Çünki namaz bu təkbirlə açılır (başlanır).

Təkbirətül-ehram cəfəri, şafii, hənbəli və maliki məzhəblərində namazın *rüknü*, yəni *fərz* (qəti vacib) olan əməli sayılır. Belə ki, namazın niyyətindən sonra təkbir söyləməyən adam namaza başlamamış hesab edilir və bu cür qılınan namaz batildir.

Yalnız hənəfi məzhəbində təkbirətül-ehram və yaxud iftitah təkbiri söyləmək fərz yox, vacib sayılır. Yəni namaza təkbirsiz başlayan adam günah etmiş olur, amma qıldığı namaz batil deyil. Hənəfi məzhəbinə görə, namazın əvvəlində «Allahü əkbər» əvəzinə, Allaha təzim ifadə edən hər hansı kəlmə deyilə bilər (məsələn: «sübhan Allah», «la ilahə illəllah», «Allahü rəhman», «Allahü rəhim» və s.). Hətta ərəbcə deyə bilməyən adam başqa dildə həmin mənanı ifadə edən kəlməni söyləsə kifayət edər. O biri məzhəblər içində yalnız malikilər təkbirətül-ehramı ərəbcə deyə bilməyən adamın başqa dildə söyləməsini caiz bilirlər.

Namaz üçün fərz olan bütün şərtlər təkbirətül-ehram üçün zəruridir. Məsələn: dəstəmazlı (qüsllü) olmaq, bədənin və paltarın pak olması, üzü qibləyə ayaq üstə durmaq və s. Təkbirətül-ehram deyərkən, eləcə də, namaz əməllərinin arasında müstəhəb təkbirləri söyləyərkən əlləri yuxarı qaldırmaq, baş barmaqları qulaqların sırğalığına qoymaq sünnətdir.

N.R.

TƏKFİR

Bir müsəlmanın *küfrə* düşdüyünü söyləmək. Allahın varlığını inkar etmək, ilahlıq və rəbliyində Ona şərik qoşmaq insanı küfrə aparır. Peyğəmbər və peyğəmbərlik mövzusunda küfrə səbəb olan bəzi xüsusiyyətlər isə bunlardır: peyğəmbərlik anlayışını inkar etmək, Quranda adı keçən peyğəmbərlərdən birini və ya bəzilərini inkar etmək, peyğəmbərlərdən birinə tanrılıq sifətini aid etmək, peyğəmbərləri və ya onlardan hər hansı birini təhqir etmək, *övliyaların* peyğəmbərlərdən üstün olduqlarını iddia etmək. Quranın bir qismini və ya hamısını inkar etmək, Quranda qeyd edilən məfhumların varlığına inanmamaq, Quranda olmayan bir şeyi ona əlavə etmək də küfrdür.

Mömin şəxsi qəsdən təkfir etmək (küfrdə ittihamlandırmaq) böyük günahdır.

R.M.

TƏKYƏ (TƏKKƏ)

bax: *xanəgah*.

TƏQİYYƏ

Qorxmaq, çəkinmək, zərər vermə ehtimalı olan şeylərdən uzaq durmaq, tədbir görmək. Güclü düşmən qarşısında möminin öz can, mal, namus, din və müqəddəs dəyərlərini qorumaq məqsədilə imanını kafirlərdən gizlətməsinə təqiyyə deyilir. Düşmənin zərərindən qorunmaq məqsədilə öz imanını müvəqqəti olaraq (dil ilə) inkar etmək caiz görülür.

R.M.

TƏQLİD

Lüğəvi mənası «özünün və ya başqasının boynuna boyunbağı taxmaq» deməkdir. Fiqh üsulu terminologiyasında bir sözü dəlilsiz qəbul etməyə deyilir. *Quran*, *sünnə* və *icma* dəlillərindən xəbərsiz olan şəxsin, bunları

bilən və bunlara əsasən hökm çıxaran *müctəhidin fətvasına* əməl etməsi təqlid sayılır. Təqlid edənə müqəllid (təqlidçi) deyilir. Təqlidçi yuxarıdakı üç mənbəyə yox, fətvanı verən alimə etimad edir. Müctəhidin əsaslandığı dəlillərə nəzər salaraq, onun rəyini mənimsəmək isə təqlid yox ittiba (tabe olmaq) sayılır.

İctihad səlahiyyətinə malik olan hər kəsin (buna müctəhid deyilir) bir məsələ ilə qarşılaşdıqda, o mövzuda ictihad etməsi və ictihad nəticəsində əldə etdiyi hökmə tabe olması vacibdir. Həmin mövzuda öz qənaətini kənara qoyub, başqasına təqlid etmək caiz deyil.

İctihad dərəcəsinə çatmamış şəxsin əməli hökmlərdə başqasına təqlid etməsi barədə əhli-sünnə alimlərinin rəyi iki qismə bölünür:

1. İfrat mövqedən çıxış edən alimlərin bir qismi təqlidi haram saymış, o biri qismi isə, bunun tam əksinə olaraq, təqlidi vacib hesab etmişdir. Belə ki, başda İbn Həzm olmaqla bir dəstə alim təqlidin haram olması fikrini irəli sürmüşlər. Çünki hər mükəlləfə (yetkinlik yaşına çatan, dini əmr və qadağanlara əməl etməsi vacib olan müsəlmana) vacibdir ki, qarşılaşdığı dini məsələlərdə ictihad etsin və dəlilləri araşdırdıqdan sonra gəldiyi qənaətə əməl etsin. Buna əks mövqedə duran alimlər təqlidin vacib olduğunu və ictihad qapısının bağlandığını söyləyirlər. Bu fikrə görə, müctəhid imamların dövründən sonra ictihad etibarsız hesab olunur və yalnız həmin imamların ictihadına təqlid etmək caizdir.

2. Mötədil (mülayim, orta) yolu seçən alimlər qəti şəkildə vacib və ya haram hökmü verməsən, bəzi şərtlər daxilində məsələyə aydınlıq gətirmişlər. Müctəhid səviyyəsində olmayan şəxs Quran, sünnə və icmanı araşdırma imkanına malikdirsə, araşdırma aparmadan başqasına təqlid etməsi caiz deyil. Amma araşdırma imkanına (yəni dəlili tapmaq və anlamaq gücünə) sahib olmayanlar bəzi şərtlər daxilində alimlərə təqlid edə bilərlər. Bu zaman aşağıdakı şərtlərə riayət olunmalıdır: ***a.*** İnsan təqlid etdiyi şəxsin elmli və ədalətli olduğunu yəqin bilməlidir; ***b.*** Təqlid olunan mövzu dinin zəruri əmrlərindən (beş dəfə namazın, orucun, həcc və zəkatın vacibliyi, zinanın, içkinin və sələmçiliyin haramlığı kimi) olmamalıdır; ***c.*** Müqəllid təəssübdən tamamilə uzaq olmalıdır. Belə ki, təqlid etdiyi alimin xəta edə biləcəyini qəbul etməli, alimin rəyinə zidd olan səhih bir hökmlə qarşılaşdıqda onun rəyini tərk edib səhih hökmü əsas tutmalıdır.

Yuxarıda göstərilənlər əhli-sünnə məzhəbi daxilində təqlid məsələsinə baxış tərzini əhatə edir. Şiə məzhəbinə görə, özü müctəhid olmayan şəxs ya ehtiyata əməl etməli, ya da müasiri olan ən elmli müctəhidə təqlid etməlidir. Şiə məzhəbinin məsələyə münasibəti *ehtiyat* və *mərceyi-təqlid* başlıqları altında izah edilmişdir.

Şiə məzhəbinin əxbari qolu ictihadı haram sayırdı (bax: *əxbarilik*).

R.M.

TƏQSİR

Tərcüməsi «qısaltmaq, azaltmaq» deməkdir. Dini termin olaraq, əsasən, iki mənada işlədilir.

a. *Ümrə* və *həcc* mərasimlərinin vacib əməllərindən biri. Saçın ya saqqalın, bığın tükündən bir az kəsməyə, yaxud da dırnağı qısaltmağa deyilir. Ümrəni yerinə yetirənlər *səy* əməlini bitirdikdən sonra təqsir etməlidirlər (saçın nə qədər qısaldılması barədə İslam məzhəblərinin fikir ayrılığı vardır). Həcci yerinə yetirənlər isə zilhiccə ayının 10-da (Qurban bayramı günü) qurbanlıq kəsdikdən sonra təqsir edirlər. Təqsirdən sonra hacılar *ehramdan* çıxırlar və ehramın qadağanları aradan götürülmüş olur. Həccə ilk dəfə gələn kişi istəsə saçını tamam qırxdıra da bilər, təqsir edə də bilər; amma saçını tamam qırxdırması daha savabdır. Qadın isə hər iki halda təqsir etməlidir (saçından və dırnağından kəsməlidir).

b. *Səfərdə* olan şəxsin namazı qısa qılması. Cəfəri məzhəbinə əsasən, şəriət baxımından səfərdə sayılan şəxs dörd rükətlik gündəlik namazlarını qısaldıb, iki rükət halında qılmalıdır. Üç rükətlik namaz isə olduğu kimi qalır.

Hənəfi məzhəbinə görə, səfərdə olan şəxsin namazı qəsdən bütöv qılması məkruhdur. Malikilər səfərdə olan şəxsin namazı qısa qılmasını təkid olunan sünnət sayırlar.

Şafii məzhəbinə görə, şəriət baxımından səfərdə sayılan şəxsin namazları bütöv ya qısa qılması öz istəyindən asılıdır. Hənbəli məzhəbinin də hökmü belədir, amma namazı qısa qılmaq daha üstündür.

N.R.

TƏQVA

Ərəb dilində «çəkinmək, uzaq durmaq» mənasını verən «vəqayə» kökündəndir. Lüğət alimləri yazırlar ki, vəqayə – bir şeyi, onun üçün zərərli olan təhlükədən qorumaq deməkdir. «Təqva» sözü da insan ruhunu zərərli olan sifətlərdən, günahlardan uzaq saxlamaq kimi mənalandırılır. Hədislərin birində buyurulur: «Təqvalı insan odur ki, əgər onun bütün əməllərini açıb insanlara göstərsələr, utanmağa layiq bir əməl tapmaq mümkün olmasın». Dini ədəbiyyatda təqva Allahdan qorxmaq, özünü həmişə Onun nəzarəti altında hiss etmək, halal və haramlara ciddi riayət etmək mənalarında da işlədilir.

Hədislərdə təqva gözəl xasiyyətlərin başı, peyğəmbərlərin əxlaqı kimi dəyərləndirilir. Həzrət Əli (ə) təqva haqqında buyurub: «Təqvanın zahiri tərəfi dünyada insana şərəf gətirər, batini tərəfi isə axirətdə». «Təqva bu gün *(yəni dünya həyatında)* sığınacaq və sipərdir, sabah *(yəni axirətdə)* isə cənnətə aparan yoldur». Həzrət Mühəmməd Peyğəmbər (s) və digər İslam müqəddəsləri öz xütbələrini adətən «Allaha münasibətdə təqvalı olun» cümləsi ilə başlayırdılar.

Qurani-kərimdə Allah-təala insanları yalnız təqvalarına görə qiymətləndirdiyini açıq-aşkar bildirir: «Allah yanında ən hörmətli olanınız ən təqvalı olanınızdır» *(Hücürat, 13).*

Bəzi ariflər təqvalı olmağı tikanlıqda yeriyən insanın halına bənzətmişlər. Tikanlıqda gəzən adam ayağını yerə diqqətlə qoyar, ətəyini yuxarı qaldırar, bir sözlə, tikanlıqla daha az təmasda olmağa çalışar. Təqvalı insan da bu dünyanın ləzzətləri qarşısında o cür davranmalıdır.

Təsəvvüf böyükləri təqvanın 3 mərtəbəsi olduğunu söyləmişlər:

Təqvanın ən aşağı həddi odur ki, insan əbədi cəzaya məhkum olmamaq üçün özünü böyük günahlardan, *şirkdən* qorusun. Quranda təqvanın bu mərtəbəsi haqqında buyurulur: «Allah onlara təqva kəlməsini *(kəlmeyi-şəhadəti)* xas etdi» *(Fəth, 26).*

Təqvanın ikinci mərtəbəsi günahlardan, hətta kiçik xətalardan da təmizlənməkdir. Quranda buyurulur: «Əgər o məmləkətlərin əhalisi iman gətirib təqvalı olsaydılar, şübhəsiz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq» *(Əraf, 96).*

Nəhayət, təqvanın üçüncü və ən üstün dərəcəsi budur ki, insan, onu Allahdan yayındıran hər şeyə arxa çevirsin, bütün diqqətini Allaha yönəltsin. Qurani-kərimdə müsəlmanlara məhz təqvanın bu dərəcəsinə yetişmək tövsiyə edilir: «Ey iman gətirənlər! Allaha münasibətdə layiqincə təqvalı olun!» *(Ali-İmran, 102).*

Təqva sahibləri ayə və hədislərdə «müttəqi» adı ilə tanıtdırılır. Həzrət Əli (ə) müttəqiləri belə xarakterizə edirdi: «Müttəqilərin əməlləri pak, gözləri ağlar, qəlbləri Allahdan qorxandır».

Qurani-kərimin Bəqərə surəsinin ilk ayələrində təqva sahiblərinin xüsusiyyətləri aşağıdakı şəkildə bəyan edilir: «Bu, *(haqdan gəlməsinə)* heç bir şəkk-şübhə yeri olmayan, təqvalılara doğru yol göstərən kitabdır. O kəslər ki, qeybə inanır, namaz qılır və onlara verdiyimiz ruzidən *(ehtiyaclılara)* paylayırlar. O kəslər ki, sənə endirilənə *(Qurana)* və səndən əvvəl endirilənlərə *(digər səmavi kitablara)* iman gətirir və axirətə də şəksiz inanırlar. Məhz onlar öz Rəbbləri tərəfindən *(göstərilmiş)* doğru yoldadırlar. Nicat tapanlar la onlardır» *(Bəqərə, 2-5).*

Bir gün Həmmam adlı mömin bir şəxs Həzrət Əli ibn Əbu Talibdən (ə) xahiş etdi ki, təqvalıların xüsusiyyətlərini sanki görürmüş kimi onun üçün təsvir etsin. Əli (ə) əvvəlcə qısa izahat verməyi kafi bilib belə söylədi: «Ey Həmmam, Allaha münasibətlə təqvalı ol və yaxşı əməllər et: «Həqiqətən, Allah təqvalılarla və yaxşı iş görənlərlədir» *(Nəhl, 128)*». Lakin Həmmam bu qısa nəsihətə qane olmayıb İmam Əlini (ə) and verdi ki, təqvalıları daha artıq vəsf etsin. Bu zaman Həzrət Əli (ə) «Nəhcül-bəlağə» xütbələri sırasında 184-cü yerdə duran məşhur xütbəni söylədi: «Allah onlarda təcəlla edəndə Allahdan savayı hər şey onların gözündə xırdalaşar. Cənnətə elə münasibət

bəsləyirlər ki, sanki onu görür və içindəki nemətləri dadırlar. Cəhənnəmə münasibətləri də elədir ki, elə bil alovu görür və içində əzab çəkirlər. Onların qəlbi hüznlüdür, xalqa pislik etməzlər. Onların bədəni arıqlayıb incəlmişdir, özləri də iffətlidirlər. Bir neçə günlük dünyada səbir edərlər, əvəzində Rəbbin onlardan ötrü hazırladığı əbədi rahatlığı umarlar. Dünya onları özünə tabe etmək istəyər, onlar dünyadan qaçarlar. Dünya onları əsir etmək istəyər, onlar əsarətdən xilas olarlar...

Etdikləri yaxşı əməllərin azlığına qane olmaz, qazandıqları savabın çoxluğu ilə fəxr etməzlər. Həmişə özlərini ittiham edər və günahlarından qorxarlar. Birisi onları tərifləyəndə narahat olub deyərlər: «Mən özümü özgədən daha yaxşı tanıyıram. Allah isə məni özümdən daha yaxşı tanıyır. İlahi, onların sözlərinə görə məni danlama, məni onların güman etdiklərindən də uca məqama yüksəlt! Camaata məlum olmayan günahlarımı bağışla!». Təqvalı şəxsin adamlardan uzaqlaşmasının səbəbi zöhd, yaxınlaşmasının səbəbi mehribanlıq və mərhəmət olar. İnsanlardan təkəbbür üzündən kənar qaçmaz, adamlara hiylə və kələk məqsədilə yaxın gəlməz».

İmamın sözləri bu yerə çatanda Həmmam ucadan bir ah çəkib canını tapşırdı. Əli (ə) təqvanın şərtlərinin nə qədər ağır olduğunu dərk etmiş və buna layiq olmadığından dəhşətə gəlib ürəyi partlamış Həmmamın cansız bədəninə işarə edərək buyurdu: «Allaha and olsun, mən bunu bildiyim üçün danışmaq istəmirdim. Təsirli nəsihət, onu dərk edən dinləyiciyə bu cür təsir göstərər».

N.R.

TƏLBİYƏ

İtaət etmək, boyun əymək, əmri yerinə yetirmək. Həcc və ümrə üçün ehrama girən şəxsin aşağıdakı cümlələri söyləməsinə deyilir: «Ləbbeyk Allahümmə ləbbeyk. La şərikə ləkə ləbbeyk. İnnəl-həmdə vən-nimətə ləkə vəl-mülk la şərikə ləkə ləbbeyk». Tərcüməsi: «Buyur, ey Allahım! Həmişə əmrindəyəm. Sənin əsla şərikin yoxdur. Əmrindəyəm, ey Allahım! Bütün həmdü sənalar və şükürlər Sənədir. Bütün nemətlər Səndəndir və Sən var olan hər şeyin sahibisən. Sənin əsla şərikin yoxdur».

A.Q.

TƏLQİN

Cənazə dəfni zamanı ənənəvi olaraq yerinə yetirilən dini ayinlərdən biridir. Şiə məzhəbinə görə, cənazə qəbrə qoyulduqdan sonra mərhumun yaxın qohumlarından biri qəbrin içinə düşür, əlini cənazənin çiyninə qoyub onu astaca tərpədir. Bu zaman ya özü, ya da başqası *(molla)* təlqin oxuyur. Əhli-sünnə məzhəbinə görə isə, cənazə qəbrə qoyulub üstü torpaqlandıqdan sonra əməlisaleh bir şəxs tərəfindən təlqin oxuna bilər. Təlqində cənazənin ruhuna xitab edilir, hətta bir neçə yerdə «ey filankəsin oğlu (qızı) filankəs» deyə adı və atasının adı çəkilir. Təlqinin mətnində İslamın əsasları bir daha sadalanır, ölünün Rəbbi, peyğəmbəri, qiblə-si, müqəddəs kitabı onun yadına salınır (şiə məzhəbində imamların adları da bir-bir sadalanır). Məqsəd budur ki, sorğu-sual mələkləri *(Münkər və Nəkir)* qəbrə daxil olub mərhumu suala tutanda, verməli olduğu cavablar yadından çıxmasın.

Təlqin vermək dəfnin vacib əməllərindən deyil. Cəfəri, şafii və hənbəli məzhəblərində təlqin müstəhəbdir (sünnətdir). Malikilər təlqinin yalnız insan can verərkən oxunmasını caiz bilirlər, dəfn zamanı təlqin oxumağı isə məkruh sayırlar. Hənəfilərin fikrincə, təlqin oxutdurmaq və ya oxutdurmamaq ölü sahibinin öz ixtiyarına buraxılan bir məsələdir.

N.R.

TƏNASÜX

Ərəb dilindən tərcümədə «dəyişmə, əvəzetmə, bir haldan başqa hala keçid» mənasını verir. Ölümdən sonra ruhun bədəni tərk edərək başqa bədənə (bu, insan və ya heyvan bədəni, hətta bitki də ola bilər) keçməsinə və daha bir ömür yaşamasına deyilir. Müasir terminologiyada reinkarnasiya adlandırılır. Bəzi dinlərdə, xüsusilə, hinduizmdə çox geniş yayılmışdır. Tənasüx əqidəsinin köklərini qədim dinlərlə (totemizm) bağlayırlar. Qədim yunan filosofları Pifaqor və Platon da reinkarnasiyaya inanırdılar. Reinkarnasiya əqi-

dəsi hinduizmdən əlavə, caynizm, sintoizm, daosizm dinlərində də mövcuddur.

Tənasüx əqidəsinə görə, ruhun hansı bədənə keçməsi onun əvvəlki bədəndə necə həyat sürdüyündən asılıdır. Yüksək insani dəyərlər əsasında ömür sürmüş şəxslərin ruhu yenidən insan bədəni əldə edir. Mənfi xislətli adamlar heyvan və bitki şəklində də dünya həyatına qayıda bilərlər. Çox zaman insanın xasiyyəti, onun ruhunun hansı heyvana keçməsini müəyyən edir. Qorxacaq insanlar dovşan sifətində, yırtıcılar canavar şəklində, pinti və şəhvətpərəst adamlar isə donuz bədənində özlərinə yeni həyat qazanırlar. Ruhun yenidən insan bədəninə keçməsi «nəsx», heyvan bədəninə keçməsi «məsx», bitki şəklinə düşməsi «rəsx», cansız əşyalara çevrilməsi isə «fəsx» adlandırılır.

Tənasüx İslam dinində qətiyyətlə inkar edilir. İslam əqidəsinə görə, ruh hər şəxsin fərdi xüsusiyyətidir, insanın mahiyyətidir. Ruhun bir bədəndən başqa bədənə keçməsi mümkün deyil. Çünki bu halda həm Allahın ədalətsiz olduğunu, həm də axirət aləminin, qiyamətin, cənnət və cəhənnəmin yoxluğunu qəbul etməliyik. Əgər ruh bir bədəndən başqa bədənə keçərsə, axirətdə ona hansı bədəndəki həyatına görə əvəz veriləcək? Əgər ruhun yaşadığı həyatlardan birinə görə ona cəza verilsə, o biri «həyat mərhələlərinə» qarşı zülm edilmiş olar. Bu isə ilahi ədalətlə bir araya sığmaz.

Qurani-kərimin aşağıdakı ayələri tənasüxün batil olduğunu sübut edir: «Nəhayət, *(müşriklərdən)* birinin ölümü gəlib çatdığı zaman o belə deyər: «Ey Rəbbim! Məni geri *(dünyaya)* qaytar! Bəlkə zay etdiyim ömrümün müqabilində yaxşı bir iş görüm. Xeyr, bu, onun dediyi boş bir sözdür. Dirilib duracaqları günə *(qiyamət gününə)* qədər onların önündə manea vardır» *(Möminun, 99-100).*

Bəzi ifrat cərəyanlarda da (*qərmətilik, druzilik* və s.) tənasüx əqidəsi mövcuddur.

N.R.

TƏRAVİH NAMAZI

«Təravih» ərəb dilində «tərvihə» sözünün cəmidir. Ərəb dilindən tərcümədə «istirahət etmək, dincəlmək» mənasını verir. Ramazan ayının gecələrində əhli-sünnə müsəlmanlar tərəfindən qılınan namaza deyilir.

Təravih namazını qılmaq əhli-sünnə məzhəbində təkid olunan *sünnətdir* (yalnız malikilər bunu *məndub*, yəni müstəhəb bilirlər). Təravih namazı adətən 20 rükət qılınır. Rükətlərin sayının ikinci xəlifə Ömər ibn Xəttab tərəfindən təyin edildiyini yazırlar. Ənənəyə uyğun olaraq, 20 rükətlik təravih namazından sonra 3 rükətlik *vitr* namazı da qılınır. Əhli-sünnə alimlərinin fikrincə, təkid olunan sünnət təravih namazının ilk 8 rükətidir, bundan sonrakılar müstəhəbdir. Təravih namazının hər 4 rükətindən sonra azacıq dincəlirlər («təravih» sözü də buradandır). Təravih namazını qılarkən cüt rükətlərin sonunda salam vermək (yəni 10 salamla qılmaq) daha yaxşıdır. Hər dörd rükətdən sonra salam vermək də (yəni 5 salamla qılmaq) olar, amma məkruhdur.

Təravih namazının vaxtı işa namazından sübh namazına kimidir. Gecənin yarısından və ya gecənin üçdən-bir hissəsi keçdikdən sonra qılınması müstəhəbdir. Təravih namazının qılınma qaydası adi gündəlik namazlar kimidir. Əhli-sünnə məzhəbində bu namazı camaatla qılırlar. Hətta hənəfi məzhəbində camaatla qılınması sünnəti-kifayi sayılır. Yəni bir məsciddə təravih namazı qılanların hamısı bunu təkbaşına qılsa, onların hamısı günahkardır. Amma məsciddə bu namazı camaatla qılan dəstə varsa, başqaları təkbaşına da qıla bilərlər. Malikilər camaatla qılınmasını məndub (müstəhəb), şafiilərlə hənbəlilər isə sünnət sayırlar

Şiə (cəfəri) məzhəbində təravih namazına baxış fərqlidir. Şiə rəvayətlərinə görə, təravih namazı Ömər ibn Xəttabın zamanında qılınmağa başlamışdır; Peyğəmbərin və birinci xəlifə Əbu Bəkrin vaxtında belə bir namazın qılınması haqqında səhih məlumat yoxdur. Şiə mənbələrində yazılıb ki, Həzrət Əli ibn Əbu Talib (ə) öz xilafəti dövründə əlinə qırmanc götürüb, təravih namazını camaatla qılanları dağıdır və təkbaşına qılmağa məcbur edirmiş; amma Onun bu hərəkəti narazılıqla qarşılanırdı.

Şiə hədislərində deyilir ki, bir gün Həzrət Mühəmməd Peyğəmbər (s) ramazan ayında məsciddə *nafilə* (müstəhəb) namazı qılarkən, arxasında camaatın Ona *iqtida* etdiyini duyub

namazı yarımçıq kəsmiş və məsciddən çıxmışdı. Bundan sonra 2 gün nafilə namazı qılmaq üçün məscidə gəlməmiş, daha sonra isə bütün nafilə namazlarının təkbaşına qılınmalı olduğunu camaata bəyan etmişdi. Əhli-sünnə mənbələrində deyilir ki, Peyğəmbər təravih namazını iki gün məsciddə camaatla qılmış, üçüncü gün məscidə gəlməmişdi. Səbəbini soruşanda buyurmuşdu ki, əgər camaatın təravih namazını fərz sayacağından qorxmasaydım, yenə məscidə gəlib camaatla bu namazı qılardım.

Cəfəri məzhəbində təravih namazının əvəzinə ramazan ayının gecələrində aşağıdakı ardıcıllıqla min rükət nafilə namazı qılınır: ramazan ayının ilk 20 gecəsində (19-cu gecə istisna olmaqla) hər gecə 20 rükət, 22-ci gecədən ramazanın axırına kimi (23-cü gecəni çıxmaqla) hər gecə 30 rükət, 19-cu, 21-ci və 23-cü gecələrin hər birində 100 rükət, cümə gecələri əlavə olaraq 10 rükət və sonuncu cümə gecəsi əlavə olaraq 40 rükət. Bunların cəmi min rükətdir.

N.R.

TƏRİQƏT

Ərəb diilndən tərcüməsi «yol» deməkdir. Bəzən dini ədəbiyyatda məzhəbləri də təriqət adlandırırlar ki, bu, yanlış fikirdir. İslam daxilində etiqadi yaxud fiqhi özəlliklərə məxsus iri cərəyanları *məzhəb* adlandırmaq daha doğrudur. Təriqət daha xırda parçalanmalar nəticəsində yaranmış qollardır. «Təriqət» ifadəsi daha çox *sufi* yönlü ayrı-ayrı cərəyanlara aid edilir.

Təsəvvüfdə təriqət – Allaha doğru uzanan yoldur. Hər bir sufi şeyxinin təsəvvüründə bu yol fərqli xüsusiyyətlərə malikdir. Sufi əqidəsinə görə, bütün yollar Allaha aparır; ona görə də, bunların arasındakı fərqliliklər də təbii və məqbuldur.

İslamın ilk əsrlərində «zahid» və «arif» adı ilə tanınan sufilər hələ öz təriqətlərini yaratmamışdılar. Bu dövrdə sufilər arasında hər hansı təşkilatlanma müşahidə edilmirdi. Hicri III-IV (miladi IX-X) əsrlərdən etibarən, Haris Mühasibi, Bayezid Bistami, Əbu Hüseyn Nuri, Səhl ibn Abdullah Tüstəri, Cüneyd Bağdadi, Həkim Tirmizi, Əbu Səid Xərraz kimi sufilərin ətrafında tərəfdarlar toplanmağa başladı. Onların haqqa yetişmək üçün tövsiyələri, ədəb və davranışları vəfatlarından sonra inkişaf etdirildi və sistemləşdirildi.

Lakin təsəvvüf daxilində əsl təriqətləşmə prosesi hicri VI (miladi XII) əsrdə başlamışdır. Məhz bu zaman təsəvvüf sosial həyatın tərkib hissəsinə çevrildi. Təriqətləşmə mərhələsi boyunca sufi ədəbiyyatının ən gözəl nümunələri yaradıldı. Mövlana Rumi, Sədi Şirazi, Hafiz Şirazi kimi şairlər yaşayıb-yaratdılar. Təsəvvüf aləmi Mühyiddin ibn Ərəbi kimi nəhəng mütəfəkkirin ideyaları ilə zənginləşdi. Bu mərhələdə əsas sufi ayinləri, adət-ənənələri formalaşdı, *xanəgah* həyatı yarandı. İslam məmləkətinin demək olar ki, bütün guşələrində məşhur sufilərin başçılıq etdikləri xanəgah və zaviyələr quruldu. Bəzi şəriət alimləri tərəfindən sufiliyə qarşı hücumlar da bu dövrdə kəskinləşdi.

Sufi təriqətlərinin haqqa çatmaq üçün təklif etdiyi üsullar kök etibarilə eynidir, amma xarakterlərinə görə bir-birindən seçilir. Məsələn, bütün təriqətlərdə *zikrə* böyük önəm verilir. Lakin zikrin ayaq üstə yoxsa oturaq halda, bir yerdə duraraq yoxsa hərlənərək, astadan yoxsa ucadan söylənməsi məsələlərində təriqətlərin baxışı fərqlənir. Yaxud *çillə* ayininin quruluşu və müddəti təriqətdən-təriqətə fərq edir.

Təriqətlər arasında bəzi zahiri əlamətlər baxımından da fərqlər müşahidə edilir. Məsələn, təriqətə daxil olma şərtləri və ayini, təriqət daxilindəki iyerarxiya quruluşu, təriqət üzvlərinin geyimi və qiyafəsi hər təriqətin spesifik xüsusiyyətlərindəndir.

Ümumiyyətlə, bütün sufi təriqətləri xarakter etibarilə 3 qrupa bölünür:

Birincisi, ***təriqi-əxyar*** (xeyirlilərin yolu) qrupuna aid olan təriqətlərdə dini əhkamlar, şəriət əməlləri çox ciddi tutulur. Burada haqqa çatmağın ən düzgün yolu ibadət sayılır. İkincisi, ***təriqi-əbrar*** (yaxşıların yolu) deyilən təriqətlərdə *nəfsi* təmizləmək, *riyazətə* sinə gərmək, əxlaqı gözəlləşdirmək yolu ilə haqqa çatmaq təklif edilir. Belə təriqətlərin üzvləri xalqa xidmət etməkdə xüsusi çalışqanlıq göstərirlər. Üçüncü qrupa ***təriqi-şüttar*** (şövq və vəcd əhlinin yolu) adlanan təriqətlər daxildir ki, bunların haqqa çatma üsulu eşq, vəcd, zikr kimi vasitələrdir. Bu təriqətlərin üzvləri tənhalığa, sükuta, haqqı duy-

maq üçün bu dünyadan ayrılmaq cəhdlərinə (vəcd – ekstaz) üstünlük verirlər. Ən çox mübahisələrə səbəb olan və ən qeyri-adi ənənələrə malik olan da məhz bu təriqətlərdir.

Təriqətlərin hər biri Həzrət Mühəmməd Peyğəmbərə (s) kimi uzanan təriqət silsiləsinə malikdir. Bu silsilədə təriqət şeyxlərinin *(qütb)* adları ardıcıllıqla düzülür. Təriqətlərin böyük əksəriyyətinin silsiləsi *Əli ibn Əbu Talibin (ə),* bir hissəsinin də silsiləsi *Əbu Bəkrin* vasitəsilə Peyğəmbərə bağlanır. Səhabələrdən *Salmani-farsi, Əbuzər,* tabiindən Həsən Bəsri, *Üveys Qərəni,* daha sonrakı dövrlərdə yaşamış məşhur İslam şəxsiyyətlərindən *İmam Cəfər Sadiq (ə).* Məruf Kərxi, İbrahim ibn Ədhəm, Malik ibn Dinar, Davud Tai, Şəqiq Bəlxi və başqalarının adına müxtəlif təriqətlərin silsiləsində rast gəlinir.

Bir çox tədqiqatçılar təriqətlərin yaranma mərhələsini təsəvvüfün süqutunun başlanğıcı hesab edirlər. Onlar təriqətlər dövrünü süfiliyin təşkilatlanması, ayrı-ayrı (bəzən hətta bir-biri ilə rəqabətdə olan) qruplara parçalanması, *mürşid* (şeyx) kultunun yaranması, İslama zidd olan bəzi ayin və adətlərin meydana gəlməsi, tüfeyli həyat tərzi sürən, sərgərdan gəzib-dolaşan, şəriətə çox da bağlanmayan *dərvişlərin* ortaya çıxması dövrü kimi xarakterizə edirlər.

Təriqət həm də təsəvvüfdə haqqa doğru gedən yolun *(seyrü-sülukun)* ikinci mərhələsi sayılır. Təriqət – *şəriətin* batini yolu və həqiqətə çatmağın başlanğıcıdır. Məşhur ariflərdən biri təriqətə belə tərif verib: «Təriqət – haqq yolunun yolçusuna məxsus bir yolla irəliləməkdir. Dünyadan üz çevirmək, davamlı zikr, yaradılışın əvvəlinə diqqət yetirmək, laqeydlik və süstlük, tənhalığa qapılmaq, daim təharətli və dəstəmazlı olmaq, doğruculluq, ixlas və sairə sifətlər bura aiddir. Şəriət zahiri hökmlərdən ibarətdir və qabıq kimidir; təriqət onun içi, ləpəsidir. Təriqət – yaradılmışdan əzəliyə doğru hərəkətdir. Fəna məqamından bəqa mərtəbəsinə keçəndən sonra deyirlər ki, təriqət yolundan həqiqətə çatmışdır» *(Lahici. Şərhi-Gülşəni-raz).*

Təriqət yolunun xüsusi məqam və mənzilləri vardır ki, bunların haqqında *«məqam və hal»* maddəsində ətraflı məlumat verilir.

bax: *şəriət, həqiqət, məqam və hal.*

N.R.

TƏRKİ-ÖVLA

Ərəb dilindən tərcüməsi «daha üstün olan əməli tərk etmək» deməkdir. Əsasən, cəfəri məzhəbinə aid əqidə kitablarında peyğəmbərlərin başına gələn bəzi hadisələrlə (məsələn, Həzrət Adəm Peyğəmbərin (ə) qadağan olunmuş ağacın meyvəsindən yeyib cənnətdən qovulması) bağlı bu termindən istifadə edilir.

Əhli-sünnə məzhəbinə görə, Allah tərəfindən peyğəmbər seçilməzdən əvvəl peyğəmbərlərin *məsum* (günahsız) olmaları vacib şərt deyil. Sünni məzhəbli müsəlmanların böyük əksəriyyətinin mənsub olduğu *matüridiyyə* əqidə məktəbinə görə, peyğəmbərlikdən əvvəl nadir hallarda günahın baş verməsi mümkün sayılır *(Sabuni. Matüridiyyə əqaidi, səh. 54).* Həmçinin, peyğəmbərlik dövründə də unutqanlıq və bilməməzlik üzündən zəllə adlanan kiçik xəta etmələri mümkündür. Allah-təala onların bu xətalarını dərhal düzəldib.

Şiə əqidəsinə görə, peyğəmbərlər mütləq mənada məsumdurlar. Onlar nə qəsdən, nə də bilməyərəkdən nə böyük, nə də kiçik günah etməzlər. Səhv, unutqanlıq onlardan uzaqdır. Peyğəmbərlər *haram* və *məkrüh* iş tutmazlar, yalnız *vacib* və *müstəhəb* əməllər edərlər. Amma peyğəmbərlərin həyatında elə anlar olub ki, onların hər hansı hərəkəti öz uca məqamlarına yaraşan olmayıb. Peyğəmbərlik məqamı onların bundan daha üstün bir yolu seçmələrini tələb edirdi. Məsələn, müstəhəb bir əməl etmək imkanı olduğu halda, *mübah* əməl etmişlər. Buna tərki-övla deyilir. Peyğəmbərlərin tərki-övla əməli qətiyyən günah sayılmır. Həmin əməli başqa insanlar etsələr, onlara günah yazılmaz; çünki bu əməl *haram* deyil.

Tərki-övlanın mahiyyətini daha yaxşı anlamaq üçün bir neçə misala müraciət edək. Məsələn, bir nəfər müstəhəb namaz qılmaq istədiyi vaxt onun üçün faydalı olan biliklərin müzakirə edildiyi elmi məclisə yolu düşür. Müstəhəb namaz qılmaq nə qədər savab olsa da, elm öyrənmək ondan daha vacib və daha xeyirlidir. Çünki Peyğəmbərimiz bir tərəfdə elm məclisinin qurulduğunu, digər tərəfdə müstəhəb namaz qılındığını görəndə, elm məclisinə qoşulmuşdu. Əgər kimsə bunu bildiyi halda müstəhəb namaz qılsa, tərki-övla etmiş olur; yəni savabı daha çox olan əməli buraxıb savabı daha az olan əməli yerinə yetirir. Yaxud təsəvvür edin ki, hər hansı xeyriyyə binasının tikilişi üçün camaatdan yardım istəyirlər. Orta yaşayış səviyyəsinə malik bir adam gəlib bir neçə manat məbləğində ianə verir. Bir fəhlə tikintidə üç gün pulsuz işləyəcəyini söyləyir. Onların bu əməli fədakarlıq və həqiqi ehsandır. Amma sərvətli bir insan tikintiyə onlar qədər yardım göstərsə, onlar qədər fədakarlıq etmiş olmayacaq. Çünki onun maddi imkanları ilə müqayisədə etdiyi yardım çox dəyərsizdir. Bu halda da həmin sərvətli şəxs tərki-övla etmiş sayılır. Çünki daha böyük həcmdə yardım edə bildiyi halda, dəyəri az olan yolu seçib.

Göründüyü kimi, yuxarıdakı vəziyyətlərdə nə müstəhəb namaz qılan şəxs, nə də az ianə verən sərvətli insan günah etməyib. Peyğəmbərlərin etdiyi tərki-övla əməllər də başqaları tərəfindən edilsə, heç bir əskikilik gətirməz. Lakin peyğəmbərlərin uca məqamına bu əməllər layiq deyil. Məsələn, Həzrət Yusif Peyğəmbər (ə) zindanda olanda iki nəfər keçmiş saray məmurunun yuxusunu yozur; onlardan birinin azad olacağını, o birinin isə edam ediləcəyini söyləyir. Azad olacaq məmura tapşırır ki, sarayda onun haqqında firona danışsın. Bu zaman Allah Həzrət Yusifə (ə) vəhy edir: «Məgər mən sənə heç kimdə olmayan gözəllik vermədimmi? Səni atanın sevimlisi etmədimmi? Səni quyudan qurtarmadımmı? Niyə yalnız Rəbbindən yardım istəməli olduğun halda, insanın yardımına bel bağladın?». Rəvayətə görə, Allah-təala Yusifin (ə) bu hərəkətinə görə Onu daha yeddi il zindanda saxladı. Peyğəmbərlik əxlaqı qeydsiz-şərtsiz olaraq Allaha təvəkkül etməyi, insanların yardımına bel bağlamamağı tələb edir. Ona görə də, Allah Həzrət Yusifin (ə) bu hərəkətini Onun üçün nöqsan saydı. Əlbəttə, hər hansı sıravi insan bu işi etsəydi, heç kim onu qınamazdı; çünki bu əməl adi insan üçün eyib sayılmaz.

Peyğəmbərlər təvazönün ən uca mərtəbəsində durduqları üçün, tərki-övla etdikdən sonra özlərini günahkar bilir və tövbə edirdilər. Məsələn, Həzrət Adəm Peyğəmbər (ə) cənnətdən yerə endikdən sonra illər uzunu ağlayıb-sızlamış və tövbə etmişdi.

N.R.

TƏRTİL

Quran oxunuşu üslubu. Ərəb dilindən tərcümədə «açıb-göstərmək, düzüb sıralamaq, sözləri yerli-yerində düzgün söyləmək» mənalarını verir. Qurani-kərimdə buyurulur: «Quranı aram-aram *(tərtillə)* oxu» *(Müzzəmmil, 4).*

Tərtilin nədən ibarət olması barədə alimlərin fikri fərqlidir. Bəziləri sözün zahiri mənasını əsas tutaraq, sadəcə olaraq hərfləri düzgün tələffüz etməklə aram-aram Quran oxumağı tərtil saymışlar. Bəziləri isə tərtillə oxuyan şəxsin hər bir kəlmə barədə düşünməsini, Quranı bütün varlığı ilə hiss etməsini şərt bilmişlər.

Hədislərdə tərtil hər iki mənada işlədilib. Məsələn, Həzrət Əli (ə) buyurur: «Tərtillə Quran oxuyan zaman sözləri bütöv və aşkar şəkildə söylə, şeir kimi tələsik və dalbadal oxuma. Sözləri qum kimi səpələmə. Daşlaşmış ürəkləri yumşaltmağa çalış. Fikrin bu olmasın ki, tez oxuyub qurtarasan».

İslam müqəddəslərinin hədislərində tövsiyə edilir ki, tərtillə Quran oxuyan şəxs onun mənası barədə dərindən düşünsün, cənnət mükafatından və cəhənnəm əzabından söhbət açan ayələri qiraət edəndə qəlbini ümid və qorxu bürüsün. Hətta məşhur səhabə *Abdullah ibn Abbas* böyük surələri tələsik oxumaqdansa, kiçik surələri düşünərək oxumağa daha çox üstünlük verirdi.

N.R.

TƏRVİYƏ

Zilhiccə ayının 8-ci gününə verilmiş ad. Ərəb dilindən tərcümədə «su içirmək» və ya «dəvənin belinə yük yığıb iplə bağlamaq» mənalarını verir. Bunun səbəbi də budur ki, keçmişdə Məkkə ətrafındakı çöllərdə su olmadığı üçün, həmin gün hacılar adətən Məkkədə su içəndən sonra *Minaya* sarı yola çıxırdılar və özləri ilə bol su aparırdılar. Həmçinin, ərəblərdə dəvəni yükləmək – səfərə çıxmaq mənasını verir. Tərviyə günü hacılar Məkkə şəhərindən bir neçə kilometr məsafədə olan Mina çölünə getdikləri üçün, o günə səfərlə bağlı olan ad verilmişdir.

Tərviyə günü günortadan sonra Məkkədən çıxıb Minaya getmək və gecəni Minada qalmaq müstəhəbdir. Bu, ertəsi gün üçün hazırlıq sayılır. Çünki zilhiccə ayının 9-da *(ərəfə günündə)* hacılar günortadan axşama kimi *Ərəfat* çölündə olmalıdırlar. Tərviyə gününü və sonrakı gecəni Minada ibadətlə, dua ilə keçirən şəxs sanki özünü sabah Ərəfatda qalmağa hazırlamış olur.

N.R.

TƏSBİH (və ya TƏSBEH)

Ərəb dilindən tərcüməsi «müqəddəs saymaq» deməkdir. Allah-təalanın gözəl adlarından *(əsmaül-hüsna)* biri də Sübhandır (müqəddəs, pak, nöqsandan uzaq). Təsbih – dua vasitəsilə Allahın müqəddəsliyini dilə gətirmək, Onu təqdis etmək deməkdir. *Təkbir* – «Allahü əkbər» söyləmək mənasını ifadə etdiyi kimi, təsbih də Allahı «sübhan Allah» kəlməsi ilə öyməkdir. Şiə məzhəbində gündəlik namazların üçüncü və dördüncü rükətlərində Fatihə surəsinin əvəzinə oxunan zikr təsbihati-ərbəə (dörd təsbih) adlanır. Bu zikr 4 cümlədən ibarətdir: «Sübhan Allahi vəlhəmdu lillahi və la ilahə illəllahü vəllahü əkbər».

Qurani-kərimdə bildirilir ki, bütün varlıq aləmi Allahı gizli və açıq şəkildə təsbih edir: «Göylərdə və yerdə nə varsa, *(hamısı)* Allahı təqdis etmədədir. O, yenilməz qüvvət və hikmət sahibidir» *(Hədid, 1; Həşr, 1; Səff, 1).* «Yeddi göy, yer və onlarda olanlar *(bütün məxluqat)* Allaha təsbih deyir. Elə bir şey yoxdur ki, Allaha həmdlə təsbih etməsin. Lakin siz onların təsbihini anlamazsınız. *(Allah)* həqiqətən, həlimdir, bağışlayandır» *(İsra, 44).*

Quranda Allahı çox təsbih etmək həm Həzrət Mühəmməd Peyğəmbərə (s), həm də müsəlmanlara tövsiyə edilir: «Sən isə Rəbbini həmdlə təsbih et və səcdə edənlərlə birlikdə ol!» *(Hicr, 98).* «Ey iman gətirənlər! Allahı çox zikr edin! Ona səhər-axşam təsbih söyləyin!» *(Əhzab, 41).*

Təsbeh həm də Allahın adlarını zikr edərkən, qısa duaları oxuyarkən hesabı itirməmək üçün bir vasitədir. Demək olar ki, bütün dinlərdə təsbehdən istifadə edilir. Buddizmdə 18, 21, 27, 54 və 108 dənəli, hinduizmdə 50, 54 və 108 dənəli, xristianlığın katolik qolunda 33, 50 və 150 dənəli, pravoslavlıqda 33 dənəli (Həzrət İsanın (ə) yaşını göstərir), anqlikan və lüteran kilsələrində müvafiq olaraq 33 və 18 dənəli, bəhailikdə 19-a bölünən 95 dənəli təsbehlərdər istifadə edilir. İslamda təsbehlər adətən, 33 və ya 99 dənəli olur. Çünki Allahın gözəl adlarının *(əsmaül-hüsna)* sayı 99-dur; təsbehlə deyilən zikrlərin sayı da ya 33, ya da 100 olur.

İslamda təsbehin tarixini Həzrət Fatimeyi-zəhranın (ə) adı ilə bağlayırlar. Rəvayətə görə, Həzrət Mühəmməd Peyğəmbər (s) *Fatiməyə* (ə) aşağıdakı qaydada zikr söyləməyi öyrətmişdi: 34 dəfə «Allahü əkbər», 33 dəfə «əlhəmdü lillah» və 22 dəfə «sübhan Allah» (bu zikrə Həzrət Fatimənin (ə) təsbihi deyirlər). Həzrət Fatimə (ə) əvvəlcə bir ip götürüb ona 100 ədəd düyün vurur və hər zikri deyərkən düyünlərdən birini çevirir. Sonralar Peyğəmbərin əmisi *Həmzə Ühüd savaşında* şəhid oldu və Fatimə (ə) Həmzənin qəbrinin torpağından bir az götürüb su ilə qarışdırdı, 100 ədəd xırda kürəcik düzəldib ortadan deşdi və ipə keçirtdi. İlk təsbeh bu cür yarandı. Daha sonralar İmam Hüseynin (ə) məzarı yerləşən Kərbəla torpağından təsbehlər düzəltməyə başladılar (buna *türbət* təsbeh deyirlər). Hal-hazırda həm torpaqdan, həm də taxta, kəhrəba və plastikdən, təbii daşlardan təsbeh hazırlayırlar.

Klassik ədəbiyyatda təsbeh – riyakar sufilərin, mövhumatçı ruhanilərin xalqı aldadıb öz torlarına salmaq üçün istifadə etdikləri vasitə kimi təqdim edilir. Məsələn:

Könül, səccadəyə basma ayaq, təsbihə əl vurma,
Namaz əhlinə uyma, onlar ilə durma-oturma!
(M.Füzuli).

Aşiqi-sadiq duzağın quşu, ey zahid, degil!
Danə düzmə təsbihi, səccadəyi dam eyləmə!
(S.İ.Nəsimi).

N.R.

TƏSƏVVÜF

Sufilik aləmi. İnsanın haqq çatmaq məqsədilə keçməli olduğu yolu göstərən və bu yolu uğurla qət etməyin üsullarını açıqlayan dini-mistik dünyagörüşü. Təsəvvüf yarandığı zamandan bəri onun mahiyyətini açmaq, mənasını sözlə əhatə etmək və söz qəlibində ona tərif vermək cəhdləri olmuşdur. Təsəvvüf, barəsində ən çox danışılan və mahiyyətinə ən çox tərif verilən məfhumlardan biridir.

İstər sufilərin özləri, istərsə də sufiliyin tədqiqatçıları tərəfindən təsəvvüf barədə minlərlə tərif irəli sürülmüşdür. Deyilənlərə görə, hicri V əsrdə yaşamış Əbu Mənsur Əbdülqadir Bağdadi təsəvvüfün 1000-dən artıq tərifini toplayıb, əlifba sırası ilə düzmüşdür. Sührəvərdi «Əvarifül-məarif» kitabında bir neçə nəzəriyyəni qeyd etdikdən sonra yazır: «Təsəvvüfün mahiyyəti barəsində şeyxlərin sözlərinin sayı 1000-dən artıqdır. Amma bunlar söz baxımından fərqli, məna baxımından oxşardırlar». Əlbəttə, əslində təsəvvüfə verilmiş tərifllərin sayı bundan qat-qat çoxdur. Elə təkcə Əbu Nəim İsfahaninin «Hilyətül-övliya» əsərində üst-üstə 1000-dən artıq nəzəriyyəyə rast gəlmək mümkündür.

Məşhur şərqşünas Nikolson isə «İslam sufiləri» kitabında hicri V əsrə kimi yazılmış mənbələrdəki tərifllərdən 87-sini qeyd edərək yazır: «Ərəb və fars dillərində sufiliyə çoxlu tərifllər verilmişdir. Amma bunların hamısını araşdırdıqdan sonra deməliyik ki, sufiliyə dəqiq tərif vermək mümkün deyildir».

Təsəvvüfün mahiyyəti barədə irəli sürülmüş nəzəriyyələrdən bəzilərini aşağıda xatırladırıq:

«Təsəvvüf – həqiqətləri əldə etmək, dəqiq və incə məsələlərdən söz açmaq, camaata məxsus əmlakdan naümid olmaqdır» *(Məruf Kərxi).* «Təsəvvüf əvvəldə zikr, sonra vəcddir. Daha sonra isə nə ondan, nə də bundandır». «Təsəvvüf o kəsin yoludur ki, sağ əlində Allahın kitabını *(Qurani-kərimi),* sol əlində Müstəfa sünnəsini tutmuş olsun və bu iki şamın işığında yol getsin ki, nə şübhə girdabına, nə də *bidət* zülmətinə düşməsin» *(Cüneyd Bağdadi).* «Təsəvvüf tamamilə dəb və qaydalardan *(adab)* ibarətdir» *(Əbu Həfs Nişaburi).* «Təsəvvüf – kitaba və sünnəyə əməl etmək, nəfsani istəklərdən və bidətlərdən uzaq olmaqdır» *(Nəsrabadi).* «Təsəvvüf – həmişə eyni istiqamətə diqqət kəsilmək və həmişə eyni səviyyədə ömür sürməkdir». «Təsəvvüf – həqiqətdə vaqe olan bir addır; o, tamam olub sona çatdıqda yalnız Allah qalar» *(Əbu Səid Əbül-Xeyr).*

Həmçinin, təsəvvüfə verilən tərifllər içində bu fikirlərlə də rastlaşırıq: «Təsəvvüf – vaxtı ən layiqli işə sərf etməkdir». «Təsəvvüf sərsəmliyə bənzəyir; hərzə-hədyan danışmaqla başlayır, aramlıqla sona çatır. Təsəvvüf sufinin vücudunu bürüyəndə lal olur». «Təsəvvüf – bütün əlaqə və bağlılıqlardan uzaq olmaq, məxluqatın Yaradanına bağlanmaqdır».

Cüneyd Bağdadi tərəfindən təsəvvüfə verilmiş aşağıdakı tərif öz məna dərinliyi ilə seçilir: «Təsəvvüf 8 xüsusiyyət üzərində qurulub: səxavət, riza *(razılıq),* səbir, işarə, ğürbət *(qəriblik),* yun paltar geyinmək, səyahət və fəqr *(kasıblıq).* Təsəvvüf həmin sifətlərdə 8 peyğəmbərə tabe olmaq deməkdir: səxavətdə İbrahimə (ə), rizada İshaqa (ə), səbirdə Əyyuba (ə), işarədə Zəkəriyyaya (ə), qəriblikdə Yəhyaya (ə), yun paltar geyinməkdə Musaya (ə), səyahətdə İsaya (ə) və *fəqrdə* Mühəmmədə (s)».

«Kəşşafi-istilahatil-fünun» (Elmi terminlər lüğəti) kitabında isə sufiyə xas olan sifətlər belə açıqlanır: «Təsəvvüf əhlinin nəzərində sufi – özündə fani, Allah-təala ilə baqi olan, bütün sifət və təbiətlərdən təmizlənən, həqiqətlərin həqiqətinə bağlanan şəxsdir».

Təsəvvüfə verilmiş tərifllərin niyə bu qədər rəngarəng olmasını tədqiqatçılar üç əsas səbəblə əlaqələndirmişlər:

Birincisi, təsəvvüf çox geniş bir aləm olduğundan, hər kəs onu öz səviyyəsinə uyğun olaraq dərk etmiş və öz tutumu qədərincə ondan bəhrələnmişdir. Hər bir sufi bu böyük aləmin müəyyən bir nöqtəsinə kimi irəliləməyə müvəffəq olmuş və həmin nöqtədən gördüklərini təsvir etmişdir (necə deyərlər, «aləmə öz pəncərəsindən baxmışdır»). Buna görə də onların fikirləri bu qədər fərqlidir.

İkincisi, *seyrü-süluk*, yəni həqiqət yolu çoxlu mənzil və məqamlardan ibarətdir. Bunların hər birində arifin halı və müşahidələri müxtəlif olur. Təbii ki, müxtəlif mənzillərdə duran ariflərin təəssüratları da bir-birindən fərqli olacaq. Hətta eyni bir şəxs seyrü-süluk yolunda irəlilədikcə, düşüncələri təkamül tapacaq, bu gün dünənkinə nisbətən daha uca məqamda durduğundan, fikirləri daha geniş

və əhatəli olacaq. Bu səbəbdən, təsəvvüf barədə eyni bir şəxsə aid edilən təriflər bəzən ciddi təfavütlərə malik olur.

Üçüncüsü, sufilər təsəvvüfə tərif verərkən, onu fərqli cəhətlərdən araşdırmış, öz fikirlərini qısa və səlis ifadə etmək xatirinə təsəvvüfün yalnız bir və ya bir neçə cəhətini diqqət mərkəzinə çəkmişlər. Çünki təsəvvüf qədər mürəkkəb və əhatəli aləmin bütün xüsusiyyətlərini bir tərifdə cəmləşdirmək sadəcə olaraq mümkün deyildir.

İslam dini ilə təsəvvüfün qarşılıqlı münasibətləri barədə uzun əsrlərdir ki, mübahisələr davam edir. Bəzi tədqiqatçılar təsəvvüfün İslamla az qala daban-dabana zidd olduğunu və əsasən, İslamdan qabaqkı dinlərə dayaqlandığını iddia edirlər. Onların fikrincə, sufilik xristanlıq, buddizm, hinduizm, manilik və atəşpərəstlik dinlərinin mirasıdır və İslamın ruhuna yabançı olan bir təlim kimi qəbul edilməlidir.

Bəziləri təsəvvüfün köklərini həm keçmiş dinlərdə, həm də İslamda axtarır və deyirlər ki, təsəvvüf yalnız bir dinin deyil, bütün bəşəriyyətin məhsuludur və bütün dinlərin mirasıdır.

Bunların qarşısında duran üçüncü dəstə isə sufiliyin yalnız İslama əsaslandığını qətiyyətlə müdafiə edir.

Bütün din və təlimlərdə təsəvvüf adlana biləcək görüşlərin mövcud olması, keçmiş dinlərin aparıcı şəxsiyyətlərinin insan, dünya və tanrı barədə mütərəqqi fikirlər irəli sürdüyü inkaredilməzdir. Məsələyə bu baxımdan yanaşdıqda etiraf etməliyik ki, deyilən mövzular hər bir zaman və məkan şəraitində insanların beynini məşğul etmiş və geniş dünyagörüşlü şəxsiyyətləri həmişə düşünməyə həvəsləndirmişdir. Bu mənada hər sivilizasiyanın böyük mütəfəkkirlərinin təsəvvüf və *irfan* adlana biləcək fikir dünyasına malik olmaları təbiidir. Və bu fikirlərin həyata tətbiq formaları, nəzəri cəhətdən müəyyən olunmuş məqsədə yetməyin üsulları da hər dövrdə işlənib-hazırlanmışdır. Lakin həm nəzəri görüşlər, həm də praktiki göstərişlər ilk növbədə öz zəmanəsinin xüsusiyyətlərini daşımış, insanların düşüncə səviyyəsini və əlbəttə ki, inandığı dini əks etdirmişdir. Bu baxımdan, hər sivilizasiyanın bəşər düşüncə tarixinə bəxş etdiyi fikir cərəyanı və praktik göstərişlər də müəyyən nöqtələrdə üst-üstə düşmüş, müəyyən cəhətlərdən isə fərqlənmişdir. İslam təsəvvüfü də özünə qədərki ümumdünya fikir tarixinin mütərəqqi cəhətlərini mənimsəmiş, lakin onları zaman və şərait süzgəcindən keçirmişdir.

Qurani-kərimin ayələrində rast gəldiyimiz «liqaüllah» (Allahın görüşü), «rizvanüllah» (Allahın razılığı), «vəchüllah» (Allahın üzü), «əsmaüllah» (Allahın adları) kimi ifadələr, *vəhy*, *merac*, Adəmin yaradılışı, *məad* və *ruh* kimi mövzular əslində sırf təsəvvüf və irfan məsələləridir. Təsadüfi deyildir ki, bir çox sufilərin kəlam və kitablarında Quran ayələrinə sıx-sıx istinad olunmuşdur. Təsəvvüf xadimləri tərəfindən ən çox müraciət edilən ayələr sırasında aşağıdakılar ilk cərgədə durur: «Şərq də, Qərb də Allahındır. Hansı tərəfə yönəlsəniz, Allahın vəchi *(qüdrət nişanələri)* ordadır. Şübhəsiz ki, Allahın mərhəməti genişdir və O, hər şeyi biləndir» *(Bəqərə, 115)*. «Biz Allahdanıq və Ona tərəf qayıdacağıq» *(Bəqərə, 156)*. «Məni xatırlayın ki, mən də sizi yada salım. Mənə şükr edin və kafir olmayın!» *(Bəqərə, 152)*. «Ey xatircəm olan nəfs! Dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq!» *(Fəcr, 27-28)*. «Allah göylərin və yerin nurudur» *(Nur, 35)*. «Ey insan, sən Rəbbinə doğru çalışıb-çabalayırsan. Sən ona qovuşacaqsan» *(İnşiqaq, 6)*. «Nəfsini təmizləyən mütləq nicat tapacaqdır. Onu günaha batıran isə, əlbəttə, ziyana uğrayacaqdır» *(Şəms, 9-10)*. «Sonra onu *(Adəmi)* düzəldib insan şəklinə saldı və ona öz ruhundan üfürdü» *(Səcdə, 9)*. «Yer üzündə olan hər kəs fanidir. Yalnız əzəmət və kərəm sahibi olan Rəbbinin vəchi baqidir» *(Rəhman, 26-27)*. «Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar onu götürməkdən qorxub çəkindilər. Çox zalım və cahil olan insan isə onu götürdü» *(Əhzab, 72)*.

Təsəvvüf tarixi boyunca yaşayıb-yaratmış görkəmli şəxsiyyətlərin yaradıcılığı onların Qurani-kərimə nə qədər böyük əhəmiyyət verdiklərini göstərir. Təsəvvüf şeyxləri öz əsərlərini Quran ayələri ilə başlamağı, öz fikirlərini Quranla əsaslandırmağı fəxr bilmişlər. Hətta məşhur sufilərin bəziləri müqəddəs kitaba təfsir yazmışlar (məsələn,

Mühyiddin ibn Ərəbi, Sədrəddin Konyəvi, Xacə Abdullah Ənsari və b.).

Məşhur sufi Cüneyd Bağdadinin aşağıda xatırlanan sözləri də onun Qurani-kərimə olan etiqadını aşkar göstərir: «Quranın hafizi olmayan və hədis elmini bilməyən şəxslərə *iqtida (təqlid)* etməyin. Bizim elmimiz Kitaba (Qurana) və sünnəyə bağlıdır».

«Sufi» adı yalnız hicri II (miladi VIII) əsrin sonlarından etibarən tarix səhnəsində göründüyü halda, paralel mənaları ifadə edən *«irfan»*, *«mərifət»*, *«arif»*, *«zöhd»*, *«zahid»* anlayışları bundan çox-çox əvvəllər müqəddəslərimiz tərəfindən incələnmişdir. Əslində təsəvvüfün bütün mənzil və məqamları həmin hədislərdə ətraflı şəkildə bəyan olunmuş və bu dərəcələrə yetməyin yolları göstərilmişdir.

Tədqiqatçılar sufiliyin tarixini 3 əsas mərhələyə bölürlər:

1. ***Zöhd mərhələsi.*** Həzrət Məhəmməd Peyğəmbərin (s) şəxsən nümayiş etdirdiyi, sonralar böyük *səhabələr* tərəfindən yaşanmış, onlardan sonra *tabiin* və *ətbaüt-tabiin* tərəfindən davam etdirilmiş həyat tərzi sufiliyin ilkin mərhələsinin əsasını təşkil edirdi. Zöhd mərhələsi hicri II əsrin sonlarına (miladi VIII əsrin sonları) qədər davam etmişdir. İslamın ilk əsrində bu mərhələnin ən böyük simaları sırasında Allahın Rəsulundan sonra ilk dörd xəlifəni, *süffə əhlini*, *Üveysi-Qərənini* və başqalarını qeyd etmişlər. Sonrakı əsrdə Mədinə, Kufə, Bəsrə və Xorasan vilayətlərində güclü zöhd məktəbləri fəaliyyət göstərirdi. Bu şəhərlərdə Səid ibn Müseyyib, İmam Malik ibn Ənəs (Mədinə), Həsən Bəsri, İbn Sirin, Malik ibn Dinar, Rabieyi-Ədəviyyə (Bəsrə), Əbu Haşim Sufi, Cabir ibn Həyyan, Süfyan Sövri, Davud Tai (Kufə), İbrahim ibn Ədhəm, Füzeyl ibn İyaz, Şəqiq Bəlxi (Xorasan) və başqa məşhur şəxsiyyətlər yaşayırdılar. Bəzi tədqiqatçılar İmam Zeynülabidin (ə), İmam Məhəmməd Baqir (ə) və İmam Cəfər Sadiqi (ə) də bu dövrün ən məşhur zahidlərindən saymışlar.

2. ***Təsəvvüf mərhələsi.*** Hicri III-IV (miladi IX-X) əsrlərdə «sufi» termini meydana çıxdı. Təsəvvüf digər islami elmlərdən ayrılaraq, müstəqil bir təlim kimi formalaşdı. Bu dövrdə təsəvvüf nəzəriyyəsinə aid ilk əsərlər yazılmağa və ilk *təsəvvüf terminləri* meydana çıxmağa başladı. Bu mərhələdə Bəsrə, Kufə və Xorasanla yanaşı, Nişabur, Misir, Bağdad və Şamda da sufi mərkəzləri fəaliyyət göstərirdi. Təsəvvüfün özəyi bu mərhələdə qurulmuş, təməl anlayışları bu mərhələdə formalaşmışdır.

3. ***Təriqət mərhələsi.*** Hicri VI (miladi XII) əsrdə sufi müəssisələri – *təriqətlər* meydana çıxdı, təsəvvüf sosial həyatın tərkib hissəsinə çevrildi. Bu mərhələ boyunca sufi ədəbiyyatının ən gözəl nümunələri yaradıldı. Mövlana Rumi, Sədi Şirazi, Hafiz Şirazi kimi şairlər yaşayıb-yaratdılar. Təsəvvüf aləmi Mühyiddin ibn Ərəbi kimi nəhəng mütəfəkkirin ideyaları ilə zənginləşdi. Bu mərhələdə əsas sufi ayinləri, adət-ənənələri formalaşmağa başladı, *xanəgah* həyatı yarandı. Bəzi şəriət alimləri tərəfindən sufiliyə qarşı hücumlar da bu dövrdə kəskinləşdi.

Miladi XVIII-XIX əsrlərdən etibarən müsəlman cəmiyyətinin sosial-mədəni, dini-siyasi həyatında təsəvvüfün rolu azalmağa başladı. Lakin bəzi bölgələrdə (məsələn, Şimali Afrika ölkələri) təsəvvüf bu günə kimi kifayət qədər fəal mövqeyə malikdir.

N.R.

TƏSƏVVÜF TERMİNLƏRİ

Kitabın səhifələrində təsəvvüfə aid bəzi sözlərin izahı verilmişdir (bax: *təsəvvüf, irfan, seyrü-süluk, vəhdəti-vücud, sufi, dərviş, qələndər, övliya, arif, zahid, zöhd, məqam və hal, nəfs* və onun mərtəbələri, *təriqət, mərifət, həqiqət, bəsirət, fəna fillah, təcəlla, xovf və rəca, ixlas, riyazət, yəqin* və onun dərəcələri, *zikr, kəşf, kəramət, mürid, mürşid, çillə, sima, xanəgah, təkyə, xirqə, kəşkül, hülul* və s).

Rəmzlər vasitəsilə ifadə edilən, ona görə də anlaşılması bəzən çətinlik törədən daha bir neçə sufi terminə aşağıda aydınlıq gətirilir.

Sufi terminləri arasında bir qrup sözlərə rast gəlirik ki, onların hamı tərəfindən başa düşülən və qəbul edilən zahiri mənası ilə təsəvvüf aləmindəki mənası arasında kəskin fərq var. Bu sözlər adi anlamda ya təsəvvüflə qəti əlaqəsi olmayan əşyaları, bəzi hallarda isə hətta dünyəvi həyatın ləzzətlərini, eyş-işrət məclislərinə xas olan əməlləri

ifadə edir. Amma sufilərin dilində bu sözlər ən ülvi mənaları, Allah-bəndə münasibətlərini dilə gətirir.

Bu ziddiyyətin səbəbini müxtəlif cür izah edənlər var. Ən geniş yayılmış fikrə görə, sufilər bu yolla öz fikirlərini gizlətməyə, öz daxili aləmlərini biganə insanlardan qorumağa çalışırdılar.

Aşağıda sufi şairlərin əsərlərində daha çox rast gəldiyimiz bir neçə söz haqqında izahat verilir:

1. ***Mey.*** Fars dilindən tərcüməsi «şərab, məstedici içki» deməkdir. İrfan aləminə bələd olmayan şəxslər bəzi şeirlərdəki «şərab» və «mey» sözlərini zahiri mənada qəbul edirlər. Onların fikrincə, həmin şeirlərin müəllifləri həqiqətən sərxoşluq və əyyaşlıqla məşğul olmuş, hətta bunu gizlətmədən öz əsərlərində də təbliğ etmişlər. Nizami, Xaqani, Ömər Xəyyam, Sənai, Hafiz, Şəms Təbrizi, Nəsimi, Füzuli kimi düşüncə nəhənglərinin yaradıcılığına nəzər salsaq görərik ki, əslində onlar məcazi meydən və şərabdan danışır, həqiqi şərabı isə haram bilirdilər.

Böyük irfan şairi Sənai Qəznəvi «Hədiqətül-həqiqə» məsnəvisində sərxoşluq gətirən əsl şərab haqqında yazır:

Şəraba meyl etməyin nə faydası var?
Əvvəli şər, axırı su yoluna getməkdir.
Onun sirrindən ürəkdə sevinc yaranmaz,
O, insana mənəm-mənəmlikdən başqa heç nə verməz.

Sənai ilə müasir olan, onun tərəfindən «hikmət əhlinin başçısı», dili isə «Zülfüqar» adlandırılan, lakin bu gün əyyaş şair kimi tanıtdırılan Ömər Xəyyam rübailərinin birində sərxoşluq gətirən mey içmədiyini bəyan edir:

Mən badə içirəm, amma sərxoşluq etmirəm,
Qədəhdən başqa heç nəyə əl uzatmıram.
Bilirsənmi mey içməkdə məqsədim nədir?
Sənin kimi özümə pərəstiş etməmək üçün mey içirəm.

Xaqani Şirvani isə şəriətin haram buyurduğu şərabı «şeytan sidiyi» adlandırır:

Badəni ağıl üzərində hakim etmə!
Divi mələk üzərində rəhbər etmə!
Bu camdan halal səlsəbil *(cənnət suyu)* iç,
Haram cəhənnəm zəhərindən uzaq ol!
Şeytanın sidiyini şüşəyə tökmə,
Onu ağıl həkiminin yanına aparma!

Dünya şöhrətli Nizami Gəncəvi sanki gələcəkdə ruhuna qarşı irəli sürüləcək ittihamları görürmüş kimi elan edir:

Mənim saqim Allahın vədəsidir,
Qədəhim – özümdən getmək, meyim – özümü itirməkdir.
Yoxsa Allaha and olsun, nə qədər ki, ömür sürmüşəm,
Şəraba ağzımı bulaşdırmamışam.
Əgər ağzım meyə dəyibsə,
Allahın halal buyurduğu mənə haram olsun!

Bu gün çoxlarının dinsiz, şəriət düşməni kimi tanıdığı Seyid İmadəddin Nəsimi öz qəzəllərində yeri gəldikcə, eşqin meyindən məst olduğunu car çəkir, başqalarını da haram şərabı atıb bu meydən nuş etməyə çağırır:

Ey dünyanın meyindən ulaşan xumarına,
Eşqin şərabın istə ki, dəfi-xumar edər.

Nəsimi insanları vəhdət meyindən içməyə, yəni ilahi *mərifət* biliyini əldə etməyə həvəsləndirir:

Düşməz xumarın rəncinə vəhdət meyindən ta əbəd
Şol məsti-həq kim, saqisi ol nərgisi-məstanədir.
Şirin ləbidir dilbərin vəhdət meyin peymanəsi,
Ey zahid, ol peymanədən məst ol ki, xoş peymanədir!

Nəsimi açıq-aydın göstərir ki, başqaları üzüm suyunu içirlərsə, o, eşq meyini içir:

Maül-ənəbdəndir əgər hər sərxoşun sərxoşluğu,
Mən içmişəm eşqin meyin, sərməstü xumar olmuşam.

Ömrünü Kərbəlada, İmam Hüseynin (ə) məqbərəsində xidmətkarlıqla keçirmiş, Kərbəla zəvvarlarına qulluq etməyi özünə fəxr bilmiş Mühəmməd Füzulinin «Rindü Zahid» əsərində meyxanəyə rəhbərlik edən və gələnlərə badə paylayan pir özü zahiri şərabı pisləyir:

İnsan şərəfinin kəmalı ağıldır,
Ağıl Allahı tanımağın əsasıdır.
Heyifdir ki, bu ali binanın bünövrəsi
Şərab selindən xarabaya çevrilsin.
Bunu demək kifayətdir ki, pir meyxanəyə

qədəm basan Rindi qarşılayarkən, bismillah söyləyir: «Əgər bizi istəyirsənsə, otur, bismillah!».

Buradan məlum olur ki, bu meyxanə şərab evi deyil, həqiqətlər məskənidir. Buranın sakinləri üzüm suyu deyil, göz yaşı içirlər. Allah-təalanın şövqündən və günahlarının çoxluğundan zar-zar ağlayan ariflər məcazi mənada öz qanlı göz yaşlarını al şəraba bənzədiblər. Hafiz Şirazi divanın ilk qəzəlində deyir:

Əgər təriqət piri desə, səccadəni meylə boya,
Gərək haqq yolçusu yoldan və mənzillərin qaydasından xəbərsiz olmasın.

Bəli, haqq aşiqləri namaz və dua zamanı öz səccadələrini göz yaşı ilə isladarlar; çünki bu cür riqqət və səmimiyyətlə ibadət etməyi Allah-təala məsləhət görüb.

XIX əsr Azərbaycan klassik ədəbiyyatının ən görkəmli simalarından biri – Nəcəf şəhərində kamil ruhani təhsili almış, onlarla dini məzmunlu qəsidə və növhə yazmış Seyid Əzim Şirvani: «Evlər yıxıldı dəhrdə şürbi-şərabdən» deyərək, insanları bu böyük günaha bulaşmamağa çağırır:

İçmə şərabi-nabi ki, ümmül-fəsaddir,
Hər fitnədən şərab fəsadı ziyaddir.
İçmə onu ki, içmədi Peyğəmbəri-Xuda,
İçmə onu ki, içmədi Sultani-övliya.

Seyid Əzim şərabı «ümmül-fəsad» (fitnə-fəsadın mənbəyi) adlandırmaqla, Həzrət Mühəmməd Peyğəmbərin (s) məşhur bir hədisinə işarə edir: «Bütün günahlar bir evdə toplanıb ki, o evin qapısının açarı şərabdır».

2. ***Meyxanə (meykədə).*** Sözün əsl mənasında «şərab məclisi, şərab içilən yer» deməkdir. İrfan terminologiyasında arif insanın eşq və mərifətlə dolu qəlbini belə adlandırırlar. Eləcə də, haqq aşiqlərinin toplaşdığı yığıncaqlara, təriqət şeyxinin dərs və söhbət məclislərinə də meyxanə deyilir. Meyxanədə aşiqlər saqidən mey alıb içirlər, yəni onlara Allahdan *ilham* və *kəşf* gəlir, təriqət *mürşidi* onlara *seyrü-sülukun* incəliklərini öyrədir.

Çox zaman irfan şeirlərində meyxanə məscidə qarşı qoyulur, məscid eşqdən bixəbər, zövqsüz zahidlərin məskəni kimi tanıtdırılır. Şair məscidi və məscidə aid atributları (səccadə, təsbeh, namaz və s.) tənqid atəşinə tutur. Bunları da simvolik mənada qəbul etmək lazımdır. Orta əsrlərdə sxolastik İslamın nümayəndələri olan ruhanilər arifləri küfrdə ittiham edir, onların yolunu azğınlıq sayır, məscidlərdə, dini ocaqlarda irfan və təsəvvüf əleyhinə təbliğat aparırdılar. Ona görə də irfan ədəbiyyatında məscidlər və məscid adamları mənfi obraz kimi təqdim edilir. Əslində həmin şeirləri yazan şairlərin özləri ibadətdə üstün məqama çatmışdılar. Onlar dini ayinlərə deyil, irfandan xəbərsiz, mövhumatçı və nadan ruhanilərə qarşı çıxırdılar.

Ey əsiri-dami-qəm, bir guşeyi-meyxanə tut!
Tutma zühhadın müxalif pəndini, peymanə tut!
(Füzuli).

Xoş o gündən ki, hamı sakini-meyxanə olaq,
Çıxaraq əqlin əlindən, dəli-divanə olaq.
(İmam Xomeyni) (fars dilindən tərcümə).

3. ***Saqi.*** Eyş-işrət məclislərində xidmət edən və qədəhlərə şərab süzən şəxsə deyilir. İrfan ədəbiyyatında aşiqlərin qəlbini eşq meyi ilə dolduran, gözlərini eşq riqqəti ilə yaşardan Allah-təala saqi adlandırılır. Qurani-kərimdə cənnət əhlinin təsvir edildiyi ayələrin birində buyurulur: «Rəbbi onlara çox pak bir içki içirəcək» *(İnsan, 21).* Ayənin ərəb dilində tələffüzü belədir: «Və səqahüm Rəbbühüm şərabən təhura». Nəsimi bu ayəyə işarə edərək deyir:

Ey «səqahüm rəbbühüm» xəmrindən ikrah eyləyən,
Əsrədin qəflət meyindən, sındır ol peymanəyi!

Klassik şeir nümunələrində «saqi» sözü bəzən Həzrət Mühəmməd Peyğəmbərə (s) və başqa din müqəddəslərinə işarə olaraq işlədilir:

Piri-meyxanyei-qədimü qidəm,
Saqiyi-bəzmü həlqeyi-xatəm.
(Füzuli).

Bəzən haqq yolçusunun irfan yolundakı rəhbərinə – *mürşidə* də saqi deyirlər. Bəzən də şair qarşıya qoyduğu məqsədə çatmaq və nəzərdə tutduğu mətləbləri uğurla vəsf edə bilmək üçün «saqi» adlı xəyali varlıqdan im-

dad istəyir. Bu saqi şairə ilham verir və qələmə aldığı əsəri bitirməkdə ona yardımçı olur. Məsələn, Qumri Dərbəndi Kərbəla faciəsinə həsr etdiyi «Kənzül-məsaib» əsərinin əvvəlindəki saqinamələrin birində yazır:

Piyalə ver mənə, saqi, ələm həvası gəlir,
Yavaş-yavaş gözümün dürri-pürbəhası gəlir.

4. ***Cam, sağər.*** Lüğəti mənası «kasa, qədəh» deməkdir. Eyş-işrət məclislərində saqinin şərab süzüb verdiyi qablara cam deyirlər. İrfan aləmində isə haqq aşiqinin Allahdan aldığı ilahi eşqlə dolmuş qəlbini cam və sağər adlındırırlar. Bəzən irfan ədəbiyyatında ərafındakıları öz səthində əks etdirən çox cilalanmış camdan söhbət açılır. Bu, *riyazətlər* vasitəsilə cilalanmış qəlbdir ki, bütün dünyanı, hətta Allahı da özündə əks etdirməyə qadirdir. Hədislərdə də «arifin qəlbi Allahın evidir» və ya «arifin qəlbi Allahın güzgüsüdür» buyurulub. Bəzən arifin vəcddən və ilahi şövqdən yaşarmış gözünü də cam adlandırırlar.

Ey hurivəş ki, əksi-rüxün sağərimdədir,
Kövsər zülalı badeyi-canpərvərimdədir.
(S.Ə.Şirvani).

Arayişi-söhbət eylə, saqi,
Ver badə, mürüvvət eylə, saqi.
Bir cam ilə qıl dimağımı tər,
Ver badə, bir iltifat göstər!
(Füzuli).

5. ***Canan, yar, məşuq.*** Sufi ədəbiyyatında bu sözlər Allah-təalaya işarədir.

Canı kim cananı üçün sevsə, cananın sevər,
Canı üçün kim ki cananın sevər, canın sevər.
(Füzuli).

Aşiqi-kamil olan dərdini yarə nə desin,
O ki dərd əhlin edib dərdə giriftar, bilir.
Nə şikayət eləyim dərdi-dilimdən yarə,
Bilmişəm ki, dili-zarimdə nə kim var, bilir.
(S.Ə.Şirvani).

6. ***Rüx (üz, sifət).*** Bu kəlmə arifin nəzərində Allah-təalanın *təcəllasını* ifadə edir.

Könül, yetdi əcəl, zövqi-rüxi-dildar yetməzmi?
Ağardı muyi-sər, sövdayi-zülfi-yar yetməzmi?
Yetər oldü qülağə bangi-rehlət dəhr bağından,
Nə durmuşsan, təmaşayi-güli-rüxsar yetməzmi?
(Füzuli).

Üzdəki xəttü xal varlıq dünyasını, vəhdətdən yaranan kəsrət aləmini göstərir.

Bu xalü xəti kim rüxi-cananda yazıblar,
Bənzər o hürufatə ki, Quranda yazıblar.
(Raci).

Bəzən irfan ədəbiyyatında «rüx» və «hüsn» adı altında Qurani-kərim nəzərdə tutulur.

7. ***Zülf (saç).*** Allahın camalını seyr etməyə mane olan vasitələrə, aşiqi Allahdan ayıran maneələrə işarədir.

Küfri-zülfün salalı rəxnələr imanımıza,
Kafər ağlar bizim əhvali-pərişanımıza.
(Füzuli).

Aşiqlərin könlünün məşuqun zülfündən asılı olması ariflərin maddiyyat dünasından ayrıla bilməmələri və bu məhdudiyyət içində qalmaları mənasındadır.

Dil ki sərmənzili ol zülfi-pərişan olmuş,
Nola cürmi ki, asılmasına fərman olmuş?
(Füzuli).

8. ***Ləb (dodaq) və dəhan (ağız).*** Allahın öz sevimli bəndələri ilə danışmasını, yəni Allahdan gələn ilhamı bildirir. Aşiq həmişə yarının ağzının kiçikliyindən və hətta yoxluğundan şikayət edir ki, bu da onun ilahi mərifəti qəbul etmə bacarığının azlığından şikayət kimi başa düşülməlidir.

Dəhənin dərdimə dərman dedilər cananın,
Bildilər dərdimi, yoxdur dedilər dərmanın.
(Füzuli).

Klassik Şərq şairləri öz əsərlərində yüzlərlə bu kimi simvolik ifadələrdən istifadə etmişlər. Bunları şərh edən həm şeir, həm də nəsr formasında yazılmış lüğət tipli əsərlər də mövcuddur. Bu lüğətlərin ən məşhuru Şeyx Mahmud Şəbüstərinin (1287-1320) «Gülşəni-raz» əsəridir.

N.R.

TƏSLİS

Ərəb dilindən tərcüməsi «üçləşdirmə» mənasını verir. Xristianların üç üqnuma (tanrı-ata, tanrı-oğul və müqəddəs ruh) inamını göstərən bir ifadədir. Onların əqidəsincə, tanrı-ata bütün dünyanı, o cümlədən, insanları yaradan, kainatı idarə edən qüvvədir. Tanrı-oğul, yəni İsa Məsih (ə) tanrı-atanın kəlamının (loqos) cism şəklində təzahürüdür. Müqəddəs ruh isə tanrı ruhudur. İsa (ə) Həzrət Yəhya (ə) vasitəsilə xaç suyuna çəkildiyi zaman müqəddəs ruh göyərçin şəklində yerə enmişdir və qiyamət gününə kimi xristianları hidayət edəcəkdir. Bəzi xristian təriqətləri təslis əqidəsini tanrını 3 yerə parçalamaq yox, bir tanrının 3 cür təzahürünə inanmaq kimi təqdim etməyə çalışırlar.

Qurani-kərimdə təslis əqidəsi ciddi tənqid edilir: «Allah 3-ün *(üç ilahın)* üçüncüsüdür» – deyənlər, əlbəttə, kafir olmuşlar. Halbuki bir olan Allahdan başqa heç bir tanrı yoxdur. Əgər onlar dediklərinə son qoymasalar, onlardan kafir olanlara, şübhəsiz ki, şiddətli bir əzab üz verəcəkdir *(Maidə, 73).*

N.R.

TƏŞƏHHÜD

Ərəb dilindən tərcümədə «şəhadət vermək, şahidlik etmək» mənasını bildirir. Namaz əməllərindən biridir. Namazın ikinci və axırıncı rükətlərində səcdədən qalxdıqdan sonra diz üstə oturmuş vəziyyətdə bir neçə cümləni söyləməyə deyilir. Bütün məzhəblərə görə, sonuncu rükətdə səcdədən qalxdıqdan sonra təşəhhüdün sözlərini söyləyəcək qədər vaxt ərzində diz üstə oturmaq fərz sayılır. Bu zaman təşəhhüdün sözlərini söyləmək cəfəri məzhəbində fərzdir. Əhli-sünnə məzhəblərinə görə isə, ikinci rükətinin təşəhhüdündə ət-*təhiyyat* duasını oxumaq vacibdir (fərz deyil). Eləcə də, namazın son rükətində ət-təhiyyatı oxumaq şafii və hənbəli məzhəblərinə görə fərz, hənəfi məzhəbinə görə vacib, maliki məzhəbinə görə isə sünnətdir.

Əhli-sünnə məzhəblərinin dördündə də təşəhhüdün sözləri «ət-təhiyyatü» kəlməsi ilə başlayır, salamların, salavatların, pak və mübarək sözlərin Allaha məxsus olduğu bildirilir, sonra Həzrət Mühəmməd Peyğəmbərin (s) ruhuna və Allahın saleh qullarına salam göndərilir, kəlmeyi-şəhadət cümlələri deyilir. Təşəhhüdün sözləri dörd əhli-sünnə məzhəbində cüzi fərqlərə malikdir. Hənəfilər və hənbəlilər Abdullah ibn Məsuddan, malikilər Ömər ibn Xəttabdan, şafiilər Abdullah ibn Abbasdan rəvayət edilən təşəhhüd mətnini mötəbər sayırlar.

Cəfəri məzhəbində təşəhhüd zamanı həm diz üstə oturuş, həm də sözlərin deyilməsi vacib *(fərz)* sayılır. Bunun mətni əhli-sünnə məzhəbindən fərqlidir. Zəruri olan – kəlmeyi-şəhadətin cümlələrini söyləmək, Peyğəmbərə və nəslinə salavat göndərməkdir. Əhli-sünnə məzhəbindən fərqli olaraq, şiəlikdə salamlar təşəhhüdə aid deyil və axırıncı rükətdə təşəhhüddən sonra deyilməlidir.

bax: *təhiyyat.*

N.R.

TƏŞRİQ GÜNLƏRİ

Zilhiccə ayının 11-ci, 12-ci və 13-cü günlərinə verilən ad. Ərəb dilindən tərcüməsi «günün istisində ət qurutmaq» mənasını verir. Keçmişdə hacılar qurban kəsdikləri heyvanın ətini sonrakı günlərdə daşların üstünə sərir və qurudurdular.

Təşriq günlərində hacılar *Minada* qalmalıdırlar, Minanı tərk etmək olmaz. Həmin günlərdə yerinə yetirilməli yeganə əməl – *cəmrələri* (şeytanı simvolizə edən sütunları) daşlamaqdır. Təşriq günlərinin hər birində hər üç sütuna 7 daş atılır. Zilhiccənin 12-ci günortadan sonra, Günəş batmazdan əvvəl Minanı tərk edib getmək olar. Amma gün batandan sonra Minanı hər kim tərk etsə, gərək mütləq qayıdıb həmin gecəni Minada qalsın, ertəsi gün də (zilhiccənin 13-ü) cəmrələri daşlasın.

Cəfəri, şafii, maliki və hənbəli məzhəblərinə görə, təşriq günlərində Minada qalmaq və cəmrələri daşlamaq vacibdir. Amma hənəfi məzhəbində bu, müstəhəb sayılır.

N.R.

TƏVAF

Ümrə və həcc ziyarətlərinin vacib hissəsi. *Ehram* geyinmiş halda Kəbənin ətrafında 7 dəfə dövrə vurmağa deyilir. Hər dövrə *şovt* adlanır. Təvaf Kəbənin «qara daş» yerləşən küncünün bərabərindən başlayır və 7 dövrədən sonra orada qurtarır. Fırlanmanın istiqaməti saat əqrəbi hərəkətinin əksinədir. Ümrə təvafı istənilən gündə, həcc təvafı isə zilhiccə ayının 10-da (Qurban bayramı günündə) həyata keçirilir.

Təvafın bunlardan əlavə bəzi başqa vacib şərtləri də var. Təvafdan qabaq dəstəmaz almaq lazımdır və təvaf zamanı dəstəmaz pozulmamalıdır. *Hicri-İsmaili* də Kəbə ilə birlikdə təvafa daxil etmək lazımdır. Yəni Kəbə ilə Hicri-İsmailin arasından keçib təvaf etmək olmaz. Cəfəri məzhəbinə görə, *Məqami-İbrahimi* təvafa daxil etmək olmaz. Yəni Kəbə ilə Məqami-İbrahimin arasından keçmək lazımdır (əhli-sünnə məzhəblərində bu hökm yoxdur). Təvafın ilk üç şovtunu bir qədər iti yerişlə yerinə yetirmək müstəhəbdir. Qalan dörd şovt adi yerişlə icra edilir. Həmçinin, təvaf zamanı sağ çiyini açıq saxlamaq, yəni ehramı sağ qolun altından keçirib uclarını sol çiyinə atmaq da müstəhəb sayılır.

Həcci başa vurub Məkkədən çıxanda vida təvafı adlı daha bir təvaf etmək cəfəri və maliki məzhəblərində müstəhəbdir. Hənəfilər və hənbəlilər bunu vacib sayırlar; hacı vida həccini etməmişsə, həcci düzgündür, amma cərimə olaraq qurban kəsməlidir. Şafii məzhəbində bu məsələ ixtilaflıdır.

Cəfəri şəriətində *nisa* (qadın) *təvafı* da vacib sayılır. Həcci qurtarandan sonra mütləq nisa təvafı etmək lazımdır. Əgər hacı (istər kişi, istərsə qadın) nisa təvafını etməsə, həyat yoldaşı ona haram olar.

Təvafı qurtardıqdan sonra Məqami-İbrahimin arxasında (yəni Məqami-İbrahim radiusundan kənarda) təvaf namazı qılınır. Təvaf namazı sübh namazı kimidir, iki rükətdən ibarətdir.

N.R.

TƏVAZÖ

Ən gözəl əxlaqi xüsusiyyətlərdən biridir. Ərəb dilində «əskiltmək, dərəcəsindən aşağı salmaq» mənasını ifadə edən «vəz» kökündən qaynaqlanır. İnsanın özünü başqalarından üstün deyil, əskik tutmasına, təkəbbür və lovğalıqdan uzaq olmasına təvazö deyilir. Müsəlman başqaları ilə rəftarda həmişə özünə qarşı tələbkar olmalı, öz nöqsanlarını görüb etiraf etməyi bacarmalıdır. Əlbəttə, ifrat səviyyədə təvazökarlıq edib, özünü zillətə salmaq da İslamda bəyənilmir. Əsl təvazö odur ki, insan malik olduğu bütün üstünlüklərin Allah tərəfindən verildiyini unutmasın, onlara arxalanıb təkəbbür etməsin və bu üstünlükləri bir gün itirə biləcəyinə hazır olsun.

İmam Zeynül-abidin (ə) buyurmuşdur: «Yaşca səndən kiçik adamla görüşəndə ehtiramla davran. Təsəvvür et ki, o, dünyada səndən az yaşadığı üçün günahları da səninkindən azdır. Özündən böyük olanla qarşılaşanda da ona hörmət göstər. Fikirləş ki, səndən çox yaşadığı üçün qazandığı savablar da səninkindən çoxdür».

İslam əxlaqına görə, təvazö müsəlmanın hər bir hərəkətində özünü göstərməlidir. Quran ayələrinin birində Allah-təala insanları hətta yol gedərkən təvazöyə riayət etməyə çağırır, təkəbbürlə və ətəyi yer süpürə-süpürə yeriməyi qadağan edir. Quranın daha bir ayəsində buyurulur: «Allah təkəbbür edənləri sevməz!» *(Nəhl, 23).* Allah-təala özünə qürurlanan şəxslərə bu cür xəbərdarlıq edir: «Allah hər təkəbbür sahibinin, zalımın ürəyini belə möhürəyər» *(Mömin, 35).*

İslam tarixi boyunca məşhur alimlər və övliyalar həmişə Quran ayələrini, Peyğəmbər sünnəsini əldə əsas tutaraq təvazökarlıqla davranmışlar. Məsələn, Xacə Nəsirəddin Tusi Elxanilərin vəziri olduğu zaman bir gün zəmanənin məşhur təfsirçisi Qazi Beyzavi onun yaşadığı şəhərə qonaq gəlir. Görüşdən sonra Xacə Tusi Qazi Beyzavini yola salmağa çıxır. Qazi atına minmək istəyəndə Xacə Tusi onun atının üzəngisini tutub, minməsinə kömək edir. Camaat bu hərəkətin səbəbini soruşanda Xacə cavab verir: «İnsan mütəmadi olaraq öz təkəbbürünü məhv edib, mənliyini sındıran əməllər etməlidir. Mən də neçə vaxt idi ki, təkəbbürümü sındırmaq istəyirdim. Ətrafa baxıb, bu iş üçün Qazi Beyzavini ən layiqli gördüm».

Əxlaq mövzusunda yazılmış ən dəyərli kitablardan biri olan «Cameüs-səadat»ın müəllifi Molla Mehdi Nəraqi əsəri bitirdikdən sonra onun bir neçə nüsxəsini Nəcəfə – böyük müctəhidlərin hüzuruna göndərir. Nəcəf alimləri, o cümlədən, zəmanənin böyük fəqihi Seyid Mühəmməd Mehdi Bəhrül-ülum kitabla tanış olub, müəllifin irfani səviyyəsinə heyran qalırlar. Bir müddət sonra Nəraqi Nəcəf şəhərinə ziyarətə yollanır. Şəhərin bütün alimləri onun görüşünə gəlirlər. Yalnız Bəhrül-ülum Nəraqini ziyarət etmir. Qonaqların get-gəli qurtardıqdan sonra Nəraqi yaxınlarına deyir ki, gəlin, biz gedib Seyid Bəhrül-ülumu ziyarət edək. O, şagirdləri ilə birlikdə Bəhrül-ülumun evinə gəlir. Amma Bəhrül-ülum xidmətçiyə tapşırır ki, onun məşğul olduğunu və qonaqları qəbul etmədiyini söyləsin. Nəraqi heç bir söz demədən qayıdır. Bir neçə gündən sonra yenə yaxınları ilə birlikdə Bəhrül-ülumun görüşünə yollanır. Bu dəfə də ona həmin cavabı verirlər. Üçüncü dəfədə Bəhrül-ülum Nəraqini hədsiz ehtiramla qarşılayır və hərəkətinin səbəbini ona açıb deyir: «Bilirsiniz niyə sizin görüşünüzə gəlmədim, həm də sizi qapımdan geri qaytardım? İstəyirdim bilim ki, «Cameüs-səadat» kitabında yazdığınız əxlaqi keyfiyyətlərə özünüz maliksiniz, yoxsa bu kitabdakıları adi bir nəzəriyyə kimi yazmısınız. İndi mənə aydın oldu ki, kitabda yazdıqlarınızın hamısı sizin öz seyri-süluk yolunuzun təsviridir».

Şah Abbasın zamanında baş vermiş bir hadisə alilmlərin təvazöyə nə qədər əhəmiyyət verdiklərini bariz şəkildə nümayiş etdirir. Bir gün Şah Abbas iki böyük cəfəri alimi ilə – Şeyx Bəhai və Mir Damadla birlikdə gəzintiyə çıxır. Mir Damad Şeyx Bəhaiyə nisbətən bədəncə kök imiş. Ona görə də Mir Damadın mindiyi at onlardan azacıq geri qalır. Şah Abbas onların mənəvi dünyasını yoxlamaq qərarına gəlir. Buna görə geri qalıb Mir Damada deyir: «Görürsənmi, Şeyx Bəhai bizi saymır, özünü bizdən üstün bilir. Ona görə atını çapıb bizdən irəli düşüb». Mir Damad şaha belə cavab verir: «Şeyx Bəhaidə günah yoxdur. Onun mindiyi at, belində bu cür alimi gəzdirdiyi üçün sevincdən qanad açıb uçur, ona görə də bizdən irəli keçib».

Sonra Şah Abbas atını sürüb Şeyx Bəhaiyə çatır və ona deyir: «Mir Damadı görürsənmi? Bizimlə bir sırada gəlməyi özünə ar bilir. Ona görə kənara çəkilib, bizdən arxaya qalıb». Mir Damad isə belə cavab verir: «Mir Damadın mindiyi at onun elm və əxlaqının ağırlığından geri qalır».

N.R.

TƏVƏKKÜL

Ərəb dilindən tərcümədə «vəkil bilmək, vəkil kimi qəbul etmək» mənasını verir. Dini anlamda hər bir məsələdə Allaha arxayın olmaq, hər şeyi Onun öhdəsinə buraxmaq deməkdir. Qurani-kərimdə təvəkkül möminin ən gözəl xüsusiyyətlərindən biri kimi göstərilir: «Kim Allaha təvəkkül etsə, *(Allah)* ona kifayət edər. Allah öz əmrini yerinə yetirəndir» *(Təlaq, 3).* «Allah bizə yollarımızı göstərdiyi halda, biz nə üçün Ona təvəkkül etməməliyik?» *(İbrahim, 12).* Qurani-kərimdə Peyğəmbərə əmr edilir ki, yalnız Allaha təvəkkül etsin: «Yenilməz qüdrət sahibinə, mərhəmət sahibinə təvəkkül et!» *(Şüəra, 217).*

İslam müqəddəsləri də öz hədislərində təvəkkülün üstünlüklərini bəyan etmişlər. Məsələn, Əli ibn Əbu Talib (ə) buyurub: «Təvəkkül insanı hər kəsdən və hər şeydən ehtiyacsız edir». Ehtiyacsız insan ən güclü insandır. Həzrət Mühəmməd Peyğəmbərin (s) buyurduğu kimi, hamıdan güclü olmaq istəyən şəxs Allaha təvəkkül etsin.

Təvəkkül anlayışı təsəvvüfdə də mühüm yerə malikdir. Sufilərin kamala yetmək üçün çatmalı olduqları *məqamların* 6-cısı təvəkküldür. Məşhur sufi Səhl ibn Abdullah Tüstəri təvəkkül barədə bu fikirdə idi: «Təvəkkülün əlaməti üçdür: heç nə istəməyəsən, baş verən işi geri qaytarmayasan, əlinə düşəni yığıb-saxlamayasan». Yenə ondan rəvayət edirlər ki, deyib: «Təvəkkülün əvvəli budur ki, bəndə Allahın qarşısında özünü ölüyuyanın qarşısındakı meyit kimi hiss etsin. Ölüyuyan meyiti istədiyi tərəfə çevirə bilər, amma ölüdən heç bir hərəkət və iradə müşahidə olunmaz».

Sufilərin təvəkkülünün həddi barədə aşağıdakı əhvalata nəzər salmaq kifayətdir. Sufilərdən biri Bayezid Bistamidən soruşur ki, təvəkkül nədir? Bayezid onun özünün nə fikirdə olduğunu xəbər alır. Həmin sufi cavab verir: «Bizim fikrimizcə, təvəkkül odur ki, əgər vəhşi heyvanlar sənin sağında, əfi ilanlar solunda dursa, batinində heç bir vəhşət və qorxu olmasın». Bayezid deyir: «Bu hal təvəkkülə yaxındır. Amma bil ki, əgər behişt əhli cənnətdə ləzzət içində, cəhənnəm əhli atəş içində olsalar və sən onların vəziy-

yəti arasında fərq görsən, təvəkkül əhli sayılmazsan».

İslam müqəddəsləri başqasına möhtac olmaq dərəcədə təvəkkül etməyi bəyənməmiş və hər zaman ehtiyatla, tədbirlə davranmağı məsləhət görmüşlər. Vaxtilə Həzrət Mühəmməd Peyğəmbər (s) onunla görüşə gəlmiş bir ərəbdən soruşdu ki, dəvəni harada qoyub gəlmisən? Ərəb cavab verdi ki, Allaha təvəkkül edib dəvəni özbaşına buraxdım. Peyğəmbər buyurdu: «Dəvənin ayaqlarını bağla, sonra Allaha təvəkkül et!». İkinci raşidi xəlifəsi Ömər ibn Xəttab ruzi qazanmaq üçün zəhmət çəkməyən, camaatın ianəsi hesabına dolanan insanlarla rastlaşanda onlardan soruşmuşdu: «Siz kimsiniz?». Onlar cavab verdilər: «Biz təvəkkül əhliyik». Ömər ibn Xəttab dedi: «Siz təvəkkül yox, təəkkül *(yemək)* əhlisiniz. Siz yalançısınız. Əsl təvəkkül əhli odur ki, əvvəlcə yerə toxum səpər, sonra *(bol məhsul yığmaq üçün)* Allaha təvəkkül edər».

N.R.

TƏVƏLLA və TƏBƏRRA

Ərəb dilindən tərcümədə təvəlla – dostluq, təbərra isə üz çevirmək, rədd etmək mənasını verir. Təvəlla və təbərra nümunəvi müsəlman əxlaqının ən vacib elementlərindəndir. Cəfəri məzhəbində təvəlla və təbərra *füruüd-dindən* sayılır.

Təvəllanın mənası budur ki, müsəlman hər zaman Allahın sevdiyi insanları sevməli, Allahın mömin bəndələri ilə, haqqın tərəfdarları ilə dostluq və həmrəylik halında olmalıdır. Təbərra isə bu deməkdir ki, müsəlman həmişə Allahın düşmənləri ilə düşmənçilik etməli, Allahın sevmədiyi insanlardan üz çevirib uzaqlaşmalıdır. Qurani-kərimdə buyurulur: «Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənlərinizi dost tutun!.. Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər. Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər əsl zalımlardır!» *(Mümtəhinə, 1, 8-9).*

Rəvayət edirlər ki, bir gün Həzrət Mühəmməd Peyğəmbər (s) səhabələrdən soruşdu: «İman zəncirinin hansı halqası daha möhkəmdir *(yəni imanı möhkəmlədən əməl hansıdır)*?». Səhabələrin bəzisi «namaz», bəzisi «zəkat», bir qismi «oruc», başqa bir qismi «həcc», bir neçəsi isə «cihad» deyə cavab verdi. Peyğəmbər buyurdu: «Dediklərinizin hamısı fəzilətli əməllərdir. Amma iman zəncirinin ən möhkəm halqası – Allah naminə sevmək və Allah naminə düşmənçilik etməkdir, Allahın dostları ilə dost olmaq və Allahın düşmənlərindən kənar durmaqdır».

Buna oxşar bir kəlam da İmam Cəfər Sadiqə (ə) mənsubdur: «İman zəncirinin ən möhkəm halqası Allah naminə sevmək, Allah naminə düşmənçilik etmək, Allaha xatir vermək və Allaha xatir əsirgəməkdir».

Təvəlla və təbərra yalnız insanın müasirləri olan yaxşı və pis adamlara münasibətlə məhdudlaşmır. Yüz illərlə əvvəl yaşamış şəxslərin ruhuna, xatirəsinə və əməllərinə münasibət göstərmək də təvəlla və təbərra sayılır. Allah dostları həyatda olmasalar da, ruhları ehtiramla yad edilməli, əməlləri təqdir olunmalı, sözləri mötəbər sayılmalıdır. Əksinə, din və əqidə düşmənlərinin həm ruhu, həm ideologiyası, həm də söz və əməlləri rədd edilməli, onların çirkin siması tanıtdırılmalıdır.

Təvəlla və təbərranı imkan dairəsində əməllə, bu mümkün olmadıqda dillə icra etmək lazımdır. Əgər şərait bunlara imkan verməsə, heç olmazsa, insan ürəyində yaxşı və pis adamlara öz münasibətini bildirməlidir. Təvəlla və təbərra müsəlmanı laqeyd və məsuliyyətsiz həyat tərzi sürməyə qoymur, onu öz mövqeyini ortaya qoymağa, öz iradəsini nümayiş etdirməyə sövq edir.

N.R.

TƏVƏSSÜL

Ərəb dilindən tərcüməsi bir işi həyata keçirmək üçün nəyi (və ya kimi) isə vəsilə (vasitə) olaraq qəbul etməkdir. Dini termin olaraq, insanın Allaha dua edərkən, Allah yanında müstəsna dəyəri olan bir şəxsi (əgər diridirsə), yaxud onun ruhunu (əgər həyatda

yoxdursa) vasitəçi kimi qəbul etməsinə təvəssül deyilir. Təvəssül edən adam inanır ki, Allah-təala həmin müqəddəs adamın (və ya onun ruhunun) xatirinə onun duasını və ehtiyacını yerinə yetirəcək.

Qurani-kərimdə Allah-təala buyurur: «Ey iman gətirənlər! Allahdan qorxun! Ona vəsilə axtarın!» *(Maidə, 35).*

Səhih hədislərdən məlum olur ki, Həzrət Mühəmməd Peyğəmbərin (s) sağlığında müsəlmanların bir çətinliyi olanda o həzrətdən xahiş edirdilər ki, onlar üçün Allaha dua etsin. Məsələn, Osman ibn Hüneyf adlı səhabədən rəvayət olunub ki, bir kor kişi Peyğəmbərin yanına gəlib, gözünün açılması üçün Allaha dua etməsini Ondan xahiş etdi. Peyğəmbər buyurdu: «İstəsən, sənin üçün dua edərəm. Amma istəyirsənsə, bu halına səbir et; sənin üçün bu daha xeyirli olar». Kor kişi Onun dua etməsini təkid etdi. Onda Peyğəmbər kor kişiyə tapşırdı ki, dəstəmaz alıb iki rükət namaz qılsın və belə dua etsin: «Allahım! Rəhmət peyğəmbəri olan Mühəmmədin xatirinə səndən ehtiyacımı istəyir və Sənə yönəlirəm. *(Ey Mühəmməd!)* Sənin xatirinə Rəbbimə sarı yönəlirəm ki, bu ehtiyacımı həll etsin. Allahım, Onu *(Mühəmmədi)* mənə şəfaətçi et!». Bu duanı edəndən sonra həmin adamın gözləri sağaldı *(Sünənüt-Tirmizi, Dəavat kitabı, 3578-ci hədis; Sünənü İbn Macə, İqamətüs-səlat kitabı, 1385-ci hədis).* Həm Tirmizi, həm də İbn Macə bu hədisin səhih olduğunu yazırlar.

Maraqlıdır ki, Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatından sonra, üçüncü xəlifə Osman ibn Affanın hakimiyyəti zamanı bir nəfərə çətinlik üz verəndə yuxarıdakı hədisi rəvayət edən Osman ibn Hüneyf ona məsləhət görmüşdü ki, iki rükət namaz qılıb həmin duanı etsin. O adam məsləhətə əməl etdi və çətinliyi aradan qalxdı *(Təbərani. Əl-Möcəmül-kəbir, IX, 17, 8311-ci hədis).*

Həzrət Mühəmməd Peyğəmbərin (s) insanlar üçün dua etdiyi zaman duasının qəbul edilməsi Quran ayələrində də açıq-aşkar şəkildə bildirilib: «Onlar *(münafiqlər)* özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu görərdilər» *(Nisa, 64).*

Xəlifə Osmanın zamanında baş vermiş hadisədən də görünür ki, Peyğəmbərə təvəssül etmək Onun sağlığında faydalı olduğu kimi, vəfatından sonra da faydalıdır. Yəni bir çoxlarının iddia etdiklərinin əksinə olaraq, vəfat etmiş müqəddəs və mömin şəxslərin ruhu diri insanlar üçün Allahın hüzurunda vasitəçi ola bilərlər. Çünki təvəssül – həmin müqəddəs şəxsin imanı, təqvası, Allah yanında məqamı ilə bağlıdır. Bunlar isə bədənə yox, ruha aid olan cəhətlərdir. Allah-təala heç kimi zahiri gözəlliyinə və ya fiziki gücünə görə başqalarından üstün tutmaz. «Allah yanında ən hörmətli olanınız ən təqvalı olanınızdır» *(Hücürat, 13).* Bir insanın Allah yanında məqamı ruhani xüsusiyyətlərinə görədirsə, ruh ölmədiyi üçün, bədən öldükdən sonra da bu məqam Allah yanında qorunur və həmin şəxs yenə Allahın sevimli bəndəsi olaraq qalır.

Rəvayətlərdən məlum olur ki, Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatından sonra müsəlmanlara quraqlıq üz verəndə Peyğəmbərin qəbrinin yanına gəlir, Onun ruhuna təvəssül edir və Allahdan yağış istəyirdilər. İkinci xəlifə Ömər ibn Xəttab öz xilafəti dövründə (yəni Peyğəmbərin vəfatından sonra) o həzrətin əmisi Abbas ibn Əbdülmüttəlibin vasitəsilə Allaha təvəssül edib yağış istəmiş və demişdi: «Allahım! Biz Sənin peyğəmbərinə təvəssül edərdik və Sən bizə yağış göndərərdin. İndi də Sənin peyğəmbərinin əmisinin vasitəsilə Sənə təvəssül edirik; bizə yağış göndər!» *(Səhihül-Buxari, İstisqa kitabı, 1010-cu hədis; Peyğəmbərin səhabələrinin fəzilətləri kitabı, 3710-cu hədis; Səhihü İbn Xüzeymə, II, 337-338, 1421-ci hədis; Hakim Nişaburi. Əl-Müstədrəkü ələs-Səhiheyn, III, 409, 5506-cı hədis).*

Təvəssül tarixin bütün dövrlərində geniş yayılmış bir əməl olmuşdur. Mötəbər hədislərə görə, hətta Həzrət Adəm Peyğəmbər (ə) cənnətdən Yer üzünə endikdən sonra tövbə edəndə Həzrət Mühəmməd Peyğəmbərin (s) və Əhli-beytin adlarına təvəssül etmişdi. Ruhlar bədənlərdən çox-çox əvvəl yarandıqları, Allahla əhd-peyman bağladıqları və yalnız bundan sonra ilk insanın bədəninin yaradılığı üçün, Həzrət Adəmin (ə) bu adlardan xəbərdar olması da təbiidir. Başqa

peyğəmbərlərin də başlarına gələn müsibət zamanı Həzrət Mühəmmədin (s) və Əhlibeytinin adı ilə Allaha sığınmaları barədə rəvayətlər var.

Təvəssül bütün məşhur İslam məzhəbləri və alimləri tərəfindən qəbul edilib. Həm şiə, həm də əhli-sünnə məzhəblərində təvəssülün doğruluğu barədə yüzlərlə hədis var. Hətta şiə məzhəbində 14 məsuma təvəssüldən bəhs edən Təvəssül duası da mövcuddur. Yalnız özlərini «sələfi» adlandıran bir cərəyanın nümayəndələri (bunlara çox vaxt *vəhhabi* də deyirlər) ölü insanın ruhuna (peyğəmbər olsa belə) təvəssül etməyi günah bilir və Allaha şərik qoşmağa bərabər tuturlar.

Bir daha qeyd edirik ki, təvəssül qətiyyən hər hansı şəxsi Allaha şərik qoşmaq və öz ehtiyacını o adamdan istəmək mənasını daşımır. İnsanın başqa birisinə işi düşəndə, adətən, onun tanıdığı və hörmət etdiyi adamı arada vasitəçi edir və xahişini onun vasitəsilə çatdırır. Bizim milli ənənəmizdə də bu var. Həmişə ağsaqqallar, ruhanilər küsülüləri barışdırmaq, qan düşmənçiliyini aradan qaldırmaq, xahişləri yerinə yetirmək, elçilik etmək üçün vasitəçi rolunu oynayıblar. Aydındır ki, bütün məsələlərdə son sözü vasitəçi yox, işin asılı olduğu adam söyləyir. Amma inanılmış və hörmətli bir şəxs zamin duranda çətinliklər daha tez həll olur. Təvəssülün kökündə duran əsas məqsəd də məhz budur.

N.R.

TƏVİL

Lüğəvi mənada «hər hansı bir şeyi əslinə qaytarmaq, öz yerinə çatdırmaq» deməkdir. «Təvil» sözü Quranda müxtəlif mənalarda işlədilib. Məsələn: yozum, izah *(Ali-İmran, 7)*, səbəb *(Kəhf, 78)*, nəticə *(Nisa, 59)*, yuxuyozma *(Yusif, 100)*.

Termin kimi təvil – dini baxımdan məqbul bir səbəbi və ya *dəlili* əsas götürərək, ayəni zahiri mənaya deyil, özündən əvvəl və sonra gələn ayələrə, sünnəyə uyğun olan mənalardan birinə tətbiq etmək deməkdir.

M.İ.

TƏYƏMMÜM

Namaz qılmaq, Qurani-kərimə toxunmaq kimi paklıq tələb edən əməlləri yerinə yetirmək üçün dəstəmaz və ya qüsl əvəzinə bəzi hallarda edilən müvəqqəti təmizlənmə. Qurani-kərimdə təyəmmüm haqqında buyurulur: «Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaqyolundan gəldiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün. Allah sizi çətinliyə salmaq istəməz, lakin O, sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükr edəsiniz» *(Maidə, 6)*.

Namazı təyəmmümlə qılmaq icazəsi hicrətin 5-ci ilində şaban ayının əvvəllərində, *Bəni-Müstəliq* səfəri zamanı Peyğəmbərə vəhy edilmişdir. O zaman müsəlmanlar səhrada sübh namazını qılmaq üçün su tapmamış və yuxarıdakı ayə nazil olmuşdur.

Ayədən göründüyü kimi, təyəmmüm müsəlmanlar üçün yüngülləşdirici bir hökmdür. Allah-təala dəstəmaz və ya qüsl ala bilməyən şəxslərin vacib ibadətdən (namazdan) qalmalarını istəmir, buna görə də onların təyəmmümlə namaz qılmalarına icazə verir. Təyəmmümün bütün dəstəmaz üzvlərinə deyil, yalnız sifətə və əllərə edilməsi də müsəlmanlara yüngüllük gətirmək məqsədini daşıyır. Təyəmmüm çox qısa vaxt ərzində, asanlıqla yerinə yetirilir.

Təyəmmüm əsasən, aşağıdakı hallarda edilir:

a) Su tapılmayanda və ya su dəstəmaz (qüsl) üçün kifayət etməyəndə. İnsan öz vətənində və ya hər hansı yaşayış məntəqəsindədirsə, su tapmaqdan ümidi kəsilincəyə kimi axtarmalıdır. Əgər çöldə və səhradadırsa, bu zaman yaxınlıqda suyun olması dəqiq bilinərsə və ya ehtimal edilərsə, həmin istiqamətdə axtarış aparmaq lazımdır. Ayrı-ayrı məzhəblərdə suya qədər məsafə bir mil (təqr. 1,7 km.), iki mil (təqr. 3,4 km.), yarım fərsəx (təqr. 2,5 km.), iki ox uçuşu (400 addım) qeyd edilib. Əgər yaxınlıqda su tapılmayacağı dəqiq bilinirsə, axtarış aparmağa dəyməz. Su dəstəmaz (qüsl) almaq üçün kifayət etməsə, yaxud dəstəmaz (qüsl) alındığı halda içməyə su qalmasa, bu halda da təyəmmüm edilir. Əgər namaz vaxtının sonuna kimi su əldə ediləcəynə ümid varsa, namazı son vaxta kimi təxirə salmaq lazımdır.

b) Sudan istifadə etməklə insanın sağlamlığına təhlükə yaranarsa və bu, həkim tərəfindən deyilərsə, təyəmmüm almaq lazımdır.

c) İnsanın bədəni və ya libası nəcəs olsa, gərək əvvəlcə onu su ilə pak etsin. Bundan sonra su qalarsa, dəstəmaz (qüsl) alsın, qalmazsa, təyəmmüm etsin. Şafii və hənbəli məzhəblərində su dəstəmaza (qüslə) bəs edəcək qədər deyilsə, mümkün olduğu miqdarda dəstəmaz (qüsl) almaq, qalan bədən üzvlərini isə təyəmmüm etmək lazımdır (yəni məsələn, sifəti yumaq, əlləri isə təyəmmüm etmək).

Təyəmmüm torpaq, qum, daş (cəfəri məzhəbində kəc, əhəngdaşı) üzərinə edilə bilər. Maliki məzhəbində qarın üzərinə də təyəmmüm etməyə icazə verilir. Təyəmmüm edilən yerin üzərində azacıq toz olmalıdır. Təyəmmüm edilən yerin pak olması da vacib şərtdir. Nəcəs olduğu bilinən yerə təyəmmüm edilməz. Təyəmmümdən qabaq əllərin və sifətin üzərindəki maneələr (üzük, qolbaq, eynək) götürülməlidir.

Təyəmmüm əhli-sünnə məzhəblərinə görə belə edilir: Niyyətdən sonra ovucların içini torpağa vurub, yuxarıdan-aşağıya doğru sifətə sürtürlər. Bu zaman sifətin dəstəmazda yuyulması gərəkən hissələrini əhatə etmək lazımdır. Sonra yenə ovucları torpağa vurub, əvvəlcə sol əlin ovcunu sağ əlin barmaqlarının ucundan dirsəyə kimi çəkirlər. Sonra eyni qayda ilə sağ əlin ovcu ilə sol əlin barmaqlarının ucundan dirsəyə kimi *məsh* edirlər. Maliki və hənbəli məzhəblərində barmaqların ucundan biləyə kimi məsh etmək fərzdir, dirsəyə kimi məsh etmək isə sünnət sayılır.

Cəfəri məzhəbinə görə təyəmmüm belə edilir: Niyyətdən sonra ovucların içini torpağa vurub, alnın saç bitən yerindən burnun yuxarısına (gözlərin arasına) kimi hissəni iki ovucla yuxarıdan-aşağıya məsh edirlər. Sonra sol əlin ovcunu sağ əlin barmaqlarının ucundan biləyə kimi məsh edirlər. Eyni qayda ilə sağ əlin ovcunu da sol əlin barmaqlarının ucundan biləyə kimi sürtürlər.

Əhli-sünnə məzhəblərində təyəmmüm iki zərbə ilə (ovucları iki dəfə yerə vurmaqla) yerinə yetirilir. Cəfəri məzhəbində isə bir zərbə kifayətdir. Amma bəzi müctəhidlər ehtiyata görə, yuxarıda göstərilən qaydada təyəmmüm aldıqdan sonra bir daha ovucları yerə vurub əllərin üstünə çəkməyi tövsiyə edirlər.

Dəstəmazı batil edən hallar təyəmmümü də batil edir. İnsanın üzrü aradan qalxan kimi (məsələn, su tapılan kimi) təyəmmümün hökmü aradan qalxır; bundan sonra namazlar dəstəmaz və ya qüsllə qılınır. Təyəmmümlə qılınmış namazları qəza etməyə ehtiyac yoxdur.

N.R.

TƏZİR

İslam şəriətində cəzalandırma üsulu. O adamlar təzir yolu ilə cəzalandırılır ki, şəriətdə konkret cəzası (buna *həd* deyilir) müəyyən olunmuş günahlardan savayı pis bir iş tutmuş olsun. Təzirlə həddin əsas fərqləri bundadır:

a. Həddin icrası lazım olan günahlar Quranda və sünnədə müəyyən edilib. Amma heç bir həd maddəsinə düşməyən elə günahlar var ki, onlara görə təzir tətbiq olunur.

b. Həddin miqdarı Quran və sünnədə təyin edilib. Onun icrasında ifrat və ya təfrit etmək (cəzanı yüngülləşdirmək və ya ağırlaşdırmaq) olmaz. Amma təzirin növünü və miqdarını şəriət hakimi seçir.

c. Təzir nə ağırlıq dərəcəsinə, nə də sayına görə həddən artıq olmamalıdır. Məsələn, şallaq vurma cəzasında həddin ən aşağı dərəcəsi 40 zərbədir; bunu mömin qadına zina böhtanı atmış (*qəzf* etmiş) köləyə qarşı tətbiq edirlər (azad adamın cəzasının yarısı qədər). Buna görə də şallaqla təzirdə zərbələrin sayı 40-dan az olmalıdır.

ç. Həd yalnız yetikinlik yaşına çatmış insanlara qarşı tətbiq oluna bilər. Təzir cəzasına isə uşaqlar da məhkum edilə bilərlər.

Təzirin əsas məqsədi müsəlman ölkələrində ictimai asayişi qorumaqdır. Bu mənada təzir – həd gərəkən günahların qarşısını almaq üçün profilaktika tədbiri kimi də qəbul edilə bilər.

Günahın növündən, günahkarın ictimai mövqeyindən, sağlamlıq vəziyyətindən, yaşından və cinsindən, zaman və məkan şəraitindən asılı olaraq təzirin növünü və miqdarını *qazi* təyin edir. Şəriətdə təzir növləri kimi aşağıdakı cəza üsulları təklif edilir: şal-

laq vurma, günahkarın saçını qırxıb, onu şəhərin mərkəzində gəzdirməklə rüsvay etmək, sürgün, həbs, maddi cərimə və s. İslam tarixi boyunca fərz namazları qılmayan, orucluq vaxtı yemək yeyən, söyüş söyən, naməhrəm şəxslə zinadan fərqli bir cinsi əlaqədə olan, hədd icra ediləsi miqdardan az pul oğurlayan adamlara təzir tətbiq edilməsi faktları ilə bağlı xeyli rəvayətlər vardır.

N.R.

TƏZİYƏ

Ərəb dilindən tərcüməsi «müsibətə düşmüş insana təsəlli vermək» deməkdir. İslam şəriətinə görə, bir müsəlman vəfat edəndə onun yaxınlarına başsağlığı vermək, dərdlərinə şərik olmaq lazımdır. Hətta Həzrət Məhəmməd Peyğəmbər (s) tapşırmışdı ki, vəfat edən adamın ailəsinə qohum-qonşular 3 gün yemək aparsınlar. Çünki əzizini itirən adam dərdin ağırlığından üzülür, özünə yemək hazırlamağa həvəsi olmur.

Dini ədəbiyyatda «təziyə» sözü matəm mərasimi mənasında işlədilir. Təziyə (yas) məclislərinin keçirilmə məqsədi budur ki, ölünün ruhuna dualar oxunsun, Quran tilavət edilsin, camaata halal-haram başa salınsın. Çox təəssüf ki, hal-hazırda əksər təziyə məclislərimiz lazımsız söhbətlərin edildiyi yığıncağa və ziyafət süfrəsinə çevrilib.

Təziyə məclisində mərhumun ölümünə həddən artıq ağlayıb-sızlamaq, saç yolmaq, yaxa cırmaq və s. haramdır. Rəhmətə getmiş şəxs üçün üç, qırx, cümə axşamı, il kimi məclislərin keçirilməsi günah deyil, amma bunları keçirmək şəriətdə əmr olunmayıb. İmkanı olan bu mərasimləri keçirə bilər; imkansız ailələr, sıxıntı ilə, borc almaq hesabına keçirməli olanlar isə bunu etməsələr yaxşıdır.

Rəhmətə getmiş adi insanlarla yanaşı, bəzən İslam müqəddəslərinin şərəfinə də təziyə məclisi təşkil edirlər. Əsasən, mühərrəmlik mövsümündə İmam Hüseynin (ə) və silahdaşlarının faciəli şəhadətinin xatirəsinə həsr edilən təziyə məclisləri daha çox keçirilir. İmam Hüseyn (ə) təziyəsini həm ayrı-ayrı şəxslər, həm də icma və təşkilatlar keçirə bilərlər. Məclislər bəzən evlərdə, əksər hallarda isə məscidlərdə və dini ocaqlarda təşkil olunur. Bir qayda olaraq, təziyə məclislərində aşura faciəsinin səbəbləri və nəticələri araşdırılır, Kərbəla şəhidlərinin şücaəti təsvir edilir, *mərsiyə* və *növhələr* oxunur, ehsan süfrəsi açılır. Təziyə məclislərini təşkil etmək böyük savabdır. Amma bu məclislərin dini qayda-qanunlara uyğun keçirilməsinə ciddi nəzarət etmək, mövhumata və xurafata yol verməmək əsas şərtdir. Təziyə zamanı bədənə ziyan yetirən, sağlamlıq üçün təhlükəli olan əməllər etmək (məsələn, xəncər vurmaq) günahdır.

Kərbəla şəhidlərinin şərəfinə təşkil edilən təziyə məclislərinin tarixi aşura faciəsindən dərhal sonra başlayır. Kərbəla əsirləri Yezidin əmri ilə Dimaşqdə saxlandıqları zaman, camaatın onlarla görüşməsinə məhdudiyyət qoyulmuşdu. Buna baxmayaraq, onlar saxlandıqları yerdə qapalı da olsa, təziyə məclisləri təşkil edirdilər. Əsirlər karvanının üzvləri Mədinəyə qayıdarkən, yolüstü Kərbəla səhrasında da təziyə məclisi keçirmişdilər. Faciədən sonrakı ilk illərdən etibarən Mədinədə Əhli-beyt üzvlərinin, səhabələrin iştirakı ilə böyük təziyə mərasimləri qurulurdu.

İlk dəfə dövlət səviyyəsində təziyənin Büveyhilər zamanında təşkil olunduğunu yazırlar. Büveyhi əmiri Müizzüd-dövlə (945-967-ci illər) əmr vermişdi ki, mühərrəm ayının ilk ongünlüyündə Bağdadda camaat qara geyinsin, dükanlardan qara parçalar asılsın. Aşura günündə şəhərdə bazar bağlanırdı, hamı kütləvi təziyə mərasiminə qatılırdı.

Sonrakı əsrlərdə, xüsusilə, Səfəvilər və Qacarlar dövründə İranda təziyə ənənəsi özünün ən yüksək inkişaf dövrünü yaşadı. Dövlət səviyyəsində dəstəklənən təziyə məclislərində şah da daxil olmaqla yüksək rütbəli hökumət məmurları, nüfuzlu ruhanilər fəal iştirak edirdilər. Açıq havada keçirilən təziyə məclislərində *şəbih* səhnələri də ifa olunurdu.

N.R.

TƏZKİYƏ

Təmizləmə, paklama. Allahın insanı *şirk*, *küfr*, günah, riyakarlıq, cəhalət və s. kimi xüsusiyyətlərdən təmizləməsi mənasını verir.

Dini baxımdan zəngin sayılan insanların mallarından bir qismini ehtiyacı olanlara verərək mallarını bərəkətləndirmələri də təzkiyə sayılır. Təsəvvüf düşüncəsində təzkiyə – *nəfsin* pisliklərdən və mənfi hallardan təmizlənməsidir.

R.M.

TİLAVƏT

Ərəb dilndən tərcüməsi «oxumaq» deməkdir. Dini termin olaraq Qurani-kərimi oxumaq mənasında işlədilir. Quranda buyurulur: «Verdiyimiz kitabı layiqincə tilavət edənlər ona iman gətirənlərdir» *(Bəqərə, 121)*. «Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə ürəkləri qorxudan titrəyər, Allahın ayələri tilavət olunduğu zaman həmin ayələr onların imanını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edərlər» *(Ənfal, 2)*.

Qurani-kərimi oxumaq anlamında adətən, iki kəlmədən istifadə edilir: tilavət və qiraət. Hər iki sözün tərcüməsi «oxumaq» olsa da, dilçi alimlər tilavətin daha üstün mənaya malik olduğunu söyləyirlər. Belə ki, qiraət – Quranın adi qaydada oxunuşudur. Tilavət isə ayələrin mənasını düşünüb anlayaraq, məzmununa diqqət yetirərək oxumağı bildirir. Elə buna görə də, Rağib İsfahani Quran kəlmələrinin ensiklopediyası sayılan «əl-Müfrədat» əsərində yazır: «Hər tilavət qiraətdir, amma hər qiraət tilavət sayıla bilməz».

«Tilavət» sözü şiə məzhəbində başqa bir mənaya da malikdir. Rəhmətə getmiş şəxsin ruhuna hədiyyə olaraq Quran oxunduqdan sonra adətən, tapşırma duası oxuyurlar. Tapşırma duasında niyyət edilir ki, oxunan ayələr kimin ruhuna hədiyyə olunur. Belə bir ənənə mövcuddur ki, tapşırma duasından əvvəl tilavət adlı şeir parçası avazla oxunur. Tilavətin mətnində adətən, 14 *məsumun* adı sıra ilə sadalanır və onların ruhu xatirinə Allaha dualar edilir. Azərbaycanda yas məclislərində müxtəlif tilavətlər oxunur; bunların bəziləri ərəb, bəziləri də azərbaycan dilindədir. Xüsusilə, Şeyx Bəhainin qələmindən çıxmış, «Binəbiyyin, ərəbiyyin və rəsulin mədəniy» misrası ilə başlayan tilavət daha məşhurdur.

N.R.

TİLSİM (əslində TİLİSM)

İnsanı bəlalardan qorumaq, bədbəxt hadisələrin qarşısını almaq və ya insan iradəsini müəyyən istiqamətə yönəldərək onu məcbur etmək məqsədilə istifadə edilən bəzi əşyalar, şəkillər, yazılar və cizgilər. İslamdan əvvəlki qədim mədəniyyətlərdə tilsim geniş yayılmışdı. Müxtəlif din və inanclarda kiçik heyvan heykəlləri, qiymətli və parlaq daşlar, heyvan dişləri, caynaqları, tükləri, simvolik fiqurlar, metal, sümük, dəri və ya kağız üzərində çizilmiş cizgi və yazılar tilsim sayılırdı. Bu gün də xalq arasında gözmuncuğu, sancaq, at nalı, qaratikan kimi tilismlərə inam qalmaqdadır.

«Tilism» sözünün hansı kökdən qaynaqlanması dəqiq məlum deyil. Bəziləri bu sözün yunan mənşəli olduğunu iddia edirlər. Bəziləri isə ərəb dilində başqa bir kəlmənin hərflərinin yerini dəyişdirməklə bu sözün alındığını söyləyirlər. Ərəb dilində «müsəllit» (tabe edən, ələ keçirən) sözü ilə «tilism» sözü eyni hərflərlə yazılır.

Orta əsrlərə aid müsəlman mənbələrində tilism fövqəl-təbii qüvvələrə aid olan elmlərdən (elmül-qəraib) biri sayılır. Tilism elminin mövzusu və üsulları barədə çoxlu kitablar yazılsa da, oradakı məlumatlar ziddiyyətli və dolaşıqdır. Ümumiyyətlə, tilism yazıları əksər hallarda konkret zamanda (həftənin müəyyən günlərində, bəzi saatlarda) yazılması tövsiyə edilən simvolik fiqurlardan, xətt və nöqtələrdən, ayrı-ayrı hərflərdən ibarət olur. Bəzən bu hərflər birlikdə oxunduqda müəyyən mənanı verir, bəzən isə onların mənasını anlamaq mümkün deyil. Tilism elminin mövzusu barədə deyilənləri belə cəmləşdirmək olar: Tilism maddi və qeyri-maddi qüvvələrin bir araya gətirilməsi nəticəsində bəzi hadisələrin törədilməsini öyrədən elmdir. Tilism edən şəxs alçaq dünya adlandırılan şühud *(nasut)* aləminə aid bəzi maddələrin və cismlərin vasitəsilə uca dünya adlandırılan *qeyb* aləminə məxsus bəzi qüvvələri özünə tabe etdirir və onların təsirini müəyyən istiqamətlərə yönəldir ki, bunun nəticəsində maddi aləmdə bəzi dəyişikliklər yaranır.

Tilismlərin nə qədər həqiqətə uyğun olması alimlər tərəfindən birmənalı qəbul

edilmir. Bəziləri bunu *sehr* və *cadu* kimi yalan sayır, bəziləri isə onun doğruluğuna inanırlar. Çox zaman sadəcə olaraq təlqin və özünətəlqin nəticəsində insan psixologiyasında yaranan dəyişiklikləri tilismin təsiri kimi anlayır və dəyərləndirirlər. İslam tarixi boyunca müxtəlif müəlliflər tərəfindən (onların arasında mötəbər din alimlərinin də adına rast gəlirik) tilism mövzusunda minlərlə kitab yazılsa da, ümumilikdə, tilismlə məşğul olmağın İslamda qadağan olması fikri daha çox müdafiə edilir. Mötəbər dini mənbələrdə *fal* və cadu ilə bir sırada tilismlə məşğul olanlar və onlara inananlar böyük günah etmiş sayılırlar. Aşağıda adları çəkilən tilism kitabları xüsusilə məşhurdur: «Cameüd-dəəvat», «Məcməüd-dəəvat», «Əsrari-Qasimi», «Şəmsül-məarif», «Məcməül-əsrar və məcməüt-təlasim», «Kənzül-Hüseyni» və s.

N.R.

TÖVBƏ

Ərəb dilindən tərcüməsi «qayıdış» deməkdir. Dini anlamda insanın öz günahını etiraf edib peşman olmasına və bir daha bunu təkrar etməyəcəyi barədə Allaha vəd verməsinə deyilir. Tövbə edən şəxs də günahlardan itaətə doğru qayıtmış olur («tövbə» sözünün mənasına uyğun olaraq).

Qurani-kərimdə «tövbə» sözü və onunla eyni kökdən olan kəlmələrə 87 dəfə rast gəlinir. Lüğət alimləri yazırlar ki, Quranda tövbə anlayışı həm Allaha, həm də bəndəyə aid edilib. «Tövbə» sözü Allaha aid olduqda «əla» hissəciyi, bəndəyə aid edildikdə isə «ila» hissəciyi ilə yanaşı işlədilir. Birinci halda Allahın qəzəb və cəzadan mərhəmətə doğru qayıtması, ikinci halda isə bəndənin günahdan itaətə sarı dönməsi nəzərdə tutulur.

Quranda bütün möminlərə öz günahlarından tövbə etmək əmr edilir: «Ey möminlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız» *(Nur, 31)*. Başqa bir ayədə günahkar insanların axirətdəki acınacaqlı aqibəti haqqında danışıldıqdan sonra buyurulur: «Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayandır, rəhm edəndir» *(Fürqan, 70)*.

İmam Əli ibn Əbu Talib (ə) buyurub ki, tövbənin faydası *nəfsin* imkanlarını tanımaqdır. Həqiqətən, insan tövbə etdikdən sonra qarşısına günah imkanları çıxanda onun öz nəfsi üzərində nə qədər hakim olduğu aşkara çıxır. Hədislərdən məlum olur ki, bəndə tövbə etdikdə Allah-təala buna sevinir. Səmimi tövbə edənin günahlarının üzərinə pərdə çəkilir, hətta qiyamətdə də Allah bu günahların üstünü açmaz.

Tövbə etmək imkanı Allahın öz bəndəsinə bir lütfüdür. İmam Cəfər Sadiq (ə) buyurub: «Mömin günah edəndən 20 il sonra da olsa, xatırlayıb tövbə edər və Allah onu bağışlayar. Kafir isə heç bir saat keçməz ki, günahını unudar və tövbə etməz». İmam Əlidən (ə) rəvayət edilən: «Tövbə etmək imkanı verilən şəxsin tövbəsinin qəbulu qadağan olmaz» hədisi də buna sübutdur.

Allah-təala öz günahkar bəndəsinə tövbə etmək üçün möhlət verər. Rəvayət edirlər ki, Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub: «Hər kim ölümündən bir il əvvəl tövbə etsə, qəbul olar». Sonra o həzrət öz sözünə düzəliş verdi: «Bir il çoxdur, ölümündən bir ay qabaq tövbə etsə, qəbul olar». Sonra bir ayın da çox olduğunu bildirib buyurdu: «Bir ay çoxdur, bir həftə qabaq da tövbə etsə, qəbul olar». Daha sonra Peyğəmbər bu müddəti bir günə qədər azaltdı. Axırda isə belə buyurdu: «Hətta bir gün də çoxdur, ölümü duymazdan əvvəl tövbə etsə, Allah onun tövbəsini qəbul edər».

Əlbəttə, bu xüsusiyyət nadan və qafil günahkarlara aiddir. Öz günahını yaxşı anlayan, amma qəsdən tövbəni təxirə salan, ölüm ayağında əli hər yerdən üzüldüyü halda tövbə edən şəxs heç nəyə nail olmaz. Çünki tövbənin əsas şərti səmimiyyət və ixlasdır. Qeyri-səmimi edilən tövbələr Allah dərgahında qəbul edilməz: «Allah yanında yalnız o kəslərin tövbəsi qəbul olunar ki, onlar nadanlıq ucundan pis bir iş gördükdən sonra dərhal tövbə edərlər. Allah belələrinin tövbəsini qəbul edər. Həqiqətən, Allah *(hər şeyi)* biləndir, hikmət sahibidir. Günah işlər görməkdə davam edərək ölüm yetişdiyi anda: «Mən indi tövbə etdim» – deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq!» *(Nisa, 17-18)*. Elə buna görə də, ölüm anında tövbə etmiş fironun günahlarını Allah-təala bağışlamadı.

Tövbə təsəvvüf aləmində də özünəməxsus yerə malikdir. Haqq yolundakı 7 *məqamdan* birincisi tövbədir. Haqq yolçusu bu məqamda şəriətə zidd olan hər işdən tövbə etməli və bundan sonra bütün əməllərini bu əsasda quracağına söz verməlidir. Təsəvvüf ədəbiyyatında Peyğəmbərin bu məşhur hədisi tez-tez xatırlanır: «Günahdan tövbə etmiş şəxs heç günah etməmiş kimidir. Allah onun günahlarını yaxşı əməllərlə əvəz edər». Sufilərin çoxusu bu fikirdə olmuşlar ki, tövbə məqamında kamil rəhbərin *(mürşidin)* başçılığı altında hərəkət etmək, onun tapşırıqlarını qeydsiz-şərtsiz yerinə yetirmək lazımdır.

Sufilik mövzusunda ən məşhur əsərlərdən sayılan «Misbahül-hidayə» kitabında tövbənin 5 şərti olduğu bildirilir: fərz olan ibadətləri icra etmək, buraxılmış fərzləri qəza etmək, halal ruzi qazanmaq, qəsb olunmuş bütün əmlakı sahibinə qaytarmaq və nəfslə mübarizə etmək. Göründüyü kimi, bu şərtlər İmam Əli (ə) tərəfindən istiğfar üçün bəyan edilmiş şərtlərlə oxşardır (bax: *istiğfar*).

Ariflər tövbənin 5 növünü müəyyən etmişlər: Birincisi, əməl sahiblərinin (ümmal) tövbəsi pis işlərdən yaxşı əməllərə üz tutmaqdır. İkincisi, zahidlərin tövbəsi dünyaya rəğbətdən etinasızlığa üz çevirməkdir. Üçüncüsü, hüzur əhlinin tövbəsi qəflətdən hizura doğrudur. Dördüncüsü, ixlaslıların tövbəsi pis əxlaqdan yaxşı əxlaqa yönəlməkdir. Nəhayət, beşincisi, ariflərin tövbəsidir ki, öz yaxşı əməllərini görsələr, tövbə onlara vacib olar, bununla da öz fellərindən haqqın felinə doğru qayıdarlar. (Mərifət əhli öz yaxşı əməllərini görməyi xudpəsəndlik və təkəbbür sayar, hər şeyin Allahdan olduğunu unutmaq kimi dəyərləndirər; buna görə tövbə edər).

N.R.

TÖVBEYİ-NƏSUH

Ən səmimi, ən xalis tövbəyə deyilir. Qurani-kərimdə buyurulur: «Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən *(nəsuh)* tövbə edin!» *(Təhrim, 8)*.

Tövbeyi-nəsuhun xüsusiyyətləri barədə çoxlu izahlar mövcuddur. Hətta məşhur Quran təfsirçisi Qürtübi yazır ki, tövbeyi-nəsuha 23 cür tərif verilib. Bəzilərinin fikrincə, tövbeyi-nəsuhun 4 şərti var: etdiyin günah üçün ürəkdən peşman olmaq, dillə tövbə-istiğfar etmək, həmin günahdan çəkinmək və bir daha o günaha bulaşmamağı qəsd etmək. Bəziləri deyib ki, tövbeyi-nəsuhun 3 xüsusiyyəti olmalıdır: Allah tərəfindən qəbul olunmaması üçün qorxmaq, qəbul olunacağına ümid etmək və Allaha itaəti davam etdirmək.

Həzrət Mühəmməd Peyğəmbərdən (s) tövbeyi-nəsuh haqqında soruşanda belə cavab vermişdi: «Süd bir daha döşə qayıtmadığı kimi, bu tövbəni etmiş insan da bir daha günaha qayıtmaz». İmam Sadiq (ə) isə buyurub: «Tövbeyi-nəsuh elə bir tövbədir ki, onu edənin batini *(içərisi)* ilə zahiri *(çölü)* eyni cürdür, hətta batini zahirindən daha üstündür».

N.R.

TÖVHİD

Ərəb dilindən tərcüməsi vahidlik, yeganəlik mənasını ifadə edən «vəhdət» sözündəndir. Tövhid – Allahı vahid, yəni bənzərsiz və şəriksiz olaraq qəbul etmək və Ona iman bəsləməkdir. Tövhid əqidəsi İslam dininin bünövrəsidir, müsəlmanın bir növ kimlik kartıdır. Əhli-sünnə məzhəbində *iman əsaslarının*, şiə məzhəbində isə dinin əsas prinsiplərinin *(üsulüd-din)* ilk maddəsi tövhiddir. Həzrət Mühəmməd (s) öz peyğəmbərliyini elan edərkən, hər şeydən əvvəl insanları Allahdan başqa tanrı olmadığını təsdiq etməyə çağırmışdı.

Qurani-kərimin onlarla ayəsində Allahın şəriksiz olması israr edilir, tövhidi inkar etmək ən ağır günah kimi göstərilir. Həzrət Mühəmməd Peyğəmbərin (s) və Əhli-beyt imamlarının (ə) hədislərində də tövhid İslamın əsas şərti kimi ön plana çəkilir.

Tövhid gündəlik həyatımızın ən müxtəlif sahələrində özünü parlaq şəkildə təcəssüm etdirir. Hər bir niyyətimizdə, əməlimizdə, əqidəmizdə Allahın təkliyini bütün varlığımızla hiss etməli, bu hissi yaşamalıyıq. Dini kitablarda tövhidin bir neçə dərəcəsindən

söz açılıb. Aşağıda həmin dərəcələrdən ən mühümlərini qeyd edirik:

1. ***Zati tövhid.*** Bu, Allahın vahidliyi barədə ən ilkin və ən primitiv təsəvvür deməkdir. Yəni Allahı Qurani-kərim ayələrində və hədislərdə buyurulduğu kimi, tək, vahid, yeganə və şəriksiz halda qəbul etməkdir. Buna inanmaqdır ki, Onun zatı (varlığı) nə atəşpərəstlikdəki kimi iki (Xeyir və Şər), nə xristianlıqdakı kimi üç (Ata, Oğul və Müqəddəs Ruh), nə də hinduizmdəki kimi çoxsaylı deyil.

2. ***Sifati tövhid.*** Yəni qeyri-məhdud sayda gözəl və müsbət sifətlərin sahibi olan Allah təkdir, yeganədir. Bütün sifətlər Onun Allah təkdir, yeganədir. Bütün sifətlər Onun zatında birləşir. Allahın sifətlərinin çoxluğu Onun zatının çoxsaylı olması demək deyil. Məsələn, təsəvvür edək ki, bir insan həm riyaziyyat, fizika və kimya elmlərini, həm də tarix və coğrafiyanı yaxşı bilir, üstəlik gözəl rəssamlıq qabiliyyətinə və mələhətli səsə malikdir. Bunlarla yanaşı, onda səxavət, mərdlik, rəhmdillik keyfiyyətləri də var. Nəhayət, bu insan zahiri görünüşcə də gözəldir. Bütün bu sifətlər yalnız bir adamda toplanıb və sadalanan sifətlərin sahibi bir nəfərdən artıq deyil. Vahid Allah da beləcə çoxlu sifətlərin sahibidir.

Allahın sifətləri Onun zatı ilə eynidir və Onunla vəhdət əmələ gətirir. Sifətlər Allahdan ayrılmazdır. Allah heç zaman bu sifətlərsiz olmayıb və olmayacaq. Allahı sifətlərdən ayrı təsəvvür etmək mümkün deyil. Su zatən nəm və axıcı, od zatən isti və yandırıcı, duz zatən şor olduğu kimi, Allah da zatən alimdir, diridir, qüdrətlidir, görüb-eşidəndir, şəriksizdir və s.

Əgər duzun şorluq xüsusiyyəti ondan alınsa, duz artıq öz mahiyyətini itirər. Su axıcı olmasa, su halından çıxar və tamam başqa bir şeyə çevrilər. Allahı da hər hansı sifətindən ayrı təsəvvür etsək, O, öz allahlığını itirər. Hər kəs Allahın sifətlərindən birini dansa, Allaha asi olar.

3. ***Feli (əməli) tövhid.*** Yəni kainatı yaradan, idarə edən, bütün varlıqlara ruzi verən, canlıları öldürən və dirildən vahid Allahdır. Bu işlərin heç birində Onun şəriki yoxdur. Əgər təbiətdə hər hansı hadisə və proses müəyyən vasitələrlə və qanunauyğunluqlarla baş verirsə, bu, o demək deyil ki, həmin hadisələr Allahın nəzarətindən kənardadır. Bu vasitələr və qanunauyğunluqlar da Allahın məxluqudur (yaratdığıdır) və Ona tabedir. Sadəcə olaraq, Allah təbiətdə qarışıqlıq yaranmasın deyə, həm də canlı varlıqlar (insanlar və heyvanlar) baş verənləri anlasınlar və bunlara öyrəşsinlər deyə, vasitələrdən istifadə edir. Məsələn, Allah ruzi verəndir. Amma bəzən bir adamın ruzisi başqa bir adamın əli ilə verilir. Yaxud mələklər Allahın əmri ilə müəyyən işləri icra edirlər. Bir mələk *(Cəbrail)* vəhyi peyğəmbərlərə çatdırır, o biri mələk *(Əzrail)* əcəli çatanların canını alır. Bu proseslərin hamısı Allahın icazəsi ilə və Onun nəzarəti altında baş verir. Mələklər isə Allahın əmrlərini Allahın verdiyi qüdrət sayəsində Allahın izni ilə yerinə yetirən vasitələrdir. Ona görə də, məsələn, Allahın izni olmadan Əzrailin özbaşına surətdə insanların canını aldığına inanmaq tövhidin birbaşa ziddinədir və Əzraili Allaha şərik qoşmağa bərabərdir.

4. ***İbadətdə tövhid.*** Bu, hər növ pərəstiş və ibadətin obyekti kimi yalnız Allahı seçmək, hər bir əməli edərkən Allahın razılığını qazanmağa çalışmaq deməkdir. İbadətdə tövhidin mənası – Allahın razılığını insanların razılığına qurban verməmək, hər hansı maddi fayda qazanmaq xatirinə ilahi qanunqaydaları pozmamaq, nəfsə, tamaha, vardövlətə, vəzifəyə, şan-şöhrətə, şəhvətə aludə olmamaq, hər işi Allaha xatir etməkdir. Qurani-kərimdə bu cür insanlar bizə nümunə kimi göstərilir və Həzrət Mühəmməd Peyğəmbərə (s) buyurulur ki, ibadətdə tövhid dərəcəsini yaşadığını bu şəkildə ifadə etsin: «De: «Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür» *(Ənam, 162).*

N.R.

TÜRBƏ

Ziyarət olunan yer, üstü qapalı və ya yarıaçıq məzar. Səhabələrin, böyük alimlərin, şəhidlərin, övliyaların və sairə məşhur şəxslərin məzarı üzərində tikilən ziyarət yeri.

R.M.

TÜRBƏT

Tərcüməsi «torpaq» deməkdir. Termin olaraq, müqəddəs şəxslərin məzarı üzərindən *təbərrük* niyyətilə götürülən torpağa deyilir. Daha dar mənada *Kərbəla* torpağını türbət adlandırırlar. Bütün İslam məzhəblərində türbətə bağlılıq və sevgi vardır. Məsələn, İstambuldakı Topqapı sarayında Həzrət Mühəmməd Peyğəmbərin (s) Mədinədəki məzarı üzərindən götürülən və nəfis qabın içində saxlanılan türbət müsəlmanlar tərəfindən sevə-sevə ziyarət edilir.

İmam Hüseynin (ə) məzarı yerləşən Kərbəla şəhərinin torpağı cəfəri məzhəbində xüsusi ehtirama malikdir. Xəstəlik zamanı azacıq miqdarda Kərbəla türbətini su ilə qarışdırıb içmək, meyit dəfn olunarkən yanağının və sinəsinin üstünə türbət tökmək, *hənutuna* türbət qarışdırmaq, meyitin kəfəninin üzərindəki duaları türbətlə yazmaq, Kərbəla türbətindən hazırlanmış *təsbehlə* zikr etmək, Kərbəla türbətindən yoğrulmuş *möhürün* üzərinə səcdə etmək savab sayılır. Şiə hədislərində buyurulur ki, İmam Cəfər Sadiq (s) sarı rəngli parçanın arasında Kərbəla türbətini saxlayırdı. Namaz vaxtı bu türbətin üzərinə səcdə edir və buyururdu: «Hüseynin (ə) türbətinə səcdə etmək göylərin yeddi pərdəsini yırtar *(yəni insanın duasının səma qatlarından keçib Allah dərgahına maneəsiz çatmasına səbəb olar)*». Başqa rəvayətdə buyurulur ki, bir nəfər üçün İmam Riza (ə) Xorasandan hədiyyə göndərmişdi. Hədiyyəni alan adam boxçanı açanda içində bir az torpaq olduğunu gördü. Hədiyyəni gətirəndən soruşdu ki, bu torpaq nədir? Cavab verdi ki, bu, İmam Hüseynin (ə) türbətidir. İmam Riza (ə) kimin üçün nə hədiyyə göndərirsə, arasına bir az bu torpaqdan tökür və buyurur: «Bu torpaq Allahın izni ilə bütün bəlalardan əmin-amanlıq mənbəyidir». Şiə mənbələrində Kərbəla türbətinin şəfaverici xüsusiyyətləri barədə çoxlu rəvayətlər mövcuddur.

Vaxtilə Həzrət Mühəmməd peyğəmbər də (s) Kərbəla türbətinin qəribə xüsusiyyətlərə malik olduğunu bildirmişdi. Peyğəmbərimiz öz həyat yoldaşı *Ümmi-Sələməyə* Hüseynin (ə) gələcəkdə şəhid olacağını söyləmiş və ona bir ovuc Kərbəla torpağı vermişdi (Bu torpağı Peyğəmbərə Cəbrailin gətirdiyi rəvayət edilir). Peyğəmbər Ümmi-Sələməyə buyurmuşdu ki, nə vaxt bu torpaqda qan damcıları görsə, Hüseynin (ə) şəhid olduğunu bilsin. Ümmi-Sələmə türbəti şüşə qabın içinə töküb saxlayırdı. Üstündən 50 il keçəndən və İmam Hüseyn (ə) Kufə istiqamətində yola çıxandan sonra Ümmi-Sələmə hər gün səhər və axşam qabı götürüb torpağı yoxlayırdı. Bir axşam türbətin içindən qan damcılarının sızdığını gördü, İmam Hüseynin (ə) qətlə yetirildiyini başa düşüb matəm saxlamağa başladı, yaxınlarına da bu müsibəti xəbər verdi. Camaat onun verdiyi xəbərə inanmadı. Yalnız bir neçə gündən sonra aşura faciəsinin əks-sədası Mədinəyə çatanda hesablayıb gördülər ki, türbətdə qan damcılarının görünməsi məhz mühərrəm ayının 10-a – aşura gününə təsadüf edibmiş *(İbn Həcər Heysəmi. Əs-Səvaiqül-mühriqə, XI bab, 30-cu hədis; İbn Həmzə. Əs-Saqib fil-mənaqib, 272-ci hədis; Şeyx Müfid. Əl-İrşad, II, VII bab, 7-ci hədis; Şeyx Səduq. Əmali, XXIX məclis, 1-ci və 4-cü hədislər).*

Ömrü boyu İmam Hüseynin (ə) Kərbəladakı məqbərəsində xidmətçilik etmiş və öz vəsiyyətinə əsasən orada dəfn olunmuş böyük Azərbaycan şairi Məhəmməd Füzuli də şeirlərinin birində yazırdı:

Ey Füzuli, məskənim çün Kərbəladır, şərimin
Hörməti hər yerdə vardır, xalq onun müştağıdır.
Nə qızıldır, nə gümüş, nə ləl, nə mirvaridir,
Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır.

N.R.



ÜCB

Müsəlmana yaraşmayan mənfi xüsusiyyətlərdən biri, təvazönün ziddidir. Bir kəsin özünü hamıdan üstün tutmasına, başqalarını özündən əskik bilməsinə, özünün bütün nöqsanlarına göz yumub, öz şəxsiyyətinə pərəstiş etməsinə ücb deyilir. Quran ayələri və hədislər ücbü tənqid edir. Məsələn, Quranikərimdə *Hüneyn savaşına* gedərkən bəzi müsəlmanların öz say çoxluqlarına arxayın olub lovğalanmaları, amma qəfil pusqu nəticəsində az qala məğlub olacaqları xatırlanır: «Allah sizə çox yerlərdə, həmçinin, Hüneyn günündə kömək etdi. O gün çox olmağınız sizi ücb halına gətirsə də, bir faydası olmadı, gen dunya sizə dar oldu, sonra dönüb qaçdınız» *(Tövbə, 25).*

Ücb və təkəbbür insanı təkamül yolundan uzaqlaşdırır, onu əxlaqi gözəlliklərdən məhrum edir, dünyagörüşünü məhdudlaşdırır, ətrafdakılarla münasibətini pisləşdirir, insanı dar və qapalı bir çərçivəyə salır.

N.R.

ÜÇ MÜBARƏK AY

İslamda mübarək sayılan rəcəb, şəban və ramazan ayları. Bu ayların müsəlmanlar tərəfindən müqəddəs qəbul olunmasının səbəbi Həzrət Mühəmməd Peyğəmbərin (s) bu aylar haqqında müjdələyici xəbərlər verməsidir. Rəvayətə görə Peyğəmbər şəban ayında çoxlu oruc tutardı *(Təcridi-sərih, IV, 295).* Ramazan ayı haqqında isə o həzrət buyurmuşdur: «Ramazan gəldikdə cənnətin qapıları açılar və cəhənnəmin qapıları bağlanar, şeytanlar zəncirlənər» *(Səhihü Müslim, Kitabüs-siyam, I bab, I (2495)-ci hədis).* Rəcəb və şəban ayları ramazan ayının müjdəsini gətirdiyinə görə, bu aylarda çoxlu *istiğfar* etmək, oruc tutmaq və dua etmək böyük savaba malikdir.

R.M.

ÜXÜVVƏT

Ərəb dilindən tərcümədə «qardaşlıq» mənasını bildirir. Qurani-kərimin tövsiyəsinə əsasən, möminlər bir-birinə qardaşdırlar *(Hücürat, 10).*

Üxüvvət həm də *hicrətdən* qısa bir müddət sonra Həzrət Mühəmməd Peyğəmbərin (s) Mədinədə həyata keçirdiyi irimiqyaslı tədbirin adıdır. Müsəlmanlar Mədinəyə köçdükdən sonra əhali tərkibi baxımından şəhər mürəkkəb və çoxtəbəqəli oldu. Mədinədə həm yerli qəbilələr, həm yeni köçüb gəlmiş müsəlmanlar, həm də yəhudilər yaşayırdılar.

Peyğəmbər hər vasitə ilə Mədinədə sülh və həmrəylik şəraitini qorumağa çalışırdı. *Mühacirlərlə ənsar* arasında münasibətlərin pisləşməsinə heç cür yol vermək olmazdı. Həmçinin, uzun illər boyunca bir-birilə müharibə etmiş *Övs* və *Xəzrəc* qəbilələri arasında sülhü qorumaq zəruri idi. Peyğəmbər bu sahədə xüsusilə yəhudilərdən ehtiyat edirdi. Onlar İslam dini ilə düşmənçilik xatirinə Mədinənin sakit mühitini asanlıqla poza bilərdilər.

Həzrət Mühəmməd Peyğəmbər (s) bu təhlükələrin qarşısını almaq üçün hicrətin ilk ilində mühacirlərlə ənsar arasında qardaşlıq əhd-peymanı bağladı. O, bütün müsəlmanları toplayaraq elan etdi ki, bu gündən etibarən hər mühacir bir nəfər ənsarla qardaşdır. Sonra O, qardaşlaşmış şəxslərin adını elan etdi. Adı çəkilən şəxslər bir-birilə öpüşüb qucaqlaşır və ölənə kimi bu əhdi pozmayacaqlarına and içirdilər. Peyğəmbərin göstərişinə əsasən, *Əbu Bəkr* – Xaricə ibn Züheyrlə, *Ömər ibn Xəttab* – Ətəban ibn Maliklə, *Osman ibn Affan* – Övs ibn Sabitlə qardaş oldular. Mərasimin sonunda adı çəkilməmiş *Əli ibn Əbu Talib (ə)* məyus halda Peyğəmbərə yaxınlaşıb soruşdu: «Ey Allahın elçisi, mənim qardaşım olmayacaqmı?». Peyğəmbər buyurdu: «Ey Əli! Qəm çəkmə, sənin qardaşın mənəm!» *(Siyreyi-İbn Hişam, I, 337-338).*

Müsəlmanlar üxüvvət əhdinə ömürləri boyunca sadiq qalmağa çalışırdılar. İslam tarixindən məlumdur ki, üxüvvət əhdi ilə qardaşlaşmış şəxslər sonralar da bir-biri ilə doğma qardaş kimi davranırdılar. Hətta onlardan biri vəfat edəndə, vəsiyyətini qardaşlığına edirdi. Ölənin qardaşlığı da onun ailəsini himayəyə alır, uşaqlarını böyüdürdü.

N.R.

ÜLUL-ƏMR

Ərəb dilindən tərcüməsi «əmr sahibi, yəni əmr ermək səlahiyyəti olan şəxs» deməkdir. Müsəlman ümmətinin idarəçiliyini öhdəyə alan, bu istiqamətdə lazımi tədbirləri görmək səlahiyyəti ilə vəzifələndirilən şəxslərə deyilir. Qurani-kərimdə buyurulur: «Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar *(əmr)* sahiblərinə itaət edin!» *(Nisa, 59). Abdullah ibn Abbas*, Süddi kimi təfsirçilər ayədəki «ülul-əmr» ifadəsini «hökmdarlar və əmirlər» kimi yozmuşlar. *Cabir ibn Abdullah Ənsari*, Mücahid, Həsən Bəsri və başqaları isə bu ifadəni «din alimləri» mənasında şərh etmişlər.

Şiə əqidəsinə görə, ümmətə rəhbərlik etmək, dini və dünyəvi məsələlərdə hökm vermək səlahiyyəti *məsum* şəxslərə aiddir. Allahdan və Peyğəmbərdən sonra yalnız günahdan və səhvdən uzaq olan şəxslərə itaət etmək möminlərə vacib buyurula bilər. Bütün başqa hökmdarlar səhvdən, xətadan və günahdan sığortalanmamışlar. Ona görə də, şiə mənbələrində Əli ibn Əbu Talibin (ə), Cabir ibn Abdullah Ənsarinin Peyğəmbərdən rəvayətinə əsasən, eləcə də İmam Həsən (ə), İmam Mühəmməd Baqir (ə), İmam Cəfər Sadiq (ə) və İmam Rizanın (ə) hədislərinə görə, bu ayədəki «ülul-əmr» ifadəsi *12 imama* işarədir. Məşhur şiə alimi Seyid Haşim Bəhrani «əl-Bürhan» təfsirində bu fikri müdafiə edən 32 hədis göstərmişdir *(Seyid Haşim Bəhrani. Əl-Bürhan fi təfsiril-Quran, I, 381-387).*

N.R.

ÜLUL-ƏZM

Beş məşhur *rəsul* peyğəmbərə verilən addır. Peyğəmbərlərin təsnifatında ən yüksək dərəcə sayılır. Ərəb dilindən tərcüməsi «əzm və iradə sahibi» deməkdir. Qurani-kərimin aşağıdakı ayəsindən məlum olur ki, bu beş peyğəmbər dini yaymaq yolunda daha şiddətli müqavimətlə rastlaşmış, əzm, səbat və fədakarlıq göstərmiş, buna görə də «əzm sahibi» adına layiq görülmüşlər: «Peyğəmbərlərdən əzm sahibi olanların səbir etdikləri kimi, sən də səbir et!» *(Əhqaf, 35).* Ülul-əzm peyğəmbərlər bunlardır: *Həzrət Nuh, Həzrət İbrahim, Həzrət Musa, Həzrət İsa* və *Həzrət Mühəmməd* peyğəmbərlər (ə). Bunların hamısı rəsul mərtəbəsinə aiddir.

Ülul-əzm peyğəmbərlərin əsas xüsusiyyəti budur: Allah-təala onları əvvəlkilərdən fərqli bir şəriətlə göndərmişdir. Ülul-əzm peyğəmbərlər insanları yeni şəriət qaydalarına əməl etməyə çağırmış, özlərindən əvvəlki peyğəmbərlərin şəriətini köhnəldiyinə görə ləğv etmişlər. Məsələn, Həzrət Musa (ə) özündən əvvəlki ülul-əzm peyğəmbərin – İbrahimin (ə) şəriətini yenisi ilə əvəz etmişdir. Həzrət İsa (ə) Musanın (ə), Həzrət Mühəmməd (s) də İsanın (ə) təbliğ etdiyi şəriəti dəyişdirmişlər. Bu beş nəfərdən başqa, heç bir peyğəmbərin öz şəriəti olmamışdır. Məsələn, Həzrət Musa (ə) ilə Həzrət İsa (ə) arasındakı zaman fasiləsində yaşamış peyğəmbərlər özlərindən şəriət gətirməmiş, Həzrət Musanın (ə) şəriətini təbliğ etmişlər.

N.R.

ÜMMƏT

Ərəb dilindən tərcüməsi «yol, qayda» deməkdir. Adətən, eyni əqidəyə, adət-ənənəyə, yaxud hər hansı müştərək xüsusiyyətə malik insanların toplumuna ümmət deyilir. Qurani-kərimdə *(Qəsəs, 23)* «ümmət» sözü məhz camaat mənasında işlədilib. Həmçinin, Quranda Həzrət İbrahim Peyğəmbər (s) «vahid ümmət» adlandırılır *(Nəhl, 120).* Hədislərdə deyilir ki, Həzrət İbrahim (ə) bütöv ümmətə xas olan keyfiyyətləri özündə daşıdığına görə, ya da müsəlman ümmətinin banisi olduğu üçün Ona bu ad verilib. (İbrahim (ə) *hənif* dinlərin banisi sayılır, eyni zamanda, Həzrət Mühəmməd Peyğəmbər (s) də daxil olmaqla, bütün ərəblər Onun nəslindən törəmişlər).

Quranda bəşəriyyətin yaradılışdan sonra ilk dövrlərdəki vəziyyəti də «ümmət» sözü ilə xarakterizə edilib: «İnsanlar tək bir ümmət idilər. Allah onlara müjdə verən və xəbərdarlıq edən *(əzabla qorxudan)* peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi» *(Bəqərə, 213).* Yəni ilk zamanlar insanlar vahid bir toplum

(ümmət) halında yaşayırdılar, aralarında heç bir ziddiyyət və qarşıdurma yox idi. Ziddiyyətlər yarandıqdan, zülm və haqsızlıq meydana çıxdıqdan sonra Allah bu kimi halları islah etmək üçün peyğəmbərlər göndərdi. Bəzi ayələrdə «ümmət» sözü həm də vaxt, müddət, möhlət mənasında işlədilib *(Hud, 8).*

Dini anlamda adətən, peyğəmbərlərdən birinə iman gətirmiş toplumlara ümmət deyirlər (məsələn, Mühəmməd ümməti, Musa ümməti, İsa ümməti və s.). İslam ədəbiyyatında bəzən bütün dünyanın müsəlman əhalisi, bəzən də hər hansı ölkənin və ya şəhərin müsəlman sakinləri ümmət adlandırılır. Qurani-kərimin Bəqərə surəsinin 143-cü ayəsində Allah-təala İslam ümməti haqqında buyurur: «Beləliklə də, sizi orta *(yəni ədalətli)* bir ümmət etdik ki, insanların əməllərinə *(qiyamətdə)* şahid olasınız, Peyğəmbər də sizə şahid olsun». Başqa bir ayədə buyurulur: «Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz, *(onlara)* yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız. Əgər kitab əhli də *(sizin kimi)* iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı» *(Ali-İmran, 110).*

Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur ki, qiyamət günündə O, ümmətinin sayının butun peyğəmbərlərin ümmətinin sayından çox olması ilə fəxr edəcək. Peyğəmbər qabaqcadan xəbər verirdi ki, gələcəkdə müsəlman ümməti İslam qayda-qanunlarından üz çevirəcək, bunun nəticəsində zəifləyib öz əzəmət və qüdrətini itirəcək: «Ümmətimin 3 şeyə aludə olacağından narahatam: düz yolu tapandan sonra azğındığa düçar olmaqdan, fitnə-fəsad yaratmaqdan, qarın və şəhvət əsiri olmaqdan». Peyğəmbərin belə buyurduğu da rəvayət edilib: «Ey ümmətim! Sizin bu işləri görəcəyinizdən narahatam: hökmü pula satmaq *(yəni hökm çıxararkən rüşvət almaq)*, qohumlarla rabitəni kəsmək, Quranı əyləncə məclislərinə xas olan avazla oxumaq, üstünlüyü olmayan bir kəsi rəhbər seçmək».

N.R.

ÜMMİ

Ərəb dilində ümm «ana» deməkdir. «Ümmi» sözünü «anadangəlmə» mənasında izah edirlər. Yazıb-oxumaq bilməyən adama da ərəblər ümmi deyirlər. Çünki yazıb-oxumaq sonradan əldə olunan (kəsb edilən) bir bacarıqdır və heç bir insan doğulanda (anadangəlmə) bunu bacarmır.

Qurani-kərimdə «ümmi» kəlməsi Həzrət Mühəmməd Peyğəmbərə (s) aid edilib: «O kəslər ki, rəsula, ümmi peyğəmbərə tabe olurlar» *(Əraf, 157).* Bir çox təfsirlərdə Peyğəmbərin ümmi adlandırılmasının səbəbini o həzrətin yazıb-oxumaq bilməməsi ilə əlaqələndirirlər. Həqiqətən, bir çox mənbələrdən məlum olur ki, Həzrət Mühəmməd Peyğəmbər (s) yazıb-oxumaq bacarmır (hər halda, bunu etmir), *vəhylə* aldığı ayələri katiblərə diqtə edərək yazdırırdı. Hətta ilk vəhy nazil olanda *Cəbrail* o həzrətə: «Oxu!» deyə əmr etmiş, O isə: «Mən oxumaq bacarmıram» söyləmişdi. Peyğəmbərin yazıb-oxumaması Onun üçün nöqsan yox, əksinə, üstünlükdkr. Çünki bu fakt o həzrətin öz elmini heç bir müəllimdən və kitabdan deyil, yalnız Allahdan aldığını bir daha sübuta yetirir. Həzrət Mühəmməd Peyğəmbərin (s) yazıb-oxumağa ehtiyacı yox idi; çünki nəinki özünə, hətta bütün ümmətə lazım olan məlumatları Allah Ona vəhy vasitəsilə öyrədirdi. Allahın Rəsulu yazıb-oxumasa da, bütün yazıb-oxuyanlardan daha savadlı idi.

Bəzi tədqiqatçılar Həzrət Mühəmməd Peyğəmbərə (s) ümmi deyilməsinin səbəbini onun Məkkə şəhərindən olması ilə əlaqələndirirlər. Bilindiyi kimi, Məkkə *«ümmül-qüra»* (şəhərlərin anası, əsası) adı ilə tanınırdı. Peyğəmbərimiz məkkəli olduğu üçün, Allah onu «ümmi», yəni «ümmül-qüraya mənsub» adlandırıb. Bəziləri isə «ümmət» kəlməsini əsas tutaraq söyləyirlər ki, ümmi «ümmətə mənsub olan» deməkdir (ümmi peyğəmbər, yəni ümmətin peyğəmbəri).

Əlbəttə, bunu da qeyd etmək yerinə düşər ki, peyğəmbərlik verilməzdən əvvəl Həzrət Mühəmmədin (s) yazıb-oxumaq bacarmadığı inkaredilməz faktdır: «Sən bundan *(bu Qurandan)* əvvəl nə bir kitab oxumusan, nə də onu əlinlə yazmısan...» *(Ənkəbut, 48).* Lakin *bəsətdən* sonra o həzrətin yazıb-oxumağı bacarıb-bacarmaması barədə İslam alimləri fikir ayrılığına malikdirlər. Əksəriyyət o həzrətin yazıb-oxumaq bacarmadığına inansa da, bunun əksini iddia edənlər də var. Amma bu iddianın sübutları əks tərəfə nisbətən

sayca az, etibarca aşağı dərəcədədir.

N.R.

ÜMMÜL-KİTAB

Ərəb dilindən tərcüməsi «kitabın anası» deməkdir. Burada «kitab» Qurani-kərimə işarədir. «Ana» kəlməsi isə əsas, bünövrə mənasını verir. Əksər mənbələrdə «ümmülkitab» ifadəsi ilahi iradə ilə baş vermiş və baş verəcək hər şeyin qeydə alındığı *lövhi-məhfuza* aid edilir. Peyğəmbərlərə göndərilmiş bütün səmavi kitablar kimi Qurani-kərim də nazil olmazdan əvvəl lövhi-məhfuz üzərində mövcud olmuş, sonra mələk vasitəsilə Həzrət Mühəmməd Peyğəmbərə (s) endirilmişdir. Buna görə də lövhi-məhfuz Qurani-kərimin mənbəyi, yəni «anası»dır: «Şübhəsiz ki, o, dərgahımızdakı əsl kitabda *(ümmül-kitabda)* mövcuddur» *(Zümər, 4).* «Allah istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. Kitabın əsli *(ümmül-kitab)* Onun yanındadır» *(Rəd, 39).*

Qurani-kərimin birinci surəsi olan Fatihənin adlarından biri də «ümmül-kitab»dır. Quranın bütün məna yükü, qayəsi, missiyası Fatihə surəsinin içində toplanıb. Fatihə Quranın cövhəri, mayası kimidir. Elə bu səbəbdən məşhur səhabə Abdullah ibn Abbas deyirdi ki, hər şeyin əsası olduğu kimi, Quranın da əsası Fatihədir.

Bu surəni kainatın tarixinin xülasəsi də adlandırmaq olar. Surə Allahın adı ilə başlayır; bununla da hər şeyin Allah tərəfindən yaradıldığına işarə edilir. Sonra Allah «aləmlərin Rəbbi» adlandırılır; bu, o deməkdir ki, bütün aləm özbaşına deyil, Allahın izni və lütfü sayəsində öz mövcudluğunu davam etdirir, yaşayır. Növbəti ayədə qiyamət günündən bəhs edilir; bu isə, hər şeyin sonunun çatacağına və hər kəsin öz əməllərinə görə cavab verəcəyinə inamı ifadə edir.

N.R.

ÜMRƏ

Lüğəvi mənası «ziyarət etmək»dir. Dini terminologiyada Kəbənin xüsusi şəkildə ziyarət edilmə qaydasına ümrə deyirlər. *Ərəfə, qurban* və *təşriq* günləri istisna olmaqla ilin hər vaxtında edilə bilən bu ibadətin ömürdə bir dəfə yerinə yetirilməsi təkid olunan sünnətdir. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «Ümrə növbəti ümrəyə kimi edilən *(kiçik)* günahlara kəffarədir. Məqbul həccin qarşılığı isə yalnız cənnətdir» *(Səhihül-Buxari, Ümrə kitabı, 1 bab, 1773-cü hədis; Səhihü Müslim, Həcc kitabı, 437 (3289)-cu hədis).*

Ümrə üçün kənardan gələnlər *miqat* məkanlarında, Məkkədə olanlar isə hill bölgəsində (*hərəmin* başladığı nöqtədə) *ehrama* girməlidirlər. Ehram ümrənin şərtlərindəndir. Ümrə etmək istəyən hər kəs əvvəlcə niyyət edir və *təlbiyə* oxuyaraq ehrama girir. Bundan sonra Kəbəni təvaf edir, *Səfa* ilə *Mərvə* arasında *səy* edir, daha sonra *təqsir* edib (başının tükünü qırxıb) ehramdan çıxır.

Ə.N.

ÜRF

bax: *adət.*

ÜRFAN

bax: *irfan.*

ÜSULÜD-DİN

Ərəb dilindən tərcümədə dinin kökləri, əsas hissələri mənasını verir. Üsulüd-din İslam dininin dəyişməz əqidə prinsiplərindən ibarətdir. *Füruüd-din* adlanan ikinci dərəcəli, daha kiçik və təfərrüatlı hökmlər üsulüddinə əsaslanmaq yolu ilə əldə edilir. Əgər İslam dinini ağaca bənzətsək, üsulüd-din onun kökləri və gövdəsi, füruüd-din isə budaqları və yarpaqları kimidir. Müsəlmanın əməli (ibadəti) onun əqidəsindən qaynaqlanır. Şəriətin halal-haramına düzgün riayət etmək üçün əvvəlcə üsulüd-dini qəbul etmək lazımdır. Həmçinin, şəriət hökmlərini anlamaq və əsaslandırmaq üçün yenə dinin əsas prinsiplərinə dayaqlanmaq zəruri şərtdir.

Sırf terminoloji mənada «üsulüd-din» kəlməsi daha çox şiə mənbələrində xatırlanır. Əhli-sünnə məzhəbində bunun müqabilində *«iman əsasları»* və «İslamın şərtləri» məfhumları yer tutur. İman əsasları 6 maddədən ibarətdir: Allaha iman, peyğəmbərlərə iman, mələklərə iman, səmavi kitablara iman, axirətə iman və qəza-qədərə iman. İslamın şərtləri isə əhli-sünnə məzhəbinə görə, 5 maddədə cəmləşib: kəlmeyi-şəhadət, namaz, oruc, zəkat və həcc. Buna ***təfsili iman*** deyilir; çünki burada iman əsasları fəsillərə

(maddələrə, bölümlərə) bölünüb. İmanın ikinci dərəcəsi isə ***icmali iman*** adlanır. Bu, səmimi qəlbdən və xalis niyyətlə kəlmeyi-şəhadəti söyləməklə sübuta yetir. Kəlmeyi-şəhadəti söyləyən şəxs Allahın qoyduğu və Peyğəmbərin çatdırdığı bütün hökmləri qəbul etdiyini və bununla da təfsili imanın bütün maddələrinə inandığını bildirmiş olur.

Şiə məzhəbində üsulüd-din 5 maddədən ibarətdir: ***tövhid*** (Allaha iman), ***nübüvvət*** (peyğəmbərlərə və Həzrət Mühəmmədin (s) son peyğəmbər olduğuna iman), ***məad*** (axirət həyatına iman), ***imamət*** (Peyğəmbərdən sonra 12 məsumun imamlığını qəbul etmək) və ***ədl*** (Allahın mütləq mənada ədalət sahibi olduğunu qəbul etmək). Bəzi alimlər bu maddələrdən ilk üçünü üsulüd-din, qalan ikisini (imamət və ədl) isə üsulül-məzhəb saymışlar. Yəni ilk üç məsələyə iman bəsləyən şəxs müsəlmandır, amma *şiə* deyil. İmaməti və ədli qəbul edən şəxs isə şiə hesab edilir. Qeyd edək ki, əhli-sünnə məzhəbində də iman əsaslarının üçü – Allaha, peyğəmbərlərə və məada inam daha vacib bilinir və təfsili imanın ilk mərhələsinə aid edilir.

N.R.

ÜSULÜT-TƏFSİR

Təfsirin əsas prinsiplərini araşdıran elm bölməsi. Quranın anlaşılmasında və şərh olunmasında bəzi prinsip və metodlar ortaya qoyur, bunlardan istifadə etmə yollarını göstərir. Təfsir üsulunun əsas qayəsi Quranı anlamağa kömək etməkdir. Buna görə də, bu elm Quran təfsirində ehtiyac duyulan qayda və qanunlar üzərində qurulub. Qurani-kərimi doğru şəkildə təfsir edə bilmək üçün təfsir üsulunu bilmək lazımdır.

M.İ.

ÜSVƏTÜL-HƏSƏNƏ

Ərəb dilindən tərcüməsi «gözəl nümunə, gözəl örnək» deməkdir. Həzrət Mühəmməd Peyğəmbərin (s) barəsində işlədilən bir ifadədir. Mənbəyi Qurani-kərimin aşağıdakı ayəsidir: «Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir» *(Əhzab, 21)*. Dini kitablarda və şeir nümunələrində Peyğəmbərin ləqəbi kimi işlədilir.

N.R.



VACİB

Əksər İslam məzhəblərinə görə, *fərzlə* eyni mənaya malikdir və eyni hökmə tabedir (bax: *fərz*).

Hənəfilərə görə isə, fərz və vacib bir-birindən fərqli mənalara malikdir. Vacib – yerinə yetirilməsi fərzdən az, *sünnədən* çox tələb edilən əməldir. Əgər bir əməlin fərz olan şərti tərk edilsə, ümumilikdə o əməl batil olar. Məsələn: *Ərəfatda vəqfə* etməyən (bəlli vaxt müddətində qalmayan) şəxsin həcci batil olar; çünki vəqfə fərzdir. Lakin *Səfa* ilə *Mərvə* arasında *səy* etmək vacibdir. Səy yerinə yetirilməsə, həcc batil olmaz; cərimə olaraq qurban kəsməklə bunu əvəzləmək mümkündür.

Namazda Quran oxunuşunu (qiraət) tamamilə tərk etmək namazı batil edir. Çünki aşağıdakı ayənin hökmünə görə, namazda Qurandan bir parça oxumaq fərzdir: «Qurandan sizə müyəssər *(asan)* olanı oxuyun» *(Müzzəmmil, 20)*. Lakin hənəfi məzhəbinə görə, insan namazda Fatihə surəsini oxumasa, *məkruh* iş görmüş olar; bununla belə, namazı düzgündür (qəbuldur). Namazın sonunda səhv səcdəsi etməklə bunun əvəzini verə bilər. Namazda Fatihə surəsini oxumağın hökmü zənnə əsaslanır. Bu da Peyğəmbərin: «Fatihə surəsini oxumayanın namazı yoxdur» *(Sünənüt-Tirmizi, Kitabüs-səlat, LXIX bab, 247-ci hədis; Sünənü İbn Macə, Kitabül-iqamə, XI bab, 837-ci hədis)* hədisidir.

Vacib hökmlər vaxt baxımından iki qismə ayrılır:

Vaxta bağlı olan vacib. Burada vacibliyin səbəbi müəyyən bir zaman müddətidir. Məsələn, namaz vaxtının girişi ilə namaz qılmaq, ramazan ayının başlanması ilə oruc tutmaq fərz olur və bu ibadətlər müəyyən vaxt çərçivəsində icra edilməlidir. Əks halda, insan günah qazanır.

Vaxta bağlı olmayan vacib. Müəyyən bir vaxt ərzində icra edilməsi tələb olunmayan vacib əməli yubadan şəxs məzəmmət olunmaz və cəzalandırılmaz. Məsələn, İmam Əbu

Hənifənin fətvasına əsasən, üzrlü səbəbə görə ramazan orucunu tuta bilməyən şəxs istədiyi zaman bunu qəza edə bilər.

A.Q.

VACİBÜL-VÜCUD

Allah-təalaya aid edilən ad. Bu ada yalnız Allah layiqdir, Ondan başqa heç kimə və heç nəyə bu ad verilə bilməz. Ərəb dilindən tərcüməsi «mövcudluğu vacib olan» deməkdir.

İslam fəlsəfəsində bütün varlıq aləmi üç qismə bölünür: mövcudluğu mümkün olan (mümkünülü-vücud), mövcudluğu vacib olan (vacibül-vücud) və mövcudluğu mümkün olmayan (mümtəneül-vücud). Mümkünül-vücud odur ki, onun varlığı da, yoxluğu da mümkündür. O, öz varlığına görə başqasına möhtacdır, başqasına dayanıqlıdır. Onun yox olması ilə varlıq aləmi yox olmaz. Vacibül-vücud odur ki, heç kimə və heç nəyə ehtiyaclı deyil, əksinə, başqaları ona möhtacdır. Vacibül-vücudun bir an yoxluğu bütün varlıq aləminin məhvinə səbəb olar. Mümtəneül-vücud isə odur ki, onun mövcudluğu mümkün deyil, varlıq qanunlarının ziddinədir.

Yalnız Allah vacib, qalan hər şey mümkündür. Hər şey öz kökünü Allahdan alır. Dünyada bütün səbəb bağlılıqlarının kökü Allaha gedib çıxır və Allahda sona çatır.

Allahın bir sıra *səlbiyyə sifətləri* məhz vacibül-vücud anlayışından qaynaqlanır. Məsələn, Allah mürəkkəb (hissələrdən ibarət) ola bilməz. Çünki belə olsa, öz hissələrinə möhtac olar. Məsələn, su hidrogen və oksigendən, öz növbəsində hidrogen qazı molekullardan, molekullar atomlardan, atomlar daha xırda zərrəciklərdən təşkil olunub. Bu, o deməkdir ki, su öz mövcudluğuna görə hidrogenə və oksigenə möhtacdır. Bu elementlərin biri olmasa, su öz xüsusiyyətlərini itirər. Hidrogeni təşkil edən molekullar da bir-birindən asılıdır; onların arasındakı cazibə və dəfetmə qüvvələri pozulsa, hidrogenin molekul quruluşu pozular.

Allah başqası ilə birləşə də bilməz. Çünki bu halda onların arasında şəriklik yaranar; şəriklik isə asılılıq və ehtiyac deməkdir. Həm də bu zaman ya Allah birləşdiyi şeyə çevrilməli, ya da həmin şey dönüb Allah olmalıdır. Bunların isə hər ikisi qeyri-mümkündür.

Göründüyü kimi, bu səlbiyyə sifətlərinin hamısı Allahın ehtiyaclı olmasını tələb edir ki, bu da Onun vacibül-vücud sifətinə ziddir.

N.R.

VAHİD XƏBƏR

«Mütəvatir hədis» terminin ziddi. İslamın ilk əsrlərində müəyyən mövzu barədə Həzrət Mühəmməd Peyğəmbərdən (s) yalnız bir *ravi* (rəvayətçi) vasitəsilə nəql edilən hədislərə deyilirdi. Azı üç nəfərin rəvayət etdiyi hədisə «məşhur», iki nəfərin rəvayət etdiyi hədisə «əziz», bircə nəfərdən rəvayət olunan hədisə isə «qərib» və ya «fərd» deyirdilər. Sonralar bunların üçünü birləşdirərək «vahid xəbər» adlandırmağa başladılar. Vahid xəbərə bəzən «ahad xəbər» də deyirlər.

Etiqadi prinsiplər barədə buyurulmuş vahid xəbər əhli-sünnə məzhəbinin əksəriyyətinin görüşünə görə, *hüccət* (dəlil) sayılmır, zənnə bərabər tutulur.

Əxlaqi və əməli mövzular haqqındakı vahid xəbər isə, Peyğəmbərimizə kimi sənəd zənciri bütöv və sağlam olmaq şərti ilə hüccət sayılır. Əhli-sünnə məzhəbinin məşhur alimlərindən İmam Şafii, İmam Əhməd ibn Hənbəl, İbn Teymiyyə, İbn Qeyyim, İbn Həzm, Əbül-Həsən Əşəri və başqaları ədalətli ravi tərəfindən söylənilmiş vahid xəbəri hansı mövzuya aid olmasına baxmayaraq hüccət sayırdılar. İmam Malik ibn Ənəs vahid xəbəri Mədinə əhalisinin əməlinə və alimlərin icmasına zidd olmamaq şərti ilə hüccət bilirdi. İmam Əbu Hənifə isə vahid xəbərin eyni mövzulu mütəvatir hədislərə zidd olmamasını, etibarlı ravilərin rəvayəti ilə ziddiyyət təşkil etməməsini şərt bilir, yalnız bu kimi şərtlər daxilində hüccət kimi qəbul edilə biləcəyini söyləyirdi.

Şiə məzhəbində vahid xəbərin öz-özlüyündə hüccət olmaması fikrini keçmişdə bəzi məşhur alimlər müdafiə edirdilər (Seyid Mürtəza, İbn İdris, İbn Zöhrə, Təbrisi və b.). Lakin böyük alimlərin əksəriyyəti vahid xəbəri hüccət sayırdı. Hal-hazırda da şiə məzhəbində vahid xəbər hüccət kimi qəbul edilir. Əlbəttə, bu zaman vahid xəbərin mütəvatir hədislərlə ziddiyyət təşkil etməməsi yenə şərt sayılır.

N.R.

VƏHDƏTİ-VÜCUD

Ərəb dilindən tərcüməsi «varlığın birliyi»

deməkdir. Allahdan başqa varlıq olmadığına inanmaqdır. Vəhdəti-vücud zövqlə əldə olunur, yaşanaraq bilinir, oxuyub-öyrənməklə kəsb edilmir. Vəhdəti-vücudu zövq (ləzzət) kimi qəbul edən haqq yolçusu həqiqi varlığın bir olduğunu, bunun da Allahın varlığından ibarət olduğunu, Allahdan və Onun təcəllalarından savayı heç nəyin mövcud olmadığını anlayır. Hər şey bir olanın (Allahın) müxtəlif təcəllalarından ibarətdir.

R.M.

VƏHY

Ərəb dilindən tərcüməsi «başqalarının görmədiyi gizli işarə» deməkdir. Peyğəmbərin Allah-təaladan aldığı, özünün və ümmətinin mütləq əməl etməli olduğu xəbərlərə vəhy deyilir.

Vəhyin əsas növləri bunlardır:

a) Bəzən peyğəmbərlər qeyb aləmindən səs eşitmiş, bu yolla Allahın əmrlərini əldə etmişlər (məsələn, Həzrət Musa (ə)).

b) Bəzən Allah öz məqsədini peyğəmbərin qəlbinə fikir şəklində salmışdır.

c) Bəzən peyğəmbərlərə yuxuda vəhy edilmişdir. Məsələn, Həzrət İbrahim Peyğəmbər (ə) oğlu İsmaili (ə) qurban kəsmək barədə vəhyi yuxuda almışdı.

ç) Bəzən isə Allah vəhyi peyğəmbərlərə mələklərin vasitəsilə göndərmişdir. Yəni Allah öz əmr və göstərişlərini mələyə söyləmiş, o da peyğəmbərə xəbər vermişdir. Məsələn, Həzrət Mühəmməd Peyğəmbər (s) *Cəbrail* adlı mələklə görüşüb ondan vəhyi alırdı.

Vəhy yalnız peyğəmbərlərə verilir, peyğəmbər olmayan şəxs vəhy ala bilməz. Amma Allah adi insanın qəlbinə bəzi fikirləri sala bilər (buna *ilham* deyilir və adətən, seçilmiş bəndələrə, *övliyalara* verilir). Adi şəxsin aldığı ilhamla peyğəmbərin qəlbinə Allahın endirdiyi vəhy fərqlənir. Peyğəmbərin özü və ümməti vəhyə inanıb tabe olmalı və əməl etməlidirlər. Amma adi insanın Allahdan aldığı ilhama başqalarının tabe olması vacib deyil.

N.R.

VƏQF

Ərəb dilindən tərcümədə «təcrid olub saxlanmaq, həbs edilmək, durmaq» mənalarını verir. Termin kimi, müsəlman cəmiyyətində xeyriyyə məqsədilə bir qrup insan üçün ayrılan və yalnız həmin insanların xeyrinə istifadə edilən əmlaka vəqf deyilir. Vəqf olaraq kitab, məişət əşyaları, torpaq sahəsi və s. verilə bilər. İslam tarixi boyunca həm ayrı-ayrı şəxslərin özünə və nəslinə, həm məscid və mədrəsə icmalarına, həm də bir şəhərin və ya bölgənin əhalisinə vəqflər edilmişdir. Vəqf ya həmişəlik, ya da müddətli olur. Adətən, hər hansı daşınan və ya daşınmaz əmlakı vəqf edərkən, vəqfnamə adlı sənəd də tərtib olunub təsdiqdən keçirilir.

Vəqfin tarixi çox qədimdir. Hələ Həzrət Mühəmməd Peyğəmbərin (s) zamanında bəzi səhabələr öz torpaqlarını Allah yolunda istifadəyə vermək üçün o həzrətə müraciət edirdilər. Peyğəmbər həmin torpaq sahələrini ya bəlli ailələrə və nəsillərə vəqf edir, ya da onların gəlirini (məhsulunu) müsəlman icmasının ehtiyaclarına yönəldirdi.

Tarixdən məlumdur ki, ikinci xəlifə Ömər ibn Xəttab *Xeybər savaşında* ona qismət olmuş torpaq sahəsini Peyğəmbərin məsləhətinə əsasən kasıblara, yolda qalan müsafirlərə, İslam uğrunda savaşan döyüşçülərə, müəyyən miqdarda pul ödəyəcəyi təqdirdə azad olunması barədə ağası ilə razılaşmaya gəlmiş kölələrə, eləcə də, öz yaxın qohumlarına vəqf etmişdi. Ömər bu torpaq sahəsinin heç kimə satılmamaq, bağışlanmamaq və varislərə irsən ötürülməmək şərti ilə vəqf edildiyi barədə vəqfnamə də yazdırmış və sənədi öz qızı *Həfsəyə* vəsiyyət etmişdi.

Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: «İnsan öldükdən sonra onun əməl dəftəri bağlanar. Yalnız üç nəfər istisnadır: davamlı sədəqə (sədəqətül-cariyə) verənlər, özlərindən sonra cəmiyyətə xeyir verən elm (əsər) qoyanlar və onların ruhuna dua edən xeyirli övlad qoyub-gedənlər». Bu hədisdəki davamlı sədəqənin vəqf anlayışına uyğun gəldiyini söyləyirlər. Həqiqətən, xeyirli bir məqsəd üçün müəyyən əmlakı vəqf edən şəxs bu dünyanı tərk etdikdən sonra da vəqfin gəliri sədəqə olaraq onun adından verilmiş sayılır və bu savab onun ruhuna aid edilir.

Məşhur səhabə *Cabir ibn Abdullah* deyirdi ki, mühacir və ənsar arasında elə bir

imkanlı şəxs yox idi ki, öz əmlakından vəqf etməmiş olsun. Həzrət Əli ibn Əbu Talibin (ə) Mədinə ətrafında öz əlləri ilə qazıdığı, müsəlman ümmətinə vəqf etdiyi, günümüzə qədər fəaliyyət göstərməkdə olan bulaqlar və quyular məşhurdur.

Orta əsrlər müsəlman Şərqində vəqf ənənəsi çox güclü inkişaf etmişdi. Abbasi xəlifələri vəqflərə nəzarət edən xüsusi dövlət qurumu *(divan)* yaratmışdılar. Vəqf mədəniyyətinin ən parlaq tərəqqisi Osmanlı imperiyasının hakimiyyət dövrünə təsadüf etmişdir. Osmanlı sarayında Ovqaf nəzarəti adlı müstəqil qurum fəaliyyət göstərirdi.

Hal-hazırda istər dini, istərsə də dünyəvi dövlətlərin bir çoxunda vəqf adlanan iri xeyriyyə təşkilatları mövcuddur. Bunların əksəriyyəti müsəlmanların ödədikləri ianələr və dini vergilər hesabına fəaliyyət göstərir. Bəzi müsəlman dövlətlərində nazirliklər də vəqf adlanır.

N.R.

VƏQFƏ

Ərəb dilindən tərcüməsi «durmaq, təcrid olub saxlanmaq» mənasını verir. Termin kimi, həcc ziyarətinin qaydalarına uyğun olaraq, hacıların *Ərəfat* və *Müzdəlifədə* qalmalarına vəqfə deyilir. Vəqfənin zamanı, müddəti və sair şərtləri müvafiq məzmunlu kitablarda ətraflı izah edilmişdir.

bax: *Ərəfat, Müzdəlifə, həcc.*

N.R.

VƏLAYƏT

Ərəb dilindən tərcüməsi «dostluq, yoldaşlıq», həmçinin «üstünlük, ixtiyar sahibi olmaq» mənalarını verir. Şəriətdə yetkinlik yaşına çatmayan və ya hər hansı səbəb (məsələn, xəstəlik) üzündən özünü, əmlakını və işlərini idarə edə bilməyən adamın başqası tərəfindən himayə olunmasına vəlayət deyirlər. Vəli uşağın (xəstənin) ən yaxın qohumlarından biri olmalıdır.

Müsəlman bölgələrinə vali (hakim) təyin olunmuş şəxsin vəzifəsi də vəlayət adlanır. Burada da vəlayət üstünlük və hakimiyyət mənasını özündə ehtiva edir.

Daha geniş anlamda vəlayət – sıravi müsəlmanlarla Allah və ya Onun buyurduğu bir qrup şəxs arasında olan bağlılıqdır. Bu bağlılığın kökündə sevgi və mərhəmət durur. Bu bağlılığın bir tərəfində duran qüvvə (Allah və Onun təmsilçiləri) qarşı tərəf üzərində üstünlüyə və haqqa malikdir. Bu üstünlük əslində himayə deməkdir. Vəli yetkinlik yaşına çatmamış uşağı himayə etdiyi kimi, Allah və Onun təmsilçiləri də sıravi müsəlmanları öz himayəsi altına alır, onların ruhuna aramlıq bəxş edir, problemlərini çözür, səhvlərini düzəldirlər. Vəliliyə haqqı çatan qüvvələrin vəlayətinə sığınmaq imanın və təslimiyyətin ən kamil mərtəbəsidir.

Qurani-kərimdə buyurulur: «Vəlayət haqq olan Allaha məxsusdur. Mükafat verməkdə də, aqibət qismət etməkdə də ən xeyirlisi Odur» *(Kəhf, 44)*. Digər bir ayədə Peyğəmbərin möminlər üzərində vəlayət haqqına sahib olması təkid edilir: «Peyğəmbər möminlər üzərində onların özlərindən daha çox ixtiyar sahibidir» *(Əhzab, 6)*. Ayədəki «övla» (ixtiyar sahibi olmaq) sözü ilə «vəlayət» kəlməsinin kökü eynidir. Başqa bir yerdə möminlərin vəliləri (vəlayət sahibləri) bu cür tanıtdırılır: «Sizin vəliləriniz ancaq Allah, Onun peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, namaz qılır və rükuda olduqları halda zəkat verirlər» *(Maidə, 55)*. (Burada rüku halında sədəqə verən şəxs – Əli ibn Əbu Talibdir (ə) ki, məsciddə namaz qıldığı zaman *rüku* vəziyyətində dilənçiyə barmağını uzadıb, üzüyü götürməsini işarə etmişdi).

Şiə məzhəbində vəlayət – imamət məqamının rüknü (dayağı) və əsas şərti sayılır. Şiə mənbələrində rast gəldiyimiz «vəlayət» sözü çox zaman *imamət* məfhumunun sinonimi kimi işlədilir.

Şiəlikdə vəlayət İslamın 5 əsas dayağından biridir. İmam Mühəmməd Baqir (ə) buyurub: «İslam beş dayaq üzərində durub: namaz, zəkat, həcc, oruc və vəlayət». Soruşdular ki, bunların hansı biri daha üstündür? İmam cavab verdi: «Vəlayət üstündür, çünki o, bunların hamısının açarıdır, vali (vəlayət sahibi) də bunların bələdçisidir...» *(Küleyni. Üsulül-Kafi, II, 18)*. İmam Sadiq (ə) isə vəlayətə inanmağın vacibliyini belə bəyan edib: «Qiyamət günündə hər bir bəndə Allahın qarşısında sorğu-sual üçün duranda ondan vacib namazlarını qılıb-qılmadığı, boynuna gələn vacib zəkatını verib-vermədiyi, vacib orucunu tutub-tutmadığı, vacib həccini yerinə

yetirib-yetirmədiyi və biz *Əhli-beytin* vəlayətinə inanıb-inanmadığı barədə soruşulacaq» *(Şeyx Səduq. Əmali, XLIV məclis, 10-cu hədis).*

Şiə mənbələrində tez-tez rast gəldiyimiz bir hədisi-qüdsidə Allah-təalanın belə buyurduğu rəvayət edilib: «Əli ibn Əbu Talibin (ə) vəlayəti mənim qalamdır. Hər kim bu qalaya daxil olsa, əzabımdan amanda qalar» *(Şeyx Səduq. Əmali, XLI məclis, 9-cu hədis).*

N.R.

VƏRƏ

Müsbət əxlaqi keyfiyyətlərdən biridir. Ərəb dilindən tərcümədə «çəkinmək, uzaq olmaq» mənasını verir. Əxlaq alimləri qeyd etmişlər ki, vərə günaha düşməmək naminə şübhəli olan hər bir şeydən uzaq olmaq deməkdir. İmam Əli ibn Əbu Talib (ə) buyurub ki, vərə insanı günahdan çəkindirən ən yaxşı vasitədir.

Təsəvvüf aləmində vərə həqiqət yolunun *(seyrü-süluk)* ikinci məqamıdır. Məşhur sufi mənbələrindən olan «Risaleyi-Quşeyriyyə»-də vərə barəsində Peyğəmbərin bu hədisi xatırlanır: «Bir şəxsin yaxşı müsəlman olmağının meyarı, ona lazım olmayan hər şeydən əl üzməsidir». Şibli bu barədə belə deyib: «Vərə odur ki, Allahdan savayı hər şeydən çəkinəsən, uzaq olasan».

Yenə Şibli vərənin üç dərəcəsi olduğunu söyləyib: Birincisi, dilin vərəsi – sükut, mənasız danışıqdan qaçmaq və boşboğazlığı tərk etməkdir. İkincisi, əməl vərəsi – şübhəli və haram işlərdən uzaqlaşmaqdır. Vərənin üçüncü növü qəlbin vərəsidir ki, bu da pis vərdişləri və bəd əxlaqı tərk etməkdir.

N.R.

VƏSİ (VƏSİYY)

Vəfat edən şəxsin vəsiyyət etdiyi adam. Vəfat edən şəxs öz əmlakının üçdən-bir hissəsini istədiyi şəxsə vəsiyyət edə bilər və ya həmin məbləğin hansı istiqamətdə sərf edilməsi barədə vəsiyyət edərək, buna nəzarəti istədiyi adama həvalə edə bilər. Əmlakın qalan hissəsi varislərə məxsusdur; vəfat edən şəxsin üçdən-bir hissədən artıq məbləğ barədə vəsiyyət etməyə haqqı yoxdur.

Vəsi vəsiyyətdə nəzərdə tutulanların həyata keçirilməsini təmin edir (mərhumun öz pulu hesabına). Məsələn, mərhumun dəfnini öz vəsiyyətinə uyğun olaraq təşkil edir, əmlakının müəyyən hissəsini öz arzu etdiyi istiqamətlərə (sədəqə, xeyriyyə işləri və s.) sərf edir, mərhumun qəza namazlarının və qəza oruclarının yerinə yetirilməsini, onun adından həcc edilməsini həyata keçirir. Vəsiyyətə uyğun olaraq, vəsi mərhumun əmlakının müəyyən bir hissəsinə (üçdən-bir hissəni aşmamaq şərti ilə) sahiblik edə də bilər.

Vəsi yetkinlik yaşına çatmış, psixoloji cəhətdən sağlam, müsəlman olmalıdır. Bunlardan əlavə, vəsinin vəsiyyətdə nəzərdə tutulanları yerinə yetirəcək bacarığa sahib olması və etibarlı şəxs kimi tanınması da şərt sayılır.

Adətən, övladları hələ yetkinlik yaşına çatmamış şəxs öz yaxın qohumlarından və ya dostlarından birini qəyyum təyin edir. Qəyyumun vəsidən fərqi budur ki, həqiqi varis (övlad) yetkinlik yaşına çatdıqdan sonra qəyyum bütün səlahiyyətlərini ona təslim edir. Vəsi isə ona vəsiyyət olunmuş əmlakdan vəsiyyətdə nəzərdə tutulmuş şəkildə təkbaşına istifadə edə bilər.

N.R.

VƏSVƏSƏ

Fısıltı, xışıltıya bənzəyən gizli səs. Ürəkdə meydana gələn şübhə, tərəddüd, qorxu, içdən gələn kədər, *nəfsin* və *şeytanın* törətdiyi daxili qarışıqlıq mənalarını bildirir. Ziddi – tərəddüdsüz, qərarlı, əmin və əzmli olmaq deməkdir

Fiqh üsulunda da vəsvəsə mənfi xüsusiyyət kimi qəbul edilir. Hər şeydə tərəddüd və vəsvəsə ilə hərəkət edənin sözünə etibar edilməz. Həzrət Muhəmməd Peyğəmbər (s) vəsvəsə ilə hərəkət edənin verdiyi talağın etibarsız olduğunu bildirmişdir *(Səhihül-Buxari, Talaq kitabı, XI bab).* Quran və sünnədə də vəsvəsə bəyənilməyən sifət kimi göstərilir. Xüsusilə, vəsvəsə ilə əlaqədar bütün ayələrdə onun şeytandan gəldiyinə işarə olunur. Buna görə də İslam dini vəsvəsədən çəkinməyi tövsiyə edir. Vəsvəsəyə qapılan insan ibadətlərində yanılar, müxtəlif səhvlərə düçar olar. Vəsvəsə insanı səhv və batil yollara apara bilər. Hətta vəsvəsənin nəticəsində insan ağıl müvazinətini belə, itirə bilər.

R.M.

VƏZ

bax: *moizə.*

VİDA HƏCCİ

Həzrət Mühəmməd Peyğəmbərin (s) Mədinəyə *hicrətdən* sonra yerinə yetirdiyi yeganə həcc ziyarətinə dini mənbələrdə verilmiş addır. Həzrət Mühəmməd Peyğəmbər (s) hicrətdən sonra Məkkəyə *ümrə* niyyətilə getsə də, vida həccinə kimi həcc ziyarətində olmamışdır. Bu həcc səfərinə «vida həcci» deyilməsinin səbəbi budur ki, Peyğəmbərin vəfatından cəmi 3 ay əvvəl baş vermiş və o həzrət tezliklə dünyadan köçəcəyini həcc boyunca dəfələrlə bəyan edib müsəlmanlarla vidalaşmışdı.

Vida həcci Peyğəmbərin ən izdihamlı səfəri kimi tarixdə qalıb. Bu həccin əhəmiyyətini göstərmək məqsədilə Allahın Rəsulu bütün müsəlman torpaqlarına car çəkdirmiş və hamını Onu müşayiət etməyə çağırmışdı. Müxtəlif mənbələr vida həccində 40 min, 70 min, 90 min, 100 min, 114 min, 120 min və hətta 124 min müsəlmanın iştirak etməsindən xəbər verir. Camaatın bir hissəsi Mədinədə toplaşıb oradan Peyğəmbərin başçılığı altında çıxmış, bir hissəsi də həcc karvanının keçdiyi yol boyunca ona qoşulmuşdu.

Müsəlmanlar Həzrət Mühəmməd Peyğəmbərin (s) başçılığı altında hicrətin 10-cu ili zilqədə ayının 25-də (miladi 632-ci il) Mədinədən çıxıb Məkkəyə sarı yola düşdülər. Peyğəmbərin bütün xanımları və qızı Fatimə (ə) də karvanda idilər. Məşhur səhabələrdən yalnız Əli ibn Əbu Talib (ə) Peyğəmbərin tapşırığı ilə Yəmən əhalisinin xümsünü yığmaq üçün getdiyindən, Mədinədən çıxan karvana qoşula bilməmişdi. (Yəmənə eyni məqsədlə göndərilmiş Xalid ibn Vəlid qəbilələrlə dil tapmayıb uğursuzluqla geri dönmüşdü. Peyğəmbər onun səhvlərini islah etmək üçün Əlini (ə) Yəmənə göndərdi. Əli (ə) bu tapşırığı uğurla yerinə yetirib, xümslə geri qayıtdı). Əli (ə) gətirdiyi xümsü Mədinəyə çatdırmağı başqa bir adama həvalə etdi, özü birbaşa Məkkəyə yollandı.

Müsəlmanlar bu müddət ərzində (daha dəqiq desək, zilhiccə ayının 5-də) Məkkəyə girib ümrə ziyarətini yerinə yetirmişdilər. Peyğəmbərdən başqa heç kim Mədinədən özü ilə qurbanlıq gətirməmişdi. Yalnız İslam Peyğəmbəri 66 və ya 67 dəvədən ibarət qurbanla Məkkəyə gəlmişdi. O həzrət ətrafındakı müsəlmanlara tapşırdı ki, özləri ilə qurbanlıq gətirmədikləri üçün *ehramdan* çıxsınlar və həcc əməllərindən ötrü ehram bağlanacaq günü gözləsinlər. Peyğəmbər özü isə ehramda qaldı.

Əli ibn Əbu Talib (ə) *miqatda* ehram bağlayıb, özünü Məkkənin girəcəyində gözləyən müsəlmanlara çatdırdı. Amma hamının ehramsız olduğunu görüb, vəziyyəti öyrənmək üçün Peyğəmbərin yanına gəldi. Peyğəmbər Əlinin (ə) hansı niyyətlə ehram bağladığını soruşanda, Əli (ə) cavab verdi: «Peyğəmbərin ehram bağladığı niyyətlə ehram bağlamağı niyyət etmişdim». Həzrət Mühəmməd (s) Əlidən (ə) soruşdu ki, həccə qurbanlıq gətiribmi? Əli (ə) «yox» deyə, cavab verib əlavə etdi ki, Yəməndən *xüms* kimi 33 (və ya 34) dəvə gətirib. Peyğəmbər buyurdu: «Sən qurbanlıqda mənə şəriksən. Ehramdan çıxma və həcc niyyətində qal».

Zilhiccə ayının 8-də Peyğəmbərin tapşırığı ilə müsəlmanlar həcc niyyəti ilə ehram bağlayıb *Minada* qaldılar. Ertəsi gün (*ərəfə* günü) sübh namazını Minada qılıb *Ərəfata* sarı yola düşdülər. Peyğəmbər zöhr vaxtı Ərəfatda müsəlmanların qarşısında xütbə oxudu, sonra zöhr və əsr namazlarını birləşdirib qıldı.

Ərəfə günü Günəş batandan sonra Peyğəmbər *Müzdəlifəyə* gəldi, orada camaatla məğrib və işa namazlarını birləşdirib qıldı. Müsəlmanlar gecəni Müzdəlifədə keçirib, zilhiccə ayının 10-da – Qurban bayramı günü sübh tezdən Minaya yola düşdülər. Orada əvvəlcə sonuncu *cəmərəni* (şeytanı simvolizə edən sütunu) daşladılar. Peyğəmbər Minada dəvənin (və ya qatırın) belində oturmuş halda xütbə söylədi. Sonra Peyğəmbər özü ilə Mədinədən gətirdiyi 66 (və ya 67) dəvəni, Əli ibn Əbu Talib (ə) də Yəməndən xüms kimi gətirdiyi 34 (və ya 33) dəvəni qurban kəsdilər. Kəsilmiş dəvələrin ümumi sayı 100 idi. Dəvələrin ətindən bişirilmiş xörəkdən Peyğəmbər də daddı. Qurbanlıq dəvələrin bütün ətini, hətta dərisini və yəhər-ovsarını da sədəqə verdilər.

Bundan sonra Peyğəmbər saçını tamamilə qırxdırıb (həlq edib) Məkkəyə getdi. Məkkədə həcc əməllərinin qalan hissəsini yerinə yetirib, həmin gün yenə Minaya döndü. Zilhiccənin 11-də və 12-də Minada qaldı, hər iki gün cəmərələrə daş atdı. Zilhiccə ayının 13-də zöhr vaxtı Minadan çıxdı. Hacılar yol-

da azacıq istirahət etdikdən sonra Peyğəmbərin tapşırığı ilə Məkkəyə gəlib *nisa* (vida) *təvafını* yerinə yetirdilər. Elə həmin gün həcc karvanı Məkkəni tərk edib Mədinəyə sarı istiqamət götürdü.

Zilhiccə ayının 18-də Məkkə ilə Mədinə arasındakı *Qədir-Xümm* vahəsində Həzrət Mühəmməd Peyğəmbər (s) öz məşhur xütbəsini söylədi.

Vida həcci zilhiccə ayının 5-dən 13-ə kimi davam etdi. Bu həccin əhəmiyyətli cəhətlərindən biri bundan ibarətdir ki, Peyğəmbər həccin bütün əməllərini özü şəxsən yerinə yetirməklə müsəlmanlara nümunə olmuş və həcc qaydalarını müəllim kimi onlara öyrətmişdi. Vida həcci, söylənilən xütbələr baxımından da çox dəyərlidir. Bu xütbələrdə Peyğəmbər İslam şəriətinin yeni qanunlarını elan etmiş, insanlara ən mühüm dini-əxlaqi tövsiyələr buyurmuşdur.

N.R.

VİDA XÜTBƏSİ

Vida həcci zamanı Həzrət Mühəmməd Peyğəmbərin (s) söylədiyi xütbələrə deyilir. Tarix kitablarında verilən məlumatları ümumiləşdirərək bu qənaətə gəlirik ki, Peyğəmbər vida həcci zamanı 5 dəfə xütbə söyləmişdir: zilhiccənin 7-də Məkkədə, zilhiccənin 9-da Ərəfatda, zilhiccənin 10-u, 11-i və 12-də Minada. Bir çox kitablarda bu xütbələrin birləşdirilərək tək xütbə şəklində təqdim edildiyinin şahidi oluruq; əslində, bu, yalnışdır.

Peyğəmbər öz xütbələrində İslam dininin vacib əmrlərini müsəlmanlara xatırladır, bəzi yeni qanunları elan edir, əqidə, fiqh, əxlaq sahəsində mühüm tapşırıqlarını verir və tezliklə vəfat edəcəyini dönə-dönə vurğulayırdı. Vida xütbələri içində zilhiccə ayının 10-da Minada söylənmiş xütbə daha əhatəli və daha məşhurdur.

Həzrət Mühəmməd Peyğəmbərin (s) Qurban bayramı günü Minada oxuduğu xütbənin mətni İslam tarixi barədə mötəbər mənbələrdən sayılan «Yəqubi tarixi»ndə daha geniş formada verilib. Digər kitablarda bu xütbə nisbətən müxtəsər şəkildə rəvayət edilib. Zilhiccə ayının 10-da Minada Peyğəmbər bu xütbəni söyləmişdir:

«Mənim sözlərimi eşidən, yadında saxlayan və sözlərimi eşitməyənlərə çatdıran bəndələrin üzünü Allah ağ etsin! Nə çoxdur fiqh barədə biliyə malik olub özü fəqih olmayanlar və nə çoxdur fiqh barədə biliyə malik olub, bunu özündən daha bilikli olan şəxslərə ötürənlər.

Üç xasiyyət var ki, müsəlmanın qəlbi bunlardan xali olmaz: əməlləri Allaha xatir ixlasla yerinə yetirmək, haqq yolda olan hakimlərə nəsihət vermək və mömin cəmiyyətin fikrinə tabe olmaq. Çünki möminlərin dəvəti *(təbliğatı)* yalnız özlərinə aid deyil, onlardan sonra gələnlərə də şamildir.

Mən sizinlə bir daha indikinə bənzər bir vəziyyətdə görüşməyəcəyəm. Bilirsiniz ki, bu hansı şəhərdir? Bu hansı aydır? Bu hansı gündür?».

Camaat cavab verdi: «Bəli, bilirik. Bu *haram (yəni bəzi əməllərin qadağan olunduğu)* şəhərdir, haram aydır və haram gündür».

Peyğəmbər buyurdu: «Bu şəhər, bu ay və bu gün haram olduğu kimi, Allah qanlarınızı və mallarınızı da sizə haram edib *(yəni haqsız yerə bir-birinizin qanını axıtmağı və malını mənimsəməyi qadağan edib)*. Bu əmrləri sizə çatdırdımmı?». Camaat birağızdan: «Bəli» – dedi. Peyğəmbər buyurdu: «Allahım, şahid ol ki, mən onlara bu sözləri çatdırdım».

Sonra Peyğəmbər öz xütbəsini davam etdirdi: «Allahın əmrlərinə münasibətdə təqvalı olun! Camaatın əmlakını mənimsəməyin! Yer üzündə fitnə-fəsad törətməyin! Hər kimin yanında *əmanət* varsa, onu sahibinə qaytarsın. İslamda bütün insanlar bərabərdirlər. Hamı dolu qədəh kimi eynidir və Adəmlə Həvvadan törəyib. Ərəbin *əcəm* üzərində və əcəmin ərəb üzərində *təqvadan* savayı üstünlüyü yoxdur. Bu əmrləri sizə çatdırdımmı?». Hamı: «Bəli» – söylədi. Peyğəmbər: «Allahım, şahid ol ki, mən onlara bu sözləri çatdırdım».

Peyğəmbər sözlərinə davam etdi: «*Cahiliyyə* dövründə tökülmüş bütün qanlar mənim ayağım altındadır *(yəni o qanlara görə qisas və qanbahası almağı ləğv edirəm)*. Haqq-hesabı ləğv olunan ilk qan Adəm ibn Rəbiə ibn Haris ibn Əbdülmüttəlibin qanıdır. (Adəm ibn Rəbiə cahiliyyə dövründə Bəni-Hüzeyl qəbiləsi tərəfindən öldürülmüşdü və həmin vaxtdan bəri onun qan davası həll olunmamış qalırdı). Cahiliyyə dövründə verilən bütün sələm *(faiz)* pulları da mənim ayağım altındadır. Ləğv olunan ilk sələm də Abbas ibn Əbdülmüttəlibin sələmləridir. (Peyğəmbərin əmisi Abbas cahiliyyə dövründə faizə pul verirdi)». Peyğəmbər bu əmri çatdırmasının təsdiqi barədə yenə camaatdan söz aldı və Allahı şahid çağırdı.

Sonra Peyğəmbər təqvimlə bağlı tapşırıqlarını verdi, ayların sayının 12 olduğunu xatırlatdı, *nəsi* adətinin qadağan olunduğunu bildirdi, *haram ayların* adını saydı.

Daha sonra o həzrət buyurdu: «Sizə qadınlarla yaxşı davranmağı vəsiyyət edirəm. Onlar sizin üçün ən çətin işləri görürlər, özlərinin əmlakı yoxdur. Siz onları Allahın əmanəti kimi almısınız, onlarla münasibətinizi də Allahın kitabının hökmlərinə əsasən qurursunuz. Sizin onlar üzərində, onların da sizin üzərinizdə haqqı vardır. Qadınlarınızın haqqı budur ki, onları geyim və yeməklə yaxşı şəkildə təmin edəsiniz. Sizin qadınlar üzərində haqqınız budur ki, evinizə və yatağınıza başqasını gətirməsinlər, sizin xəbəriniz və icazəniz olmadan ev işlərində dəyişiklik etməsinlər. Əgər bu vəzifələri yerinə yetirməsələr, yatağınızı ayırın və onları yüngülcə tənbeh edin». Müsəlmanlar bu sözləri eşitdiklərini təsdiq etdilər və Peyğəmbər Allahı şahid çağırdı.

Bunun ardınca Peyğəmbər qul və kənizlərlə mülayim davranmaq barədə tapşırıqlarını verdi. Daha sonra buyurdu: «Müsəlman müsəlmanın qardaşıdır; ona hiylə gəlməz, xəyanət etməz, qanını və malını özünə halal bilməz. Şeytan bu gündən etibarən ibadət məsələlərində ona itaət edəcəyinizdən ümidini üzdü. Amma ibadətdən başqa əməllərdə yenə ona tabe olmağınızdan, günahlarınızı kiçik saymağınızdan razı qaldı».

Peyğəmbər haqsız yerə başqasından intiqam və qisas almağı bir daha qadağan etdi, öz atasını inkar edən övladın lənətə layiq olduğunu vurğuladı.

Daha sonra buyurdu: «Allah mənə əmr edib ki, insanlarla Allahın vahidliyini və mənim peyğəmbərliyimi təsdiq edincəyə kimi döyüşüm. Əgər bunu təsdiq etsələr *(kəlməyi-şəhadəti söyləsələr)*, canlarını və mallarını toxunulmaz sayaram; yalnız cinayət etsələr cəza verərəm. Onların əsl hesabı isə Allahla olacaq». Peyğəmbər soruşdu: «Bu əmrləri sizə çatdırdımmı?». Camaat birağızdan: «Bəli» – dedi. Peyğəmbər buyurdu: «Allahım, şahid ol ki, mən onlara bu sözləri çatdırdım».

Xütbənin sonunda Həzrət Mühəmməd Peyğəmbər (s) buyurdu: «Məndən sonra kafir olmayın, azğınlığa düşməyin, bir-birinizə ağalıq etməyə can atmayın! Sizə iki şey vəsiyyət edirəm ki, əgər onlara sarılsanız, azğınlığa düçar olmazsınız. Bunlar Allahın kitabı *(Quran)* və *itrətim Əhli-beytimdir*».

Peyğəmbər yenə Onun dediklərini eşitdikləri barədə müsəlmanlardan söz aldı və Allahı buna şahid çağırdı. O həzrət öz xütbəsini bu sözlərlə yekunlaşdırdı: «Siz eşitdikləriniz barədə cavabdehsiniz *(yəni bu tapşırıqlara əməl etmək barədə Allah qarşısında məsuliyyət daşıyırsınız)*. Mənim sözlərimi eşidənlər eşitməyənlərə çatdırsınlar».

Bəzi kitablarda xütbənin son bölümündəki «itrətim Əhli-beytim» ifadəsi dəyişdirilərək «sünnətim» şəklinə salınmışsa da, alimlər bunu Əməvilər dövründə Əhli-beytə qarşı həyata keçirilən düşmənçilik siyasətinin nəticəsi hesab edirlər. Əməvilərin hakimiyyəti dövründə Əhli-beytan üstünlüklərini təsdiq edən bəzi hədisləri rəvayət etmək qadağan edilmiş, çoxlu yalançı hədislər uydurulmuş, xeyli hədis isə təhrif edilmişdi. Təsadüfi deyil ki, əksər mənbələrdə xütbənin son bölümü məhz yuxarıdakı formada xatırlanır *(ətraflı məlumat üçün bax: Natiq Rəhimov. Peyğəmbərin əmanəti, səh. 35-56)*.

N.R.

VİRD

Ərəbcə «su payı, ordu, gecə ibadətinə ayrılan zaman kəsiyi» mənalarını bildirir. Quranda davamlı olaraq oxunan, vəzifə halına gətirilən dua və zikrlərə də vird deyilir. Təsəvvüf şeyxləri tərəfindən hazırlanan xüsusi dualar vird adlanır. Bunların əksəriyyəti Qurani-kərimə və hədislərə əsaslanır. Müridlər bunları səviyyələrinə görə günlük, həftəlik, aylıq və illik şəkildə təkrar edirlər. Məsələn, hər gün yüz dəfə «əstəğfirullah», cümə günü yüz dəfə «sübhanallahi və bihəmdihi, sübhanallahil-əzim» demək və s.

R.M.

VİTR NAMAZI

bax: *gecə namazı.*

Y

YEDDİ HƏRF

Quran qiraətinə aid terminlərdən biridir. Həzrət Mühəmməd Peyğəmbərin (s) bu hədisinə əsaslanır: «Quran yeddi hərf üzərində nazil olub. Bunlardan hansı biri sizə asan gəlirsə, onun əsasında oxuyun» *(Səhihül-Buxari, Fəzailül-Quran kitabı, V bab, 4992-ci hədis; XXVII bab, 5041-ci hədis; Kitabüttövhid, LIII bab, 7550-ci hədis; Səhihü Müslim, Səlatül-müsafirin (Fəzailül-Quran) kitabı, LXVIII bab, 1899 (270)-ci hədis; Sünənü Əbu Davud, Kitabül-vitr, XXII bab, 1477-ci hədis; Sünənüt-Tirmizi, Əbvabül-qiraat, IX bab, 2943-cü hədis; Sünənün-Nəsai, Kitabüliftitah, XXXVII bab, 937-941-ci hədislər və s.).*

Yeddi hərflə bağlı müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. Məşhur ərəb qrammatiki və təfsirçisi Əbu Übeyd Qasim ibn Səllam göstərirdi ki, «yeddi hərf» hədisində ərəb qəbilələrinin danışdığı yeddi ləhcəyə işarə edilib. Yəni Quran ərəb qəbilələrindən yeddisinin (*Qureyş*, Hüzeyl, Səqif, Həvazin, Kinanə, Təmim və Yəmən) ləhcəsində nazil olub.

Başqa bir nəzəriyyəyə görə, yeddi hərf tələffüzdə fərqli, məna baxımından eyni olan yeddi söz deməkdir. Bu müddəanı Süfyan ibn Üyeynə və təfsirçi Təbəri müdafiə etmişlər. Təbərinin fikrincə, yeddi hərf eyni sözün tələffüz baxımından fərqli, məna cəhətdən eyni olan yeddi variantıdır. Məsələn, ərəblər «gəl» mənasını ifadə etmək üçün müxtəlif sözlərdən istifadə edirlər (həlümmə, əqbil, təal, ileyyə, qəsdi, nəhvi, qürbi və s.). Quranda da belə sözlər vardır. Məsələn, «səyhətən» və «zəqyətən» kəlmələri fonetik baxımdan fərqlənsə də, eyni mənanı bildirir.

Daha bir nəzəriyyəyə əsasən, yeddi hərf – yeddi müxtəlif qiraət variantıdır (bax: *qare*).

Şiə məzhəbində Quranın yeddi hərf üzrə nazil olması barədə hədis səhih sayılmır. Şiə imamlarından rəvayət edilən hədislərdə bu fikrin səhv olduğu və Quranın bir hərf üzrə endirildiyi təkid edilir. Hətta Şeyxüt-taifə Tusi Quranın bir hərf üzrə endirilməsi barədə şiə alimlərinin icma etdiklərini yazır.

M.İ. və N.R.

YƏDİ-BEYZA

Ərəb dilindən tərcüməsi «bəyaz əl» deməkdir. Həzrət Musa Peyğəmbərin (ə) göstərdiyi möcüzələrdən birinə işarədir. Rəvayətə görə, Həzrət Musa (ə) Fironu və Misir xalqını öz sözlərinə inandırsın deyə, Allah-təala ona iki möcüzə bəxş etmişdi. O həzrət əlindəki əsanı yerə atanda əsa nəhəng ilana çevrilir, bir müddətdən sonra yenə əsaya dönürdü. Həm də Musa Peyğəmbər (ə) əlini qoynuna salıb çıxaranda biləkdən aşağı əli bəmbəyaz işıq saçırdı. Əlini ikinci dəfə qoynuna salıb çıxaranda hər şey əvvəlki vəziyyətə qayıdırdı. Qurani-kərimin bir neçə ayəsində bu hadisə təsvir edilir. Məsələn, ayələrin birində Allahın Həzrət Musaya (ə) belə müraciət etdiyi bildirilir: «Əlini qoltuğunun altına qoy ki, əlin başqa bir möcüzə olaraq eyibsiz-qüsursuz, ağappaq çıxsın» *(Ta-Ha, 22).*

Ayədə Musanın (ə) işıq saçan əlinin eyibsiz-qüsursuz olması təkid edilir. Bunun səbəbi budur: Tövratda yazılıb ki, Musa (ə) əlini qoynuna salıb-çıxartdıqdan sonra cüzamlı xəstələr kimi əli ağarırmış. Allah-təala Quranikərimdə bu məsələyə aydınlıq gətirir, Musanın (ə) göstərdiyi möcüzənin hər cür eyibdən və nöqsandan uzaq olduğunu diqqətə çatdırır.

Klassik Şərq ədəbiyyatında, eləcə də, Azərbaycan şairlərinin əsərlərində «yədi-beyza» ifadəsinə tez-tez rast gəlmək mümkündür:

Göstərsə yox əcəb yədi-beyza Kəlimi-təb,
Hala ki, şaxi-güldə təcəlla zamanıdır.

(A.A.Bakıxanov Qüdsi).

Başdan-ayağə pərtövi-ənvarsən, Kəlim
Haşa ki, göstərə yədi-beyza sənin kimi.

(Q.B.Zakir).

N.R.

YƏQİN

İslam əxlaqında ən çox bəyənilən xüsusiyyətlərdən biri. Yəqin hər hansı məsələni dəlil və sübutlarla əsaslandırdıqdan sonra insanın fikir və zehnində yaranan aramlığa deyilir *(Rağib İsfahani. Əl-Müfrədat).* «Məcməül-bəyan» təfsirində yazılıb ki, hər elm yəqin deyil, amma hər yəqin elmdir.

Rəvayət edirlər ki, bir gün Həzrət Mühəmməd Peyğəmbər (s) Cəbraildən yəqinin mənası barədə soruşdu. Cəbrail cavab verdi: «Yəqin budur ki, mömin şəxs hər əməli edəndə Allahın onu gördüyünü bilsin. Əgər o özü Allahı görmürsə, Allah onu görür. Başına bir iş gəlsə, bilsin ki, bu iş mütləq olmalı idi. Əlindən nə isə çıxanda da bilsin ki, bu şeyi mütləq itirməli idi» (*yəni heç nəyə təəssüflənməsin).*

İslam müqəddəsləri yəqinə malik olmağı müsəlman üçün ən böyük üstünlüklərdən biri kimi dəyərləndirmişlər. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurub: «Səbir imanın yarısıdır, yəqin isə imanın hamısıdır». «Ümmətim üçün yəqinin zəifliyindən savayı heç nədən qorxmuram». İmam Əli ibn Əbu Talib (ə) yəqinin üstünlüklərini belə bəyan edirdi: «Yəqini olmayanın imanı olmaz». «Yəqin halında yuxu şəkk halında namazdan daha üstündür». İmam Cəfər Sadiq (ə) isə yəqini belə səciyyələndirirdi: «Həqiqətən, iman İslamdan üstündür. Yəqin isə imandan üstündür. Yəqindən daha dəyərli şey yoxdur».

Əli ibn Əbu Talibdən (ə) iman barəsində soruşdular. Həzrət buyurdu: «İman dörd sütun üzərində durur: səbir, yəqin, ədl və cihad». Sonra imam bunların hər birinin xüsusiyyətlərindən danışdı. Yəqin barəsində belə buyurdu: «Yəqin də dörd növə bölünür: cəldlik *(cavanlıq)* zamanında ayıqlıq, hikməti anlamaq, ibrət götürmək və əvvəlkilərin sünnəsini *(ənənəsini)* yaşamaq. Hər kim cavanlıqda ayıq olsa, onun üzünə hikmətlər açılar. Hər kimin üzünə hikmət qapıları açılsa, ibrətli hadisələrdən dərs alar. Hər kim ibrət alsa, davranışında keçmişdəkilər *(peyğəmbərlər və salehlər)* kimi olar» *(Nəhcül-bəlağə, 31-ci hikmətli kəlam).*

Qurani-kərimdə yəqinə yetmək adətən, ölmək mənasında işlədilib: «Haqq-hesab gününü yalan sayardıq, yəqin bizi haqlayana kimi» *(Müddəssir, 46-47).* Qurana görə, yəqinə çatmağın yolu ibadətdir: «Sənə yəqin gələnədək Rəbbinə ibadət et!» *(Hicr, 99; bəzi təfsirlərdə bu ayədəki yəqin ölüm kimi izah olunub).*

Yəqinin 3 mərhələsi var: elmül-yəqin, eynül-yəqin və həqqül-yəqin. Bunları alovun üç dərəcəsi ilə müqayisə etmək olar. Elmül-yəqin odur ki, insan tüstü çıxmasından və s. əlamətlərdən alovun varlığını anlasın. Eynül-yəqin odur ki, alovu gözü ilə görsün. Həqqül-yəqin budur ki, öz bədəni ilə alovun hərarətini duysun. Elə İmam Əlinin (ə): «Allahla aramdakı pərdələr götürülsə belə, yəqinim zərrəcə artmaz» hədisinin izahı da budur. Həqqül-yəqin elə bir mərtəbədir ki, ondan sonra heç nə yoxdur, bu mərhələdən sonra artım və tərəqqi mövcud deyil. Həqqül-yəqinə yetişən şəxsin yəqini bundan sonra daha artmaz; çünki bu, son həddir.

Göstərilən 3 mərhələnin hər birinin adı Qurani-kərimdə çəkilib. Özü də hər üç mərhələ Quranda cəhənnəmə işarə olaraq xatırlanır: «Əgər elmül-yəqini bilsəydiniz! Siz o cəhənnəmi mütləq görəcəksiniz. Sonra eynül-yəqini mütləq görəcəksiniz!» *(Təkasür, 5-7).* «Əgər ölən kimsə təkzib edənlərdən və yoldan azanlardandırsa, *(ona)* qaynar su ziyafəti veriləcək. Özü də cəhənnəmə atılacaq. Şübhəsiz, bu, həqqül-yəqindir» *(Vaqiə, 92-95).* Daha bir ayədə «həqqül-yəqin» ifadəsi Quranla əlaqədar işlədilib: «Şübhəsiz, bu *(Quran),* kafirlər üçün peşmançılıqdır. Şübhəsiz, bu *(Quran),* həqqül-yəqindir» *(Haqqə, 50-51).*

Həzrət Mühəmməd Peyğəmbərin (s) zamanında baş vermiş bir hadisə yəqin əhlinin üstünlükləri barədə dolğun təsəvvür əldə etməyə əsas verir. Rəvayət edirlər ki, bir gün Peyğəmbər məscidin küncündə oturmuş halda mürgüləyən bir oğlan gördü. Oğlanın rəngi saralmış, bədəni arıqlamış, gözləri çu-

xura düşmüşdü. Peyğəmbər ondan soruşdu: «Necə sübh etmisən, ey cavan?». Oğlan cavab verdi: «Yəqin halında sübh etmişəm, ya Rəsuləllah». Peyğəmbər onun sözündən təəccüblənib soruşdu: «Hər yəqinin öz həqiqəti var. Bəs, sənin yəqininin həqiqəti nədir?». Oğlan belə dedi: «Elə həmin yəqinim məni hüznlü edib, yuxumu əlimdən alıb, məni isti havada susuzluğa dözməyə *(oruc tutmağa)* məcbur edib. Canım dünyadan və dünyada olanlardan təngə gəlib sıxılır. Elə bil görürəm ki, Allahın ərşi hesab günü üçün hazırlanıb. Bütün insanlar məhşərə gətirilib və mən də onların arasındayam. Elə bil cənnətdə nemətlər içində şənlənən, mütəkkələrə dirsəklənən şəxsləri görürəm. Sonra isə elə bil ki, cəhənnəmdə əzab çəkən, ah-nalə edən insanları da görürəm. Sanki indi də cəhənnəm alovunun nərəsini qulaqlarımda hiss edirəm».

Peyğəmbər oğlanı dinləyəndən sonra səhabələrə belə buyurdu: «Bu, həmin o bəndədir ki, Allah onun qəlbini imanla nurlandırıb». Sonra Peyğəmbər oğlana dedi: «Necə varsansa, elə bu halda da qal *(yəni indi malik olduğun üstün mənəvi dərəcəni itirmə)*».

Oğlan xahiş etdi: «Dua et ki, Sənin yolunda şəhadət şərbətini nuş edim». Peyğəmbər onun barəsində dua etdi və qısa müddətdən sonra müharibələrin birində həmin oğlan şəhid oldu. Rəvayətə görə, bu, *Mötə savaşında* şəhid olmuş Harisə ibn Malik ibn Nöman Ənsari idi.

Yəqin təsəvvüf aləmində də məşhur olan bir anlayışdır. Sufilikdə yəqin – *halların* sonuncusu və ən üstünüdür. Yəqin haqq tərəfindən qəlbə ötürülən elmdir. Həqiqət əhlinin dilində yəqin iman gücü ilə yaranan görüntüyə deyilir və onun dəlil-sübutla əlaqəsi yoxdur, məntiqə deyil, hissiyyata bağlıdır.

Təsəvvüfdə də yəqinin üç mərtəbəsi var: elmül-yəqin, eynül-yəqin və həqqül-yəqin. Elmül-yəqin bu dünyaya aid olan hökm və əmrlərlə bağlı elmlərdir, alimlərə məxsusdur, səy və çalışma ilə qazanılar. Eynül-yəqin bu dünyanın mahiyyətidir, ariflərə xasdır, ünsiyyətlə əldə edilər. Həqqül-yəqin isə behiştdəki kəşf və görüntüləri əhatə edir, Allah dostlarının fəna mənzilidir və müşahidə ilə əldə olunar.

Məşhur sufi Şibli yəqinin bu üç mərtəbəsi barədə söyləmişdir: «Elmül-yəqin peyğəmbərlərin dilindən bizə yetişib. Eynül-yəqin Allahın hidayət nurundan birbaşa qəlbə ötürülər. Həqqül-yəqinə çatmağın isə yolu yoxdur».

N.R.

YÖVMÜD-DİN

Qurani-kərimin Fatihə surəsinin 4-cü ayəsindən götürülmüş ifadədir. Hərfi tərcüməsi «din günü» deməkdir. «Din» sözü burada sorğu-sual, hesabat mənasında işləndiyi üçün, bu ifadəni də sorğu-sual günü, hesab günü, əməllərə görə əvəz veriləcəyi gün kimi mənalandırırlar. Qiyamət gününün epiteti olaraq istifadə olunur. Qurani-kərimin başqa bir yerində buyurulur: «Sən nə bilirsən ki, din *(sorğu-sual)* günü nədir? O gün heç kəs heç kəsin karına gələ bilməz. O gün hökm yalnız Allahındır!» *(İnfitar, 18-19)*. «O gün vay halına yalan sayanların! O kəslər ki, din *(hesab)* gününü yalan sayarlar» *(Mütəffifin. 10-11)*.

N.R.

YÖVMÜŞ-ŞƏKK

«Şübhəli gün» mənasını bildirən bu söz dini termin kimi şəban ayının 30-u yoxsa ramazan ayının 1-i olduğuna şübhə edilən günə deyilir. Ramazan qəməri ay olduğundan, başlanğıcı və sonu Ayın hərəkətinə görə müəyyən edilir. Bu barədə Həzrət Mühəmməd Peyğəmbər (s) belə buyurub: «Ramazan hilalını gördükdə oruca başlayın və şəvval hilalını gördükdə də bayram edin. Hava buludlu olarsa, ayı 30 gün hesablayın» *(Səhihül-Buxari, Sövm kitabı, V bab, 1900-cu hədis; Səhihü Müslim, Siyam kitabı, II bab, 3 (2498)-ci hədis)*.

R.M.

Z

ZAHİD

bax: *zöhd.*

ZƏİF HƏDİS

bax: *hədis.*

ZƏKAT

Ərəb dilindən tərcümədə «təmizlənmək» və «artıb-çoxalmaq» mənalarını verir. Hər bir müsəlmanın öhdəsində olan əsas dini vəzifələrdəndir. Əhli-sünnə məzhəbinə görə, İslamın 5 şərtindən, şiə məzhəbinə görə isə *füruüd-dinin* 10 maddəsindən biridir. Müsəlmanın özünün və öhdəsində olan ailə üzvlərinin ehtiyacından artıq qalan qızıl-gümüşü, məhsulu və mal-qarası bir il ərzində miqdar baxımından müəyyən həddə (bu miqdara *nisab* deyilir) çatarsa, bunların az bir hissəsini ehtiyacı olanlara zəkat kimi verməlidir. Zəkat şəriətdə nəzərə tutulmuş qaydalar əsasında, zəkat düşən əmlakın miqdarından asılı olaraq hesablanır.

Zəkat aşağıdakı əmlakdan ödənilir: mal-qara sürüsündən (dəvə, inək və qoyundan), əkin sahələrindən yığılan məhsuldan (məhsulun növü barədə məzhəblər arasında fikir ayrılıqları vardır), qızıl və gümüş (şiə məzhəbinə görə yalnız pul sikkəsi şəklində olduğu halda, bunlara zəkat düşür). Əhli-sünnə məzhəbində ticarət mallarına görə də zəkat verilməlidir, şiə məzhəbində bu, müstəhəbdir.

İnsan öz ehtiyacından artıq qalan maldan zəkat verməklə cəmiyyətə xeyir vermiş olur, Allahın razılığını qazanır və öz malını bəlalardan qoruyur. İmam Cəfər Sadiq (ə) bu barədə buyurmuşdur: «Suda və qurudakı vasitələrdən heç biri sərvəti zəkat qədər qoruya bilməz. Malınızı zəkatla qoruyun!». Qurani-kərimdə Allah-təala zəkatın vacibliyi barədə Peyğəmbərə göstəriş verir: «Onların mallarından sədəqə *(zəkat)* al. Bununla onları *(günahlarından)* təmizləmiş, pak etmiş olarsan. Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır. Allah *(hər şeyi)* eşidəndir, biləndir» *(Tövbə, 103)*.

Zəkatın əhəmiyyətini bundan görmək olar ki, Quranın 28 ayəsində namaz qılmaq əmrindən dərhal sonra zəkat vermək tapşırığı gəlir.

Zəkatın verildiyi istiqamətlər 8 qrupa bölünür *(Tövbə, 60)*:

1. Özünün və ailəsinin dolanışığını təmin edə bilməyən kasıblar (bax: *fəqir*);
2. Kasıblığın ən aşağı həddində yaşayan, amma əl açıb dilənməyən şəxslər (miskinlər);
3. Zəkatı yığmağa təyin edilmiş məmurlar (bu, İslam dövlətlərinə aid olan təbəqədir);
4. İslama cəlb etmək məqsədilə bəzi qeyri-müsəlman kəslər (bax: *müəlləfətül-qülub*);
5. Kölə alıb azad etmək;
6. Borcunu ödəməyə imkanı olmayan borclular;
7. Allah yolunda cihad edən döyüşçülər (cəfəri məzhəbində bunun əvəzinə cəmiyyət üçün yararlı olan xeyriyyə işləri görmək nəzərdə tutulub. Məsələn: məscid, xəstəxana, mədrəsə, kitabxana tikdirmək, yol çəkdirmək, lazımi kitabları nəşr etdirmək və s.);
8. Pulu qurtarıb yolda qalan, evinə qayıda bilməyən müsafirlər.

Zəkat sair ibadət növlərindən fərqlənir. Əgər namaz və oruc həm mənəvi, həm də cismani ibadətdirsə, zəkat həm mənəvi, həm də maddi ibadətdir. Hər bir insanın qəlbində az və ya çox dərəcədə öz əmlakına bağlılıq hissi vardır. Zəkat verən şəxs özü öz razılığı ilə əmlakının müəyyən hissəsini (ehtiyacından artıq olmaq şərti ilə) başqalarına bağışlayırsa, bu, onda iradə möhkəmliyini, xeyriyyəçiliyi gücləndirir, onu sərvətə aludəlikdən qoruyur. Belə şəxs fədakarlığa öyrəşir, başqa vaxtlarda da öz əmlakını ehtiyacı olanlarla asanlıqla bölüşə bilir. Hədislərdə deyildiyi kimi, Allah bu ümmətə zəkatdan daha çətin olan bir şey vacib etməmişdir.

Zəkat müsəlman ümmətinin maddi rifahının yüksəlişi, kasıblığın aradan qaldırılması üçün böyük əhəmiyyətə malikdir. Əgər bütün sərvətli şəxslər öhdələrinə düşən miqdarda zəkatı vaxtlı-vaxtında ödəsələr, öz şəhərlərində, yaxud heç olmazsa, öz məhəllələrində yaşayan kasıbların ehtiyaclarını həll etmiş olarlar. İslam ölkələrinin hər birində

bu qaydalar gözlənilsə, bütövlükdə müsəlman aləmi maddi tərəqqi və çiçəklənmə halında yaşayar. Tarixçilərin yazdığına görə, keçmiş əsrlərdə müsəlman dövlətinin elə dövrləri olmuşdur ki, zəkatı almağa ehtiyacı olan adam tapılmamışdır.

N.R.

ZƏLALƏT

Yolundan azma, itmə, azğınlıq, batilə yönəlmək, həlak olmaq, batil şey və unutmaq mənalarını bildirir. Qəsdən və ya bilməyərəkdən, az və ya çox dərəcədə doğru yoldan uzaqlaşmaq mənalarını da ifadə edir.

R.M.

ZƏRİİH

İslam müqəddəslərinin qəbrinin üzərində quraşdırılan, hər tərəfdən məhəccərlə əhatə olunan kiçik otaq. Bir çox müqəddəslərin məzarı üzərindəki zərihlər qızıldan və gümüşdən hazırlanıb (məsələn, Kərbəlada İmam Hüseynin (ə), Nəcəfdə İmam Əlinin (ə), Kazimeyndə İmam Kazimin (ə) və İmam Təqinin (ə), Samirədə İmam Nəqinin (ə) və İmam Əsgərinin (ə) zərihləri). Daha aşağı dərəcəli müqəddəslərin (imamzadələrin, övliyaların) zərihi isə metaldan və ya taxtadan olur. Çox zaman ziyarətçilər zərihin məhəccərinin dəlikləri arasından içəriyə nəzir kimi pul atırlar. Bəzi müsəlmanlar məzarda yatan müqəddəsə sevgiləri üzündən zərihi öpür, əl sürtürlər. Belə hərəkətlər şirk niyyəti olmadan həyata keçirilərsə, günah sayılmaz. Məqbərədə xidmət edənlər ziyarətçilərin buraxılmadığı saatlarda zərihin qapısını açıb içəri girir, orada səliqə-səhman yaradır, nəzir pullarını yerdən yığışdırırlar.

N.R.

ZƏVVAR

Ziyarət edən.

bax: *ziyarət.*

ZINDIQ

«Dinsiz, kafir» sözünün sinonimi kimi işlədilir. Mənşəyi barədə fikirlər müxtəlifdir. Əksəriyyət bu sözün fars mənşəli olduğunu qəbul etsə də, fars dilində hansı kökdən törədiyi barədə nəzəriyyələr fərqlidir. Daha geniş yayılmış fikrə əsasən, «zəndi» (yəni zərdüştilərin müqəddəs kitabı Avestanın şərhi olan Zənd kitabına inanan adam) sözünün ərəbləşdirilmiş variantıdır. Bununla belə, əksəriyyətin rəyinə görə, zərdüştilər zındıq sayılmırlar. Çünki onlar da vaxtilə bir peyğəmbərin ümməti olmuş, amma sonra haqq yolundan azıb öz müqəddəs kitablarını təhrif etmişlər. Həm də zərdüştilikdə hər nə qədər çoxtanrıçılıq əlamətləri olsa da, Hörmüzd baş tanrı sayılır, Əhriman ona tabedir və dünyanın axırında Hörmüzd Əhriməni məhv edəcək. Buna görə də, klassik müsəlman alimlərinin düşüncəsinə görə, zındıq – iki tanrıya inanan dualist əqidəli adama deyilir. Mani və Məzdək dinlərinə inananlar bura aiddir.

Daha geniş anlamda Allaha, peyğəmbərlərə, axirətə inanmayan, Quranı və sünnəni inkar edən şəxsə zındıq deyirlər. Dini mənbələrdə *dəhriyyə* (materializm) düşüncəsinə sahib olan insanlar və filosoflar da zındıq adı ilə təqdim ediliblər. Bəzi müsəlman alimlər dini təəssübkeşlik üzündən, öz kitablarında hətta başqa məzhəbin ardıcıllarını zındıq adlandırmaqdan da çəkinməyiblər. Məsələn, məşhur şafii alimi İbn Həcər Heysəminin «əs-Səvaiqül-muhriqə fir-rəddi əla əhlil-bidi vəz-zindiqə» (Bidət əhli və zındıqların əqidəsinin rəddində yandırıcı şimşəklər) kitabı şiələrin əleyhinə yazılıb. Bəzi məlumatlara görə, hənbəli məzhəbinin banisi Əhməd ibn Hənbəl Qurani-kərimin qədim olmadığına və Allah tərəfindən yaradıldığına inanan müsəlmanları zındıq adlandırmışdır.

N.R.

ZİHAR

İslamdan əvvəlki dövrdə ərəblər arasında mövcud olan adətlərdən biri. Bu adətə görə, əgər bir kəs öz xanımına: «Sən mənim üçün anamın kürəyi kimisən» – desəydi, xanımı ona həmişəlik haram olurdu. Qadına qarşı haqsızlıq olan bu adət İslam dinində bəyənilməz elan edilmiş və zihar edən şəxsin *kəffarə* (cərimə) müqabilində öz həyat yoldaşına qayıtmasına icazə verilmişdir.

Ə.N.

ZİKR

Ərəb dilindən tərcüməsi «xatırlamaq» deməkdir. Bəndənin Allahı xatırlaması, Onun

mövcudluğunu duyması və bu duyğudan zövq alması kimi mənalandırılır. Zikr həm də Qurani-kərimin adlarından biridir. Çünki bu kitabda Allahın mövcudluğu, sifətləri və Ona iman gətirməyin zərurəti insanlara dönə-dönə xatırladılır: «Bu *(Quran)* nazil etdiyimiz mübarək bir zikrdir. İndi siz onu inkarmı edirsiniz?» *(Ənbiya, 50).*

Qurani-kərimdə Allahı tez-tez və hər an zikr etmək insanlara əmr olunur: «Ey iman gətirənlər! Allahı çox zikr edin!» *(Əhzab, 41).* «Siz məni zikr edin ki, mən də sizi zikr edim» *(Bəqərə, 152).* Məşhur təfsirçi İmam Fəxr Razi yazır ki, Allah-təalanın bu ayədəki məqsədləri aşağıdakılar ola bilər: Siz məni itaətlə zikr edin ki, mən də sizi rəhmətimlə zikr edim. Siz məni dualarınızla zikr edin, mən də o duaları müstəcab edim. Siz mənim verdiyim nemətlərə şükr və həmd edin, mən də nemətləri artırım. Siz məni bu dünyada zikr edin, mən də sizi axirətdə zikr edim. Siz məni şadlıq və rifah halında zikr edin ki, mən də sizi bəla və müsibət anında zikr edim. Siz mənim yolumda cihad etməklə məni zikr edin, mən də sizi hidayət etməklə zikr edim. Siz məni Rəbb kimi tanıyıb zikr edin, mən də sizə mərhəmət edib özümə bəndə saymaqla zikr edim... *(Fəxr Razi. Məfatihül-ğeyb, IV, 159).*

Hər an və hər vəziyyətdə zikr edən şəxslər Qurani-kərimdə ehtiramla xatırlanır: «O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər *(və deyərlər):* «Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi cəhənnəm odunun əzabından qoru!» *(Ali-İmran, 191).*

Zikr insanın mənəvi rahatlığı üçün də böyük önəm daşıyır. Zikr edən şəxs özünü Allahın himayəsində hiss edir, çətinliklər və bəlalar onun gözündə rahat görünür: «Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapar» *(Rəd, 28).* Dini mənbələrdə Allahın adlarını, Həzrət Fatimənin (ə) təsbihatını zikr etməyin böyük savaba malik olduğu bildirilir.

Təsəvvüf aləmində belə bir təsəvvür mövcuddur ki, Həzrət Mühəmməd Peyğəmbər (s) dörd *raşidi xəlifəsinin* hər birinə ayrı-ayrı qaydalarla zikr etməyi öyrətmiş və tövsiyə etmişdi. Belə ki, Əbu Bəkrə xəfiyy (gizli) zikri, Ömərlə Əliyə cəliyy (aşkar) zikri, Osmana isə qəlbi (ürəkdə edilən) zikri öyrətmişdi. Buna görə də, hər bir sufi təriqəti öz silsiləsinin hansı xəlifəyə bağlanmasından asılı olaraq, bu zikr növlərindən birini yerinə yetirir.

Sufilərin ən çox yerinə yetirdikləri zikrlər «Allah», «hu», «la ilahə illəllah», *əsmaülhüsnaya* aid olan ayrı-ayrı müqəddəs adlar və onların müxtəlif kombinasiyalarıdır. Zikr oturaq halda və ya ayaqüstə yerinə yetirilir; ayaqüstü zikrlər də ya sabit vəziyyətdə, ya da dairəvi xətt üzrə hərlənərək icra edilir. Bəzən zikr məclisləri müsiqi alətlərinin (dəf, ney və s.) müşayiəti ilə təşkil olunur.

İmam Qəzzali «Kimyayi-səadət» kitabında yazır ki, bütün ibadətlərin, hətta namaz qılmağın və Quran oxumağın da məğzi və səbəbi Allahı zikr etməkdir. Quranda buyurulur: «Həqiqətən, namaz *(insanı)* çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək, şübhəsiz ki, daha böyükdür» *(Ənkəbut, 45).*

Sufilər zikrin üç mərtəbəsini müəyyən etmişlər. Ümumi (çoxlarına müyəssər olan) zikr qəflətdən ayrılmaq və Allahı xatırlamaqdır. Xüsusi zikr hər cür fərq və təfavütü, hətta ağlı da ortadan götürmək və xalis qəlblə Allahın zikrinə məşğul olmaqdır. Lap xüsusi zikr isə özündən fani və Allahla baqi olmaqdır.

Mövlana Cəlaləddin Rumi «Məsnəvi»də zikr barəsində yazırdı:

...Fikr ətalətdə qalıb bir yerdə duranda,
zikrə üz çevir.
Zikr söylə ki, fikri yüksəklərə aparsın.
Zikr söyləmək fikri ucaldar, aliləşdirər.
Haqqın zikri pakdır, paklıq gələndə
Çirkinlik yığışıb aradan çıxar.
Pak ad *(Allahın adı)* ağıza gələndə
Nə çirkinlik, nə də ağız qalar...

N.R.

ZİMMİ

Ərəb dilindən tərcüməsi «öhdədə olan» deməkdir. Bu ifadə «əhli-zimmə» şəklində də işlədilir. İslam baxımından, müsəlman dövlətində yaşayan xristian və yəhudilər zimmi sayılırlar. Çünki onlar Həzrət Musa və İsa Peyğəmbərlərin (ə) ümmətidirlər. Bu

dinlər ilahi mənşəlidir, lakin sonralar təhrif edilb dəyişdirilmişdir. Bəzi alimlər atəşpərəstləri də Zərdüşt Peyğəmbərin ümməti hesab edib, əhli-zimmədən saymışlar.

İslam qanunlarına görə, müsəlman dövlətində yaşayan əhli-zimmənin öz dinini, dilini, adət-ənənəsini, geyim tərzini qoruyub-saxlamaq hüququ vardır. Onların canı, əmlakı, namusu və heysiyyəti tamamilə qorunur. Lakin zimmilər İslam dininə ehtiramla yanaşmalı və yaşadıqları müsəlman dövlətinin mənafeyinə zidd olan fəaliyyət göstərməməlidirlər. Bu şərtlər daxilində müsəlmanlar onlara qarşı dözümlü davranmalıdırlar. Zimmilər İslam dövlətinə *cizyə* adlı vergi ödəyirlər. Əvəzində isə müharibə və sair fəlakətlər zamanı müsəlman qoşunu onları düşməndən qoruyur. Zimmilər də hərbi xidmətə yazıla bilərlər; bu zaman onlar cizyədən azad edilirlər. Dini ədəbiyyatda əhli-zimməyə *«əhli-kitab»* da deyilir (səmavi kitaba əsaslanan dinə mənsub olduqlarına görə).

N.R.

ZİNA

Qadınla kişinin kəbin kəsilmədən cinsi əlaqədə olmaları. İslam dininə görə zina böyük günahlardan sayılır. Qurani-kərimdə və hədislərdə zinanin özü qadağan olduğu kimi, zinaya gətirib-çıxaran davranışlar da qadağan edilir.

A.Q.

ZİYARƏT

Ehtiram məqsədilə hər hansı şəxsin görüşünə və ya hər hansı müqəddəs məkana getmək. Ziyarət edənə zəvvar, ziyarət edilən məkana ziyarətgah deyilir. Geniş anlamda atanın, qohum-qonşuların, dostların, həmçinin, böyük din alimlərinin, övliyaların görüşünə getməyə ziyarət deyirlər. Hədislərdə xüsusilə, xəstələri ziyarət etmək barədə çox təkid edilib. Həzrət Mühəmməd Peyğəmbər (s) buyurdu ki, Allah xatirinə bir xəstəni və ya öz müsəlman qardaşını ziyarət edən kəs cənnətdə özünə yer qazanmış olur. İslam əxlaqında yaxın və uzaq qohumlarla sıx rabitə saxlamaq ən vacib əmrlərdən və böyük savablardan sayılır (bax: *sileyi-rəhim*).

Hədislərdə buyurulur ki, hər kim öz din qardaşının haqqına riayət etmək naminə onun ziyarətinə getsə, hər addımında Allah onun *əməl dəftərinə* bir savab yazar və bir günahı oradan silər, o adamın məqamını da bir dərəcə yüksəldər. O, getdiyi evin qapısını çalanda səmanın qapıları üzünə açılar. Ev sahibi ilə onun ziyarətinə gələn adam əl verib qucaqlaşanda Allah onların hərəkətini mələklərə nümunə göstərər və vəd edər ki, onların hər ikisinə cəhənnəm əzabından aman verəcək. Həmin şəxs öz din qardaşının ziyarətindən qayıdanda aldığı hər nəfəsdə və atdığı hər addımda mələklər onu müşayiət edərlər. O adam gələn ilə kimi bəlalardan və axirət əzabından amanda qalar.

Qohumlar, qonşular və dostlar dünyadan gedəndən sonra onların qəbirləri ziyarət edilər. Hətta hədislərdə buyurulduğuna görə, müsəlmanların bir-biri üzərindəki haqlarından biri də budur ki, onlardan hər hansı biri vəfat etsə, sağ olanlar onun qəbrini ziyarət etsinlər. Qəbir ziyarəti zamanı mərhumun ruhuna rəhmət diləmək, günahlarının bağışlanması üçün Allaha dua etmək, Ya-Sin, Fatihə və İxlas surələrini oxuyub savabını mərhumun ruhuna bağışlamaq lazımdır. İslam ənənəsinə görə, bayram günlərində hər kəs öz yaxınlarının qəbrini ziyarət edir, onların məzarlarını səliqəyə salır. Həzrət Mühəmməd Peyğəmbər (s) buyururdu: «Hər kim cümə günlərində ata-anasının məzarını ziyarət etsə və orada Ya-Sin surəsini oxusa, oxuduğu hər hərfə görə Allah onun bir günahını bağışlayar və ona bir savab yazar».

İnsan öldükdən sonra onun əməl dəftəri bağlanır. O, savaba layiq heç bir əməl etməyə qadir deyil. Buna görə də, ölünün ruhu həmişə kənardan göndərilən «hədiyyəyə» möhtacdır. Mərhumun yaxınları onun məzarını ziyarət edib ruhuna rəhmət oxuyanda, xeyirli bir iş görüb savabını ona bağışlayanda, bu, mərhumun ruhu üçün gözəl bir hədiyyə olur.

Qəbirləri ziyarət etmək həm də insanın əxlaqına müsbət təsir göstərir. İnsan məzarlığa daxil olanda dünyanın faniliyini, hər kəsin ölümə məhkum olduğunu bir daha xatırlayır, qəbir əzabını, qiyaməti və axirət dünyasını düşünür, etdiyi əməllər barədə özünə hesabat verir, günah və savablarını ölçür. Bu mənada səssiz-səmirsiz qəbir daşları ziyarətə gələn adam üçün ən gözəl nəsihətçidir.

Rəvayət edirlər ki, İmam Əli ibn Əbu Talib (ə) Siffeyn savaşından qayıdanda, Kufə yaxınlığındakı qəbristanlığa çatıb belə buyurdu: «Ey vəhşətli, ot-ələfsiz, susuz yerdə, zülmət qəbirlərdə yatanlar! Ey torpaq əhli! Ey qəriblər! Ey tənhalar! Ey vəhşət içində olanlar! Siz bizdən irəli düşdünüz, tezliklə sizin arxanızca biz də gələcəyik. Bilin ki, siz öləndən sonra evlərinizdə başqaları sakin oldu, arvadlarınızı başqaları aldı, mal-dövlətinizi bölüşdürdülər. Bu, bizim bildiklərimizdir. Bəs, sizdə hansı xəbərlər var?». Sonra İmam üzünü yanındakılara tutub buyurdu: «Əgər onların danışmaq icazəsi olsaydı, mütləq sizə deyərdilər ki, o biri dünya üçün ən yaxşı azüqə – təqvadır» *(Nəhcül-bəlağə, 126-cı hikmətli kəlam)*.

Daha dar mənada müqəddəs sayılan hər hansı məkana (pirə, ocağa) və ya Allah dostlarından birinin məzarı üstünə getmək də ziyarət sayılır. Bu zaman orada dəfn edilən şəxsin ruhuna dualar oxunur, rəhmət deyilir. Dini kitablarda yazılan ziyarətnamə adlı duaları həmin yerlərdə oxumağın böyük savabı var. Müqəddəs şəxslərin məzarı üzərində və ya onun yaxınlığında məscid binası varsa, orada ibadət etmək və namaz qılmaq da olar. Adətən, həmin yerlərdə iki və ya daha artıq rükət namaz qılıb, bunun savabını dəfn olunan şəxsin ruhuna hədiyyə edirlər (buna ziyarət namazı deyilir və adi gündəlik namazlar kimi qılınır).

Ziyarətgahlarda dua etmək və Allahdan arzu diləmək də olar. Həmin yerlər müqəddəs sayıldığı üçün, orada edilən duaların daha tez *müstəcab* olmaq ehtimalı var. Lakin buna diqqət yetirmək lazımdır ki, edilən dualar yalnız və yalnız Allaha ünvanlanmalıdır. Duaları müstəcab edən, arzuları həyata keçirən Allahdır. Müqəddəs insanların ruhu yalnız bunun üçün vasitəçi ola bilərlər. Onlar öz-özlüyündə, Allahın icazəsi olmadan heç bir duanı reallaşdıra bilməzlər. Ziyarətgahlarda bu şəkildə dua etmək lazımdır: «İlahı, burada dəfn olunmuş müqəddəs insan Sənin sevimli bəndəndir. Onun ruhu xatirinə, mənim filan duamı müstəcab et!».

Ziyarətin bəzi qaydaları (ədəbləri) var. Ziyarətə getməzdən əvvəl müstəhəb qüsl almaq, səliqəli və təmiz paltar geyinmək, ətir vurmaq məsləhətdir. Qadınlar heç olmazsa, ziyarətgaha daxil olanda mütləq başlarını örtməlidirlər. Ziyarətgahlarda ehtiramla davranmaq, sakitliyə riayət etmək lazımdır, müsəlman düşüncəsinə, İslam ənənəsinə yad olan mövhumatçı hərəkətlərə yol vermək olmaz. Çox təəssüf ki, bəzi ziyarətgahlarda məzarın ətrafına Kəbə kimi *təvaf* edir (fırlanır), şam yandırır, niyyətlərinin həyata keçməsi üçün divarlara qənd və pul yapışdırır, tavandan asılan zəncirin üstünə yaylıq atır və başqa bu kimi xurafatçı əməllər edirlər.

İslam ənənəsinə görə, ziyarətlərin ən şərəflisi Allah evinin – Kəbənin ziyarətidir. Bundan sonra Həzrət Mühəmməd Peyğəmbərin (s) Mədinə şəhərindəki məzarı, daha sonra Kərbəlada İmam Hüseynin (ə), Nəcəfdə Həzrət Əlinin (ə), Məşhəddə İmam Rzanın (ə), Mədinədə Bəqi məzarlığının ziyarətləri gəlir. Əsrlər boyunca bu müqəddəs məkanlar müsəlmanların ən çox ziyarət etdikləri yerlər olub.

Azərbaycan ərazisində ən məşhur ziyarətgahlar bunlardır: İmam Rzanın bacısı Həkimə xanımın *Bibiheybətdəki* məzarı, Naxçıvandakı *Əshabi-kəhf* mağarası, *Cərcis Peyğəmbərin* (ə) Beyləqandakı qəbri, Siyəzən yaxınlığındakı Xıdır-zində piri, Nardaran piri, Gəncə imamzadəsi, Mirmövsüm ağanın Şüvəlandakı məzarı və İçərişəhərdəki evi, Buzovnadakı Əli ayağı ocağı və s.

N.R.

ZÖHD

Ərəbcə «rəğbət göstərməmək, üz döndərmək» deməkdir. Təsəvvüfdə dünyaya aludə olmamaq mənasını verir. Zöhd əhlinə zahid deyirlər.

Qurani-kərimin aşağıdakı ayələlərinin zöhdə aid olduğunu bildirirlər: «Dünya həyatı aldadıcı həzzdən başqa bir şey deyil» *(Ali-İmran, 185)*. «Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyil» *(Ənam, 32)*. Zöhdün mənası müxtəlif cür izah olunur: haramdan üz döndərmək; halala qarşı rəğbət duymaq; özünə çatan miqdardan daha azını götürməklə kifayətlənmək, qalanını kasıblara vermək. Süfyan Sövri dünya ilə bağlı istəkləri azalt-

mağı zöhd sayırdı. Cüneyd Bağdadiyə görə, zöhd – əldən çıxan bir şeyin qəlbdən də çıxması, yəni əldə olana qəlbin razı olmasıdır. Məşhur sufi Məsruqa görə isə, Allahla birgə olarkən heç bir başqa səbəbin təsirinə düşməyən şəxsə zahid deyilir.

R.M.

ZÖHR NAMAZI

Ərəb dilindən tərcümədə «günorta, günün yarısı» deməkdir. Astronomik baxımdan Günəşin zenit nöqtəsində (Yerə nisbətən ən uca nöqtədə) durduğu an zöhr adlanır. Sübh tezdən zöhr vaxtına kimi keçən müddətdə kölgələr qərb istiqamətində getdikcə qısalır. Zöhr anında kölgələr son həddə kimi qısalaraq, bundan sonra şərq istiqamətinə keçir və şərqə doğru uzanmağa başlayır.

Zöhr həm də gündəlik qılınması *fərz* (qəti vacib) olan 5 namazdan birinin adıdır. Zöhr namazı 4 rükətdən ibarətdir, birinci və ikinci rükətlərində qiraət (surələrin oxunuşu) astadan edilir *(ixfa)*.

Zöhr namazının qılınma vaxtı əhli-sünnə məzhəbinə görə, zöhr anından (kölgələrin şərqə doğru uzanmağa başladığı andan) başlayır və əşyanın kölgəsi öz boyu qədər uzanıncaya kimi davam edir. Bundan sonra *əsr namazının* vaxtı girir.

Cəfəri məzhəbində isə, zöhr namazının məxsusi vaxtı zöhr anından başlayır və zöhr namazını qılmağa bəs edəcək vaxt qədər davam edir. Bu müddət ərzində əsr namazını əda niyyəti ilə qılmaq olmaz. Amma zöhr namazı həm də əsr namazı ilə birlikdə müştərək adlandırılan vaxt intervalına malikdir. Məğrib namazına əsr namazının qılınmasına bəs edəcək qədər vaxt qalıncaya kimi həm zöhr, həm də əsr namazlarını əda niyyəti ilə qılmaq olar. Məğribə əsr namazının qılınmasına bəs edəcək qədər vaxt qaldığı anda əsr namazının məxsusi vaxtı başlayır. Cəfəri fiqhində zöhr namazının qılınması üçün müstəhəb vaxt da təyin edilib ki, bu, əhli-sünnədəki zöhr namazının vaxtı ilə eynidir. Yəni cəfəri məzhəbində zöhr namazının müstəhəb vaxtı zöhr anından başlayır, əşyanın kölgəsi özü boyda oluncaya kimi davam edir.

N.R.

ZÜNNAR

Keçmişdə İslam məmləkətlərində belə bir qanun var idi ki, xristianlar müsəlmanlardan fərqlənmələri üçün bellərinə kəmər bağlamalı idilər. Həmin kəmərə zünnar deyilirdi. Sözün yunan mənşəli olduğunu yazırlar. Bəzi mənbələrdə müsəlman ölkələrində yaşayan xristianlarla yanaşı, yəhudi və atəşpərəstlərin də zünnar bağlamalı olduqları bildirilir. Bu da məlumdur ki, hələ xristianlığın yarandığı ilk dövrlərdə bəzi keşişlər guya nəfslərini ram etmək üçün geyimin altından bellərinə yun kəmər bağlayırdılar.

Beyhəqi «əs-Sünənül-kübra»da yazır ki, zünnar bağlamaq haqqında qanun ikinci raşidi xəlifəsi Ömər ibn Xəttab tərəfindən tətbiq edilmişdi. *Qüdsü* fəth etdikdən sonra şəhər əhalisi ilə bağlanmış müqavilədə onlardan tələb edilirdi ki, müsəlmanlardan seçilmələri üçün mütləq bellərinə zünnar bağlasınlar. Bəzi tarixçilər isə bu qanunun Ömərdən xeyli sonra qüvvəyə mindiyini yazırlar.

Zünnar bağlamaq hökmünü qeyri-müsəlmanların alçaldılması kimi qəbul etmək düzgün deyil. Sadəcə olaraq, İslam şəriətinə görə, gündəlik həyat, alış-veriş, izdivac və s. məsələlərdə müsəlmanların əhli-kitabla ünsiyyəti ilə müsəlmanların öz aralarındakı ünsiyyət arasında bəzi fərqlər nəzərdə tutulub. Müsəlmanlar həmin fərqli cəhətlərə riayət etmək üçün əhli-kitabı tanımaqdan ötrü bu geyim qaydasını tətbiq etmişdilər.

Xristianların boyundan asdıqları xaçın ipinə, eləcə də, atəşpərəstlərin dini geyim elementi olan kəmərə də zünnar deyirdilər. Atəşpərəstlərin zünnarı bir-birinə toxunmuş 72 ədəd nazik ipdən ibarət idi, onu belin dövrəsinə üçqat dolayırdılar.

Bəzən yəhudilərin milli qiyafəsi sayılan, hər iki tərəfdə qulaqların üstündəki uzun saçlardan hörülən iki hörüyü də zünnar adlandırırlar.

N.R.

Qeyd:
İstifadə olunmuş ədəbiyyatın siyahısı ikinci cildin sonunda təqdim edilir.

MÜNDƏRİCAT

A
Allah 5
Abid 6
Adət 7
Axirət 7
Axund 7
Amәntü 8
Amin 8
Arif 8
Ayat namazı 9
Ayə (ayət) 9
Ayətullah 10
Ayətül-kürsi 10
Azan 11

B
Bab 11
Bain talaq 11
Batil 11
Bayram namazı 12
Behişt 12
Beyət 12
Beyətür-rizvan 12
Beytül-mal 12
Bəda 13
Bələdül-əmin 14
Bərat gecəsi 14
Bərzəx 14
Bəsirət 14
Bəsmələ 15
Bətul 16
Bəzmi-ələst 16
Bidət 17
Bisət (besət) 17
Böyük günahlar 17

C
Cadu 18
Cahiliyyə 18
Caiz 19
Camaat namazı 20
Came (cami) 20
Canamaz 20
Cariyə 21
Cəbərut aləmi 21
Cəbirə dəstəmazı 21
Cəhənnəm 21
Cəhr və ixfa 21
Cəllə cəlalühü 22
Cəm 22
Cəmrə (cəm halı: cəmərat) 24
Cənabət 24
Cənazə namazı 24
Cənnət 25
Cərh və tədil 26
Cəzb (cəzbə) 26
Cihad 26
Cihadi-əkbər 26
Cin (əslində cinn) 26
Cizyə 27
Cümə namazı 28
Cünüb 29
Cüz 29

Ç
Çavuş 29
Çərəkə 29
Çillə 30

D
Dabbətül-ərz 31
Darül-hərb 31
Darül-islam 31
Dəlil 31
Dərgah 32
Dərviş 32
Dəstəmaz 32
Divan 33
Divan qurumları 33
Diyə 34
Donuz əti 35
Dua 35

E
Ecaz 36
Ehram 37
Ehsan (ihsan) 38
Ehtilam 38
Ehtiyat 38
Elmül-yəqin 39
Etikaf 39
Eydül-əzha 40
Eynül-yəqin 40

Ə

Əba 40
Əbabil quşları 40
Əbcəd 41
Əbd 42
Əbül-vəqt 42
Əcəl 43
Əcəm 43
Əcr 43
Əda 44
Ədalət 44
Ədəb 44
Ədl 44
Əhkam 46
Əhsənüt-təqvim 46
Əxbar 46
Əxlaq 47
Əqaid 47
Əqd 47
Əqiqə 47
Əleyhis-səlam 48
Ələm 48
Əlli dörd fərz 48
Əmanət 49
Əməl dəftəri 50
Əmirül-möminin 50
Əmmamə 51
Əmr bil-məruf və nəhy ənil-münkər 51
Ənəl-həqq 52
Ənsab 52
Ənsar 52
Əraf 52
Ərbəin 53
Ərbəun (və ya ərbəin) 53
Ərəfə 54
Ərş 54
Əsbabün-nüzul 54
Əshab 55
Əsmaül-hüsna 55
Əsr namazı (ikindi namazı) 56
Əsri-səadət 56
Ətbaüt-tabiin 56
Əzadarlıq 56
Əzlam 56

F

Faili-muxtar 57
Fal 57
Fasiq 58
Fəcr namazı 58
Fəqih 58
Fəqir 58
Fəna 59
Fəraiz 59
Fərsəx 59
Fərz 60
Fəsad 60
Fətva 60
Fəzilət 60
Fidyə 61
Fiqh 61
Fisq 62
Fitrə zəkatı 63
Fitrət 64
Fürqan 65
Füruüd-din 65

G

Gecə namazı 66
Gözdəymə 67
Günah 67
Günbəz 67

H

Hacət namazı 68
Hafiz 69
Hal 69
Halal 69
Haram 69
Helm 70
Heyz 70
Həbəşistana hicrət 71
Həcc 71
Həd cəzaları 72
Həddi-büluğ 73
Hədis 73
Hədisi-qüdsi 77
Həqiqət 78
Həqqül-yəqin 78
Həmd 78
Hənif 79
Hənut (hünut) 79
Hərəkə 79
Hərəm 80
Hərvələ 80
Həsənə 80
Həşr 81

Hicab 81
Hicrət 81
Hicri təqvim 83
Hidayət 84
Hikmət 85
Hilal (aypara) 85
Hilfül-füzul 86
Hilyə (hilyeyi-şərifə) 86
Hizb 86
Hökm 86
Huri 87
Hu 87
Hüccət 87
Hüccətül-islam 88
Hücrə 88
Hülul 88
Hüsni-zənn 89

X

Xanəgah 89
Xatəmül-ənbiya 90
Xəlifə 91
Xəlvət 91
Xəmr 92
Xənnas 93
Xətm 93
Xilafət 93
Xirqə 94
Xovf və rəca 95
Xül talağı 96
Xüms 96
Xüsuf namazı 97
Xütbə 97
Xütnə 98

İ

İbadət 98
İcazə (icazət) 101
İcma 101
İctihad 102
İddə 103
İftar 103
İxfa 104
İxlas 104
İqamə 104
İqtida 105
İla 105
İlhad 105
İlham 105
İmam 106
İmamət 106
İman 107
İmsak 109
İnfaq 109
İnsani-kamil 109
İradə 109
İrfan (və ya ürfan) 110
İrhas 111
İrşad 111
İrtidad 111
İslam 112
İslam fəthləri 113
İsmət 117
İsmi-əzəm 117
İsra 118
İsrailiyyat 118
İstiazə 118
İstibra 118
İstihazə 118
İstihsan 119
İstixarə 119
İstiğfar 121
İstimna 121
İstishab 122
İstisqa 122
İstiva 122
İşa namazı 122
İtrət 123
İyla (ila) 123

K

Kafir 124
Kafur 124
Katib mələklər 124
Kəbair və kəbirə 125
Kəfən 125
Kəffarə 125
Kəlam 126
Kəlmeyi-şəhadət 126
Kəlmeyi-teyyibə 127
Kəramət 128
Kəşf 128
Kəşkül 128
Kiramən katibin 128
Küfr 128
Künyə 128
Küsuf namazı 129

Q

Qabü qovseyn 129

Qalu bəla 129
Qare 129
Qazi (əslində ğazi) 130
Qazi 130
Qeyb (əslində ğeyb) 130
Qeybət 131
Qəbir əzabı 131
Qədər 132
Qəlb 132
Qələndər 133
Qəribül-quran 134
Qəsb 134
Qəsidə 134
Qəsr 135
Qəza 135
Qəzavət 135
Qəzf 136
Qəzvə (əslində ğəzvə) 137
Qılman (əslində ğılman) 137
Qırx hədis 137
Qiblə 137
Qiraət 138
Qisas 138
Qiyam 138
Qiyam bi-nəfsihi 139
Qiyamət 139
Qiyamət əlamətləri (axir-əz-zaman əlamətləri) 139
Qiyas 140
Qövs (əslində ğövs) və qütb 140
Quran 140
Quranın qədim ya hadis olması məsələsi 142
Quranın təhrifi məsələsi 144
Qurban 146
Qüddisə sirruhü 146
Qünut 147
Qürbətən iləllah 147
Qüsl (əslində ğüsl) 147
Qütb 148

L

Lahut aləmi 148
Laməkan 148
Ləbbeyk 148
Lədün elmi 149
Lənət 149
Ləvat 149
Lian 149
Lövhi-məhfuz 149

M

Masiva 150
Maşallah (maşa-allah) 150
Mehr (mehriyyə) 150
Mehrab 150
Merac 150
Meyit namazı 152
Meysir 152
Məad 152
Məcusi 153
Məddah 154
Mədrəsə 154
Məğfirət 155
Məğrib namazı 155
Məhrəm 156
Məhşər 157
Məkruh 158
Məqam və hal 158
Məqami-mahmud 160
Məkki və mədəni ayələr 160
Məlami 161
Mələk 161
Mələkə 162
Mələkut aləmi 162
Mələkül-mövt 163
Məndub 163
Məni 164
Mənqəbə 164
Mənn və səlva 164
Mənasik 165
Mərceyi-təqlid 165
Mərifət 166
Mərsiyə 166
Məsalihi-mürsələ 166
Məscid 167
Məsh 167
Məsihi 167
Məsiyət 167
Məst 167
Məsum 167
Məzhəb 169
Məzi 169
Miqat 169
Minarə 169
Minbər 170
Miras 171
Misqal 171
Misvak 171
Mizan 172
Moizə 172

Molla 172
Möcüzə 172
Möhkəm və mütəşabeh ayələr 174
Mömin 175
Möhür 175
Mövla 175
Mövlid (mövlud) 175
Mövlidnamə (mövludnamə) 176
Mübah 177
Mübahilə 177
Mübarat talağı 178
Mücahid 178
Müctəhid 179
Müdd 179
Müəlləfətül-qülub 179
Müəzzin 179
Müfəssir 179
Müfti 180
Mühacir 180
Mühəddis 180
Mühəzrəmun 180
Müxaləfətün lil-həvadis 181
Müksirun və müqillun 181
Müqəllid 182
Müqərrəbun 182
Müqəttəə hərflər 182
Müqillun 183
Mülhid 183
Mümkünül-vücud 183
Münafiq 183
Münəccim 184
Mürdəşir (mürdəşur) 185
Mürid 185
Mürşid 185
Mürtəd 185
Müsəlman 185
Müshəf 186
Müsnəd 187
Müstəcab 187
Müstədrək 187
Müstəhəb (müstəhəbbi) 188
Müşrik 188
Mütə nikahı 188
Mütəkəllim 188
Mütəşabeh 188

N

Nafilə 189
Naib 189
Namaz 190
Naməhrəm 191
Nasut aləmi 192
Nəbi 192
Nəcəs 192
Nəfəqə 193
Nəfs 193
Nəhy ənil-münkər 194
Nəleyn 194
Nəsəb 194
Nəsx, nasix və mənsux 195
Nəsi 196
Nəss 196
Nət 196
Nəzər ayəsi 197
Nəzir 197
Nifaq 198
Nifas 199
Nikah 199
Nisa təvafı 199
Nisab 199
Niyyət 200
Növhə 200
Nübüvvət 201
Nücum 201

O

Oruc 203

Ö

Övliya 205

P

Peyğəmbər 205
Pir 208
Pişnamaz 208

R

Ramazan bayramı 209
Ravi 210
Rəbb 210
Rəca 211
Rəcəz 211
Rəcim 211
Rəcm 211
Rəğaib gecəsi 212
Rəhil 212
Rəhmətən lil-aləmin 212
Rəml və cifr (və ya cəfr) 212
Rəmyi-cəmərat 213
Rəsul 214

Rəsulüllah 214
Rəy 215
Rəziallahü ənh 215
Rəzilət 215
Riba 216
Ribat 217
Rical 217
Ricət 218
Rici talaq 218
Risalə 218
Risalət 219
Riya 219
Riyazət 219
Riza 219
Rizvan beyəti 220
Rövzəxan 220
Röyətullah 220
Ruh 222
Ruhul-qüds 223
Ruzi 223
Rükət 224
Rükn 224
Rüku 224

S

Salavat 225
Savab 226
Sehr və cadu 226
Seyrü-süluk 227
Seyid 228
Səbil 229
Səbül-məsani 229
Səcavənd 229
Səccadə 230
Səcdə 230
Sədəqə 230
Səfər 230
Səhabə 231
Səhih hədis 232
Səhur 232
Səhv səcdəsi 232
Səqəleyn 232
Səlat 233
Səlbiyyə sifətləri 233
Sənəd 233
Səriyyə 234
Sətri-övrət 234
Səy 235
Sidr 235
Sidrətül-müntəha 235
Siğə (mütə) 235
Siqqətül-islam 238
Sileyi-rəhim 238
Sima (sima') 238
Sirat 240
Siyər 240
Siyrə 240
Sufi 241
Sur 245
Surə 245
Sübh namazı 245
Sübutiyyə sifətləri 245
Sünnə 246
Sünnətullah 247

Ş

Şahid 247
Şeyx 247
Şeyxül-islam 247
Şeytan 249
Şəbih 249
Şəcərə 249
Şəf namazı 249
Şəfaət 249
Şəhadət 251
Şəhid 252
Şəqqül-qəmər 252
Şəmail 253
Şəriət 254
Şirk 255
Şövt 255
Şura 256
Şükr 257
Şükr səcdəsi 258

T

Tabiin 258
Tağut 258
Talaq 258
Təbei-tabiin 259
Təbəqə 259
Təbərra 260
Təbərrük 260
Təcəlli (təcəlla) 260
Təcvid 261
Tədil 261
Təfsir 261
Təharət 263
Təhəccüd namazı 263
Təhiyyat 263

Təkbir 263
Təkbirətül-ehram 264
Təkfir 264
Təkyə (təkkə) 264
Təqiyyə 264
Təqlid 264
Təqsir 265
Təqva 266
Təlbiyə 267
Təlqin 267
Tənasüx 267
Təravih namazı 268
Təriqət 269
Tərki-övla 270
Tərtil 271
Tərviyə 271
Təsbih (və ya təsbeh) 272
Təsəvvüf 272
Təsəvvüf terminləri 275
Təslis 278
Təşəhhüd 279
Təşriq günləri 279
Təvaf 279
Təvazö 280
Təvəkkül 281
Təvəlla və təbərra 282
Təvəssül 282
Təvil 284
Təyəmmüm 284
Təzir 285
Təziyə 286
Təzkiyə 286
Tilavət 287
Tilsim (əslində tilism) 287
Tövbə 288
Tövbeyi-nəsuh 289
Tövhid 289
Türbə 290
Türbət 291

Ü

Ücb 292
Üç mübarək ay 292
Üxüvvət 292
Ülul-əmr 293
Ülul-əzm 293
Ümmət 293
Ümmi 294
Ümmül-kitab 295
Ümrə 295
Ürf 295
Ürfan 295
Üsulüd-din 295
Üsulüt-təfsir 296
Üsvətül-həsənə 296

V

Vacib 296
Vacibül-vücud 297
Vahid xəbər 297
Vəhdəti-vücud 297
Vəhy 298
Vəqf 298
Vəqfə 299
Vəlayət 299
Vərə 300
Vəsi (vəsiyy) 300
Vəsvəsə 300
Vəz 300
Vida həcci 301
Vida xütbəsi 302
Vird 303
Vitr namazı 303

Y

Yeddi hərf 304
Yədi-beyza 304
Yəqin 305
Yövmüd-din 306
Yövmüş-şəkk 306

Z

Zahid 307
Zəif hədis 307
Zəkat 307
Zəlalət 308
Zərih 308
Zəvvar 308
Zındıq 308
Zihar 308
Zikr 308
Zimmi 309
Zina 310
Ziyarət 310
Zöhd 311
Zöhr namazı 312
Zünnar 312

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Yığılmağa verilmiş **05.01.2012.**
Çapa imzalanmış **24.01.2012.**
Şərti çap vərəqi **20.** Sifariş № **09.**
Kağız formatı **70x100 1/16.** Tiraj **1000.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.